**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

**Tahir Şamil oğlu Baxşəliyev**

# Slavyan ölkələri tarixi
***1917-2015***

**Ali məktəblərin bakalavriat səviyyəsi üzrə**
**“050206 – Tarix” ixtisası üçün dərslik**

*Azərbaycan Respublikası Təhsil nazirinin 10.02.2016-cı il tarixli 76 saylı əmri ilə təsdiq edilmişdir.*

**Bakı – 2016**

**Elmi redaktor:** **t.e.d., prof. H.N.MƏMMƏDOV**

**Rəyçilər:** **t.e.n., dos. A.H.CƏLİLOV**
**t.e.n., dos. A.Ş.ŞAHMURADOV**

**Baxşəliyev T.Ş. Slavyan ölkələri tarixi. 1917-2015-ci illər. Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik.** Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2016, 372 s.

Dərslikdə tarix elminin müasir tələbləri nəzərə alınmaqla Slavyan ölkələri tarixinin 1917-2015-ci illərdəki əsas hadisə və prosesləri xronoloji ardıcıllıqla işıqlandırılır. XX əsrin 90-cı – XXI əsrin əvvəllərində yeni yaranıb inkişaf edən müstəqil Slavyan dövlətlərinin yaxın tarixi şərh edilir.

Dərslik ali məktəb tələbələri və Slavyan ölkələri tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.

$\mathbf{B}\frac{\mathbf{0503010000}}{\boldsymbol{M}\mathbf{-658(07)}}\mathbf{2016}$

*© "Bakı Universiteti" nəşriyyatı, 2016*

*1937-ci ildə repressiya qurbanları kimi güllələnən, ölümlərindən sonra bəraət alan əmilərim Baxşəlibəy, Cümşüdbəy, Firudinbəy, Paşabəy Baxşəlibəyovların əziz və unudulmaz xatirələrinə ithaf edirəm.*

## GİRİŞ

Hind-Avropa xalqları qrupuna məxsus olan slavyanlar və ya tarixin yaddaşının dərin qatlarına hopmuş mənbələrdəki ehtimal olunan adları ilə antlar, sklavinlər, venetlər Mərkəzi, Cənub-Şərqi Avropanın, sonralar Asiyanın bir hissəsinin yerli və əsas sakinlərindəndir. Yüzilliklər boyu ümumdünya və Azərbaycan tarixi ilə sıx təmasda olan slavyan xalqlarının tarixinin öyrənilməsi "tarix həyatın müəllimidir" dərin aforizmi unutmamaqla olduqca aktual və vacibdir.

Bəhs etdiyimiz bu tarixin səhifələri slavyanların həyat mücadiləsi, igidlik və nikbinlik hissləri, heç bir çətinlik qarşısında diz çökməmək, keçmişdən dərs alıb ümidlə gələcəyə baxmaq kimi əməli fəaliyyət və arzularla doludur. Bəşər övladının topladığı bu təcrübənin ümumiləşdirilməsi və öyrənilməsi insanların özünü dərk etməsi formalarından olan tarixin qarşısında duran əsas vəzifələrdəndir. Görkəmli rus tarixçisi V.O.Klyuçevski (1841-1911) "Rus tarixinin kursu" əsərində qeyd edirdi ki, həyat tarixi öyrənməyənləri daha çox cəzalandırır. Başqa sözlə keçmişdən, tarixdən yan keçərək yeni dünya qurmaq mümkün deyildir.

Məskunlaşdıqları ərazi, tarixi-coğrafi mövqeyinə və etnik tərkibinə görə slavyanlar Şərq, Qərb və Cənub qrupuna bölünür. Rus, ukrayna, belaruslar Şərq, polyak, çex, slovaklar Qərb, bolqar, serb, sloven, xorvat, boşnak, qaradağ və makedonlar Cənub slavyan qrupuna daxildir.

Birinci Dünya müharibəsi və xüsusilə müharibənin son mərhələsi slavyan xalqlarının ümumdünya tarixi prosesindəki mövqeyində və rolunda əsaslı dəyişiklərə səbəb oldu. Belə ki, müharibə Rusiyadakı daxili böhranı dərinləşdirərək, 1917-ci ildəki Fevral və Oktyabr hadisələrinə təkan verdi. Oktyabr silahlı üsyanı nəticəsində Şərq slavyanlarının məskunlaşdığı rus, ukrayna, belarusların torpaqlarında yeni bir quruluş – sosializm, yeni bir dövlət – SSRİ bərqərar oldu. 70 ilə yaxın mövcud olan SSRİ dövlətinin keçdiyi tarixi yol sinfi mübarizə, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə, yeni iqtisadi siyasət, sovet dövlət aparatının yaradılması, sənayeləşdirmə, kollektivləşdirmə, mədəni inqlab, mürəkkəb beynəlxalq vəziyyət və Sovet dövlətinin xarici siyasəti, İkinci Dünya müharibəsi və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsi, müharibədən sonra ölkənin xalq təsərrüfatının bərpası və inkişafı, partiya və dövlətin idarə edilməsində mülayimləşmə xətti, Sovet İttifaqının hərbi və müdafiə gücünün möhkəmlənməsi, atom və nüvə enerjisi, təhsil, elm, texnika, mədəniyyət, bədii təsviri sənətin inkişafı kimi mühüm işlərlə zəngindir.

Başqa bir tərəfdən rus, ukrayna, belarusların digər xalqlarla birlikdə daxil olduğu SSRİ-nin tarixi oğulun ataya, qardaşın qardaşa güllə atdığı, repressiya, təqib və təzyiqin hökm sürdüyü, hakimiyyət uğrunda amansız mübarizə və çəkişmənin getdiyi, inzibati-amirlik metodlarla idarə olunan totalitar cəmiyyətin bərqərar olduğu, sosializmin nailiyyətlərinin milyonlarla sıravi sovet vətəndaşlarının həyatı bahasına başa gəldiyi, kommunist partiyasının diktaturasının və həqiqətdən uzaq sovet demokratiyasının həyatın sınağından keçməyərək tükəndiyi və nəticədə SSRİ-nın süquta uğradığı kəşməkeşli, məşəqqətli və ziddiyyətli bir yoldur.

Bu yolun sonunda SSRİ-nin dağılması sayəsində ölkənin digər xalqları kimi rus, ukrayna, belaruslar da öz müstəqilliklərini bəyan edərək, çoxpartiyalı sistem əsasında siyasi fəaliyyətin mövcud olduğu bazar iqtisadiyyatlı, xarici siyasətdə bərabərhüquqlu tərəfdaşlığın elan edildiyi, azad və demokratik cəmiyyətə doğru yola çıxdılar.

Birinci Dünya müharibəsinin sonları Qərb və Cənub slavyanlarının milli-azadlıq mübarizəsinin artması ilə müşayiət olunur. Bu mübarizənin nəticəsində 1918-ci ildə Polşa, Çexoslovakiya, Serb-Xorvat-Sloven krallığı kimi müstəqil slavyan dövlətləri meydana gəldi. Çoxpartiyalı sistem əsasında təşkil olunan milli hökumətlər 30-cu illərdə Avropada tüğyan edən hitler faşizmi ilə Kommunist partiyası diktaturasının və totalitar sovet rejiminin mövcud

olduğu SSRİ arasında sıxışıb qalmışdı. İkinci Dünya müharibəsi dövründə gah Almaniya, gah da Sovet İttifaqı tərəfində yer alan Qərb və Cənub slavyan dövlətləri özləri də ciddi canlı, maddi və mənəvi itkilərlə üzləşmişdilər. Eyni zamanda çoxlu itkilər verməsinə baxmayaraq, slavyan xalqının böyük əksəriyyəti işğalçılara qarşı Avropada əsl müqavimət hərəkatı təşkil edərək mərdlik və mübarizlik simvoluna çevrilmişdi.

Müharibə başa çatdıqdan sonra SSRİ-nin iradəsilə 1944-1948-ci illərdə xalq demokratiyası yoluna qədəm qoyan Cənub-Şərqi və Mərkəzi Avropanın slavyan dövlətləri tezliklə sovet modelli "real sosializm" istiqaməti qəbul edərək 80-ci illərin sonu – 90-cı illərin əvvəllərinə kimi Sovet siyasi-iqtisadi və hərbi blokunun əlavəsinə çevrilmişdi. Zaman-zaman bu mürəkkəb sosializm quruculuğu yolunda Çexoslovakiyadakı 1948-ci il Fevral hadisəsi, 1968-ci il "Praqa baharı", Polşadakı 1956-cı ilin iyununda Poznan və 1970-ci ilin dekabrında Qdansk, Elblonq, Şetsin fəhlələrinin atəşə tutulması, Qərb və Cənub slavyan dövlətlərində qol gəzən kommunist terroru və repressiyalar tarixin gedişinə öz mənfur damğasını vurmuşdur.

Bütün bu ağırlığa dözməyərək həyatın sınağından çıxa bilməyən "real sosializm" modeli 80-ci illərin sonu-90-cı illərin əvvəllində dərin böhran keçirərək "zərif və dinc" inqilab nəticəsində dağıldı. Onun yerində Qərb və Cənub slavyan xalqlarının çoxpartiyalı siyasi sistemi və iqtisadi bazar rəqabətinə cavab verən, xarici siyasət sahəsində NATO və Avropa İttifaqına üz tutan, həqiqi demokratiyanın mövcud olduğu müstəqil dövlətlər meydana gəldi.

Şərq, Qərb və Cənub slavyanlarının təmsil etdiyi dövlətlərin müasir tarixinin bütün bu mürəkkəb, müsbət və mənfi hadisələrlə zəngin yolunu, slavyan xalqlarının şücaət, əzimkarlıq, inam və mübarizəsi ilə müşayət edilən keçmişini təqdim etdiyimiz "Slavyan ölkələri tarixi. 1917-2015" adlı dərslikdə mümkün olduğu qədər işıqlandırmağa cəhd etmişik.

**MÜƏLLİF**

# I BÖLMƏ

# ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİ 1917-2015-ci İLLƏRDƏ

## Rusiya, Ukrayna və Belarus dövlətləri

### Rusiya 1917-ci il Fevral inqilabından Oktyabra doğru

***Fevral inqilabı. İkihakimiyyətliliyin yaranması.*** XX əsrin əvvəllərində Rusiyada elə bir iqtisadi və siyasi şərait əmələ gəlmişdi ki, bu şərait ölkədə inqilabi partlayışın yaxınlaşmaqda olduğunu göstərirdi. Birinci Dünya müharibəsi dünya silsiləsində ən zəif yer olan Rusiyaya xüsusilə ağır təsir edirdi. Müharibə və təsərrüfat dağıntısı ölkədə kəskin narazılığa səbəb olurdu.

Müharibə illərində Rusiyanın ingilis-fransız kapitalından iqtisadi asılılığı daha da artmışdı. Hərbi xərclər, ölkənin maliyyə sisteminin pozulması bu asılılığı gündən-günə artırırdı. Çar hökuməti geyim, dərman, cihaz, sənaye avadanlığı, paravoz, vaqon, avtomobil və s. üçün xarici ölkələrə sifariş vermişdi. Xaricə verilən sifarişlərin qiyməti çox böyük məbləgə çatırdı. Təkcə hərbi idarə xarici ölkələrə 3,2 milyard manatlıq sifariş vermişdi. Çar Rusiyasının İngiltərəyə borcu 1917-ci ilin fevralında 7,5 milyard manata çatmışdı, bu da Rusiyanın müharibənin əvvəlindəki büdcəsindən iki dəfədən də çox idi. Rusiyanın Fransaya borcu 5,5 milyard manat idi. Xaricə verilən hərbi sifarişlər və xarici borclarla bağlı olaraq Rusiyanın dövlət borcu 4 dəfə artmışdır.

Arxada təsərrüfat dağıntısı hökm sürürdü. Kömür və neft hasilatı aşağı düşürdü. Yanacaq çatışmadığına görə zavodlar daynırdı. Təkcə Petroqradda 50-dən çox müəssisə dayanmışdır. Təsərrüfatın dağılmasının ən mühüm səbəblərindən biri nəqliyyatdakı böhran idi. Dəmir yol şəbəkələri və nəqliyyat vasitələrinin üçdəbir hissəsi cəbhənin ixtiyarına keçmişdi. 1916-17-ci ilin qışında qar altında 60 mindən çox arxa cəbhə üçün nəzərdə tutulan yüklə dolu vaqon qalmışdır. Bu ərzaq böhranının kəskinləşməsinə səbəb oldu. Ordu öz normasının ancaq yarısı miqdarında ərzaq alırdı. Çörək mağazalarının qabağında ac adamların uzun növbələri düzülmüşdü.

Müharibə illərində kənd təsərrüfatının məhsuldarlığı son dərəcə aşağı düşmüşdü. 14 milyonadək adam və ya yaşlı kişi əhalinin 47%-i orduya səfərbərliyə alınmışdı. Atların və mal-qaranın fasiləsiz olaraq müsadirə edilməsi və xüsusilə iş qabiliyyətli gənc əhalinin orduya getməsi kənd təsərrüfatının məhsuldar qüvvələrini sarsıtmışdı. Əkin sahələri müharibədən əvvəlki illərə nisbətən xeyli azalmışdı. Taxıl toplanışı 1916-1917-ci illərdə 2,1 milyard puddan 1,1 milyard puda enmişdi.

Müharibə illərində fəhlə sinfinin tərkibində əmələ gələn dəyişiklik, iqtisadiyyatın ümumi böhranlı vəziyyətinin mühüm səbəblərindən biri idi. İş qabiliyyəti yüksək olan fəhlələrin təqribən 40%-i orduya çağırılmışdı. Müharibə illərində ümumən orduya 15,8 mln. adam səfərbər edilmişdir, 1917-ci ilə doğru ölən, yaralanan, əsir düşən əsgərlərin sayı 9 mln.nəfərə çatırdı.

Zavod və fabriklərdə orduya səfərbər edilən işçilərin yerini qadınlar və yeniyetmələr tutdu. Onlar fəhlələrin 40%-ni təşkil edirdilər ki, bu isə məhsul istehsalının kəskin aşağı düşməsinə səbəb oldu. Müharibə dövrünün qanununa müvafiq olaraq iş günü artırılaraq 14-16 saata çatırdı. Ölkənin iqtisadiyyatı gündən-günə pisləşirdi. Bu manatın alıcılıq qabiliyyətinin kəskin aşağı düşməsində özünü göstərirdi. 1914-cü illə müqayisədə 1917-ci ilin əvvəllərində bu göstərici 27 qəpik təşkil edirdi. Bu zaman kəsiyində ərzaq mallarının qiyməti 300 faiz artmışdır. Sənaye və kənd təsərrüfatı mallarının istehsalı sürətlə aşağı düşürdü. Əhalinin yoxsul təbəqəsinin onsuz da ağır olan vəziyyəti dözülməz həddə çatmışdı.

Ümumiyyətlə, müharibə ölkədə bütün ziddiyyətləri kəskinləşdirmiş, onları aşkara çıxarmışdı. Tətil edənlərin sayı artaraq 1915-ci ildəki 550 min nəfərdən, 1916-cı ildə 1086 min nəfərə çatırdı. 1917-ci ilin əvvəlində inqilabi böhran daha da kəskinləşdi.1917-ci ilin yanvar

ayının 9-da Qanlı bazar gününün 12-ci ildönümü münasibətilə tətil "Rədd olsun müharibə!", "Çörək verin!" şüarı altında baş verdi. Təkcə Petroqradda tətilçilərin sayı 137 min nəfərdən çox idi. Petroqradda, Moskvada, Kiyevdə və başqa şəhərlərdə tətil dalğası durmadan artırdı. 1917-ci ilin yanvar-fevral aylarında 676 min fəhlə tətil etmişdir. 1917-ci il fevralın 14-də "Rədd olsun müharibə!", "Yaşasın Respublika!" şüarları altında növbəti kütləvi siyasi tətil başladı.Fevralın 17-də 36 min nəfər fəhlənin çalışdığı nəhəng artilleriya zavodu Putilovda yenidən tətil baş verdi. Fevralın 22-də zavod rəhbərliyi lokaut elan etdi ki, bu da Petroqrad fəhlələri arasında həmrəylik hərəkatının meydana gəlməsinə səbəb oldu.

Fevralın 23-də (martın 8-də) Beynəlxalq qadınlar günü münasibətilə müharibə əleyhinə başlayan mitinq tezliklə paytaxtda kütləvi tətil və nümayişə çevrildi. 128 min nəfərin iştirak etdiyi tətil hərəkatında "Rədd olsun müharibə!", "Rədd olsun mütləqiyyət!", "Çörək verin!" şüarları səsləndirildi. Tətil iştirakçıları qonşu zavodların fəhlələrini onlara qoşulmağa məcbur edirdi. Fevralın 24-də paytaxtın 224 müəssisəsində işləyən 214 min nəfərdən çox fəhlənin iştirakı ilə ümumi siyasi tətil başladı.

Fevralın 25-də Petroqradın 421 müəssisəsindən olan 305 min nəfər fəhlənin, fevralın 26-da isə 438 müəssisədən olan 306,5 min nəfər fəhlənin iştirakı ilə tətil hərəkatı polis, əsgər və kazaklarla toqquşmalara səbəb oldu. Znamensk meydanında Volınsk polkunun leyb-qvardiya rotasının əsgərlərinin açdığı atəşlə 40 nəfər nümayişçi öldürüldü, 40 nəfər isə yaralandı. Nümayişçilər küçələrdə ilk barikadalar qurdu. Paytaxtda nümayişçilərin gülləbaran edilməsindən sonra fevralın 26-da axşam Nazirlər Sovetinin sədri N.D.Qolitsın Dövlət Dumasın və Dövlət Şurasın II Nikolaya xəbər verərək aprel ayına kimi tətilə göndərdi. Petroqraddakı kütləvi çaxnaşma şəraitində imperiyanın taleyi şəhərdə olan 160 min əsgər, 3,5 min polis və bir neçə yüz nəfər kazakların mövqeyindən asılı idi.

1917-ci il fevralın 27-də (Martın 12-də) Petroqradda silahlı üsyan baş verdi. Volınsk polkunun ehtiyat batalyonunun 600 nəfərlik təlim komandası feldfebel (rota komandiri köməkçisi) T.İ.Kirpiçnikovun başçılığı ilə komandir ştab-kapitan İ.S.Laşkeviçi öldürüb üsyançılara qoşuldular. Litovsk və Preobrajensk ehtiyat batalyonlarının əsgərləri ilə birlikdə onların sayı tezliklə 20 min nəfəri keçdi.Axşama doğru üsyançılara qoşulan əsgərlərin sayı 67 min nəfər oldu. 869 müəssisədən 385 min nəfər fəhlənin iştirak etdiyi üsyan ümumxalq xarakteri aldı. İnqilabçı fəhlə və əsgərlər "Krest" həbsxanasının dustaqlarını azadlığa buraxdı. Onların arasında 1917-ci ilin yanvarında Dövlət Dumasını müdafiə etmək məqsədilə keçirilən nümayişin təşkilatçıları K.A.Qvozdyev, B.O.Boqdanov, M.İ.Broydo kimi menşevik-müdafiəçilər də var idi. Məhz onların təşəbbüsü ilə üsyançılar Dövlət Dumasının iqamətgahı Tavriya sarayına yönəldi və onu zəbt etdilər. Fevralın 27-də gündüz Dumanın Ağsaqqallar Şurasının iclasında M.V.Rodzyankonun rəhbərliyilə hakimiyyət orqanı olan Dövlət Dumasının Müvəqqəti Komitəsi yaradıldı.

Kütlə ilə birlikdə Tavriya sarayına gələn Mərkəzi Hərbi sənaye komitəsi nəzdindəki Fəhlə qrupunun üzvləri menşevik K.A.Qvozdyev, B.O.Boqdanov, Dövlət Dumasının menşevik fraksiyasının deputatları N.S.Çxeidze, M.İ.Skobelev və b. Petroqrad Sovetinin Müvəqqəti İcraiyyə Komitəsini təşkil etdilər. İcraiyyə Komitəsi zavod və əsgər hissələrində çağırış vərəqələri yayaraq onlara öz nümayəndələrini seçib Tavriya sarayına göndərməyi tapşırdı.Axşam saat 21.00-da Tavriya sarayında Dövlət Dumasının deputatları menşevik N.S.Çxeidze sədr, trudovik A.F.Kerenski, menşevik M.İ.Skobelev müavinlər olmaqla Petroqrad Fəhlə Deputatları Sovetinin birinci iclası toplandı.Martın 1-dən bu fəhlə və əsgər deputatları Soveti adlandı.

Fevralın 27-də günün ikinci yarısı inqilabçı fəhlə və əsgərlər mərkəzi poçt, teleqraf, vağzal, körpülər və başqa xüsusi yerləri ələ keçirdilər. Fevralın 28-də Petropavlovsk qalası, Admirallıq binası, Qış sarayı tutuldu.2-ci Baltik flotunun dənizçiləri və "Avrora" kreyserinin heyəti inqilabçı qüvvələrə qoşuldu.

Fevralın 28-nə keçən gecə Dövlət Dumasının Müvəqqəti Komitəsi elan etdi ki, N.D.Qolitsın hökuməti fəaliyyətini dayandırdığı üçün hakimiyyəti öz əlinə alır. Fevralın 28-də səhər Komitənin sədri M.V.Rodzyanko deputat A.A.Bublikovu Dövlət Dumasının Müvəqqəti Ko-

mitəsinin komissarı kimi nəqliyyat yolları nazirliyinə cavabdeh şəxs təyin etdi.

Martın 1-də Kronşdat hərbi-dəniz bazasında üsyan başladı və Kronşdat qubernatoru, vitse-admiral R.N.Viren öldürüldü. İnqilabçı dənizçilər Baltik flotunun 100 nəfərdən çox zabitini öldürdülər, Kronşdatın 500 nəfər zabitini isə həbs etdilər.

Petroqradın ardınca fevralın 27-də Moskvada inqilabi hərəkat başladı. Martın 1-də fəhlələrlə polis işçiləri arasında toqquşma oldu, ilk qurbanlar verildi. Hiddətlənmiş kütlə Butırsk həbsxanasından 350 nəfər siyasi məhbusu və 700 nəfər cinayətkarı azad etdi. Martın 2-də inqilabçılar poçt, teleqraf, telefon stansiyasını, vağzal, cəbbəxana və Kremli tutdular. Martın 1-də Nijni Novqorodda, martın 2-də Saratovda, İvanovo-Voznesenskdə, Voloqdada, martın 3-də Samarada, Yekaterinburqda inqilabi orqanlar fəaliyyətə başladı. Martın 3-də Kiyevdə, martın 4-də isə Minskdə yeni inqilabi hakimiyyət orqanları formalaşdı.Fevral inqilabı günlərində təkcə Petroqradda 300 nəfər üsyançı həyatını itirdi, 1200 nəfər isə yaralandı. Baltik flotunun 100 nəfərdən çox zabiti öldürüldü, Rusiyanın bir çox yerində qan töküldü.

1917-ci il martın 1-də Petroqrad Sovetinin İcraiyyə Komitəsi belə bir qərar qəbul etdi ki, Dövlət Dumasının Müvəqqəti komitəsinə öz mülahizəsinə görə hökuməti təşkil etmək hüququ verilsin, Sovetin nümayəndələri Müvəqqəti hökumətin tərkibinə daxil olmasınlar, Müvəqqəti hökumət bütün siyasi məhbuslara amnistiya versin, ittifaqlar, yığıncaqlar, tətillər və söz azadlığı elan etsin, milli və dini məhdudiyyətləri ləğv etsin, polisi milislə əvəz etsin, yerli özünüidarə orqanlarına seçkilər keçirsin, əsgərlərə və matroslara vətəndaşlıq hüquqları verilsin, Rusiyanın dövlət quruluşunun gələcək forması məsələsini həll etməli olan Müəssislər Məclisini çağırsın. 1 №-li əmrlə əsgər komitələri yaradılır, hərbi hissələr sovetlərə tabe edilirdi ki, bununla da ordu siyasi mübarizənin əsas qüvvələrindən biri oldu.

Eserlər və menşeviklər Rusiyanın yeni hökumətini, burjua Müvəqqəti hökumətini yaratmaq haqqında dumaçılarla razılığa gəldilər. Dərinləşən böhran şəraitində Dövlət Dumasının sədri M.V.Rodzyanko, kadet və oktyabristlərin liderləri, nüfuz sahibi olan generallar A.A.Brusilov, N.V.Ruzskiy, M.V.Alekseev və b. II Nikolayı inandırdılar ki, taxtdan əl çəksin. II Nikolay 1917-ci il martın 2-də hakimiyyətdən öz qardaşı böyük knyaz Mixail Romanovun xeyrinə əl çəkdi. Lakin monarxiya idarə-üsuluna qarşı kütlələr geniş etiraz etdiklərinə görə Mixail Romanov da taxtda möhkəmlənə bilmədi.

Dövlət Dumasının Müvəqqəti Komitəsi ilə Petroqrad Soveti İcraiyyə Komitəsinin nümayəndələrinin danışıqlarından sonra 1917-ci il martın 2-də knyaz Q.Y.Lvovun sədrliyi ilə burjua Müvəqqəti hökuməti yaradıldı. Q.Lvov eyni zamanda daxili işlər naziri vəzifəsini də tutdu. P.N.Milyukov – Xarici İşlər naziri (kadetlər partiyasının başçısı); A.İ.Quçkov – Hərbi və dəniz naziri (oktyabristlər partiyasının başçısı); M.İ.Tereşşenko – Maliyyə naziri; A.İ.Konovalov – Ticarət və sənaye naziri; A.F.Kerenski (eser) – Ədliyyə naziri; A.İ.Şinqaryov – Torpaq naziri; N.V.Nekrasov – Yollar naziri; A.A.Manuylov – Maarif naziri; V.N.Lvov – Sinodun baş prokuroru; M.V.Qordnev – Dövlət nəzarətçisi təyin olundular. 11 nəfərdən yalnız biri – A.Kerenski sosialist xadimi idi. Petroqrad Sovetinin eser-menşevik rəhbərliyi belə hesab edirdi ki, bu inqilab burjua inqilabıdır. Odur ki, onlar dövlət hakimiyyətini tam ələ keçirməyə cəhd etməyərək Müvəqqəti hökuməti müdafiə etmək mövqeyi tutdular.

***Müvəqqəti hökumətin daxili və xarici siyasəti.*** Müvəqqəti hökumət ayrı-ayrı adamların təsadüfi yığıncağı deyildir. Bunlar Rusiyada siyasi hakimiyyəti ələ almaq üçün ayağa qalxan yeni sinfin, kapitalistlər, mülkədarlar və ölkəni iqtisadi cəhətdən idarə edən burjuaziya sinfinin nümayəndələri idi.

Yeni burjua Müvəqqəti hökuməti monorxiyanı xilas etmək uğrunda göstərdiyi nəticəsiz cəhdlərdən sonra II Nikolayın qardaşı Mixail Romanov da martın 3-də taxtdan əl çəkdiyini imzaladı. Romanovların 300 illik hakimiyyəti sona çatdı.Rusiyada mütləqiyyət quruluşu devrildi ki, bu da inqilabın əsas yekunu idi. Müvəqqəti hökumət bir müddət çar II Nikolayı həbsə almadı O, martın 9-da ev dustağı edildi. II Nikolayın əvvəlcə Petropavlovsk qalasında saxlanılması qərara alınmışdı. Lakin o, əvvəlcə Tsarskoe Seloda saxlanıldı və avqustda Tobolska göndərildi. Hökumətin razılığı və Ural vilayət sovetinin qərarı ilə II Nikolay ailəsi ilə birlikdə 1918-ci il iyulun 17-də Yekaterinburqda İnatevlərin evində güllələndi. Çar, arvadı, beş uşağı

və yaxınları daxil olmaqla 11 nəfər güllələnmişdir.

Nikolay II (Nikolay Aleksandroviç Romanov) (1868-1918) imperiyanın idarə edilməsi və mütləqiyyətin saxlanılmasını özünün müqəddəs ailə və şəxsi borcu hesab edirdi. O, imperator səlahiyyətlərini qısqanclıqla qoruyaraq öz yanında güclü şəxsiyyətlərə dözmürdü. Onun varisi olan oğlu Aleksey ağır qan xəstəliyi hesab edilən hemofiliyadan əziyyət çəkdiyi üçün imperator dövlət işlərindən daha çox ailə problemlərinin həll edilməsinə vaxt sərf edirdi. Bu azmış kimi çar qətiyyəti ilə seçilmirdi və tez-tez başqalarının təsir dairəsinə düşürdü. Çar ailəsinin nüfuzdan düşməsi və ölkənin inqilabi inkişaf yoluna qədəm qoymasının məsuliyyətinin bir hissəsi onun üzərinə düşürdü. Eyni zamanda inqilabi mətbuatın və sovet tarixçilərinin də II Nikolayı qanlı bir despot kimi təsvir etmələri həqiqətə uyğun deyildir.

Müvəqqəti hökumət daxili siyasətdə aşağıdakı tədbirləri həyata keçirdi: Qubernatorlar vəzifələrindən uzaqlaşdırıldı və həmin vəzifələri zemstvo və şəhər idarələrinin rəislərindən seçilən komissarlar icra etməyə başladılar; Dinlər sahəsində olan məhdudiyyətləri ləğv etdi; Taxıl satışını öz inhisarı altına aldı; Tədris müəssisələrinə daxil olarkən millətlər üçün faiz normasını ləğv etdi; Müvəqqəti hökumət əslində bütün köhnə dövlət aparatını toxunulmaz saxladı; Müvəqqəti hökumət 8 saatlıq iş günü haqqında fəhlələrin tələbini yerinə yetirmədi; Finlandiya, Ukrayna və digər milli vilayətlərə dövlət müstəqilliyi hüququ verilməsinin qəti surətdə əleyhinə çıxdı; Müvəqqəti hökumət elan etdi ki, öz müttəfiqləri ilə birlikdə müharibəni qələbəyədək davam etdirəcəkdir.

Müvəqqəti hökumətin yeritdiyi daxili və xarici siyasət Antanta ölkələri və ABŞ tərəfindən bəyənilirdi və nəticədə iri dövlətlərdən martın 9-da ABŞ, martın 11-də İngiltərə, Fransa və İtaliya Müvəqqəti hökuməti rəsmən tanıdılar.

İnqilab nəticəsində hakimiyyət başına gəlmiş Müvəqqəti hökumətdən kütlələr müharibənin dayandırılmasını, aclıq və dağıntı ilə mübarizə aparmasını, 8 saatlıq iş günü qoyulmasını gözləyirdilər. Fabrik və zavodlar milliləşdirilməli, torpaqlar kəndlilərə verilməli, köhnə idarə aparatı ləğv edilməli, Rusiya müharibədən çıxmalı idi. Bütün bu tədbirləri, təbiidir ki, Müvəqqəti hökumət qısa bir müddətdə həll etməyə qadir deyildi. Bütün bu sosial-siyasi və iqtisadi problemlərə əlavə olunmuş hakimiyyət və dövlət quruluşu məsələləri ölkənin böhran vəziyyətini daha da dərinləşdirdi. Ölkədə xarici dövlətlərin qəbul etdiyi, daxildə isə möhkəm dayağı olmayan Müvəqqəti hökumət, kütlələrin müdafiə etdiyi formal olaraq hakimiyyəti olmayan Petroqrad Soveti mövcud idi ki, bu da sovet tarix ədəbiyyatında ikihakimiyyətlilik kimi xarakterizə edilmişdir.Lakin müasir tarix ədəbiyyatında bu dövr tədricən hakimiyyətsizlik və ya çoxhakimiyyətlilik dövrü kimi xarakterizə olunur.

Doğrudan da 1917-ci ilin yazında ölkədə vəziyyət gündən-günə pisləşirdi. Kəndlilər hakimiyyətin qərarını gözləmədən mülkədar torpaqlarını tutur və əkirdilər. Hər yerdə nə istəsən etmək olar ab-havası hökm sürürdü. Kütlə polis sahələrini dağıdaraq siyasi məhkumlarla bərabər cinayətkarları da həsbxanalardan açıb buraxırdılar.

Müvəqqəti hökumətdən müstəqillik və muxtariyyət tələb edən Rusiyanın milli ucqarlarında vəziyyət gərgin olaraq qalırdı. 1917-ci ilin yazında ölkə ərazisində 150-dən çox özü-özünü elan edən hökumətlər meydana gəlmişdir. Finlandiya və Ukrayna öz muxtariyyətini elan etmişdir.

İnqilabın qarşıya qoyduğu bütün məsələləri Müəssislər Məclisi həll etməliydi. Lakin ölkəni bürüyən qarışıqlıq və sol partiyaların qələbəsindən ehtiyat edən Müvəqqəti hökumət onun çağırılmasını ləngidirdi. Nəticədə hökumət və onu müdafiə edən eser-menşeviklər ölkədə dərinləşən ziddiyyətlərin səbəbkarı kimi kütlələrin gözündə günahkara çevrildilər. Yaranmış çox mürəkkəb bir şəraitdən bolşeviklər partiyası məharətlə istifadə etməyə başladı. Məhz 1917-ci il aprel ayının əvvəli gələcək Oktyabr silahlı üsyanının başlanğıcı oldu. Rəhbərləri müharicət və ya sürgündə olan azsaylı bolşeviklər partiyası 1917-ci il Fevral inqilabında əhəmiyyətli rol oynaya bilmədilər. Fevral inqilabının qələbəsi sürgündə və mühacirətdə olan inqilabçıların Petroqrada qayıtmasına şərait yaratdı. V.İ.Lenin, Q.Y.Zinovyev, N.İ.Buxarin, o cümlədən L.D.Trotskinin Petroqrada qayıtması ilə bolşeviklər partiyasının rolu və sayı kəskin artmağa başladı.

Vladimir İliç Lenin (Ulyanov) (1870-1924) bolşeviklər partiyasının yaradıcısı, lideri və nəzəriyyəçisi idi. 1903-cü ildən RSDFP-də bolşeviklərin sol radikal fraksiyasına rəhbərlik etmişdir ki, bunun da əsasında sonradan RSDF (b)P meydana gələrək 1918-ci ildən Rusiya Kommunist (bolşeviklər) partiyasına (RK(b)P) çevrilmişdir. İstedadlı publisist olan bolşeviklərin rəhbəri öz əsərlərində inqilabi hərəkatın nəzəri və təcrübi məsələlərinə geniş yer ayırmışdır. O, belə hesab edirdi ki, inqilabi mübarizənin siyasi avanqardı, rəhbəri və təşkilatçısı olan marksist partiyasız mütləqiyyətlə, kapitalizmlə uğurla mübarizə aparıb onlara qalib gəlmək mümkün deyildir. Bu qələbəni partiya, "kütlələrin kortəbii dağıdıcı qüvvəsini inqilabçıların şüurlu dağıdıcı qüvvəsi ilə birləşdirmək işi ilə təmin edə bilər".

Rusiyada kapitalizmin inkişafını nəzərə almaqla marksizm nəzəriyyəsinin tətbiq olunması, yeni tipli partiya haqqında nəzəriyyə, Rusiyada burjua-demokratik inqilabının inkişaf edərək sosialist inqilabına keçməsinin mümkünlüyünə inam Leninin nəzəri baxışlar sisteminin əsas hissələrini təşkil edir. Tarixi şəraitə uyğun olaraq öz görüşlərini inkişaf etdirərək dəyişən Lenin heç vaxt inqilab haqqında olan əsas əqidəsini şübhə altına almayaraq düzəlişə məruz qoymamışdır. Müzakirələrdə Leninin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, o, hətta kobud hücumlardan belə istifadə edərək özünün siyasi opponetlərini gözdən salmağa çalışırdı, çünki onların simasında inqilab işinə, marksizm nəzəriyyəsinə və şəxsən onun özünə düşmən görürdü. Parlaq siyasi hissetmə qabiliyyəti olan V.İ.Lenin əlverişli vəziyyəti dərk etmək, partiya ehtiyatlarından maksimum istifadə etmək, kütləlləri səfərbər edən şüarlar irəli sürmək, həlledici zərbəni vurmaq üçün qüvvələri qiymətləndirmək bacarığına malik idi.

1917-ci il aprelin 3-də Lenin sərhədi keçərək Petroqrada gəldi. «İnqilabçı demokratlar» adından onları Finlandiya vağzalında qarşılamaq üçün başda Çxeidze olmaqla nümayəndə heyəti də gəlmişdi.V.İ.Lenin avtomobil üzərinə qalxaraq təbrik nitqi söylədi və çıxışını «Yaşasın sosialist inqilabı!» şüarı ilə qurtardı. Aprelin 4-də bolşeviklərin yığıncağında Lenin özünün «Hazırkı inqilabda proletariatın vəzifələri haqqında» tezislərini izah etdi. Bolşeviklərin hakimiyyəti ələ keçirmək uğrunda mübarizəsinin ilk addımı atılmış oldu. «Aprel tezisləri» 11 maddədən, siyasi, iqtisadi və təşkilati məsələləri əhatə edən 3 hissədən ibarət idi. Tezislərdə deyilirdi: «Rusiyada hazırkı dövrün xüsusiyyəti, inqilabın proletariat lazımi qədər şüurlu və mütəşəkkil olmadığından hakimiyyəti burjuaziyaya vermiş olan birinci mərhələsindən onun ikinci mərhələsinə, hakimiyyəti proletariata və kəndlilərin ən yoxsul təbəqələrinə verməli olan mərhələsinə keçməkdən ibarətdir».

Aprel tezislərində aşağıdakı vəzifələr irəli sürülürdü: Proletariat diktaturasının Rusiya üçün ən yaxşı dövlət forması sovetlər respublikasıdır; Müvəqqəti hökumətə heç bir yardım göstərilməməlidir; «Bütün hakimiyyət sovetlərə»; «İnqilabi müdafiəçilik» taktikasına qarşı mübarizə aparmalı; Mülkədar torpaqlarının müsadirə edilməsi və milliləşdirilməsi, milli bank yaradılması və onun üzərinə proletariat tərəfindən nəzarət qoyulması, istehsal və məhsulların bölgüsü üzərində fəhlə nəzarəti qoyulması; III İnternasionalın yaradılması.

İlk zamanlar Leninin tərəfdarları azlıq təşkil edirdi. Ona görə də bolşeviklər həmin günlərdə çox qətiyyətlə çıxış edirdilər. Menşeviklərin və bolşeviklərin birgə yığıncağında Leninin nitqi əks-səda doğurdu. 1917-ci ilin yazında Rusiyanın 64 quberniya şəhərinin 54-də bolşeviklər və menşeviklər vahid təşkilatda birləşirdilər. Müzakirələrdə menşevik liderlərdən İ.G.Sereteli, N.S.Çxeidze, F.İ.Dan və başqaları Leninin tezislərinin əleyhinə kəskin çıxış etdilər. Bu tezislər indiyə kimi Petroqradda səslənən şüar və nitqlərdən o dərcədə fərqlənirdi ki, hətta V.İ.Leninlə, demək olar ki, eyni zamanda Rusiyaya qayıtmış G.V.Plexanova Leninin tezislərini «ağılsız və Rus torpağına son dərəcə zərərli qarışıqlıq toxumu əkmək cəhdi kimi» qiymətləndirməyə əsas vermişdir. Bu sənəd bolşevik liderləri L.Kamenev, M.Kalinin, S.Baqdatev və b. tərəfindən narazılıqla qarşılandı. L.B.Kamenev və A.İ. Rıkov sosialist inqilabı xətti əleyhinə çıxdılar. Onlar düzgün olaraq bildirdilər ki, Rusiya sosialist inqilabına hazır deyildir. Martın ortalarınadək Stalin də onlara tərəfdar idi. Kamenev qrupu VII Aprel Ümumrusiya konfransında azlıqda qaldı, yəni məğlub oldu.

***Ölkə daxilində vəziyyətin mürəkkəbləşməsi.*** Ölkə daxilindəki mürəkkəb vəziyyətə baxmayaraq Rusiya müharibəni davam etdirirdi. Müvəqqəti hökumət müharibəni davam

etdirməklə bir sıra ərazilərin Rusiyaya birləşdirilməsinə çalışırdı. Petroqrad Soveti təşkil edilən gündən P.Milyukova təzyiq göstərirdi ki, Müvəqqəti hökumət müttəfiq dövlətlərə «təzminatsız və ilhaqsız» sülh bağlanması ilə müraciət etsin. 1917-ci ilin martında Müvəqqəti hökumət manifest dərc etməyə məcbur oldu. Manifestdə elan edilirdi ki, Rusiya hər cür ilhaqdan imtina edir.

1917-ci il aprelin 18-də xalq birinci dəfə olaraq açıq şəkildə 1 may nümayişinə çıxdı. Həmin gün Xarici İşlər naziri P.Milyukov müttəfiqlərə nota ilə müraciət edərək Müvəqqəti hökumət adından bildirdi ki, Rusiya müharibədə iştirak edəcəkdir. Aprelin 19-da Milyukovun notası fəhlə və əsgərlərə məlum oldu. Aprelin 20-də hiddətlənmiş əsgər kütlələri əllərində «Rədd olsun Milyukov!», «Yaşasın ilhaqsız və təzminatsız sülh!» şüarları ilə küçəyə çıxaraq Milyukovun getdiyi maşının qabağını kəsdilər. Kadetlərin lideri əsgərlərə belə cavab verdi: «Rədd olsun Milyukov» şüarını görərkən mən Milyukova görə qorxmuram, mən Rusiyaya görə qorxuram». Özünü çox soyuqqanlı apardığını görən əsgərlər Milyukovun maşınını buraxdılar.

100 mindən çox fəhlə «Rədd olsun müharibə!», «Bütün hakimiyyət Sovetlərə!» şüarları altında nümayişə çıxdı. Petroqrad hərbi dairəsi qoşunlarının bir hissəsi baş komandanı L.Q.Kornilova tabe olmaqdan imtina edərək xalqa atəş açmadılar. Buna görə Baş komandan istefa verdi. Petroqrad Sovetinin qərarı ilə Kornilov vəzifəsindən dəyişdirilərək Cənub-qərb cəbhəsi 8-ci ordusuna komandan göndərildi.

Aprelin 21-də bir tərəfdə əllərində «Bütün hakimiyyət Sovetlərə!», «Rədd olsun müharibə!» şüarları tutmuş fəhlə və əsgərlər, digər tərəfdə əllərində Leninin Almaniya ərazisindən keçərək Rusiyaya gəlməsinə işarə edən «Lenini Vilhelmə qaytarın!», «Yaşasın Müvəqqəti hökumət!» şüarları tutmuş zabitlər və tələbələr arasında toqquşma baş verdi. Toqquşma nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu.

Milyukovun notası və baş vermiş hadisə Müvəqqəti hökumətin dərin böhran keçirdiyini nümayiş etdirdi. Əslində Aprel nümayişi Müvəqqəti hökumətin 1-ci böhranı idi. Aprel nümayişi Müvəqqəti hökumətə göstərdi ki, o, öz varlığını möhkəm və sabit hesab edə bilməz. Buna görə də burjuaziya öz hakimiyyətinin ictimai əsasını genişləndirməyi və menşeviklərin iştirakı ilə koalision hökumət yaratmağı zəruri bildi.

Xalqın nifrət etdiyi nazirlər – hərbi nazir A.Quçkov və xarici işlər naziri P.Milyukov hökumətdən istefa etdi. Aleksandr İvanoviç Quçkov (1862-1936) oktyabristlər partiyasının lideri idi. Konstitusiyalı mütləqiyyət tərəfdarı olaraq mövcud quruluşun tədricən dəyişikliklərə məruz qalmasını müdafiə edən rus liberalizminin sağ qanadının nümayəndəsi idi.

Pavel Nikolayeviç Milyukov (1859-1943) konstitusiyalı demokratlar partiyasının lideri olaraq rus liberalizminin əsas hissəsini təmsil edirdi. O, həm də görkəmli tarixçi olaraq mühacirətdə yazdığı «Rus mədəniyyətinin tarixi oçerkləri», «İkinci rus inqilabının tarixi» və b. əsərlərin müəllifi idi.

Mayın 5-də birinci koalision hökuməti təşkil olundu ki, bunun da tərkibinə on kapitalist nazirlə yanaşı menşevik və eserlərin 6 nəfər nümayəndəsi də daxil edildi. İ.Sereteli – Poçt və teleqraf naziri, V.Çernov – Torpaq naziri, N.Pereverzev – Ədliyyə naziri, A.Kerenski – Hərbi və dəniz naziri, A.Peşexonov – Ərzaq naziri, M.Skobelev – Əmək naziri təyin edildilər. Koalision hökumətin siyasəti birinci Müvəqqəti hökumətin siyasətindən heç bir şeylə fərqlənmirdi. A.Quçkovu əvəz etmiş olan hərbi nazir A.Kerenski Antantanın tələbi ilə cəbhədə hücum hazırlığına başladı.Torpaq naziri V.Çernov mülkədar torpaqlarının kəndlilər tərəfindən zəbt edilməsinə qarşı mübarizəni şiddətləndirdi. Hökumətin fəhlə məsələsi üzrə siyasəti dəyişmədi, 8 saatlıq iş günü qanuniləşdirilmədi. Əmək haqqının artırılması haqqında fəhlələrin tələblərinə məhəl qoymadı. Hökumət istehsal və məhsul bölgüsü üzərində fəhlə nəzarətinin qoyulmasına qarşı qəti müqavimət göstərirdi. Əslində Müvəqqəti hökumət bu istiqamətdə düzgün mövqe tuturdu. Çünki bu məsələ dövlətin nəzarətində olmalı idi. Hökumət bahalığa, möhtəkirliyə qarşı isə zəif mübarizə aparırdı.

Müvəqqəti hökumət Rusiya xalqlarının azadlıq və istiqlaliyyətinə qarşı qəti çıxış edirdi. Ukraynadakı sosialist partiyaları 4 mart 1917-ci ildə Ukraynanın muxtariyyəti tələbi ilə çıxış

edən «Mərkəzi Rada» adlı yerli hakimiyyət strukturu yaratdılar. Görkəmli tarixçi, Ukrayna eserlər partiyasının nümayəndəsi olan M.S.Qruşevski «Mərkəzi Rada»nın sədri seçildi. İcraiyyə orqanının başına sosial-demokrat Vinniçenko gətirildi. «Mərkəzi Rada» Ukraynanın muxtariyyəti ilə yanaşı, milli Ukrayna hərbi hissələrin təşkil edilməsini tələb edirdi. Ukrayna milli hərbi hisssələrinin təşkilinə Simon Petlyura başçılıq edirdi. Radanın təşkili və möhkəmləndirilməsi məsələləri onun qəbul etdiyi Birinci Universalda əks edilmişdi. Bu sənəddə Ukraynaya Rusiyanın tərkibində siyasi muxtariyyət verilməsi, yığılan vergilərin bir hissəsinin yerli milli hakimiyyətin sərəncamında saxlanılması tələb edilirdi. Bütün bunlar Petroqradda hakimiyyəti narahat etdi. Müvəqqəti hökumətin üzvləri A.Kerenski, İ.Tereşşenko, İ.Sereteli təcili olaraq Kiyevə gəldilər. «Mərkəzi Radanın» rəhbərliyi ilə danışıqlarda onlar Radanın səlahiyyətlərini tanımağa bu şərtlə razılıq verdilər ki, onun Baş katiblik kimi fəaliyyət göstərəcəyi icraiyyə orqanı Müvəqqəti hökumətlə razılaşdırılsın. Ukrayna milli hərbi hissələrinin formalaşdırılması dayandırılır, muxtariyyət məsələsi isə Müəssislər Məclisinin çağırılmasına kimi təxirə salınırdı. M.S.Qruşevski məşhur tarixçi idi və Ukraynanın ilk prezidenti seçilmişdir. Ukrayna müstəqillik qazandıqdan sonra ona Kiyevdə böyük abidə ucaldılmışdır.

Müvəqqəti hökumət Finlandiyanın muxtariyyəti əleyhinə çıxış edərək, onun 1809-cu il Konstitusiyasını bərpa etməklə kifayətləndi. Müvəqqəti hökumət iyulun 18-də fin seymini buraxdı, seymin binası rus qoşunları tərəfindən tutuldu.

1917-ci ilin iyununda belarus burjua və xırda burjua partiyaları Minskdə Belarusiya Mərkəzi Radasını təşkil etdilər. Hər yerdə olduğu kimi, Belarusiyada da burjua partiyaları inqilabi hərəkata qarşı mübarizə aparmaq üçün hakim rus burjuaziyası ilə ittifaq bağladılar. Belarusiya bolşevikləri Belarusiya Mərkəzi Radasına qarşı mübarizəyə qalxdılar. Belarus bolşevikləri belarus fəhlələrini, kəndlilərini və əsgərlərini millətlərin öz müqəddaratını təyin etməsi və torpağın kəndlilərə verilməsi şüarı altında xalqı mübarizəyə qaldırmaqla əslində Belarusiyanın müstəqilliyinə və ölkənin kapitalist inkişaf yoluna qədəm qoymasına əngəl törətdilər.

Mərkəzi Asiya, Cənubi Qafqaz və Rusiyanın başqa ucqarlarının xalqları da mili-azadlıq əldə etmədilər. Müvəqqəti hökumətin siyasəti xalq içərisində geniş narazılığa səbəb olurdu. O zaman Rusiyanın daxilində yaranmış vəziyyəti nəzərə alsaq görərik ki, doğrudan da ölkədə hakimiyyəti ələ ala biləcək bir partiya yox idi. 1917-ci il iyunun 3-də Petroqradda keçirilən Ümumrusiya I Sovetlər qurultayında Sovetin sədri menşevik İ.G.Sereteli düzgün olaraq bildirmişdir ki, hazırda Rusiyada elə bir partiya yoxdur ki, hakimiyyəti bütünlüklə ələ ala bilsin.

Qurultayda iştirak edən 800 nəfər nümayəndənin yalnız 105 nəfəri (10 faizi) bolşevik idi. Buna baxmayaraq Lenin elan etdi ki, onun partiyası ölkəni idarə etmək məsuliyyətini öz üzərinə götürməyə hazırdır. Bu o demək idi ki, bolşeviklər hakimiyyətə gəlmək üçün nə Müəssisələr məclisini, nə də sovetlərdə üstünlük əldə etmək üçün vaxt qazanmağı gözləmək fikrində deyildir.

Müttəfiqlərin tələbi ilə Müvəqqəti hökumət cəbhədə hücum hazırlayırdı. Müvəqqəti hökumət başa düşürdü ki, cəbhədə hücumu davam etdirmək onu külli miqdarda borclardan xilas etmiş olar. Xarici ölkə mətbuatı, onun diplomatları Rusiyadan hücum əməliyyatı tələb edirdilər. Xarici ölkə nümayəndələri rus ordusunda hücuma keçmək təbliğatı aparırdılar.

İyunun 18-də Müvəqqəti hökumət cəbhədə hücuma başlamağı qərara aldı. Yenə həmin gün qurultayın rəhbərliyi Petroqrad fəhlə və əsgərlərinin nümayişini təyin edərək belə ümid edirdilər ki, həmin nümayiş hücum başlanması münasibətilə vətənpərvərlik nümayişinə çevriləcəkdir. Bolşeviklər Petroqrad fəhlə və əsgərləri nümayişi «Bütün hakimiyyət sovetlərə!», «Çörək, sülh və azadlıq!», «Rədd olsun on kapitalist nazir!» şüarları altında keçirməyə çağırdılar. 500 min fəhlə və əsgərin iştirak etdiyi 18 iyun nümayişi Müvəqqəti hökumətə etimadsızlıq nümayişinə çevrildi. Heç bir zavoda və ya fabrikdə Müvəqqəti hökumətə etimad şüarları irəli sürülmədi. Əsgərlər vuruşmaq istəmirdilər, onlar sülh tələb edirdilər. Rus ordusunun 18 iyunda başlanmış hücumu boşa çıxdı. 10 gün ərzində təkcə Cənub-Qərb cəbhəsinin Qalitsiyadakı hücumunda 60 min adam həlak oldu. Cəbhədəki məğlubiyyətlə əlaqədar ölkənin iqtisadi vəziyyəti durmadan pisləşirdi. Metal və kömür olmaması üzündən müəssisələr

dayanırdı. May-iyul aylarında 439 zavod bağlanmışdı. Amansız aclıq yaxınlaşırdı. Hökumət yaxınlaşan iqtisadi fəlakətin qarşısını almaq üçün tədbir görmürdü. Müvəqqəti hökumətin ölkəni böhrandan çıxarmaq iqtidarında olmaması nəticəsində xalq kütlələrinin narazılığı gündən-günə artırdı. Ölkədə aqrar inqilabı yüksəlməkdə idi. Kəndlilər mülkədar torpaqlarını tutur və ağa malikanələrini yandırırdılar. Fəhlə və kəndli hərəkatı müharibədən yorulmuş ordu içərisində qızğın rəğbətlə qarşılanırdı.

İyulun 3-də Petroqradda ayrı-ayrı polkların əsgərlərinin və zavod fəhlələrinin nümayişləri başlandı. İyulun 4-də Kronşdat silahlı matrosları onlara qoşuldu. Anarxist və bolşeviklərin çağırışı ilə yüz minlərlə adam Petroqrad küçələrinə çıxaraq bütün hakimiyyətin sovetlərə verilməsini tələb etməyə başladılar. Paytaxtda hökumətə sadiq olan sabiq qvardiyaçılardan ibarət daxili qoşunlarla silahlı nümayişçi dəstələr arasında toqquşma baş verdi. İyulun 5-də hökumət qoşunlarının köməyinə cəbhədən dəstək gəldi. Paytaxtdakı qiyamçı hissələr tərksilah edildi, çıxışların rəhbərləri təqib edilməyə başlandı. Bolşevikləri və eserləri hakimiyyəti ələ keçirtmək məqsədilə çaxnaşmanın təşkilatçısı kimi günahlandıraraq təqib edilməyə məruz qoydular. V.İ.Lenini alman casusu elan edərək həbs etmək üçün axtarmağa başladılar. V.İ.Lenin silahdaşı Q.Y.Zinovyevlə birlikdə əvvəlcə Petroqrad ətrafında, sonra isə Finlandiyada gizlənməyə məcbur oldu. Bolşeviklərin bir çox rəhbəri, o cümlədən L.B.Kamenev həbs edildi. Qırmızı qvardiya müvəqqəti olaraq gizli şəraitə keçdi.

3-5 iyul hadisələri ölkədə növbəti siyasi böhran idi. İyul hadisələrindən sonra ölkədə siyasi vəziyyət dəyişdi. Paytaxtda və bunun ardınca bütün ölkədə hakimiyyət bütünlüklə Müvəqqəti hökumətin əlinə keçdi. İkihakimiyyətliliyi Müvəqqəti hökumətin təkhakimiyyətliliyi əvəz etdi. «Bütün hakimiyyət sovetlərə!» şüarı müvəqqəti aradan götürüldü, bolşeviklər öz taktikasını dəyişdirdilər. İndi burjuaziyanın hakimiyyətini devirmək və proletariat diktaturası qurmaq məqsədilə silahlı üsyana hazırlaşmaq başlıca xətt oldu.

İyul hadisələrindən sonra Müvəqqəti hökumət də bəzi addımlar atdı: İyulun 7-də Baş nazir Lvov istefaya getdi. İyulun 8-də Müvəqqəti hökumətin başçısı vəzifəsinə A.F.Kerenski təyin edildi. İyulun 12-də cəbhədə ölüm cəzası tətbiq edildi. İyulun 13-də yeni koalision hökumətin təşkili ilə əlaqədar kadetlərlə danışıqlara başlandı. Kadetlər tələb edirdi ki, Müvəqqəti hökumət müharibəni qələbəyədək davam etdirsin. Bu fikri eserlər, menşeviklər, xalq sosialistləri və digər partiyaların nümayəndələri də dəstəklədi. İyulun 24-də yeni hökumətin təşkili başa çatdı.

A.F.Kerenski – Baş nazir, N.V.Nekrasov – Maliyyə naziri, M.İ.Tereşşenko – Xarici işlər naziri, V.M.Çernov – Torpaq naziri, S.K.Prokopoviç – Ticarət və sənaye naziri, M.S.Skobelev – Əmək naziri vəzifələrini tutdular. İkinci koalision hökumətə 3 eser, 6 kadet, 1 bitərəf, 6 sosialist partiyalarının nümayəndələri daxil edildilər. Kerenski Aleksandr Fyodoroviç (1881-1970) təhsilinə görə hüquqşünas olub, bir neçə siyasi prosesdə uğurlu çıxışı ilə şöhrət qazanmışdır. Əmək partiyasının deputatı kimi IV Dövlət Dumasına daxil olmuşdu. 1917-ci ildə A.Kerenski Petroqrad Soveti sədrinin müavini, Müvəqqəti hökumətin Ədliyyə, Hərbi və Dəniz naziri vəzifələrini tutur. 1917-ci ilin iyul-oktyabr aylarında Müvəqqəti hökumətin Baş Naziri, avqust ayından isə Ali Baş Komandan olmuşdur. Müstəsna natiqlik bacarığı ilə seçilən Kerenski hakimiyyətin zirvəsini fəth etməsinə baxmayaraq ölkədə vəziyyəti normal məcraya yönəldə bilməmişdir. Bolşeviklər hakimiyyəti qəsb etdikdən sonra onlara müqavimət göstərə bilməyib, 1918-ci ildə Fransaya, sonra isə ABŞ-a mühacirətə getmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi bolşeviklər partiyası silahlı üsyana hazırlaşırdı. 1917-ci il iyulun 26-avqustun 3-də olan RSDF(b)P VI qurultayında ölkənin siyasi, iqtisadi və beynəlxalq vəziyyəti müzakirə olundu. «Bütün hakimiyyət sovetlərə!» şüarı müvəqqəti olaraq ortadan götürüldü. Qurultay V.İ.Leninin burjua məhkəməsinə gəlməsinin qəti əleyhinə çıxdı.

***Kornilov qiyamı.*** İyul nümayişindən sonra hökumət gözlənilən üsyanın qarşısını almaq üçün qüvvələrini səfərbərliyə almağa başladı. İnqilaba qarşı özünün barışmaz mövqeyi ilə məşhur olan general L.G.Kornilov iyulun 16-da A.A.Brusilovun yerinə Ali Baş komandan təyin edildi. L.Kornilov orduda mitinqlərin qadağan edilməsi haqqında əmr verdi. Cəbhədə hərbi-səhra məhkəmələri fəaliyyət göstərməyə başladı. Lavr Kornilov arxada da ölüm cəzası

qoyulmasını tələb edirdi.

Əksinqilabçı qüvvələr hərbi diktatura qurulmasını hazırlayırdı. Qəsdə kadetlər partiyası başçılıq edirdi. Qoşunları Petroqrad üzərinə yürüşə hazırlayan Ali Baş komandan L. Kornilovun qərargahı qəsdin mərkəzi idi. 1917-ci il avqustun 12-də Kerenski Moskvada Dövlət müşavirəsi çağırdı ki, bu da əksinqilabçı qüvvələrinə əsaslı baxış idi. Əksinqilabın başçıları belə güman edirdilər ki, həmin müşavirədə hərbi diktatura elan ediləcəkdir.

Müşavirəni A.Kerenski açdı. O, hökumətə qarşı müqavimət göstərənlərin bütün cəhdlərini boğacağı ilə hədələdi. Sonra L.Kornilov çıxış edərək ölkədə hərbi diktatura qurulması, nəinki cəbhədə, arxada da ölüm cəzası tətbiq edilməsi, dəmir yollarında, fabrik və zavodlarda hərbi qaydaların qoyulması haqqında öz proqramı ilə müşavirə iştirakçılarını tanış etdi.

Sonra Bakı müsəlman təşkilatları, Şimali Qafqaz dağlıları, Dağıstan, Türküstan, Krım, Qırğız və Başqırd sovetləri adından Ə.Topçubaşov, «Daşnakstyun» və Erməni Xalq partiyası adından Nazaryants, menşeviklər adından İ.G.Sereteli və N.S.Çxeidze çıxış edərək Müvəqqəti hökumətlə həmrəy olduqlarını bildirdilər. Müşavirədə ABŞ prezidenti V.Vilsonun təbrik teleqramı oxundu. ABŞ daxili və xarici düşmənlərə qarşı mübarizədə Müvəqqəti hökumətə maddi və mənəvi yardım vəd edirdi.

Müşavirənin açılışı günü Moskvada etiraz tətili təşkil olundu ki, burada da 400 min fəhlə iştirak edirdi. Dövlət Müşavirəsi açıq əksinqilabi diktatura elan etməyə cürət etmədi. Moskvada və bütün ölkədə şərait bunun üçün əlverişli deyildi. L.Kornilov əksinqilabi çevriliş hazırlanmasını davam etdirmək üçün qərargaha qayıtdı. Kornilov çalışırdı ki, ölkədə hakimiyyəti təkbaşına ələ alsın, ona görə də Kerenskini hakimiyyətdən uzaqlaşdırmaq lazım idi. Avqustun 25-də Kornilov M.V.Rodzyanko, V.N.Lvov və başqa şəxsləri Ali Baş komandanlıq qərargahına dəvət etdi. Orada gələcək hökumətin yeni tərkibi müzakirə edildi. Səhəri gün L.Kornilov Kerenskiyə ultimatum verərək təcili olaraq istefa verməsini, bütün hərbi və mülki hakimiyyətin ona verilməsini tələb etdi.

Bu əslində Kerenski hökumətinə qarşı qəsd idi. İş açıq qiyam şəkli aldığı zaman Kerenski qorxurdu ki, xalq kütlələri kornilovçuluğa qarşı çıxmaqla, Müvəqqəti hökuməti də süpürüb atarlar. Kerenski Kornilovun Ali Baş komandan vəzifəsindən götürülməsi haqqında əmr verdi. Kornilov əmrə tabe olmadı və 1917-ci il avqustun 25-də general A.İ.Krımovun komandanlığı altında üçüncü süvari korpusu və başqa qoşun hissələrini Petroqrad üzərinə yeritdi. A.F.Kerenski kömək üçün Sovetlərin yaratdığı «Xalq əksinqilabla mübarizə Komitəsi»nə müraciət etdi. Komitə təcili olaraq Kornilovun dəf edilməsi üçün fəaliyyətə keçdi. İlk növbədə fəhlə, əsgər və matroslar Petroqradın müdafiəsinə səfərbər edildi. Əhali yekdilliklə Petroqradın müdafiəsinə qalxdı. Üç gün ərzində Qızıl qvardiya dəstələrinə 25 min fəhlə yazıldı. Petroqrad qarnizonu və Baltik donanması matroslarının ümumi sayı 60 min nəfər döyüşçüdən ibarət idi. Qırmızı qvardiyaçılar, zavod komitələri, rayon sovetləri, hərbi hissələrin əsgər komitələri müdafiənin önündə gedirdilər. Dəmiryolçular Kornilovun qoşunları ilə dolu yük qatarların bağlı yollarla keçirirdilər, yolları sökür, dəmir yol körpülərini dağıdır, paravozları xarab edirdilər. Narva, Yamburq, Luqa, Qatçina stansiyalarında əsgərlərlə dolu 45 eşelon saxlanılmışdır.

Rabitə işçiləri xətləri sıradan çıxarmışdılar. Yüzlərlə təşviqatçı Kornilov qoşunları içərisində iş apararaq əsgərlərə qiyamın məqsədini izah edirdilər. Əsgərlər və kazaklar fəhlələrin tərəfinə keçməyə başladılar. General A.Krımov onun həbs olunmasını tələb edən əsgərlərdən yaxasını qurtarıb, Petroqrada qaçmağa məcbur oldu. Kornilovun fitnəsinin baş tutmadığını yəqin edən general Krımov özünü güllələdi.«Rusiyanın xilaskarı» Kornilov isə sentyabrın 1-də həbs edildi. Hərbi diktatura yaratmaq cəhdi uğursuzluğa düçar oldu. Aleksandr Kerenski Ali Baş komandan oldu.

Avqustun 26-dan 31-dək davam edən kornilovçuluğun bir güllə atılmadan belə ləğv edilməsindən sonra avqustun 31-də Petroqrad fəhlə və əsgər deputatları Soveti səs çoxluğu ilə bolşeviklərin tərəfinə keçdi. Belə ki, avqustun 31-də Petroqrad soveti «Hakimiyyət haqqında» bolşevik qətnaməsi qəbul edərək Sovetə tabe olan burjuaziyanın təmsil olunmadığı hökumət təşkil etməyi irəli sürdü. Pertoqrad sovetinin menşevik-eserlerin çoxluq təşkil etdiyi İcraiyyə

Komitəsi məsələyə münasibət bildirməsini müzakirəyə çıxardı və deputatların çox hissəsi onların əleyhinə səs verdi. Bunun ardınaca İcraiyyə Komitəsinə təkrar seçkilər keçirildi və bolşevik deputatlar ilk dəfə olaraq sayca üstünlük qazandılar. Bu proses sovetlərin bolşevikləşməsi adını aldı. Tezliklə bu hərəkat paytaxtdan Moskva, Kiyev, Saratova yayıldı. Artıq sentyabr ayında 50-dən çox sovet hakimiyyətin onlara verilməsi haqqında qətnamə qəbul etmişdir.

Arxa cəbhənin əsgərləri də bolşeviklərin şüarını qəbul etdilər, çünki onlar başa düşürdülər ki, «sülh siyasəti» onları cəbhəyə göndərməkdən xilas edə bilər. Hücum əməliyyatının və Kornilov qiyamının uğursuzluğu döyüşən ordunun bolşevikləşməsini sürətləndirdi. Sovetlərin bolşevikləşməsi nəticəsində 3-5 iyul hadisələrindən sonra aradan götürülmüş «Bütün hakimiyyət Sovetlərə!» şüarı yenidən irəli sürüldü. Bu şüar indi Müvəqqəti hökumətə qarşı silahlı üsyana çağırış şüarı demək idi. Kornilov qiyamının ləğv edilməsi ölkədə siyasi şəraiti və qüvvələr münasibətini əsaslı surətdə dəyişdi. Sağ qüvvələr məğlub oldu. A.F.Kerenski və kadetlərin nüfuzu sarsıldı. Bolşeviklərin nüfuzu gücləndi, sayları isə sürətlə artaraq 350 min nəfərə çatdı. Bunu dərk edən hökumət bolşevik partiyasının bir sıra rəhbərin, o cümlədən Lev Trotski və Lev Kamenevi həbsdən azad etdi.

## Oktyabr silahlı üsyanı

***Oktyabr ərəfəsində ölkənin daxili vəziyyəti.*** Ölkədə inqilabi böhran getdikcə dərinləşirdi. İmperialist müharibəsi və iqtisadi dağıntı şəraitində 1917-ci ilin payızında ümummilli böhranın yetişməsi sürətləndi. Ölkəyə amansız təsərrüfat fəlakəti və aclıq yaxınlaşırdı. Sənayenin ümumi məhsulunun həcmi 1917-ci ildə 1916-cı ilə nisbətən 36,5 faiz azalmışdı. 1917-ci ilin Fevral inqilabından sonra 800-dən çox müəssisə bağlanmış, 170 min fəhlə işdən çıxarılmışdı. Yanacaq və metal hasilatı kəskin azalmışdı. Dəmir yolları ilə yük daşınması 1916-cı ilə nisbətən 34 faiz aşağı düşmüşdü.

Ölkə ağır maliyyə böhranı keçirirdi. Hərbi xərclər son dərəcə artmışdı. Əgər 1917-ci ilin birinci yarısı müharibənin hər günü Rusiyaya 58 milyon manata başa gəlirdisə, 1917-ci ilin ikinci yarısında isə müharibənin hər günü Rusiyaya 82,3 milyon manata başa gəlirdi. Martın 1-dən oktyabrın 25-dək birbaşa dövlət borcları sürətlə artaraq 49 milyard manata, o cümlədən xarici borclar 11,2 milyard manata çatmışdı. 1917-ci ilin dövlət büdcəsindən kəsir 82 faizə bərabər idi. Bu kəsiri ödəmək üçün təkcə 1917-ci ilin son səkkiz ayında 9,5 milyard manat «kerenki» (Kerenskinin hakimiyyəti dövründə buraxılan kağız pullara xalq arasında belə deyilirdi) buraxılmışdı. Petroqrad, Moskva və başqa şəhərlərin çörəklə və ərzaqla təchiz edilməsi gündən-günə azalırdı. Avqust ayında isə gündəlik çörək norması 200 qrama düşmüşdü.

Ümummilli böhranın dərinləşməsi ölkədə sinfi ziddiyyətlərin son dərəcə kəskinləşməsinə səbəb oldu. Ölkədə artmaqda olan inqilabi hərəkatın önündə fəhlə sinfi gedirdi. Avqust ayında Moskvada 100 min fəhlə, sentyabrda Uralda 110 min metallurq və şaxtaçı siyasi tətil etmişdi. Onlar Ümumrusiya Sovetlər qurultayının çağırılmasını tələb edirdilər. Kütləvi tətillərdə 2,4 milyon nəfərdən çox fəhlə iştirak etmişdir. Sentyabrda ölkənin əsasən bütün dəmir yollarında tətil başlandı. Müvəqqəti hökumət bəzi güzəştlərə getməyə məcbur oldu, belə ki, dəmiryolçuların əmək haqqı az olsa da artırıldı. Sentyabrın 27-də neftçilərin ümumi tətilində 30 min nəfər iştirak edirdi. Bakı fəhlələrinin ümumi tətili uğurla keçdi, onlar sahibkarları kollektiv müqavilə bağlamağa məcbur etdilər. Oktyabr ayında İvanovo-Voznesenskidə, Şuya, Kovrov və mərkəzi sənaye rayonunun digər şəhərlərində 300 min toxucu tətil etdi. Həmin ayda Donbas, Krivoy-Roq, Xarkov, Kiyev fəhlələrinin tətili başlandı. Kəndli hərəkatı yeni, daha yüksək mərhələyə daxil oldu. 1917-ci ilin payızında kəndli hərəkatı Rusiyanın Avropa hissəsinin onda doqquz hissəsini bürümüşdü. Əgər mayda mülkədar malikanələri 152 dəfə dağıdılmış və yandırılmışdırsa, sentyabrda belə malikanələrin sayı 958-ə çatmışdı.

Rusiyanın azlıqda qalan xalqlarının da milli-azadlıq və hüquq bərabərliyi uğrunda Müvəqqəti hökumətə qarşı mübarizəsi artmışdı. Bu hərəkat Minsk və Kiyev quberniyalarında

xüsusilə güclü idi. Bir çox milli ucqarlarda sinfi toqquşmalar böyüyərək silahlı mübarizəyə çevrildi. Ukrayna, Belarusiya, Pribaltika, Orta Asiya, Cənubi Qafqaz buna misal ola bilər. Ordu və donanmada bolşevik təşkilatlarının şəbəkəsi gündən-günə möhkəmlənirdi. Fəhlələrlə hərbi hissələr arasında sıx əlaqə yaranmışdı, bu isə əsgərlərin inqilabiləşməsində əsas rol oynayırdı. Petroqrad və Moskvaya yaxın olan Şimal, Qərb cəbhələrində, eləcə də Baltik donanmasında bolşeviklərin nüfuzu güclü idi.

İyulun 24-də yaradılmış ikinci koalision hökumət avqustun 27-də dağıldı, bununla da uzun sürən hökumət böhranı başlandı. Kerenski kadetlərlə koalisiyanı bərpa etməyə çalışırdı, çünki avqustun 25-də Kornilov Ali Baş komandan vəzifəsindən uzaqlaşdırılarkən kadetlər hökumətin tərkibindən çıxmışdılar.

Siyasi mövqeyini möhkəmlətmək məqsədilə A.F.Kerenski 1917-ci ilin sentyabrın 1-də 5 nəfərdən ibarət Direktoriya (beşlik) təşkil etdi. A.F.Kerenskinin «cib» hökuməti adlandırılan Direktoriyanın üzərinə «kabinet təşkil olunanadək dövlətin işlərini idarə etmək» vəzifəsi qoyulmuşdu. Direktoruyanın tərkibi A.F.Kerenski, A.M.Nikitin, M.İ.Tereşşenko, admiral D.N.Verderovski və general A.İ.Verxovskidən ibarət idi.

Direktoriya yarandığı ilk gündən inqilabi qüvvələrə qarşı cəza tədbirləri yoluna qədəm qoydu. Lakin yaranmış şəraitdə təkcə cəza tədbirləri ilə hərəkət etmək mümkün deyildi. Demokratik ictimaiyyəti sakitləşdirmək və vəziyyətdən çıxmaq məqsədilə Direktoriya Rusiyanı sentyabrın 1-də respublika elan etdi. Kütlələrin inqilabi mübarizəsini zəiflətmək üçün Demokratik müşavirə çağırılması qərara alındı. ÜRMİK-in eser-menşevik liderlərini, həmkarlar ittifaqlarını, fabrik-zavod komitələrini, ordunu, ruhaniləri, zemstvoları təmsil edən nümayəndələr müşavirədə iştirak edirdi. Sentyabrın 14-22-si arasında keçirilən Demokratik müşavirədə Sovetlərin menşevik-eser liderləri burjua partiyaları ilə koalisiya yaratmaq məqsədilə Demokratik müşavirənin razılığını almaq istəyirdilər. Onların irəli sürdüyü qətnamə əleyhinə 75, lehinə isə 65 nümayəndə səs verdi. Demokratik müşavirənin mövqeyi əksinqilabçı liderləri qane etmədi və onlar Demokratik müşavirənin tərkibindən daimi nümayəndəlik – eser N.D.Avksentyev sədr olmaqla Rusiya respublika Şurası və ya Parlamentqabağı seçdilər. Bu Şuranın heç bir səlahiyyəti yox idi, belə ki, hətta onun tərkibi Müvəqqəti hökumət tərəfindən təsdiq edilməli idi. Kamenev və onun tərəfdarları bolşeviklərin Parlamentqabağında iştirakını zəruri hesab edir, Lenin isə onun baykot edilməsini təkid edirdi.

Demokratik müşavirənin kadetlərlə koalisiya əleyhinə çıxmasına baxmayaraq, Kerenski kadetlərin iştirakı ilə sentyabrın 25-də üçüncü və sonuncu Müvəqqəti burjua koalision hökuməti yaratdı. Hökumətin tərkibinə kadetlərdən Kişkin, Kortaşev, Konovalov, Tretyakov, Smirnov və başqaları daxil edildi. Hökumətin 17 üzvündən 11-i burjuaziyanın nümayəndələri idi. Müvəqqəti hökumət ölkədəki çıxışların qarşısını almaq üçün bir sıra tədbirlər həyata keçirməyə hazırlaşırdı. İlk növbədə bütün əksinqilabi qüvvələr səfərbər edilərək hökumətin sərəncamına verildi. İnqilabi əhval-ruhiyyəli əksər birliklər cəbhəyə göndərildi.

***Petroqradda silahlı üsyan və bolşeviklərin hakimiyyətə gəlməsi.*** Yaranmış olan vəziyyətdən bolşeviklər partiyası çox məharətlə istifadə etdi. Ölkədə Oktyabr silahlı üsyanı təşkil edildi ki, bunun da ilhamçısı və təşkilatçısı başda Rusiyanın mənafeyinə xəyanət etməkdə təqsirləndirilən və «alman casusu» elan edilən Vladimir İliç Lenin olmaqla bolşeviklər partiyası idi. Açıq mübarizədən həmişə gizlənən V.İ.Lenin sentyabrda Finlandiyada yaşayır və orada silahlı üsyanın planını hazırlayırdı.

1917-ci ildə Rusiyada mövcud olan sosial-siyasi vəziyyətdən silahlı yolla hakimiyyəti ələ keçirməyi planlaşdıran bolşeviklər partiyasının başqa partiyalardan fərqli olaraq iki güclü rəhbəri, o cümlədən möhkəm iradəli V.İ.Lenin və tükənməz enerjisi, mükəmməl natiqliyi ilə hər kəsdən seçilən L.D.Trotski hadisələrə istiqamət verirdilər. Xüsusi tembr səsilə auditoriyanı ələ almağı bacaran L.D.Trotski kütləni müxtəlif vədlərlə sinfi mübarizəyə səsləyərək «soyanları soy» və s. şüarlarla onları daha da qızışdırır və bolşeviklərin tərəfinə çəkirdi. Sentyabrın 12-14-də Lenin partiyanın MK-sına iki məktub göndərdi: «Bolşeviklər hakimiyyəti ələ almalıdırlar», «Marksizm və üsyan». Birinci məktubda Lenin yazırdı ki, "hər iki paytaxt Sovetlərində (Petroqrad və Moskva sovetlərində) bolşeviklər çoxluq əldə etdikdən sonra döv-

lət hakimiyyətini öz əllərinə ala bilərlər və almalıdırlar". Belə ki, Kornilov qiyamı ləğv edildikdən sonra Petroqrad və Moskva sovetlərinin eser-menşevik rəhbərliyi bolşeviklərlə əvəz olundu. L.D.Trotski Petroqrad soveti İcraiyyə Komitəsinin sədri seçildi. Bir çox yerlərdə sovetlərin rəhbərliyinə bolşeviklər keçdi. Həm də ölkənin əsas mərkəzlərində bolşeviklər üstünlük təşkil edirdilər.

Leninin məktubları sentyabrın 15-də bolşeviklər partiyasının Mərkəzi Komitəsində müzakirə olundu. Mərkəzi Komitə Leninin göstərişlərini qəbul etdi və Leninin məktublarını partiyanın təşkilatlarına göndərməyi qərara aldı. Sentyabrın ikinci yarısında bolşeviklər partiyası hakimiyyəti ələ keçirmək üçün silahlı üsyanın hazırlanması işini olduqca genişləndirdi. Üsyana rəhbərlik etmək üçün Lenin oktyabrın 7-də gizli surətdə Finlandiyadan Petroqrada gəldi. Ertəsi gün Lenin «Kənar adamın məsləhətləri» adlı məqaləsini yazdı və bu məqalədə silahlı üsyanın konkret planını irəli sürdü.

Oktyabrın 10-da RSDF(b)P MK-nın iclası oldu. Lenin hazırkı dövr haqqında məruzə etdi. Lenin daxili və beynəlxalq vəziyyəti təhlil edərək qeyd etdi ki, silahlı üsyanın uğurlu olması üçün siyasi şərait tamamilə yetişmişdir. İclasda üsyan haqqında qətnamə qəbul edildi. Qətnamə əleyhinə L.B.Kamenev və Q.Y.Zinovyev səs verdilər, çünki belə hesab edirdilər ki, bolşeviklərin kəndlilər içərisində lazım olan köməyi olmadığı üçün ölkə uğurlu üsyana hazır deyil. Həm də partiyanın gələcəyini təhlükə altına atmaq olmaz. MK-nın silahlı üsyan haqqında qətnaməsi bütün partiya təşkilatlarına göndərildi. Petroqrad Soveti yanında bolşeviklərin və sol eserlərin daxil olduğu Hərbi-İnqilab Komitəsi yaradıldı. HİK-ın sədri sol eser P.Y.Lazimir oldu, sonra onu bolşevik N.İ.Podvoyski əvəz etdi, katib bolşevik V.A.Antonov-Ovseyenko idi. HİK-ə eyni zamanda K.A.Mexonoşin, H.V.Krılenko, V.İ.Nevski, M.Y.Latsis, H.A.Skrıpnik, K.S.Yeremeyev, P.Y.Dıbenko daxil idi.

Oktyabrın 16-da bolşeviklər partiyası MK-nın geniş iclası oldu. 10 oktyabr tarixli iclasın qətnaməsi əsaslandırıldı. Silahlı üsyan haqqında qərar təsdiq olundu. Silahlı üsyanı təxirə salmağı tələb edən Kamenev və Zinovyev V.İ.Leninin əleyhinə çıxış etdilər. Lenin qətnaməsi lehinə 19, əleyhinə 2 nəfər səs verdi, 4 nəfər isə bitərəf qaldı. Silahlı üsyana rəhbərlik etmək üçün MK-nın qapalı iclasında A.S.Bubnov, F.E.Dzerjinski, Y.M.Sverdlov, İ.V.Stalin, M.S.Uritskidən ibarət olan Hərbi-İnqilab Mərkəzi yaradıldı. Moskvada, Uralda, Sibirdə, Volqaboyunda, Donbasda və s. yerlərdə silahlı üsyanın hazırlanması və keçirilməsi üçün hərbi mərkəzlər yaradılırdı. Qırmızı qvardiya dəstələri təşkil olunurdu.

MK-da azlıqda qalan Kamenev və Zinovyev yenə də üsyanın əleyhinə idilər. Oktyabrın 18-də Kamenev M.Qorkinin yarımmenşevik «Novaya jizn» qəzetində məktub dərc etdirdi. Bu məktubda, o, öz adından və Zinovyevin adından MK-nın üsyan haqqındakı qərarına qarşı çıxış etdi. Oktyabrın 20-də MK Kamenevin və Zinovyevin hərəkətlərini müzakirə etdi və onlara partiya adından çıxış etməyi qadağan etdi. Beləliklə, silahlı üsyanın nə vaxt olacağından xəbər tutan Müvəqqəti hökumət onun qarşısını almaq üçün bir sıra tədbir gördü.

Eyni zamanda, Trotskinin rəhbərlik etdiyi Petroqrad Sovetinə tabe olan HİK-də əsgərləri üsyana hazırlamaq üçün bütün hərbi hissələrə öz komissarlarını göndərdi. Hərbi-dəniz donanması gəmilərinə, «Avrora» kreyserinə və «Zarya svobodı» gəmisinə döyüş tapşırığı verilmişdi. Baltik donanması (60 mindən artıq matros və yüzlərlə gəmi), Petroqrad qarnizonunun 150 minədək əsgəri bolşeviklərin tərəfinə keçdi. Təlim keçmiş silahlı fəhlə drujinalarının sayı 30 min nəfər təşkil edirdi. Müvəqqəti hökumət belə hesab edirdi ki, fəhlələrin çıxışı II Sovetlər qurultayının açılışı günü-1917-ci il oktyabrın 25-də olacaqdır. Müvəqqəti hökumət həmin gün üsyanı darmadağın etməyi planlaşdırırdı. Paytaxta hərbi qüvvələr gətirilmişdi. Yunker məktəblərini döyüşə hazırlamışdılar. Fəhlə rayonlarını mərkəzlə birləşdirən körpülərin açılması üçün əmr verilmişdi.

Oktyabrın 24-də axşam Lenin dərhal çıxış etməyi tələb etdi. Lenin MK-ya yazmışdı ki, «Hər necə olursa olsun, bu gün axşam, bu gecə hökuməti həbsə almaq, yunkerləri tərksilah etmək lazımdır, və i.a… ayın 25-dək hakimiyyət heç bir halda Kerenskinin və kampaniyasının əlində qalmamalıdır, məsələ hökmən bu gün axşam və ya gecə həll edilməlidir».

Kerenskiyə Sovetlər qurultayının açılışı günü, oktyabrın 25-də çıxış etmək imkanı

verməmək üçün partiyanın MK-sı HİK-ə dərhal üsyana başlamağı əmr etdi. Həmin gün inqilabçı qoşunlar bütün körpüləri öz nəzarəti altına aldılar. Petroqrada gələn bütün yollar tutdular və beləliklə Müvəqqəti hökumətin cəbhədən çağırdığı qoşunların yolu kəsilmiş oldu. Hazırlanmış plan üzrə fəhlə dəstələri dövlət idarələrini tutmağa başladılar və gecə yarısından sonra Petroqradın ən mühüm yerləri, telefon stansiyası, dövlət bankı, poçtamp, vağzallar və əsas idarələr tutulmuşdu. Hakimiyyəti silahlı üsyan yolu ilə ələ keçirməyi nəzərdə tutan silahlı üsyanın hazırlıq mərkəzi bolşeviklər partiyası qərargahının yerləşdiyi Smolnı idi. 1917-ci il oktyabrın 24-26-da başlanan üsyana və hakimiyyətin ələ keçirilməsinə bilavasitə Petroqrad sovetinin sədri L.D.Trotski rəhbərlik edirdi.

Oktyabrın 25-də Keksholm polkunun əsgərləri Müvəqqəti hökumətin sığındığı Qış sarayına gedən bütün yolları tutdu. Vəziyyətin ümidsiz olduğunu görən Kerenski Amerika bayrağı taxılmış olan bir avtomobildə üsyan etmiş paytaxtdan qaçdı.

Oktyabrın 25-də (noyabrın 7-də) səhər saat 10-da HİK Müvəqqəti hökumətin devrildiyini elan etdi. HİK-in Müraciətində deyilirdi: «Müvəqqəti hökumət devrilmişdir. Dövlət hakimiyyəti Petroqrad fəhlə və əsgər deputatları Soveti orqanının – Petroqrad proletariatı və qarnizonuna başçılıq edən Hərbi İnqilab Komitəsinin əlinə keçmişdir». Günün axırına yaxın Müvəqqəti hökumətin olduğu Qış sarayından başqa bütün şəhər artıq üsyançıların əlində idi. Müvəqqəti hökumətə, təslim olması haqqında ultimatum verildi, lakin hökumət onu rədd etdi. Axşam saat 10-da «Avrora» gəmisindən atılan top atəşindən sonra üsyançılar Qış sarayı üzərinə hücuma keçdilər. Gecə saat 2-də Qış sarayı alındı. Müvəqqəti hökumət üzvləri həbs edilib Petropavlovski qalasına salındı. Paytaxtda olan çoxlu sayda kazak, yunker və zabitlər Müvəqqəti hökumətə kömək etmədilər.

Oktyabrın 25-də axşam saat 11-ə 20 dəqiqə qalmış Smolnıda bolşeviklərin və sol eserlərin iştirakı ilə II Sovetlər qurultayı açıldı. Deputatların 388 nəfəri bolşevik, 100 nəfəri sol eser idi. Oktyabrın 26-da səhər saat 5-də Sovetlər qurultayı bütün hakimiyyətin Sovetlərə keçdiyi haqqında qərar qəbul etdi. Qurultayın ikinci iclası oktyabrın 26-da axşam saat 9-a 20 dəqiqə qalmış oldu. Qurultayda Lenin «Sülh haqqında» dekreti elan etdi. Dekretə görə müharibə aparan tərəflərə təcili olaraq üç ay müddətində barışıq sazişi imzalamaq, sonra isə ilhaqsız və təzminatsız demokratik sülh bağlamaq təklif olunurdu. Bununla bərabər gizli diplomatiya ləğv edilir, siyasətdə böyük və kiçik xalqların hüquqlarına hörmət prinsipi ön plana çəkilirdi. Sonra Lenin «Torpaq haqqında» dekreti elan etdi. Dekretə əsasən bütün mülkədar, xanədan, monastr və kilsə torpaqları, canlı-cansız avadanlığı ilə birlikdə tamamilə pulsuz olaraq kəndli deputatları Sovetlərinin sərəncamına verildi. Kəndlilərə əvəzi alınmadan 150 milyon desyatindən çox torpaq verilməsi nəzərdə tutulurdu. Torpaq üzərində xüsusi mülkiyyət həmişəlik olaraq ləğv edildi, onun alqı-satqısı qadağan olunur, torpaq ümumxalq malı elan edilirdi. Qurultayın gündəliyində axırıncı məsələ hakimiyyəti təşkil etmək məsələsi idi. Qurultayda ilk sovet hökuməti – Xalq Komissarları Soveti təşkil olundu. V.İ.Lenin XKS-nin sədri seçildi A.İ.Rıkov – Xalq daxili İşlər komissarı, V.P.Milyutin – Torpaq işləri komissarı, A.Q.Şlyapnikov – Əmək işləri komissarı, V.A.Ovseyenko (Antonov), N.V.Krılenko və P.Y.Dıbenko – Hərbi və dəniz işləri Komitəsi üzrə komissarlar, V.P.Nogin – Ticarət və sənaye üzrə komissar, A.V.Lunaçarski – Xalq maarifi komissarı, İ.İ.Skvortsov (Stepanov) – Xalq maliyyə komissarı, L.D.Bronşteyn (Trotski) – Xalq xarici işlər komissarı, Q.İ.Oppokov (Lomov) – Ədliyyə komissarı İ.A.Teodoroviç – Ərzaq işləri üzrə komissar. N.P.Avilov (Qlebov) – Poçt və teleqraf üzrə komissar, İ.V.Çuqaşvili (Stalin) – Milli işlər üzrə komissar oldular. Hakimiyyətin ali dövlət orqanı hər il çağırılması nəzərdə tutulan Sovetlər qurultayı elan olundu. Qurultaylar arasındakı dövrdə isə bu vəzifəni Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi yerinə yetirirdi. 62 nəfər bolşevik, 29 nəfər sol eserlərdən ibarət təşkil edilən ÜRMİK-nin sədri vəzifəsinə L.B.Kamenev seçildi, sonra onu M.Y.Sverdlov əvəz etdi.

Sovet hakimiyyəti bütün ölkədə sürətlə yayılmaqda idi. 1917-ci il oktyabrın 25-dən 1918-ci ilin martınadək davam edən dövrü Lenin «Sovet hakimiyyətinin zəfər yürüşü» dövrü adlandırmışdır. Yəni hakimiyyət bolşeviklər tərəfindən dinc və silahlı üsyan yolu ilə ələ keçirilmişdir. Oktyabrın 25-dən 31-dək davam edən bir həftə ərzində 17 quberniya şəhərində,

noyabrın axırlarına yaxın isə 28 quberniya şəhərində və bütün ən mühüm sənaye mərkəzlərində hakimiyyət Sovetlərin əlinə keçdi. Oktyabrın 25-27-də İvanova-Voznesenskidə, Kazanda, Rostov-Donda, Samarada, Saratovda, Yekaterinburqda sovet hakimiyyəti qələbə çaldı.

Petroqraddakı hadisələr haqqında xəbər oktyabrın 26-da saat 12-də Moskvaya çatdı. Həmin gün Moskvada fəhlə və əsgər deputatları Sovetinin birgə iclası oldu. Hərbi inqilab komitəsi yaradıldı. HİK-in 13 üzvündən 5-i üsyanın əleyhinə idi. Petroqraddan Moskvaya qayıdan Moskva Sovetinin sədri V.P.Nogin də üsyanın əleyhinə idi. Moskvada hakimiyyətə həm də «İctimai təhlükəsizlik komitəsi» can atırdı. Menşeviklər HİK-in «İctimai təhlükəsizlik Komitəsi»nə tabe etdirilməsini tələb edirdilər. Bolşeviklər bu tələbi rədd etdikdən sonra onlar HİK-nin tərkibindən çıxdılar. 1917-ci il oktyabr ayının 27-də Moskva Hərbi dairəsinin komandanı K.İ.Ryabtsev HİK-nin buraxılması və şəhərdə hərbi vəziyyət elan olunması haqqında ultimatum verdi. HİK-in çağırışı ilə fəhlələr ümumi tətilə başladılar, oktyabrın 28-də tətil böyüyərək silahlı üsyana çevrildi. Oktyabrın 30-da Petroqraddan göndərilən 500 nəfərlik Kronşdat dənizçisi fəhlələrin köməyinə gəldi. Müvəqqəti hökumətin tərəfdarları ilə bolşeviklər arasındakı qanlı döyüşlərdən sonra, noyabrın 3-də Moskvada Sovet hakimiyyəti qələbə çaldı. Moskva hadisələrində 300 nəfərə kimi insan həlak oldu.

Milli rayonlarda da Sovet hakimiyyəti uğrunda şiddətli mübarizə başlandı. Ukraynada fəhlə və kəndlilər Sovet hakimiyyəti uğrunda mübarizəyə başladılar. Oktyabrın 29-da Kiyevdə fəhlə və əsgərlər Müvəqqəti hökumətə qarşı silahlı üsyana qalxdılar. Ertəsi gün şəhərdə ümumtətil başlandı və üç gün davam etdi. Üsyançılar tərəfinə keçən 2-ci Qvardiya korpusunun əsgərləri əsas dəmir yol qovuşuqlarını tutaraq Moskvaya əksinqilabın köməyinə göndərilməsi nəzərdə tutulan əsgərlərlə dolu qatarları saxladılar. Lakin Oktyabr hadisələri bütün Ukraynada Sovet hakimiyyətinin qələbəsi ilə yekunlaşmadı. Çünki Kiyevin mərkəzi küçələrində qızğın döyüşlərin getdiyi bir vaxtda Mərkəzi Rada milli hərbi hissələri şəhərə yeridərək poçt, teleqraf və başqa dövlət idarələrini tutaraq hakimiyyətin öz əlinə keçdiyini elan etdi. Ukrayna Mərkəzi Radası başda Vladimir Lenin olmaqla Rusiya bolşeviklərinin Müvəqqəti hökuməti devirib hakimiyyəti qəsb etmələrini qəbul etməyərək bu aktı pislədilər.

1917-ci il noyabrın 20-də Mərkəzi Rada özünün Üçüncü Universalı ilə Ukrayna Xalq Respublikasının yarandığını elan etdilər. Bu sənəddə söz, mətbuat, din, yığıncaq azadlığı elan olunur, ölüm hökmü, torpaq üzərində xüsusi mülkiyyət ləğv edilirdi. Səkkiz saatlıq iş günü müəyyən edilir, milli azlıqlar milli muxtariyyət hüququ alırdı.

Dekabrın 10-12-də Ukraynada Müəssislər məclisinə seçkilər keçirildi. Ukrayna sosialistləri seçkilərdə qalib gəldilər, bolşeviklər 10 faiz səs topladılar. Onlar hakimiyyəti ələ keçirə bilmədikdən sonra Xarkova köçərək Ukrayna Sovet hökumətinin yaradıldığını elan etdilər. Ukraynada bolşevik hökumətini müdafiə etmək pərdəsi altında Lenin Ukraynanı ələ keçirmək və Rusiyaya ərzaq göndərmək üçün V.Antonov-Ovseyenkonun başçılığı ilə ordu hissələrini ölkəyə yeritmək haqqında göstəriş verdi. Ukrayna- bolşevik Rusiyası müharibəsi belə başladı. Lakin Radanın qoşunları sovet Rusiyası qırmızı ordu əsgərlərinin hücumunun qarşısını ala bilmədi və Rada Kiyevi tərk edərək Jitomirə köçməyə məcbur oldu.

1918-ci il fevralın 9-da UXR Almaniya ilə Brest sülhünü imzaladı. Apreldə bütün Ukrayna alman və Ukrayna ordusu tərəfindən qırmızı ordu işğalından azad edildi. Aprelin 29-da almanların köməyi ilə general Pavel Skoropadski hakimiyyəti ələ keçirdi, Mərkəzi Radanın hakimiyyətinə son verildi. Ukraynanın getmanı elan olunan P.Skoropadskiyə qanunverici, icraedici hakimiyyət məxsus idi, eyni zamanda o, həm də Baş komandan idi. Dövlətin adı dəyişdirilərək Ukrayna Xalq Respublikası yerinə Ukrayna dövləti oldu.

1918-ci il mayın ortalarında Ukrayna sosialistlərinin gizli qurultayında iri sənayeçilər, torpaq sahibləri, Rusiyadakı burjua partiyaları, alman işğalçıları ilə iş birliy quran getman general P.Skoropadskinin siyasəti kəskin tənqid edilir və ona qarşı birgə fəaliyyət göstərmək nəzərdə tutulurdu. İyunun 12-də Kiyevdə bolşevik nümayəndələr Xristian Rakovski və Dmitri Manuilskinin rəhbərliyi ilə Ukraynanın müstəqil dövlət elan edilməsini nəzərdə tutan müvəqqəti sülh imzaladılar. Xalq içərisində öz nüfuzunu itirən getmana qarşı Ukrayna müxalifət partiyaları üsyan qaldırmaq məqsədilə rəhbərlik üçün Direktoriya təşkil etdilər. Vladimir

Vinniçenko sədr, Simon Petlyura, Fyodr Şvets, Andrey Makarenko üzvlər idi. Dekabrın 19-da Direktoriyanın qoşunları Kiyevə girdi, yenidən Ukrayna Xalq Respublikası elan olundu. Həmin gün Direktoriya Vladimir Çexovskoyun başçılığı ilə Ukrayna sosialist partiyalarının nümayəndələrindən ibarət ilk hökuməti təsdiq etdi. Lakin UXR-nın vəziyyəti ağır idi. Çünki, şərq və şimaldan Qırmızı Ordu, Don istiqamətində Denikinin ordusu, Dnestrin əks tərəfindən rumınlar, qərbdən polyaklar, cənubdan isə Antanta Ukrayna torpaqlarını ələ keçirməyə çalışırdılar. Belə bir şəraitdə Direktoriya 1919-cu il sentyabrın15-də hakimiyyəti Simon Petlyuraya verməyə məcbur oldu. Lakin hər tərəfdən düşmən əhatəsində qalan UXR-nın ordusu məğlub oldu və Ukrayna torpaqları Sovet Rusiyası ilə Polşa arasında bölüşdürüldü.

1919-cu ilin martında Kiyevdə Ümumukrayna Sovetlər qurultayı «Müstəqil Ukrayna Sovet Sosialist Respublikasının» Konstitusiyasını qəbul etdi. Lakin mahiyyət etibarilə Ukrayna Sovet Rusiyasından asılı olan onun tərkib hissəsi idi.

Petroqqaradda Oktyabr silahlı üsyanının qələbə çalması məlum olduqdan sonra oktyabrın 27-də Minsk sovetində belarus bolşevik A.F.Myasnikovun rəhbərliyi ilə İnqilabi komitə yaradıldı. Noyabrın əvvəllərində komitə Qərb cəbhəsinin Hərbi-inqilabi komitəsinə çevrildi. Bu orqan ölkənin Şimali Qərb vilayətlərində və Qərb cəbhəsində hakimiyyəti ələ keçirdi. Beləliklə, Sovet hakimiyyəti Belarusiyanın almanlar tərəfindən işğal olunmuş Qərb rayonlarından başqa qalan bütün ərazilərdə yayıldı. Belarusiyanın gənc sovet hakimiyyəti əksinqilabi qüvvələrlə ölüm-dirim savaşına başladı. Rus, ukrayna, litva və polşa iri burjuaziyası ilə sıx ittifaqda olan Belarus millətçiləri əksinqilabçı Belarus radası və general Dovbor-Muskitskinin korpusu ətrafında birləşərək Sovet hakimiyyətinə qarşı 1918-ci il yanvarın 12-də qiyam qaldırdılar. Belarusiyanın və mərkəzi Rusiyanın fəhlə və kəndlilərindən təşkil olunmuş Qızıl Ordu dəstələri hücuma keçərək qiyamçılara ağır zərbə vurdular. Əksinqilabçılara və alman işğalçılarına qarşı genişmiqyaslı hücuma keçən Qırmızı Ordu Belarusiyanı azad edərək 1919-cu il yanvarın 1-də Belarus Sovet Sosialist Respubliksının yaradıldığını elan etdi.

***Sovet dövlət aparatının yaradılması.*** Bolşeviklər hakimiyyətə gəldikdən sonra yeni siyasi sistem yaratdılar. Onlar köhnə Dövlət şurasını, nazirlikləri, yerli özünüidarə orqanları olan şəhər dumalarını və zemstvoları ləğv etdilər. Məhkəmə və ordunun köhnə formalaşma və mövcud olma şərtləri ləğv olundu. Bolşeviklərin elan etdiyi fəhlə sinfinin siyasi hakimiyyətinə əsaslanan proletar diktaturasının bərqərar edilməsi üçün yeni dövlət maşınının yaradılması tələb olunurdu.

Siyasi hakimiyyət real olaraq Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinə, icraedici, həm də qanunverici hakimiyyəti öz əlində cəmləşdirən Xalq Komissarlar Sovetinə məxsus idi. Yerli idarələr isə quberniya və vilayət sovetlərindən ibarət idi. Onların fəaliyyətinə nəzarət etmək məqsədilə bolşeviklərin tərəfdarlarından ibarət olan inqilabi komitələr yaradılmışdır. Bolşeviklərin hakimiyyətini müdafiə edən yeni aparatın formalaşdırılmasına xüsusi diqqət yetirilirdi. Oktyabr ayının axırlarında (yeni stillə – noyabrın 11-i) ictimai asayişi qorumaq üçün fəhlə-kəndli milisi təşkil edilməyə başlandı. Noyabrın 22-də isə XKS-nin dekreti ilə yeni məhkəmə idarələri sistemi təsis edilmişdi. Siyasi işlərə Xalq Ədliyyə Komissarlığına tabe olan inqilabi tribunalda baxılırdı.

Bolşevik hakimiyyəti özlərinin siyasi rəqiblərinə qarşı xəbərdarlıq repressiyaları tətbiq etməyə başladılar. Xalq Komissarları Sovetinin 1917-ci il noyabr ayının 28-də qəbul etdiyi «İnqilaba qarşı vətəndaş müharibəsi başçılarının həbs edilməsi haqqında» dekreti ilə kadetlər partiyası qanundankənar elan olundu. Sovet hakimiyyətinə qarşı mübarizəyə səsləyən qəzetlər qadağan olunur, bolşeviklərin əleyhinə olan nümayiş və mitinqlər dağıdılırdı.

Məmurların böyük əksəriyyəti yeni hakimiyyətlə əməkdaşlıq etməkdən, onun göstərişlərini yerinə yetirmiəkdən, işə çıxmaqdan imtina edirdilər. Təkcə Petroqradda 50 min nəfərə yaxın dövlət və kommersiya qulluqçusu işdən imtina etmişdir. Hərbi-inqilab komitəsi sabotajçıları xalq düşməni elan etdi və 1917-ci il dekabrın 7-də əksinqilabçı və təxribatçılarla mübarizə aparmaq məqsədilə Xalq Komissarları Soveti nəzdində Ümumrusiya Fövqəladə Komissiyası (ÜRFK) yaradıldı. F.E.Dzerjinski onun sədri təyin edildi. Komissiya həbs, cəza

və onun yerinə yetirilməsinə kimi qeyri-məhdud hakimiyyətə sahib olan bir orqan oldu. 1917-ci ilin noyabr-dekabrında XKS ordunun rəhbərliyini özünə tabe edərək Sovet hakimiyətini qəbul etməyən mindən çox general və zabiti ordu sıralarından azad etdi. Köhnə ordu tərxis edildi. 1918-ci il yanvar ayının 15-də fəhlə-kəndli Qızıl Ordusunun, yanvarın 29-da sovet Qızıl Donanmasının yaradılması haqqında dekretlər qəbul olundu.

XKS-nin 1918-ci il 20 yanvar tarixli «Vicdan azadlığı, kilsə və dini cəmiyyətlər haqqında» dekreti ilə kilsə dövlətdən, məktəb kilsədən ayrıldı. Kilsənin bütün imtiyazları ləğv olunur, sərvəti xalq mülkiyyətinə verilirdi. Din sovet vətəndaşlarının şəxsi işi elan edildi. Dekretdən irəli gələn vəzifələrin həyata keçirilməsi dövlətlə 1917-ci ilin noyabrından patriarx Tixonun başçılıq etdiyi pravoslav kilsəni qarşı-qarşıya gətirdi. 1917-ci ilin dekabr ayının 21-də Sovet Rusiyasında yeni yazı qaydaları, 1918-ci il fevral ayının 1-dən (yeni stillə 14-dən) Ümumavropa təqvimi tətbiq edilməyə başlandı.

Demokratik meyilli ictimai təşkilatlar bolşeviklərin hakimiyyəti zəbt etməsinə qarşı çıxırdılar. Kerenski-Krasnov qoşunlarının Petroqrad üzərinə hücumu zamanı eser və menşeviklərin üstünlük təşkil etdiyi dəmiryolçuların Ümumrusiya İcraiyyə Komitəsi (VİKJEL) sosialist təmayüllü bütün partiyaların nümayəndələrindən ibarət yekcins sosialist hökuməti yaradılmasını tələb etdilər. Danışıqlarda 700 min nəfəri təmsil edən «Vikjel»in nümayəndələri, bolşeviklər, menşeviklər, sol və sağ eserlər, başqa ictimai təşkilatlar iştirak edirdilər. Danışıqlar vaxtı menşevik və sağ eserlər «Oktyabr çevrilişinin şəxsi günahkarı» hesab etikləri V.İ.Lenini hökumətdən kənar etmək tələbini irəli sürdülər. Lakin qoşunların paytaxt üzərinə antibolşevik hücumu boşa çıxdıqdan sonra Leninin təkidi ilə danışıqlar kəsildi. Xarakterik haldır ki, hətta görkəmli bolşevik nümayəndələri L.B.Kamenev, Q.Y.Zinovyev, A.İ.Rıkov, V.P.Milyutin, A.P.Nogin yekcins sosialist hökumətin yaradılmasını təkid edərək MK-nın tərkibindən və xalq komissarları vəzifələrindən istefa etdilər. Leninin tövsiyəsi ilə Y.M.Sverdlov L.B.Kamenevin əvəzinə ÜRMİK-nin sədri seçildi. Q.İ.Petrovski Xalq Daxili İşlər komissarı, A.Q.Şlixter Xalq Torpaq komissarı, P.İ.Stuçka Xalq Ədliyyə komissarı təyin edildilər. Noyabr ayının ortalarında sol eserlərlə razılıq əldə olundu, dekabrda isə onların nümayəndələri İ.Z.Şteynberq, P.P.Proşyan, A.L.Koleqayev, V.A.Karelin Xalq Komissarları Soveti tərkibinə daxil edildilər

Hakimiyyəti ələ alan bolşeviklər dərhal Oktyabrdan sonra seçkilər keçirilən Müəssislər məclisinin açılmasını təxirə salmağa çalışdılar. Onların ehtiyat etdiyi təsdiq edildi. Müəssislər Məclisi «eser üzlü» oldu. 715 nəfər deputatın yarıdan çoxu eserlər idi, dörddə bir hissəsi bolşeviklərdən ibarət idi. Müəssislər Məclisinin 1918-ci il yanvarın 5-də Tavriya sarayında açılan yeganə iclasına cəmi 410 deputat gəlmişdi. Eserlər səslərin 40 faizinə, bolşeviklər isə cəmi 22,5 faizinə sahib idilər. Müəssislər məclisinin sədri vəzifəsinə sağ eser V.M.Çernov seçildi.

Viktor Mixayloviç Çernov (1873-1952) sosialist-inqilabçılar partiyasının liderlərindən biri olub. O, belə hesab edirdi ki, partiya sosialist dəyişikliklərini həyata keçirmək üçün yalnız kənddə deyil, şəhərdə də mübarizə aparmalıdır ki, kəndliləri kapitalizmdən qoruya bilsin. 1917-ci ildəki bolşevik inqilabını kəskin tənqid etmişdir.

Məclis bolşeviklərin təklif etdiyi «Zəhmətkeş və istismar olunan xalqın hüquq Bəyannaməsi»ni təsdiq etməkdən imtina etdi. Bu əslində əməkçi xalqı təmsil edən sovet-bolşevik hakimiyyətinin proletariat diktaturası formasında bərqərar olunmasının tanınmaması demək idi. Odur ki, bunun ardınca bolşevik deputatlar iclas zalını tərk etdilər və yanvarın 6-dan 7-nə keçən gecə ÜRMİK-nin qərarı ilə Müəssislər Məclisi buraxıldı. Müəssislər Məclisini müdafiə etmək məqsədilə təşkil edilən nümayiş bölşeviklər tərəfindən gülləbaran edildi. 1918-ci il yanvar ayının 10-da III Ümumrusiya Sovetlər qurultayı açıldı. Tezliklə kəndli deputatları ilə birləşən sovetlər qurultayı «Zəhmətkeş və istismar olunan xalqın hüquq Bəyannaməsi»ni təsdiq etdi və Rusiya Sovet Sosialist respublikasının adı dəyişdirilərək Rusiya Sovet Federativ Sosialist Respublikası oldu.

1918-ci il iyulun 10-da V Sovetlər qurultayı RSFSR-in birinci Konstitusiyasını qəbul etdi. Bu sənədin əsasını «Zəhmətkeş və istismar olunan xalqın hüquq Bəyannaməsi» təşkil

edirdi. Keçmiş istismarçı siniflərin nümayəndələri, din xadimləri, zabitlər, polis xəfiyyələri seçki hüququndan məhrum edilirdi. Fəhlə sinfi nümayəndəsinin 1 səsi kəndlinin 5 səsinə bərabər tutulurdu. Seçkilər ümumi, birbaşa, gizli və bərabər deyildi. Konstitusiya siyasi azadlıqlar söz, mətbuat, yığıncaq, nümayiş, yürüş azadlığı elan edirdi. Lakin real həyatda bu öz təsdiqini tapmırdı. Bundan başqa, 1918-ci il Konstitusiyasına görə əmlak sahibi olan siniflər və onların partiyaları siyasi həyatda iştirak etmək imkanından məhrum idi.

Siyasi mövqeyinə uyğun olaraq bolşevik rəhbərliyi xüsusi mülkiyyətin tamamilə ləğv edilməsinə səy göstərirdi. 1917-ci il noyabrın 14-də bütün xüsusi sənaye müəssisələri üzərində fabrik-zavod komitələri vasitəsilə fəhlə nəzarəti qoyuldu ki, bu da sənayenin milliləşdirilməsinin mühüm şərti oldu. Dekabrın 14-də bütün xüsusi banklar milliləşdirildi. Bunun ardınca dəmir yol nəqliyyatı, rabitə vasitələri milliləşdirilərək dövlətin nəzarəti altına alındı.

1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində bir sıra iri sənaye müəssisələri milliləşdirildi və beləliklə iqtisadiyyatda dövlət bölməsi yarandı. Bu bölməyə isə 1917-ci il dekabrın 2-də yaradılmış Ali Xalq Təsərrüfatı Şurası rəhbərlik edirdi. Müəssisələrin dövlət nəzarətinə keçməsi «dövlət sosializminin» əsasını qoyur və «fabrik-fəhlələrə» şüarının sosial demoqogiyadan başqa bir şey olmadığını göstərdi. 1917-ci il oktyabrın 29-da XKS 8 saatlıq iş günü, 18 yaşına çatmamış şəxslər üçün altı saatlıq iş günü müəyyən edən dekret qəbul etdi. N.A.Semaşkonun rəhbərliyi ilə 1918-ci ilin iyulunda Xalq Səhiyyə Komissarlığı yaradıldı. 1918-ci il yanvar ayının 21-də Sovet dövləti Çar hökuməti və Müvəqqəti hökumətin 50 milyard manat məbləğində olan dövlət borclarını ləğv etdi ki, bunun da 16 milyard manatı xarici borclar idi.

1917-ci il noyabrın 2-də XKS «Rusiya xalqlarının hüquq Bəyannaməsi»ni elan etdi ki, burada da Rusiya xalqlarının bərabərliyi və suverenliyi, onların öz müqəddaratını təyin etmək və müstəqil dövlətlərini yaratmaq hüququ təsbit olundu. 1917-ci ilin dekabrında Sovet hökuməti Ukrayna və Finlandiyanın, 1918-ci ilin avqustunda Polşanın, dekabrda Latviya, Litva və Estoniyanın, 1919-cu ilin fevralında isə Belarusiyanın müstəqilliyini tanıdı. Lakin işdə bolşevik rəhbərliyi Rusiyanın parçalanmasının qarşısını almağa çalışırdı. Yerli partiya orqanlarından istifadə edərək sovet hakimiyyətinin milli rayonlarda bərqərar olmasını təmin etmək məqsədilə Sovet dövləti onlara hərtərəfli maliyyə, maddi və hərbi kömək göstərirdi.

***Brest sülhü.*** Xarici siyasət sahəsində gənc Sovet dövlətinin qarşısında duran əsas vəzifə ölkənin müharibədən çıxmasını təmin etmək idi. Odur ki, 1917-ci il dekabrın 3-də Brest-Litovskidə Sovet Rusiyası ilə alman bloku-Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan arasında danışıqlar başladı. Gərgin danışıqlardan sonra nəhayət dekabr ayının 15-də Sovet Rusiyası ilə Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında 28 günlük barışıq imzalandı. Barışıqdan istifadə edən Sovet hökuməti bir daha Antanta ölkələrini sülh danışıqlarına cəlb etmək istəsə də buna nail ola bilmədi, çünki bu ölkələr Rusiyanı müharibədə saxlamaq məqsədilə Brest-Litovsk danışıqlarına mane olmağa çalışırdı.

Dekabr ayının 22-də Sovet Rusiyası nümayəndələri A.A.İoffenin rəhbərliyi ilə Alman bloku ölkələrinin nümayəndələri ilə sülh haqqında danışıqlara başladılar. Sovet nümayəndə heyəti bir daha Sülh haqqında Dekretin prinsiplərini özündə əks etdirən fikirləri danışıqlarda səsləndirdi. Dekabrın 28-də sülh haqqında danışıqların birinci mərhələsi başa çatdı və 1918-ci il yanvarın 9-da ikinci mərhələ başlandı. Bu danışıqlarda sovet nümayəndə heyətinə L.D.Trotski başçılıq edirdi. Alman nümayəndə heyətinin rəhbəri Fon Külman çıxış edərək göstərdi ki, Antanta ölkələri danışıqlarda iştirak etmədiyi üçün «ilhaqsız və təzminatsız» sovet sülh təklifi qəbul edilə bilməz, indi söhbət yalnız separat sülh haqda gedə bilər. Almanların irəli sürdüyü general «Hofman xətti» şərti adı almış plana görə Polşa, Litva, Belarusiya, Ukrayna, Latviya, Estoniyanın bir hissəsi tutulurdu. Eyni zamanda Moozund adaları və Riqa körfəzi almanların əlində qalırdı. Bu plan keçmiş Rusiya imperiyasının 150 min kv.km ərazisini zəbt etməyi nəzərdə tutan bir sənəd idi.

Almaniyanın irəli sürdüyü ağır şərtlər müzakirə edilərkən həm Sovet hökuməti, həm də bolşevik rəhbərliyi arasında ciddi fikir ayrılığı aşkar oldu. Sol eserlər belə hesab edirdilər ki, bu şərtləri qəbul etmək satqınlıqdır və inqilabı müdafiə etmək üçün hərbi əməliyyatları davam etdirmək lazımdır. Onlar danşıqlarda iştirak etməkdən imtina etdilər və öz nümayəndələrini

sovet nümayəndə heyətinin tərkibinə daxil etmədilər. V.İ.Lenin köhnə ordunun döyüş qabiliyyətini itirdiyini nəzərə alaraq sovet hakimiyyətini saxlamaq üçün alman təklifini danışıqsız qəbul etməyi təkid edirdi. «Sol» kommunistlər N.İ.Buxarin, K.B.Radek, Q.L.Pyatakov, F.E.Dzerjinski danışıqlara getməməyi və dünya inqilabının qələbəsi məqsədilə alman militarizminə qarşı mübarizəni gücləndirməyi tələb edirdilər. L.D.Trotski «Nə sülh, nə müharibə!» şüarını irəli sürdü ki, bu da hərbi əməliyyatları dayandırmaq və müqaviləni imzalamaqdan imtina etmək demək idi. Sovetin nuümayəndə heyətinin başçısı L.D.Trotski N.V.Krılenkoya teleqram göndərdi və müharibənin dayandırılması, ordunun tərxis edilməsi haqqında əmr verilməsini tələb etdi. Özü isə nümayişkaranə surətdə Bresti tərk edərək bildirdi ki, belə soyğunçu sülh müqaviləsini imzalamayacaq. Bundan istifadə edən alman komandanlığı barışıq şərtlərini pozaraq 1918-ci il fevral ayının 18-də bütün rus-alman cəbhəsi boyu hücuma keçdi. Köhnə ordu qalıqlarını məğlub edən düşmən qoşunları bir neçə gün ərzində Latviya və Estoniyanı, Ukraynanın xeyli hissəsini, Dvinsk, Minsk, Polotsk şəhərlərini tutdular.

Belə bir ağır vəziyyətdə V.İ.Leninin təkidi ilə XKS fevralın 19-da Almaniyanın şərtlərini qəbul etdi və danışıqlara getməyi təklif etdi. Eyni zamanda hökumət düşmən hücumunun qarşısını almaq məqsədilə fevralın 21-də «Sosialist vətəni təhlükədədir!» dekretini qəbul etdi. Bu bütün qüvvələri işğalçılarla mübarizəyə səfərbər etdi. Nəticədə 1918-ci il fevralın 23-də Qırmızı Ordu düşməni Pskov yaxınlığında dayandırdı.

Nəhayət, 1918-ci il martın 1-də Brest-Litovskidə sülh konfransının iclası yenidən başlandı. Sovet nümayəndə heyətinə Q.Y.Sokolnikov rəhbərlik edirdi. G.V.Çiçeren, Q.İ.Petrovski, L.M.Karaxan nümayəndə heyətinə daxil idi. Çiçerin Georgi Vasileviç (1872-1936) 1905-ci ildən RSDFP-nin inqilabı hərəkatının iştirakçı, 1918-ci ildən isə bolşevik partiyasının üzvü olub. Peterburq Universitetinin məzmunu olan G.Çiçerin 1918-1930-cu illərdə RSFSR, sonra SSRİ Xarici işlər üzrə xalq komissarı olmuşdur. Xarici ölkələrlə konstruktiv əlaqələrin inkişaf etdirilməsi tərəfdarı olan G.Çiçerin belə hesab edirdi ki, Kominternin rəhbərliyi diplomatiyanın səmərəli fəaliyyətinə mane olur. O, 1927-ci ildə faktiki olaraq XİK-nin işindən kənarlaşdırılmışdır. Yüksək professionallığı və erudisiyası ilə seçilən G.Çiçerin Motsart yaradıcılığının dərin bilicisi olaraq həm də mahir piano ifaçısı olub.

Alman nümayəndəliyini isə Fon Rozenberq və general Hofman təmsil edirdi. Beləliklə, 1918-ci il mart ayının 3-də bir tərəfdən Sovet Rusiyası, digər tərəfdən Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Türkiyə arasında 14 maddədən ibarət sülh müqaviləsi imzalandı. Tərəflərin imzaladığı müqaviləyə əsasən Sovet Rusiyasından 46 milyon nəfər əhalinin yaşadığı bir milyon kv.m. ərazi, o cümlədən Polşa, Pribaltika, Belarusiyanın bir hissəsi, Qars, Ərdəhan, Batum alınırdı. Sovet hökuməti öz qoşunlarını Ukraynadan geri çəkməyi, 3 milyard manat təzminat ödəməyi, mərkəzi Avropa ölkələrində inqilabi təbliğatı dayandırmağı öz öhdəsinə götürürdü. Brest müqaviləsinə əlavə olaraq 1918-ci il avqustun 27-də Almaniya Rusiyaya iqtisadi məsələlərə dair müqavilə qəbul etdirdi ki, buna görə Sovet Rusiyası qarşı tərəfə 6 milyard marka təzminat ödəməli idi. (450 ton qızıl)

1918-ci il martın 14-də Moskvada toplanan IV fövqəladə Sovetlər qurultayı böyük səs çoxluğu ilə Brest sülhünü təsdiq etdi. Lehinə 784 nəfər, əleyhinə 261 nəfər səs verdi, 115 nəfər isə bitərəf qaldı. Brest sülhünün bağlanmasına qarşı etiraz əlaməti olaraq sol eserlər martın 15-də Sovet hökuməti tərkibindən çıxdılar. L.D.Trotski Xalq xarici işlər Komissarı vəzifəsindən istefa verdi, onun yerini G.V.Çiçerin tutdu. Bu vaxtdan etibarən Sovet Rusiyasının icraedici orqanlarında təkpartiyalı sistem bərqərar oldu. Bolşeviklərin sol eserlərlə hökumət koalisiyası dağıldı.

Brest sülh müqaviləsi 1918-ci il martın 22-də alman Reyxstaqı tərəfindən bəyənildi, martın 26-da isə Almaniyanın imperatoru II Vilhelm tərəfindən təsdiq olundu. Lakin ağır Brest sülhü uzun çəkmədi, belə ki, Almaniyada baş verən noyabr inqilabı nəticəsində II Vilhelm üsul-idarəsi devrildi. Bundan istifadə edən Sovet hökuməti 1918-ci il noyabrın 13-də Brest-Litovsk müqaviləsini ləğv etdi, itirdiyi ərazilərin çox hissəsini özünə qaytardı.

## Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə

***Vətəndaş müharibəsinin səbəbləri.*** Cəmiyyətin dərindən və əsaslı olaraq siyasi parçalanmağa məruz qalması vətəndaş müharibəsinə səbəb oldu. Bu onunla izah edilirdi ki, əks tərəflərdə duran siyasi qüvvələr aralarında yaranan kəskin ziddiyyətləri həll etməyin sülh və ya qarşılıqlı güzəşt yolunu seçmək arzusundan və imkanından çox uzaq idilər. Odur ki, xüsusi amansızlığı ilə fərqlənən vətəndaş müharibəsi Rusiya tarixinin dəhşətli faciəsi olaraq 13 milyon nəfər insanın ölümünə səbəb olmuşdur. Qardaşın qardaşı öldürdüyü, atanın oğulla müharibəsi, ailələri və qohumluq əlaqələrini parçalayan, şəhərlə kəndi, ölkənin ayrı-ayrı hissələrin qarşı-qarşıya gətirən vətəndaş müharibəsi qeyri-insani hadisələrlə dolu olan tarixə vurulan bir damğa kimi yaddaşlara həkk edilib.

Vətəndaş müharibəsi hadisələrində bir-birinə qarşı müxtəlif şüar, bəyənnamə, proqramla duran siyasi qüvvələrin bir neçəsi ön plana çıxır. Onların toqquşması monarxiyanın, sonra isə Müvəqqəti hökumətin devrilməsi prosesinin bir başa nəticəsi idi. Bolşeviklər birinci böyük təşkilatlanmış qüvvə idi. Onlar Lenin və silahdaşları başda olmaqla Oktyabr silahlı üsyanından sonra sosialist inqilabının siyasi və sosial-iqtisadi proqramını qətiyyət və ardıcıllıqla həyata keçirməyə başladılar. Bolşevik liderləri açıq bildirirdilər ki, bütün bunlar çoxlu qurban tələb edir, hətta onlar inqilabı vətəndaş müharibəsi kimi nəzərdə tuturdular.

İkinci siyasi qrup Oktyabr xəttini qəbul edən və nümayəndələri sovet hökumətinin tərkibində təmsil olunan, kommunist rejiminin ilk aktlarını, o cümlədən Müəssislər Məclisinin qovulmasını müdafiə edən sol eserlər idi. Lakin Brest sülhünün imzalanması və ərzaq diktaturası siyasəti gedişində kəndlilərə tətbiq edilən zorakılıq onları məcbur etdi ki, bolşeviklərlə ittifaqı pozsunlar. Sol eserlər bolşeviklərlə özləri başa düşdüyü kimi Oktyabr uğrunda mübarizə aparırdılar. Bu partiyanın nüfuzlu rəhbəri M.A.Spiridonova çılğıncasına bolşevikləri onda günahlandırırdı ki, onlar fəhlə-kəndli inqilabının «qatili» kimi çıxış edərək «Oktyabrı öldürmək» üçün hər şeyi edirlər.

Fevralı 1917-ci ilin mart ayından oktyabra kimi ölkənin taleini müəyyən edən iki mühüm siyasi hərəkat-sağ sosialistlər və liberallar təmsil edirdilər. Öz aralarında fikir ayrılığına baxmayaraq həm liberallar, həm də sağ sosialistlər ölkəni fevraldan sonrakı demokratiyaya qaytarmaq üçün bolşeviklərlə axıra kimi mübarizədə bir idilər. Rusiyada monarxiyanın xeyli tərəfdarı qalmaqda idi ki, onların da çox hissəsini ağ cəbhənin əsas zərbə qüvvəsini təşkil edən zabitlər təmsil edirdilər.

Bolşeviklərin əleyhinə olan bu qüvvələri, həm də xariciləri mülkiyyətdən məhrum edən və Rusiyanın borclarını ödəməkdən imtina edən bolşeviklərdən narazı qalmış xarici dövlətlər də müdafiə edirdi. Eyni zamanda bolşeviklər Almaniya ilə sülh bağlayaraq Rusiyanı müharibədən çıxarmışdılar. Bu Antantanı Almaniyanın əleyhinə olan qüvvələri Rusiyada hakimiyyəti qaytarmağa kömək etməyə sövq edirdi. Nəhayət, Qərb hökumətləri öz ölkələrində inqilabın yayılmasından ehtiyat etdikləri üçün «Rusiyada qarışıqlığın qarşısını almaq və qayda-qanunu bərpa etmək» niyyətində idi.

Rusiyada vətəndaş müharibəsinin dövrləşməsi mübahisəli olaraq qalır. Bir qayda olaraq Sovet tarixçiləri belə hesab edir ki, 1918-ci il may-iyun aylarında Çexoslovak korpusunda baş verən qiyam onun başlama tarixidir. Çünki mütləq qaydada bu vaxtdan etibarən müharibə problemi Sovet hökumətinin fəaliyyətində ön plana çıxır. Başqa bir nöqteyi-nəzərə görə Rusiya ərazisinə xarici müdaxilənin başlandığı 1918-ci ilin mart ayı Vətəndaş müharibəsinin əvvəli hesab olunmalıdır.

Xaricdə və 90-cı illərdə Rusiyada çap edilən tədqiqatlarda prinsipcə yeni, başqa bir fikir deyilir. Vətəndaş müharibəsinin başlanma tarixi bolşeviklərin silahlı üsyan vasitəsilə hakimiyyəti qəsb etməsi və ya Müəssislər Məclisinin qovulması, yəni 1917-ci ilin oktyabr və 1918-ci ilin yanvar hadisələri hesab edilir. Son dərəcə ifrat bir fikrə əsasən isə Rusiyada Vətəndaş müharibəsi 1917-ci ilin fevralında çarizmin devrilməsindən başlayır. Rusiyada Fevral inqilabından sonra bir müddət hadisələrin dinc şəraitdə cərəyan etdiyinə görə bu fikri əsaslı hesab etmək qeyri-mümkündür.

Müasir tədqiqatçılar 1921-ci ili Vətəndaş müharibəsinin sonu hesab edirlər. Belə ki, onlar yalnız ağ ordunun darmadağın edilməsinin deyil, kəndli üsyanlarının yatırılmasına, Kronşdat qiyamının ləğv edilməsinə və s. Vətəndaş müharibəsinin hadisələri kimi qiymət verirlər.

Faktiki olaraq Vətəndaş müharibəsi Rusiyanın ucqarlarında bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra başladığına görə dövrümüzün alimlərinin çoxu 1917-ci ilin oktyabrından 1918-ci ilin yazına kimi olan vaxtı Vətəndaş müharibəsinin birinci mərhələsi hesab edir. 1918-ci ilin may ayında başa çatan bu mərhələ üçün milli rayonlarda və kazakların yaşadığı ərazilərdə çox da böyük olmayan hərbi əməliyyatlar xarakterikdir.

1918-ci ilin may ayından noyabra kimi davam edən ikinci mərhələ üçün xarakterik cəhət sağ sosialist partiyaların ağ hərəkata siyasi rəhbərlik etməsidir. Vətəndaş müharibəsinin əsas cəbhəsi isə Şərq cəbhəsi idi. 1918-ci il mayın 27-də 30 minlik Çexoslovak korpusu Sovet hakimiyyətinə qarşı qiyam qaldırdı ki, bu da bəhs edilən mərhələnin əsas hadisəsi oldu.

1918-ci ilin noyabr ayından Birinci Dünya müharibəsinin başa çatması ilə 1919-cu ilin yazına kimi olan zaman Vətəndaş müharibəsinin üçüncü mərhələsi hesab edilir. Alman cəbhəsi ilə hərbi əməliyyatlar aparmaqdan azad olan Antanta ölkələri Rusiyadakı hadisələrə fəal qoşulmağa başladılar. Ağ hərəkatda siyasi rəhbərlik generalların əlinə keçdi. Vətəndaş müharibəsinin əsas cəbhəsi isə Cənub cəbhəsi oldu.

1919-cu ilin mart ayından 1920-ci ilin martına kimi olan müddət Vətəndaş müharibəsinin dördüncü mərhələsini təşkil edir. Xarici müdaxiləçilərin Uzaq Şərq istisna olmaqla Rusiyanın bütün ərazisindən çıxarılması bu mərhələnin xarakterik xüsusiyyətidir. Vətəndaş müharibəsinin əsas cəbhəsi əvvəlcə A.V.Kolçaka qarşı Şərq, sonra A.İ.Denikinə qarşı Cənub cəbhəsi idi.

Kolçak Aleksandr Vasilyeviç (1873-1920) 1917-ci il Fevral inqilabından sonra sovetlərlə və Müvəqqəti hökumətlə əməkdaşlıqdan imtina edərək İngiltərəyə mühacirətə getmiş, Vətəndaş müharibəsi illərində Antanta dövlətləri tərəfindən Rusiyanın Baş hakimi kimi tanınmışdır. Şərq cəbhəsindəki döyüşlərdə məğlub olduqdan sonra Rusiyanın bir neçə ton qızıl ehtiyatı ilə xaricə qaçmağa cəhd edərkən əsir alınıb güllələnmişdir. Onun ələ keçirdiyi qızıl ehtiyatı bu gün də tapılmamışdır.

1920-ci ilin yazında ağ hərəkatın əsasən məğlub edilməsi ilə Vətəndaş müharibəsinin beşinci mərhələsi başlayır. Sovet-Polşa müharibəsi, Krımda ağların son qalasının alınması, kəndli üsyanları və Kronşdat qiyamının yatırılması, Sovet hikimiyyətinin Cənubi Qafqaz, Orta Asiya və Uzaq Şərqdə qurulması bu mərhələnin mühüm hadisələridir. 1921-1922-ci illər mərhələnin sonu kimi qəbul edilir. Bəzi tarixçilər Orta Asiya və Uzaq Şərqdə Sovet hakimiyyətinin bərqərar olmasını Vətəndaş müharibəsinin xronoloji ardıcıllığından kənarda təsəvvür edir.

Don, Kuban, Terekdən Amura və Sakit okeana kimi olan 11 kazak vilayətində 10 milyon nəfərdən çox əhali məskunlaşmışdır. Keçmişdə müstəqil idarəçiliyə və sosial-iqtisadi azadlığa malik olmaq uğrunda mübarizə aparan kazaklar Rusiya imperiyası tərkibində xüsusi statusa malik idilər. Onların çox hissəsi varlı kazaklardan ibarət idi ki, Sovet hakimiyyəti kazaklara verilmiş güzəştləri ləğv etdi. Kazaklıqdan salmaq, torpaqların onlar arasında bərabər bölüşdürülməsi bolşeviklərin ciddi yanlışı idi. Nəticədə ilk zamanlar bolşevik hakimiyyətinə qarşı bitərəf movqe tutan kazaklar onun fəal düşməninə çevrildilər.

Donda başlayan antibolşevik hərəkatın başında A.M.Kaledin dururdu. 1917-ci ilin oktyabrın 25-də Donbasda hakimiyyəti ələ alan general A.Kaledin 15 minlik ordu ilə hücum edib Rostov-Don və Taqanroqu ələ keçirsə də 1918-ci ilin yanvarında məğlub oldu və özünü güllələdi. 1917-ci ilin noyabr ayında Könüllülər ordusunun əsası qoyuldu ki, bu da inqilabla, qırmızı ilə kontrast təşkil edən ağ hərəkatın başlanması idi. Bu ordunun əsasını sovet hakimiyyətini qəbul etməyən sabiq çar zabitləri, yunkerlər, tələbələr, gimnazistlər və b. təşkil edirdi. Könüllülər ordusuna əvvəlcə L.G.Kornilov komandanlıq edirdi, 1918-ci il apreldə onun ölümündən sonra A.İ.Denikin orduya komandan oldu. 1918-ci ilin fevralında Alman qoşunları Ukrayna və Don kazaklarının yaşadığı əraziləri işğal etdi. Burada almanların köməyi ilə general P.N.Krasnovun ağ rejimi bərqərar oldu. Almanlarla əməkdaşlıqdan imtina edən Könüllülər ordusu cənuba çəkildi.

Bu zaman kəsiyində formalaşan antibolşevik hərəkat mərkəzləri özünün sosial-siyasi tərkibinə görə bir-birindən fərqlənirdi. Belə ki, 1918-ci ilin fevralında Moskva və Petroqradda kadet, menşevik və eserləri birləşdirən «Rusiyanı Dirçəltmək İttifaqı» yaradıldı. Mart ayında isə məşhur eser terrorçu B.V.Savinkovun rəhbərliyi ilə «Vətəni və azadlığı müdafiə ittifaqı» meydana gəldi. Bütün bu ictimai-siyasi və hərbi qüvvələrin əsas məqsədi bolşeviklərə qarşı mübarizə apararaq onların hakimiyyətini devirmək idi.

Antanta dövlətləri ilk vaxtlar bolşeviklərin hakimiyyətinə qarşı gözləmə mövqeyi tuturdu. Lakin Sovet hökuməti Antanta ölkələri qarşısında bütün öhdəlikləri, o cümlədən çar və Müvəqqəti hökumətlərin borclarını ödəməkdən imtina etdikdən və Brest-Litovsk sülhünü imzaladıqdan sonra Rusiyanın keçmiş müttəfiqləri ona qarşı açıq hərbi müdaxiləyə başladılar. 1918-ci ilin mart ayında Murmansk və Arxangelskə ingilis ekspedisiya korpusu çıxarıldı. Tezliklə fransız və amerikan əsgərləri onlara qoşuldu və sayları 17 min nəfərə çatdı. Aprel ayında Vladivostoku yapon desantçıları tutdu. Bunun ardınca Uzaq Şərqdə amerikan, fransız və ingilis kontingenti peyda oldu. İşğal edilən ərazilərdə Sovet hakimiyyəti devrildi. Antantanın köməyi ilə ağ ordular təşkil edilməyə başlandı.

Antanta dövlətləri özlərinin hərəkətlərinə haqq qazandırmaq məqsədilə iddia edirdilər ki, biz Primoryenin şəhər anbarlarında yığılıb qalmış külli miqdarda silah sursatın alman ordusuna verilməsinin qarşısını almaq üçün belə bir addım atmışıq. Əslində Antanta ölkələri Rusiyanı nüfuz dairələrinə bölməyi planlaşdıraraq, onun ərazisində öz vətəndaşlarının itirdiyi mülkiyyəti və borcları qaytarmağı qarşısına məqsəd qoymuşdur.

Bolşeviklərə qarşı ilk qiyamı 1917-ci il oktyabrın 29-da Petroqradda yerləşən hərbi uçilişin, yəni yunker məktəbinin kursantları başlamış, bunun ardınca sabiq baş nazir Kerenski şimaldakı hərbi hissələrin birini Petroqrad üzərinə yeritmişdir. Lakin hər iki hücum bolşeviklər tərəfindən ləğv edildi. Bu hadisələrdən başlayaraq, yəni 1917-ci iln oktyabrından 1918-ci ilin yazına kimi baş verən hadisələri Vətəndaş müharibəsi tarixinin birinci mərhələsinə aid etmək olar. Yeri gəlmişkən qeyd edək ki, müəllif də bu fikri müdafiə edir.

Fevral inqilabından sonra Rusiyada Birinci Dünya müharibəsində Avstriya-Macarıstana qarşı mübarizə apararaq müstəqil Çexoslovakiya dövlətini yaratmaq məqsədilə əsir düşən çex və slovaklardan ibarət korpus yaradılmışdır. Korpusdan cəbhədə Avstriya ordusuna qarşı istifadə etmək nəzərdə tutulsa da bolşeviklər hakimiyyətə gəldikdən və sülh bağlandıqdan sonra bu mümkün deyildi. Odur ki, qərara alındı ki, korpus dəmir yol vasitəsilə Vladivostoka, oradan isə dəniz yolu ilə Fransaya göndərilsin. 1918-ci ilin yazında Çexoslovak əsgərləri ilə dolu vaqonlar Penzadan Baykala doğru dəmir yolu boyu səpələnmişdir. Sovet hökuməti tələb etdi ki, korpusun əsgərləri silahlarını təhvil verməklə ölkəni tərk edə bilərlər. Bu isə çexoslovak əsgərləri arasında antisovet əhval-ruhiyyəsinin artmasına səbəb oldu. 1918-ci il mayın 27-də 30 minlik çexoslovak korpusu əsgərləninin qiyamı başladı. Çexoslovak əsgər birliklərinin qiyamı nəticəsində Orta Volqa, Ural, Sibir və Uzaq Şərqdə Sovet hakimiyyəti yıxıldı. Samara, Ufa və Omsk şəhərlərində kadet, eser və menşeviklərdən ibarət hökumətlər təşkil edildi. Bu hökumətlər Müəssislər Məclisini bərpa etmək məqsədilə bolşeviklərə və sərt sağ qaragüruhçulara qarşı mübarizədə birləşdilər.

Samarada Müəssislər Məclisinin əsasən eserlərdən ibarət olan deputatlarının daxil olduğu Müəssislər Məclisi üzvləri Komitəsi (KOMUÇ) yaradıldı. Komitə özünün 30 minlik «Xalq ordusu»nu formalaşdırdı. 1918-ci ilin payızında ümumrusiya hökuməti rolunu oynayan Ufa Direktoriyası meydana çıxdı. Onun təşkilatçıları əsasən sağ eserlərdən ibarət idi.

Sol eserlər belə hesab edirdilər ki, ölkədə yaranan mürəkkəb şərait bolşevik hökumətinin diktaturasını devirmək üçün əlverişlidir. Onlar 1918-ci il iyulun 6-da Moskvada siyasi terror təşkil edərək Almaniyanın səfiri Mirbaxı öldürdülər. Eserlərin bolşevik partiyasının diktaturasına qarşı çıxışı Rusiyanın bir çox şəhərlərini, o cümlədən Vitebsk, Vladimir, Orş və başqa yerləri bürüdü. Onların əsas şüarı Almaniya ilə yenidən müharibəyə başlamaq idi. Demək olar ki eyni vaxtda Rusiyanın şimalında, o cümlədən Yaroslavl, Rıbinsk və Muromda üsyanlar alovlandı. Eserlər ingilislərin köməyinə bel bağladılar. Lakin bütün bu çıxışlar yatırıldı və onların rəhbərləri həbs edildi. Bolşeviklərin siyasətinə qarşı çıxış edən sol

eserlərin nümayəndələri bütün sovetlərdən və dövlət orqanlarından qovuldular. F.Dzerjinskinin müavini V.A.Aleksandroviç başda olmaqla çıxışların 12 nəfər təşkilatçısı güllələndi.

1918-ci ilin iyun ayında qiyam qaldıran çexoslovak korpusuna, Ural və Sibirdəki antisovet qüvvələrə qarşı mübarizə aparmaq məqsədilə İ.İ.Vatsetisin komandanlığı (1919-cu ilin iyulundan S.S.Kamenevin) altında Şərq cəbhəsi təşkil edildi. Sentyabrın əvvəllərində Qızıl Ordu hücuma keçərək düşməni Uralın o biri tərəfinə doğru sıxışdırdı.

Sovet hakimiyyəti Qızıl Ordunun döyüş qabiliyyətini möhkəmlətmək üçün bir sıra tədbirlər gördü. Belə ki, Qızıl Ordunun ali, baş və orta komanda heyətinin çox hissəsi əsasən keçmiş çar ordusunun general və zabitlərindən ibarət hərbi mütəxəssislərdən təşkil olunurdu. Bu adamların bolşeviklərə xidmət etməsinin müxtəlif səbəbləri var idi. Onların bir çoxu yaranmış vəziyyətdən çıxış yolu tapa bilmədikləri üçün, bəziləri Rusiyanı vahid dövlət kimi yalnız bolşeviklərin müdafiə edəcəklərinə inandıqları üçün, axırıncılar isə Sovet hakimiyyəti ideyasını səmimi olaraq qəbul etdikləri üçün bu işə qoşulmuşdular. Buna baxmayaraq, hərbi mütəxəssislərə hakim partiya demək olar ki, inanmırdı. Hər bir Qızıl Ordu komandirinə bolşevik partiyasının üzvü olan hərbi komissar (voyenkom) təhkim olunurdu ki, onların da satqınlıq faktı aşkar edildikdə komandiri güllələmək hüququ da daxil olmaqla fövqəladə səlahiyyətləri var idi.

***"Hərbi kommunizm" siyasəti.*** Cəbhədəki ağır vəziyyət Sovet dövlətini məcbur etdi ki, 1918-ci ilin mayından başlayaraq fövqəladə tədbirlər həyata keçirsin. Mayda verilən dekretlə kənd yerlərində ərzağı müsadirə etmək hüququna malik olan xüsusi fəhlə dəstələri təşkil olundu. Eyni zamanda kəndlilərin narazılığından ehtiyat edən hökumət öz sosial bazasın möhkəmlətmək məqsədilə yoxsul komitələri (kombedlər) yaratdılar. Onların əsas vəzifəsi kənd təsərrüfatı məhsullarının toplanmasına kömək etmək idi. Toplanan məhsulun bir hissəsi komitə üzvlərinə çatırdı. Yeni ərzaq siyasəti kəndin təbəqələşməsinə və siyasi cəhətdən bölünməsinə səbəb oldu. Bundan sonra öz hüquqlarının tapdalandığını hesab edən kəndlilərin bir hissəsi «ağ» hərəkata qoşuldu, digər bir hissəsi isə nə «ağları», nə də «qırmızıları» qəbul etməyərək partizan hərəkatında birləşdilər.

Faktiki olaraq «kombedlər» kəndlərdə hakimiyyəti ələ aldılar. Onlar kənd sovetlərini buraxır və ya yenidən seçir, Qızıl Orduya əsgər toplayır, özbaşına olaraq torpaq paylarını yenidən bölüşdürür, kəndliləri kollektiv təsərrüfatlara daxil olmağa məcbur edirdilər. Bütün bunlar isə kəndlilərin yeni hakimiyyətə qarşı narazılığına səbəb olurdu.

1918-ci ilin sonunda «kombed»lər və onların yaratdığı kollektiv təsərrüfatlar buraxıldı. Ərzağın zorla müsadirə edilməsini ərzaq sapalağı əvəz etdi. Buna görə də, kəndlilər taxılın yemək və səpin üçün lazım olan az hissəsini saxlayır, qalan hissələrini sabit qiymətlərlə məcburi dövlətə təhvil verirdilər. 1919-cu il 11 yanvar tarixli Dekretinə müqavimət göstərənlərə və öz taxıl ehtiyatlarını gizlədənlərə qarşı sərt tədbirlər görülür, onların əmlakı müsadirə edilərək azadlıqdan belə məhrum edilirdilər. Çox vaxt ortabab kəndlilər də ərzaq dəstələrinin özbaşınalığının qurbanı olurdu. Bununla bağlı kənddə narazılıq artırdı. Ümumən ərzaq sapalağının tətbiqi uğurlu olmadı. Lakin buna baxmayaraq hakimiyyət orqanları ərzaq sapalağı siyasətini 1921-ci ilin yazına kimi davam etdirdi.

Xalq Komissarları Soveti 1918-ci il noyabrın 21-də ölkə əhalisinin təchizatını təşkil etmək haqqında dekret verdi. Bu sənədə görə bütün ərzağın tədarükü və bölgüsü dövlətin əlinə keçirdi, yəni xüsusi ticarət dövlət bölgüsü ilə əvəz edilirdi. 1920-ci ilin dekabrında isə ərzaq payı, mənzil, kommunal xidmətlər, yanacaq, nəqliyyat, poçt, teleqraf, telefon, hamam haqqı ləğv edilirdi. Bütün bunlar zahirən də olsa kommunizm üçün səciyyəvi olduğuna görə tarixə «hərbi kommunizm» siyasəti adı ilə daxil olmuşdur.

«Hərbi kommunizm» siyasəti dövründə siyasi sahədə RK(b) P-nin bölünməz diktaturası bərqərar oldu. Bolşeviklər partiyası tədricən siyasi təşkilat olmaqdan çıxaraq dövlət aparatı strukturuna çevrildi. Partiya ölkədə, hətta vətəndaşların şəxsi həyatında belə siyasi, ideoloji, iqtisadi və mədəni şəraiti müəyyən etməyə başladı. Bolşeviklərin diktaturasına, iqtisadi və sosial siyasətinə qarşı mübarizə aparan kadet, menşevik, eserlər (əvvəlcə sağ, sonra sollar)

partiyası qadağan olundu. Görkəmli ictimai xadimlərin bir hissəsi xaricə mühacirətə getdi, digər bir hissəsi cəza tədbirlərinə məruz qaldı. Siyasi müxalifəti dirçəltmək cəhdlərinin qarşısı zor gücünə alınırdı. Bütün səviyyədə olan sovetlərdə bolşeviklər yenidən seçkilər və qovmaq yolu ilə tam təkhakimiyyətliliyə nail oldular.

Sovetlərin fəaliyyəti bolşevik partiyası orqanlarının göstərişlərini yerinə yetirdiyinə görə formal xarakter daşıyırdı. Partiya və dövlət nəzarəti altına alınan həmkarlar təşkilatları müstəqilliyini itirmişdir. Onlar fəhlələrin maraqlarını qorumaqdan məhrum oldu. Proletariat öz dövlətinə qarşı çıxış etməməlidir saxta şüarı altında tətil hərəkatı qadağan edildi. Elan edilmiş söz və mətbuat azadlığına riayət edilmirdi. Demək olar ki, bolşeviklərə məxsus olmayan bütün orqanlar bağlanmışdır. Nəşriyyat fəaliyyəti əsasən ciddi qaydalara tabe tutularaq son dərəcə məhdudlaşdırılmışdır.

Vətəndaş müharibəsi illərində bolşeviklərin yeritdiyi siyasətdə dövlət terrorizmi mühüm yer tutur. Bunun səciyyəvi cəhəti ondan ibarət idi ki, terror heç bir qanuni əsasa söykənmirdi və məqsədi günahkarın islah olunması üçün profilaktik tədbir görəmək deyil əhali arasında qorxu xofu yaymaq idi. Kütləvi xarakter daşıyan və on minlərlə insanı istintaqsız və məhkəməsiz ölümə məhkum edən terroru həyata keçirmək Ümumrusiya Fövqəladə Komissiyasına həvalə edilmişdir. 1917-ci il dekabrın 7-də F.Dzerjinskinin sədrliyi ilə fəaliyyətə başlayan ÜFK-sı ilk vaxtlar tədqiqat aparmaq və cəza olaraq isə əmlakdan və ərzaq kartoçkasından məhrum etmək hüququ olan orqan kimi yaradılmışdır. Lakin tezliklə yerli «çekist»lər həbs edilənləri qısa mühakimədən sonra güllələməyə başladılar. Bolşevik rəhbərliyi və o cümlədən V.İ.Lenin bu «xalq terrorunu» bəyəndi. Odur ki, «çekist»lərin sayı durmadan artırdı. 1918-ci ilin aprelində onların sıralarında min nəfər, 1919-cu ilin yanvarında 37 min nəfər, 1921-ci ilin yazında isə 233 min nəfər var idi. 1918-ci il iyunun 6-da ölüm hökmü bərpa edildi. 1918-ci il avqustun 30-da V.İ.Lenin və M.S.Uritskiyə qəsdin təşkilindən sonra edam kütləvi xarakter aldı. Məhz bu zaman rəsmi olaraq qırmızı terror siyasəti başladı. Sentyabr ayının 3-də Petroqradda 500 nəfər girov və şübhəli şəxs güllələndi. 1918-ci ilin sentyabrında 400 yerli Fövqəladə Komissiya Dzerjinskidən belə bir göstəriş aldı ki, «çekist»lər axtarış, həbs və edam fəaliyyətlərində tam müstəqildirlər, yalnız əməliyyatın nəticələri haqqında hesabatı XKS-nə təqdim etməlidirlər. Əlbəttə, yalnız «çekist»lər özbaşınalaq etmirdilər, ağqvardiyaçılar da «qırmızı rayonlarda» «qılınc və odla» qorxu yaradırdılar.

ÜFK inqilaba kimi Rusiyada olmayan iki cəza növünü işə saldı: girov götürmək və islah-əmək düşərgələri. 1918-ci il iyunun 4-də L.D.Trotskinin əmri ilə ilk düşərgə yaradıldı ki, bura da silahların verməkdən imtina edən ağçexlər salındı. Avqust ayında Murom və Arzamasda «təxribatçı, əksinqilabçı zabitlər, sabotajçılar, tüfeylilər və alverçilər» üçün iki düşərgə salındı. 1918-ci il sentyabrın 5-də «qırmızı terror» tüğyan etdiyi bir vaxtda XKS düşərgələrin yaradılmasını bəyənərək elan etdi ki, «sinfi düşmənlərdən Sovet Respublikasının təhlükəsizliyini qorumaq məqsədi ilə onları həbs düşərgələri vasitəsilə təcrid etmək zəruridir». 1919-cu il aprelin 15-də hökumət vermiş olduğu dekretlə düşərgələrin strukturunu təsdiq edərək Daxili İşlər Xalq Komissarlığına tabe olan düşərgələrdə məcburi işlərin şərtləri xırdalığına kimi müəyyən edildi. İki növ düşərgə müəyyən edildi: birincisi tribunalın cəzalandırdığı adamların cəmləşdiyi XDİK, ikincisi inzibati qaydada həbs olunan «mümkün sinfi düşmənlər», «yad elementlər», «tüfeylilər»in yığıldığı ÜFK-nin tabeliyində olan müəssisələr. Bu rəsmi orqanların məlumatına görə 1921-ci il yanvarın 1-də XDİK-nin həbs düşərgələrində 51 min, ÜFK-nin düşərgələrində isə 25 min məhbus var idi. Qeyd etmək yerinə düşər ki, rəsmi orqanların bu rəqəmləri real vəziyyətdə olandan çox aşağı idi.

***Vətəndaş müharibəsi və xarici hərbi müdaxilənin şiddətlənməsi.*** 1918-ci il noyabrın 11-də Almaniyanın təslim olması ilə Birinci Dünya müharibəsi başa çatdı. Alman cəbhəsindəki döyüşlərdən azad olan Antanta ölkələri öz qoşunlarını Qara dəniz sahillərinə çıxararaq Rusiyadakı hadisələrə daha fəal müdaxilə etməyə başladılar. Ağ hərəkatda siyasi rəhbərlik sosialistlərdən generalların əlinə keçdi. Bu, vətəndaş müharibəsinin gedişində üçüncü mərhələnin başlanması demək idi və 1919-cu ilin yazına kimi davam etdi. Antanta dövlətləri Sovet Rusiyasına qarşı müdaxilə təşkil edərək öz qoşunlarını Arxangelsk, Murmansk, Odessa,

Vladivostok və b. yerlərə çıxardı.

1918-ci ilin noyabrında Sibirdə bolşeviklərə qarşı admiral A.V.Kolçakın komandanlığı altında ağqvardiyaçı ordu vuruşurdu. Beləliklə, şərqdən Sovet Rusiyasına Kolçakın orduları, cənubdan A.İ.Denikinin komandanlığı altında olan ordu, Petroqrad istiqamətində N.N.Yudeniçin, şimaldan E.K.Millerin ağ orduları hücum edirdi. Sovet Rusiyası ağ orduların əhatəsinə alınmışdır.

1918-ci ilin noyabrında Antantanın köməyi ilə Direktoriyanı devirib hərbi diktatura quran admiral Kolçak özünü Rusiyanın Baş hakimi elan etdi. Ural, Sibir, Şimali Qazaxıstan, Uzaq Şərqin kazak rayonları, Ural və Qərbi Sibirin kəndliləri, Ural fəhlələrinin bir hissəsi Kolçak hakimiyyətinin sosial bazasını təşkil edirdi. 400 min nəfərə çatan Kolçak ordusu 1918-ci ilin qışına doğru hücuma keçib sovet qoşunlarını məğlub edərək Permi tutdular, dekabrın 31-də Qızıl Ordu onların hücumunu dayandırdı.

1918-ci ilin noyabrı-1919-cu ilin martında A.İ.Denikinin Könüllülər ordusu Donbası tutaraq Moskva üzərinə hücuma hazırlaşmağa başladı. Anton İvanoviç Denikin (1872-1947). General A.Denikin ağ hərəkatın rəhbərlərindən biri olaraq 1918-ci ilin aprelindən Könüllülər ordusunun komandanı kimi bolşevik hakimiyyətinə qarşı barışmaz mübarizə aparmışdır. Vətəndaş müharibəsi gedişində cənub cəbhəsində bir sıra döyüşlərdən sonra məğlub olaraq 1920-ci ilin aprelində ordu rəhbərliyini P.N.Vrangelə verərək İstanbula, sonra isə İngiltərəyə getmişdir. Mühacirətdə A.Denikin beşcildlik "Rus qarışıqlığının oçerkləri" əsərini yazmışdır ki, bu da Vətəndaş müharibəsi tarixinin öyrənilməsində dəyərli mənbə hesab edilir.

Antanta dövlətləri ağ qoşunları silah-sursat, geyim, tank, təyyarələrlə təmin edirdilər. Xarici işğalçıların müdaxiləsi artırdı. İngilislər Bakını tutaraq, Batum və Novorossiyskiyə çıxdılar, fransızlar Odessa və Sevastopolu tutdular. Lakin onlar fəal hərbi əməliyyatlar aparmırdılar. Qərbdə «Sovet Rusiyasından əlinizi çəkin» hərəkatının geniş miqyas alması, Antanta əsgərlərinin döyüşmək arzusunun olmaması müdaxilənin kəsərini xeyli azaltdı. Artıq 1919-cu ilin fevralında 58-ci fransa polkunun əsgərləri döyüşlərdə iştirak etməkdən imtina etdilər, mart ayında fransız gəmilərinin dənizçiləri üsyan qaldırdılar. Aprelin əvvəllərində müdaxiləçilər Odessanı tərk etdilər. Aprelin axırlarında Krımda sovet hakimiyyəti bərpa edildi.

Avropa və ABŞ-da «Sovet Rusiyasından əlinizi çəkin!» şüarı altında keçən ictimai hərəkat daha geniş miqyas almağa başladı. Bolşevik təbliğatının təsiri altında işğal edilmiş ərazilərdəki müttəfiq qoşunların əsgərləri arasında narazılıq və inqilabi əhval-ruhiyyə durmadan artırdı. Odur ki, müdaxiləçilər işğal etdikləri ərazilərdən öz ordularını çıxarmağa məcbur oldular. Uzaq Şərq istisna olmaqla Rusiyanın bütün ərazilərindən xarici müdaxiləçilər öz qoşunlarını çıxardılar.

1919-cu ilin mart ayından 1920-ci ilin martına kimi davam edən Vətəndaş müharibəsinin dördüncü mərhələsi başladı. Bu mərhələdə əsas hadisələr əvvəlcə Qızıl Ordunun A.V. Kolçak ağ ordularına qarşı vuruşduğu Şərq cəbhəsində, sonra isə A.İ.Denikinin ordusuna qarşı Cənub cəbhəsində cərəyan edirdi. Bu mərhələdə ağların hərəkatında siyasi hakimiyyət yenə generallara məxsus idi., lakin onlar artıq bolşeviklərlə mübarizədə açıq xalqı siyasi seçim etməyə təhrik etmirdilər. Bu dövrdə kəndlilər artıq sovet hakimiyyətinə tərəf dönüş etməyə başladılar.

Həlledici döyüşlər ərəfəsində 1919-cu ilin martında Kolçakın ordusu hücuma keçdi. General E.K.Millerin orduları, o cümlədən Yudeniçin silahlı qüvvələri və Denikin ordusu ilə qarşılıqlı əlaqə quraraq ağqvardiyaçılar Moskvaya doğru hərəkətə başladılar. Lakin 1919-cu ilin mayında S.S.Kamenevin komandanlığı altında Şərq cəbhəsində Qızıl Ordu Ufa yaxınlığında düşməni dayandıraraq özü əks-hücuma keçdi. Bu əməliyyatlar zamanı cəbhənin cənub qrupuna komandanlıq edən M.V.Frunzenin sərkərdəlik istedadı üzə çıxdı. Təqribən 100-120 min nəfər olan ağ ordu əsgərlərinin Şərq cəbhəsindəki hücumunun qarşısında həm də şimal qrupuna komandanlıq edən V.İ.Şorinin Qırmızı Ordu qoşunları dayanmışdır. Aprel-iyunda ardıcıl olaraq üç, Belebey, Buquruslan, Ufa əməliyyatlarını keçirən Qızıl Ordu düşməni darmadağın edərək Ural dağlarının ətəklərinə çıxdılar. Ural və Sibir uğrunda həlledici döyüşlər 1919-cu ilin yayında oldu. İyul-avqust aylarında Zlatoustov və Çelyabinsk əməliyyatlarında M.N. Tuxaçevskinin komandanlığı altında Qızıl Ordu qoşunları ağları əzərək Uralı ələ

keçirdilər, Sibirə yol açıldı. İki yerə parçalanmış Kolçak orduları Sibir və Türküstana çəkildi. Payızda Kolçak Qərbi Sibiri itirdi. Noyabr ayında qırmızılar Omski, dekabrda Novonikolayevski (Novosibirsk) və Tomski tutdular. 1920-ci ilin yanvarında arxa cəbhədə eserlərin siyasi mərkəzlərinin rəhbərliyi ilə üsyan qalxdığına görə Kolçak Rusiyanın Baş hakimi titulundan əl çəkdi. Şərqə getməyə cəhd edərkən həbs edildi və İrkutsk hərbi-inqiabi komitənin qərarı ilə 1920-ci ilin fevralında güllələndi. Ölkənin şərqindən Baykala qədər Sovet hakimiyyəti quruldu. Uzaq şərqdə isə Yapon müdaxiləçiləri və onların müdafiə etdikləri Zabaykal kazaklarının atamanı Q.M.Semyonovun hakimiyyəti qalmaqda idi.

Kubandan hücuma keçən general A.İ.Denikin 1918-ci ilin sonu-1919-cu ilin yayında bir sıra əməliyyatlardan sonra Ukrayna ərazisinin böyük əksəriyyətində nəzarəti ələ aldı. O, almanlar getdikdən sonra hakimiyyəti ələ keçirmiş Ukrayna Direktoriyasının başçısı Petlyuranın müqavimətini qıraraq anarxist Maxnonun müdafiə etdiyi bolşevikləri darmadağın etdi. 1919-cu ilin iyununda 150 minlik Denikin ordusu Kiyevdən Tsaritsinə kimi olan 700 kilometrlik cəbhə boyu Moskva üzərinə hücuma keçdi. Sentyabrda onun qoşunları Voronej, Kursk və Oryola çatdı. Paytaxt Moskvaya 400 km məsafə qalırdı. Vətəndaş müharibəsi gedişində ağlar Moskvaya bir dəfə də olsa belə yaxın gələ bilməmişdilər. Hətta bolşevik hökuməti gizli vəziyyətə keçməyə belə hazırlaşırdı. Lakin Oryol uğrunda döyüşlər həlledici oldu. Bir həftəlik döyüşlərdən sonra Qızıl Ordu şəhəri geri aldı. Bunun ardınca S.M.Budyonnının süvariləri qırmızıların arxasına keçən general A.Q.Şkuronun Kuban kazak dəstəsini darmadağın etdi. Qızıl Ordu əks-hücüma keçdi. 1919-cu ilin dekabrında onlar Kiyev, Xarkov, Donbası tutaraq kazakların yaşadığı Don Ordusu ərazisinə daxil oldular. Yanvarda qırmızılar Rostov və Novoçeskaskini tutaraq Krıma və Şimali Qafqaza geri çəkilən Denikin ordusunu iki yerə böldülər. Pərən-pərən düşən ağ ordu hissələri müqavimət göstərmək qabiliyyətini itirmiş oldu. 1920-ci ilin martında Könüllülər və Don ordularının böyük hissəsi dəniz yolu ilə Novorossiyskidən Krıma keçdi. Gəmilərə minə bilməyən əsgərlər aprelin axırlarında Soçi yaxınlığında təslim oldu. Qızıl Ordu Cənubi Qafqaz dövlətlərinin sərhədlərinə çatdı. Denikin 40 min nəfərdən də az qalan ordusunu Krımda baron P.N.Vrangelin komandası altına verdi.

1919-cu ilin mayında ağlar şimaldan Petroqrad üzərinə hücuma keçərək Qatçinaya, Fin körfəzi sahillərinə çatdılar. Rusiyanın mərkəzinin iri sənaye şəhəri olan Petroqradı düşmən əlinə verməmək üçün fəhlələr səfərbər edilərək düşmənlə döyüşə göndərildi. Üstün qüvvə yığan sovet komandanlığı ağların hücumunun qarşısını aldı, ağlar isə yalnız Narva rayonunda möhkəmləndilər. 1919-cu ilin sentyabr-oktyabr aylarında ağlar ikinci dəfə Petroqrada hücuma keçib onun kənar hüdudlarına lap yaxınlaşdılar. Bolşevik rəhbərliyi şəhəri tərk etməyə hazırlaşırdı. Yalnız bu zaman Petroqrada gələn L.D.Trotskinin enerji dolu tükənməz fəaliyyəti sahəsində ruh düşkünlüyünə uğramış qırmızı əsgər dəstələrinin döyüş qabiliyyətini bərpa etmək mümkün oldu. Oktyabr-noyabr aylarının sonlarında düşmən üzərində ikiqat say üstünlüyü yaradan qırmızı qoşun hissələri əks-hücuma keçib ağları məğlubiyyətə uğratdı. Estoniya ərazisinə keçən Yudeniç orduları tərkisilah edildi.

1920-ci ilin yazına doğru E.K.Millerin ağ ordularının müqaviməti qırıldı. Artıq bolşeviklərin qələbəsi heç kimdə şübhə doğurmurdu. Sıralarında fərarilik edən hələ çox əsgər olmasına baxmayaraq Qızıl Ordu real qüvvəyə çevrilmişdir. Ona görkəmli hərbi komandirlər Tuxaçevski, Frunze, Blyuxer, Yeqorov, Budyonnı və b. rəhbərlik edirdi. Ölkə, ilk növbədə ordunu yedizdirib, geyindirdiyi üçün əsgərlər bütün iqtisadi üstünlüklərə malik olub, strateji cəhətdən əlverişli mərkəzlərdə yerləşdiklərinə görə bir yerdən başqa bir yerə sıx dəmir yol şəbəkəsi və başqa yollar vasitəsilə yer dəyişmələri asan və tez baş verirdi ki, bu da düşmən üzərində qələbədə az rol oynamadı.

Ağların siyasi hesabları onlar üçün uğursuz oldu. Torpaq haqqında oktyabr dekretini ləğv edən Kolçak və Denikin bolşevik rejimi və ərzaq sapalağından narazı olan kəndliləri belə bir vaxtda özlərinə qarşı qaldırdılar. İki zülmdən birini seçməyə məcbur olan kəndlilər keçmişə qayıtmaqdansa müvəqqəti olanı seçdilər. Kolçak və Denikin ordularının arxasında kəndlilərin partizan hərəkatı başladı.

Bundan başqa, həmkarlar İttifaqı və sosialist təmayüllü partiyaların qadağan edilməsi

onların dayaqlarını zəiflətdi. Ağlar tərəfindən özbaşına təşkil edilən soyğun və basqın aksiyaları şəhər əhalisi arasında onları köməkdən məhrum etdi. Denikinin «Rusiya böyük, vahid və bölünməz olacaq» şüarı sayəsində 1919-cu ilin payızında həlledici döyüşlər gedişində ağlar Estoniya, Finlandiya və Polşanın köməyindən yararlana bilmədilər. Ağlar federasiya statusunu qəbul etməyə belə hazır olan Qafqaz xalqları arasında da etimad qazanmadılar.

Ağları müdafiə edən xarici müdaxiləçilərə qarşı duran bolşeviklər özlərini ana vətəni müdafiə edən yeganə güc kimi qələmə verir, xaricilərlə iş birliyi quranları isə «xalq düşməni» elan edirdilər. Əlavə olaraq bolşeviklər siyasi savad kursları təşkil edir, milyon nüsxələrlə inqilabi plakatlar, vərəqələr, qəzet, kitabça buraxır, təşviqat qatarlarından istifadə edərək Lenin ideyaların bütün ölkədə yayırdılar.

***Polşa ilə müharibə. Vətəndaş müharibəsinin Qırmızıların qələbəsi ilə başa çatması.*** Bütün bunlar 1920-ci ilin yazına doğru bolşevik hakimiyyətinin ağlar üzərində qələbəsini təmin etdi. 1920-ci ilin yazından Vətəndaş müharibəsinin əsas hadisələrindən olan Sovet-Polşa müharibəsi və Vrangelə qarşı mübarizə dövrü başlayır. Bu Vətəndaş müharibəsi gedişində beşinci, sonuncu mərhələnin başlanğıcı hesab olunur. Bu mərhələdə həm də kəndli üsyanlarının yatırılması, Sovet hakimiyyətinin Cənubi Qafqazda, Uzaq Şərq və Orta Asiyada bərqərar olması diqqəti cəlb edir.

Birinci Dünya müharibəsində Almaniyanın məğlubiyyəti və Rusiyadakı inqilabi hadisələr Polşa dövlətinin yaranmasına səbəb oldu. Müstəqil dövlətçiliyin bərpa edilməsi Polşada sərhədlərin 1772-ci ildə olduğu kimi ((Polşanın parçalanmasına qədər) ) müəyyən etmək, Varşava başda olmaqla Litva, Belarusiya və Qərbi Ukrayna torpaqlarının daxil olduğu federasiya yaratmaq xəyalları ilə milli əhval-ruhiyyəni qızışdırdı. 1919-cu ildə Polşa Litvadan Vilensk vilayətini qoparıb aldı, Şərqi Qalitsiya uğrunda isə Ukrayna Direktoriyası ilə mübarizəyə başladı. İlk vaxtlar Polşa dövlətinin başçısı marşal Y.Pilsudski bolşeviklərə dözürdü, çünki ağlardan vahid və bölünməz Rusiya şüarına görə daha çox ehtiyat edirdi. Lakin Denikini məğlub edib qırmızılar Ukraynaya daxil olduqdan sonra Polşa hakimiyyəti Sovet Rusiyasını özünün müstəqilliyi üçün təhlükəli hesab etməyə başladı. 1920-ci il aprelin 25-də polyak qoşunları S.V.Petlyura ilə ittifaq bağlayaraq planlaşdırdıqları federasiyanı yaratmaq məqsədilə Ukraynaya daxil oldular. Mayın 6-da polyak qoşunları Kiyevi tutaraq orada Petlyura rejimini bərpa etdilər.

Sovet dövləti Polşa cəbhəsin gücləndirmək məqsədi ilə bir sıra fövqəladə tədbirlər gördü. Birinci növbədə kommunist və komsomolçulardan ibarət olan səfərbərlik sayəsində Qərb və Cənub-Qərb cəbhələrinə xeyli kömək göndərildi. S.M.Budyonnunun Birinci Süvari dəstəsi Cənub-Qərb cəbhəsinə daxil edildi. İyun ayında A.İ.Yeqorovun komandanlığı altında Cənub-Qərb cəbhəsinin qoşunları hücuma keçib Kiyevi azad etdilər. Bundan sonra, M.N.Tuxaçevskinin komandanlığı altında Qərb cəbhəsinin qoşunları hücuma keçdi. İyulda sovet ordusu Polşa sərhədlərinə çıxdı.

Tuxaçevski Mixail Nikolayeviç (1893-1937) zadəgan nəslindən olub, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1918-ci ildən Qızıl Ordu sıralarında olub. 1920-ci ildə Varşavaya hücum edən Qızıl Ordu qoşunlarının komandanı kimi döyüş əməliyyatlarına başçılıq edib. 1921-ci ildə Kronşdat və Tambov quberniyasındakı matros və kəndli qiyamlarının yatırılmasında yaxından iştirak edib. 1931-ci ildən SSRİ Müdafiə Komissarının müavini, 1936-cı ildən birinci müavini kimi Qızıl Ordunun modernləşdirilməsində əvəzsiz rol oynamışdır. 1937-ci ildə hökumət əleyhinə qəsddə günahlandırılaraq güllələnmişdir. Ölümündən sonra bəraət almışdır.

Sovet hökuməti hücumu Versal müqaviləsinin müəyyən etdiyi Polşa sərhədi xətti boyunca dayandırmağı tələb edən İngiltərənin Xarici işlər naziri lord Dj.N.Kerzonun təklifini rədd etdi («Kerzon xətti»). Sovet tərəfi təkcə polyak qoşunlarını məğlub edib öz sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədi güdmürdü. Planlar daha geniş idi. Qırmızı Ordu belə bir şüarla yola çıxmışdır: «Varşavanı ver, Berlini ver!». Bu isə o demək idi ki, sosialist inqilabı Qızıl Ordu süngüləri ilə Almaniyaya, bütün Avropaya yayılacaq. Lakin bu plan baş tutmadı. Çünki polyaklar Qırmızı Ordu hissələrinə dünyada proletar inqilabı yayan qüvvələr kimi

deyil, Polşanı yenidən əsarət altına alan güc kimi baxırdı. Marşal Pilsudski bundan istifadə edərək bütün polyak vətənpərvərlərini bir cəbhədə birləşdirdi. Eyni zamanda Qərb cəbhəsinin əsgərləri sürətli hücum nəticəsində arxa cəbhədən xeyli uzaqlaşaraq öz ehtiyat mənbələrindən uzaq düşmüşdür. Cənub-Qərb cəbhəsinin komandanlığı Lvov üzərinə hücumu dayandırmayaraq İnqilab Şurasının Birinci Süvari ordunun Qərb cəbhəsinə verilməsi haqqında əmri olmasına baxmayaraq onu yerinə yetirməmişdilər. Nəticədə, 1920-ci ilin avqust ayında Varşava altında Qərb cəbhəsinin qoşunları darmadağın edildi və Şərqi Brestə çəkilməyə məcbur oldu. Oktyabrda polyak əsgərləri yenidən Minskə daxil oldular. Lakin hər iki tərəfin əməliyyatları davam etdirmək imkanı olmadığı üçün oktyabrın 12-də Riqada barışıq imzalandı. 1921-ci il martın 18-də Riqada Sovet Rusiyası ilə Polşa arasında kompromis xarakter daşıyan sülh müqaviləsi imzalandı. Sülh şərtlərinə görə Polşa 1772-ci il Reç Pospolita sərhədlərin bərpa etmək iddiasından əl çəkdi. Bunun müqabilində Rusiya Polşaya xeyli miqdarda təzminat ödəməyə, Qərbi Ukrayna və Qərbi Belarusiyanın Polşaya birləşdirilməsinə razı oldu. Şərqi Belarusiyada Sovet Sosialist Respublikasının hakimiyyəti qalırdı.

Sovet-Polşa müharibəsinin başa çatması Sovet dövlətinə imkan verdi ki, Krımda Denikin ordularının qalıqlarından general P.N.Vrangelin komandanlığı altında formalaşan ağ orduları aradan qaldırsın. Sovet-Polşa müharibəsi gedişində ağlar Lvov üzərinə hücum edən sovet qoşunlarının Cənub-Qərb cəbhəsinin arxasına keçməyə cəhd edərək Şimali Tavriya və Donbasın bir hissəsini tutdular. Polşa ilə müharibə başa çatdıqdan sonra Vrangel öz ordularına Krıma geri çəkərək möhkəmləndirilən Perekop və Çonqar istehkamları arxasında gizlənmək əmri verdi. M.V.Frunzenin komandanlığı altında Cənub cəbhəsinin qoşunları 1920-ci ilin oktyabr-noyabr aylarında Kaxovka əməliyyatı ilə Vrangel ağ ordusunun əsas qüvvələrini əzərək son zərbəni Sivaş körfəzindən vurdular. Sivaşın dayaz yerlərindən su ilə irəliləyən sovet qoşunları noyabrın 11-də İşun, 12-də isə Çonqar istehkamlarını aldılar. Krım çöllərinə daxil olan Qırmızı Ordu dəstələri noyabrın 15-də Sevastopolu aldılar, noyabrın 17-də isə Krımı tam azad etdilər. Ağ ordu dəstələrinin tör-töküntüləri 130 gəmidə Rusiyanı tərk edərək Türkiyəyə keçdilər. Vrangel onları Fransaya apardı. Bununla da, Rusiyanın Avropa hissəsində Vətəndaş müharibəsinin əsas döyüşləri başa çatmış oldu.

Vətəndaş müharibəsində nə qırmızıları, nə də ağları müdafiə etməyən üçüncü qüvvə yaşıllar idi. Soyğunçuluq, dəmir yollarına və kəndlərə basqın edən bu dəstələr qırmızı və ağlardan fərarilik edən əsgərlərdən, hər iki tərəfin siyasətindən narazı olan kənd adamlarından təşkil olunmuşdular. Bu adamlar arasında mərkəzləşmiş hakimiyyətdən imtina edən anarxizm ideyası hakim idi və onlar özünüidarə əsasında kommunal cəmiyyət qurmaq arzusunda idilər. Bolşeviklərsiz, kommunistlərsiz Sovet hakimiyyəti qurmaq şüarı onlar arasında çox populyar idi.

Vətəndaş müharibəsinin gərgin vaxtlarında Qızıl Ordu yaşıl dəstələrə səbrli münasibət bəsləyirdi. Vətəndaş müharibəsi əsasən başa çatdıqdan sonra qırmızı hissələr yaşıllar üzərinə böyük dəstələrlə hücuma keçdilər. 1921-ci ildə Frunze Ukrayna ərazisində sayları 20 min nəfər olan N.İ.Maxnonun dəstəsini məğlub etdi. Yenə həmin il Tambov və qonşu quberniyalarda sayları 50 min nəfərə çatan kəndli dəstələri A.S.Antonovun başçılığı ilə Qırmızı Ordu ilə döyüşürdü. Üsyançılar bolşeviklərin hakimiyyətinin devrilməsi, demokratik respublika qurulması, ərzaq vergisinin ləğv edilməsi, azad ticarətə icazə verilməsi şüarlarını irəli sürürdülər. 1921-ci ilin may-iyul aylarında M.N.Tuxaçevskinin komandanlığı altında sovet ordusu kimyəvi silahdan və girov götürmə sistemindən istifadə etməklə Antonovun ordusunu darmadağın etdi. Orta Volqada, Uralda və Qərbi Sibirdə yaşıl dəstələrin müqaviməti 1922-ci ilə doğru Qızıl Ordu tərəfindən ləğv edildi.

1920-ci ilin əvvəllərində böyük bir hissəsinin ağlardan azad edilməsinə baxmayaraq Uzaq Şərqdə vəziyyət gərgin olaraq qalırdı. Çitadan tutmuş Xabarovsk və Vladivostoka kimi olan ərazilərə yapon ordusu nəzarət etdiyi üçün ağlar bu yerlərə toplaşmağa başladılar. Aprel ayında Çitada Qızıl Ordu yaponlar tərəfindən məğlubiyyətə uğradıldı. Onlar Primoryedə bolşevik hakimiyyət orqanlarına hücum edərək 5 min nəfəri qətlə yetirdilər, bolşeviklərin rəhbəri S.G.Lazonu isə diri-diri paravozun yanacaq deposunda yandırdılar.

Sovet Rusiyası hərbi cəhətdən güclü olan Yaponiya ilə müharibə etməmək məqsədilə 1920-ci il aprel ayının 6-da hər iki dövlət arasında bufer rolunu oynayan Uzaq Şərq Respublıksının (UŞR) yarandığını elan etdi. Uzaq Şərq Respublikasının Müəssislər Məclisinə keçirilən seçkilərdə müstəqil kəndli nümayəndələri 183 yer, bolşeviklər 92 yer, eserlər 18 yer, menşeviklər 14 yer qazandılar. UŞR-nın Konstitusiyası qəbul edildi. Bolşeviklərin üstünlük təşkil etdiyi koalisyon hökumət quruldu. Yeni hökumət uzun danışıqlardan sonra Yaponiyanın Uzaq Şərqdə güclənməsini istəməyən ABŞ-ın dəstəyi ilə yapon qoşunlarını öz ərazisindən çıxardı. V.K.Blyuxerin və İ.P.Uboryeviçin komandanlığı altında Uzaq Şərq Respublikası ordusu Kolçak ordusu əsgərlərinin qalıqlarına qarşı hücuma keçdi. 1921-ci ildə Qızıl Ordu R.F.Ungerin komandanlığı altında olan ağları məğlub edərək Monqolustana çəkilməyə məcbur etdi. Monqolustanda hakimiyyətə sosialist dəyişiklikləri tərəfdarları gətirildi və Monqolustan Sovet Rusiyasının ilk müttəfiqi oldu. 1922-ci ilin oktyabrında Uzaq Şərq Respublikasının ordusu Xabarovsk, Spassk və Vladivostoku tutdu. Noyabr ayında Uzaq Şərq Respublikasında sovet hakimiyyəti elan olundu. 1922-ci ilin noyabrın 15-də ÜRMİK UŞR-nın Rusiyanın tərkibinə birləşdirilməsi haqqında dekret qəbul etdi. Uzaq Şərqdə vətəndaş müharibəsi başa çatdı.

1920-ci ilin aprelində S.Orconikidzenin rəhbərliyi altında sovet qoşunları müstəqil Azərbaycanın sərhədlərinə daxil olaraq mili müsavat hökumətini devirdilər. Qızıl Ordu süngülərinin gücü ilə Azərbaycanda sovet hakimiyyəti bərqərar oldu. 1920-ci ilin noyabrında sovet qoşunları Ermənistana daxil olaraq daşnak hökumətini devirdi və sovet hakimiyyətini elan etdi. 1921-ci ilin fevralında Gürcüstanda N.Jordaniyanın menşevik hökumətinə qarşı silahlı üsyançılara kömək bəhanəsi ilə sovet qoşunları respublika ərazisinə daxil olaraq ölkədə sovet hakimiyyəti qurdular.

Orta Asiyada Sovet hakimiyyəti uğrunda mübarizə çətin və mürəkkəb şəraitdə davam edirdi. Vətəndaş müharibəsi illərində bolşeviklər yalnız şəhərlərə nəzarət edirdilər, kəndlərdə isə müsəlman partizanları olan basmaçılar ağalıq edirdi. Xivə və Buxarada isə mütləqiyyət quruluşu qalırdı. 1920-ci ildə Qızıl Ordu Buxara əmirini və Xivə xanını devirdi. Bunların yerində Buxara və Xarəzm Xalq Sovet Respublikası yaradıldı. 1921-ci ildə RSFSR-in tərkibində Türküstan MSSR təşkil olundu. Orta Asiyada Sovet hakimiyyətinin qurulmasında M.V.Frunzenin Qızıl Ordu dəstələri əsas rol oynadı. Buna baxmayaraq dini liderlər tərəfindən qızışdırılan kəndlilərin (dexkanlar) böyük hissəsi antisovet basmaçı hərəkatında birləşərək İran və Əfqanıstanın köməyi ilə müqavimət hərəkatını 30-cu illərin ortalarına kimi davam etdirdilər.

Frunze Mixail Vasilyeviç (1885-1925) 1903-cü ildən bolşevik kimi fəaliyyət göstərərək Kolçak, Vrangel ağ ordularının məğlub edilməsində böyük rol oynamışdır. Orta Asiyada hərbi əməliyyatlara rəhbərlik edən M.V.Frunze 1920-1924-cü illərdə Ukrayna və Krım silahlı qüvvələrinə başçılıq etmişdir. Hərbi İnqilab Şurasının sədri, Hərbi və dəniz işləri üzrə xalq komissarı kimi hərbi islahat həyata keçirmişdir.

Beləliklə, bolşeviklər Vətəndaş müharibəsində qələbə çaldı və xarici müdaxiləçiləri dəf etdi. Onlar keçmiş Rusiya imperiyasının əsas ərazisini qoruyub saxlamağa müyəssər oldular. Bununla bərabər, Polşa, Finlandiya, Pribaltika dövlətləri müstəqillik qazanaraq Rusiyadan ayrıldılar. Eyni zamanda Qərbi Ukrayna, Qərbi Belarusiya da itirildi.

Vətəndaş müharibəsi Rusiya üçün dəhşətli və qanlı qardaş qırğını kimi yaddaşlara həkk olundu. Müharibə ölkə iqtisadiyyatının və təsərrüfatının dağılmasına səbəb oldu. Rusiyaya dəyən maddi ziyan 50 milyard qızıl manat həcmində idi. Sənaye istehslı 7 dəfə aşağı düşmüşdür. Ölkə nəqliyyatı iflic olmuşdu. Zorla müharibəyə cəlb edilən əhalinin bir çox təbəqəsi onun günahsız qurbanlarına çevrildi. Döyüşlərdə, xəstəlik və aclıqdan, terrordan 8 milyon nəfər həyatını itirdi, 2 milyon nəfər isə mühacirətə getməyə məcbur oldu. Onların arasında ziyalıların xeyli elit təbəqəsinin də nümayəndələri var idi. Yeri doldurulması mümkün olmayan, mənəvi-etik cəhətdən itirilən dəyərlər uzun müddət sovet ölkəsinin tarixində dərin iz buraxmışdır.

## Sovet dövləti 20-ci illərin birinci yarısında

***1920-ci illərin əvvəllərində daxili vəziyyət. Kronşdat qiyamı.*** 20-ci illərin birinci yarısında daxili siyasət sahəsində qarşıda duran əsas vəzifə bolşeviklərin xalqa vəd etdiyi sosializm qurmaq üçün onun maddi-texniki və sosial-mədəni bazasını yaratmaq, dağılmış ölkə təsərrüfatını bərpa etmək idi. Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə ölkəyə böyük ziyan vurmuşdur. Sənaye məhsulu istehsalının səviyyəsi müharibədən əvvəlkinə nisbətən 14 faizə düşmüş, kənd təsərrüfatı demək olar ki, iki dəfə azalmışdır. Hərbi döyüşlərin gedişində, xüsusilə Donbas, Bakının neft rayonları, Ural, Sibirin hövzə və mədənləri daha çox dağıntıya məruz qalmışdır. Yanacaq və xammal olmadığına görə zavodlar işləmirdi. Fəhlələr şəhəri tərk edib kəndə getməyə məcbur oldular. Putilov, Obuxov və başqa müəssisələr dayandığına görə Petroqrad fəhlələrin 60 faizini, Moskva isə 50 faizini itirmişdir. 1921-ci ilin fevralında Petroqradın 64 iri müəssisəsi dayanmışdır. 1921-ci ildə Rusiyada sənaye proletariatının sayı cəmi bir milyon nəfər təşkil edirdi.

1921-ci ildə məhsulsuzluq üzündən şəhər və kəndi aclıq bürüdü. Təkcə Orta Volqaboyu rayonlarında aclıqdan ölənlərin sayı 5 milyon nəfər idi. Ölkədə yatalaq, taun, səpmə və s. yoluxucu xəstəliklər tüğyan edirdi. Yatalaqdan ölənlərin sayı 2 milyona çatırdı.

Rusiyanın əhalisi Birinci Dünya müharibəsi və Vətəndaş müharibəsi nəticəsində 10,9 milyon nəfər azalaraq 1921-ci ildə 134,3 mln nəfər olmuşdur. 1913-cü ildə əhalinin 18 faizini təşkil edən şəhər əhalisinin sayı kəskin surətdə aşağı düşmüşdü. Ölkəni tərk edən 2 milyon mühacirlərin böyük əksəriyyəti şəhərlərdə yaşayanlar idi. Şəhərlərdə ərzaq, yanacaq çatışmırdı, kanalizasiya, su, istilik, işıq sistemi işləmir, tramvaylar hərəkət etmirdi. Qışda adamlar əldəqayırma «burjuyka» adlanan və mebel parçaları ilə qalanan peçlərlə qızınırdılar. Cinayətkarlıq geniş miqyas alaraq güngən-günə artırdı. Ölkədə 7 milyona yaxın sahibsiz uşaq dolaşır və çoxlu evsiz-eşiksiz adam var idi ki, bunlar da xüsusilə şəhərlərdə cinayətkarlığın və oğurluğun əsas mənbəyini təşkil edirdilər. Aclıq, epidemiya, kommunal təsərrüfatın dağılması Moskvada şəhər əhalisinin 40 faizinin, Petroqradda 50 faizinin azalmasına səbəb oldu.

Əhalinin çalışan hissəsinin sayının aşağı düşməsi sovet hakimiyyətini məcbur etdi ki, vətəndaşlar üçün icbari əmək mükəlləfiyyəti tətbiq etsin. Beləliklə, milliləşdirilmiş əmək sayəsində əmək orduları yaranırdı. Fəhlələr zavodlara təhkim edilərək repressiyaya məruz qalmaq qorxusu altında nəzərdə tutulan planı yerinə yetirməyə borclu idi. Hər bir işçi məcburi surətdə hakimiyyətin lazım bildiyi yerə göndərilə bilərdi.

«Hərbi kommunizm» siyasətinin sərt və ağır nəticələri və onlara qarşı kəndlilərin müqavimətinin gündən-günə artması bir çox uzaqgörən bolşevik rəhbərlərin dövlətin iqtisadi siyasətinin dəyişilməsinin zəruriliyini dərk etməsinə gətirib çıxardı. Artıq 1920-ci ilin yazında RK(b) P-nin bəzi rəhbərləri, o cümlədən, AXTŞ-sı sədrinin müavini Y.Larin, M.İ.Kalinin və L.D.Trotski ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsini təklif edirdilər ki, buna görə də kəndlilərdən məhsulun bir hissəsi məcburi surətdə alınırdı, yerdə qalan hissəni isə kəndli bazarda ərzaq şəklində sata bilərdi. Lakin bu təkliflər bazarı canlandırdıqları, kommunist bölgüsü prinsipini pozduğu üçün qəbul edilmədi.

1920-ci ildə XKS bazarsız kommunist bölgü prinsiplərinə dayanan tədbirləri daha da genişləndirdi. Kiçik sənaye müəssisələri də milliləşdirilməyə başlandı. 1920-ci ilin dekabrında VIII Ümumrusiya Sovetlər qurultayı xalq təsərrüfatını bərpa etmək və onu elektrikləşdirmək planını qəbul etdi (QOELRO planı). Görkəmli alim Q.M.Krijijanovskinin rəhbərlik etdiyi bu plana görə ölkənin energetika sistemi daha geniş miqyas alaraq, yeni elektrik stansiyaları, iri sənaye müəssisələri tikilməsi hesabına sənayeləşdirmə həyata keçirilməli idi. V.İ.Lenin bu planı «partiyanın ikinci proqramı» adlandırmışdır. 1921-ci ilin fevralında Xalq Komissarları Soveti bu planı həyata keçirmək və ölkənin xalq təsərrüfatının cari və perspektiv inkişaf planını işləyib hazırlamaq üçün QOELRO-nun Dövlət Ümumplan Komissiyasına (Qosplan) çevrilməsini təsdiq etdi. Ərzaq sapalağına tabe tutulan kənd təsərrüfatı məhsullarının çeşidləri artırıldı. Pul tədavülünün ləğvi haqqında dekret hazırlandı. Lakin bu tədbirlər fəhlə və kəndlilərin maraqlarına cavab vermirdi. Odur ki, iqtisadiyyatla bərabər sosial böhran da

yetişməkdə idi.

Ərzaq qıtlığı və işsizlik fəhlələri qıcıqlandırırdı. İcbari əməyin tətbiqi və əmək haqqının bərabərlik prinsipi əsasında ödənməsi, həmkarlar ittifaqının hüquqlarının məhdudlaşdırılması onların narazılığını gündən-günə artırırdı. Odur ki, 1920-ci ilin sonu, 1921-ci ilin əvvəllərində fəhlələr şəhərlərdə ölkənin siyasi sisteminin demokratikləşdirilməsi, Müəssislər Məclisinin çağırılması, xüsusi bölgü və payların ləğv edilməsi uğrunda tətilə başladılar.

Ərzaq dəstələrinin özbaşınalığından qəzəblənən kəndlilər nəinki ərzaq sapalağın ödəməkdən imtina etdilər, hətta sovet hakimiyyətinə qarşı silahlı mübarizəyə qalxdılar. Tambov, Ukrayna, Don, Kuban, Orta Volqa və Sibiri kəndli hərəkatı bürüdü. Yalnız Qərbi Sibirdə üsyançı kəndlilərin sayı 200 min nəfərdən çox idi. Kəndlilər ərzaq siyasətinin dəyişdirilməsini, RK(b)P-nın diktəsinin ləğv edilməsini, ümumi bərabər seçki əsasında Müəssislər Məclisinin çağırılmasını tələb edirdilər. Bu çıxışların yatırılmasına Qızıl Ordu və Ümumrusiya Fövqəladə Komissiyasının dəstələri göndərildi.

Ölkəni bürüyən hərəkat tezliklə Kronşdata çatdı. 1921-ci il fevralın 28-də «Petropavlovsk» hərbi gəmisinin şəxsi heyəti sonradan üsyanın xartiyasına çevrilən qətnamə də qəbul etdilər. Azad seçki yolu ilə gizli səsvermə nəticəsində sovetlərin yenidən seçilməsi, fəhlə, kəndli, o cümlədən anarxist və sol eserlər üçün söz, mətbuat azadlığı, bütün siyasi məhbusların azad edilməsi, muzdlu əməkdən istifadə etməyən sənətkarların əmlakının müsadirə edilməsinə son qoyulması, muzdlu əməyin tətbiqindən başqa kəndliyə öz torpağında istədiyi kimi hərəkət etməsinə icazə verilməsi və başqa tələblər irəli sürüldü. «Petropavlovsk» dənizçilərinin qəbul etdiyi qətnamədən xəbər tutan ÜRMİK-nin sədri M.İ.Kalinin onların görüşünə gəldi. Onu gəmidən 2 min kommunistin ən azı yarısının qoşulduğu 12 min dənizçinin fit səsləri ilə yola saldılar. Bolşeviklər partiyasının MK-sı üsyanı çar generallarının rəhbərlik etdiyi kadet, menşevik və eserlərin müdafiə etdiyi Qərbdəki ağqvardiyaçıların qızışdırdığı əksinqilabi qiyam kimi damğaladı. Martın 2-də qiyamçılar mənşəcə fəhlə və kəndlilərdən ibarət olan Müvəqqəti inqilabi komitə təşkil etdilər. Komitəyə «Petropavlovsk» gəmisinin mirzəsi Petriçenko başçılıq edirdi. Komitə öz işlərinin haqq işi olduğuna sadəlövhcəsinə inandıqlarına görə silah tətbiq etməklə hücuma keçməkdən imtina etdilər, yalnız müdafiə olunacaqlarını bildirdilər. L.D.Trotski Polşa müharibəsinin qəhrəmanı general M.N.Tuxaçevskiyə tapşırdı ki, üsyanı yatırsın. O, üsyançıları güllabaran etmək məqsədilə hərbi məktəblərin «inqilabi təcrübəsi» olmayan gənc kursantların və ÜFK-nin xüsusi dəstələrindəki əsgərləri martın 7-də Kronşdat üzərinə hücuma apardı. 10 gün ərzində Kronşdat təslim oldu. Hərbi dəniz bazası tutulduqdan sonra minlərlə adam cəzaya, o cümlədən güllələnməyə məruz qaldı. Belə ki, 2,5 min dənizçi həbs edildi, 6-8 min dənizçi isə Finlandiyaya mühacirətə getdi. «Kommunistlərsiz sovetlərə» şüarı səsləndirən Kronşdat matroslarının üsyanı göstərdi ki, bolşevik hakimiyyəti əsasən kəndlilərdən ibarət olan ordu içərisində öz dayaqlarını itirir.

Aclıq və dağıntı, fəhlə tətilləri, kəndli və matrosların üsyanları göstərdi ki, ölkədə dərin iqtisadi və sosial böhran yetişməkdədir. Bundan başqa 1921-ci ilin yazına doğru dünya inqilabına və Avropa proletariatının maddi-texniki köməyinə olan ümidlər puça çıxdı. Odur ki, V.İ.Lenin daxili siyasi kursa yenidən baxaraq etiraf etdi ki, yalnız kəndlilərin tələblərini yerinə yetirməklə bolşeviklərin hakimiyyətini xilas etmək olar.

***Yeni iqtisadi siyasətə keçilməsi. Partiyadaxili mübarizənin başlanması.*** 1921-ci il martın 8-də Moskvada RK(b)P-nin X qurultayı işə başladı. Qurultayın gündəliyinə iki mühüm məsələ - birincisi, SSRİ-də siyasi həyatı hələ uzun müddət müəyyən edən partiyadaxili fraksiyaların qadağan olunması, ikincisi, üç il müddətində kəndlilər üzərində ağır yük olan ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsi haqqında məsələlər daxil edilmişdir. Qurultay hər iki əsas məsələ haqqında tez-tələsik qərar qəbul etdi.

Ərzaq sapalağının ərzaq vergisilə əvəz edilməsi yeni iqtisadi siyasətə keçilməsi demək idi ki, bu da 1921-ci ildə ÜRMİK-nin 21 mart dekreti və 1921-ci ilin dekabrında IX Ümumrusiya Sovetlər qurultayının qərarı ilə təsdiq olundu. Yeni iqtisadi siyasət bütöv bir iqtisadi və sosial-siyasi tədbirlər sistemi idi. Bu, dövlətin hərbi kommunizm siyasəti prinsipindən geri addım ataraq xüsusi sahibkarlığı dirçəltməsi, azad daxili bazarın yaradılması və kəndlilərin bir çox

tələblərinin yerinə yetirilməsi demək idi. Kənd təsərrüfatında yeni iqtisadi siyasətin həyata keçirilməsi ərzaq sapalağının ərzaq vergisi ilə əvəz edilməsilə başladı. Ərzaq vergisi əkin kampaniyasının əvvəlində müəyyən edilərək il ərzində dəyişdirilə bilməzdi və sapalağa nisbətən iki dəfə az nəzərdə tutulurdu. Onun əsas ağırlığı varlı təsərrüfatların üzərinə düşürdü. Kəndlilər ərzaq vergisin ödədikdən sonra artıq qalan məhsulu bazarda sata bilərdilər. Beləliklə, dövlət bu andan etibarən özünü bütün taxıl məhsulu istehsalının deyil, onun vergi şəklində alınan müəyyən bir hissəsinin mülkiyyətçisi elan etdi. Torpaqların icarəyə verilməsinə və burada muzdlu əməyin tətbiqinə müəyyən şərtlərlə icazə verilirdi. Zorla kommuna yaradılmasına son qoyuldu ki, bu da kənddə xüsusi, xırda təsərrüfatların möhkəmlənməsinə səbəb oldu. Təktəsərrüfatlı kəndlilər kənd təsərrüfatı məhsulunun 98,5 faizini verirdilər.

Kənddə özünün təsir dairəsini qoruyub saxlamağa çalışan dövlət kooperasiyasının təchizat, istehlak, kredit və s. formalarından istifadə edirdi. Şəhər yarmarkaları və ticarət birjaları təşkil edilirdi ki, burada da kəndlilər məhsullarını özlərinə lazım olan sənaye malları ilə dəyişdirə bilərdilər. Bu şəhərlə kənd arasında normal mal mübadiləsinin yaranmasına şərait yaratdı.

Aqrar siyasətin həyata keçirilməsində RSFSR-in Torpaq kodeksinin hazırlanması və qəbul edilməsi mühüm rol oynadı. Burada «fəhlə-kəndli dövləti»nin mülkiyyəti elan olunan torpaq üzərində xüsusi mülkiyyətin həmişəlik olaraq ləğv olunması təsdiq olunur, torpaqdan istifadənin həyət, xutor, icma, artel formalarının azad seçilməsində ayrı-ayrı kənd və qəsəbələrin qərarları əsas hesab olunurdu. Kodeksə görə torpaq cəmiyyətlərinin faktiki istifadəsində olan torpaq payı onlara təhkim olunurdu. Torpaqların yenidən bölünməsinə yalnız üçqat əkin dövründən sonra, yəni 9 ildən bir icazə verilirdi. Kodeksə görə torpaqların icarəyə verilməsinə o şərtlərlə icazə verilirdi ki, bu əmək icarəsi olsun, yəni icarədar yalnız öz təsərrüfatının gücü daxilində torpaq sahəsi icarəyə götürə bilərdi. Beləliklə, məqsəd torpağın alqı-satqısının qarşısını almaq və icarəyə verilən torpaqlardan gələn bütün gəlirlərə nəzarət etmək idi. Torpaq kodeksində kəndli təsərrüfatlarında əmək norması və əmək müdafiəsi qanunlarına riayət etməklə köməkçi muzdlu əməyin tətbiqinə icazə verilirdi. Kənddə əvvəllər mövcud olan ərzaq, ümumvətəndaş, həyət başına pul və at-araba vergiləri ləğv olunur, yeganə kənd təsərrüfatı vergisi tətbiq olunurdu. Bu vergi ilə az əmlak sahibi olan kəndlilərə və qırmızıqvardiyaçı ailələrə güzəştlər nəzərdə tutulurdu. Atı olmayan və az əmlak sahibi olan kəndlilərin 20 faizi tamamilə vergidən azad olunurdu.

Torpağın milliləşdirilməsi və kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir hesabına yoxsul kəndlilərin sayı azalmağa, ortabablar isə artmağa başladı. Beləliklə, hərbi kommunizm dövründə sayları artan yoxsul kəndlilər yeni iqtisadi siyasət dövründə azalmağa başladılar. 1924-cü ilin əvvəllərində aclıq və onun ağır nəticələrinə baxmayaraq yoxsul kəndlilərin ümumi çəkisi muzdurlarla birlikdə kənd əhalisinin üçdəbir hissəsinə qədər aşağı düşmüşdür. 1920-ci ilin ortalarına doğru ortabab kəndlilər kəndin mərkəzi simasına çevrildilər. Ortabablar kəndli təsərrüfatlarının 60 faizindən çoxunu təşkil edirdi ki, bu da inqilabdan əvvəlki dövrlə müqayisədə üç dəfə çox idi. Kənddəki vergi siyasəti sinfi xarakter daşıyırdı. Kəskin surətdə artan kənd təsərrüfatı vergisinin əsas ağırlığı ortababların və varlı kəndlilərin üzərinə düşürdü. 1923-cü ildə iri təsərrüfatlardan alınan vergi onların gəlirinin 35-40 faizini təşkil edirdi. Yeni iqtisadi siyasət kənddə məhsul istehsalının atrmasına səbəb oldu. 1925-ci ildə bərpa edilmiş əkin sahələrindən müharibədən əvvəlki Rusiyadakı orta göstəricidən 20,7 faiz çox taxıl toplandı. Sənayenin kənd təsərrüfatı xammalı ilə təchiz olunması yaxşılaşdı.

Yeni iqtisadi siyasət əvvəl kənd təsərrüfatında həyata keçirildi, sonra isə sənaye və ticarətə tətbiq edildi. Ərzaq sapalağını ərzaq vergisi ilə əvəz edilməsi bazarın sənaye malları ilə təmin edilməsini tələb edirdi. Qərbdən böyük həcmdə kredit ala bilməyən Sovet dövlətinin xaricdən mal idxal etmək ümidi boşa çıxdı. Dövlətin isə mal ehtiyatı yox idi. Bu hakimiyyəti adi ticarət qaydası ilə mal mübadiləsi təşkil etməyə məcbur etdi. Xırda müəssisələrin milliləşdirilməsi dayandırıldı, xüsusi mülkiyyət və icarə əsasında belə müəssisələrin yaradılmasına icazə verildi. 20-ci illərin ortalarında belə müəssisələr sənaye məhsulunun 27 faizini istehsal edirdi.

Sovet hakimiyyəti xarici iş adamlarına müəssisələri icarəyə götürmək və konsessiya təşkil etmək hüququ verdi. Xüsusi kapitalla yanaşı, dövlətin də iştirak edə biləcəyi qarışıq cəmiyyətlərin təsis edilməsi də nəzərdə tutulurdu. Lakin Rusiyanın əvvəlki borclarını ödəməkdən imtina edən bolşevik hakimiyyətinə xarici kapitalın güvənmədiyinə görə konsessiyalar geniş miqyas almadı. 20-ci illərin ortalarında sənaye məhsulunun yalnız 1,5 faizi konsessiyalara məxsus idi.

Böyük kapital qoyuluşu tələb etməyən ticarətdə xüsusi bölmə daha sürətlə inkişaf etdi. Qısa müddət ərzində çoxlu maqazin, restoran, kafe açıldı, rəflər müxtəlif çeşidli mallarla doldu. Qısa zamanda varlanan aşağı mədəni səviyyəli yeni mülkiyyətçilər olan «nepmanlar» 1923-cü ildə pərakəndə ticarətin 75, topdansatış ticarətin isə 18 faizinə nəzarət edirdilər.

Dövlət müəssisələri də yeni şəraitlə üzləşdilər. Son dərəcə ağır iqtisadi vəziyyət dövlətə imkan vermirdi ki, milliləşdirilən müəssisələri xammal və yanacaqla təmin etsin. Odur ki, onların təsərrüfat hesabına keçirilməsi haqqında qərar qəbul olundu. Özünütəmin, özünümaliyyələşdirmə və özünüidarə onun əsas prinsipi oldu. 1921-ci ilin yayında təsərrüfat hesablı trestlər meydana gəldi. Bir neçə müəssisəni birləşdirən trestlər banklarda hesabı olan hüquqi şəxs kimi qeydə alınırdı. Dövlətin maliyyə vəsaitindən istifadə etməyən trestlər qanunla müəyyən olunmuş vergi və ödənişi ödədikdən sonra öz gəlirlərinin qalan hissəsinin bir qismini işçilərin əmək haqqı kimi sərf edir, yerdə qalan hissə isə istehsalın inkişafına və başqa işlərə sərf edilə bilərdi. Trestlər könüllü surətdə alış və satışla məşğul olan sindikatlarda birləşə bilərdilər. Artıq 1922-ci ilin sonuna doğru bütün sənaye müəssisələrinin 90 faizi 421 trestdə birləşmişdir. Praktik olaraq dövlət AXTŞ-nin timsalında müəssisələrin idarə edilməsi və trestlərin təsərrüfat müstəqilliyinin məhdudlaşdırılmasında mühüm rol oynayırdı.

Yeni iqtisadi siyasətə keçilməsi ilə əlaqədar olaraq müəssisələrin işçi qüvvəsi ilə komplektləşdirilməsi sistemi dəyişdirildi. Əmək səfərbərliyi yerinə azad işçi qüvvələrinin olduğu əmək birjaları yaradıldı. Əmək haqqını bərabər səviyyədə ödənilməsi qaydası ləğv edildi. İşçilər öz ixtisasına və istehsal etdiyi məhsulun keyfiyyətinə görə əmək haqqı almağa başladılar. 1922-ci ildə kart sistemi ləğv edildi. Yeni iqtisadi siyasətin bütün çətinlik və ziddiyyətlərinə baxmayaraq sənayedə tezliklə müsbət nəticələr əldə edildi. Metal sənayesi istisna olmaqla bütün sənaye sahələri 1923-1924-cü təsərrüfat ilin gəlirlə başa vurdu. İşçilərin öz əməyinə münasibəti müsbətə doğru dəyişdi, əmək məhsuldarlığı artdı, müharibə və böhran illərində bağlanan müəssisələr işə salınır, onların maddi bazası bərpa edilirdi.

Yeni iqtisadi siyasətin tətbiq olunmasında Xalq Maliyyə Komissarı Q.Y.Sokolnikovun başçılığı altında bir qrup köhnə mütəxəssisin həyata keçirdiyi pul islahatı mühüm rol oynadı. Hərbi kommunizmdən YİS-ə çoxlu miqdarda qiymətdən düşmüş və pis vəziyyətdə olan kağız pullar miras qalmışdır. Hiperinfilyasiya və aclıq 1921-ci ilin oktyabrından 1922-ci ilin mayına kimi pərakəndə qiymətlərin 50 dəfə artmasına səbəb oldu. Bu paralel olaraq yeni pul nümunələrinin dövriyyəyə buraxılmasında həlledici rol oynadı. 1922-ci ilin sonunda Dövlət Bankı 1,2,3,5,10,25 və 50 çervonluqları (çervon 10 manata bərabər idi) və 1 çervonluq qızıl sikkələri dövriyyəyə buraxdı. 1924-cü ildə qiymətdən düşən pullar möhkəm valyuta olan qızıl çervona dəyişdirilməyə başlandı. Qızıl çervon sikkə inqilabdan əvvəlki qızıl 10 manatlıq sikkələrin dəyərində idi və dünya bazarında 1927-ci ilə kimi 6 ABŞ dolların dəyərindən çox qiymətləndirilirdi. Çervon çox böyük pul nişanı olduğu üçün daha kiçik xəzinə nişanlarına ehtiyacı var idi. Odur ki, 1,3 və 5 manatlıq dövlət xəzinə nişanları buraxıldı. Bir qızıl manat 1923-cü ilin pul nümunəsinin 50 min manatına, 1921-ci ilin nümunəsinin isə 50 mln. manatına dəyişdirildi. Pul islahatı milli valyutanın dəyər qazanmasına və onun qiymətdən düşməsinin qarşısını almağa şərait yaratdı.

Ərzaq sapalağından imtina edilməsi kəndlilərin vəziyyətini yaxşılaşdırdı, amma onların tələblərini tam qane etmədi. Onlar icarə və muzdlu əməyə tətbiq olunan məhdudiyyətlərin ləğv olunmasını istəyirdilər. Çünki bunsuz kənd təsərrüfatının inkişaf etdirilməsi mümkün deyildir. 1923-1924-cü illərdəki məhsul qıtlığı və böhran ölkədə kəndli həyəcanlarının yayılmasına səbəb oldu. Belə bir şəraitdə kənd təsərrüfatı vergisini azaldan, muzdlu əməyi qanuniləşdirən, torpaq üzərində icarə müddətini uzadan, ticarətə əngəl olan çoxlu sədlərin aradan qal-

dırılmasını nəzərdə tutan N.İ.Buxarinin ideoloqu olduğu «kəndli yeni iqtisadi siyasəti» kursu elan olundu. Bu kənddə ortabab və varlı kəndlilərin müdafiə edilməsi demək idi. N.İ.Buxarin yazırdı: «Bizdə şəhərdə yeni iqtisadi siyasət var, bizdə şəhərlə kənd arasındakı münasibətdə yeni iqtisadi siyasət var, ancaq bizdə demək olar ki, kəndin özündə yeni iqtisadi siyasət yoxdur». O belə bir şüar irəli sürdü: «Yığın, varlanın, öz təsərrüfatlarınızı inkişaf etdirin!»

Gimnaziya müəlliminin oğlu olan, Moskva Universitetinin hüquq fakültəsində təhsil alan Nikolay İvanoviç Buxarin (1888-1938) Leninin Rusiyada sosializm nəzəriyyəsinə əsaslanaraq fəhlə və kəndlilərin ittifaqını qoruyub saxlamaqla «kəndlilərin tədricən sosializmə qovuşması» ideyasını irəli sürdü. Əslində, bu, Leninin bir ölkədə sosializmin qələbəsinin mümkünlüyü haqqında ideyasının inkişaf etdirilməsi idi. Ona görə də yeni iqtisadi siyasət sosializmə aparan magistral yol idi. Bu yol kəndli təsərrüfatının inkişaf etdirilməsi və onun sayəsində ümumi iqtisadiyyatın canlandırılması demək idi. Kəndin texniki geriliyin aradan qaldırmaq məqsədilə dövlətin müdafiə etdiyi kəndlilər istehsalat və bölgü kooperativlərində birləşərək sosialist iqtisadiyyatına doğru yavaş-yavaş hərəkət etməli idilər. Bu prosesin bir neçə onillik ərzində başa çatması nəzərdə tutulurdu. Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkov, Həmkarlar İttifaqının sədri M.P.Tomski, AXTŞ-nın sədri F.E.Dzerjinski Buxarinin tərəfdarları idi. N.İ.Buxarinin və onun tərəfdarlarının görüşləri tarixçilər tərəfindən sağ kommunizm təmayülü adlandırılmışdır.

Torpaq sahibi ailəsindən olan, sosial-demokratik hərəkatın öncülü, 1917-ci ildən bolşeviklər partiyasının üzvü, Oktyabr silahlı üsyanın və Qızıl Ordunun təşkilatçısı və rəhbərlərindən biri olan Trotski (Bronşteyn) Lev Davıdoviç (1879-1940) sol istiqamətin rəhbəri idi. Hələ 1923-cü ildə toplanan XII partiya qurultayında Trotski «sənayenin diktaturasını» qurmağı tələb etdi. Sənaye mallarının yüksək qiyməti ilə kənd təsərrüfatı məhsullarının aşağı satış qiyməti «qayçı» siyasəti kimi xarakterizə edilir. Sənaye mallarını azlığı Trotskiyə görə iqtisadi balansın pozulmasının əsas səbəbi idi. L.D.Trotski və onun tərəfdarları olan Y.A.Preobrajenski və Q.L.Pyatakov belə hesab edirdilər ki, iqtisadi cəhətdən geri qalan və düşmən əhatəsində olan ölkədə sənayeni inkişaf etdirmək üçün vacib olan vəsaiti xüsusi bölmədən, əsasən də kənd təsərrüfatından dövlət, yəni sosialist bölməsinə yönəltməklə əldə etmək olar. Bu məqsədə varlı kəndlilərəin üzərinə qoyulan vergilərin artırılması və bərabər olmayan mal mübadiləsi vasitəsilə nail olmaq mümkündür.

1923-cü ildə bir çox sıravi partiya üzvünün mövqeyini ifadə edən L.D.Trotski və onun tərəfdarları partiya liderlərini inqilabi ideallara xəyanət etməkdə təqsirləndirərək onların ölkənin sosial-iqtisadi çətinliklərində əsas günahkarlar olduğunu iddia edirdilər. Trotskiyə görə partiyada fraksiya fəaliyyətini bərpa etmək və geniş partiyadaxili diskussiyalara başlamaq vacib idi. O, bu fikir mübadiləsindən qalib çıxmaq ümidində idi. Əslində onlar yeni iqtisadi siyasətdən əl çəkərək hərbi kommunizm siyasəti metodlarına keçməyi təklif edirdilər.

İ.V.Stalin, L.B.Kamenev və Q.Y.Zinovyev kimi partiya rəhbərlərinin isə ölkənin iqtisadi inkişafı ilə bağlı dəqiq mövqeləri yox idi. Onların məqsədi hakimiyyət uğrunda mübarizə olduğu üçün öz qərarlarında siyasi strategiyaya uyğun olaraq təcili addımlar atmağı nəzərdə tuturdular. Belə ki, 1924-cü ilə kimi L.B.Kamenev və Q.Y.Zinovyev L.D.Trotskiyə qarşı İ.V.Stalini müdafiə etdikləri halda, 1925-ci ildən onlar «sol» mövqeyə keçərək L.D.Trotski ilə birlikdə İ.V.Stalin və N.İ.Buxarinə qarşı durdular. İ.V.Stalin isə ustalıqla vəziyyətə nəzarət edərək hər iki tərəf arasında bitərəf hakim rolunda çıxış edərək özü üçün hakimiyyətə yol açmaq fikrində idi. Ümumiyyətlə, sosializmin ayrıca götürülmüş bir ölkədə qələbə çalmasının mümkünlüyü haqqında V.İ.Leninin fikrini müdafiə edən İ.V.Stalin ilə permanent inqilab tərəfdarları, yəni dünya miqyasında inqilabın qələbəsinin mümkün olmasını irəli sürən L.D.Trotski arasındakı nəzəri fikir ayrılığı partiya və dövlətdə rəhbər vəzifə tutmaq uğrunda mübarizə cəhdi ilə daha da şiddətli xarakter aldı.

1898-ci ildən sosial-demokratik hərəkatın iştirakçısı olan çəkməçi oğlu Stalin (Cuqaşvili) İosif Vissarionoviç 1912-ci ildən RSDF(b)P-nın rəhbər heyətinin üzvü, 1922-ci ilin aprelindən isə RK(b)P MK-nın Baş katibi idi. Bolşeviklərin rəhbər vəzifə tutan üst təbəqəsinin hamısı demokratik əqidədən uzaq adamlar idi. L.D.Trotski açıq etiraf edirdi ki, o, demokrat

deyil, İ.V.Stalin partiyadaxili demokratiyanı özünün təkhakimiyyətinin bərqərar olması yolunda əsas maneə hesab edirdi.

1922-ci il mayın 25-də V.İ.Leninin sağ tərəfinin iflic olması ilə xəstəliyinin birinci tutması oldu. O, yalnız tam olmasa da sentyabrda işə başlaya bildi. Dekabrın 16-da xəstəliyinin ikinci, 1923-cü il martın 10-da üçüncü tutması ilə Lenin tamamilə siyasi fəaliyyətdən uzaqlaşdı. 1924-cü il yanvarın 21-də V.İ.Lenin vəfat etdi. Xəstəlik illərində V.İ.Lenin bir sıra qeyd və məqalələr diktə edərək, öz yerini tuta biləcək namizəd, partiya aparatının yenidən qurulması, yeni iqtisadi siyasətin perspektivləri fikirlərini irəli sürdü. 1922-ci il dekabrın 23-31-də, 1923-cü il yanvarın 4-də diktə etdiyi məqaləsində özünün ən yaxın altı nəfər silahdaşları haqqında fikrini bildirdi. O, haqlı olaraq partiyada sabitlik üçün əsas təhlükəni İ.V.Stalinlə L.D.Trotski arasında rəhbərlik üstündə gedən rəqabətdə görürdü. Birinci, «öz əlində hədsiz hakimiyyət toplamışdır» və Lenin inanmır ki, Stalin «bu hakimiyyətdən daim ehtiyatla istifadə edə bilsin». İkinci, yəni Trotski “doğrudan da hazırkı MK-da ən istedadlı adamdır», lakin” özünə son dərəcə güvənən və işin inzibati tərəfinə hədsiz uyan biridir». On gündən sonra V.İ.Lenin diktə etdiklərinə İ.V.Stalin haqqında bir neçə tənqidi fikir əlavə edir. «Stalin son dərəcə kobuddur, buna öz aramızdakı münasibətlərdə dözmək olar, baş katib vəzifəsində isə kommunistlər üçün bu dözülməzdir. Odur ki, mən təklif edirəm yoldaşlar Stalinin bu yerdən dəyişdirilməsi vasitəsini düşünsünlər».

Vladimir İliç Leninin xəstəliyinin üçüncü tutmasından bir neçə həftə sonra RK(b)P XII qurultayı oldu. Qurultayda MK-nın say tərkibinin artırılması, Fəhlə-Kəndli Təftiş komissiyası ilə Mərkəzi Nəzarət komissiyasının birləşdirilməsi haqqında Leninin təklifi qəbul edildi. Yeni yaranan qurumun rəhbərliyinə Stalinə şəxsən sadiq olan V.V.Kuybışev gətirildi. 1923-cü ilin sentyabr plenumunda «qayçı» problemi müzakirə edilərək sənaye malları qiymətinin aşağı salınması haqqında qərar qəbul edildi.

1923-cü il oktyabrın 8-də MK-ya göndərdiyi məktubunda və dekabrın 11-də dərc etdirdiyi «Yeni istiqamət» məqaləsində Lev Davıdoviç Trotski ölkədəki iqtisadi çətinliyin günahkarı kimi «aparatın diktaturasını» səbəb göstərərək partiyadaxili demokratiyanın olmamasını, rəhbərliyin tənqidə dözməməsini və s. məsələləri izah edirdi. 1924-cü il yanvarın 16-18-də partiyanın XIII konfransında L.D.Trotski xəstəliyinə görə iştirak etməməsinə baxmayaraq bu mövqeyinə görə ciddi tənqid olundu. Trotski və müxalifət bolşevizmə və Leninizmə qarşı təftişçilik meyli ilə damğalandı. Konfrans müxalifətin «sənaye» istiqamətli siyasətini rədd etdi və L.D.Trotskinin ən yaxın silahdaşları A.A.İoffe Çinə, N.N.Krestinski Almaniyaya, X.Q.Rakovski İngiltərəyə diplomatik işə göndərildi.

1923-1924-cü ildə İ.V.Stalin Q.Y.Zinovyev və L.B.Kamenevlə birlikdə L.D.Trotskiyə qarşı mübarizə aparırdı. Partiya müzakirələrində L.D.Trotski məğlub olduqdan sonra onun liderliyə iddiaları da heç oldu. İndi hakimiyyətin zirvəsinə iki nəfər Q.Y.Zinovyev və İ.V.Stalin namizəd idi. Xerson quberniyasının xırda sahibkar ailəsindən olan Zinovyev (Radomıslski) Qriqori Yevseyeviç (1883-1936) 1903-cü ildən RSDF (b) P-nin üzvü olaraq bolşeviklər partiyasının rəhbər heyətinə daxil olmuş, 1917-ci ildə silahlı üsyan xəttinə qarşı çıxış etsə də, sonra öz mövqeyini dəyişmişdir. 1917-ci ilin dekabrında Petroqrad sovetinə rəhbərlik etmiş və qırmızı terrorun təşkilatçılarından biri olmuşdur.

Hakimiyyət uğrunda mübarizəni kəskinləşdirən İ.V.Stalin Q.Y.Zinovyevi «partiya diktaturasını» «proletariat diktaturası» ilə qarışdırdığına görə, L.B.Kamenevi Rusiyada sosializmin olmaması iddiasına görə tənqid etdi. Leninqrad partiya təşkilatına rəhbərlik edən Q.Y.Zinovyev «Leninizm» əsərini yazaraq göstərdi ki, Lenin daim yeni iqtisadi siyasətə strateji cəhətdən geri addım kimi baxaraq kəndlilərin «varlanmasını» sosializmə gedən yol kimi təsəvvür etmirdi. Sentyabrın 5-də Q.Y.Zinovyev, L.B.Kamenev, Q.Y.Sokolnikov və N.K.Krupskaya «dördlər platforması»nı imzalayaraq «yeni müxalifəti» yaratdılar. «Yeni müxalifət»in lideri Q.Y.Zinovyev iddia edirdi ki, onun rəhbərlik etdiyi partiya təşkilatı Lenin irsinə Moskva partiya təşkilatından daha yaxındır, bu isə Leninqrad proletariatının keçmişi və mütəşəkkilliyi ilə bağlıdır. Bu isə MK-nın Katibliyini və şəxsən İ.V.Stalini qıcıqlandırmaya bilməzdi.

1925-ci il dekabrın 18-31-də partiyanın XIV qurultayında İ.V.Stalin hesabat məruzəsində

«sağlar», yəni buxarinçilər və «sollar» yəni zinovyevçilər arasında bitərəf hakim kimi çıxış etdi. N.Krupskaya və L.Kamenevin çıxışları vəziyyəti mürəkkəbləşdirdi. Xüsusilə L.Kamenev İ.Stalini «diktə» etməkdə təqsirləndirərək elan etdi ki, o, bolşevik rəhbərliyində birliyi saxlamağa qadir deyil və «rəhbərin ideyalarının əleyhinədir». Qurultaydan sonra Siyasi Büronun tərkibinə daxil edilən V.M.Molotovun sədrliyi ilə Leninqrad partiya təşkilatının işini qaydaya salmaq məqsədilə komissiya yaradıldı. Bir ay ərzində yerli partiya təşkilatların «istiqamətləndirdikdən" sonra kommunistlərin 96 faizinin səsi ilə Q.Zinovyev vəzifədən azad edildi. Bakıdan çağırılan S.M.Kirov Leninqrad partiya təşkilatının katibi seçildi. Beləliklə, ÜİK(b)P-nın XIV qurultayında «yeni müxalifət» məğlub edildi. Bununla birlikdə 1920-ci illərin birinci yarısında sosializm quruculuğunun Lenin yolunun düzgün müəyyən edilməsi və vahid ideya birliyinin bərqərar edilməsi pərdəsi altında gedən partiyadaxili müzakirələrdə İosif Vissarionoviç Stalinin şəxsiyyətinə pərəstişin başlanmasının ilk kərpicləri qoyulmuş oldu.

***SSRİ-nin yaranması.*** Vladimir İliç Lenin və bolşeviklər partiyasının digər rəhbərləri milli məsələni heç vaxt birinci dərəcəli məsələ hesab etməyiblər. Rusiyadakı millətlərarası ziddiyyətləri onlar mütləqiyyətin siyasətinin nəticəsi olduğuna inanırdılar. Belə hesab edirdilər ki, süni surətdə pravoslavların, xüsusilə rusların güzəştli vəziyyətinin təmin olunması başqa xalqların arasında narazılığa səbəb olurdu. Bolşeviklər öz təbliğatlarında elan edirdilər ki, mülkədar və burjuaziya sinfinə qarşı mübarizədə rus proletariatının və ölkənin ucqarlarının əhalisinin maraqları üst-üstə düşür və hakim siniflərin devrilməsi, sosialist inqilabının qələbəsi milli məsələdəki gərginliyi aradan qaldıracaq.

1917-ci il Oktyabr silahlı üsyanından sonra V.İ.Lenin Rusiyada federativ dövlət yaratmaq ideyasını irəli sürdü. Bu ideya 1918-ci ilin yanvarında elan edilən «Zəhmətkeş və istismar olunan xalqın hüquq Bəyannaməsi»ndə və 1918-ci ilin iyulunda qəbul edilən RSFSR-in Konstitusiyasında öz əksini tapdı. Rusiyanın tərkibində muxtar respublika və vilayətlər yaradıldı. Artıq Vətəndaş müharibəsi illərində və ondan sonrakı ilk vaxtlarda ölkədə 13 muxtar respublika və 16 muxtar vilayət yaradıldı.

Polşa, Finlandiya və Baltikyanı ölkələr burjua dövləti kimi müstəqil oldular. Bessarabiyanı Rumıniya işğal etdi. 1919-cu ilin fevralında əsasən ruslardan ibarət olan yerli bolşeviklərin təşəbbüsü ilə Belarusiya və Litva sovetlər qurultayı hər iki respublikanın vahid ittifaqda birləşməsi haqqında qərar qəbul etdi.

Brest-Litovsk sülhünə əsasən Batum, Qars və Ərdahanın Türkiyəyə verilməsi Cənubi Qafqazın ayrılmasına səbəb oldu. 1918-ci il aprelin 25-də Zaqafqaziya Respublikası elan edildi. Bir aydan sonra Gürcüstanda menşeviklərin, Ermənistanda daşnakların, Azərbaycanda müsavatın rəhbərlik etdiyi mili dövlətlər yarandı. 1920-ci ilə kimi mürəkkəb daxili və xarici vəziyyət bolşevikləri Cənubi Qafqaza ehtiyatla yanaşmağı məcbur edirdi. Vətəndaş müharibəsinin sonunda ingilislərin iqtisadi və strateji cəhətdən mühüm mövqe tutan bu regiondan getməsi bolşeviklərin yenidən buranı tutmasına gətirib çıxardı. 1920-ci ilin aprelində Qızıl Ordunun köməyi ilə yerli bolşeviklər Müsavat hökumətini devirib sovet hakimiyyətini qurdular. 1920-ci ilin noyabrında Ermənistanda sovet hakimiyyəti qələbə çaldı. 1921-ci il fevralın 12-də Qızıl Ordu Gürcüstan sərhədini keçdi, fevralın 25-də Tiflisdə Sovet Respublikası elan olundu. Sözdə xalqların öz müqəddəratını təyin etmək hüququnu elan edən Sovet dövləti Ukrayna taxılını, Bakı neftini və Qafqazın filiz mədənlərini özünə tabe etmək məqsədilə bu regionları zəbt etdi.

1918-ci ildən 1922-ci ilə kimi ittifaqın inkişafı iki istiqamətdə, birincisi, muxtar respublika və vilayətlərin Rusiya Federativ Respublikasının tərkibinə daxil olması, ikincisi, nəzəri cəhətdən müstəqil olan respublikaların Rusiya Federativ Respublikası ilə ikitərəfli müqavilələr bağlanması yolu ilə davam edirdi.

1918-ci il martın 23-də İ.V.Stalinin başçılıq etdiyi Milli İşlər üzrə Xalq Komissarlığı Səid Qəliyev (1894-1938) və Əhməd-Zəki Vəlidovun (1890-1970) başçılığı ilə Cənubi Ural və Orta Volqaboyunda Tatar-Başqırd muxtar sovet respublikasının yaradılması haqqında dekret verdi. Rusiya müsəlmanlarının bir hissəsini birləşdirən bu muxtar qurum RSFSR-in tərkibinə daxil edilməklə bərabər S.Qəliyevin təşəbbüsü ilə RK(b)P-nin müsəlman təşkilatı və əsasən

tatarlardan ibarət olan müsəlman Qızıl Ordu dəstələrinin yaradılmasına başlandı. Əslində Səid Qəliyev və Əhməd-Zəki Vəlidov müsəlman Tatar-Başqırd Respublikasının Şərqin mərkəzində inqilab məşəli yandıran bir yerə çevirmək niyyətində idilər. Pantürkçülük ideyalarından qorxuya düşən mərkəzi hakimiyyət 1920-ci il mayın 22-də yeni dekretlə Tatar-Başqırd Respublikasının hüquqlarını məhdudlaşdırdı, böyük müsəlman dövləti yerinə iki kiçik muxtar Respublika yaradıldı. Milli kommunist təşkilatları və milli Qızıl Ordu dəstələri ləğv edildi. Şərqin ilk böyük mili kommunist rəhbərlərindən biri S.Qəliyev 1923-cü ilin mayında «millətçilik təmayülü» ilə damğalanaraq həbs edildi.

Müsəlman məktəblərində müəllimlik edən Əhməd-Zəki Vəlidov Başqırdıstan İnqilab komitəsinin sədri olduğu üçün şərq cəmiyyətinin reallığını nəzərə alaraq, RSFSR tərkibində müsəlman Başqırdıstanına xüsusi status müəyyən etməyi müdafiə etdiyi üçün millətçilikdə təqsirləndirildi və Türkiyəyə mühacirətə getməyə məcbur oldu. Nəticədə ölkə İstanbulda İslam Tədqiqatlar İnstitutunu yaradan görkəmli türkoloqdan məhrum oldu. Sözdə milli azlıqlara öz müqəddaratını təyin etmək, hətta ayrılmaq hüququ elan edən Sovet dövləti 1920-1922-ci illərdə qırğız, mari, dağıstan, buryat, monqol, kalmık və krım tatarlarına heç bir əsaslı səlahiyyət tanımadı.

İttifaqın yaradılmasına gedən ikinci yol RSFSR ilə müstəqil respublikalar arasında bağlanan ikitərəfli müqavilələr idi. İkitərəfli müqavilələrin mürəkkəb sistemi tədricən müstəqil respublikaların hüquqlarını məhdudlaşdıraraq onları RSFSR-ə bağlayırdı. 1920-ci ilin sentyabrın 30-da RSFSR-lə Azərbaycan arasında bağlanan müqavilədə ən qısa müddətdə hər iki respublikanın altı sahəsinin, o cümlədən müdafiə, iqtisadiyyat və xarici ticarət, ərzaq, dəmir yol və su nəqliyyatı, poçt və teleqraf, maliyyənin birləşdirilməsi nəzərdə tutulurdu. 1920-ci il dekabrın 28-də RSFSR ilə Ukrayna arasında bağlanan müqavilədə kağız üzərində olsa da Ukrayna müstəqilliyini qoruyaraq özünün xarici işlər komissarlığını toxunulmaz saxlamışdır. 1921-ci il yanvarda oxşar müqavilə RSFSR ilə Belarusiya arasında bağlandı. Gürcüstanla münasibətlər gərgin olraq qalırdı. 1921-ci il martın 2-də V.İ.Lenin xüsusi olaraq S.Orcenikidzeni Gürcüstana göndərdi ki, orada sovet hakimiyyətinin qurulmasına müəyyən şərtlərlə razı olan yerli menşeviklərlə kompromis bir qərara gəlsinlər. Lakin buna baxmayaraq, mərkəzi hakimiyyət hər üç respublikanın tezlklə birləşərək RSFSR ilə müqavilə bağlamağa sövq etdi. Gürcü kommunistlərin rəhbərləri F.İ.Maxaradze, M.D.Oraxelaşvili, P.Q.Mdivani Moskva və Qavbüronun bu təklifinə qarşı qətiyyətlə çıxdılar. Buna baxmayaraq, RK(b)P-nin MK ayrı-ayrı milli respublikalardansa birləşmiş Zaqafqaziyada vəziyyətə nəzarət etməyin daha asan olduğunu nəzərə alaraq bu ideyanı müdafiə etdi. S.Orcenikidze və Qavbüronun təzyiqi ilə 1922-ci il 11-12 martda Tiflisdəki konfransda hər üç respublikanın xarici münasibətlər, müdafiə, maliyyə, xarici ticarət, bütün nəqliyyat və iqtisadiyyatını birləşdirən Zaqafqaziya Respublikalarının Federativ İttifaqı yaradıldı. Azərbaycan, Gürcüstan və Ermənistan bir ittifaqda birləşərək Moskvaya tabe edilməklə bərabər, əslində həm faktiki, həm də formal olan müstəqilliklərini itirdilər.

Göründüyü kimi, vətəndaş müharibəsi illərində müstəqil sovet respublikaları öz aralarında hərbi-siyasi ittifaq, dinc quruculuq dövründə isə hərbi-təsərrüfat müqavilələri bağlayaraq əməkdaşlığı xeyli dərinləşdirdilər. Genuya və Haaqa konfransları ərəfəsində səkkiz müstəqil respublika Azərbaycan, Belarusiya, Ukrayna, Gürcüstan, Ermənistan sovet respublikaları, Buxara və Xarəzm xalq sovet respublikaları, Uzaq Şərq Respublikası (UŞR) 1922-ci il fevralın 22-də RSFSR-lə saziş bağlayaraq Genuya konfransında onların mənafeyini təmsil etməyi ona həvalə etdilər. Beləliklə, diplomatik ittifaq sovet respublikasının birləşdirilməsi hərəkatında mühüm mərhələ oldu.

1922-ci il avqustun 10-da RK(b)P MK RSFSR-lə müstəqil sovet respublikaları arasında münasibətlər haqqında qərar layihəsi hazırlamaq məqsədilə İ.V.Stalinin sədrliyi altında komissiya yaratdı. Sentyabrın 10-da komissiya «Muxtariyyətləşdirmə» layihəsi kimi məşhur olan sənədi qəbul etdi. Bu sənədə görə müstəqil sovet respublikaları RSFSR-in tərkibinə daxil edilərək onun ali hakimiyyət orqanlarının əlavəsinə çevrilirdilər. Buxara, Xarəzm və UŞR-sı ilə isə müqavilə münasibətlərini saxlamaq təklif edilirdi. Azərbaycan, Ermənistan və Belarusi-

ya tərəfi bu sənədi qəbul etdi. Başda X.Q.Rakovski olmaqla Ukrayna və Gürcüstan KP MK-sı «Muxtariyyətləşdirmə» qərarını qəbul etməyərək onu tənqid etdilər. Gürcü kommunistləri Gürcüstanın Zaqafqaziya Federasiyasının tərkibində deyil müstəqil dövlət kimi vahid dövlətə daxil olmasını tələb edirdilər. Başqırdıstan, Tatarıstan və d. respublikalar da ittifaqın tərkibinə bilavasitə daxil olmaq təklifi ilə çıxış etdilər.

İ.V.Stalin və RK(b)P-nin Qafqaz vilayət təşkilatlarına rəhbərlik edən S.Orcenikidze gürcü kommunistlərini millətçi təmayüldə günahlandırırdılar. Mübahisə gedişində B.Mdivaninin tərəfdarlarından biri, A.İ.Rıkovun Sibirdə sürgün yoldaşı olmuş A.A.Kabaxidze S.Orcenikidzeni sözlə təhqir etdi. Qafqaz partiya təşkilatı ali orqanının təmsilçisi isə ona üzünə sillə vurmaqla cavab verdi. Gürcüstandakı gərgin vəziyyəti araşdırmaq məqsədilə İ.Stalinə yaxınlığı ilə seçilən F.E.Dzerjinskinin sədrliyi ilə komissiya təşkil olundu ki, o da S.Orcenikidzenin xəttini müdafiə etdi.

Zaqafqaziya respublikalarının inteqrasiyası gücləndirildi. Zaqafqaziya Federativ İttifaq Respublikası Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına çevrildi. Lakin xəstəliyinə görə hadisələrdən gec xəbər tutan V.İ.Lenin gürcü kommunistləri müdafiə edərək İ.V.Stalin, S.Orcenikidze və F.Dzerjinskini böyük dövlətçilik şovinizmində günahlandırdı. Muxtariyyətləşdirmə əleyhinə çıxış edən V.İ.Lenin onu millətlərarası münasibətləri kəskinləşdirən siyasi səhv kimi səciyyələndirdi. V.İ.Lenin müstəqil və bərabər respublikaların könüllü ittifaqının yaradılmasını təklif etdi. 1922-ci ilin dekabrında bütün respublikaların sovetlər qurultayı V.İ.Leninin bərabərhüquqlu respublikaların federasiyası kimi vahid ittifaq dövlətinin yaradılması ideyasını qəbul edərək təsdiq etdi. Sovet Sosialist Respublikalar İttifaqının yaradılması haqqında sənədlərin hazırlanması məqsədilə nümayəndələr seçildi.

1922-ci il dekabrın 30-da Moskvada RSFSR, Ukrayna SSR, Belarusiya SSR və ZSFSR-dən 2214 nəfər nümayəndənin iştirak etdiyi Birinci Sovetlər qurultayı Sovet Sosialist Respublikaları ittifaqının təşkil edilməsi haqqında Bəyannamə və Müqaviləni təsdiq etdi. Qurultay həmçinin SSRİ Mərkəzi İcraiyyə Komitəsini seçdi. MİK-in birinci sessiyası ÜRMİK-nin sədri M.İ.Kalinin, Ukrayna MİK-in sədri Q.İ.Petrovski, ZSFSR MİK-in sədri N.N.Nərimanov və Belarusiya MİK-i sədri A.Q.Çervyakov olmaqla MİK-in 4 sədrini seçdi. 1923-cü il iyulun 6-da MİK-in ikinci sessiyası SSRİ-nin Əsas Qanunu–Konstitusiyasını təsdiq etdi. Eyni zamanda Vladimir İliç Lenin başda olmaqla iyulun 13-dən fəaliyyətə başlayan SSRİ Xalq Komissarlar Sovetinin tərkibi təsdiq edildi. L.B.Kamenev, M.D.Oraxelaşvili, A.İ.Rıkov, A.D.Sürupa, V.Y.Çubar sədrin müavinləri seçildilər. 1924-cü il yanvarın 31-də SSRİ ikinci Ümumittifaq Sovetlər qurultayı ölkə Konstitusiyasını qəti olaraq təsdiq etdi. RSFSR-in 1918-ci il Konstitusiyası kimi bu da sinfi xarakter daşıyırdı. Yalnız zəhmətkeşlər üçün ümumi olan seçkilər çoxdərəcəli olub fəhlənin bir səsi kəndlinin beş səsinə bərabər idi. Xarici siyasət, ölkənin sərhədləri, müharibə və sülh məsələləri, silahlı qüvvələr, nəqliyyat və rabitə, xalq təsərrüfatının planlaşdırılması və s. məsələlər SSRİ ali hakimiyyət orqanlarının səlahiyyətlərinə daxil idi. Qalan bütün məsələlərin həllində hər bir respublika müstəqil hərəkət edə bilər, hətta real olmasa da onların ittifaqdan azad surətdə çıxmaq hüququ belə var idi.

Ümumittifaq sovetlər qurultayı ölkənin ali hakimiyyət orqanı idi, qurultaylar arasındakı dövrdə ali hakimiyyəti İttifaq sovetindən və Millətlər sovetindən ibarət olan Mərkəzi İcraiyyə Komitəsi (MİK) həyata keçirirdi. Hər iki palata tərəfindən qəbul edildikdən sonra qanun qüvvəyə minirdi.

***Milli dövlət quruculuğu.*** SSRİ-nin Konstitusiyası qəbul edildikdən sonra xalqlar arasında tarixən əmələ gələn iqtisadi, sosial və mədəni sahədəki qeyri-bərabərliyi aradan qaldırmaq milli siyasətin əsas istiqamətini təşkil edirdi. Respublikaların idarəçilik aparatına milli kadrlar yerləşdirildi. Ümumittifaq idarəçilik orqanlarının səlahiyyətlərinin artırılması şəraitində ölkədə bürokratik mərkəzləşmə prosesi gücləndi.

1924-1925-ci illərdə Orta Asiya respublikalarında milli-dövlət bölgüsü həyata keçirildi. Buxara və Xarəzm SSR, eyni zamanda Türküstan MSSR-in yerində müstəqil Özbəkistan və Türkmənistan SSR, Tacikistan MSSR, RSFSR-in tərkibində isə Qazaxıstan və Qırğızıstan MSSR təşkil edildi. 1929-cu ildə Tacikistan MSSR, 1936-cı ildə RSFSR-in tərkibində muxtar

hüquqlu respublikalar olan Qazaxıstan və Qırğızıstan müttəfiq respublikalara çevrilərək SSRİ-nin tərkibinə daxil oldular. Yenə həmin il ZSFSR ləğv edildi. Azərbaycan, Gürcüstan və Ermənistan müstəqil müttəfiq respublikalar hüququnda SSRİ-nin tərkibinə daxil oldular.

1924-cü ildə RSFSR-in belarus əhalisinin üstünlük təşkil etdiyi Vtebsk, Qomel və Smolensk qəzalarının bir sıra rayonları Belarusiya SSR ilə birləşdirildi. 1924-cü ilin oktyabrın 12-də Ukrayna SSR-in tərkibində Moldoviya MSSR yaradıldı. Ukraynada yeni inzibati ərazi bölgüsü keçirilərək nahiyələr, qəzalar, quberniyalar ləğv olundu, onların yerinə respublika ərazisi rayonlara və mahallara bölündü. RSFSR-də mili muxtariyyət quruculuğu davam edirdi. SSRİ-nin yaradılması ərəfəsində RSFSR-in tərkibində bir sıra muxtar qrumlar var idi. Volqaboyu almanların Əmək Kommunası (1923-cü ildən Volqaboyu almanların MSSR-i), Başqırd, Tatar, Kareliya Əmək Kommunası (1923-cü il iyulun 25-dən Kareliya MSSR), Dağlıq, Dağıstan, Krım, Yakutiya muxtar respublikaları buna misaldır. Bu respublikalarla yanaşı Çuvaş, Votsk (Udmurt), Mari, Komi, Çərkəz (Adıgey), Kalmık, Buryat-Monqol Muxtar vilayətləri mövcud idi ki, onların da bir çoxu sonradan muxtar respublika statusu almışdır. 1924-cü ildə Dağlıq MSSR-in ərazisində Kabardin-Balkar, Karaçay-Çərkəz, Şimali Osetiya, Çeçen və İnquş muxtar vilayətləri meydana gəldi ki, onların da bir çoxu muxtar respublikaya çevrildi. 1930-cu ilin ortalarına doğru Mordova, Udmurt və Mari Muxtar vilayətlərinin MSSR-ə çevrilməsi ilə Volqaboyunda mili-dövlət quruculuğu işi əsasən başa çatmış oldu. 1930-cu illərdə həm də Sibirdə də muxtar vilayət və milli dairələrin təşkil edilməsi prosesi davam etmişdir.

Çox zaman bürokratik metodlarla həyata keçirilən milli-dövlət quruculuğu ideoloji və siyasi məqsəd daşıyırdı. Hər hansı bir qərarın həyata keçirilməsinin məqsədyönlü real mexanizmi yox idi, çox vaxt ərazidə yaşayan əhalinin etnik tərkibi lazım olan səviyyədə nəzərə alınmırdı. Bununla yanaşı, əvvəllər öz dövlətləri olmayan xalqlar onu əldə etməklə həyata keçirilən milli-dövlət quruculuğu prosesini sovet hakimiyyətinin xidməti kimi qiymətləndirərək özlərinin iqtisadi və mədəni inkişafını onunla bağlayırdılar.

Beləliklə, vahid ittifaq dövlətinin yaradılması ölkənin iqtisadi və hərbi gücünü artırdı, keçmiş Rusiya imperiyasının milli ucqarlarında yaşayan xalqların sənaye və mədəni inkişafı üçün geniş üfüqlər açdı. Eyni zamanda, bu proses milli dövlətçiliyin yaranmasına mane oldu, belə ki, federativ əsasda Sovet İttifaqının yaradılması deklorativ xarakter daşıyırdı, respublikaların İttifaqdan azad surətdə çıxmaq hüququ isə yalnız kağız üzərində idi. Ölkənin ittifaq və muxtar respublikalara bölünməsi həddən ziyadə mərkəzləşdirilmiş dövlətin yaradılmasına mane ola bilmədi. Belə bir şəraitdə milli mədəniyyətlərin deformasiyaya uğraması qaçılmaz oldu. SSRİ çərçivəsində mili məsələləri problemsiz həll etmək mümkün olmadı ki, bu da 90-cı illərin əvvəllərində SSRİ adlanan nəhəng qurumun dağılmasının başlıca səbəblərindən biri oldu.

## SSRİ 20-ci illərin ikinci yarısı – 30-cu illərdə

***Sənayeləşdirmə siyasəti.*** 20-ci illərin ikinci yarısında aqraq ölkəni sənaye dövlətinə çevirmək, onun iqtisadi müstəqilliyini təmin etmək və müdafiə qabiliyyətini möhkəmlətmək iqtisadi sahədə qarşıda duran əsas vəzifə idi. ÜİK (b) P-nın XIV qurultayı 1925-ci ilin dekabr ayında ümumi cizgilərlə olsa da öz qərarlarında sənayenin inkişaf etdirilməsinin zəruri olmasından bəhs edərək tarixə sənayeləşdimə qurultayı kimi daxil olmuşdur. Xalq təsərrüfatının inkişaf etdirilməsi vəzifəsini irəli sürən qurultayın qərarında qeyd edilirdi ki, "SSRİ-nin iqtisadi müstəqilliyini təmin etmək, SSRİ-ni dünya kapitalist təsərrüfatının əlavəsinə çevrilməkdən qorumaq üçün ölkəni sənayeləşdirmə istiqamətinə yönəltmək, istehsal vasitələri istehsalının inkişafını və iqtisadiyyatda hərəkət etmək məqsədilə ehtiyatların yaradılmasını təşkil etmək vacibdir." Qurultaydakı müzakirələr göstərdi ki, SSRİ maşın və avadanlıq idxal edən ölkədən onu istehsal edən ölkəyə çevrilməlidir. Texniki cəhətdən yenidən qurulan sosialist sənayesinin yaradılmasına xüsusi diqqət ayrılmışdır.

1926-cı ilin aprelində olan ÜİK (b) P MK-nın plenumunda əsasən sənayeləşdirmənin

həyata keçirilməsi üçün lazım olan yığım mənbələrindən bəhs edən təsərrüfat siyasəti məsələləri mükazirə edildi. MK-dan əsas məruzəçi olan A.İ.Pıkov qeyd edirdi ki, sənaye siyasətinin uğuru onun öz daxili mənbələrindən asılıdır. A.Rıkova görə fəhlələrə kömək edən kəndlilər sayəsində kənd sənayenin sürətlə inkişaf etməsi üçün əsas yığım mənbəyinə çevriləcək, amma ondan inqilaba kimi əldə ediləndən az almaq lazımdır. 1926-cı ildə yaranan trotski-zinovyevçi müxalifətin adından plenumda L.D.Trotski çıxış edərək A.Rıkovu onda təqsirləndirdi ki, o, sənayeləşdirmənin sürətlə həyata keçirilməsinin zəruruiliyini və kəndin sənayeləşdirmə üçün əsas yığım mənbəyi olması imkanını lazımınca qiymətləndirməmişdir. Q.Y.Zinovyev, L.B.Kamenev, Q.L.Pyatakov və b. bu ruhda çıxış etdilər. Lakin İ.V.Stalin başda olmaqla plenum üzvlərinin böyük əksəriyyəti A.Rıkovu müdafiə etdi. L.V.Stalin "sosializm quruculuğu üçün zəruri olan sənaye inkişafının minimum həddi" tezisini əsaslandıraraq elan etdi ki, "sənaye kəndin tədricən güzaranının yüksəlməsinə əsaslanmalıdır." 1926-cı il oktyabrın 27-dən noyabrın 3-dək davam edən XV partiya konfransı maşınqayırmanı sənayeləşdirmənin əsas hissəsi elan edərək onun sürətli inkişafını həyata keçirməyi irəli sürdü. Eyni zamanda konfransda sənayeləşdirmə məqsədilə nəzərdə tutulan yığım mənbələri də müəyyən olundu. Sənayenin daxilində yeni əlavə məhsul kütləsinin dövriyyəsi, xalq təsərrüfatının başqa sahələrində gəlirlərin dövlət büdcəsi vasitəsilə istifadəsi, əhalinin gəlirlərinin kooperativlər, əmanət kassaları, kredit, dövlət istiqrazları və s. səfərbər edilərək sənayeləşdirmə işində istifadə edilməsi bura daxildir. Əmək məhsuldarlığının artırılması, qənaət rejimi və məhsulun maya dəyərinin aşağı salınması yığım mənbəyinin əsasını təşkil edirdi. Sənayeləşdirmə siyasətinin başlanması 1927-ci il aprel ayında toplanan SSRİ IV Sovetlər qurultayının onu qanunvericilik yolu ilə təsdiq etməsilə qüvvəyə mindi. İlk vaxtlar əsas diqqət köhnə sənaye müəssisələrinin yenidən qurulmasına verilirdi. Eyni zamanda Saratov və Rostov kənd təsərrüfatı maşınqayırma, Karsaknay misəritmə və s. müəssisələr kimi 500 yeni zavod tikilirdi. Türküstan-Sibir dəmir yolunun (Türksib) və Dnepr hidroelektrik stansiyasının (Dneprohes) tikintisinə başlandı. Sənaye müəssisələrinin inkişafı və genişləndirilməsi demək olar ki, müəssisələrin 40 %-nin öz ehtiyatları hesabına həyata keçirilirdi. Sənayedaxili yığım mənbəylərindən başqa milli gəlirin sənayenin xeyrinə uyğun yenidən bölünməsi də onun maliyyələşdirilməsinə sərf edilirdi.

Sənayeləşdirmə siyasətinə keçilməsi sənayenin idarə edilməsi sisteminin dəyişdirilməsini tələb edirdi. İdarəetmənin sahə sisteminə keçilməsi, xammalın, fəhlə qüvvəsinin, istehsal edilən məhsulun bölgüsünün mərkəzləşdirilməsini və bir yerdə olmasını nəzərdə tuturdu. Bütün bunları nəzərə alaraq SSRİ AXTŞ əsasında ağır, yüngül və meşə sənayesi xalq komissarlıqları yaradıldı. G.K.Orconikidze, İ.Y.Lyubimov və S.S.Lobov yeni yaranan komissarlıqlara rəhbər təyin olundular. 1920-30-cu illərdə meydana gələn sənayenin idarə olunmasının forma və metodları təsərrüfatçılıq mexanizminin bir hissəsinə çevrilərək uzun müddət mövcud olmuşdur. Son həddə çatan mərkəzləşmə, direktivlərlə müşayiət edilən rəhbərlik və yerlərdə təşəbbüsün boğulması bu vəziyyət üçün xarakterik idi. Sənaye müəssisələrinin fəaliyyətinin bütün sahələrinə qarışan təsərrüfat və partiya orqanlarının bu işdə rolu aydın müəyyən edilməmişdir.

1927-ci ilin dekabrında ÜİK (b) P-nın XV qurultayı birinci beşillik planın tərtib edilməsi haqqında direktivləri qəbul etdi. Dövlət Plan Komitəsi və AXTŞ bu sənəd əsasında birinci beşillik planın tapşırıqlarını hazırlamağa başladı. SSRİ Dövlət Plan Komitəsinin sədri görkəmli alim Q.M.Krjijanovskinin təklifi ilə beşillik planın bir-birindən 20 % fərqi olan minimal və optimal variantları hazırlandı. 1929-cu ilin mayında V Ümumittifaq Sovetlər qurultayı optimal variantı qanun kimi qəbul etdi. Birinci beşillik plana qiymət verən tarixçilər bir məsələdə həmrəy idilər ki, onun tapşırıqları şişirdilmişdir, lakin miqyasına baxmayaraq, onun yerinə yetirilməsi real idi. Plan beşillik ərzində sənaye məhsulu buraxılışını 180, istehsal vasitələri istehsalını 230, kənd təsərrüfatı məhsullarını 55, milli gəliri 103% artırmağı nəzərdə tuturdu. Çuqun əridilməsi 10 mln ton, elektrik enerjisi hasilatı 22 mlrd. kvt. nəzərdə tutulurdu. Sənayedə əmək məhsuldarlığı 110, real əmək haqqı 71, kəndlilərin gəliri 67% artmalı idi. 1928/29-1932/33-cü illəri əhatə edən birinci beşillik planın tapşırıqlarının müəyyən edilmə-

sində görkəmli biokimyaçı alim A.N.Bax, enerji sahəsində adını tarixə yazdırmış İ.Q.Aleksandrov və A.N.Vinter, aqrokimya elmi məktəbinin əsasını qoyan D.H.Pryanişnikov və b. mühüm rol oynadı. 1929-cu ilin dekabrında zərbəçilərin qurultayında İ.Stalin "Beşilliyi dörd ildə!" şüarın irəli sürdü. Bu vəzifəni yerinə yetirmək məqsədilə plan tapşırıqlarına yenidən baxılaraq artırıldı. Ölkə əvvəlcə planlaşdırılandan iki dəfə artıq əlvan və qara metal, avtomobil, kənd təsərrüfatı maşını, çuqun və s. hasil etməyə borclu idi. Məsələn, beşilliyin sonunda əvvəlcə planlaşdırılan 10 mln yerinə 17 mln ton çuqun əridilməli, 55 min yerinə 170 min traktor, 100 min yerinə 200 min avtomobil buraxılmalı idi. Yeni müəyyən edilən tapşırıq rəqəmləri sağlam düşüncənin məhsulu olmayıb, heç bir real əsasa söykənmirdi. Sənayenin inkifaşında "böyük sıçrayış" istiqaməti seçən partiyanın rəhbərliyi səhv olaraq belə hesab edirdi ki, siyasətdə olduğu kimi iqtisadiyyatda da kütlələri yüksək ideyalar uğrunda təşkil edib ruhlandıraraq onları aydın ideyaların həyata keçirilməsi uğrunda qəti mübarizəyə atmaq olar. Plan tapşırıqlarının süni surətdə şişirdilməsi və qüvvələrin son dərəcə gərginliyi beşilliyin vəzifələrinin bir çox hissəsinin yerinə yetirilməməsinə səbəb oldu. 1929-cu ildə birinci beşilliyin həm minimum, həm də optimal variantının planı yerinə yetirildiyi halda, 1931-ci ildə həta minimal plan belə yerinə yetirilmədi. Lakin buna baxmayaraq, xüsusilə beşilliyin ilk illərində ölkə sənaye müəssisələri tikintisi meydanını xatırladırdı. Belə ki, ölkənin şərqində mərkəzi Maqnitoqorsk və Kuznetsk olan yeni kömür-metallurgiya bazası Ural-Kuzbas meydana gəldi. Mariupol, Stalinqrad, Moskva, Nikopol və Pervouralskdə əlvan metaləritmə və boru prokatı zavodları salındı. Qorki və Moskvada iri avtomobil zavodları, Stalinqrad, Xarkov və Çelyabinskdə traktor zavodları, Rostov-Don və Zaporojyedə kənd təsərrüfatı maşınqayırma, Qorlovki, Kramatorsk, Sverdlovskdə ağır maşınqayırma zavodları tikildi. Bereznikovsk, Solikamsk, Bobrikdə kimya kombinatları işə salındı.

Ümumiyyətlə, birinci beşillik planda 1235 müəssisə, yerli elektrostansiya, mədən və neft yataqları nəzərə alınmaqla 1500-dən çox müəssisə tikilib istifadəyə verilməli idi. Məhz sovet adamlarının tükənməz əməyi sayəsində beşillik ərzində 1500 yeni sənaye müəssisəsi tikilib istifadəyə verildi. Başqa sözlə, SSRİ sənaye avadanlığı ixrac edən ölkəyə çevrildi. Sənaye quruculuğunun geniş miqyası işə kütləvi fəhlə qüvvəsini cəlb etməyi tələb edirdi. Birinci beşillik illərində sənaye, tikinti və nəqliyyat sahələrinə 12,5 mln yeni fəhlə gəlmişdir ki, bunların da 8 mln nəfəri kənd yerlərindən gələnlərdən ibarət idi. Adamlar yeni ucalan zavod və müəssisələrdə gecə-gündüz demədən, özlərinə acımadan çalışırdılar. 1929-cu ildə sosializm yarışı təşkil edilir, zərbəçi əmək briqadaları meydana gəlirdi. İlin sonunda iri müəssisələrin fəhlələrinin 26%-i zərbəçi briqada üzvü idi, yarışlarda isə fəhlələrin 65%-i iştirak edirdi. 1928-1932-ci illəri əhatə edən birinci beşilliyin sonlarında Donbas mədənçisi N.A.İzotovun adı ilə qabaqcılların izotov hərəkatı geniş yayılmışdır. İzotovçular yeni fəhlələrə istehsalat təlimi keçməyi bir vəzifə olaraq öz üzərlərinə götürdülər. Sənaye quruculuğundan əsl əmək xarüqələri yaradan fəhlələr çox vaxt ən ibtidai məişət şəraitindən belə məhrum idilər. İstehsalatda "hücum" ab-havasının yaradılması bəzən işin ritminin pozulmasına və keyfiyyətin aşağı düşməsinə səbəb olurdu.

Birinci beşilliyin plan tapşırıqları ilk iki ildə yeni iqtisadi siyasətin ehtiyyatları hesabına sənayenin inkişafında artıqlaması ilə yerinə yetirildi. Plan tapşırıqlarının mərkəzdən süni olaraq dəyişdirilib artırılması və ehtiyatların azalması 30-cu illərin əvvəllərində sənayenin inkişaf sürətinin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb oldu. Belə ki, bu 1928-1929-cu illərdəki 23,7% əvəzinə, 1933-cü ildə 5%-ə düşdü. Beşilliyin yekun ilinin planları demək olar ki, yerinə yetirilmədi. Buna baxmayaraq, İ.Stalin elan etdi ki, birinci beşillik plan tapşırıqları dörd il üç ayda yerinə yetirilib. Bunu təsdiq etmək məqsədilə yalnız məhsulun manatla dəyəri hesablanırdı, natura cəhəti isə nəzərə alınmırdı. Xammal, avadanlıq, maşınların qiymətlərinin artması meydana gələn fərqin səbəbi kimi göstərilirdi. Natural göstəricilərə görə isə plan tapşırıqları yerinə yetirilməmişdir. Xüsusilə yüngül və yeyinti sənayesi ağır vəziyyətdə idi, belə ki, bu sahədəki göstəricilər hətta 20-ci illərin sonlarındakından aşağı idi. Belə bir vəziyyət ondan irəli gəlirdi ki, yüngül və yeyinti sənayesinə kifayət qədər diqqət ayrılmamış, başqa bir tərəfdən 20-30-cu illərin qovuşuğunda kollektivləşdirməyə keçilməsilə bağlı kəndin

ağır sarsıntıya məruz qalması ilə əlaqədar olmuşdur. Dəmir yol, dəniz və su nəqliyyatı sahəsində beşillik planda nəzərdə tutulan işlərin yalnız üçdə birini yerinə yetirmək mümkün oldu. Məhz "böyük sıçrayış" illərində xalq təsərrüfatının sahələri arasında dərin uyğunsuzluq yarandı ki, bu da onilliklər boyu SSRİ-nin iqtisadiyyatı və cəmiyyətinin xarakterik xüsusiyyətinə çevrildi. Tarixçilər belə hesab edirlər ki, 1928-1932-ci illərdə birinci beşillik plan tapşırıqlarının pozulması İ.Stalin başda olmaqla bolşevik rəhbərliyini məcbur etdi ki, planlaşdırmanı düzəltmək üçün beşilliyin təcili yerinə yetirildiyini elan etsinlər.

1934-cü ilin yanvar-fevralında ÜİK(b) P-nın XVII qurultayı 1933-1937-ci illəri əhatə edən ikinci beşillik planı təsdiq etdi. "Sıçrayışın" mənfi təcrübəsi planın tərtib edilməsinə onun göstəricilərini aşağı salmaq şərtilə son dərəcə ehtiyatla yanaşmağı tələb edirdi. Sənayenin orta illik artım sürəti birinci beşillikdəki 30 yerinə 16,5%-ə düşmüşdür. Yüngül sənaye sahəsindəki geriliyi aradan qaldırmaq məqsədilə onun orta illik artım sürəti 18,5, ağır sənayeninki isə xeyli az, yəni 14,5% müəyyən edildi. Sənayedə əmək məhsuldarlığını 63% artırmaq, məhsulun maya dəyərini isə 26% aşağı salmaq nəzərdə tutulurdu. Uralda, Qərbi və Şərqi Sibirdə, Başqırdstanda, Qazaxıstanda və Orta Asiyada sənayenin yeni dayaq mərkəzlərinin yaradılması planlaşdırılırdı. Yüngül və yeyinti sənayesini xammal mənbələrinə yaxınlaşdırmaq üçün Orta Asiya, Sibir, Cənubi Qafqazda yeni toxuculuq müəssisələrinin salınması irəli sürüldü.

Birinci beşillikdə zay məhsulların çoxluğu fəhlələrin istehsalat təliminə xüsusi diqqət ayrılmasını tələb etdi. Birinci beşilllikdəki "Texnika hər şeyi həll edir!" şüarı indi "Kadrlar hər şeyi həll edir!" şüarı ilə əvəz edildi. 1932-ci ildən Xalq Ağır Sənaye Komissarlığına başçılıq edən Georgi Konstantinoviç Orconikidze (1886-1937) yeni ixtisaslı kadrların hazırlanmasına, əmək məhsuldarlığının artırılmasına, sənayenin yeni sahələrinin yaradılmasına xüsusi fikir verirdi. 1934-cü ilin dekabrında Makeev metal zavodunun fəhlələri dövlət dotasiyası olmadan iş rejiminə keçmək təşəbbüsü ilə çıxış edərkən onları Serqo Orconikidze müdafiə etdi. Üç aydan sonra makeevçilər öz öhdəliklərini yerinə yetirdilər. Georgi (Serqo) Orconikidze Makeev zavodunun təcrübəsini bütün ağır sənayeyə yaydı ki, bunun da sayəsində 1936-cı ilin sonuna doğru dövlət dotasiyasına tələbat xeyli azaldı, zavodların öz ehtiyyatları hesabına maliyyələşdirilməsi iki dəfədən çox artdı.

1933-1937-ci illərdə sosializm yarışı yeni inkişaf mərhələsinə qədəm qoydu. 1935-ci ilin sentyabrında Donbasın mərkəzi İrmino mədəninin fəhləsi A.Q.Staxanov növbəsi vaxtı 7 ton norma yerinə 104 ton kömür çıxararaq Staxanov hərəkatının əsasını qoydu. Bu rekord məqsədli şəkildə hazırlanmışdır, əmək bölgüsündən istifadə nəticəsində əsas mədənçini iki əlavə fəhlə müşayiət edərək mədənin möhkəmləndirilməsi işi ilə məşğul olurdular. A.Staxanov əsas diqqəti kömür çıxarmağa yönəltdi. Bir neçə gündən sonra həmən mədəndə M.D.Dyukanov rekordu 114 tona çıxardı. Staxanov hərəkatı başqa sahələrə də yayıldı. Toxucular Y.V. və M.İ.Vinoqradovalar, dəmirçi A.X.Busıqin, paravoz sürücüsü P.F.Krivonos və b. bütün ölkədə şöhrət qazandılar. Staxanov hərəkatı geniş təbliğ olunurdu ki, bu da fəhlələrin daha yüksək əmək nəticələri əldə etməsinə səbəb oldu. Bəzən elə hallar olurdu ki, staxanovçular üçün xüsusi şərait yaradılır və ya sadəcə olaraq başqalarının birlikdə gördüyü işlər onların adına yazılırdı. Getdikcə staxarovçular fəhlə sinifinin elit təbəqəsinə çevrildilər, onlar məşhurlaşaraq həyatda irəli getmək imkanı qazandılar.

Sənayeləşmə gündən-günə daha çox ixtisaslı kadrlara ehtiyac duyurdu. 1933-cü ilin payızında çoxyönlü ixtisaslar üzrə fəhlə kadrları hazırlamaq məqsədilə fabrik-zavod şagird məktəbləri (FZU) yenidən təşkil olunaraq peşə təhsil məktəblərinə çevrildilər. Çətin və mürəkkəb ixtisaslar üzrə təhsil müddəti uzadılaraq iki, sonra isə üç ilə çatdırıldı. İkinci beşillik ərzində birinci beşillik dövründəkindən üç dəfə çox, yəni 1,4 mln fəhlə bu məktəbləri bitirmişdir.

1933-1937-ci illəri əhatə edən ikinci beşillik plan tapşırıqları yüngül sənaye, ağır sənayenin bir sıra sahələri, sosial sahədə yerinə yetirilməməsinə baxmayaraq, ümumi nəticələr birinci beşillik göstəricilərindən xeyli yaxşı idi. Əmək məhsuldarlığı birinci beşillikdəki 41% yerinə iki dəfə artdı. Yeni müəssisələr bütün məhsulun 80%-ni verirdi. Kömür çıxarılması iki

dəfə, neft 1,4 dəfə, boru istehsalı üç dəfədən çox artdı. İkinci beşillik illərində 4500 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Ural maşınquraşdırma, Çelyabinsk traktor, Novo-Tula metallurgiya zavodları işə salındı. 1935-ci ildə Moskvada metropolitenin birinci xətti salındı. Ukraynada maşınqayırma, Özbəkistanda metal emalı zavodları işə başladı. 1933-cü ildə Belomor-Baltik, 1937-ci ildə Moskva adına kanallar istifadəyə verildi. İkinci beşillik plan tapşırıqlarının vaxtından əvvəl, yəni dörd il üç ayda yerinə yetirilməsi elan edildi. Buna baxmayaraq, 46 göstərici üzrə plan tapşırıqlarının yalnız 10-u üzrə planlar yerinə yetirilmişdir. Qalanları üzrə isə plan yalnız 70-77% yerinə yetirildi.

Sənayeləşdirmə yeni iqtisadi siyasətin sıxışdırılıb aradan çıxarılmasına səbəb oldu. Bütün maliyyə və maddi vəsaitin, fəhlə qüvvəsinin dövlətin əlində cəmləşməsi xüsusi bölmənin məhvinə səbəb oldu. Dövlət müəssisələrinin idarə olunması dəyişdi. Təsərrüfat hesabı faktiki olaraq yox edildi. Böyük miqyaslı tikintilər, iri xərclər, aşağı məhsuldarlıq sənayenin gəlirlərinin aşağı düşməsinə səbəb oldu. Müəssisələrin daxili yığımı sənayeləşdirməni təmin etmirdi. Odur ki, dövlət vəsaiti və onun bölgüsünü öz əlində cəmləşdirdi. Bütün gəlirlər büdcəyə keçirildi. Müəssisələr arasındakı topdansatış ticarəti dayandırıldı. Artıq xammal və avadanlıq satılmır, ayrılmış fond və limit əsasında mərkəzləşmiş qaydada bölünürdü. Maliyyə müstəqilliyini itirən müəssisələr özünüidarə imkanlarını da itirirdi. Beləliklə, sovet iqtisadiyyatında idarəçiliyin inzibati-rəhbər modeli qələbə çaldı. Bu isə qısa müddətdə sənayenin sıçrayışı üçün əlverişli olduğu halda, texniki tərəqqi və məhsulun keyfiyyəti nöqteyi-nəzərindən əhəmiyyətli deyildir.

***Kənd təsərrüfatının kollektivləşdirilməsi.*** 20-ci illərin birinci yarısının sonlarında SSRİ-nin kənd təsərrüfatı müharibədən əvvəlki səviyyəyə çatdı. Ancaq mülkədar və qolçomaq təsərrüfatları ləğv edildiyi üçün onun məhsulu aşağı idi. Xırda kəndli təsərrüfatı birinci növbədə öz tələbatını ödəyərək bazarla mütəmadi əlaqə saxlamırdı. Yalnız iri təsərrüfatlar məhsul istehsalının artımını təmin edə bilərdi.

Sənaye sıçrayışı kəndli təsərrüfatlarının vəziyyətinə ağır təsir göstərdi. Sənayeləşdirməni vəsaitlə təmin etməyə məcbur olan kəndlilər, sənaye fəhlələrini aşağı qiymətdə ərzaqla, fabrik və zavodları xammalla təmin etməli, valyuta əldə etmək üçün xaricə taxıl ixrac etməli idi. 1926-27-ci təsərrüfat ilində varlı kəndlilər üzərinə qoyulan kənd təsərrüfatı vergisi 50%-ə qədər artdı. Ertəsi il bu vergi daha da çoxaldı. Vergilərin sürətlə artması kəndlilərin narazılığına və çaxnaşmaya səbəb oldu. Eyni zamanda sənaye məhsullarının qiyməti artır, taxılın dövlət satınalma qiyməti isə süni surətdə aşağı salınırdı. Bununla bərabər, dövlət kəndlə ticarəti tamamilə öz nəzarəti altına almaq məqsədilə xüsusi sahibkarlığın bütün növləri üzərinə hücuma keçdi. Bu siyasət kəndlilərin yoxsullaşmasına və iflasına gətirib çıxarırdı. Kənd təsərrüfatı məhsullarının qiymətinin süni surtədə aşağı salınması və bunun sayəsində qeyri-bərabər mübadilə kəndliləri məcbur etdi ki, öz əməyinin bəhrəsini dövlətə satmasın. Taxıl ixtişaşları başladı ki, bu da başqa formada hərbi kommunizm metodlarının dirçəldilməsinə gətirib çıxartdı. Sabit qiymətlərlə dövlətə taxıl satmaqdan imtina edən kəndlilər cinayət məsuliyyətinə cəlb olunur, yerli sovetlər onların əmlakını müsadirə edə bilirdi. Xüsusi "əməliyyat müvəkkilləri" və "fəhlə dəstələri" nəinki artıq qalan məhsulu, hətta kəndlilərin ehtiyacı üçün nəzərdə tutulan taxılı da onların əlindən tutub alırdılar. "Hərbi kommunizm" dövründə olduğu kimi yoxsulları maraqlandırmaq məqsədilə müsadirə edilmiş taxılın 25%-i aşağı dövlət qiyməti ilə və ya uzunmüddətli kredit yolu ilə onlar arasında paylanırdı. Belə özbaşınalıqlar Sibir, Aşağı və Orta Volqaboyunda, Ukrayna, Uzaq Şərq və Orta Asiya respublikalarında geniş yayılmışdır.

1927-28-ci illərdəki taxıl tədarükü böhranı və ÜİK (b)P MK-nın rəhbər kadrlarının mərkəzləşdirilmiş inzibati-amirlik metaodları ilə rəhbərlik vərdişləri vasitəsi ilə iqtisadiyyatın bütün sahələrini idarə etmək meyilləri ümumi kollektivləşdirməyə keçidi sürətləndirdi. 1927-ci ilin dekabrında ÜİK (b) P XV qurultayı kənddə iş haqqında xüsusi qətnamə qəbul etdi. Bu sənəddə kəndli təsərrüfatlarının üçdə birini əhatə edən kooperasiyanın bütün formalarının inkişafından bəhs edilirdi. Gələcəkdə tədricən torpaqların kollektiv sürətdə becərilməsi nəzərdə tutulurdu. Eyni zamanda qurultay "qolçomaqlar üzərinə hücumu inkişaf etdirmək" vəzifə-

sini, “kənddə kapitalizmin inkişafını məhdudlaşdıran və kəndli təsərrüfatını sosializm istiqamətinə yönəldən bir sıra yeni tədbirlər” irəli sürdü. Qolçomaqların üzərinə hücum partiya və dövlətin “kənddə yeni iqtisadi siyasət”i istiqamətindən imtina etməsi demək idi. Qurultayın qəbul etdiyi “qolçomaqların məhdudlaşdırılması” siyasəti bir sıra inzibati-iqtisadi tədbirlərlə, o cümlədən verginin artırılması, icarə və muzdlu əməkdən istifadənin sıxışdırılması ilə müşayiət olundu. Kolxoz quruculuğuna bilavasitə 1925-ci il 18-31 dekabrda olan XIV partiya qurultayında İ.Stalinin adamı kimi Siyasi Büronun tərkibinə daxil edilən ÜİK (b) P MK-nın kəndlə iş üzrə katibi V.M.Molotov başçılıq edirdi. Yeni yaradılan SSRİ Kolxoz-mərkəzə isə Q.Q.Kaminski rəhbərlik edirdi. Yuxarıdan gələn direktiv göstərişlərə müvafiq olaraq ölkədə kollektiv təsərrüfatlar olan kolxozlar yaradılmağa başlandı. Yeni yaradılan kolxozların forması kimi artellər müəyyən olundu. Kollektiv təsərrüfatın başqa formalarından fərqli olaraq artellərdə əsas istehsal vasitələri, torpaq, avadanlıq, mal-qara ictimailəşdirilirdi. Könüllülük prinsipi elan edilməsinə baxmayaraq, kolxozlara daxil olmaqdan imtina edənlər seçki hüquqlarından və azadlıqdan məhrum edilir, əmlakı müsadirə edilərək sovet hökumətinə müqavimət göstərən düşmən elan olunurdu. Basqı və təzyiq öz nəticəsini verirdi. 1928-ci ildə kolxozlarda birləşən kəndli həyətlərinin payı 0,8-dən artaraq 3,2%-ə çatdı. Kolxozların 60%-i artellərdə deyil torpaqları birgə becərən yoldaşlıq kooperativlərində (TOZ) birləşdilər. Bütün istehsal vasitələrinin ictimailəşdirilməsini nəzərdə tutan artellərdən fərqli olaraq yoldaşlıq kooperativlərində mal-qara və avadanlıq kəndlinin fərdi mülkiyyətində qalır, yalnız torpaqlar birgə becərilirdi.

1928-ci ilin yazında RSFSR-in Torpaq Xalq Komissarlığı və Kolxoz mərkəzi kəndli təsərrüfatlarının kollektivləşdirilməsinin beşillik planının layihəsini tərtib etdi ki, buna görə beşilliyin sonunda, yəni 1933-cü ildə kolxozlara 1,1 mln təsərrüfat cəlb edilməli idi (4%). Yayda isə Kooperativlərin kənd təsərrüfatı ittifaqı bu rəqəmi 3 mln təsərrüfata (12%) çıxardı. 1929-cu ilin yazında artıq təsdiq edilmiş beşillik planda 4,5 mln, yəni 16-18 faiz təsərrüfatın kollektivləşdirilməsi nəzərdə tutulurdu. Plan tapşırıqlarının tez-tez dəyişdirilməsi bir tərəfdən kolxoz quruculuğunun süni sürətilə, başqa bir tərəfdən partiya və dövlət rəhbərliyinin taxıl problemini təcili həll etmək təşəbbüsü ilə bağlı idi. 1929-cu ilin ikinci yarısından başlayaraq kolxoz quruculuğunun miqyas və sürəti kəskin şəkildə artdı. Əgər 1929-cu ilin yayında kolxozlarda 1 mln kəndli təsərrüfatı var idisə, həmin ilin oktyabrında bu göstərici 1,9 mln idi. Bu isə o demək idi ki, kollektivləşmənin səviyyəsi 3,9-dan 7,6%-ə yüksəlmişdir. Xüsusilə, əsas taxılçılıq rayonları hesab edilən Şimali Qafqaz, Aşağı və Orta Volqaboyu vilayətlərində kolxoz və kəndli təsərrüfatları daha sürətlə artmışdır.

1928-ci ildə torpağı texnika tətbiq edərək becərmək məqsədilə kəndlilərə pullu xidmət edən maşın-traktor stansiyaları (MTS) meydana gəldi. Traktorlardan istifadə edilməsi kəndli torpaqları arasında olan sərhədlərin ləğv edilərək ümumi əkin sahəsinin işlənməsini tələb edirdi. İlk vaxtlar traktorlar çox az idi. 1929-cu ildə ümumi əkin sahələrinin yalnız 1%-i traktorlarla becərilmişdir. 1932-ci ildə kolxozçulara istehsal-texniki xidmət göstərən MTS-lərin sayı 2,5 minə çatdı.

Ölkənin iqtisadi və sosial-siyasi inkişafının bütün mühüm məsələlərində olduğu kimi kənd təsərrüfatının kollektivləşdirilməsinin həyata keçirilməsinin forma və metodları da ciddi müzakirələrə və fikir ayrılığına cəlb olurdu. Sağ təmayülə “başçılıq edən Nikolay İvanoviç Buxarin (1888-1938) kooperasiya haqqında V.İ.Leninin görüşlərini təcəssüm etdirərək belə hesab edirdi ki, koopersiya vasitəsi ilə xırda, o cümlədən varlı xüsusi təsərrüfatlar “sosializmə qovuşacaqlar”. Təbiidir ki, Lenin və Buxarin yalnız proletariat diktaturası şəraitində kənddə sosialist kooperativlərinin yaradılmasından bəhs edirdilər.

Görkəmli aqronom-alim, pedaqoq, ədəbiyyatçı-fantast, ictimai və dövlət xadimi Aleksandr Vasilyeviç Çayanov (1888-1937) isə kəndlilərin kooperativlərdə birləşməsinin uğurunu diktator, bolşevik qayda-qanunun yerinə gələn demokratik rejimdə görürdü. Bir çox sanballı elmi əsərlərin müəllifi olan professor A.V.Çayanov vətən iqtisad fikrinin təşkilat-istehsalat məktəbinin yaradıcılarından biri idi. İnqilba qədər və sovet təsərrüfat orqanlarında müxtəlif vəzifələrdə çalışan bitərəf A.V.Çayanov 1930-cu ildə Əmək Kəndli partiyasının işi ilə bağlı

həbs edilərək Alma-Ataya sürgün edilmiş, sonra isə təkrar həbs edilərək güllələnmişdir. Ölümündən sonra bəraət almışdır. Professor A.Çayanov və onun vətən aqrar elminin təşkilat-istehsalat istiqaməti üzrə məsləkdaşları A.Çelintsev, N.Makarov, A.Rıbnikov “kooperativ kollektivləşməsini” həyata keçirməyi müstəsna dərəcədə özfəaliyyət, könüllülük və sırf təsərrüfat əsasında təsəvvür edirdilər. Bir neçə yüz min qolçomaqlıqdan salınmış ailənin faciəsi, 1932-1933-cü illərdə çoxsaylı əhalinin ölümünə, o cümlədən kənddə məhsuldarlığın aşağı düşməsinə səbəb olan müstəqil kəndli təsərrüfatlarının zorla dağıdılmasının Stalin planı ilə müqayisədə kəndin modernləşdirilməsinin Çayanov variantı ölkənin aqrar bölməsinin yenidən qurulmasının ağrısız və tədrici yolu idi.

“Sağtəmayülün” liderləri, A.Çayanov kimi böyük iqtisadçı alim, makroiqtisadiyyat modelinin və iqtisadi dinamika nəzəriyyəsinin yaradıcısı Nikolay Dmitriyeviç Kondratyev (1892-1938) də kooperasiyanın bütün formalarından istifadə etməklə kəndli təsərrüfatlarının tədrici inkişaf yolunun tərəfdarı idi. 13 yaşında eserlər partiyasına qoşulan D.Kondratyev Petroqrad Universitetini bitirərək A.Kerenskinin kənd təsərrüfatı üzrə katibi olmuşdur. Oktyabr silahlı üsyanından sonra bolşeviklərə qarşı mübarizə aparmış, Vətəndaş müharibəsi illərində “Dirçəliş İttifaqının” üzvü kimi “Çekistlər” tərəfindən təqib edilmişdir. 1920-ci ildən A.Çayanov, A.Rıbnikov, L.Litoşenko ilə birlikdə Torpaq və Maliyyə Xalq Komissarlıqlarında çalışmışdır. Bir çox sanballı elmi əsərlərin, o cümlədən Butırsk həbsxanasında yazdığı və 1991-ci ildə çap olunan “İqtisadi satistika və dinamikanın əsas problemləri” fundamental əsərin müəllifidir. 1930-cu ildə Əmək Kəndli partiyasının üzvü olduğu üçün həbs edilərək həbsxanaya salınmış, 1938-ci ildə təkrar repressiyaya məruz qalaraq güllələnmişdir. 1987-ci ildə ölümündən sonra bəraət almışdır. Əslində iki-üç onlarla üzvü olan, gizli siyasi dərnək kimi fəaliyyət göstərən Əmək Kəndli partiyası şişirdildiyi kimi heç də 200 min nəfəri birləşdirən, partiya və dövlətə qarşı mübarizə aparan bir partiya deyildi. Sadəcə olaraq nəhəng partiya-dövlət aparatını nəzarətdə saxlayan İ.Stalin “sağtəmayülü” və köhnə mütəxəssisləri onun kənddəki “sıçrayışlı inkişaf” xəttinə qarşı çıxanlar kimi damğalayaraq öz rəqiblərini aradan götürmək siyasətini yeridirdi. Başqa bir tərəfdən, fəhlə və kəndlilərdən formalaşan sovet ziyalıları öz karyeraları üçün təhlükəli hesab etdiyi köhnə mütəxəssisləri aradan götürmək məqsədilə dəridən-qabıqdan çıxırdılar. Əslindı son dərəcə vətənpərvər olan və hətta bolşevik Rusiyasının belə böyük dünya dövlətinə çevrilməsi üçün çalışan köhnə mütəxəssislərin günahı onların vətən sevgisində idi.

1929-cu il noyabrın 7-də “Pravda” qəzetində İ.Stalinin “Böyük dönüş ili” məqaləsi dərc edildi. Məqalədə arzu edilən həqiqət kimi qələmə alınaraq qeyd olunmuşdur ki, kəndlilərin əsas kütləsini yeni, sosialist inkişaf yoluna yönəltmək mümkün olmuşdur. Bu məqalədə irəli sürülən müddəalar bir daha ÜİK (b)P MK-nın 1929-cu il noyabr plenumunda təkrar edildi. Plenumda elan edildi ki, kolxoz hərəkatı elə miqyas alıb ki, qalan kütlənin kollektiv təsərrüfatlara keçməsi illərin deyil, ayların məsələsidir. Beləliklə, yerli hakimiyyət orqanlarının qısa müddətdə kollektiv təsərrüfatlar yaratmaq yarışı başladı. Noyabr plenumunun qərarına müvafiq olaraq kəndlərə təşkilat siyasi iş təcrübəsi olan 25 min sənaye fəhləsi göndərildi. Onlardan biri M.Şoloxovun “Oyanmış torpaq” (“Podnyataya selina”) romanındakı Semyon Davidoviç obrazında təsvir edilmişdir. İyirmibeşminçilər adlanan şəhər kommunistləri yerli partiya təşkilatları və Dövlət Siyasi İdarəsinin işçiləri ilə kəndliləri dilə tutmaq və ya hədə-qorxu yolu ilə kolxozlara daxil olmağa məcbur etməli idilər. Ancaq kolxozlara könüllü olaraq yoxsul kəndlilər daxil olurdu. “Ağılasığmaz yüksək sürət“ şüarı altında həyata keçən kütləvi kollektivləşdirmə siyasəti yuxarıların da güclü təzyiqi altında qolçomaqları istehsal vasitələrindən məhrum edərək qolçomaqlıqdansalma siyasətinə keçməyin əsasını qoydu. İ.Stalin və onun ətrafı yaxşı başa düşürdü ki, başqa cür ortabab kəndlilərin kolxozlara daxil olmamaq arzusunu aradan qaldırmaq mümkün deyil, həm də bu kəndlilərin “xüsusiyyətçilik” psixologiyasının kənd təsərrüfatlarının ictimailəşdirilməsi fikrinə yönəlməsinə kömək etməli idi. 1929-cu ilin dekbarında aqrarçı-marksistlərin konfransında çıxış edən İ.Stalin elan etdi ki, partiya və dövlət qolçomaqların istismarçı cəhətlərini məhdudlaşdırmaq siyasətindən qolçomaqları bir sinif kimi ləğv etmək siyasətinə keçir.

1930-cu il yanvarın 5-də ÜİK (b) P MK-nın “Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlətin köməyi tədbirləri haqqında” qərarı dərc olundu. Sənədə əsasən Şimali Qafqaz, Aşağı və Orta Volqada kolektivləşdirmə 1930-cu ilin payızı və ya hər halda 1931-ci ilin yazında, qalan taxılçılıq rayonlarında isə 1931-ci ilin payızında, və ya hər ehtimala qarşı 1932-ci ilin yazında başa çatmalı idi. Kolxoz quruculuğunun əsas forması kənd təsərrüfatı arteli müəyyən olundu. Qərar qəbul olunduqdan sonra mərkəzi partiya və dövlət orqanları kollektivləşdirmənin sürətini artırmaq tələbi ilə yerli orqanlara və kütləvi mətbutata təzyiqi artırdı, bu işdə yarışanlar şirnikləşdirilməyə başlandı. Məsələn, 1930-cu il fevralın 3-də “Pravda” qəzeti yazırdı ki, “1930-1931-ci ildə yoxsul-ortabab təsərrüfatlarının 75%-nin kollektivləşdirilməsinin nəzərdə tutulması maksimum hədd deyil”. Yuxarıların təzyiqi, daim “sağ təmayülə” mənsub edilmək qorxusu yerli işçiləri inzibati tədbirlərə əl ataraq kəndliləri kolxozlara zor gücünə daxil olmağa məcbur edirdi. İ.Satlinin təkidilə SSRİ XKS öz qətnaməsində adam başına bir il ərzində 300 manatdan çox gəliri olan (ailə üzrə isə 1500 manatdan az olmayan), ticarətlə məşğul olan, maşın, yer icarəyə verən, muzdlu əmək tətbiq edən, dəyirman, yağ, yarma, meyvə və tərəvəzqurutma qurğuları olan kəndlilər qolçomaqlara aid edilirdi. Qolçomaqlar 3 qrupa bölünürdü ki, birincilər “əksinqilabi fəallar” hesab edilərək ən yüksək cəzaya, güllələnməyə məhkum edilirdi. İkinci qrupa “qolçomaq fəallarının ayrı-ayrı elementləri” aid edilirdi və onları ölkənin uzaq rayonlarına sürgünə göndərmək nəzərdə tutulurdu. Üçüncü qrup qolçomaqlar yaşadıqları rayonların ərazisində kolxoz təsərrüfatlarından kənarda yeni məskənlərdə yerləşdirilməli idi.” Qətnaməyə görə ölkənin 9 regionundan 60 min nəfər cəza düşərgələrinə, 150 min nəfər qolçomaq isə sürgünə göndərilməli idi. Qolçomaqların müsadirə edilən istehsal vasitələri və əmlakı yoxsul və muzdurların daxil olma haqqı kimi kolxozların bölünməz fonduna keçirdi. Bununla, dövlət kəndin daxildən parçalanmasını və yoxsulları kollektivləşdirmənin tərəfdarı kimi səfərbər etməyi nəzərdə tuturdu. Dövlət Siyasi İdarəsinin məlumatına görə 1930-1931-ci illərdən 1803392 nəfərdən ibarət olan 381026 qolçomaq ailəsi Sibir, Qazaxıstan və Şimala sürgün edilmişdir. 200-250 min qolçomaq ailəsi “özü-özünü qolçomaqlıqdan” salaraq, əmlakını ataraq şəhər və sənaye tikintilərinə qaçmışdır. 1932-1936-cı illərdə qolçomaqlıqdan salmaq aşağı düşərək 100 min təsərrüfatdan çox olmamışdır. 1930-1933-cü illərdə qolçomaqlıqdan salınanların üçdə biri və ya 2140 min adam sürgünə göndərilmişdir. Qolçomaqlara göstərilən bu vəhşi münasibətə cavab olaraq onlar əllərinə silah alaraq hakimiyyətə müqavimət göstərməyə cəhd etdilər. 1930-cu ilin yanvar-aprel aylarında 1755 min nəfəri əhatə edən 6117 qolçomaq çıxışı qeydə alınıb. Eyni zamanda kəndli çıxışları Mərkəzi qara-torpaq vilayətlərinin 1000-dən çox, Orta və Aşağı Volqada 801, Moskva vilayətində 459, Sibirdə 200-dən çox yaşayış məntəqəsini əhatə edirdi.

Kəndlilərin narazılığının qarşısını almaq və kədin “xırda mülkiyyətçilik” psixologiyalı əhalisinin üzərinə hücum üçün vaxt qazanmaq məqsədilə partiya və dövlət növbəti manevrə əl atdı. 1930-cu il martın 2-də Stalin “Müvəffəqiyyətlərdən baş gicəllənməsi” məqaləsini dərc etdirərək kollektivləşmədəki yol verilən səhvləri yerli partiya-dövlət işçilərinin üzərinə yıxdı. Bu isə tapşırıqları biləvasitə yerinə yetirən vilayət və rayon partiya təşkilatları rəhbərlərinin etirazına səbəb oldu. Siyasi Büro martın 14-də “Kolxoz hərəkatında partiya xəttinin əyilməsi ilə mübarizə haqqında” qərar qəbul etdi ki, bu da Stalinin məqaləsindəki fikirlərin təsdiq olunması demək idi. Biləvasitə yuxarı partiya mərkəzinin kolxoz hərəkatındakı əyintilərdən bəhs etməsi və onunla mübarizə elan olunması zorla kolxozlara daxil olmağa məcbur edilən kəndlilərin kolxozlardan kütləvi getməsinə səbəb oldu. Bunun nəticəsində 1930-cu il martın 1-də SSRİ üzrə kollektivləşdirilmiş təsərrüfatlar 56,0 faizdən 1930-cu il iyunun 1-də 23,6 faizə düşdü.

1932-1933-cü illərdə kollektivləşdirməyə və qolçomaqlıqdan salmağa məruz qalan taxılçılıq rayonlarında dəhşətli aclıq başladı. 1931-ci ilin məhsulu orta göstəricidən aşağı olmasına baxmayaraq taxıl tədarükünün həcmi nəinki azalmadı, hətta artırılırdı. Bu isə onunla izah edilir ki, sənaye avadanlığı almaq məqsədilə xaricə daha çox taxıl satmaq və valyuta əldə etmək tələb olunurdu. Taxılı kəndliliərdən zorla alaraq onlara zəruri olan hətta minimumu saxlamırdılar. Belə vəziyyət 1932-ci ildə də təkrar edildi. Kəndlilər başa düşdülər ki, taxılı

onların əlindən alacaqlar, odur ki, onu gizlətməyə başladılar. Eyni zamanda, taxılın xeyli hissəsi tədarük edilməyərək əkin sahələrində qaldı. Əsas taxılçılıq rayonlarında taxıl tədarükü pozuldu. Buna cavab olaraq, dövlət sərt soyğunçuluq tədbirlərini tətbiq etməyə başladı. Taxıl tədarükü planın yerinə yetirməyən rayonların kəndlilərinin bütün ərzaq ehtiyatı əllərindən alınaraq onlar aclıq ölümünə məhkum edildilər. Aclıq daha çox məhsuldar olan taxılçılıq rayonları Şimali Qafqaz, aşağı və ortaVolqaboyun, Don, düzənlik Ukraynasını bürüdü. Bu süni surətdə partiya və dövlət tərəfindən təşkil edilmiş aclıq idi. Fərqli məlumatlara əsasən aclıqdan ölənlərin sayı 4 ilə 8 mln nəfər arasında dəyişirdi. Aclığın şiddətli vaxtında 1932-ci il avqustun 7-də "Dövlət müəssisələrinin, sovxoz və kooperativlərin əmlakının qorunması və ictimai (sosialist) mülkiyyətin möhkəmləndirilməsi haqqında" qanun qəbul edildi. Qanuna əsasən ən az miqdarda belə dövlət və kolxoz əmlakının oğurlanması güllələnmə və ya 10 il azadlıqdan məhrum etməklə cəzalandırılırdı. Aclıq ölümündən qaçmağa çalışan qadın və yeniyetmələr gecələr sünbülün başlarını qayçı ilə kəsdikləri və yaxud əkilmiş buğdanı sahələrdən çıxarıb istifadə etdikləri üçün daha çox qanunun qurbanlarına çevrildilər. Yalnız 1932-ci ildə 7 avqust qanununa əsasən 50 min nəfər adam repressiyaya məruz qalmış, onlardan 2 min nəfəri güllələnməyə məhkum edilmişdir. Aclıq illərində kollektivləşdirmə prosesi dayandırılmışdır. Yalnız 1934-cü ildə aclıq dayandıqdan sonra kənd təsərrüfatı istehsalı və kəndlilərin üzərinə qoyulan verginin daim artması onları ya kolxoza daxil olmaq, ya da kəndi tərk etmək dilemması qarşısında qoydu. 1937-ci ildə kəndlilərin 93%-i kolxozçulara çevrildi. İkinci beşilliyin sonunda kollektivləşdirmə əsasən başa çatdı. Kolxozların sayı 242,5 min oldu. 1.4 mln fərdi kəndli təsərrüfatı qalmışdır (7%). Kənd əhalisi isə qolçomaqlıqdan salınma, şəhərlərə köçmək və aclıq sayəsində 15-20 mln nəfər azalmışdır. Kolxozlar sovet və partiya orqanlarının sərt nəzarəti altında idi. Kənd təsərrüfatı məhsullarının satış qiyməti son dərəcədə aşağı səviyyədə müəyyən edilirdi. Bununla bərabər, kolxozlar həm öz məhsullarından MTS-nin xidmətinin əvəzini ödəməli, həm də dövlətə natural vergi verməli idi. Nəticədə kolxozçular faktiki olaraq əmək haqqı ödənilmədən çalışırdılar. Onların hər biri cinayət məsuliyyətinə cəlb edilmək qorxusu ilə kolxoz tarlasında minumum əmək günü qazanmağa məcbur idilər. Kənd əhalisinin 1932-ci ilə kimi pasportu olmadığı üçün kolxoz idarə heyətinin razılığı olmadan onlar kəndi tərk edə bilməzdilər. Kəndli ailələrinin yaşamasının əsas mənbəyi onların həyətyanı təsərrüfatlarından götürdüyü gəlir idi. Kollektivləşdirilmənin nəticəsində taxılçılığın məhsuldarlığı aşağı düşdü. Əhalinin sayına düşən taxıl istehsalı 1928-ci ildəki 47-dən 1940-cı ildəki 40-44 s/ha düşdü. Heyvandarlıq məhsulları 40 faiz azaldı. Beləliklə, kollektivləşdirmə kəndliləri aclıq və repressiyaya məruz qoyaraq kənd təsərrüfatına ağır zərbə vurdu.

Kənd təsərrüfatını kollektivləşdirmək siyasəti nəticəsində kənddən sənayeyə böyük həcmdə vəsait nəql edildi. Dünya bazarında ölkədə çatışmayan taxıl, yağ, qənd satılırdı. Əldə edilən valyutaya sənaye nəhəngləri üçün dəzgah və avadanlıq alınırdı. Kolxoz quruluşunun bərqərar olması ilə SSRİ-də iki, dövlət və kolxoz-kooperativ mülkiyyət forması yarandı. Tədricən kənddə vəziyyət normallaşmağa başladı. Sənayenin inkişafı traktor və kombaynların artmasına, bu isə torpağın texniki emalının və məhsuldarlığın yüksəlməsinə səbəb oldu. 1935-ci ildən başlayaraq kənd təsərrüfatı məhsullarının satışı planı əsasən yerinə yetirilirdi. 1936-cı ildə ərzağın bölgüsünün kart sistemi ləğv edildi. Dövlət əmək məhsuldarlığını artırmaq məqsədilə kəndlilərdə maddi maraq oyatmaq siyasəti yeritməyə başladı. Xüsusilə dövlətə verilən taxılın dəqiq miqdarı müəyyən olundu. Normadan artıq məhsul könüllük əsasında və yüksək qiymətlə alına bilərdi. Həyətyanı sahələrə və burada inək, xırda buynuzlu heyvan, donuz, quş və s. saxlanılmasına və əldə edilən məhsulun bazarda satılmasına icazə verildi. Artıq 1937-ci ildə həyətyanı sahələr tərəvəz və kartofun ümumi məhsulunun 50, ət, süd və gönün 70 faizini verirdi.

***Hakimiyyət uğrunda partiyadaxili mübarizə***. "Üçlər" məğlub olduqdan sonra 1926-cı ilin aprelində Q.Y.Zinovyev, L.B.Kamenev, L.D.Trotski və onların tərəfdarları K.Radek, Y.A.Preobrajenski, Q.L.Pyatakov, Q.Y.Sokolnikov, V.A.Antonov-Ovseyenko, N.İ.Muralov, A.Q.Şlyapnikovun "fəhlə müxalifətinin" fəalları, T.V.Sapranovun "demokratik mərkəzçilər"

qrupunun daxil olduğu yeni, müxtəlif baxışlı adamları birləşdirən müxalifət meydana gəldi. Daxilən çox da möhkəm olmayan bu müxalifət bir-birilə şəxsi və nəzəri görüşlərinə görə çəkişən adamlardan təşkil olunmasına baxmayaraq, onların hamısı İ.Stalinə qarşı birləşmişdilər. Müxalifət partiyanın yeritdiyi siyasi kursun dəyişdirilməsini tələb edirdi. Bunun üçün ağır sənaye sürətlə inkişaf etdirilməli, fəhlələrin həyat şəraiti və partiyanın demokratikləşməsi yaxşılaşdırılmalı, qolçomaqların varlanmasına qarşı mübarizə aparılmalı idi. Bir neçə min nəfərədən ibarət olan müxalifətçilər gizli təşkilatlar yaradaraq, bir sıra müəssisələrin ilk partiya özəklərində çıxış edərək onları partiyanın rəhbərliyinə qarşı qaldırmağa cəhd edirdilər. 1926-cı ilin iyul pleniumunda müxalifətin müraciəti kəskin müzakirələrə səbəb oldu ki, bu zaman AXTŞ-ın sədri, DSİ-nin başçısı F.E.Dzerjinski ürək tutmasından vəfat etdi. Siyasi Büroda Q.Y.Zinovyevi Y.E.Rudzutak əvəz etdi. İ.Stalinin adamları A.A.Andreyev, L.M.Kaqanoviç, G.K.Orconikidze, A.İ.Mikoyan və S.M.Kirov Siyasi Büro üzvlüyünə namizədlər sırasına daxil edildilər.

Trotskiçi-Zinovyevçi müxalifət bloku partiya daxilində fraksiya və qruplaşma azadlığı tələb edir, partiya aparatını tənqid edərək, rəhbərliyə qarşı mübarizə aparırdılar ki, bu da 20-ci illərin axırlarına kimi davam etdi. 1926-cı il oktyabrın 23-26-da olan MK-nın plenumunda L.D.Trotskini və L.B.Kamanevi Siyasi Büronun tərkibindən çıxardılar. Q.Y.Zinovyevin yerinə Kominternin İcraiyyə Komitəsinin sədri vəzifəsinə N.İ.Buxarini təyin etdilər. İ.Stalinin "ayrıca götürülmüş bir ölkədə sosializmin qurulması" haqqında tezisi XV partiya konfransında (27 oktyabr – 3 noyabr 1926-cı il) yekdilliklə qəbul edilərək, müxalifət liderləri ciddi tənqid atəşinə tutuldu. Dövlət Siyasi İdarəsinin ciddi nəzarəti altında olan müxalifət liderləri sentyabr ayında islahat proqramı ilə çıxış edərək tələb etdilər ki, növbəti XV partiya qurultayında seçiləcək MK-nın tərkibi aparatdan asılı olmayaraq kütlə ilə sıx əlaqədə olsun. Bu sənədi gizli çap etdirdikləri üçün 1927-ci il 21-23 oktyabrdakı MK plenumunda L.Trotski və Q.Zinovyev MK-nın üzvlüyündən çıxarıldı. 1927-ci il noyabrın 7-də Oktyabrın 10-cu il dönümü bayramında Q.Zinovyev və K.Radek Leninqradda, X.Rakovski Xarkovda, Y.A.Preobrajenski və L.Trotski Moskvada öz şüarları ilə çağırışlarını təkrar etdilər. Buna cavab olaraq noyabrın 14-də L.Trotski və Q.Zinovyevi partiyadan xaric etdilər. L.Kamenev və X.Rakovskini MK-nın tərkibindən azad etdilər. Partiyanın XV qurultayında isə müxalifətin 93 nəfər fəal üzvü partiyadan çıxarıldı. 1928-ci ilin yanvarında L.Trotski və 30 nəfər müxalifət üzvü Alma-Ataya sürgün edildi.

1928-ci il Donbasın "Donuqol trestində" burjua mütəxəssislərinin qərbin maliyyə qüvvələri ilə birgə əlaqəsindən meydana gələn sənaye təxribatı əməlləri aşkar edildi. Bir neçə həftədən sonra 1922-ci ildə keçirilmiş eserlər üzərindəki açıq məhkəmə prosesindən sonra ilk dəfə 53 nəfərə qarşı açıq məhkəmə prosesi təşkil olundu. Beş nəfər ölüm hökmü, qalanları müxtəlif müddətə həbs cəzası aldı. Təbliğat xarkterli proses əslində kommunistləri müxalifətə qarşı təmayülçü və o cümlədən "qolçomaq təhlükəsinə" və "sağdan təhlükəyə" qarşı səfərbər etməyə xidmət edirdi. Yeni iqtisadi siyasətin tərəfdarları ilə əleyhdarları arasında MK-da, Siyasi Büroda amansız mübarizə gedirdi. İ.Stalini müdafiə edən V.M.Molotov, Y.E.Rudzutak, K.E.Voroşilov az da olsa üstünlük təşkil edirdilər. M.İ.Kalinin tərəddüd edir, A.İ.Rıkov, M.P.Tomski, N.İ.Buxarin isə "sağ müxalifəti" təmsil edirdilər. 1928-ci il iyulun 4-dən 12-nə kimi davam edən ÜİK (b) P MK-nın pleniumunda çıxış edən İ.Stalin qeyd etdi ki, yeni iqtisadi siyasət dalana daxil olub, gərgin sinfi mübarizə şəraitində kapitalist elementlərinin kəskin müqaviməti məcbur edir ki, kəndliləri sənayeləşdirmənin ehtiyaclarına tabe edək. Bu çıxışdan dəhşətə gələn N.Buxarin belə hesab edirdi ki, Baş katibin mülahizələri ölkəni terror, vətəndaş müharibəsi və aclığa məhkum edəcək. Sentyabrın 30-da N.Buxarin "Pravda" qəzetində "İqtisadçının qeydləri" məqaləsini dərc etdirərək müxalifətin proqramını şərh etdi. Müəllifə görə planlaşdırmanın ziyanlı olması, qiymətləndirmədəki səhvlər, sənaye mallarının çatışmazlığı kənd təsərrüfatı kooperativlərinə köməyin effektsiz olması ölkədəki böhranın səbəbləri idi. Kəndlilərə güzəştə gedərək bazarların açılması, taxılın satınalma qiymətinin yüksəldilməsi və xaricdən çörək alınması hesabına vəziyyəti düzəltmək olar. 1928-ci il oktyabrın 21-də L.D.Trotski İ.Salinin "sol ideyaya" yaxın olan sənayeləşdirmənin

sürətli inkişafı və kənd təsərrüfatının sosialist bölməsinin genişləndirilməsi planına qarşı bütün kommunistləri mübarizə aparmağa çağırıdı. Bundan istifadə edən Siyasi Büro L.D.Trotskini gizli “antisovet partiyası” yaratmaqda ittiham edərək 1929-cu il yanvarın 21-də SSRİ-dən Türkiyəyə sürgün etdi. Həmin gün V.İ.Leninin ölümünün 5-ci il dönümü münasibəti ilə N.Buxarin “Pravda” qəzetində “Leninin siyasi vəsiyyətinə” həsr etdiyi məqalə dərc etdirdi. O, öz məqaləsində Leninin “sülh, tədrici və könüllülük” prinsipinə əsaslanan kooperasiya planı ilə İ.Stalinin məcburi kollektivləşmə layihəsinin fərqini açıb göstərdi. 1929-cu ildə MK-nın aprel plenumu müxalifətin ləğv edilməsini başa çatdırdı. Tezliklə N.İ.Buxarin “Pravda” qəzetinin baş redaktoru vəzifəsindən azad edildi, iyulun 3-də isə Kominternin rəhbərliyindən uzaqlaşdırıldı. A.İ.Rıkov Xalq Komissarlar Sovetinin sədri vəzifəsindən istefa verdi. Bir neçə ay ərzində 170 min nəfər (11%) “partiya xəttinə siyasi müxalifətdə” olduğu maddəsi ilə partiya üzvlüyündən xaric edildi. 1929-cu il MK-nın noyabr plenumunda N.İ.Buxarin Siyasi Büro tərkibindən xaric edildi. Həmkarlar İttifaqının sədri vəzifəsindən azad edilmiş M.P.Tomskinin yerinə N.M.Şvernik seçildi.

## 1920-30-cu illərdə Sovet dövlətinin xarici siyasəti

***Sovet Rusiyasının xarici siyasət sahəsində ilk addımları.*** Vətəndaş müharibəsi başa çatandan sonra Sovet dövləti dinc təsərrüfat quruculuq dövrünə qədəm qoydu. Dinc quruculuğa keçilməsi mürəkkəb beynəlxalq şəraitdə baş verdi. Kapitalist əhatəsi Sovet dövləti üçün təhlükə törədirdi, əldə edilmiş sabitlik müvəqqəti xarakter daşıyırdı. Odur ki, müharibə təhlükəsini unutmaq olmazdı və ölkənin müdafiə qabiliyyətini hər vasitə ilə möhkəmlətmək tələb olunurdu. Sülhü qoruyub saxlamaq və möhkəmlətmək üçün dövlət hər cür səy göstərirdi. Sovet hökuməti öz siyasətində iki müxtəlif ictimai quruluşun dinc yanaşı yaşaması prinsipini əldə rəhbər tuturdu.

Avropanın, Amerikanın və Asiyanın fəhlələri və xalqı Sovet dövləti ilə normal ticarət və diplomatik münasibətlər yaradılmasını tələb edirdilər. Artıq 1920-1921-ci illərdə Sovet Rusiyası bir sıra kapitalist dövlətləri ilə ticarət və diplomatik münasibətlər yaratdı. 1920-ci ildə Estoniya (2 fevral), Litva (12 iyul), Latviya (11 avqust), Finlandiya (14 oktyabr), 1921-ci ildə Polşa (18 mart) ilə RSFSR arasında diplomatik əlaqələr quruldu.

1921-ci il martın 16-da İngiltərə ilə ticarət sazişinin bağlanması əslində İngiltərənin Sovet dövlətini tanıması demək idi, belə ki, bu həm də siyasi xarakter daşıyırdı. Hər iki tərəf düşmənçilik hərəkətlərindən və öz ölkələri sərhədlərindən kənarda bir-birinin əleyhinə təbliğat aparmaqdan əl çəkməyi bəyan etdilər. Həmin saziş imzalandıqdan sonra 1921-ci il 6 may tarixli müvəqqəti Sovet-Almaniya ticarət sazişi bağlandı. Bu sazişdə Almaniya Böyük Britaniyadan irəli gedərək RSFSR-in nümayəndələrini Rusiya dövlətinin Almaniyada yeganə qanuni nümayəndələri kimi tanıdı, ona diplomatik hüquqlar və üstünlüklər verdi. 1921-1922-ci illərdə Norveç, Avstriya, İtaliya, İsveç və Çexoslovakiya ilə eyni ticarət-iqtisadi sazişlər imzalandı. Həmin ölkələrin hakim dairələri Sovet Rusiyası ilə iqtisadi əlaqələr yaratmağa məcbur olsalar da, Sovet dövlətlərini hüquqi cəhətdən tanımaqdan boyun qaçırdılar. ABŞ Sovet dövlətinə qarşı xüsusilə barışmaz mövqe tuturdu.

Sovet dövləti ABŞ ilə münasibətləri nizama salmaq məqsədilə 1921-ci il martın 20-də URMİK-in sədri M.İ.Kalininin imzası ilə Amerika konqresinə və yeni prezident Hardinqə teleqram göndərdi. Teleqramda bildirildi ki, Sovet dövləti ABŞ ilə dostluq münasibətləri yaratmağa hazırdır. Bütün məsələləri qaydaya salmaq, həmçinin ticarət münasibətlərini bərpa etmək üçün ABŞ-a nümayəndə heyəti göndərmək təklif edildi. Lakin Amerika hökuməti bu təklifi rədd edərək bildirdi ki, Rusiya burjua quruluşun və xüsusi mülkiyyətin əsasları bərpa edilməyincə ABŞ Rusiya ilə münasibətlər yaratmayacaqdır.

ABŞ-ın hakim dairələri Uzaq Şərq məsələsinə dair doqquz dövlətin Vaşinqton konqrensinə (noyabr 1921-ci il – fevral 1922-ci il) Sovet Rusiyasını dəvət etmədilər. RSFSR ilə bağlı olan bir sıra məsələlər, o cümlədən ŞÇDY, Sovet Uzaq Şərqində yapon müdaxiləsi və s.

bu konfransda müzakirə edilirdi. Rusiya hökuməti bu düşmənçilik siyasətinə qarşı 1921-ci il iyulun 19-da özünün qəti etirazını bildirdi və bəyan etdi ki, Vaşinqton konfransının qəbul etdiyi heç bir qərarı tanımayacaq.

Sovet dövləti Şərq ölkələri ilə dostluq münasibətlərini möhkəmlətməyə böyük əhəmiyyət verirdi. Rusiya dövləti Şərq ölkələri ilə onların tam hüquq bərabərliyini və suverenliyini tanımağa əsaslanan münasibətlər yaradırdı. Sovet Rusiyası Şərq dövlətləri ilə siyasi və ticarət əlaqələrin inkişaf etdirmək üçün real addımlar atdı. Rusiya dövləti 1920-1921-ci ildə İran, Əfqanıstan və Türkiyə ilə müqavilələr bağladı. Beş ay davam edən danışıqlardan sonra 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsi imzalandı. Dostluq və əməkdaşlıq haqqında olan müqaviləyə görə Rusiya İranın zərərinə olaraq çar hökumətinin üçüncü dövlətlərlə bağladığı qeyri-bərabər hüquqlu müqavilələrdən, sazişlərdən imtina etdi. RSFSR hökuməti İran ərazisindəki bütün çar konsessiyalarından, pul iddialarından imtina etdi, Xəzər dənizində İranın öz donanmasına malik olmaq hüququna razılıq verdi. Müqavilənin 6-cı maddəsi xüsusi əhəmiyyətə malikdir. Bu maddə İran ərazisini işğal etmək və ya İranı Sovet Rusiyası əleyhinə hərbi əməliyyat bazasına çevirmək məqsədilə hər hansı bir dövlət tərəfindən İran ərazisinə silahlı basqın ediləcəyi təqdirdə Sovet dövlətinin özünü müdafiə naminə lazımi tədbirlər görmək üçün öz qoşunlarını İrana yeritmək və təhlükə ləğv edilən kimi oradan qoşunlarını çıxarmağı nəzərdə tuturdu. Məhz bu 1941-ci ildə SSRİ qoşunlarının İran ərazisinə daxil olmağa imkan vermişdir. Bu müqavilə İranın beynəlxalq mövqelərinin möhkəmlənməsinə kömək etdi. Müqavilədə hüquq bərabərliyi, suverenliyə hörmət, daxili işlərə qarışmamaq, çoxcəhətli əməkdaşlıq, iqtisadi və mədəni inkişaf sahəsində kömək və s. prinsiplər nəzərdə tutulmuşdur.

1921-ci il fevralın 28-də Sovet Rusiyası ilə Əfqanıstan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə də bu cür prinsiplər üzərində qurulmuşdu. Əfqanıstanın elan etdiyi siyasi müstəqilliyi tanıyan ilk ölkə Sovet dövləti idi. Müqavilənin şərtlərinə görə tərəflər bir-birinə qarşı yönəldilmiş hərbi-siyasi ittifaqa qoşulmamalı idi. Sovet hökuməti Əfqanıstana təmənnasız iqtisadi və hərbi yardım göstərirdi. Sovet-Əfqan münasibətləri uğurla inkişaf edirdi.

Kapitalist dövlətlərinin Türkiyəni bölmək, onu yarımmüstəmləkə rejimli bir ölkəyə çevirmək planları Türkiyədə Mustafa Kamalın rəhbərliyi ilə milli hərəkatın başlanmasına gətirib çıxartdı. Yunanıstan ordusu məğlub edildikdən sonra Sovet Rusiyası Türkiyə ilə Antanta dövlətləri arasında müharibədə Türkiyəyə yardım göstərirdi. 1921-ci ilin fevral ayında Türkiyənin nümayəndələri Moskva şəhərinə səfərə gəldi. 1921-c il martın 16-da Sovet Rusiyası ilə Türkiyə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Sovet Rusiyası və Türkiyə Naxçıvanı Azərbaycanın tərkibində muxtar ərazi kimi tanıyırdılar. 1921-ci il oktyabrın 13-də Qarsda Türkiyə ilə Zaqafqaziya Sovet Respublikaları, 1922-ci il yanvarın 2-də isə Ukrayna ilə Türkiyə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə bağlandı.

20-ci illərin əvvəllərində Sovet Rusiyası öz qonşuları olan Şərq dövlətləri ilə onların hüquq bərabərliyi və suverenliyinə əsaslanan qarşılıqlı faydalı münasibətlər qurdu. Sovet dövləti çar Rusiyası tərəfindən bağlanan gizli müqavilələri ləğv edərək bu ölkələrə azadlıqları uğrundakı mübarizədə yardım etdi. İran, Əfqanıstan, Türkiyə dövlətlərinin rəhbərliyi və RSFSR hökuməti heç bir dövlətlə onların hər hansı birinə zərər vuraraq hərbi və siyasi saziş bağlamamağı öz öhdələrinə götürdülər.

Sovet hökuməti yarandığı ilk vaxtlardan özünün böyük qonşu dövləti olan Çinlə dostluq münasibətləri qurmağa çalışırdı. O Rusiyanın Çindəki bütün xüsusi hüquq və imtiyazlarından imtina edərək qarşılıqlı hüquq bərabərliyi əsasında Şərqi Çin dəmir yolu, konsessiyalar və s. haqqında müqavilələrə yenidən baxılmasını irəli sürdü. 1918-ci ilin may ayında Sovet tərəfi Çin hökumətinə Semyonovun dəstəsinə onun ərazisindən Sovet dövlətinə qarşı təxribatlar törətməyin qarşısını almağı xahiş etdi. Pekin hökuməti bu xahişə cavab verməyərək 1917-ci il dekabrın 27-də Sovet Rusiyasına ərzaq, o cümlədən çay göndərilməsini qadağan etdi, 1918-ci il yanvarın 11-də Çin sərhəddi bağlanaraq, yük göndərilməsi dayandırıldı. Martın axırlarında Petroqraddakı Pekin hökumətinin nümayəndəsi geri çağırıldı. 1918-ci il avqustun 24-də Pekin hökuməti öz qoşunlarını Sibirdə fəhlə-kəndli hakimiyyəti ilə mübarizədə müttəfiqlərə kömək

etmək məqsədilə Sibirə göndərməyi elan etdi. Buna baxmayaraq, böyük Çin demokratı Sun Yatsen və xalq hər iki ölkə arasında möhkəm sülh yaradılmasını arzu edirdilər. 1920-ci il aprelin 6-da yaradılan Uzaq Şərq Respublikası may ayında Pekin hökumətinə müraciət edərək bütün mübahisəli məsələləri həll etmək üçün RSFSR, UŞR və Çin arasında konfrans keçirməyi irəli sürdü. Hər iki tərəf arasında baş tutan danışıqlar rəsmi münasibətlərin yaranmasına səbəb olmasa da Pekin hökumətinin çar Rusiyasının missiya və konsulluq xidmətindən imtina etmək haqqında qərarı müsbət addım idi. 1921-ci ilin dekabrında RSFSR nümayəndələrinin Pekinə səfəri də nəticəsiz qaldı.

Sovet dövləti Koreya və Monqolustanla da əlaqə qurmağa çalışırdı. 1919-cu ilin mart ayında Koreyadakı xalq üsyanından sonra RSFSR hökuməti Koreya inqilabı təşkilatlarına və xalqa müraciət edərək yapon işğalçılarına qarşı birgə mübarizə aparmağı təklif etdi. Uzaq Şərqdəki gərgin hərbi-siyasi vəziyyət və vətəndaş müharibəsi Koreya ilə Sovet Rusiyası arasında münasibətlərin yaranmasına mane oldu.

Sovet-monqol münasibətləri uğurla inkişaf edirdi. 1918-ci ilin fevralında Sovet hökuməti muxtar Monqol hökumətinə çarizmin Monqolustanda keçmişdə yeritdiyi siyasətdən imtina etdiyini bildirdi. 1919-cu il avqustun 3-də Sovet Rusiyası bir daha Monqol xalqı və hökumətinə müraciət edərək çar Rusiyasının Monqolustandakı bütün güzəşt və imtiyazlarından əl çəkdi. Bunun ardınca Rusiyadakı vətəndaş müharibəsindən istifadə edən Çin millitaristləri 1918-ci ilin oktyabrında Monqolustana hücum edərək orada müstəmləkə ağalığını bərpa etməyə çalışdı. Monqolustanda meydana gələn inqilabi təşkilat kömək üçün Sovet Rusiyasına müraciət etdi və bu məqsədlə 1920-ci ilin payızında Moskvaya nümayəndə göndərdi. Qızıl Ordunun zərbələri altında Monqolustan ərazisinə daxil olan ağqvardiyaçılarla və 1920-ci ilin oktyabrında hücuma keçən baron Ungerinin dəstələri ilə mübarizə aparmaq üçün Qızıl Ordu qoşunları köməyə gəldi. 1921-ci il iyulun 7-də Monqolustan xalq ordusu, Qızıl ordu və UŞR-nın hərbi-inqilabı ordusu hissələrinin birgə əməliyyatı ilə paytaxt Urqa şəhəri azad olundu. İyulun 12-də Monqolustan xalq hökuməti yaradıldı. 1921-ci il oktyabrda monqol inqilabının rəhbəri, hərbi nazir Suxe-Batorun başçılığı ilə nümayəndə heyəti danışıqlar üçün Moskvaya gəldi. Noyabrın 5-də RSFSR hökuməti və Monqolustan nümayəndələri arasında hər iki ölkə arasında dostluq münasibətləri haqqında müqavilə imzalandı. Bu müqavilə hər iki ölkə arasında iqtisadi və siyasi əməkdaşlığın möhkəm əsasını qoydu.

***Genuya konfransı.*** Sovet Rusiyasını hərbi yolla məğlub edə bilməyən kapitalist ölkələri onu ticarət, diplomatik və iqtisadi vasitələrlə özlərinə tabe etmək planlarını tərtib etməyə başladılar. Sovet Rusiyasına "yardım etmək" siyasəti ilə pərdələnən belə bir proqram İngiltərənin Baş naziri D.Lloyd Corc tərəfindən irəli sürülmüşdür. 1920-ci ildə "Rusiyanı zor gücü ilə bərpa etmək bizə nəsib olmadı. Mən bunu ticarət vasitəsilə edə biləcəyimizə və onu xilas edə biləcəyimizə inanıram" – deyən Baş nazir əslində Sovet Rusiyasında burjua-mülkədar quruluşunu bərpa etməkdən bəhs edirdi.

Sovet Rusiyasına qarşı kapitalist ölkələrinin yeni planlarını pozmağa və kapitalist dövlətləri ilə normal iqtisadi əməkdaşlıq əlaqələri yaradılmasını asanlaşdırmağa çalışan Sovet hökuməti 1921-ci il oktyabrın 28-də çar hökumətinin müharibədən əvvəlki borclarının bir hissəsini qaytarmağa hazır olduğunu bildirdi, əvəzində Qərb dövlətləri Sovet dövlətini tanımalı və ona kredit verməli idi. Sovet hökuməti kapitalist dövlətləri qarşısında belə tələblər irəli sürməklə Rusiya ilə kapitalist dövlətləri arasındakı sülh müqaviləsini hazırlayacaq beynəlxalq konfrans çağırılmasını təklif etdi.

Antanta ölkələri Avropanın iqtisadiyyatının bərpası ilə bağlı Genuyada Sovet Rusiyasının və məğlub Almaniyanın iştirakı ilə bütün Avropa dövlətlərinin iqtisadi və maliyyə məsələləri üzrə konfransını çağırmaq qərarına gəldilər. Sovet dövlətini iqtisadi cəhətdən özlərindən asılı etməyə çalışan İngiltərə, Fransa, İtaliya, Yaponiya, Belçika və Almaniya bu konfransa ciddi hazırlaşmağa başladılar. Uzun danışıqlardan sonra, Avropanın böyük dövlətləri, nəhayət Genuya konfransında həlledici məsələlərin layihəsini birgə müzakirə etmək üçün Kannda (Fransa) müşavirə çağırdılar. Kann müşavirəsi 1922-ci il yanvarın 6-da başlandı. Müşavirədə Lloyd Corc, Brian, İtaliya naziri Banomi, Belçika naziri Tenis, ABŞ

nümayəndəsi polkovnik Harvey və başqaları iştirak edirdilər. Antanta dövlətlərinin Kann müşavirəsi Genuya konfransına hazırlıqda mühüm mərhələ oldu. Avropa ölkələri arasında iqtisadi əlaqələri bərpa etmək, zəif ölkələrə kredit verilməsi kimi məsələləri həll etmək üçün Genuyada Sovet Rusiyasının iştirakı ilə konfrans keçirilməsi haqqında qərar qəbul edildi.

1922-ci il martın 20-dən 28-dək Londonda Antanta dövlətlərinin iqtisadi və maliyyə ekspertləri komissiyasının müşavirəsi oldu. London müşavirəsində Avropanın iqtisadiyyatını bərpa etmək və RSFSR ilə danışıqların layihəsini hazırlamaq haqqında məsələ müzakirə edildi. Ekspertlərin müşavirəsində Sovet Rusiyasından Çar və Müvəqqəti hökumətin bütün borclarının tələb edilməsi, çar Rusiyasının hakim dairələrinin maliyyə öhdəçiliyinin Sovet hökumətinə aid edilməsi, Sovetlər ölkəsində milliləşdirilmiş bütün müəssisələrin öz xarici sahibkarlarına qaytarılması nəzərdə tutulmuşdur. Ekspertlərin London müşavirəsində həmçinin belə bir tələb də irəli sürülmüşdü ki, Rusiyada yaşayan xarici vətəndaşlara müstəsna hüquqlar verilməlidir.

1922-ci il fevralın 7-də RSFSR hökuməti İtaliya hökumətindən Genuya konfransında iştirak etmək üçün dəvət aldı. Eyni zamanda konfransın işində V.İ.Leninin iştirakı arzu olunurdu. Başqa Sovet Respublikaları konfransa dəvət edilməmişdi. Rusiya hökuməti konfransda iştirak etməyə razılıq verdi və bilirdi ki, konfransa Türkiyə də dəvət edilməlidir, çünki Türkiyə konfransında Rusiyaya tərəfdar ola bilərdi.

ABŞ isə konfransda həm iştirak etmək, həm də iştirak etməmək dilemması qarşısında idi. Amerikanın Hardinq hökuməti belə hesab edirdi ki, Genuya konfransında iştirak etməklə ABŞ qazandığından çox itirə bilər. Belə ki, Rusiya hökuməti kapitalist dövlətlərinin borclar haqqındakı tələblərindən imtina edə bilər və Qərb dövlətləri isə Rusiyanın nümunəsindən istifadə edərək öz növbəsində ABŞ-ın borclarını geri qaytarmaqdan boyun qaçırarlar. 1922-ci il 8 mart tarixli notasında ABŞ dövlət katibi Çarl Yuz bilirdi ki, ABŞ Avropa dövləti olmadığına görə konfransda iştirak etməyəcək, həm də ABŞ-ın konfransda iştirak etməkdən imtina etməsinin digər səbəbi Sovet hökumətini tanımaq istəməməsi idi. V.İ.Lenin partiya MK-sının xüsusi qətnaməsinə əsasən Genuya konfransına göndərilmədi. Onun əvəzinə Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin Sovet nümayəndə heyətinin başçısı təyin edildi.

Genuya konfransında Sovet respublikalarının birliyini təmin etmək üçün 1922-ci il yanvarın 20-də RSFSR, Ukrayna, Belarusiya, Azərbaycan, Gürcüstan, Ermənistan, Buxara, Xarəzm və Uzaq Şərq respublikalarına xüsusi konfrans çağırmaq təklif olundu. Genuyada vahid platformada çıxış etmək məqsədilə fevralın 22-də Moskvada 8 respublikanın adından protokol imzalandı və konfransda onları təmsil etməyi RSFSR nümayəndə heyətinə tapşırıldı.

1922-ci il yanvarın 27-də ÜRMİK-nin fövqəladə sessiyası V.İ.Leninin sədrliyi ilə Genuyada Sovet Rusiyasını təmsil edən nümayəndə heyətinin tərkibini təsdiq etdi. Xalq Xarici İşlər komissarı G.V.Çiçerin sədrin müavini təyin edildi və V.Leninin konfransda iştirak etmək imkanı olmadığından sədrin bütün səlahiyyətləri ona həvalə olundu. Xalq Xarici Ticarət İşlər Komissarı L.B.Krasin, Xarici İşlər Komissarının müavini M.M.Litvinov, RSFSR-in İtaliyadakı nümayəndəsi V.V.Vorovski, Ukraynadan X.Q.Rakovski, Azərbaycandan N.N.Nərimanov, Gürcüstandan P.Q. Mdivani, Ermənistandan A.A.Bekzadyan, Buxara Xalq Sovet Respublikasından F.Xocayev, Uzaq Şərq Respublikasından Y.D.Yanson, Həmkarlar təşkilatından Y.E.Rudzutak, A.Q.Şlyapnikov və başqaları nümayəndə heyətinin sıravi üzvləri təsdiq edilmişdir.

Hərtərəfli hazırlıq işindən sonra Sovet nümayəndə heyəti Qərb ölkələri ilə iqtisadi əlaqələri və əməkdaşlığı bərpa və inkişaf etdirmək niyyəti ilə 1922-ci ilin mart ayının 27-də Genuya şəhərinə yola düşərək martın 29-da Riqaya gəldi, burada Sovet nümayəndə heyəti vahid antisovet cəbhəsi yaradılmasının qarşısını almaq məqsədilə martın 30-da Polşa, Latviya, Estoniya nümayəndələrinin iştirakı ilə müşavirə keçirdi. Əlinə düşən imkanlardan istifadə edən Sovet diplomatları iki günlük danışıqlar nəticəsində adı çəkilən dövlətlərin Antantanın mövqeyindən çəkilməsinə səy göstərməklə, dörd dövlətin Genuya konfransında birlikdə çıxış edəcəkləri haqqında razılıq əldə edilməsinə nail oldu. Dörd dövlətin imzaladığı müqavilədə Sovet hökumətinin tanınması, silahların azaldılması, ümumi sülhə nail olmaq və s. maddələr

var idi.

1922-ci il aprelin 1-də Sovet nümayəndə heyəti Berlinə gəldi. Aprelin ikisində və üçündə G.V.Çiçerinin və Sovet nümayəndələrinin İozef Virt və Valter Ratenau ilə görüşləri oldu. Berlin danışıqlarından aydın oldu ki, Almaniya Sovet Rusiyası ilə müqavilə bağlamağa tələsmir. Lakin Sovet nümayəndələri ilə sonuncu görüş zamanı Virt və Ratenau öz mövqelərini bilirdilər. Almaniya və Rusiya hökumətləri borclar haqqında qarşılıqlı iddialardan imtina etməyə zəmin hazırladılar. Həmin görüş zamanı hər iki tərəf Genuya konfransında yaxın əlaqə saxlamağı qərara aldı. Göründüyü kimi, Sovet tərəfi hələ konfrans ərəfəsində kapitalist dövlətlərinin vahid cəbhə ilə çıxış etməsinə imkan verməmək üçün bəzi işlər gördü.

Genuya konfransı 1922-ci il aprelin 10-da öz işinə başladı ki, burada da 29 dövlət, Britaniya müstəmləkələri ilə birlikdə isə 34 dövlət iştirak edirdi. Böyük dövlətlərdən yalnız ABŞ Genuya konfransında rəsmən iştirak etməsə də İtaliyadakı səfir Çayld konfransda "müşahidəçi" kimi iştirak edirdi. Konfransı İtaliyanın baş naziri L.Fakta açdı. Sonra Lloyd Corc, Luyi Bartu, İozef Virt və başqaları çıxış edərək Sovet Rusiyasına əsarətli saziş şərtləri qəbul etdirmək üçün onun təsərrüfat çətinliklərindən istifadə etməyə çalışırdılar. Onlar bütün çar hökumətinin borclarını, o cümlədən müharibədən əvvəlki borcların, həmçinin milliləşdirilmiş müəssisələrin xarici sahiblərinə qaytarılmasını tələb edirdilər.

Sovet nümayəndə heyətinin başçısı G.V.Çiçerin aprelin 10-da konfransın birinci iclasında Sovet Rusiyasının qarşılıqlı fayda, hüquq bərabərliyi əsasında bütün dövlətlərin hökumətləri və ticarət-sənaye dairələri ilə iqtisadi əməkdaşlıq qurmaq və Sovet hökumətini qeyri-şərtsiz tanımaq səylərindən bəhs edən bəyannaməsini elan etdi. Konfransda G.Çiçerin öz çıxışında Qərb dövlətlərilə dinc yanaşı yaşamaq əsasında əməkdaşlıq etməyi, ümumi tərksilah haqqında danışıqlara başlamağı təklif etdi.

Genuya konfransında Qərb dövlətlərinin Sovet nümayəndə heyətinə təqdim etdiyi memorandumda çar, müvəqqəti və ağqvardiyaçı hökumətlərin borclarının qaytarılması, milliləşdirilmiş əmlaka görə kompensasiya verilməsi, xarici ticarət üzərində dövlət inhisarının ləğv edilməsi, xarici vətəndaşlara geniş imtiyazlar verilməsi tələb edilirdi. Qərb dövlətləri Sovet Rusiyasını kapitalist dünyası qarşısında əvvəlcə siyasi, sonra isə iqtisadi cəhətdən təslim olmağa məcbur etmək niyyətində idilər. Sovet nümayəndələri bu kimi qəbul edilməz tələbləri qəti surətdə rədd etdi və həmin tələblərin soyğunçuluq xarakterini açıb göstərdi. RSFSR hökuməti müharibədən əvvəlki borcların bir hissəsini ödəməyə bu şərtlə razılıq verərdi ki, bunların ödənilməsi üçün 30 il möhlət və ölkəyə borc verilsin. Kapitalist dövlətlərinin tələblərinə cavab olaraq Sovet nümayəndə heyət tələb etdi ki, xarici müdaxilə dövründə kapitalist dövlətləri Sovet ölkəsinə vurduqları 39 milyard qızıl manat miqdarında zərəri ödəməlidirlər. Sovet nümayəndə heyəti həm də tələb edirdi ki, danışıqlar yalnız qarşılıqlı bərabərlik prinsipi əsasında aparılsın.

Konfransın gedişində Sovet diplomatları Birinci Dünya müharibəsinin qalib dövlətləri və məğlub edilmiş Almaniya arasında kəskin ziddiyyətləri aşkar edərək onlarla ayrı-ayrılıqda müqavilə bağlamaq, kapitalist dövlətlərinin vahid cəhbə planını pozmaq niyyətində idi. Konfransın lap birinci günündən məlum oldu ki, Almaniya Antanta dövlətlərinin mövqeyində durmaq istəmir. Məhz ona görə ki, onlar Versal müqaviləsinin məlum maddələrini müzakirə etməkdən imtina etmişdi. Bu vəziyyət Almaniyanı təbii olaraq Rusiya ilə ittifaqa sövq edirdi. Genuya konfransında Sovet diplomatiyası qalib dövlətlərlə Almaniya arasındakı ziddiyyətlərdən öz xeyrinə istifadə etdi. Almaniya güzəştli müqavilə bağlamaq siyasətini həyata keçirə bilmədiyindən Sovet Rusiyası ilə danışıqlara başladı. Aprelin 16-da alman nümayəndə heyəti ilə müqavilə şərtləri razılaşdırıldı. Həmin gün Sovet nümayəndəliyinin iqamətgahı Rapalloda nümayəndə heyətinin başçısı, Xalq Xarici İşlər Komissarı G.V.Çiçerin və Almaniyanın Xarici İşlər Naziri V.Ratenau Sovet Rusiyası ilə Almaniya arasında müqavilə imzaladı. Bu müqaviləyə əsasən, tərəflər iddialardan qarşılıqlı surətdə imtina edir, iki ölkə arasında diplomatik münasibətlər bərpa olunurdu.

Müqavilənin imzalanması Qərb dövlətlərinin antisovet planlarına qəti zərbə vurdu. Rapallo müqaviləsinin imzalanması nəticəsində antisovet planlarının pozulması, Sovet Rusiyası

və Almaniyanın beynəlxalq aləmdə vəziyyətinin yaxşılaşması Fransa, İngiltərə və ABŞ hakim dairələrinin ciddi narazılığına səbəb oldu. Bununla kapitalist dövlətlərinin Genuya konfransından çox əvvəl hazırlamış olduqları, Rusiyanı və başqa sovet respublikalarını iqtisadi və siyasi cəhətdən tabe etməyi nəzərdə tutan planları Rapallo müqaviləsi bağlanmasından sonra məğlubiyyətə düçar oldu. Konfrans öz işini 1922-ci il mayın 19-da başa çatdırdı. Antanta dövlətlərinin təqsiri üzündən Genuya konfransı nəticəsiz oldu. Genuyada Antanta dövlətləri ilə sazişə gəlmək mümkün olmadı. Lakin Rusiya hökuməti Almaniya ilə Rapallo müqaviləsini bağlamaqla kapitalizm cəbhəsini yardı, dövlətlər arasındakı ziddiyyətlərdən öz xeyrinə istifadə etdi. Bu isə kapitalist dövlətləri cəbhəsinə çaxnaşma saldı, onların bütün planları boşa çıxdı. Genuya konfransını varlanmaq mənbələrinə çevirə bilmədilər.

Genuya konfransı 39 gün davam etdikdən sonra Qərb dövlətlərinin Sovet Rusiyasına qarşı düşmənçilik mövqeyi tutması nəticəsində pozuldu. Lakin bu konfrans açıq surətdə göstərdi ki, Sovet Rusiyasının iştirakı olmadan beynəlxalq əlaqələrin normal hala salınması mümkün deyildir.1922-ci il iyunun 26-dan iyulun 20-dək Haaqada Genuya konfransında iştirak etmiş dövlətlərin ekspertlərinin iştirakı ilə konfrans keçirildi. Sovet nümayəndəliyi bəyan etdi ki, Sovet Rusiyası xarici borcları qəbul edə bilər, o şərtlə ki, Qərb dövlətləri Sovet ölkəsi ilə diplomatik münasibətlər yaratmalı və ona kredit verilməlidir. Sovet dövlətinin xarici ölkələrə borcu 18,5 milyard qızıl manat hesablanırdı. M.M.Litvinov elan etdi ki, Qərb ölkələri vətəndaş müharibəsi və xarici hərbi müdaxilə sayəsində Sovetlər ölkəsinə vurulmuş 39 milyard manat məbləğində zərəri ödəməyə borcludur. Qarşılıqlı iddialar sayəsində Haaqa konfransında heç bir qərar qəbul edilmədi.

***Beynəlxalq gərginliyin artması.***1922-ci ilin noyabrından 1923-cü ilin iyul ayına kimi davam edən Qara dəniz boğazları haqqında Lozanna konfransında qəbul edilmiş müahidə Sovet dövlətini qane etmirdi. D.Kerzonun təqdim etdiyi ingilis layihəsinə əsaslanan Fransa və İtaliyanın müdafiə etdiyi müahidə dinclik dövründə və müharibə zamanı bütün ölkələrin ticarət və hərbi gəmilərinin Qara dəniz boğazlarından sərbəst keçməsini nəzərdə tuturdu. Sovet tərəfinin fikrincə bu o demək idi ki, böyük kapitalist dövlətləri öz hərbi gəmiləri üçün sovet sahillərinə yol açmışdılar. 8 ölkənin təmsil olunduğu Lozanna konfransında sovet nümayəndə heyətilə birlikdə 9 ölkə təmsilcisi yalnız ayrı-ayrı məsələlərin müzakirəsində iştirak edə bilərdi. Konfransda sovet nümayəndə heyəti 1922-ci il dekabrın 18-də belə bir təklif irəli sürdü ki, dinc və müharibə dövründə boğazlar Türkiyə istisna olmaqla bütün ölkələrin hərbi gəmiləri üçün bağlansın. Sovet təklifi qəbul edilmədiyindən SSRİ Lozanna konfransının müahidəsini təsdiq etmədi. 1936-cı ildə Montredə (İsveçrə) məsələyə yenidən baxılaraq Qara dəniz boğazları ilə bağlı hazırki hüquqi status qəbul edildi.

1923-cü ilin yazında SSRİ-nin beynəlxalq vəziyyəti yenidən mürəkkəbləşdi. 1923-cü il mayın 8-də İngiltərənin Xarici İşlər naziri Lord Kerzon Sovet hökumətinə nota təqdim etdi. Tarixə "Kerzonun ultimatumu" adı ilə daxil olmuş notada SSRİ hökumətindən tələb edilirdi ki, müstəqil xarici siyasət yeritməkdən əl çəksin. Lozanna konfransından sonra Sovet dövlətinə qarşı hücuma keçən xarici qüvvələr SSRİ-nin Şərq ölkələrində nüfuzuna zərbə vurmaq üçün tələb edirdilər ki, yaxın Şərqdə Britaniya əleyhinə Sovet hökumətinin apardığı təbliğat dayandırılsın, Sovet müvəkkilləri Əfqanıstandan və İrandan geri çağırılsınlar, sovet məhəlli sularında qeyri-qanuni balıq ovuna görə tutulmuş ingilis balıqçı gəmiləri dərhal buraxılsın və onlara dəyən zərər ödənilsin. Sovet hökuməti notanın tələblərini 10 gün müddətində qəbul etməyəcəyi təqdirdə Kerzon ticarət münasibətlərini kəsəcəyi ilə hədələyirdi. Kerzonun notası xaricdə antisovet qüvvələrin fəallaşmasına səbəb oldu ki, bunun da nəticəsində 1923-cü il mayın 10-da Romadakı sovet nümayəndəsi V.V.Vorovski Lozannada öldürüldü. Kerzonun notası xarici ölkələrdə mənfi qarşılandı. Bir çox ölkələri İngiltərə hökumətinin siyasətinə qarşı etiraz dalğası bürüdü ki, bu da 1923-cü ilin iyun ayında onu ultimatumu geri götürməyə məcbur etdi.

Sovet dövləti ilə kapitalist ölkələri arasında diplomatik münasibətlərin olmaması onların qarşılıqlı surətdə faydalı əməkdaşlığına mane olurdu. Genuyadakı müvəffəqiyyəti inkişaf etdirərək Sovet dövlətinin əsas kapitalist ölkələri tərəfindən hüquqi cəhətdən tanınmasına nail

olmaq vəzifəsini öz qarşısına qoydu.1924-1925-ci illərdə bu vəzifə uğurla yerinə yetirildi və bu illər tarixə, SSRİ-nin tanınması dövrü kimi daxil oldu. 1924-cü il fevralın 2-də İngiltərə SSRİ-ni hüquqi cəhətdən tanıdı və Sovet İttifaqı ilə Böyük Britaniya arasında diplomatik münasibətlər yarandı. İngiltərənin ardınca İtaliya 1924-cü il fevralın 7-də, Norveç fevralın 15-də SSRİ ilə diplomatik münasibətlər yaratdılar. SSRİ-nin İngiltərə və İtaliya ilə normal münasibətlərinin bərpa olunmasının ardınca Avstriya, Yunanıstan, İsveç, Danimarka, Meksika 1924-cü ildə Sovet İttifaqını de-yure tanıdıqlarını bəyan etdilər.

SSRİ ilə yaxınlaşmaq tərəfdarı olan Fransanın "sol blok" hökümətinin Baş naziri Eduard Errio 1924-cü il oktyabrın 28-də xəbər verdi ki, Fransa Sovet dövlətini tanımışdır. Fransanın SSRİ-ni tanımasının mühüm siyasi əhəmiyyəti var idi, belə ki, bu birbaşa sovet xarici siyasətinin nüfuzunun artdığını göstərirdi. Noyabr ayının 14-də SSRİ MİK-nin Rəyasət heyəti L.B.Krasini Xalq Xarici Ticarət komissarı vəzifəsində saxlamaqla Fransada səlahiyyətli nümayəndə təsdiq etdi. J.Erbett Fransanın SSRİ-də səfiri təyin olundu.

1924-cü ilin mayında SSRİ ilə Çin arasında diplomatik münasibətlər yaradılması haqqında saziş imzalandı. Sovet dövləti çar hökumətinin Çinlə bağladığı bütün qeyri-bərabər müqavilələri ləğv etdi və Rusiyaya məxsus olan ŞÇDY-nin Sovet Çin müdiriyyətinin birgə idarəsinə verməyə razı oldu, ŞÇDY hər iki dövlətin mülkiyyətinə çevrildi və birgə istismar edilməyə başlandı.

Kapitalist dövlətlərindən yalnız ABŞ əvvəlki kimi SSRİ-ni tanımaqdan və onunla diplomatik münasibətlər qurmaqdan imtina edirdi. SSRİ-ni tanımaqdan imtina edən ABŞ-ın təşəbbüsü ilə bankir Ç.Daues Almaniyadan təzminat alınması, onun iqtisadiyyatının, valyuta və bank sisteminin sabitləşməsi məqsədilə bir plan hazırladı. 1924-cü ilin yayında Londonda keçirilən konfransda qəbul edilən "Daues planı" Almaniyanı hərbi və iqtisadi potensialını bərpa etməyə, daha fəal xarici siyasət yeritməyə və SSRİ-yə qarşı durmağa sövq edirdi. Bu planın qüvvədə olduğu altı il müddətində Almaniya xarici ölkələrdən 21 milyard marka kredit almış, özü isə cəmi 7,5 milyard təzminat ödəmişdir.

1925-ci ilin oktyabrında 5-dən 16-a kimi İngiltərə, Fransa, İtaliya, Almaniya, Belçika, Polşa və Çexoslovakiyanın iştirakı ilə Lokarno (İsveçrə) konfransı keçirildi. Konfransda Reyn təminat paktı, Almaniyanın Millətlər Cəmiyyətinə daxil olması və SSRİ-yə qarşı sanksiyalarda iştirakı və s. məsələlər müzakirə edildi. Fransa, Polşa və Çexoslovakiya tələb etdi ki, Almaniya Polşa və Çexoslovakiyanın sərhədlərinin təhlükəsizliyinə təminat versin, lakin alman tərəfi bu tələbləri qəbul etmədi. 1925-ci ilin dekabrında imzalanmış Reyn təminat paktı Fransa-Almaniya və Almaniya-Belçika sərhədlərinin toxunulmazlığına təminat verdi. 1925-ci il oktyabrın 25-də Fransa, Polşa və Çexoslavakiya ilə təminat müqavilələri imzaladı. Beləliklə, Almaniyaya qərb sərhədləri üçün təminat verildi. Şərqdə isə SSRİ-yə qarşı hərəkət azadlığı imkanı saxlandı. Almaniya həm də Millətlər Cəmiyyətinə daxil olmaq imkanı qazandı. "Daues planı" və Lokarno sazişləri Qərb ölkələrinin SSRİ-yə qarşı siyasətindən qaynaqlanırdı. Buna baxmayaraq, 1924-1925-ci illərdəki "Diplomatik tanınma" dövründə SSRİ Avropa, Asiya və Afrikanın 13 dövləti ilə diplomatik münasibətlər yaratmışdır, 1925-ci ilin əvvəllərində isə 22 dövlətlə diplomatik əlaqə saxlayırdı.

20-ci illərin ikinci yarısından başlayaraq antisovet kompaniyası yenidən qızışdı. Dünya antisovet qüvvələrinin lideri İngiltərənin Mühafizəkarlar partiyası 1926-cı il oktyabrın 7-də SSRİ ilə əlaqələri kəsməyi əsas vəzifə kimi irəli sürdü. İngiltərənin mürtəce qüvvələri İngiltərə-Sovet münasibətlərini pozmağa çalışır, başqa ölkələrin SSRİ-yə qarşı düşmən hərəkətlərini müdafiə edirdilər.

Xarici İşlər üzrə xalq komissarlığı 1926-cı ilin sentyabrında SSRİ-nin Londondakı səlahiyyətli nümayəndəsi L.Krasin vasitəsilə İngiltərə hökumətinə bildirdi ki, İngiltərə ilə SSRİ arasında münasibələrin qaydaya salınması beynəlxalq münasibətlərin sülh yolu ilə inkişafına təkan verərdi. Lakin İngiltərə hakim dairələri 1927-ci il fevralın 23-də İngiltərənin Xarici İşlər naziri O.Çemberlen vasitəsilə Sovet hökumətinə nota verdilər. Notada deyilirdi ki, Sovet hökuməti Britaniya əleyhinə təbliğat aparıb və onun daxili işlərinə qarışır. Odur ki, İngiltərə Sovet İttifaqı ilə ticarət və diplomatik münasibətləri kəsmək fikrindədir. 1927-ci il

mayın 27-də İngiltərənin mühafizəkar hökuməti Sovet İttifaqı ilə diplomatik və ticarət münasibətlərini məhz baş nazir S.Bolduin Sovet dövlətini İngiltərəyə qarşı düşmənçilikdə günahlandırması sayəsində kəsdi. Bunun ardınca Fransada, Polşada, Baltikyanı ökələrdə antisovet təbliğatı gücləndirildi, 1927-ci il iyunun 7-də Polşadakı sovet səfiri P.L.Voykov Varşava vağzalında öldürüldü ki, bu da İngiltərə tərəfindən təşkil olunmuşdur.

Mancuriyanın mürtəce dairələrinin köməyi ilə 1927-ci ilin aprelində ŞÇDY üzərinə hücum təşkil edildi. İngilis səfiri Settonun göstərişi ilə Çin əksinqilabının liderlərindən biri Çjan Tszo-linin əsgərləri və polisləri 1927-ci il aprelin 9-da Pekindəki sovet səfirliyinə basqın etdi. 1927-ci ilin noyabrında Şanxaydakı sovet konsulluğuna hücum edildi, dekabrda Kantonda sovet nümayəndəliyi dağıdıldı, Nankin burjua hökumətinə tabe olan ərazilərdə Sovet idarələri bağlandı. Bu SSRİ-yə qarşı düşmən əhatəsi yaratmaq, Sovet İttifaqını Çin, Polşa və digər dövlətlərlə hərbi münaqişə sövq etmək səyləri idi. Sovet dövlətinin yeritdiyi siyasət antisovet təşkilatçılarına SSRİ-ni hərbi nünaqişəyə cəlb etməyə imkan vermədi. Sovet dövləti müharibə həvəskarlarının iç üzünü açır və onların vahid antisovet cəbhə yaratmaq cəhdlərinə qarşı mübarizə aparırdı. SSRİ ilə onun qonşuları arasında bağlanmış müqavilələr sülh uğrunda mübarizədə mühüm addım oldu.

1925-ci ilin dekabrında Türkiyə, 1926-cı ilin avqustunda Əfqanıstan, 1927-ci ilin oktyabrında İranla bitərəflik və hücum etməmək haqqında müqavilələr imzalandı. 1926-cı ilin aprelində SSRİ ilə Almaniya arasında hücum etməmək və bitərəflik haqqında 5 il müddətinə müqavilə bağlandı və bu Lokarno sazişlərinin antisovet ruhunu xeyli zəiflətdi. 1926-cı ilin sentyabrında SSRİ ilə Litva arasınd dostluq və bitərəflik haqqında müqavilə bağlanması Qərbi Avropa dövlətlərinin SSRİ-yə qarşı Baltikyanı ölkələri blokunu yaratmaq planlarını pozdu.

1927-ci il aprelin 6-da Fransanın Xarıcı İşlər naziri A.Brian ABŞ-ın dövlət katibi F.Kelloqa müraciət edərək milli siyasət vasitəsi kimi müharibədən imtina etmək haqqında bəyannamə ilə çıxış etməyi təklif etdi. 1927-ci il dekabrın 28-də ABŞ-ın dövlət katibi F.Kelloq Fransanın Xarici İşlər naziri A.Briana cavab məktubunda bildirdi ki, "ABŞ Fransanın təklifini razılıqla qəbul edir və belə hesab edir ki, "əbədi sülh" haqqında müqavilə bağlamaq o zaman mümkün olar ki, müharibəni milli siyasət kimi inkar etməyə razı olan digər böyük dövlətlər də ona qoşulsunlar."

1928-ci il iyunun 23-də ABŞ müharibədən imtina etmək haqqında müqavilənin layihəsini 14 ölkənin hökumətinə göndərdi.1928-ci il avqustun 27-də Parisdə Brian-Kelloq paktını ABŞ, İngiltərə, Fransa, Almaniya, İtaliya, Yaponiya və başqaları daxil olmaqla cəmi 15 dövlət imzaladı. Fransanın SSRİ-dəki səfiri J.Erbett pakta qoşulmağı Sovet dövlətinə təklif etdi. SSRİ Xalq Xarici İşlər komissarı G.V.Çiçerin bildirdi ki, Sovet dövlətinin əsas məqsədi müharibəyə son qoymaq, müharibəni qanundan kənar etməkdir. Odur ki, SSRİ-nin pakta qoşulması zəruridir. Sovet hökuməti 1928-ci il sentyabrın 6-da paktı imzalayaraq ona qoşuldu. Sovet dövləti pakta qoşulmağa kifayətlənmədi, həm də onun təşəbbüsü ilə Brian-Kelloq paktını vaxtından əvvəl qüvvəyə mindirmək barəsində öz qonşularına təkliflə müraciət etdi. 1929-cu il fevralın 9-da Moskvada Brian-Kelloq paktını vaxtından əvvəl qüvvəyə mindirmək barəsində protokolu SSRİ, Estoniya, Latviya, Polşa və Rumıniya imzaladılar. 1929-cu ilin aprelində Türkiyə, İran və Litva da ona qoşuldu. Həmin protokolun imzalanması SSRİ ilə qonşu ölkələr arasında dinc münasibətlərin möhkəmlənməsinə müsbət təsir göstərdi. Brian-Kelloq paktı 1929-cu ilin iyul ayında qüvvəyə mindi.

***Tərksilah və kollektiv təhlükəsizlik uğrunda SSRİ-nin fəaliyyəti.*** Tərksilah və kollektiv təhlükəsizlik uğrunda mübarizə SSRİ-nin xarici siyasət fəaliyyətinin mühüm istiqamətlərindən biri idi. Tərksilah məsələsi Millətlər Cəmiyyətində, onun komissiyalarında müzakirə edilirdi. 1919-cu il yanvarın 25-də Paris konfransı Millətlər Cəmiyyətinin yaradılmasının zəruriliyi haqqında qətnamə qəbul etdi. 1919-cu ilin aprelində Millətlər Cəmiyyətinin 26 maddədən ibarət nizamnaməsi qəbul edildi. Nizamnaməyə görə Millətlər Cəmiyyətinin fəaliyyətinə Məclis və Şura rəhbərlik edirdi. Şuranın 8 üzvündən dördü daimi (İngiltərə, Fransa, İtaliya, Yaponiya), dördü isə müvəqqəti idi. Millətlər Cəmiyyəti sülhü, təhlükəsizliyi, Versal sistemini qoruyub saxlamalı, mübahisəli məsələlərin dinc yolla həllinə səy göstərməli idi.

Tərksilah uğrunda fəaliyyət göstərmək məqsədilə 1920-ci ilin may ayında Millətlər Cəmiyyətinin şurası hərbi ekspertlərdən ibarət daimi məsləhət komissiyası, 1921-ci ilin fevralında tərksilah məsələləri üzrə müvəqqəti komissiya yaratmışdı.

1925-ci ilin dekabr ayında Millətlər Cəmiyyətinin şurası tərksilaha dair beynəlxalq konfrans çağırmaq məqsədilə hazırlıq komissiyası yaratdı və SSRİ də komissiyanın Cenevrədə keçirilən iclaslarına dəvət olundu. 1923-cü il mayın 10-da İsveçrədə Sovet diplomatı V.V.Varovskinin öldürülməsilə bağlı SSRİ nümayəndə heyəti komissiyanın ilk üç sessiyasında iştirak edə bilməmişdir. 1927-ci ilin noyabr-dekabr aylarında hazırlıq komissiyasının dördüncü sessiyasında M.M.Litvinovun başçılığı altında Sovet nümayəndə heyəti iştirak etmişdir. 1928-ci ilin mart ayında komissiyanın V sesiyasında Sovet tərəfi tam və ümumi tərksilah təklifi ilə çıxış etdi. Bu təklifə görə dörd il müddətində bütün ölkələrdə silahlı qüvvələrin şəxsi heyətinin buraxılması, hərbi texnikanın, slahların və bazaların ləğv edilməsi, hərbi zavodların bağlanması, müharibə təbliğatının qadağan edilməsi və s. nəzərdə tutulmuşdu. SSRİ-nin bu təklifi Qərb ölkələrinin nümayəndələri tərəfindən “əvvəlcə təhlükəsizlik, sonra silahların ləğv edilməsi” cavabı ilə qarşılandı. Belə olduqda Sovet nümayəndəsi qismən tərksilah keçirilməsini təklif etdi. Bu layihə 1929-cu ilin aprel-may aylarında komissiyanın VI sesiyasında müzakirə edildi, ancaq qəbul edilmədi.

1932-ci ilin fevralından 1934-cü ilin iyun ayınadək Cenevrədə 63 dövlətin iştirakı ilə tərksilah konfransının çoxsaylı komitə və komissiyalarının iclasları oldu. Tam və ümumi tərksilah prinsipi əsasında konfransın işinin qurulmasını təklif edən Sovet nümayəndə heyəti həm də qismən tərksilah keçirilməsinə, kütləvi qırğın silahlarının ləğv edilməsinə hazır olduğunu elan etdi. 1933-cü ilin oktyabrından Almaniyanın konfransın işində iştirak etməkdən imtina etməsi və müharibə təhlükəsinin artması ilə əlaqədar olaraq Sovet dövləti sülhü qorumaq üçün Cenevre konfransının daimi fəaliyyət göstərməsini təklif etdi, lakin bu da qəbul edilmədi.

1929-cu il iyulun 10-da ABŞ, Böyük Britaniya, Fransa və Yaponiya dövlətləri tərəfindən qızışdırılan Çin millitaristləri SSRİ və Çinin birlikdə idarə etdikləri Şərq-Çin dəmir yoluna hücum etdilər, Sovet təsərrüfat binaları dağıdıldı, əsasən dəmir yolunda işləyən 200 nəfərdən çox sovet qulluqçuları həbs edildilər. Çjan Tszo-linin oğlu general Çjan Syue-lyanın başçılığı ilə 1929-cu il avqustun 18-də Çin təcavüzkarları SSRİ ərazisinə hücum etdilər. Avqustun 20-də SSRİ ilə Çin arasında münasibətlər kəsildi. V.K.Blyuxerin komandanlığı ilə xüsusi Uzaq Şərq ordusu noyabrın 17-də təcavüzkarları sovet ərazisindən qovdu. Dekabrın 3-də ABŞ, İngiltərə və Fransa “məsləhət” və “göstərişlərdən” ibarət bəyannaməni Sovet hökumətinə verdilər. Sovet dövləti bildirdi ki, münaqişə iki dövlətə aid olduğu üçün danışıqlara heç bir digər dövlət qarışa bilməz. 1929-cu il dekabrın 22-də Xabarovskdə bağlanan sazişlə ŞÇDY-da münaqişə ləğv edildi və burada vəziyyət bərpa edildi.

Antisovet müdaxilə planlarının boşa çıxdığını görən İngilitərənin leyborist hökuməti SSRİ ilə münasibətləri dəyişdi. 1929-cu il iyulun 17-də İngiltərənin leyborist D.P.Makdonald hökuməti Sovet hökumətinə münasibətləri bərpa etməyi təklif etdi. Oktyabrın 3-də Londonda saziş bağlandı və SSRİ ilə diplomatik və ticarət münasibətləri bərpa edildi.

1929-cu ildə kapitalist dünyasında ağır iqtisadi böhran baş verdi, 1922-1929-cu illərdəki kapitalizmin nisbi sabitləşməsi dövrü sona çatdı. Əsas kapitalist dövlətlərinin iqtisadiyyatını böhran bürüdü və istehsal aşağı düşdü. Çoxılu taxıl, ət, süd, heyvanlar məhv edildi. Kütləvi aclıq başlandı. İstehsalın ümumi həcmi ABŞ-da 1923-cü ildə olduğundan 2 dəfə az idi. Yaponiya və Almaniyada isə bu rəqəm 40 faiz təşkil edirdi. Böhran kütləvi işsizliyə səbəb oldu. 1929-cu ilin sonunda ABŞ-da işsizlərin sayı 12 milyon, Almaniyada 5,5 milyon, İngiltərədə 2,8 milyon idi. Ümumiyyətlə, bütün kapitalist ölkələrində işsizlərin sayı 30 milyona çatmışdı.

Dünya iqtisadi böhranı şəraitində beynəlxalq münasibətlər gərginləşdi. Bazarlar, nüfuz dairələri, kapital ixracı, müstəmləkələrin yeidən bölüşdürülməsi uğrunda mübarizə qızışdı. Nəinki Birinci Dünya müharibəsində qalib gəlmiş ölkələrlə məğlub edilmiş ölkələr arasında, həmçinin kapitalist ölkələri ilə SSRİ arasındakı ziddiyyətlər də kəskinləşdi. Kapitalist ölkələrinin hakim dairələri yaranmış vəziyyətdən çıxış yolunu Sovet quruluşuna hücum etməkdə,

faşist rejimləri qurmaqda və SSRİ-yə qarşı müharibəyə hazırlaşmaqda görürdülər.

Kapitalist dövlətləri böhrandan SSRİ-yə qarşı müharibə aparmaq yolu ilə çıxmağı planlaşdıraraq hərbi müdaxiləni 1930-cu ilin yazı üçün nəzərdə tuturdular. SSRİ-yə qarşı böhtan kampaniyasına din xadimləri də qoşuldular və müharibəni dini pərdə altında aparmaq üçün Poma papası XI Piy 1930-cu il fevralın 2-də SSRİ-yə qarşı "səlib yüyüşünə" çağırdı. Bu çağırışın mənası "dini müdafiə üçün xaçlı yürüşü" pərdəsi altında sosialist dövləti ətafındakı düşmənçilik mühitini yaratmaqdan ibarət idi. 1929-cu ildən başlayaraq Vatikan Sovet dövləti əleyhinə təbliğat və pozuculuq işləri aparmaq üçün kadrlar hazırlayırdı. Vatikana böyük dövlətlər, xüsusilə də ABŞ yardım edirdi. Təkcə 1929-cu ildə ABŞ Vatikana 1,5 milyon dollar ayırmışdır. Vatikanda ağqvardiyaçı knyaz Volkonski başda olmaqla xüsusi komitə yaradılmışdı, burada kommunizmə qarşı mübarizə metodları öyrədilirdi.

Kapitalist dövlətləri SSRİ-yə qarşı hərbi müdaxilə hazırlanmasın "Sovet dempinqi" şayəsi ilə əsaslandırmağa cəhd edərək göstərirdilər ki, böhranın səbəbi Sovet dövlətidir. SSRİ dünya bazarlarına dəyərindən ucuz qiymətə mallar çıxarır, bu isə ölkədə mövcud olan "məcburi" və ya "qul" əməyi ilə bağlıdır. Böhran dövründə dünya ixracatında SSRİ-nin payı isə cəmi 1,9 faiz təşkil etdiyi halda ABŞ, Fransa, Belçika, Rumıniya, Kanada, Yuqoslaviya, Polşa ölkələrinin hökumətləri sovet ixracatına qarşı ayrı-seçkilik tədbirləri görürdülər ki, bu da SSRİ-yə qarşı iqtisadi blokada təşkil etmək cəhdi idi. SSRİ iqtisadi blokadanın təşkilatçılarına qarşı bir sıra əks-tədbirlər həyata keçirdi, belə ki, SSRİ-yə qarşı məhdudlaşdırıcı şərait yaradan ölkələrə mal sifariş edilməsi, həmin ölkələrdən mal satın alınması dayandırıldı və ya maksimum azaldıldı, onların gəmilərinin kirayə edilməsi, limanlardan, tranzit yollarından, bazarlardan istifadə edilməsi dayandırıldı. Bu tədbirlər kapitalist dövlətlərinin iqtisadi mənafeyinə zərbə endirdi, buna görə də onlar SSRİ-yə qarşı tətbiq etdikləri qadağaları ləğv etməyə məcbur oldular.

Həmçinin SSRİ-yə qarşı bir sıra fitnəkarlıq əməlləri törədildi. 1930-cu ildə Finlandiyada Sovet nümayəndəliyi binası dağıdıldı, Varşavada sovet səfirliyini partlatmağa cəhd göstərildi, 1931-ci ildə Moskvadakı Yapon səfirinin, 1932-ci ildə Almaniya səfirliyinin müşavirini öldürməyə cəhd göstərildi.

ABŞ, İngiltərə və Fransa Yaponiya ilə SSRİ arasında müharibə törətmək istəyirdilər. 1931-ci il sentyabrın 18-də, Yaponiya Mancuriyaya hücum etdi. Azad hərəkət etmək məqsədilə Yaponiya 1933-cü il martın 27-də Millətlər Cəmiyyətindən çıxdı və səylə silahlanmağa başladı. Yapon təcavüzkarları Mancuriyanı Sovet İttifaqına hücum etmək üçün əməliyyat meydanına çevirdilər, burada strateji dəmir yolları, təyyarə meydanları, möhkəm istehkamlar tikdilər. Kvantun ordusunun əsgərlərini burada yerləşdirdilər. 1932-ci ilin martında Mancuriyada Yaponiyanın təşəbbüsü ilə Mancou-qo dövləti yaradıldı. 1932-ci ilin iyununda Yaponiya hökuməti həmin dövləti de-fakto tanıdı, əslində isə Mancuriyanı yaponlar idarə edirdi. Uzaq Şərqdə ilk müharibə ocağı belə yaranmış oldu.

Sovet hökuməti sülh siyasəti yeridir və qonşu dövlətlərlə münasibətləri yaxşılaşdırmağa çalışırdı. 1932-ci il fevralın 5-də Sovet dövləti Latviya ilə, mayın 4-də Estoniya ilə, iyulun 25-də isə Polşa ilə hücum etməmək haqqında müqavilə bağladı. 1932-ci il yanvarın 25-də SSRİ ilə Fransa arasında hücum etməmək haqqında müqavilə imzalandı və noyabrın 29-da bu müqavilə təsdiq edildi. Fransanın Şərqi Avropadakı müttəfiqləri Rumıniya və Polşa bu müqaviləni müdafiə etdilər. Finlandiya ilə də hücum etməmək haqqında 1932-ci il yanvarın 21-də müqavilə imzalandı. 1929-cu il dekabrın17-də Sovet İttifaqı ilə Türkiyə arasında 1925-ci il müqaviləsini uzatmaq haqqında, 1931-ci il martın 7-də buna əlavələr haqqında protokol imzalandı. 1931-ci ildə Sovet-Türkiyə ticarət sazişi imzaladı ki, bu da 1927-ci ildəkindən daha geniş ticarət hüquqları nəzərdə tuturdu. Sovet hökuməti Türkiyəyə 8 milyon ABŞ dolları həcmində kredit verdi. M.M.Litvinov Türkiyə dövlət rəhbərləri tərəfindən səmimiyyətlə qarşılandı. 1931-ci il iyunun 24-də bitərəflik və hücum etmək haqqında Sovet-Əfqan müqaviləsi bağlandı. Sovet dövləti Çin ilə münasibətləri yaxşılaşdırmağa çalışırdı. 1932-ci il dekabrın 12-də Sovet İttifaqı ilə Çin arasında 1929-cu ildə kəsilmiş diplomatik münasibətlər bərpa edildi.

***30-cu illərdə beynəlxalq vəziyyətin mürəkkəbləşməsi və SSRİ-nin xarici siyasəti.*** Dünyada tüğyan edən iqtisadi böhran Almaniyada daxili vəziyyətin mürəkkəbləşməsinə, faşistlərin hakimiyyətə gəlməsinə, onların Yaponiya və İtaliya ilə birlikdə dünya ərazisini yenidən bölüşdürmək uğrunda mübarizəyə başlamasına şərait yaratı. 1933-cü il yanvarın 30-da faşistlərin rəhbəri Adolf Hitler Almaniyanın kansleri təyin olundu. Almaniya hərəkət azadlığı məqsədilə 1933-cü il oktyabrın 19-da Millətlər Cəmiyyətindən çıxdı.

"Daues planı"na görə 6 il ərzində 21 milyard marka kredit almış Almaniya bunun sayəsində hərbi iqtisadi potensialını bərpa edib gücləndirdi. Hakimiyyət başına gələn alman nasional sosialistləri faşizmin ən irticaçı və təcavüzkar forması olaraq ABŞ və İngiltərənin köməyi ilə SSRİ-yə qarşı ardıcıl mübarizəyə başladı. 1919-cu ildə yaradılmış Alman Nasional Sosialist Fəhlə Partiyasının rəhbəri Adolf Hitler 1923-cu ildə həbsxanada yazdığı "Mənim mübarizəm" ("Mayn kampf") kitabında yazırdı: "Biz nasional-sosialistlər müharibədən əvvəlki xarici siyasətin istiqamətini şüurlu surətdə rədd edirik. Bu hərəkatı altı yüz il əvvəl dayandırılmış istiqamətdə təzələyirik. Biz Avropanın cənubuna, qərbinə almanların məlum hücumunu dayandırır və nəzərimizi Şərqdəki torpaqlara yönəldirik. Biz, nəhayət, müharibədən əvvəlki müstəmləkəçilik və ticarət siyasətini dayandıraraq gələcəyin ərazi siyasətinə keçirik. Lakin bu gün biz Avropada yeni torpaqlar barəsində danışırıqsa, birinci növbədə yalnız Rusiya və ona tabe olan sərhədlərdəki dövlətlər haqqında fikirləşə bilərik." Bunun ardınca Almaniyada açıq faşist (İtalyanca dəstə, birlik deməkdir) diktaturası yaradan A.Hitler ABŞ, İngiltərə və Fransanın yardımı ilə sözdən əməli fəaliyyətə keçdi. Almaniya bir tərəfdən silahlanır, digər tərəfdən ümumi hərbi mükəlləfiyyət tətbiq etməyə hazırlaşırdı.

Almaniyanı "sakitləşdirmək" tərəfdarları Qərb ölkələrinin xarici siyasətində əsas rol oynasa da 30-cu illərdə ABŞ, İngiltərə və Fransanın siyasətində dəyişiklik baş verdi və onlar SSRİ-yə Almaniya, İtaliya və Yaponiyanın dünya ağalığına qarşı dura bilən güc kimi baxmağa başladılar. Artıq 30-cu illərin birinci yarısında Sovet dövlətinin beynəlxalq nüfuzu xeyli möhkəmlənmişdir. Sovet xarici siyasətinin əsas məsələlərindən biri Sovet-Amerika nümasibətlərinin normal hala salınması idi. 16 il ərzində ABŞ hakim dairələri SSRİ-ni tanımamaq siyasəti yeritmişdilər. 1933-cu ilin əvvəllərində ABŞ-ın prezidenti seçilmiş F.Ruzvelt SSRİ ilə diplomatik münasibətləri yaratmaq yoluna qədəm qoydu. 1933-cü il oktyabrın 10-da F.Ruzvelt SSRİ MİK-in sədri M.İ.Kalininə məktubla müraciət etdi. Oktyabrın 19-da M.İ.Kalininin cavab məktubundan sonra iki ölkə nümyəndələri arasında danışıqlar başlandı. 1933-cü il noyabrın 16-da SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yaradıldı. Ruzvelt və Litvinov noyabrın 16-da bir-birinə göndərdikləri notalarda SSRİ-nin və ABŞ-ın hüququna hörmət etməyi və "bir-birinin daxili işlərinə hər hansı şəkildə qarışmamağı" qarşılıqlı surətdə vəd edirdilər.

1934-cü il sentyabın 15-də Millətlər Cəmiyyətinin üzvü olan 30 dövlət Sovet İttifaqına Millətlər Cəmiyyətinə daxil olması təklifi ilə müraciət etdilər. Sovet dövləti bu dəvəti qəbul etməyi qərara aldı, çünki belə hesab edirdi ki, Millətlər Cəmiyyəti bütün nöqsanlarına baxmayaraq, sülh aləti kimi müəyyən rol oynaya bilər, xüsusən ona görə ki, ən təcavüzkar dövlətlər olan Yaponiya və Almaniya 1933-cü ildə Millətlər Cəmiyyətindən çıxmışdılar. Sentyabrın 18-də bu məsələyə Millətlər Cəmiyyətinin iclasında baxıldı. 39 dövlət SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması, 3 dövlət yəni Hollandiya, Portuqaliya və İsveçrə əleyhinə səs verdi, 7 dövlət isə səsvermədə bitərəf qaldı. SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması beynəlxalq həyatda faşist təcavüzkarlarını narahat edən çox böyük hadisəyə çevrildi.

Faşist Almaniyasının təcavüzkarlığının getdikcə artdığını nəzərə alaraq Sovet dövləti Avropada kollektiv təhlükəsizlik sistemi yaradılması uğrunda mübarizəni gücləndirdi. 1933-cü ilin axırlarında Sovet hökuməti təklif etdi ki, Mərkəzi və Şərqi Avropa ölkələri Almaniya tərəfindən edilə biləcək hücumdan birgə müdafiə haqqında məhəlli Şərq paktı imzalasınlar. Şərqi Avropa Fransanın nüfuz dairəsinə daxil olduğu üçün Fransa bu təklifə tərəfdar çıxdı, həm də Hitler Almaniyasının törətdiyi təhlükənin artdığını bu ölkədə getdikcə daha çox başa düşürdülər. SSRİ-nin təklifini Fransa Xarici İşlər naziri L.Bartu xüsusilə fəal müdafiə etdi. 1934-cü ilin yayında Sovet-Fransa danışıqlarının nəticəsi olaraq SSRİ, Polşa, Çexoslovakiya,

Almaniya, Estoniya, Latviya, Litva və Finlandiya arasında Şərq paktı bağlamaq haqqında birgə təklif hazırlandı. Bu pakt sərhədlərin qarşılıqlı təminatını və hücuma məruz qalan ölkəyə kömək göstərilməsini nəzərdə tuturdu. Eyni zamanda Fransa və SSRİ təcavüz əleyhinə qarşılıqlı yardım haqqında da pakt imzalamalı idilər ki, bununla da Fransa Şərq Paktının zamini, SSRİ isə Lokarno sazişlərinin zamini olurdu.

1934-cü il sentyabrın 8-də Almaniya rəsmi surətdə bildirdi ki, o qarşılıqlı yardım haqqında paktın bağlanmasında iştirak etməyəcək. 1934-cü il sentyabrın 27-də Polşa hökuməti rəsmi surətdə bildirdi ki, əgər Almaniya Şərq paktında iştirak etməsə, Polşa da iştirak etməyəcək. Şərq paktının bağlanmasının fəal tərəfdarı olan Fransanın Xarici İşlər naziri L.Bartu 1934-cü ildə oktyabrın 9-da Marseldə Yuqoslaviya kralı Aleksandrla birlikdə Xorvat faşistləri tərəfindən qətlə yetirildi. Şərq paktı bağlamaq mümkün olmadığına görə SSRİ ilə Fransa öz aralarında qarşılıqlı yardım haqqında müqavilə bağlamaq qərarına gəldilər və həmin müqavilə 1935-ci il mayın 2-də Parisdə beş il müddətinə imzalandı.

Almaniya tərəfindən təhlükənin gücləndiyi bir şəraitdə Çexoslovakiya hökuməti də SSRİ ilə belə bir müqavilənin bağlanmasına hazır olduğunu bildirdi və bu müqavilə 1935-ci il mayın 16-da bağlandı. Çexoslovakiya hökumətinin təklifi ilə müqaviləyə belə bir maddə daxil edilmişdir ki, əgər SSRİ və ya Çexoslovakiya təcavüzə məruz qalarsa, ancaq Fransanın köməyi şərti ilə bu iki ölkə bir-birinə kömək edə bilərdi. SSRİ-Fransa müqaviləsi 1936-cı ilin fevralında təsdiq edildi.

Versal sülh müqaviləsinin şərtlərinə məhəl qoymayan Almaniya müharibəyə hazırlaşmaq məqsədilə silahlanmağa davam edirdi. 1935-ci ilin martın 9-da Almaniya hökuməti hərbi hava qüvvələri yaratmaq haqqında qərar qəbul etdi. Martın 16-da sıralarında 600 min əsgər və zabit olan 36 diviziya həcmində ümumi hərbi mükəlləfiyyət əsasında silahlı qüvvələrin bərpası haqqında qərar qəbul edildi. Almaniya quru qoşunları və hərbi aviasiya ilə bərabər həm də hərbi donanma yaratmaq məqsədilə 1935-ci ilin iyunun 18-də İngiltərə ilə hərbi dəniz sazişi imzaladı. Buna görə Almaniya İngiltərənin hərbi donanmasının 35% həcmində hərbi donanma, sualtı donanmasının 45 % həcmində sualtı donanma yaratmaq imkanı əldə etdi.

Avropada ikinci müharibə ocağı olan İtaliya Afrikada, Balkanlarda və Dünay hövzəsində ərazilər işğal etməyə səy göstərirdi. 1935-ci il oktyabrın 3-də İtaliya Həbəşistana qarşı müharibəyə başladı və 1936-cı ilin may ayında İtaliya Həbəşistanın işğal edilməsini başa çatdırdı. 1936-cı il mart ayının 7-də Avropanın birinci müharibə ocağı Almaniya Versal müqaviləsinin Reyn silahsız zonası ilə əlaqədar maddələrindən imtina edərək bura 30 min nəfərlik qoşun göndərdi. Almaniyanın Versal müqaviləsini və Lokarno sazişlərini pozması 1936-cı il martın 14-də Londonda Millətlər Cəmiyyəti Şurasının iclasında müzakirə edildi, lakin ona qarşı heç bir sanksiya tətbiq edilmədi.

1936-cı ilin fevral ayında İspaniyada keçirilən parlamet seçkilərində xalq cəbhəsi qalib gəldi və hökumət sülhsevər xarici siyasət və demokratik islahatlar həyata keçirtməyə başladı. Qərb dövlətlərinin köməyi ilə 1936-cı il iyulun 18-də Xalq Cəbhəsi hökumətinə qarşı silahlı qiyam təşkil olundu, avqust ayında isə Almaniya və İtaliya birbaşa İspaniya respublikasına qarşı hərbi əməliyyatlara başladı. İtaliya İspaniyaya 200 min, Almaniya isə 50 min nəfər qoşun göndərərək strateji dəniz yollarına nəzarəti ələ keçirtmək və Fransanı mühasirəyə almaq niyyətində idilər.

SSRİ İspaniya respublikasını müdafiə etməyi, Almaniya və İtaliyanın İspaniyaya qarşı hərbi müdaxiləsinin dayandırılmasını tələb edirdi. Sovet dövləti İspaniya respulikasına 85 milyon dollar kredit verdi, orduya kömək üçün 3000 nəfər mütəxəssis göndərildi. 54 ölkədən 50 min nəfər adam könüllü olaraq İspaniya respublikası tərəfindən müharibədə iştirak etdilər. Qüvvələr nisbətən qeyri-bərabər olduğu üçün 1939-cu il martın 6-da respublika hökuməti öz fəaliyyətini dayandırdı, martın 28-də qiyamçılar Madridə daxil oldu, İspaniya F.Franko diktaturası tərəfindən idarə edilməyə başlandı.

1936-cı il oktyabr ayının 25-də Berlində Almaniya ilə İtaliya arasında "Berlin- Roma oxu" adlanan saziş imzalandı. 1936-cı il noyabr ayının 25-də Berlin şəhərində Almaniya ilə Uzaq Şərqdəki müharibə ocağı olan Yaponiya arasında 5 il müddətinə "Antikominterin paktı"

imzalandı.

SSRİ eyni zamanda Uzaq Şərqdə təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tədbirlər gördü. 1935-ci ilin mart ayında Şərqi Çin dəmir yolu 140 milyon iyenə oyuncaq Mancyoy-Qo dövlətinə satıldı. 1934-cü ilin noyabrında SSRİ ilə Monqolustan arasında qarşılıqlı yardım haqqında saziş, 1936-cı il martın 12-də 10 il müddətinə qarşılıqlı yardım haqqında protokol imzalandı.

Uzaq Şərqdəki Yaponiya qoşunları 1937-ci ilin iyulunda Çində hərbi əməliyyatlara başlayaraq 1938-ci ilin payızında onun ərazisinin çox hissəsini işğal etdi. İşğalçılara qarşı mübarizədə Çin əhalisinə kömək edən SSRİ 1937-ci il avqustun 21-də onunla hücum etməmək haqqında müqavilə bağladı. Sovet dövləti Çinə 250 milyon dollar kredit verdi. 1938-ci ilin iyulunda Yaponiya bəzi strateji yerləri işğal etmək məqsədilə Xasan gölü rayonunda SSRİ ərazisinə hücum etdi. Avqust ayında Sovet qoşunları onları məğlub edərək ölkə ərazisindən qovdu. 1939-cu ilin mayında yaponlar Xalxin-Qol rayonunda Monqolustan ərazisinə hücum etdilər. SSRİ-nin və Monqolustanın qoşunları avqust ayının 20-dən 30-dək onları Monqolustan ərazisindən qovdular. 1939-cu il sentyabrın 15-də SSRİ ilə Yaponiya arasında Monqolustanda vəziyyətin dinc yolla nizama salınması barədə saziş imzalandı.

1937-ci ilin noyabr ayında İtaliya Millətlər Cəmiyyətindən çıxdı və “antikominterin paktına qoşuldu”. Bu pakta qoşulan dövlətlər kommunist beynəlmilərinin fəaliyyətinə qarşı birgə mübarizə aparmalı, SSRİ ilə bu pakta zidd olan saziş bağlamamalı idilər.

İşğalçılıq siyasətini genişləndirən faşist Almaniyası 1938-ci il martın 12-də Avstriya ərazisinə qoşun yeritdi, martın 13-də Avstriyanın Almaniyaya birləşdirilməsi rəsmən elan edildi. Faşist Almaniyasının təcavüzünün növbəti qurbanı Çexoslovakiyanın işğalı oldu. 1938-ci ilin 29-30 sentyabrında Münhendə Almaniya, İtaliya, Fansa və İngiltərənin hökumət başçılarının iştirakı ilə konfrans keçirildi və onun qərarı ilə Çexoslovakiyanın əhalisinin əksəriyyətinin almanlardan ibarət olan Sudet vilayəti Almaniyaya verildi. Bunun ardınca sentyabrın 30-da Almaniya ilə İngiltərə arasında hücum etməmək haqqında bəyannamə, dekabrda Parisdə Fransa ilə Almaniya arasında hücum etməmək haqqında müqavilə imzalandı. Bütün bu sövdələşmələr həm də SSRİ-yə qarşı yönəlmişdi, belə ki, ABŞ, İngiltərə və Fransa hesab edirdi ki, Almaniya Çexoslovakiyadan sonra Ukraniyaya hücum edəcək.

Lakin qərb dövlətləri tərəfindən şirnikləndirilən Almaniya 1939-cu il martın 15-də Çexoslovakiya ərazisinə qoşun yeritdi. Martın 16-da Bohemiya və Moraviya protekoratı hüququnda Çexoslovakiya Almaniyanın tərkibinə daxil edildi. 1939-cu il martın 22-də Almaniya ilə Litva arasında imzalanan sazişə əsasən Litvanın Klaypeda limanı Almaniyay verildi. 1939-cu ilin aprelində İtaliya qoşunları Albaniyanı işğal etdi. Aprelin 14-də Albaniya İtaliya Krallığının tərkibinə daxil edildi. 1939-cu il aprelin 28-də Almaniya İngiltərə ilə 1935-ci ildə bağladığı hərbi dəniz sazişini və hücum etməmək haqqında Polşa ilə 1934-cü ildə imzaladığı bəyənnaməni ləğv etdi. 1939-cu il mayın 22-də Almaniya İtaliya ilə “Polad paktı” adlanan hərbi-siyasi ittifaq müqaviləsi bağladı ki, buna görə hər iki dövlətin hərtərəfli əməkdaşlığı, xarici təhlükə vaxtı hərbi yardım və s. nəzərdə tutulurdu.

Avropada hərbi-siyasi böhranın dərinləşməsi, Almaniya və İtaliyanın təcavüzkarlığının genişləməsi İngiltərə və Fransanı SSRİ ilə danışıqlar aparmağa məcbur etdi. 1939-cu il avqustun 11-də onların nümayəndələri Moskvaya gəldi, lakin nümayəndə heyətinə ikinci dərəcəli hərbçilərin daxil edilməsi, onların hərbi saziş imzalamaq səlahiyyətinin olmaması göstərdi ki, İngiltərə və Fransa SSRİ ilə hərbi ittifaq bağlamaq fikrində deyil. 1939-cu il avqustun 15-də SSRİ qarşı tərəfə Avropada birgə əməliyyatların üç variantını təklif etdi. İngiltərə və Fransa SSRİ-nin təklif etdiyi plana münasibət bildirmədi və məlum oldu ki, müharibə təhlükəsinə qarşı mübarizədə onlar SSRİ ilə əməkdaşlıq etmək istəmirlər.

30-cu illərin sonunda beynəlxalq vəziyyətin gərginləşməsi şəraitində 1939-cu il avqustun əvvəlində Almaniya SSRİ-yə hücum etməmək haqqında müqavilə bağlamağı təklif etdi və Sovet hökuməti avqust ayının 20-də danışıqlar aparmaq məqsədilə Almaniyanın xarici işlər naziri Ribbentropun Moskvaya səfər etməsinə razı oldu. 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında 10 il müddətinə hücum etməmək haqqında müqavilə və bundan əlavə

gizli protokol imzalandı. Protokola görə Finlandiya, Latviya, Estoniya və Bessarabviya SSRİ-nin mənafe zonasına daxil edildi, Litva ərazisinin bir hissəsi Almaniyaya verilməli idi. Polşa ərazisi Visla, San və Narev çayları boyu SSRİ ilə Almaniya arasında bölünməli idi. 1939-cu il sentyabrın 28-də Moskvada SSRİ ilə Almaniya arasında dostluq və sərhədlər haqqında müqavilə imzalandı və Polşanın bölünməsi bir daha təsdiq edildi, Polşanın bir sıra rayonları əvəzində Litva SSRİ-nin nüfuz dairəsinə daxil edildi.

Dostluq və sərhədlər haqqında 28 sentyabr tarixli sovet-alman müqaviləsilə Almaniya və SSRİ rəsmi müttəfiq oldu. SSRİ Almaniyanın faktiki müttəfiqi kimi hələ 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumundan sonra sentyabrın 17-də azadlıq yürüşü adı altında Polşanın Şərq rayonları olan Qərbi Ukrayna və Qərbi Belarusiyaya qoşun yeridərək bu torpaqları öz ərazisinə qatmışdır.

1939-cu il 23 avqust müqaviləsinin gizli protokoluna əsasən Finlandiya SSRİ-nin nüfuz dairəsinə daxil olduğu üçün Sovet tərəfi öz sərhədlərinin təhlükəsizliyi adı altında qarşı tərəflə ərazi iddiası ilə danışıqlar aparsa da nəticə əldə edə bilmədi. Odur ki, SSRİ Finlandiyanın onun ərazisini top atəşinə tutması bəhanəsi ilə 1932-ci il hücum etməmək haqqında Sovet-Fin paktını ləğv edərək, 1939-cu il noyabrın 30-da müharibəyə başladı. Fin ordusunu darmadağın edərək xalqı mülkədar və kapitalistlərin istismarçı zülmündən azad etmək əmri alan sovet ordusunun Leninqrad cəbhəsinin qoşunları sərhəddi keçdi, təyyarələr Helsinkini bombaladı. Sovet İttifaqı siyasi manevr edərək 1921-ci ildən Moskvada Kominternin aparatında işləyən fin kommunist partiyasının rəhbərlərindən biri Otto Vilhelmoviç Kuusinenin (1881-1964) başçılığı ilə Finlandiya "Xalq hökumətinin" yarandığını bəyan etdi, hökumət isə öz növbəsində fin xalqını Qızıl Ordunu azadlıq ordusu kimi qəbul etməyə çağırdı. Almaniya bu müharibədə Stalini açıq müdafiə etdi, Fransa və İngiltərə isə öz qəti etirazını bildirdi. Dekabrın 14-də Fransanın təklifi ilə SSRİ "təcavüzkar" ölkə kimi Millətlər Cəmiyyətindən qovuldu, Avropa Hitlerlə Stalin arasında bərabərlik işarəsi qoydu.

Canlı və hərbi texnika cəhətdən qat-qat düşməndən üstün olan Sovet qoşunları fin ordusunun ciddi müqavimətilə üzləşdi, ağır qanlı döyüşlər başladı. Finlərin ciddi müqaviməti Stalinin qısa bir vaxtda müharibəni başa çatdırmaq planını pozdu, bütün dünya şahid oldu ki, Qızıl Ordu müasir müharibə aparmaq bacarığına malik deyil. Odur ki, 1939-cu il dekabrın axırında Baş Qərargah komandanlığı müharibəyə daha yaxşı hazırlaşmaq məqsədilə hərbi əməliyyatları dayandırdı. Fin cəbhəsində 21 diviziya ilə hərbi əməliyyatlara başlayan sovet tərəfi onların sayını 58-ə çatdıraraq üçqat üstünlük əldə etdi. Cəbhəyə əlavə ağır texnika və təyyarələr cəlb edildi. Fevralın 11-də Sovet qoşunları güclü top atəşindən sonra hücuma keçərək fin qoşunlarının müqavimətini qırdı. 1940-cı il martın 12-dən 13-nə keçən gecə Moskvada SSRİ ilə Finlandiya arasında sülh müqaviləsi imzalandı. Sovet İttifaqı istədiyi ərazini aldı, sərhəd 150 km Finlandiyanın içərilərinə çəkildi. Xanko adası hərbi-dəniz bazası olaraq SSRİ-yə icarəyə verildi. Finlandiyadan alınan ərazinin hesabına martın 31-də Karel-Fin Sovet Sosialist Respublikası təşkil olundu. Fin əsgəri öz vətənini müdafiə edirdi. Qızıl Ordu əsgərləri isə nə uğrunda vuruşduqlarını axıra qədər başa düşmürdülər. 1940-cı ildə rəsmi elan olundu ki, Finlandiya ilə müharibədə Qızıl Ordu 48 min nəfər əsgər və zabit itirmişdir. Bu günkü yeni məlumatlar isə 130 min nəfərin öldüyünü təsdiq edir. Fin ordusu 6 dəfə az, cəmi 23 min nəfər itirmişdir. Finlandiya Sovet İttifaqına 5572 nəfər hərbi əsir qaytarmışdır ki, onların da 350 nəfəri hərbi tribunal tərəfindən güllələnməyə, 4354 nəfəri isə dörd ildən səkkiz ilə kimi həbs cəzasına məhkum edilmişdir. 180 nəfər sovet əsgər və zabiti SSRİ-yə qayıtmaqdan imtina etmişdir. Sovet əsirliyində cəmi min nəfər fin əsgər və zabiti olmuşdur.

Fin kampaniyası göstərdi ki, sovet silahlı qüvvələri ciddi hərbi münaqişəyə hazır deyildir. Lakin buna baxmayaraq İ.V.Stalin fin müharibəsini qələbə kimi xarakterizə etdi. Əgər sovet partiya və dövlət rəhbərliyi və şəxsən İ.Stalin bu müharibədən lazımi nəticə çıxara bilsə idi, Böyük Vətən müharibəsinin başlanğıcında bir çox uğursuzluqlardan qaçmaq mümkün olardı. O.Kuusinen "hökuməti" buraxıldı, K.Y.Voroşilovun yerinə S.K.Timoşenko yeni müdafiə naziri təyin olundu. 1939-1940-cı il hərbi münaqişəsi iki ölkə arasındakı münasibətləri pozdu, 1941-ci ilin iyununda Finlandiya Almaniya tərəfində yer aldı.

1939-cu il sentyabrın sonu oktyabrın əvvəlində SSRİ-nin təkidi ilə Baltikyanı respublikalar onunla 10 il müddətinə qarşılıqlı yardım haqqında pakt imzaladı. Baltikyanı respublikalar ərazisində sovet hərbi baza və aerodromları salındı, bura "məhdud sayda" sovet qoşunları yerləşdirildi. Belə bir şəraitdə Baltikyanı ölkələrdə "sol" qüvvələr, xüsusilə kommunistlər fəallaşdılar. 1940-cı il iyunun 17-də bura yeni sovet qoşun hissələri yeridildi. Baltikyanı ölkələrin hökumətləri istefaya getməyə məcbur oldu. İyulun 14-25-də Estoniya, Latviya və Litvada qanunvericilik orqanlarına seçki "tamaşası" təşkil olundu, SSRİ-nin diktəsilə 1940-cı il 21-22 iyulda yeni "seçilən" qanunverici orqanlar Latviya, Litva və Estoniya SSR-nin yarandığını bəyan edərək onları SSRİ-nin tərkibinə daxil etməyi təklif etdilər. 1940-cı il avqust ayının 3-5-də SSRİ Ali Sovetinin VII sessiyası bu təklifi yerinə yetirdi. SSRİ tərəfindən Baltikyanı ölkələrdə Sovet hakimiyyətinin bərqərar olması mülkədar, burjuaziya və varlı kəndlilərin əmlakının müsadirə edilməsi, müəssisələrin milliləşdirilməsi və kütləvi repressiyalarla müşayiət olunurdu. Hər üç Baltikyanı respublikadan 50 min nəfərdən artıq əhali Sibirə sürgün edilmişdir ki, onların da çoxu amansız münasibət və sərt iqlim şəraitində məhv olmuşdur.

1940-cı ilin iyununda sovet silahlı qüvvələri 1918-ci ildə Rumıniya tərəfindən Rusiyadan alınan Bessarabiya ərazisinə daxil oldular. Bessarabiya Ukrayna SSR-dən ayrılan Sovet Moldovası ilə birlikdə Moldova SSR-ni təşkil etdi. Eyni zamanda Şimali Bukovina (Çernovits əyaləti) sovet-alman gizli protokolunda Sovet nüfuz dairəsinə daxil edilməməsinə baxmayaraq Ukraynanın tərkibinə ilhaq edildi, bu da Almaniyanın ciddi narazılığına səbəb oldu. Beləliklə, 1939-1940-cı illərdə SSRİ hələ inqilaba kimi Rusiya imperiyasının ərazisinə daxil olan torpaqları zor gücünə öz dövlətinə qatdı. Bu faktı nəzərə alan bir çox xarici və yerli tarixçilər belə hesab edir ki, SSRİ 1941-ci ildə deyil, məhz 1939-cu ildə Hitler Almaniyası tərəfində İkinci Dünya müharibəsinə daxil olmuşdur.

## 1917-1940-cı illərdə Sovet mədəniyyəti

***Savadsızlığın ləğv edilməsi. Məktəb.*** Oktyabrdan sonrakı illərdə həyata keçirilən dəyişikliyin əsas tərkib hissələrindən birini mədəniyyət sahəsindəki "mədəni inqilab" təşkil edir. Bunlar təhsil, elm, texnika, ədəbiyyat, incəsənəti əhatə etməklə cəmiyyətin bütün mənəvi həyatına nüfuz etmişdir. Mədəniyyət sahəsindəki dəyişikliklərin istiqamət və xarakteri yeni, sosialist bədii mədəniyyətin formalaşdırılması ilə müəyyən olunmuşdur. Ölkənin partiya və dövlət rəhbərliyi bu vəzifənin həyata keçirilməsini sosialist cəmiyyətinin qurulması ilə bağlayırdı.

Sovet dövlətinin qarşısında duran birinci dərəcəli vəzifə əhalinin geri qalan mədəni səviyyəsini aradan qaldırmaq idi. Belə ki, 1897-ci ildəki əhalinin siyahıyaalınmasının məlumatına görə Rusiya əhalisinin yalnız 22,3 faizi oxuyub yaza bilirdi. Bu göstərici 1917-ci ildə bir qədər artsa da əhalinin əsas hissəsi savadsız olaraq qalırdı. Sovet hakimiyyəti isə mətbuat vasitəsilə öz ideya və görüşlərini yaymaqda maraqlı idi. Mənəvi həyata rəhbərlik RK (b) P-nin görkəmli xadimi, ədəbiyyat tənqidçisi və publisist A.V.Lunaçarskinin sədrliyi ilə Xalq Maarif Komissarlığına tapşırıldı. Yerli sovetlərin nəzdində xalq təhsili şöbələri yaradıldı. Tezliklə RK (b) P MK-nın təbliğat-təşviqat şöbəsi yaradıldı və bunun sayəsində mədəniyyətin inkişafı partiya rəhbərliyinin nəzarətinə keçmiş oldu.

1919-cu ilin sonunda Sovet hökuməti "Rusiya əhalisi arasında savadsızlığın ləğv edilməsi haqqında" dekret imzaladı. Bütün savadsız yaşlı əhali üçün icbari təhsil elan edildi. İnqilabi ideyalarla süslənmiş yeni əlifba və vəsaitlər nəşr edildi, xüsusi savadsızlığın ləğv edilməsi məktəbləri (likbez) təsis edildi. Savadlı vətəndaşlar məcburi əmək mükəlləfiyyəti çərçivəsində savadsızlarla təhsil işinə cəlb olundu. Kənd yerlərində çox halda böyüklər uşaqlarla birgə oxuyurdular. Vətəndaş müharibəsi dövründə ölkədə 7 milyon nəfər əhaliyə savad öyrədildi. 1920-ci ildə Rusiyada hər min nəfər əhaliyə 319 nəfər savadlı adam düşürdü. Belə ki, V.İ.Leninin imzaladığı hökumət dekretində oxuyub-yaza bilməyən 8 yaşından 50 yaşınadək bütün əhali doğma və ya rus dilində təhsil almağa borclu idi. Bundan yayınanlar cinayət məsuliyyətinə belə cəlb oluna bilərdilər.

Savadsızlığın ləğv edilməsində yeni yaradılan savadsızlığın ləğvi üzrə Ümumrusiya fövqəladə komissiyası mühüm rol oynadı. Xalq Maarif Komissarlığı ilə birlikdə onlar ölkə əhalisinə savad öyrətmək fəaliyyətini daha da genişləndirdilər. Lakin maliyyə vəsaitinin qıtlığı, maddı bazanın zəifliyi və pedaqoji kadrların çatışmazlığı bu işi mürəkkəbləşdirdi. Belə şəraitdə savadsızlıqla mübarizədə ictimai təşkilatlar mühüm rol oynamağa başladılar. 1923-cü ilin payızında M.İ.Kalininin sədrliyi ilə Ümumrusiya könüllülər cəmiyyəti olan "Rədd olsun savadsızlıq" birliyi yarandı. Sovet mədəniyyətinin görkəmli nümayəndələri A.V.Lunaçarski, M.N.Pokrovski və b. cəmiyyətin işində yaxından iştirak edərək minlərlə savadsızlığın ləğvi məntəqələri və məktəblərinin açılmasına kömək etdilər. Kəndin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə 1,2 milyon nəfərdən çox adam şəhər hamilik təşkilatlarında birləşmişdi.

Məktəblərin təşkil olunması prinsip etibarı ilə dəyişdi və xalq maarifi sistemi yenidən quruldu. Gimnaziyalar, realnı məktəbləri, məhəllə-kilsə və zemstvo məktəbləri ləğv edildi. Onların yerinə hər biri beş və dörd il olmaqla bütün ölkə üçün iki dərəcəli əmək məktəbləri yaradıldı və təhsil haqqı ləğv edildi. Oğlan və qızların birlikdə oxuduğu məktəbin işinə komsomola tabe olan şagird komitələri (uçkomı) rəhbərlik edirdi. Məktəbin vəzifəsi son məqsəd olaraq kommunizm quran nəsillər tərbiyə etmək idi. Təhsilin ideologiyalaşdırılmasının artmasının bərqərar olması isə bilavasitə bu siyasətin nəticəsi idi. 1923-24-cü tədris ili məktəbin həyatında dönüş ili oldu. Bu vaxtdan etibarən ümumtəhsil məktəblərinin şəbəkəsi və şagird kontingenti artdı. Belə ki, 1914-cü ildə ölkənin ibtidai və orta məktəblərində oxuyan 7,8 milyon şagirdə qarşı, 1925-26-cı tədris ilində 10 milyon uşaq ibtidai və orta məktəblərdə təhsil alırdı. 1926-cı ildəki əhalinin ümumittifaq siyahıyaalınması məlumatına əsasən ölkədə 9 yaşından yuxarı əhalinin 51,1 faizi savadlı idi. 1897-ci ildə isə bu göstərici yalnız 24 faiz təşkil edirdi. Şəhərlə kənd əhalisi arasında olan savad fərqi xeyli azaldı. 1927-ci ildə isə uşaqların 70%-i ibtidai məktəblərə cəlb edilmişdir. 1926-cı il siyahıyaalma məlumatına əsasən 9 yaşından yuxarı olan əhali arasında savadlılar RSFSR-də 55, Ukrayna SSR-də 57,5, Belarusiya SSR-də isə 53,1% təşkil edirdi. Artıq 1932-ci ildə SSRİ-nin yaşlı əhalisinin böyük əksəriyyəti oxuyub-yazmaq öyrənmişdir.

Savadsızlığın kütləvi surətdə ləğv edilməsi icbari ümumtəhsillə sıx bağlı idi. Bu məqsədlə 1930-31-ci dərs ilindən başlayaraq bütün ölkədə icbari dördillik ibtidai təhsil tətbiq olundu. 1929-cu uldə Xalq Maarif Komissarı A.V.Lunaçarskini publisist, hərbi-nəzəri, partiya tarixi və maarif məsələləri üzrə əsərlərin müəllifi A.S.Bubnov əvəz etdi (1929-1937). 1931-ci ilin əvvəllərində dördillik məktəblərdə 14 milyon nəfər şagird və 60 min nəfər yeni müəllim fəaliyyət göstərirdi. 1932-ci ilin sonunda SSRİ-də icbari ibtidai təhsilin tətbiqi məsələsi əsasən həll edildi, belə ki, 8 yaşından 11 yaşına kimi olan uşaqların 98%-i ibtidai məktəblərə cəlb edildi. Təkcə şagird və müəllimlərin sayı deyil tədrisin məzmunu da dəyişdi. 1932-ci il avqustun 25-də "Tədris proqramları və ibtidai orta məktəblərdə iş rejimi haqqında" qətnamə elan olundu. Məktəblərdə dərslərin keçirilməsinin daimi cədvəli, məktəblilərin tədris və ictimai işinin bərabər bölgüsü, daxili qayda-qanunun bərqərar olmasının müəyyən edilməsi qətnamədə öz əksini tapdı. Tədrisin təşkilinin əsas forması əvvəlki "briqada-laborator" metodundan fərqli olaraq dərs elan olundu. Xalq Maarif Komissarlığı kütləvi nəşirlərlə sabit dərslik və dərs vəsaitləri çap etdirərək məktəblərə göndərirdi. Məktəblər üçün çap edilən proqramlar yenidən işlənərək şagirdlərə elmin əsaslarını daha dərindən öyrətmək məqsədilə təhsilin istehsalata yaxınlaşdırılması nəzərdə tutulurdu. Bir çox fənnlərin tədris proqramlarının məzmunu dəyişdi. 1934-cü ildə ÜİK (b) P MK və XKS "SSRİ məktəblərində vətəndaş tarixinin tədris edilməsi haqqında" qərar qəbul etdi. Məktəblərdə əvvəllər "marksizm əsasları" və sosioloji sxem üzrə öyrədilən dərsləri tarixi faktlar əsasında keçilməsi irəli sürüldü. Bu hər şeydən əvvəl ideoloji dəyişikliklə əlaqədar olub Rusiyanın keçmişini nihilizm əsasında öyrənməkdən imtina edilməsi və onu "böyük dövlət" kursu əsasında tədris edilməsinə başlamaq məqsədi daşıyırdı.

20-30-cu illərin əvvəllərində SSRİ ərazisində yaşayan türk dilli və bəzi başqa xalqların latın əlifbasına keçməsi bu xalqlar arasında savadsızlığın ləğv edilməsində mühüm rol oynadı. Lakin tədricən bu milli respublikaların əhalisinin bir tərəfdən dil və mədəni cəhətdən rus

mədəniyyətindən ayrı düşməsinə, başqa bir tərəfdən isə tədrisin mürəkkəbləşməsinə səbəb olurdu. Odur ki, rus yazı qrafikasına keçilməsi tələb olunurdu. 1935-ci ildə birinci olaraq kabardinlər rus əlifbasını qəbul etdilər. 1937-ci ildə isə Şimalın kiçik xalqları və Dağıstan əhalisi yeni rus əlifbasına keçdilər. 1937-1940-cı illərdə isə Orta Asiya, Orta Volqa və Azərbaycan əhalisi yeni rus əlifbasına keçdilər.

1936-cı il yanvarın 16-da Sovet dövləti "Savadsız və azsavadlıların təhsil alması işi haqqında" qətnamə qəbul etdi. Bu sənədə əsasən savadlanma uğrunda mübarizə dövlətin iştirakı ilə 1936-1937-ci illərdə başa çatmalı idi. Ölkəni başdan-başa savadlılar diyarına çevirmək arzusu yerinə yetirildi. Təkcə birinci və ikinci beşillik illərində 40 milyon yaşlı əhaliyə savad öyrədildi. 1939-cu il yanvarın 17-də əhalinin ümumittifaq siyahıyaalınması məlumatına əsasən 9 yaşından yuxarı ölkə əhalisinin 81,2 faizi, o cümlədən kişilərin 90,8, qadınların 72,6 faizi savadlı idi. Bu o deməkdir ki, 30-cu illərin sonunda SSRİ-də savadsızlıq əsasən ləğv olunmuşdur.

1930-cu illərin ikinci yarısında SSRİ-də ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi əsasən başa çatdı. 8-9 yaşlı uşaqların əsasən hamısı məktəblərdə təhsil alırdı. Milyonlarla uşağın oxuması üçün yeni məktəb binaları tələb olunurdu. Bu məqsədlə ikinci beşillik illərində 19 min məktəb binası tikildi ki, burada da 5,3 milyon şagird oxuyurdu. 1937-ci ildə ibtidai və orta məktəblər üçün 277 milyon nüsxə dərslik və dərs vəsaiti nəşr edilmişdir. Məktəblərin dərslik və dərs vəsaiti ilə təmin edilməsində Q.M.Krjijanovski, E.V.Britske, A.D.Arxanqelski və b. mühüm rol oynadılar.

Ümumtəhsilin həyata keçirilməsi çoxlu sayda müəllim kadrlarının hazırlanmasını tələb edirdi. 1934-cü ildə RSFSR məktəblərində 100 min nəfər müəllim çatışmırdı. İbtidai məktəblər üçün isə 40 min nəfər müəllimə ehtiyac var idi. Bu ehtiyacı ödəmək üçün 1934-cü ildə yedillik məktəblər üçün pedaqoji kadrlar hazırlamaq məqsədilə ikiillik müəllimlər institutları yaradıldı. 1933-1937-ci illərdə pedaqoji tədris müəssisələrinin şəbəkəsi ikiqat artırıldı. Bunun sayəsində pedaqoqların sayı dörd dəfədən də çox artdı.

***Ali təhsil.*** Ali təhsil sahəsində vəziyyət mürəkkəb idi. Köhnə ziyalılara şübhə ilə yanaşan Sovet hakimiyyəti ictimai mənşəyi fəhlə və kəndlilərə dayanan öz zəhmətkeş ziyalılarını formalaşdırmağa çalışırdı. Bu məqsədlə ali məktəblərə yeni qəbul qaydaları tətbiq edildi. Tələbə sıralarına qəbul imtahansız və orta məktəbi bitirmək haqqında sənəd olmadan aparılırdı. Fəhlə və kəndlilərin içərisindən çıxan gənclərə ali məktəblərə qəbul edilərkən üstünlük verilirdi. Burjuaziya, ziyalılar və qulluqçuları təmsil edən gənclər bir neçə il iş stajı olduqdan sonra ali məktəbə qəbul ola bilərdilər. Əslində bu Sovet hakimiyyətinin ali məktəblərə sinfi nöqteyi-nəzərdən yanaşması idi.

1919-cu ildə ali məktəblərə daxil olanların ümumtəhsil səviyyəsini yüksəltmək məqsədilə fəhlə fakültələri (rabfak) yaradıldı. Məhz bu fakültələr tələblərin sosial tərkibinin fəhlə və kəndlilərin hesabına dəyişilməsinə səbəb oldu. 1921-ci ilin iyununda Moskvada ali məktəblərin nəzdində fəaliyyət göstərən fəhlə fakültələrinin I Ümumrusiya qurultayı keçirildi. Qurultayın işi göstərdi ki, fəhlə fakültələri bütün ölkə üzrə yayılmışdır. Artıq 1921-ci ilin yazında fəhlə fakültələrinin 25 min nəfər dinləyicisi var idi. 1925-26-cı dərs ilində isə fəhlə fakültələrində 57 min nəfər gənc təhsil alırdı. Bu isə o deməkdir ki, fəhlə və kəndliləri təmsil edən sovet ziyalılarının birinci nəslini məhz fəhlə fakültələri hazırlamışdır.

Ali məktəblərin işinə sinfi nöqteyi-nəzərdən yanaşan Sovet hakimiyyəti bu məktəblərdə burjua təbliğatının qarşısını almaq məqsədilə bir sıra tədbirlər gördü. 1921-ci ildə Sovet dövləti özünün marksist kadrların hazırlamaq üçün Qırmızı Professorlar İnstitutunu yaratdı. 1924-cü ildə institutun birinci buraxılışının məzunları içərisində görkəmli tarixçilər A.V.Şestakov, İ.M.Pankratova, M.V.Neçkina və b. olmuşdur. Ali məktəblərin işini yenidən qurmaq üçün 1918-ci ildə birinci sovet Ali məktəb Nizamnaməsi qəbul olundu ki, bunu da XKS 1921-ci il sentyabrın 2-də təsdiq etdi. Mütəxəssis kadrların hazırlanması, elmi-tədqiqat işlərinin aparılması, elmi biliklərin zəhmətkeşlərin arasında yayılması kimi üç əsas vəzifə müəyyən edildi. Nizamnamədə ali məktəblərin demokratikləşdirilməsindən söhbət getsə də əslində əvvəllər mövcud olan rektorların və ali məktəbin idarə heyətinin seçkili olması yerinə onların

təyin edilməsinə keçilməsi bunun əksini nümayiş etdirirdi. Buna qarşı hətta 1921-ci ilin yazında MATU-də, 1922-ci ilin yazında isə Moskva Universitetində professor-müəllimlər tətil belə etdilər. Professor-müəllim heyətinin bir sıra qanuni tələbləri yerinə yetirildi. Professional-texniki təhsilin Baş idarəsinin sədri Y.Preobrajenski tutduğu vəzifədən azad edildi. 1914-cü ildə Rusiyanın 91 ali məktəbində 112 min tələbə təhsil aldığı halda, 1925-ci ilin sonunda Sovet İttifaqında 145 ali məktəb var idi ki, burda da 167 min nəfər tələbə təhsil alırdı. Buna baxmayaraq, ölkənin mütəxəssi kadrlara ehtiyacı çox idi. Tələbatı ödəmək məqsədilə istehsalatdan ayrılmadan təhsil almaq üçün ali və orta ixtisas məktəblərinin axşam və qiyabi şöbələri açıldı və inkişaf etməyə başladı. Sənayeyə rəhbər kadrlar hazırlamaq məqsədilə 1927-28-ci ildə prinsipcə yeni məzmun kəsb edən Sənaye akademiyası təşkil olundu.

1932-ci il sentyabrın 19-da SSRİ MİK-si "Ali məktəb və texnikumlarda tədris proqramları və iş rejimi haqqında" qətnamə qəbul etdi. Qətnaməyə əsasən tələbələrin fərdi məsuliyyətini kəskin surətdə aşağı salan briqada-laborator metodu ləğv edildi. Tədris prossesində tələbələrin müstəqil işi mühazirə kurslarının təşkili ilə əlaqələndirildi, ali məktəblərə qəbul zamanı əsas fənnlərdən sınaqların keçirilməsi bərpa edildi. Ölkə üzrə ali məktəbin coğrafiyası dəyişdi. Çar Rusiyasında əsasən mərkəzi rus şəhərləri olan yerlərdə 20 ali məktəb müəssisəsi olduğu halda, 30-cu illərin ikinci yarısında SSRİ-nin 100 şəhərində universitet və institutlar fəaliyyət göstərirdi. Ali məktəblərin kontingenti və şəbəkəsi artdığı, iş yükü mürəkkəbləşdiyi üçün 1936-cı ildə SSRİ XKS-nin nəzdində İ.İ.Mejlaukın sədrliyi ilə Ali məktəblərin işi üzrə Ümumittifaq Komitəsi yaradıldı. Humanitar sahələr üzrə mütəxəssislər hazırlanmasını genişləndirmək üçün 1934-cü il sentyabrın 1-dən Moskva və Leninqrad universitetlərinin tarix fakültələri bərpa edildi. Bunların ardından Tomsk, Kazan, Rostov və Saratovda tarix fakültələri fəaliyyətə başladı. Sovet ali məktəbinin inkişafında Moskva Dövlət Universiteti mühüm rol oynadı. 1938-ci ildə ölkənin 23 universitetində və 126 fakültəsində 47705 tələbə təhsil alırdı. Sovet ali məktəbləri təkcə ikinci beşillik illərində 370 min mütəxəssis hazırlamışdır. 1928-1937-ci illərdə ölkənin ali məktəb və texnikumları 2 mln yaxın mütəxəssis hazırlamışdır. Ali məktəblər üçün müəllim və elmi kadrlar XKS-nin 1934-cü il yanvarın 13-də elan etdiyi qərara əsasən həm ali məktəblərin özündə, həm də elmi-tədqiqat institutlarında hazırlanırdı. Elmi idarələrin və ali məktəblərin işçiləri üçün elmi adlar və vəzifələr müəyyən edildi. Artıq 1934-cü ilin sonunda ali məktəblərdə, qırmızı professorlar və marksizm-leninizm institutlarında 9400 aspirant hazırlanırdı. Bütün bunlar sovet ziyalılarının formalaşmasının əsas mənbəyləri idi. 1936-cı il yanvar ayının 1-də SSRİ-də 2500 professor, 3800 dosent, 1800 elmlər doktoru və 3000 elmlər namizədi var idi.

***Sovet elmi 1920-30-cu illərdə.*** Köhnə burjua mütəxəssislərinin bir hissəsi hələ vətəndaş müharibəsi illərində sosializm quruculuğu işinə qoşuldu. Tədricən V.İ.Leninin 1920-ci ilin martında dediyi elmin nümayəndələri ilə proletariatın yaxınlaşması baş verirdi. Akademiklər T.P.Lazarev və A.E.Fersman, görkəmli elektrotexniklər İ.Q.Aleksandrov və Q.O.Qraftio, tanınmış geoloq və kimyaçılar İ.M.Qubkin və V.N.İpatyev, kənd təsərrüfatı elmləri üzrə mütəxəssislər V.P.Vilyams və D.N.Pryanişnikov və b. Dövlət Plan Komitəsinin işində fəal iştirak edirdilər. Aviasiya elminin inkişafında Mərkəzi aerohidrodinamik institut (MAHİ) mühüm rol oynayırdı. 1921-ci ilin martında bu institutun təməlini qoyan, "rus aviasiyasının atası" N.E.Jukovskinin ölmündən sonra ona istedadlı alim S.A.Çaplıgin rəhbərlik etməyə başladı. 1922-ci ilin mayında A.N.Tupolevin konstruksiyası əsasında ilk sovet monoplan təyyarəsi sınaqdan keçdi, iki ildən sonra isə ANT-2 təyyarəsi hazırlandı.

1922-ci ildən görkəmli alim D.N.Pryanişnikovun rəhbərlik etdiyi K.A.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyası bitkiçilik və aqrokimya sahəsində mühüm nəticələr əldə etdi. Yeni bitki və meyvə növlərinin yetişdirilməsində İ.V.Miçurinin təcrübələri geniş şöhrət qazanmışdır. 1921-ci ildə Elmlər Akademiyasının tərkibində Fizika-riyaziyyat və Fizika-texniki institutları meydana gəldi. Akademik A.F.İoffenin rəhbərlik etdiyi Fizika-texniki institutunda İ.V.Kurçatov, N.N.Semyonov, D.V.Skobeltsın kimi gələcəyin alimləri elmi tədqiqat işlərinə başladılar. 1921-1925-ci illərdə aparılan geoloji tədqiqatlar ölkədə küllü miqdarda kömür, neft, dəmir, əlvan metal, marqans və fosfat ehtiyatları aşkar etdi.

Artıq 1925-ci ildə Elmlər Akademiyasının 200 illik yubileyi ərəfəsində onun tərkibində 40 elmi müəssisə var idi ki, burada da min nəfərdən çox əməkdaş çalışırdı ki, onların da 42 nəfəri akademiyanın həqiqi üzvü idi. Yubley ərəfəsində SSRİ MİK və XKS "Rusiya Akademiyasının SSRİ ali elmi-tədqiqat müəssisəsi hesab edilməsi haqqında" verdiyi qərarla SSRİ Elmlər Akademiyası ümumittifaq elm mərkəzinə çevrildi. SSRİ EA-nin ilk prezidentləri görkəmli alim və təşkilatçılar A.P.Karpinski (1917-1936) və V.L.Komarov (1936-1945) olmuşdur. 1924-1925-ci illərdə RSFSR Xalq Maarif Komissarlığının idarəsində 103 elmi müəssisə və 232 elmi cəmiyyət fəaliyyət göstərirdi.

1919-cu ildə yaradılmış Ukrayna Elmlər Akademiyasında mikrobiologiya sahəsində adı ölkəsinin sərhədlərindən uzaqlarda məşhur olan D.K.Zabolotno kimi alimlər işləyirdi. Akademiyanın prezidenti akademik V.İ.Lipski ölkəsinin florasının öyrənilməsi sahəsində, kimyaçı alim S.N.Reformatski kimya elmi sahəsində mühüm nəticələr əldə etmişlər. Belarusiyada bataqlıqların qurudulması aktual olduğu üçün Universitet kafedralarında aqrokimya, torf kimyası, meliorasiya problemləri, respublikanın bitki örtüyü və s. məsələlər tədqiq olunurdu. Humanitar elmlər sahəsində əsas məqsəd marksizmə dair tədqiqatları genişləndirmək idi. Bu istiqamətdə əsas işi M.N.Pokrovski, A.D.Udaltsov, V.P.Milyutin kimi alimlərin öncüllük etdiyi Kommunist Akademiyası həyata keçirirdi (1924-cü ilə kimi Sosialist). İctimai elmlər sahəsində tədqiqatlar həm də Qırmızı professorlar, ali məktəblərin ictimai elmlər fakültələrində aparılırdı. Marksist təbliğata geniş yer verən Sovet dövləti 1920-ci ildə K.Marks və F.Engels İnstitutu yaratdı. 1931-ci ildə hər iki institut birləşib vahid Marks-Engels-Lenin İnstitutu oldu.

1928-ci ildə görkəmli alim S.V.Lebedev etil spirtindən orjinal yolla sintetik kauçuk aldı. S.V.Lebedevin kəşfi, A.E.Favorski, B.V.Bızovun əsərləri sənayedə yeni sahə olan sintetik kauçukun elmi əsasını qoydu. Gənc alim D.V.Skobeltsın kosmik şüanın müəyyən edilməsi metodunu, fizik D.D.İvanenko atom nüvəsinin proton və neytronlardan ibarət olması nəzəriyyəsini, professor N.N.Semyonov zəncirvari reaksiyalar nəzəriyyəsini işləyib hazırladılar. K.E.Siolkovskinin 1927-ci ildə yazdığı "Kosmik raket", 1930-cu ildə yazdığı "Reaktiv aeroplan" və s. əsərləri kosmosun fəth edilməsinin nəzəri problemlərinin öyrənilməsinə həsr olunmuşdur.

1929-cu ildə 12 institutu birləşdirən V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyası yarandı ki, onun da prezidenti görkəmli genetik, bitkişünas alim N.İ.Vavilov (1899-1943-cü illər) təyin edildi. Genetika sahəsində S.S.Çetverikov, N.K.Koltsov, M.M.Zavadovski kimi böyük alimlər çalışırdı. 30-cu illərdə biologiya sahəsində T.D.Lısenkonun yüksəlişi başlayır ki, o da genlərin mövcudluğunu inkar edərək irsiyyətdə qazanılmış əlamətlərə üstünlük verirdi. Hətta öz təcrübələrinin nəticələrini belə saxtalaşdıran T.D.Lısenko heç bir əsasa söykənməyən vədlərlə hakimiyyətin köməyini qazanaraq 1938-ci ildə ÜKTEA-nın prezidenti oldu. Genetik alimlər üzərinə hücum edən T.Lısenko onları siyasi səbatsızlıqda belə günahlandırdı. Bütün bu böhtan və yalan ifadələr sayəsində bioloq alimlərin bir çoxu repressiyaya məruz qaldı, akademik N.İ.Vavilov Sovet inzibati orqanları tərəfindən 1940-cı ildə həbs olundu və böyük vətənpərvər alim 1943-cü ildə həbsxanada dünyasını dəyişdi.

İctimai elmlər ideologiyasının ciddi məngənəsində sıxılmaqda davam edirdi. Marksizm ağalıq edən yeganə metodologiya idi. Marksist olmayan alimlər ya Rusiyanı tərk etmiş, ya da mətbuatda və ya universitet kafedralarında öz görüşlərini izah etməkdən məhrum idilər. Tarix elmi sahəsində Oktyabra kimi iş stajı olan professional tarixçilər içərisində yeganə marksist olan M.N.Pokrovskinin ağalığı davam edirdi. O, öz əsərlərində o zamanki ideoloji tələbata uyğun olaraq Oktyabra qədərki Rusiyanın geriliyini həddən ziyadə şişirdərək onun keçmişini nihilistcəsinə əks etdirirdi. Lakin 30-cu illərdən başlayaraq rəsmi ideologiya ölkənin geriliyi haqqında susmağa başladı. Təbliğat maşını imperiya motivlərini ön plana çəkdi. Bu dünya inqilabı kursunun uğursuzluğa düçar olması, ölkənin birliyini möhkəmlətmək məqsədilə əhalinin çox hissəsinin milli hisslərini oyatmaqdan irəli gəlirdi. 30-cu illərin ikinci yarısından 1932-ci ildə vəfat edən M.N.Pokrovskinin əsərləri tənqid atəşinə tutuldu. Onun görüşləri

tarixə zidd olan antimarksist baxışlar kimi qeyd olundu. Belə ki, M.Pokrovskinin marksisizm tarix elmi Rus dövlətinin müstəmləkəçilik siyasətini ifşa edərək rus imperiyasını “xalqlar həbsxanası” kimi qələmə verdiyi halda 30-cu illərin əvvəllərindən başlayaraq rəsmi təbliğatın bu məsələyə münasibəti əsaslı surətdə dəyişdi. Rusiyanın milli ucqarlarda yaşayan xalqları əsarət altına alması “ən az yamanlıq” kimi izah edilməyə başlandı.

1929-cu ildə İ.V.Stalinin anadan olmasının əlli illyi tədbirləri onun şəxsiyyətinə pərəstişi yeni mərhələyə yüksəltdi. Stalin Leninizmin ən görkəmli nəzəriyyəçisi elan olunaraq, ətrafı tərəfindən dahi, “bizim günlərin Lenini” kimi qələmə verilməyə başladı. Bu isə, öz növbəsində, tarixi həqiqətlərin təhrif edilməsinə gətirib çıxartdı. 1931-ci ilin oktyabrında İ.V.Stalin “Proletar inqilabı” jurnalında “Bolşevizmin tarixinin bəzi məsələləri haqqında” məktub dərc etdirərək partiya tarixi elminin tarixi həqiqətlə uzlaşmayan, onun rolunu şişirtməklə müşayət olunan yeni istiqamətdə tədqiq edilməsini irəli sürərək bir çox sovet tarixçilərini, o cümlədən, E.Yaroslavskini tənqid etmişdir. Bu, bir çox tarixçi alimin əsassız mühakimə obyektinə çevrilməsinə bəhanə oldu.

1938-ci ildə çox hissəsi Y.M.Yaroslavski və P.N.Pospelov tərəfindən yazılan “ÜİK (b) P tarixinin qısa kursu” çap edildi ki, bu da bolşevik partiyası tarixini öyrədən yeganə dərslik oldu. İ.V.Stalinin şəxsi nəzarəti və rəhbərliyi ilə hazırlanan bu dərslik əslində RSDFP–ÜİK (b)P tarixinin saxtalaşdırılması demək idi. Xalq düşməni elan edilən görkəmli köhnə bolşeviklərin inqilabı fəaliyyəti təhrif edilərək heçə endirilir, bunun müqabilində isə Stalinin rolu şişirdilirdi. Bolşevizmlə menşevizmin münasibətləri yalan əsasında oxucuya təqdim olunurdu. Əslində “Qısa kurs...” partiyanın tarixi sahəsindəki tədqiqatlara son qoydu və mahiyyət etibarı ilə bundan sonra partiya tarixi elmi mərkəzin hazırladığı və təqdim etdiyi ideyaları təbliğ etməklə məşğul ola bilərdi. İctimai elmlərin başqa sahələri də oxşar vəziyyətdə idi. Filosoflar yalnız “ÜİK (b) P tarixinin qısa kursu”nun Stalin tərəfindən yazılan “Dialektik və tarixi materializm haqqında” dördüncü fəsildəki məsələlərini izah və təsvir edə bilərdilər. Sosialogiya və sosial psixologiya isə ümumiyyətlə qadağan edilmişdir.

Lakin bütün bunlara baxmayaraq, bəhs edilən illərdə ictimai elm sahəsində çalışan alimlər elmin irəli getməsində mühüm addımlar atmışdı. Sovet dilçi alimləri N.Y.Marr, İ.İ.Meşşaninov öz tədqiqatları ilə dilçilik elmini zənginləşdirərək Oktyabra kimi öz əlifbası olmayan onlarla xalqlar üçün lüğət və qrammatika kitabı hazırladılar. Rusiyada feodalizmin tarixinin öyrənilməsində B.D.Qrekov və S.V.Baxrusin, XIX əsr ictimai hərəkatın tarixinin tədqiqində M.V.Neçkina və N.M.Drujinin, sovet mənbəşünaslıq elminin yaranmasında M.N.Tixomirov və S.N.Valk, slavyanşünaslıqda V.İ.Piçeta, ümum tarix məsələrinin araşdırılmasında Y.A.Kosminski, C.D.Skazkin, V.P.Volqin, E.V.Tarle və b. mühüm rol oynadılar. Zəngin və sanballı tədqiqatlarına baxmayaraq sovet tarixçiləri arasında da “sinfi düşmən” axtarışı davam etmişdir. Tarix cəbhəsindəki düşmən axtarışı E.V.Tarle və S.F.Platonov kimi tarixçilərin “əksinqilabi ziyankarlıqla” damğalanmalarına səbəb oldu. Sinfi mübarizənin forma və metodlarının tarix elminə də tətbiq edilməsi təbii olaraq tarixçilərin yaradıcılığına neqativ təsir göstərmişdir.

***Ədəbiyyat və incəsənət.*** Vətəndaş müharibəsi saysız-hesabsız qiymətli incəsənət və heykəltaraşlıq abidələrini, çoxlu kitabxana, xüsusi arxiv və mədəniyyət ocaqlarını dağıdaraq Rusiyanın mədəniyyətinə ağır zərbə vurdu. Bədii sahədə çalışan ziyalıların çox hissəsi sovet hakimiyyətini qəbul etməyərək Rusiyadan xarici ölkələrə mühacirətə getdilər. Bu illərdə bədii yaradıcılqla məşğul olan ziyalıların yolu birmənalı olmadığl kimi, həm də ziddiyyətli olmuşdur. Sol (avanqard) istiqaməti təşkil edən yazıçı və şairlər, rejissor və aktyorlar, rəssam və heykəltaraşlar inqilabın təntənəsindən bəhrələnərək özlərini ifadə etməyin yeni yaradıcılq formalarını azad surətdə axtarıb tapmaq məqsədilə köhnə incəsənət ənənə və üsul, qayda-qanunlarını sındırıb-dağıtmaq yolunda əllərinə fürsət düşdüyünü ümid edirdilər. Odur ki, bu məqsədlə onların çoxu bolşeviklərlə əməkdaşlıq etməyə başladılar.

20-ci illərin əvvəllərində incəsənət və ədəbiyyatda realizmi inkar edən və köhnə incəsənət ənənə və üsullarını dağıtmalı olan yeni bir üslub yaratmağa çalışan formalist cərəyan olan futurizmin tərəfdarları hətta dövlət statusuna belə iddia edirdilər. Başqa sözlə, onlar

özlərini inqilabi incəsənətin yeganə təmsilçiləri elan etdilər. Futuristlər və imajinistlər "Kommuna incəsənəti" qəzetinin səhifələrində köhnə ədəbi irsin dağıdılmasını və "sol incəsənətin" diktaturasının bərqərar olunmasını təbliğ edirdilər.

Bəhs edilən dövrdə inqilabi şüarlara fanatikcəsinə aludə olan bir sıra ədəbiyyatçı və tənqidçilər belə hesab edirdilər ki, əvvəlki mədəni irsdən tamamilə imtina edərək yeni proletar mədəniyyəti yaratmaq lazımdır. 1917-ci ilin payızında meydana gələn mədəni-maarif və ədəbi-bədii proletar mədəniyyəti (Proletkult) təşkilatına A.A.Boqdanov, V.F.Pletnyev və başqaları rəhbərlik edirdi. İxtisasca həkim olan keçmiş bolşevik A.A.Boqdanov Oktyabr silahlı üsyanında iştirak etməməsinə baxmayaraq, yeni proletar mədəniyyətinin yaradılamsında yaxından iştirak edirdi. A.Boqdanov Xalq Maarif Komissarı A.V.Lunaçarski ilə birlikdə belə hesab edirdilər ki, proletar mədəniyyəti partiya aparatından asılı olmamalıdır. Proletkultun dərnək və studiyaları ədəbiyyat, teatr və təsviri sənətə geniş zəhmətkeş kütlələri cəlb etməklə onların arasından gələcək şair, yazıçı, rəssam, aktyor və s. aşkar edirdilər. Proletkultçular özlərinin "Fit" ("Qudki"), "Proletar mədəniyyəti" ("Proletarskaya kultura") jurnallarını nəşr edirdilər. Proletar şairlərin şeirlər toplusu çap edilirdi. Məsələn, A.K.Qastevin "Fəhlə zərbəsinin poeziyası", V.T.Kirillovun "Gələcək şəfəqlər" kitabları buna misal ola bilər. Ümumən 1920-ci ildə proletkultçular hərəkatında 400 min nəfərə yaxın adam iştirak edirdi.

Proletar mədəniyyətçilərin partiya və dövlətə münasibətdə müstəqil siyasət yeritmələrini son dərəcə ziyanlı hesab edən V.İ.Lenin proletkult ideyalarına kəskin mənfi münasibət bəsləyirdi. Buna baxmayaraq proletkultçuların ideologiyası mövcud olmaqda davam edirdi və proletar yazıçıların Rusiya assosiasiyası onların xələfi oldu. (RAPP). Bu assosiasiyada tənqidçi L.Averbaxın rəhbərliyi altında birləşən ədib və şairlər xırda burjua ədəbiyyatçıları hesab etdikləri çığırdaşlar, o cümlədən, A.N.Tolstoy, A.P.Platonov, M.A.Bulqakov, S.A.Yesenin və hətta V.V.Mayakovskiyə qarşı mübarizə aparırdılar. 1917-ci ilə kimi burjua publisistikasın özünün futurist manifestləri ilə heyrətləndirən V.Mayakovski proletar inqilabının carçısına çevrilərək onun təntənəsini tərənnüm etməyə başaldı. Lakin V.Mayakovskinin sovet həqiqəti ilə inqilabi ideallar arasındakı uyğunsuzluğu görməsi "proletariat incəsənəti"nin qısqanc tərəfdarlarının narazılığına səbəb olurdu ki, bu da şairin faciəli həyat sonluğu ilə üzləşməsinə gətirib çıxardı. Baş verən hadisələri V.Mayakovski özünün "Misteriya-buff" poemasında qələmə almışdır.

Böyük rus liriki, doğma təbiətin dahi tərənnümçüsü S.Yeseninin də taleyi fəlakətli dövrün ziddiyyətləri ilə müşayiət olunurdu. Onun yaradıcılığı "qolçomaq şair" kimi "ideya cəhətdən yad" elan olunmasına baxmayaraq Yesenin şeirlərinin sətirləri sovet adamlarının qəlbini döyündürür və isidirdi. XX əsr Rusiyanın tarixi dramını yaşayanlardan biri hakimiyyətin təqib etdiyi və reprressiyaya məruz qalan həqiqəti dərindən estetik şəkildə dərk edib tərənnüm edən şair O.Mandelştam idi. Bu dövrdə, poeziyanın istedadlı nümayəndələrindən biri B.Pasternakın "Leytenant Şmidt" epik əsəri çap edildi. A.Platonov "Çevenqur", "Kotlovan" ("Çala"), "Yuvenilnoye more" əsərlərindəki qəhrəmanlarının timsalında göstərdi ki, həyatdan uzaq düşən sosial eksperimentlər insan naturasını eybəcərləşdirərək nəyə gətirib çıxara bilər. M.A.Bulqakovun vətən ədəbiyyatının klassikləri sırasına daxil olan romanlarında insan məişəti problemləri geniş tarixi və sosial-psixoloji kontekstə işıqlandırılır. Onun senzura sayəsində yalnız bir hissəsi çap edilən "Ağ qvardiya" ("Belaya qvardiya") əsəri vətəndaş müharibəsi tarixinə başqa mövqeydən işıq salır. Sosial fantastika janrında da əsərlər yazan M.Bulqakov 20-ci illərdə "İblislik" ("Dyavoliada"), "Pis yumurta" ("Rokovıye yaytsa"), çap edilməyən "İt ürəyi" ("Sobaçye serdtse") əsərlərini yazır. Eyni ruhda sosial fantastika janrında E.İ.Zamyatin "Biz" ("Mı") əsərində yüksək totalitar cəmiyyətin satirik təsvirini vermişdir. Bəhs etdiyimiz yazıçı və şairlərin əsərlərinin çox hissəsi hakimiyyətin tələb etdiyi sosialist realizminə cavab vermədiyi üçün qadağan edilərək çap edilmirdi. Bu səbəbdən F.Platonov, E.Zamyatin, A.Axmatova, M.Bulqakov, O.Mandelştam, S.Klıçkov və b. əsərləri çap edilmir və yaxud çox az nüsxə ilə nəşr edilirdi.

30-cu illərin əvvəllərində Sovet dövləti yazıçıların böyük əksəriyyətini öz tərəfinə çəkərək çoxlu ədəbi təşkilatların mövcud olması zəruriliyini aradan qaldırmaq, bütün yazıçıları

Sovet Yazıçıları İttifaqında birləşdirmək məqsədilə 1932-ci il aprelin 23-də "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" qərar qəbul etdi. Qərara uyğun olaraq 1934-cü ilin avqustunda 557 nümayəndənin iştirakı ilə birinci ümumittifaq yazıçılar qurultayında A.M.Qorkinin sədrliyi ilə Sovet Yazıçılar İttifaqı yaradıldı. A.M.Qorkinin ölmündən sonra İttifaqa A.A.Fadeev sədrlik etməyə başladı. 2,5 min nəfəri əhatə vedən SSRİ Yazıçılar İttifaqının yaranması ilə nisbi bədii yaradıcılıq azadlığına son qoyuldu. Ədəbiyyat və incəsənətdə əsas yaradıcılıq metodu başlıca prinsipi partiyalılıq olan sosialist realizmi elan olundu. Yazıçılar ittifaqının nizamnaməsində deyildiyi kimi, sosialist realizmi yaradıcıdan "vəziyyəti həqiqi, konkret-tarixi və inqilab inkişaf mahiyyətində təsvir etməyi" tələb edir. Bu isə, yaradıcılıqda avanqard bədii qayda və formalardan imtina edilməsi demək idi. Başlıcası isə, o idi ki, bundan sonra hansı hadisənin təsvirinin həqiqət olmasını partiya instansiyası müəyən etməli idi.

Rəsmi ideoloji çərçivəyə baxmayaraq, bir çox istedadlı sovet yazıçıları cızılmış sərhədləri pozaraq görkəmli bədii əsərlər yaratdılar. A.M.Qorkinin yaradıcılıq fəaliyyətiniin çiçəklənməsi məhz bu illərə təsadüf edir. Onun bir-birinin ardınca "Mənim universitetlərim", ("Moi universiteti"), "Artamonovların işi", ("Delo Artomonovıx"), "Klim Samginin həyatı", ("Jizn Klima Samqina"), "Yeqor Bulıçov və başqaları", ("Yeqaor Bulıçov i druqie"), "Dostiqayev və başqaları" ("Dostiqayevi i druqie") roman, dram və kitabları nəşr edildi. A.Qorkinin yaradıcılığı Sovet ədəbiyyatının və ölkə ədəbi mühitinin mühüm bir mərhələsini təşkil edir.

Xarici hərbi müdaxilə və vətəndaş müharibəsi dövründə kazakların taleyinin geniş tarixi epopeyasını tərənnüm edən M.A.Şoloxovun "Sakit Don" ("Tixiy Don"), A.N.Tolstoyun "Əzablı yollarla", ("Xojdeniye po mukam"), N.A.Ostrovskinin "Polad necə bərkidi" ("Kak zakalyalas stal") və d. bədii yaradıcılıq nümunələri adamların yaşam və həyat mübarizəsinə həsr edilmişdir.

30-cu illərin ədəbiyyatında əsas yerlərdən birini sənayeləşdirməni əks etdirən istehsalat romanları tuturdu. Bu əsərlərdə əsas qəhrəman konkret adamlar deyil, ümumiləşdirilmiş texniki tərəqqi və şanlı əmək obrazıdır. F.Qladkovun "Sement" ("Tsement"), V.Katayevin "Zaman, irəli", ("Vremya, vpered"), F.Panferovun "Tir" ("Bruski"), İ.Erenburqun "İkinci gün" ("Vtoroy den") və s. əsərləri buna misal ola bilər. Sovet kəndində cərəyan edən faciəli hadisələr M.Soloxovun "Oyanmış torpaq" ("Podnyataya tselina") adlı sanballı əsərində özünün bədii həllini tapmışdır. 1927-1941-ci illərdə Sovet satirasının gözəl nümunələri olan İ.İlf və E.Petrovun "Oniki stullar" ("Dvenadsat stulev"), "Qızıl buğa" ("Zolotoy telenok") əsərləri meydana gəldi.

30-cu illərin ikinci yarısından başlayaraq repressiya şəraitində sovet bədii yaradıcılığının səviyyəsi kəskin şəkildə aşağı düşdü. A.Platonov, M.Bulqakov kimi bir çox ədəbiyyatçılar ya repressiyaya məruz qalmış, ya da ədəbiyyatdan uzaqlaşdırılmışdılar.

Sovet hakimiyyətinin ilk illəri teatrların sayının sürətlə artması ilə müşayiət olunurdu. Bir qayda olaraq yeni teatrlar köhnə teatr incəsənətindən imtina edən kəskin sol mövqeydən çıxış edirdilər. "Oktyabr teatrının" ideoloqları içəriaində böyük rejissor V.E.Meyerxold əsas yer tuturdu. Vətəndaş müharibəsi epoxasının tələb etdiyi təşviqatçı və plakat xarakterli ilk sovet pyesləri, o cümlədən V.Mayakovskinin "Misteriya-buff" tamaşası səhnələrdə öz yerini aldı. Yeni iqtisadi siyasətə keçidlə bağlı teatrlar ağır günlər keçirməyə başladı. Maliyyə çətinliyinə görə əyləncə incəsənəti olan bir çox teatrlar bağlandı. Dramaturgiya və opera teatrları isə yalnız 20-ci illərin ikinci yarısından sonra öz vəziyyətlərini normal məcraya yönəldə bildilər. Artıq bu vaxt vətəndaş müharibəsi dövrünün təbliğatçı incəsənəti tamaşaçını qane etmirdi.

Fəhlələrin inqilabi hisslərinə hesablanan teatr avanqardçılığı onların özü üçün belə anlaşılmaz idi. Tədricən akademik teatrların səhnəsində, o cümlədən, K.S.Stanislavski və V.İ.Nemiroviç-Dançenkonun rəhbərliyi ilə MBAT-da (MXAT) teatr ənənələri bərqərar olmağa başladı. 20-ci illərin ikinci yarısı – 30-cu illərin əvvəllərində ölkə teatrlarının repertuarında böyük şöhrət qazanmış bir çox tamaşalar meydana gəldi. M.A.Bulqakovun "Turbinlərin günü" ("Dni Turbinıx"), K.A.Trenyevin "Lyubov Yarovaya" ("Lyubov Yarovaya"), B.A.Lavrenyevin "Sındırma" ("Razlom"), V.V.İvanovun "Zirehli qatar 14-69", ("Bronepoezd 14-

69"), N.P.Erdmanın "Mandat" ("Mandat"), Vs.V.Vişnevskinin "Nikbin faciə" ("Optimistiçeskaya traqediya") və s. pyeslərin tamaşaları buna misaldır. Düzdür, demək olar ki, bu tamaşaların hamısı dəfələrlə senzura tərəfindən qadağan olunmuşdur. Sovet realist teatrının cızdığı sərhədlərdən kənara çıxanlar burjua formalizmində və yaxud da hər cür "solçuluq" təhriflərində günahlandırılırdı. Teatr incəsənəti sahəsində məcburi bərqərar edilən bir istiqamət – Stanislavski sistemi ağalıq edirdi. Teatrlarda bədii eksperimentlər uzun müddət yaddaşlardaan silinmiş oldu. Milli teatrlar sürətlə artırdı. 1920-ci ildə Ukraynada İvan Franko adına Teatr, Belarusiyada birinci Dram Teatr Minskidə fəaliyyətə başladı. Bu respublikalarda özfəaliyyət teatr hərəkatı geniş vüsət aldı. 30-cu illərin ikinci yarısından başlayaraq teatr və incəsənət sahəsində "formalizmlə" mübarizə pərdəsi altında repressiya dalğası geniş miqyas aldı. Formalizmlə mübarizə şüarı ilə böyük rejissor V.E.Meyerxoldun teatrı bağlandı, özü isə 1939-cu ildə həbs edilərək güllələndi.

Sovet hakimiyyəti misilsiz təbliğat imkanı olan kinomatoqrafiyaya xüsusi diqqət yetirirdi. İlk sovet bədii filmi hələ vətəndaş müharibəsi illərində ekrana çıxmışdı. S.M.Eyzenşteynin 1925-ci ildə yaratdığı "Potyomkin zirehli gəmisi" ("Bronenosets Potemkin") səssiz kinofilmi dünyada şöhrət qazanmışdır. 1926-cı ildə rejissor Vesevolod Pudovkin A.M.Qorkinin "Ana" əsəri əsasında ölməz kinofilmini yaratdı. Rejissorlar V.Pudovkin və S.Eyzenşteyn yaratdıqları kinofilmlərlə nəinki vətən, həm də dünya kino incəsənəti sahəsində yeni söz sahibi kimi məşhurlaşdılar. Tarixi mövzuya müraciət edən Sergey Eyzenşteyn slavyan rus xalqının milli qəhrəmanı Aleksandr Nevskinin bədii ekran obrazını "Aleksandr Nevski" ("Aleksandr Nevskiy") kinofilmində yaratdı. Tarixi mövzuda V.İ.Pudovkinin çəkdiyi "Suvorov", V.M. Petrovun "Birinci Pyotr" ("Petr Pervıy") kinofilmləri böyük şöhrət qazandı. 1929-1930-cu illərdə dünya şöhrətli Ukrayna rejissoru Aleksandr Dovjenko "Arsenal" və "Torpaq" ("Zemlya") filmlərini yaratdı. Ölkə üzrə milyonlarla tamaşaçı təkrar-təkrar S.D. və Q.N.Vasilyevlərin ekranlaşdırdığı "Çapayev" filminə tamaşa edirdilər ki, bu da onlara unudulmaz təsir bağışlayırdı. Kinomatoqrafçılar bütov bir yeni nəslin, dinc dövrün qurucularının bədii obrazını kino səhnəsinə daşıdılar. Rejissorlardan N.V.Ekkin "Həyata vəsiqə" ("Putevka vı jizn"), S.A.Gerasimovun "Yeddi cəsur" ("Sem ero smelıx"), İ.A.Pıryevin "Traktoristlər" ("Traktoristı"), G.V.Aleksandrovun "Işiqli yol" ("Svetlıy put") kinofilmləri buna misaldır. Sovet kinosunda rejissor M.İ.Rommun "Lenin Oktyabrda" ("Lenin vı Oktyabre"), "Lenin 1918-ci ildə" ("Lenin vı 1918 qodu") filmləri sosialist realizminin şedevrləri hesab edilirlər. Sovet kino incəsənəti sahəsində mühüm yerlərdən birini musiqili komedya janrı tutur ki, bu da əslində İ.Stalinin irəli sürdüyü "yaşamaq yaxşı olmuşdu, yaşamaq şən olmuşdu" tezisinin təsdiqinə xidmət edirdi. Belə kinofilmlərdən rejissor G.V.Aleksandrovun "Şən uşaqlar" ("Veselıe rebyata"), "Sirk" və "Volqa-Volqa"nı misal göstərə bilərik. Bu filmlərin musiqisini görkəmli bəstəkar İ.O.Dunayevski yazmışdır ki, onun da əsasını xalq musiqisi təşkil edirdi. Kinomaftoqrafçılar 30-cu illərdə kütləvi tamaşaçıya sirayət edə bilən sadə yaradıcılıq metod və vasitələri ilə sosializmin qələbəsinin təmin olunmasının ideya əsasını təşkil edən kinofilmlər yaradırdılar. Sosializm realizmi çərçivəsinə sığmayan filmlərin müəllifləri ya unudulur, ya da repressiyalara məruz qalırdılar. Məhz 30-cu illərin sonlarındakı repressiya dalğası yaradıcı ziyalılardan rejissor V.E.Meyerxold, şairlərdən O.E.Mandelştam və T.Y.Tabidze, yazıçılardan İ.E.Babel və A.Veselonun həyatına son qoymuşdu. Yaradıcı ziyalıların bir hissəsi uzun müddətə sürgün və həbsxanaya göndərilmiş, başqaları isə özlərinin bədii və estetik təsəvvürləri baxımından əsərlər yaratmaq imkanından məhrum edilmişdilər.

1936-cı ildə "Pravda" qəzetində müasir sovet musiqisində, o cümlədən balet, teatr incəsənəti və kinomatoqrafiyada formalizm və ideyasızlığı mühakimə edən məqalə dərc olundu. Bir çox arxitektorlar və konstruktorlar "ziyankar burjua axını" nümayəndələri elan edildilər. Partiya və dövlətin göstərişinə müvafiq olaraq 30-cu illərin ikinci yarısından başlayaraq teatr, musiqi və təsviri incəsənət sahəsində "formalizmlə" mübarizə geniş miqyas aldı. 1936-cı ildə D.D.Şostakoviçin dahi operası "Mtsen qəzasının ledi Maqbeti" ("Ledi Makbet Mtsenskoqo uezda") qərəzli tənqid atəşinə tutuldu, ona görə ki, opera ənənəvi sənətə alışmış İ.Stalinin xoşuna gəlməmişdir. Mərkəzi partiya aparatının sifarişi ilə "Pravda" qəzetində dərc edilən

məqalədə D.Şostakoviçin operası yerdən-yerə vurularaq "musiqi yerinə qarma-qarşıqlıq" adlandırılırdı. Bədii yaradıcılığın çərçivəyə salınması mənfi təsirini göstərsə də musiqi və təsviri sənətin irəliləməsinin qarşısını ala bilmədi. D.D.Şostakoviçin "Burun" ("Nos"), "Katerina İzmaylova", S.S.Prokofyevin "Semyon Kotko", R.M.Qliyerin "Şahsənəm", İ.İ.Dzerjinskinin "Sakit Don" ("Tixiy Don") operaları meydana gəldi. Mahnı yaradıcılığının inkişafında V.İ.Lebedev-Kumaç, M.V.İsakovski, A.A.Prokofyev kimi şairlərin sözlərinə görkəmli bəstəkarlar İ.O.Dunayevski, Pokrass qardaşları, A.V.Aleksandrov və başqaları uzun illər yaddaşlara həkk edilən mahnılar bəslədilər.

Oktyabrdan dərhal sonra V.Leninin heykəltəraşlıq təbliğatı planı həyata keçirilməyə başlandı. İnqilabçı və kəndli liderlərinə, yazıçı, şair və alimlərə heykəllər ucaldıldı. Çox vaxt gips və ağacdan hazırlanan bu heykəllərin ömrü uzun olmasa da, bu yeni hakimiyyətin xalqla təsviri incəsənət dilində təması demək idi. 20-ci illərdə təsviri incəsənətdə "sol" istiqamətlə realizmin kəskin rəqabəti müşayiət olunur. İ.E.Qrabar, K.A.Korovin, S.V.Malyutin kimi sənətkarlar köhnə ənənəvi realist incəsənət üslubunda çalışırdılar. Öz yaradıcılıqlarında müxtəlif avanqard istiqamətlərdə isə P.P.Konçalovski, K.S. Maleviç, K.S.Petrov-Vodkin, V.E.Tatlin və b. fəaliyyət göstərirdi. 1922-ci ildə realist rəssamlar inqilabi Rusiyanın rəssamlar Assosiasını (AXRR) yaratdılar. 20-ci illərin ikinci yarısından başlayaraq İRRA-nın işi sayəsində həqiqəti ön plana çəkən incəsənətdə bədii sosialist realist metodu bərqərar oldu. 30-cu illərdə bütün bədii rəssamlıq cəmiyyətlərinin A.M.Gerasimovun rəhbərliyi ilə SSRİ Rəssamlar İttifaqında birləşdirilməsi rəssamların böyük əksəriyyətinin sosializm realizmi metoduna dönüş etməsinə səbəb oldu. 30-cu illərdə çoxlu görkəmli rəssamlar S.V.Gerasimov, İ.İ.Brodski, B.V.İoqanson, M.B.Qrekov, P.İ.Kotov və başqaları parlaq əsərlər yaratdılar. Sovet hakimiyyətinin tələb etdiyi kimi rəssamların əsas vəzifəsi sosializmin qələbəsini, fəhlə və kəndlilərin qəhrəman əməyini tərənnüm edərək Stalini tərifləyib göylərə qaldırmaq idi.

20-ci illərin sonu – 30-cu illərdə ölkədə sənayeləşdirmənin həyata keçirilməsi şəhərsalmanın inkişafını sürətləndirərək memarların, heykəltaraşların, rəssamların yaradıcılıq fəaliyyətinə təkan verdi. Yeni mədəniyyət sarayları, fəhlə klubları və sağlamlıq mərkəzləri ucaldıldı. Bunların layihələşdirilməsində memarlardan İ.V.Joltovski, İ.A.Fomin, A.V.Şusev, Leonid, Viktor və Aleksandr Vesnin qardaşları yaxından iştirak edirdi. Əsl novatorluq nümayiş etdirən sovet memarlarından K.S.Melnikov Moskvada Rusakova adına mədəniyyət evini, B.M.İofan nəhəng beşulduz formasında Qızıl Ordu Teatrını və s. layihələşdirdi. Memar V.İ.Muxinanın 1937-ci ildə Parisdəki beynəlxalq sərgidə SSRİ pavilyonunda nümayiş etdirilən "Fəhlə və kolxozçu qadın" heykəl qrupu yüksək bədii sənət əsəridir. 1935-ci ildə Moskvanın yenidən qurulmasının baş planı təsdiq edildi. Plana uyğun olaraq meydançalar salınır, küçələr genişləndirilirdi. Lakin tarixi tikililərin hifz olunmasına diqqət verilmədiyi üçün bir çox tarixi abidə xüsusilə kilsələr vəhşicəsinə dağıdılmışdır. Hələ baş planın qəbul edilməsinə kimi, yəni 1931-ci ildə xilasedici Xristosun (Xrista Spasitelya) məbədi partladıldı.

Rəsmi ideologiyanın təbliğində, mədəni inqilab kimi səciyyələndirilən 20-30-cu illərin mədəni tədbirlərinin həyata keçirilməsində kitabxanalar, qiraət komaları, klublar və mədəniyyət sarayları əsas rol oynayırdı. Partiya və dövlətin nəzarəti altında qəzet və jurnalların səhifələrində marksizm-leninizm-stalinizm ideyaları təbliğ olunur, əhali arasında genişmiqyaslı mədəni-maarif işi aparılırdı. Mətbuatda çap edilən məqalələr, təşkil olunan mühazirə, müsahibə, disput və sərgilər əsasən siyasi xarakter daşıyırdı. Kommunal mənzillərdə və ya zavod yataqxanalarında yaşayan sovet adamları üçün işdənkənar kitabxana, klub və mədəniyyət evlərində vaxt keçirmələri həm də ehtiyacdan meydana gəlirdi. 1936-cı ilin yanvar ayına olan məlumata görə SSRİ-də 5123 klub və 65 min qırmızı guşə fəaliyyət göstərirdi. Yarım milyondan çox adam özfəaliyyət dərnəklərində məşğul olurdu. Texniki tərəqqini təcəssüm etdirən radionun şərəfinə radiosevərlər dərnəkləri daha geniş yayılmışdır. Gənc nəsil daha çox idmanın hərbiləşdirilmiş növləri ilə, o cümlədən paraşüt idman ilə məşğul olurdular. Rəsmi mətbuat klub və istirahət parklarını xoşbəxt həyat arzusunun həyata keçdiyi "ümumi sevinc yerləri" kimi təbliğ edirdi. Hər il ölkənin və milli respublikaların paytaxtlarında partiya və hökumət rəhbərlərinin iştirakı ilə 1 may və 7 noyabr dövlət bayramları günü münasibətilə qələbə

marşı sədaları altında təntənəli parad təşkil olunurdu. Bütün dünyaya sosializmin "qüdrətini" nümayiş etdirməli olan bu paradlar eyni zamanda sovet adamlarını yeni əmək xarüqələri yaratmağa səsləyirdi.

Oktyabr silahlı üsyanından sonra vətənini tərk edərək xarici ölkələrə mühacirətə gedən bədii və elmi ziyalıların nümayəndələri 1920-30-cu illərdə öz yaradıcılıqları ilə ölkə mədəniyyətinin bir hissəsi olduqlarını təsdiq etmişlər. Vətəndaş müharibəsinin sonlarında Sovet Rusiyasından 1,5 milyon adam xarici ölkələrlə mühacirətə getmişdir. Ölkəni tərk edənlərin demək olar ki, üçdə iki hissəsi Fransa, Almaniya və Polşada sığınacaq tapmışdır. Mühacirlərin bir hissəsi Şimali və Cənubi Amerika ölkələrində məskunlaşmışdır. Vətənlərindən qoparılmış bu insanlar öz mədəni adət və ənənələrini yaşatmağa çalışmışlar. Paris, Berlin, Praqa, Varşava və bir çox başqa şəhərlərdə rus dilində qəzet və jurnallar çap edilməyə başlandı. İ.A.Bunin, M.İ.Svetayeva, Q.V.İvanov, V.F.Xodaseviç öz əsərlərini çap etdirirdilər, N.S.Trubetskoy və D.P.Karsavin kimi böyük filosof alimlər avroasiya hərəkatını əsasını qoyaraq belə hesab edirdilər ki, Rusiya iki mədəniyyəti, iki dünyanı – Avropa və Asiyanı təcəssüm etdirir. Görkəmli iqtisadçı alim S.N.Prokopoviç mühacirələrin iqtisadiyyat kabinetini yaradaraq 20-ci illərdə Sovet Rusiyasının sosial-iqtisadi prosesslərini təhlil etməklə məşğul olurdu. Mühacirlərin bir çoxu 30-cu illərin sonlarında vətənə döndü, xarici ölkələrdə qalan ziyalıların əsərləri yalnız bir neçə onillikdən sonra öz vətənlərində məlum oldu.

Ümumiyyətlə, 1920-30-cu illərdə mədəniyyət sahəsindəki dəyişikliklərə birmənalı qiymət vermək mümkün deyil. Cəsarətlə qeyd etmək olar ki, bütün rəsmi qadağa və təqiblərə baxmayaraq bəhs edilən dövrdə mənəvi və maddi mədəniyyət dəyər qazanaraq əhalinin mədəni səviyyəsinin yüksəlməsində, mütəxəssislərin sayının artmasında, dünya miqyasında bədii incəsənət əsərlərinin ərsəyə gəlməsində böyük rol oynamışdır. Bununla bərabər, ideoloji basqı, bədii yaradıcılığın çərçivəyə salınması mədəniyyətin bütün sahələrinin inkişafına neqativ təsir göstərməklə yanaşı təbliğat xarakterli, aşağı səviyyəli bir sıra incəsənət nümunələrinin yaranmasına səbəb olmuşdur.

## 1920-30-cu illərdə SSRİ-də totalitar dövlət modelinin bərqərar olması

***Sovet cəmiyyəti 20-30-cu illərdə.*** Xalq təsərrüfatının bütün sahələrində, sosialist sisteminin qələbəsi nəticəsində sovet cəmiyyətinin sinfi strukturu dəyişdi və cəmiyyət təbəqələşdi. Sovet cəmiyyətinin sosial-sinfi strukturunun dəyişilməsi 1917- 1937-ci illəri əhatə etməklə üç mərhələyə bölünür:

1.İstehsal vasitələrinin milliləşdirilməsi və torpağın xalq mülkiyyətinə çevrilməsi nəticəsində mülkədarlar və iri burjuaziyanın ləğv edilməsi mərhələsi – yəni vətəndaş müharibəsi illəri.

2.Şəhər burjuaziyasının yeni iqtisadi siyasət illərində artan təbəqələrinin və kənd təsərrüfatının kolletivləşdirilməsi gedişində qolçomaqların ləğv edilməsi mərhələsi – yəni birinci beşillik illəri.

3.İstismarçı siniflərin və onları doğuran səbəblərin aradan qaldırılması mərhələsi – yəni ikinci beşillik illəri.

Bu əslində kapitalizmin qalıqlarının ləğv edilməsi demək idi, kapitalizmin qalıqlarının ləğv edilməsi isə ölkənin geriliyi, tərəqqinin və inkişafın ləngiməsinə şərait yaradırdı. 1917-1937-ci illərdə cəmiyyətin sosial-sinfi strukturunun dəyişilməsi nəticəsində fəhlə sinfi, kolxozçu kəndlilər, qulluqçu və ziyalılardan ibarət olan sosial təbəqə formalaşmışdır. Sinfi strukturun dəyişməsi, əslində cəmiyyətin bütünlüklə irəliyə doğru inkişafını təmin edən siniflərin heç də yaranması demək deyildir. Bu, əslində ictimai qruplarda birləşmiş insanların birliyi idi.

Bu dövrdə, cəmiyyətin hegemon-aparıcı sinfi fəhlə sinfi hesab edilirdi. Ona görə ki, Leninin söylədiyi "müasir cəmiyyətdə axıradək inqilabçı olan və buna görə də hər bir inqilabda qabqcıl olan yeganə sinif proletariatdır" kimi müddəası əldə bayraq edilərək iddia edilirdi ki, fəhlə sinfi cəmiyyətin başlıca məhsuldar qüvvəsi, əsas maddi sərvətlərin yaradıcısı, elmi-texniki və sosial tərəqqinin göstəricisi, qabaqcıl ideologiyanın ifadəçisidir. Əslində

cəmiyyətdə fəhlə sinfinin yeri və rolu təhrif edilmişdir. O dövrdə fəhlə sinfi olduqca az məhsuldar əməyə, geri qalmış təhsil səviyyəsinə malik bir sinif idi. Əsas maddi sərvətlərin yaradıcısı təkcə fəhlə sinfidirmi? Bu fikir əslində əhalinin digər qrup və təbəqələrinin əməyinin heçə endirilməsi demək idi. Belə ki, elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi məhz fəhlə sinfinin deyil, ziyalıların, ilk növbədə, texniki ziyalıların xidmətidir.

Sosializm quruculuğu illərində kəndlilərin siması da köklü şəkildə dəyişdi. Kəndlilər yekcins sinfə çevrildilər. Təbəqələşmə aradan qaldırıldığı üçün muzdur, yoxsul, ortabab və qolçomaq kimi kəndli kateqoriyaları da silinib getdi. Kənddə əslində rəqabət, inkişaf aradan qalxdı. Bu da kənd təsərrüfatının geri qalması üçün obyektiv şərait yaranmasına gətirib çıxartdı.

Ziyalılara gəldikdə onların tərkibində də müəyyən dərəcədə dəyişiklik baş vermişdir. Fəhlə sinfi və kəndlilər içərisindən yeni ziyalılar – yəni sovet ziyalıları formalaşdı. Köhnə ziyalıların bir hissəsi Oktyabr silahlı üsyanından sonra sovet hökumətinə xidmət etməkdən imtina edərək xaricə mühacirətə getdilər, bir hissəsi isə sovet hakimiyyəti tərəfinə keçərək ona xidmət etməyə başladılar. Sovet ziyalısının əsil ziyalı kimi formalaşma mərhələsi çox qısa olmuşdur ki, bunun da obyektiv səbəbləri var idi. Hər yerdə savadlı adamlara ehtiyac olduğundan bu proses çox sürətlə gedirdi və bu da onların hazırlıq səviyyəsinin aşağı olmasına gətirib çıxarırdı. Alim, filosof D.A.Volkoqonovun qeyd etdiyi kimi, əslində "mütəxəssis ziyalını əvəz etdi."

1913-cü illə müqayisədə 1939-cu il əhalinin siyahıyaalınmasının nəticələri cəmiyyətin sosial tərkibinin əsaslı surətdə dəyişdiyini nümayiş etdirir. 1913-cü ildə fəhlə və qulluqçular bütün əhalinin 17%-ni təşkil edirdisə, 1939-cu ildə bu 50,2%-ə (33%-i fəhlələr idi) yüksəlmişdi. Təktəsərrüfatçı kəndlilər və kooperativləşməmiş kustarlar ölkənin bütün əhalisinin 2,6 %-ni, kolxozçular isə 47,2 %-ni təşkil edirdi. 1913-cü ildə isə təktəsərrüfatlı kəndlilər ölkə əhalisinin 66,7 %-ni təşkil edirdi.

Beləliklə, təkcə 1929-1937-ci illər arasında əsasən kənddən çıxanlar hesabına fəhlə sinfi təqribən üç dəfə artaraq ailə üzvlərilə birlikdə 33,7 faizə çatmışdır. Ziyalı və qulluqçuları birləşdirən sosial qrup isə cəmiyyətin 16,5 faizini təşkil edirdi. Müasir tarixçilərin bir çoxu belə hesab edir ki, qulluqçu və ziyalılar arasında müxtəlif səviyyədə partiya –dövlət aparatını və kütləvi ictimai təşkilatları təmsil edən nomenklatura kimi bir təbəqə də yaranmışdır.

1939-cu il yanvarın 17-də Ümumittifaq miqyasında əhalinin siyahıyaalınması ölkənin ümumi mənzərəsini xarakterizə etmək baxımından da mühüm əhəmiyyətə malikdir. Siyahıyaalma nəticəsində məlum oldu ki, 1926-cı ildə SSRİ-də 147 milyon nəfər əhali yaşayırdısa, 1939-cu ildə ölkənin əhalisi 170,6 milyon nəfərə çatmış və ya 12 il ərzində əhalinin orta illik artımı 1,23% olmuşdu ki, bu da ABŞ, Fransa, Almaniya və İngiltərədə olduğundan yüksək idi. SSRİ-nin aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrilməsi şəhər əhalisinin xeyli artmasına gətirib çıxardı. 1926-cı ildə şəhərlərdə 26,3 milyon nəfər, yəni bütün əhalinin 17,9%-i yaşayırdısa, 1939-cu ildə 56,1 milyon nəfər, yən bütün əhalinin 32,9%-i yaşayırdı. 12 il ərzində şəhər əhalisi 2 dəfədən çox artmışdı.

Fəhlələrin milli tərkibinə gəldikdə görürük ki, Oktyabrdan əvvəl Rusiyanın fəhlə sinfinin milli tərkibində üstünlüyü ruslar təşkil edirdi, beşilliklər ərzində respublikalarda milli kadrlar da yetişmişdi. 1934-cü ildə yerli millətlərə mənsub fəhlələrin sayı Ukraynanın iri sənayesində 60%-ə yaxın, Belarusiyada 66%-dən çox idi. Şəhər əhalisinin sürətlə artması kənd əhalisinin mütəşəkkil surətdə şəhərlərə cəlb edilməsinin nəticəsi idi. Bu ən çox 1932-1933-cü illərdə baş vermiş aclıqla əlaqədar idi. Bu illərdə kənd əhalisinin şəhərlərə və tikintilərə çıxıb getməsi kütləvi xarakter almışdı. 12 il ərzində kənddən şəhərə 18,5 milyon nəfər gəlmişdi. Ölkənin xəritəsində olmayan yeni şəhərlər və şəhər qəsəbələri meydana gəldi. 1926-cı ildə SSRİ-də 709 şəhər və 125 şəhərtipli qəsəbə var idisə, 1939-cu ildə 922 şəhər və 1148 şəhər qəsəbəsi var idi. Bu illərdə Maqnitoqorsk, Komsomolsk-Amur, Krasnouralsk, Elekrtostal, Balxaş, Mednoqorsk, Maqadan və başqa şəhərlər meydana gəldi. Bu şəhərlər əslində yeni sənaye mərkəzləri idi.

Səhiyyə sisteminin inkişaf etdirilməsi, mənzil tikintisi, əhalinin həyat səviyyəsinin

qismən yüksəldilməsi sahəsində də müəyyən irəliləyişlər əldə edilmişdir, iki beşillik ərzində milli gəlir 46 milyard manatdan 96 milyard manata çatmışdı ki, bu da əmək haqqının artırılmasına imkan verdi. Ümumi əmək haqqı fondu 33 milyard manatdan 82 milyard manata çatmışdı. 1935-ci ildə ölkədə kartoçka sistemi ləğv edilmişdi. İctimai istehlak fondlarının bir hisəsi səhiyyə işinə və mənzil tikikntisinə sərf edilirdi.

Ümumiyyətlə, 1917-1937-ci illərdə ölkənin sosial-sinfi strukturunda, sinfi və milli tərkibdə, əhalinin təhsil səviyyəsində, milli münasibətlərdəki əsaslı dəyişikliklər SSRİ- də sosializmin Sovet modelinin qurulmasını göstərən başlıca şərtlər idi.

***SSRİ-nin 1936-cı il Konstitusiyası.*** SSRİ-də sosializmin iqtisadi təməlinin qurulması, iqtisadiyyatda çoxukladlılığın aradan qaldırılması, kapitaliast siniflərinin və qolçomaqların ləğv edilməsi ölkədə sosializmin əsaslarının qurulmasının qanunvericilik yolu ilə təsbit edilməsini, başqa sözlə 1924-cü il konstitusiyasının dəyişdirilməsini tələb edirdi. Konstitusiya latın sözü olub bərqərar olmaq, quruluş deməkdir. Konstitusiya – Əsas Qanun ölkənin bütün qanunverici aktlarının əsası olub, ictimai və dövlət quruluşunu, nümayəndəli hakimiyyət orqanlarının təşkilinin qayda və prinsiplərini, seçki sistemini, vətəndaşların hüquq və vəzifələrini, cəmiyyətin həyatının önəmli məqamlarını müəyyən edir. Konstitusiya adətən humanist, hüquqi və siyasi funksiya daşıyır. Əgər bunlar həyata keçmirsə, saxta xarakterə malikdir.

1930-cu illərin birinci yarısında ölkə daxilində siyasi vəziyyətin, beynəlxalq münasibətlərin kəskinləşməsi, cəmiyyətin həyatında baş verən əsaslı dəyişikliklər, sənaye və kənd təsərrüfatında radikal tədbirlərə tələbat, dövlətin prestij və nüfuzunun möhkəmləndirilməsi, xalqın gələcək firavan həyat xəyallarının gerçəkləşməsinə inam ifadə etmək məqsədilə yeni konstitusiyanın qəbuluna ehtiyac var idi. Başqa bir tərəfdən yeni konstitusiyanın qəbul edilməsi sovet demokratiyasını bütün dünyaya nümayiş etdirərək sovet cəmiyyətinin kapitalizm cəmiyyətindən üstün olduğunu göstərmək məqsədi daşıyırdı.

Belə bir şəraitdə, 1935-ci il fevralın 6-da SSRİ VII Sovetlər qurultayı SSRİ MİK-nə yeni konstitusiya layihəsi hazırlamağı tapşırdı. Fevralın 7-də SSRİ MİK-i İ.V.Stalinin sədrliyi ilə 31 nəfərdən ibarət konstitusiya komissiyası yaratdı. Konstitusiya layihəsinin hazırlanmasına partiya, dövlət, həmkarlar ittifaqları, respublikaların nümayəndələri, elmi işçilər və b. səfərbər edilmişdi.

1936-cı il iyun ayında konstitusiya layihəsinin hazırlanması işi başa çatdı və MK plenumunda İ.V.Stalin konstitusiya layihəsi haqqında məruzə etdi. Plenum konstitusiya layihəsini əsasən bəyəndi. Konstitusiya layihəsi 1936-cı il iyunun 11-də SSRİ MİK Rəyasət Heyətində müzakirə edilərək bəyənildi və onun ümumxalq müzakirəsi üçün mətbuatda dərc edilməsi qərara alındı. 1936-cı il iyunun 12-də konstitusiya layihəsi qəzetlərdə dərc edildi. Eyni zamanda layihə SSRİ xalqlarının 100 dilində kitabça halında çap olundu. 1936-cı ilin yayında və payızında yeni konstitusiya layihəsi müzakirə olundu. Müzakirə zamanı layihəyə çoxlu əlavələr, düzəlişlər, təkliflər irəli sürüldü. Təkliflər və əlavələr iki formada-açıq və gizli formada irəli sürülürdü.

Fəaliyyəti dayandırılmış bir sıra burjua və xırda burjua partiyalarının nümayəndələri ölkədə çoxpartiyalı sistemin yaradılması təklifi ilə çıxış edirdilər. Donda, Ryazanda və başqa yerlərdə fəaliyyət göstərən gizli qruplar "Partiyalar azadlığı" şüarını irəli sürürdülər.

1936-cı il noyabrın 25-dən dekabrın 5-dək SSRİ fövqəladə VIII Sovetlər qurultayı keçirildi. Qurultay dekabrın 5-də konstitusiyanın qəti mətnini təsdiq etdi. Yeni Konstitusiya SSRİ-də sosializmin qələbəsi faktını qanunvericilik yolu ilə təsbit etdi. Konstitusiya 11 fəsil və 146 maddədən ibarət idi. Birinci maddədə deyilirdi ki, "SSRİ fəhlə və kəndlilərin sosialist dövlətidir." Birinci fəsildə ölkənin siyasi əsasından danışılır və qeyd edilirdi ki, SSRİ-nin siyasi əsasını zəhmətkeş deputatları Sovetləri təşkil edir. Konstitusiyaya görə ölkənin iqtisadi əsasını istehsal alət və vasitələri üzərində sosialist mülkiyyəti təşkil edir ki, bu da iki formada - dövlət və kolxoz-kooperativ mülkiyyəti formasında olur. Xüsusi mülkiyyət forması ləğv edildi, yalnız kustar və xüsusi həyatyanı təsərrüfatların saxlanılmasına yol verirdi ki, burada da muzdlu əməyin tətbiqinə icazə verilmirdi.

Konstitusiyanın ikinci fəslində SSRİ-nin dövlət quruluşundan bəhs edilirdi. 1936-cı ildə

SSRİ İttifaqının tərkibinə 11 müttəfiq respublika – RSFSR, Ukrayna, Belarusiya, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan, Azərbaycan, Gürcüstan və Ermənistan daxil idi. ZSFSR 1936-cı il dekabrın 5-də ləğv edildi.

Xarici siyasət, müdafiənin təşkili, xarici ticarət, dövlət təhlükəsizliyinin qorunması məsələləri, xalq təsərrüfatı planlarının qəbul edilməsi və başqa məsələlər SSRİ İttifaqının səlahiyyətinə daxil edilmişdi. Bu məsələlər istisna olmaqla yerdə qalan bütün dövlət məsələlərini müttəfiq respublikalar müstəqil surətdə həll edə bilərdilər. Formal da olsa hər bir sovet respublikasının SSR İttifaqından sərbəst çıxmaq hüququ saxlanılırdı və onun coğrafi ərazisi özünün razılığı olmadan dəyişdirilə bilməzdi. Konstitusiyanın 21-ci maddəsinə uyğun olaraq bütün SSRİ ərazisində vahid vətəndaşlıq müəyyən edilmişdir.

İttifaq respublikasının qanunları ümumittifaq qanunlarına uyğun gəlmədikdə 20-ci maddəyə müvafiq olaraq ümumittifaq qanunları əsas götürülürdü. Bu isə ümumittifaq orqanlarının nüfuz və siyasi üstünlüyünü göstərirdi. Bu bir tərəfdən mərkəzləşmiş plan təsərrüfatının rolunun artmasına, başqa bir tərəfdən mərkəzin özbaşınalığına və demokratik prinsiplərdən totalitarizmə keçməsinə şərait yaratmışdır.

Konstitusiyanın onuncu fəsli "Vətəndaşların əsas hüquq və vəzifələri"nə həsr edilmişdir. Sovet vətəndaşlarına əmək, istirahət, təhsil, qocalıqda və əmək qabiliyyətini itirdikdə maddi təminat almaq hüququ və başqa hüquqlar verilirdi.

Konstitusiyada xalqa vicdan, söz, mətbuat, yığıncaq və mitinqlər azaldığı, ictimai təşkilatlarda – həmkarlar ittifaqlarında, kooperativ birliklərində, gənclər təşkilatlarında, yaradıcılıq təşkilatlarında və s. birləşmək hüququ üçün təminat verilirdi. Konstitusiyanın bu fəslini N.İ.Buxarin yazmışdı və bu ən yaxşı fəsil hesab olunurdu. V.İ.Lenin "Yeni fabrik qanunu" əsərində yazırdı ki, "Rusiyanın imperator hökuməti qanunlarda yaxşı sözlər yazmağı, sonra isə onları təlimatlarla əvəz etməyi çox sevir." Leninin bu sözlərini 1936-cı il Konstitusiyasına aid etmək olar. Vətəndaşların konsitutsiya ilə təmin olunmuş hüquqları nəinki müdafiə olunmur, onların hüquq və vəzifələri çox kobud şəkildə pozulurdu.

Konstitusiyanın on birinci fəsli seçki sistemini müəyyənləşdirdi. 1924-cü il konsitusiya ilə müqayisədə seçki sistemi prinsiplərinə yeni cəhətlər daxil edildi. Seçki hüququndakı məhdudlaşdırmalar (istismarçıların seçki hüququndan məhrum edilməsi) mənasını itirib köhnəldiyi üçün ləğv olundu. 1936-cı il Konstitusiyası hakimiyyət orqanlarının orta və ali pillələrinə çoxdərəcəli seçki sistemini və açıq səsverməni rədd etdi. Ümumi, bərabər, birbaşa və gizli seçki hüququna keçildi. Gizli səsverməyə keçilməsi dövlət aparatına xalq kütlələrinin nəzarətinin gücləndirilməsinə kömək etməli idi.

Beləliklə, SSRİ-də sosializmin Sovet modelinin bərqərar olması 1936-cı il Konstitusiyasında qanunvericilik yolu ilə təsbit olundu. Yeni Konstitusiyaya müvafiq olaraq, 1937-ci ilin dekabrında birinci SSRİ Ali Soveti seçildi.

Lakin yeni Konstitusiya ilə elan edilmiş olan geniş ümumxalq demokratiyası prinsiplərinin ardıcıl surətdə həyata keçirilməsinə Stalinin şəxsiyyətinə pərəstişlə əlaqədar olan özbaşınalıq, təqib və repressiyalar mane oldu. Tarix göstərdi ki, 1936-cı il Stalin Konstitusiyası əsl demokratiya aləti ola bilməmişdir. Onun qabaqcıl prinsipləri cəmiyyət tərəfindən tam qəbul edilmədi, burada da sadə vətəndaşları ittiham etmək mümkün deyildir. Belə ki, Əsas qanun qəbul edilən vaxt ölkə hələ də inqilabi şəraiti unutmamışdır. Sovet cəmiyyətini idarə edənlər sıravi vətəndaşlara qorxu və etimadsızlıq prizmasından baxırdılar. "Bürokratikləşməyə" davam edən Sovetlər məmur özbaşınalığın dayandırmaq yerinə onu daha da şiddətləndirmişdir. Beləliklə, Stalin Konstitusiyası cəmiyyətin sosial dəyişikliklər mexanizmi yerinə qeyri-müəyyənlik şəraiti yaratmışdır.

***Siyasi rejim və kütləvi repressiyalar.*** Partiya daxilində gedən mübarizə ölkənin ictimai-siyasi həyatına olduqca mənfi təsir göstərirdi. Ölkənin idarə edilməsinin inzibati-amirlik metodlarla inkişaf edərək inzibati-amirlik sisteminə çevrilməsi ilə nəticələnirdi. 20-ci illərdə möhkəmlənmiş inzibati-amirlik sisteminin kökləri "hərbi kommunizm" dövrünə gedib çıxır ki, bu dövrdə də bütün məsələlərin həll edilməsinin əsas vasitəsi əmr və sərəncamlar idi. Yeni iqtisadi siyasət illərində bir qədər yumşaldılmış bu sistem sənayeləşdirmə dövründə və ən çox

isə kollektivləşdirmə dövründə daha da inkişaf etdirildi. 30-cu illərin sonlarında isə bu özünün kuliminasiya nöqtəsinə çatdı. Bu sistem iqtisadiyyatda bərqərar olduqdan sonra üstquruma da yayılmışdı ki, bu da sosialist demokratiyasını daha da məhdudlaşdırdı. İnzibati-amirlik sisteminə keçilməsi əslində aşkarlıq və plyuralizmin inkar edilməsi demək idi.

Hələ XVIII əsrdə görkəmli fransız maarifçisi və filosofu Monteskye göstərmişdir ki, "düzgün qaydalarla təşkil edilmiş dövlətdə tək hakimiyyət ola bilməz, bir-birindən asılı olmayan üç hakimiyyət - qanunverici, icraedici və məhkəmə hakimiyyəti mövcud olmalıdır. Hansı formada olursa-olsun onların bir orqanın və şəxsin əlində cəmləşməsi ümumi mənafeyin itirilməsinə, sui-istifadə hallarına və şəxsiyyətin siyasi azadlığının boğulmasına gətirib çıxarır."

Ölkədə bərqərar edilmiş hakimiyyət partiya aparatının siyasi hökmranlığına çevrilmişdi. Hələ 1918-ci ilin martında V.İ.Lenin Paris kommunasının təcrübəsinə əsaslanaraq Sovet hakimiyyəti haqqında belə bir tezis irəli sürmüşdü: "Qanunverici və icraedici dövlət işlərinin birləşdirilməsi". XKS timsalında belə birləşmə həyata keçirilmişdi. Vətəndaş müharibəsi illərində məhkəmə hakimiyyəti Ümumrusiya Fövqəladə Komissiyasının, digər fövqəladə və qeyri-məhkəmə orqanlarının, yerli icra orqanlarının əlində cəmləşmişdir ki, onlar da XKS-ə tabe idilər.

YİS illərində məhkəmə orqanları ilə idarəçilik orqanları arasında funksiyalar bölünmüşdü. Lakin 30-cu illərdə bu ayrılmalar yenidən ləğv edilir. Dövlət, partiya orqanları müntəzəm şəkildə məhkəmə hüquq orqanlarının işlərinə qarışırdılar. Hökmlərin, xüsusilə siyasi işlərə dair hökmlərin məzmunu əvvəlcədən müəyyənləşdirilirdi. 30-cu illərdə sovet cəmiyyəti mülki cəmiyyət olmadığı kimi, sovet dövləti də hüquqi dövlət deyildir və bu haqda söhbət də gedə bilməzdi. 1929-cu ildə siyasi xadimlərdən biri L.M.Koqanoviç deyirdi: "Biz hüquqi dövlət anlayışını rədd edirik."

1936-cı il Konstitusiyasında bir sıra demokratik prinsiplər elan edilmişdi və göstərilirdi ki, ədalət mühakiməsi məhkəmələr tərəfindən həyata keçirilir, hakim müstəqildir və yalnız qanuna tabedir. Əslində 30-cu illərdə ölkədə konstitusiyaya zidd olaraq qeyri-məhkəmə orqanları sistemi fəaliyyət göstərirdi. Siyasi işlərə dair məhkəmələr müxtəlif illərdə Baş Siyasi İdarə (1934-cü ildən Daxili işlər nazirliyi) nəzdindəki Xüsusi müşavirə tərəfindən, çox hallarda isə "üçlük", "ikilik" tərəfindən həyata keçirilirdi. Bir sözlə, ölkədə vətəndaşların hüquqi müdafiəsi üçün heç bir təminat yox idi. Müxtəlif adlar altında fəaliyyət göstərən dövlət təhlükəsizlik orqanları özlərinin başlıca vəzifəsini qorxu, xof və ümumi şübhəlilik yaratmaqda görürdülər. Dövlət orqanlarında işləyən çoxsaylı xəbərçilər ordusu adamların hər addımını izləyirdi. Açıq və gizli xəbərçilik şirnikləndirilirdi. Hər hansı bir adamın hakimiyyətə qeyri-loyal münasibətdə olması şübhə doğururdusa, həmin şəxs çoxsaylı ölüm düşərgələrindən birinə göndərilirdi. Ölkədə açıq məhkəmələrin olmasına, bunlarda məhkumun hüquqlarının vəkil tərəfindən müdafiə edilməsinə baxmayaraq, antisovet fəaliyyətdə şübhəli bilinən adamlar haqqında məhkəməsiz sərt hökmlər çıxaran "Xüsusi müşavirələr" deyilən müşavirələr də fəaliyyət göstərirdi. Dövlətdə belə vəziyyət yeni sovet elitasını tamamilə qane edirdi, çünki onun cəmiyyətdə imtiyazlı vəziyyətini təmin edirdi. Odur ki, həmin elita başlanğıcdan dövlətdə birinci adamın rolunun şişirdilməsinə çalışaraq, həm də bu işdə Rusiya əhalisinin dövlətlə onun başında duran şəxsiyyəti eyniləşdirən, tarixən yaranmış kütləvi şüurundan istifadə edirdi. Bu meyl özünü mitinqlərdə, iclaslarda, qurultaylarda bolşevik partiyasının ali rəhbərlərinin ünvanına deyilən saysız-hesabsız sağlıqlarda, şəhərlərin adlarının onların şərəfinə dəyişdirilməsində, fabriklərə, zavodlara, küçələrə onların adının verilməsində özünü göstərirdi.

20-ci illərdə partiyadaxili mübarizədə qalib gələn Stalin çox böyük, sözün əsl mənasında qeyri-məhdud hakimiyyətə sahib oldu. Onun partiya rəhbəri kimi, qanun çərçivəsi ilə məhdudlaşdırılmayan səlahiyyətləri nəinki xarici, həm də partiyadaxili müxalifətin olmadığı şəraitdə şəxsi hakimiyyət rejiminin möhkəmləndirilməsi imkanlarını genişləndirirdi. Stalin yaranmaqda olan totolitar sistemi öz şəxsi hakimiyyət rejiminin daha da möhkəmləndirilməsinə tabe etdi.

Bu yolda Stalin kütləvi represiyaların genişləndirilməsinə mühüm əhəmiyyət verirdi. Hələ 1928-ci ildə o, belə bir tezis irəli sürmüşdü ki, sosializmə doğru irəlilədikcə Sovet ha-

kimiyyətinin gizli düşmənlərinin qızğın müqavimət göstərməsi ilə əlaqədar sinfi mübarizə kəskinləşir. Bu mülahizə daxili və xarici "düşmən obrazı" yaratmaq, kütləvi repressiyalar təşkil etmək üçün əsas oldu. Bir qayda olaraq kütləvi repressiyalar ideoloji kampaniyalarla müşayiət olunurdu. Bu isə geniş kütlələrin gözündə toplu həbs və edamlara haqq qazandırmaq məqsədi daşıyırdı. "Düşmən obrazı" ilə öz mövqeyini və fəaliyyətini möhkəmləndirməyə ehtiyac duyan sistem 1928-1941-ci illərdə amansız repressiya kampaniyaları keçirmişdir. Onların təşkilinin öz daxili məntiqi və məqsədi olmuşdur. Belə ki, 1920-ci illərin sonu-30-cu illərin əvvəllərində köhnə ziyalılara, 30-cu illərin əvvəllərində "qolçomaqlara", 30-cu illərin birinci yarısında sabiq müxalifətçilərə, 30-cu illərin ikinci yarısında partiya, təsərrüfat və hərbi kadrlara qarşı kütləvi repressiyalar təşkil edilmişdir. Artıq 20-ci illərin sonu – 30-cu ilərin əvvəllərində "Şaxta işi", "Sənaye partiyasının işi", "RSDFP İttifaq bürosunun işi" deyilən açıq məhkəmə prosesləri keçirilmiş, sənayenin ayrı-ayrı sahələrinin mütəxəssisləri guya mühacir, antisovet təşkilatlarının tapşırığı ilə pozuculuq fəaliyyətində ittiham edilmişdi. Müttəhimlərin günahını sübut edən heç bir əsaslı dəlil yox idi. Başlıca dəlillər istintaqın təzyiqi nəticəsində müttəhimlərin özlərinin verməyə məcbur olduğu "etiraflar" idi. Artıq o zaman açıq məhkəmə prosesləri məhkəməsiz kütləvi cəzaları ört-basdır etməyə və onlara bəraət qazandırmağa xidmət edirdi.

1928-1930-cu illərdə çox sayda görkəmli alim, mühəndis və idarəçilər repressiyanın qurbanı oldular. Onlar arasında vətən elminin təmsilçiləri H.D.Kondratyev, A.V.Çayanov, S.F.Platonov, E.V.Tarle, L.K.Ramzin, aviakonsistruktorlar D.P.Qriqoroviç, N.N.Polikarpov və b. var idi. 1930-1931-ci illərdə 3 min nəfərdən çox sabiq çar ordusu zabiti repressiyaya uğramışdır.

Stalin partiyanın ona danışıqsız tabe olması məsələsinə böyük diqqət yetirirdi. 1929-cu ildə Trotski ölkədən sürgün edilmişdi. 30-cu illərin əvvəllərində Stalinin siyasəti ilə razı olmadıqlarını bu və ya digər şəkildə bildirən bir sıra görkəmli partiya xadimləri təqiblərə məruz qalmışdı. Onlardan bəziləri partiya sıralarından xaric edilmiş və həbs olunmuşdu.

1932-ci ildə yaradılan və Moskva rayon partiya təşkilatlarından birinin keçmiş rəhbəri M.N.Ryutinin başçılıq etdiyi qeyri-leqal "Marksist-leninçilər İttifaqı"nın üzvləri ən ağır cəzaya məruz qalmışdılar. Bu təşkilat "Stalin və proletar diktaturasının böhranı" adlı xüsusi bir sənəd tərtib edərək, həmin sənəddə Stalinin rejimini məsləkindən dönüb inqilab işinə xəyanət etməkdə ittiham etmişdi. Terror və hədə-qorxu metodları bolşevik partiyasında partiyadaxili demokratiyanın qalıqlarına son qoydu. Lakin Stalin hesab edirdi ki, onun şəxsi hakimiyyət rejiminə müxalif olan qüvvələrin potensialı hələ sona çatmamışdır. Cəmiyyətdə və partiyada müxalifətin kökünün kəsilməsini o xüsusi geniş miqyaslı kampaniyanın keçirilməsi ilə əlaqələndirirdi.

Bəşəriyyat tarixində görülməmiş kütləvi repressiyalar 1934-cü il dekabrın 1-də Leninqradda kommunist partiyasının rəhbərlərindən biri olan Sergey Kirovun Nikolayev adlı bir şəxs tərəfindən öldürülməsi ilə başladı. Sergey Mironoviç Kirov (Kostrikov) (1886-1934) 1904-cu ildən bolşeviklər partiyasının üzvü kimi Qərbi və Şərqi Sibirdə fəaliyyət göstərərək Oktyabr silahlı üsyanının və Vətəndaş müharibəsinin fəal iştirakçısı olub. 1921-1926-cı illərdə Azərbaycan KP MK-nın. 1926-1934-cü illərdə Leninqrad partiya təşkilatının birinci katibi vəzifəsini tutub. 1930-1934-cü illərdə Siyasi Büronun üzvü, 1934-cü ildən eyni zamanda MK-nın katibi olmuşdur.

Belə bir rəsmən təsdiq olunmamış tarixi iddia mövcuddur ki, guya S.M.Kirovun öldürülməsi tapşırığını şəxsən İ.V.Stalin XDİK-nm rəhbəri G.Yaqodaya vermişdir. Başqa bir iddiaya görə isə bu qətl hadisəsinin səbəbkarı şəxsi qısqanclıq zəmnində hərəkət edən L.Nikolayev adlı şəxsdir. Lakin bu bir həqiqətdir ki, özünün siyasi rəqiblərin məhv etmək və terror kampaniyasını gücləndirmək məqsədilə İ.V.Stalin bu hadisədən maksimum dərəcədə istifadə etdi. Bu qətl böyük bir kampaniyanın başlanması üçün bəhanə oldu. Fransa inqilabı dövründə geniş yayılmış "xalq düşməni" termini gündəmə gətirildi. "Xalq düşməni" termini rəsmi olaraq ilk dəfə 1932-ci il avqustun 7-də "Dövlət müəssisələri və kolxozların əmlakının qorunmasına dair" Qanunda yer almışdır. Artıq Kirovun öldürüldüyü gün SSRİ MİK-nin

terrorçular haqqında qəbul etdiyi qanun terror haqqında düşünməyi belə terror aktını həyata keçirməyə bərabər tuturdu. Terrorçular haqqında istintaq işləri ittiham və müdafiə tərəflərinin nümayəndələrinin iştirakı olmadan, hökmən ölüm hökmü çıxarmaq şərti ilə iki həftə ərzində başa çatdırılırdı. Təkcə birinci iki ay ərzində ancaq Leninqradda Kirovun qətlinin təşkilində ittiham üzrə 843 nəfər həbs edilmiş və edam edilmişdi.

Kütləvi həbslər və edamlar bütün ölkəni bürümüşdü. "Xalq düşmənləri" sırasına ilk vaxtlar nə vaxtsa müxalifət fəaliyyətində iştirak edənlər aid edilirdi. 1935-1936-cı illərin təmizləməsi alovlarında məhv edilənlər içərisində keçmiş partiya rəhbərləri Q.Zinovyev və L.Kamenev də var idi.

1936-cı ilin avqustun 19-da Stalinə sui-qəsd təşkil edərək hakimiyyəti ələ keçirməyə cəhd edən terrorçu trotskiçi-zinovyevçi mərkəzin işi üzrə məhkəmə prosesi başladı. Əsas ittihamçı SSRİ-nin Baş prokuroru A.Y.Vışınski 16 nəfər, o cümlədən Q.Zinovyev və L.Kamenev, Q.Y.Yevdokimov, İ.N.Smirnov üçün əsas təşkilatçılar kimi ölüm hökmü tələb etdi. "Günahkarlar" üçün avqustun 24-də ölüm hökmü çıxarıldı və dərhal yerinə yetirildi. "Sağların"rəhbərlərindən hesab edilən M.P.Tomski bu prosessdən sonra avqustun 26-da intihar etdi.

1937-ci ilin yanvarında sabiq müxalifıətçilər G.L.Pyatakov, K.B.Padek, Q.Y.Sokolnikov, N.İ.Muralov, L.P.Srebryakov başda olmaqla 17 nəfər üzərində məhkəmə işi başladı. Mühakimə olunanlara qarşı standart günah əməlləri, o cümlədən terrorizm, ziyankarlıq, SSRİ-nin müdafiə qabiliyyətini zəifldən cəsusluq fəaliyyəti və s. irəli sürüldü. Yanvarın 23-də başlayan bu ikinci Moskva prosessi "trotskiçi-zinovyevçi mərkəzin" işinin davamçıları kimi kütləvi təxribatlar törətməkdə ittiham edilirdilər. Əvvəlkilər kimi bu məhkəmə tamaşası da cəmi bir həftə çəkdi, ittiham olunanlar öz günahların "tam etiraf" etdilər. 13 nəfər ölüm hökmünə, 4 nəfər isə uzunmüddətli həbs cəzasına məhkum edildilər. İkinci məhkəmə prosessi xalq təsərrüfatı və partiya kadrları üzərində qurma məhkəmə işlərinə yol açdı. 1937-ci ilin əvvəllərində Stalinin ÜİK (b) P MK-nın fevral-mart plenumunda "Trotskiçilər və digər ikiüzlülər" adlı məruzə ilə çıxış etməsindən sonra ölkəni yeni repressiyalar dalğası bürüdü. Həmin məruzədə Stalin partiyada və cəmiyyətdə kütləvi təmizləmələr aparmağa çağırdı. Milyonlarla insan partiya, sovet, təsərrüfat rəhbərləri, hərbi rəhbərlər, elm və mədəniyyət xadimləri, fəhlələr və kəndlilər, hətta dövlət təhlükəsizlik orqanlarının işçiləri bu təmizləmələrin qurbanı oldu. Günahın yeganə sübutu vəhşicəsinə işgəncələr, şantaj və yalan yolu ilə müttəhimlərdən qoparılan şəxsi etiraflar idi. Repressiyaya məruz qalanların böyük əksəriyyəti edam edilmiş və məhkəməsiz uzun illər məhkum edilmişdi. Düz iki il repressiyaların şiddəti zəifləmədi.

1938-ci ilin martında sağtrotskiçi antisovet bloku haqqında 21 nəfəri əhatə edən Moskva prosesi başladı. N.İ.Buxarin, A.İ.Pıkov sağ təmayülün rəhbərləri kimi, sabiq Daxili İşlər Komissarı Q.Q. Yaqodanı, Kremlin həkimlərin, S.M.Kirov, V.V.Kuybışev, A.M.Qorkinin ölmündə, Stalinə qarşı sui-qəsddə təqsirli hesab edərək edam etdilər. Hətta N.İ.Buxarini 1918-ci ildə F.Kaplanın V.İ.Leninə qarşı törətdiyi sui-qəsdin iştirakçısı kimi belə damğaladılar. Şəxsi ağır fiziki işgəncələrə məruz qalan mühakimə edilənlər öz həyatlarını və yaxınlarını qorumaq üçün özləri haqqında yalan ifadələr verərək törətdikləri əməllər üçün xaricdə olan L.D.Trotskidən və alman faşistlərindən tapşırıq aldıqlarını etiraf edirdilər. Mart ayının 2-dən 13-ə kimi davam edən bu üçüncü Moskva prosessində V.İ.Leninin vaxtında Siyasi Büronun üzvü olmuş N.İ.Buxarin, A.İ.Rıkov, trotckiçi N.N.Krestinski, Avropa inqilabı hərəkatının görkəmli xadimi X.Q.Rakovski və b. mühakimə olunanlar sırasında idi. Rəsmi "tamaşanın" hakimi 21 nəfərdən 18 nəfəri ölüm hökmünə, 3 nəfəri isə uzunmüddətli həbs cəzasına məhkum etdi. "Bütün partiyanın sevimlisi", Leninin ifadəsilə "bizim Buxarçik" Nikolay Buxarinin 1918-ci ilin avqustunda sol eserlərlə əlbir olaraq V.İ.Leninə sui-qəsddə iştirakı fərziyyəsi onun "ata qatili" kimi damğalanmasına, İ.V.Stalinin tarixdə Leninin işinin yeganə davamçısı kimi yer tutmasına xidmət edirdi.

Ordunun özündə də narazılıq artırdı. M.N.Tuxaçevski, İ.E.Yakir. İ.P.Uboreviç və başqaları ordu quruculuğunun köhnə metodlarına qarşı çıxış edirdilər. Marşal M.N.Tuxaçevski

və onun tərəfdarları bildirdilər ki, yeni şəraitdə ordu mexanikləşdirilməlidir və süvari orduya çəkilən xərclər azaldılmalıdır ki, bununla da onlar ordunun veteranları hesab olunan vətəndaş müharibəsi qəhrəmanları K.Y.Voroşilov və S.M.Budyonının köhnə psixologiyasına qarşı çıxırdılar. Bu şəraitdə XDİK gestapo ilə birlikdə 1937-ci ildə hərbi sovet xadimlərinin İ.Stalinə qarşı sui-qəsd təşkil edilməsinə dair uydurma "iş" qurdular. Qızıl ordunun komandirləri marşal M.N. Tuxaçevski, İ.P.Uboreviç, İ.E.Yakir və başqaları həbs edilərək edam cəzasına məhkum edildilər. Edam cəzası çıxaran tribunalın üzvləri marşallar S.M.Budyonnı, V.K.Blyuxer, A.İ.Yeqorov və başqalarının çoxu 1938-1939-cu illərdə repressiyaya məruz qalaraq güllələndilər. Repressiyalar bütün zabit heyətini bürüdü. 1937-1938-ci illərdə "Tuxaçevskinin işi" üzrə repressiyaya həm də hərbi sahədə qabaqcıl alim və mühəndislər A.N.Tunolev, S.P.Korolyov və başqaları da məruz qaldılar. Demək olar ki, xarici kəşfiyyat kadrları tamamilə məhv edildi. Hərbi əməliyyat təcrübəsi olan, hazırlıqlı hərbi birləşmələrin komandirlərindən tutmuş polk komandirlərinə kimi Qızıl ordunun komanda heyətinin 90%-i həbs düşərgələrinə salındı. Bir çox zabit tutduğu vəzifədən azad edilərək partiya sıralarından xaric edildi. 8 nəfərin güllələndiyi, 980 nəfər komandir və siyasi işçinin məhkum edildiyi hərbiçilər əsasən 1923-1925-ci illərdə Hərbi Akademiyada təhsil alarkən partiya yığıncağında Trotskinin təfərdarlarının qətnaməsinə səs verənlər idi. Repressiyalar bütün regionları və respublikaları əhatə etdi. Azərbaycanda 200 minə yaxın və ya yaşlı əhalinin 15%-i repressiyaya məruz qalmışdı. Qanlı repressiya dalğası Ukraynanı, Belarusiyanı, Orta Asiyanı, Rusiyanın vilayətlərini bürüdü. Yalnız 1938-ci ilin sonu 1939-cu ilin əvvəllərində repressiyaların miqyası azaldı. Buna baxmayaraq, onlar insanların şüurunda sistem qarşısında qorxu və onun önündə gücsüzlük hissinin dərindən kök salmasında böyük rol oynayırdılar.

Ümumiyyətlə, bu dövrdə on minlərlə günahsız adam donosçular sayəsində "əksinqilabçı" damğası ilə həbs olunaraq cəza çəkmək üçün Baş Düşərgə İdarəsi (QULAQ) sistemindəki həbsxanalara göndərildilər. Belə məhbusların əməyindən meşə ağac emalında, yeni zavod və dəmir yollarının tikintisində istifadə olunurdu. 1930-cu illərin sonlarında Baş Düşərgə İdarəsi sistemində 50-dən çox həbsxana, 420-dən çox islahetmə məntəqəsi, yetkinlik yaşına çatmayanlar üçün 50 məntəqə fəaliyyət göstərirdi. Rəsmi məlumatlara əsasən 1930-cu ildə burada 179 min, 1935-ci ildə 839,4 min, 1937-ci ilin sonunda isə 996,4 min nəfər məhbus var idi. 1938-ci il iyulun 1-nə olan məlumata əsasən SSRİ XDİK Baş Düşərgə İdarəsi əmək məskun məntəqəsi növbəsinin qeydiyyatında 997329 nəfər əmək köçməni var idi ki, onlar da 1741 əmək məskun məntəqəsində yaşayırdılar. Lakin həqiqətdə məhbusların sayı daha çox idi. Bunu bilavasitə olaraq SSRİ-də əhalinin sayının artım dinamikası təsdiq edir. Belə ki, 1929-cu il yanvarın 1-dən 1933-cü il yanvarın 1-nə kimi ölkə əhalisi 11 milyon nəfər artdığı halda, 1933-cü il yanvarın 1-dən 1937-ci il dekabra kimi təqribən 2 milyon nəfər azalmışdır.

Düşərgə və koloniyalar SSRİ-də çıxarılan qızıl və xrom-nikel filizinin təqribən yarısını, platin və ağacın üçdə birinə qədərini verirdi. Məhbuslar əsaslı işlərin ümumi həcminin təqribən beşdə birini istehsal edirdilər. Sovet repressiya siyasətinin simvoluna çevrilən Düşərgə idarəsi (QULAQ) 1930-cu ilin aprelində BDSİ-nin nəzdində yaradılmış, oktyabrdan Baş idarə olmuşdur.

Repressiyanın dəqiq miqyası bu günə kimi müəyyən edilməmişdir. Təqribi hesablamalara görə 1930-cu ildən 1953-cü ilə qədər 800 min nəfərə yaxın adam ölüm hökmünə məruz qalmışdır. 18 milyon nəfər adam həbs düşərgələrindən keçmişdir ki, onların da beşdə bir hissəsi siyasi maddə ilə məhkum edilənlər idi.

***Mənəvi inkişafın ziddiyyətləri.*** İctimai şüur üzərində nəzarətin təmin edilməsində qorxu mühüm, lakin yeganə vasitə deyildi. Belə təminatın digər mühüm vasitəsi əhali içərisində total ideoloji təbliğat idi. Bu məqsədlə, dövlət Kommunist partiyasının nəzəri prinsiplərini ideologiyanın əsasına çevirmək xətti götürdü. Bu prinsiplər əsasən Marksın, Leninin əsərlərindən götürülmüşdü. Odur ki, partiyanın ideologiyası marksizm-leninizm adlandırılmışdı. Bununla bərabər, Marksın və Engelsin fikirləri Stalin tərəfindən müəyyən edilən rəsmi siyasətə uyğun olaraq şərh edilir, bu isə çox zaman onların fikirlərinin ilkin məzmununun sadələşdirilməsinə və təhrif olunmasına gətirib çıxarırdı.

Buna baxmayaraq, sovet adamlarının ən azı bir neçə nəsli mükəmməl, məntiqi cəhətdən dügün, yeganə doğru olan marksizm-leninizm nəzəriyyəsi kimi təqdim olunan bütün bu təlimlərin tamamilə qəbul edilməsi ruhunda tərbiyə edilmişdi. RSDF (b) P- PK (b) P- UİK (b) P-Sov.İKP-nin müxtəlif inkişaf mərhələlərindəki siyasəti isə "fəaliyyətdə olan marksizm-leninizm" kimi təqdim olunurdu. Stalinin şəxsiyyəti isə marksizm-leninizmi düzgün şərh edən və təcrübədə həyata keçirən yeganə tarixi şəxsiyyət kimi ön plana çəkilirdi. İnsanları Stalinin yazdığı və dediyi hər bir sözün ədalətli olmasına dərin inam ruhunda tərbiyə etməyə çalışırdılar. Stalin tərəfindən marksizm-leninizmin izahı, nəticə etibarilə onun yaratdığı siyasi və iqtisadi sistemin modelini, onun yeritdiyi siyasəti əsaslandırmağa yönəlmişdi. Partiyada və cəmiyyətdə başqa cür düşünənlər ciddi təqib olunur və xaric edilirdilər. İnsanlar "xalqın düşmənləri" kateqoriyasına aid edilmək və bundan irəli gələn bütün nəticələrin qorxusu altında tam biganəlik göstərməyə, ümumi qəbul olunmuş mülahizələrlə razılaşmağa və öz növbəsində ictimai həyatın müxtəlif sahələrində onları təkrarlamağa məcbur idilər. Partiya, sovet, komsomol və həmkarlar təşkilatlarının işçiləri, ziyalıların peşəkar dəstələrinin nümayəndələri, əhalinin bütün yaş təbəqələrinin şüuruna dünyada birinci sosialist dövlətinin yeganə düzgün inkişaf yolunda olması, partiya və dövlətin tarixində Stalinin xüsusi rol oynaması ideyasını fəal surətdə yeritmək işinə istiqamətləndirilmişdilər. Təhsil və elmi müəssisələrin, ədəbiyyatın və incəsənətin, kütləvi informasiya vasitələrinin, partiya, sovet, komsomol və digər ictimai təşkilatların fəaliyyətinin əsasında kütlələrin şüuruna eyni cür təsir göstərmək dururdu.

Qeyd edilməlidir ki, adətən Stalin özü ideoloji işə istiqamət verirdi. O marksizm nəzəriyyəsinə və tarixinə dair "Leninizmin əsasları", "Leninizm məsələləri", "Oktyabr inqilabı və rus kommunistlərinin taktikası", "Dialektik və tarixi materializm haqqında" adlı bir sıra böyük tarixi əsərlərin, çoxsaylı məqalələrin müəllifi idi. O, bütün humanitar sahənin inkişafının xarakterini və məzmununu tənzimləyən partiya sənədlərinin tərtibində fəal iştirak edirdi. Başqa sözlə, dövrün ideoloji həyatı tədricən onun tərəfindən formalşdırılan totalitar və avtoritar sistem haqqında onun öz təsəvvürlərinə və maraqlarına tamailə uyğunlaşdırılırdı.

Stalinin ideoloji konsepsiyasının təsdiqinin ən yüksək həddi 1938-ci ildə "UİK (b) P tarixinin qısa kursu"nun nəşri oldu. Əsər stalinizmin əsil ensiklopediyası, onun nəzəri-ideoloji ifadəsi oldu. Bu əsərin əhəmiyyəti onda idi ki, onun ictimai həyat məsələlərinin geniş dairəsini əhatə edən əsas müddəaları uzun illər üçün rəsmi ideoloji konsepsiyanı müəyyənləşdirdi. Stalin kitabın təşəbbüsçüsü, baş redaktoru və ayrı-ayrı bölmələrinin müəllifi idi. Stalinin ölümündən sonra "Qısa kurs", bir qayda olaraq, bəzi çatışmazlıqlarına görə tənqidə məruz qalırdı, lakin onun əsas müddəaları 80-cı illərin ortalarına qədər rəsmi sovet ideologiyasının əsasını təşkil edirdi.

Partiyada və xalqda vahid düşüncə yaratmaq 20-30-cu illərdə Kommunist partiyasının bütün ideoloji siyasətinin məqsədi idi. Zahirən bu məqsəd əldə edilmişdi. 30-cu illərin sonu üçün əhalinin əsas hissəsi rəsmi Stalin ideologiyasının göstərişlərinə uyğun olaraq öz fikirlərini açıq ifadə etməyi öyrənmişdi. İnsanların çoxu yazılanların, yüksək tribunalardan deyilənlərin, kitablarda və qəzetlərdə qeyd edilənlərin doğruluğuna həqiqətən inanırdılar. Lakin, bütün amansız diktaturalar və repressiyalar, güclü ideoloji təzyiqlər dövrlərində olduğu kimi, başqa cür düşünən, rəsmi təbliğatın bir çox ehkamlarına və stereotiplərinə şübhə ilə yanaşan insanlar da az deyildi. Gizli müxalifətçilik potensialı qalmaqda idi. 30-cu illərin sonundakı Stalin repressiyaları buna həmişəlik son qoymaq məqsədi güdürdü. Lakin həyat göstərdi ki, müxalifətçiliyin tamamilə kökünü kəsmək mümkün deyil.

Cəmiyyətin mənəvi həyatında bir ideologiyanın inhisarını yaratmaq cəhdi yaradıcılığın, azad inkişafın, insan şüurunda olan ideyalar potensialından istifadənin mümkünlüyü üçün böyük təhlükə törədir, insanın təşəbbüskarlığının qarşısını alır. Bu isə, sovet dövlətinin və cəmiyyətinin inkişafına öz mənfi təsirini göstərmişdi.

***Sovet dövləti və din.*** Dinin dünyagörüşü olduğunu qəbul etməyən ateizm 1920-30-cu illərdə Sovet partiya və dövlət orqanları tərəfindən fəal müdafiə olunurdu.V.İ.Leninin söylədiyi "Biz dinlə mübarizə aparmalıyıq" fikrinə əsasən ateizmin, yəni elmi-materialist dünya-

görüşünün təbliği ilə bərabər hakimiyyət orqanları din xadimlərini və dini yayanları kütləvi həbs cəzasına və təqibə məruz qoymuşdur.

Bolşevik hakimiyyəti 1918-ci il yanvarın 20-də "Kilsənin dövlətdən, məktəbin kilsədən ayrılması haqqında" dekret qəbul etmişdir. Bu sənədə əsasən din vətəndaşların şəxsi işi elan olundu. Eyni zamanda kilsənin dövlət müəssisəsi kimi fəaliyyətinə son qoyuldu.

1922-ci ilin yazından başlayaraq Sovet hakimiyyəti xarici təhlükəni dəf etdikdən sonra daxili "əksinqilab" yuvası hesab etdiyi dini mərkəzlər, xüsusilə pravoslav kilsəsi ilə fəal mübarizəyə başladı. 1922-ci il fevralın 23-də ÜRMİK dindarların sərəncamında olan qiymətli kilsə əmlakının müsadirə edilməsinə dair dekret verdi. Siyasi Büronun üzvlərinə ünvanlandığı 1922-ci il 19 mart tarixli məktubunda V.İ Lenin kilsə və monastrların qiymətli əşyalarını müsadirə edərək bir neçə milyon qızıl manat həcmində fond yaradılmasını, irticaçı din xadimlərinin və burjuaziyanın güllənməsini tələb edirdi ki, onlar bir neçə onillik ərzində müqavimət göstərmək haqqında belə düşünməyə cəhd etməsinlər. Hakimiyyət tərəfindən süni parçalanma və başqa cəza tədbirləri ilə küncə sıxışdırılan kilsə patriarxlığının strukturlarına Dövlət Siyasi İdarəsinin gizli din əleyhinə 6-cı şöbəsi tam nəzarət edirdi.Yevgeni Tuçkovun rəhbərlik etdiyi 6-cı şöbə vasitəsi ilə Sovet hakimiyyəti ölkədə "kilsə siyasətini" həyata keçirirdi.

Dinə qarşı mübarizədə Sovet dövləti ateizm təbliğatından geniş istifadə edirdi. 1925-ci ildə Yemelyan Yaroslavskinin başçılığı altında kütləvi ictimai təşkilat olan, 1929-cu ilin iyununa kimi "Allahsızlar ittiqafı" və ya bundan sonrakı adı ilə "Mübariz allahsızlar ittifaqı" yarandı. 1947-ci ilə qədər fəaliyyət göstərən təşkilat ateist təbliğatının mərkəzi olmaqla yanaşı özünün "Allahsız" nəşriyyatında çoxsaylı qəzet və jurnallar çap etdirirdi. Din əleyhinə çap edilən nəşrlərin sayı durmadan artırdı. 1931-ci ilin noyabrında "Mübariz allahsızlar ittifaqı"nın üzvlərinin sayı 5 milyon nəfərdən çox idi. Ateist işini sinfi mübarizənin mühüm tərkib hissəsi elan edən təşkilat hətta dini SSRİ-də 1937-ci ilə kimi tamamilə ləğv etməyi belə planlaşdırırdı.

1920-ci illərin sonları-30-cu illərin əvvəllərində Sovet hakimiyyəti ölkədəki dini birliklərin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul etdi. 1929-cu il aprelin 8-də RSFSR MİK və XKS "Dini birliklər haqqında" qətnamə qəbul etdi. Sənədə əsasən dini birliklərə xeyriyyə işləri ilə məşğul olmaq qadağan olundu, dindarların müqəddəs yerlərdə toplu şəkildə dini ayinlərin icrası, dini dərslərin tədrisi ləğv edildi. 1930-cu il fevralın 15-də XKS "Dini birliklərin rəhbər orqanlarında əksinqilabçı elementlərlə mübarizə haqqında" qərar qəbul etdi. Qərarda yerli hakimiyyət orqanlarına dini icmaların rəhbərləri üzərində nəzarəti gücləndirməsi tapşırıldı. Sənədə əsasən sovet quruluşuna "düşmən" münasibət bəsləyən adamlar dini birliklərdəki fəaliyyətdən azad edilir, din xadimlərinə qarşı repressiyalar nəzərdə tutulurdu. 1930-1931-ci illərdə Sovet hökumətinin verdiyi bir sıra gizli göstərişlərdə kilsədə xidmət edən din adamlarının üzərinə qoyulan vergilər artırıldı, vergini ödəməyənlərin əmlakı müsadilə olunur, özləri isə digər rayonlara sürgün edilirdi.

Din adamlarına qarşı dövlətin tətbiq etdiyi repressiyaların kuliminasiya nöqtəsini 1937-1938-ci illərdəki Böyük terror dövrü təşkil edirdi. Belə ki, 1937-ci ildə XDİK-nın 00447 saylı gizli əmri ilə "kilsə və təriqət" fəalları "antisovet elementləri" elan edilərək onlara qarşı repressiya tətbiq olunması irəli sürülürdü. Dindarların repressiyası və təqib edilməsi İ.V.Stalinin şəxsi nəzarət altında həyata keçirilirdi. Yalnız 1937-ci ilin avqustundan noyabrına kimi 31.359 "kilsə və təriqətçi" fəalı həbs edilərək mühakimə olunmuş, onlardan 13.671 nəfəri güllələnmə cəzası almışdır. SSRİ Xalq Daxili İşlər Komissarı N.İ.Yejovun İ.V.Stalinə təqdim etdiyi arayışda bu faktlar qeyd olunmuşdur. Tarixçi Dimitri Pospelovskinin təqribi hesablamalarına əsasən 1931-1941-ci illərdə keşişlərin 80-85 faizi məhv və yaxud həbs edilmişdir ki, bu da 45 min nəfərdən çoxdur. Ölkədəki ibadət məbədlərinin sayı inqilaba kimi mövcud olanlardan 58% az idi. İbadət yerlərinin azalmasından istifadə edən hakimiyyət 1938-ci ilin aprelində ÜRMİK Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərən ibadət işləri üzrə Mərkəzi komissiyanı ləğv etdi, bütün dini məsələlər Xalq Daxili İşlər Komissarlığının sərəncamına verildi.

1930-cu illərdə SSRİ-də inzibati-amirlik sisteminin formalaşması başa çatdı. İqtisa-

diyyatın idarə edilməsinin mərkəzləşmiş sistemi, siyasi və iqtisadi idarəçiliyin bir mərkəzdə birləşməsi, ictimai-siyasi həyatda avtoritar rəhbərliyin bərqarar olması bunun səciyyəvi xüsusiyyətləridir. Vətəndaşların və ictimai institutların hüquq və azadlıqlarının məhdudlaşdırılması totalitar siyasi rejimin simvolu olan İ.V.Stalinin şəxsiyyətinə pərəstişin artması və möhkəmlənməsi ilə müşayiət olunurdu. Tarixçilərin böyük əksəriyyəti belə hesab edir ki, 1920-30-cu illərdə SSRİ-də totalitar cəmiyyət meydana gəlib formalaşmışdır.

Totalitarizm latınca totalis sözündən olub tam, bütün deməkdir, dövlətin cəmiyyətin, siyasi həyatın bütün sahələrinə (total) nəzarət etdiyi siyasi rejimlərə deyilir ki, burada da insan tamamilə siyasi hakimiyyətə və hakim ideologiyaya tabedir. Totalitarizmin mahiyyətini aşağıdakı səciyyəvi xüsusiyyətlər əks etdirir. Təkpartiyalılıq, cəmiyyətin bütün həyatının ideologiyalaşdırılması, iqtisadiyyat, mədəniyyət, kütləvi informasiya vasitələri üzərində inhisarçı nəzarət, terrorçu polis özbaşınalığı. Bütün bunlar SSRİ-də mövcud olduğu üçün Sovet dövləti totalitar siyasi rejim kimi səciyyələndirilir. RSFSR və SSRİ-də totalitar rejimin əsası 1918-1922-ci illərdə qoyulmuşdur. Belə ki, proletariatın diktaturası, vətəndaş müharibəsi gedişində bolşeviklərə qarşı olan bütün siyasi müxalifətin ləğv edilməsi, siyasi, iqtisadi, hərbi cəhətdən cəmiyyətin dövlətə tabe olmasını səciyyələndirən "hərbi kommunizm" siyasəti bunu təstiq edir.

1920-ci illərin birinci yarısı ölkədə meydana gələn totalitarizmin əsas xüsusiyyəti ondan ibarətdir ki, bolşeviklərin dövlət və cəmiyyət üzərində tam hakimiyyəti bərqərar olsa da, hakim partiyanın daxilində nisbi demokratiyanı göstərən mübahisə, müzakirə, münasibətlərdə bərabərlik və s. qalırdı. 1920-ci illərin ikinci yarısı-30-cu illər SSRİ-də totalitar siyasi rejimin ikinci mərhələsini təşkil edir ki, bu dövrdə qalib bolşevik partiyası içərisində demokratiyanın bütün əlamətləri ləğv edilərək partiya bir şəxsə - İ.V.Stalinə tabe oldu və ölkədə Stalinin diktaturası, stalinizm yarandı. Müəyyən bir zaman kəsiyində İ.V.Stalin köhnə Lenin qvardiyasını rəhbər partiya, sovet, təsərrüfat aparatından kənarlaşdırılaraq onları aşağı sosial təbəqədən olan adamlarla əvəz etdi. Yeni rəhbər vəzifələrə təyin edilən şəxslər sədaqətlə SSRİ-də totalitar siyasi rejimin simvoluna çevrilən İ.V.Stalinə və stalinizmə xidmət göstərməyə başladılar. Beləliklə, tədricən müstəqil düşünmə qabiliyyəti olmayan, rəhbərə sədaqəti ilə fərqlənən yeni sovet nomenklaturası formalaşdı ki, onlar da dəridən-qabıqdan çıxaraq ölkədə totalitar Stalin siyasi rejiminin meydana gəlib möhkəmlənməsinə, tarixin bir mərhələsini təşkil edən stalinizmin tüğyan etməsinə şərait yaratdılar. 1934-cü ilin yanvarından 1939-cu ilin martına kimi 500 min nəfərdən çox yeni işçi rəhbər partiya və dövlət vəzifəsinə irəli çəkilmişdir. 1939-cu ildə 333 nəfər vilayət, ölkə və milli kommunist partiyaları MK-nın katibinin 293 nəfəri ÜİK(b)P XVIII qurultayının irəli çəkdikləri idi. Faktlar təsdiq edir ki, məqsədyönlü siyasət nəticəsində partiya hakimiyyəti "köhnə bolşevik qvardiyasından" Stalinin irəli çəkdiyi kadrlara keçmişdir.

## SSRİ Böyük Vətən müharibəsi illərində

***Başlanğıc mərhələ. (iyun 1941-noyabr 1942).*** Böyük Vətən müharibəsinin birinci dövrü 1941-ci il iyunun 22-dən 1942-ci il noyabrın 18-nə kimi, yəni Almaniyanın SSRİ-yə hücumundan müdafiə döyüşlərinin bitməsinə – Stalinqrad (Volqaqrad) altında döyüşə kimi olan hadisələri əhatə edir.

Müharibənin ikinci dövrü 1942-ci il noyabrın 19-dan 1943-cü ilin axırına kimi olan dövrü əhatə edir və Stalinqrad altındakı hücumu, Kursku döyüşünü, Dneprin döyüşə-döyüşə keçilməsini əhatə edir. Bu dövr müharibənin gedişində əsaslı dönüş adlanır.

Müharibənin üçüncü dövrü 1944-cü ilin əvvəllərindən 1945-ci il mayın 9-na kimi olan hadisələri, yəni SSRİ ərazisinin və Şərqi Avropanın işğalçılardan azad edilməsi, Hitler Almaniyası üzərində tam qələbə çalınmasını əhatə edir.

Yaponiyanın darmadağın edilməsi Böyük Vətən Müharibəsinə aid edilmir və İkinci dünya müharibəsinin beşinci dövrü hesab olunur. 1939-cu il sentyabrın 1-dən 1941-ci il iyunun 21-nə kimi, yəni Almaniyanın SSRİ-yə hücumuna kimi olan dövr İkinci Dünya

müharibəsinin birinci mərhələsi hesab edilir.

Fransa üzərində qələbədən sonra hitler komandanlığı İngiltərə ilə müharibəni davam etdirərək hazırladığı “Dəniz şiri” planına əsasən Britaniya adasına daxil olmağı nəzərdə tuturdu. Lakin İngiltərəyə qarşı təşkil olunan desant əməliyyatının çətinliyini və Britaniyanın məğlub olacağı təqdirdə onun müstəmləkələrinin Almaniyaya deyil ABŞ və Rusiyaya çatacağını düşünən Hitler bu plandan imtina etdi. O belə hesab edirdi ki, əgər Rusiya üzərində qələbə çalsa onda ABŞ bütün gücünü Yaponiya ilə müharibəyə yönəltməyə məcbur olacaq, İngiltərə isə Almaniya ilə təkbaşına qaldığı üçün təslim olacaq. Odur ki, Hitler qərara aldı ki, Qərbdə müharibəni başa çatdırmadan SSRİ-yə hücum etsin.

SSRİ-yə qarşı “Barbarossa” adlanan müharibə planına əsasən üç ay müddətində ildırım sürətli müharibə, yəni blistkriq nəticəsində Sovet İttifaqı darmadağın edilməli idi. Bu vaxt ərzində alman qoşunları Arxangelsk-Volqa-Həştərxan xəttinə çıxmalı və bu əməliyyat gedişində sovet ordu hissələri sərhəd yaxınlığında mühasirəyə alınıb məhv edilməli idi. “Barbarossa” planının həyata keçirilməsi üç ordu qrupuna həvalə edilmişdir. Əsas zərbəni general-feldmarşal fon Bokun komandanlıq etdiyi “Mərkəz” qrupu vurmalı idi. Onlar sovet birliklərini Belarusiyada məhv edərək mexanikləşdirilmiş qüvvələrin köməyi ilə Moskvanı almağı nəzərdə tuturdular. General-feldmarşal F.Leebin komandanlıq etdiyi “Şimal” qrupu Finlandiya ordusu ilə birlikdə Baltikyanı respublikalar və Leninqrad istiqamətində sovet diviziyalarını məğlub etməli idi. General-feldmarşal Q.Rundştedtin komandanlığı ilə “Cənub” qrupu Rumın ordusunun köməyi ilə Ukraynada sovet hissələrini əzərək Kiyevi tutmalı idilər.

1940-cı il dekabrın 18-də Hitlerin təsdiq etdiyi “Barbarossa” planına görə SSRİ-yə 1941-ci ilin may ayında hücum etmək nəzərdə tutulurdu. Ancaq Almaniya və onun müttəfiqlərinin Yuqoslaviya və Yunanıstana qarşı 1941-ci ilin martında hərbi əməliyyatlara başlaması SSRİ-yə qarşı müharibənin vaxtını dəyişdirərək iyunun 22-nə təyin olunmasına səbəb oldu.

Almaniyanın Sovet İttifaqına qarşı planlaşdırdığı müharibənin siyasi məqsədləri sovet sosialist dövlət quruluşunu dağıtmaq, slavyan və ölkədə yaşayan başqa xalqları “ali irq nəzəriyyəsinə” əsasən fiziki cəhətdən məhv etmək və ya qul halına salmaqdan ibarət idi. 1940-cı ilin mayında Alman hökumətinin qəbul etdiyi “Ost” (“Şərq”) planına görə işğal edilərək əyalətlərə bölünən SSRİ-nin 30 milyon əhalisi, yəhudi və qaraçıların isə hamısı məhv edilməli idi. Məhv edilməkdən kənarda qalanlar qul kimi ali irq hesab edilən almanlara işləməli idi. İşğal altındakı əhali faşistlər tərəfindən təhsil, tibbi xidmət imkanlarından məhrum edilərək tədricən acından ölməyə məhkum olunurdu. 1941-ci il iyunun ortalarında Alman hökuməti Gerinq tərəfindən tərtib edilən “Yeni işğal olunmuş şərq əyalətlərində iqtisadiyyata rəhbərlik üzrə direktivlər” (“Gerinqin yaşıl qovluğu”) sənədində kampaniyanın əsas iqtisadi məqsədi Almaniyanın daha çox ərzaq və neft ələ keçirməyi göstərilirdi. İşğal edilən sovet ərazilərində inzibati hakimiyyət gestaponun başçısı Gimlerə tapşırılırdı.

Uzun müddət SSRİ ilə müharibəyə hazırlaşan faşist Almaniyası 1941-ci il iyunun ortalarında sərhəddə çoxlu canlı və texniki qüvvə yığmışdır. Alman ordusunda 5,5 mln adam, 4,3 min tank və hücum topu, 5 minə yaxın təyyarə, 47,2 min top və minaatan var idi. Almanların hərbi dəniz donanmasında 193 hərbi gəmi və kateri var idi. Sovet ordusunun qərb hərbi dairələrində 2,9 mln adam, 13,6 min tank (o cümlədən 1,5 min KV və T-34), 7,2 min təyyarə (o cümlədən, 1,5 min yeni konstruksiyalı maşın), 53 minə yaxın top və minaatan var idi. Ümumiyyətlə, düşmən sovet ordusundan canlı qüvvə cəhətdən 1,8 dəfə, orta və ağır tanklara görə 1,5 dəfə, yeni döyüş təyyarələri ilə müqayisədə 3,2 dəfə, top və minaatanlara nisbətən 1,25 dəfə üstün idi. Keyfiyyət baxımından köhnə sovet təyyarələri almanlarınkından geri qaldığı halda yeniləri onlardan üstün idi. Köhnə sovet tankı almanlarınkı ilə təqribən bərabər olduğu halda yeni maşınlar düşmən texnikasından çox irəlidə idi. Almanların şəxsi heyətinin say cəhətdən üstün olması onunla izah edilir ki, Almaniyada tam səfərbər edilmiş ordu olduğu halda, SSRİ yalnız müharibə başladıqdan sonra səfərbərlik elan edərək 1941-ci il iyulun 1-də orduya 5,8 mln adam çağrılmışdır.

1941-ci il iyunun 22-də saat 3:$^{15}$ dəqiqədə alman ordusu ölkənin Qara dənizindən Baltik dənizinə kimi olan sərhəddi boyu hücuma keçdi. Səhər saat 4-də Berlindəki sovet səfiri

V.Dekanozova müharibənin başlanması haqqında Alman hökumətinin memorandumu təqdim olundu. Düşmən aviasiyası sərhəd ərazilərinə 400 km dərinliyə qədər bomba yağdırdı, elə müharibənin birinci günü sovet aviasiyası 1800 təyyarəsini itirdi ki, onların da 1489-u havaya qalxmadan elə yerdə məhv edilmişdir.

Müharibənin birinci günü Pribaltika, Qərb və Kiyev xüsusi hərbi dairəsi general F.Kuznetsovun komandanlığı altında Şimal-Qərb, general D.Pavlovun komandanlığı altında Qərb və general M.Kirponosun komandanlığı altında Cənub-Qərb cəbhələri kimi yenidən quruldu, iyunun 24-də Leninqrad hərbi dairəsi general M.Popovun komandanlığı ilə Şimal, 9-cu və 18-ci ordular general İ.Tyulenevin komandanlığı altında Cənub cəbhələrinə çevrildilər. İyunun 23-də Xalq Müdafiə komissarı marşal S.Timoşenkonun sədrliyi altında SSRİ Silahlı Qüvvələri Komandanlığının Baş Qərərgahı yaradıldı ki, bu da avqustun 8-də İ.Stalinin rəhbərlik etdiyi Ali Baş Komandanlıq Qərargahına çevrildi. İyunun 22-si saat 7:15-də Baş Hərbi Şura sovet qoşunlarına fəal hərbi əməliyyatlara başlamaq haqqında direktiv verdi. Cəbhədəki qərargahlar bu direktivi aldıqda artıq sovet diviziyalarının ön hissələri müdafiə döyüşlərinə başlamışdılar, tank və mexanikləşdirlmiş birliklər cəbhə xəttindən uzaqda mövqe tutduqları üçün düşmənə təcili zərbə vurmaq imkanları yox idi. Düşmənin ilk zərbəsini yüngül silahlar və pulemyotlarla silahlanmış sərhədçilər öz üzərinə götürmüşdür.

Müasir yerli və xarici tarixçilərin böyük əksəriyyəti belə hesab edir ki, Almaniyanın 1941-ci il iyunun 22-də SSRİ-yə hücumu faşist Almaniyasının avantyurist və işğalçılıq siyasətinin nəticəsində baş vermişdir. Bununla yanaşı, bir çox publisistlər əsassız olaraq təsdiq edirlər ki, SSRİ 1941-ci ilin yayında Almaniyaya hücum etməyi planlaşdırdığına görə A.Hitler qabaqlayıcı zərbə vurmağa məcbur olmuşdur. Bunu xüsusilə İngiltərəyə qaçan sabiq sovet rezidenti Vladimir Boqdanoviç Rezun (ləq. Viktor Suvorov) 1968-1981-ci illərdə çap etdirdiyi "Buzqıran"("Ledokol") adlı əsərləri silsiləsində iddia edir. Müəllif tarixi həqiqəti görməzdən gələrək belə iddia edir ki, Sovet İttifaqı 1939-cu ilin birinci günündən İkinci dünya müharibəsinin iştirakçısı, səbəbkarı və günahkarıdır. Tarixi fakt olan "Böyük Vətən müharibəsi" haqqında əfsanəni isə sovet kommunistləri uydurmuşlar. Əslində müəllifin bu iddiası yalan üzərində qurulmuşdur, belə ki, 1941-ci ilin yazından başlayaraq Qızıl Ordunun güclü düşmənlə hərbi münaqişəyə girmək üçün hazır olmadığına görə Sovet rəhbərliyi özünü son dərəcə ehtiyyatla aparırdı. Hitler Almaniyasının siyasi və hərbi rəhbərliyi isə Şərq cəbhəsində qələbə çalacaqlarına tam əmin olaraq belə hesab edirdilər ki, SSRİ-ni darmadağın etməklə Britaniya imperiyasına öldürücü zərbə vurmağa və bununla dünya ağalığına yol açmağa müvəffəq ola bilərlər.

Bütün çətinliklərə baxmayaraq sovet qoşunları adətən düşmənə ciddi müqavimət göstərirdilər. İyunun 29-da Alman quru qoşunları baş qərargahının rəisi F.Qalder öz gündəliyində yazırdı: "Cəbhədən gələn məlumatlar təsdiq edir ki, ruslar hər yerdə axırıncı adama kimi döyüşürlər". Sovet ordusu əsgərlərinin müqavimətinə baxmayaraq Almanların "Şimal" ordu qrupu iyulun 10-da Baltikyanı dövlətlərin böyük bir hissəsini işğal edərək Leninqradın uzaq girişinə yaxınlaşdılar. "Mərkəz" qrupu iyulun 10-da iki ay dava edən Smolensk döyüşünə başladı. "Cənub" ordu qrupu iyulun 11-nə doğru Kiyevin 15-20 km-də olan İrpen çayına çıxdılar, sentyabrın axırlarına kimi davam edən Kiyevin müdafiə döyüşləri başladı.

Düşmənin saysız-hesabsız hücumları nəticəsində Belostok-Minsk rayonunda sovet ordusunun Qərb cəbhəsi və Minsk hərbi donanması 418 min nəfər əsgərini itirdi, 323 min nəfər isə almanlara əsir düşdü. Belarusiya strateji müdafiə əməliyyatının məğlubiyyətinin səbəbkarları cəbhə komandanı D.Pavlov, qərargah rəisi V.Klimovski, rabitə rəisi A.Qriqoryev və 4-cü ordunun komandanı A.Korobkov hesab edildi. Onların hamısı 1941-ci il iyulun 22-də SSRİ Ali məhkəməsinin hərbi Kollegiyasının hökmü ilə güllələndi. 1942-ci ilin aprelinə kimi eyni ittihamlarla 30 general güllələnmişdir.

Müharibənin üç həftəsi ərzində Latviya, Litva, Belarusiya, Ukrayna və Moldoviyanın böyük hissəsi düşmənin əlinə keçdi. Alman qoşunları bu vaxt müddətində ölkənin içərilərinə doğru şimal-qərb istiqamətində 450-500, qərb istiqamətində 450-600, cənub-qərb istiqamətində 300-350 kilometr irəliləyə bilmişdir. Düşmənin hücumu yalnız Smolensk rayonunda

dayandırıldı, burada sovet qoşunları iyulun 16-dan avqustun 15 qədər müdafiə döyüşləri təşkil etdilər ki, onun sayəsində komandanlıq Moskva istiqamətində müdafiəni gücləndirmək məqsədilə ölkənin içərilərindən qoşunları çəkib gətirməyə müvəffəq oldu. Mərkəz istiqamətində vəziyyətin bu şəkildə dəyişməsinin bir səbəbi də Hitlerin bütün qüvvələri sovet paytaxtı üzərinə yeritməmək qərarı idi. Avqustun 23-də fyurer öz ordusundan tələb etdi ki, təkcə Moskvanı almaq deyil, Ukrayna və Qafqazın iqtisadi ehtiyatlarına da sahib olmaq lazımdır.

Bu gün nəşr edilən əsərlərin böyük əksəriyyətində 60-cı illərdə A.Nekriçin yzadığı "Güllələnən Qızıl Ordu" əsərində səslənən belə bir fikirlə razıdırlar ki, 1941-ci ildə SSRİ-nin müharibədə hərbi məğlubiyyətinin əsas məsuliyyəti partiya rəhbərliyinin, birinci növbədə isə İ.Stalinin üzərinə düşür. İ.Stalin belə hesab edirdi ki, Sovet İttifaqı heç vaxt öz ərazisində döyüş əməliyyatları aparmayacağına görə hücum müharibəsinə hazırlaşmaq vacibdir. Belə ki, həm də SSRİ-yə qarşı hər hansı bir təcavüz qərb ölkələri proletariatının ümumi üsyanı ilə dayandırılacaq. Odur ki, hücum müharibəsi taktikasına uyğun olaraq 1939-cu ildəki köhnə "Stalin xətti" adlanan sərhəd ləğv edilərək ölkənin içərilərinə doğru ordunun çəkilməsinə səbəb oldu. Bu isə alman qoşunlarını çox sürətlə ölkənin içərilərinə irəliləməsinə şərait yaratmış oldu. İ.Stalinin müharibənin başlaması ilə bağlı yanlış hesablarından biri də ondan ibarət idi ki, 1941-ci ilin əvvəllərindən faşist Almaniyasının SSRİ-yə hücum edəcəyi haqqında çoxsaylı məlumatları ciddi qəbul etməmişdir. Misal üçün iyunun 6-da Baş Qərargah 120 alman diviziyasının qərb sərhədlərində yerləşdirilməsi barədə, yanvardan iyuna qədər SSRİ hava məkanının Alman təyyarələri tərəfindən 150 dəfədən çox pozulmasına dair məlumatlar Stalinə çatdırılmışdır. Gizli kəşfiyyatçı R.Zorge mayın 15-də Tokiodan müharibənin iyunun 22-də başlamasına dair sovet rəhbərliyinə məlumat ötürmüşdür. Aprelin 13-də Çörçill diplomatik kanal vasitəsilə Almaniyanın hücumu haqqında Stalinə xəbərdarlıq etdi. Bütün bunlara baxmayaraq, Stalin bu məlumatları ingilislərin "təxribatı" hesab edərək düşünürdü ki, onlar bununla ikinci cəbhənin açılmasını təmin edərək müharibədə İngiltərənin vəziyyətini yüngülləşdirməyə səy göstərirlər. Hətta ali hərbi rəhbərliyin təkid etməsinə baxmayaraq son ana kimi Stalin qoşunların hərbi döyüş vəziyyətinə gətirilməsi və səfərbərlik elan edilməsi haqqında əmr verməkdən imtina etdi. Həmçinin cəbhəyanı körpülər belə minalanmamış olaraq qalırdı. Almanlar hücuma başladıqdan bir neçə saat ərzində cəbhəyanı hərbi hissələr öz müraciətlərinə cavab ala bilmirdilər. Yalnız təcavüzün başlanmasından 4 saat sonra Xalq Müdafiə Komissarlığı tələb olunan əmri verdi.

Alman faşist qoşunlarının qəflətən hücum etməsi, sovet dövlət və partiya rəhbərliyinin başda İ.Stalin olmaqla Ordunun döyüş hazırlığı vəziyyətinə gətirməməsi düşmənin sürətlə ölkənin içərilərinə doğru irəliləməsinin başlıca səbəblərindən biridir. Üç cəbhə – Qərb, Şimali-Qərb və Cənub-Qərb ordularının əsas qüvvələrinin faciəvi məğlubiyyəti göstərdi ki, sovet ordusu Qərargahdan tutmuş sıravi əsgərinə kimi müharibəyə hazır deyildir. Say tərkibinin artmasına baxmayaraq sovet ordusu keyfiyyət hazırlığına görə düşməndən geri qalırdı, piyadaların hərbi hazırlığına əsas diqqət yetirildiyi üçün zirehli tank qoşunlarının və aviasiyanın hazırlığına lazımi diqqət ayrılmamışdır ki, bu da ordunun zərbə gücünü azaldırdı. Hərbi sənaye 1941-ci ilin sonuna qədər köhnəlmiş silahların kütləvi istehsalı ilə məşğul olurdu ki, bütün bu "dünənki günün" silah növləri isə müharibənin ilk vaxtlarından alman silahlarına uduzduqları üçün sovet ordusu uğursuzluğa düçar olurdu. Düzdür, gec də olsa, sovet ordu hissələri müasir Yak-1, Laqq-3, Miq-3 qırıcı təyyarələri, orta T-34 və ağır KV tankları ilə təmin edilməyə başlandı. Sovet ordu hissələrinin yalnız 15 faizi müasir təyyarələrlə, 25 faizi isə müasir tanklarla təmin edilmişdir ki, bu da düşmən qüvvələri ilə müqayisədə çox az idi.

1941-ci ildə sovet qoşunlarının hərbi uğursuzluqlarının səbəblərindən biri də 1937-1938-ci illərdə ordunun komanda heyəti içərisində aparılan təmizləmə və repressiyalar idi. Repressiyalar nəticəsində fiziki cəhətdən məhv edilən hərbi komandirlərin yerinə təcrübəsi olmayan və ya həbs düşərgələrindən azad edilmiş mənəvi sarsıntı keçirən komandirlər təyin edilmişdir ki, onlar da ilk döyüşlərdə məğlubiyyətlərə səbəb olurdular. Müharibənin əvvəllərində yalnız 10 faiz komandirin ali təhsili var idi, onlardan 75 faizi bir ildən də az bir

müddətə öz vəzifələrinə təyin edilmişdilər.

Bütün bunların müqabilində alman qoşunlarının Avropada iki illik müharibə təcrübəsi, zabitlərin isə müasir müharibə aparmaq səviyyəsi yüksək idi ki, bu da onların qələbəsini təmin edən amillər hesab oluna bilər. Eyni zamanda Almaniya SSRİ ilə müqayisədə mühüm iqtisadi və hərbi-strateji üstünlük əldə etmişdir. Sovet İttifaqına zərbə vurmaq məqsədilə Alman dövləti təkcə özünün deyil müttəfiqlərinin, Avropanın asılı və işğal edilmiş ölkələrinin də ehtiyyatlarını səfərbər etmişdir.

Müharibənin ilk vaxtlarındakı hərbi uğursuzluqlara baxmayaraq ölkə əhalisinin faşist təcavüzünü dəf etmək məqsədilə səfərbər olunması başlandı. 1941-ci il iyunun 30-da qərar və göstərişləri qanun gücündə olan fövqəladə hakimiyyət orqanı Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. DMK-nin tərkibinə İ.V.Stalin, V.M.Molotov, K.Y.Voroşilov, G.M.Malen-kov, L.P.Beriya daxil oldular. DMK-nın sədri İ.V.Stalin 1941-ci il iyulun 3-də radio ilə xalqa müraciət edərək başlanmış müharibəni ümumxalq, Vətən müharibəsi kimi qiymətləndirdi. DMK bütün sosial-iqtisadi və hərbi ehtiyatları səfərbər etməklə ölkənin müdafiəsini təşkil etmək məqsədilə bir sıra tədbirlər gördü. Hərbi əməliyyatların davam etdiyi rayonlarda və cəbhəyanı ərazilərdə hərbi vəziyyət tətbiq olundu. Düşmən işğalı təhlükəsi olan ərazilərdəki adamlar və sənaye avadanlığı ölkənin şərq rayonlarına köçürülməyə başlandı. İyunun 24-də yaradılan Köçürmə Şurasına əvvəlcə L.Kaqanoviç sonra isə N.Şvernik başçılıq etməyə başladı. L.P.Beriyanın başçılıq etdiyi Xalq Daxili İşlər Komissarlığına kömək məqsədilə ölkənin strateji obyektlərini qorumaq və diversantlarla mübarizə üçün xüsusi qırıcı batalyonlar yaradıldı. 1941-ci ilin iyulunda hərbi komissarlar institutu bərpa edildi.

Ölkəni vətənpərvərlik hərəkatının yüksəlişi bürüdü. Hücum edən düşmənə xalqın qəhrəmancasına müqaviməti kütləvi xarakter aldı. 1941-ci il iyunun 26-da kapitan N.F.Qastellonun heyəti alov bürümüş bombardmançı təyyarəni düşmənin maşın karvanı üzərinə yönəldərək onları məhv etdi. Təqribən 73 gün döyüşkən Odessa düşmən hücumunu dəf etdi. 1941-ci ilin dekabr ayının əvvəlinə kimi Finlandiyada Xanko burnundakı sovet hərbi-dəniz bazası müdafiəni qoruyub saxladı. Brest qalasının mərd müdafiəçiləri bir aydan çox düşmən qüvvələrinə müqavimət göstərərək bütün ölkədə qəhrəmanlıq simvoluna çevrildilər.

Adamlar könüllü olaraq cəbhəyə yollanmaq məqsədilə hərbi komissarlıqlara tələsirdilər. 1941-ci il iyulun 4-də DMK xalq yığma qoşununun yaradılması haqqında qərar qəbul etdi. Tez bir zamanda yaşına və ya səhhətinə görə orduya çağrılmayan bir milyon nəfərə kimi insan xalq yığma qoşunu sıralarına yazıldı. 40-a yaxın xalq yığma qoşunu diviziyaları hərbi əməliyyatlarda iştirak etmişdir.

Bütün bu tədbirlərə baxmayaraq, alman ordusu Leninqrad, Smolensk-Moskva və Kiyev olmaqla üç istiqamətdə dayanmadan irəliləyirdilər. Buna baxmayaraq, sovet əsgərlərinin misilsiz gücü və itkisi hesabına üçüncü həftənin sonunda düşməni ləngitmək mümkün oldu. İyul ayında marşal S.Timoşenkonun komandanlığı altında Qərargahın ehtiyat qüvvələrindən yaradılan Qərb cəbhəsi Smolensk istiqamətində düşmənin qarşısını kəsdi və 1941-ci il iyulun 10-dan sentyabrın 10-na kimi Smolensk döyüşü başladı. Müdafiə və hücum əməliyyatlarından ibarət olan Smolensk döyüşünün məqsədi alman qoşunlarını Moskvaya buraxmamaq idi. Düşmən canlı qüvvə, top, minaatan, təyyarə cəhətdən Qızıl Ordudan üstün, tanklara görə isə nisbətən geri qalırdı. Smolensk altında ağır döyüşlər gedirdi. Bu döyüşlər gedişində Qızıl ordu hissələri iki dəfə iyulda Roqaçov, avqust-sentyabrda Yeln altında əks hücuma keçib düşmən əsgərlərinə zərbə vurdu. Smolensk döyüşündə Orş altında ilk dəfə yeni reaktiv minaatan ("katyuşa") tətbiq edildi. 1941-ci il sentyabrın əvvəllərində G.K.Jukovun komandanlıq etdiyi ordu Yeln şəhəri çıxıntısında düşməni ağır məğlubiyyətə uğratdı. Bu qələbənin çox böyük mənəvi-psixoloji təsiri var idi. Böyük Vətən müharibəsi gedişində ilk dəfə olaraq Qızıl Ordu vermaxtı ağır məğlubiyyətə düçar etmiş oldu.

Sovet İttifaqı marşalı Jukov Georgi Konstantinoviç (1896-1974) Kaluqa quberniyasında anadan olmuş, Birinci Dünya müharibəsində kiçik zabit kimi iki dəfə Georgiyev xaçı ilə təltif edilmişdir. Vətəndaş müharibəsində eskadron komandiri olub. Böyük Vətən müharibəsinin ən parlaq və istedadlı sərkərdələrindən biri olan G.K.Jukov haqqında əsgərlər belə deyirdilər:

“Jukov olan yerdə qələbə vardır”. Strateji düşüncə qabiliyyəti, görkəmli təşkilatçılıq bacarığı, polad kimi möhkəm iradəsi və iti zəkası onun səciyyəvi xüsusiyyətləri idi. Böyük Vətən müharibəsində ali hərbi vəzifələr tutan sovet marşalı 1945-1946-cı illərdə Almaniyadakı sovet ordu qrupuna başçılıq etmiş, ölkənin quru qoşunlarının, hərbi dairələrin baş komandanı olmuşdur. 1955-1957-ci illərdə SSRİ-nin Müdafiə Naziri kimi vətənə xidmət göstərmişdir. G.K.Jukovun komandanlığı ilə Yeln çıxıntısında ilk böyük məğlubiyyətini alan düşmənin Smolensk döyüşü sayəsində strateji blistkriq hücum planı pozuldu. Moskva istiqamətində hücumu dayandırmağa məcbur olan almanlar avqustun 25-30-da Dneprə çıxaraq sağsahil Ukraynanı işğal etdi.

Kiyevi müdaifə edən sovet ordu hissələrinin mühasiriyə düşmək təhlükəsi yarandı. G.K.Jukovun başçılıq etdiyi Baş Qərargah təklif etdi ki, sovet qoşunları Kiyevi tərk edib Dneprin arxa tərəfinə çəkilsinlər. Lakin siyasi məqsədlərlə İ.V.Stalin bu təkliflə razılaşmadı və G.Jukov vəzifədən uzaqlaşdırıldı və o Ehtiyat cəbhənin komandanı təyin edildi. Marşal B.M.Şapoşnikov onun yerinə Baş Qərərgah rəisi oldu. Ancaq sentyabrın 17-də İ.Stalin vəziyyətin çıxılmaz olduğunu görərək Cənub-Qərb cəbhəsinə Kiyevi tərk etməyə icazə verdi. Bu gecikmiş qərar idi. Sentyabrın 15-də almanların tank diviziyaları qarşı-qarşıya gələrək sovet qoşunlarını mühasirəyə aldılar. 450 mindən çox əsgər, o cümlədən, 60 min zabit mühasirəyə düşdü. Çoxsaylı sovet dəstələri ayrı-ayrılıqda mühasirəni yarmağa cəhd göstərdilər. Bu əməliyyatların gedişində cəbhə komandanı M.Kirponos, qərargah rəisi V.Tupikov, Hərbi şuranın üzvü M.Burmistenko həlak oldular. Çoxlu silah və hərbi texnika düşmənin əlinə keçdi. Beləliklə, sentyabrın 20-də Kiyev düşmən tərəfindən işğal olundu. 1941-ci il sentyabrın axırlarında almanlar bütün Baltikyanı respublikalar və Belarusiyanı, Ukraynanın böyük hissəsini, RSFSR-in Pskov və Leninqrad vilayətlərini, Novqorod, Kalinin, Smolensk, Bryansk vilayətlərinin bir hissəsini işğal etmişdir.

Avqust ayında faşist işğalçıları Leninqradın girəcəyinə çıxdılar. Avqustun 30-da onun ölkə ilə dəmir yol əlaqəsi kəsildi. Sentyabrın 6-da Leninqrad şəhəri bombalanmağa başlandı. Sentyabrın 8-də almanlar Şlisselburqu tutaraq şəhəri qurudan mühasirəyə aldılar. Leninqradın ətrafındakı Pulkovo və Kolpino altında ciddi müqavimətlə üzləşən düşmən mühasirəyə keçdi. Bu zaman şəhərdə 2,5 milyon əhali var idi. Düşmən hücumu nəticəsində Leninqrad Svir, Volxov, Rauxial elektrik stansiyalarından, bombardman və yanğın sahəsində bir neçə min ton un və qənd saxlanan qədim Badayev anbarlarından məhrum oldu. Fəhlələr sutkada 250, qulluqçu, uşaq və himayədarlar 125, Leninqrad cəbhəsinin əsgərləri 500 qr çörək norması alırdılar. Yanacaq çatışmazlığı üzündən şəhər nəqliyyatı, su, kanalizasiya, istilik sistemi işləmir, evlərə elektrik enerjisi verilmirdi. Bütün bu ağır məhrumiyyətlərə baxmayaraq, şəhər döyüşməkdə davam edir, hərbi məhsul istehsal edərək Leninqrad cəbhəsini təmin edirdi. Düşmən mühasirəsində olan Leninqrada ərzaq Ladoqa dənizi vasitəsilə, qışda isə buz üzərində salınmış “həyat yolu” ilə çatdırılırdı. Buz yolu 1942-ci ilin aprelinə qədər mövcud olmuşdur və bu yolla 262 419 ton ərzaq daşınmışdır. 1942-ci ilin yanvar-aprel aylarında bu yolla 554186 nəfər adam təxliyə edilmişdir. Leninqradın qəhrəman müdafiəsi sovet adamlarının mərdlik simvoluna çevrildi. 1943-cü il yanvarın 18-də sovet qoşunlarının hücumu sayəsində Şlisselburq düşmən işğalından azad olundu, Ladoqa gölünün sağ sahili işğalçılardan təmizləndi, 900 gün davam edən mühasirədən sonra ölkə arasında 8-11 km enində cığır açıldı. Leninqradın mühasirəsinə tamamilə 1944-cü il yanvarın 27-də son qoyuldu. Tarixçilərin son hesablamalarına görə aclıq, xəstəlik, bombardman və başqa müasirənin ağırlığından Leninqradın bir milyona yaxın əhalisi ölmüşdür.

1941-ci ilin avqustunda Qərargah 225 №-li əmri imzaladı, tələb olundu ki, “döyüş vaxtı fərqlənmə nişanlarını çıxaran və əsir düşənlər ən qatı fərarilər hesab olunsun, onların ailələri andı pozub və vətəni satanlar kimi həbsə məhkum edilsin.” Fərarilər yerindəcə güllələnməli idi. Onların bilavasitə cəbhəyanı ərazilərdə ləğv edilməsi 1941-ci ilin iyulunda yaradılmış Xalq Daxili İşlər Komissarlığının xüsusi şöbəsinə həvalə edilmişdir. 1943-cü ilin aprelində DİK-nın Xüsusi Şöbə İdarəsi ləğv olunaraq onun yerində V.Abakumovun başçılığı ilə “Smerş” (“cəsuslara ölüm”) Baş Əks-kəşfiyyat idarəsi yaradıldı.

***Moskva döyüşü.*** 1941-ci il sentyabrın 6-da A.Hitler əsasən tank birləşmələri və aviasiyanın gücü ilə Moskva üzərinə hücum haqqında yeni direktiv verdi. Hücum ərəfəsində almanların “Mərkəz” ordu qrupunda bir milyon nəfər adamı birləşdirən 77 diviziya, 14 mindən çox top və minaatan, 1700 tank, 950 təyyarə cəmləşmişdir. Qərb istiqamətindəki sovet qoşunlarının sərəncamında 770 tank, 364 təyyarə, 9150 top və minatan var idi. Rəsmi məlumatlara əsasən düşmən canlı qüvvə cəhətdən 1,4, aviasiyada 2, tanklarda 1,7, artilleriyada 1,8 dəfə sovet ordusu ilə müqayisədə üstün idi. Bəzi müasir tədqiqatçılar belə hesab edir ki, bu göstəricilər bir qədər şişirdilmişdir. Almanların “Mərkəz” ordu qrupuna qarşı İ.S.Konev, S.M.Budyonnı və A.İ.Yeremenkonun komandanlığı altında Qərb, Ehtiyat və Bryansk cəbhələri dayanmışdır.

1941-ci il sentyabrın 30-da almanlar “Tayfun” adı altında Moskvanı tutmaq əməliyyatına başlayaraq müdafiəni yardılar, Vyazma və Bryansk rayonunda Qərb və Bryansk cəbhəsinin əsgərlərini mühasirəyə alıb məhv etdilər. Yüz minlərlə adam düşmənə əsir düşdü. Qərb və Ehtiyat cəbhələrinin sırada qalan hissələrindən, o cümlədən Qərargahın ehtiyyat qüvvələrindən G.K.Jukovun komandanlığı ilə yeni Qərb, İ.S.Konevin komandanlığı ilə isə Kalinin cəbhələri təşkil olundu. Oktyabrın ortalarında cəbhə xətti Kalinin-Volokolam-Naro-Fomin-Serpuxov istiqamətindən keçirdi. Bu mövqeyin möhkəmləndirilməsi məqsədilə çoxu qadınlardan ibarət olan 450 min nəfər moskvalı səfərbər edildi. Oktyabrın 15-də DMK “SSRİ-nin mərkəzi Moskva şəhərinin köçürülməsi haqqında” qərar qəbul etdi ki, buna görə partiya və dövlət idarələrinin bir hissəsi, diplomatik korpusun hamısı Kuybışev (Samara) şəhərinə köçürülməli idi. İ.V.Stalin müşavirədə Moskva hərbi dairəsinin komandanı general-leytenant P.A.Artyomova əmr verdi ki, Sibirdən kömək gələnə kimi Moskvanın müdafiəsini gücləndirsin. 200 qatar, 80 min yük maşını şəhərdəki diplomatik və dovlət əmlakın Kubışevə daşıdı. Paytaxtın təhvil veriləcəyinə dair qorxulu şayələr yayıldığı üçün minlərlə şəhər əhalisi onu tərk etməyə başladı. Oktyabrın 19-da DMK Moskva və onun ətraf rayonlarında mühasirə vəziyyəti haqqında qərar qəbul etdi. Moskvanın və qərb istiqamətində 100-120 km hüdudların müdafiəsi G.K.Jukova tapşırıldı. V.Stalinin tapşırığı ilə noyabr ayının 7-si, səhər saat 8-də Moskvada Qızıl Meydanda ənənəvi hərbi parad keçirildi, burada iştirak edən ordu hissələri birbaşa cəbhəyə yola düşdü. Noyabrın 15-16-da alman qoşunları Moskva üzərinə yenidən hücuma keçdi. Düşmən şimaldan Klin və Solneçnoqorsk və cənubdan Tula, Kaşiradan Moskvadan yan keçmək istəyirdi. Qanlı döyüşlər gedirdi. Leninqrad şossesinin Dubosekovo adlanan hissəsində İ.V.Panfilovun 316-cı atıcı diviziyasının 28 döyüşçü-panfilovçusu kiçik siyasi rəhbər V.Q.Kloçkov başda olmaqla öz həyatları bahasına düşmənin tank hücumunun qarşısını kəsdilər. M.Y.Katukovun birinci qvardiya tank briqadası kimi yenidən təşkil edilmiş dəstəsi düşmənin Tula istiqamətində hücumunun qarşısını aldı. Beləliklə, şərq tərəfdən alman qoşunları Moskvanı keçməyə müvəffəq olmadılar və “Tayfun” planı pozulmuş oldu. Buna baxmayaraq, dekabrın 2-3-də düşmən qüvvələri şimal-qərb istiqamətindən Kryukovo və Krasnaya Polyananı tutaraq Moskvanın 25 km yaxınına qədər irəliləyə bildilər. Dekabrın əvvəllərində düşmən Moskvanın girəcəyində tamamilə dayandırıldı. Alman əsgərləri yorulub əldən düşmüş, onların təchizatı pisləşmişdir. Qızıl Ordu Sibir və Uzaq Şərqdən texniki cəhətdən yaxşı təchiz edilmiş 750 min nəfərlik diviziyalarla möhkəmləndirildi. Bu qərar sovet kəşfiyyatının Yaponların hələlik SSRİ-yə qarşı deyil Sakit Okeanda əməliyyatlarda iştirak etmək niyyətini Baş Qərargaha bildirdikdən sonra qəbul edilmişdir. Moskva altında əks hücuma keçməyə hazırlaşan sovet ordusu eyni zamanda Leninqradın cənub-şərqində və Krımda fəal döyüş əməliyyatları aparırdılar ki, bu da Moskva altına əlavə qoşun göndərməyə imkan vermədi. Bununla bərabər vermaxtın qüvvələri 1941-ci ilin dekbarında Xarkov sənaye rayonunu və Donbasın bir hissəsini, demək olar ki, bütün Krımı tutaraq mərdliklə müdafiə olunan Sevastopolu mühasirə etdilər.

Son illərdə nəşr edilnə bir sıra əsərlərin müəllifləri belə hesab edir ki, Moskva altında əkshücum əməliyyatı ərəfəsində Qızıl Ordu artıq canlı qüvvə və aviasiya cəhətdən düşməndən üstün idi, sovet tanklarının düşməninkindən az olması onların keyfiyyətcə düşməninkindən üstün olması hesabına önə çıxırdı. Dekabrın 5-də, gecə saat 3-də 30 dərəcə şaxtada Kalinin

cəbhəsinin qoşunları İ.S.Konevin komandanlığı ilə düşmən üzərinə əks-hücuma keçərək Kalinin (Tver) şəhərini azad edib Rjevə can atırdılar. Dekabrın 6-da hücuma başlayan G.K.Jukovun komandanlıq etdiyi Qərb cəbhəsinin əsgərləri düşmən qüvvələrini ağır məğlubiyyətə uğradaraq Ruze və Volokolamska doğru yönəldilər. S.Timoşenkonun komandanlıq etdiyi Cənub-Qərb cəbhəsinin ordu hissələri Kaluqaya doğru irəliləyirdi. Dekabr ayının ortalarına doğru hər üç cəbhənin əsgərlərinin birgə döyüş əməliyyatları nəticəsində düşmən qüvvələri Moskvanın şimalından 60 km, cənubdan isə 120 km uzağa qovuldu. Dekabrın 15-də Klin, 16-da Kalinin, 20-də Volokolamsk, 30 da Kaluqa alındı. Sovet əsgərlərinin qəhrəmanlığı bu döyüş əməliyyatlarında mühüm rol oynadı. Dəfələrlə onlar öz bədənləri ilə düşmən atəş nöqtələrinə sipər çəkdilər. Qırmızı dənizçilər A.İ.Vaqanov və S.Sanin, serjant V.V.Vasilkovski, sıravilər Y.N.Padern və A.S.Şeşkov, kiçik leytenantlar A.E.Xalin və N.S.Şevlyakov belə qəhrəmanlıq nümunəsi göstərən əsgər və zabitlər idi. Hitlerin hücumu dayandırmaq haqqında qəti əmri olmasına baxmayaraq vermaxtın ordu hissələri işğal etdikləri hüdudlarda möhkəmlənə bilmədilər. Dekabrın sonuna doğru sovet qoşunları cəbhədə 100-250 km irəliləyə bilmişdir. 1942-ci ilin əvvəllərində Leninqraddan başlayaraq Krıma qədər on sovet cəbhəsi hücuma qoşuldu. Aprelin axırlarına kimi əkshücum əməliyyatlarının gedişində Qızıl ordu hissələri 150-400 km məsafə qət edərək 60-dan çox şəhəri və 11 min başqa yaşayış məntəqəsini azad etdi.

Moskva altında qələbə alman ordusunun İkinci Dünya müharibəsində birinci böyük məğlubiyyəti idi. Alman ordusunun məğlubedilməzliyi haqqındakı əfsanə puç oldu, vermaxtın mənəvi gücü sarsıldı. Moskva məğlubiyyətindən sonra generallara bərk qəzəblənən Adolf Hitler dekabr-yanvar aylarında onlardan 35 nəfərini, o cümlədən, Rundşted və Quderianı vəzifəsindən azad etdi. Moskva altındakı məğlubiyyətdən sonra Almaniya öz ordusunun döyüş qabiliyyətini bir daha tam olaraq bərpa edə bilmədi. Eyni zamnada sovet adamları inandı ki, Qızıl Ordu hitlerçiləri darmadağın etmək gücünə malikdir və bu müharibənin qələbə ilə başa çatmasına onlarda inam hissini qəti olaraq möhkəmləndirdi. Moskva altında almanların məğlubiyyətinin çox böyük beynəlxalq əhəmiyyəti var idi. Sovet ordusu 1939-1940-cı illərdə bir çox Avropa dövlətləri koalisiya qüvvələrinin, o cümlədən, Fransa və İngiltərənin alman ordusuna qarşı edə bilmədiklərini etdi və onlara qarşı sipər oldu. Bundan sonra, bütün dünya sovet İttifaqına İkinci dünya müharibəsində almanlara qarşı həlledici qüvvə kimi baxmağa başladı. Moskva döyüşü Almaniya və onun müttəfiqlərinin işğal etdiyi ölkələrdə azadlıq və antifaşist hərəkatını artmasına səbəb oldu. “Barbarossa” planı tam uğursuzluğa düçar oldu. Yaponiya SSRİ-yə qarşı hazırladığı müharibə planını “Kantokuen”i 1942-ci ilin yazına qədər təxirə salmağa məcbur oldu.

***Antihitler koalisiyasının yaranması.*** Alman qoşunları SSRİ ərazisinə daxil olan kimi Böyük Britaniya və ABŞ-ın rəhbərləri işğalçılara qarşı mübarizədə Sovet İttifaqını müdafiə edəcəklərini elan etdilər. 1941-ci il iyulun 12-də Moskvada SSRİ və Böyük Britaniya Almaniyaya qarşı birgə hərəkət etmək haqqında saziş imzaladı. Tərəflər bir-birinə kömək etməyi və qarşı tərəflə seperat saziş bağlamamağı öz üzərlərinə götürdülər. Avqustun 31-də Böyük Brtaniyadan göndərilən ilk ittifaq hərbi yük karvanı Murmanska çatdı.

Hitlerçilərin Sovet İttifaqına hücum etməsinin üçüncü günü ABŞ prezidenti F.Ruzvelt SSRİ-yə kömək etmək niyyətində olduğunu elan etdi. Müharibənin ilk həftələrində ABŞ-da belə hesab edirdilər ki, Qızıl Ordu Almanlar qarşısında uzun müddət davam gətirə bilməz, odur ki, SSRİ-yə kömək etməyin heç bir mənası yoxdur. Lakin 1941-ci ilin iyulunda ABŞ prezidentinin şəxsi nümayəndəsi Q.Qopkins Moskvaya səfər etdikdən sonra Qızıl Ordunun və sovet xalqının yüksək mənəvi əhval-ruhiyyədə olduğunu təsbit edərək prezidentə bildirdi. 1941-ci ilin sentyabrında SSRİ Böyük Britaniya və ABŞ-ın avqust ayında qəbul etdikləri Atlantika xartiyasını müdafiə etdiyini bildirdi. Xartiya zorla ərazi dəyişikliyindən imtina edilməsini, xalqların müstəqillik və idarəetmə formasının seçilməsi hüququna hörmət göstərilməsini elan edirdi. 1941-ci il sentyabrın 29-dan oktyabrın 1-nə kimi Moskvada SSRİ, ABŞ və Böyük Britaniya nümayəndələrinin konfransı oldu. ABŞ və İngiltərə 1941-ci il oktyabrın 1-dən 1942-ci il iyunun 30-na kimi hər ay SSRİ-yə 400 təyyarə, 500 tank, 200 tank

əleyhinə silah, hərbi material göndərməyi öz öhdələrinə götürdülər. Sovet tərəfi hərbi məhsul istehsalı üçün xammal verməyi vəd etdi. İlk dəfə olaraq Sovet dövlətinə bir milyard həcmində faizsiz kredit təqdim olundu. 1941-ci il noyabrın 7-də ABŞ SSRİ-ni lend-liz üzrə kömək alan ölkələr sırasına daxil etdi. İngilis-amerikan yükü Murmans və Arxangelsk, o cümlədən Vladivastok və İran ərazisi vasitəsi ilə daşınırdı.

1941-ci il dekabrın 7-də Yaponiya müharibə elan etmədən Havay adalarında yerləşən amerikanın Perl-Xarbor hərbi-dəniz bazasına hücum etdi. Dekabrın 8-də ABŞ Yaponiyaya müharibə elan etdi. İngiltərə də Yaponiyaya müharibə elan etdi. Dekabrın 11-də Almaniya və İtaliya ABŞ-a müharibə elan etdi. Beləliklə, İkinci dünya müharibəsinin miqyası kəskin şəkildə genişləndi. 1942-ci il yanvarın 1-də Vaşinqtonda 26 dövlətin antifaşist koalisiyası, o cümlədən, SSRİ, ABŞ, İngiltərə və Çin bəyannamə imzalayaraq hərbi və iqtisadi ehtiyatlarını faşist blokuna qarşı mübarizədə istifadə etməyi öz üzərlərinə götürdülər. Bu dövlətlər və sonradan onlara qoşulanlar "Birləşmiş Millətlər" adlandırılmağa başlandı. 1942-ci il mayın 26-da müharibədə müttəfiqlik, müharibədən sonra əməkdaşlıq haqqında ingilis-sovet müqaviləsi, 1942-ci ilin iyununda SSRİ-yə lend-liz üzrə köməyi təsdiq edən sovet-amerikan sazişi imzalandı. SSRİ ilə onun qərb müttəfiqləri olan İngiltərə və ABŞ-ın 1942-ci ildə Avropada ikinci cəbhəni açmaq istəməməsi müttəfiqlər arasında əsas problem olaraq qalırdı. U.Çörçill və F.Ruzveltin mövqeyi bundan ibarət idi ki, iki nəhəng güc – SSRİ və Almaniya bir-biri ilə nüharibədə öz güclərini tükətsinlər. İngiltərə və ABŞ isə dünya miqyasında aparıcı yer tutaraq onlara öz iradələrini qəbul etdirmək imkanı qazansınlar.

### Böyük Vətən müharibəsinin gedişində əsaslı dönüş

***Stalinqrad döyüşü.*** Böyük Vətən müharibəsinin ikinci dövrü Stalinqrad, Kursk döyüşlərini, Dneprin keçilməsini əhatə etməklə 1942-ci il noyabrın 19-dan 1943-cü ilin sonuna kimi olan vaxtı əks etdirir. Bu dövr müharibədə əsaslı dönüşün başlanması və başa çatmasıdır. 1942-ci ilin yazında İ.Stalin cəbhədə yaranmış vəziyyətə düzgün qiymət vermiyərək aprelin 8-də bir sıra cəbhə komandirlərinə hücuma keçmək haqqında göstəriş verərək belə hesab edirdi ki, bununla vermaxtı öz ehtiyatlarından istifadə edərək onu tükətməyə məcbur edib, 1942-ci ildə Almaniya üzərində qələbəni təmin edə bilər. Lakin alman ordularının gücünün tükənməsi hesabı əsassız idi və Baş Qərargahın eyni zamanda müdafiə və hücum taktikası ağır nəticələrə səbəb oldu. 1942-ci ilin aprelindən oktyabrına qədər Qızıl Ordu bir sıra acı məğlubiyyətlərə düçar oldu. 1942-ci il mayın 8-də düşmən Krım cəbhəsindəki ordu hissələrinə ilk zərbəni vurdu. Nəticədə D.Kozlovun komandanlıq etdiyi, Hərbi Şuranın üzvü F.Samanin, Qərargah nümayəndəsi L.Mexlis olduğu Krım cəbhəsi darmadağın edildi. Mayın 15-də Kerç təslim oldu, çox sayda əsir və hərbi texnika düşmənin əlinə keçdi. 175 min nəfər əsgər və zabiti əsir düşən sovet ordusunun qalıqları Taman yarımadasına çəkildi. Bundan istifadə edən alman-rumın qoşunları fon Manşteynin komandanlığı altında Sevastopol üzərinə hücuma keçdi və iyulun 4-də 250 gün qəhrəmanlıqla müdafiə olunan şəhəri tutaraq Krıma tam hakim oldular. Səkkiz ay ərzində düşmənə mərdliklə müqavimət göstərən Sevastopol işğalçılarının Qafqaza irəliləməsini ləngitdi.

1942-ci ilin mayında Şimal-Qərb və Volxov cəbhələrinin ordu hissələrinin hücum cəhdi uğursuz oldu. Volxov cəbhəsinin ikinci zərbə ordusu mühasirəyə düşdü, ordu komandiri A.A.Vlasov əsir düşərək almanların tərəfinə keçdi. General-leytenant A.A.Vlasov Vinnitsk hərbi düşərgəsində olarkən rus "antistalin hərəkatı"na başçılıq etməyə razılıq verdi. 1945-ci ilin mayın 12-də əsir düşərək sonradan edam edilmişdir. Cənub-Qərb istiqamətində sovet ordusu baş komandan S.Timoşenko, Hərbi Şuranın üzvü N.Xruşşov, qərərgah rəsis İ.Baqramyanın başçılığı ilə İ.Stalinin razılığı əsasında Xarkov rayonunda qismən hücum əməliyyatına başladı, ancaq onlar düşmənin cənub cinahdan əks-hücuma keçə biləcəyi imkanını nəzərə almamışdılar. Eyni zamanda Baş Qərargah rəisi B.Şapoşnikov da bu hücumun əleyhinə idi. Mayın 12-də hücuma keçən Cənub-Qərb cəbhəsinin qoşunları bir neçə gün ərzində 25-40 km irəliləyə bildilər. Lakin 1942-ci il mayın 17-də Kleystin qrupu

gözlənilmədən hücuma keçərək müdafiəni yardı və gün ərzində 20 km irəliləyə bildi. Mayın 18-də Qərargahın ehtiyat qüvvələri ilə düşmənə əks zərbə vurmaq cəhdi uğursuz oldu. Mayın 23-də hücum edən 6-cı alman ordusu bir neçə sovet ordusunu mühasirəyə aldı. Qızıl Ordu 267 min nəfər, o cümlədən, 200 min nəfər əsgər və zabit əsir düşməklə canlı qüvvə, 143 min tüfəng, 9 min avtomat, 652 tank və 1,5 min top, 3,2 min minaatan, 58 min at itirdi. İyulun axırlarına doğru almanlar Donbas və Rostovu tutdular. Beləliklə, bir neçə həftə içində alman ordusu 400 km yaxın irəliləməyə nail oldular ki, bu da sovet əsgərləri içərisində nizam-intizamın pozulmasına və çaxnaşmaya səbəb oldu. 1942-ci il iyulun 28-də İ.Stalin Müdafiə Komissarı kimi məşhur 227 saylı əmri imzaladı, əmrdə ordudan “Bir addım da geri çəkilməmək!” tələb olunurdu. Bu əmrə əsasən orta və böyük zabit və siyasi işçilər qorxaqlıq və s. səbəblərlə intizamı pozduqda cərimə batalyonlarına, sıravi döyüşçülər və kiçik zabitlər cərimə rotalarına göndərilirdi. Hər bir orduda mübarizə dəstələri təşkil edərək səbatsız ordu hissələrinin arxalarında yerləşdirildi ki, təşvişə düşüb geri çəkilən qorxaq və hayküyçüləri yerindəcə güllələsinlər. Bu əmr bir tərəfdən orduda dəmir intizamı təmin etdi, ancaq başqa bir tərəfdən bəraəti olmayan itkilərə səbəb oldu, belə ki, hər cür geriçəkilmə qadağan edildiyi üçün hətta daha əlverişli mövqey tutmaq üçün də geri çəkilmək mümkün olmadığına görə bir çox ordu hissələri bu üzdən mühasirəyə düşüb məhv oldu.

Eyni zamanda qələbələrdən məst olan A.Hitler Moskva üzərinə hücum zamanı yol verdiyi səhvləri iyulun 12-də verdiyi 45 saylı direktivi ilə təkrarlayaraq öz ordusunun iki hücum istiqamətini, bir tərəfdən Xəzər və Qafqaza, başqa bir tərəfdən isə Stalinqrada doğru hücumu müəyyən etdi. Alman komandanlığı belə hesab edirdi ki, Stalinqradı asanlıqla ələ keçirib Volqa ilə Həştərxana kimi irəliləyə bilərdilər. Avqust ayında Kuban vasitəsilə Qafqaz istiqamətində hücuma keçən almanlar heç bir müqavimətə rast gəlmədən avqustun 5-də Stavropolu, 11-də Krasnodarı, 14-də Novorossiyskini tutdular. Hücumu davam etdirən hitlerçilər Böyük Qafqaz sıra dağlarına çataraq öz sivastikalı bayraqlarını Elbrusun zirvəsinə yerləşdirdilər. Onları yalnız Tuapsedən Qara dənizlə ələ keçirə bilmədikləri Orjonikidze və Qrozniya kimi olan xətdə dayandırmaq mümkün oldu. Ordu arxasında yerləşdirilən və hər biri 200 nəfərdən ibarət olan dəstələr 1944-ci ilin oktyabrın 29 –da ləğv edildi. Müharibə vaxtı hərbiçilərin 1,24 %-i cərimə batalyonlarından keçmişdir.

Hitler Almaniyasının “Cənub” ordu birləşməsinin “A” qrupuna Qara dəniz sahili boyu Qafqaz istiqamətində hücum edib Bakının neft rayonların ələ keçirilməsi tapşırılmışdır. “B” ordu qrupu isə Stalinqradı tutaraq Don hüdudlarında müdafiə yaradaraq sovet qoşunlarının əkshücumunun qarşısını almaq vəzifəsini yerinə yetirməli idi. 1942-ci il avqustun 25-də 6-cı alman ordusu F.Paulyusun komandanlığı altında Stalinqradın qərb sərhədinə çıxaraq şəhəri həm də şimaldan mühasirəyə aldılar. Eyni zamanda 4-cü tank ordusu rumın ordu hissələri ilə birlikdə Stalinqrada cənub-qərbdən yaxınlaşdılar. 1942-ci il iyulun 12-də Cənub-Qərb cəbhəsinin əsasında Stalinqrad (komandanı A.Yeremenko), sentyabrın 28-də Don (komandanı K.Rokossovski) cəbhələri yaradıldı. Stalinqrad əhalisi Volqadan o biri tərəfə köçürülməyə başlandı. Şəhərdə əlavə müdafiə xətləri quruldu. İyulun 17-də Stalinqrad döyüşü başladı və noyabrın 18-nə kimi davam etdi ki, bu da müdafiə mərhələsini təşkil edir. Sentyabrın 3-də düşmən Stalinqraddan şimalda Volqaya çıxdı. Sentyabrın 13-də döyüşlər artıq şəhərdə gedirdi. Oktyabrın əvvəllərində düşmən qüvvələri şəhərin böyük hissəsini ələ keçirmişdi. Düşmənin Mamayev kurqanın tutub şimalda traktor zavodunun ərazisinə daxil olmasına baxmayaraq şəhərdə hər ev, hər mərtəbə uğrunda qanlı döyüşlər, o cümlədən, əlbəyaxa döyüşlər gedirdi. Sentyabr-noyabr aylarındakı amansız küçə döyüşləri faşist işğalçılarının hücum gücünü demək olar ki, tükətdi. Odur ki, alman komandanlığı öz qoşunlarını yeni kömək gələnə qədər müdafiəyə keçməyi əmr etdi. Stalinqrad (Volqoqrad) səhərin V.İ.Çuykov, M.S.Şumilov, A.İ.Lopatinin orduları, A.İ.Rodimtsev, İ.İ.Lyudnikovun diviziyaları müdafiə edirdi.Müdafiə döyüşlərində 324 min nəfər sovet əsgər və zabiti həyatını itirmişdir.

1942-ci il avqust-sentyabr aylarında sovet qoşunları Şimali Qafqaz istiqamətində də fəal müdafiə döyüşləri aparırdılar. Avqustun 8-də Maykopu, 25-də isə Mozdoku tutan hitlerçilər bundan o tərəfə irəliləyə bilmədilər. “A” ordu qrupunun dağlı atıcı düşmən əsgərləri Tuap-

senin yoxuşlarında dayandırıldı. Şimali Qafqazda ümumi döyüş mənzərəsi Stalinqrad döyüşünün başa çatmasına qədər dəyişmədi. 1942-ci ilin noyabrına doğru vermaxtın qüvvələri yorulub əldən düşdükdə Qızıl Ordu əlavə yeni qüvvələrlə möhkəmləndirildi. Tank, təyyarə və artilleriya ilə müqayisədə sovet ordusu 1,3-1,5 dəfə üstün duruma gəldi. Sovet qoşunlarının tank parkı KV vəT-34 tanklarından ibarət idi ki, bu da keyfiyyətinə görə düşmən tanklarından üstün idi. Döyüşlərin gedişində Ali Baş Komandanlıq Qərargahı bilavasitə G.K.Jukov və A.M.Vasilevskinin rəhbərliyi ilə alman-faşist ordularını Stalinqrad altında mühasirəyə alıb məhv etmək planını hazırladı. Şərti adı "Uran" olan bu plana əsasən bir milyon nəfər canlı qüvvəsi, 13 min top və minaatanı, 1000 tankı, 1500 təyyarəsi olan Cənub-Qərb (komandiri N.F.Vatutin, Don (Komandiri K.K.Rokossovski) və Stalinqrad (komandiri A.İ.Yeremenko) cəbhələrinin ordu hissələri əks hücuma keçərək düşmənin əsas qüvvələrini mühasirəyə alıb məhv etməli idilər.

"Kiçik Saturun" ("Malıy Saturun") adlanan Kotelnikov və Orta Don əməliyyatları ilə isə Stalinqrad altında mühasirəyə alınmış düşməni xilas etməyə cəhd göstərən ordu hissələrinin qabağı kəsilməli idi. Cənub-Qərb və Don cəbhəsinin sağ qanadının qoşunları 1942-ci il noyabrın 19-u saat 7:30 dəqiqədə düşmən üzərinə əks-hücuma keçdilər. Noyabrın 20-də Stalinqrad cəbhəsinin qoşunları hücuma atıldılar. Noyabrın 23-də Cənub-Qərb və Stalinqrad cəbhəsinin qoşunları Kalaç və Sovetski rayonlarında mühasirəni qapatdılar. Düşmənin 330 min nəfərdən ibarət olan 6-cı döyüş və 4-cü tank orduları mühasirəyə alındı. Dekabrın 12-dən 19-na qədər Qotun ordu birləşmələri Kotelnikov rayonunda müasirəni yarıb F.Paulyusun əsgərlərin və zabitlərin xilas etməyə çalışsa da buna müvəffəq olmadı. Sovet qoşunları hücuma keçərək dekabrn sonunda cəbhədə 200 km dərinlik məsafəsində yeni hüdudlarda möhkəmləndilər. Mühasirəyə düşənlərə havadan yardım etməkdə bir nəticə vermədiyi üçün onların vəziyyəti ümidsiz idi. Stalinqrad döyüşünün yekun mərhələsi "Mühasirə" ("Koltso") əməliyyatı oldu. Mühasirədə olan 22 diviziyanın əsgər və zabitləri aclıq, soyuq və sursat çatışmazlığı üzündən əziyyət çəkirdilər. Lakin buna baxmayaraq, A.Hitler onlara təslim olmaq icazəsi vermədi. Təslim olmaq haqqında sovet təklifini qəbul etmədikdən sonra 1943-cü il yanvarın 10-da Don cəbhəsinin qoşunları hücuma keçərək ayın 26-da Volqa sahili boyu mühasirəni saxlayan V.Çuykovun 62-ci ordusu ilə Mamayev kurqanı rayonunda birləşdilər. F.Paulyusun ordusu iki qrupa bölündü, yanvarın 31-də cənub, fevralın 2-də şimal qrupu təslim oldu. 1943-cü il yanvarın 10-dan fevralın 2-nə kimi hitlerçilər 147 min nəfər itirdilər, 91 min adam, o cümlədən, 2,5 min zabit, başda feldmarşal Paulyus olmaqla 24 general əsir düşdü.

Ümumən 1942-ci il noyabrın 19-dan 1943-cü il fevralın 2-dək düşmən 800 min nəfər canlı qüvvə, iki min tank və döyüş topu, 10 mindən çox top və minaatan, üç minə yaxın döyüş və nəqliyyat təyyarəsi itirdi. İki alman, iki rumın və bir italyan ordusu məhv edildi. 1942-ci il iyulun 17-dən 1943-cü il fevralın 2-nə kimi Qızıl Ordu 478 min nəfər canlı qüvvə, 0,5 milyon atıcı silah, dörd mindən çox tank, 15 min top və minaatan, üç min döyüş təyyarəsi itirdi.

Stalinqrad altında qələbənin çox böyük tarixi əhəmiyyəti var idi. Qızıl Ordunun Volqadan qərbə doğru hücumu alman komandanlığını məcbur etdi ki, öz qoşunlarını Şimali Qafqazdan çəkib aparsın. Almanların Stalinqrad ətrafında məğlub edilməsi faşist koalisiyası arasında ciddi hərbi-siyasi böhrana səbəb oldu. İtalya, Rumıniya, Macarıstan cəbhədəki uğursuzzluq və xalq kütlələrinin narazılığı ilə bağlı böyük çətinliklərlə üzləşdilər. Rumıniya və Macarıstan müharibdən çıxmaq haqqında Qərb dövlətləri ilə seperat danışıqlara başladılar. Bu qələbə sahəsində Avropanın hitlerçilər tərəfindən işğal edilmiş ölkələrində müqavimət hərəkatı daha geniş vüsət aldı. SSRİ-nin işğal olunmuş ərazilərində isə partizan hərəkatı yeni yüksəlişə keçdi. Stalinqrad altında qələbə Böyük Vətən müharibəsində əsaslı dönüşün başlanğıcı oldu. Qızıl Ordu düşmənin əlindən strateji təşəbbüsü alaraq onu müharibənin sonuna kimi davam etdirdi.

Stalinqrad döyüşündəki xidmətlərinə görə 1943-cu ilin yanvarın 18-də G.K.Jukov, fevralın 16-da A.M.Vasilyevski marşal rütbəsi aldılar. Martın 6-da İ.V.Stalin marşal rütbəsi aldı. Bu müharibə başlanandan verilən ilk ali hərbi rütbələr idi.

***Partizan hərəkatı.*** Artıq Moskva altında döyüşlər vaxtı SSRİ-də iki min partizan və gizli qruplar fəaliyyət göstərirdi. Faşistlər tərəfndən işğal edilən ərazilərdə partizanlar kommunikasiya xətlərini xarab edir, alman ordusunun və hərbi idarəsinin arxa obyektlərinə hücum edir, satqınları cəzalandırır, adamların Almaniyaya göndərilməsinə mane olur, təxribatlar hazırlayırdılar. 1942-ci il mayın 30-da Ali Baş Komandanlıq Qərargahı nəzdində Belarusiya KP MK-nın katibi P.Ponomarenko başda olmaqla partizan hərəkatının Mərkəzi Qərargahı təşkil edildi. Cəbhə hərbi şuralarının nəzdində də partizan qərargahları yaradıldı. 1942-ci ilin yayı və payızında partizan hərəkatına 13 min, müharibə müddətində isə 60 min mütəxəssis qoşulmuşdur. Bunlar kəşfiyyatçılar, rabitəçilər, partizan müharibəsi təşkilatçıları və s. ibarət idi. 1942-ci ildə partizan hərəkatı xüsusilə Bryanskin meşə rayonlarını, Smolensk, Oryol, Belarusiya, Ukraynanın meşə hissəsini və Krımı bürümüşdür. 1943-cü ilin payızında 200 min km çox ərazi partizanların tam nəzarəti altında idi. Belarusiyada sayı 50 min nəfərdən ibarət olan 400 partizan dəstəsi fəaliyyət göstərirdi. Orş ətrafında K.S.Zaslonovun komandası altında partizan briqadası döyüşürdü.

1942-ci ilin payızında S.A.Kovpakın və A.N.Saburovun komandası altında üç min nəfər süvari partizan dəstəsinin reydləri şöhrət qazanmışdır. D.N.Medvedevin komandanlığı altında Oryol, Smolensk, Mogilyov, Rovensk, Lvov vilayətlərində, P.M.Maşerovun komandanlığı ilə Belarusiyada partizan dəstələri düşmənə ağır zərbə vuraraq öz adlarını tarixin səhifələrinə həkk etdirdilər. Kursk döyüşü dövründə partizanlar “Rels müharibəsi” əməliyyatı təşkil edərək düşmənin 800-dən çox eşalonunu məhv etdilər. Ancaq 1943-cü ildə partizanlar 11 min qatarı qəzaya uğratmış, 900 dəmir yol, 5,5 min başqa körpülər partlatmışdır. 1941-ci ilin noyabr ayında işğalçılar əlehinə gizli fəaliyyət göstərən Liza Çaykina, partizan qız Zoya Kosmodemyanskaya, gənc partizan Marat Kazeyin və d. igidlik əməlləri partizan hərəkatının parlaq səhifələridir. Partizan hərəkatının xüsusi formalarından biri şəhərlərdəki gizli təşkilatlar idi. Onlar kəşfiyyat məlumatları toplayır, vərəqə və qəzetlər buraxır, təxribatlar törədirdilər. Belə qruplar Odessa, Sevastopol və digər işğal olunmuş şəhərlərdə fəaliyyət göstərirdilər. Krasnodonda 1943-cu ilin fevralında Oleq Koşevoyun “Gənc qvardiya” (“Molodaya qvardiya”) gizli komsomol təşkilatının şöhrəti bütün ölkədə yayılmışdır. Vermaxt getdikcə daha çox hərbi qüvvələrini partizanlarla mübarizəyə ayırmağa məcbur olurdu. Bu isə onların partizanlarla daha amansız rəftar etməsinə gətirib çıxardı. Təkcə 1942-ci ilin mayında “Mərkəz” ordu qrupunun arxasında partizan hərəkatı ilə əlaqə şübhəsi sayəsində 80 min adam almanlar tərəfindən güllələnmişdir. Partizanlarla əlaqə saxlamaq üstündə alman faşistləri bütöv kənd əhalisini belə qurşuna düzmüşlər. 1943-cü ildə partizan hərəkatı özünün ən yüksək nöqtəsinə çatmışdır. 1944-cü ildə partizanlar Belarusiyanın və sağsahil Ukraynasının azad edilməsinə önəmli töhfə verdilər. Sovet İttifaqının işğal olunmuş əraziləri düşməndən azad edildikcə partizan dəstələri döyüşən ordu ilə birləşirdi. Sovet adamlarının düşmən arxasındakı mərd mübarizəsi Sovet İttifaqının Böyük Vətən müharibəsində qələbəsinin mühüm faktorlarından biridir.

***Kursk döyüşü.*** 1943-cü ilin fevralında sovet ordusunun hücumu dayandırıldı. Təşəbbüsü ələ alan almanlar Donbas, Xarkov və Belqorodu tutdular. 1943-cü ilin aprelinə doğru sovet-alman cəbhəsinin mərkəzində Kursk çıxıntısı əmələ gəldi, düşmənin Oryol və Belqorod qruplaşması Sovet ordusu birliklərinin müdafiə cəbhəsini yarmaq təhlükəsi yaradırdılar. Əkshücum müvəffəqiyyətlərindən ruhlanan alman baş qərargahı Orlov-Kursk çıxıntısına güclü zərbə endirməyi nəzərdə tutan “Sitadel” əməliyyat planın işləyib hazırladılar. Alman ordusuna çoxlu yeni “tiqr” və “pantera” tankları, özüyeriyən “ferdinand” topları, “Fokke-Vulf-190” qırıcı təyyarələri göndərildi. 1943-cü il iyulun əvvəlində Oryol-Kursk istiqamətində hitler Almaniyasının 900 min nəfər canlı qoşunu, 2733 tank və özüyeriyən qurğusu, 10 min top və minaatanı, 2050 təyyarəsi cəmləşmişdir. Qızıl Ordu sıralarında 1336 min əsgər və zabit, 3444 tank və özüyeriyən qurğu, 19100 top və minaatan, 2172 təyyarə var idi. Kursk döyüşü İkinci Dünya müharibəsinin ən böyük döyüşlərindən biridir. 1942-ci ildən fərqli olaraq sovet komandanlığı düşmənin niyyətini başa düşərək vaxtında dərin eşelonlaşdırılmış müdafiə yarada bilmişdir. Kursk əməliyyatına görkəmli sovet sərkərdələri marşallar G.K.Jukov və A.M.Va-

silevski, generallar N.F.Vatutin və K.K.Rokossovski komandanlıq edirdi. Müdafiədən hücuma keçməyi nəzərdə tutan sovet komandanlığı general İ.S.Konevin başçılığı ilə strateji ehtiyat qüvvələri yaratmışdır. Kursk çıxıntısının şimal tərəfini general K.Rokossovskinin komandanlıq etdiyi Mərkəzi cəbhə müdafiə edirdi.

Konstantin Konstantinoviç Rokossovski (1896-1968) Varşavada anadan olmuş, Birinci Dünya müharibəsinin və Vətəndaş müharibəsinin iştirakçısıdır. Şərq cəbhəsində ağçerxlərə, Kolçaka və baron Ungernin dəstəsinə qarşı vuruşaraq iki dəfə yaralanmış və üç dəfə Qırmızı Bayraq ordeni ilə təltif olunmuşdur. 1937-ci ilin avqustundan 1940-cı ilin martına kimi DİXK-nın istintaqı altında olmuş, işin dayandırılması ilə azad edilmişdir. Böyük Vətən müharibəsində onun komandanlığı altında ordu hissələri Smolensk, Stalinqrad, Kursk döyüşlərində, Belarusiya, Şərqi Prussiya, Şərqi-Pomeran və Berlin əməliyyatlarında uğurla iştirak etmişdir. Məhz K.Rokossovskinin təklifi ilə "Baqration" əməliyyatının gedişində eyni zamanda iki əsas qüvvə zərbəsi ilə çıxış edən sovet ordu hissələri düşməni əzmişdir ki, bu da sovet-alman cəbhəsində qüvvələr nisbətinin əsaslı surətdə dəyişilməsinə səbəb olmuşdur. O, 1944-cü ildə Sovet İttifaqı marşalı, 1944 və 1945-ci illərdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 1949-cu ildən 1956-cı ilə kimi Polşanın milli Müdafiə naziri olub. 1956-cı ildən SSRİ Müdafiə Nazirliyində rəhbər vəzifələrdə çalışıb. 1968-ci ildə "Əsgər vəzifəsi" xatirələr kitabını çap etdirib, 1997-ci ildə təkrar nəşri olub.

1943-cü il iyulun 5-i səhər saat 5:30-da 9-cu alman ordusunun zərbə qrupu, 6-cı və 4-cü tank orduları, "Kempf" əməliyyat qrupu hücuma keçdi. Nəzərdə tutulmuş hücuma bir saat qalmış sovet artilleriyası və təyyarələri düşməni yaylım atəşinə tutdu. Mərkəz cəbhəsi istiqamətində 6 gün müddətində hitlerçilər yalnız 6-12 km irəliləyə bildilər, iyulun 11-də çoxlu itki verən almanlar hücumu dayandırmağa məcbur oldular. N.Vatutinin komandanlıq etdiyi Voronej cəbhəsinin belqorod-kursk istiqamətində iyulun 5-də almanlar E.Manşteynin komandanlığı ilə 700 tankla hücuma keçdi. Oboyan və Koroç istiqamətindəki bu hücumda almanlar böyük çətinliklə 10-18 km irəlilədilər. İyulun 12-də Proxorovko rayonunda hər iki tərəfdən 1200 tank və özüyeriyən qurğunun iştirak etdiyi ən böyük tank vuruşması oldu. Hər iki tərəf ağır itki verdi. İyulun 17-də sovet ordusunun cinahlardan əks-zərbə vura biləcəyini və iyulun 9-da Siciliyada ingilis-amerikan ordusunun hərbi əməliyyatlara başlamasını nəzərə alaraq A.Hitler "Sitadel" əməliyyatının dayandırılmasına dair əmr imzaladı. 1943-cü il iyulun 12-dən avqustun 23-nə qədər Kursk döyüşünün ikinci mərhələsinin əkshücum əməliyyatı keçirildi. "Kutuzov" hücum əməliyyatını M.Popovun komandanlığı altında Bryansk, K.Rokossovskinin komandanlığı altında Mərkəz və V.Sokolovskinin komandanlığı ilə Qərb cəbhəsi qüvvələrinin bir hissəsi iyulun 12-dən qərb istiqamətində düşməni darmadağın edərək 150 km irəlilədilər və avqustun 5-də Oryolu azad etdilər. Avqustun 20-də hücuma keçən sovet ordu hissələri ayın 23-də Xarkovu azad etdilər və bununla Kursk döyüşü başa çatdı. 50 gün davam edən Kursk döyüşündə hər iki tərəfdən çox böyük canlı və texniki qüvvə iştirak edirdi. Belə ki, 4 milyon nəfər adamı birləşdirən 300 diviziyanın iştirak etdiyi bu əməliyyatda düşmən 30 seçmə diviziyasını, o cümlədən, 7 tank diviziyasını itirdi. Almanlar 1300 tankından və min təyyarəsindən məhrum oldu. Qızıl Ordu 254,4 min nəfər əsgər və zabit, 6 min tank, 1600 təyyarə itirdi. Faktlardan aydın olur ki, Kursk döyüşündə Qızıl Ordunun itkiləri düşməndən qat-qat çox idi. Hitlerçilərin Kursk çıxıntısına hücumunun boşa çıxması o demək idi ki, müharibədə strateji təşəbbüs tamamilə Qızıl Ordunun əlinə keçmişdir. Böyük Vətən müharibəsində Stalinqrad döyüşü ilə başlayan əsaslı dönüş Kursk döyüşündəki qələbə ilə başa çatmış oldu. Kursk döyüşü ilə əlaqədar olaraq Hitler komandanlığı Aralıq dənizi müharibə teatrından, Fransa və Hollandiyadan çoxlu canl qüvvə və hərbi texnika çıxarmağa məcbur oldu ki, bunun da nəticəsində müttəfiqlər İtaliyada əməliyyatları genişləndirə bildilər. Kursk altında məğlubiyyət faşist bloku ölkələrinə müharibədə qüvvələr nisbətinin Sovet İttifaqının xeyrinə əsaslı dönüş etdiyini göstərdi. Macarıstanın Qərblə separat sülh bağlamaq səyləri gücləndi. Almaniya ilə Finlandiya arasındakı münasibətlərdə böhran yarandı. Bütün dünya başa düşdü ki, SSRİ-nin müharibədə qələbəsi yalnız zaman məsələsidir.

***Dneprin keçilməsi.*** 1943-cü ilin avqust-sentyabr aylarında Qızıl Ordu solsahil Ukray-

nasına hücumu genişləndirərək Dnepr çayına çıxdı. Donbas və Krivoy Roqun kömür-metal mənbələrini, Ukraynanın məhsuldar torpaqlarını öz əlində saxlamağa çalışan alman komandanlığı bütün Şərq cəbhəsi boyu müdafiyə keçərək avqustun 11-də "Şərq səddi" strateji müdafiə hüdudunun qurulmasına dair əmr verdi. Narva-Pskov-Vitebsk-Orş-Soj çayı-Dneprin orta axını-Moloçnı çayını əhatə edən bu müdafiə xəttində əsas diqqət keçilməz təbii sərhədlərə malik olan Dnepr çayına yönəlmişdir. Almanlar Qızıl Ordunu "Şərq səddi"ndə dayandırmağı nəzərdə tutaraq belə hesab edirdilər ki, sovet ordusu nəhəng çay səddi olan Dnepri keçə bilməzlər. Ali Baş komandanlıq Qərargahı Donbası, solsahil Ukraynasını, Krımı azad edib Dneprin keçilməsini planlaşdırdı. Sentyabrda hücuma keçən sovet qoşunları "Cənub" cəbhəsinin hissələrinə ağır zərbə vuraraq, düşmən müdafiəsini yardılar, Dneprin sağsahilində qoşunlar Kiyev və Kremençuq-Dneprovsk döyüş meydanlarında möhkəmləndilər. Artıq sentyabrın axırlarında sovet ordu birlikləri Dneprin sağsahilində 23 əməliyyat meydanı tutaraq onları genişləndirməyə başladılar. Dnepri birbaşa əldəqayırma vasitələrlə keçən sovet qoşunları böyük itki verdi. Bu isə almanlara möhkəmlənmək imkanı verməmək və İ.Stalinin Kiyevi noyabrın 7-də tutmaq tələbi ilə bağlı idi. Hitlerçilərin Moloçnı çayında və Dneprin aşağı axarlarında darmadağın edilməsi Tamanın azad edilməsinə, Kerçdə desant əməliyyatının keçirilməsinə şərait yaratdı. 1943-cü il avqust ayından dekabra qədər sovet ordusu "Cənub" ordu qrupu qüvvələrini məğlub edərək qərbə doğru 200-400 km irəlilədilər. N.F.Vatutinin komandanlığı altında Birinci Ukrayna cəbhəsinin döuyüşçüləri noyabrın 6-da Kiyevi azad etdilər ki, A.Hitler bunu bütün Ukraynanın itirilməsi kimi qiymətləndirdi. Yaz-yay kompaniyası zamanı 40 mindən çox yaşayış məntəqəsi, o cümlədən, 162 şəhər düşmən işğalından təmizləndi. Kiyev, Xarkov, Bryansk, Smolensk, Novorossiysk, Donbas, Çerniqov, Poltava, Qomel, Dnepropetrovsk, Dneprodzerjinsk, Zaporojye, Taqanroq və s. yerlər buna misaldır. Düşmən tərəfindən işğal edilmiş ərazilərin yarıdan çoxu təmizlənmiş oldu.

1942-ci lin payızında qərb müttəfiqləri Şimali Afrikada fəallaşdılar. İngilislər feldmarşal B.Montqomerinin komandanlığı altında Əl-Ələmeyn altında döyüşdə qələbə çalaraq E.Rommelin komandanlığı altındakı alman-italyan qoşunlarının Misirdən qovulmasına səbəb oldu. Amerikan qoşunları D.Eyzanhauerin komandanlığı altında Əlcəzairə çıxaraq şərqə doğru hücum edib 1943-cü ilin mayında alman və italyan ordu hissələrini Tunisdə müasirəyə alıb təslim olmağa məcbur etdilər. 1943-cü ilin iyul-avqust aylarında ingilis-amerikan birlikləri Siciliya adasını tutdular. Bu B.Mussolininin devrilməsi və İtaliyanın müharibədən çıxması demək idi. Sentyabrn 3-də marşal P.Badolo başda olmaqla yeni italiyan hökuməti danışıqsız təslim olmaq aktını imzalayaraq müharibədən çıxdı və oktyabrın 13-də Almaniyaya müharibə elan etdi. İtaliyanın şimal və mərkəzi yerlərini tutan almanlar burada oyuncaq hakimiyyət quraraq onun başına A.Hitlerin əmri ilə desantçılar tərəfindən oğurlanaraq azad olunan Mussolinini gətirdilər. Sakit okeanda 1942-ci ildə ABŞ Midueydəki və Quadalkanal adasındakı dəniz döyüşlərini udaraq Sakit okeanın cənub və mərkəz hissəsində qəti əkshücuma keçdi. Bütün bunlarla bərabər İkinci Dünya müharibəsinin əsas ağırlığı Qızıl Ordunun üzərinə düşməkdə davam edirdi. Sovet Ordusunun qələbələrindən onun daha da güclənəcəyindən ehtiyat edən F.Ruzvelt və U.Çörçill 1943-cü ildə Kvebekdəki konfransda belə qərara gəldilər ki, ikinci cəbhəni adı "Overlord" olan əməliyyat planını La-manşı keçməklə 1944-cü il mayın 1-də həyata keçirsinlər. 1943-cü il noyabrın 28-dən dekabrın 1-nə kimi Tehran konfransında İ.Stalin, F.Ruzvelt və U.Çörçill ilk dəfə görüşdülər. Konfransın əsas məsələsi ikinci cəbhənin açılması problemi idi ki, yekun sənədində "Overlord" əməliyyatının 1944-cü ilin may ayında baş tutacağı nəzərdə tutulurdu. Müttəfiqlər həmçinin Polşa məsələsini müzakirə edərək belə qərara gəldilər ki, Polşanın qərb sərhədləri Oder çayı boyunca müəyyən edilsin. Şərq sərhədləri isə Qərbi Ukrayna və Qərbi Belarusiyanın SSRİ-nin tərkibində qalması şərti daxilində həll edilsin. Konfransda Almaniyanın müharibədən sonrakı quruluşu məsələsi də müzakirə edildi. Müttəfiqlər Almaniyanın danışıqsız təslim olması haqqında yekdil qərar qəbul etdilər. Üç dövlətin elan etdiyi müharibədə faşist Almaniyasına qarşı birgə fəaliyyət və müharibədən sonrakı əməkdaşlıq haqqında Bəyənnamə mühüm siyasi əhəmiyyət kəsb edirdi. Müttəfiqlər eyni zamanda Baltik dənizində donmayan Köniqsberq (Kalininqrad) və Memel (Klaypeda)

limanlarının SSRİ-yə verilməsi haqqında razılığa gəldilər.

***Əsaslı dönüşün səbəbləri.*** Müharibənin gedişində əsaslı dönüşü təmin edən başlıca səbəblərdən biri 1942-ci ilə doğru ölkənin iqtisadiyyatını tamamilə hərbi relslər üzərinə keçirərək dinc dövr üçün nəzərdə tutulan məhsul istehsalının hesabına daha çox hərbi texnika və silahlar hazırlamaq oldu. Ölkənin sənaye ehtiyyatının 1942-ci ilin yayında şərq rayonlarına köçürülməsinin ikinci mərhələsinin başa çatması ilə iqtisadi göstəricilər yüksəldi. Qızıl Ordu sıralarında 11 milyon nəfər adamın olması şəraitində Sovet hökuməti 1942-ci ilin fevral ayında şəhər, noyabrda isə kənd əhalisin səfərbərliyə alaraq məcburi surətdə sənaye və tikintiyə göndərirdi. Bunun nəticəsində yalnız 1942-ci ildə üç milyon nəfər adam, o cümlədən, 830 min nəfər məktəbləri yenicə bitirmiş oğlan və qız əmək cəbhələrinə göndərildi. Eyni zamanda cəbhəyə gedən ixtisaslı fəhlələri əvəz etmək məqsədilə 1 milyon 800 min nəfər adam fabrik-zavod məktəblilərinin (FZU) tezləşdirilmiş kurslarında təhsilə cəlb olundu. Məhz fabrik-zavod məktəbləri və başqa peşə-texniki tədris müəssisələrinin fəaliyyəti sahəsində orduya səfərbər edilən ixtisaslı işçilərin yerini doldurmaq mümkün oldu. Müharibənin dörd ili ərzində işçi qüvvələrinin əməyi nəticəsində sənayedə əmək məhsuldarlığı 40 faiz artdı. 1942-ci ilin sonundan başlayaraq SSRİ həm hərbi texnika buraxılışının miqdarına görə, həm də keyfiyyətinə nisbətən Almaniyanı xeyli üstələyirdi. Sovet hərbi sənaye müəssisələri ayda 2100 təyyarə, 2000 tank istehsal edir, hazırladıqları T-34 tankları, İL-2 qırıcı təyyarələri keyfiyyətinə görə alman maşınlarını xeyli qabaqlayırdılar. Təkcə 1943-cü ildə aviasiya sənayesi cəbhəyə 35 min təyyarə verdi ki, bu da 1942-ci ildəkindən üç dəfə artıq idi. Ölkənin şərqindəki üç iri zavod, yəni Uralmaş, Çelyabinskdə Kirov və 183 saylı zavod istehsal olunan tankların 2/3 hissəsini verirdi. 1943-cü ilin əvvəllərində cəbhəyə özüyeriyən yeni artilleriya qurğusu SAU-122-nin ilk partiyası göndərildi. 1942-ci ilin sonuna nisbətən 1943-cü ilin yayına doğru atıcı qoşunlarda tankvuran silahların miqdarı 85 mindən artaraq 145 min ədədə çatdırıldı.

Qızıl Ordu silahlarının modernləşdirilməsi ilə yanaşı, onun strukturu da təkmilləşdi. Hücum döyüşlərində fəal iştirak etmək üçün atıcı qoşunlarda korpusların sayı artdı. Ali Baş Komandanlığın Ehtiyatının tank əleyhinə məhvedici silahlarının miqdarı artdı, onun yarıb keçmə və zent artdiviziyaları yaradıldı. Hər bir cəbhənin tərkibində hava ordusu var idi. Mühəndis qoşunlarında, avtomobil, yol və hərbi-tibbi qulluq sahəsində keyfiyyət dəyişikliyi baş verdi. Komanda kadrları və döyüşçülərin şəxsi heyətinə tələbkarlıq artırıldı. 1942-ci ilin oktyabrında hərbi komissarlar qaydası ləğv edildi və Qızıl Orduda vahid rəislik bərqərar oldu. Beləliklə, iqtisadiyyatın sürətlə hərbi relslər üzərinə keçməsi, yeni hərbi texnikanın kütləvi istehsalının vermaxta nisbətən daha üstün vəziyyəti, ordu strukturunun təkmilləşməsi sovet silahının hərbi qüdrətini artıraraq onun hücum qabiliyyətini yüksəltdi ki, bu da əsaslı dönüşün təmin edilməsində mühüm rol oynadı.

Müttəfiqlərin lend-liz üzrə SSRİ-yə hərbi və iqtisadi köməyi də müharibədə əsaslı dönüşün təmin edilməsində əhəmiyyətli rol oynamışdır. Rəsmi sovet məlumatlarına əsasən müttəfiqlərin köməyi sovet hərbi istehsalının dörd faizini təşkil edirdi. Lakin Amerikan rəsmi məlumatları bu köməyin 11-12 milyard dollar miqdarında olduğunu iddia edirdi. Əsil həqiqət ondan ibarətdir ki, müttəfiqlər Sovet İttifaqına çoxlu miqdarda barıt, sursat, yanacaq, əlvan metal və polad lövhələr, dəzgah, ərzaq və s. göndərmişdir ki, bu yardım əsaslı dönüşün təmin edilməsinə və faşizm üzərində qələbədə əhəmiyyətli tövhə olmuşdur.

Hitlerçilər işğal etdikləri ərazilərdə "Şərq" ("Ost") planına uyğun olaraq "yeni qaydalar" müəyyən etdilər. Hakimiyyət alman hərbi komendaturalarına keçdi. Eyni zamanda yerli satqınlardan ibarət "özünüidarələr" təşkil olundu. Şəhərlərdə burqomistr və starostalar təyin edildi. 18-45 arasındakı yaşlı əhali əmək mükəlləfiyyətli hesab edilirdi. İş saatı 14-16-ya çatırdı. Şəhərlərdə aclıq hökm sürürdü. Hətta fəhlələrə belə həftədə 800 qram çörək norması, yerdə qalan sakinlərə isə 200 qram çörək verilirdi. Bu isə Leninqrad mühasirəsində olan normadan da az idi.

1941-ci il iyulun 17-də A.Rozenberq Şərq işləri üzrə nazirliyə başçı təyin edildi ki, o da işğal zonaların təcrübə meydanına çevirdi. Onun "Şərq siyasəti" nəzəriyyəsinə görə sovet hakimiyyətin xalqdan ayırıb, siyasi və sosial cəhətdən narazı vətəndaşları, ilk növbədə, kənd-

liləri rejimə qarşı qaldırmaq lazımdır. "Şərq siyasətində" xüsusilə yəhudi və kommunistlərin kütləvi surətdə məhv edilməsi nəzərdə tutulurdu. Xüsusilə Belarusiyanın və Ukraynanın bəzi rayonlarının çoxsaylı yəhudi əhalisi mütəmadi olaraq məhv edilirdi. Kiyev altında Babi-Yarda 50 min meyidin qalıqlarının aşkar edilməsi və ümumən 1050 min sovet yəhudisinin məhvi bu siyasətin birbaşa nəticəsidir. Qızıl Ordunun əsir düşən siyasi komissarları və kommunistlər yerindəcə güllələnirdi. Müharibənin ilk üç həftəsi ərzində əsir düşən 70 mindən, 1941-ci ilin sonunda iki milyon nəfərdən çox sovet hərbiçisi ən ağır işgəncəyə məruz qalmışdır. Ümumən müharibədə əsir düşən 5,7milyon nəfər sovet əsgər və zabitinin 3,7 milyon nəfəri ya öldürülmüş, ya da dözülməz həyat və əmək şəraitinin qurbanı olmuşdur.

1941-ci ilin payızında almanlar ucuz işçi qüvvəsindən istifadə etmək məqsədilə işğal edilmiş ərazilərin əhalisin məcburi surətdə Almaniyaya göndərməyə başladılar. Ümumən SSRİ-dən 4,9 milyon nəfər adam işləmək üçün zorla Almaniyaya göndərilmişdir. "Ostarbayterlər" adlanan bu adamlar gündə 10 saat olmaqla ən ağır işlərdə yarımac vəziyyətdə çalışırdılar. Onların heç bir hüququ yox idi, döyüylür və ələ salınırdı. Almaniyaya getməmək üçün yerli əhalinin çoxu partizanlara qoşulurdu.

A.Rozenberqin "şərq siyasətində" əsas yerlərdən birini də SSRİ əhalisinin etnik cəhətdən parçalanması tuturdu. Belə ki, Baltikyanı xalqlar alman mədəniyyətinə yaxın olduğu üçün alman yaşam tərzinə qovuşmalı idilər. Onlar müharibə vaxtı imtiyazlı vəziyyətdə olaraq hətta alman yönümlü milli hökumətləri belə yaratmışdılar. Qafqazda isə almanları müstəmləkəçilik məsələləri deyil, yalnız neft ehtiyyatları maraqlandırırdı. Onlar Qafqaza İrak və İranın neft rayonlarını ələ keçirmək üçün məsafələrarası dayanacaq meydanı kimi baxırdılar. Qızıl Ordu çəkildikdən sonra üç dağlı müsəlman xalqı qaraçaylılar, kabardin və balkarlar antisovet üsyanına qalxdıqları üçün alman komandanlığı onlara dini, siyasi və iqtisadi muxtariyyəti əhatə edən yerli komitələr yaratmağa icazə verdi. Almanların müdafiəsinə sığınan Krım tatarları 1942-ci ildə Simferopolda Mərkəzi Müsəlman Komitəsini yaratdılar. Ancaq almanlar pantürkizm hərəkatının dirçəlişindən ehtiyat edərək Krım tatarlarına muxtariyət vermədilər.

A.Hitlerə görə SSRİ-yə hücum etmək yalnız hərbi əməliyyat demək deyildir. Məqsəd həm də şərqdə almanlar üçün vacib olan müstəmləkələr ələ keçirmək idi. Məhz buna görə A.Hitler bolşevizmin yəhudi təbiətinə və ümumən bütün slavyan xalqlarına dərin nifrət bəsləyirdi. Hitlerə görə tarixən Almaniya ilə Rusiya arasında olan münaqişələr Rusiyanı almanlar üçün daimi təhlükə mənbəyinə çevirir. Başqa bir tərəfdən fürer belə hesab edirdi ki, slavyan irqinin mükəmməl olmaması Rusiyanın hər hansı bir siyasi xarakterli quruluşunu məhv etməyi zəruri edir, çünki qulların dövləti olmur. Ukraynanı isə Almaniyanın iqtisadi maraqlarına cavab verən əsas yerlərdən biri hesab edən A.Hitler burada milli oyunlara aludə olmaq fikrindən uzaq idi. Gələcəkdə bu əraziləri almanlaşdırmağı planlaşdıran vermaxt yerli slavyanlara qarşı, xüsusilə milliyyətçilik təbliğatı aparan ziyalılara qarşı sərt tədbirlər görürdü. Bütün bunlar isə işğal altında olan ərazilərdə artıq 1942- ci ilə doğru almanların öz etibarlarını itirməsinə səbəb oldu. Təbii olaraq faşistlərin SSRİ xalqlarını, xüsusilə slavyanları parçalayıb qula çevirmək siyasəti işğalçılara qarşı müqaviməti artıraraq əsaslı dönüşün təmin edilməsinə xeyli yardım etdi və hitlerçilərin "Şərq siyasəti" iflasa uğradı.

## Böyük Vətən müharibəsinin başa çatması

***1944-cü ilin əvvəlində sovet-alman cəbhəsində vəziyyət.*** Böyük Vətən müharibəsinin üçüncü dövrü SSRİ və Şərqi Avropanın almanlar tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi, Hitler Almaniyası üzərində qəti qələbəni əhatə etməklə 1944-cü ilin əvvəlindən 1945-ci il mayın 9-na kimi davam etmişdir. Şərq cəbhəsini möhkəmlətmək məqsədilə alman komandanlığı Qərb cəbhəsindən 1943-cü ilin sonlarında 75 diviziyanı, çoxlu sayda hərbi texnika və maddi-texniki vasitələri Şərq cəbhəsinə göndərdi. Beləliklə, sovet-alman cəbhəsində düşmənin 4906 min canlı qüvvəsi, 54570 top və minaatanı, 5400 tank və hücum topu, 3073 təyyarəsi cəmləşmiş oldu. 1944-cü ilin əvvəllində Qızıl Ordunun 6736 min canlı qüv-

vəsi, 97690 top və minaatanı, 5628 tank və özüyeriyən artilleriya qurğusu, 8818 döyüş təyyarəsi var idi. Faktlar təsdiq edir ki, Qızıl Ordu canlı qüvvə və texnika cəhətdən düşməndən çox üstün vəziyyətdə olmaqla bərabər, strateji təşəbbüs də ona məxsus idi. 1944-cü ildə işğalçı alman ordularına qarşı hücuma keçən Qızıl Ordunun hərbi əməliyyatları iki, qış-yaz və yay-payız mərhələlərindən ibarətdir. L.Qovorovun komandanlığı altında Leninqrad, K.Meretskovun komandanlığı altında Volxov və M.Popovun komandanlığı altında 2-ci Pribaltika cəbhələri 1944-cü ilin yanvar-fevral aylarında hücum edərək Leninqrad, Novqorod, Kalinin vilayətlərini tamamilə, Pskovun isə bir hissəsini işğalçılardan təmizlədilər. Yanvarın 27-də 900 gün davam edən Leninqradın mühasirəsi tam başa çatmış oldu. Yalnız 550 min nəfər əhalisi qalan Leninqradın bir milyon əhalisi mühasirə zamanı tələf olmuşdur ki, bunların da üçdəikisi aclıqdan və s. səbəblərdən tükənərək ölənlər idi. N.Vatutinin komandanlığı ilə 1-ci Ukrayna cəbhələrinin qoşunları hücuma keçərək Korsun-Şevçenko altında 6 alman diviziyasını mühasirəyə alıb məhv etdilər. Bu Stalinqraddan sonra alman işğalçılarının mühasirəyə alınıb məhv edildiyi ikinci böyük əməliyyat idi ki, bunun da sayəsində fevral ayında Kiyevdən cənuba sağsahil Ukraynası düşməndən azad edildi. Dnestr və cənubi Buq çayına gedən yol açılmış oldu.

1944-cü ilin aprel-mayında general F.İ.Tolbuxinin komandanlığı altında 4-cü Ukrayna cəbhəsinin qoşunları hücum edib Odessa, Sevastopol və bütün Krımı azad etdilər. İyun-avqust aylarında sovet ordu hissələri Kareliyanı azad edərək Finlandiyanın sərhədlərinə çıxdılar. Finlandiya hərbi əməliyyatı dayandıraraq sentyabrın 4-də müharibədən çıxdı, sentyabrın 19-da isə Almaniyaya müharibə elan etdi. 1944-cü il iyun-avqust aylarında Belarusiyada kod adı "Baqration" olan döyüş əməliyyatların komandanları K.Rokossovski, G.Zaxarov, İ.Çernyaxovski olan 1-ci, 2-ci və 3-cü Belarusiya cəbhələrinin, 1-ci Pribaltika, Dnepr hərbi flotu, 1-ci Polşa Ordusu qüvvələri almanların "Mərkəz" və "Cənub" ordularına qarşı keçirdilər. Məhz Ali Baş Qərargah, G.Jukov və İ.Stalinin etirazına baxmayaraq K.K.Rokossovskinin təklifi ilə eyni zamanda iki baş zərbə ilə düşməni əsas zərbədən yayındıran sovet qoşunları "Mərkəz" cəbhəsinin əsas qüvvələrini əzərək Minskinin şərqində 100 mindən çox alman əsgər və zabitin mühasirəyə aldı ki, ondan da yalnız bir neçə yüz nəfər xilas ola bildi. "Baqration" əməliyyatı nəticəsində Qızıl Ordu Belarusiyanı, Litvanın bir hissəsini, Polşanın şərq rayonlarını azad etdi və Vislaya çatdı. Sovet qoşunlarının düşmənə qarşı keçirdiyi hücum əməliyyatları sayəsində almanlara vurduğu güclü zərbələrin sayı artırdı. 1944-cü ilin iyul- avqustunda İ.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhəsinin əsgərləri, S.A.Kovpakın, P.P.Verşiqorun partizan dəstələri Lvov-Sandomir əməliyyatında düşməni darmadağın edərək Qərbi Ukrayna və Polşanın cənub-şərq rayonların almanlardan azad etdilər. Avqustda R.Y.Malinovski və F.İ.Tolbuxinin komadanlığı ilə 2-ci və 3-cü Ukrayna cəbhələrinin orduları Moldaviyadakı düşmən müdafiəsini yararaq Kişinyov və Yssı rayonunda 22 alman-rumın diviziyasını məhv edərək Rumıniyanın mərkəzi rayonlarına çıxdılar. Bu əməliyyat nəticəsində Moldovanın cənub rayonları, Ukraynanın İzmailov (hazırda Odessanın tərkibində) vilayəti, Rumıniyanın böyük hissəsi azad olundu. Rumıniya və Bolqarıstan təslim oldu. 2-ci Ukrayna cəbhəsinin qoşunları Rumıniya torpaqlarının azad edilməsində əsas rol oynamışlar. Azərbaycan oğulları hərbi əməliyyatların uğurla başa çatmasında yaxından iştirak etmişdir. Belə ki, Rumıniyanın Markit şəhəri uğrunda gedən döyüşlədə 27-ci ordunun qvardiya serjantı Gəray Lətif oğlu Əsədov öz bədəni ilə düşmənin atəş nöqtəsini susduraraq döyüşün qələbə ilə başa çatmasına səbəb olmuşdur. Öz həyatı bahasına uzaq Şərqi Avropa torpaqlarının faşist işğalçılarından təmizlənməsində misilsiz qəhrəmanlıq göstərən Gəray Əsədova 1945-ci il martın 24-də Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

1944-cü il iyul-sentyabr aylarında İ.X.Baqramyan, A.İ.Yeremenko və İ.İ.Maslennikovun komandanlığı ilə 1-ci, 2-ci və 3-cü Pribaltika cəbhələrinin, marşal L.A.Qovorovun komandanlığı altında Leninqrad cəbhəsinin orduları hücum edərək Pskov vilayətini, Estoniyanı, Litvanı tamamilə, Latviyanın böyük bir hissəsini işğalçılardan azad etdilər və Şərqi Prussiyanın sərhədlərinə daxil oldular. Hərbi döyüşlərin gedişində düşmənin "Şimal" ordusunun 26 birləşməsi darmadağın edildi, 38 diviziya Kurlyandiyada Tukumla Libava arasında

sıxışdırıldı. Baltik flotu Baltik dənizində azad hərəkət etmək imkanı qazandı. Ordu generalı İ.Y.Petrovun komandanlığı ilə 4-cü Ukrayna cəbhəsinin orduları oktyabrda Tissa ilə Dunay arasında hücuma keçərək Debretsen əməliyyatı ilə Macarıstanın şərq rayonlarını hitlerçilərdən azad etdilər, Almaniya özünün son müttəfiqi Macarıstanın köməyindən məhrum oldu. 1944-cü ilin oktyabrında K.Meretskovun komandanlığı altında Kareliya cəbhəsi və Şimal flotu (vitse admiral A.Q.Qolovko) Petsamo-Kirkeness əməliyyatı nəticəsində hitlerçiləri qütb arxasındakı sovet ərazisindən və Norveçin şimal rayonlarından qovub çıxardı. Petsamo və Norveçin Kirkeness limanları azad oldu. Bu sayədə Almaniya Barents dənizinin limanlarından və metal mədənlərindən məhrum oldu. Beləliklə, 1944-cü ildəki hərbi əməliyyatları nəticəsində SSRİ-nin hitler Almaniyası tərəfindən 1941-ci ilin iyununda pozulan dövlət sərhədi Barentsdən tutmuş Qara dənizə kimi bərpa edildi və faşist işğalçıları ölkə ərazisidən qovuldu.

***İşğaldan azad edilmiş ərazilərdə dövlət siyasəti.*** SSRİ-nin bir çox xalqları dövlət siyasətinin qurbanı olaraq deportasiyaya, yəni zorla öz yaşayış yerlərindən köçürülməyə məruz qaldılar. 40-ci illərdə "dövlət planına" əsasən məcburən köçürülənlərin sayı 3011108 nəfər təşkil edirdi ki, bunlar arasında da inquş, çeçen, alman, kalmık, balkar kimi bütöv xalqlar var idi. Əlavə olaraq 215242 nəfər müxtəlif xalqların nümayəndələri müstəqil olaraq köçürmə yerlərinə xüsusi eşalonlar olmadan gəlmişdilər. Beləliklə, köçürülənlərin sayı 3226340 nəfər idi. Məcburi köçürmənin əsas bəhanəverici səbəbləri işğal vaxtı bu xalqlara məxsus ayrı-ayrı adamların və ya qrupların satqınlığını cəzalandırmaq, mümkün olan satqınlığın qarşısını almaq üçün önləyici tədbir kimi müharibə aparan və aparması mümkün olan xaricdə yaşayan soydaşları ilə iş birliyinin qarşısını almaqdan ibarət idi. İ.Stalinin subyektiv fikirlərinin məhsulu olan bütöv xalqları cəzalandırmaq təcrübəsi repressiyalarla müşayiət olunurdu. Hələ müharibə ərəfəsində koreyalılar və polyaklar deportatsiyaya məruz qaldılar. 1941-ci ilin avqustunda Volqaboyunda yaşayan almanlar guya Almaniyanın bir işarəsi ilə Volqaboyu rayonlarda təxribat və partlayış törətməyə hazırdılar damğası ilə yeni yaşayış yerlərinə köçürüldülər ki, onların da sayı 446480 nəfərə çatırdı. Beləliklə, 1941-ci ilin payızında almanların Volqaboyu muxtar respublikası ləğv edildi. Leninqrad, Moskva, Qafqaz, Krım ərazisində yaşayan sovet almanları da köçürüməyə məruz qaldılar. Ümumən 1941-ci ilin sonu – 1942-ci ilin əvvəllərində 1084828 alman deportasiyaya uğramışdır. Almanlar və ailə üzvlərinə tətbiq edilən məhdudiyyətlər 1955-ci il dekabrn 13-də onların üzərindən götürülsə də onlara yalnız 1974-cü ildə doğma yerlərə qayıtmaq icazəsi verildi. Almanlardan başqa Volqaboyundan polyaklar da köçürüldü, belə ki, 1942-ci ikin noyabrında Saratov vilayətindən Qazaxıstana 2014 nəfər, o cümlədən 318 uşaq köçürülmüşdür. 1944-cü il mayın 11-də Krım azad edildikdən sonra Dövlət Müdafiə Komitəsi hitlerçilərlə işbirliyi görən hərbi caniləri cəzalandırmaq yerinə bütün Krım tatarlarının Krımdan köçürülməsi haqqında qərar qəbul etdi. Krım Respublikasından 191088 krım tatarı zorla köçürüldü ki, bunun da sayəsində Krımın əhalisi 379 min nəfərə qədər azalmış oldu. 1944-cü ildə Krımın boşaldılmış rayonlarına Ukrayna, RSFSR-in Voronej, Bryansk, Tambov, Kursk və Rostov vilayətlərindən əhali yerləşdirildi. 1945-ci ilin iyunun 30-da Krım MSSR RSFSR-in tərkibində Krım vilayətinə çevrildi, 1954-cü ilin fevralın 19-da Ukrayna SSR-nin tərkibinə daxil oldu. 2014-cü ilin martın 18-də Krım Republikası Rusiya Federasiyasının tərkibinə daxil edildi.

1943-cü il dekabrn 27-də Kalmık MSSR ləğv edildi və 91919 kalmık Qazaxıstana deportasiya edildi. 1957-ci il yanvarın 9-da kalmık xalqının dövlətçiliyi bərpa olundu. 1958-ci ilin iyulun 29-dək Kalmık muxtar vilayəti, sonra Kalmık MSSR yarandı. Elburusu müdafiə edə bilməyərək hitlerçilərə verməkdə təqsirli bilinən balkarlar 1944-cü il martın 8-də iki saat ərzində deportasiya edildilər. 32887 nəfər, o cümlədən 16695 uşaq və qoca Qazaxıstana və Qırğızıstana sürgün edildi. Bundan əlavə Böyük Vətən müharibəsi cəbhələrində döyüşən 15 min bu xalqın nümayəndəsi cəbhədən geri çağırılaraq sürgün yerlərinə göndərildi. 1944-cü il mayın 29-da Kabardin –Balkar MSSR Kabardin MSSR-ə çevrildi, balkarların yaşadığı torpaqlar isə Kabardin və Gürcüstan respublikalarının istifadəsinə verildi. 1943-cü il noyabrın 6-da balkarların qonşuları olan qaraçaylılar ayrı-ayrı adam və qrupların faşistlərlə əməkdaşlıq

etdiyinə, cinayət və satqınlıq təqsiri üzündən bütöv xalq, o cümlədən 62842 nəfər əhali Qırğızıstan, Qazaxıstan, Tacikistan, İrkutsk vilayəti və uzaq Şimala sürgün edildilər. 1957-ci ilin yazı və yayında qaraçaylıların 90 faizi müvafiq qərardan sonra öz yurdlarına Qaraçay-Çərkəzə döndülər.

1944-cü ildə Çeçen-İnquş MSSR ləğv edildi, fevralın 23-də 500 min nəfər əhalinin yaşadığı muxtar respublikadan 310630 çeçen və 81100 inquş deportasiya edildi. Əməliyyata bilavasitə Şimali Qafqazda olan Xalq Komissarı L.P.Beriya başçılıq edirdi. Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistana köçürülənlərin sıralarına 1944-cü ilin fevralında Qızıl Ordu hissələrindən azad edilən bir neçə min nəfər çeçen və inquş əsgər və zabiti daxil oldu. Dağıstan MSSR-in şimal-qərb hissəsinin Auxov rayonunda yaşayan 30 min çeçen də sürgündən yaxa qurtara bilmədi. Çeçen və İnquş xalqının dövlətçiliyi yalnız 1957-ci ildə bərpa edildi. 1944-cü il iyunun 2-də DMK-nin qərarı ilə Krımda yaşayan 15040 yunan, 12422 bolqar, 9621 erməni, 1119 xarici vətəndaş, o ümlədən alman, italyan, rumın, yunan, türk və iranlı iki gün içərisində deportasiyaya məruz qaldı. 1944-cü il avqustun 31-də DMK 6279 saylı qərarı ilə Gürcüstandan Qazaxıstan, Qırğızıstan və Özbəkistana türk, kürd və həmşidlərin zorla köçürülməsini təmin etdi ki, bununla da 46516 türk, 8694 kürd, 1385 həmşid və 29505 nəfər başqa millətin nümayəndəsi deportasiya olundu. Ermənistanın Türkiyə ilə sərhəddində yaşayan kürdlərin bir hissəsi də Orta Asiyaya köçürüldü.

Cənubi Qafqazdan 100 min nəfərə yaxın türk və başqa xalqların nümayəndəsi öz ata-baba torpaqlarından didərgin salındı ki, onlar da 220 Məshəti kəndlərində yaşayanlar idi. Onlar cənubi Qazaxıstana, Orta Asiyanın Şimal rayonlarına, Kabarda MSSR-ə və Azərbaycana sürgün olundular.

1945-ci ilin sonuna olan məlumata əsasən xüsusi köçürülmə yerlərində (spetsposeleniy) 2342,5 min insanı əhatə edən 967 085 ailə var idi. Onların arasında "cəzalandırılan xalqların" ordudan geri çağrılan nümayəndələri 157 min nəfər (6,7%) təşkil edirdi. Biləvasitə İ.Stalinin və onun ətrafının təşəbbüsü ilə həyata keçirilən deportasiya siyasəti SSRİ-də yaşayan xalqların dostluğuna böyük ziyan vurmaqla yanaşı bu rayonların təsərrüfatlarının tənəzzülünə də səbəb oldu. Böyük insani, mənəvi və siyasi itkilərə səbəb olan məcburi köçürmə və yaxud həqiqi adı sürgün olan sovet dövlətinin bu siyasəti uzun illər SSRİ-də yaşayan xalqların taleyində acı izlər qoymuşdur. Bu ağrı-acıya məruz qalan xalqların böyük çoxluğu isə SSRİ-nin turk xalqları olmuşdur.

***Avropada hərbi əməliyyatlar.*** 1944-cü ilin yayında beynəlxalq və hərbi vəziyyət göstərdi ki, ikinci cəbhə açılmadan da Qızıl Ordu Avropanı işğalçılardan təmizləmək gücünə malikdir. Bu ABŞ və Böyük Britaniyanı hərəkətə keçirdi və onlar ikinci cəbhəni açmaq haqqında Tehran konfransının qərarını yerinə yetirdilər. Amerikan general D.Eyzenhauerin komandası altında İngiltərə və ABŞ öz ordusun Britaniya adalarından La-Manş vasitəsilə "Overlord" əməliyyatı əsasında Şimali Fransaya çıxardı. Müttəfiq qoşunları onlara qarşı duran düşməndən canlı qüvvə cəhətdən üstün olmaqla bərabər (1 mln nəfər), tank və özüyeriyən qurğularla müqayisədə 3, top və minaatanlardan 2,2, hərbi təyyarələrlə müqayisədə 6,1 dəfə üstün idilər. Bu vaxt vermaxtın 179 döyüş diviziyası və 5 briqadası sovet-alman cəbhəsində idi. Fransa, Belçika və Hollandiyada isə 58 alman diviziyası var idi ki, onların da yalnız 38-i sahili müdafiə edirdi. Müttəfiq qoşunların daxil olduğu Sena körfəzi rayonunu cəmi 3-4 alman diviziyası qoruyurdu. Avqustun 19-da fransız vətənpərvərləri Parisdə antifaşist silahlı üsyanına başladılar.

Avqustun 25-də amerikan-ingilis orduları Parisi azad edərək, sentyabrda Almaniyanın qərb sərhədlərinə çıxdılar. Şərq və Qərb cəbhələri arasında sıxışıb qalan alman komandanlığı Almaniyanın qərbində "Ziqfrid xətti" boyu müdafiəyə keçməyə məcbur oldu. Dekabrın ortalarında Ardenn dağlarında əks hücuma keçən hitlerçilər ingilis-amerikan ordularına ağır zərbə vuraraq onları seperat sülh bağlamağa məcbur edib əsas qüvvələri Şərq cəbhəsinə yönəltmək niyyətində idilər. Müttəfiqlər tanklar üçün əlverişsiz olan bu yerdə almanların əks-hücumunu gözləmirdilər. Odur ki, ilk vaxtlar alman qoşunları xeyli uğur qazana bildilər. Lakin canlı qüvvə və texnika cəhətdən düşməndən xeyli üstün olan müttəfiqlər düşmənin hücu-

munun qarşısını aldılar və 1945-ci ilin əvvəllərində hücuma keçdilər. Ancaq onlar ağır itkilər hesabına ləng irəliləyə bilirdilər. Belə bir şəraitdə U.Çörçill İ.Stalinə müraciət edərək Şərq cəbhəsində sovet qoşunlarının hücumunu tezləşdirməyi xahiş etdi. Qızıl Ordu 1945-ci il yanvarın 20-də nəzərdə tutduğu hücum əməliyyatını 8 gün əvvəl, yəni yanvarın 12-də Visla-Oder əməliyyatı ilə başladı. Yanvarın 12-də marşal İ.S.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhəsinin qoşunları güclü top atəşindən sonra ağır şəraitdə Sandomir döyüş əməliyyat meydanına hücuma keçdi. Nəzərdə tutulan hücum əməliyyatı İ.Stalinin şəxsi göstərişi ilə 8 gün əvvəl başladığı üçün sovet qoşunları döyüşə tam hazır vəziyyətdə deyildilər və havadan təyyarələrlə pis təchiz olunurdular ki, bununda nəticəsində hücum əməliyyatı çoxsaylı ölü və yaralının olmasına gətirib çıxardı. 1945-ci ilin yanvarın ortalarında G.K.Jukovun komandanlığı ilə 1-ci Belarusiya cəbhəsinin və 1-ci Ukrayna cəbhəsinin döyüşçüləri Vislanun qərb sahilindəki döyüş əməliyyat meydanından hücuma keçdilər.

Şərqi Prussiyadan Karpat dağlarına qədər 1200 kilometrlik cəbhə boyu Qızıl Ordunun iri miqyaslı qış hücumu başlamış oldu. Bu hücumun əsas məqsədi Polşa ərazisindəki düşmən qruplaşmaları əzərək Oderə çıxmaq və burada döyüş əməliyyat meydanı yaradaraq Berlinə həlledici zərbə vurmağa hazırlaşmaq idi. Yanvarın 14-də Hitler Ardenndəki əsas qüvvəsi olan 6-cı tank SS ordusunu sovet-alman cəbhəsinə göndərmək haqqında əmr verdi. Bunun ardınca general Manteyfelin 5-ci tank ordusu da şərq cəbhəsinə göndərildi. Yanvar ayının 15-dən 31-nə kimi Şərq cəbhəsinə tərkibində 800 tank və özüyeriyən top olan 8 alman, (o cümlədən 4-ü tank və motorlaşdırılmış olmaqla) diviziyası göndərildi. Bu müttəfiq qoşunların Ardenndə vəziyyətini yüngülləşdirdi və onların hücuma keçməsinə şərait yaratdı.

1945-ci il yanvarın 17-də sovet qoşunları 1-ci Polşa ordusunun fədakarlıqla döyüşən əsgərləri ilə birlikdə Varşavanı azad etdilər. Fevralın 3-də 1-ci Belarusiya və 1-ci Ukrayna cəbhələrinin ordu hissələri Oderə çataraq çayın sağsahilini düşmən qoşunlarından təmizləyərək solsahildə döyüş əməliyyat meydanı yaratdılar.

Qızıl Ordu dəstələri 1-ci Polşa ordusu və partizanlarla birlikdə Polşa ərazisinin böyük bir hissəsin işğalçılardan təmizləyərək Almaniyanın ərazisinə daxil oldular. Qızıl Ordunun Berlin istiqamətində hücumunun qarşısını almaq məqsədiə vermaxt Şərqi Pomeraniya və Sileziyada cinah zərbələri ilə sovet ordusunu məğlub etmək niyyətində idi. Bu şəraitdə Ali Baş Komandanlıq Qərargahı Berlin və Drezden istiqamətində hücuma hazırlığı zəiflətmədən 2-ci və 1-ci Belarusiya cəbhələrinin iştirakı ilə düşmənin şərqi Pomeraniya qruplaşmasını əzərək Oder çayının aşağı axarına çıxmaq göstərişi verdi. 1-ci Polşa ordusunun da iştirak etdiyi əməliyyat sayəsində hitlerçilərin Dantsiq-Qdınsk möhkəmləndirilmiş müdafiə xətti yarıldı, onlarca mühüm yaşayış məntəqəsi azad edildi.

1945-ci ilin fevral-martında 1-ci Ukrayna cəbhəsinin döyüşçüləri Aşağı Sileziya və Yuxarı Sileziya hücum əməliyyatını uğurla başa çatdıraraq düşmənin "Mərkəz" ordusuna ağır zərbə vurdular. Fevral-mart hücumu nəticəsində faşist Almaniyası mühüm hərbi sənaye və kənd təsərrüfatı rayonlarını itirməklə yanaşı, silahlı qüvvələri də ağır zərbə aldı. Qərb cəbhəsində ingilis-amerikan orduları Reyn hüdudlarında qruplaşaraq Rur sənaye rayonunu ələ keçirməyə hazırlaşırdılar.

Həm Şərq, həm də Qərb cəbhəsində həlledici hücum ərəfəsində bir sıra siyasi məsələləri həll etmək məqsədilə SSRİ Xalq Komissarları Sovetinin sədri İ.V.Stalin, ABŞ-ın prezidenti F.Ruzvelt və Böyük Britaniyanın Baş Naziri U.Çörçill 1945-ci il fevralın 4-dən 11-dək Krımdakı konfransda bir araya gəldilər. Müttəfiqlər Almaniyanın qəti olaraq darmadağın edilməsinin hərbi planını razılaşdırdılar. Almaniya müharibədən sonra sülhsevər, demokratik dövlət olmalı, faşist partiyası, vermaxt, baş qərargah, hərbi sənaye ləğv olunmalı idi. Konfrans qərara aldı ki, müharibənin səbəbkarı kimi Almaniya 20 milyard dollar təzminat ödəməlidir ki, bunun da 10 milyard dolları SSRİ-yə çatmalı idi. Müttəfiqlər Birləşmiş Millətlər Təşkilatının yaradılamsı haqqında razılığa gəldilər və Azad edilmiş Avropa haqqında bəyannamə qəbul etdilər. SSRİ Tehran konfransında verdiyi sözü təsdiq edərək bildirdi ki, müharibə başa çatdıqdan iki-üç ay sonra Yaponiyaya qarşı müharibəyə başlayacaq. Beləliklə, Krım konfransı ümumi düşmənə qarşı mübarizədə antihitler koalisiyasının möhkəmlən-

dirilməsində yeni mərhələ oldu.

1945-ci ilin fevral-martında Qızıl Ordu hissələri Şərqi Prussiyadakı düşmənlərin məhv edilməsini əsasən başa çatdıraraq bütün Polşanı, Macarıstanın böyük hissəsini azad etdi və Almaniyanın içərilərinə doğru daxil oldu. Aprelin 6-da 3-cü Belarusiya cəbhəsinin qoşunları Köniqsberqə hücum edib, 9-unda onu ələ keçirdilər. Aprelin 4-də sovet qoşunları partizanlarla birlikdə Slovakiyanın paytaxtı Bratislavanı azad etdilər. Həmin gün hitlerçilər bütün Macarıstan ərazisindən qovuldular. Aprelin 6-da 2-ci və 3-cü Ukrayna cəbhələrinin döyüşçüləri şimal və cənubdan Venanın ətrafına yaxınlaşdılar. Yeddi gün müddətində Avstryanın paytaxtı tamamilə işğalçılardan təmizləndi, Çexoslovakiyanın mərkəzi rayonlarına və onun paytaxtı Praqaya  yol açılmış oldu. Sovet ordu birlikləri Berlinin 60 km-nə gəlib çıxdı. Faşist reyxi mühüm neft yataqlarından və hərbi məhsul verən müəssisələrdən məhrum oldu.

***Arxa cəbhədə həyat və əmək.*** 1941-ci ildə SSRİ müharibəyə qədərki ərazisində yaşayan əhalisinin 46, istehsal etdiyi kömür və metalın yarısını, taxılın 40, şəkərin 80 faizini itirmişdir. “Hər şey cəbhə üçün, hər şey qələbə üçün!” şuarı altında çalışan ölkənin iqtisadiyyatı hərbi istehsalın yenidən qurulmasına cəlb olunmuşdur ki, burada da adamların möhkəm iradəsi əsas rol oynayırdı. 1941-ci ilin iyunun 24-də yaradılan Köçürmə Şurası təkcə 1941-ci ildə ölkənin şərqinə 2,5 min müəssisə, çoxlu sayda mal-qara və başqa kolxoz əmlakı, elmi idarə və təhsil müəssisələri köçürdü. Cəbhəyanı rayonlardan 10 milyon nəfər əhali çıxarıldı, 1,5 milyon vaqondan bu işlərdə istifadə edilmişdir. Köçürülən müəssisələr Volqaboyu, Qərbi Sibir, Qazaxıstan, Orta Asiya və əsasən Urala göndərildi. Yeni yerlərdə üç ayda quraşdırılan müəssisələr məhsul verməyə başladı, artıq 1942-ci ilin yazında hərbi məhsul istehsalı artmağa başladı. Çelyabinsk traktor zavodunda yeni köçürülmüş müəssisə əsasında tank sənayesinin mərkəzi yaradıldı.

Müharibəyə getmiş kişiləri istehsalatda qadınlar, yeniyetmələr və təqaüdçülər əvəz etdi. Arxa cəbhədə fəhlələr 10-12 saat çalışır, hərbi dövrün qaydalarına uyğun olaraq yaşayırdılar. “Yalnız özün üçün deyil, cəbhəyə gedən yoldaşının yerinə də işlə!” şüarı bütün təsərrüfat sahələrini əhatə etdi. Arxa cəbhədə mərdliklə çalışan işçilər son dərəcə ağır şərtlər altında yaşayır və qidalanırdılar. Rəsmi məlumatlara görə kartofdan başqa bütün ərzaq növlərinin istehlakı 1,3-2,5 dəfə azalmışdır. Şəhərlərdə ərzaq kartoçka sistemi ilə paylanırdı ki, bundan da yalnız əhali çörəklə mütamadi təmin olunurdu, yağ, qənd, yarma böyük fasilələrlə verilirdi. 1943-cü ildə fəhlələr gün ərzində 500-700 qr, qulluqçular 400 qr, uşaq və himayədarlar 300 qram çörək norması alırdılar. Kommersiya mağazalarında və bazarlarda normadan kənar ərzaq mallarının qiyməti 10-30 dəfə artıq idi. Özlərinin ağır məişət vəziyyətinə baxmayaraq arxa cəbhənin əmək adamları cəbhəyə kömək etməyə çalışırdılar. Cəbhəyə ərzaq və isti paltar sovqatları göndərilirdi. Müdafiə fonduna milyard manatlarla pul vəsaiti daxil olurdu. Kiçik teatrın artistlərinin vəsaiti ilə döyüş təyyarələri eskadriliyası, Tambov və Çelyabinsk kolxozçularının vəsaiti ilə tank kolonnaları təşkil olunmuşdu. Saratovlu kolxozçu F.Qolovati təyyarəquraşdırmaya 100 min manat pul keçirmişdir. Donorluq kütləvi hal almışdır.

Müharibə kənd təsərrüfatına ağır zərbə vurdu. Əkin sahələrinin və mal-qaranın yarısı işğalçıların əlinə keçdi. Demək olar ki, kəndin bütün əmək qabiliyyətli kişiləri, o cümlədən mexanizatorların çoxu müharibəyə səfərbər oldu. Traktorlar, avtomobillər, atlar cəbhənin ehtiyacları məqsədilə müsadirə edilmişdir. 1942-ci ildə taxıl yığımı müharibədən əvvəlki illə müqayisədə yalnız 31 faiz təşkil edirdi. Kartof, ət, süd, pambıq istehsalı azalmışdır. Kənd təsərrüfatı işlərinin bütün ağırlığı qadınların, yeniyetmələrin və qocaların çiyinlərinə düşmüşdür. Müharibə illərində minimum əmək günü norması artırıldı. Kolxoz və savxozların məhsulu praktik olaraq əvəzi ödənilmədən dövlətə təhvil verilirdi. Məcburi ödəmə həyətyanı sahələrə də tətbiq olunurdu. Kolxozçular kartoçka almırdılar. Kəndlilərin gərgin əməyi sayəsində ordunu ərzaq, hərbi sənayeni xammalla təmin etmək mümkün oldu. Ölkə ərazisinin faşistlərdən təmizlənməsi ilə bura məhdud texnika və toxum göndərilməyə başlandı. 1945-ci ildə işğaldan azad olmuş ərazilərin əkin sahəsi müharibədən əvvəlkinin 72 faizinə, istehsal edilmiş məhsul isə yarısına çatdı.

1943-1945-ci illərdə iqtisadiyyatın inkişafı, xüsusilə hərbi məhsul buraxılışına görə

SSRİ Almaniyanı ötüb keçdi. Sənaye istehsalının inkişafını təmin edən 7500 iri müəssisə işə salındı. 1943-cü ildə 30 min təyyarə, 24 min tank, 130 min artilleriya topu buraxıldı. Döyüş texnikası, atıcı pistolet-pulemyotlar, yeni qırıcı La-5, Jak-9 təyyarələri, ANT-42 cəbhə adı TB-7 olan ağır bombardmançı döyüş təyyarələri durmadan təkmilləşdirildi. Bu strateji bombardmançı təyyarələr dayanmadan Berlinə zərbə endirib geri qayıtmaq üstünlüyünə malik idi.

Müharibə illərində ideologiya sahəsində vətənpərvərliyi və SSRİ-də yaşayan xalqlar arasında birliyi təbliğ etmək ön plana çıxdı. Slavyan və başqa xalqların qəhrəman keçmişinin təcəssümü başlandı. Sinfi, sosializm dəyərləri "vətən" və "vətənpərvərlik" anlayışları ilə əvəz olundu. Müharibə Sovet hakimiyyəti ilə Rus pravoslov kilsəsini barışdırdı, 1941-ci il iyunun 22-də kilsə "Vətənin müqəddəs hüdudlarını qorumaqda" xalqa xeyir-dua verdi. 1943-cü ildə İ.Stalinin icazəsi ilə yerli mitropolit Sergey bütün Rusun Patriarxı seçildi.

Sovet xalqının faşizmlə ölüm-dirim mübarizəsi aparıcı mədəniyyət xadimlərinin yaradıcılığında dərin iz buraxdı. Rəssam İ.M.Toidzenin "Ana Vətən çağırır!" plakatı çox böyük emosional işıq şüası təsiri bağışladı. Adamlar nəfəslərini tutaraq Ümumittifaq radiosu vasitəsilə Y.B.Levitanın xüsusi bir ahənglə oxuduğu cəbhə məlumatlarını dinləyirdilər. Müharibə dövründə İ.Q.Erenburq "Qızıl Ulduz" ("Krasnaya zvezda") və cəbhə qəzetlərində iki minə yaxın məqalə çap etdirmişdir. Bir çox ədəbiyyatçı hərbi müxbir kimi fəaliyyət göstərirdi. A.T.Tvardovskinin "Döyüşçü haqqında kitab" ("Kniqa pro boytsa") əsərindəki cəsur Vasili Terkin surəti Böyük Vətən müharibəsi sıravi əsgərinin cəbhədəki qəhrəmanlığının bədii təcəssümünün ən yaxşı nümunəsi idi. Yazıçı V.S.Qrossmanın "Qırmızı Ulduz" ("Krasnaya zvezda") qəzetinin müxbiri kimi yazdığı "Stalinqrad oçerkləri" şəhərin qəhrəman müdafiəçilərinin həyatını tarix səhifələrinə həkk etdirdi. K.M.Simonovun lirikası görünməmiş şöhrət qazanmışdır. A.A.Surkov, A.A.Axmatova, O.F.Berqqolts, M.V.İsakovski və başqaları xalqa öz poetik sözləri ilə müraciət etdilər. V.İ.Lebedev-Kumaçın sözləri əsasında A.V.Aleksandrovun musiqisini bəslədiyi "Müqəddəs müharibə" ("Svyaşşennaya voyna") mahnısı bütün ölkədə şöhrət qazandı. Yüksək vətənpərvərlik pafosu ilə süslənən rejissor F.M.Ermlerin "O Vətəni müdafiə edir" ("Ona zaşişşaet Rodinu"), rejissor İ.A.Pıryevin "Raykom katibi" ("Sekretar raykoma") və d. kino filmləri çox məşhur idi.

Hərbi dövrün çətinliklərinə və çoxlu elmi müəssisələrin ölkənin içərilərinə köçürülməsinə baxmayaraq sovet alimləri düşmən üzərində qələbədə öz töhfələrini əsirgəmədilər. Onlar tank sənayesi üçün vacib olan yeni metal növləri hazırlayır, radiodalğaları sahəsində tədqiqatlar apararaq vətən radiolakatorların daha da təkmilləşdirdilər. L.D.Landau sonradan Nobel mükafatına layiq görülən kvant mayesinin hərəkəti nəzəriyyəsini işləyib hazırladı. Aerodinamika sahəsində S.Çaplıqin, B.Yuryev, S.Xristianoviç, M.Keldışın tədqiqatları yeni qırıcı, hücumçu və bombardmançı təyyarə nümunələrinin yaranmasına səbəb oldu. İ.Bardinin rəhbərliyi ilə yeni növ metalın alınması və tank sənayesində tətbiqi ilə bağlı tədqiqatlar geniş miqyas almışdı. A.Aleksandrovun laboratoriyasında gəmilərin maqnit minalarından qorunması işi son dərəcə əhəmiyyətli idi. Bir qrup alim S.Vavilovun başçılığı ilə hərbi texnika üçün zəruri optik cihazları yaratdı. N.Semyonov, N.Javoronkov, Y.Zeldoviç, Y.Xariton partlayış nəzəriyyəsi, barıtın kimya və texnologiyası sahəsində mühüm nəticələr əldə etdilər. Professorlar P.Gertsen, A.Savitski odlu silah yarasının müalicəsi metodikasın işləyib hazırlayırdılar. N.Burdenkonun rəhbərliyi ilə bir qrup alim kəllənin sulfamid preparatları ilə müalicə olunması metodun, A.Boqomolets sınmış sümüyün müalicəsi üçün dərmanların hazırlanması, V.Filatov öz kollektivi ilə kontuziya olmuş əsgərlərin görmə qabiliyyətinin bərpa edilməsi problemini həll etmişdir.

***Berlin əməliyyatı. Almaniyanın təslim olması.*** 1945-ci ilin aprelində Sovet silahlı qüvvələrinin qarşısında duran əsas vəzifə alman işğalçılarına həlledici zərbə vuraraq Qələbə Bayrağını Berlin üzərinə sancmaq idi. Bu vəzifəni yerinə yetirmək marşal K.K.Rokossovskinin komandanlığı altında 2-ci Belarusiya, marşal G.K.Jukovun komandanlığı ilə 1-ci Belarusiya, marşal İ.S.Konevin komandanlığı altında 1-ci Ukrayna cəbhələrinə, Uzaq hərəkət aviasiyasına, Baltik flotuna, Dnepr hərbi flotiliyasına və iki Polşa Ordularına həvalə olunmuşdur. Sovet komandanlığı Berlin istiqamətinə 2,5 milyon əsgər və zabit, 41600 top və

minaatan, 6250 tank və özüyeriyən qurğu, 7500 döyüş təyyarəsi toplamışdır. Berlini müdafiə edən faşist ordularının sırasında bir milyon əsgər və zabit, 10400 top və minaatan, 1500 tank və özüyeriyən qurğu, 3300 döyüş təyyarəsi var idi. Faktlar göstərir ki, Qızıl Ordu artilleriya cəhətdən düşməndən 4 dəfə, tank və özüyeriyən qurğularda 4,1, hərbi təyyarələrdə 2,3 dəfə üstünlük təşkil edirdi.

Berlin üzərinə hücum əməliyyatı 1945-ci il aprelin 16-da başladı və mayın 8-nə kimi davam etdi. Düşmən xüsusilə 1-ci Belarusiya cəbhəsi əsgərlərinin hücum etdiyi Zellov hündürlüyü rayonunda ciddi müqavimət göstərərək hücumun qarşısını almağa səy göstərdi. Hitlerçilərin müqavimətini qırmaq məqsədilə G.Jukov general V.İ.Çuykovun 8-ci qvardiya ordusu ilə birlikdə generallar M.E.Katukov və S.İ.Boqdanovun qvardiyaçı tank ordularını hücuma göndərdi. Aprelin 17-də günün sonunda düşmən sovet qoşunlarının təzyiqinə tab gətirməyərək Zellov müdafiə xəttinin yarılmasına mane ola bilmədilər. Hücumu davam etdirən Qızıl Ordu aprelin 25-də Berlin qruplaşmasının mühasirəsini başa çatdırdı. 300 min hitlerçi əsgər və zabit, 3 min top və minaatan, 250 tank və hücum topu mühasirədə qaldı. Həmin gün 1-ci Ukrayna cəbhəsinin 5-ci qvardiya ordusunun qoşunları Elbanı keçərək Torqau şəhəri rayonunda 2-ci amerika ordusunun hissələri ilə görüşdü. Faşist Almaniyası iki hissəyə bölündü. Təslim olmaqdan imtina edən komandanlıq döyüşçüləri Berlinin küçələrində və evlərdə gedən qanlı döyüşlərə göndərirdilər. Artilleriya general-polkovniki Veydlinq Berlin qarnizonunun komandanı təyin edildi. Berlin qarnizonu təslim olmaqdan imtina etdikdən sonra 10 gün ərzində şəhərin yanan və dağılmış binaları yerləşən küçələrində, toz-duman, atəş altında qanlı döyüşlər gedirdi. Aprelin 29-da reyxstaq uğrunda döyüşlər başlamış, rəsmi məlumata görə aprelin 30-u saat 21:50 dəqiqədə kəşfiyyatçılar M.A.Yeqorov və M.V.Kantariya Qələbə bayrağın reyxstaqın binasının Şərqində kayzer Vilhelimin heykəlinə asaraq dalğalandırmışlar. 1946-cı il mayın 8-də hər iki kəşfiyyatçı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. 1945-ci il aprelin 30-da bunkerində A.Hitler və həyat yoldaşı Yeva Braun özünü öldürdü. Bir gün sonra Y.Gebbels və ailəsi də eyni aqibəti yaşadı. Mayın 2-si saat 15-ə doğru Berlin qarnizonu təslim oldu. Gün ərzində 135 mni düşmən əsgər və zabiti əsir düşdü. Berlin uğrunda döyüşlərdə 360 min sovet döyüşçüsü həlak oldu. A.Hitlerin ölümündən sonra təşkil edilən qrossadmiral K.Dyonitsin hökuməti ABŞ və İngiltərə ilə təslim olmaq aktını imzalasa da sovet tərəfi bunu qəbul etmədi. Alman silahlı qüvvələrinin danışıqsız təslim olması aktı Berlinin ətrafı olan Karlsxorstda mayın 8-də imzalandı. Təslim olma aktını Alman Baş komandanlığı tərəfindən general-feldmarşal V.Keytel, admiral X.Frideburq və aviasiya general-polkovniki Q.Ştumpf, qalib müttəfiq dövlətlər adından Sovet İttifaqı marşalı G.K.Jukov, Böyük Britaniyanın Baş aviasiya marşalı A.Tedder və şahidlər ABŞ nümayəndəsi general K.Spaats, fransız nümayəndəsi general J.M.deLatr de Tassini imzaladılar. Buna baxmayaraq cənubda, Çexoslovakiyada feldmarşal Şernerin komandanlığı ilə alman-faşist ordu hissələri müqavimət göstərməkdə davam edirdilər. Çexoslovakiyanın paytaxtı Praqa əhalisi hitlerçilərə qarşı üsyan qaldırdılar, lakin qüvvələr qeyri-bərabər idi. Sovet ordusu 1-ci çexoslovak ordusu, 1-ci və 4-cü rumın orduları ilə birlikdə Praqa əməliyyatına başlayaraq mayın 9-da Praqanın divarlarına çatdılar. Mayın 11-də düşmən silahı yerə qoydu. 860 min nəfər düşmən əsgəri və zabiti əsir düşdü, 1,8 min tank və hücum topu, mindən çox təyyarə döyüş qəniməti kimi ələ keçirildi. Beləliklə, Qızıl Ordu Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa orduları, Yuqoslaviya, Polşa, Çexoslovakiya, Bolqarıstan, Rumıniya, Macarıstan, Albaniya və d. ölkələrin vətənpərvər qüvvələri ilə birlikdə faşist Almaniyasını darmadağın etdi.

***Potsdam konfransı. İkinci Dünya müharibəsinin başa çatması.*** Avropada müharibə başa çatdıqdan sonra 1945-ci il iyulun 17-dən avqustun 2-nə kimi Berlin ətrafında yerləşən Potsdamda SSRİ, ABŞ və İngiltərə dövlət başçıları İ.Stalin, H.Trumen, U.Çörçill sonra K.Ettlinin iştirakı ilə konfrans keçirildi. Əsas məsələ müharibədən sonra Avropanın, xüsusi ilə Almaniyanın gələcəyi ilə bağlı idi. Fikir ayrılığına baxmayaraq konfrans iştirakçıları əsas məsələlərdə razılığa gələ bildilər. Almaniyaya ümumi prinsip əsasında siyasət tətbiq edilirdi ki, buna görə onun silahlı qüvvələri ləğv edilməli, silah istehsal edən sənaye birlikləri buraxıl-

malı, nasizmin qalıqları ləğv edilməli, siyasi həyat demokratikləşdirilməli idi. Avropadakı sərhədlər məsələsi qəti olaraq razılaşdırıldı. Sileziya və Pomeraniya, Şərqi Prussiyanın bir hissəsi Polşaya verildi və qərara alındı ki, bu yerlərin alman əhalisinə Almaniyaya köçmək hüququ verilsin. Qərb rəsmi surətdə Latviya, Litva və Estoniyanın SSRİ-yə birləşdirilməsin tanımasa da Baltikyanı respublikalar, Qərbi Ukrayna və Qərbi Belarusiya, Moldaviya SSRİ-nin tərkibində qaldı. Sovet İttifaqı Şərqi Prussiyanın bir hissəsin (hazırki Kalininqrad vilayətin) və Zakarpat Ukraynasını da aldı. 1938-ci ildəki Münhen sövdələşməsi ləğv olundu, Südet vilayəti Çexoslovakiyaya qaytarıldı, ölkənin müstəqilliyi təmin olundu. Macarıstan, Ruminiya, Bolqarıstan, Yunanıstan və Albaniyanın əvəllki sərhədləri bərpa edildi. Avstriya yenidən müstəqil dövlət oldu. İtaliya özünün bütün müstəmləkələrindən məhrum edildi. 1945-ci ilin axırları, 1946-cı ilin əvvəllərində keçmiş müttəfiqlər arasında kəskin fikir ayrılığı yarandığına görə Potsdam konfransının qərarların tam həyata keçirmək mümkün olmadı. 1946-cı ildən başlayaraq iki müxtəlif ictimai-siyasi sistemin qarşıdurması nəticəsində soyuq müharibə dövrü başladı.

Tehran və Krım konfranslarının qərarlarına uyğun olaraq SSRİ 1945-ci il avqustun 8-də Yaponiyaya müharibə elan etdi. Amerika siyasi məqsədlərlə heç bir hərbi zərurət olmadan Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası ataraq 100 min nəfərdən çox adamı öldürdü, yarım milyona yaxın dinc əhali zərər çəkdi. Buna baxmayaraq Yaponiya hələ Mancuriya, Şimali-Şərqi Çin, Saxalin və Kuril adalarında xeyli hərbi qüvvəyə malik idi. R.Malinovskinin komandanlıq etdiyi Zabaykal ordusu, K.Meretskov və M.Purkaevin 1-ci və 2-ci Uzaq Şərq cəbhələri, İ.Yumaşevin Sakit okean flotu, N.Antonovun Amur hərbi flotiliyası Monqolustan xalq-inqilabi ordusu hissələri ilə birlikdə hücum əməliyyatına başladılar.

Sovet Ordu birliklərində 1669500 nəfər canlı qüvvə, 29 min top və minaatan, 5,5 min tank və özüyeriyən artilleriya qurğusu, 3,8 mindən çox döyüş təyyarəsi var idi. A.Vasilevskinin başçılıq etdiyi Uzaq Şərq komandnalığı sovet ordu birliklərinə ümumi rəhbərlik edirdi. Bir milyon nəfər əsgər və zabiti olan Yapon kvantun ordusu Qızıl orduya qarşı dayanmışdır. Avqustun 9-da hücuma keçən Zabaykal cəbhəsinin əsgərləri Xinqan-Şenyan istiqamətində tanklarla gün ərzində 120-150 km irəlilədilər. Çaylarda suyun səviyyəsinin 2-4 m yüsəlməsinə baxmayaraq A.Kravçenkonun 6-cı tank ordusu üçüncü gün Böyük Xinqan dağlarını aşıb, Mancuriya düzənliyinə çıxıb Lubey şəhərin tutdular. 2-ci Uzaq Şərq cəbhəsi qoşunları şimaldan və şərqdən hücumu davam etdirərək avqustun 14-də Mancuriyanın içərilərinə doğru 50-200 km irəlilədilər. Yaponların Sunqariysk istiqamətində sovet qoşunlarını dayandırmaq cəhdləri boşa çıxdı. Bu vaxt müddətində 1-ci Uzaq Şərq cəbhəsi orduları Linkona, Xarbinə və Qirinə zərbələr vurdular. Xüsusilə Mudantszyan şəhəri uğrunda amansız döyüşlər nəticəsində şəhər təslim oldu. Avqustun 19-dan başlayaraq yapon ordu hissələri təslim olmağa başladı. 148 nəfər yapon generalı, 594 min nəfər əsgər və zabit əsir götürüldü. Sovet Ordusu 36456 nəfər itki verdi. 1945-ci il sentyabrın 2-də Tokio körfəzindəki amerikan linkoru "Missuri" hərbi gəmisinin göyərtəsində Yaponiyanın nümayəndələri Xarici İşlər Naziri İ.Siqemitsu, imperiya Baş gərargah generalı Y.Umedzu, müttəfiq orduların Baş kamandanı general D.Makartur, SSRİ təfəfindən general-leytenant K.N.Derevyanko danışıqsız təslim olmaq haqqında Aktı imzaladılar. 1905-ci ildə Rusiyanın itirdiyi Saxalinin cənub hissəsi və Kuril adaları SSRİ-nin tərkibinə daxil edildi. 6 il davam edən İkinci Dünya müharibəsi başa çatdı.

İkinci Dünya müharibəsinin və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsinin əsas hərəkətverici qüvvəsi, qəhrəmanı və qalibi SSRİ-nin və Avropanın çoxmillətli xalqları idi. Müharibənin alovları içərisində 27 milyondan çox sovet vətəndaşı həyatını itirdi. Yalnız Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrinin ərazisində gedən döyüşlərdə bir milyondan çox sovet əsgəri həlak oldu, onların 600 min nəfəri Polşa torpaqlarında, 280 min nəfəri Macarıstan və Çexoslovakiyanın azad edilməsi uğrunda gedən döyüşlərdə həlak oldular. Ən dağıdıcı və qanlı müharibə olan İkinci Dünya müharibəsində Avropada ölənlərin sayı 50 milyon nəfərdən çox idi. "Xolokost", yəni 7 milyon yəhudinin məhv edilməsi faşizmin dünya miqyasında məlum cinayətlərindən biri idi. Faşist cəza düşərgələrinə düşən 18 milyon nəfər adamın 11 milyonu məhv edilmişdir. Bu amansız müharibədə Çin 35milyon, SSRİ 27 milyona yaxın,

Polşa 6 milyona yaxın, Yuqoslaviya 1,8 milyon nəfər, ABŞ 405 min, Böyük Britaniya 350 min, Fransa 635 min adam itirmişdir. Yeni hesablamalara görə müharibə illərində Qızıl Ordunun itkiləri 12 milyona yaxın idi. İşğal olunmuş ərazilərdə bombardmandan, repressiyalardan, aclıq və xəstəliklərdən 13 milyon sovet adamı məhv olmuşdur. 5,3 milyon nəfər adam işləmək üçün zorla Almaniyaya aparılmışdır ki, onların da 2,2 milyon nəfəri pis qidalanmaq və amansız rəftar nəticəsində ölmüşdür. SSRİ-də 1710 şəhər və qəsəbə tamamilə dağıdılmışdır. 25 milyon adam öz evindən məhrum olmuşdur. 32 min iri və orta sənaye müəssisəsi sıradan çıxmış, 65 min km dəmir yolu, 1870 körpü, 427 muzey, 1670 kilsə dağıdılmış və ya talan edilmişdir. 1941-1945-ci illərdə SSRİ-yə dəyən zərər müharibədən əvvəlki qiymətlərlə 2,6 trillion manat təşkil edirdi.

İkinci Dünya müharibəsində faşist Almaniyası 13,4 milyon nəfər adam, o cümlədən, Şərq cəbhəsində 7,2 milyon adam itirmişdir. Almaniyadakı hərbi əməliyyatlar nəticəsində bombardmanlardan 3,3 milyon nəfər adam ölmüş və ya itkin düşmüşdür. Müttəfiqlər İtaliya, Macarıstan, Rumıniya, Finlyandiya, Bolqarıstan sovet-alman cəbhəsində 1,5 milyon adam itirmişdir. Müharibə illərində təqribi hesablamalara görə SSRİ-də 4-dən 6 milyona kimi hərbi əsir olmuşdur ki, onların da çoxu soyuq, aclıq, xəstəlikdən məhv olmuşdur. Sovet-Alman cəbhəsində vermaxt 73 faizdən çox canlı qüvvə, 75 faizə yaxın tank, top və minaatan, 75 faizdən çox aviasiyasın itirmişdir. Faktlardan göründüyü kimi SSRİ İkinci Dünya müharibəsində qələbəyə əvəzsiz töhvə vermişdir. Qızıl Ordunun çox böyük itkiləri, xalqın kütləvi qəhrəmanlığı, sıravi müharibə və arxa cəbhə iştirakçılarının şücaəti siyasətçi və hərbi rəislərin yanlış hesablarının qarşısını alaraq Böyük Qələbəni təmin etdilər. Qələbənin təmin olunmasının mühüm amillərindən biri iqtisadiyyatın sürətlə səfərbər edilərək müharibənin tələbələrinə uyğun qurulması idi. Qələbənin mühüm şərtlərindən biri də SSRİ, Böyük Britaniya, ABŞ-ın alman-faşist təcavüzünə qarşı birgə mübarizə aparması idi. Lend-liz xətti ilə SSRİ-yə göndərilən hərbi texnika, avtomobil, avadanlıq və ərzaq qələbədə əhəmiyyətli rol oynamışdır. Bunlar sovet ordusundakı təyyarələrin 10, tankların 12, avtomobillərin 70 faizini təşkil edirdi. Düşmən üzərində qələbədə görkəmli hərbi xadimlər və sərkərdələr G.K.Jukov, K.K.Rokossovski, N.F.Vatutin, İ.S.Konev, A.M.Vasilevski, F.İ.Tolbuxin, R.Y.Malinovski, K.A.Meretskov, S.K.Timoşenko, L.A.Qovorov və başqaları misilsiz dərəcədə mühüm rol oynadılar.

İkinci Dünya müharibəsi nəticəsində Baltikyanı respublikalar, Qərbi Ukrayna, Qərbi Belarusiya, Bessarabiya, Şimali Bukovina, Keniqsberq, Klaypeda, Petsamo, Podkarpat Rusu, Vladimir-Volın, Cənubi Saxalin,Kuril adaları, Tuva SSRİ-nin tərkibinə daxil edilmişdir.

Müharibənin gedişində müttəfiqlər belə qərara gəldilər ki, İkinci Dünya müharibəsinin başlanmasının səbəbkarları olan faşist Almaniyasının rəhbərləri cəzalandırılmalıdır. Bu məqsədlə 1945-ci il dekabrından 1946-cı ilin oktyabrına kimi Nyurnberqdə Üçüncü peyxin rəhbərlərinə qarşı beynəlxalq hərbi məhkəmə prosesi təşkil olundu. Faşist Almaniyasının siyasi və hərbi rəhbərləri Gerinq, Gess, Ribbentrop, Kaltenbrunner, Keytel, əsas sənayeçilər Şaxt, Şpeer, Q.Krupp Qalib dövlətlərin hərbi tribunalı qarşısında cavab verməli oldular. Onların hamısı dünya və insanlığa qarşı ağır hərbi cinayətlər törətməkdə təqsirkar bilinirdilər. 1946-cı il oktyabrın 16-da Beynəlxalq tribunal faşist imperiyasının ali rəhbərliklərinə ölüm hökmü çıxardı. Onlar milyonlarla insanın ölümünə səbəb olan əmrlərin yerinə yetirilməsində, bir çox xalqların məhv edilməsi planının hazırlanması və həyat keçirilməsində təqsirkar bilindilər. İşğalçı hakimiyyətlə əməkdaşlıq edənlər də məsuliyyətə cəlb edildi. İkinci Dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin məğlubiyyəti ilə başa çatdıqdan sonra qalib dövlətlər, SSRİ və onun dünənki müttəfiqlərinin koalisiyası dağıldı və onlar arasındakı dərin ziddiyyətlər dünya sosializm sistemi dağılana kimi davam etdi.

## SSRİ 1940-cı illərin ikinci yarısı-50 ci illərin əvvəllərində

**Sosial-iqtisadi vəziyyət.** Müharibə başa çatdıqdan sonra qarşıda duran əsas vəzifə dinc quruculuğa keçərək yüzlərlə dağıdılmış şəhər, qəsəbə və kəndi, dəmir yollarını və sənaye müəssisələrini bərpa edərək adamların maddi vəziyyətini yaxşılaşdırmaq idi. SSRİ-nin 27

milyon nəfərə yaxın əhalisi döyüşlərdə, faşist düşərgələrində, aclıqdan və xəstəlikdən öldüyü, ölkənin xalq təsərrüfatı milli sərvətinin təqribən 30 faizini itirdiyi üçün bu vəzifəni həyata keçirmək mürəkkəb və çətin şəraitdə baş verirdi. MSİ-nin məlumatına görə SSRİ-nin əhalisi demək olar ki, 18 faiz azalaraq 1941-ci il yanvarın 1-də 196,8-dən, 1946-cı il yanvarın 1- də 162,4 milyon nəfərə düşmüşdü. Əhalinin azalması, əmək qabiliyyəti olan fəhlələrin yaşlı və yeniyetmələrlə, kişilərin qadınlarla, ixtisaslı işçilərin iş təcrübəsi olmayanlarla əvəz olunması, mal-qaranın azalması sayəsində əmək qabiliyyəti olan insanların pis qidalanması, mənzil şəraitinin yetərsizliyi, texniki avadanlığın sıradan çıxması və ya köhnəlməsi, kapital qoyuluşunun aşağı düşməsi və s. əmək məhsuldarlığının müharibədən əvvəlki səviyyə ilə müqaisədə kəskin aşağı düşməsinə səbəb olmuşdur.

1945-ci il mayın sonunda DMK bir sıra müdafiə müəssisələrini əhali üçün məhsul hazırlamağa yönəltdi. Ordunun şəxsi heyətinin tərxis olunmasına dair qanun qəbul edildi. Xalq təsərrüfatının dövlət tərəfindən idarə olunmasında struktur dəyişikliklər həyata keçirildi. 1945-ci ilin sentyabrın 4-də Dövlət Müdafiə Komitəsi ləğv olundu. Ölkənin idarə edilməsində bütün işlər Xalq Komissarları Sovetinin, 1946-cı ilin martın 15-dən isə yeni adı ilə SSRİ Nazirlər Sovetinin əlində cəmləşdi. Növbədənkənar məcburi iş norması ləğv olundu, 8 saatlıq iş günü və əmək haqqı ödənilməklə illik məzuniyyətlər bərpa edildi.

1946-cı ilin martında SSRİ Ali Soveti 1946-1950-ci illəri əhatə edən xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik plan tapşırıqlarına aid qanun qəbul etdi. Ağır sənayenin və dəmir yol nəqliyyatının bərpası və inkişafı, bütün sahələrin texniki tərəqqisinin təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin artırılması, silahlı qüvvələrin ən yeni hərbi texnika ilə təchiz edilməsi beşilliyin başlıca vəzifələri elan edildi. Planda sənaye və kənd təsərrüfatının müharibədən əvvəlki səviyyəsini bərpa edərək sənayeni 48, kənd təsərrüfatın isə 23 faiz artırmaq nəzərdə tutulmuşdur. Dördüncü beşillik planın xalq təsərrüfatını bərpa etmək və onu daha da inkişaf etdirmək vəzifəsini həyata keçirmək üçün 250,3 milyard manat məbləğində əsaslı vəsait qoyuluşu ayrılmışdır. Bu vəsaitin yarıdan çoxu ağır sənayeyə, ilk növbədə işğala məruz qalmış ərazilərin sənaye potensialının bərpa edilməsinə yönəldilmişdir. Planda xalqın sosial-məişət vəziyyətini yaxşılaşdırmaq, təhsil, elm və mədəniyyət, səhiyyənin inkişaf etdirilməsi nəzərdə tutulurdu.

ÜİK (b)P MK-nın katibi A.Jdanov, SSRİ Dövlət Plan Komitəsinin sədri N.A. Voznesenski, RSFSR Nazirlər Sovetinin sədri N.Rodionov iqtisadi inkişafa volüntarist, yəni subyektiv münasibəti yumşaldaraq onun tarazlaşdırılmış inkişaf xəttini müdafiə edirdilər. Bu istiqamətin əksinə olaraq G.M.Malenkov və L.P.Beriya iqtisadçı E.S.Varqanın tədqiqatlarını əsas götürərək 30-cu illərin iqtisadi modelinə qayıdaraq ölkənin hərbi-sənaye bazasının sürətli inkişafını ön plana çəkməyi tələb edirdilər. 1946-1947-ci illərdə artan beynəlxalq gərginliyin manipulyasiyası, sənaye rəhbərlərinin mühafizəkar cəbhəsinin təşkil olunması, 1946-cı il qıtlığı sayəsində kəndlilər üzərində nəzarətin sərtləşdirilməsi, iqtisadi həyata volüntarist metodların tədbiqinin yumşaldılması və məcburi tədbirlərin azaldılması tərəfdarı olan xalq təsərrüfatının tarazlaşdırılmış inkişafını müdafiə edənlərin məğlubiyyəti ilə başa çatdı.1946-cı ildə dinc quruculuğa keçilməsinin çətinliklərindən irəli gələn sənaye istehsalının əvvəlki illə müqaisədə 17 faiz aşağı düşməsi sənayenin idarə edilməsinin icbari və iradi metodlarına qayıtmağa gətirib çıxardı.1948-cı ildə A.Jdanovun ölümü, N.Voznesevskinin vəzifədən azad edilərək məhkəməsiz 1950-ci ildə güllələnməsi, dördüncü beşillik plan tapşırıqlarına yenidən baxılaraq subyektiv olaraq iqtisadi artımın yüksək göstəricilərinin müəyyən edilməsi ilə nəticələndi. Əhalinin aşağı həyat səviyyəsi nəzərə alınmadan, xüsusilə, ağır sənaye sahəsində “nəhəng layihələrə” üstünlük verilirdi. Başqa sözlə 1947/48- 1952/53-cü illərdə 30-cu illərdəki iqtisadi quruculuq təcrübəsi təkrar olunurdu. Birinci beşillikdə olduğu kimi başlı-başına tikintisi başlayan çoxlu müəssisəni tikib başa çatdırmaq mümkün olmadı. İxtisası olmayan işçilərin çoxsaylı tikintilərə cəlb edilməsi ilk beşilliklərdə olduğu kimi əməyin təşkilinin böhranına və məhsuldarlığın aşağı düşərək dördüncü beşillik illərində orta hesabla 6 faiz olmasına gətirib çıxardı. Bu həm də işdən yayınanların, kadr axıcılığının, zay məhsul istehsalının artması, əmək intizamının aşağı düşməsi ilə müşayiət edilirdi.

Bütün bu qeyd edilənlərə baxmayaraq, şübhəsiz, xalq təsrrüfatının bərpa edilməsində tezliklə normal dinc həyatı qaydaya salmağa çalışan sovet adamlarının əmək şövqü mühüm rol oynadı. Eyni zamanda Almaniyadan 4,3 mlrd dollar həcmində alınan təzminat və texnologiya beşillik planın yerinə yetirilməsinə böyük kömək oldu. Məhz bunun hesabına müharibədən sonra bərpa olunan müəssisələrin yarısının dəzgah və avadanlığını yeniləmək mümkün oldu. Dördüncü beşillik dövründə 3 mindən çox iri müəssisə, o cümlədən Dneprohes, Azov və Zaporojye metallurgiya kombinatları, Stalinqrad və Xarkov traktor zavodları bərpa edilmişdir. Ümumən 1946-1950-ci illərdə 6,2 mindən çox sənaye müəssisəsi bərpa edilmiş və yenisi tikilmişdir. Ukrayna, Belarusiya, Moldaviyada bərpa işləri görülür, Ural, Sibir, Cənubi Qafqaz və Orta Asiya respublikalarında yeni sənaye nəhəngləri, Ust-Kamenoqor qurğuşun-sink kombinatı, Kutaisi avtomobil zavodu, Sumqayıt və Nikopolda boru prokat zavodları, Cambul və Kokand superfosfat zavodları, Sverdlovskdə (Yekaterinburq) turbin-motor zavodu, Minskdə, Vladimirdə traktor zavodları və s. işə düşdü. Saratov-Moskva, Daşava-Kiyev kimi iri və uzun qaz kəmərləri çəkildi və istifadəyə verildi. Özbəkistanda Fərhad, Volqada Rıbinsk, Uralda Nijni Turbinsk, Moskva ətrafında Şekino kimi yeni elektrik stansiyaları tikildi.1949-cu ilin noyabrında Xəzərdə açıq dənizdə ilk neft quyusu qazıldı və Azərbaycan neft istehsalının həcminə görə SSRİ-də birinci yerə çıxdı. Rəsmi məlumata əsasən 1948-ci ildə sənaye məhsulu istehsalına görə ölkə müharibədən əvvəlki səviyyəni 18, 1950-ci ildə isə 73 faiz ötüb keçdi. Bununla yanaşı, planın böyük hissəsinin yerinə yetirilməsi 30-cu illərdə olduğu kimi məhsulun dəyərinin nəzərə alınması hesabına başa gəlirdi, kömürün, metal, neft, maşının real istehsalı isə o qədər də çox artmırdı. Həm də ağır sənayenin bərpası ekstensiv, yəni keyfiyyətcə deyil, kəmiyyətcə artırdı. Sənayeyə yeni xammal ehtiyyatları və əlavə işçi qüvvəsi cəlb olunurdu. Belə ki, 1946-1950-ci illərdə sənaye və tikintiyə ixtisası olmayan 8,5 milyon nəfər yeni fəhlə gəlmişdir.

Bu dövrdə Sovet dövləti ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə, o cümlədən atom bombasının yaradılmasına çox böyük vəsait sərf edirdi.Qapalı hərbi şəhərlər salınır, bütov nazirliklər, məsələn orta maşınqayırma və ümumi maşınqayırma zavodları hərbi proqramları həyata keçirməklə məşğul olurdular. Atom silahının yaradılması ilə dünya şöhrətli fiziklər İ.V.Kurçatov, U.B.Xariton, Y.B.Zeldoviç, İ.K.Kikoin, P.L.Kapitsa, A.F.İoffe və başqaları məşğul olurdular.

Atom enerjisinin tədqiqi ilə məşğul olan xüsusi Komitəyə L.P.Beriya, Texniki Şuraya isə görkəmli hərbi iqtisadiyyat təşkilatçısı B.Vannikov rəhbərlik edirdi.1947-ci ildə SSRİ atom silahını yaratdığını elan etdi, 1949-cu ilin avqustunda ilk sovet atom bombası sınaqdan keçirildi. Atom bombasının kəşf edilməsində alimlərə sovet kəşfiyyatçıları misilsiz xidmət göstərdilər. 1942-1949-cu illərdə alman fiziki Klaus Fuks sovet tərəfinə mühüm məlumatlar vermişdir. 1953-cü ildə SSRİ hidrogen bombasını sınaqdan keçirdi. 1947-ci ildə S.P.Korolyovun rəhbərliyi ilə ilk sovet ballistik raketinin sınaq uçuşu oldu. 1946-1947-ci illərdə 38 növdə raket texnikası hazırlandı ki, bunların da bəzilərinin hərəkət radiusu 3000 km-yə çatırdı.

***Müharibədən sonrakı kənd.*** Müharibədə 15 faiz əhalisini, o cümlədən, 61 faiz əmək qabiliyyəti olan kişiləri, çoxlu miqdarda traktor və atları itirən kəndin vəziyyəti ağır olaraq qalırdı. Bir çox kənddə torpağı öküzlə və ya 4-5 nəfər qadının çəkdiyi qoşqu aləti ilə şumlayırdılar. Ümumiyyətlə, müharibə illərində ölkədə 98 min kolxoz, 1876 sovxoz və 2890 MTS məhv edilmişdir. 1946-cı ilin payızındakı quraqlıqdan irəli gələn qıtlıq, kolxozların idarə edilməsini eyni zamanda kolxozlar üzrə Şura, 3 nazirliyə həvalə edilməsi və çoxnövlü məhsul yetiştirilməsinə keçilməsi yerli imkanlarla uyğun gəlmədiyi üçün kəndin vəziyyəti pisləşməkdə davam edirdi. Belə olduqda Sovet dövləti müharibə illərində kolxozlarda zəifləyən nəzarəti gücləndirmək qərarına gəldi. 30-cu illərdə Qafqazda kollektivləşdirməni həyata keçirən, 1943-cü ildən 1946-cı ilə kimi Torpaq Xalq komissarı olan A.Andreyevin rəhbərliyi ilə 1946-cı ilin sentyabrın 19-da kolxoz nizamnaməsinin pozulmasının aradan qaldırılması üçün tədbirlər görmək tapşırığı ilə kolxozların işləri üzrə komissiya yaradıldı. Təkcə 1946-cı ildə kolxozçular tərəfindən qanunsuz olaraq zəbt edilmiş 4,7 mln ha torpaq kolxoz fondlarına qaytarıldı.1947-ci ildən 1949-cu ilə qədər 5,9 mln ha torpaq kolxozlara geri qaytarıldı. 1947-

ci il iyunun 4-də 1932-ci il avqustun 7-də qəbul edilmiş eyni mahiyyətli qərardan daha sərt olan "Dövlət və ictimai əmlakın oğurlanmasının cinayət məsuliyyəti haqqında" qərarı elan olundu. Dövlət və kolxoz əmlakına qəsd edənləri 5 ildən 20 ilə qədər həbs cəzası gözləyirdi. Kənddəki ağır vəziyyət kolxoz sədrlərinin üzərinə yıxıldı. Təkcə 1946-cı ildə 9511 nəfər kolxoz sədri, briqadir və ferma müdiri cinayət məsuliyyətinə cəlb olundu. Kənddə inzibati amirlik metodları ilə idarə etməni gücləndirən partiya və dövlət rəhbərliyi 1948-ci ildə kolxoz nizamnaməsində kolxozçulara icazə verilən xırdabaş heyvanların dövlətə satılmasını qəti olaraq tövsiyyə etdi. Bunun nəticəsində yarım il ərzində kolxozçular 2 mln başdan çox xırda heyvanı kəsdilər. Eyni zamanda bazarlarda satılan kənd təsərrüfatı məhsullarından gələn gəlir üzərinə qoyulan vergi artırıldı. Həm də bazarlarda alver etmək üçün kolxozçular dövlət qarşısında öhdəçiliklərini tamamilə yerinə yetirdikləri haqqında icazə almaqla çalışa bilərdilər. Dövlətə verilən məhsulun həcmi ildən-ilə artırıldığı halda dövlətin kolxozlara kənd təsərrüfatı məhsulları üçün ödədiyi qiymət 1952-ci ilə kimi 1940-cı il səviyyəsindən də aşağı olmuşdu, belə ki, təkcə taxıl məhsulları öz dəyərinin yeddidə bir hissəsini təşkil etmişdir. Birinci beşillikdə olduğu kimi kolxozlar yalnız dövlət tapşırığını yerinə yetirdikdən sonra kolxozçularla heasablaşa bilərdi. 1950-ci ildə təsərrüfatların 20 faizində əməkgününə 0,5 kq taxıl düşürdü, kolxozların çoxunda isə əməkgününə ümumiyyətlə pul verilmirdi.Kolxozçular öz həyatlarını kənar işlərdən və yüksək vergi tutulan həyatyanı sahələrdən qazanırdılar. Kolxozçu, fəhlə və qulluqçular kənd təsərrüfatı məhsullarının 51, heyvandarlıq məhsullarının isə 62 faizini yardımçı təsərrüfatlarda istehsal edirdilər. Kənd sakinləri kolxoz sahələrində 1948-ci ildən qüvvəyə minən minimum əməkgününün yerinə yetirilməməsi cinayət məsuliyyəti qorxusu altında çalışırdılar. 1942-ci il aprelin 15-də qəbul edilən minimum əməkhaqqını yerinə yetirməyən kolxozçuların məhkəmə məsuliyyətinə cəlb olunmasına dair hökumət fərmanı müharibədən sonra da qüvvədə qalırdı. Təkcə 1946-1948-ci illərdə bu fərmana əsasən 80 faiz qadınlar olmaqla 445 224 nəfər adam islah-əmək işləri hökmü ilə cəzalandırılmışdır.

Ukrayna KP MK-nın birinci katibi N.S.Xruşşovun təşəbbüsü ilə 1948-ci il iyunun 2-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Qəsdən əmək fəaliyyətindən yayınan, ictimai qaydalara zidd, tüfeyli həyat tərzi keçirən şəxslərin uzaq rayonlara sürgün edilməsi haqqında" fərman qəbul edilmişdir. Ukraynada sınaqdan keçən fərman tezliklə qərb vilayətləri və Baltikyanı respubliklar istisna olmaqla bütün ölkəyə şamil edildi. Kolxozçuların ümumi iclasının ictimai məhkumluq haqqında qərarı rayon icraiyyə sovetinin təsdiqi ilə qüvvəyə minir və cəza alan şəxslər 8 il müddətinə xüsusi məskun yerlərinə sürgün olunurdu. Göründüyü kimi müharibədən sonra da kənd təsərrüfatı sahəsində işlər repressiya və əhalinin sürgün edilməsi ilə müşayiət edilən inzibati-amirlik metodları ilə həyata keçirilirdi. Təkcə bu fərman üzrə ölkədə 50 min adam repressiyaya məruz qalmışdır. 1947-ci ilin dekabrındakı pul islahatı da kolxozçulara ağır zərbə vurdu. Belə ki, öz məhsulunu bazarda sataraq nağd pul qazanan kolxozçular vəsaitlərini evdə saxladıqları üçün dövlətin əmanət kassalarındakı vətəndaşların vəsaitlərinin 3 min manata qədər birin birə, 3 min manatdan 10 min manata qədəri üçün ikiyə, 10 min manatdan yuxarı olanları ikinin birə kursu ilə dəyişdirdiyi halda onlar bir manat təzə pulu on manat köhnə pula dəyişdirməyə məcbur idi. Bu isə kolxozçuların şəxsi vəsaitlərinin üçdə bir hissəsini itirməsinə səbəb oldu.Bütün bu tədbirlər nəticəsində kəndlərdə yaşayan əhali şəhərlərə və nəhəng tikintilərə üz tuturdu. 1946-1953-cü illərdə 8 milyon kənd əhalisi öz yaşayış yerini tərk etmişdir.

1949-cu ilin sonlarına doğru kəndin iqtisadi və maliyyə vəziyyəti ağır olaraq qaldığı üçün partiya və dövlət bir sıra təşkilatı tədbirlər gördü. Aqrar siyasətə cavabdeh olan olan A.Andreyev 1949-cu ildə 1938-1949-cu illərdə Ukrayna KP MK-nın birinci katibi işləmiş N.S.Xruşşovla əvəz edildi. Onun təşəbbüsü ilə kolxozlara siyasi və iqtisadi nəzarəti gücləndirmək məqsədilə 1950-ci il 30 may qərarı ilə xırda təsərrüfatlar əsasında böyük kolxozlar yaradılmağa başlandı. Bir ilin ərzində kolxozların sayı 252 mindən 121 minə, 1952-ci ilin sonunda isə 94 minə düşdü. Kiçik kolxozların iri kolxozlara çevrilməsi tədbirləri onların xüsusilə siyasi kadrlarla təmin edilməsi vəzifəsini həll etsə də iqtisadi cəhətdən gözlənilən nəticəni vermədi. Taxıl tədarükü 1940-cı ildəki 36,4 mln ton yerinə 1950-ci ildə 32,3 mln ton

oldu. Kolxoz və sovxozların istehsal fəaliyyəti partiya və dövlət hakimiyyət orqanlarının ciddi nəzarəti altında idi. 1950-1952-ci illərdə ÜİK(b)P MK-nın kənd təsərrüfatı üzrə katibi olan N.S.Xruşşov fərdi kəndli təsərrüfatlarına şübhə ilə yanaşaraq hətta əhalinin ictimai kənd təsərrüfatında çalışdığı aqroşəhər yaratmağı belə təklif etmişdir. Şəhər məişəti rahatlığından yararlana bilən aqroşəhərlərdə şəxsi təsərrüfatlar nəzərdə tutulmurdu. Beləliklə, N.Xruşşovun aqroşəhər ideyası bir tərəfdən kənd əhalisinin düşüncə və həyat tərzinin dəyişilməsinə, o biri tərəfdən şəhərlə kənd əməyi arasında, kolxozçu kəndlilərlə fəhlələr arasında sinfi fərqlərin silinib getməsinə xidmət etməli idi. Doğrudur, İ.Stalin aqroşəhər ideyasını vaxtı çatmamış hesab edərək müdafiə etmədi və bir müddət sonra N.Xruşşovu kənd təsərrüfatı sahəsi üzrə işlərdən uzaqlaşdırdı. İ.V.Stalinin ölümündən sonra hakimiyyətə gələn N.S.Xruşşov ölkənin kənd təsərrüfatı sahəsindəki radikal tədbirlərini davam etdirdi. 1952-ci ildə partiyanın XIX qurultayında G.M.Malenkov "SSRİ-də taxıl probleminin həll edildiyini" elan etdi. Amma ölkənin kənd təsərrüfatı ağır böhran içərisində olduğu üçün hətta müharibədən əvvəlki səviyyəyə çatması bir yana, heç kollektivləşmənin başladığı 1928-ci ilə belə çatmaq mümkün olmamışdır.

***Əhalinin həyat səviyyəsi.*** 1940-cı illərin ikinci yarısı-1950-ci illərin əvvəllərində ölkə əhalisinin həyat səviyyəsi çox aşağı olaraq qalırdı, gündəlik tələbat malları olan ayaqqabı, paltar, ərzaq çatışmırdı. 1946-cı ildə orta əmək haqqı 475, minimum əmək haqqı isə 300 manat təşkil edirdi. Qara çörəyin bir kiloqramı bir manat, ət 14, yağ 28, bir litr süd 2 manat 50 qəpik dəyərində idi. Belə qiymətlərlə yalnız kartoçka ilə normada nəzərdə tutulan ərzaq almaq mümkün idi. Kommersiya ticarətində qiymətlər bir neçə dəfə yüksək idi.1947-ci ildə kartoçka sistemi ləğv olundu və kommersiya qiymətlərindən aşağı olan vahid qiymət tarifi tədbiq edildi. İndi bir kq qara çörək 3,4, ət 30, yağ 66, süd 4 manat oldu. Kişi kostyumunu orta hesabla 450, bir cüt kişi ayaqqabısını 300, qol saatını 900, patefonu 900, bir ədəd təsərrüfat sabununu 5,20, bir litr nefti 2-2,50, duzu 1,60-1,80, rezin qaloşu 45 manata almaq olardı. Kartoçka sistemi ləğv edildikdən sonra ərzaq və sənaye malları dövlətin müəyyən etdiyi vahid tarif qiyməti ilə mağazalarda açıq satılırdı. Maliyyə çətinliyini aradan qaldırmaq məqsədilə 1947-ci ilin dekabrında Sovet İttifaqında pul islahatı keçirildi. Bunun sayəsində müharibə vaxtı işğal edilmiş ərazilərdə yayılan saxta pulları dövriyyədən çıxarmaq nəzərdə tutulurdu. Pul islahatı eyni zamanda əhalinin müxtəlif vasitələrlə əldə etdiyi pul kütləsini dövriyyədən çıxarmaq və ölkənin maliyyə vəziyyətini stabilləşdirmək məqsədi güdürdü. Xüsusilə, gizli şəraitdə hazırlanan pul islahatı gedişində SSRİ Dövlət Bankı köhnə pulları təzə banknotlara 10:1-ə hesabı ilə dəyişirdi.Əhalinin əmanət kassalarında olan 3 min manata kimi vəsaiti 1:1-ə, 3 mindən 10 min manata kimi 3:2-yə, 10 min manatdan yuxarı pul əmanətləri isə 2:1-ə hesabı ilə dəyişdirilirdi. Bütün SSRİ ərazisində pul islahatı 1947-ci il dekabrın 16-dan 29-na kimi keçirildi. Dövlət Bankının məlumatına əsasən 37,2 mlrd.manat köhnə pul dəyişdirildi və əhalinin pul vəsaiti 16 mlrd. manata düşdü. İslahatın nəticəsində pul vəsaitini əmanət kassalarında deyil evdə yastıq altında saxlayan əhali xeyli zərər çəkdi və bunların üçdə bir hissəsi dəyişdirilməmiş qaldı. Kartoçka sisteminin ləğv edilməsi və pul islahatı ölkədəki istehlak bazasındakı vəziyyəti düzəldə bilmədi. Baxmayaraq ki, 1950-ci ildə orta əmək haqqı 650 manata çatmışdı bir çox mallar, hətta çörək belə çatmırdı. Odur ki, yerlərdə kortəbii olaraq kartoçka yerinə talon, kuponlardan ibarət norma sistemi tədbiq edilməyə başlandı.

Maliyyə islahatı və kartoçka siteminin ləğv edilməsi 1946-1947-ci illərdən başlayaraq qiymətlərin artmasına səbəb oldu. Odur ki, dövlət ildən-ilə çox işlənən gündəlik tələbat malarının və bahalı məhsulların qiymətlərini aşağı salmağa başladı. Dövlət kənd təsərrüfatı məhsullarını aşağı qiymətə alıb baha satdığı üçün onun əlində artıq vəsait cəmləşirdi ki, bu da ona sərbəst hərəkət etmək imkan verirdi. Beləliklə, ölkədə hökumətin istehlak mallarının qiymətini dəfələrlə aşağı salması əsasən kəndin və onun maddi vəziyyətinin pisləşməsi hesabına başa gəlirdi.1949-cu ildən başlayaraq gündəlik tələbat mallarının dövlət qiyməti orta hesabla ildə 20 faiz aşağı salınmışdır.1947-1952-ci illərdə isə qiymət təqribən yarıya kimi aşağı düşmüşdür. Eyni zamanda, ərzaq və sənaye mallarının qiymətinin mütəmadi olaraq aşağı salınması geniş əhali kütləri arasında "sosializmin nailiyyətinin" qüvvətli təbliği olmaqla

ölkədə rəhbərin şəxsi hakimiyyət rejiminin yaranması və möhkəmlənməsinə xidmət edirdi.

Müharibədən sonra hökumətin yeritdiyi sosial siyasət cəmiyyətin demoqrafik vəziyyətinə də təsir göstərmişdir. 1946-1953-cü illərdə Sovet İttifaqının şəhər əhalisi 15,1, kənd əhalisi isə 9,9 mln. nəfər artmışdır. Böyüməkdə olan gənc nəsil kənddən şəhərlərə üz tutduğu üçün kəndlilərin sayı azalırdı. Əhalinin sayının azalmasının qarşısını almaq məqsədilə 1955-ci ilə kimi tibbi tələbat olmadan abortlar dövlət fərmanı ilə qadağan olunmuşdur. Gizli abort üçün cinayət məsuliyyətinə cəlb edilən cəza nəzərdə tutulurdu ki, ildə 40-60 min qadın belə cəzalara məruz qalırdı. 1944-cü ilin iyulunda boşanma prosedurunu çətinləşdirən fərman qəbul edildi. Bunun nəticəsində yalnız bir ildə qeyd olunan boşananların sayı 34 mindən 5,8 minə düşdü. Müharibədə milyonlarla kişi həlak olduğu üçün qadınların böyük əksəriyyəti ailə qurmaq ümidini itirərək nigahdan kənar uşaq dünyaya gətirməyə başladılar. 1946-1952-ci illərdə hər il aşağı yuxarı 700-900 min arasında nigahdan kənar uşaq doğulurdu.

Sovet adamlarının mənzil-məişət şəraiti ağır olaraq qalırdı. 1955-ci ildə hər bir şəhər əhalisinə 5,1 kv.m yaşayış sahəsi düşürdü ki, bu da müharibədən əvvəlki 4,5 kv.m göstəricisindən yüksək, 1928-ci ildəki 5,8 kv.m göstəricisindən isə aşağı idi. Ümumən dördüncü beşillik dövründə ölkə əhalisinin mədəni-məişət işlərinə xeyli vəsait xərcləndi. 1946-1950-ci illərdə ümumi sahəsi 100 milyon kvadratmetrdən artıq mənzil tikilmiş və bərpa edilmişdir. Kənd yerlərində isə 2,7 milyon yaşayış evi tikildi və bərpa edildi. Bunlara baxmayaraq, adamların yaşayış mənzillərinə böyük ehtiyacı var idi.

***Siyasi rejim.*** Müharibədən sonra cəmiyyətdə siyasi rejimin müəyyən səviyyədə liberallaşması gözlənilsə də bu baş vermədi. Əksinə dövlət rəhbərliyi daxili siyasi kursun sərtləşdirilməsi məqsədilə bir çox tədbirlər gördü. Üç il yarımda ordudan 8,5 mln keçmiş döyüşçü tərxis olunaraq dinc həyata qayıtdı. Dörd milyon nəfərdən çox repatriat, hərbi əsir, işğal edilmiş ərazilərin zorla aparılmış əhalisi, mühacirlərin bir hissəsi vətənə döndü. Vətənə qaytarılan 227 min hərbi əsirin yalnız 20 faizi evlərinə dönə bildi, yerdə qalan böyük əksəriyyəti isə ya həbs düşərgələrinə göndərildi, ya da ən azı beş il olmaqla müharibədə dağıdılmış rayonların bərpasında çalışmaq şərti ilə icbari sürgünə məruz qaldı. Ancaq 1956-cı ildə keçmiş əsirlər əfv edildi.

1939-1940-cı illərdə SSRİ-yə birləşdirilən ərazilər müharibə dövründə işğala məruz qalmaqla yanaşı burada sovetləşməyə qarşı milli hərəkat, silahlı müqavimət, təqib və repressiyalar geniş yayılmışdır. Birləşdirmə və kollektivləşdirməyə qarşı xüsusilə Qərbi Ukrayna, Moldova və Baltikyanı ölkələrdə müqavimət hərəkatı güclü idi.1939-cu ilin sentyabrında Qərbi Ukrayna SSRİ-yə ilhaq edildikdən sonra gizli silahlı təşkilat olan Ukrayna Millətçilər Təşkilatı olan (UMT) meydana gəldi ki, müharibə zamanı onlar könüllü olaraq "Qalitçina" diviziyasında olduğu kimi SS birləşmələrinin tərkibinə daxil olaraq kommunist və yəhudilərə qarşı mübarizə aparırdılar. 1944-cü ilin iyulunda Sovet qoşunları Qərbi Ukrayna ərazisinə daxil olduqdan sonra UMT-nın lideri R.Şuxoviç sayı 20 min nəfərə çatan Ukrayna üsyançılar ordusunun (UÜO) komandiri oldu.1945-1946-cı illərdə Qərbi Ukraynanın kənd rayonları əsasən üsyançıların nəzarəti altında idi və onlar kollektivləşdirmə ideyasını qətiyyətlə rədd edərək Polşa və Çexoslovakiyanın sərhəd rayonlarında Qızıl Ordunun əməliyyatlarına müqavimət göstərirdilər. 1946-1948-ci illərdə SSRİ-dəki aclıq on minlərlə kəndlinin Ukraynanın şərqindən qərbə qaçmağa məcbur etdi ki, bunun sayəsində də üsyançılar öz sıralarını bir müddət möhkəmləndirə bildilər. Qərbi Ukrayna yalnız 1950-ci ildə kollektivləşdirmə həyata keçirildikdən sonra fəth edilə bildi ki, bu da 300 min nəfərə yaxın adamın 1945-1950-ci illərdə sürgün və həbs edilməsi sayəsində mümkün oldu. Ukraynanın qərbində banderovçular kimi Baltikyanı respublikalarda da Meşə qardaşları gizli milli təşkilat yaradaraq Sovet hakimiyyətinə qarşı silahlı müqavimət göstərirdilər. Belə birləşmələrin üzvlərinin böyük əksəriyyəti müharibə vaxtı işğalçılarla əməkdaşlıq edirdilər. Bununla bərabər, Ukrayna və Baltikyanı əhalinin Ukrayna Millətçiləri Təşkilatını və "Meşə qardaşlarını" müdafiə etməsinin səbəblərindən biri kimi Sovet təhlükəsizlik orqanlarının yerli əhaliyə qarşı tədbiq etdiyi repressiya və təzyiqlər hesab edilməlidir. 1947-1953-cü illərdə Litva, Latviya, Estoniya, Moldaviya və Ukraynadan işğalçılarla iş birliyinə, antisovet fəaliyyətində iştirakına görə 280 min nəfərə

yaxın adam sürgün və həbsə məruz qalmışdır. Sonradan bu insanların 65 min nəfərə yaxını əfv edilərək geri qayıtmışdır.

Müharibədən sonra qalib ordunun cəmiyyət içərisində şöhrət və nüfuzunun artması İ.V.Stalin və onun ətrafının narahatlığına səbəb oldu. 1946-cı ildə hərbi sərkərdələrə qarşı repressiyalar başladı. Onların bir çoxu öz xidməti vəzifəsindən sui-istifadə edərək Almaniyadan əmlakın mənimsənilməsində, müxalifətçilikdə və s. günahlandırılaraq həbs edilib düşərgələrə salındılar. Marşal G.K.Jukovun işi üzrə istintaq başlasa da onun müharibədəki misilsiz xidmətləri, xalq arasındakı böyük nüfuz və şöhrəti nəticəsində İ.Stalin və hakimiyyət onu həbs etməyə cürət etmədi. İ.Stalin G.Jukovu Müdafiə Nazirinin müavini vəzifəsindən azad edərək onu Odessa hərbi dairəsinin komandanı təyin etdi. 1946-cı ildə Hərbi Hava Qüvvələrinin komandanı, aviasiya marşalı A.A.Novikov və Aviasiya sənayesi naziri A.İ.Şaxurin ordunu yarasız təyyarələrlə təmin edərək ziyankarlıq etdikləri üçün həbs edildilər. Dövlət Təhlükəsizlik Nazirliyi əməkdaşları generallar V.N.Qordov, Q.İ.Kulik, F.T.Rıbalçenkonun İ.V.Stalin və ölkədəki siyasi sistem haqqında tənqidi fikirlərini dinləyərək onların qüllələnməsinə səbəb oldular. Dəniz komandanları N.Q.Kuznetsov, L.M.Qaller, V.A.Alafuzov, Q.A.Stepanov müharibə vaxtı müttəfiqlərə paraşüt torpedası haqqında hərbi-texniki məlumatları verməklə ittiham olunaraq cəzalandırıldılar. Sonrakı illərdə generallara qarşı saxta cinayət işləri tərtib edilsə də İ.V.Stalin hərbçilərin 1937-1939-cu illərdə olduğu kimi məhvinə qol qoymadı.

Hakimiyyət müharibə dövründə bir qədər zəifləmiş intellektual həyata nəzarəti gücləndirməyə başladı. 1946-cı ilin yayından başlayaraq mədəni yaradıcılıq sahəsində aşkar edilən "xarici təsir", "metafizik ənənə", "xırda burjua fərdiyyətçiliyi" və "sənət sənət üçündür" prinsiplərinə söykənən azadlıqlar üzərinə genişmiqyaslı hücum təşkil edirdi. Partiya və hökumətin sərtləşdirdiyi bu ideoloji kursa ÜİK(b)P MK-nın katibi A.A.Jdanov başçılıq edirdi və kampaniya onun qurbanlarının dili ilə "jdanovçuluq" kimi tarixə keçmişdir. 1946-cı ilin yayında ölkədə aclığa səbəb olan iqtisadi böhran şəraitində hakimiyyət ziyalıları susdurmaq və onlar tərəfindən hökumətin iqtisadi siyasətinin tənqidinin qarşısını almaq məqsədilə yaradıcı ziyalıların üzərinə hücuma keçdi. 1946-cı il avqustun 16-da A.A.Jdanovun məruzəsi əsasında ÜİK(b)P MK-nın, "Zvezda" və "Leninqrad" jurnalları haqqında" qərarı qəbul olundu. Partiyaya yad olan ideologiyanı təbliğ etdikləri üçün, xüsusilə şairə A.A.Axmatova və satirik M.M.Zoşşenkonun Sovet cəmiyyətinin tələblərinə cavab verməyən "prinsipsiz" və "vicdansız" əsərlərin çap etdiyi üçün "Zvezda" jurnalına töhmət verildi, "Leninqrad " jurnalı isə bağlandı. Bir neçə gündən sonra A.Axmatova və M.Zoşşenko Yazıçılar İttifaqı sıralarından xaric edildilər və uzun müddət onlara çap olunmaq imkanı verilmədi. Yazıçılar İttifaqının yığıncağında çıxış edən A.Jdanov M.Zoşşenkonun "Meymunların sərgüzəştləri" ("Priklyuçeniya obyezyanı") əsərinə qiymət verərək göstərdi ki, müəllif antisovet təbliğatı yayaraq demək istəyir zooparkda barmaqlıqlar arasında yaşayıb nəfəs almaq azadlıqda sovet adamları arasında yaşayıb nəfəs almaqdan daha yaxşıdır. A.Fadeyev Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi seçildi və ona bu təşkilatda qayda-qanun yaratmaq tapşırıldı. 1948-ci il fevralın 10-da ÜİK(b)P MK "Sovet musiqisində dekadent ənənəsinə dair" qərar qəbul edərək V.İ.Muradelinin "Böyük Dostluq" ("Velikaya drujba") operasını ideyasızlıq və burjua ideyasının qalıqlarına xas cəhətlərinə görə kəskin tənqid etdi. Konkret olaraq V.Muradeli 1918-1920-ci illərdə Şimali Qafqazda Sovet hakimiyyəti uğrunda mübarizədə rus xalqı ilə gürcü və osetin xalqları arasında dostluğa dair tarixi faktları saxtalaşdırmaqda günahlandırıldı. Bu qərarda bir çox istedadlı bəstəkarlar, o cümlədən S.Prokofyev, D.Şostakoviç, N.Myaskovski və b. "formalizmə əsaslanan xalqdan uzaq" musiqi əsərləri yazdıqları üçün ciddi tənqid olundular. Qərara müvafiq olaraq "Antiformalist" kampaniyası çərçivəsində Bəstəkarlar İttifaqında təmizləmə aparıldı, demək olar ki, bütün məşhur musiqi xadimləri cəzalandırıldılar, lakin 30-cu illərin təcrübəsindən fərqli olaraq onlar həbs düşərgələrinə göndərilmədilər.

İdelolji nəzarət mənəvi həyatın bütün sahələrini əhatə edirdi. 1950-ci ildə İ.V.Stalin şəxsən dilçilik diskussiyasına qoşularaq N.Marrın nəzəriyyəsinə qarşı "Marksizm və dilçiliyin problemləri" məqaləsini yazdı. İ.Stalin iddia edirdi ki, linqvistik problemlər sovet cəmiyyə-

tində bazis və üstqurun məsələlərinin araşdırılması üçün bir bəhanədir, odur ki, o bir daha güclü SSRİ dövlətinin əsasının mütləq və zəruri olmasını elan etməyə borclu idi. Hətta iki il keçəndən sonra İ.Stalin 1952-ci il avqustun 2-də "Pravda" qəzetində dərc etdirdiyi məqaləsində F.Engelsin "Anti-Dyurinq" əsərində inqilabdan sonra dövlətin ölməsi tezisini qəbul etməyərək belə hesab edirdi ki, kapitalist əhatəsi ləğv edilmədiyi və sosialist inqilabı yalnız bir ölkədə qələbə çaldığı üçün bunu qəbul etmək mümkün deyil.

1949-cu ildən kosmopolitizmlə mübarizə kampaniyası başladı ki, "kosmopolit" yunanca dünya vətəndaşı demək olduğu üçün buna "vətənpərvər olmayan" mənası verildi. Kosmopolitizmdə təqsirləndirilənlər, xüsusilə yəhudilər işdən azad edilir və onlara yeni iş yeri tapmağa imkan verilmirdi. SSRİ-də ideologiyada millətçilik və şovinizmin yayılması dövlət antisemitizminin meydana gəlməsinə səbəb oldu. 1948-ci ildə müharibə zamanı yaradılmış Yəhudi antifaşist komitəsinin üzvləri həbs edilərək 1952-ci ildə güllələndilər. Komitənin lideri artist S.M.Mixoels Stalinin qızı Svetlana və həyat yoldaşı Q.İ.Morozovdan yəhudilərin maraqlarının mənfəəti məqsədi şubəsi əsasında 1948-ci ilin yanvarında Dövlət Təhlükəsizlik Nazirliyi agentləri tərəfindən maşın qəzası adı ilə öldürüldü. S.Mixoels həm də Yəhudi teatrının bədii rəhbəri idi.Yüzlərlə ziyalı həbs edildi. İ.S.Fefer, P.D.Markiş, D.P.Berqelson, L.M.Kvitko Sibirə sürgün edilərək 1952-ci ildə yəhudiləri Krıma yığıb təxribat törətmək maddəsilə güllələndilər.

1952-ci ildə Kremlin Müalicə idarəsində işləyən və əsasən yəhudilərdən ibarət olan bir qrup həkim həbs edildi. Onlar amerikan kəşfiyyatının yaratdığı beynəlxalq yəhudi burjua-millətçi "Joynt" təşkilatının tapşırığı ilə A.A.Jdanov, A.S.Şerbakov, M.İ.Kalininin ölümündə müqəssir bilindilər. Həbs edilən həkimlər haqqında əsas donosçu olan həkim L.Timaşuk Lenin ordeni ilə təltif edildi. Klemilin müalicə-sanitar idarəsinin şöbə müdiri L.F.Timaşukun məktubu 1935-ci ilin avqustundan rəhbər partiya dəftərxanasının rəisi, MK-nın üzvi A.N.Poskrebışev və 25 ilə yaxın Stalinin şəxsi qoruması general-leytenant N.S.Vlasikin vəzifələrindən uzaqlaşdırılması ilə nəticələndi. İ.Stalin şəxsən Dövlət Təhlükəsizlik Nazirliyi orqanlarından "həkimlərin işini" başa çatdırmağı tələb etmişdir. "Həkimlərin işinə" yalnız İ.Stalinin ölümündən sonra xitam verildi.

1946-cı ildən ölkədə qayda-qanunu qorumaq və fərqli düşünənləri nəzarətdə saxlamaq Daxili İşlər Nazirliyinə (DİN) və Dövlət Təhlükəsizlik Nazirliyinə (DTN) həvalə edilmişdir. 1946-cı ildə L.P.Beriya nazirlər Sovetinin Sədr müavini, Siyasi Büronun üzvü qalaraq DİN-in rəhbərliyini general S.Kruqlova, DTN-in isə V.S.Abakumova verməli oldu ki, 1951-ci ildə V.Abakumov S.D.İqnatyevlə əvəz olundu. Keçmiş hərbçilər, SSRİ-nin tərkibinə yeni daxil edilmiş ərazilərin "yad ünsürləri", işğalçılarla əməkdaşlıq edənlər, kütləvi sürgünə məruz qalmış xalqların nümayəndələri müharibədən sonra sovet cəzaçəkmə düşərgələrinin sakinləri olaraq dövlət üçün ucuz işçi qüvvəsi demək idi. Tarixi və xatirə ədəbiyyatında "QULAQ əhalisi", yəni Baş Düşərgə İdarəsinin cəzaçəkmə yerlərindəki insanların sayı 3 ilə 15 milyon arasında göstərilirdi. Rəsmi məlumatlara görə 5 milyon nəfərdən çox adamı əhatə edən cəza düşərgələrinin ərazisi ölkənin uzaq yerlərində sərt iqlimi ilə seçilən Orta Asiyanın susuz çöllərindən soyuq Yakutiyaya kimi olan yerləri əhatə edirdi. 40-cı illərin sonundakı sovet həbs düşərgələrinin artıq dörd əsirlik tarixi vardır. Bunun yarandığı ilk yer Solovetsk adası idi. Oktyabra qədər strateji qala, sonra isə həbsxana olan bu yerdə 1923-cü ildə "QULAQ" arxipelaq strukturu yaradıldı. İlk dəfə 1931-1933-cü illərdə məhbusların əməyi ilə Stalin tikintisi Belomor-Baltik kanalı inşa edilməyə başlandı. Eyni zamanda mərhələ-mərhələ "Şimal-Şərq yolu" tikilirdi ki, bu yol boyu ilə düşərgələr salınırdı. Yolun bir qolu Şimali Urala, Solikamska, ikinci qol isə Arktikaya, Salexard və Norilskə uzanırdı. Başqa bir xətt isə Cənubi Uraldan Kuzbas, Baykal və Amura uzanırdı. Elə o dövrdə Qazaxıstanın mərkəzi rayonlarında və Kolımda düşərgələr şəbəkəsi yaranmışdır. Hər yerdən təcrid olunmuş Kolıma yalnız dəniz vasitəsilə getmək olardı, onun inzibati mərkəzi isə məhbusların özlərinin inşa etdiyi Maqadan idi. Kolım QULAQ-ın region-simvoluna çevrilmişdi. Mürəkkəb düşərgə sisteminin əhatə etdiyi məhkumlar meşə təsərrüfatında, dağ-mədən sənaye işlərində, dəmir və nəqliyyat yollarının çəkilməsində, nəhəng su anbarının və şəhərlərin tikintisində çalışırdılar.

Komsomolsk, Naxodka, Maqadan, Bratsk, Norilsk, Vorkuta, Balxaş şəhərləri buna misaldır. Məhbusların əməyi ilə tikilən Volqa-Don kanalında işlər 1952-ci ildə başa çatmışdır. Ümumən "QULAQ əhalisi" və vətənpərvər yazıçı A.Soljenitsinin qeyd etdiyi kimi onların ucuz işçi qüvvəsi yeni rayonların mənimsənilməsində böyük rol oynamışdır.

İ.V.Stalin yaşa dolduqca onun yaxın ətrafındakılara şübhə ilə yanaşmağa başlaması hakimiyyətin üst qatlarında qorxu və təşvişin, məntiqi nəticə kimi isə onlar arasında hakimiyyət uğrunda rəqabət və mübarizənin şiddətlənməsinə zəmin hazırladı. Müharibədən sonrakı illərdə ölkənin mühüm daxili və xarici siyasət məsələlərini operativ olaraq İ.Stalinin yaxın əhatəsi olan Siyasi Büro üzvləri V.Molotov, L.Beriya, G.Malenkov, A.Mikoyan həll edirdilər. Lakin 1945-ci ilin sonlarından başlayaraq İ.Stalin özünün ən yaxın məsləkdaşı olan V.Molotovla dostluq münasibətlərinə son qoymağa başladı.

Vyaçeslav Mixayloviç Molotov (Skryabin) (1890-1986) görkəmli sovet partiya və dövlət xadimi kimi 1921-1930-cu illərdə partiya MK-nın katibi, 1930-1941-ci illərdə SSRİ Xalq Komissarları Sovetinin sədri, 1941-1957-ci illərdə Xalq Komissarları Sovetinin, sonra isə Nazirlər Sovetinin sədr müavini işləmişdir.1941-1945-ci illərdə DMK-nın üzvü, 1939-1949-cu illərdə və 1953-1956-cı illərdə SSRİ Xalq Xarici İşlər Komissarı sonra isə Naziri olmuşdur. 1957-ci ildə "antipartiya qrupunda" iştirakına görə bütün partiya və dövlət vəzifəsindən, 1962-ci ildən isə partiya sıralarından azad edilmişdir. 1984-cü ildə partiya sıralarına bərpa edilmişdir. 1926-1957-ci illərdə Siyasi Büronun, Rəyasət Heyətinin üzvü olub.

V.Molotovun xarici junalistlər tərəfindən dövlət işlərinin həllində ön plana çəkilməsi və İ.Stalindən xəbərsiz U.Çörçilin Rusiya və İ.Stalini təriflənməsinin mətbuatda çap edilməsi hələ V.İ.Leninin vaxtından Siyasi Büronun yeganə üzvü olan V.Molotovla İ.Stalinin çoxillik dostluq münasibətlərinin kəsilməsinə səbəb oldu.1950-ci ilin martından Yəhudi antifaşist komitəsinin "antisovet" fəaliyyətinin istintaqı üzrə işdə V.Molotovun arvadı P.Jemçujinanın adı çəkilməyə başladı. P.S.Jemçujinanın 1948-ci il mayın 14-də yeni yaranan İsrail dövlətinin SSRİ-yə göndərdiyi nümayəndə Qoldı Meersonla (1956-cı ildən Meir) dostluq əlaqəsi var idi, bu isə Stalinin xoşuna gəlməmişdir. MK-nin iclasında V.Molotov həyat yoldaşının partiya sıralarından xaric edilməsi haqqında səsvermədə iştirak etmədi ki, bu da rəhbərin qəzəbinə səbəb oldu. Düzdür, sonradan V.Molotov "siyasi səhv" etdiyini etiraf etdi və MK qərarının leyhinə səs verdi, lakin bu onun gözdən düşməsinə kömək etmədi.

Müharibə vaxtı mövqeləri xeyli güclənən L.P.Beriya və G.M.Malenkov Xalq Komissarları Soveti Sədrinin müavinləri idi və 1946-cı ilin yazında MK-nın Siyasi Bürosunun üzvü seçildilər. Lakin tezliklə onların mövqeyi zəiflədi. L.Beriya Daxili İşlər Naziri vəzifəsini itirdi, G.Malenkov isə MK katibliyindən çıxarıldı. Daxili hakimiyyət çəkişməsi sayəsində ÜİK(b)P MK-nın katibi, partiyanın ideoloqu A.A.Jdanovun, ona yaxın olan Leninqrad partiya təşkilatının nümayəndəsi, MK-nın katibliyinə daxil edilən A.A.Kuznetsovun, Nazirlər Sovetinin sədr müavini, Dövlət Plan Komistəsinin sədri N.A.Vornesenskinin və RSFSR Nazirlər Sovetinin sədri M.İ.Rodionovun mövqeyi gücləndi. İ.Stalin qəsdən öz yaxın əhatəsi arasındakı düşmənçiliyi qızışdırırdı. A.Jdanov 1948-ci ilin avqustun 31-də ürək tutmasından öldükdən sonra G.Malenkov-L.Beriya və A.Kuznetsov-N.Voznesenski qruplaşması arasında çəkişmə daha da şiddətləndi. G.Malenkov itirdiyi MK-nın katibi postunu geri qaytara bildi. "Leninqrad işi" deyilən uydurma prosess təşkil olundu. Leninqrad partiya təşkilatının rəhbərliyini, o cümlədən ölkənin Leninqraddan çıxan partiya və dövlət rəhbərlərin fraksiyaçılıq fəaliyyətində, rus şovinizmində, Rusiyanı SSRİ-dən ayıraraq paytaxtı Leninqrada köçürməkdə, xarici ölkələrin xeyrinə casusluqda təqsirli bilərək həbs etdilər. 1940-cı ilin sonu-1950-ci illərin əvvəllərində inzibati-amirlik rejiminin qol gəzdiyi SSRİ-də ən böyük siyasi işlərdən biri olan "Leninqrad işi" G.Malenkovun şəxsi nəzarəti və iştirakı ilə Dövlət Təhlükəsizlik Nazirliyi tərəfindən aparıldı. Yeganə dəlil isə həbs edilənlərin ağır işgəncə altında verdikləri izahatlar idi. Bu saxta etiraflar əsasında 1950-ci il oktyabrın 1-də 26 nəfər, o cümlədən N.Voznesenski, A.Kuznetsov, M.Rodionov, P.Popkov ölüm hökmü alaraq güllələndilər. Leninqraddakı kütləvi həbslər 1952-ci ilə qədər davam etdi. 1951-ci ildə Dövlət Təhlükəsizlik Naziri V.S.Abakumov "Joynt" casuslarının qarşsını ala bilmədiyi üçün, "Lenin-

qrad işi", xarici kəşfiyyatla əlbir olub G.Malenkova qarşı sui-qəsd hazırladığına görə həbs edildi. Onun ardınca DTN-nin çoxsaylı əməkdaşları həbs olundular. Tarixçilər belə hesab edirdilər ki, bir tərəfdən Dövlət Təhlükəsizlik Nazirliyi rəhbərliyinin dəyişdirilməsi L.Beriya və G.Malenkovun onlar üzərində nəzarəti bərpa etmək istəyi ilə bağlı idi, başqa bir tərəfdən ola bilsin ki, İ.V.Stalin gələcəkdə ölkənin ali partiya və dövlət rəhbərliyində geniş repressiyalar aparmağı nəzərdə tuturdu.

1952-ci ilin oktyabrında partiyanın XIX qurultayı oldu ki, ali partiya orqanları-Siyasi Büro və Katibliyin tərkibi yeni üzvlər hesabına genişləndirilirdi.Ali partiya postuna V.Andrianov, S.İqnatyev, A.Aristov, L.Melnikov, N.Mixaylov, L.Brejnev, P.Ponomarenko kimi yeni adamlar gəldi. Qurultayda MK-nın adından G.Malenkov çıxış etdi ki, bu da gələcəkdə onun İ.Stalinin əvəzləyicisi olacağı fikrini ortaya atırdı.İ.Stalin yalnız qısa yekun nitqi ilə qurultayda çıxış etdi. Qurultaydan sonra MK-nın Plenumunda Siyasi Büro yerinə 25 nəfər üzvdən və 11 nəfər üzvlüyə namizəddən ibarət olan Rəyasət Heyəti seçildi. Bu isə o demək idi ki, İ.Stalin yaxın ətrafında təmizləmə aparmağı nəzərdə tutduğu üçün yeni kadr ehtiyatı hazırlayırdı. Yalnız 13 ildən sonra çağırılan partiyanın XIX qurultayı onun adını dəyişərək Sovet İttifaqı Kommunist Partiyası (Sov.İKP) elan etdi.

***Xarici siyasət.*** İkinci Dünya müharibəsində antifaşist koalisiyasının iştirakçısı olan dövlətlər Almaniya və onun müttəfiqlərini məğlubiyyətə uğratdıqdan sonra beynəlxalq vəziyyət və qüvvələr nisbəti əsaslı sürətdə dəyişdi. Müharibənin başa çatması ilə dünənə qədər əməkdaşlıq edən antihitler koalisiyasının iştirakçı dövlətləri bir-biri ilə rəqabət aparmağa başladılar. Bu qanunauyğun bir vəziyyət idi, çünki dünənki müttəfiqlər bir-birinin sosial-siyasi sisteminə düşmən münasibət bəsləyirdilər. SSRİ müharibədən hərbi-iqtisadi gücünü və nüfuzunu artıraraq çıxsa da bu ona böyük itikilər hesabına başa gəlmişdir, ölkə demək olar ki, viran edilmişdir. SSRİ-nin iqtisadiyyatına dəyən ziyan 1940-cı ildəki ölkənin milli gəlirindən 20 dəfə artıq idi. Təkcə Baltik və Şimal dənizlərini birləşdirən Skaqerrak boğazında almanlar 27 min ton zəhərli maddə batırmışdılar.Onların zəhər ehtiyyatları Qara, Ağ, Oxot, Barents və Yapon dənizlərinin sularında gizlədilmişdir. Bunlar tədricən dünya okeanına yayılaraq bütün canlı həyatı təhlükəyə atırdı.Rusiya, Ukrayna, Belaorusiyasının ərazilərindəki partlamayan mina, mərmi, bombalar təhlükə saçırdı.

SSRİ-dən fərqli olaraq müharibədən sonra ABŞ nəhəng iqitsadi, hava, dəniz və atom gücü olan dünyada ağalıq edən fövqəlgücə çevrildi. Düzgün strateji siyasət yeridən ABŞ ümummilli məhsulunu 1,7 dəfə artıra bildi.Müharibədə onlar yalnız 405 min nəfər adam itirmişdir. Dollar sabit valyutaya, Nyu York isə dünyanın ən böyük maliyyə bazarına çevrildi. Ölkənin iqtisadiyyatı tezliklə sülh dövrünün tələblərinə uyğun yenidən quruldu, işçilərin əmək haqqı artırıldı, istehsalın texnologiyası və əmk məhsuldarlığı dünyada ən yüksək səviyyəyə çatdı. 1945-ci ildə prezident H.Trumen konqressə göndərdiyi müraciətdə qeyd edirdi ki, İkinci Dünya müharibəsindəki qələbə Amerika xalqını dünyanı idarə etmək zərurəti qarşısında qoyur. Odur ki, Ağ ev gələcəkdə SSRİ ilə müttəfiqlik münasibətlərini kəsməyi nəzərdən keçirirdi. Müharibənin yekunlarından biri kimi bir sıra kapitalist dövlətləri böyük ölkə statusunu itirdiyi üçün dünya ağalığı iddiasında olan ABŞ-ın hədəfində məhz SSRİ və Şərqi Avropanın kommunist blokuna daxil olan ölkələri dururdu.

İkinci Dünya müharibəsinin əsas yekunlarından biri sosializmin bir ölkə çərçivəsindən çıxıb dünya sisteminə çevrilməsi oldu. Belə ki, İkinci Dünya müharibəsinə kimi sosializm ancaq SSRİ və Monqolustanda meydana gəlmişdir. Müharibə başa çatdıqdan sonra isə 11 ölkə kapitalist sistemindən ayrıldı və sosializm dünya ərazisinin 26, əhalisinin 35 faizini əhatə edən dünya sisteminə çevrildi. Mərkəzi və Şərqi Avropanın yeddi ölkəsində hakimiyyətə sol, demokratik qüvvələr gəldi.Onların təşkil etdiyi yeni hökumətlərə kommunist və fəhlə partiyalarının nümayəndələri başçılıq etməyə başladı. Albaniya, Bolqarıstan, Macarıstan, Rumıniya, Polşa, Yuqoslaviya və Çexoslovakiyanın yeni hökumətləri öz ölkələrində aqrar islahatlar keçirdilər, iri sənaye, bank və nəqliyyatı milliləşdirdilər. Bu ölkələrdə yaranan cəmiyyətin siyasi təşkilinin xalq demokratiyası proletar diktaturasının formalarından biri hesab olunurdu. 1947-ci ildə Şərqi Avropanın doqquz kommunist partiyası nümayəndələrinin

müşavirəsində Kommunist məlumat bürosu (Kominformbüro) yaradıldı. Büro özlərini sosialist adlandıran xalq demokratiyası dövlətlərinin kommunist partiyalarının fəaliyyətini koordinasiya etməli idi. Müşavirənin sənədlərində belə bir tezis öz əksini tapmışdır ki, dünya iki əks cəbhəyə-imperialist və demokratik, antiimperialist cəbhəyə bölünmüşdür. İki cəbhənin mövcud olması və dünya miqyasında müxtəlif sosial-siyasi iki sistemə məxsus dövlətlərin qarşıdurması SSRİ partiya-dövlət rəhbərliyinin xarici siyasət xəttinin əsasını təşkil edir. Bu görüşlər əsasən İ.Stalinin "SSRİ-də sosializmin iqtisadi problemləri" məqaləsində öz əksini tapmışdır. Bu işdən həmçinin imperializm qaldıqca müharibənin qaçılmaz olduğu nəticəsi çıxır. Qərb dövlətləri isə dünya sosialist sisteminin yaranması və onların dünya siyasətinə təsir göstərməsi reallığı ilə barışmaq istəmirdilər. Beləliklə, bir tərəfdən ABŞ-ın dünya ağalığı planını həyata keçirmək iddiası və başqa bir tərəfdən dünyanın iki əks sosial-siyasi sistemə bölünməsi sayəsindəki onlar arasındakı rəqabət dünənki müttəfiqlər arasında soyuq müharibəni doğurdu. 1946-cı il martın 5-də İngiltərənin sabiq baş naziri U.Çörçill prezident H.Trumenin iştirakı ilə ABŞ-ın Fulton şəhərindəki kollecdə çıxış edərək bildirdi ki, faşizmi əvəz edən kommunizm Qərb dövlətlərini ələ keçirməyə çalışır və bunu dəf etmək məqsədilə ingilis dilli xalqların assosiasiyasını təşkil etmək vacibdir. O Avropanı dəmir pərdə çəkməklə iki hissəyə ayıraraq SSRİ-yə qarşı müharibə hazırlığına başlamağın qaçılmaz olduğunu elan etdi. Sovet tarixçilərinin böyük əksəriyyəti belə hesab edirdi ki, məhz bu nitqlə "soyuq müharibə", yəni iki əks qütblü sistemin ciddi qarşıdurması başlamışdı. Bunun ardınca H.Trumen sosialist dövlətlərinə münasibətdə "kommunizmi dayandırmaq" adlı doktrinasını bəyan etdi. Bunun əsasını isə ABŞ-ın Moskvadakı səfirliyinin müşaviri C.F.Kennanın dövlət departamentinə göndərdiyi teleqramda irəli sürdüyü SSRİ ilə ABŞ-ın dinc yanaşı yaşaması, beynəlxalq problemlərin həll edilməsində onların əməkdaşlığı mümkün deyildir, SSRİ Qərb dövlətlərinə qarşı təxribatla məşğuldur kimi fikirləri təşkil edir. "Trumen doktrinası"na əsasən ABŞ sürətlə silahlanma, xarici hərbi bazalar yaratmaq, iqtisadi təcridetmə vasitəsilə SSRİ və sosialsit sisteminə daxil olan ölkələri zəiflətməyə səy göstərirdi.

1947-ci il iyunun 5-də ABŞ-ın dövlət katibi C.K.Marşallın Avropa ölkələrinin müharibə sayəsində dağılmış təsərrüfatlarını bərpa etmək ideyası əslində ABŞ-ın bu iqtisadi kömək müqabilində soyuq müharibədə müttəfiqlərinin sayını artıraraq onların iştirakı ilə hərbi-siyasi blok yaratmaq məqsədi daşıyırdı. 1947-ci ilin iyulunda Fransanın paytaxtı Parisdə 16 Qərbi Avropa dövlətinin iştirak etdiyi konfransda Avropa İqtisadi Əməkdaşlıq Komitəsi yaradıldı. 1948-ci ildə "Marşall plan"ını həyata keçirmək məqsədilə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı meydana gəldi. 1948-ci il aprelin 1-dən 1952-ci il iyunun 30-dək ABŞ "Marşal planı"na görə Qərbi Avropa ölkələrinə 13,3 milyard dollar yardım etdi ki, bunun da çox hissəsi həmin ölkələrin hərbi potensialının artmasına, ərzaq və yanacağa sərf olunurdu. SSRİ başda olmaqla Şərqi Avropanın sosialist ölkələri "Marşall plan"ında iştirak etməkdən imtina etdilər. "Marşal plan"ı Qərbi Avropa dövlətlərinin ABŞ-ın rəhbərliyi altında hərbi-siyasi bloklarda birləşməsinə səbəb oldu. 1949-cu il aprelin 4-də Vaşinqtonda 12 dövlətin nümayəndəsinin iştirakı ilə NATO-nun yaradılması haqqında Atlantika paktı imzalandı və avqustda qüvvəyə mindi. 1951-ci ildə konqress birliyin üzvlərinə silah verilməsi üçün üç il ərzində 9,5 milyard dollar kredit verdi. NATO ölkələrinin ərazisində ABŞ qoşunları yerləşdirildi.

"Soyuq müharibə"ni psixoloji-məlumat baxımından 1946-cı ilin aprelindən SSRİ-yə verlişlər yayan Britaniyanın Bi-Bi-Si, 1947-ci ilin fevralından "Amerikanın səsi" , 1950-ci ildən onlara qoşulan "Azad Avropa", 1953-cü ildəki Münxendə yerləşən "Azadlıq" radioları dahada qızışdırırdı.

Müharibədən sonra Almaniyada hakimiyyət işğal dövlətlərinə məxsus idi və 1948-ci il iyul ayında qərb işğal zonaları Trizoniyada birləşdirildi. Xristian Demokratik İttifaqın lideri K.Adenauerin sədrliyi ilə 1948-ci il sentyabrın 1-də Parlament Şurası fəaliyyətə başladı və ABŞ, İngiltərə, Fransa işğal qoşunlarının baş komandanlarının razılığı ilə konstitusiya layihəsi hazırlandı. 1949-cu il mayın 23-də qüvvəyə minən Qərbi Almaniyanın Konstitusiyası əsasında avqustun 19-da Bundestaqda seçkilər keçirildi və sentyabrın 20-də AFR-in yaradılması təsbit edildi. Buna cavab olaraq Şərqi Almaniyada, yəni SSRİ-nin işğal zonasında yaradılmış Al-

man Xalq Konqresinin Şurası konstitusiya layihəsini hazırladı və 1949-cu ilin mayın 30-da Berlində üçüncü Xalq Konqresi konstitusiyasını təstiq etdi. 1949-cu ilin oktyabrın 7-də prezident V.Pikin rəhbərliyi ilə Almaniya Demokratik Respublikasının yaradılması elan edildi. SSRİ ADR-i tanıyaraq 1949-cu il oktyabrın 15-də onunla diplomatik münasibətlər qurdu.

SSRİ sosialist ölkələrinə həm siyasi, həm də iqtisadi cəhətdən köməklik göstərirdi. 1949-cu ilin yanvarında Moskvada SSRİ, Bolqarıstan, Polşa, Macarıstan, Rumıniya və Çexoslovakiyanın iştirakı ilə keçirilən müşavirədə Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) yaradılması haqqında qərar qəbul olundu. Sosialist ölkələrinin iqtisadi əməkdaşlığını təşkil etmək və tənzimləmək məqsədilə yaradılan QİYŞ-na 1949-cu ilin fevralında Albaniya, 1950-ci ildə isə ADR daxil oldu.

1945-1946-cı illərdə SSRİ-nin ən yaxın müttəfiqi Yuqoslaviya idi. Partizan hərəkatının əsasını təşkil edən və ölkənin azad olunmasında əsas pay sahibi olan Yuqoslaviya kommunistləri İosip Broz Titonun rəhbərliyi ilə 1944-cü ildə hakimiyyətə gəldilər.Odur ki, Yuqoslaviya Şərqi Avropanın başqa dövlətlərindən daha tez sosialist dəyişiklikləri yoluna keçdi. Lakin İ.Titonun Balkanlarda müstəqil siyasət yeritməsi İ.Stalinin narazılığına səbəb oldu. 1947-ci ildə SSRİ-Yuqoslaviya münasibətləri pozulmağa başladı. 1948-ci ilin yazında Yuqoslaviya kommunist partiyasını təftişçilik və antisovetizmdə ittiham edən sovet rəhbərliyi Belqraddakı mütəxəssislərini geri çağırdı. 1948-ci ilin yayında YKP Kommunist Məlumat Bürosunun üzvlüyündən çıxarıldı. 1949-cu ilin oktyabrında SSRİ Yuqoslaviya ilə diplomatik əlaqələri kəsdi. Sovet mətbuatı İ.Titonu ABŞ-ın casusu və qatil kimi damğaladı. Buna baxmayaraq, İ.Stalin Qərbin və ABŞ-ın köməyi ilə partizan müharibəsi aparmağa qadir olan Yuqoslaviyaya müdaxilə etməyə qət etmədi. Yalnız İ.V.Stalinin ölümündən sonra Yuqoslaviya-Sovet münaqişəsini qaydaya salmaq mümkün oldu. Ancaq Yuqoslaviya SSRİ-nin yaratdığı iqtisadi və hərbi təşkilatlar olan QİYŞ və Varşava Müqaviləsi Təşkilatına daxil olmadı.

1948-ci il fevralın 20-də Çexoslovakiya hökumətinə daxil olan burjua partiyasını təmsil edən 12 nəfər nazirin hökumətin kommunist çoxluğu siyasətinə etiraz əlaməti olaraq istefa verməsilə siyasi böhran yarandı. Müxalifət istəyirdi ki, K.Qotvaldın başçılıq etdiyi hökumət istefa versin və prezident E.Beneş kommunistlərsiz yeni hökumət təşkil etsin. Lakin SSRİ-nin köməyinə arxalanan Çexoslovakiya Kommunist Partiyasının təzyiqi ilə E.Beneş 12 nazirin istefasını qəbul etdi və boşalan vəzifələrə kommunistlər təyin edildi, beləliklə hökumət yalnız kommunistlərdən ibarət oldu.

İkinci Dünya müharibəsinin əsas yekunlarından biri də müstəmləkə sisteminin dağılması oldu. Müharibədən sonra Afrika qitəsində müstəmləkəçiliyə qarşı mübarizə şiddətləndi və müstəqilliyini bərpa edən ilk ölkə Sudan oldu. Bunun ardınca Mərakeş, Tunis, Əlcəzair müstəqillik əldə etdilər. 50-ci illərin əvvəllərində Misirdə milli-azadlıq hərəkatı artdı, kral ölkədən qovuldu, 1953-cü il iyunun 18-də monarxiya üsul-idarəsi ləğv edildi və 1956-cı ilin iyununda İngiltərə öz qoşunlarını Misirdən çıxardı. SSRİ Misiri müdafiə edirdi.

İkinci Dünya müharibəsindən sonra ABŞ və Qərbi Avropa ölkələri hər vəhclə İran və Türkiyəni Şərqi Avropanın sosialist ölkələrinə qarşı soyuq müharibəyə cəlb etməyə cəhd göstərirdilər. 1946-cı ilin may ayında Qərb ölkələrinin təzyiqi altında SSRİ öz qoşunlarını İrandan çıxarmağa məcbur oldu. Getdikcə İranın ABŞ-dan hərbi və siyasi asılılığı artmağa başladı. Müsəddiq hökumət devrildikdən sonra İran-SSRİ əlaqələri daha da zəiflədi, 1955-ci ildə İran Bağdad paktına qoşuldu, 1959-cu ildə isə ABŞ-la hərbi saziş imzaladı. ABŞ İran kimi Türkiyəni də SSRİ əleyhinə soyuq müharibəyə qoşmuşdur. Türkiyə hökuməti ölkənin müstəqilliyi üçün "sovet təhlükəsi"nin olmasını əldə əsas tutaraq ABŞ-ın təhriki ilə "Trumen doktrinası"ı qəbul etmişdir. 1952-ci ildə Türkiyə NATO-ya, 1955-ci ildə isə Bağdad paktına daxil olmuşdur. ABŞ soyuq müharibə şəraitində SSRİ ilə Türkiyə arasında münasibətləri gərginləşdirdiyi üçün bu münasibətlər pis olaraq qalırdı.

İkinci Dünya müharibəsindən sonra Koreyanın şimali sovet qoşunları, cənubu isə amerikan qoşunları tərəfindən azad edildiyi üçün Şimali Koreyada hakimiyyət orqanları SSRİ-nin, Cənubi Koreyada isə ABŞ hərbçilərinin köməyi ilə formalaşmışdır. 1948-ci il ma-

yın 10-da Koreyanın cənubunda Milli Məclisə seçkilər keçirildi və Li Sin Man Koreya respublikasının ilk prezidenti seçildi. Şimali Koreyada 1948-ci ilin iyununda Ali Xalq Məclisinə seçkilər oldu, Kim İr Senin rəhbərliyi ilə KXDR-nin Nazirlər kabineti təşkil olundu. Sentyabrın 9-da KXDR-in yaradılması bəyan edildi. SSRİ 1948-ci il oktyabrın 12-də birinci olaraq KXDR-nı tanıyaraq onunla diplomatik münasibətlər qurdu. 1948-ci ilin dekabrında SSRİ öz qoşunlarını Şimali Koreyadan, 1949-cu ilin iyulunda isə isə ABŞ öz qoşunlarını Cənubi Koreyadan çıxardı. 1950-ci il yanvarın 26-da ABŞ-la Cənubi Koreya arasında qarşılıqlı yardım haqqında saziş imzlandı.1949-cu il oktyabrın 1-də Pekində Xalq Siyasi Məsləhət Şurasının sessiyasında Çin Xalq Respublikasının yaradılması elan edildi. 1950-ci il fevralın 14-də SSRİ ilə ÇXR arasında dostluq, ittifaq və qarşılıqlı yardım haqqında müqavilə imzalandı. Bundan sonra, Koreyanın ABŞ üçün əhəmiyyəti xeyli artdı. 1950-ci il iyunun 25-də Sovet müşavirləri tərəfindən təlim keçən Şimali Koreya qoşunları ilə Cənubi Koreya döyüşçüləri arasında ilk toqquşma baş verdi. İyunun 28-də Şimali Koreya ordusu Cənubi Koreyanın paytaxtı Seula daxil oldu, sentyabradək ölkə ərazisinin xeyli hissəsi işğal edildi. BMT Təhlükəsizlik Şurası 1950-ci il iyunun 25-də Şimali Koreyanı sülhü pozmaqda ittiham edən qətnamə qəbul etdi. 1950-ci ilin iyulun 4-də BMT Təhlükəsiz Şurasının qətnaməsinə əsasən ABŞ və BMT-nin üzvü olan 14 dövlət öz ordularını KXDR ordusuna qarşı hərbi əməliyyat keçirmək məqsədilə Koreya müharibəsinə göndərdi. 1950-ci il oktyabrın 1-də ABŞ və müttəfiq qoşunları Şimali Koreya ərazisinə daxil oldu, oktyabrın 23-də Pxenyan ələ keçirildi. 1950-ci il oktyabrın 25-də Çin Şimali Koreyaya qoşun göndərdi, dekabrın 7-də Pxenyanı, 1951-ci il yanvarın 4-də isə Seulu azad etdilər.1951-ci il iyulun 26-da Keson şəhərində Çin və KXDR ABŞ və müttəfiqləri ilə danışıqlar masasına oturdular. 1951-ci il noyabrın 27-də əldə olunmuş razılığa əsasən 38-ci paraleldən cənubda 3,6 min kv.km ərazi KXDR-ə, 38-ci paraleldən 4,6 min kv.km ərazi Cənubi Koreyaya verilməli idi. 1953-cü ilin aprelin 26-da Panminçyonda danışıqlar bərpa edildi, iyulun 27-də münaqişə iştirakçıları arasında imzalanmış barışığa əsasən hərbi əməliyyatlar dayandırılmalı və hər iki tərəfi ayıran xətt ətrafında iki kilometrlik tərkisilah edilmiş ərazi yaradılmalı, barışığın qüvvəyə minməsindən üç ay sonra xarici qoşunlar Koreyanı tərk etməli idi. Koreya müharibəsi lokal xarakterli, ən qanlı münaqişələrdən biri olaraq tarixə keçmişdir, belə ki, bu müharibədə Cənubi Koreya 1,3 mln, Simali Koreya 520 min, Cin 900 min, ABŞ 57 min hərbiçi itirmişdir. Koreyanın 3 mln nəfərə yaxın dinc əhalisi həlak olmuşdur. SSRİ-nin 315 nəfər hərbiçisi ölmüşdür. Koreya münaqişəsi “soyuq müharibə”nin getdikcə daha qlobal xarakter almasına səbəb oldu.

İkinci Dünya müharibəsindən sonra Çin iki düşərgəyə ayrılmışdır, ölkə ərazisinin 4/3 hissəsinə Çan Kay Şi hökuməti, ərazinin 25 faizinə isə kommunistlərin yaratdığı orqanlar nəzarət edirdi. 1947-1949-cu illərdə Çində SSRİ-nin müdafiə etdiyi kommunistlərlə ABŞ-ın müdafiə etdiyi homindançılar arasında vətəndaş müharibəsi oldu. Müharibənin birinci mərhələsində Homindan hökumət qoşunları üstün vəziyyətdə idi. 1947-ci ilin yayında əks-hücuma keçən Xalq Azadlıq Ordusu 1948-ci ilin aprelinədək ölkə ərazisinin böyük bir hissəsini azad edərək 1949-cu il aprelin 23-də Nankin şəhərini, mayda Şanxayı azad etdi. 1949-cu il oktyabrın 1-də Pekində Çin Xalq Respublikasının yaradılması elan edildi.1955-ci illədək SSSRİ Çin ərazisindən öz qoşunlarını çıxartdı, Çin –Çunçun dəmir yolunu, Port-Arturu və Dalnı limanını bütün əmlakı ilə birlikdə ÇXR-ə qaytardı. “Soyuq müharibə” çərçivəsində SSRİ-nin Çinlə əməkdaşlığının əleyhinə olan ABŞ Tayvana sığınmış Çan Kay Şi və onun tərəfdarlarına köməklik göstərməkdə davam edirdi.

1951-ci ilin 4-8 sentyabrında ABŞ-ın San-Fransisko şəhərində 52 dövlətin iştirkaı ilə Yaponiya ilə sülh müqaviləsi bağlamaq məqsədilə kofrans keçirildi.1951-ci il sentyabrın 8-də 27 maddədən ibarət San-Fransisko sülh müqaviləsini 49 dövlət imzaladı və bununla da müharibə vəziyyətinə son qoyuldu. SSRİ, Polşa və Çexoslovakiya SSRİ-nin nümayəndəliyinin rəhbəri A.A.Qromıkonun Cənubi Saxalin və Kuril adaları üzərində Sovet İttifaqının suverenliyi ilə bağlı müqaviləyə düzəliş və əlavələri qəbul edilmədiyi üçün onu imzalamaqdan imtina etdilər. 1952-ci ilin aprel ayında Yaponiyada işğal rejiminə son qoyuldu və xarici ölkələrlə diplomatik münasibətlər bərpa edilməyə başlandı.

ABŞ və Qərb ölkələrinin sürətlə silahlanması soyuq müharibənin tərkib hissəsi idi və buna cavab olaraq SSRİ və sosialist ölkələri də öz hərbi gücünü möhkəmlətmək məqsədilə silahlanırdılar ki, bu da müharibədən sonra tərkisilah məsələsinin mühüm problemlərindən birinə çevrildi.1949-cu ilin avqust ayında SSRİ nüvə silahının ilk sınağını keçirdi və ABŞ-ın atom silahı üzərindəki inhisarı başa çatmış oldu. Bundan sonra, SSRİ-nin tərkisilah uğrunda mübarizəsinin istiqamətlərindən biri də adi silahların və silahlı qüvvələrin hamılıqla azaldılması məsələsi idi. BMT Baş Məclisinin birinci sessiyasında SSRİ silahların tam ixtisarını təklif etmişdisə də müzakirələr göstərirdi ki, Qərb ölkələri sılahlanmadan imtina etmək fikrində deyildir. Müharibə təbliğatının qadağan edilməsi tərkisilah probleminə kömək edən səbəblərdən olduğu üçün 1947-ci ildə BMT Baş Məclisinin ikinci sessiyası dünya müharibəsi təbliğatını qadağan edən qətnamə qəbul etdi. 1950-ci ilin sentyabrında BMT Baş Məclisinin beşinci sessiyası kütləvi qırğın silahını birinci tədbiq edən dövlətin hərəkətin bəşəriyyətə qarşı cinayət, həmin dövlətin isə hərbi cani hesab olunması haqqında bəyannamə qəbul etdi. SSRİ və sosialist dövlətləri tərkisilah uğrunda mübarizədə sülh tərəfdarları hərəkatından istifadə edirdi ki, bunların da 72 ölkəni təmsil edən nümayəndələri 1949-cu ilin aprelində Parisdə birinci ümumdünya konqresin keçirdilər.F.Küri Sülh tərəfdarları konqresinin daimi komitəsinin sədri seçildi. 1950-ci ilin noyabrında Varşavada 81 ölkənin nümayəndələrinin iştirakı ilə sülh tərəfdarları hərəkatının İkinci Ümumdünya konqresi oldu, dünya xalqlarına və BMT-yə müraciət qəbul olundu. Sülh tərəfdarları hərəkatı “soyu müharibə” şəraitində bütün dünyada müharibələrin qarşısını almaq və sülhü qoruyub saxlamaq işinə xidmət edirdi.

## SSRİ-nin daxili və xarici siyasəti. 1953-1964-cü illər

***İctimai-siyasi vəziyyət.*** 1953-cü il gecə fevralın 28-dən martın 1-nə keçəndə İ.V.Stalinin beyninə qan sızdı və o, komaya düşdü. Martın 2-də xəstəni müayinə edən SSRİ Səhiyyə nazirliyinin terapevti, professor P.Y.Lukomski, TEA-nın akademikləri A.L.Myasnikov, Y.M.Tareyev və d. xəstəyə beyninə qan sızması ilə insult diaqnozu qoydular. Martın 6-da SİTA xəbər yaydı ki, martın 5-i saat 21.50-də Lenin işinin dahi davamçısı, Kommunist Partiyasının və bütün sovet xalqının rəhbəri İosif Vissarionoviç Stalinin (Cuqaşvili) qəlbi dayandı. İ.Stalinin cənazəsi Kuntsevodan İttifaqlar Evinə gətirildi və on minlərlə adam cənazənin önündən keçərək onunla vidalaşdı. G.Malenkov, L.Beriya və V.Molotovun vida nitqindən sonra cənazə Leninin sarkofaqı ilə yanaşı Mavzoleyə qoyuldu.

İosif Vissarionoviç Stalin (Cuqaşvili) (1879-1953) peşəkar inqilabçı, bolşeviklər partiyasının fəal üzvü və rəhbərlərindən biri olmuşdur. Oktyabr silahlı üsyanından sonra Milli məsələlər üzrə Xalq Komissarı olmuşdur. Vətəndaş müharibəsi dövründə bir sıra hərbi-siyasi vəzifələr tutmuşdur. 1922-ci ilin aprelindən RK(b)P MK-nın Baş katibi olaraq V.İ.Leninin yazdığı kimi “öz əlində hədsiz hakimiyyət toplayaraq”, onun ölümündən sonra partiyada şəxsi mövqeyini möhkəmlətməyə yönəltmişdir. Müxalifətlə mübarizə pərdəsi altında özünün bütün potensial rəqiblərini məhv edərək partiya və dövlətin təkbaşına rəhbəri olmuşdur. İ.Stalinin adı ilə sənayeləşdirmə, kollektivləşdirmə və “böyük terror” sıx bağlıdır. Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin çoxlu qurbanlar hesabına başa gəlməsinin məsuliyyəti onun üzərinə düşməklə yanaşı, İ.Stalinin faşizmin darmadağın edilməsində təşkilatçılıq xidmətləri danılmaz bir həqiqətdir.

1953-cü il martın 6-da İ. Stalinin yaxın ətrafı rəhbər vəzifələri öz aralarında böldülər. G.M.Malenkov Nazirlər Sovetinin sədri və Sov.İKP MK-nin Birinci katibi oldu. Malenkov Georgiy Maksimilianoviç (1902-1988) Orenburqda qulluqçu ailəsində anadan olub, 1918-ci ildə Qızıl Ordu sıralarına daxil olaraq briqada komissarı kimi Orta Asiyada hərbi əməliyyatlarda iştirak edib. Moskva Ali Texniki uçilişini bitirdikdən sonra UİK (b)P MK-nın aparatında işə qəbul edilib. 1937-ci il repressiyalarında bilavasitə iştirak edərək 150 mindən çox adamın “xalq düşməni” kimi ifşa edilməsinə rəhbərlik etmişdir. 1939-1946-cı və 1948-1953-cü illərdə UİK(b)P və Sov.İKP MK-nın katibi olub. 1941-1945-ci illərdə DMK-nın üzvü kimi təyyarələrin istehsalına, sonra işğaldan azad olmuş rayonların bərpasına başçılıq

edib. 1952-ci ildə Sov.İKP-nin XIX qurultayında G.M.Malenkov MK-nın hesabat məruzəsi ilə çıxış etdi. Bu isə o demək idi ki, İ.Stalin ona özünün gələcək xələfi kimi baxırdı.

L.P.Beriya DİN-nin, V.M.Molotov isə XİN-nin rəhbərləri kimi Nazirlər Soveti Sədrinin birinci müavinləri təyin oldular. N.A.Bulqanin və L.N.Koqonoviç isə Nazirlər Soveti Sədrinin müavinləri təyin edildilər. K.Y.Voroşilov formal olaraq dövlət başçısı hesab edilən Ali Sovetin Rəyasət Heyətinin Sədri seçildi. N.S.Xruşşov heç bir dövlət vəzifəsi tutmasa da, o Sov.İKP MK-nin katibi kimi partiyada ikinci adam idi. İ.Stalinin ölümünün ertəsi günü tez-tələsik bölüşdürülən bu rəhbər vəzifə bölgüsü MK-nin Rəyasət Heyətinin başqa üzvləri tərəfindən narazılıqla qarşılandı və G.Malenkov iki vəzifədən birini seçmək qarşısında hökumət başçılığını seçdi və beləliklə MK-nın katibliyini 1922-ci ildə İ.Stalin seçilən zaman olduğu kimi hamıdan az şübhə doğuran N.S.Xruşşova təhvil verilmiş oldu.

Yeni hakimiyyət birinci gündən keçmiş illərdəki sui-istifadə hallarını aradan qaldırmaq istiqamətində addımlar atdı. 1953-cü ilin martında G.M.Malenkov elan etdi ki, "şəxsiyyətə pərəstiş siyasətindən" əl çəkib kollektiv rəhbərliyi təmin etmək zəruridir. Bu isə İ.V.Stalinin ehtiyyatla tənqidi demək idi. Tədricən mətbuatda İ.Stalini tərifləyib göylərə qaldıran söz çələngi yığışdırıldı. Martın 27-də SSRİ Ali Soveti 5 ildən artıq cəzası olmayan məhbusların əfv edilməsinə dair fərman verdi. "Voroşilov" əfvinə əsasən 1 mln nəfərdən çox məhbus azad edildi. Aprelin 4-də "Pravda" qəzeti elan etdi ki, "adam zəhərləyən" həkimlər təxribatın qurbanı olduqları üçün bəraət almışdır. Bu məlumatı L.Beriya tərəfindən rəhbərlik edilən və vaxtı ilə belə işləri təşkil edən DİN-nin yayması diqqəti cəlb edir. Beləliklə, özünü "sosialist qanunçuluğunun" bərpa edilməsinin tərəfdarı kimi qələmə verən L.Beriya hələ İ.Stalinin cənazəsi başındakı vida nitqində birdən-birə "liberala" çevrilmişdir. Məhz onun təşəbbüsü ilə "həkimlərin işi"nin günahı S.D.İqnatyev və M.D.Ryuminin üzərinə atılaraq, onlar həbs edildilər. Gələcəkdə özünə dayaq hazırlamaq məqsədilə L.Beriya Gürcüstan və bir sıra respublikaların rəhbərliyinə öz yaxın adamların təyin etdirdi. Hətta o, müəyyən mənada kollektivləşdirməni yumşaltmağı və xarici siyasət sahəsində beynəlxalq gərginliyi azaltmağı belə təklif etmişdir.

Beriya Lavrentiy Pavloviç (1899-1953) Abxaziyada anadan olub, Birinci Dünya müharibəsində Rumın cəhbəsində qulluq edib. 1917-ci ildə bolşeviklər partiyasına daxil olaraq Gürcüstan və Azərbaycanın Fövqəladə Komissiyası orqanlarında işləmiş, 1938-ci ildə Xalq Daxili İşlər Komissarı olmuşdur. Müharibə illərində DMK-nin üzvü, sonra isə müavini kimi silah istehsalına rəhbərlik etmişdir. SSRİ Nazilər Soveti nəzdində nüvə silahının yaradılması ilə məşğul olan Xüsusi Komitəyə başçılıq etmişdir. 1953-cü ildə İ.V.Stalinin ölmündən sonra SSRİ Nazirlər Sovetinin birinci müavini və Daxili İşlər Naziri təyin edilmişdir. Ancaq L.Beriyanın hədsiz canfəşanlığı və siyasi polisi qüdrətli partiya aparatından üstün tutması başqa rəhbərlərin ordunun da köməyi ilə ona qarşı birləşmələrinə səbəb oldu. 1953-cü ilin iyunun 26-da L.P.Beriya həbs edildi. N.S.Xruşşov, Müdafiə nazirinin müavini G.K.Jukov, Moskva hərbi dairəsinin komandanı K.S.Moskalenko və onun müavini P.F.Batitski həbsin təşkilində əsas rol oynamışdır. 1953-cü il iyulun 2-7-də toplanan Sov. İKP MK-nin Plenumunda qiyabi olaraq o, partiya və dövlətin əleyhinə fəaliyyət göstərməkdə təqsirkar bilindi. Plenumda çıxış edən onun dünənki həmkarları L.Beriyanı xarici kəşfiyyatla əlaqədar, DİN orqanlarını hakim partiyadan üstün tutmaqda və əksinqilabi qəsd hazırlamaqda günahlandırdılar. Eyni zamanda L.Beriya ölkədə əsassız repressiyaların təşkilində ittiham edildi.1953-cü ilin dekabrında SSRİ Ali Məhkəməsinin qapalı iclasında L.Beriya və onun əlaltıları V.N.Merkulov, V.Q.Dekanozov, B.Z.Kobulov, S.A.Qoqlidze, P.Y.Meşik və L.Y.Vlodzimirsk Vətənə xəyanət maddəsi ilə ittiham edilərək ölüm hökmü aldılar. Lakin bəzi mənbələrin, xüsusilə N.S.Xruşşovun məlumatına əsasən L.P.Beriya həbs ediləndən dərhal sonra güllələnmişdir. Əsl həqiqət isə ondan ibarətdir ki, 1953-cü ildə L.P.Beriyanın vəzifədən uzaqlaşdırılması repressiya siyasətindən imtina edilməsi idi.

L.Beriya hakimiyyət uğrunda mübarizədən məhz ordunun yaxından iştirakı və köməyi ilə uzaqlaşdırıldıqdan sonra onun rolu artdı və təhlükəsizlik orqanlarının ordu üzərindəki alçaldıcı nəzarətinə son qoyuldu. Dövlət Təhlükəsizlik orqanlarının strukturu dəyişdirildi. DİN-

nin rəhbəri S.N.Kruqlov təyin edildi. Siyasi polisə məxsus "üçlük", yəni xüsusi tribunal ləğv olundu. Eyni zamanda DİN-nin Düşərgə idarəsi (QULAQ) Ədliyyə Nazirliyinin sərəncamına verildi. 1954-cü ilin martında siyasi polis yenidən təşkil edilərək müstəqil Dövlət Təhlükəsizlik Komitəsinə (DTK) çevrildi, N.Xruşşovun adamı hesab edilən general A.İ.Serov onun rəhbəri təyin olundu. 1954-cü ilin yazından başlayaraq bəraət alanların ilk dəstələri düşərgələrdən qayıtmağa başladı. 1954-55-ci illərdə "Leninqrad işinin" qurbanları, çoxlu hərbi komandirlər, kosmopolitizm maddəsi ilə hökm alanlar azad oldular. 1930-cu illərdəki işlərə baxılmağa başlandı.

İslahat işlərinin davam etdirilməsi İ.V.Stalindən sonra SSRİ Nazirlər Sovetinə başçılıq edən G.M.Malenkova keçdi. 1953-cü ildə Sov.İKP MK-nin iyul Plenumunda İ.Stalinin şəxsiyyətinə pərəstişi tənqid edən G.Malenkov qeyd etdi ki, hakimiyyətin yuxarı dairələrində kollektiv rəhbərliyin olmaması, təkbaşına qəbul edilən qərarlar ölkə və partiyaya rəhbərlikdə səhvlərə səbəb olmuşdur. 1953-cü ilin avqustunda SSRİ Ali Sovetinin sessiyasında G.Malenkov yüngül və yeyinti sənayesinə, kənd təsərrüfatına əhalinin həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirləri artırmaq məqsədi ilə beşillik plan tapşırıqlarının əsas istiqamətlərinə yenidən baxılmasını irəli sürdü. Onun çıxışında partiya və sovet hakimiyyəti aparatı bürokratizmdə ittiham olunurdu. Mahiyyət etibarı ilə söhbət sovet cəmiyyətinin inkişafının yeni proqramından gedirdi.

Yeni rəhbərliyin fəaliyyətində mərkəzi yerlərdən birini cəmiyyətinin inzibati-amirlik sisteminin eybəcər formasının, xüsusilə İ.V.Stalinin şəxsiyyətinə pərəstişin aradan qaldırılması tuturdu. Bu işdə əsas rol 1953-cü ilin sentyabrın 7-də Sov.İKP MK-nin Birinci katibi seçilən N.S.Xruşşov oynadı. Xruşşov Nikita Serqeyeviç (1894-1971) Kursk vilayətinin Kalinovka kəndində anadan olub, çoban, Donbasın zavod və hövzələrində çilingər işləyib.1918-ci ildə bolşevik partiyası sıralarına daxil olaraq Vətəndaş müharibəsində iştirak edib. Donetsk Sənaye institutunun fəhlə fakültəsini bitirdikdən sonra partiya xətti ilə irəliləyərək ilk partiya təşkilatı katibindən Ukrayna KP(b) MK-nin Birinci katibi vəzifəsinə qədər yüksəlmişdir. İ.V.Stalinin ölümündən sonra Sov.İKP MK-nın Birinci katibi seçilən N.S.Xruşşov "Stalin qvardiyası" ilə islahatçılar arasında ağılla hərəkət edərək əvvəlcə L.Beriyanı hakimiyyətdən uzaqlaşdırmış sonra isə əsas rəqibi olan G.Malenkovu ikinci plana sıxışdırmışdır. Sov.İKP-nın XX qurultayında İ.Stalinin "şəxsiyyətinə pərəstişi"ni tənqid edərək dünyaya səs salmışdır. 1957-ci ildə "Stalin qvardiyasın"ın onu hakimiyyətdən uzaqlaşdırmaq cəhdi uğursuz olmuşdur. 1958-ci ildə N.S.Xruşşov partiya və hökumət rəhbərliyini öz əlində birləşdirmişdir. Bütün hakimiyyəti öz əlinə alan N.Xruşşov əslində İ.Stalinə məxsus diktatorluq stilinin ona da məxsus olduğunu nümayiş etdirmişdir. Onun impulsiv xarakteri, çox məsələlərdə qeyri-peşəkarlığı, nə vaxtsa qazandığı ideoloji ehkama fanatik bağlılığı ölkənin daxili və xarici siyasətinin formalaşmasına hər zaman yaxşı təsir göstərməmişdir. 1964-cü ildə partiya-dövlətin ali rəhbərliyi qocaman liderin Krımda istirahətdə olmasından istifadə edərək onu hakimiyyətdən kənarlaşdırmışlar. Təqaüdə çıxan və faktiki olaraq ev dustağı olan N.S.Xruşşov öz xatirələrini diktə edərək onun xaricdə çap edilməsinə nail olmuşdur.

İ.V.Stalinin ölümündən sonrakı 11 il tarixə SSRİ-nin daxili və xarici siyasətinin nisbətən liberallaşdıran "mülayimləşmə" kimi daxil olmuşdur, ancaq siyasi və iqtisadi sahədə yuxarıdan aparılan islahatlar qeyri-ardıcıl olmuşdur. Rusiyanın siyasi həyatı, xüsusi ilə "Stalinin epoxası" üçün xarakterik olan avtoritar olar ənənə Stalin hakimiyyətinin davamçılarını, xüsusi ilə partiya-dövlət aparatını öz əsirinə çevirmişdir.

L.Beriyanı hakimiyyətdən kənarlaşdırıb fiziki cəhətdən məhv edildikdən sonra N.S.Xruşşovla G.M.Malenkov arasında hakimiyyətdə birinci olmaq üstündə mübarizə qızışdı. Bu özünü ölkənin iqtisadi və ictimai inkişafına fərqli yanaşma fikrində büruzə verdi. Belə ki, G.Malenkov yüngül sənayenin inkişafı strategiyasını müdafiə etdiyi halda N.Xruşşov kənd təsərrüfatındakı vəziyyəti nəzərdə tutaraq, ilk növbədə, bu sahəyə diqqət verilməsini planlaşdırırdı. Bu məqsədlə kolxozların istehsal etdiyi məhsulların dövlət satınalma qiymətlərinin artırılması, əkin sahələrinin sürətlə genişləndirilməsi nəzərdə tutulurdu ki, bunun da sayəsində kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq labüd idi. N.Xruşşovun xam torpaqların

fəth edilməsi proqramı bir tərəfdən istehsalın tez və ucuz artımı demək idi, başqa bir tərəfdən bu siyasət kənd təsərrüfatı maşın və traktor parkının artırılması, yəni ağır sənayenin inkişafı demək idi. Bu isə müharibənin sonlarından G.Malenkovun nəzarəti altında olan ağır sənayenin bir bölməsinin N.Xruşşov tərəfindən inkişafının irəli sürülməsi onun əhalinin böyük əksəriyyətinin maraqlarının müdafiəçisi kimi tanınmasına və özünün başlıca siyasi rəqibinin mövqeyinin zəifləməsinə şərait yaradırdı. 1953-cü ilin sentyabrında MK-nin Plenumunda N.S.Xruşşov kənd təsərrüfatındakı ağır vəziyyəti kəskin surətdə tənqid edərək G.Malenkovun Sov.İKP-nin XIX qurultayında "çörək problemi həll edilmişdir" sözlərinin yalan olduğunu göstərdi. N.Xruşşovun təkidi ilə dövlət tərəfindən kolxozlardan ətin satınalma qiyməti 5,5, süd və yağınkı 2 dəfə, taxılınkı isə 50 faiz artırıldı. Eyni zamanda dövlətə icbari ödənilən məhsulun miqdarı azaldıldı, həyatyanı sahələrdən və bazarlarda satılan məhsuldan alınan vergilər azaldıldı. Bütün bunların nəticəsində uzun müddət tənəzzüldə olan kolxozların gəliri artmağa başladı və bu 1957-1958-ci illərdə artmaqda davam etdi.

Şimali Qazaxıstan, Sibir, Altay və Cənubi Uralda xam torpaqların mənimsənilərək əkilməsi ideyası 1954-cü ilin fevral ayında olan Sov.İKP MK-nın Plenumunda N.S.Xruşşov tərəfindən irəli sürüldü və təsdiq olundu. Üç il ərzində 1954-cü il fevral Plenumunda təsdiq edildiyindən üç dəfə çox, yəni 37 mln hektar torpaq əkildi ki, bu da SSRİ-də işlənən torpaqların 30 faizi demək idi. Xam torpaqları fəth etmək üçün 100 minlərlə adam, çoxlu sayda komsomolçu və məhbus səfərbər edildi. 1956-cı ildə SSRİ-də rekord səviyyədə, yəni 125 milyon ton taxıl tədarük edildi ki, bunun da 50 faizi xam torpaqların payına düşürdü. Məhz bu nəticədən ruhlanan N.Xruşşov 1955-ci ilin yanvar Plenumunda kənd təsərrüfatındakı yeni problemi həll etmək məqsədilə qarğıdalı əkinçiliyinin artırlmasını irəli sürdü. İki ildə onun təşəbbüsü ilə 18 milyon hektar sahəyə qarğıdalı əkildi ki, bəzən bitki üçün yararsız olan rayonlar belə bu kampaniyadan kənarda qala bilmədi. Kənd təsərrüfatı sahəsində N.Xruşşovun islahatları sayəsində üç ildə kənd təsərrüfatı məhsulları 25 faiz artdı.

G.Malenkov və N.Xruşşov eyni zamanda sosial əlaqələrin təkmilləşdirilməsi tərəfdarı idi. Lakin G.Malenkov mövcud siyasi mexanizmləri daha da təkmilləşdirilb, ehtiyatla hakimiyyəti aşağı səviyyəli inzibati aparata verməyi, müəssisə rəhbərləri və təsərrüfat kadrlarının texniki və peşə qabiliyyətlərini nəzərə almaqla onların rolunu artırmağı nəzərdə tuturdu ki, bu sistemdə də xalq kütlələri iştirak etmirdi. Bu siyasətin əksinə olaraq N.Xruşşov xalq kütlələrinin təşəbbüskarlığını daha da artıraraq populist şüarlarla onları öz tərəfinə çəkməyə çalışırdı. 1955-ci il yanvarın 25-də Sov.İKP MK-nın Plenumunda G.Malenkov 50-ci illərin əvvəllərindəki kənd təsərrüfatı sahəsindəki səhvlərinə və "sağtəmayülçülüyə" görə kəskin tənqid olundu. MK-nın katibi və "Pravda" qəzetinin baş redaktoru D.T.Şepilov yüngül sənayenin inkişafını və istehlak malları istehsalını artırmağı nəzərdə tutanları "sağtəmayülçülükdə" ittiham edərək onları təftişçi və marksizmi vulqarlaşdıranlar adlandırdı. 1955-ci il fevralın 8-də G.Malenkov ciddi təzyiq altında SSRİ Ali Sovetində çıxış edərək öz səhvləri və səriştəsizliyi üzündən işdən azad olunmağını və bu vəzifəni dövlət işində daha təcrübəli bir yoldaşa tapşırmağı xahiş etdi. Beləliklə, SSRİ Müdafiə Naziri N.A.Bulqanin G.Malenkovun yerinə SSRİ Nazirlər Sovetinin sədri oldu, marşal G.K.Jukov isə Müdafiə Naziri təyin olundu. Bu vəzifə dəyişikliyi təbii olaraq N.S. Xruşşovun mövqeyini və hakimiyyətini möhkəmlətdi.

***Sov. İKP-nın XX qurultayı.*** 1956-cı il fevralın 14-də 1436 nümayəndənin iştirakı ilə Kremldə Sov.İKP-nın XX qurultayı toplandı. Qurultay 1956-1960-cı illərə dair altıncı beşillik plan direktivlərini qəbul etdi ki, bu direktivlərə əsasən geniş sosial tədbirlər, o cümlədən, iş gününün 8 saatdan 7 saata endirilməsi, az maaşlı fəhlə və qulluqçuların əmək haqqı və təqaüdlərinin, mənzil tikintisinin artırılması nəzərdə tutulurdu. MK-nin hesabat məruzəsi ilə çıxış edən N.S.Xruşşov partiyanın siyasi xəttinin həm daxili, sosial-iqtisadi, həm də xarici istiqamətinin dəyişdiyini nümayiş etdirdi. Partiyanın əvvəlki imperializm qaldıqca müharibələr qaçılmazdır ehkamı yerinə hazırki şəraitdə yeni dünya müharibəsi təhlükəsi mümkün deyildir ideyası irəli sürüldü. SSRİ rəsmi olaraq müxtəlif ictimai-siyasi quruluşa malik olan dövlətlərin dinc yanaşı yaşaması prinsipini elan etdi. SSRİ-nin yeni xarici siyasət xəttinin müəyyən edilməsinin mühüm səbəblərindən biri dünya müharibəsində nüvə silahını tədbiq

etməklə qələbə çalmağın mümkün olmamasının dərk edilməsi oldu. Hesabat məruzəsində eyni zamanda demokratik ölkələrdə sülh, o cümlədən parlament yolu ilə sosializmə keçməyin mümkünlüyü qeyd edildi. Sovet rəhbərliyinin sosialist inqilabının sovetlərin təcrübəsində silahlı üsyan xəttindən imtina etməsi real olaraq bunun Avropa ölkələrində inandırıcı olmaması ilə bağlıdır.

N.S.Xruşşovun hesabat məruzəsinin ideya-siyasi istiqaməti çox məhdud olub əsasən L.Beriyanın cinayət əməllərinin, kollektiv rəhbərliyin Lenin prinsiplərinin, sosialist qanunçuluğunun pozulmasının tənqidinə yönəlmişdir.

Qurultayın axırıncı günü fevralın 24-dən 25-nə keçən gecə qapalı iclasda N.S.Xruşşov dörd saat boyunca iştirakçılara "gizli məruzəsini" oxudu və son iyirmi ildə İ.V.Stalinin şəxsiyyətə pərəstişinin yaranması və möhkəmlənməsinin səbəblərini izah etdi. Sov.İKP-nın Birinci katibi seçilmiş N.S.Xruşşov xarici nümayəndələrin buraxılmadığı qapalı iclasdakı çıxışında İ.Stalin tərəfindən Leninin kollektiv rəhbərlik prinsipinin kobud şəkildə pozulduğunu, qanunsuz təmizləmə və repressiyaların onun birbaşa göstərişi ilə həyata keçirildiyini qeyd etdi. Məruzədə həm də qafqaz xalqlarının deportasiyası,1949-cu ildəki "Leninqrad işi", 1951-ci ildəki "Minqrel işi", 1953-cü ildəki "həkimlərin işi" və s. sahəsindəki qanunsuzluqların birbaşa cavabdehi İ.Stalin olduğu qeyd olundu. Beləliklə, N.Xruşşov öz çıxışında heç kimi eşitmək istəməyən, xalqdan ayrı düşən, gündən-günə öz şəxsiyyətini şişirtməklə məşğul olan, səriştəsiz və zalım müstəbid tiran obrazını, yəni İ.V.Stalinin obrazını təsvir etmişdir. N.Xruşşov müharibə ərəfəsində hərbi kadrların məhv edilməsini, 1941-1942-ci illərdə Qızıl Ordunun uğursuzluqlarını İ.Stalinin səriştəsiz hərbi rəhbərliyi ilə bağlı olduğunu qeyd edərək əslində onun marşal və generalissimus rütbələrinə layiq olmadığını göstərmək istəməsi ibrətamizdir. N.Xruşşovun "gizli məruzəsində" repressiyalar özünün tam əksini tapmadı, kollektivləşdirmənin qurbanlarından, sadə vətəndaşlara qarşı tətbiq edilən repressiyalardan söhbət açılmadı. İ.V. Stalinin şəxsiyyətinə pərəştişinin təhlili dərin deyildir. İ.Stalinin ünvanına deyilən tənqid onun partiyaya qarşı cinayətləri ilə əlaqələndirilirdi. Partiyanın özünün repressiyalarla bağlı məsuliyyətindən söz açılmırdı. Lakin buna baxmayaraq məruzənin öz dövrü üçün çox böyük və misilsiz əhəmiyyəti ondan ibarət idi ki, N.Xruşşovun "gizli məruzəsi" adamları İ.V.Stalinə olan demək olar ki, dini inancının əsasını dağıtdı. Qurultaydan sonra qapalı iclasdakı məruzənin mətni kitabça şəklində çap edildi, onunla tanış olmaq məqsədilə yerlərdə yığıncaqlar təşkil olundu və sovet vətəndaşları bəhs edilən qanunsuzluqlardan xəbər tutdu. Lakin hakimiyyət açıq mətbuatda məruzəni tam çap etməyərək onun məzmunu ilə xalqı tanış etmədi. Bu isə xalqın bütün həqiqəti ondan gizlədilməsi şübhəsi doğururdu. Vəziyyəti çətinləşdirən o idi ki, Qərbin aparıcı kütləvi informasiya vasitələri 1956-cı ilin martın 16-dan məruzənin mətni ilə oxucuları tanış edirdi. Məruzənin mətni iyunun 4-də ABŞ-ın dövlət departamenti tərəfindən çap edildi. SSRİ-də yalnız "yenidənqurma" dövründə açıq mətbuatda məruzə çap edilmişdir(Sov.İKP-nin Xəbərləri. 1989.№3).

1956-cı il iyunun 30-da Sov.İKP MK-nın "Şəxsiyyətə pərəstiş və onun nəticələrinin aradan qaldırılmasına dair" qərarı dərc olundu. Bu sənəddə N.Xruşşovun məruzəsində qeyd edilən məsələlərə daha mühafizəkar yanaşılırdı. Qanun pozuntuları və repressiyalar bir tərəfdən İ.Stalinin adı ilə əlaqələndirilir, başqa bir tərəfdən kapitalist əhatəsilə və daxili sinfi düşmənlə şiddətli mübarizə onların səbəblərindən biri kimi qeyd olunurdu. İ.Stalin qərarda həm də görkəmli dövlət xadimi, nəzəriyyəçi, sənayeləşdirmə, kollektivləşdirmənin və müxalifət üzərində qələbənin təşkilatçısı kimi səciyyələndirilirdi.Stalinizmin tənqidinin boğulmasına cəhd edilməsi, onun ifşası ilə şəxsiyyətinin şişirdilməsi arasındakı tərəddüdlər 1956-cı ilin ikinci yarısı ilə 1957-ci illərin əvvəlləri üçün xarakterdir. Bu onunla izah edilir ki, partiya rəhbərliyi və N.S.Xruşşov özü də cəmiyyət üzərində ideoloji nəzarəti itirməkdən qorxurdular.

Mühafizəkar əhval-ruhiyyəli dairələr və əsasən keçmiş "Stalin qvardiyası" N.S.Xruşşovun siyasətindən narazı idilər. Odur ki, N.Xruşşovun Finlandiyaya səfərindən istifadə edərək 1957-ci il iyunun 18-də Sov.İKP MK-nın Rəyasət Heyətinin 11 nəfər üzvündən 7 nəfəri, o cümlədən N.A.Bulqanin, K.Y.Voroşilov, L.M.Kaqanoviç, G.M.Malenkov, V.M.Molotov, M.Q.Pervuxin, M.Z.Saburov, üzvlüyə namizəd D.T.Şepilov onun istefasını tələb etdilər.

Onlar N.Xruşşovu özünün şəxsiyyətinə pərəstişin formalaşdırmaqda, yalan vədlərlə, səhv xarici siyasətdə ittiham etdilər. N.Xruşşovu yalnız Rəyasət Heyətinin üç üzvü, A.İ.Mikoyan, A.İ.Kiriçenko, M.A.Suslov və Rəyasət Heyətinin, Katibliyin üzvlüyə namizədlərinin böyük əksəriyyəti müdafiə etdi. Onların köməyi nəticəsində demokratik partiya mərkəziyyət prinsipini əldə rəhbər tutan N.Xruşşov məsələyə Mərkəzi Komitənin Plenumunda baxılmasına nail oldu. Müdafiə Naziri marşal G.K.Jukovun hərbi təyyarələrinin köməyi ilə tez bir zamanda 130 nəfər plenum üzvündən 107 nəfəri Moskvaya toplayan N.Xruşşov iyunun 22-də onun iclasını keçirdi. Arbitr rolunda çıxış edən plenum üzvləri Birinci katibi müdafiə edərək Rəyasət Həyətinin qərarını ləğv etdilər. Sov.İKP MK-nın Plenumu "antipartiya qrupunu fraksiyaçılıq fəaliyyətində" ittiham edərək V.Molotov, L.Kaqanoviç, G.Malenkov, M.Saburovu Rəyasət Heyəti üzvlüyündən, D.Şepilovu üzvlüyə namizədlikdən azad etdi. M.Pervuxin üzvlükdən namizədliyə keçirildi. 1961-ci ildə L.Kaqanoviç, G.Malenkov, V.Molotov partiya sıralarından xaric edildilər. NA.Bulqanin 1958-ci ildə Rəyasət Heyətinin tərkibindən xaric edildi və Nazirlər Sovetinin sədri vəzifəsindən azad olundu,onu bu vəzifədə N.S.Xruşşov əvəz etdi. 1960-cı ilin mayın 7-də SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində K.Y.Voroşirovu L.İ.Brejnev əvəz etdi. Beləliklə, N.S.Xruşşov partiya və hökumətin vahid liderinə çevrildi. 1957-ci il partiya və dövlət rəhbərliyindəki böhranın mühüm nəticəsi stalinsizləşdirmə yolundakı əsas addım olaraq keçmişin siyasi təcrübəsi ilə əlaqənin kəsilməsi oldu. İyun böhranının qaydaya salınmasında böyük rol oyanayan marşal G.K.Jukov vətəndaş hakimiyyətinin və şəxsən N.S.Xruşşovun mənfi münasibətinə və ondan ehtiyat etməsinə səbəb oldu.1953-cü ildə L.Beriya hakimiyyətdən uzaqlaşdırılarkən G.K.Jukovun köməyindən istifadə edən N.S.Xruşşov onun nüfuzundan ehtiyat edərək o Albaniya və Yuqoslaviyada səfərdə olarkən Rəyasət Heyətində "G.K.Jukovun şəxsiyyətinə pərəstiş, onun bonapartizmə yol açan avantürizmə meylliliyi" maddəsi ilə məsələ qaldırdı. Mərkəzi Komitənin 19 oktyabr Plenumunda G.K.Jukov Rəyasət Heyətinin və MK-nın tərkibindən çıxarıldı. Müdafiə Naziri vəzifəsinə R.Malinovski təyin olundu, G.Jukov isə təqaüdə göndərildi.

Sov.İKP-nın XX qurultayında təntənəli surətdə partiyada kollektiv rəhbərliyin Lenin prinsiplərinə əməl ediləcəyi elan olunsa da N.S.Xruşşov 1940-1953-cü illərdə İ.V.Stalinin partiya və hökumət rəhbərliyinin birləşdirmək təcrübəsini tədbiq etməklə əslində elan etdiyi siyasi xətdən imtina etmiş oldu.

***1958-1964-cü illərdə daxili həyat.*** "Antipartiya qrupunun" ləğvi şəxsiyyətə pərəstişin yeni ilmə qazanaraq təkcə İ.Stalinin deyil onun yaxın əhatəsi olan V.Molotov, L.Kaqanoviç, G.Malenkovun da tənqid edilməsinə səbəb oldu. Xüsusilə 1961-ci ildə Sov.İKP-nin XXII qurultayında Stalin repressiyaları ciddi tənqid atəşinə tutuldu. İ.V.Stalinin cənazəsi Mavzoleydən çıxarılaraq Kremlin divarları yanında dəfn edildi. Mətbuat hərbçilər və partiya xadimlərinə qarşı tətbiq edilən əsassız repressiyalardan ətraflı yazılar çap etdi. Bir çox görkəmli ədəbiyyat və incəsənət xadimi, o cümlədən, İ.E.Babel,V.E.Meyerxold, B.A.Pilnyak və başqaları bəraət qazandı. K.M.Simonov "Dirilər və ölülər" ("Jiviye i mertviye") trilogiyasında 1941-ci ilin yayındakı məğlubiyyətdən açıq bəhs etdi. S.A.Yesenin, A.A.Axmatova, M.M. Zoşşenko, M.İ.Svetayeva yenidən çap edilməyə başladı. N.S.Xruşşovun xeyir-duası ilə Stalin repressiyasının qurbanı olan insanların faciəvi həyatından bəhs edən əsərlər meydana gəldi.Qırmızı Ordunun sabiq zabiti, düşərgə həyatı yaşamış A.İ.Soljenitsinin "İvan Denisoviçin bir günü" ("Odin den İvana Denisoviça") povestinin 1962-ci ildə "Yeni dünya" jurnalında çap edilməsi Sovet cəmiyyətində böyük hadisə oldu. A.T.Tvardovskinin 1950-1954 və 1958-1970-ci illərdə baş redaktoru olduğu "Yeni dünya" ("Noviy mir") jurnalı Stalinin faciəsinin bədii təsvirində və ölkənin keçdiyi keşməkeşli yolun dərk edilməsində misilsiz rol oynamışdır. Jurnalın səhifələrində ümumxalq şöhrəti qazanmış F.A.Abramov, Ç.T.Aytmatov, V.İ.Belov, V.V.Bıkov, S.P.Zalıgin, F.A.İskəndər,V.M.Şukşin kimi sovet yazıçılarının qiymətli əsərləri çap edilirdi. "Mülayimləşmə" musiqi və teatrdan da yan keçmədi. Sov.İKP-nın 1958-ci ilin mayındakı "Böyük Dostluq" ("Velikaya drujba"), "Boqdan Xmelnitski" və "Bütün ürəkdən" ("Ot vseqo serdtsa") operalarına verilən qiymətdəki səhvlərin düzəldilməsinə dair" qərarından sonra bəstəkarlar D.D.Şostakoviç, S.S.Prokofyev, V.Y.Şebalin,

N.Y.Myaskovski yeni yaradıcılıq mərhələsinə qədəm qoydular.1956-cı ildə aktyor və rejissor O.N.Yefremovun rəhbərliyi ilə “Müasir” (“Sovremennik”) teatrı açıldı ki, bu da demokratikliyi və yüksək əxlaqi dəyərləri ilə seçilirdi.

Lakin ideoloji və mədəni həyatın stalinsizləşdirilməsi və mülayimləşməsi qeyri-ardıcıl və məhdud xarakter daşıyırdı. V.L.Pasternakın xaricdə çap etdirdiyi “Doktor Jivaqo” əsərinə görə onun Yazıçılar İttifaqının üzvlüyündən xaric edilməsi və təqibi buna əyani misaldır. 1958-ci ildə V.Pasternaka Nobel mükafatı verilməsi hakimiyyətlə onun arasında olan gərgin münasibətləri daha da kəskinləşdirdi. Yazıçı SSRİ-dən sürgün olunmaq hədə-qorxusu altında 1958-ci il noyabrın 5-də “Pravda” qəzetində müraciət çap etdirərək mükafatdan imtina etdiyini və Qərbi onun əsərini siyasi məqsədlərlə istifadə etməkdə təqsirləndirdi. V.Pasternakla bağlı məsələ göstərdi ki, hələ rus ziyalıları açıq sürətdə hakimiyyətin təzyiqinə qarşı dayanmağa hazır deyildir. 1962-ci ildə Manejdə təşkil edilmiş bədii rəsm sərgisində N.S.Xruşşov rəssamlar R.R.Falk, E.İ.Neizvestni, B.İ.Jutovskini sosialist realizminə cavab verməyən əsərlər yaratdıqları üçün kobud söyüşlə təhqir etdi. Bu bir daha nümayiş etdirdi ki, partiya və dövlət rəhbərliyi incəsənətdə səriştəsizliyinə baxmayaraq, o özünü yaradıcı adamlara sənətin üsullarını belə öyrətmək iqtidarında hesab edir. Düzdür, Stalinin dövründən fərqli olaraq partiya liderinin qəzəbinə düçar olan rəssamlar repressiyaya və işdən qovulmağa məruz qalmadılar, lakin onların əsərlərinin muzey və sərgilərə gedən yolu bağlandı.

Nikita Xruşşovun stalinizmi tənqidinin və ölkədə ab-havanın mülayimləşməsi xəttinin yarımçıqlığı və qeyri-ardıcıllığı 1950-ci illərin sonundan başlayaraq Sovet İttifaqında qeyri-rəsmi mədəniyyətin və fərqli düşünənlər hərəkatının meydana gəlməsinə səbəb oldu. “Gizli Nəşr” (“Samizdat”) adı altında 300-dən çox müəllifin senzuraya məruz qalmayan şeir, nəsr, esse və ictimai-siyasi mövzuda məqaləsi çap maşını ilə yazılaraq oxucular arasında yayılırdı. 1959-1960-cı ildə gənc şair A.İ.Qinzburq ilk belə jurnal olan “Sintaksis” i buraxdı və jurnalın səhifələrində B.Axmadulina, Vs.Nekrasov, B.Okucava, E.Qinzburq və V.Şalamovun əvvəllər qadağan edilmiş əsərləri çap olundu. 1960-cı ildə hakimiyyət orqanları sovet sistemini dağıtmaq məqsədilə təbliğat apardığı üçün A.İ.Qinzburqu həbs edərək iki il azadlıqdan məhrum etdi. Nə həbslər, nə zorla psixi müalicəyə göndərmələr mövcud rejimi tənqid edən gəncləri dayandırmadı. “Oxuyan el şairləri” (“Bardov”) B.Ş.Okucava, Y.İ.Vizbor, A.M. Qorodnitski. A.A.Qaliçin, V.S.Vısotskinin əsərləri səmimiyyəti, xalqa yaxınlığı və qabarıq sosial-siyasi xüsusiyyəti ilə rəsmi incəsənət nümunələrindən əsaslı surətdə fərqlənirdi. Səhnəyə dissidentlərin, yəni fərqli düşünənlərin ilk nəslinin nümayəndələri, o cümlədən, Qalanski, Bukovski, Bakşteyn, Kuznetsov çıxdılar. Onlar müxtəlif vasitələrlə ziyalıların sistemə qarşı etirazını təcəssüm etdirirdilər. Dissident (lat. Dissidens) fərqli fikirli demək olub, siyasi baxışları rəsmi hakimiyyətin fikirlərindən radikal şəkildə fərqlənən insanlardır. 1961-ci ildə Moskvada general P.Q.Qriqorenko rayon partiya konfransında N.Xruşşovun yarımçıq xarakterli siyasətini tənqid etdi. Kurskda isə belə bir tənqidlə hakimiyyətin siyasətindən narazılığını bildirən yazıçı V.V. Oveçkin çıxış etdi. Hakimiyyəti tənqid etdikləri üçün hər ikisi partiyadan xaric edilərək işdən qovuldular. 1964-cü ildə isə general P.Q.Qriqorenko psixiatriya xəstəxanasına salındı. Bütün bunlarla bərabər şəxsiyyətə pərəstişin tənqid edilməsindən sonra stalinizmi dirçəltmək və kütləvi repressiyalar mümkün deyildir. Bunu nəzərə alan rəsmi sovet təbliğat maşını cəmiyyətdə baş verən problem və çətinlikləri görməməyə üstünlük verirdi. Belə ki, 1959-cu il yanvarın 27-də toplanmış növbədən kənar Sov.İKP-nın XXI qurultayı “SSRİ-də sosializin tam və qəti qəsəbəsini” təsbit etdi. Qurultay elan etdu ki, sosializmin tam və qəti qələbəsini təmin edən sovet cəmiyyəti “geniş kommunizm quruculuğu” yoluna qədəm qoymuşdur.1959-1965-ci illəri əhatə edən yeddiillik plan tapşırıqlarını da qəbul edən partiyanın XXI qurultayının qərarları göstərdi ki, XX qurultayın keçmişin cinayətlərini aşkar etməsindən fərqli olaraq rəhbərlik yenidən arxasını real həqiqətlərə çevirərək öz siyasətini gurultulu şüarlarla bəzəmək niyyətindədir.

1961-ci il oktyabrın 17-dən 31-ə kimi Sov.İKP-nın sayca üçüncü olan Yeni Proqramı və nizamnaməsi qəbul olundu. Yeni Proqramda ölkənin “geniş kommunizm quruculuğu” dövrünə qədəm qoyduğu qeyd edilir, bu məqsədə çatmaqda “kommunizmin maddi-texniki ba-

zasının" yaradılmasını təmin etmək üçün on il (1961-1971-ci illər), kommunizmin mərhələsinə bilavasitə daxil olmaq üçün isə ikinci on il (1971-1981-ci illər) müddəti nəzərdə tutulurdu. N.S.Xruşşov əminliklə təstiq edirdi ki, "sovet adamlarının indiki nəsli kommunizmdə yaşayacaqdır". Yeni nizamnaməyə əsasən yerli partiya özəklərinin hüququnun artması, partiya vəzifələrinin rotasiyası, yəni təzələnməsi, ictimai əsasla partiya işinin genişlənməsi irəli sürüldü. Proqramda eyni zamanda "kommunizm qurucusunun əxlaq kodeksi" öz əksini tapdı. Proqramda yaradıcı ziyalılar qarşısında gələcək cəmiyyətin "yeni insanını" tərbiyə etmək vəzifəsi qoyulmuşdur. Partiyanın üçüncü Proqramı real həyatdan uzaq olduğu üçün qarşısına yerinə yetirilməsi mümkün olmayan vəzifələr qoymuşdur. Bu isə hər şeydən əvvəl partiyanın XX qurultayından sonra sovet cəmiyyətində meydana gələn nikbin əhval-ruhiyyə ilə bağlıdır. Eyni zamanda hakimiyyət vətəndaşları böyük vəzifələrlə hipnoz edərək gündəlik çətinliklərdən yayındırırdı. Tez bir zamanda iki onillik müddətində kommunizmin maddi-texniki bazasını yaratmağın mümkün olmadığı aşkar oldu, gülüş və lətifə doğurdu.

1960-cı ilin əvvəllərində meydana çıxan və getdikcə dərinləşən ərzaq qıtlığı şəraitində hökumət 1962-ci ildə ət-süd məhsullarının pərakəndə qiymətlərini artırdı. Bu bütün ölkədə narazılığa səbəb oldu. Xüsusilə ərzaq çətinliyinin daha çox hiss olunduğu sənaye mərkəzlərində vərəqələr, etiraz nümayişləri meydana gəldi, tətilə çağırış şüarları artdı. Qiymətlərin artması və elektrovozqurașdırma zavodunda tariflərin kəskin aşağı salınması 1962-ci il iyunun 1-də Novoçerkasskdə kütləvi nümayişin başlamasına gətirib çıxardı. Yerli rəhbərlik və milis qüvvələri nümayişçiləri dağıda bilmədi. Şəhərə Mərkəzi Komitənin Rəyasət Heyətinin üzvləri A.İ.Mikoyan və F.R.Kozlov gəldi, şəhərə ordu qüvvələri yeridildi. Sovet ordusu nümayişçilərə atəş açdı 23 nəfər öldü, 70 nəfər yaralandı, 49 nəfər həbs olundu, 116 nəfər cinayət məsuliyyətinə cəlb edildi. 14 nəfər adam hadisələrin təşkilatçısı hesab edildi, onlardan 7 nəfəri güllələnmə, qalanları isə 10-15 il müddətinə həbs cəzası aldı. Hakimiyyət orqanları hadisələri gizlətməyə çalışsa da bu mümkün olmadı, tezliklə nümayişçilərin güllələnməsi bütün ölkəyə məlum oldu. Novoçerkassk hadisələri Sovet hakimiyyətinin təbiətinin dəyişmədiyini nümayiş etdirdi və N.S.Xruşşovun daxili siyasətinin puç olduğunu göstərdi. Ərzaq mallarının qiymətlərinin artırılması ölkənin digər şəhərlərində, o cümlədən Murom, Aleksandrov, Biysk, Krivoy Roq, Sumqayıtda da həyəcanlara səbəb olmuşdur.

N.S.Xruşşovun hakimiyyəti illərində dövlət və partiya aparatının idarə olunması tez-tez dəyişdirildi. 1957-ci ildə N.Xruşşov sənayenin idarə edilməsi qaydasını dəyişdirərək nazirliklərin yerinə iqtisadi idarəetmənin həlledici pilləsi kimi ərazi xalq təsərrüfatları şuraları (sovnarxozı) yaratdı. Sovnarxozların yaradılması müsbət nəticə versə də partiya aparatı işçiləri Moskvanı tərk edib əyalətlərə göndərildikləri üçün narazı qaldılar. Vilayət partiya komitəsinin rəhbərlərinin sovnarxozların rəhbər heyəti tərkibinə daxil edilməməsi təsərrüfatçıların partiya orqanlarından asılı olmamasını təmin etsə də başqa tərəfdən partiya rəhbərlərinin narazılığını daha da artırdı. 1961-ci ildə qəbul olunan Sov.İKP-nın nizamnaməsinə əsasən rəhbər seçkili partiya orqanlarının mütamadi olaraq təzələnməsi partiya aparatını narahat edirdi. 1962-ci ildə rayon və vilayət partiya təşkilatları sənaye və kənd təsərrüfatı üzrə bölündü. Beləliklə, ərazidə iki vilayət partiya komitəsi fəaliyyət göstərməyə başladı. Sənaye vilayət komitələri faktiki olaraq iri sovnarxozlara tabe oldu. Müvafiq dəyişiklik Sovetlər, komsomol, həmkarlar ittifaqı və milisi də əhatə etdi. Praktiki olaraq bu dəyişikliklər yerli partiya-sovet orqanlarının işində qarma-qarışıqlığa, aparatın süni surətdə şişməsinə, partiya və dövlət qulluqçularının öz vəziyyətlərinin sürüşkən olmasına səbəb oldu ki, bu da onları N.S.Xruşşova qarşı köklədi. N.S.Xruşşovun marşal G.K.Jukovu istefaya göndərdiyi üçün, atom sualtı qayıqları ilə əlaqədar olaraq suüstü hərbi dəniz gəmilərin istifadədən çıxardığı, ordunun əhəmiyyətli dərəcədə azaldığı və bir çox zabitin yeni həyata hazırlamadan, onlara mənzil verilmədən və s. istefaya göndərildiyi üçün hərbçilər arasında öz nüfuzunu itirmişdir. Beləliklə, 60-cı illərin ortalarına doğru Nikita Xruşşov sosial dayaqlarını itirərək partiya-dövlət aparatının, ordunun, ziyalıların, fəhlə və kolxozçuların müdafiəsindən məhrum olmuşdur.

***İqtisadiyyatdakı dəyişikliklər.*** Sənayeləşdirmə dövründə yaranan sovet iqtisadiyyatı

yüksək dərəcədə mərkəzləşmişdir. Xalq təsərrüfatının idarə olunması Dövlətplan, Nazirlik və onların baş idarələri, müəssisələr sxemi üzrə olmaqla möhkəm üfiqi xətt isitqamətində qurulmuşdur. Büdcədən maliyyələşdirilən müəssisələr öz vəsaitlərinə müstəqil surətdə sahib ola bilmədiklərindən təsərrüfat təşəbbüskarlığından məhrum qalırdılar. Odur ki, onlar vəsait və materialın qənaət edilməsində maraqlı deyildir. Ağır sənayeyə, istehsal vasitələri istehsal edən "A" qrupu sahəsinə prioritet verildiyindən xalq istehlak malları istehsalı, yəni "B" qrupu sahəsi "qalıq prinsipi" ilə maliyyələşdirildi ki, bu da mütəmadi olaraq paltar, ayaqqabı başqa kütləvi ehtiyac mallarının çatışmazlığına səbəb olurdu. Kənd təsərrüfatında vəziyyət son dərəcə ağır olaraq qalırdı. Ölkədə yaşayış mənzilləri çatışmırdı, nəqliyyat şəbəkəsi bərbad vəziyyətdə idi.

İ.V.Stalinin ölümündən sonra SSRİ-də iqtisadi islahatların həyata keçirilməsi həyatın tələbatına çevrildi. Ölkədə xalq təsərrüfatı mexanizminin təkmilləşdirilməsinə aqrar bölmədən başlandı. Sov.İKP MK-nın 1953-cü ilin sentyabrındakı Plenumunda N.S. Xruşşov məruzəsində kolxozçuların maddi marağının olmamasının, şəxsi və ictimai maraq arasındakı ziddiyyətin, əməyin mexanikləşdirilməsinin aşağı səviyyəsini, kolxoz, sovxoz və MTS-lərdə ciddi rəhbərliyin çatışmazlığının kənd təsərrüfatının geri qalmasının əsas səbəbləri olduğunu qeyd etdi. Aqrar bölmənin iqtisadiyyatını sağlamlaşdırmaq məqsədilə kənd təsərrüfatı məhsullarına daha inandırıcı qiymətlərin müəyyənləşdirilməsin, aşağıdan planlaşdırmaya keçilməsini, vergi siyasətinin yenidən qurulmasını, kolxozçuların maddi marağının artırılmasını nəzərdə tutan bir sıra tədbirlər həyata keçirildi. Kolxozların pul gəlirinin artırılması kursu elan olundu. 1954-cü ildə 1952-ci illə müqayisədə kolxozçulardan tutulan vergi iki dəfə azaldıldı. Növbəti beş ildə knd təsərrüfatı məhsullarının satınalma qiyməti üç dəfə artdı, aqrar bölmənin orta illik artım sürəti isə yüksələrək 7 faizə çatdı. 1954-cü ilin fevral-mart ayındakı Mərkəzi Komitənin Plenumunda xam və istifadəsiz torpaqların əkilməsi irəli sürüldü. Altay və Krasnoyarsk əyalətləri, RSFSR-in Novosibirsk, Omsk, Çelyabinsk vilayətləri, Qazaxıstanın Akmalinsk, Pavlodar, Şimali Qazaxıstan, Kustanay, Semipalatinsk, Şərqi-Qazaxıstan vilayətləri xam və istifadəsiz torpaqların yeni ünvanları oldu. Üç il ərzində 32 milyon hektar torpaq sahəsi əkildi ki, bu da ölkənin 20-30-cu illərdəki torpaq fonduna bərabər idi. Nəticədə, taxıl tədarükü 54 milyon tona çatdı. Ölkədə tədarük edilən taxılın hər ikinci, sonralar isə hər dördüncü tonu xam torpaqların payına düşürdü. Tezliklə yeni torpaqlar 1-1,5 milyard pud taxıl verməyə başladı. Xam torpaqların kütləvi və mövcud aqrotexniki qaydalara əməl edilmədən əkilməsi torpaqların eroziyasına səbəb oldu. Təkcə Qazaxıstanda əkinə yararlı sahələrin 35 faizi eroziyaya uğrayaraq yararsız vəziyyətə düşdü, ekoloji vəziyyət pişləşdi.

SSRİ-ni qısa zaman kəsiyində taxılla təmin etməyi nəzərdə tutan N.S.Xruşşov ABŞ-ın təcrübəsinə əsaslanaraq ona görə yüksək məhsuldarlığı ilə fərqlənən qarğıdalı əkilməsinə alüdə oldu.1955-ci ildən ənənəvi mədəni bitkiləri, o cümlədən yemçilik bitkilərini sıxışdıran qarğıdalı əkini sürətlə genişləndi. İstilik sevən bitki olan qarğıdalı hətta şimal vilayətlərində belə əkilməyə başladı ki, bu da faktiki olaraq bu yerlərdə qarğıdalının məhsul verməməsi ilə nəticələndi. 60-cı illərin əvvəllərində SSRİ-nin dənli əkin sahələrinin dörddə bir hissəsin qarğıdalı əkinləri təşkil edirdi. Qarğıdalı əkinin 80 faizindən çoxu isə mal-qara yemi üçün nəzərdə tutulurdu.1962-ci ilin quraqlığı ölkədə taxıl qıtlığına gətirib çıxardı. SSRİ çatışmayan taxılı xaricdən almağa məcbur oldu

N.S.Xruşşovun kənd təsərrüfatı sahəsində tədbiq etdiyi inzibati islahatlardan biri də MTS-i ləğv edib texnikanı kolxozların mülkiyyətinə verməsi oldu. İqtisadi cəhətdən bu kolxozların təşkilatı işlərinə müsbət təsir etsə də, texnikanın kolxoz vəsaiti hesabına qısa bir müddətdə satın alınması kolxozların maliyyə ehtiyyatlarını tükətdi. Bir çox mütəxəssis və texniklər kolxozçu statusuna düşməmək məqsədilə şəhərlərə üz tutdu, texniki park ixtisaslı mütəxəssislərdən məhrum oldu. Odur ki, 1958-1961-ci illərdə 20-ci illərin sonu ilə müqaisədə ilk dəfə olaraq kənd təsərrüfatının maşın parkında azalma qeydə alındı.

Nikita Xruşşovun aqrar siyasətində islahatlardan biri də kənd təsərrüfatının sənayeləşdirilməsini təmin edə bilən iri, nəhəng kolxozların yaradılmasıdır. İslahata əsasən 1955-ci ildə ölkədə mövcud olan 83 min kolxoz iri təsərrüfatların yaranmasından 1957-ci ildə 68 min,

1960-cı ildə isə 45 minə düşdü. Liderin bu layihəsi əslində kəndin “sosialist həyat tərzinə” uyğunlaşaraq aqroşəhərlərin salınmasına kömək edən sosial tədbirlərin artmasını nəzərdə tuturdu. Bunun üçün küllü miqdarda kapital qoyuluşu tələb olunurdu ki, bu da kolxozların vəsaitini sərf etdiyi MTS ilə bağlı olaraq mümkünsüz idi. 1958-ci ildən kolxozçuları daha çox ictimai təəsrrüfata cəlb etmək məqsədilə N.Xruşşov onların həyətyanı təsərrüfatlarını azaltdı, şəhər və fəhlə qəsəbələrində mal-qara saxlamağa icazə verilmədi.

1957-ci ildə N.S.Xruşşov “Əhalinin hər bur nəfərinə düşən ət, süd və yağ istehsalına görə Amerikaya çatmaq və onu ötüb keçmək” avantürist şuarını irəli sürdü. Əslində mayın 22-də kolxozçuların yığıncağında səsləndirilən bu şüar sovet tarixinin əvvəlki 30 ili üçün xarakterik olan qorxulu təcrübənin, yəni məsələnin həllinin volüntarist yolla “irəli tullanmaq” metodu isə həyata keçirmək arzusundan uzağa getmədiyi üçün real deyildi. Qısa müddətdə ət istehsalını artırmaq tələbi mal-qaranın kütləvi kəsilməsinə və sayının kəskin azalmasına təkan verdi. Təhlil edilmədən tədbiq olunan bu islahatlar əslində kənd əhalisinin şəhərlərə axınını sürətləndirdi.1960-1964-cu illərdə 7 milyon nəfər kənd əhalisi şəhərlərə axın etdi ki, bunların da 6 milyonu gənclərdən ibarətdir.

Stalinin idarəçiliyindən imtina edən (destalinizatsii) partiyanın rəhbərliyi 50-ci illərdə xalq təsərrüfatının idarə edilməsi sistemini əsaslı olaraq dəyişdirdi.1953-cü ilin martında bir sıra nazirliklər birləşdirildi, onların sayı 51-dən 25-ə düşdü. Ancaq 1954-cü ildə əvvəlki sistem bərpa edilərək onun məsuliyyəti L.Beriyanın üzərinə qoyuldu.

1957-ci ildə N.S.Xruşşovun təşəbbüsü ilə xalq təsərrüfatının idarə edilməsinin mərkəzləşdirilməsini zəiflətməklə nazirliklərin funksiyaları ərazi xalq təsərrüfat şuralarına (sovnarxoz) verildi. Sovnarxozların yaradılması xammalın komplektləşdirilməsi və göndərilməsinə çəkilən xərcin azaldılmasına, eyni ərazidə yerləşən müəssisələr arasında kooperasiyanın güclənməsinə, yerli sənayenin möhkəmlənməsinə kömək etdi.Yerli qapalılığı aradan qaldırmaq məqsədilə 1960-cı ildə RSFSR, Ukrayna və Qazaxıstanda respublika xalq təsərrüfatı şurası təşkil olundu. 1963-cü ildə SSRİ Ali Xalq Təsərrüfat Şurası (AXTŞ) yarandı. AXTS-na birinci ilk illərdə D.F.Ustinov, 1965-ci ildən V.N.Novikov başçılıq etmişdir. Bu tədbirlər idarəçilik aparatının yenidən şişməsinə gətirib çıxardı ki, bu isə nazirliklərin ləğv edilməsi vəzifəsi ilə ziddiyyət təşkil edirdi. Başlıcası islahatın çatışmayan cəhəti ondan ibarət idi ki, üfüqi idarəçilikdən imtina edilməsi müəssisələrin hüququnu genişləndirmədi, onlar ərazi xalq təsərrüfatı şuralarının diqtəsi altına düşdülər.

Ümumiyyətlə, N.S.Xruşşovun iqtisadi islahatların 1953-1958-ci illəri əhatə edən təsirli iqtisadi və sosial mexanizmə malik olan birinci, 1959-1964-cü illəri əhatə edən iqtisadi idarəetmənin Stalin və volüntarist modelin birləşdirən ikinci dövrə bölmək həqiqətə daha yaxındır. Artıq 1958-1959-cu təsərrüfat ilindən başlayaraq tətbiq olunan iqtisadi islahatlar məhz 1940-cı illərin sonu – 1950-ci illərin əvvəllərində ölkədəki mənzərəni xatırladır. Belə ki, dövlət büdcəsi imkanlarını aşan kapital qoyuluşunun və kreditlərin artması, istehsal vasitələri istehsalının, sənayenin kəskin və nəzarətsiz artımı, kadr axıcılığına səbəb olan kənd yerlərindən kütləvi surətdə aşağı səviyyəli işçi qüvvəsinin gəlməsi, iqtisadi artımın sürətinin aşağı düşməsi nəticəsində mal qıtlığının yaranması bu dövrdə müşayiət olunur.

Düzdür, 50-ci illərdə SSRİ-də iqtisadi inkişaf əsasən ekstensiv yəni keyfiyyətcə deyil, kəmiyyətcə artan yolla inkişaf edirdi.Yeni enerji və xammal mənbəyləri ehtiyyatları mənimsənilir, genişmiqyaslı sənaye tikintisi işləri görülürdü. 1950-ci illərin ortalarından Kuybışev (Samara), Stalinqrad (Volqoqrad), Kaxovsk hidroelektrik stansiyaları işə düşdü. 1954-cü ildə dünyada ilk atom elektrik stansiyası Obninsk AES fəaliyyətə başladı. Bunun ardınca, Sibir, Novo-Voronej, Beloyarsk AES-i işə salındı. Bunların nəticəsində 1954-1965-ci illərdə elektrik enerjisi istehsalı ölkədə 3,4 dəfə artdı. Lakin yeni hidroelektrik stansiyaların salınması həm də ciddi iqtisadi və ekoloji itkilərlə müşayiət olunurdu.

Yanacaq sənayesi inkişafı sayəsində Ekibastuz, Kansko-Açinskidə açıq kömür hövzələri yaradıldı. 50-ci illərdə Sovet İttifaqında kömür çıxarılması 2 dəfə, neft istehsalı 3,9, qaz hasilatı 7,8 dəfə artdı. 60-cı illərdən başlayaraq SSRİ kömür əsrindən neft və qaz əsrinə daxil oldu. Yanacaq kompleksinin strukturunun dəyişilməsinin əsası məhz 1956-1961-ci illərdə qo-

yulmuşdur.

1964-cu ildə "Dostluq" ("Drujba") beynəlxalq neft kəmərinin birinci, 1972-ci ildə ikinci, 1981-ci ildə üçüncü növbəsi çəkilmişdir. 5,2 min km uzunluğunda olan kəmər Almetevskdən başlayıb Samara, Bryanskdən keçməklə Mozıra kimi, Belarus, Polşa, Almaniyadan keçməklə Şimal, Ukrayna, Çexiya, Slovakiya, Macarıstandan keçməklə Cənub qolu ayrılır.

1950-1960-cı illərdə ölkədə yaşayış mənzillərinin tikintisi sahəsində nəhəng işlərin əsası qoyuldu. 1954-1957-ci illərdə qəbul edilən qərarlarla vahid tip layihələr əsasında evlərin tikilməsinin nəzərdə tutulması ev tikintisi sənayesinin misilsiz genişlənməsinə gətirib çıxardı. Standart konstruktiv sxemin tədbiqi nəticəsində inşa edilən mənzilin əmək tutumu 3-4 dəfə, tikintinin dəyəri 25 faiz, təhvil vermə müddəti 1,0-1,5 ay aşağı düşdü. 1950-ci ilin sonu-60-cı illərin əvvəllərində SSRİ mənzil tikintisinin sürəti və mənzil sahələrinin istifadəyə verilməsi miqdarına görə bütün iri dövlətləri qabaqlayaraq dünyada birinci yerə çıxdı. 1956-1960-cı illərdə SSRİ əhalisinin 4-də birini əhatə edən 54 mln nəfər aham yeni mənzil almışdır.

Dəmir yol nəqliyyatının strukturu əhəmiyyətli ölçüdə dəyişdi, yeni teplovoz və elektrovozlar parovozları əvəz etdi. Yeni reaktiv TU-104 sərnişin və yük təyyarələri uçmağa başladı. 1957-ci ilin iyununda dünyada birinci Yerətrafı kosmik gəmi Sovet İttifaqında buraxıldı. 1961-ci il aprelin 12-də Y.A.Qaqarin ilk dəfə Yer kürəsi ətrafında kosmik gəminin sükanı arxasında 108 dəqiqə dövrə vurdu.1963-cü ilin iyununda birinci kosmonavt qadın V.V.Tereşkova idarə etdiyi "Vostok-6" kosmik gəmisində 71 saat kosmosda qaldı. Sovet adamının kosmosa uçuşları haqqında xəbərlər dünyanın marağına səbəb oldu.

Sayılan uğurlarla yanaşı, yuxarıda da qeyd etdiyimiz kimi 1950-ci illərin sonlarından başlayaraq SSRİ-də sənayenin inkişafında neqativ meyllər ön plana çıxdı. İstehsalın artım sürəti aşağı düşdü. Əvvəllər olduğu kimi ikinci dərəcəli hesab edilən yüngül sınaye vətəndaşların gündəlik tələbat mallarına olan ehtiyacını ödəyə bilmirdi. Ölkədə istehsal edilən məhsulun texniki səviyyəsi və keyfiyyəti xarici ölkələrlə müqaisədə çox geri qalırdı. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalata ləng tədbiq olunurdu. Bütün bunlar direktiv planlaşdırma əsasında fəaliyyət göstərən mərkəzləşdirilmiş sistemin yarasız iqtisadi mexanizm təcrübəsinin nəticəsi idi.

1959-cu ildə Sov.İKP-nın XXI qurultayı 1959-1965-ci illəri əhatə edən yeddiillik plan tapşırıqlarını təsdiq etdi.Plana əsasən yeddi ildə ağır sənaye məhsulu istehsalı 85, yüngül sənaye 62, kənd təsərrüfatı 70 faiz artmalı idi. Milli gəlirin 70, real əmək haqqının 40 faiz artırılması nəzərdə tutulurdu. Nəticədə SSRİ əhalinin hər birinə düşən məhsul istehsalına görə dünyada birinci yerə çıxamalı idi. Lakin yeddiillik plan direktivləri real həyatdan çox uzaq olduğu üçün 1964-cü ildə onun yerinə yetirilməsinin mümkün olmadığı aşkar oldu. Odur ki, bu uğursuzluğu ört-basdır etmək məqsədilə N.S.Xruşşov 1964-cü ilin yayında səkkizillik planlaşdırmaya keçməyi təklif etdi.

***SSRİ-nin xarici siyasəti.*** İ.V.Stalinin ölümündən sonra SSRİ-nin xarici siyasəti əhəmiyyətli dərəcədə dəyişərək mülayimləşmə xəttinə istiqamət aldı.1953-cü ilin iyulunda Koreyada atəşin dayandırılmasına dair saziş imzalandı.İsraillə 1953-cü ilin fevralından kəsilən diplomatik münasibətlər bərpa olundu. Sovet İttifaqı Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkərək onunla münasibətləri normallaşdırdı.

N.S.Xruşşovun xarici siyasət strategiyası sosialist ölkələri cəbhəsi üçün daha çox müstəqillik, kapitalist dövlətləri ilə dinc yanaşı yaşamağın mümkün olmasını, üçüncü dünya ölkələri nümunəsində isə "sülh cığırı" yaratmağı elan etdi. Bu isə o demək anlamına gəlirdi ki, sovet xarici siyasət doktrinası müdafiə xarakteri almışdır. Ordu və hərbi-dəniz flotunun canlı qüvvə və hərbi texnikasının N.Xruşşovun təşəbbüsü ilə azaldılması bunu təstiq edir.

1953-cü il iyun ayının 17-də ADR-də xalqın sosialist quruluşuna qarşı ilk açıq çıxışları başladı və bu bütün Şərqi Avropa ölkələrin həyəcanlandırdı. Kənd təsərrüfatının kollektivləşdirilməsi ilə bağlı hökumətin tədbirləri, ikiyə bölünmüş ölkənin xarici dövlətlərlə iqtisadi əlaqələrinin zəifləməsi sayəsində əhalinin güzaranının pisləşməsi, fəhlələrin əmək normalarının artırılması hökumət əleyhinə tətil və çıxışları şiddətləndirdi ki, onlarında sayı 100 min nəfərdən çox idi. Belə çıxışlar bütün Şərqi Avropanın sosialist ölkələrində yayılırdı ki, onların

da qarşısı sovet ordu qüvvələri tərəfindən alındı. Gərginliyi azaltmaq məqsədilə 1954-cü ilin yanvarından SSRİ ADR-dən daha təzminat almadı və ona kredit verdi.

AFR-in silahlanması, İtaliya və AFR-in NATO-ya qəbul edilməsi sosialist ölkələrinin özlərinin müdafiə ehtiyaclarını ön plana çıxardı.1955-ci ilin may ayında Bolqarıstan, Macarıstan, Rumıniya, Albaniya, Polşa, ADR, Çexoslovakiya və SSRİ-nin səlahiyyətli nümayəndələri Polşanın paytaxtı Varşavada Avropada sülh və təhlükəsizlik məsələlərinə aid müşavirə keçirdilər. Avropanın 8 sosialist dövləti 1955-ci il mayın 14-də dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzaladılar və Varşava Müqaviləsi Təşkilatını (VMT) yaratdılar. VMT-nın üzvləri beynəlxalq hüququn prinsiplərinə əməl etməyi, sülh və təhlükəsizlik naminə beynəlxalq əməkdaşlıqda iştirak etməyi və hərbi müdaxilə təhlükəsi zamanı məsləhətləşməyi öz öhdələrinə götürdülər. Təşkilatın siyasi Məsləhət Komitəsi, Silahlı qüvvələrin Birləşmiş komandanlığı, onun Qərargahı yaradıldı. 20 il müddətinə imzalanan Müqavilənin 4-cü maddəsinə əsasən təşkilat üzvlərindən hər hansl biri hücuma məruz qalarsa o biri iştirakçılar dərhal ona kömək etməli idi.

1954-cü ilin yayında Xarici İşlər naziri V.Molotovun müqavimətinə baxmayaraq N.S.Xruşşov Yuqoslaviya ilə 1948-ci ildən kəsilən münasibətləri qaydaya salmağa başladı. 1955-ci il mayın 23-dən iyunun 3-dək N.S.Xruşşov, N.A.Bulqanin və A.İ.Mikoyan Yuqoslaviyaya səfər edərkən N.Xruşşov əvvəllər kəsilmiş münasibətlərə görə "səmimi təəssüfünü" ifadə edərək bu hadisənin məsuliyyətini Yuqoslaviya rəhbərliyinə qarşı saxta dəlillər hazırlayan və xalq düşməni kimi Sovet İttifaqında ittiham edilən L.Beriya, V.Abakumov və başqalarının üzərinə yıxdı. İ.B.Tito ilə aparılan danışıqlar müsbət nəticə verdi, iyunun 2-də birgə bəyannamə yayıldı. Bəyannamədə qey edilirdi ki, hərbi bloklar siyasəti beynəlxalq gərginliyi gücləndirir, dinc yanaşı yaşamaq prinsipi isə ictimai-siyasi quruluşlarından asılı olmayaraq bütün dövlətlərin əməkdaşlıq etməsini nəzərdə tutur. Yuqoslaviya əhəmiyyətli iqtisadi kömək almasına baxmayaraq, öz bitərəfliyini qorudu və QİYŞ, VMT-na üzv olmadı. 1956-cı ilin aprelində Avropanın kommunist və fəhlə partiyalarının Məlumat Bürosu öz fəaliyyətini dayandırdı, dünya birliyinin parçalanması xeyli zəiflədi.

50-ci illərin ikinci yarısında N.S.Xruşşovun xarici siyasət sahəsində yeritdiyi mülayimləşmə siyasəti davam edirdi. 1955-ci il mayın 15-də Avstriya ilə Vyanada dövlət müqaviləsi imzalandı. Müqaviləyə əsasən Avstriyanın suverenliyi 1938-ci ilin yanvarın 1-nə olan sərhədlər daxilində bərpa edilir, Avstriya Almaniya ilə iqtisadi və siyasi ittifaq yaratmamağı öz öhdəsinə götürürdü. 1955-ci il dekabrın 31-dək bütün xarici qoşunlar, o cümlədən, sovet əsgərləri Avstriyadan çıxmalı idi. SSRİ, ABŞ, İngiltərə və Fransa 1955-ci il dekabr ayının 6-da Avstriyanın bitərəfliyini tanıdılar.

1955-ci ilin sentyabrında AFR-in kansleri K.Adenauer Sovet İttifaqına rəsmi səfər etdi, ayın 13-də SSRİ ilə AFR arasında diplomatik münasibətlər yaradılması haqqında razılıq əldə edildi. İmzalanmış yekun bəyannaməsində elan edildi ki, SSRİ ilə AFR arasında normal münasibətlərin yaradılması Avropada təhlükəsizlik və əməkdaşlıq məsələlərinin, Almaniyanın birləşməsi probleminin həllinə kömək edəcək. Lakin AFR və ADR-in qarşı-qarşıya duran hərbi bloklara daxil olması vahid alman dövlətinin yaranmasını uzun illər ləngitdi.

Qalib dövlətlər Qərbi Berlinin azad şəhər elan edilməsində razılığa gələ bilmədikdən sonra VMT-nın dövlət rəhbərləri müşavirəsinin təklifi ilə 1961-ci il avqustun 12-dən 13-nə keçən gecə Şərqi və Qərbi Berlin arasında əvvəlcə tikanllı məftil, sonra beton divar çəkildi. "Soyuq müharibə"nin simvolu olan divar 1990-cı il oktyabrın 3-də söküldü.

Sov.İKP-nin XX qurultayından (fevral 1956-cı il) sonra Şərqi Avropanın sosialist ölkələrində stalinizm metodundan imtinaya (destalinizatsii) meyil artdı.1956-cı ilin iyununda Polşanın Poznan şəhərində nümayişlər başladı, onlar azadlıq, kommunist siyasi rejiminin ləğvini, sovet ordusunun Polşadan çıxarılmasını tələb edirdilər. Nümyaiş ordu və təhlükəsizlik qüvvələri tərəfindən dağıdıldı. N.Xruşşov güzəştə gedərək 1945-ci ildən Polşanın müdafiə naziri olan K.K.Rokossovskini geri çağırmağa razı oldu, V.Qomulkanın yeni rəhbər seçildiyi Polşa Varşava Müqaviləsi Təşkilatının üzvlüyündə qaldı.

1956-cı il oktyabrın 23-24-də Macarıstanın paytaxtı Budapeştdə demokratik quruluşun

bərqərar olması, sovet ordularının Macarıstandan çıxarılması, Stalinin davamçısı M.Rakoşinin istefaya göndərdiyi İ.Nadın hökumət başçısı təyin edilməsi tələbləri ilə nümayişlər başladı. Xalqın nümayiş və çıxışları sovet ordu birliklərinin iştirakı ilə macar qoşunları və təhlükəsizlik qüvvələri tərəfindən dağıdıldı. A.İ.Mikoyan və M.A.Suslov Macarıstana gələrək rəhbərliklə danışıqlara başladılar. Nəticədə oktyabrın 27-də Y.Kadr Macarıstan Zəhmətkeşlər Partiyası MK-nın Birinci katibi, İ.Nad hökumətin başçısı oldu. Kompromisin əldə olunduğu və sovet qoşunlarının ölkəni tərk etməyə hazırlaşdığı bir vaxtda çox güman ki, Yaxın Şərqdə müharibənin başlanması ilə əlaqədar olaraq N.S.Xruşşov və ona yaxın olan partiya rəhbərləri fikrini dəyişdirdi, noyabrın 1-də Macarıstana əlavə sovet qoşunları yeridildi. Buna cavab olaraq İ.Nad Macarıstanın VMT-dan çıxaraq bitərəfliyini elan etdi. Noyabrın 4-7-də sovet qoşunları macar üsyançılarının şiddətli müqavimətini qıraraq etiraz çıxışlarını qan içində boğdu. Hökumətin başçısı İ.Nad həbs edilərək güllələndi. Çıxışlar yatırılarkən 2,5 min nəfər macar öldürüldü, 20 min nəfər adam yaralandı. Sovet tərəfinin itkisi 720 nəfər ölü, 1,5 min nəfər yaralı oldu. 200 minə yaxın macar öz vətənindən didərgin düşdü. Macarıstanın işğalı göstərdi ki, Sovet İttifaqı və onun rəhbərliyi Şərqi Avropa ölkələrinin müstəqilliyi ilə barışmaq fikrindən uzaqdırlar. BMT-nin Baş Məclisi sovet işğalını pisləsə də Qərb ölkələri Süveyş kanalı böhranı ilə əlaqədar olaraq heç bir qəti tədbir görə bilmədi.

Misirdə milli-azadlıq hərəkatı gücləndi, kral ölkədən qovuldu və 1953-cü il iyun ayının 18-də monarxiya ləğv edildi, "Azad zabitlər" ittifaqına başçılıq edən C.Nasir Misirin baş naziri, sonra isə prezidenti seçildi. 1956-cı ilin iyununda İngiltərə öz qoşunlarını tamamilə Misirdən çıxardı.1956-cı il iyulun sonunda Misir hökuməti Süveyş kanalı kompaniyasını milliləşdirdi. Kompaniyanın səhmlərinin çoxu İngiltərə və Fransaya məxsus idi ki, onlar da kanalın istismarından ildə 35 milyon funt sterlinq gəlir əldə edir, ancaq Misirə cəmi 1 milyon funt sterlinq pul ödəyirdilər. Odur ki, İngiltərə, Fransa, İsrail və Qərb dövlətləri milliləşdirməyə etiraz edərək Misirə qarşı hərbi müdaxiləyə hazırlaşmağa başladılar. 1956-cı ilin oktyabrın 29-dan 30-a keçən gecə İsrail ordusu Fələstin partizanlarına qarşı mübarizə bəhanəsi ilə Sinay yarımadasında hərbi əməliyyatlara başladı. Oktyabrın 31-də isə İngiltərə və Fransa Misirə qarşı hərbi əməliyyatlara başladı. Əhalinin müqaviməti, müharibə əleyhdarlarının çıxışları, SSRİ və sosialist ölkələrinin mövqeyi müdaxiləçilərin planlarını pozdu. Dekabrın 22-də İngiltərə və Fransa qoşunlarını Misirdən çıxardı. 1957-ci ilin martında İsrail qoşunlarını 1949-cu ildə təsbit olunmuş barışıq xəttinin arxasına çəkməyə məcbur oldu. Misirə qarşı üç dövlətin təcavüzünün başa çıxması nəticəsində SSRİ və Şərqi Avropanın sosialist ölkələrinin Yaxın və Orta Şərq ölkələri ilə əməkdaşlığı artdı.

Sov. İKP-nın XX qurultayından sonra Sovet-Çin münasibətləri böhran vəziyyətinə düşdü. Mao Tszedunun başçılıq etdiyi Çin rəhbərliyi İ.Stalinin tənqid edilməsinə bütün kommunist hərəkatına ziyan vuracağı fikri ilə mənfi münasibət bildirdilər. Onlar eyni zamanda XX qurultayın dinc yanaşı yaşamaq kursuna qarşı çıxaraq belə hesab edirdilər ki, üçüncü dünya müharibəsi nəticəsində imperializm məhv olacaq, sosializm isə güclənəcək. 1960-cı ildə ÇXR-nın rəhbərliyi SSRİ-nin partiya liderlərini təftişçilikdə və dünya proletariatının maraqlarına xəyanətdə təqsirləndirirdilər. Buna cavab olaraq Sovet İttifaqı Çinə göndərdiyi iqtisadi köməyi dayandırdı və sovet mütəxəssislərini geri çağırdı. 1961-ci ildə iqtisadi və elmi-texniki əməkdaşlığa aid Sovet İttifaqı ilə bağlanmış bir çox sazişləri Çin tərəfi ləğv etdi. 1962-ci ildə SSRİ ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 1959-cu ilə nisbətən 60 faiz aşağı düşdü. SSRİ-Çin sərhəddində münaqişələrin sayı artaraq 1963-cü ildə 4 mindən çox olmuşdur.1964-cü ilin iyulunda Çin rəsmi şəkildə SSRİ-yə qarşı ərazi iddiası ilə çıxış edərək iddia etdi ki, Primorye, Xabarovsk diyarı, Saxalin, Baykal gölünədək Şərqi Sibir, Balxaş gölünə kimi Mərkəzi Asiya daxil olmaqla 1,5 milyon kvadrat km ərazi ona qaytarılmalıdır. Sovet-Çin münasibətləri pisləşməkdə davam edirdi.

1957-ci ildən başlayaraq SSRİ-də qitələrarası ballistik raketlərin hazırlanması, ilk peykin buraxılması sovet rəhbərliyi, ilk növbədə N.S.Xruşşovun xarici siyasət xəttini sərtləşdirməsinə şərait yaratdı. Baxmayaraq ki, 1959-cu ildə ilk sovet rəhbəri kimi ABŞ-a səfər edən N.S.Xruşşov tez-tez öz çıxışlarında dinc yanaşı yaşamağın əhəmiyyətindən bəhs edir və

hətta bunun sayəsində onların nəvələrinin kommunizmdə yaşayacaqlarını iddia edirdi. Lakin 1960-cı il mayın 1-də Sverdlovsk (Yekaterinburq) səmasında amerikan U-2 cəsus təyyarəsinin sovet hərbi qüvvələri tərəfindən vurulması SSRİ-ABŞ münasibətlərini kəskinləşdirdi. Təyyarəçi F.Pauers sağ ələ keçdi və sonra sovet kəşfiyyatçısı R.İ.Abellə dəyişdirildi. Sovet-Amerika münasibətləri 1962-ci ilin payızında olan Karib böhranı dövründə daha da kəskinləşdi.

1959-cu ildə Kubada F.Batistanın rejimi devrildi və hakimiyyətə üsyançıların rəhbəri F.Kastro gəldi. Kubaya latin Amerikasında özünün strateji müttəfiqi kimi baxan SSRİ 1962-ci ilin yayında orada gizli şəkildə 42 ədəd orta mənzilli raketlər yerləşdirdi. ABŞ-ın prezidenti C.Kennedi dərhal həmin raketlərin Kubadan çıxarılmasını tələb etdi və Kubanı oktyabrın 22-də dənizdən və havadan mühasirəyə alaraq, onun sahillərinə 85 min dəniz piyadası ilə dolu olan 183 hərbi gəmi göndərdi. SSRİ ilə ABŞ arasında yaranmış hərbi qarşıdurma nüvə müharibəsinə çevrilə bilərdi. 1962-ci il oktyabrın 24-də Karib hövzəsindəki vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirə edilərək tərəflərə problemin həlli məqsədilə dinc danışıqlara başlamağı məsləhət bildilər.1962-ci il noyabrın 1-də əldə edilən razılığa əsasən ABŞ hökuməti 1962-ci il noyabrın 21-də Kubanın hərbi mühasirəsini ləğv etdi, SSRİ isə öz raketlərini Kubadan çıxartdı, böhran siyasi-diplomatik yollarla həll edildi. Ancaq SSRİ siyasi cəhətdən məğlub oldu, belə ki, onun gizli şəraitdə raketləri yerləşdirməsi avantüra idisə, onların sökülməsi Sovet İttifaqının zəifliyi demək idi.

Karib hövzəsindəki böhran nüvə müharibəsi təhlükəsini bir daha gündəmə gətirdi. 1963-cü il iyulun 15-dən 25-dək Moskvada SSRİ, ABŞ və İngiltərə arasında havada, kosmosda və suda nüvə sınaqlarının dayandırılması haqqında aparılan danışıqlar avqustun 5-də müqavilə imzalanması ilə başa çatdı. Giriş və 5 maddədən ibarət olan bu müqavilə 1963-cü il oktyabrın 10-da qüvvəyə mindi.

1964-cü ildə N.S.Xruşşovun həyata keçirdiyi islahatlar siyasəti başa çatdı. Bu müddət ərzində onun islahatlarının əleyhinə olanların sayı durmadan artdı. Mərkəzi partiya dövlət aparatında N.S.Xruşşova qarşı yaranan müxalifət möhkəmləndi. Xalq təsərrüfatı sahəsində ölçülüb-biçilmədən, tez-tələsik tədbiq edilən yenidənqurmalar yerlərdə ona qarşı olanların sayının artmasına səbəb oldu. Çinlə münasibətlərin kəsilməsi, amerikan kəşfiyyat təyyarəsinin vurulması N.S.Xruşşovun ünvanına deyilən tənqidlərin xarici siyasət xəttinə aid edilməsi demək idi. Onun ordunu tərxis etmək planı Baş Qərargahın ciddi narazılığına şərait yaratdı. N.S.Xruşşovun dövründəki dəyişikliklər əslində sovet cəmiyyətinin islah edilməsi yolunda atılan ilk əhəmiyyətli cəhd hesab edilə bilər. N.S.Xruşşov başda olmaqla ölkə rəhbərliyi Stalin irsindən imtina edərək cəmiyyətin sosial və siyasi quruluşunu dəyişdirməyə ancaq qismən nail ola bildi. İqtisadi vəziyyətin pisləşməsi və xarici siyasət xəttinin uğursuzluqları 1964-cü ildə N.S.Xruşşova qarşı Sov.İKP-nin üst qatlarında qəsd hazırlanması ilə bitdi.Burada aparıcı rol Sov.İKP MK Rəyasət Heyətinin üzvləri L.İ.Brejnev, A.N.Şelepin, N.V.Podqornı və RSFSR Nazirlər sovetinin sədri D.S.Polyanski, DTK-nın sədri B.Y.Semiçastnı oynadı. A.Şelepin 1962-ci ildə yaradılan partiya dövlət nəzarəti komitəsinin sədri kimi DTK, DİN və orduya nəzarət edirdi. N.P.Podqornı və L.Brejnev isə Sov.İKP MK-nın katibləri idi.1964-cü ilin oktyabrın 13-də N.S.Xruşşov Pitsundadan istirahətdən qayıtdıqdan sonra MK-nin təcili Rəyasət Heyətinin iclası çağırıldı. N.S.Xruşşov MK Rəyasət Heyətinin iclasına dəvət edilərək onun vəzifələrə təyin etdiyi şəxslər tərəfindən kəskin tənqid edildi və istefası tələb olundu. Özünün dayaqları hesab etdiyi adamların ona qarşı birləşdiyini görən N.S.Xruşşov təslim oldu və 1964-cü il oktyabrın 15-də qəzetlərdə belə bir məlumat dərc edildi ki, MK-nın Plenumu N.S.Xruşşovun xahişini nəzərə alaraq yaşının çox olması və səhhəti ilə bağlı onu Sov.İKP MK-nin Birinci katibi, Rəyasət Heyətinin üzvü, SSRİ Nazirlər Sovetinin Sədri vəzifəsindən azad etmişdir. L.İ.Brejnev Sov.İKP MK-nin Birinci katibi, A.N.Kosıqin SSRİ Nazirlər Sovetinin sədri seçildi. N.V.Podqornı isə 1965-ci il dekabrın 9-da A.İ.Mikoyanı SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində əvəz etdi. Beləliklə, Nikita Serqeyeviç Xruşşovun partiya və dövlət rəhbərliyi dövrü başa çatdı.

## SSRİ 1960-cı illərin ikinci yarısı – 80-ci illərin ortalarında

***İctimai-siyasi həyat.*** N.S.Xruşşovun istefası ilə onun başladığı ictimai-siyasi həyatın liberallaşması prosesinin dəyişiklikləri dayandı. N.S.Xruşşovun istefasının təşəbbüskarı və təşkilatçılardan biri olan L.İ.Brejnev Sov.İKP MK-nın Birinci katibi (1966-cı ildən Baş Katibi) seçildi. Brejnev Leonid İliç (1906-1982) Yekaterinoslav quberniyasının Kamensk qəsəbəsində fəhlə ailəsində doğulmuşdur. 1935-ci ildə Metallurgiya İnstitutunu bitirmiş, 1939-cu ildən partiya işinə keçmişdir. Böyük Vətən müharibəsində siyasi işçi kimi iştirak edərək general-mayor rütbəsində 4-cü Ukrayna cəbhəsinin siyasi idarəsinin rəisi olmuşdur. Qazaxıstan KP MK-nın birinci katibi kimi xam torpaqların mənimsənilməsində iştirak etmiş, 1960-cı ildən SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçilmişdir. N.S.Xruşşovun istefasının təşkilatçılarından biri olan L.İ.Brejnev 1964-cü ilin oktyabrın 14-də Sov.İKP MK-nın Birinci katibi seçildi. Yeni birinci katib yumşaq, təvazökar, protokol qaydalarına ciddi əməl edən partiya rəhbəri kimi tarixə düşmüşdür. Xüsusilə, ömrünün son illərində təntənəyə, təltiflərə, tərifə alüdə olan L.Brejnevin dörd dəfə Sovet İttifaqı Qəhrəmanı, Sovet İttifaqı Marşalı, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, Müdafiə Şurasının sədri adları və vəzifələrinə sahib olmuşdur. Onun ünvanına yağan tərif və təltifləri uzun müddət sovet cəmiyyətində isteza və rişxəndlə qarşılanmışdır. Eyni zamanda çox ehtiyatlı və mühafizəkar bir şəxs olan L.İ.Brejnev cəmiyyətdə sabitliyin təmin edilməsinə xüsusi önəm verirdi.

SSRİ Nazirlər Sovetinin sədri təyin edilən A.Kosiqin, Xarkov vilayət partiya komitəsinin sabiq katibi, Mərkəzi Komitənin kadr məsələsi üzrə katibi olan N.Podqornı, Rəyasət Heyətinin tərkibinə daxil edilən P.Şelest, MK-nın katibi, Partiya Nəzarət komitəsinin sədri, Nazirlər Sovetinin sədr müavini N.Şelepin və Rəyasət Heyətinin üzvü, ideologiya sahəsində məsul şəxs M.Suslov yeni hakimiyyətin nüvəsini təşkil edirdilər. 1964-cü ildəki noyabr Plenumu N.S.Xruşşovun dövründə sənaye və kənd partiya təşkilatlarına bölünən orqanları bütün səviyyələrdə, o cümlədən sovet, həmkarlar, komsomol təşkilatlarının vahid bir təşkilatlarda birləşmələrini qərara aldı. 1964-cü ilin dekabrından başlayaraq diyar, vilayət və rayon komitələri bərpa edildi. 1965-ci ildə xalq təsərrüfatı şuraları ləğv olundu və iqtisadiyyatın sahələr üzrə idarə edilməsi prinsipi bərpa edildi. 1966-cı ildə Sov. İKP-nin XXIII qurultayında N.S.Xruşşovun şəxsi təşəbbüsü ilə partiyanın nizamnaməsinə daxil edilən seçkili partiya orqanları rəhbərlərinin vaxtaşırı məcburi dəyişdirilməsi qaydası nizamnamədən çıxarıldı. İ.Stalin dövrünün qorxusu və N.Xruşşov dövrünün saysız-hesabsız yenilikləri ilə ümidsizliyə qapanan partiya aparatı yeni hakimiyyətin partnomenklaturanı şəriksiz hakimiyyətə qovuşdurmasını sevinclə qarşıladı. L.İ.Brejnev XXIII qurultayda Baş Katib seçildi, Mərkəzi Komitənin Rəyasət Heyəti yenidən Siyasi Büro adlandırıldı. Mərkəzi Komitənin üzvlərinin sayı 1966-cı ildəki 300 nəfərdən 10 il ərzində 40 faiz artaraq 420 nəfərə çatdı. Şəxsi sədaqətin və başda duran rəhbərə danışıqsız tabe olmaq vərdişlərinin işçinin qabiliyyətindən ön plana keçdiyi 70-ci illərdə özünəməxsus “sovet feodalizmin” xatırladan partiya ailəçiliyi yüksək həddə çatmışdır. Buna qarşı İ.Satlin dövlət terroru, N.S.Xruşşov isə qanuni vasitələrlə uzun müddət mübarizə aparmışdır.

Ölkənin yeni rəhbərləri Sov.İKP MK-nın Birinci katibi L.Brejnev ilə SSRİ Nazirlər Sovetinin sədri A.Kosiqin arasında iqtisadi strategiyanın müəyyən edilməsində fikir ayrılığı mövcud idi. L.Brejnev ilk olaraq kənd təsərrüfatı, ağır sənaye, müdafiənin, 1972-ci ildən isə “Sibirin mənimsənilməsinin” tərəfdarı idi. Hökumətin başçısı A.Kosiqin vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinin əsası olan yüngül sənayeni ön plana çəkirdi. Kosiqin Aleksey Nikolayeviç (1904-1980) Peterburqda fəhlə ailəsində doğulmuşdur. Vətəndaş müharibəsi illərində Qızıl Ordu sıralarında xidmət etmiş, Leninqrad Toxuculuq İnstitutunu bitirmişdir. 1940-1946-cı illərdə SSRİ XKS sədrinin müavini kimi müəssisələrin şərqə köçürülməsi və orada ölkənin sənaye bazasının yaradılması işinə rəhbərlik etmişdir. Maliyyə, yüngül və ərzaq sənayesi nazirləri, SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1964-1980-ci illərdə SSRİ Nazirlər Sovetinin sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuşdur.

İqtisadi srategiyanın müəyyən edilməsində olduğu kimi siyasi məsələlərin həlli yolunda

da partiya rəhbərliyi arasında fikir ayrılığı və çəkişmələr qalırdı. Siyasi məsələlərin həllinə mühafizəkar münasibətin tərəfdarları L.Brejnev və özünü partiyalılıq prinsipinə söykənən təmiz sovet ideologiyasının qoruyucusu kimi təqdim edən M.Suslov idi. Onların belə mühafizəkar mövqeyi 70-ci illərin ikinci yarısında daha da güclənərək A.Kosiqinin texnokrat istiqamətli tədbirlərinin məhdudlaşdırılmasına, bəzi partiya liderlərinin mövqelərinin zəiflədilməsinə yönəlmişdir. Partiya və dövlətin üst qatlarında yerləşən rəhbər kadrların iddia və vəzifə çəkişmələri 1965-ci ilin sonuna doğru N.Xruşşovun istefaya göndərilməsinin təşkilatçılarından olan N.Podqornı və A.Şelepinin mövqeyinin xeyli zəifləməsi ilə müşayiət olundu. A.Şelepin Mərkəzi Həmkarlar Şurasının sədri təyin edilərək əslində dövlət hakimiyyətindən uzaqlaşdırılmış oldu. N.Podqornı isə fəxri kürsü hesab edilən SSRİ Ali Sovetinin sədri seçildi. A.N.Şelepinin dostu, onu DTK-nin başçısı vəzifəsində əvəz etmiş V.S.Semiçastnı 1967-ci ilin martında Stalinin qızı S.Alliluyevanın daimi yaşamaq məqsədi ilə Qərbdə qaldığı səbəbi ilə vəzifəsini itirdi.

1966-cı ilin aprelində Sov.İKP-nin XXIII qurultayında Baş katib seçildikdən sonra L.İ.Brejnev müharibəyə kimi siyasi fəaliyyətə başladığı Dnepropetrovskidən olan kadrları öz ətrafına yığmağa başladı.1966-cı ildə N.Podqornını Mərkəzi Komitənin katibi vəzifəsində "dnepropetrovski qruplaşmasına" daxil olan A.Kirilenko əvəz etdi. L.Brejnevə yaxın olan K.U.Çernenko, V.V.Şerbitski, D.A.Kunayev, N.A.Şelokov mühüm vəzifələrə təyin edildi.

Ağır sənaye, hərbi sənaye kompleksi və müdafiənin inkişafına üstünlük verən L.Brejnevin həyata keçirdiyi tədbirləri hərbçilər müdafiə edirdi. 1966-cı ilin əvvəllərində hərbçilər elan edilən azalan hərbi xərclərin yenidən baxılmasına nail oldular. Müdafiə sənayesinə rəhbərlik edən general D.F.Ustinov Mərkəzi Komitə Siyasi Bürosunun üzv namizədliyinə və Katibliyin tərkibinə daxil edildi.1967-ci ilin martında Müdafiə Naziri P.Y.Malinovski vəfat etdikdən sonra bu vəzifəyə hərbçilərin təkidi ilə A.A.Qreçko təyin olundu.Yalnız onun ölümündən sonra 1976-cı ilin aprelində D.Ustinov Müdafiə Naziri təyin edildi.1976-cı il mayın 7-də L.İ.Brejnev Sovet İttifaqı Marşalı oldu.Əslində bu partiya liderinin hərbçilərin rəhbəri ilə işbirliyinin nəticəsi idi. İki gün keçdikdən sonra Dnepropetrovsk əhalisi öz həmyerlilərinin əzəmətli heykəlinin açılışında iştirak etdilər.

70-ci illərdə tamamilə aydın oldu ki, 1961-ci ildə Sov.İKP Proqramında elan edilən kommunizm quruculuğu konsepsiyası həqiqətdən çox uzaq olub daha çox mifə bənzəyir. Odur ki, sovet rəhbərliyi kommunizm quruculuğu və dövlətin ölüb getməsi yerinə marksizm-leninizm klassiklərinin əsərlərində belə olmayan inkişaf etmiş sosializm konsepsiyası irəli sürdü. 1966-cı ilin dekabrın 21-də F.M.Burlatski "Pravda" qəzetində "İnkişaf etmiş sosializm cəmiyyəti quruculuguna dair" məqalə çap etdirmişdir. 1967-ci ildə Oktyabr inqilabının 50 illyi ilə əlaqədar nitqində L.İ.Brejnev elan etdi ki, SSRİ-də artıq inkişaf etmiş sosializm cəmiyyəti qurulmuşdur. Bu yeni anlayış nəzəriyyə ilə həyat arasındakı uçurumu xeyli azaldaraq uzun bir tarixi mərhələni əhatə etməklə kommunizm quruculuğun, dövlətin ölüb getməsin sonu bəlli olmayan uzaq gələcəyə istiqamətləndirirdi. 1977-ci il oktyabrın 7-də qəbul edilən Sovet Sosialist Respublikalar İttifaqının Konstitusiyası (Əsas Qanunu) SSRİ-də inkişaf etmiş sosializmin qurulduğun təsbit etdi.1977-ci il L.İ.Brejnev Konstitusiyası girişdən, 9 bölmədən, 21 fəsildən, 174 maddədən ibarətdir. Müqayisə üçün qeyd edək ki, 1936-cı il Konstitusiyasının yalnız 13 fəsli, 146 maddəsi var idi.

Yeni sovet Konstitusiyası elan etdi ki, SSRİ artıq proletariat diktaturası dövləti olmayıb "fəhlələrin, kəndlilərin və ziyalıların, ölkənin bütün millət və xalqlarının zəhmətkeşlərinin iradəsini və mənafeyini ifadə edən sosialist ümumxalq dövlətidir". Sovet dövlətinin ümumxalq xarakteri Sovetlərin yeni xalq deputları sovetləri adında öz əksini tapmışdır. Bütün hakimiyyətin SSRİ-nin siyasi əsasını təşkil edən xalq deputatları sovetlərinə məxsus olması təsbit edilsə də real olaraq bütün səviyyələrdə sovetlərin əslində heç bir hakimiyyət yox idi, onlar yalnız partiya orqanlarının göstəriş və qərarlarını yerinə yetirirdilər. Seçki bülleteninə "kommunistlər və bitərəflərin sarsılmaz blokundan" namizədin vahid soyadının daxil edilməsinin sovetlərə seçkilərin fiksiya olunduğunu göstərirdi. Konstitusiyanın 6-cı maddəsində inkişaf etmiş sosializm cəmiyyətinin siyasi sisteminin özəyi olan Kommunist partiyasının rəh-

bər və istiqamətverici rolu rəsmi olaraq qanunvericilik yolu ilə təsbit edilmişdir. Bu rəsmi təsbit əslində ictimai həyatın bütün sahələrində hakim rol oynayan partiya aparatının mövqeyinin formal olaraq möhkəmlənməsi idi.

N.S.Xruşşovun istefasından sonra şəxsiyyətə pərəstiş siyasətinin tənqidi demək olar ki, başa çatdı. Həbs düşərgələri və repressiyaya məruz qalan şəxslər haqqında dərc edilən məqalələr mətbuat səhifələrindən yoxa çıxdı. Rəsmi tənqid sovet tarixinə qara ləkə yaxanlara qarşı sipər aldı. Eyni zamanda mətbuatda İ.V.Stalinin Böyük Vətən müharibəsi dövründə Ali Baş komandan kimi xidmətlərindən bəhs edən məqalələr dərc edilirdi.Hətta Sov.İKP-nin XXIII qurultayı ərəfəsində İ.Stalinə rəsmi olaraq bəraət verilməsi nəzərdə tutulduğu halda rəhbərlik açıq olaraq XX qurultayın qərarlarına yenidən baxılmasına yol verməyərək bu məsələnin tədricən səs-küysüz həll etməyə üstünlük verdi. Çox güman ki, İ.V.Stalinin bəraəti ilə bağlı görkəmli elm və mədəniyyət xadimlərinin Mərkəzi Komitəyə yazdıqları etiraz məktubları və ziyalıların bu məsələyə mənfi münasibəti partiya və dövlət rəhbərliyini belə bir addım atmağa sövq etmişdir. 1969-cu ildə İ.V.Stalinin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq XX qurultayın kursunun dəyişdirilməsinə Sov.İKP-nin ali hakimiyyət nümayəndələri Q.İ.Voronov, K.T.Mazurov, P.M.Maşerov, D.S.Polyanski, A.N.Şelepin yenidən cəhd etsə də ziyalıların və xarici kommunist partiyaları liderlərinin kəskin etirazı buna mane oldu. Sovet rəhbərliyi "Pravda" qəzetində İ.Stalinin fəaliyyəti haqqında ehtiyatla, ölçülü bir məlumat dərc etdirməklə kifayətləndi. Rəsmi senzura G.K.Jukovun xatirələrindən ibarət olan kitabından İ.Stalin haqqındakı tənqidi fikirləri çıxardı. Tədricən İ.Stalinin obrazı kino ekranlarında, xüsusilə Böyük Vətən müharibəsindən bəhs edən filmlərdə göründü.

L.İ.Brejnevin başçılıq etdiyi partiya elitasının İ.V.Stalinin bəraitinə cəhd etməsi A.T.Tvardovskinin başında durduğu "Yeni dünya" ("Novıy mir") jurnalının təmsil etdiyi cəmiyyətin liberal əhval-ruhiyyəli hissəsinin müqaviməti ilə üzləşdi. "Yeni dünya" jurnalının tənqidçi yazarları V.Y.Lakşin, İ.T.Vinoqradov, A.İ.Kondratoviç ədəbiyyatda Stalin ənənələrinə qarşı barışmaz mübarizə aparırdılar. "Yeni dünya" jurnalının əsas opponentləri ehkamçı stalinçi mövqeyi müdafiə edən "Oktyabr" və "Molodaya qvardiya" jurnalları idi.1969-cu ildə "Oktyabr" jurnalının baş redaktoru V.A.Koçetov "Sən nə istəyirsən" (Çeqo je tı xoçeş") romanın çap etdirdi ki, bu da cəmiyyətdə ziyalılara həcv kimi qəbul edildi. "Pravda" qəzeti "Yeni dünya" jurnalın düzgün olmayan ideya mövqeyinə, "Oktyabr" jurnalın çap edilən əsərlərin keyfiyyətinə aşağı tələbkarlığa görə tənqid etdi. "Molodaya qvardiya" jurnalı 60-cı illərin ortalarından milli əsaslara söykənən mövqedən çıxış edirdi. Onun müəllifləri M.Lobanov, S.Semanov, V.Çalmaev Rusiyanın özünəməxsus inkişafını önə çəkərək mədəniyyətin amerikalılaşdırılmasına etiraz edir, Rusiyanı qəti olaraq Qərbə, ziyalıları isə xalqa qarşı qoyaraq açıq millətçiliyə meyl edirdilər.

60-cı illərin axırlarında A.T.Tvardovskinin "Gizli Nəşr"də, sonra Qərbdə çap etdirdiyi "Yaddaş haqlılığı" ("Po pravu pamyati") şəxsiyyətə pərəstişin dirçəldilməsinə qarşı yönəldilmiş antistalinçi poeması "Yeni dünya" jurnalı üzərinə hücumları gücləndirdi. Jurnalı kosmopolitizmdə təqsirləndirən Yazıçılar İttifaqının katibliyi A.Tvardovskinin bir sıra əməkdaşın redaksiya heyətindən uzaqlaşdırdı və baş redaktor da istefa verməyə məcbur oldu. Artıq əvvəlki "Yeni dünya" mövcud deyildi. Bu bir daha təstiq etdi ki, inzibati vasitələrlə öz qələbəsin təmin edən partiya aparatı və onun rəhbərləri cəmiyyətdə açıq müzakirə aparmaq qabiliyyətindən çox uzaqdırlar. Odur ki, ictimai problemlərin həllinin müzakirələri rəsmi orqanlardan fərqli olaraq "Gizli Nəşr"lərə keçdi.

SSRİ-də partiya və dövlətin müəyyən etdiyi rəsmi mədəniyyətin mühafizəkar xarakteri artdıqca rəsmi olmayan, alternativ mədəniyyət geniş miqyas aldı. Daha çox əhəmiyyət kəsb edən bədii ədəbiyyat əsərləri "Gizli Nəşr"lər vasitəsilə çap olunurdu. A.Q.Bitovun, F.A.İskəndərin, Vikt.V.Yerofeyevin əsərləri yalnız Qərbdə çap edilirdi. V.P.Aksenov, A.D.Sinyavski, V.N.Voynoviç, S.D.Dovlatov və b. yazıçılar xarici ölkələrə mühacirətə getməyə məcbur oldular.

B.Ş.Okucava, Y.İ.Vizbor və V.S.Vısotskinin müəllif mahnıları milyonları coşduraraq əsl şəhər folkloruna çevrilmişdir. V.Vısotskinin azadolmayan hissləri tərənnüm edən mahnıla-

rı cəmiyyətin müxtəlif təbəqələri arasında eyni dərəcədə şöhrət qazanmışdır. Ziyalılar arasında təqiblər nəticəsində Yazıçılar İttifaqı və Kinomatoqrafçılar İttifaqının üzvlüyündən azad edilən və xaricə mühacirətə getməyə məcbur olan A.A.Qaliçin bədii yaradıcılığı geniş şöhrət qazanmışdır. Liberal ziyalıların hakimiyyətlə olan əlaqələrinin gündən-günə pisləşməsi onların başqa cür düşünənlər hərəkatını müdafiə etməsinə səbəb oldu.

Hakimiyyətin yeritdiyi rəsmi siyasətə qarşı öz etirazlarını açıq və mərdliklə bildirən dissident hərəkatı meydana gəldi. 1968-ci il avqustun 25-də Qızıl meydanda sovet qoşunlarının Çexoslovakiyaya müdaxiləsinə etiraz əlaməti olaraq səkkiz nəfər, o cümlədən tələbə T.Baeva, linqvist K.Babitski, filoloq L.Boqoraz, şair V.Delone, fəhlə V.Dremlüq, fizik P.Litvinov, sənətşünas V.Faynberq və şairə N.Qorbanevskaya aksiya təşkil etdilər. Onların hamısı həbs edilərək həbs düşərgələrinə, sürgün və ya məcburi psixi müalicəxanaya göndərildi.

Yeni hakimiyyətin baş ideoloqu rolunu icra edən M.A.Suslov ilk gündən N.S.Xruşşov dövrünün mədəni mülayimləşmə mərhələsinə qarşı olduğunu açıq bildirdi. 1965-ci ildə yazıçılar A.D.Sinyavski "Məhkəmə gedir" ("Sud idyot"), "Lyubimov", Y.M.Daniel "Danışır Moskva" ("Qovorit Moskva"), "Bağışlanma" ("İskuplenie") adlı totalitazmin soaial və psixoloji mahiyyətindən bəhs edən əsərlərin xaricdə və şair V.Y.Tarsisin "Sfinks" "Gizli Nəşr" jurnalında çap etdirdikləri üçün həbs edildilər. "Sovet dövlətini və ictimai quruluşunu ləkələdikləri" üçün A.Sinyavski yeddi, Y.Daniel beş il azadlıqdan məhrum edildilər. Bu XX qurultaydan sonra SSRİ-də keçirilən birinci açıq siyasi məhkəmə prosessi kimi tarixdə öz yerini aldı.1966-cı ildə Sov.İKP-nin XXIII qurultayının ünvanına görkəmli mədəniyyət xadimləri K.İ.Çukovski, İ.Q.Erenburq, V.B.Şklovski, P.Q.Antokolski, V.A.Kaverin və b. imzası ilə yazıçılar A.Sinyavski və Y.Danielin müdafiəsi məqsədilə məktubla müraciət etdilər. Eyni zamanda yaradıcı ziyalıların bir çoxu hakim partiyanın kursunu müdafiə edirdi. Onlar arasında L.S.Sobolev, S.P.Antonov, K.A.Fedin, N.S.Tixonov, K.M.Simonov, A.A.Surkov, S.V.Mixalkov və b.var idi. 1968-ci ilin aprelindən dissident hərəkatı iki-üç aydan bir gizli surətdə çap etdirdiyi "Cari hadisələrin xronikası" ("Xroniki tekuşiy sobıtiy") nəşrini buraxdı ki, burada da hakimiyyətin azadlıq üzərinə hücumları öz əksini tapırdı.

1960-cı illərin axırlarından dissident cərəyanları "Demokratik hərəkatda" birləşərək üç ideologiya istiqaməti müəyyən etdi. Bunlar öz hərəkat proqramlarına uyğun olaraq Roe və Jores Medvedevin təmsil etdikləri "əsl marksizm-leninizm", A.Saxarovun liberalizm və A.Soljenitsinin müdafiə etdiyi "xristian ideologiyası" istiqamətləridir. Birinci proqramın ideyası ondan ibarətdir ki, İ.Stalin marksizm-leninizm ideologiyasını təhrif etdiyi üçün onun köklərinə qayıtmaqla cəmiyyəti sağlamlaşdırmaq mümkündür. İkinci proqram tədricən qərb tipli demokratiyaya ictimai mülkiyyəti qorumaq şərtilə keçməyi nəzərdə tuturdu. A.Soljenitsinin müdafiə etdiyi üçüncü proqram xristian əxlaqı dəyərini cəmiyyətin həyatının əsası kimi irəli sürərək Slavyanofillər kimi Rusiyanın özünəməxsus ənənəsini önə çəkirdi. Xüsusilə iki görkəmli tarixi şəxsiyyət A.Soljenitsin və A.Saxarov dissident hərəkatının simvolları kimi öz ölkələrində təcrid edilməklərinə baxmayaraq bütün dünyada şöhrət qazanırdılar. 1968-ci ildə Qərbdə A.İ.Soljenitsinin "Dairədə birinci" ("V kruqe pervom") romanı dərc edildi ki, müəllif öz həbsinin son illərini keçirdiyi Moskva altındakı Baş Düşərgə İdarəsi sisteminə daxil olan elmi institut və konstruktor bürolarında çalışan məhbusların həyatının bir hissəsindən bəhs edir. Buna cavab olaraq hakimiyyəti təmsil edənlər onu Yazıçılar İttifaqının sıralarından xaric etdilər. 1970-ci ildə A.İ.Soljenitsin ədəbiyyat üzrə Nobel mükafatına layiq görüldü. 1973-cü ildə yazıçının Qərbdə "Arxipelaq QULAQ" romanının birinci cildi çapdan çıxdı. 1974-cü ilin fevralında A.Soljenitsin dövlətə xəyanət maddəsilə sovet vətəndaşlığından məhrum edilərək SSRİ-dən sürgün edildi.

1970-ci ildə Sovet İttifaqında görkəmli fizik və riyaziyyatçı alim, hidrogen bombasının yaradıcılarından biri A.D.Saxarov və məhşur riyaziyyatçı İ.R.Şafareviçin iştirakı ilə İnsan hüquqlarının müdafiə Komitəsi yaradıldı. 1973-cü ildə "Beynəlxalq əfv" təşkilatının rus bölməsi meydana gəldi. Onun üzvləri hakimiyyət orqanlarının təqibinə məruz qalan fərqli düşünənlər haqqında məlumat toplayır, onlara hüquqi və maddi yardım edir, onların fəaliyyətinə dair məlumatları beynəlxalq mərkəzlərə ötürürdülər. Xüsusilə hakimiyyəti orduya da

sirayət edən fərqli düşünənlərin fəaliyyəti bərk narahat etdi. 1969-cu ildə Baltik flotu zabitlərinin yaratdığı "Demokratik hüquqlar uğrunda mübarizə ittifaqı" darmadağın edildi. 1975-ci ildə Baltik flotunun "Storojevoy" gəmisində üsyan başladı, heyət xalqı mövcud rejimə qarşı çıxış etməyə çağırdı. Gəmi havadan hücuma məruz qaldı, səbəbkarlar güllələndi. Təqib, təzyiq və həbslərə baxmayaraq hüquq müdafiəçiləri hərəkatı artmaqda davam edirdi. Onun önəmli liderlərindən biri məhz akademik A.D.Saxarov idi. 1975-ci ildə ona hüquq müdafiəsi fəaliyyətinə görə Nobel sülh mükafatı təqdim edildi. Buna cavab kimi sovet hakimiyyəti mətbuat səhifələrində akademikə qarşı ittiham dolu məqalələr çap edilməsini təşkil etdi. 1980-ci ildə isə A.Saxarov xaricilərin gedə bilmədiyi Qorki şəhərinə sürgün edildi.

1975-ci ildə SSRİ-Helsinki Yekun Aktına qol çəkdi ki, bu bir tərəfdən Avropanın müharibədən sonrakı sərhədlərinin təsdiq edildiyi üçün sovet diplomatiyasının uğuru idi, digər bir tərəfdən isə Sovet İttifaqı insan hüququna hörmət etməyi öz öhdəsinə götürdüyü üçün açıq repressiyalar artıq mümkün deyildir. Yekun aktının humanitar maddələrinin pozulmasına dair məlumat toplamaq məqsədilə Y.F.Orlovun rəhbərliyi altında sovet hüquq müdafiəçiləri Moskva Helsinki qrupunu yaratdılar. MHQ dissident hərəkatının başqa qrupları ilə sıx əməkdaşlıq edərək 1982-ci ilə kimi fəaliyyət göstərdi. Hüquq müdafiəçiləri hərəkatının fəal üzvlərinin sayı çox deyildi. 1975-ci ildə "siyasi ziyankar əməlinə" görə 20 min nəfərə yaxın adam DTK-nin "profilaktik tədbirlərinə" məruz qalmışdır. Ancaq "Gizli Nəşr" və xarici verlişlər nəticəsində onların fəaliyyəti ölkədə geniş əks-səda doğururdu. Hüquq müdafiəçiləri mənəvi azadlıq axtaran intellektual elita ilə qarşılıqlı əlaqə saxlayırdı.

1966-1988-ci illərdə "SSRİ vətəndaşı" yüksək adını ləkələdiyi, SSRİ dövlətinin nüfuzu və təhlükəsizliyinə zərər verdiyi üçün 100 nəfərə kimi adam, o cümlədən M.S.Voslenski (1976), P.Q.Qriqorenko (1978), V.P.Aksenov (1980), V.N.Voynoviç (1986) vətəndaşlıqdan məhrum edilmişdir.

L.İ.Brejnev və onun yaxın ətrafı sovet cəmiyyətində, hətta hakimiyyət aparatında müxalifətin meydana gəlməsini görməməzlikdən gələrək ölkədəki vəziyyət və onun perspektivləri haqqında açıq müzakirə açmağı qət etmədilər.

***Ölkənin sosial-iqtisadi vəziyyəti.*** 60-cı illərin ortalarına doğru Sovet İttifaqında əhalinin ərzaq məhsulları, yüngül sənayeni kənd təsərrüfatı xammalı ilə təmin edilməsi sahəsində ağır vəziyyət yaranmışdır. Kənd təsərrüfatı sahəsində ölçülüb-biçilmədən tədbiq olunan eksperimentlər 1953-1958-ci illərdə əldə edilən nailiyyətləri heçə endirdi. Heyvandarlıq sahəsi ağır zərbə aldı, SSRİ xaricdən taxıl almağa məcbur oldu.Yeni hakimiyyətin qarşısında duran əsas vəzifə iqtisadi islahatları davam etdirmək idi.

1965-ci ilin martında keçirilən Sov.İKP MK-nın Plenumunda L.İ.Brejnev aqrar siyasətin yeni hədəflərin elan etdi. Sovxoz və kolxozların məhsulunun satınalma qiyməti artırıldı, dövlətə məhsul tədarükünün sabit planı müəyyən edildi, kolxozların pul gəlirlərindən tutulan verginin miqdarı azaldıldı. Buğda və arpanın əkin sahələri yenidən artrıldı. Kolxozlarda əməkgünü yerinə sabit pul məvacibi təyin edildi ki, bu da kəndlilərin həyat səviyyəsini yüksəltdi. Şəxsi həyətyanı təsərrüfata qoyulan qadağa ləğv olundu. Ət, süd, yumurta, yunun 25-dən 30 faizinə kimi verən xüsusi bölməyə diqqət artırıldı. Ev mal-qarasının sayına qoyulan məhdudiyyət ləğv edildi, kolxozçulara öz təsərrüfatlarını abadlaşdırmaq məqsədilə banklardan kredit götürməyə icazə verildi. L.İ.Brejnevin təşəbbüsü ilə ilk dəfə olaraq kənd təsərrüfatına böyük miqdarda kapital qoyuluşu müəyyən edildi ki, bu da bütün investisiyanın beşdə bir hissəsindən çox idi. Bunun sayəsində aqrar bölmə ilk dəfə xalq təsərrüfatı sahələri arasında önə çıxaraq hətta yüngül sənayeni belə ötüb keçdi. Baxmayaraq ki, L.Brejnevin dövründə xalq təsərrüfatı üçün ayrılan investisiyanın 20 faizi aqrar bölmənin payına düşürdü (ABŞ-da bu 7-8 faizə çatırdı) xaricdən ərzaq, xüsusilə də taxıl idxalı getdikcə artırdı. Şəhərlərin kənd təsərrüfatı malları ilə təmin edilməsində çətinliklər yarandığı üçün ilk vəzifə olaraq bu məhsulların emal edilib saxlanılması irəli sürüldü. Doğrudan da, taxıl, kartof, tərəvəz, meyvənin 20-30 faizi kolxoz-sovxoz sahələrindən istehlakçıya çatana kimi zay olurdu. Məhz bu itkinin qarşısını almaq məqsədilə nəhəng ərzaq proqramı işlənib hazırlansa da Brejnev epoxasının başqa kənd təsərrüfatı proqramları kimi bu da səmərəsiz oldu.

30-cu illərdə, stalinizmin dövründə kolxozçulara kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olmaq qadağan edildiyi üçün bu işi yerinə yetirən müəssisələr böyük şəhərlərdə tikildiyinə görə tez xarab olan məhsul müəssisəyə çatdıralana kimi ya yollarda, ya anbarlarda və yaxud da sahələrdə zay olub gedirdi. Odur ki, 1977-1978-ci illərdən başlayaraq kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan ixtisaslaşdırılmış "istehsalat birlikləri" yaradıldı. Onlar kolxozları, sovxozları, yeyinti sənayesi müəssisələrini və imkan daxilində elmi-tədqiqat laboratoriyalarını birləşdirirdi. 1982-ci ildə aqrar bölmədəki ağır vəziyyət daha qəti addım kimi aqrosənaye komplekslərinin (ASK) yaradılmasına gətirib çıxardı. Eyni ərazidə yerləşən kolxozlar, sovxozlar, kənd təsərrüfatının ehtiyaclarını təmin edən maşınqurașdırma və kimya istehsalı müəssisələri, kənd təsərrüfatı üçün xammal emal edən müəssisələr regional ASK-də birləşdilər. Bu yenidənqurma əslində kənd təsərrüfatının inteqrasiyasını təmin edərək işlərin daha operativ həllinə şərait yaratmalı idi. Lakin mövcud olduğu illər ərzində aqrosənaye kompleksləri hər şeydən əvvəl inzibati birlik olaraq qaldı və həyatın tələblərinə cavab verən iqtisadi təşkilata çevrilə bilmədi. İslahat nəticəsində yeni yaranan inzibati strukturlar kənd təsərrüfatın idarə etmə sistemini bürokratik aparata çevirdi. Bunun qarşısını almaq və kolxozçuların öz əməyinə marağı artırmaq məqsədilə kollektiv müqavilə əsasında işləyən briqadalar yaradıldı. Briqada üzvləri onlara ayrılmış sahədə əkilən bütün mədəni bitkilərin becərilməsinə cavabdeh olub, əldə etdikləri nəticəyə görə əmək haqqı alırdılar. Briqada metodu aqrosənaye rəhbərliyi tərəfindən kolxoz qruculuğunda ailə təsərrüfatının bərpası qorxusu ilə tənqidi qarşılandı. Xüsusilə 30-cu illərin kolxoz qruculuğu təcrübəsi hər iki tərəfin bir-birinə etimad göstərməməsi ilə diqqəti cəlb edir. L.Brejnev rəhbərliyinin aqrar bölmənin inkişafına maliyyə dəstəyinin artırmasına baxmayaraq kənddəki başlıca daxili ziddiyyət hesab edilən kolxozçunun torpağa yadlaşmasının qarşısını ala bilmədi. Bəhs edilən dövrdə aqrar siyasət yalnız xərclərin artması və ayrılan vəsaitin israf edilməsi ilə xarakterizə edilirdi.

Ölkənin kənd təsərrüfatı ağır vəziyyətdə qalmaqda davam edir və belə çətinliklər getdikcə dərinləşirdi. SSRİ hər il ABŞ, Kanada, Argentinadan taxıl alırdı.Ölkənin çox rayonlarında ət və süd məhsulları çatışmırdı, tərəvəz, yarma hətta çörək belə fasilələrlə verilirdi. Ərzaq məhsullarının bir ələ buraxılması norması talon sistemi ilə müəyyən olundu. Moskvadan çox da uzaq olmayan əyalətlərdə yaşayan əhali mütəmadi olaraq paytaxta ərzaq almaq üçün "kolbasa elektrik qatarları" ilə gəlirdilər.

1982-ci ilin may ayında Sov.İKP MK-nın Plenumunun əsas məqsədi on il ərzində ərzaq bolluğu yaratmaq olan ərzaq Proqramın qəbul etdi. Bu məqsədə iki yolla çatmaq planlaşdırılır ki, bu da aqrosənayenin inteqarsiyasının gücləndirilməsi və şəxsi təsərrüfatların inkişaf etdirilməsindən ibarət idi. Ərzaq proqramın həyata keçirmək məqsədilə beş kənd təsərrüfatı nazirliyi Dövlətaqrosənaye mərkəzində birləşdi, yerlərdə isə vilayət və rayon aqrosənaye birlikləri (RASB) yaradıldı. Faktiki olaraq külli miqdarda maliyyə vəsaitinə nəzarət edən yeni bir bürokratik mərkəz meydana gəldi. Digər bir tərəfdən kolxozçuların şəxsi təsərrüfatlarının inkişaf etdirilməsi real olaraq kolxoz sədrləri və RASB rəhbərlərinin müqavimətinə rast gəldi. Belə ki, şəxsi təsərrüfatla yalnız əsas iş vaxtı başa çatdıqdan sonra məşğul olmaq olardı. Əslində ərzaq proqramı ölü doğulmuş uşaq təsiri bağışlayan sənəddən başqa bir şey deyildi, çünki kənd təsərrüfatı məhsullarının artırılmasını təmin edə bilmədi.

Xalq təsərrüfatının sənaye sahəsindəki islahatlar SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosiqinin adı ilə bağlıdır. 1965-ci ildən onun təşəbbüsü ilə başlanan islahatın əsas qayəsi müəssisələrə iqtisadi müstəqillik verilməsidir. Təsərrüfat hesabına keçildi. Bu isə o demək idi ki, müəssisələr öz xərcini ödəmə, özünümaliyyələşdirmə və özünüidarəetmə prinsipi əsasında təsərrüfat hesabına keçirdilər. Belə ki, müəssisələr qazandığı gəlirin müəyyən hissəsin büdcəyə ödədikdən sonra yerdə qalan vəsait onun sərəncamına keçirdi. Müəssisələr qazandıqları gəlir əsasında istehsalın inkişafı fondu, mədəni-məişət obyektlərinin tikintisi fondu, maddi həvəsləndirmə fondu yaratdılar. Qəbul edilən tədbirlərin məqsədi müəssisələrin və onların əmək kollektivlərinin plan tapşırıqlarının yerinə yetirilməsində maraq prinsipini artırmaq, insan, maddi və maliyyə ehtiyatlarından daha səmərəli istifadə edərək məhsulun keyfiyyətini yüksəltməyə nail olmaqdan ibarət idi.

Sovet İttifaqında islahata kimi müəssisələrin əsas göstəricisi istehsal edilən məhsulun ümumi həcmi hesab olunduğu üçün, məhsulun maya dəyəri yuxarı olur, az tələb edilən, aşağı keyfiyyətli məhsul buraxılırdı. İslahat nəticəsində məhsulun ümumi həcmi yerinə ona tələbatın olması, gəlir gətirməsi, çəkilən xərci çıxarması, qoyulan pul vəsaitinin dəyərinin artırması önə çıxdı. Planlaşdırma daha da təkmilləşdirilərək çəkilən xərci çıxara bilməyən sahə və istehsalın müdafiəsinə yönəldildi.

1966-cı ilin yanvarında ilk dəfə ölkədə 43 müəssisə yeni-təsərrüfat hesabına keçdi. 1966-cı ilin martında olan Sov.İKP-nin XXIII qurultayında xalq təsərrüfatının idarə edilməsinin inzibati metodlarının iqtisadi vasitələrlə əvəz edilməsi kursu elan edildi. Növbəti 1966-1970-ci illərdəki səkkizinci beşillik planda müharibədən sonrakı dövrdə birinci dəfə xalq təsərrüfatının "A" bölməsinə kapital qoyuluşu azaldıldı, "B" bölməsinə isə kapital qoyuluşu 4,8 faizdən 5,2 faizə qalxdı.

Səkkizinci beşilliyin ilk illərində islahatlar məhsul istehsalının artmasına səbəb oldu. Yeni təsərrüfat hesabı ilə işləyən müəssisələr 15 faizə çatdı ki, onlar da ümumi məhsulun 37 faizini istehsal edirdi. 1968-ci ildən başlayaraq topdan satınalma qiymətinin qaydaya salınması sayəsində sənaye sahələri gəlirlə işləyirdi. Düzdü əmək məhsuldarlığının artması üzrə plan tapşırıqları yerinə yetirilməsə də sənaye məhsulu istehsalının inkişaf sürəti xeyli artdı. Səkkizinci beşilliyin sonunda ölkənin 49 min müəssisənin 41 mini yeni təsərrüfat hesabı metodu ilə işləyirdi ki, onlar da sənaye məhsulunun 93 faizini istehsal edirdi. SSRİ-də 2 min yeni sənaye müəssisəsi işə salındı. Ümumiyyətlə, 1960-70-ci illər geniş sənaye tikintiləri ilə müşayiət olunur. Krasnoyarsk HES, Qərbi-Sibir və Karaqanda metallurgiya kombinatları, Tümen neft-qaz kompleksi, Tolyattidə VAZ, Naberejnı Çelnıdə KamAZ zavodları, Volqadonda Atommaş tikilib istifadəyə verildi. 1967-ci ildə dünyada ən yüksəklikdən biri hesab edilən Ostankino tele-radio verlişləri mərkəzi fəaliyyətə başladı. Sibir və Uzaq Şərqin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə 1974-cu ildə hələ Böyük Vətən müharibəsi ərəfəsində tikilməsinə cəhd edilən nəhəng tikililərdən biri Baykal-Amur (BAM) magistral yolun tikintisi təzələndi. 3 min km-dən çox uzunluğu olan BAM-ın tikintisi 1984-cü ildə başa çatdı. Bu yol iqtisadi məqsədlərdən daha çox hərbi-strateji önəm daşıyırdı.Çinin sərhəd boyu ərazilərinin yaxınlığından keçən bu magistral Transsibir yoluna əvəzləyici kimi inşa edilirdi. Külli miqdarda vəsait sərf edilərək inşa edilən BAM əslində iqtisadi nöqteyi-nəzərdən özünü doğrultmadı.

1960-cı illərdə Sovet İttifaqı kömürdən neft-qaz mərhələsinə daxil oldu. 1968-ci ildən başlayaraq ölkənin yanacaq-energetika bazasında balans dəyişikliyi baş verərək neft birinci yerə çıxdı. Ölkənin ayrı-ayrı rayonlarında təbii qaz əsas yanacaq oldu. Neft və qazın önə keçməsi ölkə təsərrüfatına böyük iqtisadi üstünlük qazandırdı, çünkü kömür emalındakı əmək məhsuldarlığı neft və qaza nisbətən 5 və 10 dəfə aşağı idi. 1969-cu ildə Sovet İttifaqı qaz ehtiyatına görə ABŞ-ı ötüb keçdi. 1983-cü ildə isə SSRİ dünyada qaz çıxarılmasına görə birinci yerə çıxdı. 70-ci illərin əvvəllərində SSRİ yeganə ölkə idi ki, yanacaq-energetika bazası ilə özünün xalq təsərrüfatının inkişafını tam təmin edirdi. Əgər 1960-cı ildə ölkədə çıxarılan neft və qaz SSRİ-nin Avropa hissəsinin payına düşürdüsə, 80-ci illərin ortalarında ölkə neftinin üçdə ikisi, qazın isə 60 faizindən çoxu Qərbi Sibirin payına düşürdü. 1960-1985-ci illərdə SSRİ-nin neft və qaz ixracatı 16,2-dən 54,4 faizə çatdı.1973-cü ildə dünya bazarında neft bahalaşdıqdan sonra 1975-1985-ci illərdə ölkə neft ixracından 180 milyard dollar qazandı. 1970-ci ildə 60 min km-dən çox qaz kəmərləri çəkilərək qaz mədənləri arasında əlaqə yaradılması başa çatdı. Ölkədə yanacaq sənayesi sürətlə inkişaf etdiyi üçün bütün iqtisadiyyat təbiət faktorundan asılı olmağa başladı. Bu isə 1976-1985-ci illərdə yanacaq-xammal sahəsində vəziyyətin pisləşməsi ilə bağlı olaraq ümumən iqtisadi inkişafı ləngitdi.1984-cü ildə neft çıxarılması ilk dəfə azaldı.1980-ci illərin ortalarında dünyada neftin qiymətinin aşağı düşməsi ölkə büdcəsinə daxil olan "neftdollarlarının" azalmasına gətirib çıxardı. Bu isə on birinci beşillikdə (1981-1985-ci illər) milli gəlirin aşağı düşməsinə və sovet iqtisadiyyatının ağır zərbə almasına şərait yaratdı, plan tapşırıqları heç bir sahə üzrə yerinə yetirilmədi.

Bir-birini əvəz edən islahatlara baxmayaraq SSRİ-nin iqtisadiyyatında meydana gələn

böhran haqqında 1983-cü ildə akademik T.İ.Zaslavskaya "Novosibir məruzəsində" Akademiyanın qapalı yığıncağında, sonra isə partiya müşavirəsində məlumat vermişdi. T.Zaslavskaya və Novosibirsk iqtisadiyyat və sənaye istehsalının təşkili institunun nəşr etdirdiyi "Eko" jurnalı əməkdaşlarının fikrinə görə ölkədəki böhranın başlıca səbəbi mövcud sistemin insan ehtiyatlarından və cəmiyyətin intellektual potensialından səmərəli istifadə etməyə qabil olmaması idi. Belə ki, mövcud sistem İ.Stalinin ölümündən sonra islahatlara məruz qalsa da əslində 30-cu illərdə yaranmış iş metodundan heç də fərqli deyildi. Son dərəcə mərkəzləşdirmə, direktiv planlaşdırma ilə bərabər azad bazar qiymətlərinin olmaması, əmək adamlarının maddi maraq prinsipinin təmin edilməsinə mərkəzdən nəzarət edilməsi, istehsal, xidmət, ticarətdə əhalinin bütün fərdi əmək fəaliyyətinin məhdudlaşdırılması və ya qadağan edilməsi bu sistemin səciyyəvi xüsusiyyətləri idi. Başqa sözlə, zəhmət adamları yalnız ictimai bölmənin fəaliyyətinə arxalana bilərdilər. Hətta səmərə belə verən hər hansı bir şəxsi təşəbbüs leqal olmayan kölgə iqtisadiyyatına aid edilirdi. Nəzəri cəhətdən hər bir əmək adamının təşəbbüskarlığı alqışlansa da onların müəssisələrin idarə edilməsində iştirakı müəssisənin özü tərəfindən məhdudlaşdırılırdı. Nümunəvi işçilər ən yaxşı halda əlavə əmək haqqları alırdılar ki, bu da çox zaman real vəziyyətə uyğun gəlmirdi. Maddi maraq prinsipinə mane olan başqa bir səbəb mütəmadi müxtəlif çeşidli mal qıtlığı idi ki, əmanət kassalarında əhalinin külli miqdarda pul vəsaiti yığıldığı halda onların tələbatını ödəmək üçün istehlak malları çatışmırdı. 1980-ci illərin əvvəllərində Sovet ittifaqının çox rayonlarında aqrar məhsulların bölüşdürülməsinin kartoçka sistemi tədbiq edildi. Ticarət rəflərindən birinci dərəcəli ehtiyac duyulan mallar yoxa çıxdı.

1966-1970-ci illərdəki səkkizinci, 1971-1975-ci illərdəki doqquzuncu, 1976-1980-ci illərdəki onuncu və 1981-1985-ci illərdəki on birinci beşilliklər ərzində SSRİ-nin iqtisadi və sosial inkişaf göstəricilərinin aşağı düşməsi ölkə xalq təsərrüfatının ağır vəziyyətinn sözə ehtiyacı olmayan rəqəmləridir. Belə ki, milli gəlir 1966-1970-ci illərdə 7,2, 1971-1975-ci illərdə 5,1, 1976-1980-ci illərdə 3,8 1981-1985-ci illərdə 3,1, sənaye məhsulu istehsalı müvafiq olaraq 8,5; 7,4; 4,4; 3,4;, kənd təsərrüfatı məhsulu istehsalı 3,9; 2,5; 1,7; 1,1, ictimai əməyin məhsuldarlığı 6,8; 4,5; 3,3; 3,1, əhalinin hər nəfərinə düşən real gəlir 5,9; 4,4 ; 3,4; 2,1 faiz təşkil etmişdir.

Faktlar təstiq edir ki, 70-80-ci illərin hüdudlarında SSRİ iqtisadiyyatı "durğunluq" vəziyyətindən böhrana daxil olmuşdur. Bunun isə səbəbləri çoxşaxəli idi. Hər şeydən əvvəl müəssisələrin yeni texnikanı mənimsəməsi, əmək məhsuldarlığını artırılması və məhsulun keyfiyyətini yaxşılaşdırılması üçün marağı təmin edilmədi. Mövcud idarəetmə sistemi daxilində müəssisələrin plan tapşırıqları ümumi istehsalın artım həcminin 5-8 faizini nəzərdə tuturdu. Plan tapşırıqlarının yerinə yetirilməməsi inzibati və təsərrüfat cəza tədbirləri olaraq rəhbərlərə töhmət verilməsi, müəssisənin sərəncamında sosial ehtiyaclar üçün saxlanılan vəsaitin azaldılması müəyyən edilirdi. Odur ki, bir çox müəssisə rəhbəri istehsalın inkişafını azaldaraq planı yerinə yetirməyə əlavə ehtiyat saxlayırdı. Buraxılan məhsulun kağız üzərində saxta rəqəmlərlə artıq göstərilməsi geniş miqyas almışdır. Bir çox məhsulun çatışmaması, rəqabətin olmaması məhsulun keyfiyyətini yaxşılaşdırmağa və onun çeşidlərini artırmağa maraq oyatmırdı. Bu təcrübə həm istehlakçıya, həm də təsərrüfatın fəaliyyətinə ziyan vururdu. Məsələn, zavodlar kolxoz və sovxozların tələb etdiyi kiçik mexanizm vasitələri yerinə bahalı ağır traktor və kombaynlar istehsal edirdi.

Əmək məhsuldarlığının artmasını təmin edən yeni texnikanın tətbiqi yuxarıdan müəyyən olunan əmək haqqının artmasına deyil, hazır məhsula qoyulan qiymətin aşağı salınmasına səbəb olurdu ki, bu da sıravi işçilərə sərf etmirdi. Bundan əlavə mövcud əmək haqqı sisteminə əsasən yeni texnikaya qulluq edən mühəndis, operator, proqramçılar fiziki əmək işçilərindən az əmək haqqı alırdılar. Təbii olaraq onlar yeni peşələrini mənimsəməkdə maraqlı deyildilər.

İşçi qüvvəsindən çox halda səmərəli istifadə edilmirdi. Yüksək intellektual səviyyəli işçilər, tələbələr tez-tez kolxoz və sovxozların mövsümi tədarük işlərinə, tərəvəzin yığılmasına cəlb edirilirdi. Ölkənin ali təhsil sistemində hazırlanan kadrlar istehsalatın tələbatına cavab vermədiyi üçün məzunlar öz ixtisası üzrə iş tapa bilmirdilər. Çox halda mühəndis-

texniki kadrlar öz diplomlarını gizlədərək müəssisələrdə fəhlə kimi işə düzəlirdilər.

Dövlət büdcəsinin 10 faizə kimi böyük bir hissəsi gündən-günə şişən idarəçilik aparatının saxlanılmasına sərf edirdi. 1980-ci illərin ortalarına doğru onlar təqribən əmək qabiliyyətli əhalinin yeddidə bir hissəsini təşkil edərək 18 milyon nəfərə çatırdı. Keçmişdən miras qalan və gündən-günə artan ölkə problemlərinin həlli dünyadakı real inkişafı nəzərə almaqla onlara yeni yanaşma tələb edirdi ki, L.İ.Brejnev və onun əhatəsi buna hazır deyildir.

Həqiqətən, 1965-1985-ci illərdə sovet cəmiyyəti dərin dəyişikliyə məruz qaldı. 1939-cu ildən 1980-ci ilə qədər şəhər əhalisi 56-dan 180 milyon nəfərə çatdı. 1979-cu ildəki siyahıyaalma məlumatına əsasən ölkənin şəhər əhalisi 62 faiz təşkil edirdi. Beləliklə, Sovet İttifaqında şəhərləşmiş cəmiyyət formalaşdı. Ölkənin kənd əhalisi 12 faizə düşdü. SSRİ-nin slavyan olmayan əhalisi, xüsusilə müsəlmanlar daha çox artdı. Məsələn, ölkənin müsəlman əhalisi 1959-cu ildəki 22,5 milyon nəfərdən (ümumi əhalinin 10,7 %-i) artaraq 1979-cu ildə 42 milyon nəfərə (ümumi əhalinin 16%-i) çatdı.

Sənayenin, ticarət və xidmət sahələrinin, dövlət aparatının inkişafı mütəxəssislərə tələbatı artırırdı. 1980-ci ilin əvvəllərində 40 faizə qədər şəhər əhalisinin ali təhsili var idi. 80-ci illərin ortalarına doğru SSRİ-də 5 milyon tələbə ali məktəblərdə yarım milyon nəfərlik müəllim ordusundan dərs alırdı. Beləliklə, dünən sosial elita hesab edilən ziyalılar bu gün bir çox sosial qrup və kateqoriyalara, mühəndis, inzibati-idarəçi heyət, alim, artist, müəllim, siyasətçi və s. bölünmüşdür. Düzdür, 80-ci illərin ortalarına doğru SSRİ əhalisinin 70 faizi qədərinin ali və orta ixtisas təhsili olsa da mütəxəssislərin hazırlıq səviyyəsi cəmiyyətin tələblərinə cavab vermirdi.

Ölkə ehtiyatlarının böyük bir hissəsinin ağır sənayeyə, xüsusilə hərbi-sənaye kompleksi sahələrinə yönəldilməsi istehlak sahəsində vəsaitin çatışmazlığına gətirib çıxardı. Pul qiymətdən düşürdü. Baxmayaraq ki, rəqəmlərlə ifadə etdikdə 1960-cı ildə fəhlə və qulluqçuların orta əmək haqqı 80,6, 1970-ci ildə 122, 1980-ci ildə isə 168,9 manat olmuşdur. 1967-ci ildə ölkə beş günlük iş həftəsinə keçdi, məzuniyyət günlərinin sayı artdı. L.Brejnev dövründə bərabərləşdirici əmək haqqı ödənilməsi tətbiq edildi. Artıq 1985-ci ildə mühəndis –texniki işçilərlə fəhlələrin əmək haqqı arasındakı fərq minimuma endirildi. Əhalinin əmanət kassalarındakı pul vəsaiti artaraq 1960-cı ildəki 10,9 milyarddan 1980-ci ildə 156,9 milyard manata çıxdı. Lakin praktik olaraq əhalinin əmanətləri əmtəə ilə təmin edilmədiyi üçün heç bir dəyəri yox idi. 80-ci illərin əvvəllərində Sovet dövləti milli gəlirin yalnız dörd faizini səhiyyə sahəsinə, yeddi faizini isə təhsilə sərf edirdi ki, bu da inkişaf etmiş ölkələrdə ki, 10-12 faizlik göstəricidən geri qalırdı. Məhz bu səbəbdən ölkədə uşaq ölümü, alkoqolizm artır, orta yaş həddi aşağı düşürdü. Bütün bunlar onu göstərir ki, SSRİ 80-ci illərin ortalarına doğru kəskin sosial-iqtisadi böhranla üz-üzə idi.

***SSRİ beynəlxalq aləmdə.*** 1960-cı illərin ortaları "soyuq müharibənin" davamı kimi səciyyələndirilə bilər. İki fövqəl dövlət SSRİ və ABŞ-ın hərbi potensialı tədricən bərabərləşdi. Hərbi-strateji paritet yarandı. 1964-cü ilin oktyabrında sovet dövlətinin sükanı arxasına keçən yeni hakimiyyət xarici siyasət sahəsində üç prioritet vəzifə qarşıya qoydu. Birincisi, sosialist cəbhəsinin dağılması təhlükəsinin qarşısını alaraq onların siyasi, hərbi və iqtisadi birliyini daha da möhkəmlətmək; ikincisi, Şərqlə və Qərb arasında münasibətləri "dinc yanaşı yaşamaq" prinsipi əsasında normallaşdırmaq; üçüncüsü, bütün dünyada "tərəqqipərvər" hərəkat və rejimləri müdafiə edən siyasət yeritmək. L.İ.Brejnev və onun ətrafının təmsil etdiyi yeni hakimiyyət 1956-cı ildəki Macarıstan hadisələrinin nəticələrini aradan qaldıraraq Şərqi Avropada vəziyyəti sabitləşdirdi. Siyasi vəziyyət Sov.İKP-nın nəzarəti altında qalmaqla mədəniyyət sahəsindəki azadlıqlar və Y.Kadrın iqtisadi siyasəti Macarıstanda xalqın həyat səviyyəsinin yüksəlməsinə, daxili vəziyyətin normallaşmasına səbəb oldu.

Bunun əksinə olaraq müharibə ərəfəsində Şərqi Avropanın ən inkişaf etmiş dövləti olan Çexoslovakiyada sərt siyasi rejim, iqtisadi çətinliklər ölkədə müqavimətin dirçəlməsinə, hətta partiyaya belə sirayət etməsinə gətirib çıxardı. 1967-ci ilin iyununda yazıçı-kommunistlər açıq surətdə Yazıçılar qurultayının partiya rəhbərliyinə qarşı çıxış etdilər. Payıza doğru kütləvi tələbə tətillərindən sonra hakimiyyətə qarşı müxalifət daha da gücləndi.1968-ci ilin

yanvarında A.Novotnı partiya rəhbərliyini Aleksandr Dubçekə (1921-1992) verməyə məcbur oldu. Yeni partiya rəhbərliyi öz mövqeyini möhkəmlətmək məqsədilə bir sıra islahatlar, o cümlədən müəssisələrə iqtisadi müstəqillik vermək, demokratik siyasi sistem bərqərar etmək, senzuranı aradan qaldırmaq, çoxpartiyalılıq əsasında seçki keçirmək tədbirlərini həyata keçirdi. A.Dubçekin başçılıq etdiyi Çexoslovakiya partiya rəhbərliyi demokratik dəyərlərə söykənən "insan sifətli sosializm" qurmaq niyyətində idi. Bu dəyişikliklər dövrü azadlıq və demokratiyanın ölkənin ab-havasını yumşaltdığı "Praqa baharı" adını aldı. Mosvada A.Dubçekin yeritdiyi siyasətə kommunist partiyasının inhisarının itməsi və Varşava müqaviləsi Təşkilatının dağılması təhlükəsi prizmasından baxmağa başladılar. Rumıniya istisna olmaqla digər sosialist ölkələrinin rəhbərləri də məsələyə daha sərt müdaxilə tələb edirdi. 1968-ci il avqustun 3-də Bratislavada L.Brejnev, A.Dubçek, O.Çernikin görüşü də heç bir nəticə vermədi, Çexoslovakiya kommunistləri islahatdan əl çəkmək niyyətində olmadıqlarını nümayiş etdirdilər. 1968-ci il avqustun 20-dən 21-nə keçən gecə uzun tərəddüddən sonra sovet rəhbərliyi ADR-in partiya liderlərinin təzyiqi ilə Varşava Müqaviləsi Təşkilatının yarım milyonluq ordusunu "qardaş köməyi" adı altında ÇSSR-na yeritdi. SSRİ ilə yanaşı Bolqarıstan, Macarıstan, Polşa və Almaniya Demokratik Respublikasının orduları Çexoslovakiya müdaxiləsində iştirak etdilər. Çexoslovakiya KP MK-nın birinci katibi A.Dubçek, hökumətin sədri O.Çernik və başqaları sovet təhlükəsizlik orqanları nümayəndələri tərəfindən həbs edilərək Moskvaya aparıldı. Moskvaya deportasiya edilən ölkə rəhbərliyi ilə avqustun 23-dən 26-na kimi aparılan danışıqlar nəticəsində vəziyyətin normallaşdırılmasından bəhs edən basqı altında protokol imzalandı. 1969-cu il aprelin 17-də A.Dubçeki ÇKP-nın Birinci katibi vəzifəsində Q.Qusak əvəz etdi ki, o da noyabr ayından avqusta qədərki dövrdə həyata keçirilən islahatları tənqid edən qətnamə qəbul edilməsinə nail oldu.

Çexoslovakiya Sovet Sosialist Respublikasına müdaxilə edilməsi nümayiş etdirdi ki, yeni sovet rəhbərliyi yalnız Şərqi Avropa ölkələrinin məhdud müstəqillik prinsipindən çıxış edir. Odur ki, Qərbdə "Brejnev doktorinası" deyilən anlayış meydana gəldi. Onun mahiyyəti isə belə idi ki, hər bir sosialist dövlətinin müstəqilliyi sosializmin möhkəmləndirilməsi məqsədinə tabe tutulmalıdır. Hər bir ölkədə sosialist quruluşunun müdafiəsi bütün sosialist dövlətlərinin ümumi işidir. Bu isə praktik olaraq SSRİ-nin bütün Şərqi Avropanın sosialist dövlətlərinin daxili işinə qarışmağa şərait yaradırdı.

Çexoslovakiyaya müdaxilə nəticəsində Şərqi Avropa xalqları SSRİ-yə milli azadlığı boğan təcavüzkar bir dövlət kimi baxmağa başladı. SSRİ-nin müdaxiləni müdafiə etməyən Yuqoslaviya, Albaniya, Rumıniya, Çin kimi sosialist ölkələri ilə münasibətləri kəskinləşdi. SSRİ-nin maraqları da ciddi zərbə aldı, Sovet sistemi isə daxilən çat verərək iki onillik ərzində dağılmağa məhkum oldu.

1970-ci ildə qiymətlərin bahalaşması ilə əlaqədar olaraq Polşanın Baltik sahilboyu şəhərlərinin fəhlələri kütləvi tətilə başladı. Toqquşmalarda 44 nəfər öldü, 1164 nəfər isə yaralandı. 1971-ci ilin martında qiymətlər aşağı salındıqdan sonra vəziyyət nisbətən sabitləşdi. V.Qomulka PBFP MK-nın birinci katibi vəzifəsindən azad edilərək onun yerinə Edvard Gerek (1919-2001) təyin olundu. 70-ci illərin ortalarından başlayaraq Polşada iqtisadi çətinliklər və ölkənin xarici borcları kəskin artdı.1976-cı ilin iyununda hökumət vəziyyətdən çıxmaq üçün əmək haqqının qismən artırılması müqabilində ərzaq mallarının qiymətini kəskin artırdı. Bu isə fəhlələrin müqaviməti ilə üzləşdi. Təşəbbüs müxalifətin əlinə keçdi. 1980-ci ilin noyabrında müxalifəti təmsil edən müstəqil "Həmrəylik" ("Solidarnost") təşkilatı rəsmi qeydiyyatdan keçdi ki, onun da üzvlərinin sayı 8 milyon nəfərə çatırdı. 1981-ci ildə general Voytsex Yaruzelski PBFP MK-nın birinci katibi, Nazirlər Sovetinin sədri, Milli müdafiə naziri oldu. O, 1981-ci il dekabrın 13-də ölkədə hərbi vəziyyət elan edərək müvəqqəti də olsa açıq siyasi qarşıdurmanın qarşısını aldı.

SSRİ ilə Çin Xalq Respublikası arasında münasibətlər gərgin olaraq qalırdı.1969-cu ilin yazında sərhəd çayı Ussuri rayonunun Damansk adasında sovet və çin hərbi hissələrinin toqquşması oldu. Damansk adasının statusu iki dövlət arasında dəqiq müəyyən edilmədiyi üçün hər iki tərəf adaya sahib olmaq iddiası ilə münaqişəyə başladılar və bu az qala sovet-çin

müharibəsinə səbəb olurdu. İlk zərbəni sərhədçilər öz üzərinə götürdükdən sonra sovet tərəfi ağır "Qrad" qurğularını işə saldı və düşmən geri çəkilməyə məcbur oldu. Bu hadisədən sonra Damansk adasında Çinlə sərhəddin möhkəmləndirilməsi tədbirləri görüldü, yeni hərbi dairə təşkil edildi. Çin Xalq Respublikası isə bu hadisədən sonra ABŞ və onun müttəfiqləri ilə münasibətlərini normallaşdırdı ki, bu da Sovet İttifaqının əlavə narahatlığı demək idi. Yalnız 1976-cı ildə Mao Tszedun və 1982-ci ildə L.Brejnev öldükdən sonra Sovet-Çin münasibətlərin normallaşdırmaq mümkün oldu.

1960-cı illərin ikinci yarısında SSRİ iki, Vyetnam və yaxın şərq münaqişəsində iştirak etdi.1965-ci ildə ABŞ Cənubi Vyetnama birləşdirmək məqsədilə Şimalı təmsil edən Vyetnam Demokratik Respublikasına qarşı müharibəyə başladı. Uzun və qanlı müharibə yalnız 1973-cü ildə başa çatdı.1975-ci ildə Vyetnam Şimali Vyetnam kommunistlərinin hakimiyyəti altında birləşdi. SSRİ müharibə illərində Vyetnam Demokratik Respublikasının partizanlarına silah, hərbi ləvazimat, tibbi avadanlıq, hərbi mütəxəssislərlə köməklik göstərdi ki, bu da SSRİ ABŞ münasibətlərini xeyli kəskinləşdirdi.

1967-ci ilin iyun ayında "altıgünlük müharibə" nəticəsində İsrail, Misir, Suriya, İordaniya ordularını məğlub edərək Sinay yarımadasını, Qolan təpələrini, İordan çayının sağ sahilini və Şərqi Yerusəlimi işğal etdi. SSRİ ərəb dövlətlərini müdafiə edərək İsraillə diplomatik münasibətləri kəsdi.1973-cü ildə SSRİ-nin köməyi ilə Misir və Suriya itirdiyi əraziləri qaytarmağa cəhd etsə də buna nail olmadı. Məğlubiyyətdən sonra Misir prezidenti A.Sadat 1979-cu ildə Kemp-Devid sülh müqaviləsini İsraillə imzaladı. Bundan sonra SSRİ-nin Yaxın Şərqdə müttəfiqi Suriya və Fələstin Azadlıq Təşkilatı oldu.1980-ci ilin iyulunda İsrail Yerusəlimi "vahid və bölünməz" paytaxtı elan etdi. Eyni zamanda İsrail parlamenti Qolan təpələrini özünə birləşdirilməsi haqqında qərar qəbul etdi.1982-ci ilin aprelində İsrail işğal etdiyi Sinay yarımadasının qalan hissəsini Misirə qaytardı.

1970-ci il avqustun 12-də SSRİ ilə AFR, 1970-ci il dekabrın 7-də AFR ilə Polşa arasında müqavilələrin bağlanması, 1971-ci ilin sentyabrın 3-də SSRİ, ABŞ, İngiltərə və Fransa arasında Qərbi Berlinə aid dördtərəfli sazişin imzalanması, 1972-ci il dekabrın 21-də AFR ilə ADR arasında münasibətlərin yaradılmasına dair müqavilənin imzalanması Avropada beynəlxalq vəziyyətin normallaşmasına gətirib çıxardı.

1972-ci il noyabrın 22-də Finlandiya dövlətinin təklifi ilə 33 Avropa dövləti, ABŞ və Kanadanın nümayəndələri Helsinkidə ümumavropa müşavirəsilə bağlı yeddi aya kimi davam edən məsləhətləşmələrə başladılar. Bunun nəticəsində 1973-cü ilin iyununda "Mavi kitab" adını alan yekun tövsiyələri hazırlandı. Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müşavirənin birinci mərhələsi 1973-cü il iyulun 3-dən 7-nə kimi Helsinkidə, ikinci mərhələ 1973-cü il sentyabrın 21-dən 1975-ci il iyulun 21-nə kimi Cenevrədə, üçüncü, yekun mərhələsi isə 1975-ci il iyulun 30-da Helsinkidə oldu. 1975-ci il avqust ayının 1-də 33 Avropa dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə müqavilənin Yekun aktın imzaladılar. Müşavirənin iştirakçısı olan dövlətlər aşağıdakı 10 əsas prinsipi qarşılıqlı münasibətlərində rəhbər tutmağı öz öhtələrinə götürdülər: suveren bərbərlik; zor işlətməmək və ya zor işlətməklə hədələməmək; sərhədlərin toxunulmazlığı; dövlətin ərazi bütövlüyü; müharibənin dinc yolla nizama salınması; bir-birinin daxili işlərinə qarışmamaq; insan hüquqlarına və əsas azadlıqlarına hörmət; bərabərlik və xalqların öz müqəddəratını təyin etmək hüququ; dövlətlər arasında əməkdaşlıq; beynəlxalq müqavilə öhtəliklərin vicdanla yerinə yetirilməsi.

Yekun Aktının imzalanmasının tarixi əhəmiyyəti ondan ibarətdir ki, müxtəlif ictimai quruluşa malik olan dövlətlər arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyaraq beynəlxalq gərginliyin azaldılmasına kömək etdi. SSRİ-nin isə ən böyük nailiyyəti müharibədən sonrakı sərhədlərin tanınması oldu. Bunun naminə sovet rəhbərliyi söz, mətbuat, hərəkat azadlığı, məlumat alış-verişinə və s. razı oldu.

1972-ci ilin may ayında ABŞ prezidenti R.Nikson Sovet ittifaqına səfərə gələrək ölkə rəhbəri L.Brejnevlə görüşdü, mayın 28-də isə "SSRİ ilə ABŞ arasında qarşılıqlı münasibətlərin əsasları" haqqında sənəd imzalandı. 1972-ci il mayın 26-da Moskvada SSRİ ilə ABŞ

arasında "Raketlərdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müddətsiz müqavilə" və "Strateji hücum silahlarının məhdudlaşdırılması sahəsində bəzi tədbirlər" haqqında müvəqqəti saziş bağlandı (SSM-1). 1973-cu ilin iyun ayında L.İ.Brejnev ABŞ-a səfər etdi və iyunun 22-də Vaşinqtonda SSRİ ABŞ arasında "Nüvə müharibəsinin qarşısının alınması" haqqında müddətsiz saziş imzalandı. 1974-cü ilin yayında ABŞ prezidenti R.Niksonun SSRİ-yə növbəti, səfəri 1974-cü ilin dekabrında Vladivostokda növbəti yüksək səviyyəli Sovet-Amerikan görüşü hər iki ölkə arasında əməkdaşlığın artdığını nümayiş etdirirdi. SSRİ ilə ABŞ arasında elmi-texniki, kənd təsərrüfatı, ətraf mühitin qorunması sahəsində əməkdaşlıq genişləndi. 1976-cı ildə SSRİ - ABŞ ticarətinin həcmi 2,2 milyard manata çatdı.

1979-cu il iyunun 18-də Vyanada yüksək səviyyəli dövlət başçılarının iştirakı ilə Sovet-Amerika görüşündə strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ikinci müqavilə bağlandı. Lakin SSRİ-nin Əfqanıstana müdaxiləsindən sonra konqres SSM-2 müqaviləsini təsdiq etmədi. ABŞ SSRİ ilə ticarəti dayandırdı və 1980-ci ildə Moskva olimpiadasını boykot etdi. 1980-ci ildə R.Reyqan ABŞ prezidenti seçildikdən sonra hər iki ölkə arasında sərt qarşıdurma müşayiət olundu. Xüsusilə, 1983-cü ildə avqust ayının sonunda Sovet İttifaqı səmasında Cənubi Koreyanın sərnişin təyyarəsinin hərbçilər tərəfindən vurulması SSRİ - ABŞ münasibətlərini daha da gərginləşdirdi və ABŞ Avropada xüsusi ilə AFR, Böyük Britaniya və İtaliyada yeni nüvə raketləri yerləşdirdi.

1973-cü ilin iyulunda Əfqanıstanda monarxiya rejimi devrildi və ölkə respublika elan edildi. 1978-ci il aprelin 27-də ƏXDP-nın tərəfdarı olan ordu hissələri çevriliş etdi və aprelin 28-də M.Təraki başda olmaqla İnqilabi Şura yaradıldı. Pakistan və İranın yardımı ilə 1979-cu ilin sentyabrında H.Əmin hakimiyyəti ələ keçirdi. 1979-cu il dekabrın 27-də sovet hərbi dəstəsi Kabulda prezident sarayını tutaraq H.Əmini öldürdü. ƏXDP-nin başçısı B.Karməl Əfqanıstanın yeni rəhbəri təyin edildi, formal olaraq onun xahişi ilə Sovet qoşunları ölkəyə müdaxilə etdi. Əfqanıstanda SSRİ-nin müdaxiləsi ilə vətəndaş müharibəsi dövrü başladı, 5 milyon əfqan ölkəni tərk edərək İran və Pakistana sığındı. ABŞ, İngiltərə, AFR, Yaponiya hər il əfqan mücahidlərinə 100 milyon dollar hacmində kömək göndərirdi.1987-ci ilin yanvarında B.Karməli başqa bir sovetlər tərəfdarı Nəcibulla ölkə rəhbərliyində əvəz etdi. O, 1987-ci il yanvarın 15-də hərbi əməliyyatları dayandırdığını və koalisyon hökumət qurmağa razı olduğunu bəyan etdi.1988-ci il aprelin 14-də Əfqanıstana dair Cenevrə sazişləri imzalandı, SSRİ 1988-ci il mayın 15-də Əfqanıstandan qoşunlarını çıxarmağa başladı və 1989-cu il fevralın 15-də bu başa çatdı. Əfqan xalqına "beynəlmiləl kömək" 10 il uzandı və hər ili SSRİ-yə 3-4 milyard dollara başa gəldi. 620 min nəfər sovet hərbiçisi bü mühərəbədən keçmişdir. Müdaxilə sayəsində 14,5 min nəfər sovet əsgəri öldü, 35 min nəfər yaralandı, 300 nəfərdən çox itkin və əsir düşdü. Beləliklə, Sovet İttifaqının L.Brejnev dövründə Əfqanıstana uğursuz müdaxiləsi onun beynəlxalq mövqeyini sarsıtdı, ABŞ və onun müttəfiqləri ilə SSRİ-nin münasibətləri daha da kəskinləşdi. Digər bir tərəfdən bu müharibə onsuz da ağır vəziyyətdə olan sovet iqtisadiyyatına ağır yük olaraq cəmiyyətdə Sov.İKP liderlərinin yeritdiyi siyasətdən narazılığın artmasına şərait yaratdı.

***1983-1985-ci illərdə daxili vəziyyət.*** 1982-ci il noyabrın 12 də L.İ.Brejnevin ölümündən iki gün sonra Y.V.Andropov Sov.İKP MK-nın Baş Katibi, 1983-cü ilin iyunundan isə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi. 1962-1967-ci illərdə Sov.İKP MK-nın katibi işləmiş Y.V.Andropov 1982-ci ilin fevralından A.Suslovun ölümündən sonra ideologiya sahəsindəki yerinə katib seçildiyi üçün L.Brejnev dövrünün 6 ay müddətinə olsa da ideoloqu hesab edilirdi. 1967-1982-ci illərdə isə o 15 il müddətində Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləmişdir. Ümumən Y.V.Andropov intellektual səviyyəsi ilə fərqlənən, ölkənin daxili vəziyyətindən xəbərdar olan, iqtisadi məsələlərdən baş çıxarmağı bacaran və əsası ölkədə qayda-qanun yaratmaq tərəfdarı kimi şöhrət qazanmışdır. Hakimiyyətə gəldiyi ilk aylardan etibarən Y.Andropov bir sıra tədbirlər, o cümlədən partiyanın üst təbəqələrinin əxlaqi tərəfdən təmizlənməsinə, iqtisadi islahatlara başladı. Lakin cəmi 15 ay hakimiyyətdə qalan Y.V.Andropov nəzərdə tutulan dəyişiklikləri yerinə yetirməyə fiziki cəhətdən imkan tapmadı. Hakimiyyətdə olduğu qısa müddətdə korrupsiya və rüşvətxorluğa qarşı müharibə elan edən yeni

partiya və dövlət rəhbəri ölkədə bir sıra qaranlıq işlərin üstünün açılmasına şərait yaratdı. Krasnodar vilayət partiya komitəsinin sabiq birinci katibi S.F.Medunov və L.Brejnevin kürəkəni, Daxili İşlər Nazirinin müavini Y.M.Çurbanov həbs edildi. SSRİ Daxili İşlər Naziri N.A.Şelokov vəzifədən uzaqlaşdırıldı və o, özünə qəsd etdi. L.Brejnevin dəfn mərasimində onun qızı Qalina Brejneva DTK-sı işçilərinin müşayəti ilə iştirak etdi. Çünki onun məşhur Yeliseyev qastronomunun müdiri ilə cinayət əlaqələri aşkar edilmişdir. Qərb mətbuatı Siyasi Büronun üzvü Q.Romanovun qızının toy məclisi üçün II Yekaterinanın Ermitajdan son dərəcə yüksək dəyəri olan servizini prokata götürməsini qalmaqal kimi qələmə verdi. Gürcüstan KP MK-nın birinci katibi, Siyasi Büronun üzvü E.Şevardnadze "Pravda" qəzetində məqalə ilə çıxış edərək Gürcüstanda korrupsiyaya qurşanmış 300 nəfər məsul şəxsin vəzifədən uzaqlaşdırdığını vurğuladı. Y.V.Andropov dövründə DİN-nin 100 min əməkdaşı işdən azad edildi, onların yerini DTK-nın əməkdaşları tutdu. 18 nəfər nazir, 37 nəfər L.Brejnev dövrünün vilayət partiya komitəsinin birinci katibi öz vəzifəsin itirdi. Özbəkistanda çoxmilyardlıq pambıq pripiskası aşkar edildi, yeyintinin miqyası son dərəcə yüksək idi. Özbəkistan KP MK-nın birinci katibi Ş.R.Rəşidov bu faktlar aşkar edildikdən sonra özünü öldürdü.

"Qayda-qanun" yaratmağın digər yolu istehsalat intizamını möhkəmlətmək oldu. İş buraxanlara və işə gecikənlərə sərt cəzalar müəyyən olundu. Küçələrdə, ictimai yerlərdə milis əməkdaşları vətəndaşların sənədlərini yoxlayırdı ki, niyə onlar işdə deyil. Hətta hamamlarda belə yoxlamalar aparılırdı. Beləliklə, Y.V.Andropov hakimiyyətdə olduğu müddətdə əsas diqqəti inzibati tədbirlərə yönəltmişdir. Bu isə o demək idi ki, partiya və dövlət rəhbərliyi ölkəni bürüyən böhranın nə qədər təhlükəli olduğundan xəbərsiz idilər. 1983-cü ilin ikinci yarısından ağır xəstə olan Y.V.Andropov 1984-cü ilin fevralın 9-da vəfat etdi. Sov.İKP MK-nın Baş Katibi vəzifəsini 73 yaşlı xəstə K.U.Çernenko tutdu. O, bu vəzifəni cəmi 13 ay icra edə bildi. Yeni partiya lideri onun üçün yazılmış mətnləri belə çətinliklə oxuyurdu. Y.Andropovun başlatdığı əmək intizamını möhkəmlətmək, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, rəhbər kadrlara tələbkarlıq kursundan imtina edildi. Bunun yerinə isə heç bir təşəbbüs irəli sürülmədi. Hətta yaranmış şəraitdə Sov.İKP-nın sıravi üzvləri belə yeni dəyişikliyin zəruri olduğuna inanırdılar. Başqa sözlə yalnız bürokratik kağız işləri ilə 18 yaşından məşğul olan xəstə və ya yaşlı K.U.Çernenko və onun ətrafı kommunist rejiminin sosialist cəmiyyətinin böhranının qarşısını almağa qadir deyildir.

## "Yenidənqurma". 1985-1991

***Sosial-iqtisadi siyasət.*** 1985-ci il martın 10-da K.U.Çernenkonun ölümündən sonra M.S.Qorbaçov Sov.İKP MK-nın Baş Katibi seçildi. Qorbaçov Mixail Sergeyeviç 1931-ci ildə Stavropol diyarının Privolno stanitsasında (kazak kəndi) anadan olmuşdur. Orta məktəb illərində əmək fəaliyyətinə başlayan M.Qorbaçov MDU-nin Hüquq fakültəsini və Kənd Təsərrüfatı institutunu bitirmişdir. Mərkəzi komsomol və partiya orqanlarında rəhbər vəzifələrdə çalışan M.Qorbaçov Sov.İKP MK-da aqrar siyasət üzrə işə cəlb edilmişdir. 1980-ci ildən Siyasi Büronun tərkibinə daxil olan M.S.Qorbaçov K.U.Çernenkonun ölümündən sonra A.A.Qromıkonun təşəbbüsü ilə gənc, dinamik lider kimi Baş Katib seçildi. Ölkə tarixində onun üzərinə çətin islahatçı rolu düşdü. Onun bütün fəaliyyəti ardıcıl və qabaqgörən olmasa da məhz M.Qorbaçov mövcud hakimiyyət strukturuna savaş açdı. Onun kosmetik xarakterli yarımçıq islahatları köhnə sistemin dağılmasını daha da sürətləndirdi. 1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra M.S.Qorbaçov istefaya gedərək özünün qurduğu Fond vasitəsilə fəal ictimai-siyasi iş aparırdı.

SSRİ-də geniş islahatların başlanmasını adətən M.S.Qorbaçovun partiya və faktiki olaraq dövlətə rəhbərlik etdiyi 1985-ci illə bağlayırlar. Lakin bəzi tarixçilər Y.V.Andropovu "yenidənqurmanın atası" adlandırırdılar, başqaları isə 1980-ci illərin birinci yarısında SSRİ-nin tədricən islahatlar mərhələsinə daxil olması məntiqinə əsaslanaraq 1983-1985-ci illəri yenidənqurmanın "ruşeym" (embrion) dövrü" hesab edirlər.

Sov.İKP MK-nın yeni Baş Katibi 1985-ci il aprelin 23-də Plenumda çıxış edərək cə-

miyyətin hərtərəfli yenilənməsi, "ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi" əsasında geniş islahatlar keçirəcəyini bəyan etdi. İqtisadi dəyişikliklərin yeni investisiyaların və yeni obyektlərin tikilməsi yerinə mövcud müəssisələrin modernləşdirilməsi hesabına aparılması nəzərdə tutulurdu. Başlıca olaraq maşınqurașdırmanın sürətli inkişaf etdirilməsi irəli sürüldü. İslahata əsasən maşın və avadanlığın istehsalı sənayenin başqa sahələrini 1,7 dəfə ötüb keçirdi. İntizamın möhkəmləndirilməsi və maddi maraq prinsipinin artırılması vasitəsilə "insan faktorunun" fəallaşdırılmasına xüsusi diqqət ayrılırdı. Bütün bu dəyişikliklər təbii olaraq sosializm çərçivəsində həyata vəsiqə qazanmalı idi.

M.S.Qorbaçovun islahatı hər şeydən əvvəl yuxarıdan başlanmışdı və "aşkarlıq" ("qlasnost"), "sürətləndirmə" ("uskorenie"), "yenidənqurma" ("perestroyka") adlanan üç şüarla səciyyələndirilir. "Aşkarlıq" sovet sisteminin mövcud olduğu dövrdə gizli saxladıqlarının xalqa bildirilməsi demək idi. Başqa sözlə hazırki dövrə kimi sistemin ört-basdır etdiyi iqtisadi böhrandan, heç bir siyasi islahat irəli sürməyə qabil olmayan və iqtisadi aparatın bir hissəsinə çevrilən partiyadakı böhrandan, nəhayət söz yığımından başqa bir şey olmayan ideoloji sistemin böhranından açıq-aşkar bəhs edilməyə başlandı. Yeni rəhbərlik öz çıxışlarında senzuranı yumşaltmaq və vətəndaşların azad məlumat əldə etmələrinə şərait yaratmağı vəd edirdi.

1980-ci illərin ortalarında SSRİ-də sosial böhran dərinləşdiyi üçün M.S.Qorbaçovun islahatları xalqın böyük əksəriyyəti tərəfindən dəstəkləndiyi halda, onun islahatlara çağırışı yeni hər bir şeyə qarşı olan təbəqələrin ciddi müqaviməti ilə üzləşdi. Odur ki, M.S.Qorbaçov daim yaranmış mürəkkəb şəraitə uyğun olaraq öz çıxış və fəaliyyət proqramını zaman-zaman dəyişdirərək islahatların tərəfdarları ilə əleyhdarları arasında ortaq nöqtə tapmağa səy göstərirdi. Partiya və dövlət rəhbərliyinin az bir hissəsi başa düşürdü ki, iqtisadi sistemi dəyişdirib, mərkəzləşdirilmiş idarəetmədən imtina edərək təsərrüfathesabı tədbiq etməklə müəssisələrin hüququnu genişləndirmək vacibdir. Partiya və dövlət aparatını təmsil edənlərin böyük əksəriyyəti belə hesab edirdi ki, ümumiyyətlə heç bir islahat lazım deyil, yalnız güc metodu ilə intizamı möhkəmlətməklə vəziyyəti normallaşdırmaq olar.

İqtisadi sahədə həyata keçirilməsi nəzərdə tutulan yenidənqurma və islahatın ilk konkret addımı 1985-ci il mayın 7-də Sov.İKP MK-nın qəbul etdiyi "Sərxoşluq və alkoqolizmin aradan qaldırılması tədbirləri haqqında" qətnaməsi və ölkədə antialkoqol kampaniyasının başlanmasıdır. Düzdür sərxoşluq ölkədə dözülməz həddə çatmışdır, amma onun aradan qaldırılması üçün tədbiq edilən tədbirlər də təsirsiz və son dərəcə ağır nəticələr doğurduğundan məqsədə çatmadı. İnzibati metodlarla həyata keçirilən kampaniya çərçivəsində üzüm bağları, şərab istehsal edən müəssisələr ləğv olundu. Şərab mağazaları kəskin azaldıldığına görə kütləvi araq növbələri yarandı. Antialkoqol kampaniyası ölkədə narkomaniya, toksikomaniya, spirt surroqatlarından istifadənin geniş yayılmasına səbəb oldu. Dövlət büdcəsi spirtli içkilərdən gələn külli miqdarda gəlirdən məhrum oldu. Belə ki, 1985-1986-cı illərdə Sovet İttifaqında alkoqol içkilərinin iki dəfə azalması hesabına dövlət büdcəsi 1985-ci ildən 1988-ci ilə qədər 67 milyard manat vəsait itirdi. Bu məlumatı N.İ.Rıjkov vermişdir, M.S.Qorbaçov isə bunun 37, V.S.Pavlov 200 milyard olduğunu iddia etmişdir. Nəticədə 1988-ci ildə antialkoqol kampaniyası baş tutmayaraq dayandı.

Yenidənqurma islahatı sahəsində növbəti inzibati tədbir 1986-cı ilin mayında "Dövlət qəbulu haqqında" ("O qospriemke") Qanun oldu. Qanuna əsasən sənaye məhsulunun keyfiyyətinə nəzarət etmək məqsədilə dövlət müfəttişləri qulluğu yaradıldı. 1987-ci il yanvarın 1-də SSRİ-nin bütün iri müəssisələrində bu sistem fəaliyyət göstərirdi. Müəssisələrin texniki nəzarət şöbələrinin (OTK) nəzarətçilərindən fərqli olaraq dövlətqəbulu müfəttişləri müəssisənin rəhbərliyindən asılı deyildirlər və planın yerinə yetirilməsində maddi maraqları yox idi. Lakin işin inzibati tərəfini önə çəkən bu tədbirin də nəticəsi gözlənildiyindən çox aşağı oldu. Planın yerinə yetirilməsi və bunun birbaşa nəticəsi olaraq əmək haqqı aşağı düşdü. Müəssisə rəhbərləri tez-tələsik onların partiya qeydiyyatında olan müfəttişləri ilə dil tapmağa çalışırdı. Böyük bir səmərə verməyən dövlət qəbulu yalnız iki il mövcud oldu.

1986-cı ilin may ayında Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Zəhmətsiz gəlirlə mübarizənin gücləndirilməsi tədbirləri haqqında" qətnaməsi dərc olundu. Formal

olaraq bu sənəd kölgə iqtisadiyyatının iri işbazlarına qarşı yönəlsə də praktik olaraq bundan ən çox xırda sənətkarlar və ticarətçilər, satmaq üçün meyvə və tərəvəz yetişdirən kolxozçu və şəhərlilər əziyyət çəkdilər.

1986-cı ilin fevral-martında Sov.İKP-nin XXVII qurultayı partiya Proqramını dəyişərək köhnə kommunizm quruculuğu yerinə sosializmi təkmilləşdirmək kursun elan etdi. Partiya 2000-ci ilə doğru ölkənin iqtisadi potensialını iki qatına çıxarmağı və hər ailəyə ayrı mənzil təmin etməyi vəd etdi. Qurultay eyni zamanda müəssisələrdə rəhbərləri seçmək hüququ olan, əmək haqqını və sosial ehtiyaclara ayrılan vəsaiti qaydaya salan sənaye müəssisələrində əmək kollektivləri şuraları yaratmağı nəzərdə tutan əmək kollektivləri haqqında Qanunu bəyəndi. Bununla da hakimiyyət sanki xalqa müraciət edərək onların dəstəyinə arxalanmaq istəyirdi. Lakin praktik olaraq qanunun həyata keçirilməsi istehsalatın işinin pozulmasına və müəssisələrin inzibatı rəhbərliyinin fəaliyyətinin iflic olmasına gətirib çıxardı.

1986-cı ilin yazından başlayaraq məlum oldu ki, sürətləndirmə kursu səmərəsizdir və ciddi iqtisadi dəyişikliklər olmadan vəziyyəti xilas etmək mümkün deyildir. Ölkənin dövlət büdcəsinin kəsiri 1985-ci illə müqayisədə üç dəfə artdı. SSRİ-nin xarici dövlət borcu 1985-ci ildəki 27,2 milyard dollardan artaraq 1986-cı ildə 39,4 milyard dollara çatdı.1986-cı ilin yayından partiya sənədlərində “sürətləndirmə” termini itdi, daha çox “yenidənqurma” siyasəti önə çıxdı. “Sürətləndirmə” xəttinin boşa çıxması, ilk növbədə, ölkənin dövlət büdcəsinə əhəmiyyətli qatqısı olan neft və neft məhsullarının qiymətinin dünya bazarında aşağı düşməsi ilə əlaqədardır. Büdcəyə daxil olan neft dollarlarının xarici istiqrazlarla əvəz edilməsi Sovet İttifaqını borc bataqlığına sürüklədi. 1990-cı ilə doğru SSRİ-nin borcu 57,6 milyard dollara çatırdı. Borcların faizi ilə birlikdə ödənməsi zərurəti isə iqtisadiyyata ağır yük idi.

Yuxarıda da qeyd etdiyimiz kimi antialkoqol kampaniyası üzüm bağlarının 30 faizə qədərinin kəsilməsinə, dövlət büdcəsinin isə ildə 40-50 milyard manat itirməsinə gətirib çıxardı. Gizli olaraq araqçəkmə geniş yayıldığına görə mağazalardan şəkər, ucuz konfetlər və s.yoxa çıxdı. Bayram, toy şənlikləri və yas mərasimində spirtli içki əldə etmək məqsədilə mağazalrın önündə adamların uzun növbələri əmələ gəldi ki, bu da ölkə əhalisini son dərəcə qıcıqlandırırdı.

Planı yerinə yetirmək məqsədilə kölgə iqtisadiyyatından müəssisə və regionlar arasında mal mübadiləsindən istifadə etməyə alışan müəssisə rəhbərləri normativ prinsiplərin pozulmasının ciddi təqibindən ehtiyat edərək normadan artıq fondların inkişaf etdirilməsinə marağı dayandırdılar. Bu isə normadan artıq fondların tədricən yox olması demək idi. 1986-cı ildə isə onların qiyməti 80 milyard manat təşkil edirdi.

1986-cı il aprelin 26-da Çernobıl AES-da baş verən qəza ölkənin dövlət büdcəsinə ağır zərbə vurdu. Bu qəzanın özü birbaşa sürətləndirmə siyasətinin nəticəsində yaranmışdı. Belə ki, atom elektrik stansiyasının əməkdaşları reaktorların məhsuldarlığını artırmaqla qəza törətdilər. M.S.Qorbaçov hakimiyyəti faciənin miqyasını tez bir zamanda elan etmədiyi üçün on milyonlarla adam bundan ziyan çəkdi. Partlayışın reaktiv buludu Şərqi Slavyan torpaqları Ukrayna, Belarusiya, Rusiyanın bir çox rayonlarının zərər görməsinə səbəb oldu.10,9 milyon hektar yararlı kənd təsərrüfatı əkin sahəsi radioaktiv çirklənməyə məruz qaldı.SSRİ-nin əraziləri ilə yanaşı Rumıniya, Polşa, Bolqarıstan, Yuqoslaviya, hətta Kanada belə radioaktiv çirklənmədən öz nəsibini aldılar. Sovet İtitfaqının partiya və dövlət rəhbərliyi adamların 1 may bayramını “korlamamaq” niyyəti ilə faciənin miqyası barədə susmağa üstünlük verdilər. Təkcə 1986-cı ildə qəzanın ləğv edilməsi ölkəyə 14 milyard manata başa gəlmişdir. Bütün bunların nəticəsində sürətləndirmə xətti uğursuzluqla nəticələndi. Ölkənin iqtisadiyyatında yaranmış əlverişsiz vəziyyət M.S.Qorbaçov hakimiyyətini yeni yollar axtarıb tapmağa məcbur etdi. Cəmiyyətdə mövcud iqtisadi sistemdə islahatlar aparılmasının yolları haqqında geniş müzakirələr açıldı. Müzakirələrdə görkəmli alimlər L.İ.Abalkin, O.T.Boqomolov, T.İ.Zaslavskaya, N.Y.Petrakov, R.A.Belousov, A.Q.Aqanbeqyan, Q.A.Yavlinski, Q.X.Popov, S.S.Şatalin və b. iştirak edirdi. Müzakirələrin gedişində ictimai-iqtisadi, sosial və mədəni inkişaf məsələlərini yenidənqurma konteksində həll etməyin zəruriliyi irəli sürüldü. İqtisadiyyat sahəsində yenidənqurma dövlət müəssisələrinin müstəqilliyini və bazaar

münasibətlərinin elementlərini artırmağı nəzərdə tuturdu. Hesab edilirdi ki, yenidənqurma islahatı müəssisələrin yeni texnologiyasının tədbiqinə maraq oyadaraq, əmək məhsuldarlığının artırılmasına stimulu təmin edərək, kölgə iqtisadiyyatını leqallaşdıraraq ona dövlətin müəyyən etdiyi çərçivədə fəaliyyət göstərməyə imkan yaradacaq. Bu məqsədlə 1987-ci il iyunun 30-da "Dövlət müəssisələri (birlikləri) haqqında Qanun" qəbul edildi. Qanun müəssisələri idarə etməyin yeni prinsipləri olan təsərrüfathesabın və özünümaliyyələşdirməni elan etdi. Belə ki, əvvəllər yuxarının müəyyən etdiyi plan tapşırıqlarının yerinə yetirilməsi müəssisənin əsas göstəricisi olduğu halda Qanun müəssisələrə müvafiq nazirliyin təklif etdiyi planın göstəricilərin "üfüqi" əlaqə saxladığı müəssisələrin sifarişin nəzərə almaqla müstəqil yerinə yetirib istehlakçıya çatdıra bilmək hüququ verirdi. Yəni müəssisənin maraqları və müstəqilliyi ön plana keçir, hətta xarici firmalarla belə, onlar birbaşa əlaqəyə girə bilərdi.

Əsl həqiqətdə isə mərkəzi nazirliklər bürokratiyası öz mövqeyindən və əvvəlki vərdişlərindən əl çəkmək istəmirdilər. Dövlət sənayenin əsas sifarişçisi olduğu üçün müəssisələrin əsas istehsal məhsulu onun payına düşür, müəssisələr üçün isə məhdud kommersiya imkanları qalırdı. Məhsulun qiymətinin və verginin müəyyən edilməsi dövlətə məxsus olduğundan nazirliklər müəssisələrin gəlirinin qaymağın toplayaraq sözdə müəssisələrin maliyyə müstəqilliyindən ağız dolusu danışırdılar.

Başqa bir tərəfdən müəssisələr istehsal etdikləri məhsulu sata biləcəkləri topdansatış bazarları olmadığı üçün bağladıqları müqavilə şərtlərini yerinə yetirməkdə çətinlik çəkirdilər. Mərkəzləşmiş qaydada dövlət sifarişin yerinə yetirənlər isə daha əlverişli vəziyyətdə idilər, çünki onlar hazır məhsul üçün bazar axtarıb tapmağa məcbur deyildilər. Belə bir şəraitdə müəssisələrin "özünüidarə", "özünümaliyyələşdirmə" hay-küyünə baxmayaraq işçilər başa düşürdü ki, bütün qərarlar yenə də bürokratik mərkəzdən və ya sonradan elan edilən "antiyenidənqurma qüvvələrindən" daxil olur. Əvvəlki idarəetmə strukturunun ciddi himayəsi altında olan müəssisələr özünümaliyyələşdirmə prinsipinin elan edilməsinə baxmayaraq dövlətdən çox böyük subsidiyalar olaraq bankrot olmaqdan və şişən şəxsi heyətin işdən azad olmasından xilas olurdular. Ümumən iqtisadi islahatlarla bağlı nazirlik və başqa idarəetmə orqanlarının yenidən qurulması nəticəsində altı il müddətində bir milyona kimi qulluqçu sənaye sahələrindən ixtisar edilmişdir.

İqtisadi islahatın mühüm tərkib hissəsindən biri xüsusi təşəbbüsün fəaliyyət dairəsinin genişləndirilməsindən ibartədir.1986-cı il noyabrın 19-da qəbul edilən, 1988-ci il mayın 26-da əlavələr olunan qanunla 30-dan artıq istehsal məhsulu və xidmət sahəsi üzrə xüsusi fəaliyyət leqallaşdırıldı. Öz işini açmaq istəyən hər bir şəxs qeydiyyatdan keçməli və çox yüksək 65 faizə çatan vergi ödəməli idi. 1991-ci ilin yazına olan məlumata əsasən iş qabiliyyəti olan, ölkə əhalisinin 5 faizini təşkil edən 7 milyon nəfərdən çox adam sürətlə artan kooperativ bölməsində çalışırdı. Bundan başqa bir milyon nəfər adam fərdi əmək fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyat icazəsi almışdır. M.S.Qorbaçov hakimiyyətinin yenidənqurma dövründə xüsusi təşəbbüskarlığı müdafiə vədlərinə baxmayaraq yerli hakimiyyət orqanları müxtəlif vasitələrlə kooperativlərin fəaliyyətini məhdudlaşdırırdı. Sovet adamlarının böyük əksəriyyəti siyasət və ideologiya sahəsində azadlıqları təqdir etdikləri halda sahibkarlıq fəaliyyətinə şübhə ilə yanaşırdılar. Birdən-birə islahat nəticəsində dövlət, müqavilə, kooperativ və qara bazar qiymətləri ilə üzləşən sovet adamı iqtisadi azadlıqları özlərinin həyat səviyyəsinin düşməsinin səbəbi kimi görməyə başladılar. Onlar qiymətlərin sabit dövlət təminatına üstünlük verərək sahibkarlarla iş birliyindən qaçırdılar.

Əhalinin belə əhval-ruhiyyəsi hökumətin kənd təsərrüfatı sahəsində xüsusi təşəbbüskarlığı yaymasına da mane olurdu. 1988-ci ildə rəsmən qəbul edilən "icarə müqaviləsinə" əsasən bir və ya bir neçə ailə torpağı 50 il müddətinə kimi icarəyə götürərək becərdiyi məhsulun tam sahibi olurdu. Həm də 1988-ci ilin martında kolxozlara dair qəbul edilən yeni əsasnamədə elan edildi ki, şəxsi təsərrüfatlarda fərdi əkin sahələrinin həcmini və mal-qaranın sayını hər bir kolxozun kollektivi "onun üzvlərinin ümumi əməkdə iştirakından asılı olaraq" müəyyən edir. Lakin əsl həqiqətdə isə bu tədbirlər simvolik səciyyə daşıyırdı.Belə ki, kooperativ təşkilatlara çevrilməsi nəzərdə tutulan kolxozlar əsl müstəqillik əldə edə bilməyərək

yenə rayon hakimiyyətinin nəzarətində qalaraq dövlətə təhvil verilən məhsulun miqdarı, şəxsi sahələrin həcmi və s. onlar tərəfindən müəyyən edirdi. Ölkədə icarə hərəkatı geniş yayılmadı, 1991-ci ilin yayına doğru torpaqların yalnız 2 faizi, mal-qaranın isə 3 faizi icarədarlara məxsus idi. Azad surətdə torpağı icarəyə götürərək əkib-biçmək kəndlilər arasında geniş yayılmamasının əsl səbəbi o idi ki, onlar kənd təsərrüfatının texnikasından və kolxozların başqa infrastrukturlarından məhrum olduqları üçün istehsal etdikləri məhsulu hazır vəziyyətdə gətirib sata bilmirdilər. Odur ki, sahibkarlıq kəndlilər arasında ləng inkişaf edir, onların ən fəalları isə şəhərlərə üz tuturdu. Nəhayət, kənddə yaşayan əhalinin böyük əksəriyyəti keçmiş illərin acı təcrübəsindən, "yeni qolçomaqların" meydana gəlməsindən ehtiyat edirdilər. Baxmayaraq ki, kənd əhalisi kolxozlardan çıxıb fermer təsərrüfatı yaratmaq hüququ almışdı, lakin onlar bundan istifadə etməyə tələsmirdi. Fermerlərə torpaqları kolxoz rəhbərləri və yerli hakimiyyətin nümayəndələri icarə haqqında müqavilə əsasında ayırırdı. Fermerlər çox halda əlverişsiz əkin sahələri ilə təmin olunur, onlara texniki və gübrə almağa maneəçilik törədilirdi. Fermerlərə arzuolunmaz rəqib kimi öz həmkəndliləri belə düşməncəsinə yanaşırdı.

Yekunda M.S.Qorbaçovun elan etdiyi islahat ondan gözlənilən nəticəni vermədi.1988-ci ildə aqrar, 1990-cı ildən isə sənaye istehsalı azaldı. Ölkənin istehsal sahəsində ümumi milli gəlir 11 faiz aşağı düşdü.1989-cu ilə doğru büdcə kəsiri 10 faiz təşkil edirdi. SSRİ-nin daxili və xarici dövlət borcu ümumi milli gəlirin üçdə iki hissəsinə çatdı.Planlı iqtisadiyyatın mövcud olduğu tarixdə ilk dəfə olaraq rəsmi aşağı çəkilərək il ərzində pulun 2-4 faizi dəyərdən düşdüyü, yəni inflyasiyaya uğradığı elan olundu. Əsl həqiqət odur ki, əvvəldən iqtisadi islahat konsepsiyası bir tam olaraq alınmadı. Bir çox partiya rəhbəri və ideoloqu əmin idi ki, dəyişikliklər əksinqilabi xarakter daşıyır, "real sosializmin" prinsiplərinə ziddir və onun nailiyyətlərini itirir. Onlar onilliklər boyu "ölməkdə" və "çürüməkdə" olan kapitalizmlə birlikdə adı çəkilən "bazar", "gəlir", "sahibkarlıq" terminlərindən müsbət mənada bəhs edilmədən qəzəblənirdi. Nəticədə icazə verilən təsərrüfat təşəbbüskarlığı məhdudlaşdırılır və ona görə də müəssisələrin real müstəqilliyi təmin olunmurdu. Dövlət sifarişi məhsuluna qiymət əvvəllər olduğu kimi yuxarı orqanlar tərəfindən diqtə edilirdi. Sözün əsl mənasında müəssisələrin təsərrüfat müstəqilliyi, təşəbbüskarlığı təmin edilməmişdi, müəssisələrin idarə olunmasında mərkəzçilik, amirlik metodları üstünlük təşkil edirdi. Qiymət, kredit, gəlir kimi iqtisadi amillər vasitəsilə stimullaşdırma ləng həyata keçirilirdi.

Xarici investisiyaya bəslənən ümidlər də özünü doğrultmadı. SSRİ-yə borc istiqrazları verilsə də 1920-ci illərdə olduğu kimi Qərb sabit olmayan sovet iqtisadiyyatına vəsait qoymaq istəmirdi. Arxasında istehlak malları durmayan çoxlu pul kütləsi əhalinin əlində qalmışdır ki, bu da yerlərdə təsərrüfat siyasətini daha da kəskinləşdirirdi. Əmək kolektivlərinin seçdiyi və yuxarıdan nəzarət edilən müəssisə rəhbərləri çıxılmaz vəziyyətdə idi. Onların çoxu əmək haqqı və sosial məqsədlər üçün vəsaiti artırmaq vədləri sahəsində rəhbər seçilmişdilər. Çox halda bu vədlər istehsalın inkişafı investisiyası üçün ayrılan vəsaiti və əsas fondların xərcləri hesabına yerinə yetirilirdi.1989-cu ildə isə əmək haqqı fonduna gəlir vergisi tətbiq edilməklə buna son qoyuldu. Ancaq müəssisə rəhbərləri vəziyyətdən çıxış yolu kimi öz işçilərinə dövlət vəsaiti qeydiyyatında olmayan kölgə iqtisadiyyatından əlavə əmək haqqı ayırırdı. Belə ki, kölgə bazarlarının yalnız bir hissəsi leqallaşdığına görə onlar fəaliyyət göstərməkdə davam edirdi. Müəssisələr məhdud iqtisadi müstəqillik alsa da ölkədə əsas fondların azad bazar ticarəti infrastrukturu formalaşmamışdır. Kortəbii yaranan məhsul birjalarının fəaliyyətini tənzimləyən və onlara dövlət nəzarətini təmin edən qanunlar yox idi. Ara strukturlarına isə çox halda kriminallar nəzarət edirdi. Müəssisələr dövlət mülkiyyəti olaraq qalırdı və çıxılmaz vəziyyətdə dövlətin köməyinə arxalana bilərdi.

Ölkədə tam məsuliyyətsizlik və islahatın davam etdirilməsinə heç bir təminat olmadığı üçün bir çox müəssisə rəhbərləri yaranmış qarışıqlıqdan şəxsi varlanmaq məqsədilə istifadə edirdi. Müəssisələrin gəliri direktorluq tərəfindən yaradılmış kooperativlərin hesabına köçürülürdü ki, burada da real məhsul istehsalı ilə deyil, aztapılan malların və istehsal fondlarının ticarəti ilə məşğul olurdular. Kooperativ məhsulları adı ilə kütləvi tələbat malları alınıb-satılırdı. Qiymətlər sürətlə artır, pul dəyərdən düşürdü. Yeni texnikanın tədbiqi və əmək

məhsuldarlığının artırılmasına maraq isə durduğu yerdə sayırdı. Bir sözlə, köhnə inzibati idarəçilik sistemi dağıdılmış, yeni bazar ağırlıqlı sistem isə M.S.Qorbaçov hakimiyyətinin qətiyyətsizliyi üzündən yaradılmamışdır. 1989-1990-cı illərdə SSRİ-nin iqtisadi vəziyyəti sürətlə ağırlaşmaqda davam edirdi. Yerli əhalini başqa şəhərlərin alıcılarından qorumaq məqsədilə istehlakçı kartoçkaları tətbiq edildi. 1991-ci ildə Moskvada şəkər, tütün və arağı yalnız talonla almaq olardı.

1990-cı ildə N.İ.Rıjkov hökuməti akademik L.İ.Abalkinin rəhbərliyi ilə bir qrup alimin hazırladığı böhrandan çıxmaq proqramını təklif etdi. Proqrama görə 1991-1992-ci illər ərzində üç mərhələdə tədricən bazar iqtisadiyyatına keçmək nəzərdə tutulurdu. Proqramın müəllifləri bazar iqtisadiyyatına keçməyin əsas şərti olaraq iqtisadi sabitləşməni nəzərdə tuturdular. Proqramın çatışmayan cəhəti ondan ibarət idi ki, bazar elementlərinə tədricən mövcud dövlət mexanizminin nəzaərti ilə keçilirdi. Lakin məhz bu cəhət iqtisadiyyatı dağılmaq həddinə salmışdır.

N.İ.Rıjkov-L.İ.Abalkin proqramı ilə yanaşı bir qrup gənc iqtisadçı Q.A.Yavlinskinin rəhbərliyi ilə "500 gün" proqramını hazırladı. Bu müddətdə ölkə iqtisadiyyatını əsaslı surətdə yenidən quraraq dövlət əmlakını özəlləşdirib, dövlətin qiymət siyasətindən imtina edilməli idi. Hər iki proqramı birləşdirmək mümkün olmadı. 1990-cı ilin martında SSRİ-nin Prezidenti seçilən M.S.Qorbaçov həmin ilin oktyabrında N.Rıjkov-L.Abalkin proqramını müdafiə edərək Q.Yavlinskinin proqramını rədd etdi. Əsas səbəb isə siyasi faktorlarla bağlı idi. Belə ki, "500 gün" proqramın B.N.Yeltsinin başçılıq etdiyi Rusiya rəhbərliyi müdafiə edirdi, onlar isə M.S.Qorbaçov başda olmaqla ittifaq mərkəzi ilə münaqişə aparırdı. Həm də bu proqram mərkəzlə respublikalar arasında səlahiyyətlərin yenidən bölünməsini tələb edirdi ki, buna da M.Qorbaçov razı ola bilməzdi.

1990-cı ilin dekabrında hökumətin başçısı N.İ.Rıjkov yenidənqurma siyasətinin iflasını qəbul edərək istefaya getdi. Hökumətə başçılıq edən V.S.Pavlov pul islahatı keçirərək 100 və 50 manatlıqları yeniləri ilə əvəz etdi. Üç gün ərzində dəyişdirilməsi nəzərdə tutulan məbləğ çox məhdud idi. Formal olaraq bu kampaniya kölgə işbazlarına qarşı yönəlsə də praktik olaraq yalnız mövcud artıq pul kütləsinin 5 faizi toplana bildi. Lakin pul islahatı iqtisadiyyatı düzəltmək əvəzinə əhalinin narazılığını daha da artırdı.1991-ci ildə V.S. Pavlov hökuməti ticarət, nəqliyyat, məişət xidməti sahəsindəki dövlət qiymətlərini iki dəfə artırdı. Qiymətlərin mexaniki artımı iqtisadiyyatı sağlamlaşdırmaq yerinə gizli davam edən inflyasiyanı daha da dərinləşdirdi. Dövlət büdcəsi kəsrinin həcmi və işsizlərin sayı daha da artdı. Rəsmi məlumata əsasən 1990-cı ilin əvvəllərində SSRİ-də 6 milyon nəfər işsiz var idi.

***İctimai-siyasi vəziyyət.*** M.S.Qorbaçov və onun yaxın ətrafının iqtisadi islahatlar sahəsindəki uğursuzluğu yeni siyasi anlayışların "aşkarlıq", "plüralizm" və s. irəli sürülməsi ilə nəticələndi. Aşkarlıq o demək idi ki, ölkə rəhbərliyi bundan sonra xalqdan heç bir şeyi gizlətməməlidir. Plüralizm isə tənqidetmə azadlığını elan edirdi. 1986-cı il fevralın 25-dən martın 6-dək davam edən Sov.İKP -nin XXVII qurultayında M.S.Qorbaçov yeni ideya olaraq aşkarlığı elan etməklə bərabər partiya və sovet orqanlarının əvəzçilik yolu ilə birləşdirilməsinin yolverilməz olduğunu bildirdi. Qurultaydan sonra M.Qorbaçov və onun komandası partiya və dövlət aparatı heyətinin ciddi müqaviməti ilə üzləşdi. Yenidənqurma və aşkarlığın elan edilməsi partiya aparatının təmizlənməsi, kadrların əvəzlənməsi və M.Qorbaçovun yeni komandasının möhkəmlənməsi üçün şərait yaratdı. Birinci növbədə əvvəlki Brejnev hakimiyyəti ilə bağlı olan kadrlar partiya və dövlət vəzifələrindən uzaqlaşdırıldı. 1985-ci ilin iyulunda Q.Romanov, oktyabrıda N.Tixonov, 1986-cı ilin fevralında V.Qrişin, 1987-ci ilin yanvarında D.Kunayev, 1987-ci ilin oktyabrında H.Ə.Əliyev, 1988-ci ilin sentyabrında M.Solomentsev, A.Qromıko tutduqları yüksək partiya və dövlət rəhbərliyindən kənar edildi. Bu uzun illər təcrübə toplayan, partiya və dövlət xadimləri M.S.Qorbaçov komandasının yeni üzvləri N.Rıjkov, E.Şevardnadze, V.Çebrikov, A.Yakovlev və b. əvəz olundu. 1985-ci ilin sentyabrında N.Rıjkov SSRİ Nazirlər Soveti sədri vəzifəsində L.Brejnevin məsləkdaşı N.Tixonovu əvəz etdi. E.Şevarnadze isə SSRİ Xarici İşlər naziri təyin olundu. 1987-ci ilin əvvəlinə doğru Siyasi Büro üzvlərinin 70, Sov.İKP MK üzvlərinin 40, vilayət partiya təşkilat katib-

lərinin 60 faizi dəyişdirilərək əvəz edildi. 1986-1988-ci illərdə şəhər və rayon partiya komitəsi katiblərinin 70 %-i dəyişdirildi. 1985-ci ilə kimi SSRİ Nazirlər Sovetinin vəzifəyə təyin edilmiş 115 nəfər işçisindən 1989-cu ildə yalnız 10 nəfəri qalmışdır. 1986-cı ilin fevralında Sov.İKP Moskva şəhər komitəsinin birinci katibi V.Qrişin vəzifəsindən azad edilərək onun yerinə Sverdlovsk (Yekaterinburq) şəhər partiya komitəsinin birinci katibi B.N.Yeltsin seçildi. Deməк olar ki, yeni Baş katib M.S.Qorbaçov bir il ərzində əvvəlki hakimiyyətin dayağı olan bütün partiya aparatı işçilərini dəyişdi.1985-1987-ci illərdəki dəyişikliklər yerli partokratların ciddi müqaviməti ilə qarşılaşdı ki, onların da ideya rəhbəri "Brejnev" qvardiyasının mühafizəkar qanadını təmsil edənlərdən Siyasi Büronun üzvü Y.K.Liqaçov idi. Yerli partiya başçıları aşkarlıq şəraitində öz imtiyaz və toxunulmazlıqlarını itirməkdən qorxurdular. Partiya və dövlər aparatının mühafizəkar hissəsinin müqaviməti M.S.Qorbaçovu təhrik etdi ki, aşağılarda, xüsusilə ziyalılar arasında müdafiəçilər axtarsın.

1986-cı ildə aşkarlığın ilk əlamətləri görünməyə başladı, icitmai həyatda səs salan T.E.Abuladzenin "Tövbə" ("Pokayanie") filmi göstərildi. Kütləvi informasiya vasitələrində "dissident", "fərqli düşünən" terminləri yoxa çıxdı, akademik A.D.Saxarov 1986-cı ilin dekabrında Qorkidəki sürgündən qayıtdı. E.V.Yakovlevin baş redaktoru olduğu "Moskovskie novosti", V.A.Korotiçin baş redaktoru olduğu "Oqonek"jurnallarının səhifələrində kəskin publisist yazılar dərc olunmağa başlandı. Ölkədəki problemlərdən bəhs edən yazılara üstünlük verdiyindən "Mosksovskie novosti", "Oqonek", "Literaturnaya qazeta" nəşrləri xalq arasında geniş şöhrət qazanmışdır və onların çapı 5 milyon nüsxəyə çatırdı. Əgər əvvəllər kütləvi informasiya vasitələri mərkəzdə təsdiq edilmiş bir rəsmi mövqedən çıxış etmək imkanına malik idisə, aşkarlıq şəraitində onlar cəmiyyətdə mövcud olan çoxtərəfli maraqları nəzərə almaqla siyasi plüralizmə geniş yer vermək şəraiti əldə etdilər. Stalinin şəxsiyyətinə pərəstişin səbəbləri və nəticələri, kütləvi repressiyalar, cəmiyyətin mərkəzləşmiş idarəetmə sisteminin yaranması, 1970-ci illərdə və 1980-ci illərin birinci yarısında ölkənin iqtisadi və elmi-texniki inkişafının dayanması kimi məsələlər aşkarlıq şəraitində yeni düşüncə tərzi ilə işıqlandırıldı və öz haqlı qiymətini aldı. 1987-ci ildə siyasi repressiya qurbanlarının əfv edilməsi üzrə Sov.İKP MK-nın katibləri əvvəlcə M.S.Solomentsevin, sonra isə yenidənqurmanın ardıcıl tərəfdarlarından biri olan A.N.Yakovlevin sədrliyi ilə Komissiya yaradıldı. Komissiyanın təşəbbüsü ilə 1930-1950-ci illərdəki siyasi repressiya qurbanlarına hətta "mülayimləşmə" dövründə belə olduğundan çox geniş əfv kompaniyası başlandı. İ.V.Stalin rejiminin müxalifət liderləri L.B.Kamenev, Q.E. Zinovyev, N.İ.Buxarin, A.İ.Rıkov və b. ağlandı. Əvvəllər çap edilməsinə qadağan qoyulan arxiv sənədləri nəşr edilərək sovet tarixinin qaranlıq səhifələrinə işıq saldı. Böyük Vətən müharibəsi ərəfəsində Molotov-Ribbentrop paktı kimi tanınan sovet-alman müqaviləsi nəşr edilərək işıq üzü gördü. N.İ.Buxarın və L.D.Trotskinin əsərləri çap olundu.

1987-ci ilin yanvarında Sov.İKP MK-nın Plenumunda M.Qorbaçov bəyan etdi ki, yenidənqurma yalnız demokratiya əsasında mümkündür, odur ki, aşkarlığı genişləndirmək lazımdı. Yanvar Plenumundan sonra mətbuatdakı tənqidi məqalələr daha kəskin xarakter aldı. Mühacirətə və repressiyaya məruz qalan yazıçılar D.S.Merejkovski, V.V.Nabokov, V.F.Xodaseviç, A.P.Platonov, B.A.Pilnyak, V.T.Şalamov və b. əsərləri çap edilərək sovet oxucusuna çatdırıldı. 1987-1988-ci illərdə stalinizm və sovet rejimini amansız tənqid etdiyi üçün senzura tərəfindən nəşri qadağan edilən əsərlər, o cümlədən D.A.Qraninin "Zubr", V.D.Dudintsevin "Ağ paltar" ("Belıe odejdı"), A.N.Rıbakovun "Arbat uşaqları" ("Deti Arbata") romanları işıq üzü görərək çap edildi.A.A.Axmatovanın "Rekviyem", M.F.Şatrovun "Brest sülhü" ("Bretskiy mir"), E.İ.Zamyatinin "Biz" ("Mı"), V.S.Qrossmanın "Həyatlar və talelər" ("Jizn i sudba") və b. əsərlər nəşr olundu. Mühacirətdə olan bir çox şair, yazıçı və ziyalı Rusiyaya qayıtdı. Bu əsərlər "aşkarlığın lokomativi" kimi totalitarizmi ifşa etməyin təqibi qorxusundan azad olmağa kömək etdi. Cəmiyyət tədricən tarixinin "ağ ləkələrindən" azad olmaq zərurətini dərk etməyə başladı. Yeni şəraitdə köhnə yanaşma metodu yararsız olduğundan 1988-ci ildə məktəblərdə tarix imtahanları ləğv edildi.

1988-ci ilin martında "Sovetskaya Rossiya" qəzetində Leninqraddan olan müəllimə N.A.Andreeva "Prinsiplərimdə güzəştə gedə bilmərəm" ("Ne moqu postupitsya prinsipami")

məqaləsini dərc etdirdi. Məqalənin müəllifi yenidənqurmanın liderlərini sinfi yanaşmanı itirdikləri üçün tənqid edirdi, İ.V.Stalini isə tərifləyirdi. N.Andreevanın məqaləsi çox güman ki, Siyasi Büroda ideoloji məsələlərə rəhbərlik edən MK-nın katibi Y.K.Liqaçovun tapşırığı ilə çoxlu yerli qəzetlərdə çap edilərək yayıldı.Yalnız bir həftədən sonra M.Qorbaçov xarici səfərdən qayıtdıqdan sonra "Pravda" qəzeti Siyasi Büronun üzvü A.N.Yakovlevin hazırladığı "Yenidənqurmanın prinsipləri: fikrin və hərəkətin inqilabçılığı" ("Prinsipı prerstroyki: revolyutsionnost mışleniye i deystviy") məqaləsini dərc etdi. N.Andreevanın məqaləsi "antiyenidənqurma qüvvələrinin manifesti" adlandırıldı. Kütləvi informasiya vasitələri İ.Stalinin ifşa edilməsindən bəhs sedən məqalələri daha çox çap etməyə başladılar. Hətta V.İ.Leninin ünvanına belə əvvəllər ağıla gəlməyən tənqidlər səslənməyə başlandı. Xüsusilə silahlı üsyanın ilk illərində bolşeviklər partiyasının qırmızı terror, din xadimlərinə və başqa cür düşünən ziyalılara qarşı repressiyalar tədbiq etmələri daha çox tənqid olunurdu.

1988-ci il iyunun 28-dən iyulun 11-dək olan XIX Ümumittifaq partiya konfransında yenidənqurmanın tərəfdarları ilə əleyhdarları arasında ölkənin gələcək inkişafı ilə bağlı kəskin fikir mübadiləsi oldu. Konfrans nümayəndələrinin çoxu ölkənin iqtisadi islahatları və cəmiyyətin siyasi sisteminin dəyişdirilməsi ilə bağlı M.S.Qorbaçovun nöqteyi-nəzərini müdafiə etdi. Konfrans ölkədə hüquqi dövlət yaratmaq kursunu təstiq etdi. Hüquqi dövlətin yaradılmasının əsas yolu isə siyasi islahatların keçirilməsi idi. Siyasi islahatın mahiyyəti isə partiya orqanları və sovetlərin səlahiyyətlərini dəqiq müəyyən edib hakimiyyətin Kommunist partiyasından Sovetlərə keçməsini təmin etməkdən ibarət idi. Əslində konfransın qərarı ilə partiya orqanları dövlət funksiyasını yerinə yetirməkdən məhrum edilir, respublikaların hüquqları genişləndirilirdi. Konfransın mühüm yekun qərarı SSRİ xalq deputatları qurultayının çağırılması oldu. Qurultay 2250 nəfər deputatdan ibarət olmalı, deputatlar isə öz aralarında daimi fəaliyyət göstərən Ali Soveti seçməli idi. Deputatların üçdə iki hissəsi birmandatlı dairələrdən, üçdə biri ictimai təşkilatlardan seçilirdi. Ən çox deputat, yəni 100 nəfər Sov.İKP-nı təmsil edirdi. Onlarla adam komsomol, həmkarlar, Elmlər Akademiyasını, hər biri on nəfərdən ibarət olmaq etibarı ilə böyük yaradıcılıq ittifaqlarını təmsil edirdi. Ölkə tarixində ilk dəfə real səsvermə hüququ əldə edən seçicilər son dərəcə fəallıq göstərərək çox halda mövcud hakimiyyətin əleyhinə səs verirdilər. Odur ki, ərazi dairələri üzrə namizədliyini irəli sürən bir çox paykom və obkom katibləri məğlub oldular. Leninqraddan bir nəfər də olsa partiya rəhbəri deputat seçilə bilmədi. Başqa sözlə, 1989-cu ilin martında keçirilən seçkilər partiya aparatına qarşı öznəməxsus inqilab səciyyəsi daşıyırdı. Seçkilər ərəfəsində Moskvada kütləvi mitinqlər oldu. Moskva dairəsində səslərin demək olar 90 faizini B.N.Yeltsin qazandı. Hələ 1987-ci ildə Moskva şəhər partiya komitəsinin birinci katibi olarkən B.Yeltsin yenidənqurmanın sürətindəki nöqsanları tənqid edərək istefaya göndərilmişdi. Moskva şəhər partiya komitəsinin plenumunda M.Qorbaçov və Y.Liqaçov tərəfindən təşkil edilmiş kampaniyada B.Yeltsin volüntarizmdə, hətta partiyaya arxadan xəncər vurmaqda sərt ittihamlarla üz-üzə qaldı. B.Yeltsin XIX partiya konfransında "siyasi əfv" istəsə də rədd edildi və SSRİ Dövlət Tikinti Komitəsinin sədri kimi işini davam etdirdi. Bununla Moskva şəhər partiya komitəsinin birinci katibi vəzifəsindən və Siyasi Büro üzvlüyünə namizədlikdən azad edilən B.N.Yeltsinin partiya karyerası başa çatdı, lakin onun qarşısında yeni bir yol, yenidənqurmanın xalq tribunası yolu açıldı.

Yeltsin Boris Nikolayeviç 1931-ci ildə Ural vilayətinin Butka kəndində anadan olub. Ural Politexnik İnstitutunu bitirdikdən sonra tikinti mühəndisi işləyib. Bu işdə onun kütləni böyük işlərə səfərbər etmək, təşkilatçılıq, liderlik bacarığı üzə çıxıb. 32 yaşında olarkən B.Yeltsin nəhəng evtikmə kombinatının başçısı olub.1968-ci ildə partiya işinə keçərək, 1976-cı ildən Sov.İKP-nın Sverdlovsk vilayət komitəsinin birinci katibi seçilib. 1985-ci ildə mərkəzi partiya-dövlət aparatının yenilənməsi ilə əlaqədar olaraq B.N.Yeltsin Sov.İKP Moskva şəhər komitəsinin birinci katibi seçilib. 1987-ci ildə istefaya göndərildikdən sonra 1989-cu ilin əvvəllərindən B.Yeltsin fəal siyasi mübarizəyə qoşulub.

1989-cu ildə SSRİ xalq deputatları Qurultayına alternativ seçki əsasında keçən seçkilərdə Leninqraddan Qurultayın gələcək "demokratik fraksiya" liderləri A.Sobçak, Y.Bol-

dırev, A.Denisov deputat seçildi. İctimai təşkilatlardan deputat seçilənlər arasında A.Saxarov, P.Saqdeev, P.Buniç, A.Yakovlev, V.Qinzburq, N.Şmelev, V.İvanov, S.Averentsev və b. var idi. Ümumən 2250 deputat seçilmişdi.

1989-cu il mayın 25-də SSRİ xalq deputatlarının I Qurultayı açıldı. Qurultay M.Qorbaçovu SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, A.Lukyanovu isə onun müavini seçdi. 542 nəfər deputatdan ibarət SSRİ Ali Soveti seçildi. Qurultay N.Rıjkovu Nazirlər Sovetinin sədri, E.Smolentsevi Ali məhkəmənin sədri, A.Suxarevi Baş prokuror, Y.Matveevi Baş dövlət arbitri təsdiq etdi. Qurultayda gedən siyasi müzakirələrdə radikal əhval-ruhiyyəli deputatlar N.Rıjkov hökumətinin iqtisadi siyasətini kəskin tənqid edərək sürətlə bazar iqtisadiyyatına keçməyi tələb etdilər. Demokratik istiqamətli deputatlar mövcud hakimiyyətə qarşı müxalifətə keçərək Regionlararası deputat qrupunda birləşdilər (MDQ). B.N.Yeltsin, A.D.Saxarov, Y.N.Afanasyev, Q.X.Popov qrupun həmsədrləri seçildi. Beləliklə, Qurultay M.S.Qorbaçov başda olmaqla yenidənqurma islahatının mötədil və Regionlararası deputat qrupunun rəhbərləri akademik A.Saxarov, B.Yeltsin, Y.Afanasyev, Q.Popov, A.Sobçak, Y.Çerniçenko başda olmaqla radikal tərəfdarlarını təsbit etdi.

1989-cu ilin payızında Şərqi Avropa ölkələrində baş verən “dinc” və “məxməri inqilab” demokratik müxalifətin daha qəti addım atması ilə müşayiət olundu.1989-cu ilin dekabrında 2-ci xalq deputatları Qurultayında Regionlararası deputat qrupunun üzvləri Sov.İKP-nı “sovet cəmiyyətinin aparıcı və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin nüvəsi” elan edən 1977-ci il Konstitusiyasının 6-cı maddəsini ləğv etməyi tələb etdi. Deputatların bu tələbini bir çox mətbuat orqanı, xüsusilə tətil edən mədənçilər müdafiə etdi. Keçirilən sorğuya əsasən cəmiyyətdə mövcud ictimai rəyə görə 50 faizdən çox əhalinin bu tələbi müdafiə etməsinə baxmayaraq qurultay səs çoxluğu ilə onu rədd etdi.

RSFSR xalq deputatları Qurultayına seçkilər yaxınlaşırdı. İttifaq rəhbərliyində və Qurultayda çoxluq əldə edə bilməyən radikallar Rusiyada qələbə qazanaraq onun müstəqilliyini elan etməklə mərkəzi hakimiyyətin real gücündən xilas olmaq niyyəti ilə 1990-cı il yanvarın 21-22-də “Demokratik Rossiya” blokunu yaratdılar. Blokun özəyini Regionlararası deputat qrupunun nümayəndələri təşkil edirdi. Onlar öz platformalarına Konstitusiyanın 6-cı maddəsinin ləğv edilməsini, istehsal və dövlət idarələrində partiya orqanlarının işinə xitam verilməsini, Ali Sovetin daimi fəaliyyət gösətərən orqana çevrilməsini daxil etmişdilər. Eyni zamanda Moskva ali partiya məktəbinin rektoru V.Şostakovski və elmi kommunizm müəllimi V.Lısenko “Sov. İKP-də Demokratik platforma”nı yaradaraq Sov.İKP-nı parlament tipli partiyaya çevirmək məqsədi daşıyırdılar.

Demokratik qüvvələrin məqsədyönlü fəaliyyəti, real sosializmin total tənqidi sayəsində partiyanın daxilində ziddiyyətlər getdikcə dərinləşir, onun liderləri hakimiyyətdən və xalqdan uzaqlaşırdı. M.S.Qorbaçovun mövqeyindəki tərəddüdlər onun həm sağdan, həm də soldan tənqidini gücləndirdi. İctimai rəyin sorğusuna əsasən 1989-cu ilin dekabrında rəyi soruşulanların 52, 1990-cı ilin oktyabrında isə yalnız 21 faizi M.Qorbaçovu müdafiə edirdi. Bu isə o demək idi ki, kommunist partiyasının və onun lideri M.Qorbaçovun nüfuzu gündən-günə aşağı düşürdü. Cərəyan edən gərginlik Litva kommunist partiyasının parçalanmasına səbəb oldu. Litva Kommunist partiyası MK-nın birinci katibi A.Brazauskas başda olmaqla kommunistlərin böyük əksəriyyəti Sov.İKP-dən çıxdıqlarını elan etdilər. Azlığı təmsil edən ikinci qrup Sov.İKP platformasında qaldığını bəyan etdi. Belə şəraitdə, M.Qorbaçov təşəbbüsü ələ almağa çalışaraq 1990-cı ilin fevralında Mərkəzi Komitənin Plenumunda 6-cı maddədən imtina etmək haqqında qərarı keçirə bildi. 1990-cı il martın ortalarında 3-cü Xalq deputatları qurultayında SSRİ Konstitusiyasının 6-cı maddəsi ləğv edildi. Ümumxalq səsverməsi ilə deyil, qurultay nümayəndələrinin 60 faizinin səsi ilə M.S.Qorbaçov SSRİ-nin ilk və son prezidenti seçildi. Beləliklə, SSRİ-də çoxpartiyalı sistemin əsası qoyuldu. 1990-cı ilin iyulunda Sov.İKP-nın XXVIII qurultayı partiyanın yeni proqramını qəbul edərək onun məqsədinin demokratik sosializm quruculuğu olduğunu elan etdi. Bu əslində M.S.Qorbaçov və onun tərəfdarlarının qərbi Avropa sosial-demokratları ilə yaxınlaşması demək idi. Lakin Sov.İKP-ni parlament tipli demokratik partiyaya çevirmərk mümkün olmadı. B.N.Yeltsin 1990-cı ildə Sov.İKP

sıralarını tərk etdiyini bildirdi. Sov.İKP-nın XXVIII qurultayından sonra bir il ərzində 4 milyon adam Kommunist partiyasının sıralarını tərk etdi. Sov.İKP parçalanması nəticəsində 1990-cı il iyunun 19-da İ.K.Polozkov birinci katib olmaqla Sov.İKP-nin tərkib hissəsi kimi Rusiya Kommunist Partiyası (RKP) yarandı. Onun fəal rəhbərlərindən biri G.Züqanov oldu.

1990-cı ilin mayında 1-ci Rusiya Xalq deputatları qurultayı oldu. B.N.Yeltsin Ali Sovetin sədri seçildi. Regionlararası qrupun liderləri Q.X.Popov Moskva şəhər sovetinin, A.A.Sobçak isə Leninqrad şəhər Sovetinin sədrləri seçildi. 1990-cı il iyunun 12-də deputatlar Rusiyanın dövlət müstəqilliyi haqqında Bəyannamə qəbul etdilər. 1990-cı ildə demək olar ki, bütün respublikalar müstəqillik haqqında bəyannamə qəbul etmişdi.

1990-cı ilin dekabrında 4-cü SSRİ Xalq deputatları qurultayında mühafizəkarların köməyi ilə M.S.Qorbaçov prezident kimi yeni adı Nazirlər Kabineti olan hökumətə bilavasitə rəhbərlik etmək səlahiyyəti aldı. İstefaya gedən N.İ.Rıjkovun yerinə maliyyə naziri V.S.Pavlov Nazirlər Kabinetinin sədri oldu.Yeni təsis edilən vitse-prezident vəzifəsinə M.Qorbaçovun təkidi ilə keçmiş komsomol və partiya işçisi G.İ.Yanaev təyin olundu. Mühafizəkarların nifrət etdikləri Xarici İşlər Naziri E.A.Şevardnadze diktaturanın təhlükəsini xəbərdar edərək istefaya getdi.

1991-ci il martın 17-də SSRİ-nin qalması ilə bağlı referendum keçirildi. Ölkə əhalisinin böyük əksəriyyəti, yəni 71,3 faizi Sovet İttifaqına səs verdi. Martın 28-də RSFSR Xalq Deputatlarının fövqəladə qurultayı toplandı. Qurultayda kommunist deputatlar arasında parçalanma baş verdi, A.Rutskoy "Kommunistlər demokratiya uğrunda" fraksiyasın yaratdı və B.N.Yeltsini müdafiə etdiyini bildirdi. Qurultay R.Xasbulatovun köməyi ilə 1991-ci ilin iyununda Rusiyanın Prezidentini seçməyi qərara aldı.

B.N.Yeltsin 1991-ci il iyunun12-də ümumxalq səsverməsində səslərin 57 faizini alaraq Rusiya Federasiyasının prezidenti seçildi. Prezidentliyə namizəd N.Rıjkov səslərin yalnız 17 faizini qazana bildi. A.V.Rutskoy vitse-prezident seçildi. 1991-ci il iyulun 20-də B.Yeltsin müəssisə və idarələrdə partiya komitələrinin fəaliyyətinin qadağan edilməsi haqqında fərman imzaladı. Bu sayları 21-dən 15 milyon nəfərə düşən Sov.İKP-nin dağılması daha da sürətləndirdi.

***SSRİ-nin dağılması. MDB-nin yaranması.*** Ölkədəki mürəkkəb iqtisadi şəraitdə aşkarlıq və kütlələrin müstəqil siyasi fəaliyyətinin artmasl millətlər arasında münasibətlərin kəskinləşməsi ilə müşayiət olundu. Mərkəzi partiya-dövlət aparatının zəifləməsi şəraitində yerli hakimiyyət milli burjuaziya ilə dil taparaq öz mövqeyini möhkəmlətmək istəyirdi. Yenidənqurmanın ilk illərindən SSRİ xalqları arasında baş qaldıran ziddiyyətlər getdikcə kəskinləşdi. 1986-cı ilin mart-aprel aylarında Yakutiyada yakut və rus tələbələr arasında ilk toqquşma baş verdi. 1986-cı il dekbarın 17-19-da Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə D.A.Kunayevin yerinə milliyyətcə rus olan G.V.Kolbin təyin edildikdə minlərlə qazax gənci etiraz əlaməti olaraq küçələrə çıxdı. Çıxışların qarşısını almaq məqsədilə mərkəzi hakimiyyət ordu qüvvələrindən istifadə etdi. Ölənlər və minlərlə yaralananlar oldu.

Sovet respublikalarında suverenlik, müstəqillik uğrunda hərəkat genişlənirdi. Elan edilən hüquq bərabərliyi, azad inkişaf faktiki olaraq formal xarakter daşıyırdı. Siyasətdə, iqtisadi inkişafda, mənəvi həyatda mərkəzin göstərişləri əsas rol oynayırdı. Regionların iqtisadi inkişaf səviyyələri, adət və ənələləri, milli xüsusiyyətləri kommunist ideologiyasına tabe edilmişdi. Kommunist ideologiyasına qarşı milli respublikalarda demokratiya və müstəqillik uğrunda hərəkatlar genişlənirdi.

Azərbaycan və Gürcüstan bir çox çətinliklərlə, mərkəzi hakimiyyətin onlara qarşı yeritdiyi siyasi-hərbi avantürist xətti ilə qarşılaşmışdı.1987-ci ilin oktyabrında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində məskunlaşan ermənilər qədim Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbilə çıxış etdilər. Stepanakert və Yerevanda millətçilər mitinq təşkil edərək Azərbaycana qarşı əsli olmayan erməni təxəyyüllü şuarları səsləndirdilər. Ermənistanda yaşayan və lap qədimdən bu torpaqların sakinləri hesab edilən azərbaycanlılar basqı və fiziki cəhətdən məhvedilmə təhlükəsi altında yaşadıqları torpaqları tərk edərək Azərbaycana qaçmağa məcbur oldular. Ermənistandan Azərbaycana 165 min, Azərbaycandan Ermə-

nistana 140 min nəfər adam qaçmışdı. Beləliklə, qədim Azərbaycan torpqaları üstündə başlayan qanlı münaqişə tezliklə tərəflər arasında sonu görünməyən müharibəyə çevrildi. 1988-ci il sentyabrın 18-21-də Dağlıq Qarabağda erməni və azərbaycanlılar arasında silahlı toqquşma baş verdi. Mərkəzi M.S.Qorbaçov hakimiyyəti Azərbaycana təzyiqi artıraraq noyabrın 24-də Bakı, Naxçıvan və Kirovabadda (Gəncə) xüsusi vəziyyət elan etdi. Dekabrın 5-də sovet ordusu Bakının mərkəzi Lenin meydanını zor tədbiq edərək mitinqçilərdən təmizlədi. 1990-ci ilin əvvəllərində Cənubi Qafqazda vəziyyət daha da kəskinləşdi. 31 dekabr - 2 yanvar tarixlərində Naxçıvan MSSR-də mərkəzi hakimiyyətin siyasətinə və erməni separatçılarının hərəkətlərinə qarşı mitinqlər başladı, etiraz əlaməti olaraq Sovet-İran sərhəd qurğularının bir hissəsi dağıdıldı. Ermənistanda "Qarabağ" komitəsi səfərbərlik elan etdi. M.Qorbaçov hakimiyyətinin hər iki tərəfi razı salamq məqsədilə yeritdiyi yarımçıq və qeyri peşəkar siyasət və ermənilərin təcavüzkar çıxışlarının artması Bakıda vəziyyəti kəskinləşdirdi, şəhəri etiraz mitinqləri bürüdü. 1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tədbiq edilməsi haqqında" fərman verdi. Yanvarın 19-dan 20-ə keçən gecə sovet qoşunları Bakıya hücum edib, ağır və yüngül silahlardan atəş açmaqla sakinləri qətlə yetirdilər. Bakı və ətraf rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, bu hadisə "Qanlı yanvar" kimi tarixə həkk olundu. Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti, zorla onun torpaqlarının zəbt edilməsi, 1990-cı ilin qanlı yanvar qırğını xalqı M.Qorbaçov hakimiyyətinin siyasətinə qarşı fəal mübarizəyə qaldırdı.

1989-cü ilin aprelində Gürcüstanın paytaxtı Tiflisdə kütləvi nümayişlər başladı və onlar Gürcüstanın SSRİ-nin tərkibindən çıxıb müstəqil elan edilməsi tələbini irəli sürdülər. Aprelin 9-da dinc nümayiş ordu qüvvələri tərəfindən dağıdıldı, 19 nəfər öldürüldü, yüzlərlə adam yaralandı. Bu hadisə Gürcüstanın müstəqilliyi uğrunda milli hərəkatın artmasına güclü təkan verdi. Gürcüstan Respublikasının Ali Sovetinə seçkilərdə müstəqillik uğrunda mübarizə aparan "Dəyirmi stol –Azad Gürcüstan" üstünlük qazandı.

1989-1990-cı illərdə Orta Asiya respublikalarında, xüsusilə Əndican, Fərqanə, Oş, Düşənbə və b. yerlərdə millətlər arasında qırğınlar törədildi. Özbəkistanda Məhsəti türklərinə qarşı silahlı basqınlar, təqib və özbaşınalıq daha kəskin xarakter almışdı. 1989-cu ildə Kişinyov, Suxumi, 1990-cı ildə Sxinvalidə milli-etnik zəmində qanlı toqquşmalar nəticəsində ölən və ölkəsində qaçqın vəziyyətinə düşən adamların sayı dahada artmışdır. 1989-cu ildə milli toqquşmalarda 221 nəfər öldüyü halda, təkçə 1990-cı ilin 6 ayı ərzində 632 nəfər ölmüşdür. 4648 talan qeydə alınmış, 600 min qaçqın olmuşdur.

SSRİ-də milli-etnik zəmində baş verən toqquşmalar, onlara qarşı M.Qorbaçov hakimiyyətinin qoşun işlətməklə gördüyü səbatsız tədbirlər Sovetlər ittifaqının dağılmasını daha da sürətləndirdi. SSRİ-nin dağılmasının qarşısını almağa çalışan M.Qorbaçov yeni ittifaq müqaviləsi bağlamağı təklif etdi və 1990-ci ilin noyabrında onun müzakirəsinə başlandı.Yeni dövləti güclü mərkəz olmaqla federasiya formasında yartmaq nəzərdə tutulurdu. Gürcüstan və Baltikyanı respublikaları müstəqillik uğrunda mübarizə kursun qəbul etdiklərinə görə bu müzakirələrdə iştirak etmirdi. Mərkəzi hakimiyyət əvvəllər olduğu kimi güc tətbiq etməklə məsələni həll etmək niyyətində idi. 1991-ci ilin yanvarında Litvanın müstəqilliyinin əleyhdarları olan ictimai xilasetmə Komitəsi V.Landsberqin başçılığı ilə Respublika Ali Sovetində qələbə çalan xalq cəbhəsini devirmək üçün hərəkətə keçdi. Sovet ordusu və DTK-nin qüvvələri Vilnüsda televiziya mərkəzini silah tətbiq etməklə tutdu. Əməliyyatın gedişində 14 nəfər öldürüldü. Vilnüs əhalisi Litva Ali Sovetinin ətrafında barrikadalar qurdu. Qanuni seçilən Litva parlamentini zor gücünə devirmək mümkün olmadı. Eyni hadisələr Riqada da təkrar olundu. M.Qorbaçov formal olaraq Baltikyanı respublikalardakı hadisələrə onun deyil müstəqillik elan edən yerli hökumətlərin cavabdeh olduğunu bildirdi. Eyni zamanda aşkarlığı elan edən M.Qorbaçov söz azadlığını məhdudlaşdıraraq mətbuat haqqında Qanunun fəaliyyətini dayandırdı. 1991-ci ilin fevralında Litvada respublikanın SSRİ tərkibində qalıb-qalmaması referendumu keçirildi. Referendumda iştirak edənlərin 90 faizi müstəqilliyə səs verdi. M.Qorbaçov əvvəlcədən bu referendumu qanunsuz elan etdi.

Baltikyanı dövlətlərdəki hadisələr Rusiya hakimiyyətində narazılığa səbəb oldu,

M.Qorbaçovun demokratik baxışlı qüvvələr içərisində qəti olaraq nüfuzdan düşməsinə şərait yaratdı. B.N.Yeltsin açıq şəkildə Baltikyanı respublikalarının müstəqillik mübarizəsini müdafiə etdi və M.Qorbaçovu SSRİ prezidenti kimi istefaya dəvət etdi. B.Yeltsin RSFSR prezidenti seçildikdən sonra onun ümumittifaq orqanlarına, Sov.İKP-yə və M.Qorbaçovun siyasətinə qarşı amansız çıxışları daha da artmışdı.

1991-ci ilin aprelində M.S.Qorbaçov respublika liderlərinin razılığını alaraq Novo-Oqaryovda prezident iqamətgahında görüşdən sonra iqtisadiyyat və siyasi vəziyyəti sabitləşdirmək üzrə birgə tədbirlər və yeni ittifaq müqaviləsinin hazırlanmasına dair onların (doqquz respublika + SSRİ Prezidenti) bəyanatı ilə çıxış etdi. 1991-ci il iyulun 23-24-də Novo-Oqaryovda müttəfiq respublika rəhbərlərinin yığıncağında 26 maddə və 4 hissədən ibarət "Suveren Dövlətlərin İttifaqı haqqında müqavilə"nin mətni razılaşdırıldı. Müqavilə iştirakçısı olan hər bir respublika suveren dövlət elan edilir, sosializmdən isə söhbət belə getmirdi. Hakimiyyət orqanları strukturunda, idarəetmədə, yeni Konstitusiyanın qəbulu və seçki sistemində dəyişikliklər tətbiq edilməsi nəzərdə tutulurdu. Müqavilənin təsdiq edilməsi 1991-ci il avqustun 20-nə təyin edilmişdir.

Lakin yeni İttifaq müqaviləsi mətn layihəsinin müzakirəsi və mətnin çap edilməsi cəmiyyəti parçaladı. M.S.Qorbaçovun tərəfdarları müqaviləyə qarşıdurmanın azalması və ölkədə vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması kimi baxırdı. "Demokratik Rusiya" hərəkatının rəhbərləri bir il müddətinə müvəqqəti müqavilə imzalamağı təklif edirdi. Bu vaxtda Müəssislər Məclisinə seçkilər keçirib ümumittifaq hakimiyyət orqanlarını formalaşdırmaq sistemin müəyyən edilməsini həll etmək nəzərdə tutulurdu. Bir qrup ictimaiyyətçi alim müqavilə layihəsinə qarşı çıxış edərək belə bir sənədi mərkəzi respublikların milli-separatçı qüvvələri qarşısında təslim olmaq aktı kimi qiymətləndirdilər. Yeni müqavilənin əleyhdarları belə düşünürdülər ki, SSRİ-nin demontaj edilməsi mövcud xalq təsərrüfatı kompleksinin dağılmasına və iqtisadi böhranın dərinləşməsinə gətirib çıxarar.

Yeni müqavilənin imzalanmasına bir neçə gün qalmış müxalif qüvvələri islahat siyasətinə son qoymaq və dövlətin dağılmasının qarşısını almağa cəhd etdilər. SSRİ-nin bir qrup yüksək rütbəli dövlət rəhbəri, o cümlədən güc strukturlarının başçıları 1991-ci il avqustun 19-na keçən gecə Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaratdılar, "səhhəti ilə bağlı SSRİ prezidenti vəzifəsini icra edə bilmədiyinə görə M.S.Qorbaçovun istefaya göndərildiyi, SSRİ Konstitusiyasının 127-ci maddəsinə müvafiq olaraq SSRİ İttifaqı prezidentinin səlahiyyətlərinin SSRİ-nin vitse-prezidenti Gennadi İvanoviç Yanayevə keçdiyi" bildirildi. Ölkədə 6 aylıq fövqəladə vəziyyət rejimini səmərəli həyata keçirmək məqsədilə SSRİ Müdafiə Şurasının birinci müavini O.D.Baklanov, SSRİ DTK-nin sədri V.A.Kryuçkov, SSRİ-nin Baş naziri V.S.Pavlov, SSRİ Daxili İşlər naziri B.K.Puqo, SSRİ Müdafiə naziri D.T.Yazovdan ibarət Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaradıldı. DFVK iqtisadi və siyasi böhranı, millətlər və vətəndaşlar arasındakı qarşıdurmanı və anarxiyanı aradan qaldırmağı özünün vəzifəsi elan etdi. Bu isə o demək idi ki, SSRİ-də 1985-ci ilə kimi olan qayda-qanunu təmin etmək əsas məqsəd daşıyırdı.

Avqust hadisələrinin mərkəzi SSRİ-nin paytaxtı Moskva şəhəri oldu. Şəhərə ordu hissələri yeridildi və komendant saatı müəyyən olundu. 1991-ci il avqust qiyamının baş tutmamasında Rusiyanın Prezidenti B.N.Yeltsin və demokratik qüvvələr həlledici rol oynadı. B.Yeltsin fərman imzalayaraq DFVK-nin fəaliyyətini konstitusiyaya zidd dövlət çevrilişi cəhdi kimi qiymətləndirdi. Avqustun 21-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında DFVK-nin fəaliyyəti qanundan kənar elan edildi. SSRİ Konstitusiyasına nəzarət Komissiyası da onların fəaliyyətini müdafiə etmədi. İctimaiyyət də DFVK-nin siyasətini müdafiə etmədi. Rusiya hökumətin və parlamentini qiyamçılardan qorumaq üçün minlərlər moskvalı Ağ evi canlı mühasirəyə aldı. Avqustun 21-də Sovetlər evinin ətrafında DFVK-nin tərəfdarları ilə B.N.Yeltsin hakimiyyətinin tərəfdarları arasında toqquşma baş verdi, üç nəfər gənc adam həlak oldu. Avqustun 21-də DFVK-nin üzvləri Krımdakı prezidentin Foros iqamətgahına uçdular, eyni vaxtda RSFSR-in vitse-prezidenti A.V.Rutskoy da M.S.Qorbaçovla görüşmək məqsədilə başqa təyyarədə ora uçdu. M.S.Qorbaçov DFVK-nin üzvlərini qəbul etməyərək Rusiya rəhbərli-

yinin nümayəndələri ilə Moskvaya qayıtdı. 1991-ci il avqustun 22-də DFVK-nin üzvləri dövlət çevrilişinə cəhd maddəsi ilə həbs edilərək sonradan əfv olundular. Ölkə dövlət çevrilişi və onun totalitar nəticələrindən xilas oldu.

Avqustun 19-21-də dövlət çevrilişi cəhdindən sonra B.Yeltsinin fərmanı ilə RSFSR Kommunist partiyasının fəaliyyəti dayandırıldı. M.S.Qorbaçov Sov.İKP MK-nin Baş Katibi vəzifəsini buraxdı və partiyanı özünü buraxmağa çağırdı. Sov.İKP-nin fəaliyyəti bütün SSRİ ərazisində dayandırıldı. Bütün partiya əmlakı dövlət mülkiyyəti elan edildi. 10 gün ərzində keçmiş sovet respublikaları, o cümlədən, Estoniya, Latviya, Ukrayna, Moldova, Azərbaycan, Özbəkistan və Qırğızıstan öz mütəqilliyini elan etdi. Litva və Gürcüstan isə hələ avqust qiyamına kimi öz müstəqilliyini elan etmişdi.

1991-ci il sentyabrın 2-dən SSRİ Xalq deputatlarının V qurultayı keçirildi, qurultay keçid dövründə hakimiyyət haqqında, Konstitusiya qanunu qəbul edərək öz funksiyalarını SSRİ Dövlət Şurasına verdi. 1991-ci il noyabrın 14-də M.S.Qorbaçov Novo-Oqoryovda Dövlət Şurasının iclasında 7 respublikanın nümayəndələri ilə yeni siyasi ittifaqın yaradılamsı haqqında razılığa gəlsə də, uğur qazana bilmədi. Gündən-günə dərinləşən iqtisadi böhran şəraitində ayrı-ayrı respubliklar belə hesab edirdilər ki, təkbaşına onlar əhalini ərzaq və gündəlik tələbat malları ilə daha asan təmin edə bilərlər. Dekabrın 1-də Ukraynada ölkənin statusu ilə bağlı referendum keçirildi. Səsvermədə iştirak edənlərin 90,32 faizi Ukraynanın dövlət müstəqilliyinə səs verdi. Ukraynanın prezidenti seçilən L.M.Kravçuk 1991-ci il dekabrın 5-də respublikanın 1922-ci il ittifaq müqaviləsindən çıxdığını bəyan etdi. SSRİ-nin sakit dağılması prosesi başladı. 1991-ci il dekabrın 8-də Rusiyanın prezidenti B.N.Yeltsin, Ukraynanın prezidenti L.M.Kravçuk və Belarusiya Ali Sovetinin sədri S.İ.Şuşkeviç Minskin yaxınlığındakı "Belaya Veja" adlı yerdə SSRİ İttifaqının dayandırılması və üç respublikanın daxil olduğu Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında müqavilə imzaladılar. Dekabrın 10-da müqaviləni Ukrayna və Belarusiya parlamentləri, dekabrın 12-də isə Rusiya Ali Soveti təstiq edib, parafladı. 1991-ci il dekabrın 21-də Baltikyanı respublikaları və Gürcüstandan başqa 11 respublika, o cümlədən Azərbaycan, Belarus, Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, Ermənistan və Moldova Alma-Ata Bəyannaməsini qəbul edərək MDB-yə daxil oldu. Bəyənnamədə qeyd olunurdu ki, MDB-yə daxil olan ölkələr demokratik hüquqi dövlət qurmağı, müstəqilliyi, qarşılıqlı hörməti, bir-birinin daxili işinə qarışmamağı, bir-birinə qarşı zor işlətməməyi, azlıqların problemlərini sülh yolu ilə həll etməyi və s. kimi öhdəlikləri üzərlərinə götürmüşlər. Sənəddə göstərilirdi ki, MDB-nin yaranması ilə SSRİ öz varlığına xitam verir. 1991-ci il dekabrın 25-də Moskva vaxtı ilə saat 19.00-da M.S.Qorbaçov televiziya ilə çıxış edərək elan etdi ki, "Müstəqil Dövlətlər Birliyinin yaranması ilə bağlı şəraitə uyğun olaraq SSRİ-nin Prezidenti vəzifəsindən öz fəaliyyətimi dayandırıram". Saat 19.38-də Kreml üzərindəki SSRİ-nin qırmızı bayrağı üç rəngli Rusiya bayrağı ilə əvəz olundu. 1991-ci ilin dekabrın 25-də RSFSR-in Ali Soveti respublikanın yeni-Rusiya Federasiyası (Rusiya) adın qəbul etdi. Dekabrın 26-da SSRİ Ali Soveti SSRİ-nin buraxılması faktını təstiq edib öz fəaliyyətini dayandırdı.

***SSRİ-nin 1985-1991-ci illərdə xarici siyasəti.*** 1985-ci ilin martında M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə sovet xarici siyasətində radikal dəyişikliklər başlandı. 1985-ci ilin iyulunda bir neçə onillik boyu SSRİ-nin xarici siyasət xəttini müəyyən edən, görkəmli sovet diplomatı və siyasi xadimi A.A.Qromıkonu Xarici İşlər naziri vəzifəsində Gürcüstan KP MK-nın keçmiş birinci katibi, Siyasi Büronun üzvü E.A.Şeverdnadze əvəz etdi. A.Qromıko fəxri vəzifə hesab olunun SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri təyin edildi və 1989-cu ilə kimi bu vəzifədə qaldı. E.Şeverdnadze ilk iş olaraq demək olar ki, nazirliyin bütün işçilərini, özünün 12 müavinindən 10-nu, idarə rəislərinin böyük əksəriyyətini dəyişdirdi. M.Qorbaçov xarici siyasət məsələləri üzrə özünün yaxın silahdaşları E.Şevardnadze, A.Yakovlev, G.Arbatovla birlikdə dövlət xarici siyasətinin 3 əsas istiqamətini müəyyən etdi: Birincisi, ABŞ-la tərkisilah məsələsinə dair danışıqlar vasitəsilə Şərqlə Qərb arasında gərginliyi yumşaltmaq; ikincisi, Əfqanıstandan başlayaraq regional münaqişələri nizamlamaq; üçüncüsü, mövcud dünya nizamını qəbul edərək marksist-leninçi istiqamətli dövlətlərə üstünlük vermədən bütün dövlətlərlə

iqtisadi əlaqələri genişləndirmək.

1985-ci ilin noyabrında Cenevrədə M.Qorbaçov R.Reyqanla görüşərək tərkisilahı sürətləndirmək məsələsini müzakirə etdi. 1986-cı ilin oktyabrında Reykyavikdə M.Qorbaçovla R.Reyqanın növbəti görüşündə Avropada orta mənzilli raketlərin ləğv edilməsi, "Strateji müdafiə təşəbbüsü"nə dair işlərin dayandırılması və s. məsələlər müzakirə edilərək tərəflərin mövqelərində xeyli yaxınlaşmaya nail olundu. 1987-ci il dekabrın 8-də Vaşinqtonda M.Qorbaçovun səfəri vaxtı yüksək səviyyəli Sovet-Amerika görüşü zamanı yaxın və orta mənzilli raketlərin ləğvinə dair müqavilə imzalandı. Müqaviləyə əsasən SSRİ 826 ədəd orta mənzilli, 926 ədəd yaxın mənzilli, ABŞ 683 orta mənzilli, 170 yaxın mənzilli raket ləğv etməli idi. Orta mənzilli raketlərin 3 il, yaxın mənzilli raketlərin 1,5 il müddətində ləğv edilməsi nəzərdə tuturdu. 1988-ci iin mayında ABŞ Senatı, ertəsi gün isə SSRİ Ali Soveti bu müqaviləni təstiq etdi. 1988-ci ilin may-iyun aylarında ABŞ-ın prezidenti R.Reyqan Sovet İttifaqına səfərə gəldikdə yaxın və orta mənzilli raketlərin ləğvinə dair müqavilənin paraflanmış sənədləri mübadilə edilərək qüvvəyə mindi. Yüksək səviyyəli Sovet-Amerika görüşləri və konkret nəticə SSRİ-ABŞ qarşıdurmasını xeyli zəiflətdi. Fakt isə ondan ibarətdir ki, hərbi nöqteyi-nəzərdən yaxın və orta mənzilli raketlərin ləğvinə dair müqaviləni imzalamaqla M.S.Qorbaçov rəhbərliyi birtərəfli olaraq ABŞ-a əhəmiyyətli dərəcədə güzəştə getmişdi.

1987-ci ildə M.S.Qorbaçov "Bizim ölkə və bütün dünya üçün yenidənqurma və yeni təfəkkür" kitabını çap etdirdi. "Yeni təfəkkürün" beynəlxalq məsələlərdə mahiyyəti ondan ibarətdir ki, bütün bəşəriyyət sivilizasiyası bir-biri ilə sıx bağlıdır, müasir dünyada məqsədə güc vasitəsilə çatmaq qeyri-mümkündür, odur ki, ideoloji müxtəlifliyə əsaslanan qarşıdurmadan əl çəkib, bəşəriyyətin qarşısında duran qlobal problemlərin birlikdə həllinə səy göstərməliyik. Praktik olaraq "yeni təfəkkür" sovet iqtisadiyyatını hərbi yükdən azad etməyə şərait yaratmaqla bərabər iqtisadi islahatların həyata keçirilməsi məqsədilə qərbdən kredit almağı da təmin etməli idi.

"Yeni təfəkkür" siyasətinə uyğun olaraq SSRİ-nin beynəlxalq aləmdə öz müttəfiqlərinə qarşı münasibəti dəyişdirməsini tələb edirdi. İkili standart yanaşmasından Sovet İttifaqı əl çəkərək hər bir xalqın öz talehini həll etmək hüququnu sözdə deyil əməli fəaliyyətdə nümayiş etdirdi. Hələ 1986-cı ilin noyabrın 13-də Siyasi Büronun iclasında etiraf edildi ki, Əfqanıstana daxil olan sovet ordusu xalqın daxili köməyinə arxalanmır və hərbi qələbənin qazanılması prespektivi yoxdur. Qərara alındı ki, 1-2 il ərzində müharibəyə son qoyulsun. Uzun və gərgin danışıqlardan sonra SSRİ, ABŞ, Əfqanıstan və Pakistan nümayəndələri 1988-ci ilin aprelində Əfqanıstanda siyasi vəziyyəti normallaşdırmaq haqqında saziş imzaladılar. 1988-ci il mayın 15-dən sovet qoşunları Əfqanıstandan çıxarılmağa başlandı və bu proses 1989-cu il fevralın 15-də başa çatdı. 1989-cu ilin dekabrında 2-ci SSRİ Xalq Deputatları qurultayı Sovet qoşunlarının Əfqanıstana yeridilməsini siyasi səhv kimi qiymətləndirdi.

SSRİ M.Qorbaçov hakimiyyətinin elan etdiyi xarici siyasət doktrinasına əsaslanaraq Qərblə münasibətləri yaxşılaşdırmaq, iqtisadi çətinlikləri yüngülləşdirmək məqsədilə 80-ci illərin ikinci yarısında Anqola, Mozambik, Efiopiya, Nikaraqua kimi ölkələrdəki münaqişlərə hərbi kömək göstərməkdən imtina etdi. İnkişaf etməkdə olan ölkələrə iqtisadi və hərbi kömək göstərilməsi kəskin azaldıldı.

Sovet qoşunlarının Əfqanıstandan çıxarılması, orta və yaxınmənzilli raketlərin Asiyada yerləşdirilməsindən imtina edilməsi, SSRİ Çin sərhədində sovet qoşunlarının azaldılması, Kambocada Vyetnama hərbi köməyin dayandırılması Sovet-Çin münasibətlərini normallaşdırdı. 1989-cu ilin mayında SSRİ-nin rəhbəri M.S.Qorbaçov Çinə səfər edərək Pekində ölkənin liderləri Den Syaopin və Çjao Tszıyan ilə görüşdü. Yüksək səviyyədə keçən Sovet-Çin görüşündə hər iki tərəf dövlətlər arasındakı fikir ayrılığını aradan qaldırmaq əzmini nümayiş etdirdi.

SSRİ-də meydana gələn inzibati-amirlik sistemli sovet modelli sosializm quruculuğunun ilk illərində bütün sosialist ölkələri üçün məqbul sayılsa da sonralar sovet təcrübəsi sosialist ölkələri üçün bir buxova çevrildi. Ləngimə mexanizmi, iqtisadi böhranın dərinləşməsi sosializm sisteminin iflasını sürtələndirdi. Xalq təsərrüfatının müxtəlif sahələri intensiv inkişaf

mərhələsinə keçirilmədi, elmi-texniki tərəqqinin böyük imkanları lazımınca qiymətləndirilmədi, onun nailiyyətlərinin istehsalata tətbiq edilməsində inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınmadı. Sənaye və kənd təsərrüfatında əmək məhsuldarlığının aşağı düşməsi sosial gərginliyin yaranmasına səbəb olur, əhalinin rifahına mənfi təsir göstərirdi. İqtisadi tərəqqi dinamikasının pozulması, xarici ölkələrə olan dövlət borclarının artması bir çox sosialist ölkələrində vəziyyəti mürəkkəbləşdirdi. Sosializmin demokratiyanın yüksək tipi olması haqqında iddia real həyatla ayaqlaşmırdı. İnsan hüquqlarının qorunması həm daxildə, həm də xaricdə əsaslı tənqid edilirdi. Demokratik prinsiplərin, aşkarlığın pozulması Kommunist partiyasının nüfuzdan düşməsinə səbəb oldu. SSRİ-də M.S.Qorbaçovun elan etdiyi yenidənqurma siyasəti, yeni siyasi təfəkkür fəlsəfəsi sosialist ölkələrində tədbiq edilə bilməzdi. Beləliklə, Şərqi Avropanın sosialist ölkələri çətin sınaq və dəyişikliklər dövrünə daxil oldular, 1980-ci illərin sonu-90-cı illərin əvvəllərində sosializm sistemi dağıldı.

1980-ci illərdə sosialist ölkələrini bürümüş böhran Macarıstanı da əhatə etmişdi. Macarıstan Sosialist Fəhlə Partiyası (MSFP) xalq içərisində nüfuzunu itirmiş, köhnə totalitar üsullarla ölkəni idarə edə bilmirdi. 1989-cu ilin oktyabrında MSFP-nın qurultayı proletariat diktaturası, bir sinfin hakimiyyəti konsepsiyasından imtina edərək çoxpartiyalı sistemə keçilməsinə səs verdi. Partiyanın yeni adı Macarıstan Sosialist Partiyası oldu. Macarıstan mülkiyyət formalarının müxtəlifliyinə, bazar iqtisadiyyatının inkişafına əsaslanan yola keçdi.

Sovet İttifaqında elan edilən yenidənqurma islahatları sosialist ölkələri liderlərinin müqavimətilə qarşılandı. Onlar öz ölkələrində totalitar metodlu iş üslubunu davam etdirməkdə idi. Polşadakı daxili gərgin vəziyyət 1989-cu ildə "Həmrəylik" müstəqil həmkarlar təşkilatını leqallaşdırmağa, müxalifətin siyasi fəaliyyət hüququnu tanımaqla "dəyirmi stol" təşkil etməyə səbəb oldu. Seymin və senatın birgə iclasında general V.Yaruzelski prezident seçildi, tezliklə onu bu vəzifədə "Həmrəyliy"in tanınmış lideri L.Valensa əvəz etdi. 1990-cı ilin yanvarında PBFP-nın qurultayı çağırıldı və partiyanın yeni adı Polşa Respublikası Sosial Demokratiyası oldu. Polşa parlament demokratiyası və çoxpartiyalı sistemə keçdiyini bəyan etdi.

Rumıniyada 1965-ci ildən hakimiyyətdə olan N.Çauşeskunun amirlik sisteminə qarşı ölkədə narazılıq get-gedə artırdı. 1987-ci ildə Rumıniyanı rejimə qarşı nümayişlər bürüdü. 1989-cu ilin dekabrında Timişoara şəhərində kütləvi iğtişaşlar baş verdi. Dekabrın 22-də Buxarestin mərkəzi meydanında N.Çauşesku siyasətini müdafiə edən mitinqdə birdən-birə "Rədd olsun Çauşesku!" sədaları ucaldı.Çaxnaşma başladı, ordunun bir hissəsi xalqın tərəfinə keçdi. Rumıniya yeganə Avropa ölkəsi idi ki, azadlıq mübarizəsində qan töküldü, 1200 nəfər öldü, minlərlə insan yaralandı. İnqilab qalib gəldi, N.Çauşeskunun diktaturası devrildi. N.Çauşesku və arvadı həbs edilərək hərbi məhkəmənin hökmü ilə dərhal güllələndilər.1990-cı ilin mayında parlament seçkilərində Milli Qurtuluş Cəbhəsi (MQC) aşağı palatada və senatda yerlərin mütləq çoxluğunu qazandı. Səslərin 87 faizini qazanan İ.İlieski Rumıniyanın yeni prezidenti seçildi. 1989-cu il dekabr inqilabından sonra Rumıniya hüquqi dövlət kimi inkişaf edir, xarici siyasət sahəsində sülh və xalqların təhlükəsizliyini, əməkdaşlıq və qarşılıqlı yardım, Avropa və NATO ölkələrinə inteqrasiya yolunu müəyyən etmişdir.

Şərqi Avropanın bütün sosialist ölkələrində olduğu kimi 1989-cu ilin yayında Bolqarıstanda iqtisadi, sosial-siyasi vəziyyət kəskinləşdi. Teodor Jivkovun hakimiyyəti dövründə məhsul çatışmazlığı, inflyasiyasnın artması ilə bərabər milli münasibətlər sahəsində də vəziyyət gərginləşdi. Xüsusilə, türklərə qarşı ayrı-seçkilik, onların hüquqlarının tapdalanması daxili vəziyyətin nəzarətdən çıxmasına təkan verdi. 1989-cu il noyabrın 10-da BKP MK plenumu Y.Jivkovu baş katib vəzifəsindən azad etdi. 1990-ci ildə keçirilmiş BKP-nın XIV qurultayı T.Jivkov rejiminin daxili və xarici siyasi xəttini ifşa edərək, partiyanın adını dəyişib Bolqarıstan Sosialist Partiyası qoydu. Ölkədə prezident vəzifəsi təsis edildi və P.Mladenov Bolqarıstanın ilk prezidenti seçildi. Bolqarıstan köklü siyasi və iqtisadi dəyişikliklər yoluna qədəm qoydu.

SSRİ aşkarlıq və yenidənqurma dövrünə qədəm qoyduqdan sonra M.S.Qorbaçovun Çexoslovakiyaya səfəri və 1987-ci ilin sonunda M.Yakeşin ÇKP MK-nın birinci katibi seçilməsi ölkədə siyasi həyatın demokratikləşməsinə ümidləri artırdı. Lakin mühafizəkar ölkə

rəhbərliyinin mövqeyi üzündən bu baş tutmadı.1968-ci ildə Sovet ordusunun Çexoslovakiyaya müdaxiləsinin 20 illiyi və 1918-ci ilin oktyabrın 28-də ölkənin müstəqillik günü münasibətilə Praqanın mərkəzində icazəsiz nümayişlər başlandı. 1989-cu ilin noyabrın 17-də tələbə nümayişinin hökumət qüvvələri tərəfindən dağıdılması cəmiyyəti qəzəbləndirdi və kütləvi nümayişlər başlandı. 1989-cu il noyabrın 19-da qeyri-formal təşkilatlar əsasında V.Qavelin başçılığı ilə "Vətəndaş forumu" (VF) hərəkatı yarandı. Hakimiyyət orqanları ilə danışıqlar nəticəsində noyabrın 24-də ÇKP MK-nın birinci katibi M.Yakeş, dekabrın 3-də isə ölkə prezidenti Q.Qusak istefa verdi. 1989-cu ilin dekabrın 29-da Federal yığıncaq V.Qaveli respublikanın prezidenti seçdi. 1993-cü ilin yanvarın 1-dən Avropanın xəritəsində Çexoslovakiya federasiyası yerinə iki müstəqil dövlət olan Çexiya və Slovakiya Respublikaları meydana gəldi.

Mərkəzi və Cənub-Şərqi Avropanın sosialist ölkələrində baş verən redikal dəyişikliklər ADR-in iqtisadi və siyasi həyatına ciddi təsir etdi. Rejimdən narazı olan almanlar 1989-cu ildə Çexoslovakiya ilə sərhədi keçib Avstriya və AFR-ə köç edirdi.Ağır iqtisadi və siyasi vəziyyət Almaniya Vahid Sosialist Partiyasının (AVSP) nüfuzdan düşməsinə gətirib çıxardı, 1989-cu il oktyabrın 18-də AVSP-nın IX plenumunda Erix Honekker vəzifədən azad edildi, onu Eqon Krens əvəz etdisə də bu vəziyyəti xilas etmədi.Alman xalqı mövcud rejimə qarşı ayağa qalxaraq 1961-ci ildə çəkilmiş Berlin divarını dağıtdı, Konstitusiyada AVSP-nin rəhbər rolu haqqında maddə ləğv edildi. 1989-cu ilin dekabrında olan fövqəladə qurultayda partiya Demokratik Sosialist Partiyası adlandırıldı. İki alman dövlətinin birləşdirilməsi uğrunda mübarizə genişləndi. Bu məsələnin müzakirəsi 1990-ci ilin fevralında keçirilən "2+4", yəni AFR, ADR və İkinci Dünya müharibəsinin qalib dövlətləri ABŞ, SSRİ, İngiltərə, Fransa formulu əsasında baş tutdu. 1990-cı ilin iyulunda M.S.Qorbaçovla AFR-in kansleri Q.Kolun görüşündə SSRİ rəhbəri xərclərin AFR tərəfindən ödənilməsi şərti ilə ADR ərazisindəki 500 minlik sovet hərbi hissələrini çıxarmağa razılıq verdi. Sentyabr ayının 12-də danışıqların iştirakçısı olan dövlətlər Almaniya məsələsinin tənzimlənməsinə dair sənədi imzaladılar. 1990-cı il avqustun 31-də ADR dövlət katibi Krauzen və AFR-in daxili işlər naziri Şoyble Almaniynaın birləşdirilməsi haqqında müqaviləni imzaladılar, müqavilə sentyabrın 29-da hər iki dövlətin parlamenti tərəfindən təstiq edildi və oktyabrın 3-də qüvvəyə mindi. 1990-cı ilin noyabr ayında SSRİ ilə AFR arasında qonşuluq və əməkdaşlıq haqqında müqavilə imzalandı.

Beləliklə, 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində sosialist ölkələrinin idarə edilməsini təmin edən kommunist partiyasının hakimiyyətinə xitam verildi, Cənubi Şərqi Avropa ölkələrində çoxpartiyalı sistem meydana gəldi, ADR AFR-lə vahid Almaniya dövlətində birləşdi, Macarıstan, Polşa, Rumıniya, Bolqarıstan, Çexoslovakiya kimi ölkələr də bazar iqtisadiyyatına və demokratik prinsiplərə söykənən cəmiyyət qurmağa başladı.1990-ci ildən başlayaraq sovet ordusu Şərqi Avropadan çıxarılmağa başlandı. 1991-ci il aprelin 1-də Varşava Müqaviləsi Təşkilatının (VMT) hərbi strukturunun buraxıldığı elan olundu. İyulun 1-də isə blokun siyasi strukturu ləğv edildi. Həmin gün sovet ordusu Macarıstan və Çexoslovakiyadan çıxarıldı.1991-ci il iyunun 29-da Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) buraxıldı.Bununla da, sosialist əməkdaşlığına son qoyuldu.

1990-cı ilin avqustunda İraq Küveyt ərazisinin tarixən ona məxsus olduğunu irəli sürərək bu ölkəni işğal etdi. Təhlükəsizlik Şurası işğalçı qoşunları Küveytdən çıxarmaq məqsədilə silahlı qüvvələrdən istifadə etməyə dair qərar qəbul etdi.1991-ci ilin yanvarında "səhrada fırtına" əməliyyatı başlandı, əsasən ABŞ-ın hərbi qüvvələri İraq ordusunu məğlub edərək Küveyti azad etdi. SSRİ ilə İraq arasında 1972-ci ildə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalanmasına baxmayaraq Sovet diplomatiyası öz ənənəvi dostunu müdafiə etmədi və işğalçı dövlət kimi İraqa qarşı keçirilən əməliyyata razılıq verdi. Bu antihitler koalisiyasından sonra birinci hadisə idi ki, SSRİ ABŞ-ın üçüncü dövlətə qarşı müdaxiləsini dəstəkləyirdi. Dİgər bir tərəfdən SSRİ ilə İraq arasında mövcud iqtisadi əməkdaşlıq və İraqın SSRİ-yə olan bir neçə milyard dollar həcmindəki dövlət borcları ona qarşı tətbiq edilən iqtisadi embarqo ilə Sovet İttifaqının iqtisadiyyatına zərbə oldu. Bununla belə, təsadüfi deyil ki, 1990-cı ilin noyabrında SSRİ-nin prezidenti M.S.Qorbaçov Sülh uğrunda Nobel mükafatına layiq görüldü. SSRİ-nin yeni xarici siyasət kursu "soyuq müharibə"nin nəticələrini aradan qaldırdı və döv-

lətlər arasındakı etimadsızlığa son qoydu.

## 1940-cı illərin ikinci yarısı-80-ci illərdə SSRİ-də mədəniyyət

***Müharibədən sonra ölkənin mənəvi həyatı.*** Müharibə ölkə mədəniyyətinə ağır zərbə vurmuşdur. Minlərlə məktəb, ali və orta ixtisas müəssisələri, muzey, maddi və mədəniyyət abidəsi dağıdılmışdır. Çoxsaylı istedadlı alim, bədii yaradıcılıqla məşğul olan ziyalı, incəsənət xadimi, mütəxəssis müharibədə həyatını itirərək mənəvi həyatdakı yerlərini tuta bilməmişdir. Xalq üçün əsl imtahan olan 1941- 1945-ci illər müharibəsi onların ən yaxşı keyfiyyətlərini üzə çıxardı. Müharibənin qələbə ilə başa çatması adamların nikbin əhval-ruhiyyəsilə müşayiət olunur, onlar azad və layiqli həyat arzulayırdı. Lakin cəmiyyət üzərində nəzarətin zəiflədilməsi ölkənin partiya və dövlət rəhbərliyinin planına daxil deyildir. Odur ki, Stalin epoxası üçün xarakterik olan mədəniyyətin böhranını səciyyələndirən yeni repressiya dalğası başladı. Müharibə illərində cəmiyyətin düşünən beyni ziyalılar üzərində nəzarəti müəyyən ölçüdə itirən partiya və hökumət total qorxu şəraitini bərpa etmək məqsədilə yaradıcı ziyalıların fəaliyyətinə təzyiqi artırdı. Elmi müzakirələrdə iştirak edən partiya və hakimiyyətin ali rəhbərləri mütəxəssisləri sərbəst fikir ifadə etməkdən məhrum edirdi. Məsələn, 1947-ci ildə fəlsəfə məsələləri üzrə müzakirələrdə ÜİK(b)P MK-nın katibi, Siyasi Büro üzvü A.A.Jdanov, 1950-ci ildəki dilçilik, 1951-ci ildəki siyasi iqtisad üzrə müzakirələrdə İ.V.Stalin şəxsən iştirak edərək alim və ziyalılara tədqiqatçılıq "dərsi" keçmişdir. SSRİ ilə Qərb arasında ideoloji divar çəkən siyasi rejim rəsmi siyasətin dairəsindən kənara çıxan mədəniyyət, incəsənət, elm xadimlərini vətənpərvər olmamaqda günahlandıraraq təqib edirdi. Bu məqsədlə nazirlik və idarələrdə bir il müddətinə 5-7 nəfərdən ibarət Vicdan məhkəmələri təşkil olunmuşdur. Dövlət və coğrafi sərhədlərdən uzaq beynəlmiləl elm və mədəniyyət haqqında düşünən hər bir ziyalı vicdan məhkəməsindən keçmişdir. Belarusiya SSR EA-nın prezidenti, genetik akademik A.R.Jebrak öz metodu ilə bütün ölkəni yedizdirməyə söz verən T.D.Lısenkonu açıq tənqid etdiyi üçün Vicdan məhkəməsində alçaldılaraq prezident vəzifəsindən azad edilmişdir. Beynəlxalq astronavtika akademiyasının həqiqi üzvü, bir sıra xarici elmi cəmiyyətlərin üzvü, Lenin və üç dəfə Qırmızı Əmək Bayrağı ordenli akademik Vasili Vasilyeviç Parin təhqiredici Vicdan məhkəməsində mühakimə edilən alimlərdən biridir.Vicdan məhkəməsinin növbəti qurbanları 1946-cı ildə "Bəd xassəli şişlərin biomüalicəsi" əsərinin müəllifləri professorlar N.Q.Klyuyeva və Q.İ.Roskin olmuşdur. Alimlər nəticədə sınaqdan çıxmayan dərman preparatlarının texnologiyasını ABŞ-a verməkdə ittiham edilsələr də onlar məhkəmədə iddiaları rədd etdilər. Lakin buna baxmayaraq məhkəmə professorları sovet vətəndaşlarına yaraşmayan yalan ifadə verməklə təqsirləndirmişdir. Alim və yaradıcı ziyalılar haqqında alçaldıcı məhkəmələr bir qayda olaraq vətənpərvər olmayan, Qərb qarşısında sitayiş edənlər ittihamı səsləndirirdi.

1948-ci ilin avqustunda V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının "məlum" sessiyasında genetika yalançı elm elan olunaraq SSRİ-də qadağan edildi. Akademik T.D.Lısenkonun başçılıq etidyi kampaniyanın gedişində üç min nəfərə yaxın bioloq alim işdən qovuldu və ya repressiyaya uğradı. Oxşar aqibəti 1950-ci illərdəki fizioloqların sessiyasından sonra ölkədəki fizioloq, psixoloq və tibb alimləri də yaşamışdır.

Bütün təqib və təzyiqlərə baxmayaraq hakimiyyəti təmsil edənlərin elm və mədəniyyət sahəsindəki diktə özbaşınalığına sipər çəkən azsaylı ziyalılar da tarixə öz adlarını yazdırmışdır. Məsələn, fizika sahəsində görkəmli akademiklər A.F.İoffe və P.L.Kapitsa elmin maraqlarını nəzərə alaraq, istedadlı alimləri açıq müdafiə edərək, təhlükəsizlik orqanları əməkdaşlarının əlindən qurtarmışdır. Əsl vətəndaşlıq mövqeyindən çıxış edən Pyotr Leonidoviç Kapitsanın yüksək elektromaqnit sahəsindəki tətqiqatları nəticəsində Sovet İttifaqında yeni istilik nüvə reaktoru yarandı.

Zəncirvari reaksiya nəzəriyyəsinə görə akademik N.N.Semyonov 1956-cı ildə Nobel mükafatına layiq görülmüşdür (amerikan alimi S.Xinşelvendlə birlikdə). Maqnitizm və kvant nəzəriyyəsi sahəsində fəaliyyət göstərən, şöhrəti ölkənin sərhədlərini aşan alimlərdən biri də L.D.Landau olmuşdur. Kvant mayesi nəzəriyyəsinə görə L.D.Landau 1962-ci ildə Nobel mü-

kafatı almışdır. Dünya şöhrətli sovet alimləri N.Q.Basov və A.M.Proxorov xarici kolleqaları G.Taunsomla birlikdə radioelektronika sahəsindəki tətqiqatlara, birinci kvant generatorunu yaratdığına görə 1964-cü ildə Nobel mükafatına layiq görülmüşdür. Müharibədən sonrakı birinci onillikdə SSRİ-də kosmik fəzanın öyrənilməsi sahəsində ilk addımlar atılmışdır. Akademik M.V.Keldışın rəhbərliyi ilə bu sahədə xüsusi komissiya təşkil edilmişdir.

1941-1945 illərdəki müharibədən sonrakı ilk onillikdə ölkənin təhsil sahəsində kəmiyyət dəyişikliyi nəzərə carpırdı. On il ərzində SSRİ-də 5 milyon yeri olan 30 mindın çox tədris müəssisəsi tikilmiş və yaxud bərpa olunmuşdur. Müharibədən sonrakı təhsil sahəsindəki quruculuq işlərində məktəblilər və onların valideynləri yaxından iştirak etdiyi üçün bu kampaniya "Xalq tikintisi" adını almışdır. 1950-1955-ci illərdə ölkədə 50 yeni ali məktəb fəaliyyətə başladı. Müharibədən sonra ölkənin xalq təsərrüfatındakı bərpa və quruculuq işlərində mütəxəssislərə artan tələbatı nəzərə alaraq ali məktəblərə qəbul planı artırıldı. Təkcə, 1951-ci ildə ölkənin ali məktəblərinə 350 min tələbə qəbul edilmişdir.

1950-ci ilin ortalarından məktəb təhsili sahəsində başlıca vəzifə "məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi" idi. Bu vəzifənin həyata keçirilməsi bilavasitə N.S.Xruşşovun hakimiyyəti dövründə bəyan edilən "mülayimləşmə" siyasətilə bağlıdır. 1954-cü ildə il İ.Erenburqun "Mülayim hava" ("Ottepel") romanı çap olundu ki, bu ad N.S.Xruşşov dövrünün məzmunun obrazlı ifadəsi oldu. İ.Stalin hakimiyyəti dövründəki totalitar siyasi rejimin tənqidi "mülayimləşmə"nin əsas hadisəsi hesab oluna bilərdi.Xüsusilə "mülayimləşmə" illərində "sosializmin deformasiyasını" tənqid edən ziyalılar nəsli formalaşdı.

N.S.Xruşşov "mülayimləşməsi" SSRİ tarixinin İ.V.Stalinin ölümündən sonra on ilinin, yəni 1950-ci ilin ortalarından 1960-cı ilin ortalarına kimi davam edən mərhələnin qeyri rəsmi adıdır. SSRİ-nin daxili həyatında Stalinin şəxsiyyətinə pərəstişin tənqidi, 1920-1930-cu illərin repressiyalarının ifşa edilməsi, rejimin liberallaşması, siyasi məhbusların azad edilməsi, QULAQ-ın ləğv olunması, totalitar hakimiyyətin zəiflədilməsi, müəyyən söz azadlığı, siyasi və ictimai həyatın nisbi demokratikləşməsi, Qərb dünyasına açılmaq, yaradıcı fəaliyyətin azadlığı bu dövrün başlıca səciyyəvi xüsusiyyətləridir.

Ölkədəki "mülayimləşmə" kursu ilə əlaqədar olaraq 1955/56-cı tədris ilindən məktəblər politexnik təhsili artırmaq, gənc oğlan və qızları istehsalata hazırlamaq məqsədilə yeni dərs planlarına keçdi. 1958-ci ilin dekabrında "Məktəbin həyatla əlaqəsini möhkəmlətmək və SSRİ-də xalq maarifini daha da inkişaf etdirmək haqqında" qəbul edilən Qanunla ölkədə ümumicbari səkkizillik təhsil tətbiq olundu.Tam orta təhsil müddəti 10 ildən 11 ilə çaxarıldı, eyni zamanda məktəbi bitirən şagirdlər kamal attestatı ilə bərabər hər hansı bir sənətə sahib olmağa dair şəhadətnamə də alırdı. Məktəbin həyatla əlaqəsini gücləndirmək məqsədilə təhsil müddəti 1-3 il olan texniki-peşə məktəbləri şəbəkəsi yarandı. Lakin gənc oğlan və qızların istehsalata maraq göstərilməməsi bu siyasətin uğur qazanmamasına, həm də ümumtəhsil səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Odur ki, 1964-cü ildə məktəblər yenidən 10 illik təhsil proqramına keçdi.

Ali və orta ixtisas təhsilli mütəxəssislərə tələbatın artması 1957-ci ildə iki illik iş stajı olan gənclərin tədris müəssisələrinə qəbulu zamanı onlara üstünlük verilməsi qaydasının tətbiq edilməsini təmin etmişdir. Tələbata uyğun olaraq axşam və qiyabi təhsilin şəbəkəsi daha da genişləndi. Nəticədə xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli işçilərin sayı 1959-cu ildə artaraq fəhlələr arasında 39, kolxozçular arasında isə 21 faiz təşkil etmişdir. 1959-65-ci illərdə ali təhsil məktəbləri ölkənin xalq təsərrüfatı üçün 2,4 milyon nəfər mütəxəssis hazırlamışdır. Lakin kadrlarının sayının artması onların keyfiyyət hazırlığının yüksək səviyyədə olması demək deyildir. Xalq maarifi, ali təhsil və elmi işçilərin əmək haqqının artırılması, onlara bir sıra güzəştlər nəzərdə tutulmasına baxmayaraq təhsilin səviyyəsi 30-cu illərlə müqaisədə belə geri qalırdı. Müəllimlərin böyük əksəriyyəti qısa müddətli kurslarda sürətli proqram əsasında hazırlıq keçirdi ki, bu da onların səviyyəsinə öz mənfi təsirini göstərməyə bilməzdi. Eyni zamanda əvvəllər olduğu kimi cəmiyyətdəki "mülayimləşmə" dövründə də təhsil müəssisələri vahid dərslik və proqramları ilə kommunist tərbiyəsinin mərkəzi olaraq qalırdı. Bir sıra sovet pedaqoqu, o cümlədən sonradan "mücərrəd humanizmdə" ittiham olu-

nan V.A.Suxomlinski təhsil və tərbiyənin metodikasını dəyişərək gənclərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməyi tövsiyə etmişdir. “Mülayimləşmə” illərində formalaşan yenilikçi pedaqoqlar başa düşürdülər ki, xalq təsərrüfatının uğuru yaxın zamanda yeni elmi-tədqiqat institutlarının, konstruktor bürolarının, təcrübə zavodlarının və s. meydana gəlməsindən asılıdır. Odur ki, Yakutiyada, Saxalində, Şərqi Sibirdə, Krımda elmi tədqiqat institutlarının geniş şəbəkəsi yaranmışdır. Novosibirskdə meydana gələn yeni elmi mərkəz mühüm hadisə olmuşdur.

Stalinizm dövründən fərqli olaraq elm nümayəndələri xarici ölkələrdəki kolleqaları ilə sıx əməkdaşlıq edirdi. Amerika, Avropa və Asiyanın 40 nəfərdən çox görkəmli alimi SSRİ EA-nın tərkibinə seçilmişdir. Bununla bərabər, ölkənin bir çox akademik və professoru xarici milli akademiyaların cəmiyyət və universitetlərinin fəxri üzvü seçilmişdir. Stalinizm illərində yalançı elm damğası vurulan sahələr “mülayimləşmə” dövründə tədricən dirçəlməyə başladı. Kibernetika sahəsində akademik A.İ.Berq, avtomatika və telemexanikada akademik V.A.Trapeznikov, yarımkeçiricilər fizikası sahəsində dünya şöhrətli akademik A.F.İoffe, sürətli elektron maşınların yaranmasında akademik S.A.Lebedev sovet elminin şöhrətini ölkəyə və dünyaya yaymışdılar. İ.Stalin repressiyasının qurbanı olaraq “ziyankar və casus” damğası vurulan S.P.Korolyovun başçılığı altında 1957-ci il oktyabrın 4-də yerin ilk süni peyki fəzaya buraxılmışdır.1961-ci il aprelin 12-də pilot kosmonavt mayor Y.A.Qaqarin dünyada birinci “Vostok” gəmisində yer ətrafında dövrə vurdu.

Adını sovet elmi tarixinə qızıl hərflərlə yazdıran İ.V.Kurçatov nüvə enerjisi sahəsində tədqiqatlarını davam etdirmişdir.1957-ci ilin dekabrında ilk nüvə buzqıran gəmisi suya buraxıldı. Şöhrəti ölkənin sərhədlərini aşan A.N.Tupolevin səsdən sürətli reaktiv sərnişin təyyarələri səmada uçmağa başladı. Digər görkəmli aviakonstruktur S.V.İlyuşin yeni sürətli təyyarələrin layihəsini hazırlamışdır.

Tibb elmi sahəsində 300-dən çox elmi tədqiqat institutu və laboratoriya fəaliyyət göstərirdi. Onların işi nəticəsində ölkədə taun, vəba, çiçək, yatalaq, malyariya kimi qorxulu xəstəliklərin kökü kəsilmişdir. Böyük kimyaçı alimlər A.N.Nesmeyanov və İ.L.Knunyansın elmi tədqiqatlarının nəticəsi xalq təsərrüfatında geniş tətbiq olunmuşdur.

Sov.İKP-nin XX qurultayı marksizm-leninizm və partiyalılıq prinsiplərindən uzaqlaşmamaq şərti ilə müəyyən çərçivədə ictimai elmlər sahəsində məsələlərə yeni yanaşma tərzinin əsasını qoymuşdur. Əvvəllər tədqiqatlar üçün əlçatmaz olan sənədlərin üzə çıxması ictimai elmlərin öyrənilməsinə müsbət təsir etdi. Ölkə tarixinin öyrənilməsinə diqqət və maraq artdı. Çox cildlilik “Ümumdünya tarixi”, “Sovet İttifaqının Böyük Vətən müharibəsi tarixi (1941-1945-ci illər)”, “Ən qədim zamanlardan günümüzə qədər SSRİ tarixi” (12 cild), “Böyük sovet ensiklopediyası” işıq üzü gördü. Bu əsərlərdə zəngin faktiki materiallar olmasına baxmayaraq, onlar marksist-leninninçi üslübünda yazılmışdır.

***Ədəbiyyat və incəsənət.*** Müharibədən sonra yaradıcı ziyalıların qarşısında duran əsas vəzifə bundan ibarət idi ki, onların yaratdığı əsərlər Sovet xalqın dağıdılmış xalq təsərrüfatın bərpa etmək ruhunda olmaqla yanaşı, həm də sovet cəmiyyətinin yalnız müsbət məqamların əks etdirməli idi. Beləliklə, cəmiyyətin müharibədən əvvəlki rəsmi ideologiya çərçivəsində idarə olunmasına inanmaq istəməyən ziyalılar yanılmışdır. Mədəniyyət sahəsində partiya və dövlətin siyasətinin dəyişmədiyini ÜİK(b) P MK-nın 1946-cı il 14 avqust tarixli “Zvezda” və “Leninqrad” jurnalları haqqında”, 1946-cı il 26 avqust tarixli “Dram teatrlarının reperturarı və onların yaxşılaşdırılması tədbirləri haqqında”, 1948-ci il 11 sentyabr tarixli “Krokodil” jurnalı haqqında qərarları göstərdi. Bu sənədlər bir çox görkəmli yaradıcı ziyalılar üzərinə geniş miqyaslı hücuma şərait yaratdı. Görkəmli yazıçı və şairlər A.A.Axmatova, M.M.Zoşşenko, E.Q.Kazakeviç, Y.P.German, istedadlı kinomatoqraflar S.M.Eyzenşteyn, V.İ.Pudovkin, L.D.Lukov, Q.M.Kozinsevin yaradıcılığına ideyasızlıq, siyasi laqeydsizlik damğası vuruldu. Bədii ədəbiyyat rəsmi sovet ideologiyasının tələb etdiyi çərçivədən kənara çıxa bilməzdi. Müharibədən sonra çap olunan A.A.Fadeyevin “Gənc qvardiya” (“Molodaya qvardiya”), V.P.Nekrasovun “Stalinqradın səngərlərində” (“V okopax Stalinqrada”) əsərlərində döyüş və arxa cəbhədə adamların ağır vəziyyətindən, çətinliklərdən və s. bəhs edildiyi üçün ilk vaxtlar müsbət qarşılanan əsərlər ideoloji nəzarətin artması ilə əlaqədar olaraq qara siyahıya daxil

edilmişdir. Ədəbiyyat ağır və faciəvi həyatdan deyil, bayram əhval-ruhiyyəsindən, münaqişəsiz sujetlərdən, parlaq gələcəkdən bəhs edərək partiyalılıq prinsipindən kənara çıxa bilməzdi. Odur ki, L.M.Leonovun "Rus meşəsi" ("Russkiy les"), K.A.Fedinin "Qeyri-adi yay" ("Neobıknovennoe leto"), V.F.Panovanın "İlin fəsilləri" ("Vremena qoda"), V.A.Koverinin "Açıq kitab" ("Otkrıtaya kniqa") kimi yaxşı əsərləri "jdanovçuluq" dövrünün məhsulu olduğundan yenilikçi axtarışdan, janr və stilistik çeşidliklərdən uzaqdır.

Müharibədən sonra ideoloji və siyasi təqibə məruz qalan kinomatoqrafiyada filmlərin sayı kəskin azalmışdır. Daha çox ölkənin tarixindən bəhs edən yüksək vətənpərvər ideyalı "sovet nağılları" yaradılması tələb olunur, partiyalılıq prinsipində çəkilməyən filmlər hakimiyyət tərəfindən təqiblə qarşlanırdı. Məsələn, L.Lukovun Donbasın bərpasından bəhs edən "Böyük həyat" ("Bolşaya jizn") filmi ideya-siyasi cəhətdən nöqsanlı hesab edilmişdir. İdeoloji nəzarətə şəxsən rəhbərlik edən partiya MK-nin katibi, Siyasi Büronun üzvü Jdanov iddia edirdi ki, filmdəki hadiəslər sovet adamının aşağı mədəni səviyyəsindən, içki düşkünü, məhəbbət alüdəçiliyində bəhs edir ki, bu da əsl həqiqətdən uzaqdır. A.Dovjenkonun "Ukrayna alovlar içində" ("Ukraina v oqne") filmi Ukrayna, sovet xalqının, partiyanın ziddinə olan məhdud Ukrayna millətçiliyi ilə damğalanmışdır. Rejissor S.Yutkoviçin "Rusiya üzərindəki işıq" ("Svet nad Rossiey"), rejissor S.Gerasimovun "Gənc qvardiya" ("Molodaya qvardiya") filmləri sərt tənqid edilmişdir.

Siyasi hakimiyyətin bədii ziyalıların yaradıcılığına nəzarəti artırması sayəsində kino, teatr və incəsənətin başqa sahələrində sovet adamlarının gündəlik həyatı ilə, onları əahatə edən reallıqla heç bir əlaqəsi olmayan "sovet nağılları" meydana gəlməyə başladı. İ.A.Pıryevin "Kuban kazakları" ("Kubanskie kazaki"), Q.V.Aleksandrovun "Yaz" ("Vesna") musiqili komediyaları buna misaldır.

ÜİK(b) P MK-nın V.Muradelinin "Böyük dostluq" ("Velikaya drujba") operası haqqında 1948-ci il fevraın 10-da qəbul etdiyi qərarla sovet musiqisində "formalizmlə" mübarizə kampaniyası başlamışdır. Bəstəkar Vano Muradeli bəhs olunan operasında milli hissləri qızışdırmaqda ittiham olunurdu. Hakim partiyanın hətta musiqidə belə özlərini məsələdən baş çıxaran hesab edilən rəhbərləri bir çox istedadlı bəstəkar və musiqiçilərin yaradıcılığına qara yaxaraq onların əsərlərini qadağan etmişdir. İstedadlı bəstəkar və musiqişünaslar S.S.Prokofyev, D.D.Şostakoviç, N.Y.Myaskovski, V.Y.Şebalin, A.İ.Xaçaturyan və başqalarının yaradıcılığı tənqid olunaraq əsərlərinin ifasına qadağa qoyuldu.

N.S.Xruşşovun SSRİ-nin sükanı arxasına keçməsindən sonra ölkədə başlayan mülayimləşmə siyasi sahədən daha tez mədəniyyətdə baş vermişdir. Artıq 1953-1956-cı illərdə yazıçılar İ.Erenburq, M.Dudintsev, tənqidçi V.Pomerantsev öz əsərlərində ölkənin tarixində ziyalıların rolundan, onların partiyaya olan münasibətlərindən, mövcud sistemdə yazıçı və incəsənət adamlarının yaradıcılığının əhəmiyyətindən açıq bəhs etməyə başlamışdılar. Partiya və hökumət aparatı rəhbərliyinin mədəniyyət və incəsənətdə nəzarəti yumşaltması bir çox yaradıcı ziyalıların öz əsərlərində sosialist realizmi prinsipindən uzaqlaşmaları üçün şərait yaratdı. Hakimiyyətlə yaradıcı ziyalıların münasibətlərində dəyişikliklər baş verdi. Sovet partiya və dövlət rəhbərlərinin mədəniyyət xadimlərilə 1957, 1962, 1963-cü illərdəki görüşləri cəmiyyətin həyatında səs doğurdu. "Mülayimləşmə" ziyalıları köhnə siyasi rejimin partiyalılıq prinsipinə sadiq qalan mühafizəkarlara və cəmiyyətdə yaradıcı ziyalıların yeri və rolunu dəyişməyə çalışan liberal altmışıncı illərdəkilərə bölmüşdür. Şairlər, "Yeni dünya" ("Novıy mir") jurnalının baş redaktoru A.Tvardovski, B.Axmadulina, A.Voznesenski, Y.Yevtuşenko, R.Rojdestvenski, yazıçılar Y.Naqibin, İ.Erenburq, A.Yaşin və b. ikinci istiqaməti təmsil edirdi.

Ölkənin ictimai-siyasi həyatındakı dəyişikliklər nəticəsində bir çox yazıçı və şairlər bəraət alaraq yenidən çap olunmağa başladı. Ölkədəki qanunsuz repressiyalardan və hakimiyyətin özbaşınalığından söhbət açan V.D.Duduntsevin "Şərikli çörək" ("Ne xlebom yedinım") romanı, V.Qrossmanın "Hər şey axır" ("Vse teçyot") povesti çap olundu. D.Qranin, A.Yaşin, Y.Germanın yaradıcılığında cəmiyyətdəki nöqsanlardan açıq bəhs olunurdu. Görkəmli yazıçı və şairlərin ədəbi axşamlarının təşkil edilməsi mədəni həyatın səciyyəvi hadisələrinə çevrilmişdir. A.Yaşinin "Vasitələr" ("Rıçaqi"), D.Qraninin "Şəxsi mülahizə" ("Sobstvennoe mne-

nie”), S.Kirsanovun “Həftənin yeddi günü” (“Sem dney nedeli”) romanları antistalinçi əsərlər kimi tarixdə öz yerini almışdır. 1952-ci ildə “Yeni dünya” jurnalında Valentin Oveçkinin “Rayonun adi iş günü” (“ Rayonnıe budni”) oçerklər silsiləsi çap edilərək ədəbiyyatda “kənd nəsrinin” əsası qoyulmuşdur. 1954-cü ildə tənqidçi Fyodr Abramov “Müharibədən sonrakı nəşrdə kolxoz kəndinin adamları” (“Lyudi kolxoznıy derevni v poslevoennoy proze”) məqaləsində “nə qədər xoş olmasa da yalnız həqiqətdən” yazmağı tövsiyə etmişdir.

“Mülayimləşmə” illərində kino sənəti yeni məzmun kəsb edərək rəngli ekran əsərləri meydana gəlmişdir. Kinoda tamaşaçı auditoriyasına yaxın və anlaşıqlı olan əsərlər önə çıxmışdı. Rejissorlar M.Xutsievin “Çayın o tayındakı küçədə yaz” (“Vesna na Zareçnoy ulitse”), A.Zarkinin “Yüksəklik” (“Vısota”), A.Xeyfsin “Böyük ailə” (“Bolşaya semya”), “Mənim əziz adamım” (“Doroqoy moy çelovek”) filmləri kinoteatrlarda nümayiş etdirilməyə başlandı. Böyük Vətən müharibəsinə həsr edilən yeni məzmunlu kino filmlər meydana çıxdı. M.Kalamozovun “Durnalar uçur” (“Letyat juravli”), S.Çuxrayın “Əsgər haqqında ballada” (“Ballada o soldata”), S.Bondarçukun “İnsanın taleyi” (“Sudba çeloveka”) buna misaldır. Bu filmlərdə səngər, əsgər və müharibə həqiqətləri öz bədii əksini tapmışdır. 1964-cü ildə rejissor Q.N.Daneliya yüngül romantik tərzdə “Mən Moskvada addımlayıram” (“Ya şaqayu no Moskve”) kinosunu çəkmişdir.

Musiqi sahəsinə nəzaərtin yumşalması ilə D.Şostakoviçin onuncu və on birinci simfoniyaları, Q.Qarayevin “İldırımlı yollarla” (“Tropoyu qroma”), A.Xaçaturyanın “Spartak” baletləri mühüm hadisə oldu. S.Rixter, E.Qipels kimi pianoçular, D.Oystrax kimi skripkaçılar ölkədə və dünyada söhrət qazanmışdır. Müharibədən sonra ideoloji nəzarətin sərtləşdirilməsi nəticəsində əsərləri xalqa zidd formalizm mahiyyətində olması iddia edilən S.Prokofyev, D.Şostakoviç, V.Şebalin, Q.Popov, A.Xaçaturyan, N.Myaskovski kimi bəstəkarlar partiya MK-nın 1958-ci il 28 may qərarı ilə ağlandılar.

Bədii incəsənət tədricən ideoloji basqıdan azad olmağa başladı. XIX-XX əsrlərin qovuşuğundakı avanqard incəsənət və onun nəzəri irsi bəraət almışdır. Pikasso, Lejenin sərgiləri sovet adamlarında böyük maraq doğurdu. P.Filonov, K.Maleviç, V.Kandinski, M.Şaqalın rəsm əsərlərinin şöhrəti ölkə sərhədlərini aşaraq dünyada yayıldı. Heykəltaraşlar E.Vuçetiç, M.Anikuşin, B.İoqanson, P.Korin, M.Saryan yaratdığı incəsənət əsərlərilə adamların qəlbində taxt qurdu. 1961-ci ildə M.Posoxinin layihəsi əsasında Kremlin qurultaylar sarayı, A.Vlasov, N.Ullay və b. memarlığı ilə “Lujniki” mərkəzi stadionu tikilib istifadəyə verildi. Memarlar A.V.Şusev və V.D.Kokorinin əsərləri Moskva metropoliteninin dayanacaqlarını bəzəyirdi. Heykəltaraş E.V.Vuçetiç 1963-1967-cu illərdə Stalinqrad döyüşü qəhrəmanlarının şərəfinə əzəmətli Mamayev kurqanı xatirə ansamblını işləyib hazırlamışdır. Ümuməm 60-cı illərdə təsviri incəsənət sahəsində “sərt üslub” önə çıxmışdır. Başlanğıcda ziyalılara ümid bəxş edən Sov.İKP-nın XX qurultayı sovet cəmiyyətində yaradıcı ziyalıların yeri və rolu məsələsində kökündən dəyişikliyə səbəb olmadı. Belə ki, ölkənin həyatının “mülayimləşməsinə” hakimiyyət tərəfindən müəyyən çərçivə daxilində icazə verilmişdir. Təsadüfi deyildir ki, bədii yaradıcılıq üzərində partiya və dövlətin tələb etdiyi nəzarəti saxlaya bilməyən SSRİ Yazıçılar İttifaqının rəhbəri A.Fadeyev 1956-cı il mayın 13-də Peredelkinodakı bağ evində tapancadan açdığı atəşlə özünə qəsd etmişdir. Ölümqabağı yazdığı məktubda yazıçı yaranmış şəraitə görə partiya və dövlət aparatını, onun səviyyəsiz rəhbərliyini ittiham etdmişdir.

İtaliya, Hollandiyada daha sonra da 18 ölkədə çap edilən “Doktor Jivaqo” əsərinə görə 1958-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən, lakin hakimiyyətin təzyiqi üzündən onu qəbul etməyən görkəmli yazıçı B.L.Pasternakın və gələcək Nobel mükafatçısı hakimiyyətin təqibi nəticəsində ölkəni tərk edən azad fikirli şair İ.Brodskinin işi stalinsizləşmənin hüdudlarını açıq göstərmişdir.Yaradıcı ziyalılardan müəyyən çərçivə daxilində “yumşalan” siyasi rejimin yeritdiyi xəttə xidmət etmək tələb olunurdu. Rəsmi ideologiyanın yeritdiyi siyasətdən kənara çıxan mədəniyyət nümayəndləri hakimiyyətin, şəxsən partiya və dövlətin lideri N.S.Xruşşovun onların peşəkar yaradıcılığına kobud və təhqir dolu müdaxiləsi ilə qarşılaşdı. 1962-ci il dekbarın 1-də Manejdəki rəsm sərgisində N.Xruşşov rəssam B.Jutovskinin tablolarını “iyrənc”, “murdar cızma-qara”, heykəltaraş E.Neizvestninin əsərlərini “ürək

bulandırıcı qondarma" adlandıraraq onları təhqir etdi. Ölkə başçısına yaraşmayan sözlər, sərt əməli addımlar partiyanın XX qurultayından sonra ona inanan mədəniyyət xadimlərinin və cəmiyyətin çox hissəsinin N.S.Xruşşovdan uzaqlaşmasına təkan vermişdir.

***1960-cı illərin ikinci yarısı – 80-ci illərdə mədəniyyət.*** N.S.Xruşşovun siyasi meydandan getməsi, hakim partiya bürokratik aparatının qələbəsi ölkənin mədəni həyatında mühafizəkar istiqamətin artmasına, stalinsizləşdirmə kursunun dəyişdirilməsinə gətirib çıxardı. Mətbuatda İ.Stalin repressiyalarını ifşa edən məqalələr yoxa çıxdı. Senzuranın yenidən sərtləşdirilməsi nəticəsində ziyalıların gizli və xarici məlumatları əldə etməsi çətinləşdir. Xarici demokratik formanı saxlamaq şərti ilə mədəniyyət sahəsinə inzibati və ideoloji təzyiq daha da artmışdır. 1960-cı illər Sovet cəmiyyətində Qərbdə əsərləri nəşr edilən yazıçılar A.D.Sinyavski və Y.M.Daniel üzərindəki açıq siyasi məhkəmə işi, hüquq müdafiəçiləri A.Qinzburq, Y.Qalanski, A.Marçenko və başqalarının həbs edilməsi, A.Soljenitsinin əsərlərinin xaricdə çap olunması ilə bağlı yazıçıya qarşı qaralama kampaniyası kimi hadisələr diqqəti cəlb edir. SSRİ-də siyasi və ideoloji senzuranın şiddətlənməsi bir çox mədəniyyət və incəsənət xadiminin könüllü, yaxud məcburi surətdə ölkəni tərk edərək xaricə mühacirətə getməyə sövq etmişdir. Onlar arasında yazıçılar A.Soljenitsin, V.Voynoviç, V.Aksenov, şairlər İ.Brodski, N.Korjavin, A.Qapiç, rejissorlar Y.Lyubimov, A.Tarkovski, rəssamlar E.Neizvestnı, M.Şemyakin, O.Sepkov, balet artistləri P.Nuriyev, M.Barışnikov və b. vardır. Hakimiyyət belə mədəniyyət xadimlərinin adını silərək onların yaradıcılığına uzun müddət qadağa qoymuşdur.

Ümumiyyətlə, N.Xruşşov "mülayimləşməsi" dövründən sonrakı mədəniyyətin inkişafı ziddiyyətli xarakter daşıyır. Düzdür bu mərhələdə yeni məktəb, ali təhsli müəssisəsi, kinoteatr və mədəniyyət evləri açılır, elmi tədqiqat instutları yaranırdı. 1960-1970-ci illərdə ölkənin məktəblərində oxuyan şagirdlərin sayı 24,5 faiz artmışdır. Şəhər və kəndlərdə tikilən yeni məktəblərin hesabına onların miqdarı 140 mini keçmişdir. Müəllimlərin də sayı durmadan artırdı. 1960-1991-ci illərdə ölkənin ümumən təhsil məktəblərində onların sayı 44,9% artmışdır. 1984-cü ilin aprelində məktəbin yenidən qurulmasına dair Qanun qəbul edildi. Qanuna əsasən şagirləri fiziki əməyə hazırlamaq məqsəsilə məktəblər ümumi peşə hazırlığını artırdı. Məktəblərdə icbari kompyuter hazırlığı dərsləri tətbiq olundu. İslahata əsasən orta məktəblər 1984-cü ildən yenidən onbirillik təhsil müddətinə keçdi. İbtidai siniflər isə dördillik təhsilə keçdi. 1960-cı illərin sonundan SSRİ-də ümimu icbari orta təhsilin tətbiq edilməsilə 3-4 illik təhsil müddəti olan orta peşə texniki məktəbləri yarandı.1960-1987-ci illərdə texniki-peşə məktəblərinin sayı 1,9 dəfə, onlarda təhsil alan şagirdlərin sayı isə 3,3 dəfə artmışdır. Məktəblərin kəmiyyət artımının göstəriciləri diqqəti cəlb etsə də, bu hələ məktəbin keyfiyyət səviyyəsinin yüksək olması anlamına gəlmirdi. Təsadüfi deyil ki, artıq 1985-1986-cı illərdən başlayaraq məktəb islahatı axsamağa başladı və tədricən kağız üzərində qalmışdır.

1960-1980-ci illərdə ali məktəblərin keçdiyi yol da mürəkkəb və ziqzaqvari olmuşdur. Ali məktəblərin şəbəkəsi artmış, bir çox institutlar univerisitetlərə çevrilmişdir. Çalışan gənclərin ali məktəblərə qəbul olmasına şərait yartmaq məqsədilə 1969-cu ildə fəhlə fakültələri hazırlıq kursları adı ilə yenidən açıldı. Axşam və qiyabi təhsilin şəbəkəsi də genişləndirildi. 1960-1980-ci illərdə bu yolla təhsil alan tələbələrin sayı 64,3 % artdı.1985-ci ildə ölkədəki universitetlərin sayı 69-a çatdı. Artıq 1980-ci illərin ortalarında SSRİ-nin xalq təsərrüfatında 33 milyon mütəxəssis çalışırdı. Lakin onların böyük əksəriyyətinin hazırlıq səviyyəsi dövrün tələblərinə cavab vermirdi. Başqa bir tərəfdən mütəxəssislərin sayının real həyata müvafiq olmadan artırılması onların işlə təmin edilməsini çətinləşdirirdi. Odur ki, çoxlu gənc mütəxəssis ixtisası üzrə çalışmırdı.

1960-1980-ci illərdə 95 faizdən çox dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi-texniki tərəqqi mərkəzləri mədəni inkişafın mühüm sahələrindən biri olaraq qalırdı. 1980-ci illərin sonunda SSRİ-nin elm sahəsində 4,4 milyon adam çalışırdı ki, onların da 1,52 milyon nəfəri elmi və pedaqoji kadrlardır. Hər il ölkədə istehsalatın perspektivli istiqamətləri ilə bağlı olan 85 min ixtira qeydə alınırdı. Atom və qaz enerjisi, kvant elektornikası, lazer texnikası və d. sahələrdə əldə edilən nəticə xüsusi qeyd oldunmalıdır. 1965-ci ildə təyyarəçi-kosmonavt A.A.Leonov dünyada ilk dəfə gəmidən açıq kosmosa çıxmışdır. Ay, Venera planetlərini təd-

qiq etmək üçün ilk avtomat stansiyalar göndərilmişdir. İstedadlı sovet tədqiqatçıları V.A.Kotelnikovun radiotexnika və elektronika, V.A.Kirillinin termodinamika, A.Y.İşlinskinin tətbiqi mexanika və avtomatika sahəsindəki elmi işləri bütün dünyada tanınmışdır. Akademik P.L.Kapitsa fizika elmindəki kəşflərinə görə 1978-ci ildə Nobel mükafatı almışdır. Lakin ölkə iqtisadiyyatının mərkəzi plan-bölgü mahiyyəti, zəif maddi texniki baza və qalıq prinsipi ilə maliyyələşdirmə elmi texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqinin xarici ölkələrlə müqayisədə geri qalmasına səbəb olmuşdur. Alimlərin hesablamalarına görə yeniliklərin tətbiqi ilə müqayisədə SSRİ Qərbdən 15-25 il geri qalırdı. Hətta 1970-ci illrədə ölkə əvvəllər kosmosun mənimsənilməsi sahəsində əldə etdiyi birinciliyi itirmişdir. Təyyarəqurаşdırma, kompüterləşmə və b. sahələrdə də bu gerilik açıq nəzərə çarpırdı. 1980-cı ilin ortalarında SSRİ-də 50 milyon nəfərdən çox adam sənaye, tikinti və nəqliyyat sahəsində səanye texnologiyasına qədərki dövr üçün səciyyəvi olan əl əməyi ilə məşğul olurdu. Maddi istehsalatda çalışanların kəmiyyətcə artması əmək məhsuldarlığının aşağı düşməsini şərtləndirən əsas səbəblərdən biridir.

Humanitar və ictimai elmlər sahəsində partiya nəzarəti və ideologiyalaşdırma daha sərt xarakter almışdır. 1960-cı illərin ikinci yarısından faktiki olaraq sovet cəmiyyəti tarixinin Stalin sxemi bərpa edilmişdir. Sovet tarixçi və filosofları üçün bir çox mövzu və elmi istiqamət qadağan olunmuşdur. 1967-ci ildə A.M.Nekriçin müharibənin ilk aylarında sovet ordusunun məğlubiyyətindən bəhs edən "22 iyun 1941-ci il" kitabının amansız tənqidi deyilən fikri təstiq edir. Əsərin müəllifi partiyadan xaric edilərək ölkəni tərk etməyə məcbur olmuşdur. 1970-ci illərdə M.Gefter, K.Tarnovski, P.Volobuyev kimi tarixçilər yeni istiqamətin təmsilçiləri kimi Stalin ehkam və stereotiplərindən fərqli olaraq 20-ci əsrin əvvəllərində Rusiyanın sosial-iqtisadi inkişafının xüsusiyyətlərini, Oktyabrın şərtlərin yeni konsepsiyada şəhr etmişdir. Yeni istiqamətin tərəfdarlarına qarşı partiyanın repressiya tədbirləri sərt olmuşdur.

1960-cı illdə bədii ədəbiyyatın liberal demokratik təmsilçiləri A.T.Tvardovskinin rəhbərlik etdiyi "Yeni dünya" ("Novıy mir") ədəbi-publisistik jurnalı ətrafında qruplaşmışdır. Əvvəllər qadağan olunan M.Bulqakovun "Usta və Marqarita" ("Master i Marqarita"), B.Pasternakın "Həkim Jivaqo" ("Doktor Jivaqo") romanları ilə oxucu tanış olmaq imkanı qazandı. Oxucu 1969-cu ildə Ven. Erofeyevin "Moskva-Xoruzcuğazlar" ("Moskva-Petuşki"), 1971-ci ildə A.Bitovun "Puşkin evi" ("Puşkinskiy dom") kitabları ilə tanış oldu.1965-ci ildə M.A.Şoloxov, 1970-ci ildə A.İ. Soljenitsin, 1987-ci ildə İ.A.Brodski ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. A.Ananev, A.Çakovski, Y.Bondarev, V.Bıkov, A.Karpov və b. yazıçıların yaradıcılığında hadisə və faktların reallığı və dəqiqliyi ön plana çıxmışdır. Sovet adamının acılı-şirinli taleyi, Böyük Vətən müharibəsi mövzuları bəhs edilən dövrdə yazıçıların qələmə aldığı əsas məsələlərdir. 1960-1970-ci illərin ədəbiyyatında kənd nəsri istiqaməti, adamların torpaqdan soyuması, kənd məişətinin dağıdılması və s. məsələlərdə öz əksini tapmışdır. F.Abramov, V.Oveçkin, V.Belov, V.Astafyev, V.Rasputin, V.Şukşin kənd nəsri ədəbiyyatının başlıca nümayəndələridir.

1980-ci illərin sonlarında SSRİ-də əvvəllər qadağan olunmuş gümüş əsrin şairlərinin, mühacirətdə olan sovet müəlliflərinin və rus yazıcılarının əsərləri çap olunmağa başladı. Nikolay Qumilyov, Mixail Bulqakov, Osib Mandelştam, Andrey Platonov, Boris Pasternak, İvan Bunin, Vasili Qrossman, Yevgeni Zamyatin, İosif Brodiski, Vladimir Nabokov, Vladimir Voynoviç, Andrey Sinyavski, Sergey Dovlatov xarici ölkələrdə çap edilmiş əsərləri ilə sovet oxucusunun görüşünə gəldi.

Ümumiyyətlə, SSRİ-də yenidənqurma dövründə ictimai həyatın demokratikləşməsi, bədii yaradıclığa ideoloji nəzarətin qaldırılması, "dəmir pərdənin" aradan götürülməsi nəticəsində sovet və dünya mədəni əlaqələrinin artması müşahidə olunurdu. Mədəni siyasətdəki aşkarlıq yenidənqurmanın vacib istiqamətlərindən birini təşkil edirdi. Bu siyasəti ölkə rəhbərliyi, xüsusilə Mixail Qorbaçov və onun yaxın silahdaşı Aleksandır Yakovlev müdafiə edirdi. Eyni zamanda hakimiyyətin bu siyasətinin həyata keçirilməsində sovet liderinin həyat yoldaşı Raisa Qorbaçovanın rəhbərlik etdiyi 1986-cı ildə təşkil olunan Sovet Mədəniyyət Fondu mühüm rol oynamışdır. Bütün bunlar ölkənin yeni rəhbərliyinə yenidənqurmanın baş-

lıca hərəkətverici qüvvəsi kimi cıxış etməyə başlayan demokratik əhval-ruhiyyəli ziyalıların hakimiyyətin kursunu müdafiə etmələrinə, dünya ictimaiyyətinin rəğbətini qazanmağa şərait yaratmışdır.

Məhz bilavasitə yenidənqurmanın elan etdiyi siyasətə müvafiq olaraq əvvəllər qadağan edilən əsərlərin çap edilməsi sovet oxucusuna ölkədə uzun illər mövcud Sovet siyasi sisteminin faciəvi səhifələrini, repressiyaların miqyasını anlamağa kömək etmişdir. Məsələn, 1987-ci ilin dekabrında rus ədəbiyyatının ən faciəvi əsərlərindən biri olan Anna Axmatovanın “Dua” (“Rekviem”) poeması çap olunmuşdur. 1987-ci ildə yazıçı Anatoliy Rıbakovun hələ 60-cı illərdə yazıb başa çatdırdığı cəmiyyətin stalinizm dövründəki eybəcərliklərindən bəhs edən “Arbat uşaqları” (“Deti Arbata”) romanı işıq üzü görmüşdür. 1988-ci ildə isə Stalin terrorunun özbaşınalığı haqqında Varlam Şalamovun “Kolım hekayələri” (“Kolımskix rasskazov”) faciəvi əsəri nəşr edilərək sovet oxucusuna çatdırlmışdır. 1990-cı ildə Aleksandr Soljenitsenin “Arxipelaq QULAQ” romanı çap edildi ki, bu da sovet tarixinin Stalin repressiyasının bəddi tədqiqinin ən parlaq əsərlərindəndir. Şəxsən məhbus həyatı yaşamış müəllif belə bir nəticəyə gəlir ki, ölkədə tuğyan edən terror təsadüfi olmayıb, kommunist rejiminin bərqərar etdiyi məqsədli tədbirlər sistemidir.

1960-70-ci illər kino sənətinin inkişafında mühüm mərhələdir. Bu dövrdə bir çox klassik xarici və rus ədəbi əsərlərini ekranlaşdırmaq mümkün olmuşdur. “Müharibə və sülh (“Voyna i mir”), “Karamazov qardaşları” (“Bratya Karamazovı”), “Hamlet” (“Qamlet”) buna əyani misaldır. Rejissorlar S.Gerasimov, V.Şukşin, E.Ryazanov, N.Mixalkov və b. çəkdiyi səhnə əsərlərində dərin əxlaqi və fəlsəfi problemlər əks etdirilmişdir. Kinorejissor L.İ.Qaydayın kinokomediyaları bütün ölkədə çoxlu tamaşaçı rəğbəti qazanmışdır.

1986-cı ildə ekrana çıxan rejissor Tenqis Abuladzenin “Tövbə” (“Pokayanie”) flmi hər bir sovet vətəndaşının Stalin repressiyası üçün məsuliyyət daşıdığını nümayiş etdirmişdir. Bu isə adamların sovet cəmiyyətinin humanist ideyaları uğrunda arzularını və məsuliyyətini bir daha yada salır. Filmə rekord sayda, yəni 13,6 milyon nəfər tamaşaçı baxmışdır.

1960-80-ci illərində ənənəvi sovet teatrından fərqlənən teatrlar fəaliyyət göstərirdi. Belə yenilikçi teatrların sırasına quruluşçu rejissor A.Efrosun A.S.Puşkin adına teatrı, Y.Lyubimovun baş rejissoru olduğu Taqankadakı teatr, O.Yefremov, sonra Q.Volçekin baş rejissoru olduğu “Sovremennik” teatrı və Q.Tovstonoqovun başçılıq etdiyi Leninqrad Böyük Dram teartı daxildi. Teatr səhnəsində N.O.Qritsenko, M.A.Ulyanov, İ.M.Smoktunovski, Y.V.Yakovlev kimi böyük sənətkarlar parlamışdılar.

1960-cı illərdə simfonik musiqi sahəsində bəstəkarlar D.Şostokoviç, V.Muradeli, D.Kabalevski, A.Şnitke, Q.Popov, B.Çaykovski, A.Eşpay və başqaları çalışaraq çoxsaylı musiqi əsərləri yaratmışdırlar. Eyni zamanda S. Tulikov, M.Fradkin, A.Paxmutova və b. təmsil etdikləri mahnı estradası janrı geniş yayılmışdır. Opera sənəti sahəsində R.K.Şedrinin “Ölü canlar” (“Mertvıe duşi”), K.V.Molçanovun “Sakit üfüqlər” (“Zori zdes tixie”), A.P.Petrovun “Petr I” əsərləri opera səhnələrinin repertuarını bəzəmişdir. “Berezka” rəqs ansanblının, İ.Moiseyevin rəhbərlik etdiyi Xalq rəqs ansanblının şöhrəti Sovet İttifaqının sərhədlərini aşaraq bir çox xarici ölkələrdə yayılmışdır.

1960-70-ci illərdə istedadlı rəssamlar İ.Qlazunov, M.Saryan, V.Şipov bir çox dəyərli əsərlər yaratmışlar. Rəssamlar T.Yablonskaya, D.Jilinskinin yaradıcılığnda məişət janrı mövzusu ön planda olmuşdur. Rəsmi hakimiyyətin 1974-cü ildə buldozerlərlə dağıtdığı rəssamların sərgisini təmsil edən qeyri-formal incəsənət nümayəndələri fəaliyyətlərini davam etdirmişlər. D.Burdin, M.Şkud və b. 553 metrlik Mərkəzi Televiziya qülləsi ən yaxşı memarlıq işi kimi diqqəti cəlb edir. 1988-ci ildə Moskva və Leninqrdadda əvvəllər “sosialzim realizmi”nə zidd olduğu üçün əsərləri qadağan edilən Pavel Filonov və Kazimir Maleviçin fərdi sərgiləri təşkil olundu.

1970-ci illərdə demokratikləşmənin və mədəniyyətin kütləviliyi elementlərini özündə birləşdirən rok musiqisi meydana gəlmişdir. İlk vaxtlar mədəniyyətin əleyhinə olduğu qəbul edilən rok musiqisi 80-ci illərin ikinci yarısından incəsənətin bir növü kimi qəbul edilmişdir. Bəhs edilən dövrdə B.Qrebenşikovun “Akvarium”, A.Makareviçin “Maşina vremeni” rok

qrupları ölkədə çox populyar idi. M.Kim, A.Dolski, S.Nikitin kimi müəllif mahnıları – bardovun yeni nəsli meydana gəlmişdir.

Yenidənqurma dövründə xarici ölkələrdə mühacirət həyatı yaşayan bir sıra incəsənət xadimi SSRİ-yə dönərək vətəndaşlıq almışdır. Məsələn, görkəmli dirijor, dahi violonçel ifaçısı Mistislav Rostropoviç və onun həyat yoldaşı məşhur opera müğənnisi Qalina Vişnevskaya 1990-cı ilin yanvarında ölkəyə qayıdaraq vətəndaşlıq almışdır. Artıq fevral ayında Moskva konservatoriyasının Böyük zalında Rostropoviçlərin tarixi konserti iştirakçıları valeh etmişdir.

1960-1980-ci illərdə SSRİ-də mədəniyyətin inkişafı ziddiyyətli və ikili xarakterdə olmuşdur. Ölkənin mədəni elitası siyasi hakimiyyətin müəyyən etdiyi ölçüdə təhsil, elm, ədəbiyyat, incəsənət, mənəvi həyatı inkişaf etdirməyə səy göstərmişdir. Sıravi sovet vətəndaşlarının ölkə və dünya mədəniyyətinin nümunələrindən bəhrələnmək imkanı artmışdır. Əhalinin kinoteatrlara, muzey və mədəniyyət ocaqlarına gedişi kütləvi hal almışdır. Bununla bərabər, inzibati-amirlik idarəetmə forması, mədəniyyətin qalıq prisipi ilə maliyyələşdirilməsi, cəmiyyətdəki ikili əxlaq prinsipi mənəvi həyatın böhranına, elm, təhsil, bədii yaradıcılığın səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur.

## Rusiya XX əsrin 90-cı – XXI əsrin ilk onilliklərində

***Daxili sosial-iqtisadi siyasət.*** 1991-ci ilin sonundan dünya xəritəsində tərkibində 89 subyekt, o cümlədən 21 muxtar respublika olan yeni dövlət – Rusiya Federasiyası meydana gəldi. Bu yeni dövlətin yalnız adı idi, qarşıda duran əsas vəzifə dövlətin və cəmiyyətin dəyişdirilməsindən ibarət idi. Əsaslı islahatların birinci mərhələsi yeni dövlətçiliyin formalaşması, sosialist plan iqtisadiyyatının bazar iqtisadiyyatına keçməsindən ibarət olub xronoloji cəhətdən 1992-1993-cü illəri əhatə edir. İqtisadi islahatlarla başlayan birinci mərhələ köhnə dövlət quruluşunun dağılması, sovet respublikalarının demokratik respublikalarla əvəz edilməsilə nəticələndi.

Müasir Rusiya tarixinin ikinci mərhələsi 1994-1999-cu illəri əhatə etməklə, birinci mərhələdə olduğu kimi B.N.Yeltsinin prezident olduğu vaxtdan ibarətdir. Bu zaman 1990-cı illərin əvvəllərində əsası qoyulan sosial-iqtisadi proseslərin islahatları davam etdirilirdi. Lakin ictimai həyatın yenilənməsi ləngiyir, V.S.Çernomırdin hökumətinin elan etdiyi sabitləşmə kursuna uyğun olaraq bəzən yerində sayırdı. İstehsalın aşağı düşməsi, əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin pisləşməsi, böyük həcmdə xarici borclar, müxalifətçilik əhvalrushiyyəsi islahatlara mane olurdu. Bununla belə, ikinci mərhələnin sonunda cəmiyyətin modernləşdirilməsinin ilk siyasi nəticələri kimi parlamentarizm, qubernator, mer, regional qanunverici orqanların seçkili olması, çoxpartiyalılıq formalaşırdı. İqtisadi sahədə xüsusi mülkiyyət, kapitalist istehsalı, bazar münasibətləri bərqərar oldu.

Üçüncü mərhələ 2000-ci ildən bu günə kimi olan vaxtı əhatə etməklə V.V.Putin və D.A.Medvedyevin prezidentlik dövrlərindən ibarətdir. Rusiya rəhbərlərinin elan etdiyi bu mərhələnin başlıca vəzifəsi cəmiyyətin sabit inkişafının təminatı olan güclü dövlətin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, korrupsiya və cəmiyyətin kriminallaşmasın aradan qaldırılması, iqtisadiyyatın inkişafı üçün hüquqi və əlverişli investisiya şərtlərinin yaradılması, onun inkişaf sürətini təmin edərək həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Yeni yaranan müstəqil Rusiya dövlətinə SSRİ-dən böyük nüvə dövləti statusu, iqtisadi və elmi-texniki potensialın 60 faizə qədəri, böyük ərazi və zəngin təbii ehtiyatları miras qalmışdır. Eyni zamanda ciddi problemlər, SSRİ-nin 70 milyarda yaxın borcları, 70 faizə qədəri köhnəlmiş əsas sənaye fondları bu mirasa daxil idi. 1992-ci ildə B.N.Yeltsin Rusiya hökumətini formalaşdıraraq baş nazirin vəzifəsini icra etməyi gənc islahat tərəfdarı, alim, iqtisad elmləri doktoru Yeqor Timuroviç Qaydara tapşırdı. A.N.Şoxin və A.B.Çubays isə baş nazirin müavinləri təyin edildi. Onlar sürətli bazar təsərrüfatına keçmək hesabına iqtisadiyyatı sağlamlaşdırmaq kursunu götürdü. Gənc islahatçıların ölkəni böhrandan çıxarmaq məqsədilə təklif etdikləri yol "şok terapiyası" adını aldı. 1992-ci il yanvarın 2-də Rusiya Federasiyası

prezidentinin fərmanı ilə qiymətlər liberallaşdırıldı, yəni malların böyük əksəriyyəti dövlətin müəyyən etdiyi qiymətdən azad olundu. Müvəqqəti olaraq enerji, çörək, süd və az miqdarda əhalinin tələbat duyduğu zəruri mallar dövlətin qiymət nəzarətində qaldı. Ticarətin azad olması ilə yanaşı xarici valyutanın istifadəsinə rəsmi icazə verildi. Xaricdən ərzaq mallarının idxalı gündəlik tələbat malları bolluğu yaratdı. "Qaydar" islahatı tez və əsaslı nəticə verdi, bir neçə ay ərzində mal çatışmazlığına son qoyuldu, mağazaların rəfləri mallarla doldu.

Qiymətlərin liberallaşdırılması ilə bağlı olaraq büdcədən maliyyələşdirilənlərin və təqaüdçülərin əmək haqqı iki-üç dəfə artdı. Lakin istehsalın son dərəcə inhisarlaşması və ərzağın total çatışmazlığı istehlak mallarının qiymətinin 10-15, bəzi malların isə hətta 30 dəfə artmasına gətirib çıxardı. İl ərzində qiymətlər orta hesabla 26 dəfə artdı və əhalinin real gəliri 44 faiz aşağı düşdü. Əhalinin böyük əksəriyyəti yoxsulluq həddinə çatmışdı. Əmanət kassalarında əhalinin çoxillik əməyi sayəsində yığdıqları vəsait qiymətdən düşdü. Xüsusilə təqaüdçülərin və büdcəyə baxan müəllim, həkim, elmi işçi, kitabxana və muzey əməkdaşlarının vəziyyəti daha ağır idi. Eyni zamanda, azsaylı sosial üst təbəqənin gəliri sürətlə artaraq cəmiyyətin təbəqələşməsinin əsasını qoydu. Əhalinin həyat səviyyəsi aşağı düşməkdə davam etdi, bu göstərici 1990-cı ildə 50 faiz təşkil edirdi. Əhalinin Dövlət Bankındakı qiymətdən düşmüş vəsaitinin verilməsi dayandırıldı.

İstehsalla yanaşı sosial sahələrdə, elm, səhiyyə və təhsil sistemində də vəziyyət ağır olaraq qalırdı. Çoxlu elmi-tədqiqat institutları, laboratoriyalar bağlanır, alim və elmi-pedaqoji kadrların maddi vəziyyəti pisləşdiyi üçün onlar kommersiya strukturlarına və ya xaricə üz tuturdu. Təkcə 1992-ci ildə 90 min alim kommersiya strukturlarına keçdi. Elmi-pedoqoji kadrlar isə 27 faiz azaldı. Rusiya Elmlər Akademiyasının məlumatına əsasən 1993-cü ilin sonunda ölkədə cəmiyyətin varlı təbəqəsi 3-5, orta təminatçılar 13-15, kasıblar 40, yoxsulluq həddindən də aşağı olanlar 40 faiz təşkil edirdi.

Ölkədə başlayan radikal dəyişikliyə kimi öz gəlirinə əsasən qulluqçular, fəhlə sinfinin yüksək ixtisaslı hissəsi, ziyalılar, dövlət qulluqçuları orta sinfi təşkil edirdi. Məhz onlar ən çox M.S.Qorbaçovun islahatların müdafiə edirdi. İslahatın gedişində yenə də məhz onlar heç bir şeyə nail olmadı.

İstehsalın azalması işsizliyin artmasına səbəb oldu. Ancaq sistemin ləngliyi və müəssisə rəhbərlərinin ənənəvi siyasəti ölkədə milyonlarla işsizin küçəyə atılmasının qarşısını aldı. Rusiya şəraitində işsizliyin əmək məhsuldarlığının artırılmasını və bazarın işçi qüvvəsinin səfərbər edilməsini təmin edən faktlar olmasına ümid özünü doğurltmadı. Ölkənin plan iqtisadiyyatının və müəssisələrin yerləşməsinin xarakteri, azad əldə edilə bilən yaşayış yeri çətinliyi işsizlik problemini əsl fəlakətə çevirirdi. Ölkədə çoxlu şəhər və qəsəbə mövcud idi ki, onların taleyi birbaşa ərazilərində yerləşən müəssisələrin işləməsindən asılı idi.Yerli sənayedə çalışan adamlar yaşayış yerlərində iş tapmaq və ya başqa regiona keçmək imkanından məhrum idilər. Federal orqanların rəsmi qeyd etdiyi işsizlər ölkədə faktiki mövcud olan işsizlərin yalnız bir hissəsini təşkil edirdi. Müəssisələrə gələn, lakin işləməyən, tam həftəni iş görməyən gizli işsizlər ordusu kütləvi xarakter almışdır. Müəssisə direktorlarına işçiləri azad etməkdənsə əvəzi ödənilmədən məzuniyyətə göndərmək sərf edirdi. Ən azı onlar işsizlər üçün vəsait ödəməkdən azad olurdular. Mütəxəssislərin hesablamalarına görə 1994-cü ilin sonunda ölkədə potensial işsizlərin sayı bütün iş qabiliyyəti olan ölkə əhalisinin 13,2 faizini təşkil etməklə 9,9 milyon nəfərə çatırdı. Ölkənin ayrı-ayrı regionları üzrə yerli əhali arasında işsizlərin sayı fəlakətli həddə çatırdı. Məsələn, 1995-ci ilin əvvəllərində İvanov vilayətində yerli əhalinin 40 faizə qədəri işsiz idi. Onların isə 40 faizindən çoxu ali və orta ixtisas təhsilli idi. Moskva, Sankt-Peterburq, Saratov, Ulyanovsk, Belqorodda olan işsizlərin yarıdan çoxu ali və orta ixtisas təhsilli mütəxəssislər idi.

Özəlləşdirmə (Privatizatsiya) – dövlət mülkiyyətinin əmək kollektivlərinin və fərdi şəxslərin əlinə keçməsi həyata keçirildi. Dərin iqtisadi islahatları həyata keçirmək üçün Rusiyada xüsusi mülkiyyəti bərpa etmək lazım idi. Faktiki olaraq özəlləşdirmə prosesi gedirdi, belə ki, dövlət əmlakını qarət edərək ara firma vasitəsi ilə onu aşağı qiymətə sataraq bu işi kortəbii və qeyri-leqal olaraq davam etdirirdilər. Belə özəlləşdirmənin real gəliri isə nə

dövlətə, nə də cəmiyyətə çatırdı, onu müəssisə və təşkilatların rəhbərləri mənimsəyirdi. Bu prosesi dayandırmağa qadir olan inzibati vasitələr isə artıq mövcud deyildi. Odur ki, "direktor" özəlləşdirilməsini ancaq ümumi qanuna əsaslanan kütləvi özəlləşdirmə dayandıra bilərdi.

Özəlləşdirmə proqramın A.B.Çubaysın rəhbərlik etdiyi Dövlət Əmlak Komitəsi hazırlayıb həyata keçirdi. Müəssisələrin dəyəri ödənilmədən əmlak kollektivlərinə verilməsi təklifi rədd edildi, ona görə ki, bu köhnə direktorlara hakimiyyətlərini davam etdirməyə şərait yaradaraq, müəssisənin yeni faydalı mülkiyyətçinin əlinə keçməsinə mane olardı. Bundan əlavə, belə özəlləşdirmədən təqaüdçülərə, büdcədən əmək haqqı alan işçilərə pay düşmürdü. Odur ki, özəlləşdirmənin üç variantı irəli sürüldü.

Birinci varianta görə aksiyaların 25 faizi pulsuz, 10 faizi isə otuz faizlik güzəştlə əmək kollektivinə verilirdi. Müəssisə rəhbərliyi nominal dəyəri ilə əlavə 5 faiz aksiya da almaq hüququna malik idi. Direktor korpusunun təzyiqi ilə qanunverici orqanlar ikinci variantı təqdim etdi, bu varianta əsasən əmək kollektivləri aksiyaların dəyərinin nominaldan 1,7 dəfə artıq olmaq şərti ilə onların 51 faizinə, yəni nəzarət paketinə sahib ola bilərdi. Hər bir işçi ayrılıqda aksiya mülkiyyətçisi ola bilərdi. Üçüncü varianta görə müəssisə rəhbərliyi aksiyaların 40 faizini son dərəcə aşağı qiymətlə almaq hüququ alırdı.

Müəssisə rəhbərləri və əməkdaşların əlinə keçən aksiyalar azad surətdə alınıb-satıla bilərdi. Amma əhalinin özəlləşdirilmiş müəssisələrin aksiyalarını almaq üçün vəsaiti yox idi. Xarici investorları Rusiyaya cəlb etmək məqsədilə təminatlı qanunverici baza olmadığı üçün onlara ümid bəsləmək mümkün deyildi. Pulla özəlləşdirmə isə uzun müddət tələb edirdi. Liberal islahatçılar isə özəlləşdirmənin sürətləndirilməsində maraqlı idi. Bu şəraitdə bütün əhaliyə özəlləşdirmə çeki, yəni vauçerlər verilməsi qərara alındı. Hər bir vauçerin nominal qiyməti 10 min manat dəyərində idi. Vauçerlər məhdudiyyət qoyulmadan müəssisələrin özəlləşdirilmiş aksiyalarına dəyişdirilə bilər, çek investisiya fondlarına qoyula bilər, alınıb-satıla bilərdi. Vauçerlər 1992-ci ilin avqustunda Rusiya prezidenti B.Yeltsinin fərmanı ilə verilməyə başladı. 1992-ci ilin oktyabrından 1993-cü ilin fevralına kimi əhaliyə vauçerlər paylandı və Rusiya əhalisinin 97 faizi vauçerlərlə təmin olundu. 1991-ci ildə Rusiyada olan bütün müəssisələrin 47 faizi 2001-ci ilə doğru özəlləşdirilmiş, 40 milyona yaxın əhali aksiya sahibi olmuşdur. Əlavə olaraq yeni xüsusi müəssisələr meydana gəlmiş, nəticədə 2002-ci ilin sonuna doğru bütün müəssisələrin 75 faizi dövlət müəssisəsi olmaqdan çıxdı. Beləliklə, 1992-1994-cü ildə tədbiq edilən özəlləşdirmə siyasəti nəticəsində ölkə iqtisadiyyatında dövlət bölməsinin aparıcı rolu başa çatdı. Amma mülkiyyət formasının dəyişməsi iqtisadiyyatda məhsuldarlığı artırmadı. 1993-1994-cü ilin ortalarında sənaye istehsalı 21, o cümlədən maşınqayırma 31, istehlak malları istehsalı 30 faiz aşağı düşdü.

Vauçer özəlləşdirməsi ictimai tələbatı doğrultmadı. Vauçerlərin verildiyi birinci günlər qəzetlərdə iki-üç özəlləşdirmə çeki müqabilində mənzil verilməsi haqqında elanlar çap edildiyi halda sonradan investisiya fondlarına qoyulmuş çeklərin illik gəliri bir neçə çörək buxankasının qiymətinə düşmüşdü, lakin buna baxmayaraq, vauçer özəlləşdirməsi Rusiyada xüsusi mülkiyyətin formalaşmasına əhəmiyyətli töhfə verərək, pul özəlləşdirilməsinə keçməyə şərait yaratdı. 1994-cü ildən ölkədə pul özəlləşdirilməsi başladı. 1994-cü il iyunun 30-da Dövlət Əmlak Komitəsi çek özəlləşdirilməsinin başa çatdığını bəyan etdi. Aksionerlərin çoxu əhəmiyyətli mülkiyyətçi ola bilmədi. Çünki müəssisələrin idarə edilməsində iştirak etmək üçün ən azı 10 faizlik aksiya paketinə sahib olmaq lazım idi. Bu isə adi aksiyaçılar üçün əlçatmaz hesab edilirdi. Digər tərəfdən özəlləşdirməyə qoşulan əhalinin bir hissəsinin dividentə, yəni qazanc payına bəslənən ümidləri də özünü doğrultmadı. Belə ki, 1994-cü ildə özəlləşdirilmiş müəssisələrin yalnız 10 faizi gəlirlə işləyirdi. Bu investisiya çekləri fondlarına da aiddir. 1994-cü ilin ikinci kvartalında 646 fondun ancaq 136-ı cüzi divident gətirirdi. Özəlləşdirmədən büdcəyə daxil olan gəlir də ona bəslənən ümidi doğrultmadı. İki il müddətində bütün səviyyələrdə büdcəyə ancaq bir trilyon manat daxil oldu ki, bu da Macarıstanda özəlləşdirmədən alınan gəlirdən iki dəfə az idi. Gözlənilənin əksinə olaraq iqtisadiyyata qoyulan xarici investisiyalar azaldı. Onun həcmi 1993-cü ildəki 2921 milyon manatdan 1994-cü ilin 9 ayı

ərzində 768 milyon manata düşdü. Eyni zamanda investisiyalar emal sənayesinə, yüksək texnoloji sahələrə deyil çıxarma üzrə sərf edilirdi.

Təqribən 1,5 trilyon manat olan vauçer fondunun nominal həcmi 1991-ci ilin sonunda Rusiyadakı əsas istehsal fondları balansının dəyərinə uyğun gəlirdi. Lakin qiymətlər liberallaşdıqdan sonra 20 dəfə artdığı halda əsas fondların yenidən dəyərləndirilməsi ancaq 1993-cü ilin ortasında həyata keçdi. Odur ki, vauçer fondunun müəssisənin dəyərinə görə qiymətləri yüksək idi, bu isə çek investisiya fondları vasitəsilə dövlət mülkiyyətini faktiki olaraq yeni sahibinə aşağı qiymətlərlə verilməsinə gətirib çıxardı. Məsələn, 200 milyard dollardan az dəyəri olmayan özəlləşdirilmiş Rusiyanın 500 iri müəssisəsi faktiki olaraq 7,2 milyard ABŞ dollarına satıldı. Lixaçev adına iri Moskva avtomobil müəssisəsinin əsas fondları bir milyard dollar dəyərində olmasına baxmayaraq cəmi 4 milyon dollara satıldı.

1994-cü ilin iyulunda Rusiya Federasiyasının Dövlət Duması özəlləşdirmənin birinci mərhələsini qeyri-qənaətbəxş hesab etdi. Ona görə özəlləşdirmə siyasəti ölkədə sosial-iqtisadi böhranı dərinləşdirərək ondan çıxmağı daha da çətinləşdirirdi. Bəyan edilən məqsədə nail olunmadı. 1994-cü il istehsalın və investisiya fəallığının daha çox aşağı düşməsi, ölkənin elmi-sənaye potensialının dağılması ilə müşayiət olundu. Əhalinin real əmək haqqı və orta yaşayış həddi aşağı düşdü, xalqın tənəzzül etməsi təhlükəsi artdı. Elektrik maşınlarının istehsalı 46, metalkəsici alətlər 52, minik avtomobilləri 17, traktorlar 68, kimyəvi liflər 43 faiz azaldı. Yüngül sənaye istehsalı kəskin aşağı düşdü. Məsələn, paltar 51, ayaqqabı 51, mürəkkəb məişət texnikası 40-50 faiz az istehsal edildi. İstehlak bazarında xarici mallar 1993-cü ildəki 23 faiz yerinə 1994-cü ildə artaraq 35 faizə çatdı.Vətəndaşların maddi vəziyyəti pisləşdi.1994-cü ildə əmək haqqı 2,5 dəfə artdığı halda, qiymətlər 3,2 dəfə artdı. Faktiki əmək haqqı 22 faiz aşağı düşdü. Ölkədəki ölənlərin sayı anadan olanların sayından 1993-cü ildə 770 min nəfər çox olduğu halda, 1994-cü ildə 920 min nəfərə çatdı, yəni artdı.

İqtisadi islahatlar proqramı kənd təsərrüfatında mühüm dəyişikliklərlə nəticələndi. 90-cı illər yeni təsərrüfat formalarının meydana gəlməsilə müşayiət olunurdu. İqtisadiyyatın aqrar bölməsində açıq və qapalı səhmdar cəmiyyətlər, məhdud məsuliyyətli şirkətlər, kənd təsərrüfatı kooperativləri geniş yayılmışdır.1999-cu ildə kənd təsərrüfatı strukturunda onların xüsusi çəkisi 65,8 faizə çatırdı. İqtisadi böhran aqrar bölmənin vəziyyətinə ağır zərbə vurdu. Mineral gübrələr, kənd təsərrüfatı texnikası çatmırdı. 1996-cı ildə kənd təsərrüfatı maşınları istehsal edən müəssisələr 14 min traktor, 9800 taxılyığan kombayn buraxdığı halda, 1998-ci ildə onların sayı müvafiq olaraq 2500 və 1000-ə düşdü. Sonrakı illərdə də onların istehsalı azalmaqda davam etmişdi. Xüsusilə fermer təsərrüfatlarında kənd təsərrüfatı texnikasının çatışmazlığı, təsərrüfat formalarının təşkilindəki nöqsanlar məhsuldarlığın səviyyəsinin aşağı düşməsilə nəticələndi. 1990-cı illərin ortalarında kənd təsərrüfatı istehsalının ümumi həcmi 1991-1992-ci illərlə müqayisədə 70 faiz aşağı düşmüşdür. İribuynuzlu mal-qaranın sayı 20 milyon baş azalmışdır.

1991-ci il dekabrın 29-da Rusiya Federasiyası hökuməti "Kolxoz və sovxozların yenidən qurulması haqqında" qərarı ilə torpaq islahatın başlamışdır. Qərara müvafiq olaraq torpaq üzərindəki dövlətin inhisarı ləğv edilərək kənd təsərrüfatı istehsal subyektinin mülkiyyətinə keçirdi. 1993-cü ildə prezident "Torpaq münasibətlərin qaydaya salınması və Rusiyada aqrar islahatların inkişafı haqqında" fərman imzaladı. Fərmana əsasən torpaq üzərində xüsusi mülkiyyət bərqərar oldu. 1994-cü ilin əvvəllərində torpaqların birinci bölüşdürülməsi başa çatdı. Rusiyadakı torpaqların 60 faizindən çoxu vətəndaşların xüsusi mülkiyyətinə keçdi. Təqribən 44 milyon nəfər Rusiya vətəndaşı onlara məxsus olan kiçik torpaq paylarında şəxsi yardımçı təsərrüfatla məşğul olurdu. Bəzən zəruri əmək haqqını qazana bilməyən adamlara bu yardımçı təsərrüfatlar ailənin vacib gəlir mənbəyi rolun oynayırdı.

Əsasən hökumət ölkədə maliyyə stabilliyini təmin etməyə və inflyasiyanı aşağı salmağa müəssər oldu. Lakin xüsusilə istehsal və emal sənayesi sahəsində məhsul istehsalı aşağı düşməkdə davam edirdi. İslahat əleyhdarları belə hesab edirdi ki, istehsalın aşağı düşməsinin səbəbi özəlləşdirmə siyasətidir. İslahatçılar isə bəyan edirdi ki, özəlləşdirilmiş müəssisələrdə vəziyyət dövlət müəssisələrində olduğundan yaxşıdır. Ölkədəki qeyri-sabit siyasi vəziyyət,

müharibə investisiyaların artmasına mane olurdu. Yerli biznesmenlər öz pullarını ya xaricə çıxarmağı, ya da kommersiya banklarında dövriyəyə buraxmağa üstünlük verirdi. Çox yüksək və soyğunçu vergilərə görə ondan yayınanların sayı durmadan artırdı. Əhali öz vəsaitini yerli müəssisələrin səhmlərini almağa deyil, xarici valyuta, xüsusilə dollar, alman markası almağa sərf edirdi.

Büdcədə vəsait çatışmadığına görə elmi işçilərə, müəllim, həkim, hərbçilərə vaxtında əmək haqqı ödənmirdi. Səhmdar müəssisələrin işçilərinin, xüsusilə mədən və müdafiə sahəsindəki işçilərin əmək haqqı fasilələrlə ödənilirdi. Bəzi regionlarda əmək haqqının ödənilməsi yarımillə ləngiyirdi. Büdcədəki vəsait çatışmazlığın aradan qaldırmaq məqsədilə Baş nazirin birinci müavini A.B.Çubaysın təklifi ilə büdcənin xərcləri kəskin azaldıldı. 1997-ci ildə iqtisadiyyatda sağlamlaşma meylləri hiss edildi. Birinci yarım ildə ölkənin qızıl-valyuta ehtiyatları 2,8-dən 10,7 milyard manata çatdı. İnflyasiyanın səviyyəsi aşağı düşdü, az da olsa iqtisadi artım nəzərə çarpdı.

1997-ci ilin payızından Rusiya ixracatının əsası olan neftin qiymətinin aşağı düşməsi, Asiya maliyyə böhranı ölkə iqtisadiyyatını növbəti ağır vəziyyətə sürüklədi. Bundan xilas olmaq məqsədilə B.Yeltsin 1998-ci ilin martında 1992-ci ilin dekabrından Baş nazir olan V.Çernomırdinin yerinə hökumətin başçısı S.V.Kirienkonu təyin etdi. Yeni hökuməti dəmir yolu magistrallarını bağlayan mədənçilərin tətilləri, dövlət borcunun sürətlə artması, Mərkəzi Bankın valyuta ehtiyatının kəskin aşağı düşməsi qarşıladı. Yeni hökumətin sərt maliyyə siyasəti Dumada solların kəskin müqaviməti ilə qarşılandı. Nəticədə 1998-ci il avqustun 17-də S.Kirienko hökuməti devalvasiya, yəni kağız pulların məzənnəsini aşağı salmaq yolunu tutaraq, defolt, yəni borcları ödəməkdən imtina etməyi elan etdi. Xarici investorlarla kommersiya banklarının borcları ödəməsi üzərinə moratorium, qadağa qoyuldu. 1998-ci il avqustun 23-də B.Yeltsin hökumətin başçısı S.Kirienkonu istefaya göndərdi. Rusiyanın bank sistemi dağılma təhlükəsi ilə üz-üzə qaldı. Bir sıra böyük banklar öz fəaliyyətini dayandırdı. Əhalinin kommersiya banklarındakı əmanətləri manat hesabı ilə 15, real olaraq isə 52 faiz qiymətdən düşdü. Əmanətçilər çox halda aylarla öz vəsaitlərini banklardan ala bilmir və ya köhnə kursla almağa məcbur olurdu. Orta sinfə aid edilən yüz minlərlə insan öz iş yerlərini və gəlir mənbələrini itirdi.

S.Kirienko hökumətini istefaya göndərdikdən sonra B.Yeltsin V.Çernomırdini yenidən hökumətin başına gətirmək istəsə də Duma buna razılıq vermədi. Yeni hökuməti sol müxalifətin nümayəndələri ilə birlikdə Y.M.Primakov (1929-2015) qurdu. Yeni Baş nazirin iqtisadiyyat üzrə birinci müavini RF KP-nın nümayəndəsi Y.D.Maslyukov oldu. Gözləniləni əksinə olaraq Y.Primakov hökuməti iqtisadi kursu dəyişdirməyərək avqust böhranı ərəfəsində əvvəlki hökumətin Dumaya təqdim etdiyi qanunları təstiq etdirdi. İnflyasiya aşağı düşdü, rubl sabitləşdi, balanslaşdırılmış büdcə qəbul edildi. Sənaye istehsalı tədricən artdı, yerli mallar xaricilərlə müqaisədə ucuz olduğu üçün ona olan tələbat artdı. Yerli mallar ucuzlaşdığından onun ixrası da artdı. 1999-cu ilin may ayında Y.Primakov hökuməti radikal xarakterli islahatlar keçirməkdən imtina etdiyi üçün B.Yeltsin tərəfindən istefaya göndərildi.

Əslində ölkədə vəziyyəti stabilləşdirmək məqsədilə Baş nazir postuna B.Yeltsin tərəfindən təyin edilən akademik, keçmiş xarici işlər naziri Primakov Yevgeni Maksimoviç iqtisadiyyatda dövlətin rolunun möhkəmləndirilməsi tərəfdarı idi. İqtisadçı və tarixçi olan Y.M.Primakov hökumətin başçısı kimi 1999-cu ildə 156,7 milyard dollara çatan dövlət borclarının xarici kreditorlara ödənməsi məsələlərində güzəştə nail olaraq böyük uğur qazanmışdı. Bununla yanaşı, rusiyalıların 2000-ci ilə doğru real gəliri 1991-ci il səviyyəsinin yalnız 47 faizini təşkil edirdi. Kasıb və varlılar arasındakı gəlir fərqi durmadan artırdı. Bir çox göstəricilər üzrə Rusiya dünyanın az inkişaf etmiş ölkələrinin səviyyəsinə yaxınlaşmağa davam edirdi. 1999-cu ilin mayında istefaya göndərilən Y.M.Primakovun yerinə S.V.Stepaşin Baş nazir təyin olundu və cəmi üç ay bu vəzifədə qaldı.

***İctimai-siyasi vəziyyət.*** Müasir Rusiya dövlətçiliyinin tarixi 1990-cı il iyunun 12-də RSFSR 1-ci Xalq deputatlar qurulatyının Rusiyanın dövlət müstəqilliyin elan etməsi haqqında Bəyannamənin qəbul edilməsilə başlayır. Bir ildən sonra 1991-ci il iyunun 12-də B.N.Yeltsin

Rusiyanın Prezidenti seçildi. Rusiya yalnız SSRİ öz varlığını dayandırdıqdan sonra bir dövlət kimi fəaliyyətə başladı. Yeni Rusiyanın ərazisi 17,1 milyon kv.km olmaqla RSFSR-in sərhədləri daxilində meydana gəldi. 1989-cu ilin siyahıyaalmasına əsasən bu ərazidə 147,4 milyon nəfər əhali yaşayırdı ki, bunların da 120 milyon nəfəri ruslar idi. 2002-ci il siyahıyaalmasına əsasən bu rəqəmlər müvafiq olaraq 145 və 115,9 milyon nəfər idi. 2002-ci siyahıyaalmasına görə şəhər əhalisinin sayı 106 milyon nəfərə çatırdı. Orta ailə tərkibi üç nəfərdən ibarət idi. 2002-ci il rəsmi məlumatına əsasən ruslardan sonra ölkədə 5,5 milyon tatar, 2,9 milyon ukraynalı, 1,7 milyon başqırd, 1,6 milyon çuvaş, 1,3 milyon çeçen, 0,8 milyon nəfər belarus yaşayırdı

SSRİ 1991-ci il dekabrın 26-da öz varlığına xitam verdikdən sonra əvvəlki hakimiyyət və idarəçilik strukturları ləğv edilməyə başladı. Bir çox keçmiş İttifaqın idarə və təsisatı Rusiyanın idarəetmə strukturlarının sərəncamına verildi. 1992-ci il aprelin 21-də Rusiya dövlətinin rəsmi adı olan RSFSR dəyişdirilərək Rusiya Federasiyası – Rusiya oldu. Müstəqil Rusiyanın daxili siyasi vəziyyəti son dərəcə mürəkkəb idi. Həyata keçirilən radikal islahatlar əhalinin böyük əksəriyyətinin həyat səviyyəsinin aşağı düşməsinə, onların əmanət kassalarındakı vəsaitlərinin itirməsinə gətirib çıxardı. Odur ki, əhali arasında demokratların nüfuzu aşağı düşmüş, müxalifətə isə rəğbət artmışdı.

Sov.İKP və RKP qadağan edilməsi bir sıra yeni kommunist təşkilatlarının yaranması ilə müşayiət olundu. V.İ.Anpilovun başçılığı ilə yaranan Rusiya kommunist fəhlə partiyası (RKFP) və onların "Trudovaya Moskva", "Trudovaya Rossiya" hərəkatları daha radikal mövqe tuturdu. Onların əsas hərəkat metodu "Yeltsinin antixalq rejiminin" devrilməsi şüarı, özəlləşdirmənin ləğvi, əvvəlki qiymətlərin, SSRİ-nin bərpası tələbləri ilə küçə nümayiş və yürüşləri idi. 1992-ci ilin aprelində 6-cı Rusiya Xalq deputatları Qurultayında prezident və hökumətin siyasətinin əleyhinə olan müxalifət qüvvələri "Rossiyskoye Yedinstvo" blokunu yaratdı.

1992-ci ilin iyununda "Trudovaya Moskva" Ostankino televiziya mərkəzi ətrafında piket təşkil etdi. Tezliklə milis qüvvələri zor tədbiq edərək piketçiləri dağıtdı. Ostankino ətrafında hadisələrin cərəyan etdiyi bir vaxtda DTK-nin sabiq generalı A.N.Sterliqov "Russkoqo Natsionalnoqo Sobora"nı (RNS) yaratdı. RNS-ın ideoloqları M.S.Qorbaçov və B.N.Yeltsini qərbin xüsusi xidmət orqanlarının tapşırığı ilə SSRİ və Rusiyanı məqsədli şəkildə dağıtmaqda ittiham edir, Rusiya dövlətini 1914-cü il sərhədləri daxilində bərpa etməyi qarşılarına məqsəd qoyurdular.1992-ci ilin sentyabrında M.G.Astafyev, S.N.Baburin, G.A.Zyuqanov "Front Natsionalnoqo Spaseniya" (FNS) yaradaraq B.Yeltsinin "işğalçı rejimini" devirməyi, SSRİ-ni bərpa etməyi tələb etdilər.

1992-ci ilin iyununda Rusiyadakı 40-dan çox partiya və təşkilat "Qrajdanskiy Soyuz" birliyində birləşdi ki, onun da lideri sənaye və sahibkarlar ittifaqına başçılıq edən A.İ.Volski oldu. Q.X.Popov isə "Rossiyskoye dvijenie demokratiçeskix reform" (RDDR) ittifaqın yaratdı. Lakin hər iki hərəkatı geniş əhali kütləsi müdafiə etmədi.

Hakimiyyətin iki mərkəzi-icraedici, yəni prezident və onun formalaşdırdığı hökumət, qanunverici, yəni Ali Sovet ölkənin sosial-iqtisadi kursunu müəyyən etməli olan yeni konstitusiya layihəsini hazırlamaq məsələsində açıq siyasi mübarizəyə başladı. Hakimiyyət məsələsində bu və ya başqa yolun seçilməsi əslində Konstitusiyadan başlayırdı. Dövlət quruluşunun və iqtisadi dəyişikliklərin müəyyən olunmasındakı siyasi mübarizə konkret olaraq prezident kimi B.N.Yeltsin və Ali Sovetin Sədri R.İ.Xasbulatov fiqurları arasında gedirdi. Mahiyyət etibarilə R.Xasbulatov prezidentə geniş səlahiyyətlər vermək şərti ilə parlament respublikası ideyası tərəfdarı idi. Məsələ ondan ibarətdir ki, prezident dövlət başçısı kimi hökumətin sədrini təstiq üçün parlamentə təqdim edir, onlar isə parlament qarşısında cavabdeh olurdu. R.Xasbulatov və onu müdafiə edən deputatlara görə imkan daxilində yeni Konstitusiya qəbul etməyərək qüvvədə olan dövlət hakimiyyətinin ali orqanın Rusiya Federasiyasının xalq deputatları qurultayını elan edən sənədə dəyişiklik etməklə kifayətlənmək olardı. Qurultay öz tərkibindən Ali Soveti formalaşdırırdı. B.N.Yeltsin "Sovetlərin bütün hakimiyyətini" ləğv etmək şüarın irəli sürərək respublika yaradılmasını və bununla dövlət başçısı olan prezidentin

daha çox səlahiyyət imkanları əldə etməsini istəyirdi. Bu ona görə radikal islahatların daha təsirli həayata keçirilməsini təmin edən, federativ dövlətdə mərkəzdənqaçma meyllərinə cığır açan fəaliyyətə son qoyardı.

1992-ci ilin dekabr ayında 7-ci Rusiya Xalq deputatları qurultayı Y.T.Qaydar hökumətinin səlahiyyətlərini məhdudlaşdıran Konstitusiya dəyişikliyini qəbul etdi. 1992-ci il dekbarın 10-da B.Yeltsin qurultayın tribunasından Rusiya vətəndaşlarına müraciət edərək Ali Soveti islahatlara qarşı təxribat törətməkdə ittiham etdi. Öz növbəsində, Ali Sovet Prezidenti qanunvericilik orqanı məhv etməkdə günahlandırdı. Dekabrın 12-də Konstitusiya məhkəməsinin sədri V.D.Zorkinin təklifi ilə kompromis qərar qəbul edildi, 1993-cü ilin aprelində yeni Konstitusiyanın əsasları haqqında referendum təyin edilir, prezident isə baş nazir vəzifəsin tutmaq məqsədilə qurultayı üç namizəd təqdim etməli idi. İrəli sürülən namizədlərdən ən çox səsi V.S.Çernomırdin aldı və 1992-ci il dekabrın 14-də ölkənin Baş naziri oldu.

Çernomırdin Viktor Stepanoviç 1938-ci ildə anadan olmuş, 1957-ci ildə Orsk neft emaledən zavodda əmək fəaliyyətinə başlamışdı. 1989-cu ildən "Qazprom" dövlət konsernin idarə heyətinə başçılıq edir. 1992-ci ilin mayından Rusiya baş nazirinin müavini, dekabrından isə hökumətin Baş naziri olaraq 1998-ci ilin martına kimi fəaliyyət göstərmişdir. "Naş dom-Rossiya" hərəkatının lideri, Rusiyanın Ukraynadakı səfiri olmuşdur.

1993-cü ilin fevralında G.A.Züqanovun başçılığı altında Rusiya Federasiyası Kommunist Partiyası (RFKP) rəsmi olaraq bərpa olundu. Partiya proqramında iqtisadiyyatda çoxukladlığa və burada dövlətin rolunun artmasına, radikal islahatların və kütləvi özəlləşdirmənin tənqidinə, hökumətdən fəal sosial siyasət yeridilməsi tələbinə geniş yer vermişdir. M.İ.Lapşinin liderliyində demək olar ki, kommunist partiyası ilə eyni vaxtda meydana gələn Rusiya Aqrar partiyası da öz proqramına görə RFKP-na yaxın idi.

1993-cü ilin martın 8-12-də 8-ci Rusiya Xalq deputatları qurultayı növbəti dəfə prezidentin səlahiyyətlərini məhdudlaşdırdı, 1992-ci il dekabrın 12-də olan sazişi ləğv etdi, referendum keçirilməsi üzərinə moratorium qoydu. Buna cavab olaraq B.Yeltsin martın 20-də hakimiyyət böharanı dəf edilənə kimi xüsusi idarəetmə qaydaları haqqında fərman imzaladı. Aprelin 25-nə prezidentə etimad, yeni Kosntitusiya, yeni parlamentin seçilməsi məsələlərini əhatə edən referendum təyin etdi. R.Xasbulatov, V.Zorkin, A.Rutskoy fərmana qarşı çıxdı. Konstitusiya Məhkəməsi fərmanın bir sıra maddələrinin Konstitusiyaya zidd olmasına dair qərar qəbul etdi. Martın 26-da növbədənkənar 9-cu Rusiya Xalq deputatları qurultayı toplandı. Qurultay prezident B.Yeltsinə impicment, yəni etimadsızlıq göstərilməsi haqqında qərar qəbul etməyə cəhd etsə də zəruri olan 689 deputat səsinə qarşı 617 səs alaraq məqsədə çata bilmədi. Beləliklə, qurultay 4 məsələdən ibarət referendum keçirilməsinə razılıq verdi: 1.RF-nın prezidenti B.N.Yeltsinə etibar edirsinizmi? 2.RF-nın prezidentinin 1992-ci ildən həyata keçirdiyi sosial-iqtisadi siyasəti bəyənirsinizmi? 3.RF prezidentinin növbədənkənar seçki keçirilməsini zəruri hesab edirsinizmi? 4.RF Ali Sovetinin növbədənkənar seçkisinin keçirilməsini zəruri hesab edirsinizmi?

Bu dörd məsələyə aydınlıq gətirməli olan referendum 1993-cü il aprelin 25-də baş tutdu. Səsvermədə Rusiya əhalisinin 64 faizi, yəni 69 milyon nəfəri iştirak etdi. 40 milyon nəfər, yəni səsvermədə iştirak edənlərin 58,7 faizi Prezidentə etimad nümayiş etdirdi. Prezidentin sosial-iqtisadi siyasətini isə seçicilərin 36 milyon nəfəri, yəni 53 faizi müdafiə etdi. Beləliklə, qəbul edilən qərara əsasən sorğuda iştirak edənlərin yarısından çoxu prezindenti müdafiə etdiyindən o, qələbə çaldı, lakin siyasi böhran daha da dərinləşdi. Növbədənkənar seçkilərin keçirilməsinə dair sorğunun son iki maddəsi müvafiq olaraq 40 və 67,6 faiz səs topladığı üçün əlavə seçkilər keçirmək baş tutmadı.

Müxalifətin siyasi mövqeyinin güclənməsi onların küçə fəaliyyətinin fəallaşmasına səbəb oldu. 1993-ci ilin mayın 1-də Moskvanın Leninqrad prospektində kommunist nümayişçilərlə milislər arasında çaxnaşma baş verdi ki, bunun da nəticəsində ölən və yaralananlar oldu. Həm qapalı qapılar arxasında, həm də meydanlarda baş verən hadisələr hər iki tərəfi qəti hərəkət etməyə sövq etdi. B.N.Yeltsinin göstərişi ilə yeni Konstitusiyanın hazırlanması prosesi sürətləndi. Yeni layihədə prezindentin səlahiyyətləri əhəmiyyətli dərəcədə artdı. Bu Ali

Sovetin böyük əksəriyyətinin narazılığına səbəb oldu. Ali Sovetin rəhbərliyi yeni qanunların qəbul edilməsinin qarşısını alaraq hakimiyyətin üst təbəqələrində korrupsiya olduğunu bəyan etdi. Prezident 1993-cü il sentyabrın 1-də imzaladığı fərmanla vitse-prezident A.R.Rutskoyu vəzifəsindən azad etdi. Ali Sovet bu fərmanı konstitusiyaya zidd addım hesab edərək ləğv etdi, Prezident və deputatların növbədənkənar seçkisini elan etdi.

1993-cü il sentyabrın 21-də B.N.Yeltsin seçilmiş nümayəndələrdən ibarət hakimiyyət orqanlarının – Rusiya Federasiyasının Ali Sovetinin və Xalq Deputatları Qurultayının buraxılmasına dair fərmanı elan etdi, dekabrın 12-nə parlamentin yeni seçkisini təyin etdi. Ali Sovet fərmanı dövlət çevrilişi kimi qiymətləndirərək, B.Yeltsini hakimiyyətdən uzaqlaşdırıb, A.V.Rutskoyu yeni prezident seçdi. Sentyabrın 24-də A.Rutskoy və R.Xasbulatovun silahlı tərəfdarları podpolkovnik S.N.Terexovun başçılığı altında Zabitlər İttifaqının üzvləri ilə birlikdə Leninqrad prospektindəki MDB silahlı qüvvələrinin birləşmiş Qərargahını tutmağa cəhd etdilər. Sentyabrın 24-də Ali Sovetin iclaslarının keçdiyi "Ağ ev" milis qüvvələri tərəfindən mühasirəyə alındı, binanın işıq və su təchizatı kəsildi. Prezident və Ali Sovetin iki həftəlik qarşıdurması başladı. 1993-cü il oktyabrın 2-3-də qarşıdurma silahlı xarakter aldı. A.V.Rutskoyun tərəfdarları oktyabrın 3-də Yeni Arbatdakı şəhər meriyasına hücum etdilər, ilk qurbanlar oldu.A.Rutskoy və general A.M.Makaşov öz tərəfdarlarını Kremlə hücüm etməyə çağıraraq Ostankino televiziya mərkəzinə hücuma keçdilər. Telemərkəz işğal edilməsi təhlükəsi altında öz verlişlərini dayandırdı. Yalnız 2-ci kanal ehtiyat studiyasından verilişlərini davam etdirirdi. Oktyabrın 4-də Prezident B.Yeltsin Moskvada hərbi vəziyyət elan edərək paytaxta qoşun yeritdi. "Ağ ev" tanklardan top atəşinə tutulduqdan sonra günün ikinci yarısı müdafiəçilər təslim oldu. A.Rutskoy, R.Xasbulatov, A.Makaşov və b. həbs edilərək Lefortovo həbsxanasına göndərildi. Rəsmi məlumata əsasən oktyabrın 3-4 hadisələrində 152 nəfər, qeyri rəsmi məlumatlara əsasən isə 200-dən 400 nəfərə qədər adam öldürüldü. Parlament binasının tanklardan atəşə tutulması ölkədə birmənalı qarşılanmadı, ziyalılar da iki cəbhəyə bölünərək bu aktı antikonstitusiya hərəkəti kimi qiymətləndirənlərə, yaxud parlament rəhbərliyin başqa yolla saxlamaq mümkün deyildir kimi fikirlər səsləndirənlərə bölündü.

1993-cü il oktyabrın 7-də B.Yeltsinin fərmanı ilə Moskva Soveti buraxıldı. İki gündən sonra Prezident "Rusiya Federasiyasında nümayəndəli hakimiyyət və özünüidarə orqanlarında islahatlar haqqında" fərman imzalayaraq bütün rayon, şəhər, qəsəbə və kənd sovetlərinin fəaliyyətinə xitam verdi, onların səlahiyyətləri yerli icra başçılarına verildi. Oktyabrın 24-də Prezidentinin başqa bir fərmanı ilə Moskva və Moskva vilayəti Dumalarına seçkilər haqqında, Oktyabrın 26-da "Rusiya Federasiyasında yerli özünüidarə islahatları haqqında" fərman imzaladı ki, buna əsasən yerli sovetlər öz fəaliyyətini dayandıraraq səlahiyyətlərini yerli icra başçılarına təslim edirdi. Beləliklə, Rusiya Federasiyasının prezidenti B.N.Yeltsinin yuxarıda adı çəkilən fərmanları əsasında Ali Sovetin müqaviməti silah gücünə qırıldıqdan sonra 76 il mövcud olan sovet hakimiyyəti ildırım sürəti nəticəsində ləğv edildi. Bununla da dövlət quruluşunun sovet formasına son qoyuldu.

1993-cü il dekabrın 12-də referendum keçirildi, burada iştirak edənlərin 58,4 faizi prezidentin təqdim etdiyi Konstitusiya layihəsini bəyəndi. Rusiyanın qəbul edilən yeni Konstitusiyasına görə Rusiya Federasiyasının Ali qanunverici orqanı iki palatadan, yəni Dövlət Duması və Federasiya Şurasından ibarət olan Federal Yığıncaq elan edildi. Prezident çox böyük səlahiyyətlərə malik oldu. O, hər iki palatanın qərarına veto qoymaq hüququ alırdı. Bu vetonu aradan qaldırmaq üçün palata üzvlərinin üçdəiki hissəsinin səsi tələb edilirdi. Baş nazirin namizədliyini üç dəfə rədd edən Dumanı prezident buraxmaq səlahiyyətinə malik oldu. Əgər Duma hökumətə etimadsızlıq göstərsə idi o zaman prezident ya hökuməti istefaya göndərər, ya da Dumanı buraxa bilərdi. Faktiki olaraq Rusiya prezident respublikası elan edildi. Prezidentə impiçment, yəni etimadsızlıq göstərilməsinin baş tutması xeyli çətinləşdirildi. Belə ki, Kosntitusiyaya əsasən prezidenti vəzifəsindən kənar etmək məqsədilə Federal Yığıncağın hər iki palatası deputatlarının üçdəikisinin səsi tələb olunurdu.

Referendumla yanaşı Federal Yığıncağın aşağı palatası Dövlət Dumasına seçkilər keçirildi. Seçkilər majoritar və proporsional sistem üzrə baş tutdu. 225 deputat birmandatlı

majoritar dairələr üzrə, 225 deputat ümumfederal partiya siyahısı üzrə seçilmişdi. Seçkilərdə iştirak etmək hüququ qazanan 13 partiya və birlikdən yalnız 8-i beş faizlik həddi keçərək Dumada öz yerini aldı. Y.T.Qaydarın rəhbərlik etdiyi "Vıbor Rossii" partiyası radikal islahatların tərəfdarı kimi seçicilərin yalnız 15 faizinin səsini ala bildi. Səslərin dörddəbirini, yəni 63 deputat yeri alan V.V.Jirinovskinin Liberal-Demokratik partiyası (LDPR) 1990-cı ilin martında meydana gələrək vahid Rusiya, SSRİ-nin bərpası, güclü mərkəzi hakimiyyət, bazar, sosialyönümlü iqtisadiyyat uğrunda mübarizə aparırdı. Ümumiyyətlə, Dumada M.Lapşinin rəhbərlik etdiyi Aqrar partiya 55, G.Züqanovun Rusiya Federasiyası Kommunist Partiyası 45, Rossiyskiy Put birliyi 25 yer qazanaraq müxalif sol və böyük dövlətçilik-vətənpərvər qüvvələrinin üstünlüyünü təmin etdilər. Demokratik partiyaları təmsil edən "Bıbor Rossii" 76, "Yabloko" (Q.A.Yavlinski, Y.Y.Boldırev və V.P.Lukin) 23, "Soyuz 12 dekabrya" 12 deputat yerinə sahib oldu. Mərkəzçi mövqe tutan S.M.Şaxayın "Partiya Rossiyskoqo yedinstva i soqlasiya" 30, "Jenşini Rossii" 23 deputat yer aldı. Federasiya Şurasının birinci sədri keçmiş iri sənaye müəssisəsinin direktoru olan V.F.Şumeyko oldu. Dövlət Dumasına İ.Rıbkin başçılıq etdi. Dumanın ilk aktlarından biri 1991-ci il avqust qiyamı və 1993-cü il oktyabr hadisələri iştirakçılarını əfv etmək qərarı oldu.

1994-cü ilin aprelində milli-vətənpərvər qüvvələr istisna olmaqla ictimai-siyasi qüvvələrin böyük əksəriyyəti və Prezident ictimai razılıq əsasında müqavilə imzaladı. Müqaviləyə əsasən iki il müddətində cəmiyyətdə sabitliyi pozan Konstitusiya dəyişikliyinə yol verilməməli, federal hakimiyyət orqanlarına növbədən kənar seçkilər keçirilməməli idi. 800 nəfərdən çox müxtəlif hakimiyyət, siyasi partiya və birlik nümayəndələrinin bu müqaviləni imzalamasına baxmayaraq, RFKP və Aqrar partiya, sonradan isə daha 10 partiya bu sənəddən imtina etdi. Bütün bunlara baxmayaraq müəyyən mənada müqavilə cəmiyyətdə vəziyyətin sabitləşməsinə kömək etdi.

***Federalizmin inkişafı. Çeçenistan müharibəsi.*** Rusiya federasiyasına SSRİ-dən miras qalan ən mürəkkəb məsələlərdən biri millətlər arasındakı münasibətlər problemidir. Vəziyyəti gərginləşdirən şərait ondan ibarət idi ki, yeni Rusiyaya federativ quruluşun əvvəlki etnik prinsipi miras qalmışdı.Yalnız fərq ondan ibarət idi ki, Federasiyanın subyektləri keçmiş Rusiya muxtariyyətləri idi. Ölkədəki etnosiyasi vəziyyət göstərdi ki, SSRİ-dən fərqli olaraq əhalinin 80 faizindən çoxunu təşkil edən rus xalqı bütün Rusiya ərazisi üzrə yayılmışdır. Məhz bu amil respublikalarda fəaliyyətdə olan milli hərəkatlarda və ayrı-ayrı respublikaların rəhbərliyində nəzərə alınmamışdı.

1992-ci ilin martında Prezidentlə respublikaların nümayəndələri arasında imzalanan Federativ müqavilə problemi siyasətdən hüquq sahəsinə keçirməklə Rusiyanın parçalanması təhlükəsin təxirə saldı. Lakin müqavilə yeni təhlükəyə, Federasiya subyekti statusunun qanun qarşısında qeyri-bərabərliyinə şərait yaratdı. Milli respublikalar vilayət və diyarlardan fərqli olaraq daha çox səlahiyyət alırdı. Çeçenistan və Tatarıstan müqaviləni imzalamadıqlarından Rusiya Federasiyasının bütövlüyü sual altında qalırdı. Bir çox milli hərəkatların proqram sənədlərində separat tələblər yer alırdı. Konstitusiyalarını qəbul edən bir sıra muxtar respublikalar yerli qanunları federal qanunlardan üstün tutur və Federasiyadan çıxmaq hüququnu təsbit edirdi. Tatarıstan, Çeçenistan, Başqırdıstan, Tuva, Yakutiya (Saxa Respublikası) federal büdcəyə keçirdikləri vəsaiti azaltdı. 1992-ci ildə Tatarıstan respublikasının dövlət statusu haqqında referendum keçirildi. Səsvermədə iştirak edənlərin 60 faizi Tatarıstanın dövlət müstəqilliyinə səs verdi. 1994-cü il fevralın 15-də Federal hakimiyyətlə Tatarıstan arasında səlahiyyətlərin müəyyən edilməsinə dair müqavilə imzalandı ki, bu sənədə əsasən respublika Federasiyasının başqa subyektlərindən daha çox hüquqlar, o cümlədən tatar vətəndaşlığının verilməsi, xarici dövlətlərlə münasibətlər yaradılması və b. hüquqlar aldı. Yalnız bundan sonra Tatarıstanda RF Dövlət Dumasına seçkilər keçirildi. Bir çox məsələlər üzrə kompromisin əldə edilməsində Tatarıstan Respublikasının Prezidenti M.Ş.Şaymiyevin çevik və konstruktiv mövqeyi önəmli rol oynadı. 1993-cü ildəki Prezident və Parlament qarşıdurmasından, yeni Rusiya Konstitusiyasının qəbul edilməsindən sonra Federasiyanın subyektlərinin böyük əksəriyyətilə münasibətlər normal məcraya düşdü. 1994-1995-ci illərdə muxtar

qurumlarla 20 ikitərəfli müqavilələr imzalandı. Nəticədə Federasiyanın milli-ərazi subyektləri daha çox müstəqillik əldə etdilər ki, bu da bir çox diyar və vilayət rəhbərliyinin narazılığına səbəb oldu. Bununla birlikdə, mərkəzin kompromis mövqeyi separatizmin tədricən aradan qaldırılmasına, eksteremist milliyətçi qüvvələrin təcrid edilməsinə kömək etdi.

Müstəqilik uğrunda cərəyan edən hadisələrin mərkəzi Şimali Qafqaz oldu. 1990-cı ilin yazında çeçen xalq konqressi Çeçenistanın müstəqilliyi haqqında qətnamə qəbul edərək onu İckeriya Respublikası adı ilə elan etdi. 1991-ci ilin oktyabrında Estoniyadakı keçmiş HHQ-nin diviziya komandiri, istefada olan general C.Dudayev Çeçen-İnquşetiya respublikasının prezidenti seçildi. 1992-ci il iyununda İnquşetiya Çeçenistandan ayrılaraq RF tərkibində İnquş respublikasını elan etdi. 1991-ci il oktyabrın 27-də C.Dudayev Çeçen Respublikasının prezidenti seçildi və parlament formalaşdı. 1991-ci il oktyabrın 26-da C.Dudayevin fərmanı ilə Çeçen respublikasının ərazisində olan bütün Rusiya Federasiyasının hərbi hissələrinin silah və hərbi texnikası respublikanın mülkiyyəti elan olundu.1992-ci ilin mayında C.Dudayevin tərəfdarları hərbi texnikanın 80, atıcı silahların 75 faizini ələ keçirdi. 1991-ci il dekabrın 24-də imzaladığı fərmanla respublikanın bütün kişi əhalisin orduda xidmət etmək mükəlləfiyyəti ilə vəzifələndirən C.Dudayev daimi ordu yaratdı ki, onun da sayı 15 min nəfərə çatırdı.

1994-cü il noyabrın 29-da Rusiya Təhlükəsizlik Şurasının iclasında hərbi əməliyyatların başlaması haqqında qərar qəbul edildi. Noyabrın 30-da prezident B.Yeltsin, “Çeçen respublikasının ərazisində konstitusiya qanununun və hüquq qaydalarını bərpa etmək tədbirləri haqqında” gizli fərman imzaladı. Əməliyyatı 25 gün ərzində yekunlaşdırmaq nəzərdə tutulsa da onu pis hazırlamışdılar. 1994-cü il dekabrın 11-də birinci çeçen müharibəsi başladı. Qroznıda C.Dudayevin 15 min qoşunu, 60 top və minaatanı, 30 “Qrad” qurğusu, 50 tankı vardı. Federal qoşunlar çeçen respublikasının ərazisinə daxil olaraq 1995-ci ilin yayına doğru ağır döyüşlərdən sonra əsas yaşayış məntəqələrini ələ keçirərək dudayevçiləri dağlara sıxışdırdılar. Baxmayaraq ki, Müdafiə naziri P.S.Qraçov ictimaiyyəti və prezidenti inadırmağa çalışırdı ki, C.Dudayevi devirmək üçün “iki saat və bir paraşüt desant polku” kifayətdir. Əməliyyatlar göstərdi ki, dudayevçilər müasir sovet və xarici silahlarla hərbi əməliyyatlara daha yaxşı hazırlaşmışlar. “Qayda-qanunun bərpası” aviasiya, tanklar və digər ağır texnikanın tədbiqi ilə uzun və qanlı müharibəyə çevrildi.

1995-ci ilin iyulunda bir qrup çeçen döyüşçüsü Ş.Basayevin başçılığı ilə Çeçenistan sərhədindən 150 km uzaqlıqda yerləşən Stavropol diyarının Budyonovsk şəhərində 1500 nəfəri, o cümlədən uşaq və qadınları girov götürərək Rusiya hökumətini onların tələblərini yerinə yetirməyə məcbur etdi. Federal hakimiyyət çeçen liderlərlə yenidən danışıqlara başladı. 1996-cı ilin aprelində C.Dudayev öldürülsə də vəziyyət dəyişmədi. 1996-cı ilin avqustunda çeçen döyüşçüləri dağlardan enərək Qroznıya hücum etdilər və onu federal qoşunlardan təmizlədilər. 1996-cı il avqustun 31-də Dağıstanın Xasavyurt qəsəbəsində Təhlükəsizlik Şurasının katibi general-leytenant A.Lebedlə çeçen qoşunlarının qərargah rəisi A.Masxadov arasında müharibənin dayandırılması, rus qoşunlarının respublikadan çıxarılması və Çeçen respublikasının ərazisində demokratik seçkilərin keçirilməsi haqqında saziş imzalandı. Çeçenistanın statusunun həlli məsələsi beş il müddətinə təxirə salındı. 1997-ci ildə Çeçen respublikasının Prezidenti seçilən A.A.Masxadov bu müqaviləyə faktiki olaraq Çeçenistanın müstəqilliyinin tanınması kimi baxırdı. 1997-ci ilin mayında Moskvada B.Yeltsin və A.Masxadov RF və Çeçen Respublikası İçkeriya arasında sülh və qarşılıqlı münasibət haqqında müqavilə imzaladılar. Faktiki olaraq Çeçenistan müstəqil elan edildi və Rusiya onun dağıdılmış iqtisadiyyatının bərpasına kömək etməyə razılıq verdi.

1999-cu ilin payızında Çeçenistan ətrafında vəziyyət yenidən kəskinləşdi. İkinci Çeçen müharibəsi başladı. 1999-cu ilin sentyabrında Rusiyanın bir sıra şəhərlərində, o cümlədən Moskvada terror aktları törədildi. Rusiya hökumətinin cavab tədbirləri sərt oldu.İkinci Çeçen müharibəsində 150 min nəfər hərbiçi, milis və daxili qoşun səfərbər edildi. Çeçen tərəfinin döyüşçüləri 20 min nəfərə çatırdı. Federal qoşunlar birinci Çeçen müharibəsindən nəticə çıxararaq əsasən artilleriya və hava hücumlarına üstünlük verirdi. 1999-cu ilin dekabrında HHQ və sərhədçilər Gürcüstan sərhədi yaxınlığındakı Arqun dərəsini tutaraq çeçn döyüşçülərinə

gələn köməyin qarşısını aldı. 2000-ci ilin yanvarında möhkəm qalaya çevrilən Qroznunu Federal qoşunlar aldı. Döyüşlərin gedişində çeçen döyüşçülər 15 min, Federal qüvvələr 2 min nəfər itirdi. 2000-ci ilin axırlarında federal qoşunlar bütün Çeçen respublikasının yaşayış məntəqəsinə nəzarəti ələ keçirdi. Respublikada keçmiş müfti A.A.Kadırovun başçılığı ilə vətəndaş idarəçiliyi yaradıldı. 2003-cü ilin martında keçirilən referendumda Çeçen Respublikasının yeni Konstitusiyası qəbul edildi ki, burada da Çeçenistan Rusiya Federasiyasının ayrılmaz tərkib hissəsi elan olundu. A.A.Kadırov Çeçen Respublikasının Prezidenti seçildi. Çeçen xalqının çox hissəsi getdikcə daha çox dinc həyatı qaydaya salmağın vacib olduğun başa düşür.

***Rusiya 90-cı illərin ikinci yarısı – 2015-ci ilə kimi olan dövrdə.*** 1995-ci ilin dekabrındakı Dövlət Dumasına ikinci seçkidə 43 partiya və seçkiqabağı birlik iştirak etdi. Sol qüvvələri təmsil edən G.Züqanovun RFKP-nın seçki proqramı Prezidentin islahatlarının tənqidinə, onun SSRİ-ni dağıtmasında təqsirləndirilməsi və xalqın yoxsullaşmasına səbəb olmasına həsr edilmişdir. Hökumətin siyasətini NDR hərəkatı müdafiə edirdi. Demokratik qüvvələri "Yabloko" və Y.Qaydarın "Demokratiçeskiy Vıbor Rossii" (DVR) təmsil edirdi. Seçkilərdə yalnız dörd birlik, o cümlədən 22 faiz səslə KPRF, 11 faiz səslə LDPR, 10 faiz səslə NDR və 8 faiz səslə "Yabloko" beşfaizlik səddi keçərək Dumada təmsil edilmək hüququ qazandı. Dumada üstünlük təşkil edən kommunistlərin nümayəndəsi G.N.Seleznyov spiker seçildi.

Konstitusiya prezidentə çox böyük səlahiyyətlər tanıdığı üçün 1996-cı ildəki prezident seçkiləri ölkənin üçüncü minilliyə hansı yolla gedəcəyi məsələsinə aydınlıq gətirmək mənasında çox böyük siyasi əhəmiyyət daşıyırdı. Siyasi partiyalar bu həlledici döyüşə ciddi hazırlaşırdı. Prezident seçkilərinin birinci turu iyunun 16-da keçirildi. Səsvermədə iştirak edən seçicilərin B.Yeltsinə 35,3, G.Züqanova 32, A.lebedə 14,5, Q.Yavlinskiyə 7,3, V.Jirinovskiyə 5,7, S.Fyodorova 0,9, M.Qorbaçova 0,5, M.Şakkuma 0,4, Y.Vlasova 0,2 və V.Brınsalova 0,2 faizi səs verdi. Onbirinci namizəd A.Tuleyev seçkiyə kimi G.Züqanovun xeyrinə öz namizədliyin geri götürdü. Beləliklə, ikinci tura B.Yeltsin və G.Züqanov çıxdı. B.Yeltsin siyasi manevr edərək səslərin 14,5 faizini toplayan A.İ.Lebedi Təhlükəsizlik Şurasının katibi və prezidentin Milli məsələlər üzrə köməkçisi təyin etdi. Bu addım, səslərin B.Yeltsinin xeyrinə dəyişməsinə şərait yaratdı.1996-cı ildə seçkilərin ikinci turunda B.N.Yeltsin səslərin 53,7 faizini toplayaraq Rusiya Federasiyasının Prezidenti seçildi. G.Züqanov seçicilərin yalnız 40,3 faiz səsini qazandı. Bu isə o demək idi ki, Rusiya qəbul etdiyi islahatlar yolunu davam etdirir.Y.S.Stroyev 1996-cı ildə Federasiya Şurasının sədri seçildi.

B.N.Yeltsin ikinci dəfə Rusiya prezidenti seçildikdən sonra səhhətində yaranan problemlərlə bağlı uzun müddət dövlət işlərindən ayrı düşdü. Ürəyindən mürəkkəb əməliyyat keçirən prezident B.Yeltsin yalnız 1997-ci ilin martında fəal dövlət işləri fəaliyyətinə başlayaraq radikal islahatlar proqramı ilə çıxış etdi. "Gənc islahatçılar" A.B.Çubays və B.E.Nemtsov Baş nazirin birinci müavinləri təyin edildi. Hökumətin yeritdiyi islahat xəttinə baxmayaraq, ölkədə vəziyyət ağır olaraq qalırdı. 1998-ci ilin sonu 1999-cu ilin əvvəllərində ölkədəki vəziyyət belə fikir yürütməyə əsas verdi ki, prezident kimi B.N.Yeltsinin siyasi rolu başa çatmaq üzrədir. Duma ilə yanaşı prezidentə qarşı müxalifətə keçən Federasiya Şurası B.Yeltsinin istefasını tələb etdiyi Baş prokuror Y.İ.Skuratovu vəzifədən azad etmədi. Moskva şəhərinin meri Y.M.Lujkov və onun rəhbərlik etdiyi "Oteçestvo" hərəkatı B.Yeltsini və onun ətrafın kəskin tənqid etməyə başladı.Əslində ölkənin siyasi həyatında hakimiyyət böhranı daha aydın hiss edilirdi. Hökumət, nazirlik və sahə idarələrində tez-tez kadr dəyişikliyi edən B.Yeltsinin nüfuzu və dövlətin həyatındakı rolu aşağı düşürdü.1998-ci ilin aprelindən 2000-ci ilin martına kimi Rusiya Federasiyasının Baş Naziri vəzifəsində 5 nəfər S.V.Kiriyenko, V.S.Çernomırdin, Y.M.Pirimakov, S.V.Stepaşin, V.V.Putin bir-birini əvəz etdi. Hökumət rəhbərliyinin dəyişdirilməsi ölkədə vəziyyəti dəyişmədi.

1999-cu ilin avqust ayında B.N.Yeltsin RF-nın Baş naziri vəzifəsinə V.V.Putini təyin etdi. Putin Vladimir Vladimiroviç 1952-ci ildə Leninqradda anadan olub, 1975-1990-cı illərdə SSRİ DTK-nin xarici kəşfiyyat işlərində çalışaraq Almaniya üzrə ixtisaslaşıb. Polkovnik

rütbəsində istefaya çıxdıqdan sonra 1990-cı ildən Leninqrad Sovetində, Sankt-Peterburq meriyasında çalışıb. Xarici əlaqələr Komitəsinin sədri olub. 1997-ci ildən RF Prezidentinin İcra aparatı rəhbərinin müavini,1998-1999-cu illərdə Federal Təhlükəsizlik Xidmətinin (FSB) direktoru, 1999-cu ilin avqustundan 2000-ci ilin mayına kimi Rusiya hökumətinin sədri olub. Eyni zamanda 1999-cu il dekabrın 31-dən Rusiya Federasiyası Prezidentinin vəzifəsini icra edib. 2000-ci il martın 26-da keçirilən Prezident seçkisində V.V.Putin birinci turda inamlı qələbə qazanaraq ölkə prezidenti olub.

1999-cu ilin dekabrından Dövlət Dumasına seçkilərdə mövcud hakimiyyətin əsas rəqibi kommunistlər deyil Y.Primakov və Y.Lujkovun başçılıq etdiyi "Oteçestvo-Vsya Rossii" hərəkatı oldu. Şeçkiqabağı təbliğatı hakimiyyəti kəskin tənqid edərək B.Yeltsinin yaxın ətrafını korrupsiyada ittiham üzərində quran hərəkata cavab Kremldən gəldi. Y.Lujkovun ünvanına da eyni səpkili ittihamlar mərkəzi televiziya kanalı vasitəsilə səsləndi. Ölkənin siyasi həyatında yeni qüvvələr əvvəllər siyasətdən uzaq olan Fövqəladə vəziyyət naziri S.K.Şoyqunun liderliyi altında V.V.Putinin müdafiə etdiyi "Yedinstvo" ("Medved") hərəkatını yaratdı. V.V.Putini həmçinin S.V.Kirienko, B.Y.Nemtsov, İ.M.Xakamandanın başçılıq etdikləri Soyuz Pravıx Sil (SPS) demokratik yönümlü birlik müdafiə edirdi. 1999-cu il dekabr seçkilərində KPRF 24,3, "Yedinstvo" 23,3, "Oteçestvo-Vsya Rossiya" 13,3, SPS 8,5, "Yabloko" 5,9, LDPR 5,9 faiz səs topladı. Ən çox uğur "Yedinstvo" və SPS qazandığı halda, KPRF və LDPR-in nüfuzu xeyli aşağı düşdü.

V.V.Putini müdafiə edən blokların qələbəsi onun cəmiyyətdə nüfuzunun artığını nümayiş etdirdi. Bu şəraitdə B.N.Yeltsin 2000-ci ilin iyulunda başa çatmalı olan prezidentlik müddətini gözləmədən təcili istefaya getməyi qərara aldı. 1999-cu il dekabrın 31-də B.Yeltsin özünün istefasını elan edərək hakimiyyəti V.V.Putinə dövr etdi. 2000-ci il martın 26-da keçirilən prezident seçkisində V.V.Putin seçicilərin səsinin 52,9 faizini toplayaraq birinci turda Rusiyanın növbəti prezidenti seçildi. Onun ən yaxın rəqibi G.Züqanov isə yalnız seçicilərin 29,2 faiz səsini toplaya bildi. V.V.Putin M.M.Kasyanovu Rusiyanın Baş naziri təyin etdi. Vətənpərvərlik, əxlaqi dəyərlər, milli nailiyyətlərə qayğı və ölkənin təhlükəsizliyi yeni Prezidentin çıxışlarının ana xəttini təşkil edirdi.

Uzun illər davam edən kəskin müzakirələrdən sonra 2000-ci ilin dekabrında Prezidentin təklifi ilə Duma Rusiyanın simvollarını qəbul etdi. Ölkənin gerbində ikibaşlı qartal, bayrağında isə üç-ağ-göy-qırmızı rənglər əks olunmuşdur. Sovet dövrünün qırmızı rəngli bayrağı silahlı qüvvələrin simvolu oldu. Böyük Vətən müharibəsi dövründə A.V.Aleksandrovun himninə S.V.Mixalkovun yazdığı yeni sözlərlə müstəqil Rusiyanın yeni milli himni təstiq olundu. Milli simvolların keçmişlə müasirliyi birləşdirən əlamətləri əslində cəmiyyətdə müxtəlif siyasi qüvvələrin barışığını saxlayaraq ölkənin keçmişi ilə yeniliyi arasında əlaqənin qanunauyğunluğun təcəssüm etdirirdi.

2001-ci ildə "Yedinstvo" və "Oteçestvo-Vsya Rossiya" birləşərək hakimiyyətyönümlü "Yedinaya Rossiya" partiyasını yaratdılar. Sonradan onun sədri B.V.Qrızlov oldu. Beləliklə, hökumət Dumada özünə çoxluğun köməyini təmin etdi, bu isə vaxtı çatmış qanunların qəbul edilməsinə şərait yaratdı. Ölkədə sabitləşdirmə məqsədilə atılan addımlar nəhayət islahatlar başlanandan sonra ilk dəfə olaraq icraedici və qanunverici orqanlar arasında qarşıdurmaya son qoydu ki, bu da cəmiyyətin bütün təbəqələrinin mənafeyinə uyğun idi.

Yeltsin epoxasındakı prezidentlik və parlament qarşıdurmasından fərqli olaraq V.Putinin prezidentliyi dövründə onun xəttini müdafiə edən "Yedinaya Rossiya" partiyasının 2003-cü ildə Dövlət Dumasında səslərin böyük əksəriyyətini alması siyasi qüvvələrin prinsipcə qruplaşmasına, dövlət başçısına isə müəyyən etdiyi kursu uğurla davam etdirməyə şərait yaratdı. Ölkədəki mövcud partiya və hərəkatın hər biri sosial-iqtisadi inkişaf prespektivini öz proqramı çərçivəsində şərh edir. Siyasi qüvvələrin sağında liberal meylli, öz prorqamında daha çox sosial problemlərə yer ayıran "Soyuz pravix sil" və "Yabloko" gəlir. Sol cəbhədə çoxsaylı və yaxşı təşkil olunmuş KPRF durur. Onların arasında mərkəzyönümlü partiyaların ən böyüyü "Yedinaya Rossiya" gəlir ki, bunun da ölkənin bütün regionlarında şöbələri mövcuddur. 2001-ci ildə partiyalar haqqında yeni Qanun qəbul edilib ki, bu da onların daha

səmərəli fəaliyyət göstərmələrini təmin etməlidir.

Prezidentin 2003-cü il mayın 16-da RF-nın Federal Yığıncağına müraciətində Rusiyanın vətəndaş cəmiyyətinə malik, möhkəm demokratik əsaslı, insan hüquqlarının, vətəndaş və siyasi azadlıqların mövcud olduğu bir ölkə olması vurğulanır. Daxili siyasətin əsas məsələlərindən biri Rusiya dövlətçiliyinin əsasının möhkəmləndirilməsidir. Bu məqsədlə 2000-ci ildə ölkənin idarəetmə mexanizmini möhkəmlətmək üçün 7 federal dairə təşkil olundu. Dairələrin başında Prezidentin səlahiyyətli nümayəndəsi durur ki, onlar da öz fəaliyyətini Rusiya Konstitusiyasına əsasən yerli hakimiyyət orqanları ilə razılaşdırırdılar. Federal Yığıncaq yenidən quruldu. Qanunverici orqanın üst palatasında regionun başçısı yerinə onun təyin etdiyi, bu sahədə iş təcrübəsi olan şəxs fəaliyyət göstərməyə başladı. 2004-cü ilin payızında dövlət hakimiyyəti strukturunda daha bir islahat həyata keçdi. Qubernatorlar əvvəllər olduğu kimi ümumxalq seçkisi ilə deyil Rusiya Prezidentinin təqdimatı əsasında Federal parlament tərəfindən təsdiq edilərək işə başlaya bilərdi.

2003-cü il dekabrın 7-də seçkilər keçirildi. Dövlət Dumasına 450 nəfər deputat seçildi ki, bunların da 350 nəfəri, yəni böyük əksəriyyəti hakimiyyətin "Yedinaya Rossiya" partiyasına məxsus idi. Bundan əlavə, KPRF 52, LDPR 36, "Rodina" 36 yer aldı. Müstəqil deputatlar 23 yerlə Dumaya daxil oldu. Müxalifət partiyaları "Soyuz Pravıx Sil" və "Yabloko" müəyyən edilən səddi keçə bilmədikləri üçün Dumada təmsil edilmədi. B.V.Qrızlov Dövlət Dumanının sədri seçildi. Seçkinin nəticələri bir daha təstiq etdi ki, Rusiya əhalisinin böyük əksəriyyəti ölkədə siyasi sabitliyin bərqərar olmasın istəyir, onun güclü, beynəlxalq miqyasda nüfuzlu bir dövlət olmasında maraqlıdır.

2007-ci ilin dekabrında Dumaya yeni Qanun əsasında seçkilər keçirildi. Qanuna uyğun olaraq həm ali, həm də regional dövlət hakimiyyət oqanlarına seçkilər proporsional sistem əsasında baş tutdu. Seçkilərdə yalnız siyasi partiyalar iştirak etmək hüququ aldı ki, bu da iri partiya fraksiyalarının formalaşmasına şərait yaratdı. Parlament seçkilərinə görə "Yedinaya Rossiya" Dövlət Dumasında yerlərin çoxunu aldı. Bunun ardınca KPRF, LDPR və "Spravedlivaya Rossiya" Dumada öz yerlərini tutdu. "Soyuz Pravıx Sil" və "Yabloko" yeni seçki qanununun tələb etdiyi 7 faizlik səddi aşa bilmədikləri üçün Dumaya düşə bilmədi.

2008-ci ilin martında Rusiya Federasiyasının yeni, üçüncü Prezidenti 1965-ci il təvəllüdlü Peterburq Universitetinin Hüquq fakültəsini bitirmiş Dmitri Anatolyeviç Medvedev seçildi. D.A.Medvedevin namizədliyin "Yedinaya Rossiya" partiyası və şəxsən keçmiş prezident V.V.Putin müdafiə etdi. Yeni Prezident V.V.Putinin Rusiyanın inkişafına dair daxili və xarici siyasət xəttinin tam tərəfdarı olub, onun rəhbərliyi altında hökumətin baş nazirinin müavini kimi dörd milli proqrama nəzarət etmişdir. Odur ki, təbiidir ki, D.A.Medvedyev prezident seçildikdən sonra V.V.Putin hökumətə başçılıq etmişdir. Hər iki lider 2020-ci ilə kimi Rusiyanın inkişafının strateji məqsədini, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, xalqın həyat səviyyəsinin yüksəldilməsində görür.

2011-ci il dekabrın 14-də VI çağırış Dövlət Dumasına növbəti seçkilər oldu. Nəticədə hakim partiya "Yedinaya Rossiya" parlament çoxluğuna sahib olsa da bir çox müşahidəçilərin, yerli və xarici siyasətçilərin, jurnalist və ekspertlərin rəyinə görə seçkilər yekunu saxtalaşdırılmışdır.

2012-ci il martın 4-də Rusiya Federasiyasının prezidenti seçkiləri keçirildi, Vladimir Putin birinci turda qalib gələrək mayın 7-də prezident vəzifəsin icra etməyə başladı. Prezidentliyə namizəd Gennadi Züqanov və başqaları prezident seçkisində yol verilən nöqsanlara görə seçkini qeyr-legitim hesab edirlər. Mayın 8-də Dövlət Duması prezident V.Putinə Dmitri Medvedyevi hökumətin sədri təyin etməyə razılıq verdi.

***Müasir Rusiyanın xarici siyasəti.***1991-ci ilin dekabrında SSRİ dağıldıqdan sonra tərkibindən ayrılan respublikalar Müstəqil Dövlətlər Birliyini (MDB) yaratdı. Baltikyanı respublikalarından başqa keçmiş sovet respublikalarının hamısı MDB-də təmsil olundu. 1992-ci ilin mayın 15-də MDB ölkələri kollektiv təhlükəsizlik haqqında müqavilə imzaladı. 1993-cü ilin yanvarın 22-də MDB-nin Nizamnaməsi qəbul edildi. Rusiya keçmiş sovet məkanında nüfuzunu və varlığını MDB çərçivəsində səmərəli əməkdaşlıq mexanizmi əsasında davam

etdirmək niyyətindədir. Başqa bir tərəfdən "yaxın xarıc" ölkələrində bir saatda xarici olan 25 milyon rus vardır ki, onların da taleyi Rusiya dövlətinin MDB daxilində yeritdiyi siyasətdən çox asılıdır. 1992-1996-cı illər arasında MDB çərçivəsində 600-dən çox müqavilə və saziş imzalanmasına baxmayaraq Birlik dövlətlərarası möhkəm təsisata çevrilə bilməmişdir.

MDB-nin tərkibinə daxil olan postsovet respublikalarının hamısı öz milli ordusunu yaratmışdır. Nüvə silahına nəzarət Rusiya dövlətinə məxsusdur. Belarusiya və Ukrayna onların ərazisində yerləşdirilən nüvə silahlarının Rusiyaya aparılmasına razılıq verdi. Lakin 1992-ci ilin yazında Ukrayna öz ərazisindəki nüvə silahına sahib olmaq hüququnu irəli sürdü. Qazaxıstan da oxşar təkliflə çıxış etdi. Lakin Rusiya və ABŞ-ın təzyiqi ilə hər iki dövlət nüvə silahına olan iddiasından əl çəkərək, nüvə silahının yayılmaması müqaviləsinə qoşuldu. Hərbi kosmik sahədə Rusiya Qazaxıstanla sıx əməkdaşlığı davam etdirərək Baykonur kosmodromunu 20 il müddətinə icarəyə götürdü.

Rusiya ilə Ukraynanın münasibətləri Qara dəniz flotunun üstündə gərgin olaraq qalırdı. 1992-ci ilin avqustunda o MDB Birləşmiş silahlı qüvvələrinin tərkibindən çıxarılaraq Rusiya və Ukraynanın birgə idarəsinə verildi.1995-ci ilin iyununda Rusiya və Ukraynanın dövlət başçıları Qara dəniz flotunun bölünməsini, rus və ukrayna hərbi-dəniz qüvvələrinin yerinin müəyyən edilməsini həll etdilər. Qəti olaraq bu məsələ 1997-ci ilin mayında öz həllini tapdı, Rusiya Qara dəniz flotunun 87 faizinə sahib olmaqla Sevastopol hərbi-dəniz bazasını icarəyə götürmək hüququ aldı.1997-ci il mayın 31-də Rusiya və Ukrayna Dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə imzladı.

Müqavilənin imzalanmasına baxmayaraq Krım yarımadası Ukrayna ilə Rusiya arasında mübahisəli yer kimi qaldığından zaman keçdikcə Krımın Rusiya tərəfindən ilhaqı ilə başa çatdı. Belə ki, Qərblə Rusiya arasında qalan Ukraynada vəziyyətin mürəkkəbləşməsindən istifadə edən qüvvələr Krımın Rusiyaya birləşdirilməsi məsələsini gündəmə gətirdilər. Krım yarımadasında Rusiya-Ukrayna ikili vətəndaşlığı əksəriyyəti rus olanlar yaşayırlar. Sevastopolda Rusiyanın hərbi-dəniz bazası yerləşir və onlar 2042-ci ilə kimi bu bazada qalmaq hüququna malikdirlər.

Ukraynada hakimiyyətin Avropa İttifaqı ilə assosiativ razılaşmadan imtina etməsinə qarşı etiraz aksiyaları başlasa da, hərəkat tez bir zamanda istiqamətini korruspsiya və insan hüquqlarının pozulmasına qarşı yönəldi. 2013-cü il noyabrın 30-dan dekabrın 1-nə keçən gecə dinc aksiya iştirakçılarını dağıtmaq cəhdi hakimiyyətə baha başa gəldi və ölkədə faktiki olaraq durum nəzarətdən çıxdı. Yüz minlərlə aksiya iştirakçıları Azadlıq Meydanında iqtidarın istefasını tələb etdi. Ukrayna prezidenti Viktor Yanukoviç paytaxt Kiyevdən qaçmağa məcbur oldu. Ukraynada hakimiyyətin dəyişilməsi Rusiya Prezidenti V.V.Putin üçün çətinlik törətdi, belə ki, Prezident böyüklüyünə görə ikinci Şərqi Slavyan ölkəsi olan Ukraynanın gələcəkdə Avropa İttifaqının yanında yer almasından ehtiyat edirdi. Odur ki, Rusiya rus dilli əhalinin əksəriyyət təşkil etdiyi rayonlarda olduğu kimi, Krımda da yeni hakimiyyətə qarşı müxalifəti dəstəklədi. İlk növbədə 2014-cü il martın 16-da Krımın statusu haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 96 faizdən çoxu Krım Muxtar Respublikasının Rusiya Federasiyasının tərkibinə daxil olmasının lehinə səs verdi. Rusiya prezidenti V.V.Putin 2014-cü il martın 18-də Krım Respublikasının Rusiya Federasiyasının tərkibinə daxil edilməsi haqqında müqavilənin imzalanması barəsində sərəncam verdi. Bunun ardınca Dövlət Duması və Federasiya Şurası Ukraynanın Krım Muxtar Respublikasının Rusiyaya birləşdirilməsinə dair qərar qəbul edərək yarımadanı Krım Respublikası olaraq Federasiyanın inzibati ərazisinə daxil etdilər.

İki şərqi slavyan dövləti Rusiya və Belarusiya sıx əməkdaşlıq edir. 1996-cı ilin aprelində Rusiya-Belarus birliyinin yaradılmasına dair müqavilə imzalandı. 1997-ci ildə birlik Rusiya-Belarus İttifaqına çevrildi. 1997-ci il mayın 23-də İttifaqın Nizamnaməsi qəbul edildi. Rusiya-Belarus İttifaqı tədricən konfederasiya şəklində birləşməyə gedir. Rusiya və Belarus vətəndaşları azad surətdə bir ölkədən digərinə getmək, əmlaka sahib olmaq hüququna malikdir. Lakin Belarusun iqtisadiyyatı bazar münasibətlərinə keçmədiyi üçün Rusiyadan fərqlidir. Siyasi sistem isə avtoritar rejimə malik olduğundan Rusiyanın demokratik düşüncə tərzli siya-

sətçilərin qorxudur. Belarusun prezidentinin siyasəti həm ölkə daxilində, həm də xaricdə ciddi tənqid edilir. O, Konstitusiyaya zidd olaraq öz prezidentlik hakimiyyətinin vaxtını uzatmaqda ittiham olunur. 2000-ci ildə Belarusda müxalifət Rusiya əleyhinə mitinqlər təşkil edərək bu ölkə ilə inteqrasiyanın əleyhinə olduqlarını nümayiş etdirdilər. Müxalifət belə hesab edir ki, Rusiya Belarusu öz tərkibinə qatmağı nəzərdə tutur. Bir çox rus siyasətçiləri də belə düşünür ki, birləşmə yalnız Belarusun Rusiyanın tərkibinə qatılması ilə mümkündür.

MDB daxilində Rusiyanın mühüm tərəfdaşlarından biri Qazaxıstandı. Qazaxıstan həm də Rusiya, Qırğızıstan və Belarus ilə birlikdə Gömrük İttifaqını təşkil edir. Buna baxmayaraq, Qazaxıstanda da rus dilli əhaliyə təzyiq göstərilir. Xüsusilə rus və ukraynalıların sıx yaşadığı ölkənin şimal regionlarında vəziyyət daha mürəkkəbdir. Şimal hissəsindəki nüfuzlu siyasi qüvvələr bu ərazilərin Qazaxıstandan ayrılıb Rusiyaya birləşməsini tələb edir, Qazaxıstan isə bunu ərazi bütövlüyünə qəsd hesab edir. Bütün bu fikir ayrılığı və çətinliklərə baxmayaraq 2014-cü il mayın 29-da Rusiya, Belarus və Qazaxıstan Avroasiya İqtisadi İttifaqının (AAİİ) yaradılması haqqında müqavilə imzaladılar. Avroasiya Gömrük İttifaqı əsasında yaradılan bu beynəlxalq inteqrasiya iqtisadi birliyi 2015-ci il yanvarın 1-dən fəaliyyətə başlayıb.

MDB çərçivəsində Rusiya Federasiyasının yaxın tərəfdaşlarından Qırğızıstan və Tacikistandır. 1997-ci ildə Rusiyanın vasitəçiliyi ilə Tacikistan hökumətilə müxalifət arasındakı hərbi əməliyyatların dayandırılıb milli barışıq komissiyası təşkil edilməsinə dair saziş imzalandı. Tacikistanın cənub sərhədlərini Rusiyanın 201-ci diviziyası qoruyur. Bu isə terrorçuların, narkotik və silah alverçilərinin sərhədi keçmələrinin qarşısına sipər çəkir.

Rusiyanın Cənubi Osetiya üzündən Gürcüstanla münasibətləri gərgin olaraq qalmaqdadır. Belə ki, 2008-ci il avqustun 7-dən 8-nə keçən gecə Gürcüstan hərbi qüvvələri Cənubi Osetiyada qayda-qanunu bərpa etmək və yerli separatçı qüvvələrin hərəkətlərinin qarşısını almaq məqsədilə əyalətin ərazisinə daxil oldular. Avqustun 8-də Rusiyanın 58-ci ordusunun hərbi qoşunları Roki tunelini keçərək müstəqil Gürcrüstanın ərazisinə daxil olub, Sxinvali şəhəri istiqamətində hücuma keçdilər. Beləliklə, 5 günlük Rusiya-Gürcüstan müharibəsi başladı. Canlı və hərbi texnika cəhətdən Gürcüstan ordusundan qat-qat üstün olan Rus qoşunları avqustun 9-da 150 tankla Şimali Osetiya istiqamətindən Cənubi Osetiyaya daxil olub əkshücuma keçdilər. Rus qoşunları tezliklə Cənubi Osetiyanın yerli əsgərləri ilə birlikdə Gürcü qoşunlarını məğlubiyyətə uğradaraq Roki tunelini və Cənubi Osetiyanı tutdular. Beş günlük müharibə nəticəsində 215 nəfər gürcü əsgər və zabiti öldürüldü, 283 nəfər isə yaralandı. Qarşı tərəf isə təxminən 400 nəfər əsgər və zabit, çox sayda mülki şəxs itirdi. Müharibədən sonra Gürcüstan Rusiya ilə quru və hava yollarını bağladı. Beş günlük Rusiya-Gürcüstan müharibəsi rus və gürcü xalqı arasında dərin uçurum yaratdı. Gürcüstan Abxaziya və Cənubi Osetiyanın nəzarətində olan hissəsini itirməklə suveren ərazisnin 20 faizini itirmiş oldu. 2012-ci ilin dekabrında Rusiyanın Baş naziri Dmitri Medvedev bəyan etdi ki, Rusiya Mixail Saakaşvilidən sonrakı yeni hakimiyyətlə danışıqlara hazırdı, amma qarşı tərəf bölgədəki geosiyasi dəyişiklikləri qəbul etməlidir. Tanınmamış Cənubi Osetiya Respublikası ilə sərhəd xəttinin dəyişdirildiyinə görə Gürcüstan 2015-ci il avqustun 12-də növbəti dəfə Rusiya tərəfinə nota ilə müraciət etmişdir. Rusiya Gürcüstan münasibətləri bu gün də gərgin olaraq qalmaqdadır.

Rusiya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci il aprelin 4-də yaranıb. 1997-ci il iyulun 3-də Rusiya ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışıdr. Hər iki tərəf arasında siyasi, iqtisadi və mədəni əməkdaşlıq gündən-günə inkişaf edir. Rusiya Federasiyanın prezidentləri V.V.Putin və D.A.Medvedev 2001, 2006, 2008 və 2009-cu illərdə Azərbaycan Respublikasına rəsmi səfərə gələrək dövlət başçısı Heydər Əliyev və İlham Əliyevlə işgüzar görüşlər keçiriblər. Bu Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın artan xətt üzrə inkişaf etdiyini göstərir. Xüsusilə 2013-cü ilin avqustunda Rusiya Federasiyasının prezidenti V.V.Putinin Azərbaycan Respublikasına növbəti səfəri və bu səfər çərçivəsində Bakıda Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyevlə işgüzar görüşü iki tərəfin qarşılıqlı əlaqələrini daha da zənginləşdirmək marağından xəbər verir. Eyni zamanda Rusiyanın dövlət başçısı V.V.Putin 2015-ci ilin iyununda Bakıda keçirilən Birinci Avropa oyunlarının rəsmi açılışında iştirak edib, Azərbaycan

Respublikasının prezidenti İlham Əliyevlə işgüzar danışıqlar aparıb. Hər iki lider danışıqların səmərəli olduğunu bəyan edib.

1991-ci il dekabrın 24-də Rusiya BMT-də SSRİ-nin yerini tutaraq Təhlükəsizlik Şurasının daimi üzvü oldu. 1992-ci ilin yanvarında Təhlükəsizlik Şurasının iclasında iştirak etmək məqsədilə ABŞ-a səfər edərək Rusiya prezidenti B.N.Yeltsin ölkə prezidenti C.Buşla "Rusiya və ABŞ arasındakı münasibətlərin prinsipləri haqqında" bəyannamə imzaladı. Bəyan edildi ki, hər iki ölkə arasındakı münasibətlər dostluq və tərəfdaşlıq əsasında qurulur. 1992-ci ilin martında Rusiya və MDB ölkələri Şimali Atlantika əməkdaşlığı Şurasına daxil oldu. Bu MDB ölkələrinin NATO ilə tərəfdaşlığının əsasını qoydu. 1994-cü ilin Rusiya və MDB-yə daxil olan keçmiş sovet respublikaları Şərqi Avropa ölkələrinin də iştirak etdiyi "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. 1994-cü il mayın 5-də MDB-yə daxil olan Azərbaycan Respublikası NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu.

1995-ci ilin may ayında Rusiya Federasiyasına səfər edən ABŞ prezidenti B.Klinton bildirdi ki, NATO-nun genişləndirilməsi Avropanın yenidən parçalanmaması üçün tədricən həyata keçiriləcək. Bu məsələdə ABŞ-ın başlıca məqsədi Şərqi Avropa ölkələrinin bir daha Rusiyanın təsiri altına düşməsinə yol verməməkdir. ABŞ Rusiya Federasiyası ilə əməkdaşlığı Avropada yeni təhlükəsizlik sisteminin əsas elementlərindən biri saydığı üçün həm "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində, həm də ikitərəfli Rusiya ilə əlaqələrin inkişafında maraqlı idi. 1997-ci ilin yanvar ayında NATO-nun baş katibi Rusiyaya rəsmi səfərə gəldi. 1997-ci il mayın 10-da Helsinkidə B.Yeltsinlə B.Klintonun görüşü oldu. 1997-ci il mayın 27-də Parisdə NATO ilə Rusiya Federasiyası arasında "Qarşılıqlı münasibətlər, əməkdaşlıq və təhlükəsizlik haqqında akt" imzalandı. Rusiya NATO-nun genişlənməsi ilə razılaşdı, NATO isə Şərqi Avropa ölkələrində nüvə silahı yerləşdirməməyi öhtəsinə götürdü.

2002-ci ilin may ayında Rusiya NATO-nun Romada keçirilən sammitində iştirak etdi. Rusiya-NATO Şurasının yaradılmasına dair bəyannamə imzalandı. ABŞ Baltikyanı respublikalarının NATO-ya daxil olmasına səy göstərirdi, Rusiya isə bunun əleyhinə idi. 2002-ci ilin noyabrında NATO-nun Praqada keçirilən sammitində Bolqarıstan, Litva, Latviya, Estoniya, Rumıniya, Slovakiya və Sloveniyaya NATO-ya daxil olmaqları məqsədilə dəvətnamə göndərmək qərara alındı. 2003-cü ildə 7 Avropa dövlətinin NATO-ya qəbul edilməsi prosesi başa çatdı.

1990-cı illərdə Balkan yarımadasında cərəyan edən hadisələr Avropada və dünyada beynəlxalq münasibətləri kəskinləşdirdi. 1991-ci ilin iyununda Sloveniya və Xorvatiya öz müstəqilliyini elan etdi. Serbiya və Çernoqoriya vahid İttifaq dövlətinin saxlanılması tərəfdarı idi. 1991-ci ilin martında Bosniya İttifaqdan çıxdı, YSFR-in dağılması prosesi başa çatdı. 1992-ci ilin yazında hadisələrin mərkəzi serblər, müsəlmanlar və xorvatlar yaşadığı Bosniyaya keçdi və onlar arasında hərbi əməliyyatlar başlandı. Qərb dövlətlərinin Bosniya münaqişəsi ilə bağlı siyasəti fəallaşdı. Rusiya NATO-nun Bosniya münaqişəsinə qoşulmasının əleyhinə çıxış edərək şərt qoşurdu ki, bunun üçün BMT Təhlükəsizlik Şurası icazə verməlidir. ABŞ-ın Deyton şəhərində Serbiya, Xorvatiya və Bosniya arasında danışıqlar başladı, 1995-ci ilin noyabrında onlar arasında Deyton barışığı, dekabrın 14-də isə Parisdə sülh müqaviləsi imzalandı. Bosniya ərazisinin 51 faizi müsəlman-xorvat federasiyasına, 49 faizi serblərə verildi, beləliklə Bosniyada vahid dövlət konfederasiyası formasında saxlandı.

Yuqoslaviya İttifaq Respublikası 1992-ci ildə Serbiya və Çernoqoriyanın birləşməsi nəticəsində yarandı. Kosovo albanları müstəqillik uğrunda mübarizəyə başladı. YİR polis və ordu qüvvələri ilə Kosovodakı albanları kütləvi şəkildə ölkədən qovmağa başladı. NATO qoşunları Yuqoslaviyaya qarşı hərbi əməliyyatlara başlayaraq Serbiyanı bombaladı. Buna cavab olaraq Rusiya NATO ilə əməkdaşlığı dayandırdı. Rusiyanın prezidenti B.N.Yeltsin V.Çernomırdini Yuqoslaviya böhranının həlli məsələsi üzrə xüsusi nümayəndə təyin edərək 1999-cu il aprelin sonunda Belqrada göndərdi. V.Çernomırdin may ayının 18-də Belqradda S.Miloşeviçlə görüşüb danışıqlar apardı. Uzun danışıqlardan sonra NATO qoşunları Kosovaya daxil oldu, qaçqın albanlar isə öz yerlərinə qayıtdı. Helsinki və Kölndə əldə olunan razılıq Rusiyanın Kosovadakı sülhyaratma əməliyyatlarında iştirak etməyə şərait yaratdı.

1999-cu il iyunun 20-də serb qoşunlarının və polisin Kosovadan çıxarılması başa çatdı. NATO-nun Baş katibi X.Solana YİR-na qarşı hərbi əməliyytların dayandırıldığını bildirdi.

Rusiya Federasiyasında həyata keçirilən iqtisadi və siyasi islahatlar onun Avropada yeni münasibətlər sisteminə inteqrasiya olunmasına yol açdı. 1994-cü ildə Rusiya Qərbi Avropa İttifaqı ilə əlaqə yaratdı, 1996-cı ildə Avropa Şurasına daxil oldu. 1994-cü il iyun ayının 24-də Rusiya Federasiyası ulə Avropa İttifaqı arasında əməkdaşlığa dair müqavilə bağlandı.

SSRİ dağıldıqdan sora dünyada qüvvələr nisbəti əhəmiyyətli şəkildə dəyişdi. ABŞ və müttəfiqlərinin nüvə silahından çəkindirmə vasitəsi kimi istifadə məqsədi azaldı. 1993-cü il yanvarın 3-də Rusiya Federasiyası ilə ABŞ arasında strateji hücum silahlarının ixtisar edilməsi haqqında müqavilə imzalandı. Müqaviləyə əsasən hər iki dövlətin strateji hücum raketlərindəki döyüş başlıqlarının miqdarı 3500 ədəd müəyyən edildi. 1999-cu il iyunun 20-də Rusiya Federasiyasının prezidenti B.Yeltsin ABŞ prezidenti B.Klintonla görüşündə strateji silahların ixtisarına dair yeni müqavilə haqqında danışıqlara başlamaq üçün razılıq əldə olundu. 2000-ci ilin aprel ayında Rusiyanın Dövlət Duması strateji hücum silahlarına dair 1993-cü il müqaviləsini təstiq etdi. 2001-ci il noyabrın 12-də Rusiya Federasiyasının prezidenti V.V.Putin ABŞ-a səfərə getdi. 2002-ci il mayın 24-də ABŞ prezidenti C.Buş Rusiyaya səfər etdi və hər iki ölkə arasında “Strateji hücum potensialının məhdudlaşdırılması haqqında” müqavilə imzlandı. Hər iki tərəf 2002-ci il dekabrın 31-dək qitələrarası ballistik raketlərdəki döyüş başlıqlarının sayını 1700-2200 həddində ixtisar etməyi nəzərdə tuturdu. Müqaviləni Rusiya Federasiyasının parlamenti 2003-cü ilin mayında təstiq etdi.

1990-cı illərin əvvəllərindən başlayaraq Rusiya Federasiyasının Çinlə əlaqələri artdı. 1992-ci ildə prezident B.Yeltsinin Çinə səfəri çərçivəsində Pekin bəyannaməsi imzalandı, hər iki ölkə arasında iqtisadi əməkdaşlıq genişləndi. 2001-ci il iyulun 16-da Moskvada Rusiya ilə Çin arasında 20 il müddətinə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı.Tərəflər bir-birinə qarşı qüvvə tətbiqindən, nüvə silahı işlətməkdən və strateji nüvə raketlərini yönəltməkdən imtina etdilər. Dinc yanaşı yaşamaq prinsipini əldə rəbhər tutaraq Rusiya və Çin bir-birinin daxili işinə qarışmamalı və müəyyən etdikləri inkişaf yoluna hörmət etməli idi.

90-cı illərin əvvəllərində Monqolustanda bazar iqtisadiyyatı və demokratiyaya əsaslanan cəmiyyət quruculuğuna başlandı. 1993-cü ildə Monqolustan Rusiya Federasiyası ilə, 1994-cü ildə Çinlə dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. 1992-ci ildə Cənubi Koreya Rusiya ilə dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladı. Rusiyanın Cənub-Şərqi Asiya ölkələrilə, Çinlə, Hindistanla iqtisadi və hərbi texniki əməkdaşlığı ildən ilə inkişaf edir.

Ümumiyyətlə, son onilliklərin təcrübəsi göstərir ki, Rusiyanın dünyada fəal və müstəqil mövqeyə malik olması beynəlxalq aləmdə sabit şəraitin təminatçısı olmaqla bərabər bütün dövlət və xalqları əhatə edən problemlərin həll edilməsində əsas rol oynayır.

***Rusiyanın mədəniyyəti.*** Rusiya mədəniyyəti yeni siyasi və sosial-iqtisadi münasibətlər şəraitində inkişaf edirdi. Mülkiyyətin dövlət formasının aradan qalxması əhalinin əmlak bərabərsizliyini daha da dərinləşdirdi. Xüsusi sahibkarlıq mədəniyyət sahəsinə də nüfuz edib möhkəmləndi. Mədəni həyatın mərkəzləşmiş idarəetmə mexanizmi başa çatdı. Sərt ideoloji diktatorluq və yuxarının “göstərişləri” aradan qalxdı. Mətbuat üzərindəki nəzarət ləğv olundu. Dövlətin mədəniyyət sahəsindəki ana xəttini keçmişin müsbət ənənələrindən bəhrələnərək mədəniyyətin müxtəlif sahələrinin inkişafına qayğı və diqqəti təmin etmək təşkil edirdi.

Ölkədəki sosial-iqtisadi islahatlar təhsil sahəsində dəyişikliklərə zəmin yaratdı. Yenidənqurma dövründə meydana gələn alternativ təhsil sistemi möhkəmləndi. Dövlət tədris müəssisələri ilə bərabər özəl məktəblər, litseylər, gimnaziyalar, kolleclər meydana gəldi. XXI yüzilliyin əvvəllərində Rusiyada 700-ə yaxın özəl ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bu da ölkədə olan məktəblərin bir faizindən çoxu demək idi. Məktəb təhsilinin alternativ forması daha çox Moskva, Sankt-Peterburq kimi mərkəzi şəhərlərdə yarandı. Orta və ali təhsil məktəbləri daha çox ümumtəhsil və tədrisin vahid fənn proqramları çərçivəsində öyrədilməsindən uzaqlaşmağa meyl edirdi. Xüsusilə ictimai fənlər üzrə çoxlu yeni proqram və dərsliklər hazırlandı.

Özəl ali məktəblərin sayı artaraq yeni əsrin əvvəllərində ali məktəblərin 27-28 faizini, burdada təhsil alan tələbələr ümumi tələbələrin 8-12 faizini təşkil edirdi. Xüsusilə iqtisadçı, menecer, bank və birja sahəsində çalışan mütəxəssis hazırlığı ön plana keçdi. Yüksək hazırlıqlı elmi-pedaqoji kadrların özəl ali məktəblərdə az olması bir çox halda belə məktəblərdə təlim-tərbiyənin səviyyəsinin aşağı düşməsinə şərait yaradırdı.

SSRİ EA-nın xələfi olan Rusiya Elmlər Akademiyası kəskin maliyyə çatışmazlığı nəticəsində əsaslı elmi-tədqiqatlara vəsait ayırmaqda çətinlik çəkirdi. Keçmiş sovet respublikalarının və Şərqi Avropanın elmi-tədqiqat mərkəzləri ilə əlaqələr kəsilmişdir. Ölkə elminin zəif maddi-texniki bazası, aşağı əmək haqqı bir çox aparıcı alimin ölkəni tərk edərək xaricdə işləməsinə sövq etdi. Lakin 1990-cı illərin axırından başlayaraq elm sahəsində işlər yaxşılığa doğru dəyişdi. Dövlət elmin bütün sahələrini vacib olan vəsaitlərlə təmin etməyə başladı. Hər il ən yaxşı elm və texnika sahəsindəki tədqiqatlar Rusiya Federasiyasının Dövlət mükafatı ilə təltif edilməyə başlandı. XXI əsrin əvvəllərində fizika sahəsində Rusiya alimləri J.S.Alfyorov, V.L.Ginzburq və A.A.Abrikosov Nobel mükafatına layiq görüldü. İctimai elm sahəsində çalışan alimlər əvvəllər bağlı arxivlərdə saxlanılan materialları əldə etmək imkanı qazandılar, bu isə fəlsəfə, tarix, sosiologiya sahəsində yeni mahiyyətli əsərlərin yazılmasını təmin etdi.

Ədəbiyyatın ictimai həyatda rolu dəyişdi. Yazıçıların ictimai fikrin formalaşmasında təsiri xeyli aşağı düşdü. A.İ.Soljenitsinin əsərləri kütləvi tirajla çap edilməsinə baxmayaraq, yazıçının "Rusiyanın yenidən qurulması" haqqındakı fikirləri geniş oxucu kütləsini cəlb etmədi. V.Q.Rasputin, V.İ.Belov, Ç.T.Aytmatov, F.A.İskəndər kimi yazıçılar rus ədəbiyyatı üçün ənənəvi sosial problemlərdən bəhs edirdilər. Bu dövrdə detektiv ədəbiyyatı janrı geniş yayılmışdı. B.Akunin, A.Marinin, V.Makanin, L.Ulitskayanın əsərlərini buna misal göstərmək mümkündür.

Ölkənin teatr, musiqi, kino sahəsində ənənəvi klassik və müasir formanın çulğalaşmasından doğan əsərlər geniş yayılmışdır. Görkəmli rejissorlardan Y.M.Solomin Malı teatrda, M.A.Ulyanov Evq.Vaxtanqov adına teatrda, M.A.Zaxarov "Lenkomda", O.P.Tabakov "Tabakerka"da, Q.B.Volçek "Sovremennik"də klassik və müasir əsərləri öz repertuarına daxil edərək geniş tamaşaçı kütlələrinin rəğbətini qazanmışdılar. Y.P.Leonov, İ.M.Çurikova, A.G.Abdulov, A.B.Treyndlix, L.M.Qurçenko və b. aktyorlar yaratdığı səhnə obrazları ilə milyonların sevimlisinə çevrilmişdilər.

Opera və balet teatrının lideri Sankt-Peterburqun Marinski teatrı idi. Teatrın baş rejissoru və bədii rəhbəri V.A.Gergievin başçılığı ilə S.S.Prokofyevin opera silsiləsi və R.Vaqnerin opera teatrologiyası "Koltso Nibelunqov" səhnələşdirilməsi bütün ölkədə şöhrət qazandı. Hər il Marinski teatrının səhnəsində ən yaxşı yerli və xarici ifaçıların iştirakı ilə "Belıye noçi" festivalı təşkil edilirdi. Rus bəstəkarlarının yenilikçi axtarışları onlara dünya şöhrəti qazandırdı. V.Artyomov, S.Qubaydulina, E.Denisov, A.Şnitke və b. buna misaldır.

Maliyyə çətinliklərinə baxmayaraq son illər dövlət kino sahəsinə xeyli vəsait ayırıb. Odur ki, milli kino istehsalının səviyyəsi artıb. S.S.Bodrovun baş rolda çəkildiyi "Qardaş" ("Brat"), "Qardaş-2" ("Brat-2") müasir kinosu, qəhrəmanlıq tarixi epizodlarından bəhs edən N.Lebedevin "Ulduz" ("Zvezda") kinosu tamaşaçıların rəğbətini qazanıb. Tarixi keçmişin yenidən əxz edilməsindən bəhs edən A.G.Germanın "Billur maşın!" ("Xrustalev, maşinu!"), A.N.Sokurovun "Rus mücrüsü" ("Russkiy kovçeq"), N.S.Mixalkovun "Günəşdən yorulmuşlar" ("Utomlyonnıe solntsem") və "Sibir bərbəri" ("Sibirskiy tsiryulnik") əsərləri kino incəsənətinin inkişafında irəliyə doğru böyük addım hesab edilə bilər. Keçmişdəki məşhur ədəbi əsərlərin yeni realist kino ənənələri əsasında ekranlaşdırılması diqqəti cəlb edir. Y.V.Qrımovun "Mumu", A.A.Proşkinin "Rus qiyamı" ("Russkiy bunt") ekran əsərləri bu siyahıya daxildir. Gənc rejissor A.Sidrov kütləvi rus teleserialı istehsalı olan "Briqada" əsərini ekranlara daşıdı.

Müasir Rusiyada heykəltaraşlıq və memarlıq incəsənəti sahəsində yeni ənənəvi istiqamətin yaradıcılarından biri Rusiya Federasiyasının Bədii Akademiyasının prezidenti Z.K.Sereteli hesab edilir. Onun Moskva və Rusiyanın başqa şəhərlərindəki heykəltaraşlıq kompozisiyaları şəhərin landşaftlarına xüsusi əlamət bəxş edir. Tarixi kompozisiya və portretlər müəllifi İ.S.Qlazunov, müasir portret qalereyası yaratmış A.M.Şilov özünəməxsus rus təsviri incəsə-

nətinin ön sıralarında yer tutmuşdular. Keçən onillik ərzində Dövlət Tarix muzeyi, Dövlət Rus muzeyi, A.S.Puşkin adına Dövlət muzeyi və Sankt-Peterburqdakı A.S.Puşkinin ev muzeyi yenidən quruldu. Şəhərin 300 illiyi ilə bağlı Peterburqun altındakı saray-park ansamblı bərpa olundu. 1997-ci ilə bədii ziyalıların xüsusilə akademik D.S.Lixaçevin təşəbbüsü ilə "Kultura" dövlət telekanalı fəaliyyətə başladı. Bu proqram sayəsində ölkə vətəndaşları ən yaxşı yerli və dünya mədəniyyətlərinin nailiyyətləri ilə tanış olurlar.

## Müstəqil Ukrayna dövləti 1991-2015-ci illərdə

***Müstəqil Ukrayna dövlətinin yaranması.*** 1985-ci ilin martında SSRİ dövlətinin sükanı arxasına keçən Sov.İKP-nin 54 yaşlı yeni Baş katibi M.S.Qorbaçov islahatın zəruriliyini başa düşərək sosialist cəmiyyətinin yeniləşməsi vəzifəsini irəli sürdü. Belə ki, elan edilən yenidənqurmanın obyektiv səbəbi sovet cəmiyyətinin yeniləşdirilməsinə olan tələbat idi. Ümumiyyətlə ən böyük Slavyan dövləti olan Rusiyanı üç dəfə yeniləşdirməyə cəhd edilmişdir. Birinci dəfə XX əsrin əvvəllərindəki "mütləqiyyət", ikinci dəfə əsrin ortalarında "sosialist", nəhayət üçüncü dəfə əsrin sonlarındakı "yenidənqurma" yeniləşdirilməsi.

SSRİ-yə daxil olan Ukraynada yenidənqurma siyasətinin öz xüsusiyyətləri var idi. Birinci növbədə respublikanın ictimai-siyasi həyatının liberallaşdırılması prosesi baş verdi. 1986-cı ildə 300 nəfərə yaxın siyasi məhbus, o cümlədən V.Çernovil, M.Qorin, L.Lukyanenko həbsdən azad edildi. USSR-nın Cinayət məcəlləsindən ideya və düşüncəsinə görə adamların təqib olunması maddəsi çıxarıldı. Bəyan edilən aşkarlıq siyasəti tədricən azad söz demək, fikrini ifadə etmək imkanına şərait yaratdı. Respublikanın həyatında ukrayna dilinə diqqət artdı.Y.Muşketik, B.Oleynik, D.Pavliçko kimi məşhur yazıçılar məktəblərdə məcburi ukrayna dilinin öyrənilməsini irəli sürdülər. 1989-cu ilin yazında Kiyevdə "Memorial" cəmiyyəti meydana gəldi. Yazıçıları, rəssamları, kinomatoqrafçıları, teatr xadimlərin birləşdirən bu cəmiyyət Ukraynada Stalin repressiyası qurbanlarına bəraət verilməsi məqsədilə fəaliyyət göstərirdi.

1988-ci ildə ölkədə Sov.İKP-yə qarşı müxatifət hərəkatının meydana çıxması ilə Ukraynada çoxpartiyalılıq formalaşmağa başladı. 1988-ci ilin payısıznda artıq "Narodnıy Rux yenidənqurma uğrunda" müstəqil birliyi yarandı. 1990-cı ilin mart-aprel aylarında USSR-in Ali Radasına keçirilən seçkilərdə Ruxun əsas qüvvə olduğu Ukrayna Demokratik bloku parlament müxalifəti olan Xalq Radasın təşkil etdilər. 1989-cu ilin payızında Ukrayna KP MK-nin birinci katibi V.Şerbitskini V.İvaşko əvəz etdi. Lakin respublikadakı siyasi islahatlar iqtisadi məsələləri əhatə etmədiyi üçün ölkədə sosial böhran dərinləşirdi. SSRİ-də olduğu kimi Ukraynada da yenidənqurma məqsədinə çatmadı, ancaq rəsmi senzuranın zəifləməsi Ukraynanın milli demokratik qüvvələrinə respublikanın sözdə elan edilən deyil, real hüquqlar uğrunda mübarizə aparmağa imkan yaratdı.

"Narodnıy Rux" öz fəaliyyətin daha da artırdı. İvan Draç, Vladimir Yavorivski, Mixail Qorin, Sergey Konev onun rəhbərləri oldu. RUX ukrayna dilinin və mədəniyyətinin müdafiəsi məqsədilə çıxış edir, respublikanın iqtisadi və siyasi inkişafı proqramını irəli sürürdü. O, bir çox kütləvi tədbirlərin, o cümlədən Kiyevi, Lvov və İvano-Frankovskilə birləşdirən canlı zəncir aksiyasının təşkilatçısıdır. Məhz Ukrayna Ali Sovetinin tərkibinə seçilmiş RUX və başqa siyasi təşkilatların təzyiqi nəticəsində 1989-cu il oktyabrın 28-də ukrayna dilinə rəsmi dövlət dili statusu verilməsinə dair qanun qəbul edildi. SSRİ-də olduğu kimi Ukraynada da bir çox mədəniyyət xadimi Kommunist partiyasının sıralarını tərk etdi. 1990-cı ilin yayına doğru Ukraynada vəziyyət daha da kəskinləşdi, mədənçilərin tətili başladı. Kiyevdə Ali Sovetin binası qarşısında ukraynalı tələbələr müstəqillik tələbilə aclıq aksiyası təşkil etdilər.

Ukrayna xalqının və onun önündə gedən ziyalıların mübarizəsi nəticəsində 1990-cı il iyulun 16-da USSR-in Ali Radası çox böyük tarixi əhəmiyyəti olan Ukraynanın dövlət suverenliyi haqqında Bəyannamə qəbul etdi. Bəyannamə ukrayna millətinin öz müqəddəratını təyin etmək hüququnu tanıyır və elan edir ki, dövlət ukraynalıların milli dövlətçiliyini müdafiə edib qorumalıdır. Dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır, USSR-nın Ali Radası onun adından çıxış etmək səlahiyyətinə malikdir. Sənəddə qanunverici, icraedici və

məhkəmə hakimiyyətinin bölünməsi prinsipindən bəhs edilir. Baş prokuror qanunların yerinə yetirilməsi üzərində nəzarət edir. Bəyannamə Ukrayna ərazisinin toxunulmazlığını və uzun illər susqunluqdan sonra insan hüquq və azadlıqlarını təsbit etdi. Müstəqilliyin iqtisadi bölməsində elan olundu ki, "torpaq, onun yeraltı, hava, su və təbii ehtiyacları ukrayna xalqının, yəni Ukraynanın bütün millətlərindən olan vətəndaşlarının mülkiyyətidir".

Ukrayna öz silahlı qüvvələrini yaratmağı nəzərdə tuturdu. Ukrayna həm də nüvə silahını hazırlamamaq, yaymamaq, artırmamaq haqqında öz üzərinə öhdəlik götürürdü. Bəyannamə Ukraynanın gələcək xarici siyasətini, ilk növbədə ölkənin milli maraqlarını nəzərə almaqla bitərəflik siyasəti çərçivəsində nəzərdə tuturdu. Bəyannamə qəbul edildikdən dərhal sonra V.İvaşko istefaya getdi, 1990-cı il iyulun 18-də L.Krauçuk Ukrayna SSR Ali Radanın sədri seçildi.

Yenidənqurma siyasəti iqtisadi vəziyyəti düzəltmədi. Bundan başqa dəmir pərdənin qaldırılması sıravi sovet adamlarına öz həyat səviyyələrini qərbdəki ilə müqayisə etməyə imkan yaratdı. Məhz Ukrayna və Baltikyanı respublikalarda milli hərəkatlar belə meydana gəldi. Qafqaz və Orta Asiyanı milli zəmində münaqişələr bürüdü. M.S.Qorbaçovun yarımçıq islahatları nəticə vermədi, iqtisadiyyat gündən-günə çətinləşməyə başladı. Yeni tarixi şəraitdə, o cümlədən Mərkəzi və Şərqi Avropada kommunist rejimlərinin dağılması Kommunist partiyasının nüfuzdan düşməsinə səbəb oldu. Xüsusilə qərb respublikalarında, o cümlədən Estoniya, Latviya, Litva və Ukraynada hakimiyyət kommunistlərin əlindən çıxmağa başladı.

Kommunist rəhbərliyinin mühafizəkar dairəsi SSRİ-ni və öz vəzifələrini xilas etmək məqsədilə son bir cəhd etdilər. 1991-ci il avqustun 19-da yeni hakimiyyət orqanı –Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK) yaratdılar. Vitse-prezident G.İ.Yanayev televiziya ilə çıxış edərək bildirdi ki, M.S.Qorbaçov səhhətinə görə müvəqqəti olaraq hakimiyyətdən uzaqlaşdırılır. Moskvaya qoşun yeridildi. Müxalifət partiyalarının və bir çox kütləvi informasiya vasitələrinin fəaliyyəti qadağan edildi. DFVK-nin üzvləri güc tətbiq etməklə İttifaqın və Sovet dövlətinin dağılmasının qarşısını almağa cəhd etdilər. Bütün bunlar həm Moskvada, həm də milli respublikalarda ciddi etirazlara səbəb oldu. 1991-ci il avqust qiyamının baş tutmamasında demokratik qüvvələr, Rusiya prezidenti B.N.Yeltsin və Qərbin sərt mövqeyi həlledici rol oynadı.

Bütün bu hadisələrin gedişində rəsmi Kiyev gözləmə mövqeyi tutdu. DFVK-nin hərəkətlərinə qarşı Ukraynanın demokratik qüvvələri, o cümlədən RUX və yeni siyasi partiyalar qətiyyətlə səslərini ucaltdılar. Ukrayna Ali Radasının müxalifətçi deputatları – Xalq Radası və demokratik təşkilatların nümayəndələri DFVK-nin fəaliyyətini konstitusiyaya zidd hərəkət kimi qiymətləndirərək Sov.İKP-nin qeyri-məhdud hakimiyyətinin bərpasına yönəldiyini elan etdilər. Xalq Radası Ali Radanın deputatlarını fövqəladə sessiyaya toplanmağa, hərbçiləri öz xalqını müdafiə etməyə, qiyamçıların göstərişlərini yerinə yetirməməyə çağırdı.

Ukrayna üçün bu hadisələr 1991-ci il avqustun 24-də Ukraynanın müstəqilliyinin bəyan edilməsi Aktının qəbul edilməsi ilə nəticələndi. Müstəqillik Aktında qeyd olunurdu ki, "Ukraynanın ərazisi bölünməz və toxunulmazdır. Bundan sonra Ukrayna ərazisində yalnız müstəsna olaraq Ukrayna Konstitusiyası və qanunları qüvvədədir". 1991-ci il dekabrın 1-də Ukraynanın müstəqilliyini təstiq etmək məqsədilə ümumukrayna referendumu keçirildi. Referendumda iştirak edənlərin demək olar ki, 90,3 faizi Ukraynanın müstəqilliyinə "bəli" dedi. Həmin gün Ukraynada prezident seçkisi keçirildi, Leonid Kravçuk müstəqil ukraynanın ilk prezidenti seçildi. Dünyanın siyasi xəritəsində müstəqilliyə doğru mürəkkəb və ziddiyyətli yol qət edən yeni müstəqil demokratik dövlət – Ukrayna meydana gəldi. Müstəqil Ukraynanın prezidenti seçilən L.M.Kravçuk 1991-ci il dekabrın 5-də respublikanın 1922-ci il İttifaq müqaviləsindən çıxdığını elan etdi. SSRİ-nin kortəbii dağılması prosesi başladı. 1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belarusiyanın rəhbərləri Belovej qoruğunda görüşərək bəyan etdilər ki, onların respublikaları 1922-ci il İttifaq müqaviləsindən çıxaraq Müstəqil Dövlətlər Birliyi (MDB) yaradır. Belovej sazişin RSFSR-in prezidenti B.N.Yeltsin, USSR-in prezidenti L.M.Kravçuk və BSSR-in Ali Sovet sədri S.S.Şuşkeviç imzaladı. 1991-ci il dekabrın 21-də Azərbaycan, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Moldaviya, RSFSR, Ermə-

nistan, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan MDB-nin yaradılması haqqında Bəyannamə imzaladılar. 1991-ci il dekabrın 25-də mövcud olmayan dövlətin prezidenti M.S.Qorbaçov istefa verdi. Ertəsi gün SSRİ-nin Ali Soveti SSRİ-nin buraxılması faktını təsdiq edərək öz səlahiyyətlərini dayandırdığını elan etdi.

1992-ci ilin yanvar-fevral aylarında müstəqil Ukraynanın Ali Radası ölkənin dövlət simvollarını, o cümlədən üçdişli Dövlət Gerbini, göy-sarı rəngli Dövlət Bayrağını, Pavel Çubinskinin (1853-1884) sözləri, Mixail Verbitskinin musiqisi əsasında bəslənmiş milli himnini Dövlət himni kimi təsdiq etdi. Müstəqil Ukraynada dövlət quruculuğu prosesi yeni konstitusiyanın və buna uyğun qanunvericilik bazası olmaması üzündən xeyli çətinliklərlə müşayiət olunurdu. Ukraynada 1978-ci ildə qəbul edilən sovet konstitusiyası fəaliyyət göstərirdi ki, müstəqillik şəraitində ona da 200-dən şox düzəliş əlavə edilmişdir. Hər şeydən əvvəl 1991-ci il sentyabrın 17-də Ukrayna Sovet Sosialist Respublikasının adının Ukrayna dövləti olması haqqında qanun qəbul edildi. 1991-ci il oktyabrın 8-də qəbul edilən "Ukrayna vətəndaşlığı haqqında" Qanunda elan edildi ki, Ukrayna ərazisində yaşayan, başqa dövlətin vətəndaşı olmayan və ukrayna vətəndaşlığını qəbul etməyə etiraz etməyən hər kəsə Ukrayna vətəndaşlığı təqdim olunur.

1991-ci il noyabrın 1-də Ali Radanın qəbul etdiyi "Ukrayna millətlərinin hüquq Bəyannaməsində" qeyd edilirdi ki, Ukrayna onun ərazisində yaşayan bütün xalqlara, milli qruplara, vətəndaşlara bərabər iqtisadi, siyasi, sosial və mədəni hüquqlar verilməsinə təminat verir. 1991-ci il noyabrın 4-də qəbul olunmuş "Ukraynanın dövlət sərhədlərinə dair" Qanunla sərhədlərin müəyyən edilməsi, qoruma və keçilmə qaydası təsbit edildi. 1991-ci il dekabrın 6-da qəbul edilən "Ukrayna silahlı qüvvələri haqqında" Qanuna və 1993-cü il oktyabrın 19-da elan olunan Ukraynanın hərbi doktrinasına görə Ukrayna nüvəsiz və bloklardan kənar status əsasında kifayət qədər ağıllı silahlanma prinsipinə əməl etməklə hər hansı bir ölkəni potensial rəqib saymadan öz silahlı qüvvələrini formalaşdırmalıdır.

1990-cı ilin oktyabrında Ali Rada dövlətin müstəqilliyi haqqında Bəyannaməyə əsaslanaraq L.Kravçukun sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlamaq məqsədilə Konstitusiya komissiyası yaratdı. Yeni Konstitusiyanın hazırlanması və qəbul edilməsi prosesi şərti olaraq iki dövrə bölünür. 1992-1994-cü illəri əhatə edən birinci dövrdə Konstitusiya komissiyası prezident L.Kravçukun, Ali Radanın sədri İ.Plyuşun başçılığı altında hüquqşünas alimlərlə, məhkəmə və hüquq mühafizə orqanlarının işçiləri, hakimlər və xalq deputatları ilə birlikdə Konstitusiya layihəsinin iki variantını hazırlayaraq ümumxalq müzakirəsinə təqdim etdilər. Lakin bunlardan heç biri qəbul edilmədi. 1990-1994-cü illərdəki onikinci çağırış Ali Rada prezident L.Kravçukun ölkənin daxili işlərindəki səlahiyyətini azaltmağa səy göstərirdi. Ümumi böhran və artan sosial etiraz dalğaları şəraitində Prezident və Ali Rada qarşıdurması tərəflərin səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması ilə başa çatdı. 1994-cü ilin yazında Ali Radaya seçkilər keçirildi. Ukrayna Sosialist partiyasının lideri A.Moroz Ali Radanın (1994-1998-ci illər) sədri seçildi. Demək olar ki, parlamentdə yerlərin üçdə birin sol partiyalar aldı. 1994-cü ilin yayında Ukraynada prezident seçkilərində ikinci turda L.Kuçma səslərin 52 faizindən çoxunu alaraq prezident oldu.

Məhz 1994-1996-cı illəri əhatə edən ikinci dövrdə Konstitusiya komissiyasına prezident L.Kuçma və Ali Radanın sədri A.Moroz başçılıq etdi. 1996-cı ilin fevralında Ali Rada yeni konstitusiya layihəsinin müzakirəsinə başladı. Uzun müzakirələrdən sonra mübahisəli məsələləri həll etmək mümkün oldu. 1996-cı il iyunun 28-nə keçən gecə Ali Radanın deputatlarının böyük əksəriyyətinin səsi ilə Ukraynanın Konstitusiyası qəbul olundu. Ukrayna Konstitusiyasının qüvvəyə minib fəaliyyətə başlamasına dair prezident fərman verdi. Fəaliyyətdə olan yeni Konstitusiya Ukraynanı müstəqil, suveren, demokratik, sosial və hüquqi dövlət kimi təsbit etdi. İdarəetmə formasına görə Ukrayna respublika, dövlət quruluşuna görə unitar, yəni vahid dövlət oldu. İnsan və vətəndaşların hüquq və azadlıqları beynəlxalq demokratik standartlara uyğun olaraq Konstitusiya ilə təmin edilirdi. Yeni Konstitusiyanın qəbul edilməsi ilə Ukraynada qanunverici, icraedici və məhkəmə hakimiyyətinin formalaşması institutu başa çatdı.

1998-ci ilin martında Ali Radaya növbəti seçkilər ilk dəfə qarışıq majoritar-proporsional sistem üzrə keçirildi. Seçkidə 30 siyasi partiya və blok iştirak edirdi ki, onların da 8-i 4 faizlik səddi aşaraq deputat yeri almağı bacardı. Ukrayna Kommunist partiyası 24,7, Narodnıy Rux Ukrayna 9,4, Ukrayna Sosialist partiyası ilə Ukrayna Kəndli partiyasının "Həqiqət, Xalq və Ukrayna uğrunda" bloku 8,6 faiz və s. səs aldılar. A.Tkaçenko Ali Radanın sədri seçildi.

1999-cu ildəki prezident seçkilərini ikinci turda 56,25% səs toplayan L.Kuçma təkrar qazandı, onun rəqibi UKP-nın lideri P.Simonenko isə seçicilərin yalnız 37,8 % səsini almışdır. Ali Radanın hakim sol qanadı prezidentin təklif etdiyi islahat kursunu qəbul etmədiyinə görə prezidentlə parlament arasındakı ziddiyyət kəskinləşdi. Hətta 2000-ci il yanvarın 13-də A.Tkaçenko və onun tərəfdarları yeni bir struktur olan parlament çoxluğunu yaratdılar. Buna cavab olaraq on bir fraksiya, qrup və qeyri-fraksiya deputatları L.Kravçukun başçılığı ilə çoxluğun əlaqələndirmə Şurasını təşkil etdilər. Parlamentin iclasları ayrı-ayrı keçirilməyə başlandı. Prezident və hökumətə başçılıq edən V.Yuşşenkonun təşəbbüsü ilə 2000-ci il yanvarın 21-də Ali Radanın 242 deputatı parlamentin reqlamentini dəyişməyə, Radanın sədri A.Tkaçenko və birinci müavin A.Martınyukun vəzifələrindən azad edilməsinə səs verdilər. Fevralın 1-də Ali Radanın 255 deputatı İ.Plyuşu parlamentin sədri, V.Medvedçuku birinci müavini, S.Qavrişini müavin seçdi. Fevralın 8-də yenidən təşkil edilmiş Ali Rada tam tərkiblə fəaliyyətə başladı. Sol fraksiyalar parlament komitələrinin rəhbərliyindən uzaqlaşdırıldı. Lakin 2000-ci ilin fevralında prezident və hökumət tərəfdarı olan fraksiyalar tərəfindən təşkil edilən parlament çoxluğu 2001-ci ilin aprelində parçalandı.

2000-ci il aprelin 16-da prezident referendum keçirilməsinə dair fərman imzaladı. Ümumxalq müzakirəsinə 6 məsələ, o cümlədən Ali Radaya etimadsızlıq, parlamentin buraxılaraq prezidentə əlavə səlahiyyətlər verilməsi, deputat toxunulmazlığının məhdudlaşdırılması, xalq deputatlarının sayının 300 nəfərə endirilməsi, ikipalatalı parlamentin formalaşması və Konstitusiyanın ümumukrayna referendumu vasitəsilə qəbul edilməsi təqdim edilmişdir. Referendumun keçirilməsin sollar və sağ siyasi partiyaların bir hissəsi, beynəlxalq təşkilatlar müdafiə etmədi. Ukraynanın Konstitusiya Məhkəməsi Ali Radaya etimadsızlıq haqqında və Konstitusiyanın Ümumukrayna referendumu vasitəsi ilə qəbul edilməsi maddələrini konstitusiyaya zidd hesab edərək qəbul etmədi. Səsvermə aprelin 16-da oldu və iştirakçıların 80 faizindən çoxu gündəlikdə olan 4 maddəyə "hə" dedi. Müxalifət referendumun nəticələrinin saxtalaşdırlmasını irəli sürsə də Mərkəzi Seçki Komissiyası nəticəni təstiq etdi.Lakin referendumun qərarı əsasında olan Konstitusiya dəyişikliyini yalnız parlament edə bilərdi. Mövcud parlamentdə isə bu dəyişikliyi təsdiq edən 300 deputat səsini toplamaq qeyri-mümkün olduğundan bu məsələ açıq qaldı.

Tam aydın olmayan şəraitdə müxalifətçi jurnalıist Q.Qonqadzenin itkin düşməsi və 2000-ci il noyabrın 28-də A.Morozun parlamentdə çıxışında bu məsələdə prezident L.Kuçmanı ittiham etməsi ölkədəki siyasi vəziyyəti daha da kəskinləşdirdi. Sosialistlərin lideri prezidentin onun qorumasının zabiti mayor N.Melniçenko ilə danışıq kassetini təqdim edərək sübut kimi göstərdi. Audioyazıda bir sıra qanun pozuntularından, o cümlədən müxalifətin, kütləvi informasiya vasitələri işçilərinin təqib edilməsindən, rüşvət və korrupsiyadan, prezident seçkilərinə inzibati təzyiqlərdən və s. söhbət gedir. 2002-ci ilin əvvəllərində amerikan ekspertizası kasetin saxta deyil, həqiqi olduğunu bildirdi. Kasset qalmaqalından sonra radikal müxalifət L.Kuçmanın istefasını və növbədənkənar prezident seçkiləri keçirilməsini tələb etdi. 2000-ci ilin dekabrında "Kuçmasız Ukrayna" hərəkatı yarandı. Kommunistlər müxalifətin hərəkatına qoşulmayaraq özləri "Kuçmasız və Yuşşenkosuz Ukrayna" şüarı altında fəaliyyətə keçdilər. 2001-ci il aprelin 17-də Ali Rada müstəqillik dövründə ilk dəfə Nazirlər Kabinetinin fəaliyyət proqramını yerinə yetirməsi haqqında hesabatı dinlədi. Aprelin 26-da parlament səs çoxluğu ilə V.Yuşşenko başda olmaqla Nazirlər Kabinetini istefaya göndərdi. Aprelin 28-də prezident hökumətin istefası haqqında fərmana imza atdı. 2001-ci il mayın 29-da A.Kinax Ukraynanın yeni Baş Naziri oldu.

2001-ci ilin əvvəllərində Kiyevdə kütləvi antiprezident çıxışları başladı. Şəhər mərkəzində çadırlar quruldu və üç həftədən sonra məhkəmənin qərarı ilə sökülərkən həbslər apa-

rıldı. Ölkəni regionların etiraz nümayişləri bürüdü. 2001-ci il martın 9-da T.Şevçenkonun doğum günü münasibətilə təşkil edilən tədbirdə Prezident İcra aparatının binası ətrafında müxalifətlə milis qüvvələri arasında toqquşma baş verdi. 200 nəfərə qədər adam, o cümlədən əsasən tələblər həbs olundu. Tələbələr sonradan azad edildi, müxalifətin 16 nəfər üzvü başda A.Şkil olmaqla bir ildən çox məhkəmə istintaqına məruz qaldı. Etiraz aksiyalarının təzyiqi altında hakimiyyət UTŞ-nın başçısı L.Derkaçı və Daxili işlər naziri Y.Kravçenkonu istefaya göndərməyə məcbur oldu. Aprelin 26-da Ali Rada prezidentə impiçment tətbiq etməyə səy göstərsə də buna nail ola bilmədi. Mart hadisələrindən sonra müxalifətin fəallığı azaldı, əhalinin böyük hissəsi etiraz aksiyalarında iştirak etmədi.

2001-ci ilin fevralında Ali Rada "Ukrayna xalq deputatlarının seçilməsi haqqında" Qanun qəbul etdi. Qanuna əsasən proporsional, yəni partiya siyahıları üzrə seçki sisteminə keçilirdi. Ancaq Prezident bunun üzərinə siyasi partiyalara mənsub olmayan vətəndaşların seçki hüququnun pozulması səbəbi ilə veto tətbiq etdi. Müxalifətin fikrinə görə isə majoritar sistem üzrə seçki keçirilən tək mandatlı dairələrdə inzibati orqanların seçkiyə nəzarət etməsi daha əlverişli idi. Prezidentlə Ali Rada razılığa gələ bilmədiklərindən növbəti seçki əvvəlki kimi qarışıq, yəni deputatların bir hissəsi tək mandatlı seçki dairəsi, digər hissəsi isə partiya siyahısı üzrə baş tutdu. 2002-ci ildəki seçki marafonunda 33 siyasi partiya və blok iştirak edirdi. Prezident yönümlü cəbhəni icra aparatının rəhbəri V.Litvinin başçılıq etdiyi "Vahid Ukrayna uğrunda" bloku təmsil edirdi. Baş nazir A.Kinaxın rəhbərliyi altında seçki siyahısında ikinci olan partiyalar da hakimiyyəti müdafiə edirdi. On siyasi partiya V.Yuşşenkonun "Bizim Ukrayna" blokunu yaradaraq konstruktiv müxalifəti təmsil edirdilər. Əsas kommunist olmayan müxalifəti isə A.Morozun Ukrayna Sosialist partiyası ilə Y.Timoşenkonun 4 partiyanın daxil olduğu bloku təmsil edirdi. Bloka daxil olanların əsas şüarı L.Kuçmaya impiçment tətbiq edilməsi və hakimiyyətin parlament formasına keçilməsindən ibarətdir. Bu məqsədə çatmaq məqsədilə Y.Timoşenko blokuna məşhur siyasətçiləri, o cümlədən L.Lukyanenkonu, A.Matviyenkonu, Q.Omelçenkonu, V.Onopenkonu, S.Xmarı cəlb etmişdir. Seçkilərdə heç bir partiya və blok mütləq səs çoxluğu qazanmadı. Seçici səslərinin 23,5 faizini V.Yuşşenkonun "Bizim Ukrayna" bloku, 20 faizini P.Simonenkonun rəhbərlik etdiyi Ukrayna Kommunist partiyası, 11,8 faizini V.Litvinin başçılıq etdiyi hakimiyyət bloku, 7,2 faizini Y.Timoşenkonun bloku və s. əldə etdi. Ukrayna Ali Radasının sədri V.Litvin seçildi. 2002-ci il noyabrın 21-də Donetsk vilayətinin icra başçısı V.Yanukoviç Ali Radanın iclasında iştirak edən 237 deputatdan 234 nəfərin səsini alaraq yeni Baş nazir seçildi. Deputatlar qarşısında çıxış edən hökumətin başçısı V.Yanukoviç bildirdi ki, hökumətin əsas vəzifəsi yoxsulluğu aradan qaldırmaq üçün orta sinfi möhkəmlətməkdən, bu məqsədlə orta və kiçik sahibkarlardan alınan vergilərin azaldılmasından ibarətdir.

2004-cü ildə Ukraynada keçirilən prezident seçkilərində hakimiyyəti Baş nazir V.Yanukoviç təmsil edirdi. Müxalifət qüvvələri Ukrayna milli Bankının keçmiş sədri, 2000-2001-ci illərdə Baş nazir olmuş "Bizim Ukrayna" blokunun lideri V.Yuşşenkonun ətrafında birləşmişdir. Oktyabrın 31-də baş tutan seçkilərdə V.Yuşşenko səslərin 39, 26, V.Yanukoviç isə 39,11, qalan namizədlər isə nisbətən daha aşağı faizini qazandılar. 2004-cü il noyabrın 21-də iki daha çox səs toplamış V.Yuşşenko ilə V.Yanukoviç arasında seçkinin ikinci turu keçirildi. İkinci turun nəticələrini açıqlayan MSK V.Yanukoviçin qələbəsini elan etdi. Müxalifət seçkinin nəticələrinin saxtalaşdırılması iddiası ilə noyabrın 21-də Kiyevin mərkəzi Müstəqillik meydanında mitinqə toplaşdı ki, bu, ölkədə kütləvi etiraz aksiyasına çevrildi, adı da tarixə "Narıncı inqilab" olaraq keçdi. Prezidentliyə namizəd V.Yuşşenkonun təşviqat kompaniyasında narıncı rəngdən istifadə edildiyi üçün "Narıncı inqilab" adını alan nümayişlər dinc xarakter daşıyırdı. Müxalifətin dinc aksiyasına cavab olaraq V.Yanukoviç tərəfdarları ölkənin əsasən cənub-şərq rayonlarından Kiyevə hərəkət edərək Nazirlər Kabinetinin binası qarşısında çadır şəhərciyi qurdular. Hətta V.Yanukoviç tərəfdarları ölkəni bölməyi belə gözə alaraq Donetsk, Luqansk, Xarkov və başqa vilayətləri birləşdirən Cənub-Şərq muxtar Respublikasını elan etməyi tələb edirdi. Mürəkkəb şəraitdən çıxış yolu tapmaq məqsədilə Polşa, Litva, Rusiya, ATƏT və Aİ-nin nümayəndələri Kiyevə rəsmi missiyaya gələrək münaqişənin

tərəfdarları prezident L.Kuçmanı, prezidentliyə namizədlər V.Yuşşenko və V.Yanukoviçi bir araya gətirərək böhranın siyasi həlli üçün zəmin hazırladılar.

2004-cü il dekabrın 3-də Ukraynanın Ali Məhkəməsi seçkinin ikinci mərhələsinin nəticələrinə dair noyabrın 26-da MSK-nın elan etdiyi qərarı ləğv etdi və dekabrın 26-da yeni səsvermə təyin etdi. Dekabrın 7-də L.Kuçma seçki kampaniyası ərəfəsində Baş nazir V.Yanukoviçi məzuniyyətə göndərdi, N.Azarovu Baş nazir vəzifəsinin icraçısı təyin etdi. MSK-nın Y.Davidoviç başda olmaqla yeni tərkibi təstiq olundu. 2004-cü il dekabrın 26-da baş tutan prezident seçkisində səsvermədə iştirak edən seçicilərin 51,99 faizi V.Yuşşenkoya, 44,21 faizi isə V.Yanukoviçə səs verdi. 2005-ci il yanvarın 25-də V.Yuşşenko and içərək Ukraynanın yeni prezidenti oldu. Bununla da, 1991-2004-cü illərdə müstəqil Ukraynada milli dövlət quruculuğu dövrü başa çataraq yeni mərhələyə qədəm qoydu.

2006-cı il martın 26-da Ukrayna Ali Radasına partiya siyahıları üzrə seçkilər keçirildi. 45 partiya və blokun yarışdığı seçkidə yalnız 5 siyasi qüvvə 3 faizlik səddi aşa bildi. Bunlar 32,14% seçici səsi toplayan Regionlar partiyası, 22,29% səs alan Yuli Timoşenko bloku, 13,94% səsə malik “Bizim Ukrayna” bloku, 5,67% səs yığan Ukrayna Sosialist partiyası və nəhayət 3,66% seçici səsi qazanan Ukrayna Kommunist partiyası idi. Prezident “Yuli Timoşenko Bloku”, “Bizim Ukrayna” Xalq ittifaqı və Ukrayna Sosialist partiyasının “narıncı” hökumət koalisiyasının təşkil edilməsini irəli sürdü. Lakin koalisiyaya daxil olan siyasi qüvvələr Y.Timoşenkonun baş nazir vəzifəsinə, A.Morozun Ali Radanın spikeri vəzifəsinə olan iddiaları üzündən dağıldı. Uzun müddət davam edən qarşıdurmadan sonra münaqişə tərəfləri növbədənkənar parlament seçkilərinin 2007-ci il sentyabrın 3-də keçirilməsinə dair razılığa gəldilər.

2007-ci il sentyabrın 3-də Ukrayna Ali radasına növbədənkənar seçkilər oldu. Yalnız 6 partiya və blok 3 faizlik seçki səddin aşmağa müvəffəq oldu. Regionlar partiyası 33,37, Yuli Timoşenko bloku 30,71, Bizim Ukrayna-Xalq özünümüdafiəsi 14,15, Ukrayna Kommunist partiyası 5,39 və Litvin bloku 3,96 faiz seçici səsi topladı. 450 nəfərdən ibarət olan Ali Radanın 227 nəfər deputatı demokratik koalisiya təşkil etdilər, Yuliya Timoşenko Baş Nazir seçildi. Arseni Yasenyuk Ali Radanın spikeri seçildi.Lakin tezliklə “Bizim Ukrayna” Xalq ittifaqı fraksiyasının bir qrup depuatatı və Regionlar partiyası prezident V.Yuşşenkonun Gürcüstanı, Rusiya və Cənubi Osetiya ilə münaqişədə müdafiə etmək təklifini qəbul etmədilər. Beləliklə, koalisiya dağıldı və sentyabrın 17-də Ali Radanın spikeri A.Yasenyuk istefa verdi. 2008-ci il dekabrın 10-da Baş nazir Y.Timoşenkonun bloku, prezidenti müdafiə edən “Bizim Ukrayna” bloku və sabiq spiker V.Litvinin bloku öz aralarında yeni koalisiya yaratdılar. Vladimir Litvin Ali Radanın növbəti sədri seçildi. 2012-ci ildə Ukraynada 200 siyasi partiya fəaliyyətə başlamaq üçün qeydiyyatdan keçmişdir. Bu partiyalar 2011-ci ilin noyabrında qəbul edilən siyasi partiyalara dair Qanun əsasında öz işlərini qururdu. 2012-ci ildə Ukraynada keçirilən növbəti parlament seçkilərində 29 partiya iştirak etmişdir ki, onların da 6-sı 5 faizlik səddi keçərək parlamentdə təmsil edilmək hüququ almışdır.

2014-cü ilin noyabrında baş tutan növbədənkənar parlament seçkilərində “Pyotr Poroşenko Bloku” seçici səslərinin 34,51 faizini qazanaraq 144 deputat mandatı ilə birinci oldu. Aleksandr Turçinovun “Xalq cəbhəsi” 19,62 faiz səs, 83 deputat mandatı ilə ikinci oldu. Yuri Boykonun “Müxalifət Bloku” səslərin 9,46 faizini, deputat mandatlarının 40-ı əldə edərək parlamentə daxil oldu. Hazırda 450 deputatı olan Ukrayna Ali Radasının sədri Vladimir Qroysmandır. Ölkə 27 inzibati-ərazi vahidinə bölünür ki, onların da 24-ü vilayət, biri muxtar respublika, ikisi isə dövlət tabeliyində olan şəhərlərdir. Ukrayna dövlət statistika idarəsinin məlumatına əsasən 2015-ci il iyulun 1-də Ukraynada 42.823.188 nəfər əhali qeydə alınmışdır. Ərazisi 603.549 kv.km təşkil edir ki, faktiki olaraq onun bir hissəsinə dövlət nəzarət edə bilmir.

2010-cu il yanvarın 17-də Ukraynada prezident seçkiləri keçirildi, bu mərhələdə qalib aşkar edilmədi. Fevralın 7-də seçkilərin ikinci turu keçirildi, Viktor Yanukoviç baş naziri Yuliya Timoşenkonun üzərində 3% üstünlüklə qələbə qazandı. Prezidentin seçicilərin səslərinin 50%-dən daha az səs alması Ukrayna tarixində ilk dəfə baş verirdi. Nikolay

Azarovun başçılığı ilə yeni hökumət martın 11-də yarandı. Aprelin 21-də Viktor Yanukoviçin və Dmitri Medvedevin arasında Ukrayna-Rusiya əlaqələri, iqtisadiyyat və humanitar məsələlərin əhəmiyyəti barəsində danışıqlar aparıldı. Bundan başqa Ukrayna ərazisindən Qara dənizə çıxış üçün orada rus donanmasının yerləşməsi və rus qazının Ukrayna üçün 30%, min kub metri 100 dollardan çox olmamaq şərti ilə verilməsi müzakirə olundu. Eyni zamanda Viktor Yanukoviç 2042-ci ilə qədər Sevastopolda Rusiya Federasiyasının Qara dəniz flotunun olmasının müddətinin uzadılması haqqında Rusiya Federasiyasının prezidenti Dmitri Medvedevlə Xarkov razılaşmasını imzaladı. 27 apreldə bu müqavilə Ukraynanın Ali Radası və Rusiya Federasiyasının Dövlət Duması tərəfindən təsdiq edildi.

2013-cü il noyabrın 16-da Vergi kodeksinə qarşı etiraz aksiyaları başlandı, ölkədə kütləvi mitinqlər və etirazlar keçirildi, Kiyevdə Nezalejnosti Meydanında çadır şəhərciyi salındı. Paytaxtda təxminən 20 min adamın iştirak etdiyi mitinqlər davam edirdi. Ukrayna və Avropa İttifaqı arasında assosiasiya haqqında saziş bağlanması barədə danışıqlar 2007-ci ildən aparılırdı. Qəbul haqqında yeni sənədin mətni hələ 2011-ci ilin noyabrında hazırlanmışdı, amma Avropa İttifaqı ilə Ukrayna arasında mürəkkəbləşmiş münasibətlərlə əlaqədar onun imzalanması bir neçə dəfə təxirə salınırdı, bu halda Avropa İttifaqı Ukrayna rəhbərliyinə bir sıra ilkin şərtlər irəli sürdü. 30 mart 2012-ci il razılaşması Ukraynanın və Avropa İttifaqı nümayəndə heyətlərinin başçıları tərəfindən paraflanmışdı. Avropa İttifaqıyla Ukraynanın assosiasiyası haqqında razılaşma siyasət, ticarət, mədəniyyət və təhlükəsizliyin inkişafı sahəsində Ukrayna və Avropa İttifaqı arasında inteqrasiyanın dərinləşməsinə səbəb olan, Avropa ölkələrilə Ukrayna arasında əməkdaşlıq yaradan bir müqavilə idi. Lakin Ukrayna hakimiyyəti eyni zamanda Avrasiya İqtisadi Birliyinə üzv olmaq danışıqları aparırdı, bu isə Avropa İttifaqının qanunlarına zidd idi, çünki Ukrayna eyni zamanda həm Avropa İttifaqı, həm də Rusiyanın rəhbərlik etdiyi Avrasiya iqtisadi Birliyi ilə gömrüksüz ticarət əlaqələri saxlaya bilməzdi. Rusiya-Ukrayna əlaqələrində ciddi gərginlik 2013-cü ilin iyulu yarandı, əvvəlcə Rospotrebnadzor "Roşen" Ukrayna şirkətinin məhsullarının idxalını qadağan etdi, sonra isə Ukrayna mallarının Rusiya bazarına girməsinə gömrük çətinlikləri yaratdı. Vəziyyət yalnız sahibkarları deyil, həm də Ukrayna hakimiyyətində böyük narahatçılıq yaratdı, Ukraynadan ixrac olunan mallar Rusiya sərhəddində dayandırıldı. Ukraynanın həmçinin dövlət borcu artır, iqtisadiyyatda çətinliklər yaranırdı. Ukraynanın qızıl-valyuta etiyatları 20,6 milyard dollara qədər azaldı, dövlət borcu demək olar ki, 70 milyard dollar təşkil etdi.

2013-cü ilin noyabrında, assosiasiyanın imzalanması planlaşdırılan Vilnüs sammiti-"Şərq əməkdaşlığ"ndan bir neçə gün əvvəl Avropa İttifaqına hazırlıq prosesi Ukrayna hökuməti tərəfindən dayandırıldı ki, buna da səbəb Rusiyanın təzyiqləri idi. 2013-cü ilin 21 noyabr tarixində hakimiyyətin Avropa İttifaqı ilə assosiasiya müqaviləsini imzalamaqdan imtina etməsinə cavab olaraq, Kiyevdə və Ukraynanın digər şəhərlərində kütləvi etiraz aksiyaları başlandı. Kiyevin mərkəzi meydanında baş verən mitinqləri kütləvi media "Avromaydan" kimi adlandırdı. 21 noyabr tarixində birinci aksiya min nəfərdən çox adamın iştirakı ilə keçirildi. Xalq qarşısında Viktor Kliçko, Oleq Tyaqnibuk və Arseniy Yaçenyuk çıxış etdi. Növbəti gündə çıxışlar Lvovda da keçirildi. Eyni zamanda hakimiyyətin qərarlarına etiraz əlaməti olaraq Kiyevdə çadır şəhərciyi quruldu və onların başında Andrey Parabuy durdu. 24 noyabr tarixində ölkədə baş verənlərin zəminində Nazirlər kabineti binası ətrafında toqquşmalar yarandı.2013-cü ilin 28-29 noyabr tarixində Vilnüsdə "Şərq əməkdaşlığı" sammiti keçirildi. Avropa İttifaqı ilə Ukraynanın assosiasiyası haqqında razılaşmanın imzalanmaması ölkədəki vəziyyəti daha da qarışdırdı. Dekabrın 1-də Xalq Veçesinin meydanında radikallar Kiyev Radasının və Həmkarlar İttifaqının binasını tutdu, eyni zamanda Prezident Administrasiyasına da hücum edirlər. Hadisələrin gedişində adamlar məsələnin kəskin həllini istəyən radikallara və mülayimlərə bölündü. 30 noyabrda etiraz aksiyalarının zorla dağıdılması cəhdinə qədər çıxış edənlər Aİ ilə assosiasiyanın qurulması haqqında şüarlar səsləndirsə də, 1 dekabr tarixindən artıq prezidentin istefası, hakimiyyət dəyişikliyi haqqında tələblər irəli sürüldü. Müxalifət hökumətin istefası, prezident və Ukraynanın Ali Radasına

yeni seçkilərin keçirilməsini tələb etdi. Amma digər Ukrayna Daxili İşlər Nazirliyinin bölmələri ilə toqquşmalarda iştirak etmiş daha radikal qruplar Ukraynanın avrointeqrasiyası fikrini bölüşmürdülər. Belə ki, nümayişlərdə təkcə müxalifət deyil, sağ meylli qruplar və radikallar da iştirak edirdi. Mitinqlərə Ukraynanın "Batkivşina", "Zərbə" və "Azadlıq" müxalifət partiyaları rəhbərlik edirdi. Ümumiyyətlə, Avromaydanda ölkə ərazisində olan siyasi və qeyri-siyasi bütün partiya təşkilat və qrupların nümayəndələrinə rast gəlmək olardı. 2013-cü il dekabrın 2-də etiraz edənlər Ukrayna hökumət binasına girişləri kəsib, Azarov hökumətinin işini əngəllədilər. 4 dekabr 2013-cü ildə Kiyevə Almaniyanın Xarici İşlər Nazirliyinin başçısı Q.Vestervelle gəldi, etiraz edənlərin düşərgəsinə baş çəkdi, V.Kliçko və A.Yasenyuk ilə görüşdü. Dekabrın 8-də Ukraynada "xalq veçesi" adlandırılan yeni etiraz aksiyaları keçirildi. Ən çoxsaylı mitinq Kiyevdə oldu, şəhər mərkəzində Avromaydan fəalları Leninin abidəsini uçurdular. 2013-cü il dekabrın 22-də "Maydan Xalq Birliyi" adlı ictimai təşkilat yarandı. Kiyevə eyni zamanda Avropa İttifaqının xarici məsələlər üzrə ali komissarı Ketrin Eşton gəldi, prezident Viktor Yanukoviçlə danışıqlar aparıb, ona bütün məsələlərin sülh və dinc yolla həll edilməsini tövsiyə etdi.

2014-cü ilin 12 yanvar tarixində Kiyevin Müstəqillik meydanında 2014-cü ilin ilk aksiyaları keçirildi. Həmin aksiyalarda 50 mindən 200 minə qədər adam iştirak edirdi. Müxalifət lideri Kliçko və Yasenyuk Münhen konfransında iştirak edərək, ABŞ dövlət katibi Con Kerri və Avropa ölkələrinin rəhbər nümayəndələri ilə görüşdülər. 4 fevral tarixində "Zərbə" fraksiyası lideri Vitaliy Kliçko Ali Radanı 2004-cü il Konstitusiyasına qayıtmağa çağırdı. Bu qərarı Arseniy Yasenyuk da dəstəklədi. Y.Timoşenko həbsxanadan məktub yazaraq, 2004-cü ilin Konstitusiyasına qayıtmamağı təkid etdi. Fevralın 18-də ölkədə mövcud vəziyyət daha da kəskinləşdi, "qanlı çərşənbə axşamı" adını almış hadisələr baş verdi. Avromaydanın radikal iştirakçıları ilə hüquq-mühafizə orqanları arasında Kiyevin mərkəzində Ali Radanın iclası günü toqquşma baş verdi. Burada, Avromaydanın bir neçə min silahlı fəalları da iştirak edirdi ki, onlar da milis dəstələri ilə toqquşaraq keçidə mane olan bir neçə minik və yük maşınlarını yandırdılar. Bir qrup adam Region partiyasının ofisini ələ keçirib yandırdı. Hadisə yerinə gələn yanğınsöndürən maşınlarının girişinə maneəçilik törətdilər. Hücum zamanı ofisin əməkdaşı qətlə yetirildi. Axşama doğru "Berkut" dəstələri və daxili qoşunlar onları Maydana doğru sıxışdırdılar. Gün və gecə boyunca toqquşmalar nəticəsində 25 nəfər həlak oldu, 350 nəfər yaralandı, 250-dən çox insan isə xəstəxanaya yerləşdirildi. Gecə prezident V.Yanukoviç, müxalifət liderləri Kliçko və Yasenyukun görüşündə vəziyyətin sabitləşdirilməsi yolunda hər hansı bir razılaşma əldə olunmadı. Fevralın 21-də Maydandan Viktor Yanukoviçə ultimatum verdilər ki, 22 fevral səhər saat 10-a qədər istefa verməsə, onlar silahlı hücuma keçəcəklər. V.Yanukoviç və Ali Radanın sədri Vladimir Rıbak davam edən kütləvi qarışıqlığın fonunda Kiyevi tərk etdi və Xarkova yola düşdülər. Fevralın 21-dən 22-nə keçən gecə Maydanın komendantı Andrey Parabuyun əmri ilə Maydanın özünü müdafiə qüvvələri ultimatumun bitmə vaxtını gözləmədən Ali Rada və Prezident Administrasiyasının binasını ələ keçirdilər. 22 fevralda Ali Radanın iclasında 2004-cü il Konstitusiyası və prezident-parlament idarəçilik forması bərpa olundu. Həmin gün Viktor Yanukoviç Ali Radanın qərarı ilə prezident səlahiyyətlərindən məhrum edildi. 23 fevralda Ukrayna prezidentinin vəzifələrini icra edilməsi Ali Radanın sədri Aleksandr Turçinova həvalə olundu. Fevralın 27-də müvəqqəti hökumət formalaşdırıldı və ona Arseniy Yasenyuk başçılıq etdi.

Kiyevdə hakimiyyət dəyişikliyindən sonra 2014-cü il fevralın sonu-martın əvvəllərində cənub-şərqi Ukrayna şəhərlərində hökumət əleyhinə separatçı şüarlar altında kütləvi aksiyalar başlandı. Çıxışlar Dnepropetrovsk, Donetsk, Luqansk, Xarkov və bir sıra cənub və cənub-şərqi Ukrayna şəhərlərində baş verdi. Xarkov administrasiyasının ələ keçirilməsi zamanı 68 nəfər həlak oldu. Rusiya meyilli qüvvələrə qarşı "Metallist" klubun fanatları və "Sağsektor" qruplaşmasının döyüşçüləri müqavimət göstərirdi. Odessada antimaydan mitinqinin iştirakçıları rus dilinin qanuniləşdirilməsini və ölkənin federallaşmasını tələb edirdilər. 1 mart 2014-cü ildə Rusiya Federasiyasının prezidenti Vladimir Putin Federasiya Məclisinə müraciət edərək rus qoşunlarının Ukrayna ərazisində istifadə edilməsinə icazə verilməsini tələb etdi.

Elə həmin gün, Federal Məclis rus qoşunlarını Ukrayna ərazisində istifadəsini təstiq etdi. 2014-cü ilin aprel ayında regionda silahlı qarşıdurma başladı. Ukraynanın Donetsk və Luqansk əyalətlərində hərbi əməliyyatlar aprel ayı boyunca davam etdi. 2014-cü ilin aprelində Luqansk Xalq Respublikası və Donetsk Xalq Respublikasının yaradılması elan edilmişdi. Döyüş əməliyyatları Ukraynanın silahlı qüvvələrinin və rusiya meylli separatçıların arasında gedirdi. Mariupol uğrunda, Donetskdəki hava limanı yaxınlığında döyüşlər daha şiddətli olmuşdur. 2014-cü il avqustun 28-də Ulyanovskdəki qanlı döyüşlərdə min nəfərdən çox ukraynalı əsgər öldürüldü.

Krım Muxtar Respublikasının və Sevastopol əhalisinin "Kiyevdə hakimiyyətin qeyri-qanuni dəyişdirilməsi və radikalların hakimiyyətə gəlməsinə" qarşı fevralın 23-27-də başlayan çıxışları zamanı Krım yarımadası faktiki olaraq Ukraynadan ayrıldı. 11 mart 2014-cü ildə Krım Muxtar Respublikasının və Sevastopol şəhər soveti Krım Muxtar Respublikası və Sevastopol şəhərinin müstəqilliyi haqqında bəyannamə qəbul etdi. Krım Muxtar Respublikasının separatçı rəhbərliyi tərəfindən planlaşdırılan "referendum" 2014-cü il martın 16-da təşkil olundu. Referenduma iki sual çıxarılmışdır: 1. "Siz Krımın Rusiya Federasiyasının subyekti hüququ ilə Rusiyaya birləşməsinin tərəfdarısınızmı? 2. "Siz Krım Respublikasının və Krımın Ukraynanın bir hissəsi olmasına dair statusunun tərəfdarısınızmı?". 2014-cü ilin martın 16-da keçirilən referendumda rəsmi açıqlamalara görə Krımın Rusiyaya birləşdirilməsinə Krım əhalisinin 96,77%-i, Sevastopolun 95,6%-i səs vermişdi. İlkin nəticələrin açıqlanmasından sonra Krımdakı Rusiya tərəfdarları küçələrə çıxaraq "qələbə"ni qeyd etdilər. Referendumu boykot edən Krım tatarları isə nəticələri tanımayacaqlarını elan etdilər.

Referendumun nəticələrinin açıqlanmasından sonra ABŞ və Avropa ölkələrindən rəsmi münasibət bildirildi. Ağ Evdən verilən açıqlamada referendumun nəticələrinin tanınmadığı vurğulanaraq Rusiyanın bu hərəkətinin cavabsız qalmayacağı bildirildi. Avropa Parlamenti sədri, Joze Manuel Barosso da referendumun nəticəsini tanımadıqlarını bildirərək rus əsgərlərinin Krımdan çıxmasını tələb etdi. 2014-cü il martın 18-də Krım Respublikasının Dövlət Şurasının sədri Sergey Aksyonov və Sevastopolun Həyat fəaliyyətinin təminatı və idarəsinin təşkili üzrə koordinasiya şurasının Sədri Aleksey Çalıy Rusiya Federasiyasının prezidenti Vladimir Putin ilə Krım Respublikasının Rusiya Federasiyasına qəbul edilməsi barəsində saziş imzaladı. Bunun ardınca Dövlət Duması və Federasiya Şurası Ukraynanın Krım Muxtar Respublikasının Rusiyaya birləşdirilməsinə dair qərar qəbul edərək yarımadanı Krım Respublikası olaraq Federasiyanın inzibati ərazisinə daxil etdi. Beləliklə, Rusiya 1994-cü ildə Ukraynanın müstəqilliyi ilə bağlı Budapeşt Memorandumunu imzalasa da atdığı addımla bu prinsipləri pozaraq, beynəlxalq hüquq normalarının əksinə Ukraynanın daxili işlərinə müdaxilə edərək anneksiya (ilhaq) siyasətini həyata keçirdi.

2014-cü il mayın 25-də Ukraynada keçirilən prezident seçkilərində qələbə qazanan Pyotr Poroşenko iyunun 7-də and içərək rəsmi prezident vəzifəsini yerinə yetirməyə başladı. Ukrayna prezidenti P.Poroşenko andiçmə mərasimində bildirdi ki, "Krım Ukraynanın tərkib hissəsidir və bu məsələ ilə bağlı güzəşt ola bilməz".

Müstəqil Ukrayna dövlətinin güclənməsinin və beynəlxalq nüfuzun artmasının əleyhinə olan rusiyapərəst qüvvələr ölkənin Cənubi-Şərq rayonlarında, o cümlədən Donetsk, Luqansk, Xarkov, Dnepropetrosk, Odessa kimi yerlərdə silahlanaraq muxtariyyət şüarı altında mərkəzi hakimiyyətə qarşı müharibəni genişləndirdilər.Ukraynanın Şərq rayonlarında məskunlaşan rus əhalisinin mənafeyini qorumaq adı altında Rusiya separatçı qüvvələrə hərtərəfli hərbi, maddi və mənəvi kömək edirdi. Rusiyadan aldığı müasir döyüş texnikası və mütəxəssis köməyi nəticəsində separatçılar Ukrayna hərbi hissələrinə ağır zərbələr vurdu. BMT-nin İnsan hüquqları komissiyasının məlumatına əsasən Ukraynanın Cənub-Şərqində qanlı münaqişə davam edəndən 2015-ci il martın 2-nə kimi 6 min nəfər həyatını itirb, 14,8 min nəfər isə yaralanıb. Bu elan olunmamış müharibəni dayandırmaq məqsədilə 2015-ci il fevralın 12-də Belarusun paytaxtı Minskdə Rusiya, Ukrayna, Fransanın prezidentləri və Almaniyanın kansleri görüşdü.V.Putin, P.Poroşenko, F.Olland, A.Merkel, eyni zamanda özlərini müstəqil elan etmiş Donetsk Xalq Respublikasının lideri Aleksandr Zaxarçenko və Luqansk Xalq

Respublikasının lideri İqor Plotnitski arasında bütün gecə davam edən danışıqlardan sonra saziş imzalanmışdır. Normandiya dördlüyünün imzaladığı bu sənəd 2014-cü il sentyabrın 5-də qol çəkilən I Minsk müqaviləsinin şərtlərini əsasən təkrar edirdi. Müqavilənin maddələrinə əsasən fevralın 15-dən Ukraynanın Şərq rayonlarında atəşkəs elan edilir, 14 gün ərzində ağır texnika və xarici qoşunlar döyüş bölgələrindən geri çəkilir, hər iki tərəf arasında ən azı 50 km-lik aralıq ərazi yaradılırdı. Həmçinin Ukraynanın Konstitusiyasına ölkənin şərq rayonlarına xüsusi statusun verilməsilə bağlı əlavələr edilməsi nəzərdə tutulmuşdur. Lakin reallıq ondan ibarətdir ki, razılaşmaya baxmayaraq Ukraynanın şərqində gərginlik qalmaqla davam edir və zaman-zaman bölgədən atəş səsləri eşidilir.

***Ukraynanın sosial-iqtisadi və mədəni inkişafı.*** SSRİ-nin süqutu və ölkəni bürüyən ümumi iqtisadi böhran Ukraynanın iqtisadiyyatına dağıdıcı təsir göstərdi. Ümumittifaq iqtisadi kompleksin dağılması nəticəsində müəssisələrinin 95 faizi Moskvaya tabe olan Ukraynada demək olar ki, istehsalın 80 faizinin texnoloji tamamlanması başa çatmamışdır, texnoloji cəhətdən köhnəlmiş maşın və avadanlığın 40 faizi isə yenilənməli idi.

1992-ci ilin mart ayında Ali Rada "Milli iqtisadi siyasətin əsasları" sənədini təsdiq etdi. Sənəddə iqtisadiyyatın dövlət bölməsinin ləğv edilməsi, özəlləşdirmə, sənayenin yenidən qurulub modernləşdirilməsi, rubl məkanından çıxmaq, MDB dövlətlərilə beynəlxalq qiymət sistemi əsasında qarşılıqlı ödəmə əməlyyatına keçilməsi və xarici ticarətin əsasən Qərb bazarına istiqamətlənməsi irəli sürüldü. Lakin 1992-ci ilin yazında Ukraynanın iqtisadiyyatında böhranın bütün əlamətləri göz qabağında idi, belə ki, köhnə təsərrüfatçılıq sistemi dağılmış, yeni sistem isə formalaşmamışdır. Böhran respublikanın həm sənayesini, həm də kənd təsərrüfatını əhatə edirdi. Mərkəzi hakimiyyətin dağılması ilə Müstəqil Ukraynanın Ali Radası ölkəni iqtisadi böhrandan xilas etmək məqsədilə dörd hökumət, o cümlədən 1990-cı ilin mayından oktyabrına kimi V.Masol, 1990-cı ilin noyabrından 1992-ci ilin oktyabrına kimi V.Fokin, 1992-ci ilin oktyabrından 1993-cü ilin sentyabrına kimi L.Kuçma, 1993-cü ilin sentyabrından – 1994-cü ilin iyununa kimi L.Kravçuk-Y.Zvyagilski hökumətlərini təşkil etdi. Onlar iqtisadi böhrandan çıxmaq məqsədilə yeddi proqram hazırlasalar da bunların heç biri real olaraq həyata keçirilmədi. Bunun başlıca səbəbi proqramların yarımçıq olması, adamların sosial müdafiəsinin nəzərə alınmaması, qətiyyətsiz yerinə yetirilməsi idi.

İttifaq orqanlarının süqutu, müstəqil Ukraynanın iqtisadi yolunu tapmaması nəticəsində 1990-cı ildən 1994-cü ilə kimi respublikada ümumi milli məhsul 44, sənaye məhsulunun həcmi 41, milli gəlir 54 faiz aşağı düşdü. 1993-cü ildə Ukraynada inflyasiyanın səviyyəsi dünyada ən yüksək həddə çataraq İkinci Dünya müharibəsi dövründəki göstəriciləri belə ötüb keçdi.Əhalinin əsas hissəsinin həyat səviyyəsi sürətlə aşağı düşərək onun 64 faizinin yoxsulluq həddinə çatmasına gətirib çıxardı. Əhalinin alıcılıq qabiliyyəti çox aşağı düşərək 1991-1994-cü illərdə demək olar ki, 5 dəfə azaldı.

1990-1994-cü illərdə Ukraynanın milli iqtisadiyyatının böhranlı vəziyyətə düşməsi və onun aradan qaldırılmaması qətiyyətli və təcili tədbirlər həyata keçirilməsini tələb edirdi. Belə bir addımı Ukraynanın prezidenti seçilən Leonid Kuçma 1994-cu ilin oktyabrında Ali Radaya "Radikal iqtisadi islahatların yolu" müraciətilə atdı. Bu əslində müstəqil Ukraynanın yeni sosial-iqtisadi strategiyasının konsepsiyasıdır. Bunun mahiyyəti maliyyə sabitliyindən, vergilərin azaldılmasından, bank islahatının dərinləşdirilməsindən, dövlətin nəzarəti altında qiymətlərin mərhələlərlə liberallaşdırılmasından, xüsusi bölməyə söykənən bazar iqtisadiyyatının yaradılmasından, iqtisadiyyatın idarə olunmasının mərkəzləşməsinin ləğv edilməsindən, xarici iqtisadi əlaqələrin liberallaşmasından, əmək haqqı, sosial yardım və sosial sığortada islahatdan ibarət idi.

Dövlətin sosial-iqtisadi strateji kursundan irəli gələn vəzifələrin yerinə yetirilməsinə başlandı. Eyni zamanda prezident L.Kuçma dövlətin antiböhran fəaliyyət proqramını bəyan etdi. Bunun ardınca 1996-cı ildə hökumət Ukraynanın qrivna adlı yeni milli pulun tədavülə buraxdı. XX əsrin 90-cı illərin ikinci yarısıdan milli iqtisadiyyatı təşkil edən əsas sahələr, o cümlədən pul, maliyyə, ödəmə, vergi, gömrük, bank sistemləri formalaşdı. Ukrayna dövlətinin ardıcıl və qətiyyətli iqtisadi islahatları ölkədə mülkiyyət formasının kökündən

dəyişilməsinə, iqtisadiyyatda xüsusi mülkiyyətin bərqərar olmasına səbəb oldu. Aşağı-yuxarı 6,1 milyon nəfər Ukrayna vətəndaşı torpaq payına sahib oldu ki, bu da ölkənin torpaq sahəsinin yarısından çoxunu təşkil edirdi. Həyətyanı sahələrin özəlləşdirilməsi əsasən başa çatdı, 11 milyon vətəndaş xüsusi mülkiyyətçi oldu. Yeni sosial-iqtisadi strategiyaya uyğun olaraq Ukraynada qiymət tarifinin bazar mexanizmi bərqərar oldu, xarici ticarətə liberal rejim tətbiq edildi. Bu milli iqtisadiyyatda xroniki hal alan defisit anlayışının aradan qalxmasına, bazarın malla dolmasına şərait yaratdı.

1999-cu ildə Ukraynada son onillikdə ilk dəfə olaraq iqtisadi sabitlik yarandı. Əsasən ümumi daxili məhsulun istehsalının aşağı düşməsinin qarşısını almaq mümkün oldu. Sənaye məhsulunun həcmi 4,3% artdı. Mənzil yaşayış tikintisinin həcmi isə 7,5 % artdı. Ukraynanın dövlət büdcəsinin kəsiri xeyli azaldı, inflyasiyanın səviyyəsi aşağı düşdü. 1999-cu ildə Ukrayna ilk dəfə olaraq uzanan böhrandan çıxmaq yolunda real addım ataraq rəqabətə açıq iqtisadi modelin bərqərar olmasına nail oldu.

Ukraynanın iqtisadiyyatının növbəti beş ildə yenidən qurulması proqramı Ukrayna prezidentinin 2000-ci ilin fevralında Ali Radaya "Ukrayna: XXI əsrə addım. 2000-2004-cü illərdə strateji iqtisadi və sosial inkişaf" müraciətində öz əksini tapmışdır. İqtisadi sahədə Ukraynanın qarşısında duran əsas vəzifə iqtisadi artım siyasətini həyata keçirmək idi. Əhalinin real gəlirini 1,3 -1,4 dəfə artırmaq, bir milyon yeni iş yeri açmaq, əmək təqaüdlərinin miqdarını minimum həyat səviyyəsi həddinə çatdırmaq qarşıya qoyulan konkret vəzifələr idi. Ukrayna Prezidentinin bu strateji kursuna uyğun olaraq V.Yuşşenko hökuməti "Rifah adına islahat" proqramını hazırladı, bu da 2000-ci ilin aprelində Ali Rada tərəfindən təsdiq olundu. Hökumətin gördüyü işlər sayəsində Ukraynanın iqtisadiyyatında kooperativ və özəl bölmənin genişlənməsi daha da sürətləndi. Artıq 2001-ci ilin əvvəllərində ölkədə sənaye məhsulunun ümumi həcminin 70 faizdən çoxu özəl müəssisələrin payına düşürdü. 2004-cü ildə ümumi daxili məhsul keçən illə müqayisədə 12, sənaye istehsalının həcmi 12,5, kənd təsərrüfatı məhsulu istehsalı 19,1 faiz artmışdır. 2004-cü ilin yekunlarına görə Ukrayna 198 ölkə ilə xarici ticarət əməliyyatları aparmış, bunun müsbət saldosu 3.412,4 mln ABŞ dolları olmuşdür. Ukraynada xarici ticarətin həcmi 2011-ci ildə 140,3 milyard dollar olmuşdur. Bunun 63,3 milyard dolları ixracatın, 77,0 milyard dolları isə idxal edilən məhsulun payına düşür. Ölkə əsasən elektrik avadanlığı, parça, ağac, faner və s. ixrac edir. Respublikaya elektrik daşıyıcıları, maşın və avadanlıq, kimya və neft emalı sənayesi məhsulları gətirilir. 2014-cü ilə görə Ukrayna məhsulları Rusiya, Türkiyə, Çin, Polşaya ixrac edilir. Ölkəyə Rusiya, Çin, Almaniya, Belarus məhsulları idxal olunur. 2011-ci ilin məlumatına əsasən Ukraynanın iqtisadiyyatına 60,5 milyard dollar xarici investisiya yatırılmışdır. Ukrayna investorları xarici ölkələrə 3 milyard dollar vəsait qoymuşdur.

Bu gün Ukrayna sənaye-aqrar ölkəsidir. Milli rəqabət gücünə görə 2013-cü ildə Ukrayna dünyada 84-cü yeri tutur. 2011-ci il məlumatına əsasən Ukraynanın iqtisadiyyatı ümumi məhsulun həcminə görə dünya iqtisadiyyatında 39-cu yerdə olmaqla bərabər əhalinin adam başına 7.600 ABŞ dolları düşür. 2012-ci ildə Ukraynada ümumi məhsul istehsalı 0,2 % artmışdır. Müasir Ukraynanın iqitsadiyyatında bazar münasibətləri ilə bərabər dövlətin də rolu fəaldır. Belə ki, dövlət ölkənin milli təsərrüfatının 140 iri müəssisəsinə, əsas ərzaq və yanacaq məhsulları sənayesinə nəzarət edir. 2011-ci ildə Ukraynanın 22,09 milyon nəfər əmək qabiliyyəti olan əhalisinin 7 faizi işsiz sayılırdı. Ümumdünya Bankının hesablamalarına görə Ukraynada ümumi məhsul istehsalı 2010-cu ildə 136, 2011-ci ildə 163, 2012-ci ildə 176,6, 2013-cü ildə isə artaraq 177,4 milyard ABŞ dolları təşkil etmişdir.

Ukraynanın müstəqilliyinin elan edilməsilə milli mədəniyyətin inkişafı dövlətin əsas vəzifələrindən biri oldu.1989-cu ilin oktyabrında "Ukrayna SSRİ-də dil haqqında Qanun" qəbul edildi. Qanuna əsasən ukrayna dili dövlət dili elan olundu, onun cəmiyyət həyatının bütün sahələrində fəaliyyət və inkişafı üçün şərait yarandı.

Müstəqil dövlətin sosial-iqtisadi və mənəvi inkişafını təmin etmək məqsədilə təhsil sistemində islahatlar keçirildi. Çoxsaylı litsey, gimnaziya, kollec, sənət akademiyası və universitet kompleksləri meydana gəldi. Bütün bunlar dünya birliyinə inteqrasiya olunma

şərtilə müstəqil Ukraynanın yeni təhsil modelinə tələbatından yaranırdı. Yeni təhsil modelinin əsas prinsipi tədris və təlim-tərbiyə prosesinin differensasiyası, humanistləşməsi və fərdiləşməsindən ibarət nəzərdə tutulmuşdur. 1993-cü ilin noyabrında Ukrayna hökuməti "Təhsil" ("XXI əsrdə Ukrayna") proqramını qəbul etdi. Proqramda qarşıda duran başlıca vəzifə Ukrayna təhsil sistemini Qərb təhsil nümunəsi əsasında milli adət və ənələləri nəzərə almaqla yenidən qurmaq, demokratik cəmiyyət üçün azad və bilikli, vətənsevər gənclər yetişdirməkdir. Ancaq ölkə iqtisadiyyatının böhranlı vəziyyəti təhsilin maliyyələşdirilməsini xeyli məhdudlaşdırdı. 1992-ci ildə Ukraynada təhsilin inkişafına dövlət büdcəsindən 12,6, 1994-cü ildə isə yalnız 9,5 faiz vəsait ayrılmışdır.

1999-cu ildən başlayaraq müstəqil Ukraynanın iqtisadiyyatının tədricən dirçəlməsi təhsil sahəsində də vəziyyətin müsbətə doğru dəyişilməsinə təkan verdi. 2000-ci ildə Ukraynada "12 illik orta ümumtəhsil məktəbləri konsepsiyası" irəli sürüldü. Ümumitəhsil məktəbləri şəbəkəsinin formalaşması istiqamətində dövlət hər bir vətəndaşın maneəsiz və pulsuz tam orta təhsil almaq hüququnu konstitusiyada göstərildiyi kimi təmin edir. Ukraynanın ümumtəhsil məktəbləri təhsil səviyyəsinə uyğun olaraq üç dərəcəyə bölünür. Birinci dərəcə ibtidai məktəblərə, ikinci dərəcə əsas məktəblərə və nəhayət üçüncu dərəcə yuxarı məktəblərə bölünür ki, onlar da bir yerdə və ya ayrı-ayrı fəaliyyət göstərə bilərdi.

Maliyyə vəsaitinin çatışmazlığı üzündən birinci onillikdə elm və ali təhsil sahəsində böhran vəziyyətinin yaranmasına zəmin hazırlandı. Bir çox alim və elmi-pedoqji işçi xarici ölkələrə üz tutdu ki, bunun da sayəsində ölkə əsaslı elmi mövqelərinin böyük bir hissəsini itirdi, Qərbin elmi səviyyəsindən geri qalmağa başladı. Düzdür, XXI əsrin əvvəllərindən başlayaraq Ukrayna dövləti elm və mədəniyyətə daha çox maliyyə ayırdı, mədəniyyət işçilərinin əmək haqqını artırdı. Məsələn, 2005-ci ildə 2004-cü illə müqayisədə dövlət büdcəsində mədəniyyət sahəsinə 1,5 dəfədən çox vəsait ayrıldı, müvafiq dövrdə mədəniyyət işçilərinin əmək haqqı 35% artdı.

2005-ci ilin mayında Ukrayna Boloniya təhsil prosesinə qoşularaq Avropa dövlətləri ilə təhsil əməkdaşlığını daha da dərinləşdirdi. 2007-2008-ci tədris ilində Ukraynanın ali təhsil müəssisələri test üsulu ilə qəbul imtahanları təşkil etdi. Dövlətin gördüyü tədbirlər nəticəsində müstəqil Ukraynada təhsilin şəbəkəsi və keyfiyyəti gündən-günə artıb təkmilləşir. 2011-ci ildəki rəsmi məlumatlara əsasən Ukraynada 83 dövlət, 3 minə yaxın özəl ali məktəb fəaliyyət göstərir. Taras Şevçenko adına Kiyev Milli Universiteti, Ukrayna Milli Texniki Universiteti, Kiyev-Mogilyan Akademiyası və d. onların içərisində xüsusi yerə malikdir. 2007-2008-ci tədris ilində Ukraynanın 930 dövlət peşə-texniki tədris müəssisələrində 530 ixtisas üzrə peşəkar kadrlar hazırlanırdı. Xüsusi mülkiyyət formasına aid olan peşə-texniki məktəblərinin sayı 738-ə, onlarda təhsil alan şagird kontingenti isə 100 min nəfərə çatırdı. 2014-cü ilin sonuna olan rəsmi malumata əsasən Ukraynada əhalinin 50 faizi internet istifadəçisidir. Müstəqil respublikada səhiyyə şəbəkələri gündən-günə genişlənir. Belə ki, əhalinin hər 3472 nəfərinə bir həkim, 1667 nəfərinə isə 1 xəstə çarpayısı düşür. Əhalinin 80 %-i keyfiyyətli içməli su ilə təmin olunmuşdur.

Müstəqil Ukrayna dövləti mədəniyyət, təhsil və incəsənətə getdikcə daha çox diqqət ayırırdı. 2005-ci ilin aprelində Ali Rada "Ukraynada mədəniyyət siyasəti, prioritetlər, prinsiplər və onların reallaşması" mövzusunda dinləmə təşkil etdi. Qədim mədəniyyət abidələrinin, ağac və daşdan olan kilsə memarlıq tikililərinin hifz edilməsi, turizmin inkişafı, Ukraynanın Avropa Şurası və Avropa İttifaqının proqram və layihələrində iştirakı, Ukraynanın məlumat və mədəniyyət şəbəkələrinin xaricdə genişlənməsi müzakirənin əsas mövzuları idi. Ədəbiyyat sahəsində Ukrayna Milli Yazıçılar İttifaqı, Ukrayna Regionlararası Yazıçılar İttifaqı, Ukrayna Ədiblər Konqresi, Ukrayna Yazıçılar Assosiasiyası səmərəli fəaliyyət göstərirdi.

Müstəqil Ukraynanın musiqi, teatr və incəsənəti bütün çətinlikləri aradan qaldıraraq irəliləməkdə davam edir. Milli ənənələrlə müasirliyi birləşdirən musiqi ölkədə daha geniş yayılmışdır. "Drevo", "Vlastelin","Bojiçi", "Buttya" kimi ansambılların şöhrəti geniş yayılmışdır. Ukraynanın populyar musiqisi bütün dünyada səslənir. Uopli Vidoplyasova, Okean

Elza, Tartak, Ruslana bu musiqi sahəsinin aparıcı nümayəndələridir. Onların Avropa və dünya miqyasında təmsil olunmalarının konkret misalı 2004-cü ildə “Avroviziya” yarışmasında ukraynalı müğənni Ruslananın qalib gələrək birinci yerə sahib olmasıdır. “Şedrik” Kiyev uşaq xoru isə Romada keçirilən özfəaliyyət kollektivlərinin festivalında iki nominasiyada qalib gələrək laureat adını qazandılar. Ölkənin mədəni həyatında mühüm hadisələrdən biri V.Qorovtsanın xatirəsinə həsr edilən gənc pianoçuların beynəlxalq konkursudur. Ukraynalı bəstəkar Miroslav Skorikin başçılıq etdiyi jüri artıq 10 ildən çox təkrar edilən bu möhtəşəm musiqi şənliyində 2005-ci ilin aprelində 26 ölkənin 98 nümayəndəsi arasında qalibləri müəyyən etməli idi. İddiaçılar isə 9 yaşından 33 yaşına kimi olan, dünyanın bir çox ölkəsindən gələn gənc pianoçular idi. Görkəmli opera müğənniləri V.Lukyanets, A.Koçerqa, V.Pyatniçka və b. bütün dünyada şöhrət qazanmışdır.

Müstəqil Ukraynanın mədəniyyətinin başqa sahələrində olduğu kimi milli kino sənayesində də işlər bir sıra çətinliklərlə bağlıdır. Kinoteatrların və televiziya kanallarının amerikan kino sənayesinin məhsulları ilə dolub-daşması adamların yaddaşında doğma kino anlayışını sıxışdırırdı. Lakin tədricən dövlət yerli kinofilmlərin çəkilməsinə diqqəti artıraraq bu sahədə vergiləri xeyli azaltdı, yerli kino sənayesinə investisiya qoyuluşuna və kredit açmağa kömək etdi, bu işə xarici filmlərin açılışından əldə olunan gəlirin bir hissəsini yönəltdi. Tədricən yerli kinofilmlərin sayı və onların keyfiyyəti artmağa başladı. Rejisor V.Kristovoviçin “Ölünün dostu” bədii filmi müasir Ukrayna kinosunun ən gözəl nümunələrindən biridir. Təbii olaraq bu gün Ukrayna rejisorlarının çəkdiyi kinofilmlər Kann və Berlin film kinofestivallarında böyük rəğbət qazanır. 2007-ci ildə Ukraynada bədii və sənədli film ənənələrini dirçəltmək məqsədilə “Şabalıd ev” festivalı, Andrey və Arseni Tarkovskilər mükafatı təsis edilmişdir.

Ukrayna tarixinin son onillikləri dini fəaliyyətin fəallaşması ilə bağlıdır. 80-ci illərin sonunda Ukrayna yunan-katolik kilsəsinin fəaliyyəti leqallaşdırıldı. Ukrayna pravoslav kilsəsi yenidənqurma şəaritində parçalanaraq üç konfesiyaya bölündü. Birinci konfesiya demək olar ki, 8.5 min icmanı birləşdirən Moskva patriarxlığının Ukrayna pravoslav kilsəsidir. İkinci konfesiyaya təqribən 2.5 min icmanın daxil olduğu Kiyev patriarxlığının Ukrayna pravoslav kilsəsidir. Üçünçü konfesiya isə aşağı yuxarı 1000 icmanı birləşdirən Ukrayna aftokefal pravoslav kilsəsi hesab olunur.

Bu parçalanma eyni zamanda cəmiyyətin birliyinə və Ukraynada dini qarşıdurmalara, münaqişələrə səbəb olub. Odur ki, hazırda dindarların çoxu və ilahiyyatçılar Ukraynada vahid pravoslav kilsəsinin yaradılmasına səy göstərir. Ukrayna əhalisi arasında protestantlıq, iudaizm və islam da yayılır. Ukraynada 105 dini birlik fəaliyyət göstərir ki, onlar arasında da ünsiyyət və əlaqəni kilsə və dini təşkilatların Ümumukrayna Şurası nizamlayır.Vicdan azadlığı müstəqil Ukrayna həyatının əsas elementlərindən biridir. Dövlət çalışır ki, bütün konfessiyaların nümayəndələri cəmiyyət həyatının bərabərhüquqlu iştirakçısı kimi fəaliyyət göstərsin.

***Xarici siyasət.*** Ukrayna dövlət müstəqilliyi haqqında Aktı bəyan etdikdən sonra beynəlxalq münasibətlərin bərabərhüquqlu subyekti oldu. 1991-ci il dekabrın 5-də Ümumukrayna referendumundan sonra Ali Rada dünya parlamentləri və xalqlarına müraciət edərək bildirdi ki, Ukrayna BMT-nin məqsəd və prinsiplərinə uyğun olaraq öz xarici siyasətini dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, beynəlxalq hüququn prinsiplərinə əməl edilməsinə yönəldir. Başlıca məsələ dünya birliyinin Ukrayna dövlətini tanıması idi. 1991-ci il dekabrın 2-də birinci olaraq Polşa və Kanada, dekabrın 3-də Macarıstan, dekabrın 4-də Latviya və Litva, dekabrın 5-də Argentina, Bolqarıstan, Boliviya, Rusiya və Xorvatiya Ukraynanı tanıdı. Ümumən bir ay müddətində 57, 1992-ci ilin sonuna kimi 132 dövlət, bu gün isə demək olar ki, bütün dünya dövlətləri Ukraynanı tanıyır.

Ukrayna dövlətinin xarici siyasətinin əsas prinsipləri 1990-cı il dövlət suverenliyi haqqındakı Bəyannamədə, Ali Radanın 1993-cü il “Ukraynanın xarici siyasətinin əsas istiqamətləri” normativ aktında və 1996-cı il Ukrayna Konstitusiyasında əks olunmuşdur. Bunlar, başqa dövlətlərin daxili işlərinə qarışmadan onlarla qarşılıqlı fayda və bərabərlik əsasında

əməkdaşlıq, hərbi bloklarda iştirakdan imtina, nüvə silahından azad olmaq prosesində iştirak etmək, beynəlxalq hüququn aliliyini qəbul etmək və dünyadakı mövcud sərhədlərin tanınmasından ibarətdir.

Müstəqil Ukrayna öz xarici siyasət konsepsiyasına uyğun olaraq beynəlxalq təşkilatlara üzv olmağa başladı. Tezliklə beynəlxalq qurumların qapısını bir-bir açan Ukrayna artıq 40-dan çox beynəlxalq və hökumətlərarası təşkilatların üzvü oldu. Ukraynanın xarici işlər naziri Gennadi Udovenko BMT Baş Məclisinin sədri olmuşdur. 2000-2001-ci illərdə Ukrayna BMT Təhlükəsizlik Şurasının daimi olmayan üzvü funksiyasını yerinə yetirmişdir. 2001-ci ilin martında Ukrayna BMT Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edirdi.

1995-ci il noyabrın 9-da Ukrayna Avropa Şurasının üzvü oldu. Ukrayna nümayəndələrinin Avropa Şurasının Parlament Assambleyasının iclaslarında iştirakı Ukraynada demokratiya və hüquq normalarının möhkəmlənməsində əhəmiyyətli rol oynadı. 2001-ci ilin yanvarında Avropa Parlamenti Ukraynada azad söz mövzusunda dinləmə təşkil etmişdir. Ukraynanın Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığı ölkənin təhlükəsizliyi üçün təminat olmasına, onun müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə Rusiya, ABŞ, Böyük Britaniyanın hörmətlə yanaşmasına şərait yaratdı.

1997-ci ilin yayında Madriddə Ukrayna Şimali Atlantika Müqaviləsi Təşkilatı, yəni NATO ilə xüsusi tərəfdaşlıq haqqında Xartiya imzaladı. Avroatlantik Şurası tərəfdaşlığının təsisçi ölkəsi kimi Ukrayna “Sülh naminə tərəfdaşlıq” proqramının fəal iştirakçısıdır. Ukrayna və NATO ölkələri vaxtaşırı regional təhlükəsizlik məsələləri üzrə, münaqişələrin aradan qaldırılması, hərbi təhsil almaq sahəsində birgə çalışırlar.

Ukraynanın xarici siyasət xəttinin mühüm istiqamətlərindən biri də Rusiya Federasiyası və MDB ilə olan münasibətlərdir. Ukrayna ilə Rusiya arasında həm MDB-yə münasibət, həm də NATO-nun Şərqə doğru genişlənməsi məsələsində ciddi fikir ayrılığı mövcud olmuşdur. Ukrayna MDB-nin öz hakimiyyət və idarəetmə orqanları ilə dövlət üzərində qurum olmasının əleyhinədir. Ukrayna belə hesab edir ki, dövlətlər arasında ikitərəfli əməkdaşlıq əsasında münasibətlərin qurulması daha əlverişlidir, MDB isə, ilk növbədə ticarət-iqtisadi əlaəqlərin inkişafına fikir verməlidir. 1994-cü ildə Ukrayna MDB çərçivəsində iqtisadi ittifaqa assosiativ üzv oldu. Bu addım Ukraynanın maraqları daxilində münasibətləri milli mənafeyə və mövcud qanunçuluğa ziyan vurmadan qaydaya salmağa imkan verir. Rusiya Federasiyası isə çalışır ki, MDB-ni milli səlahiyyətlər üzərində bir quruma çevirsin.

Ukrayna eyni zamanda hesab edir ki, Şimali Atlantika Müqaviləsi Təşkilatına münasibət, onun tərkibinə daxil olmaq hər bir suveren dövlətin daxili işidir. Ancaq Ukrayna NATO-ya daxil olan dövlətin ərazisində nüvə silahı yerləşdirilməsinin əleyhinədir. Rusiya isə vaxtı ilə SSRİ-nin nüfuz dairəsində olan dövlətlərin NATO-ya daxil olmasının əleyhinədir.

1996-cı ildə Avstriyada xarici işlər nazirlərinin konfransında Ukrayna qonşu dövlətlər, Polşa, Slovakiya, Belarusiya, Ruminyanın daxil olduğu Mərkəzi Avropa Təşəbbüsünün üzvü qəbul edildi. Ukraynanın bu təşkilatda iştirakı nəqliyyat, rabitə, energetika, ətraf mühit və ekoloji təhlükəsizlik, elm və texnika, kənd təsərüfatı, statistika, məlumat, mədəniyyət kimi sahələrdə əməkdaşlığın genişləndirilməsinə şərait yaradır. Ukrayna-Polşa əlaqələri dinamik inkişaf edir. 1997-ci ilin yanvarında Ukraynanın prezidenti L.Kuçma Polşada rəsmi səfərdə olarkən ikitərəfli ticarətin liberallaşdırılması üzrə tədbirlərə dair Memorandum imzalamışdır. 1998-ci ilin avqustunda Polşanın prezidenti A.Kvasnevski Ukraynada rəsmi səfərdə olmuşdur. 1997-ci ildə Ukrayna ilə Rumıniya arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluğa dair Müqavilə imzalanmışdır. Düzdür Qara dənizdə olan adaya iddiası üzündən Rumıniya tərəfi ərazi problemini hələ də həll olunmamış hesab edirdi.

Getdikcə Ukraynanın xarici siyasətində ABŞ-la əlaqələr ön plana çıxmışdır. Nəzərə almaq lazımdır ki, SSRİ ərazisinin cəmi 2,6 faizini təşkil edən Ukraynada keçmiş İttifaqın nüvə ehtiyyatının 40 faizi cəmləşmişdir. Odur ki, ABŞ-Ukrayna münasibətlərinin inkişafında Ukraynanın böyük nüvə potensialından azad olması əhəmiyyətli rol oynadı. 1994-cü ilin yanvarında Moskvada Ukrayna, Rusiya və ABŞ arasında bağlanan sazişdə Ukrayna 7 il ərzində bütün nüvə başlıqların Rusiya ərazisinə köçürməyi öhdəsinə götürmüşdür. 1994-cü

ilin sonunda Budapeştdə Ukrayna, Rusiya, ABŞ və Böyük Britaniya dövlət başçıları Ukraynanın təhlükəsizlik təminatı haqqında Memorandum imzaladılar. Lakin bu memorandumun şərtləri yuxarıda qeyd olunduğu kimi 2014-cü ildə Ukraynanın tərkib hissəsi olan Krımın Rusiya Federasiyasına ilhaq edilməsi ilə kobud surətdə pozulmuşdur.

1995-ci ilin mayın 11-12-də ABŞ prezidenti B.Klinton rəsmi olaraq Kiyevə səfər etdi. 1996-cı il sentyabrın 19-da Ukrayna ilə ABŞ arasında əməkdaşlıq üzrə Dövlətlərarası komissiya yaradıldı. Ukraynanın prezidenti L.Kuçma və ABŞ-ın vitse-prezidenti A.Qor bu komissiyanın rəhbərləri təsdiq edildilər. Bu komissiyanın təşkil olunması ölkələr arasında milli təhlükəsizlik, xarici siyasət, ticarət və investisiya sahəsində qarşılıqlı fəaliyyətə şərait yaradır. 2000-ci ilin iyununda ABŞ-ın prezidenti B.Klinton Ukraynaya səfərə gələrkən bir sıra məsələlər, o cümlədən Avropanın təhlükəsizliyindən ətraf mühütün mühafizəsinə kimi olan işlər müzakirə olundu. ABŞ prezidenti Ukraynada kiçik və orta biznesin inkişafına yardım etməyi vəd verdi. ABŞ prezidenti Ukraynanın Xəzər regionundan dünya bazarlarına açılan "Şərq-Qərb" enerji dəhlizində iştirakını müdafiə etdiklərini bildirdi.

2002-ci ilin mayında Ukrayna özünün Avropa seçimini elan etdi ki, bu yolda çox çətin və mürəkkəb idi. Bunun üçün Avropa standartlarına cavab verən inkişafı təmin etmək məqsədilə islahatları həyata keçirmək tələb olunurdu. 2002-ci ilin iyulunda "Ukrayna-AB" sammitində Ukraynanın bazar iqtisadiyyatlı dövlət statusu və AB-yə assosiativ üzv olmaq məsələsi müzakirə edildi. Sammitin gedişində qeyd olundu ki, Ukrayna hələlik AB standartlarına cavab vermədiyi üçün 2004 və 2007-ci illərdəki AB üzv qəbul edilən ölkələr siyahısına daxil edilmir. Buna baxmayaraq Ukrayna 2003-cü ildə "AB-nin qonşu ölkəsi" statusunu aldı.

ABŞ-ın dəstəyini almaq məqsədilə Ukrayna hökuməti 2003-cü ildə Küveyt və İraqa hərbi kontingent göndərdi. Bu aksiya ölkədə birmənalı qarşılanmadı, əməliyyatlar nəticəsində Ukrayna hərbçiləri 18 adam itirdi. Ukrayna bir tərəfdən Avropa Birliyi ilə inteqrasiyanı davam etdirir, başqa bir tərəfdən Şərq ölkələri ilə əlaqələri artırırdı. 2003-cü ilin ortalarında Rusiya, Ukrayna, Belarus, Qazaxıstan vahid iqtisadi məkanın yaradılmasına dair saziş imzaladılar.

2005-ci ildə Ukraynada prezident seçkilərindən sonra dövlət başçısı olan V.Yuşşenko xarici siyasətdə Avropa ilə inteqrasiya kursunu bəyan etdi. Ölkə qarşısında bazar iqtisadiyyatlı dövlət statusu almaq və Ümumdünya Ticarət Təşkilatına üzv olmaq imkanı açıldı. Ukrayna-Aİ-na üzv olmaq üçün müraciət etdi. 2006-cı ilin oktyabrında Helsinkidə baş tutan "Ukrayna Aİ" sammitində Finlandiyanın baş naziri, Avropa Şurasının başçısı Matti Vanhanen əmin etdi ki, Aİ 2007-ci ildə Ukrayna ilə yeni formatda danışıqlara başlamağa hazırdır. Bu şərtlə ki, azad ticarət forması tərtib edilən sənədin əsas elementi olmalıdır. Bunun üçün isə Ukrayna, ilk növbədə Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməlidir. Bu planların həyata keçirilməsi ciddi əmək tələb edirdi.

Ukrayna ilə Avropa İttifaqı arasında assosiyasiya haqqında saziş bağlanmasına dair danışıqlar 2007-ci ildə başlayıb, 2011-ci ildə qəbul haqqında yeni sənədin imzalanması ilə başa çatmışdır. 2012-ci il martın 30-da razılaşdırılan sənəd Ukrayna və Avropa İttifaqının nümayəndə heyətinin rəhbərləri tərəfindən paraflanmışdır. Avropa İttifaqı ilə Ukraynanın assosiasiyası haqqında razılaşdırılmış sənəd siyasət, ticarət, mədəniyyət və təhlükəsizlik sahəsində Ukrayna ilə Avropa İttifaqı arasında inteqrasiyanın dərinləşməsini nəzərdə tuturdu. Lakin Ukrayna hakimiyyəti eyni zamanda həm də Rusiyanın rəhbərlik etdiyi Avrasiya İqtisadi Birliyinə üzv olmaq üçün danışıqlar aparırdı, bu isə Aİ-nın qanunlarına zidd idi, ona görə ki, eyni zamanda hər iki quruma daxil olub gömrüksüz ticarət əlaqəsi saxlamaq mümkün deyildi. Odur ki, 2013-cü ilin yayından başlayaraq Ukrayna-Rusiya münasibətləri gərginləşməyə başladı.

Ümumiyyətlə, zaman-zaman Ukrayna ilə Rusiya arasında Rusiyanın Ukrayna və Avropaya qarşı təzyiq vasitəsi kimi istifadə etdiyi təbii qaz tranzitinə görə dəfələrlə kəskin anlaşılmazlıqlar olmuşdur. Ən kəskin 2009-cu ildəki "qaz böhranı" nəticəsində 18 Avropa dövləti qışın soyuğunda qazsız qalmışdır. Yalnız Ukraynanın o zamankı Baş naziri Y.Timoşenko V.Putinlə görüşdükdən sonra böhranı aradan qaldırmaq mümkün olmuşdur.

Növbəti dəfə Ukraynadakı hadisələrin gedişindən narazı qalan Rusiya 2014-cü ilin iyununda Ukraynanın 3,1 milyard dollar borcunun ödəmədiyini bəhanə edərək qaz verilməsini dayandırmışdır. Buna cavab olaraq Ukrayna tərəfi də tranzit keçidi bağladı. 2014-cü ilin oktyabrında Brüssel görüşündən sonra növbəti "qaz böhranını" nizama salmaq mümkün olmuşdur.

2013-cü ilin noyabrında Viktor Yanukoviçin başçılıq etdiyi Ukrayna hakimiyyətinin Rusiyanın təzyiqi altında Avropa İttifaqı ilə assosiasiya müqaviləsini imzalamaması Ukraynada kütləvi etiraz aksiyası ilə müşayiət olundu. Nəticədə yuxarıda ətraflı bəhs edildiyi Ukraynada hakimiyyət dəyişikliyi baş verdi və Krım yarımadası Rusiya Federasiyası tərəfindən ilhaq edildi. Eyni zamanda Ukraynanın şərqindəki rusiya meylli qüvvələr Rusiyanın hərtərəfli köməyi ilə 2014-cü il mayın 25-də Ukraynanın yeni prezidenti seçilən Pyotr Poroşenkonun hakimiyyətinə qarşı silahlı mübarizəyə başladılar. 2015-ci ilin sonuna olan məlumata əsasən Ukraynanın şərqindəki silahlı toqquşmalarda 20 min nəfərdən çox hərbi və mülki şəxs ölüb və ya yaralanmışdır. Dünya birliyinin səylərinə baxmayaraq bu gün də bölgədə qarşıdurma davam edir.

Ukrayna xarici siyasət xəttində bloklardan kənar statusunu elan etsə də NATO ilə fəal əməkdaşlıq edir. 2002-ci ildən NATO ilə fərdi tərəfdaş planı olan Ukrayna 2005-ci ildən Alyansla fəal müzakirələr aparırdı. 2013-cü ildəki mövqeyinə görə Ukrayna yeganə dövlətdir ki, tərəfdaş kimi Şimali Atlantika Alyansının bütün əməliyyatlarında iştirak edir və ona Alyansa daxil olmaq imkanı tanınır.Əvvəllər isə 1991-ci ildən 2014-cü ilə qədər Ukrayna MDB-nin təsisçilərindən biri və üzvü olmuşdur. 2013-cü ildə Ukraynaya AİB-nə müşahidəçi statusu ilə üzv olmaq hüququ tanınmışdır. 2014-cü il sentyabrın 16-da Ukraynanın Ali Radası və Avropa parlamenti video əlaqə vasitəsilə Ukrayna ilə Aİ arasında assosiasiya haqqında sazişi parafladılar. Ukraynanın prezidenti Pyotr Poroşenkonun qeyd etdiyi kimi, "Bu Ukraynanın Avropaya doğru qəti və dönüşü olmayan seçimidir". 2014-cü il sentyabrın 16-da Ukrayna ilə Avropa İttifaqı arasında imzalanmış ortaqlıq müqavilәsi tərəflər arasında dərin siyasi iş birliyinə, iqtisadi əməkdaşlığa və bazarda sərbəst hərəkət etmək imkanına şərait yaratmışdır. Hər iki tərəf sazişin mübahisəli maddələrinin 2016-cı ilə kimi qüvvəyə minməməsi haqqında razılığa gəlmişdir. Saziş Ukraynanın Aİ-na üzvlüyü üçün əhəmiyyətli addımdır.

Ukraynanın prezidenti Pyotr Poroşenko ilk xarici səfər çərçivəsində 2014-cü il iyunun 3-də Polşanın paytaxtı Varşavada ABŞ prezidenti Barak Obama ilə görüşmüşdür. Rəsmi Vaşinqton bir daha Ukrayna dövlətinin yanında olduğunu nümayiş etdirərək ölkənin ərazi bütövlüyünün pozulmasını pislədi. ABŞ Ukraynanın bir hissəsi hesab etdiyi Krımın zorla Rusiyaya ilhaq edilməsilə bağlı bu ölkəyə tətbiq etdiyi sanksiyaları sərtləşdirməyi nəzərdə tutduğunu ifadə etdi.

2014-cü il iyunun 4-də Brüsseldə toplaşan dövlət və hökumət başçılarının G 7 zirvəsində də Rusiyanın Ukraynanın suverenliyi və ərazi bütövlüyünü pozması kəskin tənqid olunaraq vəziyyəti normallaşdırmaq məqsədi ilə bir sıra konkret tələblər irəli sürülmüşdür. 2014-cü ilin iyulunda Rusiyaya qarşı bank, silah və neft şirkətlərini əhatə edən yeni sanksiyalar tətbiq olunmuşdur. Rusiya isə, öz növbəsində, ona sanksiya tətbiq edən ölkələrdən ət, balıq, meyvə, tərəvəz, süd məhsulları idxalına məhdudiyyət qoymuşdur. Sanksiyaların iqtisadi təsiri ağır olsa da onun siyasi nəticəsi görünmür. Analitik Z.Bjezinski vəziyyətdən çıxış yolunun kompromis olduğunu ifadə edərək bildirmişdir ki, Rusiya Krımı zəbt etmək kursundan imtina etməlidir, Qərb Ukraynanı NATO-ya daxil etmək məqsədinin olmadığına rusları inandırmalıdır.

## Müstəqil Belarus dövləti 1991-2015-ci illərdə

***Müstəqil Belarus dövlətinin yaranması.*** 80-ci illərin ortalarında 15 müttəfiq respublikanın, o cümlədən Belarusiyanın daxil olduğu SSRİ-də 270 milyondan çox insan yaşayırdı ki, onlar da 100-dən çox millət və xalqları təmsil edirdi. Ölkə rəhbərliyinin rəsmi iddiasına görə SSRİ-də prinsip etibarı ilə milli məsələ həll edilmişdir, respublikalar isə faktiki olaraq

siyasi, sosial-iqtisadi və mədəni cəhətdən bərabər səviyyəyə çatmışdır. Ancaq rəsmi nöqteyi-nəzərdən fərqli olaraq ölkədə milli münasibətlər sahəsində çoxsaylı ziddiyyətlər mövcud idi. M.S.Qorbaçovun elan etdiyi aşkarlıq şəraitində bu ziddiyyətlər açıq münaqişələrə çevrildi. Bütün xalq təsərrüfatı kompleksin bürüyən böhran millətlərarası gərginliyi daha da dərinləşirdi.

Mərkəzi dövlət hakimiyyətinin iqtisadi çətinlikləri aradan qaldıra bilməməsi respublikalarda narazılığı daha da artırdı. 1986-cı il aprelin 26-da Çernobıl AES-da baş vermiş qəzanın ətraf mühiti çirkləndirməsi ekoloji şəraiti çıxılmaz vəziyyətə salmışdır. Əvvəllər olduğu kimi bu məsələlər də mərkəzi İttifaq orqanları yerli respublikaların tələbatına lazımi qaydada cavab verə bilmir, onlarla lokal məsələlərin həllində mərkəzin diktəsi vasitəsilə danışırdılar. Buna cavab olaraq yerlərdəki narazı qüvvələr yeni siyasi partiya və hərəkatların, xalq cəbhələrinin ətrafında birləşərək öz respublikalarının SSRİ-dən çıxması uğrunda mübarizə aparırdılar. Mərkəzi dövlət hakimiyyəti ölkədə milli və etnik zəmində yaranan münaqişələri və milli respublikalarda artan müstəqillik hərəkatını aradan qaldırmaq iqtidarında deyildir.

1986-cı ildə milliyətcə rus olan G.Kolbinin Qazaxıstan KP MK-nın birinci katibi təyin edilməsi respublikada ruslaşdırma siyasətinə qarşı kütləvi mitinq və nümayişlərin başlanmasına səbəb oldu. Baltikyanı respublikalarda, Ukrayna və Belarusiyada mərkəzi İttifaq hakimiyyətinə qarşı narazılıqlar açıq forma kəsb etdi. Xalq cəbhələrinin başçılıq etdiyi ictimaiyyət 1939-cu il sovet-alman müqaviləsini, Baltikyanı dövlətlərindən, Ukrayna və Belarusiyanın qərb rayonlarından kollektivləşdirmə zamanı əhalinin deportasiya edilməsi, repressiya qurbanlarının Belarusiyanın Kuropata adlanan hissəsində kütləvi məzarlıq haqqında sənəd və məlumatları dərc etməyi tələb edirdilər. 1988-ci ildə əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağa iddiası üzündən Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar başladı. Fərqanədə özbəklərlə məshəti türkləri arasında silahlı toqquşma baş verdi. Qazaxıstanın Novıy Uzen mərkəzində millətlətarası qarşıdurma yarandı. Bütün bu münaqişələr saysız-hesabsız qaçqınların meydana gəlməsinə gətirib çıxardı. 1989-cu ilin aprelində Tiflisdə müstəqil Gürcüstan və demokratik islahatlar keçirilməsi tələbi ilə kütləvi nümayişlər başladı. Gürcüstanın Abxaziya Muxtar Respublikasının abxaz əhalisi Gürcüstanın tərkibindən çıxmaq və ölkələrinin statusuna yenidən baxılması tələbilə kütləvi nümayişə başladılar.

1988-ci ilin noyabrında Estoniya SSR-in Ali Soveti SSRİ qanunlarını Estoniya ərazisində dayandırmaq hüququna malik olduğuna dair qərar qəbul etdi. SSRİ Ali Soveti bu qərarı qanunsuz hesab etdi. 1988-ci ildə Estoniya, Latviya, Litvada meydana gələn Xalq cəbhələri bu respublikaların dövlət müstəqilliyinin bərpası uğrunda fəaliyyətə keçdilər.1988-ci ilin noyabrında Estoniya SSR-in Ali Sovet Estoniyanın dövlət suverenliyinə dair Bəyannaməni təsdiq etdi. Bunun ardınca Litva, Latviya, Azərbaycan SSR 1989-cu ildə, Moldova SSR isə 1990-cı ildə oxşar Bəyannamələr qəbul etdilər. Öz suverenliyini elan etdikdən sonra bu respublikalar dövlət başçısı olan prezidentlərini seçdilər.

Belarusiyada kommunist rejiminə qarşı Zenon Poznyakın rəhbərliyi altında 1989-cu ildə yaranan Xalq Cəbhəsi mübarizə aparırdı. Respublikanın müstəqilliyi şüarı ilə yola çıxan Xalq Cəbhəsi bütün müxalifət qüvvələrin öz siyasi rəhbərliyi altında birləşdirilmişdir. Belarusiyadakı milli dirçəliş hərəkatının ideya rəhbəri isə Vasili Bıkov idi.

Milli respublikalarda, o cümlədən Belarusiyada müstəqillik uğrunda hərəkatın artdığı bir vaxtda 1990-cı il iyunun 12-də RSFSR-in I Xalq deputatları qurultayı Rusiyanın dövlət suverenliyi haqqında Bəyannamə qəbul etdi. Bəyannamə respublikanın qanunlarının ittifaq qanunlarından üstün olduğunu təsbit etdi. RF-nın ilk prezidenti B.N.Yeltsin, vitse-prezidenti A.V.Rutskoy seçildi.

Suverenlik haqqında ittifaq respublikaların qəbul etdiyi bəyannamələr Sovet İttifaqının gələcəkdə mövcud olub-olmaması məsələsin siyasi həyatın ilk sırasına yerləşdirdi.1990-cı ilin dekabrında SSRİ-nin IV Xalq deputatları qurultayı SSRİ-nin demokratik federativ dövlətlər birliyi kimi saxlamağı irəli sürdü. Qurultay "İttifaq müqaviləsinin ümumi konsepsiyası və onun bağlanması qaydaları haqqında" qətnamə qəbul etdi. Qurultayın qətnaməsinə uyğun olaraq yenilənmiş ittifaqın müstəqil respublikaların federasiyası kimi saxlanılmasına dair refe-

rendum keçirildi. Referendumda iştirak edənlərin 76,4 faizi yenilənmiş SSRİ-nin saxlanılmasına "bəli" dedi.

1991-ci ilin aprel-may yalarında Novo-Oqaryovadakı prezident iqamətgahında SSRİ-nin birinci və sonuncu prezidenti M.S.Qorbaçovun 9 ittifaq respublikasının başçısı ilə yeni ittifaq müqaviləsinə dair danışıqları keçirildi. Bütün iştirakçılar bərabərhüquqlu sovet suveren respublikaların demokratik federasiyaya daxil olaraq Suveren Dövlətlər İttifaqını yaratmağı təstiq etdilər. Bu layihə hakimiyyət orqanları və idarəetmədə ciddi dəyişikliklər nəzərdə tutur, həmçinin seçki sisteminin dəyişdirilməsi və yeni Konstitusiyanın qəbul edilməsini irəli sürürdü. Müqavilənin imzalanması 1991-ci ilin avqustun 20-nə təyin olunmuşdur.

Yeni ittifaq müqaviləsi layihəsinin mükazirəsi cəmiyyətdəki parçalanmanı daha da dərinləşdirdi. Avqustun əvvəllərində M.S.Qorbaçov Krımdakı yeni inşa edilən Foros iqamətgahında istirahətə getdi. Bu vəziyyətdən istifadə edən bir qrup partiya və dövlət funksiyaçısı SSRİ-ni dağılmaqdan xilas etmək məqsədilə son bir cəhd etdi. 1991-ci ilin avqustun 19-da yeni hakimiyyət orqanı – Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaradıldı. Onun tərkibinə vitse-prezident G.İ.Yanayev, Baş nazir V.S.Pavlov, DTK-nin sədri V.A.Kryuçkov, Müdafiə naziri D.T.Yazkov, Daxili İşlər naziri B.K.Puqo və b. daxil idi. Onlar səhhətinə görə M.S.Qorbaçovun vəzifəsindən uzaqlaşdırıldığını, ölkədə 6 aylıq fövqəladə vəziyyət elan edildiyini, mitinq və tətillərin qadağan olunduğunu bildirdilər. Əslində bu qiyam idi və məqsədi SSRİ-də 1985-ci ilə kimi mövcud olan qaydaları bərpa etmək idi. Əhalinin böyük əksəriyyəti qiyamı müdafiə etmədi, Rusiya prezidenti B.N.Yeltsin xalqı qanuni seçilmiş hakimiyyəti müdafiə etməyə çağırdı. Avqustun 22-də çevrilişi təşkil etməyə səy göstərənlər həbs edildi, avqustun 23-də B.N.Yeltsinin fərmanı ilə Sov.İKP idarəedici dövlət strukturu kimi fəaliyyətin dayandırdı. Avqustun 19-22-dəki hadisələr Sovet İttifaqının dağılmasını sürətləndirdi.

1990-cı il iyulun 27-də Belarusiya SSR dövlət suverenliyi haqqında Bəyannamə qəbul etdi. Avqust qiyamından sonra 1991-ci ilin avqustun 25-də Belarusiya özünün müstəqilliyini bəyan edərək müstəqil dövlətə çevrildi. 1991-ci ilin sentyabrın 19-da Belarusiya Sovet sosialist Respublikası Belarus Respublikasına çevrildi. Belarus Respublikası eyni zamanda Müstəqil Dövlətlər Birliyinin (MDB) təsisçilərindən biri olmuşdur. 1991-ci il dekabrında Belarus Respublikasının Belovej qoruğunda üç müstəqil respublikanın dövlət başçıları, o cümlədən Rusiyanın prezidenti B.N.Yeltsin, Ukraynanın prezidenti L.M.Kravçuk və Belarus Respublikasının Ali Sovetinin sədri S.S.Şuşkeviç müşavirədə bir araya gəldilər. Birgə danışıqlardan sonra 1991-ci il dekabrın 8-də onlar 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətinin dayandırıldığını, keçmiş İttifaqın dövlət strukturlarının işinin başa çatdığını bəyan etdilər. Hər üç respublikanın daxil olduğu yeni – Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı, dekabrın 10-da Belarus və Ukrayna parlamentləri, dekabrın 12-də Rusiyanın Ali Soveti SSRİ-nin fəaliyyətini dayandırması və MDB-nin yaradılmasına dair sazişi təsdiq etdi. Dekabrın 21-də Baltikyanı respublikalar və Gürcüstan istisna olmaqla 11 keçmiş ittifaq respublikasının başçısı Alma-Ata sazişi ilə MDB-nin təşkil edilməsinə dair bəyannaməni imzaladılar. 1991-ci il dekabrın 25-də M.S.Qorbaçov SSRİ-nin prezidenti vəzifəsindən istefa verdi. Dekabrın 26-da SSRİ-nin Ali Soveti SSRİ-nin buraxılması faktini təsdiq edərək səlahiyyətlərini dayandırdığını elan etdi.

Müstəqil Belarus Respublikası Şərqi Avropa dövləti olub şimaldan Rusiya, cənubdan Ukrayna, qərbdən Polşa, şimal-qərbdən Litva və Latviya ilə həmsərhəddir. Belarus müstəqillik qazandıqdan sonra 1994-cü ildə yeni Konstitusiyanın prezident vəzifəsini təsis edənə kimi ölkədə ali hakimiyyət Belarus Respublikasının Ali Sovetinə və onun sədri Meçislav Qribə məxsus idi. 1994-cü il martın 15-də Belarus Respublikasının Ali Soveti ölkənin yeni Konstitusiyasını qəbul etdi ki, buna əsasən Belarusiyada yeganə ali qanunverici dövlət hakimiyyət orqanı Belarus Respublikasının Ali Soveti elan edildi. Ali Sovet 260 deputatdan ibarət olaraq 5 il müddətinə seçilirdi.

1996-cı il noyabrın 24-də respublikada mövcud Konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi haqqında referendum keçirildi. Belarus Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər ölkədə iki palata – Nümayəndələr palatası və Respublika Sovetindən ibarət Milli Məclis formalaşdı. Yeni Milli Məclisin təşkili dövlət hakimiyyətinin köhnə sovet

modelindən imtina edərək yeni standartlara cavab verən parlamentarizm nümunəsində ali hakimiyyət orqanının yaradılması zərurətindən irəli gəlirdi. Palatalar zəruri hallar istisna olmaqla öz reqlamentlərin müəyyən edərək ayrı-ayrılıqda fəaliyyət göstərirdilər. Konstitusiyaya görə Belarusiya prezident Respublikasıdır. Prezident qanun gücündə olan dekret və fərmanlar vermək səlahiyyətinə malikdir. Ölkədə iki palatadan ibarət parlament – Belarus Respublikasının Milli məclisi fəaliyyət göstərir. 110 deputatdan ibarət olan Nümayəndələr palatası majoritar sistem üzrə bir başa ümumi səsvermə yolu ilə seçilir. İkinci palata Respublika Soveti yerli Sovetlər tərəfindən hər bir vilayətdən, o cümlədən Minsk şəhərindən 8 nəfər olmaq etibarı ilə seçilir. 8 nəfəri prezident təyin edir, bununla da nümayəndələr palatasının sayı 64 nəfərə çatır. Milli məclis 4 il müddətinə seçilir. Aşağı Nümayəndələr palatası Prezidentə baş naziri təyin etməyə razılıq vermək, Prezident seçkilərini təyin etmək, xarici və daxili siyasət məsələləri üzrə təkliflər vermək səlahiyyətinə malikdir. Nümayəndələr palatası Prezidentin təklifi ilə və yaxud seçici hüququ olan Belarus Respublikasının 150 min nəfərdən az olmayan vətəndaşının təşəbbüsü ilə Konstitusiyaya dəyişikliklər və əlavələr layihəsin müzakirəyə çıxarmaq hüququna sahibdir. Palatanın hökumətin fəaliyyəti haqqında Baş nazirin hesabatını dinləmək, onu təkrar rədd etdikdə hökuməti istefaya göndərmək və s. səlahiyyəti vardır. Respublika Sovetinin qərarı əsasında Nümayəndələr palatası tam tərkibinin üçdəiki hissəsinin səsi ilə prezidenti vəzifəsindən azad etmək, onun istefasını qəbul etmək hüququna malikdir.

Milli Məclisin Respublika Soveti olan yuxarı palatası Nümayəndələr palatasının Konstitusiyaya dəyişikliklər və əlavələr haqqında və başqa qanunverici aktları qəbul etmək və ya rədd etmək səlahiyyətindədir. Prezidentə Konstitusiya, Ali məhkəmə, Ali İqtisad məhkəməsi, yerli məhkəmələrin, MSK-nın sədrlərinin, Baş Prokuroru, Milli Bankın idarə heyətinin sədri və üzvlərinin təyin etməsinə razılıq verir və s. Hökumətin fəaliyyətin prezident tərəfindən təyin edilən Nazirlər Şurası yerinə yetirir. Konstitusiyaya əsasən Belarus Respublikasının məhkəmə sistemi Ali İqtisad məhkəməsi, Ali məhkəmə və Konstitusiya Məhkəməsinə bölünür. Hər üç məhkəmənin sədrləri və hakimləri prezident tərəfindən təyin edilir və parlamentin Respublika Soveti tərəfindən təsdiq olunur. Belarus Respublikasının Konstitusiyası dövlət və yerli özünüidarəetmənin ali orqanlarının formalaşmasının başlıca prinsiplərini, onların qarşılıqlı əlaqə və səlahiyyətlərini, vətəndaşların hüquq, azadlıq və vəzifələrini müəyyən etdi.

1994-cü ilin iyulunda Belarus Respublikasında Prezident seçkiləri baş tutdu. Ümumxalq səsverməsinə əsasən Aleksandr Qriqoryeviç Lukaşenko seçici səslərinin 80,1 faizini alaraq Belarus Respublikasının birinci prezidenti seçildi. Prezident A.Lukaşenko dövlət başçısı kimi hakimiyyətinin ilk illərindən başlayaraq siyasi müxalifətə və müxalif yönümlü kütləvi mətbuat vasitələrinə təzyiqi artırdı və 90-cı illərin sonuna doğru onları dövlət strukturlarından tamamilə sıxışdırılıb çıxardı. Eyni zamanda Rusiya ilə inteqrasiyanı ön plana çəkən prezident A.Lukaşenko 1995-ci ildə referendumla rus dilinə Belarus dili ilə yanaşı dövlət statusunun verilməsinə nail oldu. Prezidentin 1995-ci il iyunun 7-də verdiyi fərmanla Belarus Respublikasının yeni Gerbi və Bayrağı qəbul edildi.

Prezident A.Lukaşenkonun avtoritar rejim yaratmaq yolunda atdığı addımlar 1996-cı ildə prezident və parlament qarşıdurmasına gətirib çıxardı. Odur ki, prezidentin təşəbbüsü ilə ölkədə növbəti referendum təşkil olunaraq mövcud konstitutiyaya əlavələr və dəyişikliklər edildi. Əslində prezident daha çox səlahiyyət alaraq Belarus Respublikasının parlamentli-prezident respublikasından prezident hakimiyyəti formasına keçirməsini təmin etdi. ATƏM, Avropa Şurası, Avropa Birliyi, bir çox dövlətlər ciddi prosedur nöqsanlarına yol verildiyi üçün referendumun nəticələrini tanımadılar. Lakin buna baxmayaraq prezident A.Lukaşenkonun 5 illik prezidentlik müddəti referendum keçirilən 1996-cı ildən başladı və 2001-ci ildə başa çatdı. Odur ki, 2001-ci ildə növbəti prezident seçkiləri keçirildi və birinci turda A.Lukaşenko ikinci dəfə Belarus Respublikasının prezidenti seçildi.

Müstəqil Belarus Respublikasında formal olsa da çoxpartiyalı sistem mövcuddur. Müasir Belarusun yeni yaranmış partiyalarından biri 1994-cü ildə təşkil edilən Belarus Xalq Cəbhəsidir (BXCP). 1995-ci ildə Belarus Kommunistləri Partiyası (BKP) və Aqrar Partiya

(AP) təşkil olundu. 1996-cı ildə hakimiyyət yeni Belarus kommunist partiyasını (BKP) yaratdı. 1997-ci ildə isə Belarus Sosial-Demokratik Partiyası (Xalq Qromadası) – BSDP-XQ meydana gəldi.

Demokratik siyasi sistemin əsas elementlərindən biri çoxpartiyalılıqdır, çünki məhz siyasi partiyalar dövlətin xalqla əlaqəsini yaradır. Belarusda A.Lukaşenko müxalifətdə olan partiyaları demək olar ki, siyasi həyatdan sıxışdıraraq onlara təzyiq göstərməkdə davam edir. Bu gün Belarus Respublikasında müxalifət partiyaları olan "Yaşıllar" belarus partiyası, "Ədalətli Sülh" Sol belarus partiyası, Belarusiya Sosial-Demokrat partiyası (Qromada), Birləşmiş Vətəndaş Partiyası, Belarus Xalq Cəbhəsi pariyası və b. çətin təzyiq və təqib şəraitində fəaliyyət göstərirdilər.

Bunun əksinə prezident partiyaları Belarusiya Aqrar partiyası, Belarus Kommunist partiyası, Belarusiya Vətənpərvərlər partiyası, Respublika partiyası, Belarusiya Sosial-İdman partiyası və d. hakimiyyətin mövqeyinin müdafiəçiləri kimi çıxış edirdilər. 2001-ci il sentyabrın 9-da Belarus Respublikasında ikinci prezident seçkiləri keçirildi, kənd təsərrüfatı standartların, sosial yardımın həcmini, sənaye istehsalını artırmağı vəd edən A.Q.Lukaşenko seçici səslərin 75, 65 faizini əldə edərək prezident kürsüsünə əyləşdi. ATƏT beynəlxalq normalara cavab vermədiyi üçün seçkinin nəticələrini qəbul etmədi. Amma Rusiya kimi böyük dövlət seçkini təriflədi, prezident V.V.Putin isə A.Lukaşenkonu qələbə münasibəti ilə təbrik edərək Rusiya-Belarus münasibətlərinin daha da inkişaf etməsi arzusunda olduğunu bildirdi.

2004-cü il oktyabrın 17-də Belarus Respublikasında parlament seçkiləri keçirildi, 110 nəfərlik parlamentə 107 nəfər deputat seçildi. Müxalifəti təmsil edən "Pyat plyus" koalisiyası bir dənə də olsa deputat yeri əldə edə bilmədi.Vladimir Nikolayeviç Konoplyev Nümayəndələr palatasının, Gennadi Vasilyeviç Novitski Respublika sovetinin sədrləri seçildilər. 2004-cü il oktyabrında ölkədə hakimiyyət tərəfindən növbəti referendum "tamaşası" təşkil edildi, prezidentin iki müddətə seçilməsi məhdudiyyəti Konstitusiyadan çıxarıldı. Bu referendumun da nəticələrin Aİ və ABŞ tanımadı.

2006-cı il martın 19-da Belarus Respublikasında növbəti prezident seçkiləri oldu, rəsmi məlumata əsasən səslərin 82,3 faizini toplayan A.Q.Lukaşenko üçüncü dəfə ölkə prezidenti kürsüsünə əyləşdi. Prezident seçkisi prezidentliyə namizədlər A.V.Milinkeviç və A.V.Kozulinin rəhbərliyi altında kütləvi etiraz aksiyaları ilə müşayiət olundu. Lakin bu çıxışlar nəticəni dəyişdirmədi. Aleksandr Milinkeviç müxalifət partiyaların koalisiyasını, Aleksandr Kozulin Sosialist-Demokratlar partiyasın təmsil edirdilər.

2010-cu il dekabrın 19-da Belarus Respublikasında 10 nəfər prezidentliyə namizədin iştirakı ilə prezident seçkiləri keçirildi. MSK-nın dekabrın 20-də olan rəsmi məlumatına görə Aleksandr Lukaşenko 79,65 % səs alaraq dördüncü dəfə respublikanın prezidenti seçilmişdir. Seçkidə iştirak edən prezidentliyə namizədlər, ABŞ və Aİ seçkinin nəticələrini tanımadıqlarını bildirdilər. S.Lebedev başda olmaqla MDB-nin missiyası isə seçkilərdə müşahidəçi kimi iştirak edərək onun nəticələrini təstiq etdilər. 2011-ci il yanvarın 21-də A.Q.Lukaşenko rəsmi olaraq dördüncü dəfə Belarus Respublikasının prezidenti vəzifəsini icra etməyə başladı.

Demək olar ki, 10 il ərzində, 2008-ci il oktyabrın 13-nə kimi Belarus Respublikasında Y.Zaxarenko, V.Qonçar, A.Krasovski və D.Zavadskoqonun əsrarəngiz şəraitdə yoxa çıxması ətrafındakı qalmaqal, beynəlxalq seçki və insan hüquqları standartlarının pozulması sahəsindəki nöqsanlara görə A.Q.Lukaşenko və onun yaxın ətrafına ABŞ və Aİ ölkələrinə daxil olmaq qadağan edilmişdir. 2011-ci ilin aprelindən oktyabrın 31-nə kimi A.Lukaşenko və onun 35 nəfər rəsmi ətrafına Aİ ölkələrinə səfər etmək qadağan edilib.

2015-ci ildə Belarus Respublikasının Milli Məclisinə seçkilər oldu.110 nəfər deputatın seçildiyi Nümayəndələr palatasının 105 deputatı heç bir partiyaya məxsus olmayan bitərəfdirlər. Yalnız 3 nəfər Belarus Kommunist partiyasını, 1 nəfər Belarus Aqrar partiyasın, 1 nəfər Respublika Əmək və Ədalət partiyasını təmsil edərək Nümayəndələr palatasında deputat yerinə sahib olmuşlar. 2015-ci ilin yanvarın 16-da Mixail Myasnikoviç parlamentin Respublika Soveti palatasının sədri seçilmişdir. Nümayəndələr palatasının sədri isə 2008-ci il oktyabrın 27-dən Vladimir Andreyçenkodur.

2015-ci il oktyabrın 11-də Belarusda növbəti prezident seçkiləri oldu. Rəsmi məlumatlara əsasən 87,2 faiz seçicinin iştirak etdiyi seçkidə Aleksandr Lukaşenko seçici səslərinin 83,49 faizini qazanaraq növbəti dəfə Belarus Respublikasının prezidenti seçilərək, noyabrın 6-da and içərək vəzifəsinin icrasına başlamışdır. Prezident seçkilərindən sonra kütləvi etiraz aksiyalarının olmaması səbəbilə Aİ 2010-cu il seçkilərindən sonra Belarusa tətbiq etdiyi sanksiyanı dayandırmışdır. 2010-cu il dekabrın 19-da olan kütləvi etiraz aksiyasının təşkilatçısı kimi həbs edilmiş Nikolay Statkeviçin 2015-ci ilin yayında azad edilməsi də Aİ-nın bu qərarı qəbul etməsinə öz təsirini göstərmişdir.

***Belarus Respublikasının sosial-iqtisadi və mədəni vəziyyəti.*** 1991-ci il avqustun 25-də Belarusiya özünün müstəqilliyini elan etdi. 1991-ci il sentyabrın 19-da Belarusiya Sovet Sosialist Respublikasının (BSSR) adı Belarus Respublikası (BR) adı ilə əvəz olundu. 1994-cü il martın 15-də Meçislav Qribin sədrlik etdiyi Ali Sovet Belarus Respublikasını unitar demokratik sosial hüquqi dövlət elan etdi. 1994-cü ilin rəsmi məlumatına əsasən Belarus Respublikasında 10 milyon 243,5 min nəfər əhali yaşayırdı ki, bunların da təqribən 80 faizindən çoxunu belaruslar təşkil edirdi.

Belarus Respublikasının iqtisadiyyatı sosial istiqamətli bazar modeli prinsipinə söykənir. Belarus iqtisadiyyatının xüsusilə istehsal, enerji, nəqliyyat, emal, tikinti, kənd təsərrüfatı, bank sahələrində dövlət mülkiyyəti üstünlük təşkil edir. İqtisadiyyatın 51,2 faizi dövlət mülkiyyətinin, 47,4 faizi xüsusi mülkiyyətin, 1,4 faizi isə xarici şirkətlərin nəzarətində olan xüsusi bölmənin payına düşür. Ölkədə mərkəzləşdirilmiş bölgü, planlaşdırma həyata keçirilir, dövlət sosial əhəmiyyətli malların qiymətlərini tənzimləyir. Belarus Respublikası 6 vilayətə, onlar isə rayonlara və vilayətə tabe olan şəhərlərə bölünür. Ölkədə vilayətləri təmsil edən 118 rayon və 12 şəhər mövcuddur. Minsk şəhəri isə müstəqil inzibati mərkəz olaraq heç bir vilayətə tabe deyil. Belarus Respublikasının pul vahidi 1992-ci ilin mayından sovet rublunu əvəz edən Belarus rubludur. Belarus Respublikasının ilk sikkələri 1996-cı ilin dekabrından tədavülə buraxılıb.

90-cı illərin əvvəllərində SSRİ-nin süqutu Belarusiyada da iqtisadiyyatın ittifaq əlaqələrindən məhrum olması üzündən ağır vəziyyətlə qarşılaşdı. Mağazaların rəfləri sürətlə boşaldı, xüsusilə ərzaq mallarının qiyməti sürətlə artdı. İnflyasiyanın baş alıb getməsi əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, bu isə ölkədə narazılığın artmasına şərait yaradırdı. 1986-cı il aprelin 26-da Çernobıldа baş vermiş nüvə reaktorunun partlaması nəticəsində Ukraynadan sonra radiasiyaya ən çox məruz qalan yerlərdən biri də Belarusiyanın əkinçilik və meşə sahələri idi. Təbii olaraq bu amil Belarusiyanın kənd təsərrüfatına ağır zərbə vurmuşdur. Kənd təsərrüfatı məhsullarının istehsalı kəskin aşağı düşmüşdür.

Lakin bütün bunlara baxmayaraq 2000-ci illərə doğru Belarus Respublikası iqtisadi tənəzzüldən çıxmağa başladı. İqtisadiyyatın əsas sahələrinin dövlətin nəzarətində olması nəticəsində Belarus MDB dövlətləri arasında birinci olaraq SSRİ-dən miras qalan nəhəng zavodları bərpa edib işə saldı. Ölkədə tədricən energetika, maşınqayırma, kənd təsərrüfatı, kimya və meşə sənayesi, tikinti, tikinti materialları və emal sənayesi inkişaf etməyə başladı. Belarus neft məhsulları, kaliy gübrəsi, maşınqayırma, kimya və ərzaq sənayesi məhsulları ixrac etməyə başladı. 1994-cü ildə Belarus Respublikası xarici dövlətlərə, xüsusilə MDB məkanına daxil olan ölkələrə traktorların ixracına başladı. Kənd təsərrüfatı məhsulları kartof, mal-qara, ət və süd ixracı xeyli artdı. İqtisadi əlaqələrdə birinci yerdə Rusiya Federasiyası ilə ticarət əlaqələri tuturdu. Belarusa Rusiyadan xüsuilə neft və yanacaq materialları idxal edilirdi. 2005-ci ildə 2006-2010-cu illəri əhatə edən sosial-iqtisadi inkişafın beşillik planı hazırlandı. Plana əsasən ümumi məhsul istehsalın ildə 8-9, sənaye məhsulunun həcmini 7,5-8,6 faiz artırmaq nəzərdə tutulmuşdur. Adamların real əmək haqqını isə ildə 8,7-9,6 faiz artırmaq vəzifə olaraq qarşıya qoyuldu.

2011-ci il aprelin 11-də A.Lukaşenko 2011-2015-ci illərə dair sosial-iqtisadi proqramı imzaladı. Ümumi məhsul istehsalı beş ildə 62-68 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı təqribən 1,5 dəfə, əhalinin real pul gəliri 1,7- 1,76 dəfə artmalı idi. Bu vəzifələri yerinə yetirmək məqsədilə Belarusda maşınqayırma sənayesinin inkişafına diqqət artırıldı. MAZ,

BelAZ markalı yük avtomobillərinin, avtobus, trolleybus, traktor, metalkəsən dəzgahların istehsalı intensivləşdi. Borisov, Pinsk, Qomeldə kibrit fabriklərinin, Dobruş, Slonim, Çaşnik, Borisovda karton və kağız fabriklərinin fəaliyyəti canlandı. 2008-ci ildə Şklovda qəzet kağızı istehsal edən nəhəng zavod işə düşdü. Bunların nəticəsində Belarus Respublikasında ümumi daxili məhsul 2000-2008-ci illərdə ildə 4-dən 11 faizə kimi artdı. Lakin ümumi məhsul istehsalının artımı aşağı düşərək 2012-ci ildə ölkə üzrə 1,7, 2013-cü ildə isə 0,9 olmuşdur. 2000-2013-cü illərdə orta illik inflyasiya 31, o cümlədən 2000 və 2011-ci illərdə 100 faizdən çox olmuşdur. 2012-ci ildə inflyasiya 21,8, 2013-cü ildə isə 16,5 faiz təşkil etmişdir.

BMT-nin məruzəsinə görə 2005-c ildə Belarusda iqtisadi artım 8,5 faiz təşkil etmişdir. Bu göstəriciyə görə Belarus MDB məkanında 19,7 faiz artıma sahib olan Azərbaycandan, 10 faizlik artımla Gürcüstandan, 9,8 faizlik artımla Qırğızıstandan və 9,3 faizlik artımla Qazaxıstandan sonra 5-ci yeri tutur. 2000-ci illərdə Belarus Respublikasında əmək haqqı artaraq 2010-cu ildə 500 ABŞ dollarına ekvivalent olmuşdur. 2012-ci ildə orta əmək haqqı Belarus Respublikasında 430 ABŞ dollarına bərabər olub. 2013-cü ilin yanvar-fevral aylarının rəsmi məlumatlarına görə Belarusda orta sosial təqaüd 99 ABŞ dollarına ekvivalentdir. Rəsmi dövlət məlumatına əsasən Belarus Respublikasında 2000-ci ildə 36, 2005-ci ildə 9, 2010-cü ildə isə 3,4 faiz ailə yoxsulluq həddində yaşayır.

2009-cu ildəki siyashıyaalmaya əsasən Belarus Respublikasında əmək qabiliyyəti olan əhalinin 6,1 faizi özünü işsiz kimi göstərib 2014-cü ilin oktyabrında Aleksandr Lukaşenko etiraf edib ki, ölkə iqtisadiyyatında əmək qabiliyyəti olan 0,5 milyon nəfər, yəni təqribən 10 faiz işsiz vardır. Respublika əhalisinin çox hissəsi iş dalınca Rusiya Federasiyasına üz tutur. Ekspertlər onların sayının 600 min nəfərdən çox olduğunu bəyan edirlər.

Belarus Respublikasında 30 dövlət bankı və yalnız bir özəl bank fəaliyyət göstərir. 2011-ci ilin mart-sentyabrında Belarus Respublikası valyuta-maliyyə böhranı keçirmişdir. Böhranın nəticəsində belarus rublu devalvasiyaya uğrayaraq ilin əvvəlində dollara nisbətən 189 faiz, yanvar-oktyabr aylarında 88,7 faiz ucuzlaşmışdır. Ərzaq mallarının qiyməti isə müvafiq dövrdə respublikada 103,6 faiz artmışdır. Əmək haqqı aşağı düşərək 220-260 ABŞ dolları təşkil edirdi. Belarus Respublikasının xarici borcları 2014-cü il iyulun 1-də 23,3 milyard ABŞ dolları təşkil edirdi ki, bunların da 13,9 milyard ABŞ dolları dövlət bölməsinin xarici borclarının payına düşürdü.

2009-cu il siyahıyaalınmasına görə Belarusun əhalisi 9.503.807 nəfər təşkil edirdi ki, bunların da 87,7 faizi belaruslar idi. Növbəti böyük etnik qrup 8,3 faizlə ruslar, 3,1 faizlə polyaklar və 1,7 faizlə ukraynalılar təşkil edirdi. Ümumi əhalinin 70 faizi şəhərlərin payına düşür. Orta ömür kişilər üçün 63,0, qadınlar üçün 74,9 il olmaqla 68,7 ildir. 2015-ci il məlumatına əsasən 207.600 kv.km ərazisi olan Belarus Respublikasının əhalisi 9.481,1 min nəfərdir.

Belarus Respublikasının xarici ölkələrlə ticarət əlaqələri dinamik inkişaf edir. Ölkə ixracatında birinci yeri 33,5 faizlə Rusiya Federasiyası, 15,1 faizlə Hollandiya, 10,2 faizlə Ukrayna və d. tutur. Belarusa idxal edilən malların 54,4 faizi Rusiyanın, 5,6 faizi Almaniyanın 4,4 faizi Ukraynanın, 4,8 faizi Çinin və s. payına düşür.

2013-cü ildə Belarus Respublikası ilə Rusiya arasında mal dövriyyəsi 40 milyard dollar təşkil etmişdir. Xüsusilə hər iki ölkənin sərhəd rayonlarında ticarət daha geniş miqyas almışdır. Praktik olaraq Belarusun enerji sistemi, kimya və gübrə istehsalı aşağı qiymətə aldığı rus qazından asılıdır. Düzdür, 2005-2010-cu illərdə Belarus ərazisindən keçən "Dostluq" neft kəməri vasitəsilə nəql edilən "qara qızıl" 70 milyon tondan 53 milyon tona azalsa da hələ də Belarus bundan çox böyük gəlir əldə edir. Bunun sayəsində dövlət bir çox sosial proqramlar həyata keçirir.

Dəmir yolları və avtomobil nəqliyyatı ölkənin əsas əlaqə vasitələridir. Orş, Minsk və Brestdən keçən dəmir yolu maqistralı şərqdə Belarusu Moskva ilə, qərbdə isə Varşava ilə birləşdirir. Ölkədə 5512 km uzunluğunda dəmir yolları, 83.000 km uzunluğunda şosse yoları vardır. Belarusda hər min nəfərə 261 avtomobil düşür.

Belarus Respublikasında qida sənayesinin vizit kartı olan süd məhsullarının ixracı ildənilə artmışdır. Süd, yağ, pendir, dondurma, süd konservləri emal edən Belarus dünyada süd

məhsulları ixrac edən 5 aparıcı dövlətin sırasındadır. 2010-cu ilin nəticələrinə görə dünyada süd məhsulları ixracının 4 faizi Belarus Respublikasının payına düşür. Respublika süd məhsullarının əsas alıcısı MDB ölkələri olan Rusiya və Qazaxıstandır. Təsadüfi deyil ki, dövlət ildən-ilə ölkədə süd məhsullarının istehsalına qoyulan investisiyanı artırır. 2015-ci ildə ölkədə süd məhsulları istehsalı həmçinin 10-10,5 milyon tona çatdırılması planlaşdırılır. Belarusun kənd təsərrüfatı ölkədə istehsal olunan ümumi məhsulun 7,5 faizini təşkil edirdi. Əhalinin 9,7 faizi kənd təsərrüfatı ilə məşğul olurdu.

2011-ci ilin noyabrına olan rəsmi məlumata əsasən Belarusiyanın təqribən 80 faiz əhalisi Rus pravoslav kilsəsinə, 10 faiz Roma-katolik kilsəsinə, 2 faiz başqa dinlərə, o cümlədən protestantlıq, islam, iudaizm və s. mənsubdur. Konstitusiyanın 16-cı maddəsinə əsasən Belarus Respublikasında heç bir din rəsmi dövlət statusuna malik deyildir.

Müstəqil Belarus Respublikasının Konstitusiyasına əsasən hər bir ölkə vətəndaşına təhsil almaq hüququ tanınır. Baza məktəbini uğurla başa vuran gənc oğlan və qızlar təhsilini kollec, litsey, gimnaziya, peşə-texniki məktəblərində davam etdirə bilərlər. Arzu edənlər ümumi orta təhsil məktəblərində oxumaq imkanına malikdirlər. Təhsil müəssisələrində iki rəsmi dil – belarus və rus dili keçilir. Təhsilin ruslaşdırılması siyasəti nəticəsində şəhərlərdə belarus dilli məktəblər demək olar ki, fəaliyyət göstərmir, belarus dilli məktəblər əsasən kənd yerlərindədir. 2008-ci il məlumatına görə kənd yerlərində belarus dilli məktəblər 18,4, şəhərlərdə isə yalnız 1,9% təşkil edirdi. 2012/13 tədris ilində Belarus Respublikasında 928,2 min şagirdi və 128,1 min müəllimi əhatə edən 3579 ümumi orta təhsil müəssisəsi fəaliyyət göstərirdi. 79,9 min şagirdi birləşdirən 226 peşə texniki məktəbi, 152,2 min şagirdi əhatə edən 225 orta ixtisas məktəbi mövcuddur. Şagirlərin biliyi 10 ballıq təhsil sistemi əsasında qiymətləndirilir. Boloniya sisteminə Belarus 2015-ci il mayın 14-dən qoşulub.

Belarus Respublikasının ali dövlət elmi təşkilatı Milli Elmlər Akademiyasıdır.1990-2004-cü illərdə iqtisadi böhran, elmi işlərə lazımi maliyyə yardımı göstərilməməsi, alimlərin əmək haqqının aşağı olması elmi işçilərin xarici ölkələrə və kommersiya qurumlarına keçməsinə səbəb olmuşdur. Bunun nəticəsində müvafiq illərdə elmi-tədqiqat müəssisələrində işləyən elmi işçilərin sayı 107,3 min nəfərdən 28,8 min nəfərə düşmüşdür. 2004-cü ildən başlayaraq elmi işlərə ayrılan dövlət vəsaitinin artması, alimlərin əmək şəraitinin və sosial vəziyyətinin nisbətən yaxşılaşması onların sayının azalmasının qarşısını aldı. 2014-cü ildə elmi-tədqiqat müəssisələrində 27208 nəfər elmi işçi çalışırdı.

2012/13 tədris ilində Belarus Respublikasının 45 dövlət və 9 özəl olmaqla 54 ali məktəbində 428,4 min nəfər tələbə təhsil alırdı. Ali məktəblərdə fəaliyyət göstərən elmi-pedaqoji kadrların sayı 24.612 nəfər təşkil edirdi ki, onların da 1346 nəfəri elmlər doktoru, 9043 nəfəri elmlər namizədi, 1260 nəfəri professor, 7509 nəfəri dosent idi. Ölkənin aparıcı ali məktəbləri 1921-ci il oktyabrın 30-da təsis edilən Belarusiya Dövlət Universiteti və 1991-ci il yanvarın 29-da açılan Belarus Respublikasının Prezidenti yanında İdarəetmə Akademiyasıdır. Ölkənin ali məktəblərində tələbələr təhsilini başa vurduqdan sonra bakalavr və magistr akademik ixtisas dərəcələri alırlar. Ali məktəb məzunları təhsillərini aspirantura və doktoranturada davam etdirə bilərlər.

Müstəqil Belarus Respublikasında bədii yaradıcılığın mühüm sahələrindən biri olan ədəbiyyatda yeni əsərlər meydana gəlmişdir.1980-ci illərin sonlarında Stalin repressiyasına dair əsərlər diqqəti cəlb edir.1985-ci ildə Vasili Bıkovun yazdığı "Fəlakətin əlaməti" ("Znak bedı") əsərində kollektivləşdirmə, repressiya və cəbhədə vəziyyət arasındakı faciəli əlaqə əks olunur. Sonrakı illərdə yazıçı bu mövzunu "Sarı qumlar" ("Jyoltıy pesoçek") əsərində davam etdirir. Aşkarlıq dövründə Larisa Geniyuşun düşərgə illərindən bəhs edən gündəliyi çap olundu. Pavel Prudnikovun "Kirpinin qolları" ("Ejovıe rukavitsı"), "Şimal cəhənnəmi" ("Severnıy ad") povestləri, "Taymır" poeması antistalin ideyası ilə zəngindir. Natalya Arsenyeva, Ales Salavey mühacirətdə belarus ədəbiyyatını təmsil edirdilər.

Müstəqil Belarus Respublikasının ədəbiyyat sahəsində bütün dünyada tanınan nümayəndəsi 2015-ci ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən yazıçı, jurnalist və senarist Svetlana Aleksandrovna Aleksiyeviçdir. Yazıçı "Sonuncu şahidlər" ("Poslednie

svideteli”), “Sink oğlanlar” (“Sinkovıe malçiki”), “Çernobıl duası” (“Çernobılskaya molitva”) və s. dünyada milyon nüsxələrlə çap edilən və oxucu kütləsi tərəfindən maraqla qarşılanan əsərlərin müəllifidir. Öz yaradıcılığında Böyük Vətən müharibəsi illərində qadınların acı həyatından, əfqan müharibəsində cərəyan edən dözülməz hadisələrdən, şahidlərin məlumatı əsasında Çernobıl qəzasının törətdiyi fəsadlardan olduğu kimi söz açan müəllifin şöhrəti Belarus Respublikasının sərhədlərini aşaraq bir çox ölkədə yayılmışdır. Onun əsərləri ingilis, fransız, alman, isveç, polyak, çin və s. dillərə tərcümə olunmuşdur. Müstəqil Belarusun bədii yaradıcılıq sahəsində yeganə Nobel mükafatçısı Svetlana Aleksiyeviçin təkcə “Çernobıl duası” kitabının xarici ölkələrdəki çapı 4 milyon nüsxədən çoxdur.

Teatr, kino, musiqi, təsviri sənət Belarus Respublikasında daha da rəngarəng olmuşdur. 2012-ci ildə görkəmli rejissor Sergey Loznitsin yazıçısı Vasili Bıkovun povesti əsasında çəkdiyi “Dumanda” (“V tumane”) dramı 65-ci Kann festivalında xüsusi mükafata layiq görülmüşdür. ”Belarusfilm” kinostudiyasında Nikita Mixalkonun, Pyotr və Valeri Todorovskilərin, Aleksandr Sokurovun filməlri çəkilirdi.

Müasir Belarusun təsviri sənət əsəri yaradıcılığı sahəsində görkəmli memarlıq ustalarından biri heykəltaraş Vladimir İvanoviç Jbanovdur (1954-2012). Görkəmli heykəltaraşın 1996-cı ildə Minskdə Milli Bankın binası üzərindəki Belarus Respublikasının Gerbi, Minsk metorsunun keçidindəki “Zontikli qız” (“Devoçka s zontikom”) monumental əsəri, heykəltaraşlar Yevgeni Kolçev və Aleksandr Tuxto ilə birgə yaratdıqları “Fotoqraf”, “At” (“Loşad”), “Fəvvarədəki qazlar” (“Qusi v fontane”) memarlıq inciləri bu gün də Belarusun paytaxtı Minskinin bəzəyidir.

Belarusda musiqi sənəti yerli milli ənənələri saxlamaqla dünyada populyar olan istiqamətlərdə də inkişaf edirdi. Xüsusilə müasir zamanda respublikada pop və rok musiqisi daha geniş yayılmışdır. Hal-hazırda ölkədə “Lyapis Trubetskoy”, “Bez bileta”, “Akute”, “Nizkiz” və d. qruplar geniş şöhrət qazanmışdır. 2004-cü ildən Belarus ifaçıları “Avroviziya” musiqi müsabiqəsində iştirak edirlər. Hər il Belarusda 30-dan çox beynəlxalq, respublika və regional musiqi festivalları təşkil olunur. Ən məşhur Belarus musiqi festivalı “Vitebskdə Slavyan Bazarı” şənliyidir.

***Belarus Respublikasının xarici siyasəti.*** Belarus Respublikasının xarici siyasətinin 2005-ci il noyabrın 14-də qəbul olunmuş “Belarus Respublikasının əsas daxili və xarici siyasətinin istiqamətlərinin təsdiq edilməsi haqqında” Qanunda öz əksini tapmışdır. Beynəlxalq hüququn ümumi qəbul edilən norma və prinsiplərinə əməl edilməsi, bunun əsasında dünya birliyinin maraqlarını nəzərə alaraq xarici dövlətlərlə, beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq, dövlətlərarası təhsildə iştirakın könüllülüyü, qonşu dövlətlərə ərazi iddiasının və Belarus Respublikasına olan ərazi iddiasının qəbul edilməməsi və s. irəli sürülən əsas vəzifələrdir.

1991-ci ilin dekabrında Avropa dövlətləri Belarusiyanın müstəqilliyini qəbul etdikdən sonra onlar arasında yaxınlaşma başladı.1995-ci ildə AB ilə Belarus Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı və ölkə Qərbdən siyasi, iqtisadi və ticarət sahəsində əhəmiyyətli dərəcədə kömək aldı. Ancaq 1994-cü ildə qəbul edilən Belarus Respublikasının Konstitusiyasına 1996-cı ildəki əlavə və dəyişikliyi qeyri-demokratik hesab edən AB 1997-ci ildə Belarus ilə tərəfdaşlıq və əməkdaşlıq sazişini uzatmayaraq, respublikanın üzvlüyünü müdafiə etməkdən imtina etdi . Belarus Respublikası eyni zamanda 1997-ci ildəki seçkilərin qeyri-demokratik və müxalifətə təzyiq göstərilməsi səbəbi ilə Avropa Şurasının Parlament Assambleyasına xüsusi dəvət edilən ölkə statusunu da itirdi.

2005-ci ilin martında Avropa İttifaqı Belarusda “vətəndaş cəmiyyəti formalaşdırmağı” maliyyələşdirəcəyini açıq bildirdi. Martın 10-da Avropa Parlamenti “mövcud Belarus rejimini diktatura kimi ifşa” etməyə çağıraraq, prezident Aleksandr Lukaşenkonun və ali dövlət məmurlarının şəxsi aktivlərini dondurmağı, xarici ölkələrə səfər etmələrinə qadağa qoyulan ali dövlət hakimiyyət nümayəndələrinin siyahısını genişləndirməyi təkid etdi. 2006-cı il fevralın 26-dan Belarusda prezident seçkiləri ərəfəsində Aİ-nin maliyyələşdirdiyi müstəqil teleradio stansiyası fəaliyyətə başladı. 2009-cu ildə Belarus Aİ-nin “Şərq tərəfdaşlığı” layihəsinin

üzvü oldu. Bu Belarus rəhbərliyinə bir sıra Avropa liderləri ilə görüşmək imkanı verdi. 2009-cu ilin aprelində Aİ-da sədrlik edən Çexiyanın xarici işlər naziri Karel Şvartsenberq Minskə rəsmi səfərə gəldi. Tezliklə prezident A.Lukaşenko İtaliyaya səfər edərək Baş nazir Silvio Berluskoni və Roma papası XVI Benediktlə görüşdü.

Amma 2010-cu il dekabrın 19-dakı seçkilərin saxtalaşdırılması səbəbilə Aİ-Belarus münasibətləri donduruldu. Aİ dəfələrlə Belarus Respublikasının rəhbərliyindən “19 dekabr” işi üzrə ittiham olunanların azadlığa buraxılmasını tələb etsə də buna müəssər olmadı. 2012-ci ildə Aİ Belarus hakimiyyətinə qarşı tətbiq olunan sanksiyaları sərtləşdirdi.

Müstəqil Belarus Respublikasının yaxın qonşuları ilə münasibətlər Ukraynada “narıncı inqilab”dan sonra xeyli gərginləşib. Ukrayna hadisələrində Polşanın prezidenti Aleksandr Kvasnevskinin mövqeyi Aleksandr Lukaşenkonun siyasətinin tam əksi olduğu üçün Polşa-Belarus əlaqələrində soyuqluq yaranmışdır. Hətta tərəflər bir-birini ölkələrinin daxili işlərinə qarışmaqla belə ittiham etməkdən çəkinmədilər. Rəsmi məlumata görə Belarus Respublikasında 295 min etnik polyak yaşayır ki, bu da ölkədə ruslardan sonra ikinci milli azlıq hesab olunur. “Belarus” polyakları ittifaqı” və iki polyak məktəbi mədəni və təhsil proqramı ilə çıxış edir, onları isə təbii olaraq Polşa dövləti maliyyələşdirir.

Ölkənin sərhədində yerləşən Litva dövləti belarus müxalifət qüvvələrinə hərtərəfli yardım edir. Litvanın ərazisində 2004-cü ildən Belarus Respublikasından bura köçürülmüş Avropa Humanitar Universiteti fəaliyyət göstərir. Məhz 2005-ci ilin yazında Vilnüsdə ABŞ-ın dövlət katibi Kondoliza Raysla Belarus müxalifətinin nümayəndələrinin görüşü baş tutmuşdur. ABŞ-ın dövlət katibi A.Lukaşenkonun rejimini “Avropanın axırıncı diktatoru” kimi səciyyələndirmişdir. 2005-ci il noyabrın 25-də müxalifətin Belarusun prezidentliyə namizədi Aleksandr Milinkeviç Litva prezidenti Valdas Adamkusla Vilnüsdə görüşmüşdür. Bundan əlavə Litvada müxalifət üçün dinc aksiya, piket, mitinq təşkil edilməsinə dair kurslar təşkil olunur, belarus dilində müstəqil radio verlişləri efirə çıxır. Bu isə Belarus hakimiyyəti tərəfindən birmənalı qarşılanmır.

Latviya dövləti ilə Belarus Respublikasının münasibətləri də hakimiyyətin Belarus müxalifətini müdafiə etməsi səbəbi ilə gərgin olaraq davam edir. Tərəflər ölkələri təmsil edən səfirlik nümayəndələrini ittiham etməyi adi hala çevirmişdir. Latviya həmçinin Polşa, Litva və Ukrayna ilə birlikdə Belarusa qarşı münasibətlərdə öz fəaliyyətlərini birgə əlaqələndirən işçi qrupa daxildir.

Ukrayna ilə Belarusu şərqi slavyan ölkələri olmaqla tarix, mədəniyyət, qohumluq əlaqələri birləşdirir. Lakin Belarus Respublikasının dəyişməz lideri Aleksandr Lukaşenkonun xüsusilə Ukraynada “narıncı inqilab”dan sonra bu ölkəyə münasibəti birmənalı olmamışdır. Hələ sovet dövründən qalan Belarusiya ilə Ukrayna arasındakı təqribən 1000 kilometrlik inzibati-ərazi bölgüsünün rəsmi olaraq qanuniləşdirilməsi tələb olunur. 1997-ci ildə bu məsələdə razılıq əldə olunaraq müqavilə bağlanmasına baxmayaraq Belarus tərəfi keçmiş borclara görə sənədi təsdiq etməkdən imtina edir. Bu isə NATO ilə əməkdaşlıq edən Ukraynaya əlavə problem yaradır.

Belarus Respublikasında qeyri-demokratik rejim hesab etdiyi A.Lukaşenkonun hakimiyyətdən uzaqlaşdırılmasını təkid edən ölkələrdən biri də ABŞ-dır. 2000-ci ildən başlayaraq ABŞ-ın Belarus Respublikasındakı təcrübəli diplomatı Maykl Kozak bir-biri ilə çəkişən müxalifət qüvvələrini prezidentliyə namizəd Vladimir Qonçarik ətrafında birləşdirməyə müəssər oldu. Lakin 2001-ci ilin payızındakı seçkilərdə A.Lukaşenkoya qalib gəlmək mümkün olmadı. 2004-cü il oktyabrın 6-da ABŞ konqresi Belarusa qarşı “Belarusiyada demokratiyaya dair” Akt qəbul edərək ona qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Aktda eyni zamanda Belarus prezidenti A.Lukaşenkodan siyasi və dini əqidəsinə görə həbs edilənlərin azad edilməsini, müxalifət qüvvələrinə və kütləvi mətbuat vasitələrinə qarşı repressiyaların dayandırılması, Belarus Respublikasında ATƏT-in tələblərinə cavab verən azad prezident və parlament seçkilərinin keçirilməsi və s. tələb olunurdu. Oktyabrın 21-də Corc Buş “Belarusiyada demokratiyaya dair” Aktı imzaladı və bu qanun qüvvəsi aldı. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Aktı başqa dövlətin daxili işlərinə qarışmaq olduğu səbəbi ilə tənqid etdi.

Belarus hakimiyyəti elan etdi ki, ABŞ ölkənin xarici ticarətinin yalnız 3 faizini təşkil etdiyi üçün bu addım onları qorxutmur. 2007-ci ilin yanvarın 12-də ABŞ prezidenti C.Buş Belarus dövlətinə qarşı tətbiq edilən iqtisadi sanksiyanın müddətinin daha iki il uzadılmasına dair qanunu imzaladı.

1991-ci il dekabrın 8-də Belovej qoruğunda SSRİ-nin süqutu, MDB-nin yaranması ilə başa çatan sazişin imzalanması müstəqil Belarusiya ilə Rusiya arasında beynəlxalq münasibətlərin tarixinin yeni başlanğıcı hesab edilə bilər. Bunun ardınca hər iki müstəqil respublika 1992-ci il noyabrın 13-də azad ticarət haqqında saziş imzaladı. Belarus və Rusiya qarşılıqlı əlaqələri hər iki tərəf üçün əlverişlidir. İki yüz ilə yaxın Belarusiyanın əvvəlcə Rusiya imperiyasının, sonra isə SSRİ-nin tərkibinə daxil olması bu iki Şərqi slavyan dövləti mədəniyyətinin qaynayıb-qarışmasına səbəb olmuşdur. Başqa bir tərəfdən Belarusiyanın əhalisinin 10 faizə qədəri ruslardan və yaxud qarışıq ailələrdən ibarətdir. Təsərrüfat əlaqələrinin pozulması, xüsusilə Belarus Respublikasının iqtisadiyyatına ağır zərbə vurdu ki, onların da öz enerji daşıyıcıları yox idi. Geosiyasi və hərbi-strateji cəhətdən Belarusiyanın Rusiya üçün əlverişli tərəfdaş olmasının heç bir sübuta ehtiyacı yoxdur. Avropa ilə sərhəddə yerləşən Belarus Rusiyanın Avropa hissəsinin hərbi hava məkanının təhlükəsizliyinin təmin edilməsində əvəzsiz rol oynayır.

1995-ci il yanvarın 6-da Rusiya ilə Belarus Respublikası arasında Gömrük İttifaqı haqqında saziş, fevralın 21-də 10 il müddətinə dostluq, mehriban qonşuluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. 1996-cı il aprelin 2-də Rusiya Federasiyasının prezidenti B.N.Yeltsin və Belarus Respublikasının prezidenti A.Q.Lukaşenko Rusiya və Belarus Birliyinin yaradılması haqqında müqavilə imzaladılar. B.N.Yeltsin həmin vaxt iki aydan sonrakı prezident seçkilərini nəzərdə tutaraq, A. Lukoşenko isə ittifaq dövlətinə başçılıq etmək arzusu səbəbilə belə bir addım atdılar.Tezliklə məlum oldu ki, hər iki tərəfin birləşmə ilə əlaqədar öz məqsədləri var. Dövlət Dumasının razılığını ala bilməyən B.Yeltsin ittifaq müqaviləsinin Belarus variantını imzalamaqdan imtina etdi. Yeni hazırlanan ittifaq müqaviləsi 1997-ci il aprelin 2-də imzalansa da konkret heç bir vəzifə qarşıya qoymurdu. Odur ki, A.Lukaşenko elan etdi ki, Rusiya Birliyinin yaradılmasına hazır deyil. Beləliklə, Belarusiya ilə Rusiyanın münasibətlərində soyuqluq yarandı.

1999-cu il dekabrın 8-də B.N.Yeltsin istefa ərəfəsində ittifaq dövlətinin yaradılmasına dair müqaviləni imzaladı. Tərəflər tezliklə vahid dövlətin Konstitusiyasını hazırlamaq və onun ümumxalq müzakirəsinə çıxarmağı razılaşdırdılar. 2000-ci ilin yanvarın 26-dan müqavilə qüvvəyə mindi, Pavel Borodin Birliyin dövlət katibi seçildi. Rusiyadakı hakimiyyət dəyişikliyi bu prosesi 2002-ci ilə kimi təxirə saldı. Nəhayət, həmin il A.Lukaşenko Birliyə prezidentlərin növbə ilə başçılıq etməsi təklifini irəli sürdü. V.V.Putin təklif etdi ki, 2003-cü ilin mayında ittifaq konstitusiyası ilə bağlı referendum, yarım ildən sonra Rusiyadakı Parlament seçkiləri ilə eyni vaxtda ittifaq parlamenti və prezidentliyinə də seçkilər keçirilsin. V.Putin təkid edirdi ki, rəhbər orqanlar təşkil edilən zaman dövlətlərin miqyası və əhalisi hökmən nəzərə alınsın. Bu isə faktiki o demək idi ki, Belarus Rusiyanın tərkibinə daxil edilsin, A.Lukaşenko isə Rusiya Federasiyası prezidentinin Belarus dairəsi üzrə səlahiyyətli nümayəndəsinə çevrilsin. Buna cavab olaraq A.Lukaşenko Belarus Respublikasının Rusiya Federasiyasının 90-cı subyektinə çevirməyə cəhd etməkdə ittiham etdi. Hər iki dövlət başçısı arasında soyuq münasibət və sözlü sataşmalar davam etdi. 2003-cü ilin oktyabrında A.Lukaşenko bildirdi ki, hər iki dövlətin 2005-ci il yanvarın 1-də tətbiq edilməsi nəzərdə tutulan vahid valyutaya keçməyin heç bir mənası yoxdur.

Zaman-zaman Belarus və Rusiya münasibətləri vahid qaz nəqli konsorsiumu yaradılması səbbəilə gərginləşir. Ruisya Yamal-Avropa qaz xətti ilə qaz ixracı edir. Bu məqsədlə "Qazprom" xətti uzunmüddətli icarəyə götürməyi planlaşdırmasa da tərəflər vahid bir rəyə gələ bilmir. Bundan təzyiq vasitəsi kimi istifadə edən "Qazprom" rəhbərliyi dəfələrlə Belarusa verilən qazı dayandırmışdır.

2005-ci ildə postsovet respublikaları Ukrayna, Moldova, Gürcüstan və Azərbaycan GUAM çərçivəsində iqtisadi əlaqələri daha da inkişaf etdirmək məqsədilə birləşdikdən sonra

qeyri-demokratik imic qazanmış Belarus Respublikasının rəhbərliyi Rusiya Federasiyasına yaxınlaşmağa başladı. Buna cavab olaraq Rusiya 2004-cü ilin oktyabrında ABŞ-ın Belarusa tətbiq etdiyi iqtisadi sanksiyanı pislədi. 2005-ci ildə A.Lukaşenko tez-tez Rusiya rəsmi səfər etməyə başladı. Amma vahid dövlətin yaradılması məsələsində konkret addım atılmadı. 2006-ci ilin yazındakı prezident seçkilərində A.Lukaşenko yenidən Belarus Respublikasının prezidenti seçildi. Seçkinin nəticələrinin A.Lukaşenkonun xeyrinə saxtalaşdırılması səs-küyündən sonra "Qazprom" Belarusa verilən hər min kubmetr qaz üçün 200 ABŞ dolları tələb etdi. 2006-cı ilin ortalarında Rusiya Belarusun öz öhdəliklərini yerinə yetirməməsi səbəbilə 2002-ci ildəki hökumətlərarası sazişdən çıxdı. Uzun danışıqlardan və qarşılıqlı ittihamlardan sonra nəhayət 2007-ci ilin ərəfəsində 2007-2011-ci illərdə hər min kub metri 100 ABŞ doları olmaqla Belarusa qaz satılmasına icazə verildi. 2009-cu il noyabrın 27-də Belarus, Qazaxıstan və Rusiyanın dövlət başçıları 2010-cu il yanvarın 1-də Gömrük İttifaqının yaradılmasına dair sənəd imzaladılar. 2010-cu ilin iyulunda Belarus, Qazaxıstan və Rusiyanın daxil olduğu Gömrük İttifaqı fəaliyyətə başladı. 2010-cu ilin ikinci yarısından RF-nın rəhbərliyi ilə prezident A.Lukaşenkonun münasibətləri yenidən kəskinləşdi. 2014-cü ilin dekabrından Belarusun gömrük orqanı Belarus- Rusiya sərhədində nəzarəti tam bərpa etdi. 2011-ci il noyabrın 18-də Belarus, Qazaxıstan və Rusiya arasında 2012-ci il yanvarın 1-dən qüvvəyə minən Vahid İqtisadi Məkan (VİM) adlanan Avrasiya iqtisadi birliyi haqqında müqavilə imzalandı.

2014-cü il mayın 29-da Astanada Belarus Respublikasının prezidenti Aleksandr Lukaşenko, Qazaxıstan prezidenti Nursultan Nazarbayev və Rusiya Federasiyasının prezidenti Vladimir Putin Avrasiya İqtisadi İttifaqının yaradılması haqqında müqavilə imzaladı. Müqavilə 2015-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Belarus Respublikası ilə Rusiya Federsiaysı arasında hərbi tərəfdaşlıq davam edir. Belarus Respublikasının ərazisində Rusiya hərbi qüvvələrinin iki obyekti fəaliyyət göstərir. Baranoviçdə yerləşən "Volqa" RLS raket hücumunu xəbər vermək məqsədilə yaradılaraq daşınmaz əmlakı və infrastrukturu ilə bilikdə 1995-ci il yanvarın 6-da bağlanan sazişə əsasən 25 illiyə, yəni 2020-ci ilə kimi Rusiyaya icarəyə verilmişdir. Vileykadakı 43-cü rabitə qovuşağı isə Rusiya HDF-nın Atlantik, Hind və Sakit okeanın bir hissəsində hərbi növbə çəkən dənizaltı atom gəmiləri ilə uzun dalğalarda əlaqə yaratmaq məqsədilə qurulub. 2012-ci il iyulun 22-də Qazaxıstanın Baykonur kosmodromundan Belarus kosmik gəmisinin (BKA) ilk uçuşu baş tutdu ki, bununla da Belarus Respublikası kosmik dövlət statusu qazandı.

Belarus Azərbaycan əlaqələri son illər dinamik inkişaf edir. 2015-ci il iyunun 11-də Belarusun prezidenti A.Lukaşenko Azərbaycanda işgüzar səfərdə olarkən ölkə başçısı İlham Əliyevlə görüşüb, idman obyektlərində olub, Birinci Avropa oyunlarının rəsmi açılışında iştirak edib. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2015-ci il noyabrın 27-29 tarixində Belarus Respublikasında rəsmi səfərdə olub. Hər iki ölkənin başçısı rəsmi Bəyannamə imzalayaraq qarşılıqlı münasibətlərin bütün aspektlərinə toxunub. Bəyannamədə iqtisadi, siyasi, humanitar, hərbi-sənaye sahəsində qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi xüsusi qeyd olunub. Bütün bunlar dost və qardaş Azərbaycan-Belarus əlaqələrindən xəbər verir.

# II BÖLMƏ

# QƏRBİ SLAVYAN ÖLKƏLƏRİ 1918-2015-ci İLLƏRDƏ

## Polşa 1918-2015-ci illərində

### Polşa 1918-1939-cu illərdə

**Müstəqil Polşa Respublikasının yaranması.** 1917-ci ilə qədər Polşa torpaqları parçalanmış halda qalmasına baxmayaraq müstəqil dövlət yaratmaq uğrunda Polşa xalqının milli-azadlıq mübarizəsi davam etmişdi. Üç hissəyə parçalanmış Polşanın vahid dövlət halında birləşdirilməsinə ilk addım Rusiyada Fevral inqilabından sonra atıldı. 1917-ci il martın 27-də Petroqrad Fəhlə və əsgər deputatları soveti “Polşa xalqına” müraciət qəbul edərək bildirdi ki, Polşa müstəqil dövlət yaratmaq hüququna malikdir. Rusiyanın Müvəqqəti hökuməti də 1917-ci il martın 29-da “Polyaklara” müraciət qəbul edərək polyakların müstəqil dövlət yaratmaq hüququnu göstərdi. 1917-ci ilin iyununda Fransanın prezidenti R.Puankare Fransada Polşa muxtar ordusunun yaradılması haqqında sənəd imzaladı. 1918-ci ilin yanvarında ABŞ-nın prezidenti V.Vilson da Polşa ərazisində müstəqil Polşa dövlətinin yaradılmasının vacibliyini bəyan etmişdi.

Qərbdə və ABŞ-da yaşayan polyakların fəallığı sayəsində 1917-ci il avqustun 15-də R.Dmovski başda olmaqla Polşa Milli Komitəsi yaradıldı və bu Komitəni Fransa, Böyük Britaniya, İtaliya, ABŞ hökumətləri tanıdılar. 1917-ci ilin sentyabrında Almaniya və Avstriya-Macarıstanın imperatorları Regent şurası təsis etdilər və ona Polşa torpaqlarının kral və ya regent hakimiyyəti altına keçməsinə qədər qanuni və icraedici səlahiyyətlər verdilər.

1917-ci ilin oktyabrında Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər də 1917-ci il noyabrın 2(15)-də imzalanmış “Rusiya xalqlarının hüquq Bəyannaməsi”ndə elan etdi ki, Rusiya xalqları öz müqəddəratını azad surətdə təyin etmək və hətta ayrılaraq müstəqil dövlət yaratmaq hüququna malikdirlər.

Brest-Litovskdə gedən sülh danışıqları zamanı Almaniya və Avstriya-Macarıstan Ukrayna Mərkəzi Radası ilə 1918-ci il fevralın 9-da imzalanmış sazişlə Polşa torpağı – Xelmşinanın və Qalitsiyanın bir hissəsini Ukraynaya verdilər. Bu Polşa cəmiyyətində böyük etirazla qarşılandı və Alman-Avstriya – Ukrayna müqaviləsi satqınlıq kimi qiymətləndirildi. 1918-ci il martın 3-də Brest müqaviləsi imzalandı və Sovet Rusiyası Polşa çarlığının mərkəzi dövlətlər tərəfindən işğal edildiyini qəbul etdi. 1918-ci il avqustun 29-da Rusiya Xalq Komissarları Soveti keçmiş Rusiya imperiyası tərəfindən Polşanın bölüşdürülməsi haqqında Prussiya və Avstriya ilə bağladığı bütün müqavilələrdən imtina etmək haqqında dekret elan etdi.

1918-ci ilin yayında Almaniyanın qərb cəbhəsində ardıcıl məğlubiyyətlərindən sonra Dördlər ittifaqının məğlubiyyəti labüd idi. Belə bir şəraitdə Polşa torpaqlarında hakimiyyət məsələsi önə çıxdı. Almaniya və Avstriya-Macarıstan tərəfindən yaradılmış Regent (naiblər) şurası və Antanta tərəfindən tanınan Parisdə yerləşmiş Polşa Milli Komitəsi hakimiyyətə sahib olmaq üçün fəaliyyətini gücləndirdi. 1918-ci il oktyabrın əvvəllərində Naiblər şurası parlament seçkilərinə hazırlıq elan etdi. Əvvəllər almanlardan asılı olan orduya rəhbərlik Naiblər şurasının əlinə keçdi.

1918-ci il oktyabrın 28-də Avstriya-Macarıstanın hərbi əməliyyatlarını dayandırılması haqqında Antanta ölkələrinə müraciətindən sonra polyak xalqının mübarizəsi gücləndi. Sol partiyalar tərəfindən ümumpolşa hökumətinin yaradılmasına başlandı. 1918-ci il noyabrın 7-də Lüblində Qalitsiya sosialistlərinin lideri İqnasi Daşinski başda olmaqla Polşa Respublikasının Müvəqqəti xalq hökuməti yaradıldı. Hökumət geniş demokratik azadlıqlar və sosial hüquqlar, meşələrin və iri torpaq mülkiyyətinin milliləşdirilməsini elan etdi, gələcəkdə sənayenin bir sıra sahələrinin milliləşdirilməsi, aqrar islahatın aparılması vəd olundu.

1918-ci il noyabrın 10-da həbsdən azad edilmiş Yuzef Pilsudski Varşavaya qayıtdı. Naiblər şurası və İqnasi Daşinskinin Lüblin hökuməti Y.Pilsudskinin hakimiyyətini qəbul

etdi. Noyabrın 14-də Naiblər şurası ölkədə bütün hakimiyyətin Y.Pilsudskiyə verildiyini elan edərək özünü buraxdı.Y.Pilsudski xalq dairələrində çarizmin düşməni kimi məşhur idi. O, siyasi fəaliyyəti ərzində Polşa xalqı içərisində ruslar əleyhinə millətçilik hissi oyatmağa və Polşa xalqını Almaniya və Avstriya-Macarıstanla əməkdaşlıq etməyə sövq edirdi.

Birinci Dünya müharibəsi dövründə Pilsudski Avstriya-macar və alman orduları tərəfindən döyüşlərdə iştirak edən Polşa könüllü dəstələrinə – “Polşa legionuna” komandanlıq edirdi. Keçmişdə Polşa Sosialist partiyası –“inqilabi fraksiya”nın (PSP-“fraksiya”) görkəmli xadimi olmuş Pilsudski sosializmin düşməni idi və çar hakimiyyətini Polşa hakim siniflərinin Almaniya və Avstriya-Macarıstana arxalanan hissəsinin hakimiyyəti ilə əvəz etmək məqsədi ilə Polşada sosialist hərəkatından istifadə etməyi qarşısına məqsəd qoymuşdur. Y.Pilsudskinin göstərişi ilə polyak legionerləri alman və avstriya-macar ordularına sədaqət andı içməyə etiraz etdikləri üçün Y.Pilsudski alman hökumət orqanları tərəfindən Maqdeburqda həbsxanaya salınmışdır.

Naiblər şurası 1918-ci il noyabrında hakimiyyəti Y.Pilsudskiyə təhvil verdikdən sonra Pilsudski Endjey Moraçevski başqa olmaqla noyabrın 18-də Varşavada yeni hökumət yaratdı. Hökumət fəaliyyət proqramına sosialist islahatlar, o cümlədən 8 saatlıq iş günü, xəstəliyə görə sığorta, dövlət müəssisələrində minimal əmək haqqının saxlanması, mənzil hüququnun qorunması, əmək birjası təşkili və b.tədbirlər daxil etdi. Antanta ölkələri və ABŞ bu hökuməti tanımaqdan imtina edir və 1917-ci il avqustun 15-də R.Dmovskinin başçılığı altında yaradılmış Polşa Milli Komitəsi ilə əməkdaşlıq edirdilər.

1918-ci il noyabrın 22-də Pilsudski dövlətin müvəqqəti rəisi təyin edildikdən sonra milli demokratlarla fəal əməkdaşlığa çalışırdı. 1919-cu ilin yanvarında Y.Pilsudski E.Moraçevski hökumətini istifeya göndərdi və yeni hökumətin təşkilini Polşa Milli Komitəsinə daxil olan İ.Paderevskiyə tapşırdı.Yeni Baş nazirin siyasi fəaliyyət sahəsində təcrübəsi olmasa da, ölkədə və onun hüdudlarından kənarda görkəmli musiqişünas və qızğın vətənpərvər kimi çox məşhur idi, prezident V.Vilsonla və digər Qərb siyasi xadimləri ilə sıx əlaqə saxlayırdı. Bir baş nazir kimi İqnasi Paderevski Polşanın bütün əsas siyasi qüvvələri və müttəfiq dövlətləri qane edirdi. Nəticədə Polşanın yeni hökumətini Antanta rəsmən 1919-cu ilin yanvar-fevral aylarında tanıdı. Yeni hökuməti ilk tanıyan 1919-cu il yanvarın 30-da ABŞ oldu.

Müstəqil Polşa dövlətinin yaradılması bütün Avropada demokratik və inqilabi şəraitin fəallaşması zəminində baş verirdi. Məhz bu amil Polşada monarxiya yaradılmasına imkan vermədi, baxmayaraq ki, mühafizəkar qüvvələr buna tərəfdar idi. 1919-cu il yanvarın 26-da Polşada Qanunverici Seymə demokratik prinsiplərə əsaslanan – birbaşa, ümumi, bərabər, gizli və proporsional seçkilər keçirildi. Bununla da yenidən dirçələn Polşanın demokratik dövlət kimi müstəqilliyinin təşəkkül tapmasının birinci mərhələsi başa çatdı. 1919-cu il fevralında 10-da azad Polşada birinci Seym çağrıldı. Dövlət başçısı Yuzef Pilsudski deputatlar qarşısında çıxış edərək “yüz əlli il davam edən mübarizədən” sonra əldə edilən müstəqillik zəfərinin əhəmiyyətinə vurğu etdi.

Polşa Konstitusiyasının hazırlanması üzərində iş iki il davam etdi. Bütün bu müddət ərzində seymdə və mətbuatda dövlət quruluşunun forması, hakimiyyətin ayrı-ayrı qollarının səlahiyyətləri, seçki hüququnun prinsipləri haqqında qızğın müzakirələr oldu. 1921-ci il martın 17-də seym Konstitusiyanı qəbul etdi və bu “mart konstitutsiyası” adını aldı. Bu konstitusiya o dövrdə dünyada ən demokratik konstitusiyalardan biri olaraq ölkənin bərpa olunmasının birinci mərhələsini başa çatdırdı.

Konstitusiya Polşanı respublika elan etdi, ali hakimiyyət isə xalqa məxsus idi. Qanunverici hakimiyyət seym və senatdan ibarət olan parlamentə məxsus idi. İcraedici hakimiyyət prezidentə və hökumətə, məhkəmə hakimiyyəti isə müstəqil hakimlərə məxsus idi. İcra hakimiyyətinin başçısı, 7 il müddətinə hər iki palata tərəfindən birgə seçilən prezident idi. Prezident parlament tərəfindən təsdiq olunan hökuməti təyin edir, daxili siyasətə rəhbərlik edir, həmçinin dövləti beynəlxalq miqyasda təmsil etmək hüququna malik idi. Konstitusiya vətəndaşların əsas vəzifələrini və onların hüquqlarını təsbit etdi.

Yeni yaradılmış dövlətin qarşısında duran mürəkkəb məsələlərdən biri sərhədlər mə-

sələsi idi. 1918-ci il dekabrın sonunda Poznanda Voysex Korfant və general Yuzef Dovbur-Musniskinin başçılığı altında Böyük Polşa üsyanı başladı. 1918-ci ilin dekabrında bu ərazilərdə başlanan üsyan 1919-cu ilin fevralına qədər davam etdi və demək olar bu ərazilər almanlardan azad edildi.

Polşa-Almaniya sərhədləri məsələsi Parisdə həll edildi. Polşa nümayəndələri Yuxarı Sileziya, Şərqi Pomorye, Qdansk (Dansiq), Şərqi Prussiyanın bir hissəsinin (üç rayon) Polşaya qaytarılmasına nail oldular. Bu məsələdə Polşanı Fransa müdafiə edirdi, çünki Fransa Almaniyanın maksimum zəiflədilməsinə çalışırdı. Faktiki olaraq Versal sülhünə görə Polşaya Böyük Polşadan başqa, Şərqi Pomoryenin yalnız bir hissəsi keçdi. Qnadsk sərbəst şəhər olaraq qalır, Yuxarı Sileziya və Şərqi Prussiyanın üç rayonunun Varmiya, Mazur və Povislenin hansı ölkəyə mənsub olması rəy sorğusu ilə həll edilməli idi. Şərqi Prussiyada 1920-ci il iyunun 11-də keçirilən plebisitdə Polşa uduzdu, Almaniya qələbə çaldı. 1921-ci ilin oktyabrında Yuxarı Sileziyanın 46% əhalisinin yaşadığı ərazi, o cümlədən Katovitse və Xojuv şəhərləri də daxil olmaqla zəngin kömür hövzələri rayonları Polşaya birləşdirildi. 1922-ci ilin iyulunda bu ərazi muxtariyyət hüququ alaraq Polşanın idarəçiliyinə verildi. Polşa-Çexoslovakiya sərhədləri isə mübahisəli ərazilər olaraq qalmaqda davam edirdi ki, buraya da Zaolzyenin torpaqları daxil idi (Çeşin Sileziyası).

Şərq sərhədlərinin müəyyənləşdirilməsi müəyyən çətinlik yaradırdı. Y.Pilsudski Polşa üçün başlıca təhlükənin Rusiya olduğunu bildirdi. 1920-ci il aprelin 26-da Polşa qoşunları Petlyuranın komandanlığı altında olan dəstə ilə birlikdə Ukraynaya hücum etdilər və mayın 7-də Kiyev şəhərini ələ keçirdilər. Ancaq birinci vəzifəni – Qırmızı Ordunun əsas qüvvələrini darmadağın etmək kimi işi həll edə bilmədilər. Ukrayna xalqının Simon Petlyuranı müdafiə edəcəyi haqqında ümidlər də özünü doğrultmadı. 1920-ci il mayın 10-da Qırmızı Ordunun Belarusiyaya, mayın 26-da isə Ukraynaya hücumu başlandı. İyunun 10-da Polşa qoşunları Kiyevi tərk edərək bütün cəbhə boyu geri çəkilməyə başladı. Həm də qarşıdakı döyüşlərə qüvvələrini saxlamaq üçün polyaklar çox sürətlə geri çəkilirdilər. Mixail Tuxaçevskinin komandanlığı altında sovet qoşunları 1920-ci ilin iyulunda Polşa sərhədlərini keçərək Varşavaya doğru irəliləyirdi.

Gənc Polşa dövləti 1920-ci il iyulda Belçikanın Spa şəhərində konfransa toplanmış böyük dövlətlərin rəhbərlərindən yardım tələb etdi. Britaniyanın xarici işlər naziri lord Kerzon xətti Polşanın etnoqrafik sərhədlərinə uyğun gəlirdi və Sovet-Polşa dövlət sərhədi üçün əsas ola bilərdi. Lakin Qırmızı Ordu Polşanın içərilərinə hücumunu davam etdirir və tutmuş olduğu ərazilərdə sovet hakimiyyəti orqanları yaradırdı. İyunun 28-də Qırmızı Ordu hissələri böyük sənaye mərkəzi olan Belostok şəhərini azad etdi. İyulun 30-da burada Polşa inqilabı hərəkatının görkəmli xadimi Yulian Marxlevski başda olmaqla müvəqqəti Polşa İnqilab Komitəsi – ilk fəhlə-kəndli hökuməti yaradıldı. Onun tərkibinə F.Dzerjinski, F.Kon, Y.Pruxnyak və Y.Unşlixt daxil idilər. Bu komitə fabriklərin, mədənlərin, mülklərin milliləşdirildiyini, kilsənin dövlətdən və məktəbin kilsədən ayrıldığını elan etdi. Ən yaxın siyasi vəzifə kimi Polşa Sovet Sosialist Respublikasının yaradılmasını irəli sürdü. Lakin Müvəqqəti Polşa İnqilabı Komitəsi (“Polrevkom”) tezliklə öz fəaliyyətini dayandırmağa məcbur oldu.

Qırmızı Ordunun etnik Polşa torpaqlarına daxil olması polyaklarda güclü vətənpərvərlik hisslərinin artmasına səbəb oldu. Belə bir şəraitdə Qrabskinin hökuməti istefa verdi və “Pyast” Polşa Kəndli partiyasının lideri Vinsent Vitos (1874-1945) və İqnasi Daşinski başda olmaqla Milli müdafiə koalisyon hökuməti yaradıldı. Könüllülərdən ibarət 100 minlik ordu yaradıldı, general Yuzef Qaller isə komandan təyin edildi. Avqustun 12-18-də Varşava uğrunda həlledici döyüş baş verdi.1920-ci il avqustun 14-də Qırmızı Ordunun hücumu dayandırıldı, sonra polyak qoşunları onları tələsik geri çəkilməyə məcbur etdi. Cəbhə xətti yenidən şərqə tərəf çəkildi. Əks hücumun gedişində Pilsudskinin əmri ilə Litva-belarus diviziyasının komandanı general Lyusian Jeliqovski 1920-ci il oktyabrın 9-da Vilnonu tutdu, bu ərazidə Orta Litva dövləti yaradıldı və 1923-cü ildə Vilno seyminin qərarına əsasən Polşaya birləşdirildi.

1920-ci il avqustun 16-17-də öz arxasından çox irəli getmiş Qırmızı Ordu hissələri

Varşava yaxınlığında məğlub olmağa və geri çəkilməyə başladılar. Qələbələrə baxmayaraq, Polşa hökumətinin müharibəni davam etdirmək gücü yox idi, Sovet hökuməti ilə avqustda başlanmış danışıqlara yenidən getməyə məcbur oldu. Polşa-Sovet müharibəsi 1921-ci il martın 18-də Riqada sülh müqaviləsinin bağlanılması ilə başa çatdı. Bu müqaviləyə əsasən Qərbi Ukrayna və Qərbi Belarusiya Polşanın tərkibinə qatıldı. Polşa müharibənin əvvəllərində tutulmuş sağsahil Ukraynasının və Belarusiyanın bir sıra ərazilərinə olan iddialarından əl çəkdi.

Polşanın Latviya və Rumıniya ilə münasibətləri ayrıca müqavilələrlə nizama salındı. Litva Polşanın tutmuş olduğu Vilnüsü ona güzəştə getməyə razı ola bilməzdi və 1938-ci ilə qədər bu dövlətlər arasında diplomatik münasibətlər olmamışdır. Bununla yanaşı, qərbi Polşa torpaqlarının xeyli hissəsi Polşanın dövlət sərhədlərindən kənarda, Almaniyanın hakimiyyəti altında qaldı. Antanta dövlətləri, Millətlər Cəmiyyəti Polşanın şərq sərhədlərini tamamilə 1923-cü ildə tanıdılar. Şərq sərhədlərinin müəyyən edilməsilə Polşanın müstəqil, suveren, beynəlxalq münasibətlərinin fəal iştirakçısı kimi dünyanın siyasi xəritəsinə qaytarılması prosesi başa çatdı. Diplomatik və hərbi səylər nəticəsində Polşa çoxmillətli dövlət kimi yaradılmış oldu. İkinci Reç Pospolitanın ərazisi 388 min kv. km-dən çox idi, bu da Avropda 6-cı ölkə demək idi. 1921-ci il siyahıyaalmasına görə ölkənin əhalisi 27 milyon nəfərə çatırdı. Polşa əhalisinin təqribən üçdə bir hissəsin ukraynalılar, belaruslar, yəhudilər, litvalılar və almanlar təşkil ediridi. Əhalinin 14,3 faizi ukraynalılar, 7,8 faizi yəhudilər, 4,7 faizi almanlar və 3,9 faizi belaruslardan ibarət idi.

***1922-1939-cu illərdə Polşanın siyasi inkişafı.*** Rusiya ilə müharibə başa çatdıqdan sonra Mart Konstitusiyasına əsasən, Qanunverici seym buraxıldı, parlamentə yeni seçkilər keçirildi. 1922-ci il noyabrın 5-də parlamentə keçirilən seçkilər nəticəsində yeni seym və senat ölkədə fəaliyyət göstərən 200 siyasi partiyaları təmsil edən deputatlardan və milli azlıqların nümayəndələrindən ibarət formalaşdı. 1922-1926-ci illər Polşa parlament sisteminin ən zəif yeri böyük səlahiyyətlərə malik olan seymin siyasi parçalanması idi. Siyasi partiyalardan heç biri nəzərəçarpacaq üstünlük qazana bilmədi. Qalitsiyanın ukraynalı əhalisinin əsas hissəsi bu regionun polyaklar tərəfindən işğalına etiraz əlaməti olaraq seçkini boykot etdi. Pilsudskinin cəbhəsi də məğlubiyyətə uğradı, onunla əlaqəli olan qruplar seymdə bir dənə də olsun yer ala bilmədilər.

1922-ci il dekabrın 9-da müstəqil Polşada ilk prezident seçkiləri keçirildi. Yeni seymlə senatın müvəqqəti "dövlət rəisi" əvəzinə prezident seçmək üçün birgə iclası oldu. Pilsudski özünün namizədliyini irəli sürməkən imtina etdi. Beş dəfə səsvermədən sonra qalibi müəyyən etmək mümkün oldu. Bu Polşa kəndli partiyasının nümayəndəsi Qabriel Narutoviç idi. Onun namizədliyini sollar, mərkəzçi qruplar və milli azlıqlar müdafiə etdi. Sağçı partiyalar milli demokratlar ətrafında birləşərək güclü antiprezident kampaniyasına başladılar.

1922-ci il dekabrın 11-də Q.Narutoviçin andiçmə günündə küçə nümayişləri təşkil edildi. Dekabrın 16-da prezident Q.Narutoviç nasional-demokratların tərəfdarı, rəssam E.Nevyadomski tərəfindən sui-qəsd nəticəsində öldürüldü. Bu cinayət geniş xalq kütlələrinin hiddətinə səbəb oldu, lakin prezident öldürülən günü hakimiyyətə gəlmiş general V.Sikorskinin başçılıq etdiyi hökumət hərbi vəziyyət elan etdi. Dekabrın 20-də PSP-nin keçmiş üzvü, kooperativ hərəkatının xadimi, 1918-ci ildə PKP "Pyasta" daxil olan Stanislav Voysexovski Polşanın yeni prezidenti seçildi.

Polşa parlamentində siyasi pərakəndəlik hökm sürürdü. 1923-cü ildə seymdə 17, 1926-cı ildə isə 26 fraksiya var idi. 1922-1923-cü illərdə Vladislav Sikorskinin hökumətin sollar və mərkəzçi partiyalar müdafiə edirdi, 1923-cü ildəki V.Vitosun hökuməti sağlar və mərkəz qrupuna arxalanırdı, Vladislav Qrabskinin 1923-1925-ci illər kabinetini parlamentdə təmsil olunmayan qüvvələr müdafiə edirdi, Aleksandr Skşinskinin 1925-1926-cı illərdə hökuməti sağlardan, mərkəzçilərdən və sollardan təşkil olunmuşdu. 1926-cı il mayın 10-da yenidən V.Vitos başda olmaqla sağmərkəzçi hökumət təşkil edildi. Bu hökumətin hakimiyyətə gəlməsi Polşada iqtisadi vəziyyətin yenidən pisləşməsi dövrünə təsadüf etdi. Ölkədə inflyasiya hökm sürürdü. Maliyyə böhranın səbəblərindən biri iqtisadiyyatın hiperinflyasiyaya, yəni pulun dəyərdən düşməsinə məruz qalması idi. Yalnız Vladislav Qrabski başda olmaqla iki ilə

yaxın fəaliyyət göstərən hökumət 1924-cü ilin aprelində pul islahatı keçirdi, yeni milli valyutanı – Polşa zlotısın dövriyəyə buraxdı.

Qanunverici hakimiyətin hesabına idarəedici hakimiyyətin möhkəmlənməsi məqsədilə konstitusiyada dəyişiklik aparılması zərurəti getdikcə daha çox hiss olunurdu. Bu şəraitdə 1926-cı il mayın əvvəlində növbəti hökumət böhranından sonra prezident Stanislav Voysexovski sağ mərkəzçi partiyaların nümayəndələrindən ibarət Vinsenti Vitos başda olmaqla Xyeno-Pyast adlanan hökumət təşkil etdi.Bundan istifadə edən pilsudskçılər, açıq irtica hökuməti ilə mübarizə adı altında çevriliş etmək və ölkədə öz diktaturalarını qurmaq üçün vaxtı əlverişli hesab etdilər. Hökumət qüvvələri Vitosun hökumətini müdafiə etmək üçün paytaxta doğru hərəkətə başladılar. Mayın 14-də dəmiryolçuların tətillərinin başlanması ilə əlaqədar hökumət qüvvələri paytaxta girə bilmədilər. Eyni zamanda Pilsudskinin köməyinə gələn qüvvələr heç bir maneəyə rast gəlmədən paytaxta daxil oldu. Ölkə vətəndaş müharibəsi təhlükəsi qarşısında idi. Belə bir şəraitdə prezident Voysexovski və hökumət istefa verdi. Bu Pilsudskinin qələbəsi, dövlət çevrilişi demək idi.

Dövlət çevrilişi edən müstəqil Polşanın ilk marşalı Pilsudski formal olaraq özünü diktaror elan etmədi, həm də parlamenti buraxmadı. 1926-cı il mayın 31-də parlament Pilsudskini prezident seçdi. Konstitutsiyanın prezidentə az səlahiyyətlər verməsini əsas tutaraq o, bu vəzifədən imtina etdi. İyunun 1-də Pilsudskinin silahdaşı, Lvov Politexnik institutunun kimya elmləri üzrə professoru İqnasi Mostitski Polşanın prezidenti vəzifəsinə seçildi. Real hakimiyyət əslində Pilsudskinin əlində cəmləşmişdi. 1926-cı ilin avqustunda ölkə prezidentinin dekreti ilə Pilsudski silahlı qüvvələrin Baş müfəttişi təyin edildi ki, bu da ona orduya tam nəzarəti həyata keçirməyə imkan verirdi. Parlament demokratiyasının və parlamentçiliyin zahiri atributlarını saxlamaqla Pilsudski ölkədə dayaqları ordu və dövlət aparatına söykənən avtoritar diktatura yaratdı. Lvov Politexnik institutunun professoru Kazımej Bartel hökuməti "sanasiya" proqramını təqdim etdi. Polşada «sanasiya» (latın dilində sağlamlaşdıma) rejimi – ölkənin siyasi və ictimai həyatını sağlamlaşdırma şüarı altında dövlət çevrilişi həyata keçirildi. Çevrilişi leqallaşdırmaq və demokratiyanın saxlanıldığını nümayiş etdirmək məqsədilə Pilsudski parlamenti buraxmadı və 1921-ci il Konstitusiyasını ləğv etmədi. 1926-cı ilin avqustunda Konstitusiyada bir sıra əsaslı dəyişikliklər edildi. Pilsudski deputatlarla məsləhətləşmədən seymi və senatı vaxtından əvvəl buraxmaq, yeni seçkilər təyin etmək, parlamentin təsdiq edib etməməsindən asılı olmayaraq qanun qüvvəsinə malik dekretlər vermək hüququ aldı. K.Bartel hökuməti yeni sənaye müəssisələri açdı, Qdnask limanının tikintisini başa çatdırdı, ölkənin milli valyutasını dəyərə mindirdi, aqrar islahatları davam etdirdi.

1927-ci ilin martında Müstəqil Kəndli partiyasının, Belarusiya fəhlə-kəndli qromadasının, Ukrayna inqilabi-demokrat «Solrob» təşkilatının fəaliyyəti qadağan edildi, onların liderləri deputat toxunulmazlığından məhrum edilərək həbsə alınırdılar. Bunun səbəbi isə onların qeyri-leqal Polşa Kommunist partiyası ilə əlaqə saxlaması idi.

1928-ci ildə keçirilən parlament seçkilərindən sonra, solçu partiyaların müəyyən qədər mandat əldə etməsi ilə əlaqədar parlament demokratiyasının tərəfdarları ilə rejim arasında toqquşma artıq qaçılmaz idi. 1929-cu ildə 6 solçu partiyaları və mərkəzi partiya arasında bağlanmış sazişlə əlaqədar mərkəzçi solu adlanan blok yaradıldı. Nasional-demokratlar və kommunistlər bu bloka daxil olmadılar. Polşada demokratiyanın müdafiəsi şüarları altında mitinqlər və nümayişlər başladı. Bu hadisələr əsasən 1926-ci ildə Roman Dmovski tərəfindən əsası qoyulmuş Böyük Polşa Düşərgəsi – parlamentdən kənar təşkilat tərəfindən idarə olunurdu.

Seymdə «sanasiyaya» qarşı mübarizədə əhəmiyyətli uğurlar qazana bilməyən Mərkəzçi solu 1930-cu ilin iyununda diktaturanın devrilməsi və Polşada demokratiyanın bərpa edilməsi şüarları altında Krakovda xalqın hüquqlarının müdafiəsi və azadlığına dair konqres keçirdi. Konqres 30 minlik nümayişlə başa çatdı. Xalqı hərəkətə gətirmək üçün bu cür konqresləri 1930-cu ilin sentyabrında daha 21 şəhərdə keçirmək qərara alındı. Ölkədə tətil hərəkatı geniş vüsət aldı. Tətillərin sayı və müddətinə, tətilçilərin miqdarına görə Polşa kapitalist ölkələri içərisində birinci yerlərdən birini tuturdu. 1931-ci ilin mayında tətil hərəkatı sürətlə artmağa

başladı. Lodz və Belostok toxucularının, Dombrovsk şaxtaçılarının tətilləri oldu. 1932-ci il martın 16-da 300 minə qədər fəhlənin iştirak etdiyi birgünlük tətili oldu. Polşada 1932-ci ildə 48, 1933-cü ildə isə 108 belə tətil keçirilmişdi. Tətillərin bu növü beynəlxalq fəhlə hərəkatında "Polşa tətilləri" adını aldı.

Müxalifətin fəaliyyətinin fəallaşması ilə əlaqədar seym buaxıldı, müxalifətin rəhbərləri, o cümlədən keçmiş baş nazir Vinsenti Vitos həbs edildi. Repressiya dalğası bütün ölkəni bürümüşdü, həbs edilənlərin sayı 5 min nəfərdən çox idi. Aksiyanın gedişində 30 keçmiş deputat və 100 görkəmli ukraynalı siyasi və ictimai xadimlər həbs edildi və Brest qalasına salındı. 1930-cu ilin noyabrında parlamentə keçirilmiş seçkilər «Brest» seçkiləri adını aldı, «sanasiya» nəhayət qələbə qazandı, seym və senatda yerlərin yarıdan çoxunu qazandı. Ölkədə repressiyalar artdı. 1934-cü ildə daxili işlər naziri B.Peratskiyə qarşı sui-qəsddən sonra Qərbi Belarusiyada Bereze-Kartuskda həbs düşərgəsi təşkil edildi və istintaqsız-məhkəməsiz inzibati qaydada rejimin siyasi əleyhidarlarını buraya göndərirdilər.

1935-ci il aprelin 23-də «sanasiya» rejimini daha da möhkəmlədən yeni Konstitusiya qəbul edildi. 1935-ci il Konstitusiyası dövlət başçısının şəxsi diktaturası quruluşunu yaratdı ki, bununla da dövlət başçısı yalnız "Allah və tarix" qarşısında məsul elan edilirdi. 7 il müddətinə hakim düşərgənin təklif etdiyi iki namizəd arasından ümumi səsvermə yolu ilə seçilən prezident baş naziri və nazirləri vəzifəyə təyin edə, həm də geri çağıra bilər, parlamentin hər iki palatasını həm çağıra, həm də buraxa bilərdi. O, silahlı qüvvələrin həm də ali baş komandanı idi.

1935-ci il mayın 12-də marşal Yuzef Pilsudski vəfat etdi, «sanasiya» öz liderini itirdi. Marşalın tabutu Vaveldə baş kilsədə Polşa krallarının məqbərələri ilə yanaşı yerləşdirildi, ürəyi isə Vilnonun Rossa qəbiristanlığında anasının yanında dəfn edildi. Millətlər Cəmiyyəti Avropanın gözündə qəhrəmanlıq simvolu olan Yuzef Pilsudskinin xatirəsini xüsusi iclasla yad etdi. 1935-ci ildə parlamentdə keçirilən seçkilər göstərdi ki, ictimaiyyətin «sanasiyaya» etimadı xeyli azalmışdı. Rəsmi məlumata əsasən müxalifət partiyalarının seçkiləri bayokt etdiyindən səsvermədə seçicilərin cəmi 46,5 faizi iştirak etmiş, səslərin isə yalnız 35,5 faizi etibarlı hesab edilmişdir.

Y.Pilsudskinin ölmündən sonra hakim düşərgənin içərisində parçalanma baş verdi, prezident Valeri Slavek siyasətdən uzaqlaşdı. General Edvard Rıdz-Smıqlov Marşal seçildi və silahlı qüvvələrin Baş müfəttişi vəzifəsinə təyin edildi. 1937-ci ildə hakim düşərgəsinin tərəfdarları onun ətrafında birləşərək Milli Birlik düşərgəsi (OZON), yeni siyasi qrupun yaratdılar. 1936-cı ilin ortalarında hökumətin sədri vəzifəsini general Felisian Slava Skladkovski tutdu, baş nazirin müavini və maliyyə naziri vəzifələrini birlikdə görkəmli iqtisadçı Eyqeniuş Kvyatkovski aldı.

Yuzef Klemens Pilsudski 1867-ci il dekabrın 5-də Litvanın Şvençyenski rayonunun Zalavas kəndində anadan olmuşdur. Vilnoda rus gimnaziyasında təhsil almışdır. 1885-ci ildə Xarkov Universitetində tibb elmini öyrənərkən xalqçılara qoşulmuşdur. 1887-ci il martın 22-də böyük qardaşı Bronislovla birlikdə çar III Aleksandra sui-qəsd hazırlanmasına görə həbs olunaraq 5 il müddətinə Sibirə sürgünə göndərilmişdir. Fransız, alman, litva, rus və polyak dillərini bilən Y.Pilsudski 1892-ci ildə sürgündən qayıdaraq 1893-cü ildə Polşa Sosialist partiyasının sıralarına daxil olmuşdur. Tezliklə, o, polyak millətçisinə çevrilmişdir. Gizli "Fəhlə" qəzetini Lodzda evindəki mətbəəsində hazırladığı üçün 1900-cü ilin fevralında Rusiyanın hakimiyyət orqanları onu Varşavada yenidən həbsxanaya salmışdır. Lakin psixi xəstəlik diaqnozu ilə psixiatriya xəstəxanasına göndərilmiş, xəstəxanadan isə polyak həkimin köməyilə Qalitsiyaya qaçmağa müvəffəq olmuşdur. Bütün partiyalar Polşanın muxtariyyəti uğrunda mübarizə apardığı halda yeganə Y.Pilsudski Rus imperiyası ilə Polşanın müstəqilliyi uğrunda amansız mübarizə aparmışdır.

1904-1905-ci illərdə rus-yapon müharibəsi başladıqda Y.Pilsudski Tokioya səfər edərək Polşada üsyan təşkil etmək məqsədilə Yaponiyadan kömək almaq istəsə də buna tam nail ola bilməmişdir. Nəticədə Polşa Sosialist partiyasının hərbi qanadını yaratmaq üçün silah-sursat almaqla kifayətlənməli olmuşdur. Onun silahlı hərbi təşkilatı Rusiyanın hakimiyyət orqanla-

rına qarşı mübarizdə Polşa fəhlələrinin çıxışlarında fəal iştirak etmişdir. Birinci Dünya müharibəsi zamanı o, Rusiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmək məqsədilə "Polşa legionun" yaratmışdır. Mərkəzi dövlətlərin Antanta qüvvələri qarşısında məğlub olması bəlli olduqdan sonra Y.Pilsudski polyak əsgərlərinə Mərkəzi dövlətlərə sədaqət andı içməyi qadağan etdiyi üçün həbs edilərək Maqdeburq həbsxanasına salınmışdır. 1918-ci il noyabrın 8-də həbsdən azad edilən Y.Pilsudski noyabrın 11-də Varşavaya gəlmiş və Regent Şurası tərəfindən polyak ordusunun komandanı təyin edilmişdir. Eyni zamanda ona yeni müstəqil ölkənin milli hökumətini təşkil etmək tapşırılmışdır. Həmin gün, o, Polşa dövlətinin müstəqilliyini elan etmişdir. Noyabrın 22-də, o, rəsmi olaraq Endjey Moraçevski hökumətindən Dirçələn Polşa dövlətinin müvəqqəti başçısı rütbəsini alır. 1920-ci ilin martından Yuzef Pilsudski "Polşanın Birinci Marşalıdır". 1920-1921-ci illərdəki Polşa-Rusiya müharibəsi 1921-ci ilin martındakı Riqa sülhünə əsasən Belarusiya və Ukraynanın bölünməsi ilə yekunlaşdı. 1919-cu ildə kiçik Konstitusiyanın qəbul edilməsilə Seym öz işini bərpa etdi, o,dövlətin başçısı vəzifəsindən azad olaraq istefaya getdi. 1926-cı il mayın 12-14-də dövlət çevrilişi nəticəsində Y.Pilsudski yenidən hakimiyyətə qayıtdı. Çevriliş zamanı 215 nəfər əsgər, 164 nəfər dinc vətəndaş öldü, 900 nəfərdən çox adam yaralandı. Mayın 31-də Seym onu prezident seçsə də, o, dövlət başçısının məhdud səlahiyyətlərinə görə bunu qəbul etmədi. Prezident seçilən Mostitski onu silahlı qüvvələrin Baş müfəttişi, eyni zamanda Hərbi Şuranın sədri təyin etdi. Beləliklə Polşada 1926-1939-cu illəri əhatə edən sanasiya dövrü başladı. İctimai həyatın sağlamlaşdırılması pərdəsi altında Y.Pilsudskinin diktatura siyasəti tətbiq olundu. 1930-cu ildə onun rəhbərliyi ilə siyasi rəqiblərin Brest qalasına salındığı "Brest" seçkiləri oldu. 1935-ci ilin aprelində güclü prezident hakimiyyətini nəzərdə tutan yeni Konstitusiya qəbul olundu. Lakin 1935-ci il mayın 12-də o vəfat etdi.

***Polşanın iqtisadiyyatı.*** Polşaya birləşdirilmiş ərazilər uzun müddət müxtəlif dövlətlərin tərkibinə daxil olduğu üçün iqtisadi cəhətdən qeyri-bərabər inkişaf etmişdir. Əhalinin əksəriyyəti polyak olduğu qərb torpaqları, qismən almanların yaşadığı Sileziya və Pomorye torpaqları iqtisadi cəhətdən daha çox inkişaf etmişdi. Burada Almaniyanın mərkəzi vilayətlərinə gedən dəmir və şosse yollarının sıx şəbəkəsi yerləşirdi. Bu yerlərdə sənaye ilə bərabər kənd təsərrüfatı və ticarət də inkişaf edirdi. Ən kasıb yerlər ölkənin şərq rayonları hesab olunurdu. Şərq torpaqlarında əsasən slavyan milli azlıqları və yəhudilər yaşayırdılar. Bu ərazilərin vahid bir tam kimi birləşdirilməsi dövlətin qarşısında duran birinci dərəcəli vəzifə idi. İqtisadiyatın ayrı-ayrı sahələrini nəinki sadəcə olaraq birləşdirmək, həm də onu ölkənin tələbatına uyğun yenidən qurmaq lazım idi. Müharibədən əvvəl satış bazarı çox hallarda Polşa müəssisələrinin malları üçün bağlı idi. Ona görə də, geniş daxili bazar yaratmaq, həmçinin xarici bazara yol tapmaq əsas vəzifə kimi qarşıda dururdu.

Polşa aqrar ölkə idi, belə ki, 1927-ci il siyahıyaalmasına görə iş qabiliyyətli əhalinin 64 faizindən çoxu kənd təsərrüfatında və yalnız 9,2 faizi sənaye sahəsində çalışırdı. 1921-ci ildə kəndli təsərrüfatının üçdə ikisi, yəni 64,6 faiz yoxsul təsərrüfatı idi və bütün torpaq sahələrinin yalnız 14,8 faizi onlara məxsus idi. 5 hektardan 10 hektara qədər torpağı olan ortabab təsərrüfatları bütün təsərrüfatların 22,5 faizini təşkil edirdi və kənd təsərrüfatı sahəsinin 17 faizinə sahib idi. 1921-ci il siyahıyaalmasının tam olmayan məlumatına görə, ölkədə 1 milyon 300 mindən çox kənd təsərrüfatı fəhləsi var idi. Həmçinin torpaq sahiblərinin 0,6 faizini təşkil edən 19 min iri mülkədar torpağın 44,8 faizinin sahibi idi. Dövlət və kilsənin də çoxlu torpaq sahəsi mövcud idi. Polşa kəndlilərinin vəziyyəti xüsusilə ağır idi. Bir neçə il dalbadal üz vermiş qıtlıq, hökumətin vergi siyasəti, mülkədarların özbaşınalığı kəndlilərin vəziyyətinin olduqca pisləşməsinə səbəb oldu. Varşava, Kelets, Belostok voyevodalıqlarında qarətçi vergilər əleyhinə kəndli çıxışları baş verdi. Kəndli hərəkatının yüksəlişi 1924-cü ilin iyulunda yeni təşkilatın – Müstəqil Kəndli partiyasının əmələ gəlməsinə səbəb oldu.

Kənddə əmələ gəlmiş gərgin vəziyyəti yüngülləşdirməyə cəhd edən hökumət iri torpaq sahiblərinin torpaqlarının bir hissəsini icbari satınalma haqqındakı qanun layihəsi ilə çıxış etdi. Alınan torpaqlar əzəli Polşa torpaqlarında 15, «ucqarlarda» isə 26 hektar miqdarında satılmalı idi. Bu islahat vasitəsilə hakim siniflər kənddə öz dayaqlarını möhkəmlətmək istə-

yirdilər. Öz torpaqlarının bir hissəsini satmağa razılıq verən mülkədarlar isə öz təsərrüfatını daha səmərəli qurmaq üçün əlavə vəsait əldə etmək niyyətində idi. Sol partiyalar aqrar islahatın burjua-mülkədar layihəsinə qarşı çıxış etdilər. Kommunist partiyası və Kəndli partiyası aqrar islahatın fərqli layihəsini irəli sürdülər. Bu layihə 30 hektardan çox olan bütün mülkədar və kilsə torpaqlarının canlı və cansız inventarı ilə birlikdə dəyəri ödənilmədən alınmasını, onun kəndlilər və kənd təsərrüfatı fəhlələri arasında bölüşdürülməsini nəzərdə tuturdu. Lakin bu layihə 1925-ci il iyulun 15-də seymdə müzakirə zamanı seymin burjua-mülkədar çoxluğu tərəfindən rədd edildi. Polşa sosialist partiyası (PSP)-da bunun əleyhinə çıxdı. Seym radikal islahat əvəzinə 1925-ci ilin dekabrında «Torpaq bölgüsü və torpaq zolaqlarının ləğvi haqqında» qanun qəbul etdi. Bu qanuna görə hər il 200 min hektara qədər mülkədar torpağı satılmalı idi. Həm də kəndlilər torpağı bazar qiymətinə satın almalı idi. Kəndliləri isə dövət uzunmüddətli kreditlər almaq imkanı ilə təmin edirdi. Mərkəzi Polşada 180 ha-dan artıq torpaq mülkiyyəti, ölkənin şərqində 300 ha-dan artıq olan torpaqlar kiçik hissələrə bölünməli idi. İki il ərzində öz torpağını bölən mülk sahibi dövlətdən əmlakının əvəzini ala bilərdi. Müharibələrarası dövrdə Polşada 2,654 min hektar torpaq satılmışdı. Əkinə yararlı torpaqların 25,8 % yenə də 50 hektardan artıq torpağa malik olan sahibkarların əlində qalırdı. Kəndli kütlələrinin əsas hissəsini aztorpaqlı və ortabab kəndlilər təşkil edirdi ki, ortabablarn da sayı aztorpaqlı kəndlilərin hesabına azalırdı.

Polşa sənayesi birtərəfli inkişaf edirdi. Daş kömür hasilatı, koks, elektrik enerjisi istehsalı müharibədən əvvəlki səviyyəni ötüb keçdiyi halda, çuqun və polad əridilməsi, pambıq parça istehsalı əvvəlki səviyyəyə gəlib çatmamışdı. Dəmir filizi istehsalı 1920-ci ildə müharibədən əvvəlki səviyyənin yalnız 36, çuqun əridilməsinin ancaq 10, polad əridilməsinin 12 faizini təşkil edirdi. Sənaye başlıca olaraq Dombrovsk hövzəsində, Yuxarı Sileziyada, Varşavada, Lodz rayonlarında yerləşmişdir. Şərqdəki Qərbi Ukrayna, Qərbi Belarusiya, Vilno torpaqları ölkənin yarımmüstəmləkəsi, satış bazarı, habelə sənaye üçün xammal bazası rolunu oynayırdı. Polşa iqtisadiyyatı kapitalı kartellərdə və sindikatlarda birləşmiş bir ovuc yerli və xarici inhisarçıların əllərində yüksək dərəcədə mərkəzləşməsi və təmərküzləşməsi ilə fərqlənirdi. Dövlətin iştirakı ilə 1920-30-cu illərdə mühüm dəmir yol magistralları, Qdanskda böyük dəniz limanı, müdafiə, kimya və digər müəssisələr inşa edildi. 1928-ci ilin sonunda Polşada başlanmaqda olan iqtisadi böhranın əlamətləri artıq 1929-cu ildə əsl böhrana çevrildi. Polşada kapitalizmin zəif inkişafı, onun xarici kapitaldan asılılığı nəticəsində böhranın əlamətləri, bir çox kapitalist ölkələrinə nisbətən daha kəskin təzahür edirdi. Xarici kapital (amerikan, alman və fransız) iqtisadi böhranın ağır zərbə vurduğu Polşa iqtisadiyyatında yeni-yeni mövqeylər ələ keçirirdi. Polşa səhmdar cəmiyyətlərində xarici kapitalın payı 1929-cu ildəki 33,9-dan 1933-cü ildə 44,2 faizə qədər artmışdır, sənayenin əsas sahələrində isə bu rəqəm 70-90 faiz idi. Ümumiyyətlə, sənayenin bir sıra əsas sahələri üzrə istehsal edilən məhsul 1913-cü il səviyyəsi ilə müqayisədə 1938-ci ildə aşağı idi. Bütün dünyada olduğu kimi Polşada da 1929-cu ildə başlayan və 1935-ci ilə kimi davam edən böhran və durğunluq sənaye, maliyyə, ticarət və kənd təsərrüfatına ağır zərbə vurdu.

Polşa tədricən iqtisadi böhranın nəticələrini aradan qaldırmağa başladı. Ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə dövlət bir sıra tikintilərə kapital qoyuluşunu artırdı. 1937-ci ildə Baş nazirin müavini və maliyyə naziri Eyqeniuş Kvyatkovski Visla və San çayları arasındakı ərazidə Mərkəzi sənaye dairəsi adlanan tikinti layihəsini təqdim etdi (MSD). Yeni layihə ölkənin qərb torpaqlarını cənub-şərqi ərazilərlə birləşdirməli idi. Yüksək texniki tələblərə cavab verən bir çox iri müəssisə, o cümlədən Rojnovda elektrik stansiyası, Staleva-Volya şəhərində metallurgiya kombinatı, Sanokda hərbi zavod, Melsdə aviasiya zavodu işə salındı. 1931-ci ildə Raşin yaxınlığında fəaliyyət radiusu təxminən bütün ölkəni əhatə edən radiostansiya açıldı, 1937-ci ildə yeni telemərkəz işə başladı. Varşava əsl Avropa paytaxtı oldu. Ölkənin başqa sahələri Krakov, Poznan, Vilno və Lvov da getdikcə abadlaşırdı. Yeni müasir mehmanxanalar tikilir, xəstəxanalar açılır, su və elektik təchizatı sistemi yenidən qurulurdu. Ümumən 1930-cu illərin axırında ölkə iqtisadiyyatının inkişafı üçün əlverişli şərait yaranmağa başladı.

***Polşanın xarici siyasəti.*** Birinci Dünya müharibəsi nəticəsində Avropada Böyük Britaniya və Fransanın ardınca çoxu demokratik idarə üsulunu seçən yeni dövlətlər yarandı. Onlardan biri də 123 ildən sonra, 1918-ci ilin noyabrında dünyanın siyasi xəritəsində yenidən öz yerini almış Polşa dövləti idi. 1918-1939-cu illərdə Polşa dövlətinin xarici siyasəti mürəkkəb və qeyri-sabit olmuşdur. Onun qonşu dövlətlərlə, birinci növbədə güclü SSRİ və Almaniya ilə münasibətləri gərginliyi ilə seçilir. Müstəqilliyin ilk illərində Polşa diplomatiyası Mərkəzi və Cənub-Şərqi Avropada SSRİ və Almaniyaya qarşı ittifaq arayışında olan Fransa ilə yaxınlaşmağa başladı. Lakin qərb dövlətləri Fransanın təşəbbüsü ilə öz təhlükəsizliklərini təmin etmək məqsədilə 1925-ci ilin oktyabrında Lokarno sazişini imzaladıqdan sonra Poşla onun marağını nəzərə almadığı üçün Fransadan uzaqlaşmağa başladı. Qərb ölkələrinin Almaniya ilə imzaladıqları Lokarno sazişində Alman-Polşa sərhədlərinin toxunulmazlığı təminatı yer almamışdır, məqsəd ondan ibarət idi ki, Almaniya SSRİ əleyhinə azad hərəkət imkanı qazansın. Polyak xalqını sakitləşdirmək məqsədilə 1925-ci il oktyabrın 25-də Fransa Polşa ilə təminat müqaviləsi imzaladı. Fransa Kiçik Antanta ilə Polşa arasında ittifaq yaratmağa çalışırdı. 1926-cı il martın 26-da Polşa ilə Rumıniya arasında ittifaq müqaviləsi və qarşılıqlı hərbi yardım nəzərdə tutan gizli saziş imzalandı.

1920-ci illərin axırlarında Qərb dövlətləri SSRİ ilə Polşa arasında münaqişə yaratmaq məqsədilə bir çox fitnəkarlıqlara imza atdılar. 1927-ci il iyunun 7-də SSRİ-nin Polşadakı səlahiyyətli nümayəndəsi P.L.Voykov Varşavada rus ağqvardiyaçısı tərəfindən qətlə yetirildi. Sovet hökuməti iyunun 9-da elan etdiyi rəsmi məlumatda bu qətlin təşkilatçılarının fransız və ingilis mürtəce qüvvələri olduğu açıq bildirildi.

1930-cu illərdə Polşa dövlətinin xarici siyasəti güclü qonşuları Almaniya və SSRİ ilə əlaqələrdə tarazlılıq xəttini saxlamağa yönəldilmişdir. Polşanın Xarici işlər naziri polkovnik Yuzef Bek tarazlaşdırılmış siyasət yeridərək 1932-ci ildə SSRİ ilə, 1934-cü ildə isə Almaniya ilə hücum etməmək haqqında müqavilə imzaladı. Lakin qərb ölkələrinin A.Hitlerə qarşı qarışmamaq və güzəşt siyasəti Polşanın mənafeyini zərbə altına qoydu. 1935-ci ildə A.Hitler Almaniyada ümumi hərbi mükəlləfiyyət elan edərək Versal sülh müqaviləsini kobudcasına pozdu, 1936-cı ildə hitlerçilər Reyn hərbsizləşdirilmiş zonasına daxil oldu, 1938-ci ildə onlar Avstriyanı işğal etdi. 1938-ci il sentyabrın 29-30-da Münhendə Fransa, Böyük Britaniya və İtaliya Almaniya ilə ona alman azlıqlarının məskunlaşdığı Çexoslovakiyanın Sudet vilayətini tutmağa imkan verən müqavilə bağladılar. Cərəyan edən hadisələr açıq şəkildə göstərdi ki, növbədə Polşa məsələsi üzrə Versal sülh şərtlərinin pozulması durur. Polşa diplomatiyası yaxın qonşuları arasında özünə müttəfiq axtarmağa başladı. 1938-ci ilin yazında Polşa ilə Litva arasında diplomatik əlaqələr bərpa edildi, noyabr ayında Litva hökuməti qatı antipolyak təşkilatı Vilnüsün azadlığı ittifaqını buraxdı, dekabr ayında iki ölkə arasında iqtisadi saziş imzalandı, hər iki dövlət arasında sərhəd açıldı. Tezliklə, Almaniyanın xarici işlər naziri İoaxim fon Ribbentrop Polşadan Dansiqin (Qdansk) üçüncü reyxə birləşdirilməsini və Almaniyanı Şərqi Prussiya ilə brləşdirən eksterretorial, yəni Polşanın yurisdiksiyasına aid olmayan dəmir yol xəttinin və avtomagistralın salınmasını tələb etdi.

1939-cu il mayın 5-də Polşanın xarici işlər naziri Y.Bek öz çıxışında suverən dövlətin keçə bilməyəcəyi qırmızı xətti göstərərək bildirdi ki, "Polşa özünün Baltikdən sıxışdırılıb çıxarılmasına imkan verməyəcək!" Polşa dövləti hərbi potensialının üçüncü reyxinkindən orta hesabla dörd dəfə az olmasına baxmayaraq müharibəyə hazırlaşmağa başladı.

Fransa və Böyük Britaniya ilə danışıqlar aparan İ.V.Stalin danışıqlar pozulduğundan bir gün sonra 1939-cu il avqustun 23-də Almaniya ilə hücum etməmək haqqında iki hissədən ibarət müqavilə imzalanmasına qərar verdi. SSRİ və Almaniyanın xarici işlər nazirləri Vyaçeslav Molotov və İoaxim fon Ribbontropun imzaladıqları müqavilənin ikincisi gizli idi və Polşa, Şərqi və Mərkəzi Avropanın başqa dövlətlərinin bölüşdürülməsini nəzərdə tuturdu. Müqavilə sovet-alman sərhəddinin Narva, Visla və San çayları boyunca müəyyən edilməsini, Finlandiyanın, Estoniyanın, Latviyanın və Bessarabiyanın SSRİ-nin nüfuz dairəsinə daxil olmasını, Litvanın Almaniyaya keçməsini nəzərdə tuturdu. Ribbentrop-Molotov müqaviləsi hitler Almaniyasının Polşaya hücumu üçün yolunu açdı. 1939-cu il avqustun sonunda polyak

hərbi forması geymiş bir qrup esesçi sərhəddə yerləşən Qlivisdəki alman radiostansiyasına basqın təşkil edərək Almaniyanın Polşaya hücumuna bəraət qazandırmaq niyyətində idilər.

***Polşa mədəniyyəti, elm və təhsil.*** Müstəqil dövətin yaradılması Polşada mədəniyyətin, elm və təhsilin inkişafına səmərəli təsir göstərmişdir. Şəhər əhalisi, o cümlədən kənd sakinləri ənənəvi mədəniyyətlə əlaqəni itirərək ziyalıların xarici ölkələrdən əxz etdiyi yeniliklərdən faydalanırdılar. Bu geyimdə, məişətdə, ailədə, istirahət vaxtlarının təşkilində özünü büruzə verirdi. Şəhər həyatı və mədəni stereotiplər kəndi, xüsusilə kənddəki gəncləri bürümüşdür. Şəhər ətraflarının müasir tələblərə cavab verən tikililəri onların görünüşünü dəyişdi. Küçələrin qazla işıqlandırılmasını elektrik lampaları əvəz etdi, su və kanalizasiya sistemləri çəkildi. İnsanların həyatında idman ön plana çıxdı, xüsusilə fəhlə idman klublarının sayı durmadan artmışdır. Kəndli gənclər ittifaqları sağlam həyat tərzi və idmanın fəal təbliğatçıları idi. Polyak idmançıları beynəlxalq miqyasda fərqləndilər. Polşalı qaçış ustası Yanuş Kusoçinski 1932-ci ildə Los-Anceles olimpiyadasında qızıl medala layiq görüldü. Şöhrətli təyyarəçi idmançılar Fransişek Jvirqa və Stanislav Viqura xalqın məhəbbətini qazanmışdılar.

Müstəqilliyin ilk illərindən başlayaraq xalq maarifinə diqqət artmışdır. 1919-cu ilin fevralında 7-14 yaş arası uşaqları əhatə edən yeddiillik təhsil haqqında dekret verildi. Nəticədə 10 yaşından yuxarı uşaqlar arasında savadsızlıq 1921-ci ildəki 33,1 faizdən 1931-ci ildə 22,1 faizə düşmüşdür. Polşada yaşayan ukrayna, belarus, alman uşaqlarının təhsil səviyyəsi isə aşağı olaraq qalırdı. Müstəqillik qazandıqdan sonra fəaliyyət göstərən ali məktəblərlə yanaşı ölkədə yeni universitetlər, o cümlədən Poznandakı Vilno akademiyasının ənənələrini davam etdirən Stefan Batori adına Vilno Universiteti açıldı. 1918-ci ildə şəxsi bağışlar hesabın Lyublin Katolik Universiteti (KUL) açıldı.

Ümumilikdə iki müharibəarası illərdə Polşada 16 dövlət, 11 xüsusi ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, buranı da 83 min nəfər tələbə bitirmişdir. 1938-ci ildə ölkədə 32 ali məktəb var idi. 26 min kitabxana, 900 xalq evi (o cümlədən 625 kənd), 175 muzey, onlarla mədəni-maarif cəmiyyətləri və s. geniş maarifçilik işi görürdü. 1925-ci ildə birinci polşa radiostansiyası işə başladı. 1937-ci ildə Polşada müxəlif adda 2700-ə yaxın jurnal və qəzet buraxılırdı.

Ədəbiyyat sahəsində yazıçılar Mariya Dombrovskaya, Zofya Nalkovskaya, Zofya Kossak-Şuska, Yeva Şelburq-Zarembina, Yulian Kaden-Bandrovski, Stanislav Vitkeviç (Vitkası) məşhurlaşdı. Gənc şairlər Kazımej Vejinski, Yulian Tuvim, Antoni Slonişski, Yan Lexon, Yaroslav İvaşkeviç, Konstanti Qalçinski və başqalarının yaradıcılığı parladı. 1924-cü ildə Vladislav Reymont "Kişilər" (Mujiki) romanına görə Nobel mükafatına layiq görülmüşdür.

Elmin inkişafı üçün şərait yarandı. Riyaziyyat sahəsində S.Banax, V.Serpinski, sosiologiyada F.Znanetski, fəlsəfədə K.Tvardovski, V.Tatarkeviç, fizikada S.Penkovski, tarix elmində V.Konopçinski, M.Kukel, A.Pruxnik, Y.Rutkovski, V.Sobeskiy, O.Xaletskiy fərqlənmişdir. 1928-ci ildə alimlərə kömək məqsədilə Elmi mədəniyyət fondu yaradıldı.

1938-ci ildə Belqraddakı təyyarəçilik sərgisində polyak konstruktorların yaratdığı "Los" bombardmançı təyyarəsi ingilis, alman, italyanları qabaqlayaraq birinci yeri tutmuşdur. Almaniyanın gizli şifrələrin açmağa qadir olan "Eniqma" (" Tapmaca") maşınının kodunu polyak alim və mühəndisləri tapmışdır ki, bu da hərbi kəşfiyyata böyük töhfə idi. Müharibə vaxtı bu kodu öz Qərb müttəfiqlərinə verən Polşa tərəfi düşmən üzərində qələbəyə öz töhvəsini vermiş oldu.

Müstəqil Polşanın incəsənəti və musiqisi yüksək səviyyəyə çatmışdı. Bəstəkar Karol Şimanvski, pianoçular İqnasi Paderevski, Artur Rubunşteyn dünya şöhrəti qazanmışdılar. Teatr və kino sənəti geniş pərəstişkar kütləsi toplamışdı. Öncül teatr qruplarına Yuliuş Osterva və Leon Şiller rəhbərlik edirdi. Polyak aktrisası Pola Neqri (Apoloniya Xalupes) dünya səviyyəsində şöhrətlənmişdir. Müstəqil Polşada yeni estrada teatrları və kabaryelər geniş yayılmışdır.

Müstəqil Polşanın polyak əhalisinin 91 faizdən çoxu Roma katolik kilsəsinə tərəfdar olduğunu bildirmişdir. Ölkədə yaşayan ukraynalıların böyük əksəriyyəti yunan katolikləri idi.

Polşada məskunlaşan ruslar, eyni zamanda belaruslar və ukraynalıların bir hissəsi pravoslav idilər. Lüteranlar içərisində isə ölkədə məskunlaşan alman azlıqları çoxluq təşkil edirdilər. Polşa yəhudilərinin böyük əksəriyyəti iudaizm dininə etiqad bəsləyirdilər. Polşada, o cümlədən Vilenşinada islam dininə etiqad edən tatarlar yaşayırdılar. Konfesiyaların çox olması ölkə əhalisinin çoxmillətli tərkibindən irəli gəlirdi. Qeyd etmək yerinə düşərdi ki, Polşada dini azadlıq şəraiti mövcud idi və ayrı-ayrı xalqların mədəniyyəti azad inkişaf edə bilərdi. Qanun qarşısında bərabər olan bütün dinlər arasında 1926-cı ildən Polşanın priması kardinal Avqust Xlondun rəhbərlik etdiyi Roma katolik kilsəsi xüsusi əhəmiyyətə malikdir. Bir il əvvəl İkinci Reç Pospolita hökuməti Roma taxt-tacı ilə konkordat, yəni dövlətlə kilsə arasındakı münasibətləri tənzimləyən xüsusi müqavilə bağladılar. Cəmiyyətdə böyük nüfuza malik olan katolik kilsəsi ölkənin birləşməsində önəmli rol oynadı. Belə ki, dini icmaların həyatı dövlət strukturları ilə sıx bağlı şəkildə davam ediridi. Polşa məktəblərində Tanrı Qanunu dərsi keçilirdi. Qadın monastrların öz xəstəxanaları, qocalar və uşaq evləri mövcud idi. Rahiblərin əhali arasında nüfuz qazanmış şəxsi məktəbləri fəaliyyət göstərirdi. Müharibələrarası iyirmi ildə Polşa katolikliyi əhalinin böyük əksəriyyətinin dindarlığı sayəsində milli adət və ənənələrini qoruyub saxlamağa müvəffəq olmuşdur.

## Polşa İkinci Dünya müharibəsi illərində

***Müharibənin başlanması.*** 1939-cu il sentyabrın 1-də Almaniya müharibə elan etmədən şimaldan, qərbdən, cənub-qərbdən Polşaya hücum etdi. Sentyabrın 3-də İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər və beləliklə İkinci Dünya müharibəsi başlandı. Üstünlük Almaniya tərəfində idi. Belə ki, müasir ordusu, inkişaf etmiş iqtisadi və hərbi potensialı olan üçüncü reyx Polşaya qarşı müharibəyə 1,8 milyon əsgər, 11 min top, 2,8 min tank, 2,6 min təyyarə səfərbər etdi.

Polşada ümumi səfərbərlik 30 avqustda elan olunmuşdu, lakin tam həyata keçirilməmişdi. Polşanın ordusunun sərəncamında 1,2 milyon əsgər, 3 min top, 600 tank və 400 təyyarə var idi. Polşa baş qərargahının planına əsasən hərbi əməliyyatların əsas hissəsi Böyük Polşada baş verməli idi. Polşa qoşunları tədricən Visla xəttinə qədər çəkilməli, burada mövqe müharibəsinə keçməli idilər. Bu vaxta qədər Fransa və Böyük Britaniya Almaniyaya qarşı fəal hərbi əməliyyatlara başlaya bilərdilər. 1939-cu ilin mayında bağlanmış Polşa-Fransa razılaşmasına əsasən Fransa səfərbərlik elan etdikdən 15 gün sonra əsas qüvvələrlə Almaniyaya qarşı hücuma keçməyi öhdəsinə götürmüşdür.

Lakin hadisələr başqa cür inkişaf etməyə başladı. Alman qoşunları əsas zərbəni Pomeraniya, Şərqi Prussiya, Sileziya, Çexiya və Slovakiyadan vurdu. Güclü tank birləşmələri və aviasiyanın zərbələri altında sərhəddi qoruyan Polşa qoşunları düşmənə amansız müqavimət göstərsə də hitlerçilər tez bir zamanda Varşavaya yaxınladılar. Şəhərin ordu və əhali tərəfindən qəhrəman müdafiəsi 27 sentyabra qədər davam etdi. Dansiq ətrafında Vesterplatte hərbi bazasının əsgərləri bir həftə ərzində mərdliklə qurudan və sudan düşmənin üstün qüvvələrinin hücumlarını dəf etdilər. Sentyabrın 29-da Modlinin müdafiəçiləri, oktyabrın 2-də isə Xel yarmadasındakı hissələr öz silahlarını yerə qoydular. «Polesye» operativ qruplaşması oktyabrın 2-4-də almanlara qarşı xüsusi qəhrəmanlıqla vuruşdular, amma hərbi sürsat olmaması üzündən oktyabrın 5-də təslim olmağa məcbur oldular.

Senytabrın ortalarında aydın oldu ki, Polşa təkbaşına Almaniyaya qarşı dura bilməz. İngilislər və fransızlar fəal hərbi əməliyyatlara başlamaqdansa «qəribə müharibə»yə üstünlük verirdilər. Bu şəraitdə SSRİ-nin mövqeyi fəallaşdı. Sentyabrın 17-də Moskvadakı Polşa səfirliyinə bildirildi ki, Polşa dövləti və hökuməti faktiki olaraq fəaliyyətini dayandırıb, odur ki, SSRİ-nin Polşa ilə bağladığı müqavilələr də qüvvədən düşüb. Belə bir vaxtda SSRİ Polşada yaşayan ukraynalıların və belarusların mənafeyini qorumağa borcludur. Sovet hökuməti Polşada yaşayan ukraynalıları və belarusları müddafiə etmək adı altında sentyabrın 17-də Qızıl Ordu hissələrinə Polşa sərhəddini keçmək və Pisa, Narva, Visla və San çaylarının

sahillərinə qədər hərəkət etmək haqqında göstəriş verdi. Polşaya daxil olan Ukrayna və Belarusiya cəbhələri ordularına izah edildi ki, onlar Qərbi Belarusiya və Qərbi Ukrayna ərazisini tutmalı və onların müdafiəsini öz əllərinə almalıdılar. Qızıl Ordu Qərbi Ukrayna və Qərbi Belarusiya əhalisini və əmlakını öz nəzarəti altına götürmək əmrini aldı. 1939-cu il sentyabrın 17-də Varşava hələ müdafiə olunduqda, Lvov ətrafında, Xel yarmadasında və Lyublinşinada qanlı döyüşlər davam edən zaman sovet qoşunları Almaniya ilə bağladığı gizli 1939-cu il avqustun 23-dəki müqaviləyə uyğun olaraq şərq istiqamətində Polşaya hücum etdi. Şərqdə Polşa qoşununun müdafiəsi güclü xarakter daşımırdı. Şəhəri almanlardan inadla müdafiə edən Lvov qarnizonu şəhəri mübarizəsiz Qızıl Ordu hissələrinə təslim etdi.

Sentyabrın ortalarından müharibənin sonluğu heç kəsdə şübhə doğurmurdu. Sentyabrın 17-dən 18-nə keçən gecə hərbi və mülki komandanlıq, o cümlədən prezident, hökumət və baş komandan E.Rıdz-Smiqla Rumıniyaya keçdilər və Almaniyanın tələbi ilə orada tərksilah edilib ölkə daxilində saxlanıldılar. Polşa müharibəni uduzdu, lakin təslim olmadı. Hərbi əməliyytalarda Polşa qoşunu 65 min əsgər itirdi, 400 min nəfər əsir düşdü, 240 min nəfər Qızıl Ordu tərəfinə keçdi, 90 min nəfər bitərəf ölkələrə gedə bildi. Amma nə Polşa ordusunun komandanlığı, nə də Polşa xalqı silahlarını yerə qoymadı.

1939-cu il sentyabrın 28-də Moskvada dostluq və sərhədlər haqqında sovet-alman müqaviləsi bağlandı. Bu müqavilə Polşanın bölünməsi haqqında avqust müqaviləsinin gizli protokolunda dəyişiklik etdi. Litvanı öz təsir dairəsinə salmağın əvəzində SSRİ Lüben voye-vodalığından və Varşava voyevodalığının bir hissəsindən imtina etdi. Stalin həm də Hitlerin almanların işğal etdiyi torpaqlarda kiçik Polşa dövləti yaratmaq təklifinə etiraz etdi. O, hesab edirdi ki, Polşanın taleyi qəti şəkildə yalnız müharibədən sonra həll edilə bilər, lakin müharibə yenicə başlamışdı və tam 6 il uzandı. Hitler işğal olunmuş Polşa torpaqlarının 92 min kv km ərazisi və 10 milyon nəfərdən çox əhalisi olan qərb, mərkəzi və şimal rayonlarının bir hissəsini Almaniyanın tərkibinə daxil etdi. Bu ərazilərdə polyaklar üstünlük təşkil etdiyi üçün onlara qarşı amansız terror başlandı. İlk növbədə, ziyalı təbəqəsi, 1918-1921-ci illər milli-azadlıq hərəkatının iştirakçıları, siyasi partiyaların fəalları repressiyaya məruz qaldılar. Pol-yakları mülkiyyətdən məhrum edir, evlərindən qovur, düşərgələrə və Almaniyaya işləməyə göndərir, reyxə daxil olmayan ərazilərə sürgün edirdilər. Onların yerinə almanlar, Baltikyanı və Ukrayna repatriantları yəni, əsirlikdən və mühacirətdən vətəninə qayıdanlar yerləşdirilirdi.

A.Hitlerin planına əsasən Almaniyaya birləşdirilən torpaqlar 10 il müddətində alman-laşdırılmalı idi. Bəzi insan irqlərinin başqaları üzərindəki bioloji, əqli və s. üstünlüklərini bəyan edən A.Hitler irqçi qanunların fəaliyyətinə rəvac verdi. Almanlar məcburi surətdə polyakların, əsasən də, yüzilliklər ərzində iki mədəniyyətin qovuşuğunda yaşayan silezlilərin, kaşubuların və mazurların soyadlarının salındığı Alman milli siyahısı, başqa sözlə Volks-listeni tərtib etdilər. Alman soyadı daşıyan poıyak vətəndaşlarının çox hissəsi "ağların irqinə" mənsub olmaq istəmədikləri üçün cəza tədbirlərinə məruz qalırdılar. Almaniyanın tərkibinə birləşdirilən ərazilərdə katolik kilsəsi xüsusilə təqib edilirdi. İşğalçılar kilsələri qarət edir, keşiş və yepiskopları öldürür, din xadimlərini həbs düşərgələrinə göndərirdilər.

Qalan rayonlarda mərkəzi Krakov olan Hans Frankın başçılığı altında general-qubernatorluq yaradıldı. Bu ərazi işğalçılar tərəfindən ucuz işçi qüvvəsi və Almaniyanın arxa cəbhəsi kimi qiymətləndirilirdi. Polyaklar bu ərazidə almanlar tərəfindən idarə olunan cüzi istehsal vasitələri, ibtidai və peşə məktəblərinə sahib ola bilərdi. 1941-ci ildə Polşanın yerli təsərrüfat ozünüidarə orqanları təşkil olundu, Polşa polisi də öz fəaliyyətini davam etdirirdi. Şəhərlərdə əmək mükəlləfiyyətləri tətbiq edilirdi. General-qubernatorluqda da əhali repres-siyalara və təqiblərə məruz qalırdı. Hitlerçilər yəhudilərə qarşı xüsusilə amansız idilər. Onlar kütləvi məhv edilir, əmlakları əllərindən alınır, yəhudilər üçün nəzərdə tutumuş şəhər məhəllələrinə, gettolara köçürülür, Polşa ərazisindəki Osventsim, Treblink və Maydanek düşərgələrinə salınırdı. Qeyri-insani yaşam şəraiti ilə seçilən bu həbs düşərgələrinə əvvəl yəhudi və qaraçıları, sonra polyakları, 1941-ci ildən sonra Sovet vətəndaşlarını salırdılar.

1939-cu ilin noyabrında SSRİ-nin tərkibinə qatılmış Qərbi Ukrayna və Qərbi Belarusiyanın polyak əhalisinin də vəziyyəti ağır idi. Vilnüs və ətraf ərazi 1939-cu ilin

oktyabrında Litvaya verildi və onunla birlikdə 1940-cı ildə SSRİ-nin tərkibinə qatıldı. Polyaklara və burada yaşayan başqa milli qruplara münasibətdə sinfi yanaşma tətbiq olunurdu. Burjuaziya, sənayeçilər, varlı kəndlilər, tacirlər, dövlət qulluqçuları, 1920-ci il Polşa-Sovet müharibəsinin bəzi iştirakçıları, siyasi partiyaların üzvləri, trotskiçilər və digər qruplar "sinfi yad elementlər" adı altında SSRİ-nin şərq və şimal rayonlarına sürgün edilir, həbsxanalara salınırdılar. Bütünlükdə 400 mindən çox polyak deportasiyaya məruz qaldı. SSRİ XDİK-in xüsusi üçlüyünün qərarına əsasən 1940-cı ildə Qərbi Ukrayna və Qərbi Belarusiyanın Ostaşkov, Starobelsk, Medno və b. həbs düşərgələrində və həbsxanalarında tərksilah edilərək saxlanılan polyak ordu zabitləri, polis əməkdaşları, mülkədarlar və əsrlərdən 21857 nəfəri güllələndi. Həbsxanalarda, o cümlədən Lvovdakı "Briqidkidə" bütün məhbuslara yer çatışmırdı.

Repressiyaslardan canlarını qurtarmış polyakalra isə 1940-cı ildən başlayaraq Sovet dövləti xoş niyyət göstərməklə öz tərəfinə çəkməyə səy göstərirdi. Bir sıra məşhur siyasətçilər 1926-cı il çevrilişindən sonra bir neçə dəfə Polşanın baş naziri olmuş Lvov Politexnik İnstitutunun professoru K.Bartel, mədəniyyət xadimi, məşhur şair, tərcüməçi, teatr və ədəbi tənqidçi T.Boy-Jelenski, Lvov ali məktəblərinin professorları azadlıqda qaldılar. Lakin onların hamısı 1941-ci ildə Lvovu tutan almanlar tərəfindən güllələndi. Polşa müharibə illərində 6 milyon adam itirdi, 664 min nəfəri, o cümlədən 123 min hərbi qulluqçu hərbi əməliyyatların gedişində həlak oldu. İnsan itkisinə görə Polşa Almaniyanın işğal etdiyi Avropa dövlətləri içərisində birinci yeri tuturdu, hər min nəfər əhalidən 220 nəfəri həlak olmuşdu.

***Müqavimət hərəkatı.*** Üçüncü reyxin qələbəsi Polşa xalqının öz müstəqilliyi uğrunda təcavüzkarlara qarşı mübarizə ruhunu qıra bilmədi. İlk növbədə, qarşıda duran vəzifə dövlət hakimiyyətinin varisliyini təmin etmək idi. Rumıniyada olan prezident İ.Mosçitski öz vəzifəsini yerinə yetirmək imkanı olmadığına görə hakimiyyəti konstitusiya hüququndan istifadə edərək pilsudskiçi Vladislav Raçkeviçə verdi. Liberal qüvvələrin nümayəndəsi general Vladislav Sikorski (1881-1943) Baş nazir və silahlı qüvvələrin Baş komandanı oldu. Beləliklə, 1939-cu il sentyabrın 30-da Parisdə mühacir Polşa hökuməti yaradıldı. Bu hökumətdə aparıcı mövqeləri dörd antisanasiya partiyaların, kəndli, sosialist, milli-demokrat və əmək partiyalarının nümayəndələri tutmuşdu (PSP, SL, SN, SP). Əvvəlcə İqnasi Paderevskinin sonra isə Stanislav Qrabskinin başçılıq etdiyi məşvərətçi orqan Milli Şura təsis edildi.

1940-cı ildə, Fransa təslim olduqdan sonra hökumət Böyük Briyaniyaya köçdü. Fransada və Yaxın Şərqdə 1940-cı ildə sayı 84 mindən artıq olan hərbçilərdən Polşa ordusu formalaşdırıldı. İşğal edilmiş yerlərdə müqavimət dəstələri də yaradılmağa başlandı. 1939-cu ilin sentyabrında baş komandanın əmri ilə yüksək rütbəli zabitlərin bir qrupu gizli hərbi təşkilat-Polşanın qələbəsi naminə xidməti yaratdılar. 1939-cu ilin dekabrında Polşa mühacir hökumətinin razılığı ilə bu gizli təşkilat ləğv olundu və onun yerinə isə gizli təşkilatlardan ən böyüyü Silahlı Mübarizə İttifaqı (ZVZ) yarandı, xaricdə olan general Kazımej Sosnkovski, daxildə polkovnik Stefan Rovetski onun rəhbəri oldu. Nümayəndəlik orqanları da təşkil olunurdu. Qərbdə – Siyasi Şura, işğal olunmuş Polşada isə Siyasi Razılaşdırma Komitəsi yaradıldı. 1940-ci ilin əvvəlində Polşada gizli parlament yaradıldı. Müharibənin sonuna yaxın bu parlament Kazımej Pujakın sədrliyi ilə Milli Birlik Şurası adı altında çıxış edirdi. Mühacir hökumətlə gizli Polşa dövləti arasında bağlayıcı vəsilə olan Polşa hökumətinin nümayəndəliyi – Deleqatura yaradıldı. Senzuradan kənar nəşriyyat genişləndirildi, gizli orta və ali təhsil müəssisələri, mədəni-maarif işi ilə məşğul olan təşkilatlar yaradıldı. Satqınlara və vətən xainlərinə qarşı gizli məhkəmə orqanları fəaliyyət göstərirdi.

Polşa dövləti gizli formada fəaliyyət göstərir, polyakların həyatında katolik kilsəsi və pravoslav kilsəsi mühüm yer tuturdu. 1942-ci ildə ZVZ "Krayevo ordusu" (KO) adı ilə yenidən təşkil edildikdən sonra Krayovo Ordusu Polşanı müttəfiqlər və Polşa ordusu azad edənə qədər ümumi silahlı üsyan qaldırmaq üçün hazırlıq görməli və qüvvələr toplamalı idi. Təxribatlar törətmək, qisas almaq üçün xüsusi struktur yaradılmışdı. İşğalın sonuna yaxın Krayovo Ordusunda 200 minə yaxın döyüşçü var idi, onların sırasında həm müharibəyə qədərki Polşa ordusunun, həm də siyasi partiyaların hərbi birləşmələrinin üzvləri var idi. Öz fəaliyyəti ilə Krayovo Ordusu sentyabra qədərki bütün Polşa ərazisini əhatə edirdi. 1942-

1943-cü illərdə onun fəaliyyətində təxribatlar üstün yer tuturdu. 1942-ci ilin sonunda almanlar 150 min polyakı Zamoyşinadan məcburi işlərə Almaniyaya köçürməyə başlayanda Krayovo Ordusu burada fəal partizan əməliyyatları aparmağa başladı, hitlerçilər Stalinqrad altında darmadağın edildikdən sonra partizan hərəkatı daha da artdı.

Müqavimət hərəkatında kommunistlər tərəfindən idarə olunan cərəyan – hissə müstəqil idi, mühacir hökuməti və deliqaturadan – nümayəndəlikdən asılı deyildi. Polşa Kommunist partiyasının buraxılması və Komminternin icazəsi olmadan onun bərpasının qadağan olunması ona gətirib çıxartdı ki, müharibənin əvvəlində kommunistlərin öz partiyası yox idi. 1941-ci ilin sonlarına qədər işğal olunmuş Polşada bir neçə lokal kommunist təşkilatları – SSRİ dostları cəmiyyəti, Azadlıq mübarizəsi ittifaqı, Bizim və sizin azadlığınız uğrunda Mübarizə cəbhəsi zəif və dağınıq halda fəaliyyət göstərirdi.

1941-ci il dekabrın sonunda Varşava ətrafına paraşütlə bir dəstə polyak kommunisti təşəbbüs qrupu endirildi. Həmin qrup, Kominternin İcariyyə komitəsindən partiyanı bərpa etmək səlahiyyəti almışdı. 1942-ci il yanvarın 5-də Polşa Fəhlə Partiyası (PFP) yaradıldı. O, bütün vətənpərvər qüvvələri düşmənə qarşə mübarizədə geniş antifaşist demokratik cəbhədə birləşməyə çağırdı. PFP mühacir hökumətini tanımağa, Krayovo Ordusu və Deleqatura – gizli hökumət, nümayəndəlik ilə hüquq bərabərliyi şəraitində əməkdaşlıq etməyə hazır olduğunu bildirdi. 1943-cü ilin payızına qədər kommunistlər Polşanın müharibədən sonrakı inqilabi dəyişikliklər proqramını irəli sürmürdülər. Onlar belə hesab edirdilər ki, vətəni azad etmək üçün bütün vətənpərvər qüvvələr hitlerçilərə qarşı silahlı mübarizə aparmaq məqsədilə birləşməlidilər. 1943-cü ildə Deleqatura gizli – hökumət-nümayəndəlik ilə başlanmış danışıqlar heç bir nəticə vermədi.

PFP özünün xüsusi hərbi təşkilatını – Qvardiya Lyudovonı (QL) yaratdı, 1944-cu ildən Lyudovo Ordusu adını aldı. Onun tərkibində polyaklarla yanaşı əsirlikdən qaçmış sovet hərbçiləri də vuruşurdu. İlk əvvəl əsas diqqət partizan müharibəsinin aparılmasına yönəlmişdi. Qvardiya Lyudovanın ilk partizan dəstəsi hələ 1942-ci ilin mayında təşkil edilmişdi. Sayına görə Lyudovo Ordusu Krayovo Ordusundan az idi, işğalın axırına yaxın onun sıralarında 60 min döyüşçü vuruşurdu. 1944-cü ildə Lyudovo Ordusu xeyli fəallaşdı, çünki onun dəstələri SSRİ-də yaradılmış Polşa partizan qərargahından silah almağa başlamışdı.

1939-cu ilin sentyabrında Sovet hökumətinin atdığı addımları Polşa hökuməti təcavüz hesab etdiyindən 1941-ci il iyulun sonlarına qədər SSRİ ilə dipolmatik münasibətlər saxlamırdı, o Almaniya kimi Polşanın düşməni hesab olunurdu. Almaniya ilə imzalanmış 1939-cu il sentyabr müqaviləsi ilə sovet dövləti polyakların hər hansı milli-azadlıq cəhdinə imkan verməmək haqqında öhdəlik götürmüşdü. Lakin 1940-cı ilin sonlarından başlayaraq polyaklara qarşı repressiyaları azaltdılar və onların tərkisilah edilmiş zabitlərinə Sovet Ordusu daxilində hərbi hissələr təşkil etməyə icazə verdilər.

Polşa-Sovet münasibətlərində dönüş Almaniyanın SSRİ-yə hücumundan sonra başlandı. İngiltərəyə arxalanan V.Sikorski, hökumətin və siyasi qüvvələrin SSRİ ilə qarşılıqlı əməkdaşlığa razılığını ala bildi. 1941-ci il iyulun 30-da bağlanan müqavilədə diplomatik münasibətlərin bərpa edilməsi, SSRi-də məhkum olunmuş bütün polyaklara amnistiya verilməsi, Polşanın ərazi dəyişikliklərini nəzərdə tutan Almaniya ilə bağlanmış bütün müqavilələrin ləğv edilməsi, SSRİ-də sovet komandanlığına tabe olan Polşa ordusunun yaradılması nəzərdə tutulurdu. Polşa-Sovet sərhədləri məsələsində mövqelər üst-üstə düşmədiyindən onun həlli sonraya saxlanıldı. Lublyankadakı Moskva həbsxanasından azad edilən general Vladislav Andersin SSRİ-dəki Polşa ordusu əsasən keçmiş hərbçilərdən təşkil olunmuşdu. Lakin onlar sovet-alman cəbhəsində gedən döyüşlərdə iştirak etmədilər. 1942-ci ildə Polşa və Böyük Britaniyanın təkidinə əsasən bu qoşunlar Yaxın Şərqə göndərildi. SSRİ-ni 113 min hərbiçi və onların 31 min nəfər ailə üüzvləri tərk edərək İrana köçürüldü. Almanların Stalinqrada və Qafqaza can atdığı ağır bir vaxtda atılan bu addım Polşa-Sovet münasibətlərini həddən artıq gərginləşdirdi. Sərhədlər məsələsində, Polşanın şərq torpaqlarında qeyri-polyak əhalisinin vətəndaşlığı, Şərq cəbhəsində polyak ordusundan istifadə məsələsində ziddiyyətlər meydana çıxdı.

1943-cü ilin aprelində almanlar Xatında XDİK-in güllələdiyi Polşa zabitlərinin qəbristanlığının tapıldığını bütün dünyada elan etdilər. Sovet rəhbərliyi bu ittihamı rədd etdi və bu işi almanların boynuna atdı. V.Sikorski hökuməti Beynəlxalq Qızıl Xaç Cəmiyyətinə məkanı tədqiq etməyi xahiş etdi. Sovet hökuməti polyakların Antihitler koalisiyasını dağıtmaq cəhdinə və Hitlerlə gizli danışıqlarda günahlandıraraq 1943-cü il aprelin 25-də birtərəfli qaydada Polşa Mühacir hökuməti ilə bütün əlaqələri kəsdi. Faktlar təsdiq edir ki, Smolensk ətrafındakı Xatın meşəsində 4,5 min polyak zabit və əsgəri öldürülüb. Müharibədə dönüş və Polşanın işğalından azad olunması real xarakter almağa başlayanda SSRİ-nin müttəfiqi Polşa sol qüvvələri oldu. Bu sol qüvvələr 1943-cü ildə SSRİ-də təşkil edilmiş Polşa vətənpərvərlərinin İttifaqı və onun təsiri altında yaranan hərbi hissələr, diviziya, korpus və ordu idi. Polşada isə bu qüvvələr sırasında Vladislav Qomulka başda olmaqla Polşa Fəhlə Partiyası (PFP), onun təşəbbüsü ilə yaradılmış gizli parlament və hakimiyyət orqanı Krayova Rada Narodova daxil idi ki, onun da tərkibinə digər sol qüvvələrin nümayəndələri sol sosialistlər, sol kəndli xadimləri, müharibədən əvvəlki demokratik klubların nümayəndələri, gizli həmkarlar ittifaqları və s. həmçinin Lyudovo Ordusu daxil idi. KRN-ya Kominternin müharibədən əvvəlki agenti Boleslav Berut başçılıq edirdi. 1944-cü ilin ilk yığıncağında KRN SSRİ və antihitler koalisiyasına daxil olan digər ölkələrlə sıx əlaqə yaradacaq azad və demokratik Polşa uğrunda mübarizə aparacağını elan etdi. KRN-in yaradılması ilə Polşa Müqavimət hərəkatını Polşanın müharibədən sonrakı daxili və xarici siyasəti problemlərinə fərqli yanaşan bir-birinə zidd iki qrupa parçalanmış oldu. PFP və onun müttəfiqləri xalq-demokratik dövləti konsepsiyasına üstünlük verir və burada siyasi hakimiyyətin fəhlə sinfinə və zəhmətkeşlərin qeyri-proletar təbəqəsinə – kəndlilərə, şəhər xırda burjuaziyasına məxsus olmasını nəzərdə tuturdular. Əsas müttəfiq kimi onlar SSRİ-ni görür, sərhədlərin isə etnik prinsip üzrə müəyyən olunmasını irəli sürürdülər.

Sol qüvvələr London cəbhəsinə – Mühacir hökumətinə nisbətən zəif idilər, lakin Polşanın Qızıl Ordu tərəfindən azad olunması, həmçinin qərb müttəfiqlərinin Mərkəzi və Cənub-Şərqi Avropada SSRİ-yə üstünlük verməsi, onların xeyrinə olan amil idi. Polşa kommunistləri PSP və sovet partizanları ilə sıx əlaqə saxlayırdılar. Belarusiyanın azad edilməsi uğrunda həyata keçirilən "Baqration" əməliyyatı gedişində Qızıl Ordu və onunla birgə fəaliyyət göstərən Polşa hərbi hissələri 1944-cü ilin iyulunda 1941-ci ilin dövlət sərhəddinə çıxdılar.1944-cü ilin mayından iyuluna qədər Moskvada işğal olunmuş Polşadan gələn KRN nümmayəndələri, Polşa vətənpərvərləri ittifaqı və Sovet rəhbərliyi arasında danışıqlar getdi. İyulun 21-də Qızıl Ordu və Polşa Ordusu hissələri Buq çayını keçib Polşa ərazisinə girdilər. Elə həmin gün Moskvada Polşa Milli Azadlıq Komitəsi (PMAK) yaradıldı, Edvard Osubka-Moravski onun başçısı oldu. Krayova Rada Narodova isə Polşa parlamenti elan olundu. İyulun 21-də KRN Polşa ordusu ilə Lyudovo Ordusunun birləşdirilərək vahid Polşa Ordusu yaradılması haqqında dekret verdi. Beləliklə, Polşanın azad olunması ərəfəsində sol qüvvələrin dövlət hakimiyyəti orqanları, silahlı qüvvələri, PMAK-in de-fakto tanımış SSRİ-nin simasında güclü müttəfiqi var idi.

1944-cü il iyulun 22-də PMAK Moskva radiosu ilə Manifestlə xalqa müraciət etdi, yeni hökumətin proqramı elan olundu. Mühacir hökuməti və onun deleqaturası xalqın etimad göstərmədiyi 1935-ci il Konstitusiyasına istinad etdiyi qeyri-qanuni hakimiyyət elan olundu. Demokratik düşərgə ölkənin talehi və mühüm sosial-siyasi dəyişikliklərin həyata keçirilməsi məsuliyyətini öz üzərinə götürərək xalqı alman işğalçılarına qarşı birgə mübarizəyə çağırırdı. 1921-ci il Konstitusiyasına əsasən islahatlar nəzərdə tutulurdu. Əvvəlki əsrlərdə almanlar tərəfindən Polşanın qərbdə və şərqdə işğal olunmuş əzəli torpaqlarının geri qaytarılması tələbləri irəli sürüldü. Manifestdə Polşada demokratik azadlıqlar elan olunur, almanların və vətən xainlərinin əmlakı dövlətin idarəçiliyinə verilir, bütün qüvvələr hitler Almaniyasının qəti darmadağın edilməsi üçün səfərbərliyə alınırdı.

Polşada təşəbbüsün sol qüvvələrin əlinə keçməsi London mühacir hökumətini narahat edirdi. Mühacir hökumətinin "Tufan" ("Буря") əməliyyatlarının köməyi ilə keçmiş şərq torpaqlarına Polşanın qanuni iddiasını SSRİ-yə qəbul etdirmək cəhdi uğursuzluqla nəticələndi.

Bu plana əsasən Krayovo ordusunun hissələri Qızıl Ordunun hücum əməliyyatlarında iştirak edərək bir sıra şəhərlərin, o cümlədən Vilnüs və Lvov kimi iri şəhərlərin azad edilməsində iştirak etdi. Gizli fəaliyyətdən çıxmış deleqaturanın şöbələri özünü burada ərazilərin sahibi kimi aparmağa cəhd edirdi. Sovet tərəfi bu cəhdi qeyri-qanuni hesab etdi. Krayovo Ordusu hissələrinə Polşa Ordusunun tərkibinə daxil olmaları təklif edildi, rədd cavabı alındıqda onlar tərksilah edilir və mühacirətə göndərilirdi. İçdikləri anda sadiq qalan Krayovo ordusu hissələrinin çoxu gizli fəaliyyətlərini davam etdirməyi üstün tutdular.

Polşada iyul hücumunun gedişində Qızıl Ordu hissələri Varşavadan cənubda Visla xəttinə çıxdılar və hətta onun sol sahilində bir neçə məntəqəni də tutdular. Varşavadan alman idarə və müəssisələrinin köçürülməsi başlandı. Şərqdə darmadağın edilmiş və şəhərdən köçən almanlar arasında narahatlıq duyulurdu. Lakin iyulun sonunda vəziyyət normallaşdı. Almaniyanın tank birləşmələri hissələri rus qoşunlarının hücumunu saxlayıb, onları Varşavadan geri atdılar. Sovet komandanlığı yaxın aylarda Varşava istiqamətində yeni qüvvələr cəmləşdirməyi planlaşdırmırdı. Avqust ayında Balkanlarda strateji hücum planlaşdırıldığından canlı qüvvə və texnika ora atılırdı. Sovet qoşunları Rumıniyaya, sonra Bolqarıstana və kommunist meylli müqavimət hərəkatının fəaliyyət göstərdiyi Yuqoslaviyaya daxil oldu. Qızıl ordunun növbəti hədəfi Macarıstan oldu. Beləliklə, Balkanlar tədricən sovet təsiri altına düşərək kommunistlərin əsas yer aldığı yeni hökumətlərin yaranmasına səhnə oldu.

***Varşava üsyanı.*** 1943-cü ilin iyulunda Polşanın Baş naziri və hərbi qüvvələrin ali baş komandanı Vladislav Sikorskinin səbəbi indiyə kimi məlum olmayan təyyarə qəzasındakı ölümündən sonra ölkənin yeni Baş naziri Stanislav Mikolayçik, Ali baş komandanı isə general Kazımej Sosnkovski oldu. Tehran konfransında Polşa-Sovet sərhəddinin Kerzon xətti boyunca, yəni Lvov istiqamətində Belostok torpaqları, Buq çayı boyunca keçməsi haqqında qərar qəbul edilmişdir. Tehran konfransı gizli xarakter daşıyırdı və qəbul edilmiş qərarlar haqqında Polşa tərəfinin məlumatı yox idi. Belə bir şəraitdə baş nazir S.Mikolayçik paytaxt Varşavada baş tutacaq üsyandan Polşanın sərhədləri və dövlət müstəqilliyi uğrunda müqavilədə bir vasitə kimi istifadə etməyi düşünürdü. Odur ki, hökumətin başçısı Polşanın mənafeyi naminə Varşavada üsyan qaldırmaq qərarına tərəfdar idi. Ali baş komandan general K.Sosnkovski onunla razı deyildi və belə hesab edirdi ki, İ.Stalin zor gücünə Polşa hökumətini ölkənin siyasi müstəqilliyini məhdudlaşdırılması ilə bağlı güzəştlərə məcbur edəcəkdir. Yekdil fikirə gələ bilməyən Polşanın mühacir hökuməti qərar qəbul etməyi gizli dövlətin rəhbərliyinə həvalə etdi. Varşava əhalisi beşillik işğalın, 1939-cu il bombardmanın, kütləvi qətillərin cavabının nə zaman veriləcəyini səbirsizliklə gözləyirdilər. İyul ayında alman işğalçıları şəhərin mərkəzi küçələri ilə qərbə doğru çəkilir, solsahil Varşavası tərəfdən isə yaxınlaşan cəbhənin gurultusu eşidilirdi.

1944-cü il iyulun 31-də Varşavanın baş komendatı T.Komorovski Vislanın qarşı tərəfinə Qızıl Ordunun desant çıxaracağı xəbərini eşidər-eşitməz üsyana başlamaq qərarı verdi. Krayevo ordusunun 40 min döyüşçüsü var idi, lakin onların çoxunun silahı belə yox idi, əsasən yandırıcı maddə ilə dolu şüşələrlə təyyarələri, tankları, ağır artilleriyası olan almanların üzərinə yeridilər. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq polyak üsyançılar mərdliklə döyüşərək ilk dörd gün müddətində şəhərin bir çox mərkəzi rayonlarını tuta bildilər. Üsyanın beşinci günü hitlerçilər və xüsusi SS dəstələri qərb istiqamətində Volya rayonunda hücuma keçdilər. Bir neçə gündə alman işğalçıları Volyada 40 minə yaxın dinc insanı öldürdü. Avqustun 12-də ağır döyüşlər artıq köhnə şəhərdə gedirdi. Köhnə şəhəri alan almanlar Povislya tərəfə istiqamət alaraq sentyabrın 5-də üsyançıların elektrostansiyasını tutdu, Varşava qaranlığa qərq oldu. Sentyabrın sonunda Varşavanın cənubunda Mokotov alman aviasiyası tərəfindən bombalandı, çoxlu dinc əhali tələf oldu. Sentyabr ayının 30-da Krayevo Ordusu (KO) komandanlığı şəhəri tərk etmək şərti ilə almanlarla danışığa başladı.

63 gün ərzində davam edən Varşava üsyanı ancaq barrikadalardakı döyüşlərdən ibarət deyildir. Bu vaxt ərzində Varşavada demokratik Polşa dövləti fəaliyyətini davam etdirdi. Buna baxmayaraq, Varşava üsyanının nəticəsi ağır oldu, 150 min nəfər adam, o cümlədən çoxlu vətənsevər gənclər həyatını itirdi. Siyasi cəhətdən də üsyan məqsədinə çatmadı, İ.Stalin

və Sovet totalitar rejimi Polşa xalqına kömək etməkdən imtina edərək PMAK-la birlikdə xalqın faciəsinə tamaşa etməyi üstün tutdular.

Varşava üsyanı yatırıldıqdan sonra alman işğalçıları solsahil Varşavasın dağıtdılar, mülkü əhalini şəhərdən qovdular. S.Mikolayçik Moskvaya səfər etsə də heç bir nəticə əldə edə bilmədən Londona döndü və istefaya çıxdı. Yeni mühacir Polşa hökumətinə sosialist Tomas Artsişevski başçılıq etməyə başladı. Polyak xalqının böyük əksəriyyətinin şücaətinə baxmayaraq Londondakı mühacir Polşa hökuməti Polşa dövlətinin müharibədən sonrakı talehinə təsir etmək gücünə malik deyildir. Çünki qərb dövlətləri Cənub-Şərqi Avropanı İ.Stalinin və totalitar dövlətin rəmzi olan SSRİ-nin ixtiyarına vermişdir.

1945-ci ilin yanvarında sovet qoşunlarının Polşada yeni hücumu başladı və ölkənin bütün ərazisi işğalçılardan azad edildi. Sovet ordusu ilə birlikdə Polşa qoşunları da bu döyüşlərdə ön cərgədə yer aldı. Qızıl Ordu Polşa torpaqlarında 600 min nəfərdən çox əsgər və zabit itirdi. 1945-ci ilin fevralında üç müttəfiq dövlətin Krım konfransında Londondakı Polşa mühacir hökumətinin hüquqlarını müdafiə edən Uinston Çörçillə, Lyublin hökuməti ilə əlaqə saxlayan İossiv Stalin arasında əslində Polşa ərazisindəki hakimiyyətin kommunistlərin əlində alət olan Müvəqqəti hökumətə verilməsi haqqında saxta kompromis əldə olundu. Belə ki, daxili və xarici demokratik qüvvələrin iştirakı ilə Polşa Milli Birliyinin müvəqqəti hökumətinin (MBMH) təşkili irəli sürüldü. Polşanın şərq sərhədlərinin Kerzon xətti boyunca keçməsi müəyyən edildi. Qərb sərhədləri məsələsi isə növbəti konfransda həll edilməli idi. Gizli Polşa dövlətinin rəhbərliyi, o cümlədən Milli bərabərlik şurasının sədri Kazımej Pujak 1945-ci ilin martında danışıqlara başlamaq adı altında (cəmi 16 nəfər) həbs edilərək Moskvadakı Lyublyanka həbsxanasına göndərildilər.

1945-ci il mayın 8-də Almaniya müharibədə təslim olmaq haqqındakı sənədi imzaladı, 6 il davam edən İkinci Dünya müharibəsi başa çatdı. Berlindəki Brandenburq darvazasının üzərində sovet bayrağı ilə bərabər Polşa bayrağı da dalğalandı, bu isə o demək idi ki, hitlerçilərlə mübarizəyə birinci başlayan polyak xalqı onu axırıncı başa vurdu.

## Polşa 1945-1989-cu illərdə

***Polşa inqilabi dəyişikliklər dövründə. 1944-1948-ci illər.*** İkinci Dünya müharibəsində Polşa torpaqlarına alman və sovet təcavüzü sayəsində Reç Pospolitanın 6 milyon vətəndaşı, o cümlədən 3 milyon nəfər yəhudi həyatını itirdi. Ölənlərin bir hissəsi polyak mənəviyyatının daşıyıcıları olan ziyalılar idi, belə ki, ölkə 1939-cu ilə kimi yetrişdirdiyi ali təhsilli əhalisinin 38 faizini itirmişdir. Müharibə Polşanın şəhər və qəsəbələrini xaraba qoymuşdur. Varşavanın solsahil hissəsinin 75 faizi məhv edilmiş, Qdansk və Vroslav şəhərləri yerlə-yeksan edilmişdir. Visla, Oder, Narva və Buq çayı üzərindəki bütün körpülər demək olar ki, məhv edilmişdir. Hərbi əməliyyatların gedişində küllü miqdarda milli mədəniyyət abidələri, incəsənət əsərləri, kitabxana və muzeylər və s. məhv və ya qarət edildi.

Moskvada yaradılan Polşa Milli Azadlıq Komitəsi – PMAK 1944-cu il iyulun axırında KO dəstələrindən təmizlənmiş Lyublinə gələrək sentyabrda “Lyublin Polşası” hökuməti kimi yeni hakimiyyətin sosial bazasını yaratmaq məqsədilə aqrar islahat keçirməyi qarşısına məqsəd qoydu. Qəbul edilən dekretə əsasən almanların və onlarla iş birliyi quran xainlərin torpaqları, eyni zamanda 100 hektardan çox torpaq sahəsi müsadirə olundu. Ölkənin mərkəz, cənub və şərq vilayətlərində əkin sahəsi 50 hektardan çox olan torpaqlar müsadirə edildi, müsadirə edilmiş torpaqlar simvolik ödəmə şərtilə kəndlilərə verildi. Torpaqları kəndlilərə verən kommunistlər onların dəstəyinə ümid edirdilər. Almanlar tərəfindən ələ keçirilmiş sənaye müəssisələri öz əvvəlki sahiblərinə qaytarılmalı idi və müvəqqəti olaraq dövlətin idarəçiliyinə verildi.

Yeni dövlət aparatı əsasən Krayova Rada Narodova (KRN) daxil olan siyasi partiyaların nümayəndələrindən formalaşdırıldı. 1944-cü ilin sonunda PMAK sovet dövlətinin yardımı ilə Polşa respublikasının müvəqqəti hökumətinə çevrildi ki, bu da dünyaya yeni rejimin stabilləşməsini nümayiş etdirməli idi. Polşada vəziyyəti gərginləşdirən o idi ki, ABŞ və Böyük

Britaniya hələ də ölkədə güclü təsirə malik olan Polşa Mühacir hökumətini tanıyırdılar. Polşada ikihakimiyyətliliyə son qoymaq üçün 1945-ci il Yalta konfransında Müvəqqəti hökuməti London düşərgəsindəki demokrat əhval-ruhiyyəli siyasətçilər hesabına genişləndirmək və onu Müvəqqəti Milli Birlik Hökumətinə çevirmək qərara alındı. Eyni zamanda İ.V.Stalin tərəfindən ölkənin Oder və Neyse çayları boyunca yerləşən qərb sərhədləri haqqında məsələ də irəli sürüldü. Polşaya Şərqi Prussiyanın da bir hissəsi keçməli idi. Polşa dövlətinə "Şimalda və qərbdə ərazilərinin əhəmiyyətli dərəcədə artması vəd edilmişdir."

Yalta razılaşması nəticəsində Polşa Avropada Sovet təhlükəsizliyi sisteminin əsas həlqələrindən birinə çevrildi. 1945-ci il aprelin 21-də imzalanmış dostluq, qarşılıqlı yardım və müharibədən sonra əməkdaşlıq haqqında Polşa-Sovet müqavilsi bu əlaqələri daha da möhkəmləndirdi.Yalta konfransında qəbul edilən qərarlar Polşa Fəhlə Partiyası və onun müttəfiqlərinin mənafeyini təmin edirdi. Onlar Polşadakı yeni hakimiyyətin beynəlxalq aləmdə tanınmasına nail ola bildilər.

1945-ci ilin iyununda Müvəqqəti Milli Birlik Hökuməti yaradıldı. Hökumətin başçısı vəzifəsinə əvvəllər Polşa Milli Azadlıq Komitəsinin (PMAK) və Müvəqqəti hökumətin başçısı olmuş sol sosialist E.Osubka-Moravski təyin edildi. Onun müavinləri vəzifəsini isə V.Qomulka (PFP) və London hökumətinin keçmiş başçısı, sonralar hökumətin tərkibindən çıxaraq Polşaya qayıtmış S.Mikolayçik oldular. Stanislav Mikoloyçiki Polşada təntənəli şəkildə qarşıladılar. S.Mikolayçik özünün yeni partiyasını, tezliklə ölkənin böyük siyasi təşkilatına çevrilmiş Polşa Xalq Partiyasını yaratdı ki, bu da PFP-nin və onun müttəfiqlərinin siyasəti ilə razılaşmayan bütün qüvvələrin bu partiya ətrafında cəmləşməsinə səbəb oldu. Xalq mühacir hökumətin keçmiş baş nazirinin kommunistlərə qarşı dura biləcəyinə inanırdı.

PFP hesab edirdi ki, birləşmiş sol partiyalar (PFP, sosialist, kəndli və demokrat) həm SSRİ-nin, həm də burjua ölkələrinin sosial-iqtisadi quruluşundan fərqli cəmiyyət qura bilər. Onun iqtisadi bazası çoxukladlı iqtisadiyyat olmalı idi. Cəmiyyətin siyasi əsasını PFP-nin aparıcı rolu saxlanılmaqla məqsədləri yaxın partiyaların bloku təşkil etməlidir. Bu yolla təşkil edilmiş cəmiyyət yavaş-yavaş sosialist yenidənqurmasına doğru irəliləməli idi. Xarici siyasətdə yeni Polşa SSRİ-yə meyilli olmalı idi, bu konsepsiyanın daha ardıcıl tərəfdarı PFP MK-nın baş katibi V.Qomulka (1905-1982) idi. Lakin partiyanın rəhbər və sıravi üzvlərinin hamısı onu dəstəkləmirdi.

S.Mikolayçik və onun əhatəsi istehsal vasitələri üzərində xüsusi mülkiyyətin və siyasi qüvvələrin müstəqil fəaliyyət göstərə biləcək liberal-demokratik quruluşun tərəfdarı idi. Xarici siyasətdə o Qərb meyilli siyasət tərəfdarı idi.

1946-cı il iyunun 30-da ümumxalq referendumu keçirildi. Referendumda əhali senatın gələcək parlamentdə ləğvinə, torpaq islahatına və sənayenin əsas sahələrinin milliləşdirilməsinə, həmçinin yeni qərb sərhədləri kimi məsələlərə münasibətini bildirməli idi. Əslində söhbət sol qüvvələrin ötən iki ildə həyata keçirdikləri əsas siyasi və sosial-iqtisadi dəyişikliklərə cəmiyyətin münasibətinin aydınlaşdırılmasından gedirdi. Referendum iştirakçılarının əksəriyyəti sualların hamısına, xüsusən ikinci və üçüncü suallara müsbət münasibət bildirdilər.

1947-ci il yanvarın 19-da Qanunverici seymə seçkilər keçirildi. Səsvermə otaqlarında hərbi və polis dəstələri yerləşdirilmişdir. Fəhlələrə və əsgərlərə Polşa Fəhlə partiyasına və onun müttəfiqlərinə səs vermələri tapşırılmışdır. Hökumətin tədbirlərinə baxmayaraq, əhalinin böyük əksəriyyəti PKP-yə səs verdi. Lakin buna baxmayaraq rəsmi məlumatlara əsasən seçkilərdə əhalinin 90 faizinin iştirak etdiyi, "Blokun" partiyalarının 80 faiz, PKP-nin isə 20 faiz səs qazandığı elan edildi. Polşa bilavasitə SSRİ-nin nüfuz dairəsinə daxil olduğundan Qərb səfirlikləri də seçkinin nəticələrinə heç bir münasibət bildirmədi. 1952-ci ilə kimi fəaliyyət göstərən kiçik Konstitusiya qəbul edildi. Seym ölkənin prezidenti vəzifəsinə PFP-nin üzvü, Krayova Rada Narodovanın başçısı Boleslav Berutu seçdi. Nazirlər Şurasının sədri kommunistlərin tərəfdarı PSP-nin üzvü Yuzef Sirankeviç oldu.

Artıq 1946-ci ildə Antihitler koalisiyasının qarşı-qarşıya duran hərbi-siyasi bloklara parçalanmasının əlamətləri görünməkdə idi. Sovet rəhbərliyinin Qərbi Avropada kommunistlərin dinc yolla hakimiyyətə gələcəyi haqqında ümidləri özünü doğrultmadı. Qərb siya-

satçıları Mərkəzi Avropada sərhədlərin qəti şəkildə müəyyənləşdirildiyinə, xüsusilə Polşa-Alman sərhədinə şübhə ilə yanaşmağa başladılar. Keçmiş antihitler koalisiyası müttəfiqləri arasında gələcək Almaniya barədə müxtəlif baxışlar meydana gəldi.

Beynəlxalq kommunist hərəkatında sosializmə doğru irəliləyişin milli yolları axtarılmasından imtina etmək tendensiyası meydana gəlmişdir. 1947-ci ilin sentyabrında Polşada Bolqarıstan, Macarıstan, İtaliya, Polşa, Rumıniya, SSRİ, Fransa, Çexoslovakiya və Yuqoslaviya kommunist partiyaları nümayəndələrinin müşavirəsi keçirildi və burada İnformasiya bürosu (Kominform) yaradıldı. Tezliklə o, təcrübə mübadiləsi orqanından müttəfiqlərin Moskva ilə hərbi-siyasi müqavilələr bağlaması ilə əlaqədar olaraq Mərkəzi və Cənubi-Şərqi Avropa ölkələri kommunist partiyalarının fəaliyyətinə rəhbərlik mərkəzinə çevrildi. Belə ki, sovet nümunəsi əsasında sosialist cəmiyyəti qurmaq məsələsində blokdan olan kommunist partiyalarına kömək etmək Kominftorunun əsas vəzifəsinə daxil idi. Kommunistlər Polşada terroru gücləndirərək xalqı təbliğat təsiri altına aldılar.

1948-ci ildə “sağmillətçilik təmayülündə” günahlandırılan V.Qomulka PFP MK-nın baş katibi vəzifəsindən uzaqlaşdırıldı. Onun yerini B.Berut (1892-1956) tutdu, eyni zamanda o, 1948-ci ilin dekabrında Polşa Xalq Partiyası və Polşa Fəhlə Partiyasının birləşməsi nəticəsində yaranan Polşa Birləşmiş Fəhlə Partiyası MK-nın katibi vəzifəsini də ələ keçirdi. Boleslav Berut Polşanın tez bir zamanda “sosializm quruculuğu” və “kapitalizmin qalıqları ilə barışmaz mübarizə” yoluna keçəcəyini bildirdi.

Əsl soyadı Bernatski olan Berut Boleslav 1882-ci ildə kəndli ailəsində anadan olmuşdur. 1912-ci ildən Polşa Sosialist partiyasının sol qanadının, 1918-ci ildən Kommunist partiyasının üzvüdür. 1928-1930-cu illərdə Moskvada Beynəlxalq Lenin məktəbinin dinləyicisi olub, XDİK-ğı ilə əməkdaşlıq edib. 1930-cu illərdə Kominternin işçi casusu kimi Polşa, Bolqarıstan, Çexoslovakiya və Avstriyada fəaliyyət göstərib. 1933-cü ildə Polşa hakimiyyət orqanları tərəfindən XDİK-nın casusu kimi həbs edilərək 7 il həbs cəzası alıb. İkinci Dünya müharibəsi başladıqdan sonra SSRİ-də peyda olaraq Sovet kəşfiyyatına işləməyə başlayıb. 1943-cü ildə işğal olunmuş Polşaya qayıdaraq ölkə üzərində kommunist nəzarətinin bərqərar olmasında iştirak etmişdir. 1943-1944-cü illərdə Polşa Fəhlə Partiyasının Katibliyinin, 1944-1956-cı illərdə sonradan Polşa Birləşmiş Fəhlə partiyasının Siyasi Bürosunun üzvü olmuşdur. Polşada İ.Stalin siyasətinin ardıcıl davamçısı kimi siyasi rəqiblərinə qarşı amansızlığı ilə seçilmişdir. 1948-ci ilin oktyabrından PBFP MK-nın Karibliyinin sədri, 1954-cü ilin martından MK-nın Birinci katibi olmuşdur. Eyni zamanda 1947-1952-ci illərdə Polşanın prezidenti və Dövlət Şurasının sədri, 1952-1954-cü illərdə Polşa Xalq Respublikası Nazirlər Sovetinin sədri işləmişdir. Moskvada Sov. İKP-nin XX qurultayından dərhal sonra mart ayının 12-də məlum olmayan səbəbdən vəfat etmişdir.

Beləliklə, Polşa B.Berutun rəhbərliyi ilə Sovet modeli əsasında sosializm quruculuğu kursunu həyata keçirməyə başladı. 1949-cu ilin noyabrında Sovet marşalı, milliyətcə polyak K.K.Rokossovski Polşanın Hərbi naziri və silahlı qüvvələrin Ali Baş komandanı təyin olundu. Sovet zabitləri Polşa ordusunun ali komanda heyətində daha çox yer tutdu. 1953-1955-ci illərdə Polşa ordusuna məsləhətçi adı altında 150 nəfər sovet zabiti göndərilmişdir. Sovet təhlükəsizlik orqanları tərəfindən polyak ordu hissələrinə tam nəzarət etmək məqsədilə 1948-1951-ci illərdə casusluq və hakimiyyəti devirmək iddiası ilə generallar S.Tatar, Y.Kuropeska, F.German, E.Kirxmayer, S.Mossor və bir qrup ali polyak zabiti məhkəmə məsuliyyətinə cəlb olundu. Müxtəlif müddətə cəza almalarına baxmayaraq 1956-cı ildə onların hamısı bəraət aldı.

Polşanın hakim dairələri Sovet İttifaqında olduğu kimi rejimə qarşı müxalif mövqe tutan katolik kilsəsinə qarşı mübarizəsini sərtləşdirdi. Lyublin Universitetinin ilahiyyət fakültəsi bağlandı. 1950-ci il aprelin 14-də hökumətlə katolik yepiskopluğu arasında bağlanan sazişə əsasən Roma papası Polşada yalnız din, əxlaq və kilsə hüququ məsələləri ilə məşğul ola bilərdi. Bu əslində hökumətin katolik kilsəsinin əhali, xüsusilə gənclər arasında artan nüfuzunun qorxusu qarşısında atılan rəsmi addım idi. Belə ki, 1952-ci ildə Polşada 10 min dünyəvi keşiş, 8 min rahib və 22 min rahibə mövcuddur ki, bu da cəmiyyətə təsir edən böyük

qüvvədir. Kommunist rejiminin total siyasətinin əleyhinə olan bu qüvvəni zərərsizləşdirmək məqsədilə saxta işlər təşkil edən təhlükəsizlik orqanları 1951-ci ilin avqustunda Kelets yeparxiyasının ksöndzin, yəni polyak katolik keşişin, 1953-cü il yanvarın 21-27-də Krakov yeparxiyasının ksöndzin həbs edərək onları amerikan imperializmi və Vatikanın xeyrinə casusluqda ittihm etdilər. Katolik kilsəsi üzərinə genişmiqyaslı hücumun son həddi kimi 1953-cü il sentyabrın 25-də Polşanın priması kardinal Stefan Vışinskinin hakimiyyət orqanları tərəfindən həbs edilməsini misal göstərmək olar. Varşava-Qneznensk arxiyepiskop-mitropoliti Vışinski Stefan 1901-ci ildə Buq üzərindəki Zuzel kəndində anadan olmuşdur. 1912-1915-ci illərdə Varşava gimnaziyasında, Vlotslavek dini seminariyasında təhsil almışdır. Sonra Lyublin Universitetinin kilsə işləri üzrə fakültəsində hüquq və ictimai elmlərdən namizədlik dərəcəsi alıb. 1944-cü il avqustun 1-də Varşava üsyanı zamanı Krayovo ordusunun "Kampinos" hissəsində kapellan, yəni keşiş köməkçiliyi edib. Kardinal Xlondun ölümündən sonra 1948-ci il oktyabrın 22-də Polşa Yepiskopluğu onu Qneznensk və Varşava arxiyeniskopu və mitropoliti seçmişdir. 1952-ci ildən kardinal olan S.Vışinski həbs edilərək Qrudzyondzo altındakı həbsxanada, sonra isə ayrı-ayrı kilsələrdə saxlanılmışdır. 1956-cı il oktyabrın 26-da həbsdən azad edilmiş, 1981-ci ildə dünyasını dəyişmişdir.

***Real sosializmin yaranması, inkişafı və böhranı. 1949-1989-cu illər.*** SSRİ-nin əli ilə Polşada meydana gələn kommunist sistemi qorxu, terror və saxta təbliğat nəticəsində "xalq demokratiyası" yalançı adını davam etdirirdi. Əslində ölkənin siyasi, sosial və iqtisadi həyatının idarə edilməsi PBFP-nın əlində cəmləşmişdir. Partiyanın rəhbərliyi sovet qruluşunu sosializmə keçməyin klassik forması hesab edirdi. Sosializm quruculuğu ideyasını əməli fəaliyyətə çevirmək məqsədilə proletar diktaturasının qurulması, sənayeləşdirmə və kənd təsərrüfatının kollektivləşdirilməsi, marksist-leninçi ideologiyanın hakim mövqeyini təmin edən mədəni inqilabın həyata keçirilməsi zəruri idi.

1940-cı illərin axırlarında Polşada hakimiyyət İ.Stalindən asılı olmağa hazır olan kommunistlərin tabeliyinə verildi. Hər yerdə qorxu, terror, kütləvi repressiyalar davam edirdi. Əsas məqsəd cəmiyyəti qorxutmaq və bununla bərabər, əhali üzərində hökmranlıq etməyi təmin etmək məqsədilə sistemin əsl və potensial düşmənlərini aradan götürmək idi. Əməli addım kimi 1949-cu ildə Polşa Xalq Partiyasının fəaliyyəti dayandırıldı, onun üzvlərinin bir hissəsi Birləşmiş Kəndli Partiyası sıralarına daxil oldu. Liberal görüşlü siyasətçilər, o cümlədən Stanislav Mikolayçik Təhlükəsizlik idarəsi tərəfindən təqib və təzyiqə, həbs edilmək təhlükəsi ilə qarşı-qarşıya qaldıqları üçün hələ 1947-ci ilin oktyabrında Polşanı gizli şəkildə tərk etməyə məcbur oldular. 1950-ci ildə Əmək partiyası özünü buraxdı, partiya üzvlərinin bir hissəsi Demokratik partiyanın sıralarına daxil oldu. Məktəblərdə və ondan kənarda təşkilatı cəhətdən PBFP MK-ya tabe olan gənclik təşkilatı – Polşa Gənclər İttifaqı (ZMP) təşkil olundu. Onlar öz işində marksizm-leninizm ideyalarını rəhbər tutaraq cəmiyyətdə öz fəaliyyətlərilə qorxu şəraiti yaradırdılar. PBFP-nin üzvləri ilə bərabər Polşa Gənclər İttifaqının döyüşkən fəalları da ölkədə təqib, təzyiq, qorxaqlıq və arsızlığa şərait yaradırdılar.

Polşada real hakimiyyətə sahib olan PBFP ilə bərabər digər partiyalar, o cümlədən kəndli partiyası olan Birləşmiş Kəndli Partiyası (BKP), sənətkarları və ziyalıları birləşdirən Demokratik partiya (DP) fəaliyyət göstərirdi. 1952-ci ildə seym nəzəri cəhətdən, yəni sözdə demokratik dövlətlərin qanunvericilik prinsipinə, söykənən Konstitusiyanı qəbul etdi. Konstitusiyaya əsasən kağız üzərində qanunverici hakimiyyət "şəhər və kənd zəhmətkeşlərinin" nümayəndələrinə məxsusdur, idarəedici hakimiyyətə isə hökumət və Dövlət şurası sahibdir. Məhkəmə aparatının fəaliyyətinin müstəqillik prinsipi əsasında qurulduğu bəyan edildi. Dövlətin yeni adı Polşa Xalq Respublikası oldu. Əvvəlki kimi yenə hakimiyyət PBFP MK Siyasi Bürosunun və Mərkəzi Komitənin şöbələrinin əlində cəmləşmişdir.

1947-1949-cu illəri əhatə edən Polşanın təsərrüfatının bərpasına dair üçillik planda ağır sənayenin inkişafı, daş kömürün istehsalının artırılması və kəndin kollektivləşdirilməsi başlıca vəzifə kimi qarşıya qoyulmuşdur. Müəyyən edilən plan tapşırıqlarının yerinə yetirilməsi gedişində kommunist rəhbərliyi onun ilkin göstəricilərin dəyişmələrinə baxmayaraq plan əsasən yerinə yetirildi. 1950-1955-ci illərə dair altıillik planda başlıca vəzifə sənayenin, ma-

şınqayırmanın inkişaf etdirilməsi nəzərdə tutulurdu. Planın əsas vəzifələri SSRİ-nin ehtiyaclarına cavab verməklə bərabər, fəhlə sinfinin sayının artırılmasını tələb edirdi. Bu məqsədlə Krakov ətrafında V.İ.Lenin adına metallurgiya kombinatının (hazırda Sendzimir adına) və Yeni Qut şəhərinin tikintisinə başlandı. Dövlətin xalqa mənsub olması yalançı təbliğatı işə salan partiya fəalları müəssisələrdə mitinqlər təşkil edir, "əmək yarışmaları", "sosializmin qurulması", "sabotajçılarla və ziyankarlarla mübazirə" şüarları səsləndirirdilər.

Sənayeləşdirmə ilə bərabər hökumət kəndin kollektivləşdirilməsinə, yəni əsl kooperasiya ilə heç bir əlaqəsi olmayan kənd təsərrüfatı kooperativlərinin təşkilinə başladı. İqtisadi və polis özbaşınalığından istifadə edərək kəndliləri kooperativlərə zorla girməyə məcbur edirdilər. Tabe olmaq istəməyənlər qolçomaq damğası ilə sıxışdırılır və həbs edilirdi. Svidniksk kəndlilərin üsyanını yatırmaq üçün yaxınlıqda yerləşən Sovet ordusunun hissələrini səfərbər etdilər. Şesinsk voyevodalığında təhlükəsizlik qüvvələri kəndlilərin ərzaq ehtiyatını dağıtdı. Kollektivləşdirmənin həyata keçirilməsindəki əyintilər kənd təsərrüfatı məhsullarının istehsalının aşağı düşməsinə gətirib çıxardı. Kənd təsərrüfatı SSRİ-də olduğu kimi sənayeləşdirməni həyata keçirmək üçün vasitə, xammal və işçi qüvvəsi mənbəyi rolunu oynayırdı. İnzibati cəza metodlarının geniş miqyas alması, repressiyalar nəticəsində ölkədəki istehsal kooperativlərinin sayı 1950-ci ildəki 635-dən, 1955-ci ildə 9076-ya çatdı.

1953-cü ilin martında İ.V.Stalinin ölümündən sonra Sov. İKP-nin daxilində hakimiyyət uğrunda mübarizə N.S.Xruşşovun qələbəsilə başa çatdı. 1956-cı ilin fevralında Sov. İKP-nin XX qurultayında bu zamana kimi partiya və dövlət qarşısında xidmətləri şişirdilərək göylərə qaldırılan İ.V.Stalinin fəaliyyəti kəskin tənqid edilərək bir çox cinayət əməllərində ittiham olundu. N.S.Xruşşovun məruzəsinin məzmunu Kremlin divarlarını aşaraq PBFP-nın daxilində Stalinizm adlandırılan bir sıra qaydaların tənqidi üçün zəmin hazırladı. Polşada bütün hakimiyyəti ələ keçirmiş Boleslav Berutun məlum olmayan səbəblər nəticəsində Moskvada vəfat etməsi PBFP daxilində çəkişmələri daha da artırdı. Bir qrup kommunist xadimi sosializmin islahatı şüarı ilə bəzi dəyişikliklər etməyə səy göstərdi. Polşanın ictimai həyatında Sovet İttifaqında olduğu kimi "mülayimləşmə" adını almış proses baş verdi. İnsanların şüurunda müstəqillik, tarixi ənənələrə bağlılıq və s. şüarlar yenidən canlandı. Belə şüar və fikirləri ilk dəfə ucadan söyləmək məqsədilə 1956-cı ilin iyununda Poznan fəhlələri küçələrə çıxdı. İlk günlər onlar əmək haqqının artırılmasını tələb edirdi, amma çox keçmədən bu hərəkat hökumət əleyhinə olan vətənpərvərlər nümayişinə çevrildi. Hərəkat iştirakçıları həbsxanaları dağıdaraq məhbusları azad etdilər, silahları ələ keçirərək şəhərin küçələrini döyüş meydanına çevirdilər. Hakimiyyət nümayəndələri küçələrə zirehli avtomobil və tank hissələri yeridərək fəhlələrin çıxışlarını güc tətbiq etməklə amansızlıqla yatırdılar. Dəqiq olmayan məlumatlara əsasən 1956-cı il 18-19 iyun hadisələrində 75 nəfər adam öldü, 900 nəfər isə yaralandı. Poznan iyunundan sonra terror, zor və qanunsuzluğa söykənən sovializm sisteminə qarşı nifrət və kin daha da artdı. Zavodlarda həqiqi özünüidarə nümunəsi olan fəhlə ittifaqları təşkil olunur, kəndlilər isə onlara qəbul etdirilən kooperativləri dağıdırdılar.

PBFP MK-nın VI plenumunda birinci katib seçilən E.Oxabın və Baş nazir Y.Sirankeviçin təmsil etdiyi Polşa rəhbərliyi rəsmi olaraq "poznan iyunun" imperializm agentlərinin və onların irticaçı yerli əlaltılarının işi olduğunu, belə təxribatların qarşısının qanunverici orqanların cəza tədbirlərilə kəsiləcəyini bəyan etdi. Sovet İttifaqının hakimiyyət orqanları Poznan hadisələrini okeanın o tayındakı təxribatçı qüvvələrin Polşanın xalq hakimiyətinə qarşı alçaq təxribat əməlləri kimi səciyyələndirdi. İyulun 21-də Polşanın Milli dirçəliş günü münasibətilə bayram tədbirlərində iştirak edən SSRİ Nazirlər Sovetinin sədri N.Bulqanin məsələyə toxunaraq qeyd etdi ki, Poznandakı hadisə göstərdi ki, beynəlxalq irtica sosialist ölkələrində kapitalizmi bərpa etmək kimi xam xəyallarından əl çəkməyib. Əslində həm yerli, həm də Sovet hakimiyyəti Polşadakı hadisələrə səhv siyasi qiymət verməklə vəziyyəti daha da kəskinləşdirdilər.

1956-cı il iyulun 18-28-də Varşavada işə başlayan PBFP MK-nın VII plenumunda Poznan hadisələri müzakirə olunarkən hakim partiyanın rəhbərliyində parçalanma baş verdi. Məsələyə münasibətdə hakimiyyətlə cəmiyyət arasında ziddiyyət daha da dərinləşdi. Polşa-

dakı sovet səfiri P.K.Ponomarenko partiyanın hakim dairələrində və cəmiyyətdə baş verən proseslər haqqında sovet rəhbərliyinə ətraflı məlumat təqdim etmişdir. Odur ki, yaranmış vəziyyətdə Sovet rəhbərliyi E.Oxaba əvəz axtarmağa başladı.

1956-cı il oktyabrın 9-da Varşava Universitetində tələbələr və 20 Varşava sənaye müəssisəsinin nümayəndələri Polşa Gənclər İttifaqı adı altında mitinq təşkil etdilər. Mitinqdə qəbul edilən "Bütün Polşa tələbələrinə açıq məktub" gəncləri demokratik dəyişikliklərə, siyasətdə aşkarlığa, Stalinpərəst siyasətin tərəfdarlarının cəzalandırılmasına çağırırdı. Bundan sonra Varşavada kütləvi tələbə həyəcanları başladı.

Polşanın partiya və dövlət hakimiyyətinin üst qatlarında, cəmiyyətdə baş verənn qarşıdurma və gərginlik hakimiyyət dəyişikliyinə şərait yaratmışdır. Oktyabrın 1-2-də PBFP MK-nın Siyasi Bürosunun iclasında ölkədəki siyasi böhran müzakirə edildi. Məlum oldu ki, yaranmış vəziyyətdə ölkənin siyasi rəhbərliyini birləşdirə bilən, daxili şəraiti normallaşdırmağa səriştə və bacarığı çatan yeni bir liderə ehtiyac vardır. Belə bir rəhbər vaxtilə ölkənin Stalinist hakimiyyəti tərəfindən millətçilikdə ittiham olunaraq partiya sıralarından xaric edilib, 5 il həbs cəzası çəkən İ.Stalinin ölümündən sonra bəraət alan Vladislav Qomulka oldu.

V.Qomulka 1905-ci ildə Krosno şəhəri yaxınlığındakı Byalobjeqdə anadan olmuşdur. 1921-ci ildə sosialist gənclər hərəkatına qoşulan V.Qomulka 1927-ci ildən Kommunsit partiyasının üzvüdür. 1934-1936-cı illərdə Moskvada Beynəlxalq Lenin məktəbində təhsil aldıqdan sonra Polşaya qayıtmış, siyasi fəaliyyətinə görə dəfələrlə həbs edilmişdir. Alman işğalçıları Varşavaya daxil olduqdan sonra Lvovda müqavimət hərəkatının iştirakçısı olmuş, 1945-ci ildə Polşa Fəhlə partiyasının Baş katibi seçilmişdir. 1948-ci ildə Stalin repressiyasının qurbanı olaraq "burjua millətçiliyində" ittiham olunaraq, partiya sıralarında xaric olunaraq həbs edilmişdir. İ.Stalinin ölümündən sonra bəraət alaraq partiya sıralarına bərpa edilmişdir. 1956-cı ilin oktyabrında PBFP MK-nın Birinci katibi seçilərək ölkəni mümkün Sovet müdaxiləsindən xilas etmişdir. "Sosializmə Polşa yolu" ideyasın müdafiə edərək aqrar siyasəti dəyişdirmiş, katolik kisləsilə münasibətləri qaydaya salmış, müəssisələrdə fəhlə özünüidarəsini inkişaf etdirmişdir. 1970-ci illərin sonunda ölkədəki iqtisadi problemləri həll etmək məqsədilə hökumət ərzaq malları və enerji daşıyıcılarının qiymətini artırdığı üçün Polşada başlayan nümayişlər onun 1970-ci il dekabrın 20-də istefaya göndərilməsinə gətirib çıxarmışdır. 1982-ci ildə dünyasını dəyişmişdir.

Polşada sovet quruluşunun ağır böhran keçirdiyi bir vaxtda PBFP MK-nın VIII plenumu 1956-cı ilin oktyabrında oldu. Plenumun işində iştirak edən N.S.Xruşşov Vladislav Qomulkanın PBFP MK-nın Birinci katibi seçilməsinə razı oldu, qarşı tərəf isə partiyanın yaranmış şəraiti düzəldəcəyinə, Polşanın Varşava müqaviləsində qalacağına, onun dövlət quruluşunun əsas prinsiplərinin dəyişməyəcəyinə vəd verdilər. Plenumdan sonra sovet nümayəndə heyəti, bunun ardınca isə sovet müşavirləri və Polşanın Milli Müdafiə naziri marşal K.Rakossovski Moskvaya qayıtdılar.

Polyak xalqının gözündə V.Qomulka böyük inam qazanaraq milli qəhrəmana çevrildi. Varşavadakı izdihamlı mitinqdə yarım milyondan çox insan onun görüşünə gəldi. Polşada böhranı təhlil edən partiya rəhbərliyi onun baş verməsində aşağıdakı səhvlərə yol verildiyini bilirdi: 1. Keçmiş rəhbərlik tərəfindən sosialistcəsinə yenidənqurmanın sürətini və müddətinin müəyyənləşdirilməsində nöqsanlara yol verilməsi; 2. Ölkə rəhbərliyinin fəhlə sinfindən uzaq düşməsi; 3. Rəhbərlikdə inzibati-amirlik metodlarına üstünlük verilməsi; 4. Polşa şəraitinə etinasızlıq göstərilməsi; 5. Marksizm-leninizm nəzəriyyəsinə ehkam kimi yanaşılması. V.Qomulka tərəfindən sosializmin quruculuğunun Polşa şəraitinə uyğunlaşdırılmış konsepsiyası formalaşdırıldı. Buraya aqrar siyasətin dəyişdirilməsi; katolik kilsəsi ilə münasibətlərin normallaşdırılması; fəhlə özünüidarəsinin inkişaf etdirilməsi; ölkənin idarə edilməsində Seymin və xalq sovetlərinin rolunun yüksəldilməsi daxil idi.1956-1957-ci illərdə bu konsepsiyanın həyata keçirilməsi üçün əməli iş görüldü. Birləşmiş Kəndli partiyası ilə birlikdə yeni aqrar siyasətin əsasları işlənib hazırlandı. İstehsal kooperativlərinin əksəriyyəti buraxıldı. Aqrar bölmədə fərdi kəndli təsərrüfatları üstün mövqe tutmağa başladılar. Təcrid edilmiş və kilsələrdən birində saxlanılan Polşanın priması kardinal Stefan Vışinski azad edildi. Valideynlərin

arzusu ilə uşaqlar xüsusi dini mərkəzlərdə dini ayinləri öyrənə bilərdi.

Polşa-Sovet münasibətlərində bəzi mürəkkəb məsələləri nizama salmaq mümkün oldu. SSRİ-dən 100 mindən artıq polyakın Polşaya qayıtmasına şərait yarandı. Polşanınn SSRİ-yə borcu, Polşa kömürünün SSRİ-yə ixrac edilməsi, Polşadakı Sovet ordusu Şimal qrupu qoşunlarının statusu həll edildi. Ağır sənayeyə kapital qoyuluşunun azaldılması və kənd təsərrüfatı istehsalının artması, siyasi və mədəni həyatın müəyyən qədər liberallaşması, repressiyaların pislənilməsi və onun qurbanlarına bəraət verilməsi cəmiyyətdə sosial gərginliyin müvəqqəti olaraq zəifləməsi kimi 1956-cı ildən sonra baş verən bu hadisələr əhalinin maddi vəziyyətinin qismən yaxşılaşmasına səbəb oldu.

Lakin 60-cı illərin əvvəllərində yenidən iqtisadi və siyasi çətinlikıər yaranmağa başladı. Belə ki, sənayeləşdirilmənin davam etdirilməsi istehlak malları istehsalını ləngitdi, mənzil tikintisini dayandırdı. Fərdi təsərrüfatla məşğul olan kəndlilər vəd olunmuş yardımı ala bilmədilər, əsas kapital qoyuluşu ictimailəşdirilmiş bölməyə yönəldildi. Halbuki, bu bölmə becərilən əkin sahəsinin 13 faizini tuturdu. Müəssisələrdə fəhlə özünüidarəsi unuduldu, bürokratik sistem öz mövqeyini qoruyub saxladı. 60-cı illərin ortalarında pisləşməyə başlayan iqtisadi vəziyyət şəraitində sosial-siyasi böhran artmağa başladı. Ölkədə böyük nüfuzu olan katolik kilsəsi üzərində nəzarət qoymaq cəhdi yepiskopluqla münaqişəyə səbəb oldu. Kilsə ilə mübarizə və qarşıdurma yenidən başlandı, şəriət qanunu dərsləri məktəb proqramından çıxarıldı, yeni kilsələrin tikilməsinə icazə verilmədi.

1960-cı illərin başlanğıcında elm, mədəniyyət və incəsənət nümayəndələri arasında partiya rəhbərliyinin yeritdiyi siyasətin bir sıra istiqamətlərinin tənqidi artdı. Hədsiz dərəcədə mərkəzləşdirmə, mədəniyyət xadimlərinin partiyanın siyasətinə sözsüz tabe olmaları tələbi, senzuranın zorla qəbul etdirdiyi qadağalar narazılığın başlıca səbəbləri idi. V.Qomulka mədəniyyət xadimlərinə hücum edərək bəyan etdi ki, “müxtəlif fikirlərin eyni hüquqla təqdim edilməsi” yol verilməzdir. Hansı fikrin doğru olmasını yalnız senzura seçmək hüququna malik ola bilər. Senzuranın amansızlığı, marksizm ideologiyasının zorla qəbul etdirilməsi ziyalılarla ziddiyətə gətirib çıxartdı. Bir qrup elm və mədəniyyət xadimi 1968-ci ildə partiya diktarurasına etiraz ifadə edən “34-lərin məktubu”nu dərc etdilər. Tələbələr də fəal çıxış edirdilər. Tələbələrin çıxışlarını yaradıcı ziyalılar və professorların bir hissəsi də müdafiə edirdi. Tələbə çıxışlarında xüsusilə fəal rolu 50-ci illərin birinci yarısının məşhur siyasətçiləri – A.Mixnik, K.Modzelevski və b. uşaqları oynayırdılar ki, onlar sonralalr müxalifətin görkəmli xadimlərinə çevrildilər.

İqtisadiyyatı stimullaşdırmaq məqsədi ilə hökumət 1970-ci ilin dekabrında ərzaq və bəzi sənaye mallarının qiymətlərini qaldırmaq haqqında qərar qəbul etdi. Bu şəhər əhalisinin qəti etirazına səbəb oldu. Qdansk, Qdın, Şetsin, Elblonq şəhərlərinin fəhlələri daha qətiyyətlə çıxış edirdilər. Nümayiş iştirakçıları “Çörək, çörək!”, “Köhnə qiymətləri istəyirik!” şuarları səsləndirir, dini vətənpərvər və sosialist mahnılar ifa edirdilər. 1970-ci il dekabrında 15-də PBFP MK-nın Siyasi Bürosu nümayişi dağıtmaq məqsədilə ordu hissələrindən və odlu silahdan istifadə etmək haqqında qərar qəbul etdi. Dekabrın 16-da Qdnask tərsanəsində ilk atəş səsləri eşidildi, dekabrın 17-də isə tərsanənin qapıları önündə əsgərlər yaxınlaşmaqda olan silahsız fəhlələrə atəş açdı. Elblonqda və Şetsində də eyni hadisələr təkrar olundu. Bir həftə ərzində sahilboyunda 44 nəfər həlak oldu, 1164 nəfər yaralandı. Milis və əsgərlər 3 minə yaxın adamı həbs etdi.

Nümayişlər Polşanın digər rayon və müəssisələrini də bürüdü. Bu şəraitdə PBFP MK Siyasi Bürosunun tərkibində kadr dəyişikliyi baş verdi. Rəsmi dövlət məlumatında göstərildiyi kimi xəstəliyi ilə əlaqədar olaraq V.Qomulka tutduğu vəzifədən azad edildi. PBFP-nın Katovits voyevodalığı komitəsində birinci katib vəzifəsində işləyən Edvard Qerek (1913 – 2001) MK-nın Birinci katibi seçildi. 20 il qısa fasilələrlə Nazirlər Şurasının sədri vəzifəsində çalışan Yuzef Sirankeviç işdən azad edildi. Dövlət şurasının sədri M.Spıxalski istefa verdi. Baş nazir vəzifəsinə P.Yaroşeviç, Dövlət Şurasının sədri vəzifəsinə isə görkəmli tarixçi və siyasi xadim X.Yablonski təyin edildi. Bütün bu dəyişikliklər etiraz nümayişlərinin qarşısını almadı və 1971-ci ilin fevralında nümayişlərin yeni dalğası başlandı. Yeni partiya və dövlət

rəhbərliyi 1971-ci ilin martında ərzaq məhsullarının qiymətini aşağı saldıqdan sonra nümayişlər dayandı. 1956-cı ildə hakimiyyətə demək olar ki, qəhrəman kimi gələn Vladislav Qomulka 14 illik hakimiyyətdən sonra onu polyak xalqının nifrət və qəzəbini qazanaraq tərk etdi.

PBFP-nın yeni birinci katibi Edvard Qerek xalqın ümumi rifahının yüksəldilməsi, vətəndaşlarla iş üslubunun daha sərbəst münasibətlər çərçivəsində qurulması, katolik kilsəsi ilə əlaqələrin yaxşılaşdırlması sahəsində addımlar atmağa başladı. O, həmçinin Polşadakı vəziyyəti sabitləşdirmək məqsədilə kapitalist ölkələri ilə iqtisadi və siyasi əlaqələri möhkəmləndirmək üçün Moskvanın razılığını almağa müəssər oldu. Qərb ölkələrinin prezidentləri və baş nazirlər, NATO və AİƏ-nin nümayəndələri Polşaya səfər etməyə başladılar. Polşanın kommunist rəhbərliy eyni zamanda Vatikanla razılaşma imzaladılar. Polyaklar əvvəlki illərə nisbətən xarici ölkələrə daha azad səfər edə bilirdilər.

Yeni hökumətin qarşısında duran təxirəsalınmaz vəzifə iqtisadi islahatın keçirilməsi idi. Avropada təhlükəsizlik və əməkdaşlıq müşavirəsinin hazırlanması ilə əlaqədar yaranmış əlverişli beynəlxalq şəraitdən istifadə edən Polşa rəhbərliyi xalq təsərrüfatının modernləşdirilməsi üçün qərbdən kredit və texnologiyanın cəlbinə başladı. İşçilərin maaşı xeyli artırıldı. Bütün bunlar sənaye istehsalının artmasına səbəb oldu. Sənayenin yenidən qurulması sürətlə aparıldı. Qərbdən alınan lisenziyaların sayı artdı. Polşa dövləti böyük kreditlər, yəni xarici borclar götürərək onların bir hissəsini yeni investisiyalar üçün ayırırdı. Polşa dövlətinin rəhbərliyi 1970-ci illərin ortalarında baha başa gələn yerli inzibati bölgü islahatını həyata keçirdi, əvvəlki 17 voyevodalıq və 5 seçilmiş şəhər yerinə 49 voyevodalıq yaradıldı. Bu isə mərkəzi hakimiyyətdən asılı olan imtiyazlı vətəndaşların sayını daha da artırdı. 1952-ci il Konstitusiyasına xalqın razı olmadığı yeni düzəlişlər, o cümlədən SSRİ ilə möhkəm əlaqə yaratmaq və PBFP-nın dövlətdə rəhbər rolu məsələsi öz əksini tapdı.

70-ci illərin ortalarında iqtidasi çətinliklər yenidən üzə çıxdı. Polşa iqtisadiyyatı iflasa yaxınlaşırdı. Polşanın dövlət borcu sürətlə artaraq 70-ci illərin sonunda 20 milyard dollara çatdı. Dövlətdən heç bir yardım almayan kəndli təsərrüfatları əhalini ərzaq məhsulları ilə təmin edə bilmirdi. Əsas ərzaq məhsullarına kartoçka sistemi tətbiq olundu. 1976-cı ilin yayında dövlət əhaliyə azacıq konpensasiya verməklə yeyinti məhsullarının qiymətlərini artırdı. Bu, ölkədə tətil dalğasına səbəb oldu, Rodomun, Varşava ətrafı “Ursus” traktor zavodunun və Plotskın fəhlələri tətil etdilər. Dövlət qiymət artımını ləğv etsə də mitinqçilərə qarşı göndərilən milislərin hərəkətləri xalqın etirazına səbəb oldu.

1976-cı ilin iyunundakı hadisələr müxalifətin çıxışına təkan verdi. Ziyalılar qrupu fəhlələri müdafiə komitəsi təşkil etdi. Komitənin tərkibinə 1968-cı il tələbə çıxışlarının iştirakçıları, məşhur yazıçılar, alimlər, din xadimləri daxil idi. Komitə etiraz aksiyası iştirakçılarına maddi və mənəvi kömək edir, hüquqi yardım göstərirdi. Fəhlə təbəqəsinə xüsusi diqqət yetirilirdi. Fəhlələrə Polşa tarixinin “ağ ləkələri” və Polşa-Sovet münasibətləri haqqında mühazirələr oxuyur, 1939-cu il sovet-alman gizli müqaviləsinin məzmununu, Xatın haqqında həqiqətləri izah edirdilər. Demokratik müxalifətin fəaliyyətinin əsas formalarından biri senzuradan asılı olmayan, yəni gizli, qeyri rəsmi, ədəbiyyat və kitabların nəşr edilməsi idi. Bu siyahıya əsasən xaricdə çıxan nəşrlərin yenidən çapı daxil idi. Müxalifət təşkilatları da meydana gəlirdi: İnsan və Vətəndaş hüquqlarının müdafiəsi hərəkatı, Müstəqil Polşa Konfederasiyası, Gənc Polşa hərəkatı və s. PBFP-nin siyasətinə tənqidlə yanaşan Krakovun baş keşişi Karol Voytıla, II İohan Pavel adını qəbul etdi, 1978-ci ildə Roma papası seçildikdən sonra katolik kilsəsinin nüfuzu kəskin surətdə artdı. 1979-cu ildə onun Polşaya gəlişindən sonra bu özünü qabarıq şəkildə biruzə verdi. Ölkənin hər yerində onu dindarların möhtəşəm dəstələri bayram havasında qarşıladı.

Karol Yuzef Voytıla və ya qəbul etdiyi dini adı ilə İohan Pavel II 1920-ci ildə cənubi Polşanın Vadovitse şəhərində anadan olmuşdur. 1938-ci ildə litseyi bitirərək Krakovdakı Yaqellon Universitetinin fəlsəfə fakültəsinə daxil olsa da müharibənin başlanması ilə təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. 1942-ci ildə gizli Krakov dini seminariyasının ümumtəhsil kurslarını bitirmişdir. 10 dildə danışan Y.Voytıla 1946-cı il noyabrın 1-də keşiş olaraq

dini təhsilini davam etdirmək məqsədilə Romaya getmişdir. 1948-ci ildə Beynəlxalq Papa Ateniumunda doktorluq dissertasiyası müdafiə edərək Polşanın cənubundakı Neqoviç kəndində məhəllə keşişinin köməkçisi təyin edilmişdir. 1953-cü ildə Yaqellon Universitetinin ilahiyyət fakültəsində doktorluq müdafiə etmişdir. O, Krakov dini seminariyasının və Lyublin katolik Universitetinin professoru olmuşdur. 1958-ci il iyulun 4-də papa XII Piy onu Krakov axiyepiskopluğunun yepiskop müavini təyin etmişdir. 1967-ci il iyunun 28-də papa VI Pavel onu kardinal seçmişdir. 1978-ci ilin oktyabrında uzun müzakirələrdən sonra son 455 ildə ilk slavyan əsilli papa seçilərək II İohan Pavel adını qəbul etmişdir. Onun hakimiyyəti dövründə katolik kilsəsi avtoritar rejimlərə, kommunist ideyasına, müasir dünyadakı neqativ işlərə qarşı mübarizə aparmışdır. II İohan Pavel eyni zamanda cəsarət nümayiş etdirərək katolik kilsəsinin 8 konkret günah əməlini qəbul edərək bağışlanmasını təmənna etmişdir. Papa II İohan Pavel 2005-ci il aprelin 28-də dünyasını dəyişərək Vatikanın müqəddəs Pyotr məqbərəsində dəfn edilmişdir.

İqtisadi vəziyyətin sonradan daha da pisləşməsi 1980-ci ilin iyul-avqust aylarında tətil dalğasının artmasına səbəb oldu. Baş nazir P.Yaroşeviçin E.Babyxla əvəz edilməsi də heç bir nəticə vermədi. Tətil dalğasının mərkəzi Baltikyanı şəhərlər Qdansk, Qdınya, Şetsin idi. Hökumət tətilçilərlə danışıqlar aparmağa və tətil komitələri ilə müqavilələr bağlamağa məcbur oldu. Onların təkcə sosial tələbləri təmin olunmadı, həmçinin müstəqil həmkarlar ittifaqlarının yaradılmasına razılıq verdi. Belə şəraitdə meydana gəlmiş "Həmrəylik" adlı həmkarlar ittifaqı təşkilatına Qdanskda tərsanə tətil komitələtindən birinə rəhbərlik edən fəhlə Lex Valensa başçılıq etdi. Demokratik müxalifətin də yardımı ilə gəmiqayıranlar Qdanskda elektrotexnik Lex Valensanın rəhbərliyi ilə zavodlararası tətil komitəsi (MKS) təşkil etdilər ki, bu da avqustun sonunda 700 müəssisinin nümayəndələrini birləşdirirdi. Tətilçilər 21 tələb, o cümlədən partiyadan və hökumətdən asılı olmayan həmkarlar ittifaqının yaradılmasını irəli sürdülər. Fəhlələr öz müəssisələrini tərk etməyərək tərsanədə çıxan nəşrlərlə tanış olur, mahnı oxuyur və ümumi ibadətlər zamanı dualar edirdilər – həmrəylik belə meydana gəldi. 1980-cı il avqustun sonunda hökumət güzəştə getməyə məcbur oldu, əvvəl Şetsində, avqustun 31-də isə Qdansk tərsanəsində hökumət nümayəndə heyətinin başçısı Meçislav Yaqelski ilə tətilçilərin başçısı L.Valensa razılıq imzaladı. Sənədə əsasən hökumət tərsanədə müstəqil həmkarlar ittifaqı olan həmrəyliyin qeydiyyata alınmasına (1980-ci il 10 noyabr), siyasi məhbusların azad edilməsinə, iqtisadi islahatların keçirilməsinə, 1970-ci ilin dekabr qurbanlarına abidə ucaldılacağına razılıq verdi.

Qısa müddətdə "Həmrəylik" kütləvi hərəkata çevrildi. Bu hərəkatda milyonlarla adam, o cümlədən PBFP-nin üzvləri də iştirak edirdi. 1980-ci ilin sonlarında onun sıralarında 8 milyon üzvü var idi. "Həmrəyliyin" fəaliyyətinə müxalifətin məşhur xadimləri B.Qermek, Y.Kuron, T.Mazovetski, A.Mixnik, Y.Olşevski və b. kömək edirdilər.

Tətil hərəkatı bütün ölkəni bürümüşdü. "Həmrəylik" və digər müxalifətçi təşkilatlar təkcə sosial problemlərin həll olunmasını deyil, həm də iqtisadi islahatlar keçirilməsini, PBFP-nin rəhbər roldan imtina etməsini, azad seçkilərin keçirilməsini tələb edirdilər. Katolik kilsəsi bilavasitə siyasi mübarizədə iştirak etməsə də, bu hərəkatı müdafiə edirdi. Hətta PBFP-nin özündə "Həmrəylik"lə saziş yolu tapmağı zəruri hesab edən qanad formalaşdı. Bu şəraitdə E.Qerekin komandası hakimiyyətdən getməyə məcbur oldu. Stanislav Kanya PBFP MK-nin baş katibi seçildi.1981-ci ilin fevralında Polşa silahlı qüvvələrinin komandanı, general Voysex Yaruzelski Nazirlər Sovetinin sədri təyin olundu. 1981-ci ilin mayında Romada müqəddəs Pyotr meydanında II İohan Pavelə sui-qəsd edildi, o ağır yaralandı. Bu zaman polyakların sevimlisi kardinal Stefan Vişinski vəfat etdi, Yuzef Qlemp onun xələfi seçildi.

1989-cu il məlumatına əsasən 38 milyon nəfər əhalisi olan Polşada "Həmrəylik" həmkarlar birliyinin 10 milyon nəfərdən çox üzvü var idi. 1981-ci ildə sentyabrda "Həmrəyliyin" qurultayı oldu, qurultay "həmrəy cəmiyyət və özünüidarə edən Reç Pospolita" qətnamələrini qəbul etdi. Nüfuzu və gücü ölkənin sərhədlərini aşan həmrəyliyin nümayəndələri "Şərqi Avropa zəhmətkeşlərinə müraciətnamə" göndərərək SSRİ hakimiyyəti altında olan xalqları "Həmrəylik"dən örnək götürməyə dəvət etdilər.

1981-ci ilin iyulunda PBFP-nin növbədənkənar IX qurultayı islahatlar, milli razılıq siyasəti elan etsə də onun sıralarını tərk edən üzvlər hesabına partiyanın mövqeyi və nüfuzu daha da zəiflədi. PBFP ilə “Həmrəylik” arasında ziddiyyət kəskinləşdi, kütləvi tətillər sayəsində istehsalın dayanması ilə ölkə iqtisadiyyatı iflic vəziyyətinə düşdü. 1981-ci ilin payızında S.Kanya istefaya çıxdı, əvvəlki vəzifələrini saxlamaq şərtilə general V.Yaruzelski PBFP MK-nın baş katibi oldu. Ölkədə vəziyyəti sabitləşdirmək məqsədilə güc tətbiq etmək tərəfdarı olan yeni rəhbərlik “Həmrəyliyin” ləğv edilməsini planlaşdırırdı. 1981-ci il dekabrın 12-dən 13-nə keçən gecə “həmrəyliyin” rəhbərlərinin həbs edilməsi başlandı. 1981-ci il dekabrın 13-də Polşa küçələrində tanklar, zirehli avtomobillər və əli silahli əsgərlər göründü.V.Yaruzelski televiziya ilə çıxış edərək ölkədə hərbi vəziyyətin yarandığını bəyan etdi. Bu addım konstitusiyaya zidd idi və real sosializm islahatının qarşısını aldı.

«Həmrəylik» həmkarlar birliyinin fəaliyyəti dayandırıldı, sonra isə qanundan kənar elan edildi. 10 mindən çox insan həbs edildi. Ümumi tətilin qarşısını almaq üçün aparıcı sahələr, limanlar və 129 iri müəssisə hərbi iş rejiminə keçirildi. Hərbi vəziyyətin tətbiqi ilə əlaqədar olaraq 8 nəfər həlak oldu. Hökumətin həbs edə bilmədiyi “Həmrəyliyin” rəhbərləri fəaliyyətlərini gizli davam etdirirdilər. Polşanın bütün rayonlarında qeyri-leqal vərəqlər, mətbuat və kitablar əldən-ələ gəzməyə başladı. “Həmrəyliyin” gizli radiosu Varşavada fəaliyyətə başladı. Hərbi vəziyyətin rəsmi olaraq 1983-cü ilin iyulunda ləğv edilməsinə kimi, yəni 15 ay ərzində təhlükəsizlik orqanları 700-dən çox gizli həmkarlar qrupunu ləğv etdi, 1300 poliqrafiya qurğusunu müsadirə etdi. Terror aparatı tərəfindən əhalinin təqib olunmasının güclənməsinə baxmayaraq, 1982-1988-ci illərdə cəmiyyətin dövlətin siyasətinə müqaviməti müxtəlif formalarda davam etdirilmişdir. Televiziya xəbərlərinin axşam yayın zamanı adamlar etiraz əlaməti olaraq küçələrə çıxır, hər ayın 13-də pəncərələrdə şamlar yandırır və s. II İohan Pavelin Polşaya 1983 və 1987-ci illərdə iki dəfə keşiş ziyarəti və öz moizələrində dəfələrlə “Həmrəyliyi” xatırlaması mühüm əhəmiyyət kəsb edirdi. II İohan Pavel Tatrada Lex Valensa və onun ailəsi ilə görüşdü, 1983-cü ildə isə birliyin lideri L.Valensa Nobel sülh mükafatına layiq görüldü.

1980-ci illərin axırlarına doğru “real sosializm” quruluşu dağılırdı. 1988-ci ildə Polşada fəhlələr növbəti dəfə tətil edərək iqtisadi islahatlarla yanaşı “Həmrəylik” həmkarlar birliyinin yenidən qeydə alınmasını tələb etdilər. 1988-ci ilin avqustunda Polşanın daxili işlər naziri Çeslav Kişak “müxtəlif ictimai və həmkarlar dairəsinin nümayəndələri ilə “dəyirmi masa” arxasında görüş keçirməyi irəli sürdü.”1989-cu il fevralın 6-dan aprelin 5-dək “Həmrəylik”, PBFP, hökumət, müttəfiq partiyalar, ümumpolşa həmkarlar ittifaqı, yepiskopluğun nümayəndələrinin iştirakı ilə “Dəyirmi masa” keçirildi. Qəbul edilən razılıq sənədində hökumət “Həmrəyliyin” leqallaşdırılmasına, vaxtından əvvəl parlament seçkilərinin keçirilməsinə, prezident vəzifəsinin təsis edilməsinə icazə verdi. Razılaşmaya əsasən seymə seçilən mandatların 65 faizini hökumət tərəfi tutmalı idi. PBFP-ın SSRİ müdafiə edirdi, “Həmrəyliyi” isə xalqın böyük bir hissəsi dəstəkləyirdi.

1989-cu il iyunun 4-də seym və senata seçkilər keçirildi, polyakların müstəqilliyinə və demokratiyaya qovuşmaq rəmzi olan “Həmrəylik” qələbə çaldı, kommunistlər məğlub oldu. Mandatların 65 faizinin hökumət tərəfdarlarına ayrılması nəticəsində Voytsex Yaruzelski Polşanın prezidenti oldu.

Yaruzelski Voytsex Vitold 1923-cü ildə mülkədar ailəsində anadan olmuşdur. 1939-cu ilə kimi xüsusi gimnaziyada təhsil almışdır. 1939-cu ildə ailəsilə birlikdə Litvaya köçən V.Yaruzelski SSRİ Litvanı ilhaq etdikdən sonra 1940-cı ildə XDİK-ğı tərəfindən həbs olunaraq Altay diyarına sürgün edilmişdir. 1943-cü ildə SSRİ ərazisində yaradılan Kostyuşka adına Birinci Polşa piyada diviziyasına daxil olaraq Ryazan piyada uçilişini bitirmişdir. Visla hərbi əməliyyatında, Varşavanın azad edilməsində, Baltik sahilləri, Oder, Elba döyşlərində iştirak edərək igidliyə görə bir çox orden və medallarla təltif olunmuşdur. 1947-ci ildən PFR-nın, 1964-1990-cı illərdən PBFP MK-nın üzvüdür. Baş Qərargah Akademiyasını əla qiymətlərlə bitirərək 1957-1960-cı illərdə Lyudovo Ordusunun 12-ci mexanikləşdirilmiş divizyasının komandiri, 1960-1965-ci illərdə Polşa Ordusunun Baş Siyasi İdarəsinin rəisi, 1965-1968-ci

illərdə Baş Qərargah rəisi, 1962-1968-ci illərdə Müdaifə nazirinin müavini, 1968-1983-cü illərdə Polşanın Milli Müdafiə Naziri olmuşdu. 1971-1990-cı illərdə PBFR MK-nın Siyasi Bürosunun üzvü, 1981-ci ilin fevralından PXR Nazirlər Sovetinin sədri, 1981-ci ilin oktyabrından PBFR MK-nın Birinci katibi seçilmişdir. 1981-ci ilin dekabrında Polşada hərbi vəziyyət elan edərək "Həmrəyliyin" liderlərin nəzarət altına almışdır. Sovet qoşunlarının Polşa ərazisinə yeridilməsi təklifinin qəti əleyhinə olmuşdur. 1990-cı ildə çoxpartiyalı sistem əsasında Polşada prezident seçkiləri keçirilməsinə razılıq vermişdir.

**Polşa Respublikası. 1989-2015- ci illər**

***Polşanın siyasi inkişafı.*** 1989-cu il aprelin 17-də "Həmrəylik" təkrar qeydiyyatdan keçirildi. "Dəyirmi masa"nın işi qurtardıqdan sonra PBFP, müttəfiq partiyalar və müxalifət parlament seçkilərinə hazırlaşmağa başladı. Tərəflərin razılığına görə seymdəki mandantların 65 faizi hakim koalisiyaya (o cümlədən 37 faizi PBFP-yə ), 35 faizi müxalifət üçün nəzərdə tutulmuşdu. Senata seçkilər azad idi. 1989-cu ildə keçirilmiş parlament seçkilərinin iki turu müxalifətə böyük uğur qazandırdı. O, özünün bütün namizədlərini artıq birinci turda parlamentə keçirə bildi. Senatda isə 100 yerdən 99-nu tutdu. Seym və senatın birgə iclasında V.Yaruzleski ölkənin prezidenti seçildi.

Hökumətin tərkibi avqustun 17-də müəyyən edildi. PBFP-nin keçmiş müttəfiqləri Birləşmiş Kəndli partiyası və Demokratik partiya da hökumətin tərkibinə daxil olmaqla hazır olduğunu bildirdilər. Katolik ziyalıları hərəkatının tanınmış xadimi, əvvəllər "Həmrəyliyin" müşaviri olmuş Tadeuş Mazovetski hökumətin başçısı təyin olundu. Beləliklə, kommunistlərin əməli olaraq 40 ildən artıq uzun sürən şəriksiz hökmranlıq dövrü başa çatdı. Polşa parlamentli demokratiya yoluna daxil oldu. İkinci Dünya müharibəsindən sonra Polşa 45 il müddətində siyasi, ideoloji və təşkilati cəhətdən SSRİ-dən asılı olaraq mövcud olub. 1993-cü ildə tamamilə Polşanı tərk edən Sovet ordusunun və Dövlət Təhlükəsizlik komitəsinin yüksək rütbəli şəxslərinin hökumət strukturlarında və orduda mühüm vəzifələr tutmaları bu asılılığın mühüm şərtləri idi. Nəticədə kommunistlər tərəfindən qurulan sosial-iqtisadi sistem həyatın sınağından keçmədi, planlı iqtisadiyyat baş tutmadı, "blok" dövlətlərindəki sosialist nailiyyətlərin real həyatdan çox uzaq olduğu bəlli oldu.

1989-cu ilin payızında real sosializm adlanan quruluşun sürətlə dağılması prosesi başladı. İlk olaraq Macarıstanda demokratik partiyalar meydana gəldi və onlar hakimiyyəti ələ aldılar. 1989-cu ilin noyabrında kəskin etirazlardan sonra alman kommunistlərinin lideri Erix Honneker istefaya göndərildi. Berlini iki yerə bölən divar uçuruldu və vahid Almaniya dövləti yarandı. Bolqarıstanda "diktator" Todor Jivkovun hakimiyyəti devrildi. Çexoslovakiyada demokratik müxalifət qansız "məxməri" inqilabı həyata keçirdi, Vaslav Qavel prezident oldu. 1989-cu ilin dekabrında Rumıniyada Nikolay Çauşeskinin edamı ilə başa çatan hakimiyyət dəyişikliyi baş verdi. Xalq inqilabı nəticəsində hakimiyyət Milli Qurtuluş Cəbhəsinin əlinə keçdi. MQC-nin lideri İon İliyeski Rumıniyanın prezidenti seçildi. Bununla da Şərqi Avropa ölkələrində kommunist rejimləri süquta uğradı. Onun iqtisadi və siyasi hərbi strukturları buraxıldı.

Şərqi Avropanın sosialist ölkələrində cərəyan edən bu hadisələrin təsiri altında 1989-cu ilin ikinci yarısında Poşanın siyasi həyatında böyük dəyişikliklər əmələ gəldi. 1989-cu ilin noyabrında ölkədə 154 siyasi partiya qeydə alımışdı. Əvvəllər fəaliyyət göstərən partiyalar əsaslı dəyişikliyə məruz qaldılar. 1989-cu ilin sonu – 1990-cı ilin əvvəllərində Birləşmiş Kəndli Partiyası təşkilati cəhətdən yenidən qurularaq Polşa Kəndli Partiyası (PKP) kimi yenidən quruldu. 1990-cı ilin yanvarında PBFP-nin buraxılması haqqında qərar qəbul edən sonuncu XI qurultayı keçirildi. Onun bazasında yaradılan güclü partiyalardan biri Aleksandr Kvasnevski və Leşek Millerin rəhbərlik etdikləri Polşa Respublikası Sosial-Demokrat partiyası (PRSDP) onun varisi oldu. PRSDP elan etdi ki, çoxpartiyalı sistem, parlamentli demokratiya və bazar iqtisadiyyatı tərəfdarıdır. PBFP-nin üzvlərinin sayı 1989-cu ilin axırlarında təxminən 2 milyon nəfər olduğu halda yeni yaranan PRSDP-nin cəmi 50 min məfərə

yaxın üzvü var idi.

1989-cu ilin dekabrında Polşa parlamenti yeni konstitusiyanın qəbul edilməsinə kimi bəzi maddələri dəyişdirilmiş 1952-ci il Konstitusiyası qüvvədə qalırdı. Lakin onun mətnindən dövlətin sosialist xarakteri, PBFP-nin rəhbər rolu, SSRİ ilə ittifaq kimi məsələlər çıxarılaraq siyasi partiyaların azad fəaliyyəti, özünüidarə və müstəqil sahibkarlığın ölkənin demokratik sisteminin əsası olması müddəaları əlavə edilmişdir. 1989-cu il dekabrın 29-da konstitusiyanın dəyişdirilmiş mətninin qəbul edilməsi nəticəsində formal olaraq Polşa Xalq Respublikası öz fəaliyyətini dayandırdı. Yeni dövlət Polşa Respublikası və yaxud III Reç Pospolita adlandı.

1990-cı ilin noyabrın axırlarında Polşa Respublikasında ilk prezident seçkiləri keçirildi. 5 nəfər namizədin iştirak etdiyi seçkidə yalnız ikinci turda Qərbdə böyük nüfuz sahibi olan, Nobel sülh mükafatı laureatı, onlarla Universitetlərin fəxri doktoru Lex Valensa Polşa Respublikasının prezidenti seçildi.

Valensa Lex 1943-cü ildə nasistlərin ilhaq etdiyi Pomorski voyevodalığında dülgər ailəsində anadan olmuşdur. 1961- ci ildə Lipnodakı texniki-sənət məktəbini bitirmişdir. 1963-1965-ci illərdə Polşa ordusuna qulluq etmişdir. 1967-ci ildən Qdansk tərsanəsində elektrik işləmişdir. 1976-cı ildə tənqidi çıxışlarına və rejim əleyhinə görüşlərinə görə işdən azad edilmişdir. 1980-cı ildə bir qrup tərəfdarı ilə Şərqi Avropada ilk dəfə azad, dövlətin nəzarət etmədiyi həmkarlar təşkilatı olan "Həmrəyliyi" yaratmışdır. 1981-ci ildə general V.Yaruzelskinin siyasi rejimi "Həmrəyliyi" qanundankənar elan etmiş, L.Valensa isə həbsxanaya salınmışdır. 1983-cü fəhlələrin hüququnun müdafiəçisi kimi Nobel sülh mükafatı almışdır. 1990-cı ildəki prezident seçkilərində ikinci turda seçicilərin 74,25 faiz səsini toplayaraq Polşanın prezidenti seçilmişdir. 1995-ci ildə və 2006-cı ildəki prezident seçkilərin uduzaraq köhnə iş yerinə qayıtmışdır. Dövlət təhlükəsizlik orqanları ilə əməkdşlıqda ittiham edilir.

1991-ci ilin oktyabrında Polşa parlamentinə seçkilər baş tutdu. Parlamentdə mütləq çoxluğu "Həmrəylik" cəbhəsindən çıxan, lakin hazırda bir-birinə qarşı duran sağ və mərkəzçi partiyalar qazandılar. PRSDP başda olmaqla Demokratik sol qüvvələr ittifaqı seçki blokunda (DSQİ) birləşən sollar ikinci nəticə göstərdilər. Seçkilərdə iştirak edən partiyalardan heç bir səslərin mütləq əksəriyyətini qazana bilmədi. Əslində 20-ci illərdə yaranmış vəziyyət təkrar olundu, parlament 29 siyasi fraksiyadan təşkil edilmiş oldu. Bu da, öz növbəsində, hökumətin yaradılması işini olduqca çətinləşdirirdi. Eyni zamanda, prezident L.Valensa daima səlahiyyətlərini aşaraq qanunverici orqanların işinə müdaxilə edirdi. Çətin danışıqlardan sonra yaradılmış Y.Olşevski hökuməti yarım ildən bir az çox fəaliyyət göstərə bildi. Hökumətin süqutuna səbəb ali dövlət xadimlərinin lyustrasiyası haqqında seym tərəfindən qəbul edilən qərar və Daxili İşlər Nazirliyi tərəfindən PXR dövlət təhlükəsizlik orqanları ilə əməkdaşlıq edən ali dövlət xadimlərinin gizli siyahısının açıqlanması ilə bağlı başlanmış qalmaqal idi. Onların içərisində çoxlu məşhur siyasətçilər, o cümlədən prezident L.Valensa da vardır.

Seymin ən böyük uğuru 1992-ci ilin avqustunda Polşanın "kiçik" Konstitusiyası adlanan konstitusiyasının qəbul edilməsi oldu. Parlament idarəçiliyi sistemi parlament-prezident idarəçiliyi sisteminə çevrildi ki, bu da seym, prezident və hökumətin sıx konstruktiv fəaliyyətinin tarazlığını təmin etdi. Konstitusiyaya görə 5 il müddətinə seçilən prezident seym tərəfindən formalaşdırılmış hökuməti təyin etmək, onun istefasını qəbul etmək, güc nazirlərinin və xarici işlər nazirlərinin namizədlikləri haqqında rəy vermək hüququ aldı. Prezident Nazirlər Kabinetinin istefasından sonra yeni kabinet təşkil etmədikdə parlamenti də buraxa bilərdi.

1992-ci ilin iyununda Polşa tarixində ilk dəfə qadın baş nazir – Xanna Suxotskaya "Milli razılıq" hökumətinə başçılıq etdi. O, dövlətin təsərrüfat fəaliyyətini məhdudlaşdırmaq, müəssisələrin özəlləşdirilməsini sürətləndirmək, kənd təsrrüfatını yeniləşdirmək kursunu götürdü. 1993-cü ilin mayında seym bir səs üstünlüyü ilə X.Suxotskaya hökumətinə etimadsızlıq göstərdi və hökumət istefaya göndərildi. X.Suxotskayanın rəbərlik etdiyi hökuməti istefaya göndərildikdən sonra yeni hökumətin təşkili bir ay çəkdi və bu dəfə sağmərkəzçi koalision hökumət yaradıldı. Bu hökumət də sağdan və soldan kəskin tənqidə məruz qaldı.

1993-cü ildə prezident Lex Valensa konstitusiya səlahiyyətlərindən istifadə edərək,

dövlət büdcəsini müəyyən edilmiş vaxtda təsdiq edə bilmədiyi üçün parlamenti vaxtından əvvəl buraxdı. Parlament seçkiləri seymin buraxılmasından bir müddət əvvəl qəbul etdiyi seçkilər haqqında yeni qanuna uyğun keçirildi. Qanuna görə seçicilərin 5 faiz səsini toplamış partiyalar parlamentə seçilə bilərdi.

1993-cü il seçkiləri sol qüvvələr – Demokratik Sol Qüvvələr İttifaqı və Polşa Xalq partiyası üçün uğurlu oldu. İkinci yeri tutmuş Polşa Kəndli partiyası ilə birlikdə sollar seymdə mütləq səs çoxluğu qazandılar ki, burada da 6 partiya təmsil olunmuşdu. Tezliklə koalisiya haqqında razılıq əldə edildi. Onlar parlamentdə çoxluq qazandıqlarından yeni hökuməti təşkil etmək hüququ əldə etdilər. İki il hakimiyyətdən qalan solların hökumətinə əvvəlcə PKP-dan Valdemar Pavlyak, sonra isə sosial-demokrat Yuzef Oleks başçılıq etdi. Koalision hökumətin əsas diqqəti əvvəlki hökumətin buraxdığı səhvlərin aradan qaldırılmasına yönəldilmişdi. Özəlləşdirmənin sürəti azaldıldı, sənayenin dağılmağının miqyası məhdudlaşdırıldı, nəticədə işsizliyin artmasınının qarşısı alındı, əmək haqqı stabilləşdirildi.

Seym ilə prezident münasibətlərinin kəskinləşməsinə yol verməmək məqsədi ilə koalisiya iştirakçıları L.Valensaya güc nazirliklərinə və xarici işlər nazirliyinə nazirlərin təyin edilməsi hüququnun verilməsi ilə razılaşdı. Baxmayaraq ki, “kiçik” Konstitusiyada bu hüquq prezidentə verilməmişdi. Hakim koalisiya ilə Prezident arasında vaxtaşırı çəkişmə və hətta münaqişə baş verirdi. Hökumətin əleyhdarları bəzən heç bir əsas olmadan yüksək rütbəlu siyasətçilər PXR təhlükəsizlik orqanları ilə əməkdaşlıq etməkdə əsassız ittihamlar irəli sürmək üsulundan istifadə edirdilər. Bunun nəticəsi olaraq Baş nazir Y.Oleksi onların qurbanı oldu. Onun yerini Vlodzimej Çimoşeviç (DSQİ) tutdu. Bütün bu çəkişmələrə və fikir ayrılıqlarına baxmayaraq bu illər Polşada parlament siteminin möhkəmlənməsi istiqamətində mühüm addımlar atılmış oldu.

1995-ci ilin noyabrında prezident seçkiləri keçirildi. Seçkinin nəticələrinə görə ikinci tura L.Valensa və PRSD partiyasının lideri A.Kvasnevski çıxdılar. Gənc seçicilərin səslərinin çox hissəsini toplayan A.Kvasnevski Polşanın prezidenti seçildi.

1997-ci ilin yazında parlament ümummilli referendum nəticəsində bəyənilmiş Polşa Respublikasının yeni Konstitusiyasını qəbul etdi. Konstitusiyada Polşa parlamentli Respublika kimi təsbit edildi. Konstitusiya Polşanı “sosial ədalət prinsipləri üzərində qurulan demokratik, hüquqi dövlət” kimi səciyyələndirdi. Parlament 4 il müddətində, prezident 5 il müddətinə seçilirdi. Qanunvericilik təşəbbüsü hüququ seym, senat, hökumət və prezidentlə yanaşı sayı 100 mindən az olmayan vətəndaş qrupları da əldə etdilər. Parlament kabineti formalaşdırmaq və istefaya göndərmək səlahiyyətinə malik idi. Kabinetin başçısını qələbə çalan partiya və ya koalisiya təqdim edir, hökumət isə formal olaraq prezident tərəfindən təsdiq edilirdi. Prezident güc nazirləri və xarici işlər naziri təyin edilərkən əvvəllər verilmiş səlahiyyətdən məhrum edildi. Prezident parlament tərəfindən qəbul edilmiş qanunlara veto qoymaq hüququ əldə etdi. Lakin parlament veto qoyulmuş qanuna seymin təcrübəli iştirakçılrının 3/5 hissəsinin səsini topladıqda prezidentin veto hüququnu ləğv edə və ya konstitusiya tribunalına göndərə bilərdi. Sonuncunun qəbul etdiyi qərar qəti idi. Yeni hökumət təşkil edə bilmədikdə prezident seymi buraxmaq hüququna malik idi.

Demokratik Sol Qüvvələr İttifaqı və Polşa Kəndli partiyası daxili və xarici siyasət sahəsində mühüm uğurlar qazanmasına baxmayaraq, 1997-ci il seçkilərində əvvəlki seymdə təmsil olunmayan müxalifət qüvvələrinə uduzdu. Onlar hələ 1996-cı ildə “Həmrəylik” Seçki Aksiyasında (HSA) birləşmişdilər. Bununla yanaşı, DSQİ 1992-ci il seçkilərinə nisbətən daha çox səs qazansalar da Həmrəylik Seçki Aksiyasına uduzdu. Seymə yalnız 5 patiya daxil ola bildi. Seçkinin nəticələrinə görə Yeji Buzek başda olmaqla koalision hökumət formalaşdırıldı ki, hökumətin tərkibinə qalib gəlmiş blokla yanaşı əvvəllər “Həmrəylik” təşkilatının bazasında meydana gəlmiş mərkəzçi Azadlıq Uniyası da daxil oldu.

Hökumət, ilk növbədə, PXR dövrünə mənfi münasibəti özündə əks etdirən bir sıra qərarları seymdən keçirə bildi. Qərarlarda Polşa xalqının iradəsinə zidd olaraq ona qəbul etdirilmiş totalitar kommunist sistemi tənqid edilirdi. 1945-1989-cu illərdə hakimiyyət orqanlarında fəaliyyəti cinayət xarakteri daşıyanların cəzalandırılacağı göstərilirdi. Həmçinin lüstra-

siya haqqında qanuna müvafiq olaraq dövlət strukturlarında yüksək vəzifələrdə çalışan şəxslər PXR-in xüsusi xidmət orqanları ilə əməkdaşlıq etməmələri haqqında bəyannamə təqdim etməli idilər. Bunun yoxlanılması lüstrasiya məhkəməsinə və prokurora həvalə edilirdi. PXR-in bütün gizli xidmət arxilvəri Milli Yaddaş İnstitutuna verildi. Hər bir Polşa vətəndaşı onun haqqında burada olan və ya nə vaxtsa açılan dosya ilə tanış olmaq hüququna malik idi.

Y.Buzek hökumətin fəaliyyətinin növbəti istiqaməti seçki kampaniyası ərəfəsində vəd edilmiş idarəçilik sistemində, səhiyyədə, təhsildə, orduda və sosial təminat sahələrindən asılı islahatlar keçirilməsinə hazırlığa başlaması idi. Səhiyyə və təhsil sahəsində yenidənqurma cəmiyyət tərəfindən ağrılı qarşılandı. Bu müəssisələr üçün ayrılan vəsaitin çox hissəsi vətəndaşların və yerli özünüidarə orqanlarının üzərinə düşməklə yanaşı, həm də xırda yaşayış məntəqələrində çoxlu xəstəxana və məktəblərin bağlanmasına səbəb oldu. İnzibati islahatın gedişində voyevodalıqların sayı 49-dan 16-ya endirilməsi də, dövlət qulluqçularının gözlənilən sayı nəinki azalmadı, icmalarla voyevodalıqlar arasında daha 227 aralıq orqanlar yaradıldı. Nəticədə mərkəzi dövlət orqanlarında çalışan qulluqçuların sayı 1989-cu ildəki 40 mindən 2000-ci ildə 150 minə, voyevodalıqda isə müvafiq olaraq 110 mindən 118 minə çatdı. Paralel olaraq, çox hallarda dövlət orqanlarını təkrarlayan, tam fəaliyyət göstərmək üçün kifayət qədər maliyyə vəsaiti olmayan özünüidarə orqanları yaradılırdı. Hökumət dövlət hakimiyyəti və özünüidarə orqanlarında islahatın köməyi ilə idarəetmənin səmərəliliyini yüksəltmək və həm də əsas vəzifələrə özünün tərəfdarlarını yerləşdirmək məqsədi güdürdü. 1997-2000-ci illərdə dövlət idarəçiliyin yenidən qurulması istiqamətində hökumətin atdığı addımlar cəmiyyət tərəfindən müdafiə edilmədi və rəyi soruşulanların 50 faizi hökumətin bu addımlarına mənfi münasibət bildirdi. Cəmiyyətdə hökumətin nüfuzunun aşağı düşməsi 2000-ci ilin mayında Azadlıq Uniyasının koalisyasından çıxmasına gətirib çıxardı. Hökumət parlamentdə çoxluğu itirsə də hakimiyyətdə qala bildi. Azlığın hökuməti kimi fəaliyyətini davam etdirən Y.Buzak kabineti islahatları dayandırdı.

2000-ci ilin payızında yeni Polşada növbəti – sayca üçüncü prezident seçkiləri keçirildi. Seçkinin elə birinci turunda özünün yaxın rəqibindən üç dəfə çox səs toplayan A.Kvasnevski qalib gəldi. Keçmiş kommunistlərə qarşı dayanmağa qadir və iqtisadi vəziyyəti düzəldə biləcək vahid namizəd kimi özünü təqdim edən L.Valensa seçicilərin yalnız bir faizinin səslərini toplaya bildi. Bu nəticə əslində onun siyasi karyerasının başa çatması idi və L.Valensa əvvəlki iş yerinə – Qdansk tərsanəsinə qayıtdı.

2001-ci il Polşanın sonrakı siyasi sisteminin yenidən qurulması dövrünün başlanğıcı oldu. Belə ki, həm Azadlıq Uniyası və həm də “Azadlıq Seçki Aksiyası” (ASA) böhran və parçalanmaya məruz qaldılar. Sağların və mərkəzçilərin bir hissəsi bu təşkilatlardan ayrılaraq Vətəndaş Platformasını (VP) yaratdılar. Digər yeni yaradılmış sağmərkəzçi siyasi təşkilat bir vaxtlar L.Valensanın qızğın tərəfdarları və sonralar onun qəti əleyhdarları olan əkiz qardaşlar Lex və Yaroslav Kaçinskilərin rəhbərlik etdikləri Hüquq və Ədalət təşkilatı idi. “Özünümüdafiə” partiyası da ölkədə böyük nüfuz qazanmaqda idi. Bu partiyaya yollarda, hökumət idarələrində blokadarlar quran, kütləvi yürüşlər və s. təşkil edən, populist çıxışları ilə cəmiyyət tərəfindən, xüsusilə bazar xüsusiyyətli dəyişikliklərlə həyat səviyyəsinin aşağı düşməsindən narazı olan kənd seçiciləri tərəfindən özünə çoxlu tərəfdar tapan Anje Lepperin başçılıq edirdi. 2001-ci ildə keçirilən parlament seçkiləri seçicilərin 40 faizindən çoxunun səslərini toplamış Sol Qüvvələr Demokratik İttifaqının (SQDİ) və Əmək Uniyası koalisiyasının qələbəsi ilə nəticələndi. Cəmi 6 partiya öz deputatlarını seymə keçirə bildi. Onların içərisində “Həmrəylik” Seçki Aksiyası və Azadlıq Uniyası yox idi. Lakin solların qələbəsinə baxmayaraq hökuməti təşkil etmək üçün kifayət qədər mandat olmadığından onlar Polşa Kəndli partiyası ilə koalisiyaya girməyə məcbur oldular. SQDİ-nin nümayəndəsi L.Miller Baş nazir oldu. Maliyyə sistemini sağlamlaşdırmaq, ölkəni iqtisadi böhran təhlükəsindən qurtarmaq və Avropa İttifaqına daxil olmağa tezləşdirmək hökumətin qarşısında duran ən yaxın vəzifələr idi. Polşanın iqtisadi vəziyyəti olduqca ağır idi. Büdcə kəsiri 88 milyard zlotı təşkil edirdi, sənayedə durğunluq hökm sürürdü, işsizlərin sayı 2,8 milyon nəfərə çatmışdı.

Polşa Kəndli partiyası ilə koalisiya heç də möhkəm deyildi. “Özünümüdafiə” parti-

yasının kənddə nüfuzunun daima artması Polşa Kəndli partiyasının kənddə sosial dayağını get-gedə zəiflədirdi. Həm də Polşada istehsal olunan kənd təsərrüfatı məhsulları Avropa İttifaqı dövlətləri və ABŞ-da istehsal olunan kənd təsərrüfatı məhsulları ilə rəqabət apara bilmirdi. Hökumət heç cür iqtisadiyyatdakı böhran hallarını aradan qaldırmaq proqramnı həyata keçirə bilmirdi. İqtisadi bloka daxil olan nazirlərin tez-tez dəyişdirilməsi də xalq təsərrüfatının sabit inkişaf etməsini təmin edə bilmirdi. Bu və digər səbəblər 2003-cü ilin fevralında hökumət koalisiyasının dağılmasına gətirib çıxardı. Lakin Y.Buzek Hökuməti kimi, L.Millerin kabineti də istefa vermədi. Hökumət daha iki il fəaliyyət göstərsə də kabinetin və SQDİ-nin nüfuzu daima aşağı düşürdü. 2004-cü ilin martında SQDİ-nin tarixində ilk dəfə parçalanma baş verdi və 2004-cü ilin mayında Polşanın Avropa İttifaqına daxil olmasının ertəsi günü L.Miller baş nazir vəzifəsini tərk etdi. Onun varisi Marek Belka 2005-ci ilin sentyabrında keçirilən parlament seçkilərinə qədər hökuməti saxlaya bildi.

2005-ci il seçkilərində seçkiqabağı mübarizəyə qoşulmuş 52 partiyadan yalnız 6-sı 5 faizlik həddi keçərək parlamentdə yer ala bildilər. Sağçı Hüquq və Ədalət partiyası seçkilərin qalibi oldu. İkinci yerə sağmərkəzçi Vətəndaş Platforması, üçüncü yerə heç kəsin gözləmədiyi halda "Özünümüdafiə" partiyası çıxdı.

2005-ci ilin oktyabrında Polşada növbəti prezident seçkiləri keçirildi. İkinci turda Polşa Kəndli partiyasının namizədi Lex Kaçinski birinci turun qalibi, Vətəndaş Platformasının lideri Donald Tusku qabaqlayaraq qələbə çaldı. D.Tuskun məğlubiyyətinin başlıca səbəbi onun partiyasının PKP ilə koalisiyaya girməkdən imtina etməsi idi. Seçkilərdən sonra 2005-ci ilin noyabrında PKP-nin nümayənəsi Kazimej Martsinkeviçin başçılıq etdiyi yeni hökumət yaradıldı. 2006-cı ilin mayında PKP, "Özünümüdafiə" partiyası və Polşa Ailələri Klerikal Liqası nümayəndələrindən təşkil olunmuş koalision hökumət formalaşdı. 2006-cı ilin iyununda K.Martsinkeviçi PKP-nin lideri D.Kaçinski əvəz etdi.

Parlament demokratiyası şəraitində Polşanın siyasi inkişaf təcrübəsi göstərdi ki, ölkədə islahatları ardıcıllıqla həyata keçirə bilən sabit hökumətin yaradılması vəzifəsi həll edilməmiş qaldı. Partiyaların təşkilatlanması hələ tam başa çatdırılmamışdı. 1991-ci ildən sonra keçirilən bütün parlament seçkilərində yalnız iki partiya – Sol Qüvvələr Demokratik İttifaqı (SQDİ) və PKP müntəzəm iştirak etmişdir. Son illərdə "Özünümüdafiə" partiyası və millətçi Polşa Ailələri Liqası təşkilatlarının nüfuzunun artması müşahidə edilir. Bu iki partiya 2005-ci il seçkilərində birlikdə 19 faizdən çox səs toplaya bildilər. Nəhayət, prezident və parlament seçkilərində iştirak edənlərin sayının azalması tendensiyası da müşahidə olunmaqdadır. Belə ki, 2005-ci il parlament və prezident seçkilərində müvafiq olaraq əhalinin 40,57 faizi və 50 faizə yaxını iştirak etmişdir. Buna səbəb cəmiyyətin müxtəlif təbəqələrinin parlament demokratiyasından və özlərinin həyat səviyyəsindən narazılığı idi. XXI əsrin əvvəllərində ölkədə keçirilən rəy sorğusuna görə əhalinin 39 faizi özlərinin ən yaxşı illərini E.Gerek dövrünə, 40 faizi V.Yaruzleski dövrünə, 15,5 faizi isə cəmiyyətin yenidən qurulması dövrünə aid edirlər. Buna baxmayaraq, Polşanın siyasi qüvvələrinin böyük hissəsi konstitusiyanın və seçki qanunun dəyişdirilməsi məsələsini irəli sürmür, hakimiyyət sükanında sağ və sol qüvvələrin vaxtaşırı bir-birini əvəz etməsi onları tam qane edir. Xaricilərlə bərabər rəqabət aparmaq iqtidarında olmayan və dövlətin müdafiəsinə ehtiyacı olan ölkə sahibkarları da bu vəziyyətlə razılaşmalı oldular.

2007-ci ilin oktyabrında Polşada növbədənkənar parlament seçkiləri oldu. Seçkilərdə "Vətəndaş Platforması" qələbə qazandı, onun lideri Donald Tusk Baş nazir seçildi. 2010-cu il aprelin 10-da Polşanın prezidenti Lex Kaçinski Xatın faciəsinin ildönümündə iştirak etmək məqsədilə Rusiyanın Smolensk şəhərinə uçarkən təyyarəsi qəzaya uğradı, dövlət başçısı, həyat yoldaşı və təyyarədəkilər həlak oldu. Dövlət başçısı vəzifəsini Seymin marşalı Bronislav Komorovski yerinə yetirməyə başladı. 2010-cu il iyulun 4-də prezident seçkilərinin ikinci turu oldu, Bronislav Komorovski prezident seçilərək avqustun 6-da fəaliyyətə başladı. 2011-ci il oktyabrın 9-da növbəti parlament seçkiləri keçirildi, "Vətəndaş Platforması" və Polşa Kəndli partiyası Seym və Senatda çoxluq təşkil etdi. 2015-ci il avqustun 6-dan Ancey Duda Polşanın Prezidentidir. 2014-cü il sentyabrın 22-də Eva Kopaç "Vətəndaş Platforması"nın liderlərindən

biri kimi Polşanın 54-cü hökumətini təşkil etmişdir.

***Polşanın iqtisadi inkişafı.*** Polşada siyasi sistemin yenidən qurulması dövründə ölkənin iqtisadiyyatında ciddi çətinliklər yaranmışdı.1989-cu ilin birinci yarısında inflyasiya kəskin şəkildə artmağa başladı. Meçislav Rakovskinin başçılıq etdiyi Polşa Xalq Respublikasının sonuncu hökumətinin qiymətləri və əmək haqqını dondurmaq cəhdi bir nəticə vermədi. Mağazaların rəfləri boşaldı. 1989-cu il iyulun sonlarında bazar qiymətlərinə keçilməsi ilə əlaqədar inflyasiya 1989-1990-cı illərdə 558 faizə çatdı, qara bazarda bir Amerika dolları 13 min zlotıya dəyişdirilirdi. Ölkənin borcları 48 milyard dollara yüksəlmişdi.

İqtisadiyyatın yenidən qurulması böyük çətinliklərlə həyata keçirilirdi. Həyat səviyyəsinin aşağı düşməsi, kütləvi işsizlik, əhalinin sosial müdafiəsinin zəif olması, bütün bunlar etiraz çıxışlarına səbəb olur və ölkənin sosial-siyasi vəziyyətini mürəkkəbləşdirirdi. 1989-cu il seçkilərdən sonra hökumətin baş naziri "Həmrəylik" xadimi Tadeuş Mazovetski oldu. T.Mazovetski hökuməti maliyyə naziri Leşek Baltseroviçin hazırladığı iqtisadiyyatın köklü surətdə yenidən qurulması və sağlalaşdırılması palnını həyata keçirməyə başladı. Bu plana Polşa iqtisadiyyatının sabitləşdirilməsinin Baltseroviç planı deyilirdi. Plan qərb ölkələri tərəfindən bəyənildi və maliyyə dəstəyi aldı. O, planlı iqtisadiyyatın sürətlə bazar iqtisadiyyatına keçməyini nəzərdə tuturdu və "sok terapiya" – yəni məşğulluğun azaldılaması, işsizliyin artması adını aldı. Qiymətlər üzərində nəzarət ləğv olundu, dövlət mülkiyyəti özəlləşdirilməyə başlandı, xarici kapital iqtisadiyyata cəlb edildi. Bu tədbirlər bazarın sabitləşməsinə nail olmağa imkan verdi, mağazalar müxtəlif mallarla dolmağa başladı, defisit anlayışı yox oldu, ölkənin pul vahidi zlotı konversiya edilmək qabiliyyəti qazandı. Polşanın bazar iqtisadiyyatına keçməsində marağı olan Qərb ölkələri Polşaya kömək göstərdilər. Onlar 1991-ci ildə 50 miyard dolları – keçmiş borcu azaltmağa razı oldular. Görülən tədbirlər sənaye və kənd təsərrüfatı istehsalının aşağı düşməsinin qarşısını almaq üçün heç də kifayət deyildi. Sənaye müəssisələrinin müflisləşməsi və dövlət kənd təsərrüfatı müəssisələrinin ləğv edilməsi halları baş verirdi.

Baltseroviç planı nəzərdə tutulduğundan daha sürətlə keçirildiyindən işsizlərin sayı 1991-ci ilin payızında artaraq 2,4 milyon nəfərə çatdı. Ölkədə tətil dalğası, nümyaişlər başladı və bu da vaxtaşırı asayiş qüvvələri ilə toqquşmalara gətirib çıxarırdı, qeyri rəsmi məlumata görə bu toqquşmalarda 18 nəfər həlak oldu ki, bu da 1981-ci ildə tədbiq edilmiş hərbi vəziyyət dövründəkindən çox idi. Eyni zamanda hökumət müəssisələrin səhm ilə satılmasına və özəlləşdirilməsinə başladı. Faktiki olaraq bu proses hələ PBFP-nin idarəçiliyi dövründə başlamışdı və 1989-cu ildə geniş xarakter aldı. Lakin ölkə əhalisinin böyük bir hissəsinin müəssislərin səhmlərini almaq üçün real imkanı yox idi. Buna baxmayaraq, emaledici sənayedə xüsusi bölmənin çəkisi 1989-cu ildəki 7,4 faizdən 1993-cü ildə 36,3 faizə çatdı. Polşa məqsədyönlü şəkildə bazar iqtisadiyyatına doğru irəliləyirdi.

Nəhayət, 1992-ci ildə sənaye istehsalının aşağı düşməsinin qarşısı alındı və onun 2000-ci ilə qədər davam edən yüksəlişi başlandı. İqtisadi yüksəliş daha uğurla 1993-1997-ci illər baş verdi. Ümumi daxili məhsul 1,8 dəfə artdı ki, bu da dünyada ən böyük göstəricilərdən biri idi. 1998-ci ildə istehsal qismən aşağı düşməyə başladı və bu meylin 2005-ci ilə qədər qarşısını almaq mümkün olmadı. 1990-2005-ci illərə sənaye istehsalının həcmi ildə orta hesabla 4-6,5 faiz artdığı halda, kənd təsərrüfatı məhsulları istehsalında artım hiss olunmurdu. Həm də aldıqları sənaye mallarının qiymətlərinin artmasına baxmayaraq kənd təsərrüfatı məhsullarının qiymətlərinin aşağı düşməsi müşahidə olunurdu.

Büdcə kəsirinin artması ciddi iqtisadi problem kimi qalırdı. 2000-ci ildə ümumi daxili məhsulun 33 fazini təşkil edən daxili borc və ona sərf olunan büdcə xərcləri daima artmaqda idi. Bu fəal iqtisadi siyasətin həyata keçirilməsi imkanını məhdudlaşdırırdı. Büdcənin formalaşdırlmasında vasitəli verginin, həmçinin mütərəqqi şkala ilə tutulan gəlir vergisinin rolu böyük idi. 80-ci illərin sonlarında infilyasiyanın qarşısının alınması 1995-ci ildə milli valyuta zlotını 10.000:1 nisbətə denominasiya etməklə mümkün oldu. Maliyyənin stabilləşdirilməsi xarici ticarətdə, həmçinin sərhədyanı ticarətdə müsbət saldo yaradılmasına imkan yaratdı. Polşaya vizasız gediş-gəlişdən istifadə edən şərqdən gələn "çelnoklar" – alverçilər ildə oradan 5,5 milyard dollarlıq mal alırdılar. Avropa İttifaqına daxil olmaq kursunu götürən Polşa 90-cı

illərin sonlarında Rusiya ilə viza rejiminə keçdi, bunun nəticəsində Kalininqrad vilayəti vasitəsilə sərhədyanı ticarətin həcmi kəkin şəkildə aşağı düşdü. XXI əsrin əvvəllərində Rusiyadan idxal edilən neft və qazın qiymətinin kəskin artması vəziyyəti daha da gərginləşdirdi. Nəticədə Polşanın xarici borcu 1994-cü ildəki 26 milyard dollardan 2005-ci ildə 80 milyard dollara çatdı.

İşsizliyin yüksək səviyyədə olması Polşa üçün ən ağır sosial problem kimi qalırdı. Son 15 ildə yalnız 1997-ci ildə bu rəqəm 1,8 milyon nəfərə enmiş, qalan illərdə bu rəqəm 2,5 milyon nəfərdən az olmamışdır. Bununla əlaqədar olaraq həm sayları ildə 200 min nəfərdən çox olan mövsümü, həm də daimi yaşamaq üçün miqrasiya geniş miqyas almaqda idi. Hər il 15-20 min polyak ölkəni tərk edirdi ki, bu da ölkəyə qayıdanların sayından çox idi.

Özəlləşdirmənin ümumi xarakter alması məqsədilə 1993-cü ildə milli İnvestisya fondu (MİF) haqqında qanun qəbul edildi. Qanunda ölkənin bütün yaşlı əhalisinə seçdiyi müəssisələrin vəsaitinin 60 faizinin verilməsi nəzərdə tutulurdu ki, bunların səmərəli idarə edilməsi səhm sahiblərinin zənginləşməsinə və iqtisadiyyatın modernləşməsi ilə nəticələnməsi idi. Bunun üçün 512 müəssisə ayrıldı ki, bunların əsasında 15 MİF yaradıldı. Artıq 1997-ci ildə bütün pay şəhadətnamələrinin hamısı satıldı. Ümumi özəlləşdirmə təcrübədə özünü doğrultmadı. MİF-lərin çoxu müflisləşdi. Hökumət və deputatlar onların fəaliyyərinə lazımi diqqət yetirmədilər. Pul özəlləşdirilməsi uğurla davam edirdi və xırda biznes inkişaf edirdi. Xüsusi bölmədə kənd təsərrüfatı istisna olmaqla 1997-ci ildə Ümumi daxili məhsulun (ÜDM) 64 faizi istehsal edilirdi.

Kənd təsərrüfatının yenidən qurulması çətinliklərlə üzləşmişdi. Yenidənqurma dövrünün lap əvvəlində iri dövlət təsərrüfatları ləğv edildi ki, bu da kənddə işsizliyin kəskin artmasına səbəb oldu. Dövlətin büdcəsindən yardım almağa adət etmiş kəndli təsərrüfatları Avropa İttifaqının kənd təsərrüfatı məhsulları ilə rəqabət aparmağa məcbur oldu. Bunun sayəsində az məhsuldar torpaqlar dövriyyədən çıxdı, kiçik və orta təsərrüfatlar tənəzzülə uğradı. Polşanın Avropa İttifaqına daxil olması və məqsədli yardım alması ilə kənd təsərrüfatının modernləşdirilməsi artdı.

Polşa sənaye-aqrar ölkəsidir. 2012-ci ildə ümumi məhsul istehsalında əhalinin hər bir nəfərinə düşən alıcılıq payı 22162 dollar təşkil edir. Nominal olaraq ümumi məhsul istehsalı isə 489,795 milyard dollardır. Dünya bankının məlumatına görə 2013-cü ildə nominal ümumi məhsul istehsalı artaraq 517,5 milyard dollar təşkil etmişdir ki, bu da dünyada 24-cü göstərici deməkdir. Polşada iş qabiliyyəti olan əhalinin 2004-cü ildə 18 faizi işsiz olduğu halda, 2008-ci ildə işsizlər 6,5 faizə düşmüşdür.

***Polşa beynəlxalq münasibətlər sistemində.*** SSRİ-nin qərbi antihitler koalisiyası müttəfiqlərinin 1945-ci ildə Müvəqqəti Milli Birlik hökumətini tanıması Polşanın tezliklə beynəlxalq siyasətə qoşulmasına imkan verdi. Polşa BMT-nin təsisçilərindən biri kimi onun nizamnaməsini imzalamaq, köhnə və yeni yaranan beynəlxalq təşkilatlara daxil olmaq hüququ əldə etdi. Polşanın xarici siyasətinin fərqləndirici cəhəti ondan ibarət idi ki, 80-cı illərin sonlarına qədər SSRİ ilə münasibətlərə üstünlük verirdi.

Polşanın Sovet İttifaqına meylli olması, ilk növbədə, SSRİ-nin fəal səyi nəticəsində 1945-ci il Potsdam konfransında onun qərbdə və şimalda 1939-cu ilə qədər Almaniyanın nəzarəti altında olan torpaqların: Aşağı Sileziya, Opol Sileziyası, Lyubuş torpağı, Qərbi Pomorye, Şərqi Prussiyanın bir hissəsi, azad şəhər Dansiq (Qdansk) daxil olmaqla geniş torpaqların ona qaytarılması ilə bağlı idi. Mərkəzi Avropada sərhədlərin dəyişdirilməsi məsələsi Almaniyaya dair sülh konfransında həll edilməli idi. Lakin belə bir konfrans keçirilmədi. Polşanın qərb sərhədi 1953-cü ildə Polşa-ADR, 1970-ci ildə Polşa- AFR müqavilələri ilə nizama salındı. AFR dövlət sərhəddinin Oder və Neysə çayları boyunca keçməsini qəbul etdi.

Polşa sosialist əməkdaşlığı adlanan xalq demokratiyası cəbhəsinin formalaşdırılmasında fəal iştirak edirdi. Sonralar bu sosializm birliyi adlanmağa başladı. Polşa 1949-cu ildə Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) təsisçilərindən biri oldu. Həmçinin 1955-ci ildə Polşanın paytaxtında NATO-ya və yenidən hərbiləşdirilmiş AFR-ə qarşı duran Varşava Müqaviləsi Təşkilatı yaradıldı.

Polşa hökuməti Avropada beynəlxalq gərginliyin zəifədilməsi istiqamətinə yönəldilmiş bir sıra təşəbbüslərin təşkilatçısı idi. 1957-ci ildə Polşa tərəfindən Avropada nüvəsiz zona yaradılması planını, yəni diplomayita tarixində “Rapatski planı” adlanan planı irəli sürdü. Polşa həmçinin 1975-ci ildə Helsinkidə keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Ümumavropa müşavirəsinin əsas təşəbbüsçülərindən biri oldu.

Sosializm sisteminin dağılması ilə Polşanın tam suverenliyi və müstəqilliyi ona qaytarıldı və eyni zamanda onun siyasi elitasının qarşısında ölkənin milli təhlükəsizliyinin yeni yollarını axtarmağa vadar etdi. Polşada 1989-cu ildə ilk qeyri-kommunist hökumətinin yaradılması ilə Sovet İttifaqının nəzarəti altında həyata keçirilən əvvəlki xarici siyasət kursundan imtina etmələri üçün şərait yaranmış oldu. Lakin yeni xarici siyasət kursunu həyata keçirmək üçün real imkan Çexoslovakiyada “məxməri” inqilabın baş verməsi, Berlin divarlarının uçurulması və Varşava Müqaviləsi Təşkilatının ölkəyə soxulması təhlükəsi aradan qalxdıqdan sonra yarandı. 1990-cı ildə Varşavanın təkidi ilə sovet qoşunlarının ölkədən çıxarılması haqqında başlanan danışıqlar 1992-ci ildə uğurla nəticələndi. 1992-ci ildə Varşava Müqaviləsi Təşkilatının buraxılması ilə milli təhlükəsizliyin təmin edilməsi dönməz xarakter aldı.

1991-ci ildə Polşa Mərkəzi, Şərqi və Cənubi Avropa ölkələri əməkdaşlığı təşkilatına – Mərkəzi Avropa təşəbüsünə qoşuldu. Buraya Avstriya, Macarıstan, İtaliya, Yuqoslaviya və Çexolovakiya daxil idi. Lakin Yuqoslaviyanın dağılması və orada başlanan millətlərarası münaqişələr və toqquşmalar təşkilatın fəaliyyətinin reallaşdırılmasına imkan vermədi.

1991-ci ilin avqustunda Polşa da daxil olduğu Almaniya və Fransa ilə birlikdə Veymar üçbucağı, Çexoslovakiya və Macarıstanla birlikdə Vışeqrad üçbucağı təşkil olundu. Polşa həmçinin 1990-cı ilin əvvəllərində Baltik dənizi dövlətləri İttifaqının və azad ticarət haqqında Mərkəzi Avropa sazişi regional təşkilatların yaradılmasında fəal iştirak edirdi.

SSRİ-nin süqutundan sonra Polşa hökuməti tezliklə yeni yaradılmış dövlətlərin müstəqilliyini tanıdı və öz üzərinə Avropada onlara bələdçi rolunda çıxış etməyə cəhd göstərirdi. Postyuqoslaviya məkanında etnik qruplar arasında toqquşmalarda Varşavanın antiserbiya siyasəti də Qərblə yaxınlaşmasına şərait yaratdı.

A.Kvasnevskinin prezident seçkilərində qələbəsi ölkənin xarici siyasət kursuna təsir etmədi. Bununla yanaşı, Qərb ölkələri ilə, ilk növbədə Vaşinqtonla əlaqələr xeyli fəallaşmağa başladı. ABŞ konqresi 1994-cü il yanvarın 27-də NATO-nun genişləndirilməsini elan edən qərar qəbul etdi. Polşa Respublikasında NATO-ya daxil olmağı demokratiyanın və təhlükəsizliyin təminatı olduğu fikrində idilər. Polşanın xarici işlər naziri Y.Onitskeviç bəyan etdi ki, NATO-ya daxil olmaq eyni zamanda Rusiyanın Polşa üçün yaratdığı təhlükədən qorunmaq məqsədilə vacibdir. Polşa 1994-cü ildə NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramını imzalamaqla bu hərbi-siyasi təşkilata daxil olmaq istiqamətində real addım atmış oldu. 1996-cı il iyul ayında Polşanın prezidenti A.Kvasnevski Vaşinqtonda ABŞ prezidenti B.Kilintonla görüşündə NATO-nun şərqə doğru genişlənməsi müzakirə olundu. Alyansın genişlənməsini müdafiə edən hər iki tərəf bildirdi ki, təşkilata yeni dövlətlərin daxil olması hər hansı bir ölkəyə qarşı yönəlməyib və Avropada təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. Rusiyanın etirazına baxmayaraq Polşa rəhbərliyinin Şimali Atlantika İttifaqına daxil olmaq haqqında inadlı cəhdi öz nəticəsini verdi. 1997-ci ildə Madriddə NATO üzvləri tərəfindən Polşa da daxil olmaqla Vişeqrad qrupu iştirakçılarının bloka üzv qəbul edilməsi haqqında qərar qəbul edildi. Qərarda belə bir fikir də səsləndirildi ki, Polşanın ərazisində nüvə silahı yerləşdirilməyəcək. Bu proses 1999-cu il martın 16-da, Şimali Atlantika İttifaqının 50 illiyində başa çatdı. NATO üzvü olan Polşa təyyarə limanlarını Kosovo böhranı ilə əlaqədar Serbiyanı bombalayan NATO qüvvələrinə verdi. Polşa hərbi kontingenti Əfqanıstan və İraqda sülhməramlı qüvvələrin tərkibinə daxil edildilər.

Avropa İttiaqı 1991-ci il dekabrın 16-da Polşa ilə assosiasiyası haqqında saziş imzaladı. 1994-cü ilin əvvəllərində Polşa Avropa İttifaqının assosiativ üzv kimi bu təşkilata daimi üzvü olmaq üçün müraciət etdi. Polşanın Avropa İttifaqına inteqrasiyası haqqında rəsmi danışıqlar 1998-ci il martın 31-də başladı. Danışıqlar asan keçmirdi, belə ki, Polşa qanunlarını Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırmaq, iqtisadi məsələləri – o cümlədən, torpaqların xari-

cilərə satılması şərtləri və polyaklara Qərbdə, yəni tərəfdaş ölkələrdə işə düzəlmək hüququ verilməsi haqqında qərarlar qəbul edilməsi prosessi 2004-cü ilin mayında başa çatdı. 2004-cü ilin iyununda Polşada keçirilən ümummilli referendum hökumətin bu qərarını bəyəndi.

Beləliklə, Polşanın NATO və Avropa İttifaqına daxil olması ilə onun xarici siyasətinin istiqaməti prosesi başa çatdı. Artıq onun əsas müttəfiqləri və tərəfdaşları Qərb dövlətləri, ilk növbədə, Amerika Birləşmiş Ştatları oldu. 2003-cü ildə ABŞ-ın İraqa qarşı təcavüzü onun səkkiz müttəfiqinin narazılığına səbəb olsa da, Polşa Vaşinqtonun siyasətini müdafiə etdi.

2003-cü ildə ABŞ-ın prezidenti C.Buş Polşanı "Birləşmiş Ştatların Avropada ən yaxşı dostu" adlandırmışdı. Buna baxmayaraq, Polşa İraq əməliyyatlarında iştirakdan əməli olaraq heç nə qazanmadı. ABŞ Polşa vətəndaşlarının ölkəyə vizasız gəlməsi haqqında müraciətinə baxmaqdan imtina etdi. Lakin Qərblə yaxınlaşma nəticəsində Polşa artıq 90-cı illərin birinci yarısında Pariş və London kreditorlar klubundan xarici borcların demək olar ki, yarısının silinməsinə razılıq ala bildi. Lakin bu qərar borcun tam ləğv edilməsinə kömək edə bilmədi, eyni zamanda borc daima artmaqda davam edirdi.

Polşanın Rusiya ilə münasibətlərini tam normallaşdırmaq hələlik mümkün olmamışdır. Buna səbəb Rusiyadan alınan yanacağın azalması ilə Polşa sənayesinin kəskin surətdə aşağı düşməsi və kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarında xarici və rus məhsulları ilə rəqabətə davam gətirə bilməməsi idi. Eyni zamanda postsovet məkanında Polşanın səylə liderik mövqeyini ələ keçirmək cəhdi Rusiyanın strateji maraqları ilə toqquşudu. Bu Varşavanın 2004-cü ildə Ukraynada "narıncı inqilabı" və Belarusiya müxalifətini müdafiə etdiyi dövrdə özünü xüsusilə göstərmişdir. Polşa-Rusiya əlaqələrində gərginliyə səbəb olan hadisələrdən biri ABŞ tərəfindən həyata keçirilməsi nəzərdə tutulan Raketdən Müdafiə Qurğularının inşası məsələsidir. Bu sistemin quraşdırılmasının mərkəzi Polşa ərazisi nəzərdə tutulur ki, buna cavab olaraq Rusiya bunun baş tutması şəraitində Polşanın nüvə hədəfi təhlükəsinə məruz qalmasını bildirərək əslində Polşanı təhdid edir. Çar Rusiyasının və onun varisi olan Sovet İttifaqının genişlənmə siyasətinin hədəfi olmaqdan daima xilas ola bilməyən Polşa dövləti üçün hazırda Raketdən Müdafiə Sisteminə malik olmaq slavyan ailəsinin eyni üzvləri olmalarına baxmayaraq ölkəyə ola biləcək rus təhlükəsini müəyyən dərəcədə aradan qaldırmaqda bir addım kimi qiymətləndirilir.

Bu fikir ayrılığına baxmayaraq, 2009-cu ildə Rusiya Federasiyasının baş naziri V.V.Putinin Polşa dövlətinə baş tutan səfəri bu iki slavyan ailəsinin ən böyük üzvləri olan ölkələr arasında münasibətlərin normallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Polşa ikitərəfli münasibətlər və ikitərəfli müqavilələrə əsaslanan yaxşı qonşu əlaqələrini Rusiya ilə də inkişaf etdirməyə mühüm diqqət ayırır.

XXI yüzilliyin əvvəllərində Avro-Altantik zonasının ölkələrilə, eyni zamanda terrorçuluğa qarşı koalisiyanın çərçivəsində ABŞ-la sıx əməkdaşlıq edən Polşa dövləti Almaniya, Fransa və Böyük Britaniya kimi əsas avropalı tərəfdaşları ilə əlaqələri daha dinamik bir şəkildə inkişaf etdirib möhkəmlətmək xətti yeridir.

Polyak və Azərbaycan xalqları arasında yaxın və mehriban münasibətlər hələ qədim zamanlardan mövcuddur. Oxşar və yaxın tarixlər hər iki ölkəni bir-birini daha aydın dərk etməyə, daima dost münasibətləri saxlamağa kökləyib. 2010-cu ildə Donald Tusk və baş nazirin müavini, istisadiyyat naziri Valdemar Pavlyakın Bakıya səfəri ikitərəfli əlaqələrin inkişafını göstərir. Polşa-Azərbaycan münasibətlərində iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiya xüsusi rol oynayır. Faktlar göstərir ki, Polşanın Şərq siyasətində əsas yerlərdən birini Azərbaycanla dostluq və əməkdaşlıq tutur.

XX əsrin 90-cı illəri və XXI yüzilliyin əvvəllərində Polşa dövlətinin siyasi və iqtisadi sistemində baş verən dəyişikliklər, xarici dövlətlərlə çoxtərəfli əməkdaşlıq Polşa Respublikasının beynəlxalq aləmdə mövqeyinin, nüfuzunun və rolunun artmasını təmin etmişdir.

## Çexiya və Slovakiya 1918-2015-ci illərdə

### Çexoslovakiya 1918-1939-cu illərdə

***Çexoslovakiya Respublikasının yaranması.*** XX yüzilliyin ikinci onilliklərində Avstriya-Macarıstan imperiyasının tərkibinə daxil olan Çexiya inkişaf etmiş sənaye rayonu olduğu halda Slovakiya iqtisadi cəhətdən geri qalmış macar hissəsi olan Transleytaniyanın tərkibinə daxil idi. Habsburqlar imperiyasına daxil olan başqa xalqlar kimi çexlər və slovaklar bu dövrdə milli ayrı-seçkiliyə, təqib, təzyiq və repressiyalara məruz qalırdı. Bu çex və slovakların milli ideallar uğrunda mübarizəsini gücləndirdi. Düzdür, Çexiya ərazisində mövcud olan siyasi qüvvələr çex məsələsini Avstriya-Macarıstan imperiyası hüdudlarında həll etmək, alman və macarlarla bərabər hüquqa malik olmaq uğrunda fəaliyyət göstərirdilər. Beynəlxalq gərginliyin artması, Avstriya-Macarıstanda müharibə rüzgarının əsməsi Çexiya və Slovakiyada müharibə əleyhinə fəaliyyətin artmasına səbəb oldu.

Birinci Dünya müharibəsinin başlanması ilə Avstriya-Macarıstan imperiyasının slavyan əhalisinin Rusiyaya qarşı münasibətindən ehtiyat edən hakimiyyət orqanları Çexiya və Moraviyada repressiyaları gücləndirdi.1915-ci ildə Çexiyada alman dili rəsmi dil elan olundu, çexlərə məxsus mətbuat orqanları, mədəni-maarif, xeyriyyə təşkilat və cəmiyyətləri bağlandı. XIX əsrin 60-cı illərində meydana gəlmiş “Gənc çexlər” milli hərəkatının lideri K.Kramarj (1866-1937) və A.Raşin (1867-1923) Rusiyaya tərəf tutmaqda ittiham edilərək məhkəmə tərəfindən 1915-ci ilin may ayında ölüm hökmünə məruz qalmış, yalnız 1916-cı ilin noyabrında Avstriya-Macarıstan imperiyasının imperatoru I Frans İosifin vəfat etməsi çex liderləri ölümdən xilas etmişdir.

Birinci Dünya müharibəsinin çətinlikləri imperiya ərazisində yaşayan xalqların, o cümlədən slavyanların fəallığını daha da artırdı. Öz xalqını siyasi mübarizəyə hazırlayan çex və slovak burjuaziyasının məqsədi və mövqeyi xeyli dəyişildi. Siyasi qüvvələr daha radikal tələblər irəli sürməyə başladı. Çexiyanın müstəqilliyini tələb edən “Gənc çexlər” və onların lideri K.Kramarj Antantanın qələbəsini nəzərdə tutaraq Rusiyanın himayəsi altında slavyan dövlətlərinin iffitaqının yaradılmasını irəli sürürdü.

Realistlərin lideri T.Q.Masarik (1850-1937) də müstəqil Çexiya uğrunda mübarizəni ön plana çəkərək bu məqsədlə Antanta dövlətləri ilə əlaqələri önə çəkir, amma Rusiya ilə deyil İngiltərə və Fransa ilə əməkdaşlıq tərəfdarı idi. E.Beneş (1884-1948) və Milli Sosialist partiyasının rəhbəri V.Klofaç (1868-1942) da onunla eyni cür düşünürdü.

A.Şveqlanın (1873-1933) Aqrar partiyası və V.Şmeralın (1880-1941) Sosial-Demokratlar partiyası Avstriya-Macarıstanın demokratikləşməsi şərti ilə slavyan azlıqları məsləsini imperiya daxilində qalmaqla həll etməyi nəzərdə tuturdular.

Slovakiya milli hərəkatında V.Şrobar və b. rəhbərlik etdiyi liberal, A.Qlinka və b. liderliyi ilə klerikal, M.Qoca və b. başçılıq etdiyi aqrar cərəyanlar fərqlənirdi. Xüsusilə Slovak liberalları Slovakiyanın azad olunmasını və bu yolla sıx Çex-Slovak əməkdaşlığını müdafiə edirdilər.

Birinci Dünya müharibəsi illərində Avstriya-Macarıstan imperiyasının tərkibinə daxil olan slavyan vilayətlərində milli istismarın, siyasi təqib və terrorun artması, iqtisadi vəziyyətin ağırlaşması slavyan əhalisi arasında milli-azadlıq hərəkatının yayılmasına səbəb oldu. Çex və slovaklar orduya yazılmaqdan imtina edir, cəbhədə bilə-bilə ruslara əsir düşürdülər. Bunun nəticəsində 1916-cı ilin axırlarında Rusiyada 200-250 min nəfər çex və slovak vardı. Buna cavab olaraq imperiyanın hakimiyyət nümayəndələri slavyan azlığa qarşı repressiyaları kəskinləşdirdi. Yaranmış şəraitlə əlaqədar T.Masarik milli-azadlıq mübarizəsinin mərkəzini xaricə köçürmək qərarına gəldi və 1915-ci ilin noyabrında Parisdə Çex Xarici Komitəsi yaradıldı. 1916-cı ilin mayında E.Beneşin və slovakiya xadimi Milan Ştefankin (1880-1919) iştirakı ilə bu komitə Çexoslovakiya Milli Şurasına çevrildi. Milli Şuranın mətbuat orqanı nəşr edilməyə başladı.

Rusiyada Fevral inqilabı çex və slovakların azadlıq mübarizəsinin fəallaşmasına təkan

verdi. Həm də bu zaman Avstriya-Macarıstanda vəziyyət kəskin şəkildə mürəkkəbləşmişdi. İqtisadiyyatın tənəzzülü güclənmiş, 1917-ci ilin birinci yarısında tətil hərəkatı artmışdı. Monarxiyanın daxili və xarici vəziyyəti kəskinləşmişdi. Rusiya inqilabının təsiri altında demokratik hüquqların və azadlıqların bərpa olunması uğrunda hərəkat genişlənmişdi. 1916-cı ilin noyabrında taxta çıxan I Karl (1887-1922) parlamentin (reyxsrat) fəaliyyətini bərpa etdi və slavyan xalqları ilə münasibətlərin nizamlanması istiqamətində addımlar atdı. Lakin imperiya daxilində müstəqilliyə meyl güclü idi, odur ki, çex və slovaklar 1917-ci ilin mayında parlamentdə müstəqillik tələbi ilə çıxış etdilər. Oktyabr silahlı üsyanından sonra radikal şüarlar irəli sürülür, mübarizənin forma və metodlarında dəyişiklik baş verirdi. Qərb dövlətlərinin himayəsi altında müstəqil dövlət yaratmaq və Avstriya-Macarıstan imperiyasının tərkibindən çıxmaq azadlıq mübarizəsinin ana xəttini təşkil edirdi. Çex və Slovak liderləri Paris və Rusiyadakı mühacir mərkəzləri ilə əlaqə saxlayırdı. Çex liderləri Antanta ölkələrinin hakim dairələri ilə sıx əlaqə saxlayır, özlərinin milli tələblərinin tanınmasına çalışırdılar.

Çexoslovakiya Milli Şurası Fransada, İtaliyada, Rusiyada hərbi legionların formalaşdırılması sahəsində fəaliyyətlərini genişləndirirdi. 1917-ci ilin yayı üçün bu legionların sıralarında 40 min, 1918-ci ilin ortaları üçün təkcə Rusiyada onların sayı 50 min nəfərə çatmışdı. Rusiyada çex legionlarının yaradılması M.Ştefanikin və T.Masarikin Rusiyaya səfəri ilə əlaqədar baş vermişdi.

Bu zaman həm də çex mühacirəti Parisdə böyük diplomatik uğur qazandı. 1918-ci ilin mayında Fransa hökuməti Çexoslovakiya Milli Şurasını Çexoslovakiyanın müvəqqəti hökuməti, onların təşkil etdiyi hərbi hissələri Antanta ordusu kimi tanıdı. Bu hökuməti 1918-ci ilin avqustunda Böyük Britaniya, sonra isə Yaponiya və ABŞ-da tanındılar. Bununla da Rusiyadakı çex korpusunun bolşeviklər əleyhinə silahlı qiyamına şərait yarandı. ABŞ-da mühacirətdə olan çexoslovak qruplarının fəaliyyətini əlaqələndirmək məqsədilə 1918-ci il mayın 10-da Pittsburqda çex və slovak təşkilatları bu iki xalqın vahid müstəqil dövlətdə birləşdirilməsinə dair saziş imzaladılar. Slovakiyanın muxtariyyatının və slovak seyminin çağırılmasını da nəzərdə tutan bu saziş gələcək prezident T.Masarik tərəfindən imzalandı, 1918-ci ilin sentyabrında Slovakiya Milli Şurası yaradıldı.

Avstriya-Macarıstan hökuməti böhranın dərinləşdiyini və imperiyanln dağılması ehtimalının qaçılmaz olduğunu görərək çex torpaqlarından ərzağı, xammalı və qiymətli əşyaları daşımağa başladı. Təkcə Çexiyadan hər gün 20 vaqon un daşınırdı. Hökumətin bu soyğunçuluq tədbirləri xalq kütlələrinin kütləvi etirazına səbəb oldu. Ölkədən ərzağın daşınmasına qarşı etirazlar 1918-ci il oktyabrın 14-də ümumi tətillə nəticələndi. Tətilçilər milli müstəqillik, "azad Çex-Slovak respublikasının" yaradılması şüarlarını irəli sürdülər. Nümayişçilərin şəhərətrafı fəhlə qəsəbələrindən şəhərin mərkəzinə doğru irəliləməsinin qarşısını almaq məqsədilə Praqaya Avstriya ordusunun əlavə qüvvələri gətirildi. 14 oktyabr hadisələri çex və slovak respublikasının elan edilməsi ilə nəticələnmədi, lakin bu nümayiş ölkənin gələcək taleyini müəyyən etdi, eyni zamanda qiymətli sərvətin ölkədən çıxarılmasının qarşısı alındı. Vyana hökuməti yaranmış vəziyyətdən çıxış yolunu Habsburqlar monarxiyasını federativ çoxmillətli dövlət halında yenidən qurulmasında görürdü və bu vəzifəni həll etmək 1918-ci il oktyabrın 25-də yaradılmış yeni Avstriya hökumətinin qarşısına qoyulmuşdu. Ancaq hökumətin imperiyanı federallaşdırmaq vasitəsilə böhrandan çıxmaq təşəbbüsü baş tutmadı.

Xaricdəki müqavimət hərəkatının nümayəndələri ilə, ilk növbədə, T.Masariklə danışıqlar aparmaq üçün başda K.Kramarj olmaqla İsveçrəyə nümayəndə heyəti göndərildi, T.Masarik həmin dövrdə ABŞ-da olduğundan danışıqlar E.Beneşlə aparıldı. Çex və slovakların müstəqilliyinin elan edilməsində əsas hadisə 1918-ci il oktyabrın 28-də baş verdi. Həmin gün Avstriya-Macarıstan hökuməti Antanta dövlətləri ilə barışıq sazişi imzalamağa hazır olduğunu bildirərək müharibədə öz məğlubiyyətini etiraf etmiş oldu. Bunun ardınca Praqadakı Milli Komitə mülkü və hərbi hakimiyyəti öz əlinə almış və müstəqil dövlətin yarandığını elan etmişdir. Çex və Slovakların torpaqlarındakı uzun illərdən bəri davam etmiş Habsburqlar imperiyasının hökumranlığına son qoyuldu.

Avstriya-Macarıstanın parçalanması ilə barışmağa məcbur olan Avstriya hakimiyyəti

orqanları Çexiya və Slovakiyada idarə işlərinin hamısını Praqa Milli Komitəsinə verdilər. Çex və slovak burjua xadimlərinin – A.Şveqla, A.Raşin, F.Soukup, Y.Strşibrn və V.Şrobarın başçılıq etdiyi Milli Komitə əhaliyə müraciət edərək hakimiyyəti öz əlinə aldığını bildirdi. 1918-ci ilin oktyabr günləri çex-slovak dövlətçiliyinin əsasını, başlanğıcını qoymuş oldu.

Burjua partiyaları arasında gedən danışıqlardan sonra Praqa Milli Komitəsi Müvəqqəti Milli Məclis şəklində yenidən quruldu. 1918-ci il noyabrın 14-də Praqada Milli Məclisin təntənəli iclası oldu. Məclis Hasburqlar sülaləsinin devrildiyini təsdiq etdi və Çexoslovakiya demokratik respublika elan edildi. Tomaş Masarik Çexoslovakiyanın ilk prezidenti seçildi. Cenevrədə razılaşdırılmış hökumətin tərkibi də təsdiq edildi. Milli-Demokrat partiyasının lideri K.Kramarjın sədrliyi ilə respublikanın "ümummilli koalisiya" adlanan hökuməti yaradıldı.

Çex torpaqlarında hakimiyyət dəyişikliyi əsasən sakit keçdi. Gərginlik yalnız Brno və yeni reallıqla razılaşmaq istəməyən çex almanlarının yaşadığı sərhəd vilayətlərində hiss olunurdu. Həmin ərazilərdəki almanlar ABŞ prezidenti V.Vilsonun 14 maddəsində irəli sürülmüş millətlərin öz müqəddəratını təyin etmək müddəasını əsas tutaraq özlərini Avstriyanın tərkib hissəsi elan edərək burada dörd "müstəqil alman əyaləti" yaratdılar. Lakin ÇSR hökuməti bu ərazilərin qoparılması cəhdinin qarşısını aldı və 1918-ci ilin dekabrına qədər bu torpaqlar çex qoşunları tərəfindən tutuldu.

1918-ci ilin dekabrında T. Masarik təntənəli şəkildə Praqaya qayıtdı. Onun rəhbərliyi altında respublikada parlament demokratiyası qələbə çaldı. Mərkəzi dövlət aparatı yaradıldı. 1918-ci ilin noyabrında müvəqqəti Konstitusiya qəbul edildi, 8 saatlıq iş günü tətbiq olundu. Milli Komitənin tərkibi 254 nəfərə çatdırıldı və yuxarıda qeyd edildiyi kimi, bu orqan respublikanın parlamentinə çevrildi, onun tərkibinə burjua çex və slovak siyasi partiyasının nümayəndələri daxil edildi. Böyük səlahiyyətlər verilmiş V.Şrobar Slovakiyaya səlahiyyətli nazir təyin edildi.

Hökumət respublikanın dövlət sərhədlərini müəyyən etməyə başladı. Sərhədlər məsələsi qəti şəkildə 1919-cu ildə Paris sülh konfransında həll edildi. Bu konfransda ÇSR-i Baş nazir K.Kramarj və Xarici İşlər naziri E.Beneş təmsil edirdilər. 1919-cu ilin martında Slovakiya və Zakarpatiya (indiki Qərbi Ukrayna) torpaqları ÇSR-ə birləşdirildi. Çexoslovakiyanın sərhədləri qəti olaraq Versal (1919), Sen-Jermen (1919) və Trianon (1920) sülh müqavilələri əsasında 1919-1920-ci illərdə müəyyənləşdirildi.

Ölkənin ərazisi 140 min kv. km, əhalisinin sayı 13,6 milyon nəfər idi. Bütün əhalinin yarıdan çoxunu çexlər təşkil edirdi. Belə ki, 2 milyon nəfər slovakalarla birlikdə çexlər yeni dövlətdə təqribən 8,8 milyon nəfərə çatırdı. ÇSR-in alman əhalisinin sayı 3 milyon nəfər idi. Eyni zamanda gənc respublikanın alman, macar, polyak əhalisi milli azlıq statusu almışdı. Çex siyasətçiləri unitar dövlət yaratmaq xətti yeridirdilər. Milli azlıqlara müxtariyyət verilməsi onlara görə təhlükəli münaqişələrə səbəb ola bilərdi. Onların fikrincə mərkəzləşdirilmiş dövlət müharibədən sonrakı çətinlikləri asanlıqla aradan qaldırar və qonşu dövlətlərlə pozulmuş əlaqələrin möhkəmləndirilməsini təmin edə bilərdi. Beləliklə, ÇSR çətin münaqişə və mübahisələrin, fikir ayrılıqları və ziddiyyətlərin aradan qaldırılması şəraitində yaradılmış oldu. Çexoslovakiya Respublikasında demokratiyanın bərqərar olması və möhkəmləndirilməsində ölkənin ilk prezidenti Tomaş Qarriq Masarikin böyük xidmətləri əvəzsizdir.

Tomaş Qarriq Masarik 1850-ci il martın 7-də Avstriya imperiyasının tərkibinə daxil olan Moraviyanın Gedin torpağında anadan olmuşdur. Brno, Vyana, Leypsiqdə təhsil almışdır. 1882-ci ildən Praqa Universitetinin professorudur. Fəlsəfə doktoru dərəcəsi alan T.Masarik Çikaqo Universitetində mühazirə oxuyarkən sonradan Rusiya Müvəqqəti hökumətinin Xarici işlər naziri olmuş P.N.Milyukovla tanış olur. Onun köməyi ilə Rusiyadakı çex hərbi əsirlərindən legion formalaşdırır. 1917-ci ildə T.Masarik Rusiyaya gələrək Çexoslovak korpusunun yaradılmasında iştirak edir. Birinci Dünya müharibəsi dövründə Antanta ölkələrində Çexoslovakiyanın müstəqilliyi uğrunda fəal təbliğat aparmışdır. Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra T.Q.Masarik 1918-ci ilin noyabrında qiyabi olaraq oktyabrın 28-də müstəqilliyini elan etmiş Çexoslovakiyanın ilk prezidenti seçilmişdir. Bir aydan sonra ölkəsinə qayıdan T.Masarik coşğu ilə qarşılanmışdır. Çexoslovakiyanın müstəqilliyi uğrunda mü-

barizənin simvolu olan T.Masarik xalq içərisində həm də müqəddəslik rəmzi kimi şöhrət qazanmışdır. Yeni demokratik dövlətin humanistlik mücəssəməsi olan T.Masarikə xalq məhəbbətlə qeyri-rəsmi "baba" ləqəbi vermişdir. Liberal demokratik çox partiyalı quruluşun tərəfdarı olan Tomaş Qarik Masarik 1935-ci ilin dekabrın 14-də prezident vəzifəsindən istefa verərək, 1937-ci ilin sentyabrın 14-də Landa 87 yaşında vəfat etmişdir.

1919-cu ilin aprelində Çexoslovakiya Antantanın göstərişi ilə Rumıniya ilə birlikdə Macarıstan Sovet respublikası əleyhinə müdaxiləyə başladı. Çex və Slovak xalqı Macar Qızıl Ordusu əleyhinə vuruşmaq istəmirdilər. Slovakiyanın bir sıra yerlərində, Sovet Macarıstanının ərazisinə soxulmuş Çexoslovakiya ordusunun arxasında partizanların döyüş əməliyyatı başlamışdı. Mayın 30-da Macar Qızıl Ordusu əkshücuma keçdi və ilk günlərdən Nove Zamki, Levitse, Rimavskaya, Sobota və Slovakiyanın digər şəhərlərinə daxil oldu. Azad edilmiş rayonlarda əhali inqilabi hakimiyyət orqanları yaradırdı. Slovakiya ərazisinin 2/3 hissəsində inqilabi hakimiyyət qurulduqdan sonra, iyunun 16-da Preşov şəhərində Slovakiya Sovet respublikası elan edildi. Çex Antonin Yanouşekin başçılığı altında Slovakiya inqilabi hökumət Soveti yaradılmışdı.

Sovet çex fəhlə sinfi ilə sıx və qırılmaz dövlət ittifaqı yaratmaq üçün özünün arzusunu bildirdi. Slovakiya Sovet hökuməti iri sənaye, ticarət müəssisələrinin, bankların, mülkədar malikanələrinin milliləşdirilməsi haqqında sərəncam elan etdi, Qızıl Ordu yaratdı, demokratik seçki islahatını həyata keçirdi, kənd yoxsullarını vergilərdən azad etdi və bir sıra digər mühüm inqilabi dəyişikliklər etdi. Slovakiya Sovet respublikası konstitusiyasının hazırlanmasına başlandı. Lakin Slovakiya Sovet respublikası çox yaşamadı və 1919-cu il iyulun əvvəlində yıxıldı. Eyni zamanda Zakarpat Ukraynasında, sonra isə bütün Çexolovakiya torpaqlarında yeni hökumət bərqərar oldu.

***Çexoslovakiya Respublikasının iqtisadiyyatı.*** Mərkəzi Avropada yenidən yaradılmış dövlətlərdən nisbətən inkişaf edəni Çexoslovakiya idi. Gənc dövlətin yüksək inkişaf etmiş sənayesi var idi. Çexoslovakiyanın ərazisində keçmiş Avstriya-Macarıstan imperiyası sənayesinin dörddə üç hissəsi, kimya, toxuculuq, şəkər və digər sənaye sahələri müəssislərinin çox hissəsi yerləşmişdi. ÇSR-in iqtisadiyyatı hərbi əməliyyatlar zamanı zərər çəkməmişdi və onun bərpasına böyük vəsait sərf etməyə ehtiyac yox idi.

Yeni respublika müharibədən sonrakı Avropada iri dövlətlərin satış bazarı uğrunda mübarizə apardıqları bir şəraitdə meydana çıxmışdı. Güclü sənayesi olan Çexoslovakiya qarşısında bu problem kəskin dururdu. Lakin daxili bazar çox məhdud idi və Çexoslovakiya sənaye məhsullarının hamısını sərf edə bilmirdi. Ölkənin iqtisadi vəziyyəti müharibə qurtardıqdan sonra əvvəlcə ABŞ-da, sonra isə Avropada meydana gələn istehsal böhranı ilə çətinləşmişdi. 1921-ci ildə 1913-cü il səviyyəsinin 63 faizinə çatmış Çexoslovakiya sənayesi, sonrakı illərdə isə daha çox azalmışdı. Rəsmi statistik məlumata görə, tam işsizlərin sayı böhran vaxtında, təqribən 4,5 dəfə artmışdı. 1924-cü ildə Çexoslovakiya müharibədən sonrakı böhranın qarşısını ala bildi, ölkədə iqtisadi yüksəliş başladı. Şərqi Avropanın digər kapitalist ölkələrindən daha güclü olan Çexoslovakiya sənayesi bu ölkələrin bazarlarında xeyli mövqelər ələ keçirə bildi. 1926-cı ilin sonu – 1927-ci ilin əvvəllərində sənaye məhsulu müharibədən əvvəlki səviyyəyə çatdı, 1929-cu ildə isə həmin səviyyəni 25 faizdən çox ötüb keçdi. Lakin bu inkişaf Çexoslovakiyanın bütün rayonlarını əhatə etmirdi. Çexiyada sənaye yüksək, başqa rayonlarda – Slovakiyada, Zakarpat Ukraynasında zəif inkişaf etmişdir ki, bu da nəticədə Çexoslovakiyanın xalq təsərrüfatına mənfi təsir göstərirdi.

Kapitalizmin müvəqqəti sabitləşməsi illərində orta və xırda müəssisələrin iri müəssisələr tərəfindən ələ keçirilməsi hesabına inhisarların və kapitalın təmərküzləşməsinin rolu xeyli artmışdı. 1930-cu ildə Çexiyanın iri müəssisələrində fəhlələrin təxminən 50 faizi cəmləşmişdi. 1919-cu ildən 1929-cu ilə qədər sənaye və ticarətdə səhmdar cəmiyyətlərin sayı 2 dəfədən çox, onların malik olduqları kapital isə 3 dəfə artmışdı. Çexiyanın yeddi ən böyük bankı ölkənin bütün bank kapitalının beşdə dörd hissəsini öz əlində cəmləşdirmişdir. Ölkə parlamenti inhisarların mənafeyinə uyğun olaraq bir sıra qanunlar qəbul etdi. Belə ki, "bankları sağlamlaşdırmaq" üçün xüsusi fond yaradılmasını nəzərdə tutan qanun qəbul edildi.

Başqa bir qanunda isə Avstriya-Macarıstan monarxiyasının silah zavodları sahiblərinə ödəyə bilmədiyi borcları ödəmək üçün dövlət xəzinəsindən onlara bir neçə yüz milyon kron ayrılmasını nəzərdə tuturdu. 1924-cü ildə icarə haqqında qanun qəbul edildi ki, bu da xırda icarədarların vəziyyətini pisləşdirdi.

Ölkənin iqtisadi inkişafına və daxili bazarın genişlənməsinə keçirilən aqrar islahat da müsbət təsir göstərdi. Aqrar islahatın keçirilməsi haqqında qanun 1919-cu ilin aprelində qəbul edildi. Qanuna əsasən 150 hektardan artıq əkin yerlərindən və 250 hektar meşə yerlərindən artıq olan bütün torpaq sahibkarlardan satın alınaraq torpaq pulu müqabilində aztorpaqlı kəndlilərə verildi. Qalan torpaqlar isə öz əvvəlki sahibkarlarının ixtiyarında saxlanıldı. İslahatın keçirilməsi nəticəsində kəndlilər 1,7 milyon hektar torpaq ala bildi ki, bu kənddə gərginliyin azaldılmasına səbəb oldu. Nəticədə müsadirə edilmiş 4 milyon hektar əkin sahələrinin 45 faizi kəndlilərə verildi, bir o qədəri də əvvəlki sahiblərinə qaytarıldı, 10 faizə qədəri isə aqrar partiyanın liderlərinə verildi. İslahat demək olar ki, kilsə torpaq sahiblərinə toxunmadı. Çexoslovakiyada əkin sahələrinin 30 faizə qədəri şlyaxta və kilsəyə məxsus idi.1929-cu ildə aqrar islahatın keçirilməsi əsasən qurtardı. İslahatın keçirildiyi 1919-1929-cu illərdə Çexoslovak kəndlisinin borcu 2,5 dəfə artmışdı. Aqrar islahat qolçomaq təsərrüfatlarının artmasına, maliyyə kapitalının kənd təsərrüfatına sirayət etməsinə, kənddə sinfi təbəqələşmənin güclənməsinə kömək etmiş oldu.

20-ci illərin ikinci yarısı iqtisadiyyatın inkişafı illəri kimi xaakterizə olunur. Aqrar islahatın nəticələri də bu prosesə müsbət təsir göstərdi. Bir sıra göstəricilərə və əhalinin həyat səviyyəsinə görə ÇSR on ən inkişaf etmiş ölkələr siyahısına daxil ola bildi. ÇSR-in iqtisadiyyatında aparıcı mövqeləri iri müəssisələr, məsələn, silah istehsal edən "Şkoda" zavodları, həmçinin Tomaş Batinin ayaqqabı istehsal edən konserni tuturdu. K.Kramarj hökuməti və sonrakı kabinetlər Çexoslovakiyada xarici, xüsusən fransız, ingilis, amerikan və belçika sənaye konsernlərinin, banklarının fəaliyyətini dəstəkləyirdi. Məsələn "Şneyder-Krezo" fransız konserni Çexiyadakı ən böyük Şkoda zavodlarına nəzarət edirdi.

1929-cu ildə başlamış dünya iqtisadi böhranı tezliklə Çexoslovakiyanı da bürüdü. 1930-cu ildə böhran əvvəlcə yüngül, sonra isə ağır sənayeni əhatə etdi. 1932-1933-cü illərdə böhran daha da dərinləşdi. Böhranın cərəyan etdiyi illərdə sənaye istehsalı 1929-cu illə müqayisədə 40 faiz aşağı düşdü. Maliyyə və aqrar böhran da dərinləşdi. İşsizlərin sayı rəsmi məlumata görə –həm də bu rəqəm xeyli azaldılmışdı – 1933-cü ilin əvvəllində 920 min nəfər təşkil edirdi ki, onların da yalnız 240 min nəfəri işsizliyə görə müavinət alırdı. Böhran xarici ticarət dövriyyəsinin xeyli azalmasına səbəb oldu. ÇSR-in milli gəlirinin 30-40 faizi xarici ticarət dövriyyəsi hesabına əldə edilirdi. Çexoslovakiya Balkanlarda və başqa bölgələrdə Almaniyanın xeyrinə satış bazarlarını itirməyə başlamışdı. İxracat 1933-cü ildə 1929-cu il səviyyəsinin yalnız 29 faizini təşkil edirdi. Böhran illərində, yəni 1929-1933-cü illərdə Çexoslovakiyada rəsmi məlumatlara əsasən işsizlik 27 faiz artmışdır. Yeddi milyon nəfər iş qabiliyyəti olan əhalinin təqribən 1,3 milyon nəfəri işsiz idi. 1930-cu ildən 1933-cü ilə kimi ölkədə kənd təsərrüfatının ümumi borcu 30-dan 50 milyard krona yüksəlmişdir. 1932-1933-cü illərdə ehtiyac və qıtlıq respublikanın əksər rayonlarını, xüsusilə Slovakiya və Zakarpat Ukraynasını bürümüşdür.

İqtisadiyyatda böhran o qədər dərin idi ki, onun nəticələrini ancaq birinci respublikanın sonunda aradan qaldırmaq mümkün oldu. Ölkənin iqtisadiyyatında canlanma yalnız 1936-cı ildə baş verdi, 1937-ci ildə daxili ümumi məhsul böhrandan əvvəlki dövrdəkinin 98,4 faizini təşkil etdi. Avtomobil nəqliyyatı və onunla bağlı şosse yollarının yenidən qurulması və yeni yolların çəkilməsində böyük irəliləyiş əldə edildi. Ölkənin elektrikləşdirilməsi, xüsusən çex və Moraviya kəndlərində və Slovakiyada sürətlə gedirdi. "Şkoda" konserni dünya silah ticarətində, o cümlədən SSRİ ilə ticarədə öncül yerlərdən birini tuturdu ki, burada da küllü həcmdə fransız kapitalı əsas rol oynayırdı.

***Çexoslovakiyanın siyasi inkişafı.*** 1920-ci il fevral Konstitusiyası ÇSR-i parlamentli demokratik respublika elan etdi və parlament dövlətdə ali qanunverici orqan oldu. Parlament müvafiq surətdə 300 və 150 nümayəndədən ibarət olan iki palatadan – deputatlar palatası və

senatdan ibarət idi. Prezident parlament tərəfindən seçilirdi və böyük səlahiyyətlərə malik idi. O, hökuməti təyin etmək və istefaya göndərmək, parlamenti buraxmaq hüququna malik idi. Prezident həm də ölkənin ali baş komandanı idi. Konstitusiya bütün vətəndaşların hüquq bərabərliyini və şəxsiyyətin toxunulmazlığını, söz, yığıncaq, dini azadlığını elan edir, tətil hüququnu, müxtəlif məqsədli ictimai və siyasi təşkilatların yaradılması hüququnu verirdi.

Milli azlıqlara geniş hüquqlar verirdi. Onların hamısı faktiki olaraq mədəni muxtariyyətdən istifadə edirdilər. Milli azlıqların sayı 20 faiz olardısa kargüzarlıq iki dildə aparılırdı. Ümumiyyətlə, ölkənin ictimai həyatının bütün sahələrində demokratikləşmə baş verdi. Ölkədə 8 saatlıq iş günü tətbiq edildi, əmək haqqı artırıldı, ən zəruri malların qiymətləri aşağı salındı. Daxili stabilliyin əldə edilməsində aqrar islahatın çox mühüm rolu oldu. Çexoslovakiya regionun inkişaf etmiş demokratik ölkəsinə çevrildi. Əvvəllər mövcud olan milli zülm ləğv edildi, lakin milli ziddiyyətlərin səbəbləri nəinki qalırdı, həm də onlar yeniləri ilə əvəz olunurdu. Almanların və macarların azlıq təşkil etmələri yeni ziddiyyətlər doğururdu. Ölkədə sosial, siyasi, milli və s. prinsiplər əsasında iyirmidən artıq siyasi partiya yaradıldı. Onların içərisində üç, yəni respublika, milli və kommunist istiqamətləri göstərmək olar. Birincilər, T.Q.Masarik ruhunda parlament demokratiyası mövqeyində duran çex, çex-slovak və alman partiyalarının birliyindən ibarət idi. Buraya sosial-demokratlar, milli sosialistlər, aqrar və katolikyönümlü partiyalar daxil idi. İki digər istiqamətin tərəfdarları mövcud rejimə qarşı barışmaz müxalifətdə dayanaraq parlament demokratiyası çərçivəsində öz mübarizələrini davam etdirirdilər. Millətçi təmayüllü partiyalar respublikanı əhalinin çoxmillətli xarakterinə müvafiq olaraq yenidən qurmağı tələb edirdilər. Onlardan biri olan keşiş A.Qlinkanın Slovak Xalq partiyası müstəqil dövlətin yaranmasını müdafiə etdiyi halda, digər alman və polyak millətçiləri onu müdafiə etmirdi.

Görkəmli xadim B.Şmeralın (1880-1941) rəhbərlik etdiyi inqilabi istiqamət 1921-ci ilə kimi sosial-demokratiya çərçivəsində fəaliyyət göstərirdi. Birinci Dünya müharibəsində əsir düşərək Rusiyadakı inqilabi hadisələrə şahidlik etmiş və sonra vətənə dönən bu istiqamətin təmsilçiləri öz radikalizmi ilə fərqlənirdilər. Ölkənin siyasi sistemi konstitusiya azadlıqları çərçivəsində fəaliyyət göstərirdi. Bu dövrdə, fəhlə və sosialist hərəkatında sağlara və çoxlu miqdarda sollara, marksistlərə bölünmüş cərəyanlar meydana gəldi. 1919-cu ilin dekabrında B.Şmeral, İ.Qibeş, A.Zapototski başda olmaqla Çexoslovakiya Sosial Demokrat Fəhlə partiyasının inqilabçı marksist sol qanadı təşkil olundu.1920-ci ilin sentyabrında partiyanın 13-cü qurultayı ÇSDFP (Sol)-nın yarandığını elan etdi. Partiyanın sağ liderləri bu qərarı qəbul etmədilər. Dekabrın 9-da polis Solların İcraiyyə komitəsinin yerləşdiyi binanı tutdu. "Rude pravo" qəzetinin mətbəəsini möhürlədi. Buna cavab olaraq Solların çağırışı ilə ölkəni, xüsusilə Slovakiya və Zakarpat Ukraynasını tətil hərəkatı bürüdü. Dekabr siyasi tətili Kommunist partiyasının yaranmasını sürətləndirdi. 1921-ci il mayın 14-16-da Çexoslovakiya Sosial-Demokrat (sollar) partiyasının qurultayı oldu, bu qurultay Çexoslovakiya Kommunist Partiyasını yaratdı. Qurultay "Çexoslovakiya Kommunist Partiyası" adını qəbul edərək, Kominternə daxil olması haqqında qərar qəbul etdi. 1921-ci il oktyabrın 30- noyabrın 4-də olan birləşdirici qurultay vahid Çexoslovakiya Kommunist Partiyasının yaradılmasını başa çatdırdı.

Müstəqillik əldə etdikdən sonra 1920-ci ilin aprelində ilk dəfə parlament seçkiləri keçirildi. Seçkilərdə A.Qlinkanın başçılıq etdiyi Slovakiya Xalq partiyası daha çox deputat mandatı aldı. Sosial-Demokratlar və Milli Sosialistlər də xeyli uğur qazandılar. Sosialist təmayüllü və aqrarçılardan ibarət "qırmızı yaşıllar" adını almış hökumət yaradıldı. Aqrarçılar məclisdə ikinci seçici səsə toplanmış partiya idi. Hökumətə ilk vaxtlar sosial-demokrat V.Tusar başçılıq etdi. 1920-ci il sentyabrın 15-də onun yerini bitərəf mütəxəssis Yan Çernı tutdu. Hökumətin tərkibinə beş partiyanın nümayəndələri daxil edildiyindən kabinetə "Pyaterka", yəni beşlik deyilirdi. Ölkədə siyasi mübarizənin kəskinləşməsi Y.Çernı hökumətinin 1921-ci ilin oktyabrında istefaya getməsi və A.Şveqlanın başçılığı altında "Milli birlik" adlanan hökumətin hakimiyyət başına gəlməsinə şərait yaratdı. 1925-ci ildə "Milli birlik" hökuməti dağıldı, həmin ilin payızında vaxtından əvvəl parlament seçkiləri keçirildi. Seçkilər sosialistlərin və həmçinin iri burjuaziyanın milli demokratlar partiyasının mövqelərinin zəifləməsini nümayiş

etdirdi. Seçkilərdə 13,5 faiz səs toplayan Aqrar partiya qələbə qazandı. Çexoslovakiya Kommunist partiyası seçkilərdə ikinci yeri tutdu. Slovakiyada isə A.Qlinkanın Xalq partiyası daha çox səs toplayaraq, xeyli mandat qazandı.

Seçkilərdən sonra, 1926-cı ildə A.Şveqlanın başçılığı altında yeni hökumət təşkil edildi. Hökumətin tərkibinə alman Aqrar partiyasının və Xristian-Sosial partiyasının nümayəndələri də daxil edildilər. 1927-ci ildə T.Masarikin yenidən ÇSR-in prezidenti seçilməsi əksər siyasi qüvvələrin ölkənin demokratik inkişafı və milli zidiyyətlərin aradan qaldırılması kursunu müdafiə etdiyini göstərirdi. 1927-ci ildə həmçinin idarəçilik sistemində də islahat keçirilirdi. Mərkəzləşmədən imtina edildi və əraziləri idarə etmək məqsədilə Çexiya, Moraviya, Sleziya, Slovakiya, Podkarpat Rusu-Qərbi Ukrayna ərazi vahidləri yaradıldı. Yerlərdə seçkili özünüidarə orqanları yaradıldı, vergi islahatı da keçirildi və hakim təbəqələrə bəzi güzəştlər edildi.

1929-cu ilin oktyabrında vaxtından əvvəl, 1931-ci ildə keçirilməsi nəzərdə tutulmuş parlament seçkiləri keçirildi. Sosial-Demokratlar 13,5 faiz, Milli Sosialistlər 10,4 faiz səs topladılar. Kommunistlər əvvəlki seçkilərlə müqayisədə 20 faiz az səs topladılar. Burjua partiyaları içərisində yalnız Aqrar partiyası böyük uğur qazanaraq 14,9 faiz səs topladı. 1929-cu il seçkilərindən sonra prezident T.Masarikin fəal iştirakı ilə1938-ci ilə qədər ölkənin siyasi-iqtisadi inkişafını müəyən edən tədbirlər həyata keçirildi. İslahatçılardan və burjua partiyalarından ibarət yeni koalisiya yaradıldı. Burada demək olar ki, bütün partiyalar təmsil olunmuşdur. Bu koalisiyaya yalnız milli-siyasi muxtariyyət uğrunda mübarizə aparan Slovakiya Xalq partiyasının nümayəndələri daxil edilməmişdilər. Yeni hökumətə F.Udrjal başçılıq edirdi.

İqtisadi böhran şəraitində fəhlə və kəndli hərəkatının radikallaşması gücləndi, nümayişçilər və tətil hərəkatı iştirakçıları ilə polis arasında toqquşma baş verdi. Slovakiyanın 25 min kənd təsərrüfatı fəhləsinin tətili və Mostov kömür hövzəsinin 15 min mədənçisinin tətili bu tətillər içərisində fərqlənirdi. 1929-cu il avqustun 1-də 60 min nəfərin iştirakı ilə kütləvi siyasi çıxışlar baş verdi. 1929-cu ildən 1933-cü ilə qədər ölkədə işsizlik artmışdı. Hökumət 1930-cu ildə işsizlərin pulsuz yeməklə təmin olunması proqramını həyata keçirməyə başladı. Həmkarlar ittifaqlarının üzvü olmayan işsizlər isə həftədə 10-20 kron yemək pulu alırdı.

Böhranın sosial nəticələrini həll edə bilmədiyinə görə F.Udrjal hökuməti 1932-ci ilin payızında istefaya getməyə məcbur oldu. Hakimiyyətə Y.Malipetra hökuməti gəldi və bu hökumət hakimiyyətdə 1935-ci ilin payızına qədər qaldı. Böhrandan çıxmaq üçün yeni hökumətə fövqəladə hüquqlar və vəkalətlər verilməsi haqqında qanun qəbul edildi. Sağ qüvvələrin Baş nazirə fövqəladə səlahiyyətlər verilməsi tələbləri isə rədd edildi. Bu ÇSR-in siyasi sisteminin avtoritar ssenari üzrə inkişafının qarşısını ala bildi. Yuxarıda qeyd etdiyimiz qanundan sonra daha bir neçə qanun – dövlət mühafizəsini gücləndirmək haqqında, ilkin senzura tətbiqi haqqında qanunlar da qəbul edilmişdi. Eyni zamanda Çex və Slovak cəmiyyətinin böyük əksəriyyəti daxili irticanın qol-qanad açmasının əleyhinə idilər.

İqtisadi böhran xüsusilə sərhəd rayonlarının vəziyyətinə daha ağır zərbə vurdu. Başqa bir tərəfdən onlar çex rayonlarından daha az dövlət yardımı alırdılar. Bu isə hitlerçi təbliğatın almanları çexlər və onların dövləti ilə qarşı-qarşıya gətirmələrinə şərait yaradırdı. Odur ki, hökumət ölkədə, Almaniyada Hitler hakimiyyəti ələ keçdikdən sonra öz fəaliyyətini xüsusilə gücləndirmiş faşist təşkilatlarının yaradılmasına birmənalı yanaşmır və açıq milli-sosialist rəmzlər daşıdığı üçün iki alman radikal partiyası 1933-cü ilin oktyabrında qadağan edilmişdi. Lakin onların liderləri bir neçə gündən sonra Sudet-alman vətənpərvər cəbhəsi yaratdılar ki, bu da 1935-ci ildə Sudet-alman partiyası adını aldı. Partiyaya bədən tərbiyəsi müəllimi K.Henleyn başçılıq edirdi və bu separatçı hərəkatın üzvləri henleynçilər adlanırdı. Bu partiyanın güclənməsi çex siyasi elitasını çox narahat edirdi. Bundan başqa, Slovakiyada slovak Xalq partiyası adını almış, katolik ruhani Qlinka tərəfindən başçılıq edilən burjua millətçi partiyası da fəaliyyət göstərirdi.

1935-ci ilin mayında parlamentə seçkilər keçirildi. Bu seçkilər olduqca gərgin daxili siyasi şəraitdə keçirildi. Parlament seçkiləri göstərdi ki, Çexoslovakiyanın siyasət cəbhəsində nəzərə çarpacaq qruplaşma baş verməmişdir. Parlamentdə 45 mandat almış Aqrar partiyası

birinci yerə (14,3%), 44 mandat almış henleynçilər, yəni henleyn Sudet-alman faşist partiyası ikinci yerə çıxdı. Seçkilərdə Kommunist partiyası 850 min səs toplayaraq 30 mandat aldı.

T.Masarik Çexoslovakiya respublikasının prezidenti vəzifəsindən xəstəliyi ilə əlaqədar istefa verdikdən sonra mürtəce ittifaq 1935-ci ildə keçirilən prezident seçkilərində öz namizədini keçirməyə çalışdı, lakin bacarmadı. Prezident vəzifəsinə 1933-1935-ci illərdə koolektiv təhlükəsizliyin bəzi tədbirlərini müdafiə etmiş Masarikin şagirdi Eduart Beneş parlamentdə 340 deputatın səsini alaraq seçildi. Bununla da ölkənin siyasi sistemi özünün demokratik xarakterini saxladı.

Beneş Eduard 1884-cü ildə Bogemiyanın Rakovnik şəhərində anadan olmuşdur. 1896-1904-cü illərdə Vinoqraddakı gimnaziyada, 1904-cü ildə Sarbonna Universitetində, Berlində təhsil alaraq 1908-ci ildə hüquq, 1909-cu ildə fəlsəfə doktoru dərəcəsi almışdır. 1916-cı ildə T.Masarik və R.Ştefaniklə birlikdə Parisdə Çexoslovakiya Milli Şurasını təşkil etmişdir. 1918-ci il oktyabrın 28-də Çexoslovakiyanın müstəqilliyi elan olunduqdan sonra ölkənin Xarici İşlər naziri təyin edilərək 1918-1935-ci illərdə 17 il fasiləsiz xarici siyasət idarəsinə rəhbərlik etmişdir. Paris Sülh konfransında Xarici İşlər naziri kimi ölkəsini təmsil edərək Millətlər Cəmiyyətinin təşkilatçılarından biri olmuşdur. 1926-cı ildən Çexoslovakiya Milli Sosialist partiyasının rəhbərlərindən biri olmuşdur. 1935-ci il dekabrın 18-də T.Masarikdən sonra Çexoslovakiyanın ikinci prezidenti seçilmişdir. Münhen sövdələşməsindən sonra 1938-ci il oktyabrın 5-də istefa verərək 1940-cı ildə Londonda Mühacir hökumətin prezidenti kimi fəaliyyət göstərmişdir. 1942-ci ildə o, antihitler koalisiyasının iştirakçıları tərəfindən Münhen sövdələşməsinin ləğv edilməsinə müvəffəq olmuşdur. 1945-ci il oktyabrın 28-də ölkənin müvəqqəti parlamenti onun prezidentliyini təsdiq etmiş, 1946-cı il iyulun 19-da o, yeni parlament tərəfindən təkrar ölkənin prezidenti seçilmişdir.1948-ci il mayında kommunistlərin hazırladığı ölkə konstitusiyasını imzalamaqdan imtina edərək iyunun 7-də istefa vermişdir. 1948-ci il sentyabrın 3-də vəfat etmişdir. 2005-ci ildə Praqanın Loretan meydanında onun xatirə büstü ucaldılmışdır.

***1918-1939-cu illərdə Çexoslovakiyanın xarici siyasəti.*** 1919-cu il sentyabrın 10-da Avstriya ilə imzalanmış Sen-Jermen müqaviəsinə əsasən Moraviya, Bohemiya və Slovakiya Çexiyaya verildi. 1920-ci il iyunun 4-də Macarıstanla Trianon müqaviləsi imzalandı və bu müqaviləyə görə Macarıstan dövləti Çexoslovakiyanın mövcud sərhədlərini tanıdı. Yenicə müstəqillik əldə edən və sərhədləri rəsmi müqavilələrlə təsdiq edilən gənc Çexoslovakiya dövlətinin xarici siyasət sahəsində qarşısında yeni üfüqlər açılmış oldu. Hər şeydən əvvəl yeni dövlətin liderləri, o cümlədən prezident Tomaş Qarrik Masarik Versal sülh müqaviləsi sistemini müdafiə edirdi.

Versal sisteminin müdafiəsinə yönəldilmiş Çexoslovakiyanın xarici siyasəti T.Masarik tərəfindən hələ 1918-ci ildə müəyyən edilmişdir. T.Masarikin proqramının prespektiv məqsədi regionun yeni dövlətlərini Amerikan prinsipləri nümunəsində geniş federasiya əsasında birləşdirmək idi. Onun ideyasını reallaşdırmaq mümkün olmadı, lakin bu ideya Çexoslovakiya diplomatiyası üçün istinad nöqtəsi hesab edilirdi.

Xarici siyasətdə ilk illərdə Çexoslovakiya Versal sisteminin dayağı olan Fransa ilə sıx əlaqə saxlayırdı. Avropanın bütün iri dövlətləri ilə sıx münasibətlər inkişaf etdirilirdi. 1921-ci ildə Avstriya ilə müqavilə imzalandı. Hələ 1920-ci ilin yayında ÇSR, SXS Krallığı və Rumıniya ilə sazişlər imzalanmışdı. Həmin sazişlər bu ölkələrin hərbi-siyasi ittifaqının yaradılmasının bünövrəsini qoydu ki, bu da sonralar kiçik Antanta adını aldı. 1924-cü ildə fransız-çexoslovak hərbi-siyasi müqaviləsi imzalandı.1922-ci il iyunun 5-də Praqada RSFSR, iyunun 6-da USSR ilə müvəqqəti müqavilələr imzalandı. Bu müqavilələr tərəflərin bir-birini de-fakto tanıması və onlar arasında ticarət-iqtisadi əlaqələrin yaranmasına səbəb oldu.

ÇSR bütün qonşuları ilə normal qarşılıqlı münasibətlər saxlamağa cəhd edirdi. Çexoslovakiyanın beynəlxalq vəziyyətinin qeyri-sabitliyinin başlanması Almaniyada hakimiyyət başına Hitlerin keçməsi ilə bağlıdır. Hakimiyyətə gələn Hitler ilk vəzifə kimi Almaniyanın əlqolunu bağlayan Versal sisteminin ləğv edilməsini qarşıya qoymuşdu. Bu məqsədlə nasistlər qonşu dövlətlərdə milli azlıqlar statusu almış alman əhalisindən fəal şəkildə istifadə edirdilər.

Beynəlxalq münasibətlərin kəskinləşməsi ilə paralel daxili ekstremizm də artırdı. 30-cu illərin böhranı Versal sisteminin pozulmasını sürətləndirdi ki, respublikanın vəziyyəti ondan çox asılı idi. Çexoslovakiya diplomatiyası respublikanın bütövlüyünün əsas qarantını Fransa ilə ittifaqda görürdü. Eyni zamanda Beneş də ölkənin təhlükəsizliyinin təxirə salınmadan təmin etmək ehtiyacını daha aydın dərk etməyə başlamışdı. Onun Kiçik Antantanı möhkəmləndirmək cəhdi də Yuqoslaviya ilə Rumıniyanın maraqlarının üst-üstə düşməməsi nəticəsində uğur gətirmədi. Belə şəraitdə Beneş kollektiv təhlükəsizlik konsepsiyasından yanaşmalı oldu ki, bu istiqamətdə də SSRİ Millətlər Cəmiyyətində fəal təbliğat aparırdı.

Sovet İttifaqının beynəlxalq nüfuzunun artması, Çexoslovakiyanın hakim dairələrini 1934-cü ildə Sovet İttiaqı ilə diplomatik münasibətlər yaratmağa sövq etdi. 1935-ci il mayın 2-də SSRİ və Fransa arasında qarşılıqlı yardım haqqında müqavilə bağlanandan sonra, 1935-ci il mayın 16-da Çexoslovakiya SSRİ ilə qarşılıqlı yardım haqqında müqavilə imzaladı. Çexoslovakiya tərəfinin təşəbbüsü ilə imzalanmış protokolda belə bir şərt əlavə edilmişdi ki, təcavüzkarın hücumuna məruz qalmış tərəfə, Çexoslovakiya ilə qarşılıqlı yardım müqaviləsi olan Fransa da kömək etməlidir. 1935-ci il SSRİ ilə müqaviləyə Praqa heç də real hərbi-siyasi ittifaq kimi deyil, ilk növbədə potensial təcavüzkara siyasi təzyiq aləti kimi baxırdı. Təsadüfi deyil ki, Beneş 1936-cı ildə antisovet ittifaq müqaviləsi bağlamaq haqqında Almaniya ilə gizli danışıqlar apardı, bu isə faşist təcavüzkarlığını kollektiv surətdə dəf etmək prinsipinə xəyanət etmək və SSRİ ilə bağlanmış müqavilə üzrə öz öhdəsinə götürülmüş öhdəlikləri pozmaq demək idi. Bu siyasət müttəfiq Fransanın və İngiltərənin təcavüzkarı Şərqə – Sovet İttifaqı əleyhinə yönəltmək üçün yürütdükləri şirnikləndirici xarici siyasət xəttinə tamamilə uyğun gəlirdi. Həm də Qərb dövlətləri, 1937-ci il noyabrın 19-da Halifaksın Hitler ilə olmuş görüşündə nümayiş edildiyi kimi, Çexoslovakiyanı qurban verməyə hazır idilər. Halifaks Hitleri inandırmışdı ki, əgər Almaniya "Bolşevizm əleyhinə qərbin qalası" rolunu oynasa, onda Böyük Britaniya və Fransa hökumətləri Dansiqin (Qdanskin), Avstriyasnın və Çexoslovakiyanın Almaniya tərəfindən zəbt edilməsinə müqavimət göstərməyəcəklər. 1937-ci ilin noyabrında Amerika konqresi üzvlərinin Hitler diplomatları ilə Boston şəhərində keçirilmiş müşavirəsində də ABŞ tərəfindən də lazımi vəd verilmişdi.

1938-ci ildə Almaniya tərəfindən Çexoslovakiya əleyhinə təcavüzkarlıq təhlükəsi xeyli artmışdı. 1938-ci ilin martında Almaniya Avstriyanı zəbt etdi və Çexoslovakiyanın strateji vəziyyəti xeyli pisləşdi. Həm də Çexoslovakiyanın özündə Henleyin Sudet – alman faşist partiyasının fəaliyyəti xeyli artmışdı. Henleyinin Berlinə səfərindən sonra henleyçilər 1938-ci ilin aprelində Karlovı Varıdakı qurultayda Çexoslovakiyanın sərhəd rayonlarını ondan ayırıb Almaniyaya ilhaq etməyi, Çexoslovakiyanın Sovet İttifaqı və Fransa ilə bağladığı qarşılıqlı yardım müqavilələrini ləğv etməyi tələb edirdilər. 1938-ci il mayın 1-də bütün ölkədə respublikanın faşist təcavüzkarlığından müdafiə və henleynçiləri cilovlamaq şüarları altınada minlərlə adamın iştirak etdiyi antifaşist mitinqlər və nümayişlər keçirildi. 1938-ci il mayın 21-də Qodjanın başçılıq etdiyi hökumət xalq kütlələrinin təzyiqi altında ölkədə qismən səfərbərlik elan etdi.

Çexoslovakiya əleyhinə başlanmış kampaniyanın lap əvvəlində Sovet hökuməti Fransa və Çexoslovakiya ilə bağlanmış müqavilənin tələb etdiyi şəkildə Çexoslovakiyanın təhlükəsizliyini qorumaq üçün bütün tədbirləri görməyi qərara aldı. Sovet İttifaqı özünün qərb sərhədlərində piyada qoşunlarını və hava donanmasını döyüşə hazır vəziyyətdə saxlayırdı. Çexoslovakiyanın bütövlüyünü və istiqlaliyyətini qorumağa səy göstərən Sovet hökuməti Moskvadakı Polşa səfirinə xəbərdarlıq etdi ki, əgər Polşa Çexoslovakiya torpaqlarını zəbt edərsə, hücum etməmək haqqında sovet-polşa müqaviləsi xəbərdarlıq edilmədən pozulacaqdır. Sovet İttifaqı Çexoslovakiyaya kömək göstərməyə hazır idi. Sovet hökuməti sentyabrın 25-də Fransa baş qərargahına xəbərdarlıq etdi ki, qərb sərhədinə yaxın olan rayonlara 30 atıcı və süvari diviziyası gətirmişdir, aviasiya və tank hissələri tamamilə hazır vəziyyətdədir. Moskvadakı Çexoslovakiya səfirinə bildirilmişdi ki, müvafiq Sovet hərbi-hava qüvvələri Çexoslovakiyaya dərhal uçmaq üçün hazırlanmışdır.

Sovet İttifaqının Çexoslovakiyaya yardım etməyə hazır olduğunu bildirməsinə baxma-

yaraq, Qodja hökuməti sentyabrın 21-də Sudet vilayətinin Almaniyaya verilməsinə və çexoslovak qoşunlarının bu rayonlardan çıxarılmasına razılıq verdi. Bu qərara cavab olaraq Praqada və ölkənin digər şəhərlərində 1938-ci il sentyabrın 22-də xalqın bu sazişdən əl çəkməyi tələb edən izdihamlı vətənpərvərlik çıxışları oldu.

1938-ci il sentyabrın 29-30-da İngiltərə, Almaniya, İtaliya və Fransa hökumətlərinin başçıları – N.Çemberlen, A.Hitler, B.Mussolini və E.Daladye Münhenə toplaşdılar. Həmin gün Münhen sazişi adlanan saziş imzalandı, Çexoslovakiya nümayəndələri yalnız hökmü dinləmək üçün dəvət edilmişdi. 1938-ci ilin oktyabr-noyabrında Çexoslovakiyanın işğalının birinci mərhələsi başladı. Oktyabrın əvvəllərində Sudet vilayətinə alman qoşunları, oktyabrın 2-də Teşin vilayətinə – Polşa, noyabrın 2-də cənubi Slovakiyaya və Zakarpat Ukraynanın cənub hissəsinə – Macar qoşunları daxil oldu. Çexoslovakiya ərazisinin üçdə birini, 5 milyon nəfər əhalisinin və sənaye potensialının 40 faizini itirdi, bütün siyasi partiyalar "özünü buraxdı", onların yerinə iki partiya – Vahid Milli partiya və Milli Əmək partiyası yaradıldı. 1938-ci il oktyabrın 5-də prezident E.Beneş istefa edərək Qərbə mühacirətə getdi. Ölkənin bütünlüklə Almaniyaya birləşdirilməsi təbliğ edilirdi. Yaranmış şəraitdən istifadə edərək Qlinkanın Xalq partiyası Jilin şəhərində 1938-ci il oktyabrın 6-da Slovakiyanın muxtariyyətini elan etdi. Yozef Tiso muxtar hökumətin Baş naziri təyin edildi. Podkarpat Rusu da başda A.Brodiem olmaqla müxtariyyət əldə etdi.

Özünü nüfuzdan salmış Qodja hökuməti istefaya çıxdı. Onun yerinə oktyabrın 4-də çexoslovak ordusunun inspektoru general Yan Sırovı hökuməti hakimiyyətə gəldi. Çexoslovakiyanın prezidenti E.Beneş istefa verib Qərbə mühacirət etdiyi üçün E.Qaxa ölkənin prezidenti seçildi. 1939-cu il martın 14-də Berlinə çağırılmış prezident Qaxa və Çexoslovakiyanın xarici işlər naziri F.Xvalkovski Hitlerlə danışıqdan sonra Çexoslovakiya respublikasının ləğv edilməsi haqqında aktı imzaladılar. Həmin gün slovak seymi Slovakiyanın müstəqilliyini elan etdi, macar ordusu isə muxtar Pogkarpat Rusu ərazisinə daxil oldu. Martın 15-də alman qoşunları Çexoslovakiyanı işğal edərək onun istiqlaliyyətini ləğv etdilər. Martın 16-da "Bohemiya və Moraviya protektoratlığı" yaradıldı, bu protektoratlıq Almaniyanın işğal etdiyi ərazini əhatə edirdi. Yaradılmasından 20 il sonra çex və slovak xalqları xarici qüvvələrin təzyiqi ilə parçalanmış oldular. İndi qarşıda çex-slovak dövlətinin yenidən yaradılması uğrunda çətin mübarizə dururdu.

***Çexiya və Slovakiya mədəniyyəti.*** Çex və Slovakların müstəqil dövlətlərinin yaradılması bu xalqların milli mədəniyyətlərinin yüksəlişinə səbəb oldu. Əvvəlki illərdən fərqli olaraq milli mədəniyyətin yaradıcı, birlik və həmrəylik xüsusiyyətləri ön plana keçdi. Çex və Slovak mədəniyyəti yeni şəraitdə ictimai inkişafın qarşıya qoyduğu tələblərə cavab verərək bir tərəfdən milli adət və ənənələri daha da zənginləşdirir, digər tərəfdən avropa mədəniyyəti ilə, xüsusilə fransız mədəniyyəti ilə sıx təmas qururdu. Əhalinin, xüsusi ilə çexlərin təhsil səviyyəsi durmadan artır, savadlı insanların sayı gündən-günə çoxalırdı. Müasir tələblərə cavab verən məktəb təhsili şəbəkəsinin inkişafı üçün şərait xeyli yaxşılaşmışdır. Mədəni-maarif müəssisələrinin geniş və hərtərəfli şəbəkəsi fəaliyyət göstərirdi. Cəmiyyətdə təhsil və mədəni irsə xüsusi münasibət var idi. Bədii ədəbiyyat, təsviri incəsənət ümum avropa mədəniyyəti ilə sıx qarşılıqlı əlaqədə inkişaf edirdi. Mədəni və elm biliklərin yayılmasında müasir texniki vasitələr – kino, radio, o cümlədən çoxsaylı dövrü mətbuat vasitələri əsas rol oynayırdı.

Ədəbiyyatda müasir humanizm və demokratiya idealları dünya şöhrətli yazıçılar Y.Qaşek və K.Çapekin yaradıcılığında ön plana keçmişdi. Bədii söz ustası B.Nemtsova "Nənə" romanında, "Vəhşi Bara", "Kasıb insanlar" əsərlərində xalqın vətən sevgisini, cəmiyyətin sosial ziddiyyətlərini ustalıqla təsvir etmişdir. Bədii tarixi əsərlər ustası A.İrasek dörd clddən ibarət "Bizdə" romanında milli oyanış, mənəvi azadlıq və milli mədəniyyətin dəyərlərindən ətraflı söz açır. Slovak ədəbiyyatında modernist cərəyanın tərəfdarları olan yazıçılar Y.Yesenski və Y.Tayovski daha çox öz hekayələrində insanın mənəvi aləmndən bəhs edən süjetlərə yer vermişdir. Onların məqsədi slovak ədəbiyyatını Avropa ədəbiyyatı səviyyəsinə çatdırmaq olmuşdur.

20-30-cu illərdə poeziyada inqilabi cərəyanın formalaşmasında S.K.Neyman, Y.Qora,

V.Nezval, İ.Volker, Y.Zeyfert, L.Novomeski, K.Bibl və b-nın mühüm rolu olmuşdur. Bədii yaradıcılıqda çex simvolizmini tanınmış şairlər O.Brjezina və K.Qlavaçek təmsil edirdilər. S.Neymanın yaradıcılığında isə dekadans önə çıxırdı. Nəsrdə inqilabi meyllər Çex ədəbiyyatında sosialist realizminin baniləri Y.Qaşek, İ.Olbraxt, M.Mayerova, V.Vançura, Y.Fuçik və P.Yilemnitskinin əsərləri ilə təmsil olunur. Slovak ədəbiyyatında realizmin inkişafı P.Qvezdoslav, M.Kukuçin, B.Timrava və b. yaradıcılığı ilə bağlı idi.

1935-ci ildə çex və slovak yazıçılar birliyi "Blok" yaradıldı. Bu illərdə K.S.Neyman, F.Qalas, Y.Qora, E.B.Lukaç və b-nın lirikası, P.Yilemnitski, M.Mayerova, M.Puymanova, T.Svatopluk, V.Vançura və b-nın romanları çex ədəbiyyatını zənginləşdirdi. K.Çapekin antifaşist əsərləri beynəlxalq əhəmiyyət kəsb etdi.

Çexoslovakiya memarlığı, təsviri və dekorativ tətbiqi sənəti qədimdən bir-birilə sıx mədəni əlaqə saxlayan Çexiya və Slovakiya bədii ənənələri əsasında inkişaf etmişdir. 1920-30-cu illərin memearlıqda milli funksionalizm məktəbi təşəkkül tapmışdı. Çexiyada Y.Qoçar, K.Qonzik, Y.Qavliçek, Slovakiyada E.Belluşun tikililəri buna misal ola bilər.

Praqada müqəddəs Vit kilsəsinin qərb hissəsinin tikilib başa çatması (1929) və Viktov dağında "Azadlıq" milli abidəsinin inşası (1929-cu il, memar Y.Zazvorka) əlamətdar hadisəyə çevrildi. Bu dövrdə çex rəssamlığında modernizmin təsiri geniş yayılmışdır və onun ən görkəmli nümayəndələrindən biri Y.Uprka idi. Qrafika və portiret ustası M.Şvabinskinin yaradıcılığı üçün realizmin simvolizm və alleqoriya ilə birləşməsi xarakterikdir. Slovak rəssamı Y.Qanula öz yaradıcılığında kənd məişətinin, slovak kəndlisinin portretlərinin təsvirinə xüsusi yer ayırırdı. Rəssamın "Doğma torpaqda" tablosu kəndin rəngarəng həyatını məhəbbətlə əks etdirir. Slovak kəndlisinin həyatını tabloya tökən başqa bir sənətkar M.Beneki isə impressionizmin tərəfdarı idi.

Bu dövrdə müxtəlif istiqamətlərə mənsub sənətkarlar əsərlərində kubizm, ekspressionizm və fovizm üsullarından istifadə yolu ilə xalq həyatına və müasir həyat həqiqətlərinə müraciət etmiş, xalq incəsənətindən qidalanmışlar. Faşizm işğalı illərində onlar vahid antifaşist cəbhədə birləşdilər.

Çexoslovakiya respublikası yarandıqdan sonra milli sənətin realist ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi uğrunda mübarizə genişlənmiş, eyni zamanda musiqiyə modernist cərəyanlar təsir göstərmişdir. A.Haba 20-30-cu illər çex musiqisində avanqardizmin görkəmli nümayəndələrindən olmuşdur. O, çərəktonlu və 1/6 tonlu musiqi sistemlərini yaratmışdır. Bu dövrdə yaşlı nəslə mənsub bəstəkarlıqdan L.Yanaçek, İ.Förster, V.Novak, Y.Suk, musiqişünas Z.Neyedlı milli realist musiqi ənənələrini inkişaf etdirmişlər. L.Yanaçek və V.Novak Çex musiqi sənətinə sirayət edən modernizmin görkəmli nümayəndələri idi. Slovak musiqisinin inkişafında kamera əsərlərinin müəllifi Y.Bellanın xidmətləri misilsizdir.

Musiqi sahəsində O.Ostrçil, V.Qelfert, O.Eremiaş, E.Aksmanın yaradıcılığı rəngarəngdir. Praqadakı milli teatrın opera truppasının dirijoru və bədii rəhbəri O.Ostrcil 1923-1931-ci illərdə B.Smetanı, Z.Fibix, A.Dvorjak, V.Novak, Yanaçekin operaların tamaşaya qoymuşdur. Slovakiya musiqişünasları V.Novak və onun şagirdləri E.Suxon, Y.Sikker, A.Moyzesin yaradıcılığı milli musiqi folkloru ilə sıx bağlıdır. E.Suxonun ikinci simfoniyası, kantataları, Y.Sikkerin orkestr üçün bəstələdiyi əsərlər diqqəti cəlb edir.

1918-ci ildə Çexoslovakiya Respublikası yarandıqdan sonra ilk balet truppaları meydana gəldi. Bəstəkar B.Martinu 1924-cu ildə "İştar", 1925-ci ildə "Kim dünyada hamıdan güclüdür" ("Kto na svete vsex silnee"), V.Novak 1930-cu ildə "Nikotina", 1933-cü ildə "Sinyorina Coventu" baletlərini səhnələşdirdi. Baletmeystr və rəqqaslar İ.Ençik, İ.Psota bütün ölkədə məşhur idi.

Müstəqil Çexoslovakiya Respublikası yarandıqdan sonra 1918-ci ildə ölkədə ilk daimi kinostudiya yaradıldı. Kinostudiyanın repertuarının Amerika kinosunun təsirinə məruz qalmış salon melodramları, macəra və detektiv filmlər, komediyalar, alman ekspressionizmi ruhunda mistik və fantastik dramlar təşkil edirdi. 1918-ci ildə rejissor Y.Palouşun "Çex səması" ("Çexskoe nebo"), 1927-ci ildə P.Prajskinin "Batalyon", 1928-ci ildə M.Kryanskinin "Dağ kəndi" ("Qornaya derevnya"), 1930-cu ildə K.Antonun "Sürgün" ("Viselitsa") səssiz kino-

filmləri ekranlaşdırıldı. Səssiz kino sahəsində K.Anton, M.Friç, İ.Rovenski, K.Lamaç kimi Rejissorlar nəsli yetişdi. Aktyorlar V.Burian, E.Fiala, İ.Struna, E.Ştepanek, A.Ondrakova kimi sənətkarlar meydana gəldi.

1930-cu ildə alman rejissoru F.Fexerin çəkdiyi ilk səsli film "Simlər ağlayarkən" ("Koqda plaçut strunı") nümayiş etdirildi.1932-ci ildə rejissorlar V.Vançura və S.İnnemanın "Yetkinlik attestatı qarşısında" ("Pered attestatom zrelosti"), 1933-cü ildə M.Friçin "Müfəttiş" ("Revizor") kinofilmləri işıq üzü gördü. V.Nezval, K.Çapek, İ.Olbraxt kimi yazıçıların kinomatoqrafiyadakı fəaliyyəti kino sənətində mütərəqqi istiqamətin möhkəmlənməsinə müsbət təsir göstərmişdir.

1933-cü ildə Praqa altındakı Barrandovedə Avropada ən güclü kinostudiyalardan olan "Barrandov-film" kinostudiyası təşkil olundu. Bu kinostudiya müharibə ərəfəsində hər il 40-dan çox kinofilm çəkirdi. 1936-cı ildə rejissor M.Friçin ilk çex-slovak filmi "Yanoşik" və İ.Rovenskinin "Çay" ("Reka") bədii filmləri yaranmışdır. Bu illərdə kino sənətinə V.Borski, M.Sikan, O.Vavra kimi yeni rejissorlar gəlmişdilər.

## Çexiya və Slovakiya 1939-1945-ci illərdə

***Müqavimət hərəkatı.*** Formal olaraq Bohemiya və Moraviya protektoratında çex hökuməti fəaliyyət göstərirdi, əslində isə hər şeyə imperiya protektoru nəzarət edirdi. Parlament buraxılmış, siyasi həyat vahid şəklə salınmışdı. Əvvəllər mövcud olan Milli Birlik və Milli Əmək partiyası əvəzinə Milli Həmrəylik partiyası yaradılmışdı. Kütləvi informasiya vasitələrində açıq şəkildə kollaborasionizm və müqavimətin mənasızlığı təbliğ olunurdu.

İşğalçılar ardıcıl olaraq protektoratın iqtisadiyyatını hərbi relslər üzərinə keçirirdilər. Bütün sənaye sahələri, o cümlədən iri hərbi zavodlar Almaniyanın xeyrinə işləyirdi. Müharibə illərində hətta sənaye sahəsində çalışanların sayı artmışdı. Hərbi silah istehsal edə bilməyən zavodlar bağlanırdı. Protektoratın maliyyə sistemini özünə tabe edən Alamniya asanlıqla ölkənin iqtisadiyyatının qarət edilməsi siyasəti yürüdürdü. Kənd təsərrüfatı üzərinə xammal və ərzaqla təmin etmək məcburi öhdəliyi qoyulmuşdu. Almaniyanın Çexoslovakiyada ələ keçirdiyi silah 40 diviziyanı silahlandırmağa çatardı.

"Ariləşdirmə" siyasətinə uyğun olaraq yəhudilərin əmlakı müsadirə olunur, özləri isə ölüm düşərgəsinə göndərilirdi. 1941-ci ilin öktyabrından çexləri də düşərgələrə, ilk növbədə məlum Terezin düşərgəsinə göndərməyə başladılar ki, bu düşrgələrindən də on minlərlə adam keçmişdi.

Hitlerçilərin bütün bu addımları elə ilk həftələrdə və aylarda çex xalqının müqaviməti ilə qarşılaşdı. Ziyalılar, gənclər, çex mədəniyyət xadimləri içərisində milli vətənpərvərlik ruhu, azadlığa inam çox güclü idi. Çexiyanın Almaniyanın tarixi ilə yanaşı inkişaf etməsini irəli sürən alman təbliğatına qarşı mübarizə aparılmağa başlandı. Yeni quruluşa qarşı kütləvi narazılıq artırdı. 1939-cu il oktyabrın 28-i milli müstəqillik gününə həsr edilmiş nümayiş siyasi xarakter aldı. Onun gedişində tələbə-həkim Yan Opletal yaralandı və tezliklə öldü. Onun dəfni isə yeni nümayişə gətirib çıxartdı, repressiyalar başlandı. Noyabrın 17-də almanlar ali məktəbləri bağladılar. Bu tarixi gün müharibədən sonra tələbələrin Beynəlxalq həmrəylik günü kimi qeyd olunurdu.

1939-cu ilin yayında Müqavimət hərəkatının ilk gizli qrupları formalaşdırıldı. Protektoratda "Siyasi mərkəz" adlanan gizli orqan yaradıldı. Kommunist partiyası istisna olmaqla Praqadakı bu mərkəzə Münhen sövdələşməsinə qədər mövcud olmuş müxtəlif pariyaların nümayəndələri daxil olmuşdu. Bu kütləvi təşkilat deyildi, lakin siyasi təsirə malik idi və Londonda Beneşin ətrafına birləşmiş çex mühacirəti ilə əlaqə saxlayırdı. Keçmiş hərbçilərin təşbbüsü ilə yaradılmış "Millətin müdafiəsi" adlı təşkilat geniş gizli şəbəkəyə malik idi və əsasən kəşfiyyat məlumatlarının toplanılması ilə məşğul idi. Digər təşkilatlardan biri də "Sadiq qalacağıq" təşkilatı idi, bu təşkilatda yaradıcı ziyalılar təmsil olunmuşdular və onlar sosial-demokrat istiqamətli idilər. Təşkilatın adı Münhen hadisələrindən sonra çexləri demokratik respublikanın müdafiəsinə çağıran bəyannaməsinin adından götürülmüşdü. Daha

kiçik qruplar da fəaliyyət göstərirdi. Onların bəzisi "Siyasi mərkəz" və ya "Millətin müdafiəsi" kimi Münhenə qədərki respublikanın bərpasını istəyənlər, qalanları "Sadiq qalacağıq" komitəsi kimi dərin sosial-siyasi dəyişikliklərin tərəfdarları idilər. Tezliklə gizli qruplaşmalar yaxınlaşmağa başladılar. 1940-cı ilin yazında ölkə daxlində Müqavimət hərəkatının koordinasiya, yəni əlaqələndirmə mərkəzi yaradıldı.

Kommunistlər təşkilati cəhətdən gizli şəkildə öz müstəqilliklərini saxlamışdılar. İlk vaxtlar onlar daha mütəşəkkil idilər, lakin 1939-cu ilin avqustunda SSRİ və Almaniya arasında müqavilədən sonra onun üzvlərinin fəallığı nəzərəçarpacaq dərəcədə azaldı. Onların yenidən fəallaşması Almaniyanın SSRİ-yə hücumundan sonra başlandı. London mühacir mərkəzi ilə yanaşı başda K.Qotvald olmaqla Moskvada kommunist mərkəzi də yarandı. Beneş öz fəaliyyətində daha çox müharibənin tez qurtaracağına ümid edirdi. Ona görə də, onu dəstəkləyən hərbi və siyasi qruplar silahlı mübarizəyə yox, daha çox müharibənin sonlarında hakimiyyəti ələ almaq üçün hazırlaşırdılar. Protektoratda hərbi mübarizə formaları bir az gec yarandı, yalnız kəşfiyyat fəaliyyəti yaxşı formalaşmışdı.

London mühacir hökuməti antihitler koalisiyasına daxil oldu. 1941-ci il iyulun 18-də Beneş Almaniya ilə mübarizədə qarşılıqlı yardım haqqında Sovet-Çexoslovakiya müqaviləsini imzaladı. Bununla da faktiki olaraq Sovet dövləti Londondakı Mühacir hökumətini suveren Çexoslovakiyanın hökuməti və Çexoslovakiyanı antihitler koalisiyasında müttəfiq kimi tanımış oldu. SSRİ hökuməti öz ərazisində Çexoslovakiya hərbi hissəslərinin yaradılmasına icazə verdi.

Gizli qrupların fəaliyyətinin artmasına cavab olaraq almanlar terroru gücləndirdilər. 1941-i ilin sentyabrında reyxs-protektor olan Neyratın yerini general R.Heydrix tutdu. O, fövqəladə vəziyyət tətbiq edərək çex müqavimətinə qarşı təzyiqi gücləndirdi. Londonla əlaqə saxladığı üçün Baş nazir A.Eliaş həbs edildi və 1942-ci ilin iyununda öldürüldü. London Müqavimət hərəkatı mərkəzi 1942-ci il mayın 27-də R.Heydrixə qarşı sui-qəsd təşkil etdi. Sui-qəsdi respublikanın ərazisinə desant atılmış Kubiş və Qabçik həyata keçirdilər, Heydrix öldürüldü. Bu aksiya beynəlxalq əks-səda doğurdu. Qəsd o zaman baş verdi ki, London Mühacir hökuməti Çexoslovakiyanın əvvəlki sərhədlərdə bərpa olunması haqqında danışıqlar aparırdı. Bu, dünya icitmaiyyyətinin yadına Çexoslovakiyanın faciəli taleyini saldı.

Qəsddən sonra başlanmış nasist terroru gizli faəliyyətə güclü zərbə vurdu. Gizli əlaqələr məhv edildi, gizli nəşrlərə qadağa qoyuldu. Ölkəni həbslər dalğası bürüdü, formalaşdırılmış mərkəzlər ləğv edildi, yalnız bəzi təşkilatlar fəaliyyələrini davam etdirirdilər. Ölkənin işğalından sonra yaradılmış ikinci qeyri-leqal ÇKP MK məhv edildi. Lakin tezliklə kommunistlər özlərinin üçüncü ÇKP MK-nı yaratdılar. Moskva Müqavimət mərkəzi ilə əlaqəni yalnız 1943-cü ilin payızında bərpa edə bildi.

1942-ci ildən başlayaraq SSRİ-də Çexoslovakiya hərbi hissələri Lüdvik Svobodanın rəhbərliyi altında Buzulukda yarandı. Artıq 1943-cü ilin əvvəlində onlar ilk dəfə Ukrayna yaxınlığında Sokolova döyüşündə iştirak etdilər. Tezliklə bu hissələr sayı 3 min nəfərə çatan briqadaya çevrildi. Daha sonra, 1943-cü ilin payızında L.Svobodanın başçılığı altında onlar Kiyev və Beloserkov uğrunda döyüşlərdə iştirak etdilər. Ukraynanın azad olunmasından sonra briqada ordu korpusuna çevrildi.

SSRİ-nin hərbi və siyasi sahədə nüfuzunun artması ilə əlaqədar olaraq E.Beneş güclü qüvvəyə çevrilən Moskva Müqavimət hərəkatı mərkəzini bərabərhüquqlu əməkdaş kimi tanımağa məcbur oldu. 1943-cü ildə, müharibənin gedişində əsaslı dönüş yaranması və SSRİ-nin antihitler koalisiyasında mövqeyinin möhkəmlənməsi ilə əlaqədar E.Beneşi Sovet-Çexoslovakiya müqaviləsi bağlamağa sövq etdi.1943-cü il dekabrın 12-də Moskvada Beneş və Stalin arasında dostluq, qarşılıqlı yardım və müharibədən sonrakı əməkdaşlıq haqqında müqavilə imzalandı.

Eyni zamanda müqavimətin iki mərkəzi arasında danışıqlar oldu. ÇKP Londonu passiv gözləmə taktikasından əl çəkərək silahlı mübarizə metodunu gücləndirməyə çağırdı. Milli problemlərə də xüsusi diqqət yetirildi, lakin Beneş slovakları müstəqil millət kimi qəbul etməyərək Çexoslovakiya millətinin ayrılmaz hissəsi kimi qəbul etmək konsepsiyasını mü-

dafiə edirdi.

Respublikanın müharibədən sonrakı quruluşunu müzakirə edərkən ÇKP müharibədən əvəlki hakimiyyət idarəçiliyi sisteminə əlavə olaraq yeni orqanların – milli komitələrin yaradılmasını təkid etdi. Danışıqlar nəticəsində ölkənin xalq demokratik əsaslarla yeniləşdirilməsi proqramı qəbul edildi. Həmçinin gələcəkdə Çexoslovakiyada yaşayan almanların köçürülməsini davam etdirməyə dair razılıq əldə edildi. ÇKP Beneşin Mühacirət hökumətinin tərkibinə daxil olmaqdan imtina edib, milli cəbhə hökuməti yaratmaq təklifini irəli sürdü. Beləliklə, vahid antifaşist blokunun yaranmasına cəhd edilməsinə baxmayaraq iki Müqavimət mərkəzi fəaliyyət göstərməkdə davam etdi. Moskvada müzakirə edilən bütün bu məsələlər milli-demokratik inqilabın gələcək proqramının əsası oldu, lakin onun uğrunda hələ mübarizə aparmaq tələb olunurdu.

Slovakiya hərbi hissələrinin də xidməti olan hərbi müvəffəqiyyətlər nəticəsində prezident E.Beneş antihitler koalisiyasının üzvlərindən özünün Mühacirət hökumətinin tanınmasına nail oldu və beləliklə Çex-Slovak dövlətçiliyini təsdiq edə bildi. Çexoslovakiyanın Münhendən əvvəlki sərhədlərin isə bərpa etmək cəhdi slovak məsələsi ilə bağlı maneə yaradırdı, çünki Slovakiya Almaniyanı dəstəkləyirdi və o təslim olardısa məğlub edilmiş ölkələr sırasına daxil edilə bilərdi.

***Slovakiya milli üsyanı.*** Müstəqil dövlət elan olunduqdan sonra Slovakiyada Y.Tiso başda olmaqla rejim formalaşdı. Ölkə rəhbərliyi cəmiyyətin tədricən faşistləşdirilməsinin tərəfdarı idi. Lakin ilk dövrdə hakimiyyətdə katolik meyilli mötədil siyasətçilər üstünlük təşkil edirdilər. 1939-cu il Konstitusiyasına əsasən ölkə Slovakiya respublikası adlanırdı. Dövlət özünün ordusunu, polisini, jandarm idarəsini və dövlət aparatını da yaratmışdı. Slovakiya 1941-ci ilə qədər Avropada yarnmış ilk dövlət idi, bu da Hitlerə öz təbliğat məqsədlərini həyata keçirmək üçün lazım idi. Slovakiya 1939-1941-ci illərdə beynəlxalq aləmdə özünü qismən tanıda bilmişdi, onu həmçinin SSRİ də tanımışdı.

Slovakiya dövlətçiliyinin yaranması biləvasitə faşist blokunun müvəqqəti uğurları ilə bir vaxtda düşmüşdü. Protektoratdakı rejimlə müqayisədə burada qaydalar korporativ olaraq qalırdı. Ölkənin faşistləşməsinin güclənməsi ilə əlaqədar liberal və sol müxalifət fəallaşırdı. 1939-1943-cü illərdə Slovakiya KP-nın dörd Mərkəzi Komitəsi ləğv edilmişdi. Başda K.Şmidke, Q.Qusak və L.Novomeski olan beşinci MK Çexoslovakiya Kommunist partiyasının Moskva rəhbərliyi ilə sıx əlaqə yarada bildi. İfrat radikal əhval-ruhiyyəni, yəni Sovet Slovakiyası uğrunda şüarı aradan götürdükdən sonra kommunistlər azad edilmiş Çexoslovakiya daxilində azad Slovakiya uğrunda mübarizəyə başladılar.

1943-cü ildən başlayaraq Slovakiyanın klerikal rejimi böhran keçirirdi. Bu dövrdə dağlarda partizan dəstələri, həmçinin Ukrayna partizan hərəkatı qərargahında hazırlıq keçmiş Slovakiya və Sovet komandirləri fəaliyyət göstərirdilər. Y.Tiso rejiminin böhranın artması ilə əlaqədar Slovakiya ordusunda antifaşist əhval-ruhiyyə güclənirdi. 1943-cü ilin ikinci yarısında Slovakiya Kommunist partiyası geniş antifaşist cəbhəsi yaratmağa başladı. İlin sonunda onun səyi nəticəsində Müqavimət hərəkatının vahid mərkəzi kimi Slovakiya Milli Şurası (SMŞ) yaradıldı. 1943-cü il dekabrın 25-də milad sazişi deyilən sazişin imzalanması ilə antifaşist qüvvələr bir araya gələ bildilər. SMŞ-a qeyri-kommunist istiqamətli qruplaşmalar da daxil oldu.

Slovakiya Milli Şurası ölkənin yeni prinsipləri əsasında qurulmasının, çex və slovakların hüquq bərabərliyinin tərəfdarı idi. E.Beneşlə əməkdaşlıq edən başda V.Şrobar olmaqla başqa qruplaşma da var idi. Slovakiya kommunistləri silahlı üsyana hazırlıqda orduya, başda general Qolian olan London mühacirəti mövqeyində duran zabitlərə arxalanırdılar. 1944-cü ilin yazında SMŞ-la milad sazişinin şərtləri ilə razılaşan hərbçilərlə saziş imzalandı. Lakin Slovakiyada praktiki olaraq Müqavimət hərəkatının aparıcı qüvvəsi Slovakiya Kommunist partiyası deyil, faşist Almaniyasına arxalanmağın mənfi nəticələrini aydın dərk edən hərbçi antifaşistlər idi.

1944-cü ilin yayı üçün üsyan tədricən "yetişməyə" başladı. Bu dövrdə xeyli fəallaşan partizanlar bir sıra şəhərləri tutdular. Onların öhdəsindən gələ bilməyəm Y.Tiso kömək üçün

almanlara müraciət etdi. Avqustun 29-da alman qoşunlarının Slovakiya sərhədlərini keçməsi üsyanın başlaması üçün işarə oldu. Bansk-Bistritsa şəhəri üsyanın mərkəzi oldu. Üsyançıların radiostansiyası işə düşdü, SMŞ öz fəaliyyətini fəallaşdırdı. 1944-cü il sentyabrın 1-də SMŞ Müqavimət hərəkatının bütün qrupları adından "Slovakiya xalqının bəyənnaməsi"ni nəşr etdi. Zvolen-Banska – Bistritsa-Brezno azad ərazi üçbucağında Y.Tiso rejiminin devrildiyi və Xalq demokratik respublikasının yarandığı elan olundu.

Üsyan Çexoslovakiyada xalq-demokratik inqilabının başlanğıcı oldu. Yeni Slovakiya hökuməti – geniş sosial-iqtisadi dəyişikliklərə başlayan Səlahiyyətlilər Korpusu yaradıldı. London Mühacirət mərkəzi Slovakiyadakı hadisələrin gedişinə təsir etməyə çalışırdı. Bir çox məsələlərdə – azad edilmiş ərazilərdə hakimiyyət orqanları haqqında, Slovakiyada Beneşin nümayəndələri haqqında, slovakların ayrıca millət kimi tanınması və s. məsələlərdə üsyançılarla Beneşin tərəfdarları arasında mübarizə gedirdi. Nəticədə mühacirətdə olan hökumət Slovakiya Mili Şurasını Slovakiyada ali orqan kimi tanıdı. Sovet tərəfi üsyançılara xeyli kömək göstərdi. Azad olunmuş ərazilərə ÇKP-nin görkəmli üzvləri Y.Şverma, A.N.Asmolov və başqaları, həmçinin paraşüt briqadası, çoxlu miqdarda silah və döyüş sürsatı göndərildi. Bəzi məlumatlara görə arxa cəbhədə kömək edənləri nəzərə almadan partizanların sayı 80 min nəfərə yaxın idi. Başda Şmidke və Asmolov olmaqla partizan hərəkatının Baş Qərargahı yaradıldı.

1944-cü il sentyabrın 8-də üsyançılara kömək məqsədilə Qızıl Ordu Karpat-Dukelsk əməliyyatına başladı. Komandanlığın əsas məqsədi üsyançılarla birləşmək idi. Almanların ciddi müqaviməti nəticəsində bu əməliyyat xeyli uzandı. Dukelsk keçidini nizami ordu üçün açmalı olan Şərqi Slovakiyada yerləşən iki antifaşist diviziyalarından istifadə etmək mümkün olmadı. Hər iki slovak diviziyası almanlar tərəfindən tərksilah edildi. SMŞ-in, Hərbi mərkəzin və partizan qüvvələrin fəaliyyətini tam əlaqələndirmək də mümkün olmadı. Üsyançılara qarşı 8 alman diviziyası göndərildi, oktyabrın ikinci yarısında Macarıstandakı alman qoşunlarının bir hissəsi də buraya atıldı.

1944-cü il oktyabrın 27-də üsyanın mərkəzi Banska-Bistritsa süquta uğradı. Üsyançı ordu faktiki olaraq buraxıldı, onun hissəsinə partizan mübarizəsi metodlarına keçmək təklif olundu, lakin bunu təşkil etmək mümkün olmadı. Əsgər və zabitlərin böyük bir hissəsi əsir düşdü, qalanları dağlara çəkildi. 1944-1945-ci ilin qışında orada 15 minə qədər partizan fəaliyyət göstərirdi. Üsyan yatırıldıqdan sonra faşist terroru başladı. Slovakiya üsyanı antifaşist azadlıq mübarizəsində əhəmiyyətli yer tutur. Üsyançılar 2 ay ərzində 1,7 milyon əhali yaşayan ərazini nəzarətdə saxladılar. Slovakiya Milli üsyanı müharibədən sonra Çexoslovakiyada Slovakiyanın statusu məsələsinin həllinə kömək göstərdi. Çex və slovaklar Qızıl Ordu ilə birlikdə Slovakiyanın şimal-şərqindəki qış döyüşlərində iştirak etdilər, bir müddət sonra 1945-ci il aprelin 4-də Bratislava, aprelin 26-da Brno, sonunda isə demək olar ki, bütün Slovakiya torpaqları azad edildi.

***Çexoslovakiyanın azad edilməsi.*** 1945-ci ilin martında Moskvada London mühacirəti, Moskva mərkəzi (ÇKP) və Slovakiya Milli Şurası (SMŞ) nümayəndələri arasında Çexoslovakiya hökumətinin tərkibi və fəaliyyət proqramı haqqında danışıqlar oldu. Danışıqların əsasını ÇKP tərəfindən hazırlanmış platforma təşkil edirdi. Müzakirədə gələcəkdə çex və slovakların Milli cəbhəsini təşkil edəcək 6 siyasi partiya iştirak edirdi. Beneş burda qəbul edilən hökumət proqramı ilə razılaşmalı oldu. Proqram 1945-ci il aprelin 5-də Slovakiya şəhəri Koşitsedə qəbul edildiyindən adını da buradan götürmüşdür. Hökumətin tərkibi paritet, yəni bərabərlik əsasında hər partiyadan 4 nəfər olmaqla təşkil edirdi. Müharibə illərində Çexoslovakiyanın SSRİ-də keçmiş səfiri olmuş sosial-demokrat Z.Firlinger Baş nazir oldu. Koşitse proqramı milli məsələdə slovakları çexlərlə bərabərhüquqlu tərəf kimi tanıyırdı. Çexoslovakiya iki bərabərhüquqlu xalqların dövləti elan olundu. Yaradılmış vahid Milli cəbhədə çex və slovakların müxtəlif qüvvələri, həmçinin burjua qruplarının nümayəndələri birləşmişdi.

Müharibənin sonlarında çex torpaqlarında Müqavimət hərəkatı genişlənirdi. Mayın 5-də Praqada üsyan başladı. Üsyanın hazırlanmasında müxtəlif burjua siyasi qruplaşmalarının nümayəndələri, kommunistlər, həmçinin hərbiçilər iştirak etmişdi. Üsyan kortəbii başladı.

Lakin tezliklə üsyana rəhbərliyi 1945-ci ilin aprelində yaradılmış Milli Komitə öz üzərinə götürdü, barrikadalar quruldu, üsyançılar radiostansiyanı ələ keçirib köməyə çağırdılar. Onlar bu zaman Qərbi Çexiyaya girmiş ingilis-amerikan qoşunlarının köməyinə ümid edirdi. Lakin müttəfiqlər SSRİ ilə nüfuz dairələri haqqında razılaşmaya əməl edərək üsyançılara kömək etmədilər. Qüvvələr qeyri-bərabər idi, belə ki, üsyançıların sayı cəmi 30 min nəfər olduğu halda Çexoslovakiyanın işğal altında olan ərazilərində feldmarşal Şerner və general Renduliçin komandanlığı altında "Mərkəz" və "Avstriya" ordu qruplarında 900 min nəfər adam, 10 min top və minaatan, 2200-dən çox tank və özüyeriyən qurğu, 1000-ə yaxın təyyarə var idi.

Bu ağır vəziyyəti nəzərə alan Sovet qoşunları üsyançıların köməyinə tələsdi. 1-ci Ukrayna cəbhəsinin qoşunları şimaldan Drezden-Praqa, 2-ci Ukrayna cəbhəsinin ordusu cənubdan Brno, 4-cü Ukrayna cəbhəsinin əsgər və zabitləri şərqdən Praqa istiqamətində hücuma başladılar. Sovet ordusu ilə çiyin-çiyinə Praqanın azad edilməsində Çexoslovakiyanın ordu korpusu qəhrəmanlıqla vuruşurdu.

Bu şəraitdə vlasovçular çex vətənpərvərlərinin tərəfinə keçdilər. Onlar mayın 6-da Praqaya girərək bir sıra rayonlarda almanlara qarşı hərbi əməliyyatlar aparsalar da üsyanın taleyini həll etmədilər. Kommunistlərin etirazına baxmayaraq bəzi çex hərbiçiləri vlasovçuların tərəfinə keçdilər. Sovet köməyi gecikdiyindən üsyançılar mayın 8-də almanlarla barışıq bağladılar. Barışığa əsasən almanlar bütün ağır silahları təhvil verib amerikan zonasına çəkilməli idilər. Geri çəkilən almanlar barışığı pozaraq Praqanın ətraflarını yandıraraq, dinc əhaliyə divan tutdular. Bir gecədə yüzlərlə kilometrlik yol qət edən 3-cü və 4-cü qvardiyaçı tank orduları 1945-ci il mayın 9-da Praqaya daxil olub almanların son müqavimət ocağını ləğv edərək qədim Praqa şəhərinin memarlıq abidələrini dağılmaqdan xilas etdilər. Sovet qoşunları Çexoslovakiya torpaqlarını faşist işğalçılarından azad edərkən 140 min nəfərdən çox qurban verdi.

## Çexoslovakiya 1940-cı illərin ortaları – 90-cı illərin əvvəllərində

***Çexoslovakiya müharibədən sonrakı 1945-1948-ci illərdə.*** 1945-ci ilin aprelində azad edilmiş ərazidəki Koşitse şəhərində çexlərin və slovakların Milli Cəbhə hökuməti təşkil edildi. Hökumətin təqdim etdiyi Koşitse proqramı müharibədən sonrakı Çexoslovakiyada liderlik uğrunda mübarizə aparan siyasi qüvvələrin kompromis proqramı oldu. Bu milli-azadlıq mübarizəsində iştirak etmiş cəmiyyətin bütün təbəqələri üçün aydın olan sosial dəyişikliklər proqramı idi. Beneş və tərəfdarları belə güman edirdilər ki, hakim elitanın tərkibinə kommunistlərin nümayənlərini də daxil etməklə Çexoslovakiyanı əvvəlki əsaslarla bərpa etmək mümkündür.

Sənədin iqtisadiyyata aid hissəsində müəssisələrin milliləşdirilməsi, vətən xainlərinin, almanların, macarların torpaqlarının müsadirə edilməsi nəzərdə tutulmuşdu. İşğalçılarla əlaqədar olmayan milli burjuaziyanın mövqelərinə demək olar ki, toxunulmurdu. Proqramda alman və macar əhalsinə qarşı siyasət məsələsi də müəyən edilmişdi. Antifaşistlər istisna olmaqla yerdə qalan əhali deportasiya edilib, vətəndaşlıqdan məhrum edilirdi. Koşitse proqramında xalq-demokratik dövlətin əsas prinsipləri formalaşdırılmışdı. Çexlərin və slovakların milli cəbhəsi siyasi partiyalar və kütləvi milli təşkilatlarla təmsil olunmuş bütün sosial siniflərin və qrupların qarşılıqlı fəaliyyət forması idi. İki mühacir mərkəzi arasında 1945-ci ilin mart danışıqları nəticəsində Çex torpaqlarında dörd siyasi partiya, ÇKP, Sosial-Demokrat, Milli Sosialistlər və Xalq partiyası yaradıldı. Slovakiyada əvvəl iki partiya, Slovakiya Kommunist partiyası və Demokratik partiya fəaliyyət göstərirdi. 1946-cı ildə burada daha iki partiya, Əmək partiyası və Azadlıq partiyası yaradıldı. Bununla yanaşı, ölkənin gələcək inkişafı yolları haqqında məsələ Koşitse proqramında açıq qalmışdı. Bu proqramın hazırlanmasında iştirak etmiş siyasi qüvvələr yalnız milli, sosial-iqtisadi yenidənqurmada, vətən xainləri ilə mübarizədə, alman və macar əhalisinin ölkədən çıxarılmasında yekdil idilər.

Çexoslovakiyanın müharibədən sonrakı ilk üç ili gələcək inkişafın istiqamətlərinin müəyyən edilməsi uğrunda siyasi qüvvələr arasında mübarizənin getdiyi illərdir. Kimin

üstünlük qazanacağı xalqın böyük bir hissəsini öz tərəfinə çəkə biləcəyindən asılı idi. Burada kommunistlər əlavə üstünlüyə malik idilər, çünki onlar SSRİ tərəfindən fəal müdafiə edilirdi. Həm də Podkarpat Rusu istisna olmaqla SSRİ Çexoslovakiyanın müharibədən əvvəlki sərhədləri hüdudlarında bərpa edilməsində böyük rol oynamışdır.

Daha kəskin daxili çəkişmələr sənayenin milliləşdirilməsi məsələsi ətrafında gedirdi. Liberal-demokrat yönümlü partiyalar çalışırdılar ki, milliləşdirmə Koşitse proqramı çərçivəsindən kənara çıxmasın və onun vaxtı şəraitdən asılı olaraq uzadılsın. Kommunistlər isə onun dərhal həyata keçirilməsini tələb edirdilər. İşğalçıların və kollaborasionistlərin, yəni vətən xainlərinin əmlakının müsadirəsi haqqında 1945-ci ilin mayında dekret çıxdıqdan sonra həmin ilin oktyabrında fəhlə hərəkatının təzyiqi altında bankların, sığorta kompaniyalarının, bundan başqa sənaye istehsalının 25-dən çox sahələrinin milliləşdirməsi haqqında dekretlər verilirdi. Buraya 500 nəfərdən çox işçi çalışan müəssisələr aid edilmişdi. Bu dekretlər Koşitse proqramı çərçivəsindən kənara çıxırdı. İqtisadiyyatda həlledici mövqe bütün sənaye istehsalının 61 faizini, işləyənlərin isə 80 faizini əhatə edən dövlət bölməsinin əlinə keçdi. Orta burjuaziyanın mülkiyyətinə hələlik toxunulmadı.

1946-ci ilin mayında müharibədən sonra parlamentə ilk seçkilər keçirildi. Seçkilərdə bütün leqal çex və slovak siyasi partiyaları iştirak edirdilər. Onlardan ən güclüsü Çexiya, Moraviya və Sileziyada geniş dəstəyə malik olan və seçicilərin 38 faizinin səslərini toplamış ÇKP idi. Slovakiyada səslərin 62 faizini toplamış Demokratik partiya uğur qazandı. Slovakiyada kommunistlər 30,4 faiz səs topladılar. Milli Məclisdə kommunistlər 114, Milli-sosialistlər 55, Xalq partiyası 47, Slovak demokratları 44, Sosial demokratlar 36 mandata sahib oldular. Slovakiya Azadlıq partiyası və Əmək partiyası hərəyə iki yer aldı.

Hökumətə ÇKP-nin lideri Klement Qotvald (1896-1953) rəhərlik edirdi. Ən mühüm vəzifələr – daxili işlər naziri, maliyyə naziri, kənd təsərrüfatı naziri və b. Kommunist partiyasının əlinə keçdi. May seçkilərindən sonra ÇKP inqilabın daha da dərinləşdirilməsi kursunu götürdü. Kommunist partiyası tərəfindən həllini tələb edən ilk mühüm vəzifə irəli sürüldü, yeni konstitusiyanın və xalq təsərrüfatının bərpasına dair ikiillik planın qəbulu. Bunların həyata keçirilməsi ilə kommunistlər ölkənin uğurla sosializmə doğru irəliləyəcəyinə ümid edirdilər. İkiillik plan məsələsi tezliklə siyasi mübarizənin mərkəzinə çevrildi. Kommunistlərin iqtisadiyyatda dövlət bölməsinin genişləndirilməsi cəhdinə qarşı digər partiyalar xüsusi bölmənin genişləndirilməsi təklifi ilə çıxış edirdilər. 1947-ci ildə baş vermiş quraqlıq nəticəsində daxili siyasi vəziyyət xeyli gərginləşdi. Gündəlik tələbat mallarının qiymətləri qalxdı, qara bazar sürətlə canlandı. Quraqlığın nəticələrini aradan qaldırmaq məqsədilə kommunistlər millionçular üzərinə əlavə vergi qoymağı təklif etdilər ki, bu zaman onların sayı bəzi məlumatlara görə 35 min nəfərə yaxın idi. Bu təşəbbüs başqa partiyaların etiarzına səbəb olsa da, əhalinin əksəriyyəti tərəfindən müdafiə olundu.

***1948-ci ilin fevral hadisələri.*** 1948-ci ilin əvvəlləri üçün ÇKP ölkədaxili siyasi vəziyyəti təhlil etdikdən və Kommunist İnternasionalı bürosunun göstərişindən sonra sosial-iqtisadi dəyişiklikləri daha da dərinləşdirmək tədbirləri, o cümlədən daxili topdansatış və xarici ticarətin, həmçinin 50 nəfərdən çox fəhləsi olan bütün müəssisələrin milliləşdirilməsi tədbirlərini işləyib hazırladı. Bunlarla yanaşı, aqrar islahatın dərinləşdirilməsi, torpaqların həmçinin maksimum 50 hektar müəyyən edilməsi və müsadirə olunmuş torpaqların aztorpaqlı kəndlilər arasında bölüşdürülməsi nəzərdə tutulurdu. Bu təkliflər liberal-demokratik yönlü partiyalar üçün əsla qəbuledilməz idi. Ölkədə siyasi böhran yetişməkdə idi. 1948-ci ilin fevralında ÇKP-nin təşəbbüsü ilə təhlükəsizlik orqanlarından 8 nəfər qeyri-kommunist nümayəndələrinin çıxarılması və onların kommunistlərlə əvəz edilməsi partiyalararası münasibətləri kəskinləşdirdi. Hökumətin iclasında daxili işlər nazirinə bu qərarın dəyişdirilməsinə nail olmaq tapşırıldı. Lakin o, bunu etməyə tələsmirdi. Onda Milli sosialistlərin nümayəndələri hökumətin digər üzvlərinə etiraz əlaməti olaraq istefa verməlerini təklif etdilər. Liberal-demokrat yönümlü partiyalar bu ideyanı müdafiə etdilər və fevralın 20-də 26 nazirdən 12-si hökumətin tərkibindən çıxdıqlqarını bildirdilər. Sosial-demokratlar bu aksiyanı müdafiə etmədilər. Kabinetin üzvlərinin çoxunun öz vəzifələrini yerinə yetirdiyindən ÇKP prezident E.Beneşə istefa verən-

lərin ərizəsini qəbul etməyi və onların yerinə başqalarını təyin etməyi təklif etdi. Müxalifət elə düşünürdü ki, 12 nazirin istefa verməsi K.Qotvald başda olmaqla, bütün hökumətin süqutuna səbəb olacaq və kommunistlərsiz yeni kabinetin formalaşdırılmasına şərait yaranacaq. Lakin onların ümidləri özünü doğrultmadı. ÇKP bir neçə gün ərzində burjua nazirlərin istefasını tələb edən kütləvi çıxışlar təşkil edə bildi. Prezidentə təzyiq göstərilməsində fevralın 22-də Praqada açılmış zavod sovetlərinin qurultayının mühüm rolu oldu. Qurultayın 800 nümayəndəsinin qərarı ilə ÇKP-nin tələblərinin müdafiə edilməsinə dair bir saatlıq ümumi tətil keçirildi. Qurultayda həmçinin sənayenin milliləşdirilməsinin davam etdirilməsini tələb edən qətnamə qəbul etdilər.

1948-ci il fevralın 24-25-də ümumi siyasi tətildən sonra E.Beneş 12 nazirin istefasını qəbul etdi. Beləliklə, başlıca məsələ – hakimiyyət və ölkənin gələcək inkişafı istiqamətləri məsələsi ÇKP-nin xeyrinə həll edilmiş oldu.1948-ci il fevralın 25-də Slovakiyada Demokratik partiyasından olan nazirlər istefa verdilər. Lakin onların funksiyalarını hökumətin başqa üzvləri yerinə yetirməyə başladılar. 1948-ci ilin martında Q.Qusak başda olmaqla yeni Səlahiyyətli Korpus formalaşdırıldı.

1948-ci ildə Çexoslovakiyada liberal-demokratik cəbhənin məğlubiyyət səbəblərindən biri kimi tez-tez Beneşin və partiyaların liderlərinin ciddi səhvlərə yol vermələri və ÇKP-yə qarşı parlament demokratiyasının fəal müdafiə xəttini yarada bilməmələri göstərilir. Lakin bununla bərabər siyasi qüvvələrin cəmiyyətə təsirində o illərin ümumi durumunu da nəzərə almamaq mümkün deyildir. Xüsusilə kommunistlərin Milli cəbhədəki müttəfiqlərinin üzərinə hücumları gündən-günə şiddətlənirdi.

Çexoslovakiyada 1948-ci il fevral hadisələri heç də sadəcə olaraq etiraz aksiyası deyil üç burjua partiyasının konstitusiya yolu ilə dövləti dəyişdirmək cəhdinin qarşısını ÇKP-nin fəhlə sinflərinin köməyi ilə alması idi. Deputatların sayı 70 nəfər azalmış Milli Məclis (onların çoxu yaranmış vəziyyətlə barışmayaraq ölkəni tərk etmişdi) tezliklə yeni hökuməti və onun proqramını müdafiə etdiyini bildirdi. Sabiq Xarici İşlər naziri, ÇSR-in birinci prezidentinin oğlu Yan Masarik etirazın son formasına – intihara əl atdı. Prezident E.Beneş nümayişkaranə şəkildə özünün Praqa yaxınlığındakı malikanəsinə yollandı. XX əsr ərzində Çexoslovakiyada parlament demokratiyası 2-ci dəfə öz fəaliyyətini dayandırdı, ölkə sosializm quruculuğu yoluna qədəm qoydu. Əsas məsələ siyasi hakimiyyətin Çexoslovakiya Kommunist partiyasının rəhbərliyi altında fəhlə sinfinin əlində cəmləşməsi oldu.

***Çexoslovakiya 1948-1968-ci illərdə sosializm quruculuğu dövründə.*** Fevral hadisələri nəticəsində ÇKP-nin inhisarçı hakimiyyətin yaranması cəmiyyətin gələcək köklü dəyişikliklər yolunun müəyyən edilməsinə gətirib çıxartdı. 1948-ci ilin yazında milliləşdirmənin ikinci mərhələsi başlandı. Milliləşdirmənin gedişində orta burjuaziyanın iqtisadi dayağı ləğv edildi. İlin sonuna yaxın ölkədə 20 nəfərdən çox fəhlə çalışan özəl müəssisə qalmamışdı. Kommunistlərin təşəbbüsü ilə aqrar islahata dair qəbul edilmiş yeni qanun həyata keçirilməyə başlandı. Nəticədə 50 hektardan çox torpaq sahəsi olan bütün təsərrüfatlar ləğv edildi. 1949-cu ildə kənd təsərrüfatının başdan-başa kooperativləşdirilməsinə hazırlıq başlandı. Üç mərhələdə həyata keçiriləcək vahid kənd təsərrüfatı kooperativləri haqqında qanun qəbul edildi. Qanuna görə birinci mərhələ 1949-1952-ci illəri, ikinci mərhələ 1953-1954-cü illəri və kooperativləşməyə qarşı kəndlilərin müqavimətini qırmış olan 1955-ci il üçüncü mərhələni təşkil edirdi.

1949-1953-cü illəri əhatə edən xalq təsərrüfatının inkişafına dair birinci beşillik planın həyata keçirilməsi prosesi başladı. İqtisadiyyatın modernləşdirilməsi, ağır sənayenin üstün inkişafı, həmçinin Slovakiya iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi vəzifələri qarşıya qoyulmuşdu.

1949-cu ildə Çexoslovakiya QİYŞ-nin üzvü oldu və Sovet tipli ölkələrin iqtisadi blokunun əsas dayaqlarından birinə çevrildi. Xarici ticarət dövriyyəsində sosialist ölkələrinin payı 1948-ci ildəki 40 faizdən 1953-cü ildə 80 faizə yüksəldi. Birinci beşilliyin plan tapşırıqlarının yerinə yetirilməsi nəticəsində ölkə iqtisadiyyatının sosialist bölməsi kooperativ mülkiyyətilə birlikdə milli məhsulun 92 faizini verirdi. Sənaye məhsulunun ümumi istehsal həcmi beşil-

likdə 93 faiz, 1937-ci illə müqayisədə isə iki dəfədən çox artdı. Əsas aparıcı sahəyə çevrilən maşınqayırma məhsulları beş il ərzində 3,3 dəfə artdı. Slovakiya sənayesinin artım sürəti daha yüksək idi. Artım əsasən ekstensiv inkişaf hesabına əldə edilirdi ki, bu da sonrakı illər üçün də xarakterik idi. İdarəçilikdə inzibati metodlar üstünlük təşkil edirdi. Çexoslovakiya, ilk növbədə müdafiə və maşınqayırma sahələrini inkişaf etdirməklə, SSRİ ilə yanaşı başqa Sovet bloku ölkələrində də sənayeləşdirməni keçirmək üçün təcrübə məktəbi rolunu oynayırdı. İnkişaf etmiş kapitalist dövlətləri tərəfindən SSRİ-nin müttəfiqlərinə qarşı ticarətdə məhdudiyyətlər və qadağalar qoyulduqdan sonra Qərblə iqtisadi əlaqələr minimum səviyyəyə endirilmişdi. Həm də iqtisadiyyatda başlıca nöqsan ondan ibarət idi ki, əhalinin ən zəruri mallara tələbatı tam ödənilmirdi. Yalnız1953-cü ildə ağır sənayenin inkişaf tempi aşağı salınmaqla əsas diqqət əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edən istehlak mallarının istehsalına yönəldildi. Buna təkan verən hadisə 1953-cü ildə soyğunçu pul islahatına qarşı çıxan ölkənin 128 müəssisəsində baş verən tətillər oldu. Plzendə fəhlələrin çıxışları ordu və milisin köməyi ilə yatırıldı.

1956-cı ildə 1956-1960-cı illərdə xalq təsərrüfatının inkişafına dair ikinci beşillik plan qəbul edildi. Planda sosializmin maddi istehsal bazasının qurulmasını tamamlamaq, xalq təsərrüfatının bərabər səviyyəli inkişafını təmin etmək, yanacaq enerjisi və xammal sahəsindəki geriliyi aradan qaldırmaq, istehsalın inkişaf səviyyəsini sürətləndirmək, marksizm-leninizm prinsipləri əsasında xalqın mənəvi-siyasi birliyini möhkəmləndirmək nzərdə tutulurdu. Bu vəzifələrin əsasən yerinə yetirilməsi nəticəsində sənaye istehsalının həcmi ikinci beşillikdə 1955-ci illə müqayisədə 66 faiz artmışdır ki, bu da 1937-ci illə müqayisədə 4 dəfə çox idi. Milli gəlir 1948-ci illə müayisədə 2,5 dəfə artdı. Kənd təsərrüfatının 87,4 faizi sosialist bölməsinin payına düşürdü. Adambaşına ərzaq və sənaye məhsulları istehsalına görə Çexoslovakiya dünyada qabaqcıl yerlərdən birini tuturdu.

50-ci illərin ikinci yarısı kənddə kollektivləşdirmənin dərinləşməsi ilə xarakterizə olunur. 1960-cı ildə kənddə yalnız bir neçə on min fərdi təsərrüfat qalmışdı ki, onlar da çalışan kənd əhalisinin 2,6 faizini təşkil edirdi. Kollektivləşdirilmə kənd təsərrüfatına mənfi təsir göstərdi. Ümumiməhsul istehsalı 50-ci illərin sonlarında müharibədən əvvəlki səviyyəyə çatmamışdı.

1961-1965-ci illəri əhatə edən üçüncü beşillik planda inkişaf etmiş sosializm cəmiyyəti quruculuğu nəzərdə tutulmuşdu. İlk növbədə, real iqtisadi-sosial göstəricilər işlənib hazırlanmışdı. Lakin 1960-cı ildə çağırılmış partiya konfransında bu beşillik plana yenidən baxılmış və kontrol rəqəmlər yüksəldilmişdir. Əslində ölkənin güc və imkanlarına lazımı qiymət verilməmiş, real vəziyyət nəzərə alınmadan qərar qəbul edilmişdir. ÇKP-nin XII qurultayında beşillik plandan illik plana keçilməsi qərara alınmışdı. Müharibədən sonrakı illərdə ilk dəfə milli gəlirin səviyyəsinin azalması baş verdi. Belə ki, 1963-cü ildə milli gəlirin həcmi 2 faiz azaldı, əmək məhsuldarlığı 21 faiz aşağı düşdü. Hakimiyyət bunun səbəbini xarici siyasi vəziyyətin çətinlikləri və Çin Xalq Respublikasının Çexoslovakiya ilə imzalanmış uzunmüddətli sazişin pozulması ilə izah etməyə çalışırdı. Çexoslovakiya texnikası yüklənmiş eşalonlar Çopdan Çin sərhədlərinə qədər uzanıb gedirdi. Onun az bir hissəsi satıldı, qalanları əridilməyə verildi, əhalinin həyat səviyyəsinin aşağı düşməsi, maşın parkının köhnəlməsi və ÇSSR-in inkişaf etmiş ölkələrdən çox geri qalması ölkənin rəhbərliyi qarşısında istehsalın səmərəliliyini yüksəltmək üçün yeni yollar axtarmaq vəzifəsini qoydu. 1965-ci ildə işlənib hazırlanmış iqtisadi islahatlar proqramına böyük ümidlər bəslənilirdi, lakin iqtisadi islahatı tam həyata keçirmək mümkün olmadı.

***Sosializmin Sovet modelinin qurulması.*** Fevral dəyişiklikləri 1948-ci il may Konstitusiyası ilə möhkəmləndirildi. Konstitusiyaya uyğun formal olaraq əvvəlki hakimiyyət institutları da fəaliyyət göstərirdi, lakin onların səlahiyyətləri xeyli məhdudlaşdırılmışdı. Bütün hakimiyyət ÇKP rəhbərliyinin əlində cəmləşmişdi. Beneş Konstitusiyanı imzalamaqdan imtina etdi, ağır xəstə olan Beneş 1948-ci ilin iyununda istefaya getməyə məcbur oldu. K.Qotvald respublika prezidenti seçildikdən sonra hakimiyyət sonrakı 40 ildə bütünlükdə ÇKP-nin əlində cəmləşdi. Üzdə xalq demokratik hakimiyyətinin elan olunmasına baxmayaraq, faktiki

olaraq totalitar rejimin qurulması baş verdi, belə ki, ölkədə mövcud olan parlament sistemi formal xarakter daşıyırdı.

1948-ci il fevral hadisələrindən sonra ölkədə SSRİ hakimiyyətinin diktəsinə əsasən müxalifətin üzərinə genişmiqyaslı hücum başlandı. Üç min nəfər müxalifətçi ölkəni tərk etdi, 250 min nəfər işsiz qaldı. Əhalinin bir hissəsinin yeni kursu müdafiə etməməsi onlara qarşı saxta siyasi proseslərin tətbiq edilməsilə müşayiət olunurdu. İlk səs salan belə siyasi "tamaşa"lardan biri İkinci Dünya müharibəsi illərində 5 il faşist ölüm düşərgəsində cəza çəkmiş Milli-Sosialist partiyasından parlamentin deputatı Milada Qorakova üzərindəki açıq məhkəmə prosesi olmuşdur. M.Qorakova 1901-ci ildə anadan olmuş, Praqa Universitetinin Hüquq fakültəsini bitirmişdir. Üç xarici dildə sərbəst danışan M.Qorakova 1928-ci ildə elmlər doktoru Boquslav Qorakovla ailə quraraq 1929-cu ildə həyat yoldaşı ilə birlikdə Milli-Sosialist partiyasına daxil olmuşdur. Faşist Almaniyası Çexoslovakiyanı işğal etdikdən sonra gizli antifaşist fəaliyyətinə görə gestapo tərəfindən həbs edilərək ölüm düşərgəsinə salınmışdır. Müharibədən sonra azad edilərək ölkə parlamentinin deputatı seçilmişdir. Çexoslovakiya qadınlar şurasının sədri kimi Parisdə keçirilən Beynəlxalq qadınlar konqresində ölkəsini təmsil etmişdir. 1949-cu il sentyabrın 27-də "burjua millətçiliyi", "təxribatçı qəsdin iştirakçısı" saxta maddələrlə 12 nəfərlə birlikdə mühakimə edilmişdir. 1950-ci il iyunun 27-də Pankras həbsxanasında asılaraq edam edilmişdir. Ölümündən sonra bəraət almışdır.

1950-ci il aprelin 6-7-də Slovakiya KP MK-nın plenumunda Q.Qusak və L.Novomeskinin "burjua millətçiliyi" haqqında məsələ müzakirə edildi. SSRİ hakimiyyət orqanlarının, şəxsən İ.V.Stalinin nəzarəti altında məsələ 1950-ci ilin mayında Slovakiya KP IX qurultayının iclasında müzakirə edilərək Q.Qusak, L.Novomeski və V.Klementisin "burjua millətçisi" damğası alıb işdən azad olması ilə nəticələndi. Əsl həqiqətdə isə Çexoslovakiyanın Xarici İşlər naziri olan Vladimir Klementis öz ölkəsinin SSRİ-nin nüfuz dairəsinə daxil olmasının qəti əleyhdarı olmuşdur. O, 1902-ci ildə Slovakiyanın Tisovetsində anadan olmuş, 1921-1925-ci illərdə Praqanın Karlovo Universitetində hüquq təhsili almışdır. Kommunist mətbuatı üçün məqalə və pamfletlər yazan V.Klementis E.Beneş tərəfindən Londondakı mühacir Çexoslovakiya hökumətinin üzvü təyin edilmişdir. 1948-ci ildə Masarikin müəmmalı ölümündən sonra xarici İşlər naziri təyin edilmişdir. İ.V.Stalin təmizlənməsinin qurbanı kimi titoizm və millətçilikdə təqsirləndirilərək 1952-ci ildə asılaraq öldürülmüşdür. 1963-cü ildə ölümündən sonra bəraət almışdır.

SSRİ-də olduğu kimi "xalq düşməni" axtarışı 1952-ci il noyabrın 20-27-si arasında R.Slanski başda olmaqla bir qrup partiya və dövlət rəhbəri üzərində məhkəmə tamaşası təşkil edilmişdir. Mühakimə edilən 13 nəfərdən 11-i yəhudi idi və onlar dövlətə qarşı saxta trotskiçi-sionist-titoçu damğası ilə casusluqda ittiham olunurdular. Məhkəmənin qərarı ilə mühakimə olunanlardan 3 nəfərə ömürlük həbs, yerdə qalanlara ölüm hökmü kəsilmişdir.

Slanski Rudolf Zaltsman 1901-ci ildə Plzen şəhərində orta çex yəhudi ailəsində anadan olmuşdur.1921-ci ildə ÇKP sıralarına daxil olaraq "Rude pravo" qəzetinin redaktoru, 1935-1938-ci illərdə parlamentin deputatı seçilmişdir. 1944-cü ildəki Slovakiya Milli üsyanının iştirakçısıdır.1945-1950-ci illərdə ÇKP-nin baş katibi, 1948-ci ildən yeni hökumətin başçısı, 1951-ci ilin sentyabrından Çexoslovakiyanın vitse-prezidenti olmuşdur. Noyabr ayında ingilis və amerikan kəşfiyyatına işləyərək kommunist rejimini bir sionist kimi devirmək iddiası ilə mühakimə edilərək 1952-ci ilin dekabrın 3-də edam edilmişdir.1963-cü ildə bəraət almışdır.

Siyasi repressiya qurbanlarının sayı haqqında tam məlumat olmasa da onların ümumi sayının 200-280 min nəfər olduğu ehtimal olunur. 1953-cü il martın 14-də İ.V.Stalinin dəfn mərasimindən qayıdan Klement Qotvald 57 yaşında ürək tutmasından vəfat etdi. Moraviya kəndlisinin nigahdan kənar uşağı olan K.Qotvald 1896-cı ildə anadan olmuşdur.Vyanada sosial-demokrat gənclər hərəkatına qoşulan K.Qotvald 1921-ci ildə Çexoslovakiya Kommunist partiyasını yaradanlardan biri olmuşdur. 1921-1926-cı illərdə Bratislavada "Qlas lyudu" partiya qəzetinin redaktoru, 1925-ci ildə partiya MK-nın üzvü, 1929-1945-ci illərdə ÇKP-nin Baş katibi, 1939-1945-ci illərdə Moskvada kommunist müqavimət mərkəzinin rəhbərlərindən biri, 1946-1948-ci illərdə Milli cəbhə hökumətinin sədri, 1948-1953-cü illərdə

Çexoslovakiyanın prezidenti olmuşdur.

K.Qotvaldın ölümündən sonra A.Zapototski Çexoslovakiyanın prezidenti, V.Şirokiy Baş nazir seçildi. Baş nazirin müavini A.Novotno 1953-cü ilin sentyabrında ÇKP MK-nın birinci katibi seçildi.Antoni Zapototski 1884-cü ildə dərzi ailəsində anadan olub, 1902-ci ildən Sosial-demokrat partiyasının sıralarına daxil olub. 1921-ci ildə ÇKP-nin təsisçilərindən biri olmuşdur. Çexoslovakiya almanlar tərəfindən işğal edildikdən sonra 6 il Zaksenhauzen düşərgəsində həbsdə olmuşdur. Müharibədən sonra 1948-1953-cü illərdə Çexoslovakiyanın Baş Naziri, 1953-1957-ci illərdə prezidenti olmuşdur. Onun adı ilə ölkədə çoxsaylı repressiyalar və siyasi proseslər bağlıdır və K.Qotvald kimi o da son dərəcə mühafizəkar və stalinist kimi şöhrət qazanmışdır.

Antonin Novotnı 1904-cü ildə Praqanın Letnani sənaye mərkəzində anadan olmuşdur. 1921-ci ildən ÇKP-nin üzvüdür. 1941-1945-ci illərdə Maythauzen nasist düşərgəsində olmuşdur. 1948-ci ildə Çexoslovakiyada kommunistlərin hakimiyyəti zəbt etməsinin rəhbərlərindən biri olmuşdur. Partiyadakı təmizləmədən öz şəxsi məqsədləri üçün istifadə edən A.Novotnı 1953-cü ildə R.Salanskini vəzifədən kənar edərək 1953-1968-ci illərdə ÇKP MK-nın birinci katibi, 1957-1968-ci ildə ÇSSR-in prezidenti olmuşdur. "Praqa baharı" dövründə hər iki vəzifəsini itirmişdir.

1953-cü il iyunun 1-də ölkədə həyata keçirilən pul islahatına qarşı Plzen və Praqada nümayiş başlandı. 9-12 min nəfər adam Plzendə şəhər mərkəzinə toplaşaraq hökumət əleyhinə şüarlar səsləndirib, təhlükəsizlik orqanının əməkdaşlarını döydülər. Bir qrup radio mərkəzini ələ keçirərək hökuməti devirməyə çağıran şüarlar səsləndirdi. Plzen təhlükəsizlik orqanlarının köməyinə Praqadan Müdafiə nazirliyinin birlikləri göndərildi. Voytex Proxazka başda olmaqla 152 adam həbs olundu. Plzendə komendant saatı tətbiq edildi. İyunun 2-də Praqanın "Stalinqrad", "Praqa", "Aero" zavodlarının 5 min nəfər işçisi nümayişə çıxdı. Lakin iyunun 5-nə doğru Moskvanın sərt tələbi, təhlükəsizlik orqanlarının yaxından iştirakı ilə vəziyyət normallaşdı. Lakin pul islahatı ilə bağlı çaxnaşmalardan sonra ölkənin partiya və dövlət rəhbərliyi Sovet İttifaqının da təzyiqi ilə sosial-demokratlara qarşı müharibə elan etdilər. 1953-cü ilin dekabrında Çexoslovakiyanın təhlükəsizlik orqanlarının əməkdaşları Avstriyadan partiyanın keçmiş lideri B.Lauşmanı oğurlayaraq ölkəyə gətirdilər. Məhkəmə ona 17 il həbs cəzası kəsdi və o həbsxanada öldü.

1956-cı ilin yazında ölkənin ali təhsil məktəblərinin tələbələrinin çıxışları başlandı. Tələbə çıxışları ilə əlaqədar olaraq hətta rəhbərlik ali təhsil məktəblərin bağlamağı belə düşünürdü. Yalnız tələbə yataqxanalarına səfərbər edilən kommunistlərin, fəhlələrin və milis dəstələrinin köməyi ilə tələbələri "sakitləşdirmək" mümkün oldu.

SSRİ-də N.Xruşşovun hakimiyyətə gəlməsi həm də Çexoslovakiyanın siyasi həyatına qismən mülayimlik gətirdi. Bu demək olar ki, 60-cı illərdə də saxlanılmışdı. Nəticədə həmkarlar ittifaqlarının, gənclər təşkilatlarının, katolik kilsəsinin fəaliyyəti canladı. Qeyri-kommunist partiyaları üzvlüyünə qəbul artdı. Tələbə təşkilatlarının tələbləri səslənməyə başladı. 1956-cı ildə çağırılmış yazıçıların II qurultayında müxalifət əhval-ruhiyyəsi qurultayın işinə öz təsirini göstərmiş oldu, qurultaydan sonra yazıçıların nüfuzu artdı, onlara xalqın vicdanı kimi baxmağa başladılar.

Siyasi sahədə rəsmi rejimin az da olsa tənqidi başlandı. 1956-cı ildə sosializm düşərgəsində baş verən hadisələr, yəni 1956-cı il Polşa və Macarıstan hadisələri çoxları üçün, həmçinin vəziyyəti daha düzgün dərk edən ÇKP-nin bəzi üzvlərinə əsl dərs oldu. Sosializm cəmiyyətinə inamsızlıq getdikcə artmağa başlayırdı. Bununla yanaşı, öz qüvvələrini düzgün hesaba almayan partiya və dövlət rəhbərliyi 1960-cı ilin iyulunda parlamentin qəbul etdiyi yeni Konstitusiyada bəyan etdi ki, keçid dövrünün bütün əsas məsələləri həll edilmişdir və Çexoslovakiyada sosializm cəmiyyəti qurulmuşdur. Konstitusiyaya uyğun olaraq ölkə Çexoslovakiya Sosialist Respublikası (ÇSSR) adlandırıldı.

***1968-ci il Çexoslovakiya böhranı.*** 1965-ci ildə qəbul edilmiş təsərrüfat islahatı bir sıra müsbət nəticələr verdi. Şəhər və kənd arasında fərqlər tədricən aradan qalxır, əhalinin müxtəlif təbəqələrinin həyat səviyyəsi yüksəlirdi. Qiymətlərin qalxmasının qarşısını da almaq

mümkün oldu. Lakin dəyişikliklərin sürəti hələ də aşağı idi. 1957-ci ildə ölkə prezidentı olan A.Novotnı və onun tərəfdarları iqtisadiyyata yeni üsulla rəhbərliyin partiyanın dövlətdə mövqeyini zəiflədəcəyindən ehtiyyat edirdilər.

1956-cı ildən sonra Çexoslovakiyanın siyasi inkişafında slovak məsələsi ən vacib məsələ oldu, çünki rejim liberallaşdıqca və slovakların milli şüuru artdıqca bu məsələ özünü daha çox kəskinliyi ilə büzruzə verirdi. 40-cı illərdə çex və slovakların hüquq bərabərliyi uğrunda çıxış edən slovak kommunistləri 50-ci illərin əvvəllərində burjua millətçiləri kimi günahlandırılaraq məhkəməyə verildilər. 1960-cı il Konstitusiyası ilə bütün hakimiyyət Praqada mərkəzləşdi. Slovakiya hakimiyyət orqanlarının səlahiyyətləri məhdudlaşdırıldı, Slovakiyanın ali icraiyyə orqanı – Səlahiyyətlilər Korpusu ləğv edildi. Bu dəyişikliklər onunla əsaslandırılırdı ki, iki xalqın yaxınlaşması və qaynayıb-qarışması prosesində müsbət irəliləyişlər baş vermiş və bu güya slovak xalqının maraqlarına tam cavab verir. Həmin vaxt Q.Qusak və L.Novomeski həbsdən azad edildilər. V.Klementis isə ölümündən sonra bəraət aldı. Slovakiyanın Çexoslovakiya dövlətində konstutisiya vəziyyəti Slovakiya mətbuatında qızğın müzakirə olunurdu. A.Novotnının bəzi addımları slovakların milli hissiyyatlarının təhqir edilməsi kimi qiymətləndirilirdi. Bu şəraitdə Slovakiya kommunistləri Aleksandr Dubçek (1921-1992) başda olmaqla A.Novotnı qruplaşmasına qarşı açıq şəkildə çıxış etdilər.

60-cı illərdə mülayimləşmənin əlamətləri ictimai və mədəni həyatda da müşahidə olunurdu. İnsanları qorxu hissi tərk edir, yeni liberal yönümlü jurnallar nəşr olunurdu. "Ədəbiyyat" və "Mədəni həyat" kimi qəzetlər formalaşmaqda olan müxalifətin tribunasına çevrilirdilər. 1967-ci ilin oktyabrında Praqa tələbələri ilə hakimiyyət orqanları arasında açıq toqquşma baş verdi. Tələbələrin təşkil etdikləri nümyaişi dağıtmaq üçün güc tətbiq edildi. Bu da ictimaiyyətin və bəzi partiya rəhbərlərinin narazılığı ilə qarşılandı.1967-ci ilin iyununda yazıçıların IV qurultayında mövcud rejim açıq şəkildə tənqid olundu. Bundan sonra "Ədəbiyyat qəzeti"nin nəşri dayandırıldı, tənqidçilərə qarşı təqiblər başlandı.

Ölkənin siyasi sistemində böhran açıq-aydın görünürdü. Bu zaman ÇKP-nin nüfuzu xeyli dərəcədə aşağı düşdü ki, bunu da partiya rəhbərləri görməyə bilməzdilər. Partiya təşkilatlarında 1948-ci ildən sonra görülmüş işlər, atılmış addımlar təhlil edilməyə başladı. ÇKP MK-nın 1967-ci il oktyabr plenumunda A.Dubçek A.Novotnı üçün gözlənilmədən onun ünvanına tənqidlər yağdırdı. Dubçeki MK-nın bir sıra üzvləri dəstəklədilər və patiya rəhbərli ilə prezident vəzifəsinin bir əldə cəmləşməsini yolverilməz hesab etdilər. Belə bir şəraitdə A.Novotnı bütün ümidlərini Moskvanın köməyinə dikmişdi.1967-ci ilin dekabrında ÇKP MK-nın plenumunda A.Novotnı daha kəskin tənqid olundu. MK praktiki olaraq iki cəbhəyə parçalandı. İlk dəfə A.Novotnının partiyada tutduğu vəzifədən uzaqlaşdırılması təklifi irəli sürüldü.

1968-ci ilin yanvar plenumu partiyadakı böhranın həll edilməsində mühüm addım oldu. Partiyanın islahatçı qanadı Novotnını ÇKP MK-nın birinci katibi vəzifəsindən uzaqlaşdırmağa müvəffəq oldu. Partiyanın rəhbəri vəzifəsinə A.Dubçek seçildi. Dubçek Aleksandr 1921-ci ildə Slovakiyanın Banovtse- Bebravo şəhərinin Uqrovets kəndində anadan olmuşdur. Ailəsilə birlikdə 1925-ci ildə SSRİ-yə gələrək Bişkek və Nijni Novqorodda orta təhsil almışdır.1939-cu ildən Çexoslovakiya KP-nın üzvüdür. 1944-cü ildə Slovakiya Milli üsyanın iştirakçısı olmuşdur. 1955-ci ildə Yan Komenski adına Bratislava Universitetinin hüquq fakültəsini bitirmişdir. 1955-1958-ci illərdə Moskvada Ali Partiya məktəbində təhsil almışdır. 1960-1962-ci illərdə Çexoslovakiya KP MK-nın katibi, 1963-1968-ci illərdə Slovakiya KP MK-nın birinci katibi, 1968-1969-cu illərdə Çexoslovakiya KP MK-nın birinci katibi olmuşdur. "Praqa baharı"ndan sonra vəzifəsindən azad edilərək 1969-1970-ci illərdə Türkiyəyə səfir təyin edilmişdir. "Məxməri inqilab"da fəal rol oynayaraq 1990-1992-ci illərdə Federal parlamentin sədri işləmişdir. 1992-ci ilin noyabrında maşın qəzasında həlak olmuşdur.

Yeni rəhbərlik partiya və cəmiyyətdə, ictimai quruluşa yeni sifət, o vaxtlar deyildiyi kimi, "sosializmə insan sifəti" verə biləcək islahatlar keçirəcəyini qəti şəkildə bəyan etdi. Təxirə salınmadan həyata keçiriləcək tədbirlər sırasında Slovakiya məsələsi, partiyanın

ziyalılara münasibəti və ilk növbədə siyasi proseslərdə zərər çəkənlərə ardıcıllıqla bəraət verilməsi dururdu. Bütün bu vəzifələrin həlli üçün Çexoslovakiyanın daxili inkişaf şəraitini nəzərə alan yol seçilmişdi. 1968-ci ilin martında senzura demək olar ki, ləğv edildi və mətbuat sosializmi tənqid edən məqlələrlə doldu. Bütün bunlar Çexoslovakiyada tədricən vətəndaş cəmiyyətinin formalaşmasına kömək etdi.

Partiya təşkilatlarının hesabat konfransları gedişində islahatçı qüvvələr bir çox rayon partiya təşkilatları rəhbərliyində üstünlük qazandılar. ÇKP Praqa şəhər partiya təşkilatı islahatçı qüvvələri təşkilati, siyasi və ideya cəhətdən əlaqələndirilən əsil mərkəzə çevrildi. 1968-ci il aprel plenumu çağrılan zaman artıq ÇKP MK-nın rəyasət heyətində, katiblikdə və yerlərdə islahatçılar əsas vəzifələri tutmuşdular. 1968-ci ilin martında respublikanın prezidenti vəzifəsinə müharibə illərində SSRİ-də Çexoslovakiya hərbi birləşmələrinin təşkilatçısı və repressiya dövründə zərər çəkmiş general L.Svoboda seçildi.

Svoboda Lyudviq 1895-ci ildə Avstriya-Macarıstanın Qroznatin kəndində anadan olmuşdur. 1915-ci ildə Ali Əkinçilik məktəbini bitirərək Avstriya-macar ordusunda əsgərliyə göndərilmişdir. Ruslara əsir düşərək 1916-1920-ci illərdə Çexoslovakiya legionunda zabit rütbəsinə kimi yüksəlmişdir. 1922-ci ildən professional hərbçi kimi Çexoslovak hərbi hissələrində komandirlik etmişdir. Nasistlər Polşaya hücum etdikdən sonra öz dəstəsi ilə SSRİ ərazisinə daxil olduğu üçün Qızıl Ordu tərəfindən əsir alınaraq ölümə məhkum edilmişdir. Məlum olmayan səbəblərə görə ölüm hökmü ləğv edilmiş, Almaniyanın SSRİ-yə hücumundan sonra birinci Çexoslovak batalyonu, briqadasını sonra isə ordu korpusunu təşkil etmişdir. Kiyevin azad edilməsində iştirak etmiş, 1945-ci ildə diviziya generalı rütbəsini almışdır. 1945-1950-ci illərdə bitərəf kimi Çexoslovakiyanın Müdafiə naziri işləmişdir. 1948-ci ildəki kommunist çevrilişindən sonra Çexoslovakiya KP-nın sıralarına daxil olmuşdur. 1951-ci ildə İ.Stalin milli təmizləməsinin qurbanı kimi ordudan tərxis edilərək bir neçə ay həbs cəzası çəkmişdir. 1954-cü ildə N.S.Xruşşovun Praqaya səfəri zamanı L.Svoboda onun tərəfindən bəraət alaraq K.Qotvald adına Hərbi Akademiyanın komandanı təyin olunmuşdur. 1960-cı ildə "Buzlukdan Praqaya qədər" xatirələr kitabını çap etdirmişdir. 1968-ci il martın 30-da ÇSSR-in prezidenti seçilərək 1975-ci ilə kimi ölkə başçısı olmuşdur. 1965-ci ildə Sovet İttifaqının, 1965, 1970, 1975-ci illərdə isə Çexoslovakiyanın Qəhrəmanı adına layiq görülmüşdür. 1979-cu ildə vəfat etmişdir.

Y.Smrkovski parlamentin sədri, O.Çernik hökumətin sədri oldular. 1968-ci ilin yazı üçün ölkədə sosialistcəsinə yeniləşdirmək şüarları altında çıxış edən kütləvi hərəkat başlandı. Cəmiyyətdə mühafizəkar qüvvələrin mövqelərinin qırılması Çexoslovakiyada demokratiyanın bərqərar olunması prinsipləri ilə müşayiət olunurdu. Siyasi sistemin yenişlədirilməsi cizgiləri "Fəaliyyət proqramın"da öz əksini tapdı. Lakin cəmiyyətin birliyini təmin edən başqa bir sənəd "2000 söz Manifesti" oldu. Manifest 1968-ci il iyunun 27-də verildi və onun müəllifi yazıçı L.Vatsulik idi. Manifest respublika vətəndaşlarını yerlərdə islahat yolunda bütün maneələri dəf etməyə çağırdı. Partiya və dövlət orqanları mövcud siyasi sistemin dağıdılmasına çağıran bu sənədi rədd etdilər.

1968-ci ilin yayı üçün Kommunist partiyasının ölkədə rəhbər rolu əslində yox idi. Cəmiyyət Xalq Cəbhəsinin demokrarikləşməsini, plüralizm və parlament demokratiyası prinsiplərinin həyata keçirilməsini, siyasi partiyalarının azad rəqabətini tələb edirdi. Həmçinin Xalq Cəbhəsinin tərəfdaş münasibətləri prinsipində qurulmasını, ÇKP-yə müxalifət partiyalarının fəaliyyətinə icazə verilməsi tələbləri eşidilirdi. Kütləvi ictimai təşkilatların əsaslı şəkildə yenidən qurulması başlandı. Zavod həmkarlar ittifaqları komitələrinə seçkilərin gedişində yeni tipli həmkarlar ittifaqları yaradılırdı. Həmkarlar ittifaqları proqramının yeni layihəsi nəşr olundu. Gənclər hərəkatının fəallığı görünməmiş dərəcədə artdı. 1968-ci ilin martında Çexoslovakiya vahid gənclər ittifaqı buaxıldı və onun yerinə 20-yə yaxın müstəqil gənclər təşkilatları, yüzlərlə müxtəlif klublar yarandı.

Varşava Müqaviləsi ölkələrinin partiya və dövlət rəhbərlərinin Praqada, Drezdendə, Sofiyada, Moskvada, Varşavada müşavirələri keçirildi və orada Çexoslovakiya liderlərinin seçdikləri kursdan imtina etmələri haqqında məsələ müzkirə edildi. Lakin A.Dubçek başda

olmaqla islahatçı qüvvələri seçdikləri kursdan döndərmək mümkün olmadı. Çexoslovakiyada ictimai rəy islahatçı kursu müdafiə edirdi, xarici təzyiq isə antisovet əhval-ruhiyyənin artmasına səbəb oldu. ÇSSR ilə sovet bloku müttəfiqləri arasında qarşıdurmanın yaranması şəraitində Çexoslovakiyanın daxili siyasətində başlıca məqsəd ölkənin suverenliyini qorumaq idi. Bu zaman A.Dubçekə və onun tərəfdarlarına cəmiyyətin böyük bir hissəsi kömək edirdi. Kütləvi müdafiə özünün ən yüksək nöqtəsinə 1968-ci il iyulun sonu – avqustun əvvəllərində Çierne-Tissoda Sovet-Çexoslovakiya nümayəndələrinin danışıqları zamanı çatdı.

Eyni zamanda Sov. İKP və Şərqi Avropa ölkələrinin kommunist partiyalarının rəhbərliyi, xüsusən L.İ.Brejnev, V.Qomulka, V.Ulbrixt tərəfindən “antisovet qüvvələrə” qarşı amansız mübarizə aparılması tələb olunurdu. ÇSSR-dən ölkədə Sovet qoşunlarını yerləşdirməyə razılıq verilməsini tələb etdilər. İyulun ortalarında Varşava Müqaviləsinin iştirakçısı olan beş dövlətin iştirak etdiyi müşavirədə kommunist liderlər ÇKP rəhbərliyindən “antisosialist qüvvələr” üzərinə hücuma keçməyi, onların təşkilatlarını əzməyi, senzuranı bərpa etməyi tələb etdi. ÇKP MK Rəyasət Heyəti bu tələbləri daxili işlərə qarışmaq kimi qiymətləndirərək rədd etdi və bildirdi ki, ÇKP “onu nüfuzdan salan bürokratik – polis metodları əvəzinə başqa siyasi rəhbərlik və idarəetmə metodlarına qadirdir”. Kursu müdafiə etmək üçün ÇKP-nin qurultayını çağırmaq qərara alındı. Ancaq ÇKP rəhbərliyinin beş üzvü, V.Bilyak, A.İndra, D.Kolder, O.Şvestk və A.Kapek MK-dan gizli Moskvaya hadisələrin gedişinə qarışmaq və əksinqilab təhlükəsinin qarşısını almaq xahişi ilə məktub göndərdilər və bununla müdaxiləyə hüquqi əsas yaratdılar.

Bu təzyiqləri zəiflətmək üçün A.Dubçek 1968-ci il avqustun 3-də sosialist dövlətləri rəhbərlərinin Bratislava görüşündə irəli sürülmüş sosializm nailiyyətlərinin müdafiə edilməsi, möhkəmləndirilməsi və qorunması “bütün sosialist ölkələrinin ümumi beynəlmiləl borcudur” müddəasını təsdiq etməyə məcbur oldu. Lakin Aleksandr Dubçek və rəhbərliyin hərəkətləri Moskvada qeyri-qənaətbəxş qəbul edildi. Hərbi müdaxilə qərarı mexanizmi üzərində iş başladı. Məlum olduğu kimi Stalinizm dövründən sonra SSRİ-də daha vacib qərarlar kollektiv rəhbərlik tərəfindən verilirdi və Çexoslovakiyaya hərbi müdaxilə haqqında qərar da Sov. İKP MK-nın Siyasi Bürosunda avqustun 17-də qəbul edilmişdir. 240 min nəfər əsgər və zabitin iştirak etdiyi müttəfiq qoşunların Çexoslovakiyaya hərbi müdaxiləsi avqustun 20-də şənbə günü başladı və əsasən uğurla keçdi. Müdaxiləçilər nəzərdə tutulan bütün məntəqələrə silah tətbiq etmədən yerləşdilər, yalnız Praqada kiçik toqquşmalar oldu. Ümumiyyətlə, 1968-ci ilin avqustunda Çexoslovakiyada 70 nəfərə yaxın adam öldürülmüş, 2500 nəfərə yaxın insan isə yaralanmışdır. 1968-ci il avqustun 20-də ÇKP Rəyasət Heyətinin iclası keçirildi, partiya rəhbərlərinin yürütdüyü siyasi xətlə razılaşmayan hissəsi ölkədə hakimiyyəti ələ keçirmək üçün cəhd göstərdisə də bu uğursuzluqla nəticələndi. Beləliklə, 1968-ci il avqustun 20-də Varşava Müqaviləsinin iştirakçısı olan beş dövlətin – Bolqarıstan, Macarıstan, ADR, Polşa və SSRİ-nin qoşunları ÇSSR-in sərhədlərini keçərək heç bir silahlı müqavimətə rast gəlmədən qısa bir vaxtda bütün ölkəni işğal etdilər.

Ölkədə demokratikləşmə prosesin qarşısı alındı. Avqustun 21-də səhər tezdən ÇKP MK-nın birinci katibi A.Dubçek, hökumətin sədri O.Çernik, Milli Məclisin sədri A.Smrkovski, Milli Cəbhənin sədri F.Kriqel, Praqa şəhər partiya komitəsinin katibi B.Şimon və Brnen vilayət komitəsinin katibi Y.Şpaçek SSRİ dövlər təhlükəsizlik orqanları tərəfindən həbs olunub SSRİ-yə göndərildilər. Müdaxilə Çexoslovakiya ictimaiyyətinin böyük narazılığına səbəb oldu. İctimaiyyət mitinqlərin və nümyaişlərin gedişində republika başçılarını dəstəklədi və işğalı pislədi. ÇKP MK Rəyasət Heyəti böyük səs çoxluğu ilə bu hərəkəti beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirdi. Çexoslovakiyanın Xarici İşlər naziri A.Qayek BMT-nin Təhlükəsizlik Şurasında qoşunların ölkəyə yeridilməsini kəskin tənqid etdi. Prezident L.Svoboda isə Sovet qoşunları komandanının yeni hökumət yaratmaq haqqındakı tələbini yerinə yetirməkdən imtina etdi. Sovet İttifaqı tərəfindən Aloiz İndranı ÇKP MK-nın birinci katibi, Vasil Bilyakın hökumətin başçısı, Draqomir Kolderin Milli Cəbhənin sədri təyin etdirmək cəhdi uğursuz oldu.

Avqustun 22-də Praqada Slovak nümayəndələrinin iştirakı olmadan ÇKP-nin təcili

qeyri-leqal XIV qurultayı keçirildi və ÇKP MK-nın işğalı pisləyən etirazını müdafiə etdi və yeni MK seçdi. Qurultay bildirdi ki, “Çexoslovakiyada heç bir əksinqilab olmamışdır və heç nə sosializmin inkişafına qorxu törətmir”. Qurultay həbs olunanların hamısının qaytarılmasını tələb etdi. Milli Məclis bəyanat qəbul etdi ki, “heç bir konstitusiyalı orqan işğalçı Varşava paktı qoşunlarını çağırmağa vəkil edilməmişdir”. Hərbi müdaxilə müvəffəqiyyələ başa çatsa da Sovet dövlətinin qarşıya qoyduğu siyasi plan baş tutmadı. Bu SSRİ-nin patiya və dövlət rəhbərliyini taktiki gedişin istiqamətini dəyişdirməyə məcbur etdi. Bunu isə ÇSSR-nin qanuni seçilmiş rəhbərliyi ilə danışıqlar aparmadan tamamlamaq olmazdı. Bütün bunların hamısını, həmçinin beynəlxalq demokrarik ictimaiyyətin qəzəbini nəzərə alan SSRİ rəhbərliyi 1968-ci il avqustun 23-26-da Moskvada Dubçeklə və Çexoslovakiyanın digər rəhbərləri ilə danışıqlar aparmağa məcbur oldu və danışıqlar nəticəsində Çexoslovakiya tərəfini siyasi və iqtisadi islahatlardan imtina etmələri haqqında protokol imzalamağa məcbur edildi. Bu tarixə “Moskva protokolu” kimi daxil olmuşdur. Danışıqlar ölkədə vəziyyətin normal hala salınması və Sovet qoşunlarının Çexoslovakiya ərazisində müvəqqəti qalması şərtləri haqqında saziş imzalaması ilə başa çatdı. Bundan sonra çex və slovak liderləri ölkələrinə dönərək öz vəzifələrini yerinə yetirməyə başladılar.

Sovet qoşunlarının orada olmasına arxalanan islahat əleyhidarları hücuma keçdilər. Moskva danışıqlarının iştirakçısı olan Q.Qusak Slovakiya Kommunist partiyasının fövqəladə qurultayında ÇKP-nin qeyri-leqal XIV qurultayı slovak kommunistlərinin iştirakı olmadan keçirildiyindən onu qeyri-qanuni elan edən qərar qəbul edilməsinə nail oldu.

1968-ci il avqustun 28-də ÇSSR-in federal quruluşu haqqında qərar qəbul edildi və 1969-cu il yanvarın 1-də qüvvəyə mindi. Çexoslovakiya Sosialist Respublikası Çexiya və Slovakiya respublikaları adlanmağa başladı. Slovak məsələsinin həlli ÇSSR-də milli siyasətdəki dəyişikliklərin əsasını qoydu. A.Dubçek və onun əhatəsi bir sıra qarşılıqlı güzəştlərin köməyi ilə hakimiyyəti əlində saxlamağa və öz siyasətinin başlıca islahat istiqamətini qoruyub saxlamağa çalışırdı. Lakin onlar bunu edə bilmədilər, çünki Moskvanın onlara artıq inamı itmişdi. ÇKP MK 1968-ci il avqustun 31-də Moskva danışıqlarını və nəticələrini dəstəklədi. General L.Svoboda və Q.Qusak ÇKP MK-nın Rəyasət Heyətinə daxil edildilər. ÇKP MK-nın 1968-ci il noyabr plenumunda islahatçıların avqusta qədərki olan dövrdə yürütdükləri xətti tənqid edən qətnamə qəbul edildi.

Tələbə Y.Palax ictimaiyyəti islahat kursunu qətiyyətlə müdafiə etməyə, hərəkətə gətirməyə cəhd etdi və 1969-cu il yanvarın 16-da Praqanın baş meydanında özünü yandırdı. Palaxın dəfni müdaxiləçilərə qarşı güclü nümayişə çevrildi. Bu hadisədən sonra həm də sosialist ölkələrini avqust təcavüzü haqqında “Qara kitab”ın nəşr olunması ilə A.Dubçekə qarşı Sovet təzyiqi gücləndi.1969-cu ilin martında xokkey üzrə Çexoslovakiya milli yığma komandasının Sovet komandası üzərində qələbə çalması münasibətilə azərkeşlərin nümayişi və həmçinin “Aeroflot” nümayəndəliyinə basqın ÇKP MK-nın Rəyasət Heyətində A.Dubçekin rəqiblərinin onun üzərinə hücuma keçməsi üçün bəhanə oldu. Sovet tərəfinin də etirazı ÇKP MK-nın aprel plenumunda qüvvələr nisbətini qəti olaraq dəyişdirdi. Sovet rəhbərliyinin təzyiqi altında 1969-cu ilin aprelində A.Dubçek ÇKP MK-nın birinci katibi vəzifəsindən azad olundu və partiyada “sağlam qüvvələrin” lideri Q.Qusak birinci katib seçildi. Yüksək partiya və dövlət vəzifələrində olan islahatçılar onların opponentləri ilə əvəz olundu.

Qusak Qustav 1913-cü ildə Bratislavada anadan olmuş, Yan Komenski adına Bratislava Universitetinin hüquq fakültəsini bitirmişdir. 1933-cü ildən Kommunist partiyasının üzvü olan Q.Qusakı Slovakiyanın faşist hökuməti 1940-1943-cü illərdə gizli kommunist fəaliyyətinə görə həbsxanaya salmışdır. 1944-cü ildə Slovakiya Milli üsyanının iştirakçısı olmuşdur. Çexoslovakiyada İ.Stalin təmizləməsinin qurbanı olaraq 1951-ci ildə millətçi kimi həbs edilmiş, 1954-cü ildə ömürlük həbs cəzası almışdır.1960-cı ildə bəraət almış, 1963-cü ildə partiya sıralarına bərpa edilmişdir. 1968-ci ilin avqustunda Sovet qoşunlarının Çexoslovakiyaya müdaxiləsindən sonra Slovakiya KP MK-nın birinci katibi, 1969-cu ildə isə Moskvanın əli ilə Çexoslovakiya KP MK-nın birinci katibi seçilərək 1987-ci ilə kimi bu vəzifəsində qalmışdır. 1987-ci ilin aprelindən ölkə Kommunist partiyasının birinci katibi,

1989-cu ildən ölkə prezidenti vəzifələrindən istefa vermişdir.1991-ci ildə vəfat etmişdir.

ÇKP MK-nın 1969-cu ilin mayında keçirilən plenumunda vəziyyətin "düzəlməsi" tədbirləri irəli sürüldü, həmçinin XIV qurultaya qədər olan dövrdə partiyanın inkişaf direktivləri qəbul edildi. 1969-cu ilin sentyabr plenumu 1968-ci ilin avqustunda qeyri-leqal şəklində keçirilmiş XIV qurultayın bütün qərarlarını ləğv etdi. 1970-ci ildə pariya sıralarında təmizləmə aparıldı. ÇKP üzvlərinin 20 faizi onun sıralarını tərk etdi. 1970-ci ilin dekabrında ÇKP MK-sı "XIII qurultaydan sonra böhranlı inkişafın ibrət dərsləri" adlı qondarma bir sənəd qəbul etdi. Sənəddə deyilirdi: "Beş sosialist ölkəsi müttəfiq qoşunlarının Çexoslovakiyaya daxil olması həm Çexoslovakiya zəhmətkeşlərinin ümumi mənafeyinə, həm də beynəlxalq fəhlə sinfinin, sosializm birliyinin mənafeyinə və beynəlxalq kommunist hərəkətının sinfi mənafeyinə uyğun olan beynəlmiləl həmrəylik tədbiri idi". Bu sənəd mühafizəkar qüvvələrin özünəməxsus manifesti idi və son iki onillik müddətində partiya və dövlət həyatının tənzimlənməsinə təkan verdi. Dövlət hakimiyyətinin yuxarı orqanlarında da dəyişiklik baş verdi. A.İndra Milli Məclisin sədri oldu. L.Ştrouqal Baş nazir təyin edildi. Həmkarlar ittifaqlarında "normallaşdırma" çətinliklə həyata keçirilirdi ki, bu proses 70-ci illərin ortalarında başa çatmış oldu. Beləliklə, tədricən Çexoslovakiya islahatının bütün nailiyyətləri ləğv edildi.

***Çexoslovakiya 70-80-ci illərdə. "Məxməri inqilab".*** 1969-cu ilin ikinci yarısından başlayaraq iqtisadiyyatın mərkəzləşdirilmiş idarəçilik metodlarına keçildi. Dövlət büdcəsinin formalaşdırılması haqqında xüsusi qanun qəbul edildi. 70-ci illərin birinci yarısında qiymətlər donduruldu, həmçinin güzəştli qiymətlərlə Sovet kreditləri, xammalı və materialları alındı. Nəticədə 1971-1975-ci illəri əhatə edən beşillik sosializm quruculuğu bütün dövrünün ən uğurlu beşilliyi oldu. Əhalinin real gəliri 28 faiz artdı, zəhmətkeşlərin orta əmək haqqı yüksəldi. 1971-ci ildə ÇKP-nin XIV qurultayında işlənilmiş sosial proqrama uyğun olaraq, analara verilən müavinət xeyli artırıldı, gənc ailələrə güzəştli istiqrazlar və uşaq doğularkən yardım verilməsi qərarı qəbul olundu. Bütün bu tədbirlər 1973-1975-ci illərdə əhalinin xeyli artmasına şərait yaratdı. 1976-cı ildə pensiya təminatı haqqında qanun qüvvəyə mindi ki, qanuna əsasən 3 milyondan çox adamın təqaüdü artırıldı.

İqtisadiyyata rəhbərlikdə planlaşdırma pinsiplərinə qayıdılması 70-ci illərdə çoxlu vəsaitin bir sıra obyektlərin tikintisinə yönəltmək imkanı verdi və 70-ci illərdə Çexoslovakiyada inkişaf etmiş sosializm quruculuğunun simvoluna çevrilmiş bir sıra obyektlərin tikilməsi ilə nəticələndi. Bunlara misal olaraq Praqa-Brno-Bratislava avtomagistralını, Praqa metrosunun birinci növbəsini, Praqa mədəniyyət sarayının tikintisini, Bratislav qradının yenidən qurulmasını, Dünay çayı üzərində Bratislavaya gedən körpünün salınmasını göstərmək olar.

1976-1980-ci illəri əhatə edən altıncı beşillik plan istehsalın səmərəliliyinin yüksəldilməsinə, xalq təsərrüfatının bütün sahələrinin dinamik inkişafı üçün elmi-texniki tərəqqinin sürətləndirilməsinə başlıca yer ayırmışdır. Beşinci və altıncı beşillik plan tapşırıqlarının uğurla həyata keçirilməsinin sayəsində 1976-1980-ci illərdə orta hesabla sənayenin artım sürəti 6,7 faiz təşkil edirdi. Kimya və maşınqayırma, elektronika və hesablama texnikası daha sürətlə inkişaf etmişdir. Keçmişdə dağınıq və kiçik müəssisələrdən ibarət olan yüngül və qida sənayesi yenidən quruláraq müəssisələrinin 50 faizi min nəfərdən çox işçisi olan mərkəzlərə çevrildilər. Ümumiyyətlə, 1945-1970-ci illərdə ÇSSR-də 2000-dən çox sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir.1949-1970-ci illərdə sənaye istehsalı həcmi 10 dəfə, maşınqayırma 23, kimya sənayesi məhsulları 27 dəfə artmışdır.

1976-cı il məlumatına əsasən Çexoslavakiyada kənd təsərrüfatının 94 faizi sosialist bölməsinin payına düşürdü. Ölkənin kənd təsərrüfatı sahəsində 213 dövlət müəssisəsi, iki mindən çox kooperativ tipli kənd təsərrüfatı istehsal birlikləri mövcud idi. Bunların sayəsində 1976-cı ildə ölkənin kənd təsərrüfatı istehsalı həcmi müharibədən əvvəlki səviyyədən 36, o cümlədən heyvandarlıq məhsulları 66 faiz artmışdır. Ümumən ölkənin kənd təsərrüfatı ərzaq ehtiyacının təqribən 85 faizini ödəmək gücündə idi. 1960-1975-ci illərdə ölkədə milli gəlir iki dəfə artmışdır. ÇSSR-in dövlət və kooperativ bölmələrində çalışan fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1960-cı ildə 1365, 1970-ci ildə 1937, 1975-ci ildə isə 2304 kron olmuşdur.

Lakin 70-ci illərin sonlarında yenidən iqtisadi inkişafda çətinliklər özünü göstərməyə

başladı. 80-cı illərdə Çexoslovakiyanın Qərb ölkələri ilə müqayisədə texniki geriliyi göz qabağında idi. Sosialist ölkələrinin müəssisələri ilə tərəfdaşlıq münasibətlərinin etibarlı olmaması istehsal olunan məhsulların maya dəyərinin artmasına, dünya bazarlarında rəqabət qabiliyyətinin aşağı düşməsinə səbəb olurdu. Milli gəlirin artım sürətinin aşağı düşməsinə baxmayaraq ölkə hələ də həyat şəraitinin səviyyəsinə görə sosialist ölkələri arasında ADR-dan sonra ikinci yeri tuturdu.

70-ci illərdən, daha dəqiq desək ÇKP MK-nın 1969-cu il aprel plenumundan sonra ictimai həyatın bütün sahələrində keçmiş idarəçilik metodlarının zorla bərpası baş verdi. 60-cı illərin Çexoslovakiya böhranını yaradan səbəblər inzibati yolla aradan qaldırıla bilməzdi. Struktur dəyişikliklərini həyata keçirmək lazım idi, lakin bunun üçün partiya və dövlət rəhbərliyində nə siyasi iradə, nə də anlaşıqlıq var idi. Başlıca vəzifə mövcud rejimi saxlamaq və möhkəmləndirmək idi. “Normallaşma” prosesində “praqa baharı” dövründə özünün fallığı ilə seçilən humanitar ziyalılar daha çox ziyan gördü, onların çoxu tutduğu vəzifəni və əsas işini itirdi. Xaricdən ölkələrinə müdaxiləni qardaş köməyi hesab etməyənlər də ziyan çəkdi. Lakin Çexoslovakiya şəraitində Q.Qusakın özünün də bilavasitə qurban olduğu 50-ci illərin sərt repressiya tədbirlərinə qayıtmaq mümkün deyildir.

“Praqa baharından” sonra 1971-ci ilin noyabrında keçirilən ilk parlament seçkilərində ÇKP namizədləri səslərin 100 faizini topladı ki, bu da əhalinin böyük əksəriyyətinin, xüsusilə fəhlə və kəndlilərin rejimə loyallığını göstərdi. 1975-ci ildə 80 yaşlı L.Svoboda prezident vəzifəsindən istefa verdikdən sonra onun yerini “normallaşdırma”nın simvoli olan Q.Qusak tutdu. 1987-ci ilə qədər prezident, ÇKP MK-nın birinci katibi və Milli Cəbhənin sədri funksiyaları onun əlində cəmləşmişdi. 1980-ci ilin dekbarında Federal Məclis 1968-ci il federasiya haqqında qanuna dəyişikliklər və əlavələr haqqında üç konstitusiya qanunu qəbul etdi. Əvvəllər olduğu kimi, yenidən respublikaların real hüquqlarının pozulması hesabına mərkəzi federal orqanlarının hüquqları genişləndirildi. Çex və Slovaklar arasında vaxtı çatan milli məsələlərin bir çoxu həll edilmədən qaldı. 80-ci illər xalqın həyatı problemlərindən get-gedə uzaqlaşan partiya-hökumət elitasının formalaşdırılması faktiki olaraq başa çatdı. İnzibati-amirlik idarəçiliyi yalnız iqtisadiyyatı deyil, mədəniyyəti, elm və təhsili də əhatə edərək onu yenidən ideologiyalaşdırdı.

SSRİ-nin aşkarlıq və yenidənqurma dövrünə qədəm qoyması ilə ÇSSR-in ictimai və siyasi həyatında durğunluq ab-havası dəyişməyə başladı. Qonşu Macarıstanda uğurla həyata keçirilən iqtisadi islahat böyük maraq doğurdu. Çexoslovakiya ictimaiyyəti M.Qorbaçovun ölkəyə səfəri ilə əlaqədar və M.Yakeşin 1987-ci ilin sonunda ÇKP MK-nın birinci katibi seçilməsindən sonra siyasi həyatın demokratikləşəcəyinə böyük ümid özünü doğrultmadı.

Amma yenidən ÇSSR hökumətinə Baş nazir təyin edilmiş L.Ademets özünü iqtisadiyyatda islahatın keçirilməsinin fəal tərəfdarı kimi göstərirdi. Onun tərəfindən ÇKP MK-nın Rəyasət Heyəti üzvlərinin bir qrupundan islahatçı qanad yaratmaq təşəbbüsü edildi. Lakin Y.Foytik və 1969-1970-ci illərdə ÇKP sıralarında təmizləməyə rəhbərlik edən M.Yakeşin qruplaşmasının müqaviməti üzündən bu iş yarımçıq qaldı. Mühafizəkarlar öz karyeralarının müflis olacağından ehtiyyat edərək “yenidənqurmaya” şübhə ilə baxırdılar.

Bununla bərabər, cəmiyyət tədricən qorxu hissindən azad olurdu, 1968-ci il işğalının 20 illiyi münasibəti ilə Praqanın mərkəzində icazəsiz nümayiş keçirilirdi, həmçinin 1988-ci il oktyabrın 28-də milli müstəqillik günü ilə əlaqədar nümayiş təşkil olundu. Ölkənin ictimai həyatında 1977-ci ildə yaranmış hüquq müdafiəsi təşkilatı “Xartiya 77”-nin təsiri get-gedə artırdı. Bu qeyri-formal təşkilat 1975-ci ildə ÇSSR hökumətinin Helsinski müşavirəsində ölkədə insan haqlarının qorunması haqqında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir və bu sahədə pozuntular haqqında yerli və dünya ictimaiyyətinə məlumat verirdi. Təşkilata növbə ilə məşhur filosof Y.Patoçka, 1968-ci ildə Xarici İşlər naziri olmuş Y.Qayek və dramaturq Vatslav Qavel başçılıq edirdilər. 1977-ci ilin sonlarına qədər, təqiblərə baxmayaraq, xartiyaya 800 min adam imza atmışdı. “Xartiya-77”-nin üzvlərinin təşəbbüsü ilə 1978-ci ildə ədalətsiz təqib olunanların müdafiəsi üçün komitə təşkil edildi. Bu komitə qanunsuz həbs olunanlar haqqında ictimaiyyətə məlumat verir və zərər çəkənlərin ailə üzvlərinə

maddi yardım göstərirdi. 1979-cu ildə xartiyanın 10 fəal üzvü həbs olundu, 6 nəfər, o cümlədən V.Qavel müxtəlif müddətlərdə cəza alsa da, komitənin fəaliyyəti davam edirdi.

80-cı illərin sonlarına yaxın "Xartiya-77"-nin ətrafında toplaşan müxtəlif qeyri-formal təşkilatların sayı artdı. 1989-cu ilin əvvəllərində onların sayı 35-i keçmişdir. Dövlətin kilsə siyasətinə qarşı kardinal Tomaşek tərəfindən dəstəklənən etiraz kampaniyası keçirildi. Dindarların konstitusiya hüquqlarına hörmətlə yanaşmağı tələb edən petisiyaya 600 min adam imza atdı. Həmçinin V.Qavelin də azad olunması uğrunda imzalar toplanmağa başlandı. 1988-ci ilin sonunda hakimiyyət insan haqqları beynəlxalq günü ilə əlaqədar ATƏT-in Vyana konfransının keçirilməsi ilə bir vaxtda düşən nümayişə icazə verməli oldu. Aksiya cəmiyyətdə böyük səs doğurdu. "Normallaşdırma"nın qatı tərəfdarlarından biri, ÇSSR-nin insan haqları üzrə Vyana razılaşmasına qoşulmasının əleyhinə olan V.Bilyak istefaya getməyə məcbur oldu.

Lakin 1989-cu ildə Y.Palaxın xatirəsinə həsr olunmuş nümayişin dağıdılması və nümayişin təşkilatçılarının həbs edilməsi onu göstərdi ki, dövlət müxalifətlə dialoqa girmək fikrində deyil. V.Qavel yenidən həbs olundu. Onun azad olunması uğrunda imza toplanması aksiyasında təkcə dissidentlər yox, məşhur mədəniyyət və elm xadimləri də iştirak edirdilər. 1989-cu ilin iyununda siyasi məhbusların azad edilməsi, müstəqil təşkilatlara azad fəaliyyət imkanı verilməsi, həmçinin milli tarixin mühüm problemlərinə dair açıq diskussiyaların keçirilməsi tələblərini irəli sürən "Dirçəliş" klubu təşkilatının qurultayı keçirildi. "Bir neçə söz" çağırışına imza atanların sayı artaraq ilin sonunda 40 min nəfərə çatdı. Müxalifət 1968-ci il 21 avqust sovet qoşunlarının müdaxiləsi və 1989-cu il 28 oktyabr respublikanın müstəqilliyi günləri münasibətilə nümayişlər təşkil etdi.

1989-cu ilin ikinci yarısından başlayaraq "Xartiya-77" və başqa müxalifətçi qrupların tərəfdarları ÇKP-nin kursunu tənqid etməyi gücləndirdilər. Lakin partiya rəhbərliyi yenə də müxalifətlə dialoqa girməkdən imtina etdi. ADR-də Honekker rejiminin yıxılması hadisələrin gedişini sürətləndirdi. Müxalifətçi qruplar ÇKP-nin rəhbər roldan imtina etməsini tələb edən bir sıra nümayişlər keçirdilər, lakin polis onları qovdu. 1989-cu il noyabrın 17-də Praqada tələbə nümayişinə sərt divan tutuldu. Şəhər teatrlarının birində "Xartiya-77"-nin təşəbbüsü ilə Vətəndaş Forumu yaradıldı. Onun rəhbərliyinə keçmiş kommunistlər, "Praqa baharı" dövründə partiyadan kənar olunanlar daxil oldu. Milli Cəbhə partiyalarından Çexoslovakiya Sosialist partiyası onu müdafiə etdi. Vatslav Qavel, "Vətəndaş Formunu"nun rəhbəri oldu. Slovakiyada isə oxşar hərəkata "İctimaiyyət Zorakılğa Qarşı" (İZQ) təşkilatı başçılıq edidi. Ölkəni nümayişlər bürümüşdür.

17 noyabr nümayişləri Çexoslovakiyada "məxməri", yaxud "zərif" adı almış inqilabın başlanğıcını qoydu. İlk əvvəl onun iştirakçıları son dərəcə dinc yolla hərəkət edən tələbələr idi. Onlar hökumət binalarını və ÇKP-nin obyektlərini tutmağa təşəbbüs etmirdilər, polislə toqquşmadan qaçırdılar. Praqanın iri müəssisələri tələbələri müdafiə edirdilər. Bir çox qəzet demokratik hərəkatın tərəfinə keçdi.

İnqilabın beyin mərkəzi olan Vətəndaş Forumu qısa müddətdə ÇKP-nı mövqeyindən sıxışdıra bildi. Bir milyondan çox üzvü olan partiyanın siyasi mübarizə aparmağa qabiliyyəti olmadığı məlum oldu, partiya-dövlət aparatı iflic olmuşdu. Vətəndaş Formunun qoyduğu məqsəd – cəmiyyəti demokratizmə və humanizmə qaytarmaq, ölkədə çox geniş müdafiə olundu. 1989-cu il noyabrın 21-də Federal hökumətin sədri L.Adametslə "Vətəndaş Formu"nun (VF) sədri V.Qavel arasındakı danışıqlarda qərara alındı ki, ziddiyyəti demokratik yolla həll etsinlər.

Çexoslovakiyada və əsasən də Praqada cərəyan edən kütləvi nümayiş və tətillərin təsiri altında 1989-cu il noyabrın 24-də M.Yakeş ÇKP MK-nın birinci katibi vəzifəsindən istefa verdi və federal parlament konstitusiyanın ÇKP-nin rəhbər rolunu təsdiq edən maddəsini çıxartdı. 1989-cu il dekabrın 3-də Q.Qusak hökumətinin istefasını elan edib, özü də prezident vəzifəsindən istefa verdi, yeni yaradılmış hökumət kabinetində 21 yerdən 16-nı kommunistlər tutdular. Çıxışların yeni dalğası bu hökuməti də dekabrın 7-də istefaya getməyə məcbur etdi.

Dekabrın 10-da ÇKP-dən olan M.Çalfa başda olmaqla "milli razılıq" hökuməti forma-

laşdırıldı. Yeni hökumətə müxtəlif partiyaların nümayəndələri daxil oldular. "Vətəndaş Forumu" və Slovakiyada ona yaxın olan "Cəmiyyətdə zorakılığa qarşı" ölkənin ən nüfuzlu siyasi qüvvələri oldular. Yeni kabinetin tərkibinə ÇKP-dən 10 sosialist və xalq partiyalarının hər birindən 2, "Vətəndaş Forumu" və "Cəmiyyətdə zorakalığa qarşı"dan 7 nəfər daxil oldu.

1989-cu ilin sonunda dövlət rəhbərliyinə yeni adamlar gəldi. Vətəndaş azadlıqları uğrunda mübarizənin fəal iştirakçısı, "Xartiya-77"-nin tərəfdarlarından biri, Vətəndaş Formunun lideri dramaturq Vatslav Qavel (1936-cı ildə anadan olub) dekabrın 29-da Federal Məclisdə prezident, 1968-1969-cu illərdə ÇKP MK-nin birinci katibi, "Praqa baharı"nın qəhrəmanı olmuş A.Dubçek isə Federal yığıncağın sədri seçildi. 1990-cı ildə keçiriləcək parlamentdə seçkilərə hazırlıq başlandı. Qavel yeni il tərkibində qeyd etdi ki, xaricdən təsir olmadan həyat qurmaq vaxtı gəlib çatmışdır.

Çexoslovakiyanın yeni inkşaf mərhələsinə qədəm qoyması həyatın bütün sahələrində əsaslı dəyişikliklərə səbəb oldu. Özəl mülkiyyətin, sahibkarlığın inkişafına diqqətin artırılması dövlət xərclərinin nəzərə çarpacaq dərəcədə azaldılmasına geniş imkanlar açıldı. Mülkiyyət münasibətlərinin dəyişdirilməsi 1990-cı ildə maliyyə naziri Vatslav Klausun təklifi ilə çek özəlləşdirilməsi proqramının həyata keçirilməsi ilə başlandı. Ölkənin vətəndaşları az bir məbləğlə çek kitabçaları almaqla bu və ya digər müəssisələri özəlləşdirməkdə payçı kimi iştirak etmək imkanı əldə etdilər. Çek özəlləşdirilməsinin artıq birinci mərhələsində əhalinin geniş təbəqələri – 70 faizə qədəri yeni kursu müdafiə edən aksiya sahiblərinə çevrildilər. Qiymətli kağızlar bazarı sürətlə formalaşmaqda idi. "kiçik" özəlləşdirmə deyilən özəlləşdirmə nəticəsində mağazalar, məişət xidməti müəssisələri və s. dövlət mülkiyyətindən çıxarılaraq auksiyonlarda satılırdı. Bəzi milliləşdirilmiş əmlakın əvvəlki sahiblərinə qaytarılmasına başlandı.

Ünvanlı iqtisadi dəyişikliklərin uğurları islahatçıların nüfuzunun artmasına və "məxməri" inqilabdan sonra ilk dəfə 1990-cı ilin iyulunda qanunverici orqanlara keçirilən seçkilərdə onların qələbəsini təmin etdi. "Vətəndaş Forumu" və "İctimaiyyət Zorakılığa Qarşı" hərəkatları seçicilərin əksər səslərini qazandı. Qələbənin təmin edilməsində Xristian-Demokratik Uniya, Moraviya-Sileziya hərəkatı, Yaşıllar partiyası və s. rolu böyük idi. Məhz bu təşkilatlar hökumətin koalisiyasının əsasını təşkil edirdi. Prezident Qavel də bu təşkilatlarla həmrəy idi. Parlament seçkilərinin müvəffəqiyyəti həm də V.Qavelin təkrar Çex və Slovakiya Federativ Respublikalarının prezidenti seçilməsilə başa çatdı. Belə ki, 1990-cı ilin yazında dövlətin rəsmi adı Çex və Slovakiya Federativ Respublikası idi. Seçkidən sonra mürəkkəb əsaslı dəyişikliklər şəraitində "Vətəndaş Forumu" və "İctimaiyyət Zorakılığa Qarşı" hərəkatları çexlər və slovaklar arasında artan milli ziddiyyətləri həll etməyi bacarmadı. Bu hərəkatlar əslində dövlət quruculuğu probleminin həllinə müxtəlif nöqteyi-nəzərdən yanaşan azad antikommunist təşkilat və qrupların qarışığından ibarət idi. Parlament seçkilərindən sonra çox keçmədən "Vətəndaş Forumu " bir sıra siyasi partiyalara parçalandı. Bunların sırasında ən nüfuzlu liberal yönümlü "Vətəndaş Hərəkatı" və tərkibinə görə daha böyük müasir realizm ideologiyasına söykənən Vətəndaş Demokratik partiyası fərqlənirdi. V.Klausun lideri olduğu bu partiya radikal iqtisadi islahat tərəfdarı kimi dövlətin iqtisadi rolunu zəiflətməklə sürətli özəlləşdirmə tərəfdarı idi. "Vətəndaş Forumun"dan ayrılan üçüncü qüvvə çex mühafizəkar dəyərlərini təbliğ edən "Vətəndaş Demokratik Alyansı" idi.

İqtisadiyyatda islahatın nəticələri Slovakiyanın vəziyyətinə çox halda mənfi təsir göstərdi. Belə bir şəraitdə Slovakiya İctimaiyyəti Zorakılığa qarşı təşkilatın dağılmasından sonra kütlələr tərəfindən müdafiə edilən məşhur siyasətçi, Demokratik Slovakiya Uğrunda hərəkatın sədri Vladimir Meçiar uğur qazandı. Meçiar slovakların milli suverenliyi uğrunda hərəkata rəhbərlik edir, çex-slovak federasiyası tərəfdarlarına qarşı çıxırdı. Slovakiyanın müstəqilliyi uğrunda Kanadada və ABŞ-da yaşayan slovak mühacirləri də çıxış edirdi. Slovakiyanın tam müstəqilliyini əvvəllər Slovakiya cəmiyyətinin az bir hissəsi müdafiə edirdi. Lakin 1990-cı ildəki seçkilərdən sonra bu tələb Slovakiya milli partiyasının və digər partiya, qruplarının fəaliyyət proqramına çevrildi.

Slovakiya Praqaya təzyiqi gücləndirərək federasiyada bərabər imkanların qarantına çalışırdı. Artıq 1990-cı ilin yazında Federal yığıncaqda (məclisdə) dövlətin adının dəyişdiril-

məsi müzakirə ediləndə millətlərarası münasibətlətin kəskinləşməsi göz qabağında idi. Slovakiya liderləri ciddi-cəhdlə təkid edirdilər ki, ölkənin Çexo-Slovakiya adı dəyişdirilsin. Nəticədə ölkənin adının Çex və Slovakiya Federativ Respublikası adlandırılması haqqında qarşılıqlı razılıq əldə edildi. Elə bu zaman Bratislavada Slovakiyanın tam müstəqilliyini tələb edən çıxışlar oldu. P.Pitqartın çex hökuməti ilə V.Meçiarın Slovak hökuməti arasında səlahiyyətlərin bölünməsində narazılıq yarandı.

1991-ci ilin yazında Meçiarın hökuməti istefa verdi və onun yerini Y.Çarnoqurski kabineti tutdu. O, konstitusiya qəbul olunanadək xüsusi çex və slovak müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış etdi. Çexlər bu tələbi qəbul etdilər. Lakin yenə də Slovakiyada müstəqil respublikanın yaradılması şüarları daha kəskin səslənməyə başladı.

Uzun sürən qarşıdurma özünün ən yüksək zirvəsinə 1992-ci il seçkilərində çatdı. Seçkilərdə Çex respublikasında Vətəndaş Demokratik partiyası səslərin 30 faizinə qədərini, Slovakiyada V.Meçiarın başçılıq etdiyi Demokrat Slovakiya Uğrunda hərəkat səslərin çox hissəsini qazanaraq qələbə çaldılar. Bu qüvvələr müxtəlif iqtisadi və siyasi məqsədlər qarşısına qoyduğu üçün tam gücü ilə fəaliyyət göstərən federal hökumətin yaradılması problem idi. Belə bir şəraitdə seçkidə qalib gəlmiş partiyaların liderləri bir silsilə danışıqlardan sonra federasiyanın bölünməsi qərarına gəldilər.

1992-ci il noyabrın 25-də Federal Məclis iki xalqın federasiyasının ləğv edilməsi haqqında qərar qəbul eti. Üç həftədən sonra Çex Milli Şurası Çex republikasının Konstitusiyanı qanuniləşdirdi. 1993-cü il yanvarın 1-də Avropanın xəritəsində keçmiş Çexoslovakiya federasiyası ərazisində iki yeni dövlət-Çex Respublikası və Slovakiya Respublikası meydana gəldi. Onların ərazisi və coğrafi vəziyyəti əvvəlki kimi saxlanıldı, geopolitik şərait və dövlətin inkişafı şəraiti əsaslı dəyişikliklərə məruz qaldı.

***Çex və Slovak mədəniyyəti.*** Çexoslovakiyada 1948-ci il qanununa əsasən bütün təhsil müəssisələri milliləşdirildi, məktəb kilsədən ayrıldı. 6-16 yaş arasında olan uşaqlar üçün icbari təhsil tətbiq edildi. Məktəblər 1-4-cü sinifləri əhatə edən başlanğıc pillə, 5-8-ci sinifləri əhatə edən tam olmayan orta pillədən ibarət əsas məktəb təhsil siteminə malik idi. 1976/77-ci tədris ilində ölkənin 8550 əsas məktəblərində 1882 min şagird oxuyurdu. Əsas məktəb bazasında tam orta məktəb – gimnaziya təşkil olunurdu ki, burada da təhsil müddəti 4 ildir. 1976/77-ci tədris ilində 339 gimnaziyada 137,1 min şagird təhsil alırdı. 2-4 illik sənət məktəbləri və 3-4 illik orta sənət məktəbləri xalq təsərrüfatının müxtəlif sahələri üçün ixtisaslı fəhlə kadrları hazırlayırdı ki, burada da bəhs edilən tədris ilində 307,2 min şagird oxuyurdu.

Çexoslovakiya Respublikasının ali təhsil sistemində 4-6 illik təhsil müddətinə malik olan universitet, institut, ali məktəb və uçilişlər fəaliyyət göstərirdi. 1976/77 –ci tədris ilində ölkənin 36 ali məktəbində 168,3 min tələbə təhsil alırdı. Praqa, Bratislava, Brno universitetləri ən qədim təhsil müəssisələridir. 1980-ci illərin sonunda ölkədə 37 ali məktəb fəaliyyət göstərirdi.

“Real sosializm” dövründə Çexoslovakiyada texniki, təbiət və humanitar sahələr üzrə elmi-tədqiqat müəssisələrinin şəbəkəsi artdı. 1952-ci ildə Çexoslovakiya Elmlər Akademiyası, 1953-cü ildən Slovakiya Elmlər Akademiyası meydana gəldi. Görkəmli riyaziyyatçı alimlər E.Çex, V.Yarnik, V.Korjinekin əməyi nəticəsində riyaziyyat elminin yeni sahələri, funksional analiz, differensial bərabərlik, ehtimal nəzəriyyəsi, riyazi statistika, riyazi məntiq və kibernetika meydana gəldi.

Dünya şöhrətli çex alimi Yaroslav Qeyrovskinin kimya elmi sahəsində apardığı tədqiqatlar 1959-cu ildə onun Nobel mükafatına layiq görülməsinə səbəb oldu. Kimyanın problemləri və genetika sahəsində R.Brdiçka, tətbiqi birləşmələr kimyası sahəsində R.Lukeş, geologiya və mineralların tədqiqində F.Slavik, tektonik problemlərin tədqiqatçısı V.Zoubek yaratdığı məktəblərlə ölkə elminə əvəzsiz xidmət göstərirdilər.

Ölkə bioloqlarını öz tədqiqatları ilə bitkilərin fiziologiyası, mikrobiologiya sahəsində D.Blaşkoviç, virusoloq F.Qerçik, biofizik Y.Şterel bütün dünyada layiqincə təmsil edirdi. Tibb elmini böyük alimlər histoloq F.Studniçka, tibb biokimyaçı, endokrinoloq V.Laufberqer, nevroloq Y.Qrbek, onkoloq V.Turzo, pediatr İ.Qouştek təmsil edirdi.

Texniki elmlər, xüsusilə tədbiqi mexanika sahəsində Y.Kojeşnik, maşınların hidavlik nəzəriyyəsi sahəsində Y.Qibl, texniki energetika tədqiqatçıları İ.Rjezniçek, İ.Stranski, B.Qeller səmərəli çalışırdı. Bütün bu elmi təcrübə və potensialın nəticəsində 1978-ci ilin martında ilk çexoslovak kosmonavt V.Remek "Saluyt-6" - "Soyuz" orbital uçuşunda iştirak edərək beynəlxalq ekipaj kimi bir sıra mühüm elmi-tədqiqat xarakterli təcrübə həyata keçirmişdir.

Humanitar elmlər, xüsusilə tarix elmi sahəsində İkinci Dünya müharibəsindən sonra slavyanların etnogenezi, Çexiya və Slovakiya ərazisində ibtidai insan məskənləri tarixinin öyrənilməsində Needlı, Y.Bem, Y.Filip, İ.Poulik, feodalizm və kapitalizmin genezisi, milli-azadlıq hərəkatının tədqiqində Qusa, Qosiorovski, Rjiqa, B.Varsik, İ.Yanaçek, Y.Purş, ümumi tarix və beynəlxalq münasibətləri məsələlərinin qələmə alınmasında İ.Vesele, L.Qolotik, V.Kral, M.Kropilak, Ç.Amort, İ.Qroziençik və başqalarının monoqrafiya, əsər və tədqiqatları çox dəyərli və əhəmiyyətlidir.

1948-ci ildən sonra təhsil sahəsindəki yenidənqurma xüsusilə ictimai elmləri, o cümlədən tarix, fəlsəfə, iqtisad, hüquq sahəsini marksizm-leninizm prinsipi əsasında sərt ideoloji və partiya diktəsinə tabe etməklə diqqəti cəlb edir. Tamamilə partiya və dövlətin ideoloji nəzarəti altında olan kütləvi informasiya vasitələri "yeni sovet insani" tərbiyə etmək istiqamətində çalışırdı. Odur ki, keçmişin dəyərləri üzərindən xətt çəkilərək yeni bədii ideya cəhətdən vahid siyasi xəttə uyğun yaradıcılıq metodlarından istifadə olunurdu. Karel Çapek kimi görkəmli yazıçıların yaradıcılığı demək olar ki, ədəbiyyat tarixindən çıxarılmışdır. Müasir modernist və avanqardist cərəyanlar tənqid edilir, Qərb mədəniyyəti ilə əlaqələr yox dərəcəsində idi.

Mədəniyyət sahəsində mülayimləşmə yalnız 1950-ci illərin sonu – 60-cı illərin əvvəllərində baş verdi. 1948-ci ildə Nobel mükafatı olan Yaroslav Zeyfert bu sahədə nüfuzlu və məşhur çex şairi kimi qələm yoldaşların xalqın əsl vicdan olmağa çağırdı. Yaşlı nəslin nümayəndələri V.Rjezaç, V.Nezvalın yaradıcılığında hərbi və antifaşist mövzular ön planda idi. Tədricən bədii yaradıcılıqda sosialist realizmi bərqərar oldu ki, bu da sonradan mədəniyyətin ümumi vəziyyətinə neqativ təsir göstərdi.

"Real sosializm" dövründə müxalifət və dissident mədəniyyəti ancaq Qərbdə səs gətirə bilərdi. Odur ki, Çex respublikasının gələcək prezidenti Vatslav Qavelin pyesləri məhz ilk dəfə Qərbdə işıq üzü gördü. Bundan əlavə Milan Kunder, Boqumir Qrabl kimi yazıçıların təkrarolunmaz əsərləri də məhz orada çap edilmişdir. İctimai rəyin müxalif islahatçı istiqamətini filosoflar Yan Patoçka, Karel Kosik, tarixçi Vatslav Çernının əsərləri təmsil edirdi.

Mühacirətdə 1950-ci ildən başlayaraq ABŞ-da "Azad Çexoslovakiya Şurası", Kanadada Slovakların Dünya konqresi fəaliyyət göstərirdi. 1956-cı ildən Parisdə Pavel Tiqridin başçılığı altında "Şəhadətnamə" ("Svidetelstva"), Romada Y.Pelikanın buraxdığı "Vərəqlər" ("Listı") jurnalları ətrafında intellektual elita cəmləşmişdir. Mühacirət təmsilçiləri ölkə daxilində təqib edilən müxalifətin çex və slovak yaradıcı ziyalılarına maddi kömək göstərirdilər.

Xaricdə çalışan çex kinorejissoru Miloş Formanın "Tutuquşu yuvası üzərində uçuş" ("Polet nad qnezdom kukuşki"), "Amadeus" kinofilmləri dünyada şöhrət qazanmışdır. Çexoslovak kinomatoqrafiyasında yenilikçi rejissorlar Yirji Mentsela, Verı Xitilova, Yuraya Qertsa, Yuraya Yakubisko, Ştefana Uqra və b. xüsusilə fərqlənirdilər.

1945-ci ildən sonra Çexoslovakiyada ölkənin qəhrəmanlıq tarixindən bəhs edən rejissor K.Steklının "Sirena" bədii filmi tezliklə məşhurlaşdı. Ölkədə İkinci Dünya müharibəsindən bəhs edən kinofilmlər meydana gəlməyə başladı. 1958-ci ildəki rejissor İ.Sekvensik "Qaranlıqdan qaçış" ("Beqstvo iz teni"), 1962-ci ildə İ.Novakın "Göy səma" ("Zelyonıe qorizonti") və Z.Brınixin "Cənnətdən daşınma" ("Transport iz raya") kinofilmləri buna misaldır.

Slovak rejissorları M.Qollı 1970-ci ildə "Mis qala" ("Mednaya başnya") İ.Rejuxa 1972-ci ildə "Olduqca saf oğlanlar" ("Vpolne poryadoçnıe parni"), Ş.Uqer 1975-ci ildə "Uzun gecə, uzun gün" ("Bolşaya noç, bolşaya den") kinofilmləri yaratdılar. Y.Marvan, F.Smolik, İ.Kaçirkova, V.Fialova, İ.Bek, V.Brodski, M.Vaşariova və b.aktyorların şöhrəti bütün ölkədə və dünyada yayılmışdır. Təkcə, 1976-cı ildə "Barrandov-film" kinostudiyası 68 tam metrajlı bədii film çəkmişdir.

Slovak opera sənətçiləri Qabriela Benyaçkova, Edita Qruberova, Peter Dvorski bütün dünayaya səs salmışdır. Müasir bəstəkarlardan Petr Eben və Svatopluk Qavelkinin yaradıcılığın ayrıca qeyd etmək yerinə düşər.

Müasir heykəltaraşlıq əsərlərindən 50-ci illərdəki Praqanın Jijkov dağındakı rəssam Y.Manesunun Yanu Jijke abidəsini, Karel Pokornının Slavyan adasındakı yazıçı Bojene Nemtsovanın heykəlini, V.Makovskinin "Yeni əsir" kompozisiyasını misal göstərmək olar. Bir çox çex və slovak ustaları Y.Vaqnerin Praqadakı Ali bədii-sənaye uçilisinin emalatxanasından keçmişlər. Slovak heykəltaraşı V.Kompanekinin yaradıcılığı başdan-başa xalq adət-ənənələri ruhundadır.

Müharibədən sonraki memarlıq nümunələrindən Z.Aleks, F.Ledererin Brnodakı beynəlxalq maşınqayırma yarmarkası kompleksini, K.Qubaç və Z.Patrmanın Yeşted dağındakı telegüllə və mehmanxana binalarını D.Kuzma, Y.Yankoviçin Banska-Bistritsadakı Slovak milli üsyanına həsr etdiyi abidəni nümunə kimi göstərmək olar.

1970-80-ci illərdə K.Filsak, Y.Şvetsin Praqadakı "İnternasional" mehmanxanası, Y.Xauskrextin Bratislavadakı "Forum" mehmanxanasını, V. və V.Maxoninlərin "Kotva" Praqa univermağını ən yaxşı memarlıq abidələri kimi misal çəkmək olar. 1970-ci ildə Praqa metrosunun birinci xətti zəngin vestibül mozaikası ilə işə düşdü. A.Tesar, Y.Latsko, İ.Slamenin layihəsi əsasında Bratislavaya Dunay üzərindən 431 m uzunluğunda dəmir asma körpü salındı. Müharibədən sonra bir sıra çex və slovak memarlıq inciləri yenidən bərpa edildi. Y.Fraqnerin layihəsi əsasında Praqa Universitetinin "Karolinum" böyük akt zalı, F.Tsubr, Y.Qrubı, Z.Pokornının başçılığı ilə Praqa Qradında Sv.Yirji monastrı, Bratislav Qradı, Slovakiyadakı Banska-Ştyavnitsa tarixi şəhər kompleksi yenidən bərpa edildi.

## Çex Respublikası. 1993-2015-ci illər

***Çex Respublikaslnln daxili və xarici vəziyyəti.*** 1993-cü il yanvarın 1-də dünyanın siyasi xəritəsində yer alan 78,866 km$^2$ əraziyə, 2013-cü il məlumatına görə 10 512 419 nəfər əhaliyə malik yeni müstəqil Çexiya Respublikası (ÇR) şimaldan Polşa, şimal-qərb və qərbdən Almaniya, cənubdan Avstriya, şərqdən Slovakiya ilə həmsərhəd olan mərkəzi Avropa dövlətidir. 1992-ci ilin dekabrın 16-da Çex Milli Şurası qəbul etdiyi yeni Konstitusiyası ilə Çex Respublikasında ali hakimiyyətin parlament idarə sistemini təsbit etdi. Əsas qanuna görə Çexiyada ali qanunverici hakimiyyət orqanı deputatlar və senat palatasından ibrət olan ikipalatalı parlamentə məxsus idi. Çex Respublikasının Milli Şurası 1993-cü il yanvarın 1-dən 4 il müddətinə seçilən 200 nəfər deputatdan ibarət parlamentin aşağı palatası kimi yenidən təşkil edildi. Yuxarı palata deputatların hökumətin federal yığıncağın çex deputatlarından ibarət müvəqqəti senat yaratmaq təklifini qəbul etmədiyi üçün yalnız 1996-cı ilin sonunda təşkil edilə bildi. 81 nəfərdən ibarət olan yuxarı palata 2 ildə bir dəfə heyətinin üçdə bir hissəsini dəyişmək şərti ilə 6 il müddətinə seçilirdi.

Parlament palatalarının funksiyaları dəqiq müəyyən olunmuşdur. Deputatlar palatası bütün qanun layihələrinə baxır, hökuməti təşkil edir, onun fəaliyyətinə nəzarət edir və kabinetin istefaya göndərilməsi haqqında qərar qəbul edə bilərdi. Senatdan fərqli olaraq ehtiyac olduqda prezident aşağı palata deputatlarını istefaya göndərə bilərdi, bu şəraitdə senat onun bir sıra qanunvericilik səlahiyyətlərini yerinə yetirmək hüququna malik idi. Dövlətin başçısı palataların birgə iclasında 5 il müddətinə seçilmiş prezident hesab olunurdu. Respublika prezidentinin səlahiyyəti qanunverici və idarəedici hakimiyyətin normal fəaliyyətini təmin etmək idi. Prezident deputatlar palatasının sessiyasını çağırır, onu buraxa bilər, parlamenr palatalarında seçki tarixini müəyyən edir, deputatlar palatasının təqdim etdiyi baş naziri və hökumətin üzvlərini təsdiq edir, onların istefasını qəbul edir, dövətdə bir sıra mühüm vəzifəli şəxsləri təyin edir və s. 1992-ci ildə seçilən Milli Şura öz səlahiyyətlərini 1996-cı ilə kimi davam etdirdi. 1993-cü ilin yanvarında müstəqil Çexiyanın tarixində ilk prezident seçkiləri keçirildi, üç nəfərin yarışdığı seçkidə çağmərkəzçi hökumət koalisiyası, sosial-demokratlar və liberalların müdafiə etdiyi Vatslav Qavel qələbə çaldı.

V.Klaus hökuməti iqtisadiyyat sahəsində bazar iqtisadiyyatına keçməyi nəzərdə tutan tədbirlər, o cümlədən özəlləşdirmə siyasəti yeridirdi. Çexiya digər Şərqi Avropanın keçmiş sosialist ölkələrindən fərqli olaraq özəlləşdirmə nəticəsində sosial gərginliyin, fəhlə və qulluqçuların vəziyyətinin nisbətən normal olduğu ölkə idi. Buna baxmayaraq sağmərkəzçi koalisiyasının liberal islahatları, xüsusilə sosial müdafiənin zəif olması, korrupsiya və s. Vətəndaş Demokratiyası Partiyasının və onun koalisiyadakı tərəfdaşlarının mövqeyinin zəifləməsinə, deputatlar palatası işçi orqanlarında rəhbər vəzifələri itirməsinə səbəb oldu. Bu vəziyyət siyasi partiyaların yenidən qruplaşmasına gətirib çıxardı.

1996-cı ildəki parlament seçkilərində sosial-demokratlar 1992-ci illə müqayisədə səslərini 4 dəfə artıraraq 26,4 faizə çatdırdılar. Vətəndaş Demokratiyası Partiyası seçici səslərinin 29,6 faizini əldə etdi. Çexiya və Moraviya Kommunist partiyası üçüncü yeri tutdu. Sol qüvvələr mövqelərini möhkəmlətsə də sosial-demokratlarla kommunistlər arasında ideoloji cəhətdən mövcud fikir ayrılığına görə onlar koalisiya hökuməti yarada bilmədilər. Vətəndaş Demokratiyası Partiyası, Vətədaş Demokratiyası Alyansı, Xristian-Demokratik İttifaq-Çexoslovakiya Xalq Partiyası V.Klaus Baş nazir olmaqla sağmərkəzçi koalisiya hökuməti yaratdılar. Hökumət koalisiyası partiyaları 1996-cı ilin noyabrında senata seçkilərdə də 81 mandatdan 52-sini qazanaraq qələbə çaldılar. 1997-ci ildəki iqtisadi böhran və özəlləşdirmənin gedişində yol verdiyi qanun pozuntularına görə XDİ-ÇXP koalisiyadan çıxdığı üçün 1997-ci ilin noyabrında V.Klaus Baş nazir vəzifəsindən istefa verdi.

1998-ci ilin yanvarında baş tutan prezident seçkilərində V.Qavel yalnız ikinci turda aşağı palatanın iclasında iştirak edən 197 nəfər deputatdan 99 nəfərinin səsini alaraq bir səs üstünlüklə prezident seçildi. Prezidentin səyi ilə 1998-ci ilin yanvarında Yozev Toşovskinin başçılığı ilə 1998-ci ilin ortalarında nəzərdə tutulan növbədənkənar parlament seçkilərinə qədər müvəqqəti hökumət təşkil olundu.

1998-ci il parlament seçkilərində seçici səslərinin 32,3 faizini qazanan Çex Sosial-Demokrat partiyası qələbə çaldı. İkinci yeri Vətəndaş Demokratiyası partiyası, üçüncü yeri Kommunist partiyası tutdu. Sosial-demokratlar Vətəndaş Demokratiyası Partiyasının passiv müdafiəsilə Miloş Zemanın başçılığı altında azlıq hökuməti təşkil etdilər. Bunun müqabilində VDP-sı deputat palatasının sədri vəzifəsinə öz namizədi V.Klausu seçdi. Faktiki olaraq sol və sağlardan təşkil edilən yeni hökumət dövründə cəmiyyətdə yaranmış siyasi vəziyyətlə bağlı narazılıqlar iqtisadi böhranın davam etməsinə, milli gəlirin azalmasına, işsizliyin, korrupsiya və maliyyə fırıldağının artmasına şərait yaratdı. Bu, ölkədə "zərif inqilabın" 10 illiyi münasibətilə kütləvi mitinqlərin təşkil olunmasına gətirib çıxardı. 1999-cı ildə Çexiyanın bütün böyük şəhərlərində M.Zeman və V.Klausun istefasını tələb edən çıxışlar oldu. Sosial-demokratlarla və Vətəndaş demokratlar əleyhinə yönəldilmiş aksiya "Sağ ol, gedin!" şüarları altında davam edirdi.

Xüsusilə, 2000-2001-ci illərdə Çexiya ictimai televiziyası ətrafında baş verən qalmaqal ÇSDP və VDP-larına ağır zərbə vurdu. Televiziyanın kollektivi V.Klausun partiyasına, sahibkar və siyasətçiyə yaxın olan yeni rəhbərin təyin edilməsinə qarşı çıxış edərək üç həftədən çox davam edən aksiya təşkil etdilər. Bu hərəkat bütün ölkəni bürüdü. 2000-ci il dekabrın 28-də Praqada 100 min nəfərdən çox adam etiraz nümayişinə toplaşdı. Bütün bunlara baxmayaraq, sosial-demokratlar hökuməti ilə Vətəndaş Demokratiyası Partiyası arasındakı münasibətlər davam edirdi, çünki sosial-demokrat hökumətin adı altında öz siyasətlərini yeritmək VDP-na daha əlverişli şərait yaradırdı. 2001-ci ildə M.Zeman 2002-ci il seçkilərinə kimi Baş nazir postun saxlamaq şərti ilə sosial-demokratların liderliyini Vladimir Şpidlə təhvil verdi. 2002-ci ildə iki sağ mərkəzçi partiya Azadlı İttifaqı (Aİ) və Demokratik İttifaq (Dİ) vahid liberal partiya Aİ – Dİ-ni yaratdı.

2002-ci ilin iyununda deputatlar palatasına seçkilər keçirildi, sosial-demokratlar deputat yerlərinin sayına görə birinci, vətəndaş demokratiyası ikinci, kommunistlər üçüncü, sağ mərkəzçi blok XDİ-ÇXP-Aİ-Dİ dördüncü yerə çıxdı. Uzun danışıqlardan sonra qələbə çalmış sosial-demokratların lideri V.Şpidl sağmərkəzçi blokun iştirakı ilə çoxluq hökuməti təşkil etməyi bacardı. 2003-cü il fevralın 2-də V.Qavelin prezidentlik müddəti başa çatdı, yalnız üç

turdan sonra fevralın 28-də 142 səs toplayan V.Klaus prezident seçildi.

Çex Respublikasının siyasi həyatında 2004-cü il mayın 1-də ölkənin Avropa İttifaqına üzv qəbul edilməsi əhəmiyyətli hadisədir. 2003-cü ilin iyununda ölkədə bu məsələ ilə əlaqədar keçirilən referendumda iştirakçıların böyük əksəriyyəti partiyaların kommunistlər və millətçi respublikaçılar istisna olmaqla çoxu Avropa İttifaqının üzvlüyünə tərəfdar çıxmışdır.

2006-cı ilin iyununda deputatlar palatasına növbəti seçki oldu. Təqribən seçicilərin səsinin üçdə birini VDP-sı, bundan bir faiz az sosial-demokratlar aldı. Eyni zamanda kommunistlər, "yaşıllar" və Xristian demokratlar da parlamentdə təmsil olunmaq hüququ qazandı. 2006-cı ilin avqustunda sosial-demokratların 8 illik hakimiyyətindən sonra İrji Parubekin sosial-demokrat hökuməti istefaya getdi. VDP formal olaraq koalision hökumət yaratmaq təşəbbüsünü öz üzərinə götürdü.

2010-cu ildə Çex Respublikasının Deputatlar palatasına növbəti seçki oldu. Əhalinin 62,60 faizinin iştirak etdiyi seçkidə Çexiya Sosial-Demokrat partiyası 22,08 faiz səs, 56 mandat qazanaraq birinci, Vətəndaş Demokratik partiyası 20,22 faiz səs, 53 mandat əldə edərək ikinci oldu.

Deputatlar palatasına 2013-cü ildə növbədənkənar seçkilər baş tutdu. Seçki hüququ olan vətəndaşların 59,48 faizinin iştirak etdiyi seçkidə növbəti dəfə Çexiya Sosial-Demokratik partiyası 20,45 faiz səs, 50 deputat mandatı ilə birinci sıraya yerləşdi. İkinci yerdə 18,65 faiz səs, 47 deputat mandatı ilə liberal yönümlü Narazı Vətəndaşlar Aksiyası (NVA) sahib oldu. Boquslav Sobotka hökumətin Baş naziri seçildi. Çexiyanın prezidenti Zeman Miloşdur, o, ümumxalq səsverməsi yolu ilə ölkə prezidenti seçilərək 2013-cü il martın 8-dən dövlət başçısı vəzifəsini icra edir.

1992-ci ilin yayında yaranan sağmərkəzçi partiyaları təmsil edən hökumət mərkəzləşmədən sürətlə bazar iqtisadiyyatına keçmək xəttini, özəlləşdirmə, Avropa Birliyi ilə yaxınlaşma istiqamətini əsas götürdü. V.Klaus hökuməti hələ Slovak hökumətilə birlikdə olduqları zaman qəbul edilən özəlləşdirmənin çek və ya "kupon" modelin əsas götürərək mülkiyyətin dövlət formasından xüsusi və səhmdar formaya keçidinin sosial cəhətdən daha yumuşaq yolunu seçdi. Başqa keçmiş Şərqi Avropa ölkələrindən fərqli olaraq çex qanunvericilik bazası ölkədə maliyyə "oliqarxlarının" meydana gəlməsini məhdudlaşdırırdı. V.Klaus kabineti özəlləşdirmənin sürətlə artmasını təmin edərək 1990-cı ildə xüsusi bölməni ümumi sənaye məhsulu istehsalının 7 faizindən 1993-cü ildə 45, 1999-cu ildə 80 faizə çatdırdı. Səhm özəlləşdirilməsi çex müəssisələrinin xarici kapitalın mülkiyyətinə keçməsinin qarşısını alaraq süni müflisləşmə, başqa qanunsuzluqların yolunu kəsdi. Odur ki, 90-cı illərin ortalarında sənaye istehsalı yeni investisiyaylar hesabına hətta genişlənməyə başladı.

Əhalinin 5 faizdən çox hissəsinin məşğul olduğu kənd təsərrüfatı yüksək məhsuldarlıq nümayiş etdirdi. Çexiyanın bazar iqtisadiyyatına keçməsilə keçmiş istehsal kooperativləri torpaq mülkiyyətçiləri koopertivlərinə çevrildilər. Çex kənd təsərrüfatı məhsullarının yüksək keyfiyyəti xarici bazarlarda onlara olan tələbatı artırdı, bu isə yeni investisiyalar demək idi.

V.Klaus hökuməti Avropa İttifaqı ilə Çexiyanın yaxınlaşmasına nail oldu. 1993-cü ildə keçmiş postsosialist ölkələr içərisində birinci olaraq Çex respublikası Aİ ilə "assosiativ saziş" imzalayaraq birləşmiş Avropanın qapılarını və Avropa bazarına gedən yolu açmış oldu. 1995-ci ildə Çexiya İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına üzv qəbul edildi. Bu zaman Çexiyada iqtisadi artım sürəti 4 faizdən çox, infilyasiya 9 faizdən az, işsizlik təqribən 3,5 faiz idi. Ölkə iqtisadiyyatındakı bu sabit vəziyyət 1998-ci ilin martında Çex Respublikası ilə Avropa İttifaqı arasında üzvlüyün şərtləri haqqında danışıqların başlamasına səbəb oldu.

1997-ci ildə meydana çıxan böhranın əlamətləri "Çex iqtisadi xarüqəsin" dayandırdı. 1998-ci ildə ölkənin ümumi sənaye məhsulu istehsalı 2,5 faiz aşağı düşdü. Bunun əsas səbəblərindən biri dünya iqtisadi inkişafının neqativ nəticələri, xüsusilə Asiya maliyyə böhranı idi. Çexiyanın iqtisadiyyatının böhrandan çıxarmaq vəzifəsi M.Zemanın sosial-demokrat hökumətinin üzərinə düşürdü. 1999-cu ilin martında hökumətin böhran əleyhinə proqramı təqdim olundu. Dövlət kiçik və orta sahibkarlığa yardımı artırdı, bank kreditlərinə sahib olmaq xeyli sadələşdirildi. Dövlətin sərəncamında olan strateji xarakterli müəssisələrin, o cüm-

lədən “Şkoda” zavodu, “Çexiya telekom”, yanacaq və neft-qaz müəssisələri özəlləşdirilməyə başlandı. Artıq 2000-ci ildən başlayaraq bu tədbirlər öz nəticəsini verdi, istehsal artdı, işsizlik azaldı, xarici investisiya ölkəyə axmağa üz qoydu. Hökumətin iqtisadi nailiyyətlərini nəzərdə tutan sosial-demokratların lideri və hökumətin baş naziri 2001-ci ildəki partiya qurultayında Çexiyada “sosial dövlət” quruculuğu konsepsiyasını elan etdi. Buna əsasən, bütün vətəndaşlara bərabər həyat şərtləri, o cümlədən bütün səviyyələrdə keyfiyyətli təhsil, şəxsi təhlükəsizlik, yüksək tibbi xidmət, layiqli qocalıq təminatı verilirdi.

2002-ci ilin avqustunda Mərkəzi Avropadakı “əsrin daşqını” Çexiyaya da böyük ziyan vurdu. Ölkəyə dəyən ziyan təqibən 3 milyard dollar məbləğində hesablanırdı. Çexiya Avropa İttifaqı ilə danışıqlardan özü üçün əlverişli şərait yaratmağa nail oldu. 2004-cü ilin mayında Çex respublikasının Avropa İttifaqına qəbul edilməsi onun Avropa iqtisadiyyatına inteqrasiya etməsində əhəmiyyətli faktor oldu. Eyni zamanda Çexiya Aİ-nın üzvü olmayan ölkələrlə, ilk növbədə Rusiya Federasiyası ilə ikitərəfli əməkdaşlıq müqavilələrinə yenidən baxmağa məcbur idi.

Çex Respublikası həm də Ümumdünya ticarət təşkilatına daxil oldu. Ölkənin xarici ticarətində birinci yeri Almaniya tutur, sonra isə qonşu Slovakiya, Avstriya və başqa Avropa İttifaqı ölkələri gəlir. Özünün liderliyini itirən Rusiya XXI əsrin əvvəllərində tədricən iqtisadi gücünü bərpa etməyə səy göstərir. Bu mənada Rusiyanın Çexiyaya olan 3,6 milyard dollar borcunun 2001-ci ildə qarşılıqlı danışıqlar nəticəsində 1,6 milyard dollara kimi azaldılması hər iki ölkənin münasibətlərinin normallaşdırılmasında müsbət addım hesab edilə bilər. Bu gün Çex Respublikası iqtisadi cəhətdən bütün Avropanın fəal və diqqəti cəlb edən ölkələrindən biri kimi xarici investisiyanın cazibə mərkəzinə çevrilmişdir.

Çex respublikasının xarici siyasət nəticəsində qarşısında duran əsas vəzifə ölkənin təhlükəsizliyini təmin etmək idi. Varşava Müqaviləsi Təşkilatı buraxıldıqdan sonra gənc respublika yalnız öz səyi ilə bu vəzifənin öhdəsindən gələ bilərdi. İkinci Dünya müharibəsindən sonra Bohemiya almanlarının əmlakının müsadirə edilərək ölkədən sürgün edilməsi ölkənin Almaniya tərəfindən ciddi təhlükə ilə üz-üzə qoymuşdur. Odur ki, kollektiv təhlükəsizlik sisteminin yaradılması məqsədilə 1991-ci ildə Macarıstanın Vişeqrad şəhərində Macarıstan, Polşa və Çexoslovakiya dövlət başçıları görüşərək Mərkəzi-Şərqi Avropanın təhlükəsizlik simvoluna çevrilmiş Vişeqrad üçlüyünü yaratdılar. 1993-cü ildə Çexoslovakiya dağıldıqdan sonra bu dörd dövlətin ittifaqına çevrildi, siyası birliklə bərabər gələcəkdə iqtisadi əlaqələrin də inkişaf etdirilməsi nəzərdə tutulurdu. 1992-ci ilin sonunda bu dörd dövlət azad ticarət haqqında Mərkəzi Avropa sazişini imzaladı ki, bu da 1998-ci il yanvarın 1-dən qüvvəyə mindi.

Çex respublikası başqa təhlükəsizlik yollarını da nəzərdən keçirərək postsosialist dövlətlər hesabına NATO-nun genişlənməsi təşəbbüsü ilə çıxış etdi. 1993-cü ilin aprelində deputatlar palatasındakı çıxışında Çex Respublikasının Xarici İşlər naziri Y.Zelenets qonşu dövətlər olan Almaniya, Polşa, Avstriya, Macarıstan və Slovakiya ilə tərəfdaşlıq münasibətlərini inkişaf etdirərək tədricən ölkənin Avropa təhlükəsizlik və əməkdaşlıq Təşkilatının, NATO-nun bərabərhüquqlu üzvü olması məqsədini elan etdi. 1993-cü il oktyabrın 12-də ABŞ-ın prezidenti B.Klintonun Praqada Vişeqrad qrupunun rəhbərləri ilə görüşü ərəfəsində V.Qavel deputatlar palatasında birbaşa bəyan etdi. “Biz NATO-nun tərkib hissəsi olmaq istəyirik.”

1999-cu ilin may ayında Şimali Atlantik alyansının Vaşinqton sammitində Rusiyanın etirazlarına baxmayaraq Çexiya, Macarıstan və Polşa bu qrumun üzvlüyünə qəbul edildi. Bununla bərabər, Çexiya öz ərazisində xarici ordu və nüvə silahı yerləşdirməməyi öz öhdəsinə götürdü. Çexiya NATO-nun 1999-cu ildə Yuqoslaviya İttifaq Respublikasına, 2003-cü ildə İraqa qarşı hərbi əməliyyatlarını müdafiə etdi. Çex hərbiçiləri Əfqanıstanda əməliyyatlarda iştirak edən çoxmillətli qüvvələrin tərkibinə daxil oldu. NATO ilə bərabər Çex Respublikasının 2004-cü ilin mayında Aİ-nin üzvlüyünə qəbul edilməsi onun Avropa ölkələri ilə siyasi əlaqələrlə yanaşı iqtisadi inteqrasiyasında da önəmli addım oldu. Aİ-na daxil olmaqla bərabər Çexiya Şengen sazişinə qoşuldu. 2007-ci il dekabrın 21-də yerüstü sərhədlərdə, 2008-ci il martın 21-də hava məkanına Şengen sazişinə qoşulan ölkələrdən daxil olan aviareyslərə

nəzarət ləğv edirdi. 2009-cu il yanvarın 1-dən Çexiya dövləti 6 ay ərzində Aİ-nın sədrliyini yerinə yetirdi.

Çexiya ilə Rusiya arasındakı münasibətlər XX əsrin sonu – XXI əsrin əvvəllərində mürəkkəb tarixi şəraitlə müşaiyət olunub. 1993-1999-cu illərdə Moskva Çexiyanın NATO-ya daxil olmaq cəhdinə mənfi yanaşsa da bu iki ölkə arasında tərəfdaşlıq əlaqələri 1999-cu ildən sonra inkişaf etmişdir. 2001-ci ildə Rusiya Federasiyasının Xarici İşlər naziri İ.S.İvanov və Baş nazir M.M.Kasyanov Praqaya işgüzar görüşə gəlmişdilər. 2002-ci ildə Çex Respublikasının baş naziri M.Zeman Rusiyada rəsmi səfərdə oldu. İkitərfli münasibətlərin inkişafında 2006-cı ilin martında Rusiya Federasiyasının prezidenti V.V.Putinin Praqaya səfəri, ölkə prezidenti V.Klausla, Baş nazir İ.Parubeklə, parlament palatasının rəhbərlərilə gösrüşləri mühüm rol oynadı.

Çex Respublikasının prezidenti Miloş Zaman 2015-ci il mayın 8-də faşizm üzərində qələbənin 70 illiyi münasibətilə Moskvada keçirilən təntənəli tədbirdə iştirak etmək məqsədilə Rusiya Federasiyasında səfərdə olmuşdur. Mayın 9-da Rusiya prezidenti V.V.Putinlə Çexiya prezidenti M.Zeman arasında hər iki ölkə iqtisadi əlaqələrinin inkişafı məsələlərinə həsr edilən görüş keçirilmişdir.

Çexiya Respublikası ilə müstəqil Azərbaycan arasında dostluq əlaqələri keçmişdə olduğu kimi bu gün də dinamik bir şəkildə davam edir. Bu dostluq əlaqələrinin nəticəsidir ki, 2015-ci il sentyabrın 15-də Bakıda – Azərbaycanda rəsmi səfərdə olan Çexiya prezidenti Miloş Zeman dövlət başçısı İlham Əliyevlə görüşərək hər iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrini daha da inkişaf etdirmək məsələlərini müzakirə ediblər. Hər iki tərəf dövlətlər arasındakı iqtisadi əlaqələri daha dinamik səviyyəyə çatdırmağı qeyd etmişdir.

Çexiya rəhbərliyi hazırda dünyada ölkəsinin milli mənafeyindən irəli gələn şəffaf və sabit xarici siyasət xətti yeridir.

## Slovakiya Respublikası. 1993-2015-ci illər

***Slovakiya Respublikasının daxili və xarici vəziyyəti.*** Slovakiya Respublikasının müstəqillik qazanması ölkə daxilində kəskin siyasi gərginliklə müşayiət olunurdu. 1992-ci il seçkilərindən sonra hökuməti Vladimir Meçiarın solmərkəzçi Demokratik Slovakiya Uğrunda Hərəkat və sağmillətçi Slovakiya Milli partiyası qurdu. 150 deputat mandatına sahib olan parlamentdə koalisiyanı 89 deputat təmsil edirdi ki, onlar da 1993-cü ilin fevralnda ÇSFR-in axırıncı federal məclisinin sədri olmuş Mixail Kovaçı Slovakiya Respublikasının prezidenti seçdi. 1992-ci ildə qəbul edilən Konstitusiyaya əsasən prezident 5 il, parlament isə 4 il müddətinə seçilirdi. Koalisiya hökuməti artıq 1993-cü ilin martında dağılmağa başladı, yarım illik birpartiyalı azlıq hökumətinin fəaliyyətindən sonra V.Meciar yenidən koalisiya hökuməti yatadı ki, bu da 1994-cü ilin fevralında bir qrup deputatın DSUH-ın sıralarını tərk etməsi ilə yenidən azlıq hökumətinə çevrildi.

İqtisadi çətinliklər, dövlət aparatındakı tez-tez kadr dəyişiklyi, macar milli azlığı ilə ziddiyyətlər hökumətin və baş nazirin müxalifət tərəfindən tənqidinin çoxalmasına səbəb olurdu. Hökumətin fəaliyyəti prezident M.Kovaçı da qane etmirdi, odur ki, tezliklə prezident V.Meciarın tərəfdarından rəqibinə çevrildi. Bütün bu narazılıqların nəticəsində 1994-cü ilin martında parlament V.Meçiar kabinetinə etimadsızlıq göstərərək onları istefaya göndərdi. Yeni hökumət koalisiyası Yozef Moravçikin başçılığı altında müvəqqəti olaraq 1994-cü il parlament seçkilərinə kimi fəaliyyət göstərdi. Növbədənkənar seçkilərin nəticəsinə görə Slovakiya Kəndli Partiyası ilə blok təşkil edən Demokratik Slovakiya Uğrunda Hərəkat seçici səslərinin 35 faizini alaraq qələbəsini təmin etdi. Milli Şuraya eyni zamanda solların koalisiyası "Ümumi seçki" bloku, Macar koalisiyası, Xristian Demokratik partiyaları koalisiyası daxil oldular. DSUH-ın sədri V.Meçiar yenidən kiçik partiyalarla birlikdə hökuməti qurdu. Demokratik Slovakiya Uğrunda Hərəkatın parlament çoxluğu müxalifəti siyasi həyatda küncə sıxışdırmağı bacardı, prezident M.Kovaçla hökumət arasındakı ziddiyyət isə gündən-günə dərinləşdirdi. Nəticədə, Slovakiyada parlament demokratiyasının fəaliyyətinin özünə-

məxsus modeli ortaya çıxdı ki, burada da hakim rolunu Konstitusiya məhkəməsi oynayırdı. Prezident Milli Şuranın qəbul etdiyi qanuna veto qoyur, hökumət çoxluğu vetonu dəf edir, bu halda ya prezident, ya da müxalifət Konstitusiya məhkəməsinə müraciət edirdi ki, onun qərarı qəti olurdu. V.Meçiarın avtoritar rəhbərlik metodu Slovak siyasi elitasının bir-birinə qarşı sərt mövqey tutan iki cəbhəyə bölünməsinə gətirib çıxardı. Ölkə prezidenti M.Kovaçın səlahiyyət müddəti başa çatmaq üzrə olduğu üçün müxalifət qüvvələri V.Meçiarın mövqeyinin daha da artmasından ehtiyat edərək parlament çoxluğuna qarşı 1996-ci ilin sonunda “yaşıl koalisiya” yaratdılar ki, onlar da prezidentin seçilməsi prosedurasın dəyişdirməyi qarşılarına məqsəd qoymuşdur. Lakin V.Meçiar bu məqsədlə 1997-ci ilin mayına təyin edilən referendumu ləğv edə bildi. Buna cavab olaraq, müxtəlif meyilli sağ və sol 5 partiya müxalif Slovakiya Demokratik Koalisiyasında birləşdi. Tezliklə partiyaya çevrilən bu təşkilata Mikulaş Dzurinda başçılıq etdi. 1998-ci ilin martında M.Kovaçın səlahiyyət müddəti başa çatsa da konstitusiya dəyişikliyi ilə bağlı olaraq prezident seçkiləri 15 aydan sonra keçirildi. Bu müddət ərzində prezidentin səlahiyyətlərini Baş nazir V.Meçiar icra etsə də o üçüncü dəfə hökumətə başçılıq edə bilmədi.

1998-ci ilin payızında növbəti parlament seçkiləri oldu. Seçici səslərinin 27 faizini, başqa sözlə 150 deputat yerindən 43-ün əldə edən Demokratik Slovakiya Uğrunda Hərəkat birinci oldu. Onun müttəfiqi Slovakiya Milli partiyası da parlamentə daxil oldu. Amma qalan bütün mandatlar müxalifətə nəsib oldu, onlar 93 yer aldılar M.Dzurindanın Slovakiya Demokrat Koalisiya partiyası uzun danşıqlardan sonra çoxluq hökuməti təşkil etməyi bacardı. Əvvəlki hökumətlər dövründə aşağı sürətlə həyata keçirilən özəlləşdirmənin sürəti artırıldı, kütləvi informasiya vasitələri üzərində dövlətin nəzarəti zəiflədi, avroatlantik qurumlarına inteqrasiya cəhdi gücləndi.

1999-cu ilin mayında Slovakiya Respublikasının tarixində 5 nəfər namizədin, o cümlədən V.Meçiarın yarışdığı birinci ümum səsverməsi ilə prezident seçkisi keçirildi. Koşitsenin meri, keçmiş Slovakiya Sosialist Respublikası parlamentinin sədri, keçmiş Slovakiya KP MK-nın üzvü Rudolf Şuster ikinci turda qalib gələrək ölkə prezidenti seçildi. Demokratik Slavakiya Uğrunda Hərəkat müxalifətə keçərək hətta 2000-ci ilin yazında hökuməti vaxtından əvvələ istefaya göndərməyə cəhd edərək ümumxalq referendumu təşkil etməyə müyəssər oldular, lakin seçkilərin seçki məntəqəsinə kifayət qədər gəlməməsi onun nəticələrini ləğv etməklə başa çatdı. Bundan sonra, partiya xalq adını qəbul edərək bir tərəfdən Slovakiyanın milli maraqlarını müdafiə etməyi, başqa bir tərəfdən ölkənin avropa və transatlantika strukturlarına daxil olmağı qarşısına məqsəd qoydu. Bu 2002-ci il seçkiləri ərəfəsində partiyanın yenidən parçalanmasının qarşısını ala bilmədi.

Slovakiyanın yeni hökuməti NATO və Aİ-na daxil olmaq kursu götürmüşdür. Ərazi-inzibati islahatı ətrafında kəskin daxili mübarizə başladı. Parlamentdə müxalifətin layihəsi qəbul edildi ki, buna əsasən ölkə öz yığıncağı və hökuməti olan 8 dairəyə bölünürdü. Dairə hakimiyyət orqanları sosial təminat, səhiyyə, təhsil, ətraf mühitin mühafizəsi, nəqliyyat xidməti, regionun iqtisadi inkişafı və onun üçün lazım olan maliyyə vəsaiti məsələlərində böyük səlahiyyətlər alırdı.

2002-ci ilin seçki kampaniyası kəskin siyasi mübarizə şəraitində keçdi. Səslərin çoxun qazanan V.Meçiarın solmərkəzçi partiyası 19,5 faiz seçici səsi ilə birinci yerə çıxdı. Səslərin miqdarına əsasən ikinci yerə 15,9% seçici səsi ilə M.Dzurindanın sağmərkəzçi Slovakiya Demokratik və Xristian İttifaqı çıxdı. Məhz M.Dzurindanın təşkil etdiyi ikinci hökumət Slovakiyanın Avropa İttifaqına üzvülüyü məsələsini 2003-ci ildə keçirdiyi referendumla həll etmiş oldu. Referendumda iştirak edənlərin yarıdan çoxu Avropa İttifaqına səs verdi.

Hökumət katolik kilsəsinin məktəb və tərbiyə müəssisələrində rolunun artması tərəfdarı idi. Slovakiyada sosialist quruluşu dövründə kilsənin müsadirə edilmiş əmlakı, o cümlədən daşınmaz əmlak və tikililər ona qaytarıldı. Papa II İohan Pavel Slovakiyaya üçüncü dəfə səfər edərək dindarlara və əhaliyə xeyir-dua verdi.

2004-cü ilin aprelində Slovakiyada iki turdan ibarət prezident seçkiləri baş tutdu. Y.A.Komenski adına Bratislava Universitetinin hüquq üzrə professoru, təmkinli siyasətçi İvan

Qaşparoviç seçici səslərinin 60 faizini alaraq V.Meçiarı qabaqlayıb ölkə prezidenti seçildi. Prezident seçkilərinin ardınca 2006-cı ilin iyununa yeni parlament seçkiləri təyin edildi. Müxalifətdə olan sosial-demokrat "İstiqamət – SD" partiyası seçkilərdə iştirak edən 55 faiz seçicinin 29 faizdən çox səsini alaraq Milli Şurada 50 mandat əldə etdi. Bundan başqa, SDXİ, Slovakiya Milli partiyası, Macar koalisiyası partiyası, DSUH və Xristian demokratlar parlamentə daxil ola bildilər. Kommunistlər 5 faizlik səddi aşa bilmədilər. Robert Fitso koalisiya hökumətin formalaşdırdı.

2012-ci il martın 10-da Slovakiyada növbədən kənar parlament seçkiləri keçirildi. "İstiqamət-Sosial Demokratiya" Partiyası seçici səslərinin 44,41 faizini qazanaraq 83 deputat yerinə sahib oldu. R.Fitso yenidən növbəti hökuməti formalaşdırdı.

2014-cü ilin martın 15-də Slovakiyada keçirilən prezident seçkisində müstəqil namizəd kimi iştirak edən Andrey Kiska ikinci turda seçici səslərinin 59,4 faizini alaraq "İstiqamət-Sosial Demokratiya" partiyasının lideri Robert Fitsonu qabaqlayaraq ölkənin dördüncü prezidenti seçildi. Mühəndis-elektrik olan yeni ölkə prezidenti 2004-2014-cü illərdə Slovakiyanın dövlət başçısı İvan Qaşparoviçi əvəz etdi.

Slovakiyanın federasiyanın tərkibindən çıxması ölkənin iqtisadiyyatının inkişafına şərait yaratmadı. Əvvəlki iqtisadi əlaqələrin pozulması, xüsusilə hərbi sənaye məhsulu istehsalı üzrə ixtisaslaşmış Slovakiya iqtisadiyyatının postsovet və postsosialist ölkələrinin bazarlarından məhrum olması ölkənin iqtisadiyyatına daha da ağır zərbə vurdu. V.Meçiar hökuməti zamanı 1993-cü ildə hələ də infilyasiyanın səviyyəsi 21 faizdən artıq idi, əhalinin əmanətləri qiymətdən düşmüş, əmək qabiliyyətli əhalinin 10 faizindən çoxunu işsizlər təşkil edirdi. Özəlləşdirmədən əsasən baş nazirə yaxın olan partiya üzvləri faydalandığı üçün onlar müəssisələrin inkişafı üçün deyil şəxsi varlanmaq məqsədilə çalışırdılar. Odur ki, cəmiyyətin böyük əksəriyyəti real iqtisadi canlanmanı hiss etmədiyi üçün V.Meçiar hökuməti istefaya getməyə məcbur oldu.

1994-cü idəki Y.Moravçik hökuməti də liberal təsərrüfat siyasəti yeritməsinə baxmayaraq, özəlləşdirməni və bazar iqtisadiyyatına keçidi sürətləndirdiyi halda iqtisadi vəziyyəti qaydaya salmağı bacarmadı. Dövlət aparatında kök salan korrupsiya və rüşvətxorluğun axırına çıxmaq mümkün olmadı.

1994-cü ildə V.Meçiarın İkinci kabineti 1995-ci ildə dövlət mülkiyyətinin özəlləşdirilməsi sahəsində qanuna əsaslı dəyişiklik etdi. Hər bir ölkə vətəndaşı kupon özəlləşdirməsi yerinə 10 min kron məbləğində dövlət borc istiqrazı aldı. 2000-ci ildə ödənilməsi nəzərdə tutulan bu proses xarici investorların ölkəyə daxil olmasının faktiki qarşısını alırdı. Ölkə daxilində müəssisələrə ayrılan investisiyaları artırmaq məqsədilə xaricdən borc alınması nəticəsində 1998-ci ildə xarici dövlət borcları 3 dəfə artaraq 11,9 milyard dollara çatdı.

1998-ci ildə M.Dzurindanın koalisiya hökuməti bir sıra struktur islahatlarına başladı, büdcədən maliyyələşdirilənlərin əmək haqqı azaldıldı, qiymətlər artırıldı, sahibkarlıq sahəsinin vergiləri yüksəldildi və s. Dövlət mülkiyyətində qalan müəssisələrin və bank sahəsində səhmlər paylanmağa başlandı. Bu məqsədlə hökumət xarici investorları daha fəal ölkəyə cəlb etməyi qarşısına məqsəd qoymuşdur. Tətbiq edilən tədbirlər tezliklə öz nəticəsini verdi. Yalnız 2000-ci ildə Slovakiyaya 1,1 milyard dollar xarici investisiya cəlb edilmişdir ki, hansı ki, bu 1990-cı ildən 1999-cu ilə kimi ancaq 2,1 milyard dollar olmuşdur. 2003-cü ildə isə xarici kapital qoyuluşu 3 milyard dollar təşkil etdi. Ölkəyə axan kapital xüsusilə metallurgiya, rabitə, neft-qaz sənayesi, bank sahəsinə yönəlmişdir. Qiymətlərin sərt liberallaşması, dövlət büdcəsinin azaldılması işsizlərin və inflyasiyanın artması ilə müşayiət olunurdu. 1998-2001-ci illərdə işsizlərin sayı 13,7-dən 18,3 faizə qalxdı, inflyasiya isə 5,8-14,2 faiz arasında tərəddüd edirdi. Lakin tədricən ölkədəki iqtisadi və sosial gərginlik azaldı, V.Meciar hökumətinin sonunda hətta 7 faizlik iqtisadi artım qeyd olundu. Son illər xüsusilə Slovakiya sənayesi üçün yüksək artım sürəti xarakterikdir, lakin bu məşğulluq və infilyasiya sahəsindəki neqativ halları axıra kimi aradan qaldırmağa kömək etmir.

Müstəqil Slovakiya Respublikasının dünya miqyasında ayrıca subyekt kimi görünməsi ölkənin xarici siyasət xəttini fəallaşdırmağı tələb edirdi. Artıq 1993-cü ilin yanvarında

Slovakiya BMT-na üzv oldu, 1994-cü ilin sonunda isə gənc respublikanı dünyanın 122 dövləti tanıyırdı. 1994-cü ildə ölkənin Baş naziri V.Meçiar Slovakiyanın Avropa İttifaqına üzv olması məqsədilə rəsmi müraciət etdi. 1995-ci ildə Slovakiya NATO-ya üzv olmaq niyyətini bildirdi. Lakin tezliklə V.Meçiar Avropa ilə çətin və uzun danışıqları nəzərə alaraq Rusiya ilə ikitərəfli münasibətləri önə çəkdi. Odur ki, Slovakiya 1997-ci ildə Aİ-na daxil olan namizəd ölkələr sırasına daxil edilmədi. Bundan başqa, Slovakiya NATO-nun Madrid sammitində bu quruma daxil olmağa namizədlər sırasından çıxarıldı. V.Meçiar hökumətinin qonşu Çexiya və Macarıstanla da münasibətləri lazımi səviyyədən çox uzaq idi. Slovakiya hökumətinin Dunay üzərində Rusiya istehsalı atom reaktorlarının quraşdırılması macar ictimaiyyətinin etirazına səbəb oldu. Buna yalnız 1995-ci ildə dostluq və əməkdaşlıq haqqında slovak-macar müqaviləsi imzalandıqdan sonra son qoyuldu.

1998-ci ildə Qərbin maliyyə və təbliğat dəstəyi ilə qurulmuş koalisiya hökuməti fəaliyyətə başladıqdan sonra ölkənin xarici siyasət xəttində Aİ və NATO-ilə əməkdaşlıq önə çıxdı. Bu istiqamətdə geniş koalisiya hökumətinin tədbirləri sayəsində Slovakiya 1999-cu ildə Aİ-na üzv olmağa namizədlərin birinci dalğası sırasına daxil edildi. Slovakiyanın qəti olaraq Avropa İttifaqına qəbul edilməsi 2004-cü ilin mayında baş tutdu. 2009-cu il yanvarın 1-də Slovakiya avro zonasına daxil oldu.

2002-ci ilin noyabrında NATO-nun Praqada keçirilən sammitində Slovakiyanın NATO-ya daxil olması üçün dəvətnamə göndərmək haqqında qərar qəbul edildi. 2003-cü ildə Slovakiyanın NATO-ya daxil olması prosesi başa çatdı, 2004-cü il martın 29-da Slovakiya NATO-nun üzvü oldu.

Slovakiya dövləti Rusiya Federasiyası ilə də ikitərəfli əlaqələri inkişaf etdirir. 2005-ci ilin fevralında Rusiyanın prezidenti V.V.Putin və Slovakiyanın prezidenti İ.Qaşparoviç Bratislavada iki ölkə arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında müqavilə imzadılar. Slovakiya indi Avropa və dünya birliyinin bərabərhüquqlu üzvü kimi bütün ölkələrlə sağlam və şəffaf əlaqələr qurmağa səy göstərir. Parlament respublikası olan Slovakiyanın 2015-ci ildə əhalisi 5,5 milyon nəfər, ərazisi 49 034 $km^2$ idi. Əhalinin 69 faizi katolik, 11 faizi protestant və s. dinlərə məxsus idi. Xalqın 78,6 faizi slovak dilini ana dili hesab edirdi. Bratislava, Koşitse, Preşov, Jilina Slovakiyanın ən böyük şəhərləridir.

# III BÖLMƏ

# CƏNUBİ SLAVYAN ÖLKƏLƏRİ 1918-2015-ci İLLƏRDƏ

## Bolqarıstan 1918-2015-ci illərdə

### Bolqarıstan 1918-1939-cu illərdə

***Bolqarıstanın siyasi həyatı.*** Birinci Dünya müharibəsinin sonuna doğru Bolqarıstan ağır siyasi və sosial-iqtisadi böhranla üzləşdi. XX yüzilliyin ikinci onilliyində Bolqarıstanın iştirak etdiyi Balkan müharibələri və Birinci Dünya müharibəsi ölkəni gücdən salaraq siyasi və sosial-iqtisadi böhranı daha da dərinləşdirdi. İnflyasiya tüğyan edirdi. Dövlətin adambaşına borcu iki min lev həddində idi. İqtisadiyatın dövlət tənzimləməsindən heç bir müsbət nəticə əldə edilmədi, xalqın güzaranı pisləşməkdə davam edirdi. İqtisadi böhran Bolqarıstanda sosial ziddiyyətləri kəskinləşdirdi, ölkəni etiraz dalğaları bürüdü.

1917-ci ilin Oktyabrında Rusiyada silahlı üsyan vasitəsilə bolşeviklərin hakimiyyətə gəlməsi nəticəsində bolqar ordusunda Bolqarıstan Fəhlə Sosial Demokrat Partiyası (sıx sosialistlər) və Bolqarıstan Əkinçi Xalq İttifaqı üzvləri tərəfindən müharibə əleyhinə aparılan təbliğat artdı, rumın cəbhəsində bolqar və rus əsgərlərinin qardaşlaşması baş verirdi. 1918-ci ilin martına qədər 40 min əsgər və 800 zabitin məhkəməyə verilməsinə, onlardan 450 nəfərin ölüm cəzasına məhkum edilməsinə baxmayaraq orduda itaətsizlik artırdı. Hadisələr yaxınlaşan fəlakətin çox ciddi olduğunu göstərirdi. Hökumətin qarşısında müharibə qurtarmamış ondan çıxmaq və eyni zamanda Moraviya, Makedoniya və Dobrucada tutulmuş əraziləri Bolqarıstana qatmaq kimi əslində həllolunmaz vəzifələr dururdu. Bununla yanaşı, 1918-ci ildə Brest-Litovskdə Dördlər İttifaqı ilə Sovet Rusiyası arasındakı danışıqlar da heç bir ümidin olmadığını göstərirdi. Bolqarıstanın Şimali Dobrucaya olan iddiaları Almaniya tərəfindən də qəbul edilmədi.

Brest-Litovsk danışıqlarının nəticəsi V.Radoslavov hökumətinin taleyini həll etdi, 1918-ci ilin iyununda çar Ferdinand Demokrat partiyanın lideri A.Malinovu Baş nazir, Radikal partiyanın rəhbəri S.Kosturkovu onun müavini təyin etdi. Bu ölkəni ağır vəziyyətdən xilas edə bilmədi.

1918-ci ilin payızında Bolqarıstan ordusunun bir sıra hərbi hissələrində üsyanlar başladı. Bu üsyanlardan ən böyüyü və əzamətlisi 1918-ci il sentyabrın 15-17-də Antanta qoşunları tərəfindən Dobro-Pole rayonunda Saloniki cəbhəsi yarıldıqdan sonra əsgərlərin başladıqları Vladay üsyanı idi. Makedoniya cəbhəsi hissələrinin müharibədən yorulmuş, ac, yarıçılpaq bolqar əsgərləri BFSDP-nin üzvü İ.Dmitrovun başçılığı altında vuruşan ordunun qərargahı yerləşən Küstendil şəhəri istiqamətində yürüşə başladılar və sentyabrın 24-dən 25-nə keçən gecə baş qərargahı dağıdaraq, Çar hökumətini devirmək və müharibə səbəbkarlarını cəzaladırmq üçün Sofiyaya doğru hərəkət etdilər.

1918-ci il sentyabrın 25-də Baş nazir A.Malinov çar Ferdinanda belə bir məlumat verdi ki, müharibə uduzulmuşdur, Antanta qoşunları komandanlığına barışıq imzalanması haqqında təklif verildi. A.Malinovun kabineti paytaxtın müdafiəsinin təşkilinə dair tədbirlər gördü. Hökumətin sədri A.Malinov üsyançıları döyüş mövqeyinə qaytarmağa inandırmaq məqsədilə müharibə əleyhinə təbliğat apardıqlarına görə 1915-ci ildə həbs edilmiş BƏXİ-nin liderləri Aleksandr Stambolskini (1879-1923) və Rayko Daskalovu (1886-1923) həbsxanadan buraxdırdı. Azad olunduqdan sonra A.Stambolski Küstendil şəhərinə, R.Daskalov isə üsyançıların fəaliyyətini əlaqələndirən əsgər komitəsi yerləşən Radomir şəhərinə gələrək üsyançıların tərəfinə keçdilər.

1918-ci il sentyabrın 27-də üsyan etmiş əsgərlərin tələbi ilə BƏXİ-nin liderləri A.Stambolski və R.Daskalov Bolqarıstan Respublikasının yarandığını elan etdilər. Sentyabrın 28-də üsyançıların ön dəstələri Sofiya şəhərinin 15 kilometrliyindəki Vladay kəndinə çatdı. Üsyançılar paytaxtı döyüşsüz təslim etmək haqqında hökumətə ultimatum təqdim etdilər,

lakin tələbləri yerinə yetirilmədi. Sayı 30 mindən artıq olan inqilabi qoşunlar paytaxtın lap yaxınlığında idilər, halbu ki, Sofiya qarnizonunun sayı cəmi 500 nəfərdən ibarət idi. Üsyançılar sentyabrın 29-30-da paytaxta hücum etsələr də ağır silahları olmadığı üçün buna nail ola bilmədilər.

Üsyan səbəbi ilə Antanta ölkələri Bolqarıstana qarşı hərbi əməliyyatları dayandırmağa tələsdi və sentyabrın 29-da Salonikdə Bolqarıstan ilə barışıq müqaviləsi imzaladı. Bu tələsikliyə səbəb Antanta ölkələrinin Rusiya hadisələrinin Bolqarıstanda təkrarlanmasından ehtiyat etməsi idi. Sentyabrın 30-da hökumət qoşunları və köməyə gəlmiş alman hərbi birləşmələri üsyançı qoşunları Sofiyadan geri oturtdular. Elə həmin gün üsyançı qoşunlar Vladay kəndində darmadağın edildi. Oktyabrın 2-də Radomir şəhəri işğal edildi və üsyan iştirakçılarına amansız divan tutuldu. Üsyanın yatırılması zamanı 3 min nəfərdən çox adam öldürüldü. Üsyanın məğlub olma səbəblərindən biri möhkəm inqilabi rəhbərliyin olmaması idi, belə ki, BFSDP üsyanın əhəmiyyətini lazımca qiymətləndirmədi və üsyana başçılıq etmədi. BƏXİ-ni liderləri Aleksandr Stambolyski və Rayko Daskalov, üsyanı çar Ferdinandın hakimiyyətindən kənar edilməsi ilə məhdudlaşdırmaq fikrində idilər. Vladay əsgər üsyanı məğlub olsa da, bu üsyan 1917-1918-ci illərdə Bolqarıstanda olmuş inqilabi hadisələrin ən yüksək nöqtəsi idi və Bolqarıstanın müharibədən çıxmasını sürətləndirdi.

1918-ci ilin sentyabrında imzalanmış barışığa əsasən Antanta qoşunları Bolqarıstana daxil oldular. Bolqarıstan az sayda sərhəd qoşunları istisna olmaqla öz ordusunu tərxis etməyi, silahlarını və işğal etdiyi ərazini müttəfiqlərə verməyi öhdəsinə götürürdü. Salonik barışığının gizli maddəsi, Bolqarıstanı işğal etməkdən başqa, Antanta dövlətlərinə ölkənin ərazisindən, nəqliyyat və rabitə vasitələrindən, limanlardan hərbi məqsədlər üçün istifadə etmək hüququnu da verirdi ki, bu da əslində Bolqarıstanın təslim olması demək idi. İşğalçılar ciddi senzura yaratdılar, ölkədəki inqilabi hərəkat və Sovet Rusiyası haqqında materiallar nəşr etməyi qadağan etdilər, bir çox rəhbər vəzifələrə mürtəce generallar və zabitlərin təyin edildiyi bolqar ordusu üzərində nəzarət qoydular.

Antanta ölkələrinin Bolqarıstana münasibətdə monarxiyanın gözdən düşmüş nüfuzunu bərpa etmək məqsədilə hakim dairələr Bolqarıstanın Almaniya tərəfindən müharibəyə sövq edilməsində çar Ferdinandı müqəssir hesab edərək, onu qurban verdilər. Ölkəni 30 ildən çox idarə etmiş çar Ferdinand 1918-ci il oktyabrın 3-də oğlu Borisin (1894-1943) xeyrinə taxtdan əl çəkdi və Bolqarıstandan birdəfəlik getdi. Tam adı Boris Klement Robert Mariya Piy Stanislav Saksoburqqotski olan III Boris 1894-cü il yanvarın 30-da Sofiya sarayında doğulmuşdur. Birinci Dünya müharibəsinin iştirakçısı kimi 1916-cı ildə podpolkovnik, 1918-ci ildə general-mayor rütbəsini almışdır. 1918-ci il oktyabrın 3-dən Bolqarıstanın çarı elan edilən III Boris Birləşdirici 1923-cü il 9 iyun, 1934-cü il 19 may çevrilişlərinin xeyir-duasını şəxsən vermişdir. İkinci Dünya müharibəsində Roma-Berlin-Tokio ilə əməkdaşlıq edərək Cənubi Dobrucanın Krayov sazişi ilə Bolqarıstana verilməsini təmin etmişdir. 1941-ci ildə Bolqarıstanın Neyi sülhünə əsasən 1919-cu ildə itirdiyi tarixi Makedoniya ərazisi Egey dənizinə çıxışı ilə birlikdə ona qaytarıldı. Dəfələrlə A.Hitlerlə görüşməsinə baxmayaraq SSRİ-yə müharibə elan etməmiş və Şərq cəbhəsinə bolqar qoşunlarını göndərməmişdir. Həmçinin almanlar tərəfindən icbari işlərə səfərbər edilən 50 min bolqar yəhudini xilas etmişdir. 1943-cü il avqustun 28-də Sofiyada Şərqi Prussiyada A.Hitlerlə görüşdükdən bir neçə gün sonra rəsmi məlumata əsasən infaktdan vəfat etmişdir.

Çar III Boris və yeni hökumət inqilabi hərəkatı boğmaq və Bolqarıstanın Balkanlarda antisovet hərbi meydanına çevirmək siyasəti yetirməyə başladılar. Antantanın planlarına görə Bolqarıstan Sovet Rusiyası əleyhinə silahlı müdaxilədə iştirak etməli idi. Fransız, ingilis və italyan işğalçı qoşunlarının ölkəyə daxil olması Bolqarıstanda daxili vəziyyəti daha da kəskinləşdirdi. İşğalçılar ən mühüm strateji dəmir yollarını, Qara dənizdəki Varna və digər limanları tutdular, rabitə vasitələri üzərində nəzarət qoydular və siyasi həyata müdaxilə edərək, fəhlə hərəkatı ilə mübarizədə Bolqarıstanın hakim dairələrinə kömək etdilər. İşğalçıların ağalıq etməsi bolqar xalqı içərisində getdikcə artan qəzəb hissi oyadırdı.

A.Malinovun geniş koalisyon hökuməti cəmi bir ay fəaliyyət göstərə bildi. Cənubi

Dobruca məsələsini Bolqarıstanın xeyrinə həll edə bilmədiyindən və bu ərazi Rumıniyaya verildiyindən A.Malinov istefaya çıxdı. Onu həmin vəzifədə əvəz etmiş Xalq partiyasının lideri T.Teodorov Tərəqqipərvər-Liberal partiyasını da ölkənin idarə etməsinə cəlb etmək hesabına hökumət koalisiyasını genişləndirdi. BƏXİ-nin liderlərinin də hökumət koalisiyasında iştirak etməkdə əsas məqsədi gələcəkdə dövlət hakimiyyətini öz əllərinə almaq idi. 1919-cu ildə siyasi məhbuslara amnistiya elan olunduqdan sonra həmin ilin mayında T.Teodorovun kabinetinə daxil edilmiş A.Stambolski hökumətdə BƏXİ-nin nümayəndələrinin artırılmasına nail olmağa cəhd göstərirdi. Lakin 1919-cu ilin mayında təşkil edilmiş T.Teodorovun ikinci koalision hökumətində BƏXİ-na əlavə portfellər verilmədi.

1919-cu ilin avqustunda müharibədən sonra birinci dəfə olaraq Bolqarıstan Xalq məclisinə parlament seçkiləri keçirildi. Seçkilərdə BƏXİ qalib gələrək parlamentdə 85, BKP – 47, BFSDP (birləşmiş) – 38, Demokrat Partiyası – 28, Xalq Partiyası – 19 və Tərəqqinərvər-Liberal Partiya – 8 yer aldı. Çar III Boris yeni hökumətin təşkilini A.Stambolskiyə həvalə etdi. BƏXİ parlamentdə səs çoxluğuna malik olmadığından A.Stambolski Xalq partiyası və Tərəqqipərvər-Liberal partiya ilə danışıqlar apararaq 1919-cu il oktyabrın 6-da yeni hökumətin təşkilini başa çatdırdı. Sülh müqaviləsinin imzalanması bu hökumətin üzərinə düşdü.

Bolqarıstan nümayəndə heyəti hazırlanmış müqavilənin layihəsini 1919-cu il sentyabrın 19-da aldı. Layihəyə baxılmaq üçün bolqar tərəfinə 25 gün vaxt verilmişdi, lakin onlar bu müddətin 2 aya qədər uzadılmasına nail oldular. Bu müddətdə Bolqarıstan tərəfi müxtəlif vasitələrdən istifadə edərək qalib dövlətlərdən müqavilənin şərtlərinin yumşaldılmasına nail olmağa çalışsalar da heç bir güzəştə nail ola bilmədilər. 1919-cu il noyabrın 13-də Bolqarıstan nümayəndə heyəti müqavilənin Bolqarıstan üçün ədalətsiz olmasına baxmayaraq onu qəbul etdiyini bildirməyə məcbur oldu. Lakin nümayəndə heyətinin rəhbəri T.Teodorov müqviləni imzalamaqdan imtina etdi və bu işi Baş nazir A.Stambolski yerinə yetirdi. 1919-cu il noyabrın 27-də Parisin ətrafı Neyi qəsəbəsində imzalanmış bu müqavilə Versal sülh müqavilələri sisteminin tərkib hissələrindən biri olub, şərtləri Bolqarıstan üçün fəlakətli dərəcədə ağır idi. Bu sənədə əsasən Bolqarıstan ərazisinin ondabir hissəsini, o cümlədən Rumıniyaya verilən Cənubi Dobrucanı, Yunanıstana verilən Egey dənizinə çıxışı ilə birlikdə Qərbi Frakiyanı, Yuqoslaviyanın tərkibinə daxil edilmiş Bolqarıstanın qərbindəki Strumia şəhərini, Bosileqrad və Çaribroqu, Kulski dairəsinin bir neçə kəndini itirdi. 37 il müddətində Bolqarıstan qalib dövlətlərə 2,25 milyard qızıl frank dəyərində təzminat ödəməyə, 70 min baş mal-qara, 250 min ton daş kömür verməyə borclu idi. Bolqarıstanın silahlı qüvvələri 20 min nəfər həddində ola bilərdi. Bolqarıstan işğalçı qoşunları saxlamaq üçün bütün məsrəfləri ödəməli, ölkənin iqtisadiyyatı isə İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarət ittifaqlararası komissiyanın nəzarətinə tabe edilirdi.

***Aqrarçıların idarəçiliyi. 1919-1923-cü illər.*** 1919-cu il oktyabrın 6-da təşkil edilən A.Stambolski hökuməti Neyi sülh müqaviləsinə əsasən Birinci Dünya müharibəsindən çox böyük əhali, ərazi və maddi itkilərlə çıxan Bolqarıstanı böhrandan çıxarmaq, sosial gərginliyi aradan qaldırmaq məqsədilə yollar axtarmağa başladı. BƏXİ-nin XV qurultayında A.Stambolski koalision hökumətinin nəzərdə tutduğu siyasətin ümumi istiqamətləri işlənib hazırlandı. Əhalinin tələblərinə cavab verən müharibə vaxtı qazanılan gəlir üzərində vergi qoyulmasına dair, sənətkarlara yardım haqqında, müharibə vaxtı müsadirə edilən mal-qaranın əvəzini almamış kəndlilərə yardım edilməsi və s. qanunlar qəbul olundu.

Hökumətin tədbirlərinə baxmayaraq, 1919-cu il mayın 27-29-da Sıx sosialistlərin-tesnyakların qurultayı partiyanın Kommunist partiyası adlandırılması haqqında qərar qəbul etdi və 1919-cu il dekbarın 24-də BKP və Sosial-Demokrat partiyalarının çağırışı ilə ölkədə kütləvi etiraz aksiyaları başladı. Aksiya zamanı nümayişçilərlə hökumət qüvvələri arasında toqquşma baş verdi. A.Stambolski hökumətinin fəaliyyəti haqqında məsələ Xalq Məclisinin 1919-cu il dekabrın 27-29-da keçirilən iclasının müzakirəsinə çıxarıldı. Hökumət özünün atdığı addımlara bəraət qazandırmaq üçün belə bir bəyanət verdi ki, kommunistlər və sosial-demokratlar heç də əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq deyil, hakimiyyətə gəlmək uğrunda mübarizə aparırlar. Parlamentdə deputatların əksər hissəsi hökuməti müdafiə etdi.

Bununla yanaşı, 1919-cu il dekabrın 29-da ölkədə ümumi siyasi tətil başlandı. Tətil yanvarın 3-də başa çatsa da nəqliyyat işçiləri, şaxtaçılar və liman fəhlələri tətili fevralın 19-na qədər davam etdirdilər. Hökumət ölkədə fövqəladə vəziyyət tətbiq etdi. Bununla yanaşı, A.Stambolskinin koalision hökuməti ölkədə sosial gərginliyi azaltmaq üçün bəzi güzəştlərə getməyə məcbur oldu. İlk növbədə, 1920-ci ilin yanvarında "Mənzil böhranının yüngülləşdirilməsi haqqında" qanunu parlamentdən keçirə bildi.

1920-ci ilin yanvarında yerli orqanlara – bələdiyyələrə seçkilər keçirildi. Nəqliyyat işçilərinin tətilləri davam etdirməsi ilə əlaqədar ölkədə yaranmış gərgin vəziyyətə baxmayaraq, Əkinçi İttifaqı burjua partiyalarını xeyli geridə qoyaraq, özündən sonra gələn BKP-yə nisbətən demək olar ki, seçicilərin iki dəfədən çoxunun səsini qazandı. Yerli orqanlara seçkilərin nəticələri aydın olandan sonra A.Stambolski parlamentin buraxılması məsələsini qaldırdı. Bunu A.Stambolski Bolqarıstanın Birinci Dünya müharibəsində məğlubiyyətinin nəticələrini aradan qaldırmağa, Neyi sülh müqaviləsinin şərtlərini yerinə yetirməyə, ölkəni böhrandan çıxarmağa və "dərin sosial dəyişikliklər" həyata keçirməyə qabil olan güclü hökumətin təşkil edilməsi zəruriliyi ilə əsaslandırırdı.

1920-ci il martın 28-də Xalq Məclisinə seçkilər keçirildi. BƏXİ parlamentdə 229 yerdən 110 yer aldı. Digər partiyalar birlikdə 119 səs topladılar, o cümlədən BKP (sıx sosialistlər) 50, Demokrat partiyası 24, Xalq partiyası 14 və s. aldı. Yerlərin bu cür bölüşdürülməsi BƏXİ-na təkpartiyalı hökumət təşkil etməsinə çatmadı. Bir neçə seçki dairəsindən seçilmiş deputatların mandatlarını etibarsız hesab etməklə BƏXİ lazım olan səsləri toplamağı bacardı.

A.Stambolskinin sədriliyi ilə 1920-ci il mayın 21-də təkpartiyalı hökumət yaradıldı. Yenə həmin ilin mayında Xalq Məclisi ümumi əmək mükəlləfiyyəti haqqında qanun qəbul etdi. Hökumət bununla dağılmış xalq təsərrüfatını bərpa etmək istəyirdi. Hökumət həmçinin mütərəqqi gəlir vergisinin tətbiq edilməsini elan etdi ki, bunun da böyük əhəmiyyəti var idi. Bu qanunun əsasını torpaq əmək mülkiyyəti prinsipi təşkil edirdi ki, bu da torpağın şəxsi əməyi ilə becərə bilənlər arasında bölüşdürülməsini nəzərdə tuturdu. Bir il hakimiyyətdə olduğu müddətdə hökumət Xalq Məclisində 100-dən çox qanun layihəsi keçirdi. Monarx Konstitusiyaya əsasən ona verilən qanunvericilik səlahiyyətindən məhrum edildi. BƏXİ tərəfindən işlənilmiş qanunlar əsasən dövlət idarəçiliyi sistemini toxunulmaz saxlayırdı. A.Stambolski hökuməti mərkəzdənqaçma ideyasından imtina edirdi. İcraedici hakimiyyətin səmərəsiz fəaliyyəti A.Stambolski hökumətinin nəzərdə tutuduğu islahatların həyata keçirilməsini çətinləşdirən başlıca şərt idi.

Vəziyyəti mürəkkəbləşdirən həm də Neyi müqaviləsinə uyğun olaraq yaradılmış ittifaqlararası komissiyanın kabinetin fəaliyyətinə müdaxilə etməsi idi. Komissiyanın təzyiqi ilə çoxlu qanunlar ləğv edilmiş, ya da dəyişdirilmişdir. Məsələn, hökumət konsorsium haqqında qanundan birdəfəlik imtina etmiş, ümumi əmək mükəlləfiyyəti haqqında qanuna xeyli dəyişikliklər etmiş, 1921-1922-ci il üçün təsdiq edilmiş büdcəyə yenidən baxmışdı və s.

Stamboliyski hökumətinin xarici siyasət cəhdləri Neyi müqaviləsi şərtlərinin yüngülləşdirilməsinə, təzminatın miqdarının azaldılmasına yönəldilmişdi. Lakin bu addım Antantanın müqaviməti nəticəsində heç bir nəticə vermədi. Hökumət qonşu dövlətlərlə də münasibətləri normal hala salmağa çalışırdı. 1922-ci ildə Bolqarıstanla Sovet Rusiyası arasında bir qədər yaxınlaşma əmələ gəldi, lakin Antantanın narazı olacağından ehtiyat edən A.Stambolski hökuməti Sover Rusiyası ilə diplomatik münasibətlər yaratmağa tələsmirdi.

BƏXİ və BKP ilə əks mövqedə duran burjua partiyalarının Bolqarıstanın siyasi həyatına təsirnin kəskin şəkildə aşağı düşməsi, leqal formada hakimiyyətə gələ bilməməsi ilə əlaqədar onlar öz qüvvələrini birləşdirməyə başladılar. 1920-ci ilin may-dekabr aylarında Xalq-Liberal, Mlado-Liberal və Liberal (V.Radoslavov) partiyaları Milli-Liberal partiyasını, Xalq və Tərəqqi-Liberal partiyaları Birləşmiş Xalq-Tərəqqi partiyasını yaratdılar. Uzun sürən danışıqlardan sonra 1922-ci ilin iyulunda bu partiyalar Birləşmiş Konstitusiya Blokunun yaradılması haqqında protokol imzaladılar. Məqsəd BƏXİ tərəfindən "dəyişikliklər" edilmiş Bolqarıstan Konstitusiyasını yenidən bərpa etmək idi.

Konstitusiya bloku 1922-ci ilin avqustunda BƏXİ rejiminə qarşı bir sıra irimiqyaslı

etiraz aksiyaları həyata keçirməyi nəzərdə tuturdu. Blok 1922-ci il sentyabrın 17-də Tırnovoda öz tərəfdarlarının toplantısını keçirməyi qərara aldı. Konstitusiya blokunun bu işini pozmaq məqsədi ilə BƏXİ həmin gün Tırnovoda çuğundurbecərən kəndlilərin qurultayını çağırdı. Rejimin tərəfdarları ilə əleyhdarları arasında baş vermiş toqquşma faktından istifadə edən hakimiyyət orqanları Konstitusiya blokunun rəhbərlərini həbs etdilər.

Hökumətin təşəbbüsü ilə 1922-ci ilin noyabrında İ.Qeşov, S.Danev və A.Malinov hökumətlərinin Bolqarıstanın İkinci Balkan və Birinci Dünya müharibələrində, iki "milli fəlakətdə" günahları olub-olmaması məsələsi haqqında referendum keçirilməsi ölkədə vəziyyəti yenidən kəskinləşdirdi. Məsələ Konstitusiya blokuna daxil olan partiya nümayəndələrindən formalaşdırılmış keçmiş hökumətlərdən gedirdi. Referendumun nəticələrinə görə səsvermədə iştirak edənlərin böyük hissəsi günahkarların cəzalandırılmasına səs verdi ki, bu Konstitusiya blokunun məğlubiyyəti demək idi. Bu uğursuzluqdan sonra daha iki qüvvə – Hərbi İttidaq və Xalq Sazişi BƏXİ hökuməti ilə ön plana çıxdı.

Hərbi İttifaq Bolqarıstanı İkinci Balkan və Birinci Dünya müharibəsində məğlubiyyətindən, həmçinin Neyi müqaviləsi ilə ordunun xeyli azaldılmasından (20 min nəfərə kimi) narazı zabitlər tərəfindən 1918-ci ilin noyabrında yaradılmışdı. 1919-1920-ci illərdə hazırlanmış proqrama uyğun olaraq Hərbi İttifaq "birləşmiş, vahid, güclü və firavan Bolqarıstan" yaradılmasını qarşısına məqsəd qoymuşdu. BƏXİ-nin yeritdiyi siyasəti ümummilli maraqlara xəyanət kimi qiymətləndirən Hərbi İttifaq 1920-ci ilin sentyabrında qeyri-leqal iş şəraitinə keçərək "aqrarçıların" rejiminə qarşı dövlət çevrilişi də daxil olmaqla qəti tədbirlər həyata keçirmək uğrunda mübarizə aparırdı.

Xalq Sazişi təşkilatı 1921-ci ildə meydana gəlmişdi. Onun tərkibinə siyasi və işgüzar dairələrin nümayəndələri, professorlar, Hərbi İttifaqın, ehtiyatda olan zabitlər İttifaqının nümayəndəliyi daxil idi. Onların əksəriyyəti Böyük bolqar mason lojasının üzvləri idi. "İctimai həmrəylik" ideyasını qəbul edən Xalq Sazişi təşkilatı dövlət hakimiyyətinin "dar silki və sinfi maraqlara" xidmət etməsinə qarşı, hakimiyyətin nüfuzunun möhkəmləndirilməsi, xalqda vətəndaşlıq borcu hisslərinin inkişaf etdirilməsi uğrunda çıxış edirdi. İlk əvvəl, təşkilata "Tütün ixracatçıları və fabrikçilər birliyinin" direktorlarından biri A.Qrekov başçılıq edirdi. Sonralar, 1922-ci ilin ortalarından təşkilata rəhbərlik Sofiya Universitetinin professoru A.Sankova keçdi.

Qanuni parlament vasitəsi ilə hakimiyyətə gəlmiş rejimi devirmək məqsədilə BƏXİ-nin əleyhdarları qeyri-qanuni yola əl atdılar. 1923-cü il iyunun 8-dən 9-na keçən gecə Hərbi İttifaqın rəhbərlərinin əsas rol oynadığı müxalifət qüvvələri dövlət çevrilişi etdilər. Bolqarıstanın demək olar bütün siyasi təşkilatları çevrilişi alqışladılar. Bolqarıstan Kommunist partiyası burjuaziyanın iki cərəyanı arasında gedən mübarizəyə (kənd və şəhər) qarışmamağı qərara aldı və özünün birtərəfliyini bəyan etdi. Çevrilişə qarşı yalnız BƏXİ tərəfdarları çıxış etdilər. Onlar Pleven, Şumen, Plovdiv və ölkənin digər rayonlarından silahlı mübarizəyə qalxdılar. Slavovitsa kəndində olan A.Stambolski də müqavimət təşkil etməyə çalışsa da ələ keçirilərək amansız işgəncədən sonra 1923-cü il iyunun 14-də öldürüldü, BƏXİ qüvvələri məğlub oldu.

Aleksandr Stoimenov Stambolski 1879-cu il martın 1-də Şərqi Rumeli Slovovitsasında kəndli ailəsində anadan olmuşdur. Almaniyada aqronom ixtisası üzrə təhsil alaraq 1902-ci ildə Bolqarıstan Əkinçi Xalq İttifaqının liderlərindən biri, 1908-ci ildən Xalq Məclisinin, 1911-ci ildən Böyük Xalq Məclisinin deputatı olmuşdur. 1915-ci ildə Almaniya əleyhinə Rusiya və Antanta dövlətlərini müdafiə etdiyi üçün hökumət və çar Ferdinant tərəfindən ömürlük həbs cəzası almışlar. 1918-ci ilin sentyabrında "orduda sakitlik yaratmaq" məqsədilə həbsdən azad edilmişdir. 1918-ci il sentyabrın 22-dən oktyabrın 3-nə kimi davam edən Vladay əsgər üsyanında iştirak etmiş, üsyançı əsgərlərin elan etdiyi Radomir Respublikasının sədri seçilmişdir. Üsyan məğlub olduqdan sonra 1919-cu ildə BƏXİ-nın lideri kimi koalizasiyalı hökumət təşkil etmiş, 1920-ci il mayın 21-dən 1923-cü il iyunun 9-na kimi aqrarçıların hökumətinə başçılıq etmişdir. 1923-cü il iyunun 9-da hərbi çevriliş nəticəsində onun hökuməti devrilmiş, özü isə iyunun 14-də tutularaq ağır işgəncədən sonra öldürülmüşdür.

***Demokratik Saziş rejimi. 1923-1931-ci illər.*** 1923-cü il 9 iyun çevrilişindən sonra Xalq

Sazişi təşkilatının lideri A.Sankovun başçılığı altında yaradılmış hökumətdə hərbi qüvvələr, daxili və xarici işlər naziri kimi mühüm vəzifələri Hərbi İttifaqın liderləri tuturdular. Hökumətin tərkibinə BƏXİ və BKP nümayəndələri istisna olmaqla demək olar ki, bütün partiyaların nümayəndələri daxil oldular. A.Sankov kabineti öz vəziyyətini möhkəmləndirmək məqsədilə, Bolqarıstan üçün ənənəvi olan metodlardan istifadə edirdi. Hökumət, ilk növbədə yerli hakimiyyət orqanlarında "təmizləmə" apardı. Nahiyə upravları və nahiyə rəisləri vəzifələrinə başlıca olaraq Hərbi İttifaqa sədaqətli ehtiyatda olan zabitlər təyin edildilər. A.Sankov hökuməti yerli özünüidarə orqanlarını (icma şuraları) üç nəfərdən ibarət təyin edilmiş komissiyalarla əvəz etdi. Belə analoji tədbiri vaxtı ilə A.Stambolski kabineti də tətbiq etmişdi.

Cəmiyyətdə öz nüfuzunu qoruyub saxlamaq məqsədi ilə Hərbi İttifaq və Xalq Sazişi liderləri dağınıq siyasi qüvvələri birləşdirmək və bir güclü hakim partiya yaratmaq qərara aldılar. 1923-cü ilin avqustunda Xalq Sazişi, Birləşmiş Xalq-Tərəqqi partiyası, Demokratik və Radikal-Demokratik partiyaları Demokratik Saziş adlı yeni siyasi təşkilatın yaradılması haqqında protokol imzaladılar. Hökumət koalisiyasına daxil olan BFSDP və Milli-Liberal partiyalar bu təşkilata daxil edilmədilər. Bir müddətdən sonra Milli-Liberal partiyası hökumət koalisiyasından da kənarda qaldı. BƏXİ və BKP ölkənin siyasi həyatından sıxışdırılıb çıxarıldı. Bunun üçün A.Sankov hökuməti bütün repressiya tədbirlərindən geniş istifadə edirdi ki, 1923-cü il sentyabr üsyanından sonra repressiyalar daha da artdı.

Dövlət çevrilişinin hakimiyyət böhranı yaratdığını bildirən BKP (tesnyaklar) MK 1923-cü il avqustun əvvəllərindən hakimiyyəti ələ keçirmək və fəhlə-kəndli hökuməti qurmaq məqsədilə A.Sankov hökuməti əleyhinə üsyana hazırlaşmaq haqqında qərar qəbul etdi. Bundan xəbər tutan polis ilk addım ataraq 1923-cü il sentyabrın 12-də 2 minə yaxın kommunisti həbs etdi. Üsyan sentyabrın 22-23-nə təyin olunmasına baxmayaraq qeyri-mütəşəkkil başladı. Starozaqor dairəsində üsyan vaxtından əvvəl, sentyabrın 19-da, bəzi rayonlarda vaxtından gec başladı. Sofiya, Plovdiv, Persnik, Sliven və başqa böyük fəhlə mərkəzlərində üsyan lap əvvəldən yatırılmışdı. Üsyanın başlanması ərəfəsində polis Sofiyada inqilabi komitə üzvlərinin hamısını həbsə ala bildiyi üçün paytaxtda hərəkat başsız qalmışdı.

Üsyan şimal-qərbi Bolqarıstanın Vraçan və Vidin dairələrində daha yaxşı təşkil edilmişdi. Burada hərəkata G.Dmitrov, V.Kolarov və Q.Qenovun başçılıq etdikləri Baş inqilabi komitə rəhbərlik edirdi. Üsyan sentyabrın 22-də başlandı, hökumət üsyançılara qarşı qoşunlar göndərdi. A.Sankov hökuməti Antantanın gizli razılığı ilə ehtiyatda olan zabitləri səfərbərliyə aldı ki, bu Neyi müqaviləsinin şərtlərini pozmaq demək idi. 1923-cü il sentyabrın 27-də PK (b) P MK Siyasi Bürosu üsyançılara yardım etmək haqqında qərar qəbul etdi. Bu zaman hökumət qüvvələri Baş inqilab komitəsinin yerləşdiyi Ferdinand (Mixaylovqrad) şəhərinə daxil oldular, sentyabrın 29-da demək olar ki, üsyan yatırıldı. Hökumət qüvvələrinin hücumu altında üsyançıların bir hissəsi dağlara və meşələrə çəkildi, digər hissəsi isə bolqar-serb sərhəddini keçərək qonşu ölkələrə getdi. Üsyançılara amansız divan tutuldu, qeyri-rəsmi məlumata görə 5 min nəfərə yaxın üsyançı öldürüldü, minlərlə adam həbsxanaya salındı. 1924-cü ilin əvvəlində qəbul edilmiş "Dövlətin müdafiəsi haqqında" qanuna əsasən BKP və onu digər təşkilatlarının fəaliyyəti qadağan edildi.

Ölkədə yaranmış gərginliyi aradan qaldırmaq məqsədilə 1923-cü il noyabrın 18-də parlament seçkiləri keçirildi. Seçkilərdə "Demokratik Sazişi və BFSDP (b) koalisiyası qalib gəldi və Xalq məclisində 200 yerə sahib oldular. Milli-Liberal partiyası, BKP (tesnyaklar) hər biri 8, BƏXİ isə 29 yer qazandı. 1924-cü ilin əvvəllərində Demokratik saziş və BFSDP (b) koalisiyası dağıldı. Buna səbəb sosial-demokratların əlavə nazir postlarına olan iddialarının ödənilməməsi oldu. BFSDP (b) öz nümayəndəsini hökumətdən geri çağıraraq müxalifətə keçdiyini bəyan etdi. Həmçinin A.Sankov hökuməti Daxili Makedoniya İnqilab Təşkilatının (DMİT) simasında öz müttəfiqini itirdi. Buna səbəb bu təşkilatın xarici siyasi fəaliyyətini hökumətin məhdudlaşdırmağa cəhd etməsi oldu. 1924-cü ilin martında DMİT-in bir sıra rəhbərləri həbs edildi. Buna cavab olaraq DMİT MK-sı A.Sankov hökumətinə öz etirazını bildirərək, Vyanada SSRİ nümayəndəliyi ilə aparılan danışıqlarda "serb, yunan və həm də bolqar hökumətinə" qarşı mübarizəni qəti şəkildə gücləndirəcəyi haqqında üzərinə öhdəlik götürdü

və bu 1924-cü il dekabrın 29-da imzalanmış xüsusi bəyannamədə öz əksini tapdı. Eyni zamanda Demokratik Saziş hökuməti həlli çətin olunan daxili problemlərlə də qarşılaşdı. 1924-cü ilin fevralında S.Kosturkov başda olmaqla Radikal-Demokratik partiyasının bir sıra üzvləri Demokratik Saziş təşkilatından çıxdılar.

Bununla yanaşı, Bolqarıstanda "inqilabi böhranın" kəskinləşməsi haqqında fikri həqiqətə uyğun deyildi, çünki ölkədə vəziyyətin stabilləşməsinin bütün əlamətləri göz qabağında idi. A.Sankov hökumətinin təşəbbüsü ilə 1924-cü ildə sosial təminat haqqında, 1925-ci ildə məşğulluq haqqında qanunlar qəbul edildi. Bu qanunlarda bədbəxt hadisələrə, xəstəlik, analıq məzuniyyəti, əlillik və qocalığa görə, həmçinin işsizlərə yardım üçün xüsusi fondların yaradılması nəzərdə tutulurdu. Fondların yaradılmasın sosial müdafiə sisteminin formalaşmasında mühüm addım oldu. İqtisadi yüksəliş, sosial sahədə hökumətin gördüyü tədbirlər əhalinin həyat səviyyəsinin yülksəlişinə səbəb oldu. Real gəlir 1921-ci ildə 1912-ci il göstəricilərinin 81 faizini təşkil edirdisə, 1925-ci ildə bu göstərici 118 faiz təşkil edirdi. Bu, sözsüz ölkədə ictimai əhval-ruhiyyənin yüksəlişinə təsir etməyə bilməzdi.

Lakin BKP (tesniyaklar) və Kominternin İcraiyyə Komitəsi Bolqarıstanda vəziyyətin normallaşdığı haqqında məlumatları inkar edirdi. Partiyanın Hərbi təşkilatı fəal surətdə yeni üsyana hazırlıq görməyə başladı. BKP (tesnyaklar)-nın Hərbi təşkilatı Sovet hökumətinin köməyi ilə Sevastopoldan, Vyana və İstanbuldan silah əldə etdi. Bolqarıstanın Nazirlər kabinetindən, Daxili işlər nazirliyindən və Hərbi nazilikdən məxfi məlumatlar əldə etmək məqsədilə geniş kəşfiyyat şəbəkəsi yaratdı, döyüş dəstələri formalaşdırdı və s. Moskva ilə birbaşa əlaqələrin yaranması ilə hərbi təşkilatın məsul işçiləri müstəqil fəaliyyət göstərə bilərdilər.

1924-cü ilin payızında hərbi təşkilat və onun təşkil etdiyi çətələr, yəni partizan dəstələri təxribatçılıq və terrorçuluq fəaliyyətinə başladılar. Üsyana başlamaq üçün hər hansı bir zəmin olmadığından BKP rəhbərliyi və Kominternin İcraiyyə Komitəsi üsyanı 1925-ci ilin yazına keçirməyə məcbur oldu. 1925-ci ilin martında RK (b)P MK-nın Komissiyası və Kominternin İcraiyyə Komitəsinin Rəyasət Heyəti bolqar məsələsinə dair xüsusi qətnamə qəbul etdi və bolqar kommunistlərinə tövsiyə etdi ki, fəaliyyətlərini "zəhmətkeşlərin vaxtı çatmış maraqlarının müdafiəsinə" yönəltsinlər. Qətnamə çox gec atılan bir addım oldu, ona görə ki, artıq terror maşını işə düşmüşdü. Belə ki, 1925-ci ilin aprelində BKP (tesnyaklar)-nın Hərbi təşkilatı bir sıra terror aktları törətdi. Aprelin 13-də iki sui-qəsd törədildi, bunlardan biri çar Borisə, digəri Hərbi İttifaqın yaradıcılarından biri general Kostu Georgiyevə qarşı. Çar xilas ola bildisə də, K.Georgiyev öldürüldü. Növbəti böyük sui-qəsd aprelin 16-da Sofiyadakı "Müqəddəs Nedeliya" kilsəsində törədildi. Həmin gün A.Sankov başda olmaqla hökumət üzvləri kilsədə idilər, bu sui-qəsd nəticəsində 160 nəfər adam öldü.

Hökumət terrora qarşı terrorla cavab verdi. Qısa bir müddətdə təqribən 13 min nəfər həbs edildi. "Müqəddəs Nedeliya" kilsəsində törədilmiş qəsdin təşkilatçılarından üç nəfəri tutularaq dar ağacından asıldı. Yüzlərlə fəhlələr məhkəməsiz və istintaqsız güllələndi, cəza dəstələrinin öz miqyasına görə misli görünməmiş azğınlığı başladı. Bu dövrdə çoxlu inqilabçı kommunistlər məhv edildilər, bolqar kommunistləri ilə əməkdaşlıq edənlər də çoxlu itkilər verdilər.

Buna cavab olaraq Komintern və ona tabe olan Kommunist partiyaları Bolqarıstandakı "ağ terrora" qarşı beynəlxalq mübarizəni gücləndirdilər. Bu işdə beynəlxalq aləmdə tanınan və böyk nüfuza malik dünyanın intellektual elitasının tanınmış nümayəndələri Anri Barbyus, Roman Rollan, Bernard Şou və başqaları yaxından iştirak edirdilər. Özünü nüfuzdan salmış Bolqarıstan hökuməti xaricdən istiqraz almaq və gələcəkdə fəaliyyətini davam etdirmək imkanını itirdi. A.Sankovun fəaliyyərsiz Xalq məclisini buraxmaqla hakimiyyətdə qalmaq cəhdi də heç bir nəticə vermədi, yalnız fövqəladə hallarda toplanan Xalq Məclisinin Ağsaqqallar Şurası 1925-ci ilin dekabrında A.Sankov hökumətinə etimadsızlıq göstərdi. Bolqar burjuaziyası "həddindən artıq açıq" A.Sankovu daha çevik siyasi xadimlə əvəz etməyi məqsədəuyğun hesab etdi.

1926-cı ilin yanvarında formalaşdırılmış yeni Demokratik Saziş hökumətinə A.Lyapçev başçılıq etməyə başladı. Hökumət proqramının mahiyyətini "barışıq və mərhəmət" devizi

təşkil edirdi. A.Lyapçev hökuməti, ilk növbədə, əvvəlki hökumətin repressiyalarının mənfi nəticələrinin aradan qaldırılması tədbirlərinə başladı. 1926-cı ilin fevralında amnistiya haqqında qanun qəbul edildi və bu qanuna əsasən 7 min nəfər həbsdən azad edildi, sialhlı qüvvələr naziri postunu öz əlində saxlamış İ.Vılkovun təşəbbüsü ilə çar III Boris 1923-1925-ci illərdə hərbi-səhra məhkəmələri tərəfindən mühakimə olunanların əfv edilməsi haqqında bir neçə fərman imzaladı.

Kabinet dövlət vəzifələrində çalışan istefada olan zabitləri mülki şəxslərlə əvəz etdi. Eyni zamanda ordu üzərində nəzarəti öz üzərinə götürməyə çalışan hökumət bu vəzifənin icrasını İ.Vılkova tapşırdı. Bu işi həyata keçirərkən İ.Vılkov zabit heyətinin orta təbəqəsinin müqaviməti ilə üzləşdi və onlar 1928-ci ildə Gizli Hərbi İttifaq (GHİ) yaratdılar. 1927-ci ilin mayında A.Lyapçev hökuməti parlament seçkiləri keçirdi. Seçkilərdə ilk dəfə 1927-ci ildə yaradılmış fəhlə partiyası – əslində qeyri-leqal fəaliyyət göstərən BKP iştirak etdi. Parlamentdə 273 yerdən 168 mandat yerini Demokratik Saziş hökuməti aldı.

Demokratik Saziş blokunun çoxluq təşkil etdiyi Xalq Məclisi hökuməti müdafiə edirdi. Parlament hökumət tərəfindən 1927-1929-cu illərdə təqdim edilmiş 182 qanun layihəsindən 145-ni təsdiq etdi. A.Lyapçev hökuməti özünün əsas diqqətini başlıca olaraq ölkənin iqtisadi və xarici siyasət sahəsindəki problemlərin həll edilməsinə yönəltmişdir. Hökumət Millətlər Cəmiyyətinin qərarına əsasən 1926-cı ilin sonlarında amerikan, ingilis və fransız bankları ilə müqavilə bağlayaraq Bolqarıstanda sığınacaq tapmış qaçqınlara yardım məqsədi ilə 2,4 milyon funt sterlinq və 5 milyon dollar istiqraz aldı. Həmçinin 1928-ci ildə Bolqarıstanda baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmaq üçün xaricdən yenə də əlavə istiqraz alındı. Bu borclar hökumətə maliyyə sistemini stabilləşdirməyə və büdcə kəsirini azaltmağa imkan verdi. Bununla belə, Demokratik Saziş hökumətinin daxilində ziddiyyətlər kəskinləşdi, A.Sankovun tərəfdarları ayrıca fraksiya yaratdılar. 1930-cu ildə hökumət yenidən təşkil edildi, A.Sankov həmin hökumətdə Maarif naziri portfelinə yiyələndi. Demokratik saziş blokunda fikir ixtilaflarının artması ilə əlaqədar müxalifət qüvvələrinin birləşməsi baş verirdi. Bunun əsas təşəbbüsçüsü Demokratik partiya idi. Xalq bloku adlanan bu koalisiyaya BƏXİ-"Vrabça-1", S.Kosturkovun başçılıq etdiyi Radikal partiyası, Q.Petrovun başçılıq etdiyi Milli-Liberal partiyasının bir hissəsi daxil oldular.

***30-cu illərdə Bolqarıstanın siyasi həyatı.*** "Xalq Bloku" 1931-ci ilin iyununda keçirilmiş parlament seçkilərində 150 yer aldı. Demokratik Saziş bloku isə cəmi 78 mandata sahib oldu. A.Lyapçev hökuməti əvəzinə hakimiyyətə A.Malinovun kabineti gəldi. Bu hökumət "Xalq Bloku"nda birləşmiş müxalifətçi burjua partiyalarının nümayəndələrindən təşkil edilmiş koalisyon hökumət idi. Bu hökumətdə mühüm vəzifələri Demokratik partiyanın nümayəndələri tutdu. 1931-ci ilin okyabrında Xalq Məclisinin sədri seçilən A.Malinovu Demokratik patiyanın üzvü N.Muşanov əvəz etdi. "Xalq Bloku" hökumətinin hakimiyyəti iqtisadi böhran illərinə düşdüyündən, onun əsas vəzifəsi iqtisadi böhranın dərinləşməsinə yol verməmək idi. Hökumət, ilk növbədə xırda mülkiyyətin qorunması sahəsinə xüsusi diqqət verirdi. Kəndlilərin dövlətə olan borclarının silinməsi istiqamətində xeyli iş gördü.

Müvafiq qanunvericilik aktları vasitəsilə hökumət borca görə torpağın satılmasını dayandırdı və dörd hektar həcmində olan təsərrüfatları ayrılmaz elan etdi. Mülklərin bir hektarından torpaq vergisinin alınmasını dayandırdı. Xalq Bloku hökuməti Lyapçev hökuməti tərəfindən yaradılmış taxıl məhsullarının alınması və ixracı üzrə inhisar hüququ olmayan dövlət müəssisəsi kimi Direksiyanı saxladı və eyni zamanda zərurət yaranarsa ərzaq məhsullarının qiymətlərini tənzimləyən Ərzaq məhsulları komissarlığı yaratdı. Əksinə, Xalq Bloku hökuməti komministlərə qarşı cəza tədbirlərini daha da gücləndirdi, kommunistlər və tərəqqipərvər xadimlər əleyhinə bir sıra məhkəmə prosesləri başladı. 1932-ci ilin oktyabrında hökumət Fəhlə partiyasının gizli keçirilən qurultayının bütün nümayəndələrini həbsə aldı. Nəticədə Xalq Bloku hökuməti kütlələr arasında öz nüfuzunu getdikcə daha çox itirdi. 1933-cü ilin aprelində hökumət, Fəhlə partiyasından olan deputatlarının bolqar parlamentindən xaric edilməsi haqqında Xalq Məclisinə qərar qəbul etdirdi. Bunun ardınca hökumət G.Dmitrovu müdafiə etmək üçün keçirilən mitinqləri qadağan etdi. G.Dmitrova vətənə

qayıtmağa icazə vermədi və onu bolqar vətəndaşlığından məhrum etdi. G.Dmitrov sovet vətəndaşlığına qəbul edildi və 1946-cı ilə qədər SSRİ-də sığınacaq tapdı. Xalq Bloku hökumətinin fəaliyyətini çətinləşdirən ən başlıca fakt ölkəni əhatə etmiş bürokratiya və korrupsiyanın baş alıb getməsi idi. Bolqarıstanın siyasi qüvvələrinin çoxu (Xalq Bloku hökuməti dövründə Bolqarıstanda rəsmi qeydiyyatdan keçmiş 40 partiya var idi) yeganə çıxış yolunu mövcud olan siyasi sistemin köklü şəkildə dəyişdirilməsində görürdü.

Sağtəmayüllü qüvvələr ölkədə güclü avtoritar dövlət hakimiyətinin yaradılmasını və bolqar cəmiyyətinin milli ideya ətrafında birlşdirilməsini təbliğ edirdi. Nəticədə radikal əhval-ruhiyəli zabitlər və ziyalılar 1932-ci ildə "Zveno" jurnalı ətrafında birləşərək "yeni iqtisadi formalara və funksiyalara malik bir cəmiyyət" yaratmaq istiqamətində fəaliyyətə başladılar. Beləliklə, faşist tipli, Nasiona-sosialist hərəkatı və "Zveno" təşkilatı yarandı. 1934-cü il mayın 18-dən 19-na keçən gecə Hərbi İttifaq və 1932-ci ildə yaradılmış "Zveno" siyasi təşkilatının birgə hazırladığı dövlət çevrilişi baş tutdu. Xalq Bloku hökuməti devrildi və hakimiyət palkovnik Kimon Georgiyevin başçılığı altında hərbi dairələrin əlinə keçdi. Çevriliş ağrısız baş verdi, əhali çevrilişə passiv yanaşaraq, hadisələri kənardan müşahidçi rolunda seyr etdilər.

K.Georgiyev hökuməti (Georgiyev həm də Ədliyyə naziri postunu tuturdu) Bolqarıstanın dövlət-siyasi sisteminin yenidən qurulması proqramını işləyib hazırladılar ki, bunun da əsasını ölkədə mərkəzləşdirilmiş avtoritar dövlət yaradılması ideyası tuturdu. Əhalini öz tərəfinə çəkmək üçün hökumət bir sıra islahatlar keçirməyə söz verdi. Kəndlilərə kredit vermək və aqrotexniki yardım təşkil etməklə geniş kömək edilməsi, fəhlələrə işsizliyin ləğv edilməsi vədləri verildi. Bu vədlərin böyük əksəriyyəti yerinə yetirilmədi, bəziləri isə qismən həyata keçirildi. 1934-cü ilin avqustunda qəbul edilmiş "borcluların vəziyyətini yaxşılaşdırmaq və krediti sağlamlaşdırmaq haqqında" qanun kənd yoxsullarına və sənətkarlara aid edilmədi, hökumətn ayırdığı kreditlər isə varlı kəndli təsərrüfatlarına verilirdi.

Parlamentin təşkilinə qədər K.Georgiyevin kabineti qanunvericilik funksiyasını da öz üzərinə götürmüşdü. Bolqarıstan Konstitusiyasına görə (Bu konstitusiya hələ 1879-cu ildə qəbul edilmiş Tırnovo konstitusiyası adlanırdı) "Dövlət üçün daxili və xarici təhlükə yaranarsa" nazirlər kabinetinə fərman və sərəncam vermək hüququ verilirdi. Hökumət konstitusiyasının 47-ci maddəsindən istifadə edərək 1934-cü ilin iyununda vermiş fərmanla siyasi partiyaların və təşkilatların fəaliyyətini qadağan etdi. Ölkənin mərkəzdən idarə olunmasını gücləndirmək məqsədilə K.Georgiyevin kabineti ərazi-inzibati islahat keçirdi, ölkədə 16 dairə əvəzinə 7 vilayət və 2552 kənd icması əvəzinə 837 icma yaradıldı. Kənd icmalarına rəhbərlik faktiki olaraq mərkəzi idarə tərəfindən təyin olunan və ona tabe olan kənd ağsaqqallarına həvalə edildi. Hökumət spirt, duz, tütün, benzin istehsalı və satışını öz inhisarı altına aldı. 1934-cü il mayın 19-da dövlət çevrilişi nticəsində hakimiyyətə gəlmiş qüvvələr arasında yaratdıqları "yeni dövlətdə" monarxiya institutunun yeri məsələsində fikir ayrılığı və parçalanma yarandı. Hərbi ittifaqda üç cərəyan – monarxiya tərəfdarları, anti-monarxiyaçılar və mötədillər meydana gəldi.

K.Georgiyevin və onun tərəfdaşlarının Bolqarıstanda monarxiya idarə üsulunun zəiflədilməsi və "yeni dövlət" yaratmaq cəhdi sonda K.Geogiyevin hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi. 1935-ci il yanvarın 23-də təşkil edilmiş yeni kabinetə general P.Zlatev başçılıq etdi. Qısa müddətdə – 1935-ci ilin yanvar-oktyabr aylarında ölkədə hökumət dəyişikliyi baş verdi. Bu "keçici hökumətlər" çar III Borisin monarxiya-faşist diktaturasının qurulması üçün lazımi şərait yaratdılar. Çar III Boris 1935-ci ilin aprelində A.Toşevi hökumətin başçısı təyin etdi. Oktyabrda ölkənin siyasi həyatı yenidən qarışdı. A.Toşev kabineti də istefa verdi. 1935-ci ilin noyabrında çar dəftərxanasının rəisi Q.Koseivanovun başçılığı altında yeni hökumət təşkil edildi. Q.Koseivanov hökumətinin görəcək işlər haqqında hazırladığı Bəyannamə olduqca dağınıq idi. Bəyannamədə özündən əvvəlki A.Toşev hökumətinin hazırladığı yeni konstitusiyanın qəbulu, parlament seçkilərinin keçirilməsi öhdəlikləri öz əksini tapmamış, bunlar ölkədə vəziyyəti sabitləşdirmək, "bütün sağlam qüvvələri birləşdirmək" kimi ümumi sözlərlə əvəz edilmişdir. Ölkədə 1935-ci ilin iyununda əlavələr və dəyişikliklər edilmiş siyasi partiyaların və təşkilatların fəaliyyətinin qadağan edilməsi haqqında 1934-cü il 14 iyun

fərmanı qüvvədə qalırdı. Lakin bu ölkənin siyasi qüvvələrinin 1936-cı ilin ortaları üçün yenidən qruplaşmasının qarşısını ala bilmədi. Bu qruplaşmanın ifrat sağ qanadını Xalq Sosialist hərəkatı, "Vətən Müdafiəsi" və başqa partiyalar tuturdu. Onları ehtiyatda olan zabitlər, dövlət qulluçuları, ayrı-ayrı gənclər qrupu müdafiə edirdilər.

İfrat solları BKP (tesniyaklar) və Fəhlə partiyası təmsil edirdilər. Hökumətin cəza tədbirləri nəticəsində bu zaman həmin partiyalar xeyli zəifləmişdilər. 1936-cı ilin sonlarında ikili üzvlük sistemi tətbiq edən Fəhlə partiyasının sıralarında 7 min nəfər var idi ki, onların da 4 min nəfərə yaxını BKP-ni təmsil edirdi. Kominternin konqresinin qərarı ilə əlaqədar BKP öz taktikasında dəyişiklik etdi, BKP (tesniyaklar) MK-nın VI plenumu Q.Koseivanov hökumətini çara yaxın zabitlərin dəstəklədiyi faşist diktaturası kimi səciyyələndirərək partiyanın "bütün antifaşist qüvvələrlə" əməkdaşlığa hazır olduğunu bildirdi. Plenumun qətnamələri Xalq cəbhəsinin platformasının əsasını təşkil etdi ki, bura da Tırnovo konstitusiyasının bərpası, parlament seçkilərinin keçirilməsi, 1934-cü il mayın 19-dan sonra qəbul edilmiş fərmanların ləğv edilməsi, Konstitusiyanın bərpasına maneə törədən təşkilatların baxılması tələbləri daxil idi.

1936-ci ilin mayında BƏXİ– "Vrabça-1" D.Qiçevin başçılığı ilə, BFSDP (b)-nın K.Pastuxovun rəhbərliyində olan qanadı, B.Smilovun Milli-Liberal partiyası, Q.P.Qenovun Radikal partiyası, A.Lyapçevin Demokratik Saziş partiyaları "beşlik" adlanan koalisiya yaratdılar. Koalisiya 1936-cı ilin iyununda çar Borisə ölkədə konstitusiya-parlament sistemini bərpa etmək tələbi ilə müraciət etdi. Nəticədə Q.Koseivanovun hökuməti yenidən təşkil edildi, hökumətin tərkibinə A.Sankovun sədr olduğu Milli ictimai hərəkat adlı partiyanın iki nümayəndəsi də daxil edildi. Q.Koseivanov hökuməti çarın əlində oyuncaq bir hökumət idi. Çar III Boris onun tərkibini 5 dəfə dəyişdirmişdi, bütün hakimiyyət çarın və saray adamlarının əllərində cəmləşmişdir.

Hökumətin daxili siyasəti mürtəce siyasət idi. Hökumət 1936-cı ildə tətiləri qadağan edən qanun verdi və qanunda da siyasi fəaliyyətdə olanların cinayət məsuliyyətinə cəlb edilə bilməsini nəzərdə tutan dəyişikliklər edildi. 1937-ci ilin yanvarında hökumət namizədliyini irəli sürmüş hər bir şəxsdən "qadağan edilmiş təşkilatların üzvü və mövcud rejimin əleyhinə olmadığı" haqqında ərizə verilməsini tələb edən yeni mürtəce seçki qanunu hazırladı. 1937-ci ilin oktyabrında seçki qanununda dəyişiklik edildi. Bu qanuna görə icma şuraları ümumi tərkibin yalnız 50 faizini seçirdi, digər yarısı isə hökumət tərəfindən təyin edilirdi. 1937-ci ilin mayında Q.Koseivanov hökumətinin IV kabineti, 1938-ci ilin yanvarında V kabineti təşkil edildi.

1938-ci ilin martında Xalq Məclisinə keçirilən seçkilərdə BKP, BFSDP, BƏXİ və burjua partiyalarının bəzi mütərəqqi qruplarından təşkil edilmiş Konstitusiya İttifaqı vahid namizədlər siyahısını irəli sürdü. Seçkilərdə hökumət koalisiyası qalib gələrək 160 mandat yerindən 97-ni, Konstitusiya İttifaqı isə 63 yer aldı. Parlamentin işə başlaması ilə əvvəlki siyasi sistemə qayıdış baş vermədi. Xalq Məclisi 1934-cü il mayın 19-dan sonra verilmiş fərmanların çoxunu qəbul etdi. Monarxa parlamentin razılığı olmadan hökuməti təyin etmək, onun təqdim etdiyi qanunlar layihəsini qəbul etmədikdə parlamenti buraxmaq səlahiyyətləri verildi. Beləliklə, çar bütün hakimiyyəti öz əlində cəmləşdirməyə nail oldu ki, bu da Bolqarıstanda monarxiya idarə üsulunun qurulması anlamına gəlir.

***1919-1939-cu illərdə iqtisadi inkişaf.*** 1919-1939-cu illərdə Bolqrıstan aqrar ölkə idi və kənd təsərrüfatının əsasını xırda torpaq mülkiyyəti təşkil edirdi. 1920-ci ildə ölkədə 4847 min nəfər əhali yaşayırdı ki, 1940-cı ildə də onların sayı artaraq 6676 min nəfərə çatdı. Əhali nüfuzunun 1920-ci ildə 81,1, 1936-cı ildə isə 78,6 faizi kənd yerlərində yaşayanlar idi. Bolqarıstanın ərazisi isə 1919-1939-cu illərdə 103,1 min kv. km olduğu halda, 1940-cı ildə ona birləşdirilən Cənubi Dobruca hesabına artaraq 110,8 min kv. km oldu.

Bolqarıstanın kənd təsərrüfatında taxıl məhsulları istehsalı əsas yer tutmaqla bərabər texniki bitkilər, tütün, pambıq, şəkər çuğunduru becərilməsinin əhəmiyyəti artırdı. Ölkə ixracatının əsas hissəsini kənd təsərrüfatı məhsulları təşkil edirdi ki, milli gəlirin üçdə iki hisəsi də onun payına düşürdü. Kənd təsərrüfatında xırda mülkiyyət forması, yəni sahibkarlıq

üstünlük təşkil edir və artırdı. Məsələn, 1926-1934-cü illərdə 2 hektardan 10 hektara kimi olan torpaq sahələri 60,7-dən 62,3faizə yüksəlmiş, 30 hektardan çox əkin sahələri isə bu vaxt ərzində 0,6 faiz aşağı düşmüşdür. Başqa bir tərəfdən xırda və orta kəndli təsərrüfatları iqtisadi çətinliklərin meydana gəlməsinə şərait yaradırdı. Bolqarıstanda kənd təsərrüfatı əsasən ekstensiv yolla inkişaf edirdi. Aqrotexniki səviyyənin aşağı olması, torpaqsız kəndlilərin sayının artması buna şərait yaradırdı. 1926-cı ildə ölkənin hər 8,5 min nəfər kənd əhalisinə bir traktor düşürdü ki, bu da kənd təsərrüfatı əkin sahələrinin hələ də əsasən maşınlarla deyil, kotanlarla becərildiyini göstərir.

1919-cu ildə Xalq Məclisi hökumət tərəfindən təklif edilmiş Konsorsium adlanan qanun qəbul etdi. Bu Konsorsium üzərinə taxıl və taxıl məhsullarını sabit qiymətlərlə istehsalçılardan və kooperativlərdən alaraq ixrac etmək vəzifəsi qoyulmuşdu. Konsorsiumun əldə etdiyi gəlirin 90 faizi hesabına kənd təsərrüfatının və kooperativ hərəkatının inkişaf fondu yaradılması nəzərdə tutulurdu.

Hökumət tərəfindən təqdim edilmiş və 1921-ci ilin aprelində Xalq Məclisi tərəfindən qəbul edilmiş qanunlardan biri aqrar islahat haqqında (torpaq üzərində əmək mülkiyyəti) qanunudur. Qanuna görə torpağın şəxsi əməyi ilə becərə bilənlər arasında bölüşdürülməsi nəzərdə tutulurdu. Torpağı becərənlər üçün mülkiyyət hüququ ailə başına 30 hektar, becərməyənlər üçün adambaşına 4, ailə üzrə 10 hektar idi. A.Stambolski hökuməti aqrar islahatı hıyata keçirə bilməzdi. Torpaq əmək mülkiyyəti fonduna nəzərdə tutulmuş 225 min hektar əvəzinə cəmi 35 min hektardan bir az çox torpaq sahəsi daxil olmuşdur.

Bolqarıstanda sənaye istehsalı 1920-30-cu illərdə tədricən inkişaf etməkdə idi. 1923-cü ildən 1929-cu ilə qədər altı il ərzində sənaye istehsalı 88 faiz artmışdı. Yeyinti və toxuculuq sənayenin əsas sahələri olaraq qalırdı. Sənayenin inkişafına şərait yaradan əsas amil dövlətin 1931-ci ildən həyata keçirdiyi proteksionist siyasət idi. İri sənaye müəssisələri zəruri avadanlığı gömrüksüz ixrac etmək və güzəştli vergi vermək hüququna malik idi ki, 1926-cı ildə belə müəssisələr 854-ə çatdı.

Sənayenin sabit inkişafı çox da uzun sürmədi, dünya iqtisadi böhranı 1929-cu ilin ikinci yarısında Bolqarıstanı da əhatə etdi. İl yarım ərzində kənd təsərrüfatı məhsullarının qiyməti iki dəfə aşağı düşdü, kəndlilərin dövlətə, müxtəlif kredit müəssisələrinə borcları xroniki hal almağa başladı. Bu borclar 1929-cu ildə 4 milyard lev təşkil edirdisə, 1932-ci ildə bu rəqəm 7,6 milyarda çatmışdı. 80 faizdən çoxunun kənd təsərrüfatı istehsalında məşğul olduğu əhalinin alıcılıq qabiliyyəinin aşağı düşməsi bilavasitə sənayenin bir sıra sahələrinə, ilk növbədə yeyinti sənayesinə ağır zərbə vurdu. Sənaye istehsalının həcmi 1929-cu illə müqayisədə 1930-cu ildə 15, 1933-cü ildə isə 35 faiz aşağı düşdü. Sənayedə məşğul olan işçilərin sayı 1929-cu illə müqayisədə orta hesabla 3-7 faiz aşağı idi. Böhran ölkənin toxuculuq, kauçuk, sellüloz-kağız kimi sənaye sahələrindən yan keçdi.

Ümumiyyətlə, bəhs edilən dövrdə Bolqarıstanın iqtisadi həyatında dövlətin tənzimləyici rolunun artmasına baxmayaraq inhisar birliklərinin inkişafında durğunluq baş verdi. Proteksionist siyasəti təftiş edilərək 1936-cı ildə rəsmi surətdə ləğv edildi. Bolqarıstan rəhbərliyinin yeritdiyi siyasət nəticəsində ölkənin xarici ticarət sahəsində Almaniyaya üstünlük verilməsi önə çıxdı. Belə ki, 1929-cu illə müqayisədə 1934-cü ildə Almaniyaya ixrac edilən məhsullar 22-dən 40 faizə qədər yüksəldi, Almaniyadan ölkəyə idxal edilən mallar müvafiq olaraq 30-dan 43 faizə artdı. 1919-1939-cu illərdə Bolqarıstanı yeniləşdirmək məqsədilə atılan bütün addımlara baxmayaraq, ölkə bütün xırda əmtəə istehsalının üstünlük təşkil etdiyi sosial, siyasi və iqtisadi çətinliklərin çulğalaşdığı aqrar dövlət kimi yoluna davam edirdi.

***1919-1939-cu illərdə Bolqarıstanın xarici siyasəti.*** Birinci Dünya müharibəsindən sonra Bolqarıstanın beynəlxalq aləmdən təcrid olunmasını aradan qaldırmaq məqsədilə BƏXİ hökumətinin baş naziri A.Stambolski Avropa ölkələrinə yüz günlük (oktyabr 1920-yanvar 1921-ci il) səfər etdi. O, Bolqarıstanın Millətlər Cəmiyyətinə qəbul olunmasına nail ola bildi, Avropanın əksər dövlətləri və Balkan ölkələri ilə diplomatik münasibətlər yaratdı. Eyni zamanda Neyi sülh müqaviləsinin şərtlərinə yenidən baxılması və Bolqarıstanın digər dövlətlərlə bərabər hüquqda münasibətlərinin qurulması həll edilmədi.

1920-ci illərin əvvəllərində Bolqarıstanın Serb-Xorvat-Sloven Krallığı (SXSK) ilə münasibətləri nizama saldı. A.Stambolski 1923-cü ilin martında sərhəd məsələlərinə dair SXS Krallığı ilə Niş sazişimi imzaladı. Sazişin şərtlərin görə bolqar hökuməti Daxili Makedoniya İnqilabi Təşkilatının cətə dəstələrinin, yəni partizanların sərhəddə qanunsuz fəaliyyətinin qarşısını almağı öhdəsinə götürdü. Bunun nəticəsində isə A.Stambolski hökuməti DMİT-nın 1923-cü il iyunun 9-da baş tutan çevrilişdə iştirakına şərait yaratmış oldu.

1923-cü il iyun çevrilişindən sonra hakimiyyətə gəlmiş A.Sankov 1925-ci ilin dekabrında Buxarest və Belqrada səfər etdi. Lakin bu səfərlər heç bir nəticə vermədi, Bolqarıstanın qonşu dövlətlərlə münasibətləri yenə də gərgin olaraq qalırdı. 1925-ci ilin oktyabrında bolqar-yunan sərhədində silahlı münaqişə baş verdi. Bu münaqişəni aradan qaldırmağı Millətlər Cəmiyyəti öz üzərinə götürdü, tərəflərdən təcili olaraq hərbi əməliyyatların dayandırılmasını tələb etdi, münaqişənin səbəblərini aydınlaşdırmaq üçün komissiya təşkil etdi. Millətlər Cəmiyyətinin təkidi ilə Bolqarıstan ərazisinə qoşun yeritmiş Yunanıstan Bolqarıstanın xeyrinə 30 mil. lev kompensasiya ödəməyə məcbur oldu. Bu cür halların bir daha baş verməməsi üçün Millətlər Cəmiyyətinin komissiyası vətəndaşların könüllü mübadiləsi haqqında konvensiyaya əməl etməyi, bitərəf dövlətlərin nümayəndələrindən ibarət xüsusi sərhəd xidməti dəstələri yaratmağı, həmçinin Millətlər Cəmiyyətinin nəzarəti altında barışıq komissiyası yaradılmasını təklif etdi.

Avropa siyasətində aparıcı rolu iddia edən Böyük Britaniya 1926-cı ildə SXS Krallığına, Yunanıstana və Bolqarıstana Lokarno müqavilələri nümunəsində saziş bağlamağı təklif etdi. Buna baxmayaraq, bu ölkələr arasında münasibətlər daha da kəskinləşdi. 1926-cı ilin avqustunda Yunanıstanın, SXS Krallığının və Rumıniyanın Sofiyadakı səlahiyyətli nümayəndələri bolqar hökumətinə kollektiv nota verdilər, burada Bolqarıstan ərazisində formaaşdırılan cətələrin fəallığının artması qeyd edilirdi. SXS Krallığının hakimiyyət orqanları 1927-ci ildə Bolqarıstanla sərhədi bağlamağı qət etdi. 1928-ci ilin sonlarında Daxili Makedoniya İnqilabi Təşkilatının hamısı, silahlı qüvvələr naziri İ.Vılkovun istefasından sonra serb-bolqar sərhədi açıldı.

1929-cu ildə Almaniya təzminatının ödənilməsi haqqında məsələ qaldırdı və bu məsələyə yenidən baxılması üçün xüsusi komissiya yaradıldı. 30-cu illərin əvvəllərində Bolqarıstan təzminatın həcmini 4 dəfə azaltmağa və onun ödənilməsi üçün vaxt almağa nail oldu. Bu zaman Bolqarıstan və Almaniyanın yaxınlaşması üçün əlverişli şərait yarandı. 1932-ci ildə Bolqarıstan və Almaniya arasında Kliring ticarət (dövlətlər arasında banklar vasitəsilə nağd pulsuz haqq-hesab) haqqında saziş imzalandı. Bolqarıstan 1934-cü ilin fevralında Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviya arasında yaradılmış sərhədlərin pozulmazlığı prinsipinə əsaslanan regional hərbi-siyasi bloka daxil olmaqdan boyun qaçırdı.

Bolqarıstanın Xalq Bloku hökuməti öz xarici siyasətində antisovet xətti götürmüşdü. Milli mənafeyin ziddinə olaraq hökumət SSRİ ilə nəinki diplomatik əlaqələr, hətta yalnız sabit sovet bazarı ilə qarşılıqlı faydalı ticarət vasitəsilə bolqar iqtisadiyyatını davam edən böhran vəziyyətindən çıxarmaq üçün yeganə çıxış yolu olan ticarət münasibətləri belə yaratmaq istəmədi. Bolqarıstan hökuməti Sovet dövlətinin təcavüzkara tərif verilməsi haqqında saziş bağlamaq və təhlükəsizliyi təmin etmək sahəsində tədbirlər görmək təkliflərinə qoşulmaqdan imtina etdi.

1934-cü ilin mayında dövlət çevrilişindən sonra hakimiyyətə gələn K.Georgiyev hökuməti Fransa və Yuqoslaviya ilə yaxınlaşmağa çalışırdı. Bu saray adamlarının və burjuaziyanın almanpərəst dairələrinin narazılığına səbəb oldu. K.Georgiyev hökuməti öz vəziyyətini möhkəmlətmək üçün xarici siyasət sahəsində mühüm addım atdı, 1934-cü ilin iyulunda SSRİ ilə diplomatik münasibətlər yaratdı. 1934-cü ildə Bolqarıstan və Yuqoslaviya arasında ticarət müqaviləsi və baytarlıq konvensiyası imzalandı, ictimai və mədəni əlaqələr genişləndi. 1934-cü il sentyabrın sonlarında Yuqoslaviya kralı Aleksandr Bolqarıstana rəsmi səfərə gəldi.

K.Georgiyevin hakimiyyətdən uzaqlaşdırılması və hakimiyyətin tədricən çar III Borisin əlində cəmləşməsi Bolqarıstanın xarici siyasətində dəyişikliyə səbəb oldu. Almaniya ilə yaxınlaşmaq siyasəti önə keçdi, ona görə ki, Almaniya artıq Avropaya meydan oxuyurdu. 1936-

cı ildə çar III Boris A.Hitlerlə görüşdü, bundan sonra Bolqarıstanın xarici ticarəti əslində Almaniyanın ixtiyarına keçdi. Bolqarıstan üçün faydalı olmayan ticarət sazişi imzalandı. Bu sazişdən sonra Bolqarıstanın xarici ticarətində Almaniyanın payı birdən-birə idxal üzrə 1929-cu ildəki 22,2 faizdən 43 faizə qədər artdı. Drezden və alman bankları, “İ.Q.Farbenindustri” kimya tresti, “Balkan tabak” tresti, “Gerinq” tresti və s. Bolqarıstanda nəzarət etməyə başladılar. 1929-cu ildə Almaniyadan silah və hərbi materiallar almaq üçün 4450 milyon lev məbləğində kredit alınmışdı. Bolqarıstanda Almaniyanın inşa etdiyi Reyn-Mayn-Dunay kanalı ilə birləşəcək strateji dəmir yolları çəkmək üçün planlar hazırlandı.

Bolqarıstan faşist Almaniyası ilə qərb demokratiyası arasında qarşıdurmanın dərinləşməsi şəraitində birtərəfli siyasətdən imtina edərək balanslaşdırılmış xarici siyasət aparmağa cəhd göstərdi. Bu öz nəticəsini verdi. 1938-ci il iyulun 31-də Salonikdə Bolqarıstan hökumətinin sədri Q.Koseivanov Balkan Antantası ilə zor tətbiq etməmək haqqında saziş imzaladı. Bunun müqabilində Bolqarıstanın üzərindən silahlanma sahəsində Neyi müqaviləsinin məhduduyyətləri götürüldü. Salonik sazişinin arxasında Böyük Britaniya dururdu. Almaniyanın balkanlarda mövqeyinin güclənməsinin qarşısını almağa çalışan İngiltərə Bolqarıstanın Balkan Antantasına qoşulmasında maraqlı idi. 1937-ci ildə Bolqarıstanla “əbədi dostluq” haqqında müqavilə bağlamış Yuqoslaviya da Münhen sazişindən sonra Balkan Antantasına olan ümidini itirərək Bolqarıstanla yaxınlaşdı.

Buna baxmayaraq, Bolqarıstanda Almaniyaya tərəf meyl edən qüvvələr çoxluq təşkil edirdi. Odur ki, Hitler və Mussolinin xarici siyasət xəttini müdafiə edən bolqar hökuməti İtaliyanın Həbəşistanı işğal etməsini, İspaniyaya qarşı təşkil edilən italiyan-alman silahlı müdaxiləsini, hitler Almaniyasının Avstriya və Çexoslovakiyanı zəbt etməsini alqışladı. 1939-cu ilin oktyabr ayında Q.Koseivanovun oyuncaq hökuməti Sovet İttifaqının dostluq və qarşılıqlı yardım haqqında müqavilə imzalamaq təklifini rədd edərək, bolqar xalqının milli mənafeyinin əksinə olaraq ərazi problemlərini həll etmək arzusu ilə hitler Almaniyası tərəfindən müharibədə iştirak etmək hazırlığına başladı.

***Bolqar xalqının mədəniyyəti.*** 1920-30-cu illərlə bolqar xalqının mədəniyyətinin inkişafında müsbət dəyişikliklər baş vermişdir. Ölkədə təhsil və maarifin inkişafı üçün əlverişli şərait yarandı. İbtidai, orta, sənət məktəblərinin şəbəkəsi artdı. 1921-ci ildə A.Stambolski hökuməti icbari 7 illik təhsilə keçirilməsi haqqında qərar qəbul etdi. Təhsil sahəsində hökumətin yeritdiyi siyasət müxtəlif növ məktəb şəbəkəsinin genişlənməsində əsas rol oynamışdı. Artıq 1939-cu ildə Bolqarıstanda 5 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Sofiya Universitetində yeni tibbi, aqronomluq və veterinarlıq fakültələri açılmışdır. Varna və Sviştovda İqtisadi İnstitutlar açıldı.

Təhsil və maarif sahəsində olduğu kimi mədəniyyətin digər növləri xüsusilə musiqi, teatr, kino və s. inkişaf edirdi. 1921-ci ildə Bolqar opera yoldaşlığının əsasında Sofiya xalq operası yarandı. Opera ifaçıları arasında X.Morfova, M.Popov, S.Makedonski dünya şöhrəti qazanmışlar. 1926-1936-cı illərdə opera səhnəsində qoyulan 60 əsərin 10-u bolqar müəlliflərinə, o cümlədən P.Vladiqerov, P.Staynov və başqalarına məxsus idi.

1927-ci ildə baletmeystr və rəqqas A.Petrov professional balet truppası təşkil edərək balet məktəbi açdı. 1937-ci ildə A.Petrov ilk bolqar milli baleti olan X.Manolovun “İlan və Yan” (“Zmey i Yana”) əsərini tamaşaya qoydu.

Bolqar kino sənəti irəliyə doğru mühüm addımlar atdı. 1915-ci ildə rejissor V.Qendov özünün ilk bolqar səssiz bədii filmini yaratmışdır. 1933-cü ildə isə dahi rejissor ilk səsli bədii bolqar filmi olan “Qulun üsyanı” (“Bunt raba” ) əsərini tamaşaçılara təqdim etdi.

1920-30-cu illərdə bolqar bədii ədəbiyyatının inkişafı “milli fəlakət” və inqilabi yüksəlişin çalarları ilə müşayiət olunurdu. Inqilabi yüksəliş mövzusu X.Smirnenskinin, Q.Milevin “Sentyabr” poemasında, N.Vapsarovun “Matorun nəğməsi” (“Pesni motora”) poeziyasında sətirlərə tökülərək oxucuya təqdim olunur.

Ümumən, 1920-30-cu illərdə bolqar mədəniyyətində milli şüurun inkişafına yönəldilən mövzular ön plana çıxır. Bunun üçün, keçmişdə qüdrətli və güclü Bolqar dövlətinin rəmzi olan Birinci və İkinci bolqar çarlığının tarixi hadisələri qayğı ilə oxucuya təqdim edilir.

Asparux xan, çar Simyonun qəhrəmanlıqlarına dair çoxlu roman, dram, opera, kinofilmlər yaranır və xalqın yaddaşında əbədi olaraq həkk edilir. Xüsusilə, slavyan tayfalarının birliyinin müdafiəçisi Asparux xanın allahlar tərəfindən müqəddəs başçı seçilməsi bütün slavyan xalqlarının, o cümlədən bolqarların milli fəxri və qürur mənbəyidir. Əslində bolqar bədii yaradıcılğındakı qəhrəmanlıq və romantik obrazlar xalqın milli hisslərini oyadaraq vətən torpaqları sərhədlərində birliyi tərənnüm edir. Nəticədə, bədii yaradıcılıq ustalarının, tarixçı, filosof, publisist, elm adamlarının tarixliyə, yəni hadisələrin izahında tarixi prinsipə əsaslanmaları 1920-30-cu illərdə bolqar milli şüurunun inkişaf edib möhkəmlənməsinə səbəb oldu.

## Bolqarıstan İkinci Dünya müharibəsi illərində

***Bolqarıstanın müharibədə iştirakı.*** İkinci Dünya müharibəsi başladıqda Q.Koseivanovun hökuməti Bolqarıstanın bitərəfliyini elan etsə də, ölkə böyük güclərin cazibə mərkəzində dayanmışdır. Yaranmış beynəlxalq vəziyyətlə əlaqədar olaraq SSRİ Bolqarıstanı öz siyasəti dairəsinə çəkməyə çalışırdı. 1934-cü ildə bolqar-sovet diplomatik münasibətlərinin bərpasından 1939-cu ilin ortalarına qədər Xalq Xarici İşlər Komissarlığı Bolqarıstana Balkanlardakı "müşahidə məntəqəsi" kimi baxırdı və həm də SSRİ öz sərhədlərinin təhlükəsizliyini təmin edən sistem yaratmağa səy göstərirdi. Bolqarıstanda Sovet təbliğatını genişləndirmək üçün əlverişli zəmin yaranmışdı. Sovet qəzetləri, kitabları, kinofilmləri ölkədə böyük maraq doğururdu. Bolqarıstan ictimaiyyətinin böyük bir hissəsi SSRİ-də baş verən hadisələri ideallaşdırırdı və hər hansı bir neqativ informasiyanı yalan kimi qəbul edirdi. Bununla yanaşı, Bolqarıstanda mövqeləri kifayət qədər möhkəm olan Berlin Moskvaya güzəştə getmək istəmirdi. Umumbalkan müdafiə bloku yaratmaq niyyətində olan İngiltərə və Fransa isə SSRİ və Almaniyaya qarşı mövqey tutmuşdur.

Birinci Dünya müharibəsində olduğu kimi xarici siyasətdə müxtəlif istiqamətlər Bolqarıstanın daxili siyasi qüvvələrini parçalayan əsas amilə çevrilmişdir. 1939-cu ilin dekabrı – 1940-cı ilin yanvarında Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə müharibədə bitərəflik, həm Almaniya, həm də SSRi ilə münasibətlərin inkişaf etdirilməsi və milli ərazi problemlərinin sülh yolu ilə həll olunmasının tərəfdarları olan hökumət qələbə çaldı, parlamentdə 160 yerdən 140-nı aldı. 1940-cı ilin fevralında Q.Koseivanovun istefasından sonra B.Filov başda olmaqla yeni hökumət təşkil edildi. Lakin hakim dairələrdə yekdil fikir yox idi. Çar Boris isə onları məzəmmətləyərək qeyd edir ki, "mənim generallarım almanofil, diplomatlarım anqlofil, çariça italyanofil, xalq isə rusofil əhval-ruhiyyədədir. Təkcə mən bolqarofiləm".

Bəhs etdiyimiz dövrdə Bolqarıstanın xarici siyasətinin qarşısında Dobruca və Frakiya məsələsinin Bolqarıstanın xeyrinə həll edilməsi dururdu. Frakiyanın Bolqarıstana birləşdirilməsi onun Egey dənizinə çıxışını təmin etmək baxımından vacib sayılırdı. Makedoniya məsələsi öz əhəmiyyətini itirməsə də şəraitdən asılı olaraq hələlik bu arxa plana keçdi. Yaranmış əlverişli vəziyyət, xüsusuilə SSRİ-nin Bessarabiyanı və Şimali Bukovinanı tutması Cənubi Dobrucanın Bolqarıstana qaytarılması üçün Rumıniyaya qarşı iddianın təkidilə irəli sürülməsinə şərait yaratmış oldu. İki ölkə arasında 1940-cı il avqustun 19-da başlanan danışıqlar 1940-cı il sentyabrın 7-də Krayov müqaviləsinin imzalanması ilə nəticələndi, 400 min nəfər əhalisi olan Cənubi Dobruca ərazisi Bolqarıstana keçdi.

Krayov müqaviləsi ilə əlaqədar yaranan ruh yüksəkliyi tezliklə narahatlıqla əvəz olundu. Yaranmış şərait Bolqarıstana manevr etmək imkanı vermirdi. 1940-cı ilin oktyabrında Almaniya ona sentyabrda yaranan Üçlər paktına daxil olmağı təklif etdi. İtaliya isə Bolqarıstanı Yunanıstana qarşı birgə əməliyyatlara sövq etdi. Böyük Britaniya Bolqarıstanı alman qoşunlarını ərazisinə buraxacağı təqdirdə onun ərazisini hərbi meydana çevirəcəyi ilə hədələdi. Çar Boris Almaniyanı, İtaliyanı, Böyük Britaniyanı Bolqarıstanın loyallığına inandırmaq üçün bütün qüvvə və bacarığını işə saldı. Bunun ardınca Sovet İttifaqı 1940-cı ilin noyabrında Bolqarıstana qarşılıqlı yardım haqqında pakt bağlamağı təklif etdi.

SSRİ-nin təklifi haqqında məlumatı bolqar ictimaiyyəti Bolqarıstan Fəhlə Partiyasının

sənədləri vasitəsilə xəbər tutdu. BFP 1938-1939-cu illərdə BKP (tesnyaklar) və FP-nın birləşməsindən yaranıb. Partiya bu məlumatı o dövrdə Kominternin baş katibi vəzifəsində çalışan G.Dmitrovdan almışdı. Bu məlumatı fəaliyyətə başlamaq kimi qəbul edən BFP 1940-cı il noyabrın 25-də SSRİ-nin təklifinin müdafiəsi üçün geniş kampaniyaya başladı. SSRİ XXİK V.M.Molotov bu təklifi açıqlamaqla "kobud səhv" buraxdığını G.Dmitrovun nəzərinə çatdırdı, o da, öz növbəsində, bu təklifin gizli saxlanılmasını BFP-yə anlatsa da artıq gec idi. Bolqarıstanda SSRİ-nin təklifini bolqar hökumətinə ötürmüş bir diplomatın adı ilə "Sobolyev aksiyası" başladı. Bu aksiya bir müddət Bolqarıstana Almaniyanın təzyiqlərinə davam gətirməyə imkan verdi. İtaliyanın Yunanıstanda hərbi əməliyyatları genişləndirmək cəhdinin uğursuzluğu Almaniyanın müttəfiqinə kömək etmək haqqında qərar verməsinə səbəb oldu. Bolqarıstan Rumıniyadkı alman qoşunlarını Yunanıstana göndərmək üçün "tranzit məntəqə" rolunu oynamalı idi. 1940-cı ilin dekabrından Bolqarıstanda turist və biznesmen adı altında alman zabitləri göründü. 1941-ci il martın 1-də Bolqarıstan Üçlər paktına qoşuldu, martın 2-də artıq Yunanıstana göndərilən alman qoşunları onun ərazisinə daxil oldu.

1941-ci il aprelin ortalarında bolqar qoşunları Serbiyanın cənub-şərq rayonlarını, Makedoniyanın Vardar ərazisinin böyük bir hissəsini və Qərbi Frakiyanı işğal etdi. Ölkənin ictimaiyyəti bu hadisələri böyük ruh yüksəkliyi ilə qarşıladı, rəsmi təbliğat çar Borisi "birləşdirici" adlandırdı. Bolqarıstanın işğalçılıq siyasəti sayəsində müvəqqəti olaraq bolqar inzibati idarəçiliyi tabeçiliyinə keçən ərazilər 1941-ci ildə 39765 kv. km, 1942-ci ildə 42666 kv. km təşkil edirdi.

Lakin tezliklə Almaniyanın SSRİ-yə hücumundan sonra baş nazir B.Filovun qeyd etdiyi kimi ölkədəki yüksək əhval-ruhiyyə ruh düşgünlüyü ilə əvəz olundu. BFP MK Siyasi Bürosu silahlı mübarizə haqqında qərar qəbul edərək, bolqarları "öz ərazisindən və silahlı qüvvələrindən almanların işğalçılıq planlarını həyata keçirməyə imkan verməməyə" çağırdı. Buna cavab olaraq, 1941-ci ildə hökumət Xalq Məclisinə seçilmiş BFP deputatlarını mandatdan məhrum etdi, 200 nəfərə kimi partiya fəalları həbs düşərgələrinə göndərildi. 1942-ci ildə ələ keçirilmiş BFP MK-nın işçiləri ölüm cəzasına məhkum edildilər. Bununla yanaşı, hökumət SSRİ-yə qarşı müharibəyə girməkdən açıq şəkildə imtina etdi. 1941-ci ilin dekabrından Bolqarıstan ABŞ və Böyük Britaniya ilə müharibə vəziyyətində olmasına baxmayaraq SSRİ ilə diplomatik münasibətləri saxlayırdı. Bolqarıstanın Şərq cəbhəsində Almaniyaya köməyi yalnız qış kampaniyasında tibb heyətindən təşkil edilmiş bir sanitar qatarı ilə məhdudlaşdı.

SSRİ-yə qarşı müharibəyə girməsə də Bolqarıstanın rəsmi dairələri Almaniya qarşısında bəzi antisemit addımları atdı. 1943-cü ilin fevralında 20 yəhudilərin Polşaya deportasiyası haqqında bolqar-alman sazişi imzalandı. Bolqarıstan bu planı işğal etdiyi "yeni torpaqlarda" həyata keçirdi. Makedoniya və Frakiyanın 11,5 min yəhudi əhalisi Polşaya qovuldu. Yəhudilərin Bolqarıstandan deportasiya edilməsi parlamentin deputatları daxil olmaqla ictimaiyyətin geniş dairələrinin ciddi müqavimətinə səbəb oldu. Yaranmış hərbi və siyasi vəziyyətlə əlaqədar olaraq hakimiyyət orqanları yəhudilərin Bolqarıstandan deportasiya edilməsinə etiraz etdi, yəhudiləri yalnız böyük şəhərlərdən köçürmək haqqında qərar qəbul olundu.

1942-ci ilin oktyabrın 23-dən noyabrın 4-nə kimi Əl-Ələmeyn, 1942-ci ilin noyabrın 19-dan 1943-cü il fevralın 2-nə kimi olan Stalinqrad hərbi əməliyyatlarında alman ordusunun ağır məğlubiyyətə uğraması çar Borisi ingilis-amerikan dairələri ilə əlaqə yaratmağa sövq etdi. Bolqarıstanın müharibədən çıxarmasının qarşısını almaq məqsədilə A.Hitler çar Borislə 1943-cü ilin avqustunda görüşdü, çar Boris Sofiyaya geri dönərkən avqustun 28-də vəfat etdi. Çar Borisin ölümü bolqar ictimaiyyəti üçün ağır bir itki oldu və onların gələcəyə inamı sarsıldı. Bolqarıstanda rəhbərlik azyaşlı çar Simonun yanında yaradılmış qəyyum şurasına və D.Bojilovun başçılıq etdiyi yeni hökumətə keçdi. İngilis-amerikan aviasiyası Sofiya və başqa şəhərləri bombalamağa başladı. Beləliklə, Bolqarıstanın ABŞ və İngiltərə ilə "simvolik" müharibəsi 1943-cü ilin axırında real xarakter aldı.

Ölkədə partizan hərəkatı fəallaşdı, 1943-cü ilin ortalarında onların sayı 700, 1943-cü ilin sentyabrında isə bir neçə min nəfərə çatırdı. BFP-nin qərarına əsasən terror aktları ilə məşğul olan dəstələr üsyançı Milli Azadlıq Ordusunda birləşdilər. 1943-cü ilin avqustunda

BFP, N.Petkov başda olmaqla BƏXİ, Q.Çeşməciyevin rəhbərliyi ilə BFSDP və "Zveno" Vətən Cəbhəsinin Milli Komitəsini yaratdılar.

Hakim dairələr öz qüvvələrini partizan hərəkatının yatırılmasına yönəltdilər. Hökumət 1943-cü ilin oktyabrında partizanların yerindəcə güllələnməsi haqqında sərəncam verdi. 1944-cü ildə Xalq Məclisi partizanlarla mübarizə üçün xüsusi qrup-jandarmeriya yaradılması haqqında qanun qəbul etdi. 1944-cü il iyunun 1-də İ.Baqryanov nazirlər kabinetinin yeni başçısı oldu. Hökumətin tərkibinə ölkənin xarici siyasət kursunda dəyişiklik tələb edən və onun əksinə çıxan qüvvələrin nümayəndələri daxil oldu. Bu, İ.Baqryanovun kabinetini o dövrdə vacib olan çeviklikdən məhrum etdi. Yalnız sovet qoşunları Bolqarıstan sərhəddinə yaxınlaşanda hökumət alman rəhbərliyindən qoşunlarını onun ərazisindən çıxarmağı tələb etdi və Baş qərargah isə öz qoşunlarının Yuqosloviya ərazisindən çıxarılması haqqında qərar qəbul etdi. Amma İkinci Dünya müharibəsində Almaniyanın müttəfiqi olan Bolqarıstanın atdığı bu addım SSRİ-ni razı sala bilməzdi.

Ölkəni milli fəlakətdən xilas etmək məqsədilə Naiblər şurası BƏXİ – "Vrabça-1" liderlərindən biri K.Muraviyevə geniş koalisiya əsasında hökumət – "milli birlik hökuməti" təşkil etməyi tapşırdı. Milli Cəbhə burada iştirak etmədiyindən hökumət 1944-cü il sentyabrın 2-də yalnız üç partiya – BƏXİ – "Vrabça-1", Demokratik partiya və Xalq Tərəqqipərvər partiyasının nümayəndələrindən təşkil edildi. Hökumət siyasi partiyaların fəaliyyətini qadağan edən qanunları ləğv etdi, jandarmeriyanı buraxdı, siyasi məhbuslara amnistiya elan etdi, antisemit qanunları ləğv etdi. Xarici siyasət sahəsində K.Muraviyevin kabineti Qahirədə olan ingilis-amerikan komandanlığı ilə danışıqlar apararaq Bolqarıstanın qəti bitərəf qalacağı öhdəliyini götürdü. Buna baxmayaraq, Bolqarıstanı Almaniyaya qarşı müharibəyə başlamasını təkid edən SSRİ 1944-cü il sentyabrın 5-də Bolqarıstana müharibə elan etdi.

Yaranmış şəraitdə BKP MK-sı 1944-cü il avqustun 26-da əhaliyə müraciət edərək Vətən Cəbhəsi komitələrini yaratmağa çağırdı. Ölkədəki özbaşınalıq şəraitində yerli idarə komitələri hakimiyyəti yerlərdə əllərinə almağa başladılar. Sovet qoşunları sentyabrın 8-də Bolqarıtsana daxil oldular. 1944-cü il sentyabrın 8-dən 9-na keçən gecə Vətən Cəbhəsi hakimiyyəti ələ aldı. K.Muraviyev kabinetinin üzvləri həbs olundu. Yeni yaranmış Vətən Cəbhəsi hökumətinə Zveno Xalq İttifaqının rəhbəri K.Georqiyev başçılıq etdi. 1944-cü ilin ortalarında Naiblər şurası da dəyişdirildi. Atılan addımlar böhrandan çıxmaq və ölkəni fəlakətdən qurtarmağa yönəldiyindən Vətən Cəbhəsi Milli komitəsinin fəaliyyəti heç bir müqavimətə rast gəlmədi.

1944-cü il oktyabrın 28-də Moskvada SSRİ, Böyük Britaniya və ABŞ nümayəndələri Bolqarıstanla barışıq sazişi imzaladılar. Bundan sonra bolqar ordusu sovet qoşunları ilə birlikdə Yuqoslaviya, Macarıstan, Avstriyanın işğalçılardan azad edilməsində iştirak etdi və alman blokuna qarşı müharibədə 33 min bolqar əsgəri həyatını itirdi.

## Bolqarıstan 1940-cı illərin ortaları – 80-ci illərin sonlarında

***Dəyişikliklər dövrü. 1944-1948-ci illər***. Nasist Almaniyası və onun müttəfiqlərinin İkinci Dünya müharibəsində məğlubiyyəti nəticəsində Bolqarıstanda hakimiyyətə gələn Vətən Cəbhəsi faşizmin məhv edilməsini, milli faciənin təqsirkarlarının məsuliyyətə cəlb olunmasını, demokratik azadlıqların, iqtisadiyyatın bərpa olunmasını və demokratik islahatların həyata keçirilməsini başlıca vəzifələr elan etdi. Kommunistlərin dövlət idarələri orqanlarında əsas mövqelərə sahib olmaları, 1944-1948-ci illərdə Bolqarıstanda siyasi, sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi nəticəsində cəmiyyətin yeni "xalq demokratiyası" adlanan forması yarandı. Köhnə siyasi formaların, yəni müharibəyə qədərki konstitusiyaların, çoxpartiyalı sistemin və s. saxlanılması və onların kommunist partiyalarının aparıcı rolu ilə, milli cəbhələrin fəaliyyəti ilə uyğunlaşdırılması yeni cəmiyyətin xarakterik əlaməti idi. Yeni cəmiyyət quruculuğu dövrünə daxil olan Bolqarıstan üçün İkinci Dünya müharibəsindən maksimum əlverişli və ərazi itkilərinə yol verməməklə çıxmaq başlıca vəzifə idi.

Vətən Cəbhəsinin əsas işi Antihitler koalisiyası ölkələrinin etimadını qazanmaq və

onların müdafiəsinə nail olmaq idi. Yaranmış mürəkkəb şəraitdə ölkə əhalisinin böyük əksəriyyəti Sovet İttifaqına xüsusi ümid bəsləyirdi. SSRİ tərəfindən müdafiə olunan Bolqarıstan müharibənin son mərhələsində Almaniyaya qarşı çıxmaq imkanı qazandı. 1944-cü ilin oktyabrında imzalanmış barışıq sazişinə əsasən Bolarıstanın hərbi hissələri Yuqoslaviya, Macarıstan və Avstriyanın azad edilməsi əməliyyatlarda iştirak etdi. Bununla da, Bolqarıstan müharibənin sonunda Antihitler koalisiyası dövlətləri tərəfində olduğunu göstərdi. Bolqarıstanın müttəfiqlərə qoşulması gələcəkdə qalib dövlətlərlə imzalayacağı müqavilələr üçün mühüm əhəmiyyət daşıyırdı. 1945-ci ilin avqustunda SSRİ ilə diplomatik münasibətlərin bərpa olunması Bolqarıstan Fəhlə partiyası ilə də bilavasitə əlaqələrin yaradılmasına təsir etdi. Nəticədə, ölkədə Bolqarıstan Fəhlə partiyasının fəaliyyəti xeyli artdı və bu partiya ölkənin ən böüyük siyasi qüvvəsinə çevrildi. Adı dəyişdirilərək Bolqarıstan Fəhlə (Kommunist) partiyası adlandırıldı. 1944-cü ilin sentyabrında partiyanın sıralarında 13-14 min nəfər adam olduğu halda ilin sonunda onların sayı 250 min nəfərə çatdı.

"Zveno" Xalq İttifaqının nümayəndələrinin və kommunistlərin mühüm vəzifələr tutduğu Vətən Cəbhəsi kabineti dövlət aparatının bütün pillələrində "təmizləmə" apardı. Hökumətin qərarı ilə ölkədə 2 ali məhkəmə və 64 vilayət məhkəməsi yarandı. Məhkəmələr Bolqarıstanı Üçlər paktına cəlb edənləri, hərbi caniləri cəzalandırmaq məqsədilə yaradılmışdır. Məhkəmənin çıxardığı hökm qəti idi və ondan şikayət vermək olmazdı. Rəsmi məlumata görə 1944-cü ilin oktyabrından 1945-ci ilin martına qədər olan müddətdə məhkəmə məsuliyyətinə 11 mindən artıq adam cəlb olunmuşdu. Onların içərisində Xalq Məclisinin deputatları, keçmiş nazirlər, polis işçiləri və b. var idi. Real olaraq 30 mindən 100 minə qədər adam xalq məhkəmələrindən keçmişdir. Ölüm cəzasına məhkum olunanların sayı 2 min nəfərdən çox idi. Nəzərdə tutlurdu ki, bu tədbirlər sülh danışıqlarında Bolqarıstanın mövqeyinin möhkəmlənməsinə səbəb olacaq.

1945-ci ilin iyununda hökumət avqustun 26-da parlament seçkilərinin keçirilməsi haqqında qərar çıxardı. Parlament seçkilərinə hazırlıq ölkədə siyasi parçalanma prosesini sürətləndirdi. Vətən Cəbhəsində strategiya və taktika məsələlərində baş verən ziddiyyətlər BƏXİ və BFSDP-nin parçalanmasına gətirib çıxartdı. Həmin partiyalardan ayrılmış qruplardan iki müxalifət partiyaları – N.Petkovun başçılığı altında BƏXİ və başda K.Lulçev və Q.Çeşmeciyev olmaqla BFSDP yaradıldı. Hər iki partiya seçkilərin vaxtının dəyişdirilməsi uğrunda mübarizə aparırdı. Ölkədə seçicilərin öz iradələrini sərbəst həyata keçirməsi üçün zəruri şəraitin olmadığını əsas götürən ABŞ və Böyük Briyaniyanın Nəzarət şurasındakı (Bu Şura Potsdam konfransında Almaniyanın işğalı prinsiplərini hazırlamaq məqsədilə yaradılmışdı) nümayəndələrinin təzyiqi altında seçkilər təxirə salındı.

Vətən Cəbhəsi hökuməti dörd müxalifət partiyanı – N.Petkovun BƏXİ, K.Lulçevin BFSDP, həmçinin Birləşmiş Radikallar və Demokratik partiyanı seçkilərə buraxdı. Seçkilərə BƏXİ daha fəal qoşulmuşdu və onun rəhbəri N.Petkov seçkilərdə iştirak etmək üçün ilkin şərt kimi hökumətin istefasını tələb edirdi. Lakin bu tələb yerinə yetirilmədiyindən N.Petkov öz tərəfdarlarını seçkiləri boykot etməyə çağırdı. BƏXİ partiyasını digər müxalifət qüvvələri də müdafiə etdilər. 1945-ci il noyabrın 18-də keçirilmiş seçkilərdə Vətən Cəbhəsinin qələbəsi ilə başa çatdı, seçki məntəqələrinə gələnlərin sayı 80 faizi ona səs verdi. Lakin seçkilərdə müxalifət iştirak etmədiyindən ABŞ və Böyük Britaniya onun nəticələrini qəbul etmədilər.

ABŞ, SSRİ və Böyük Britaniya xarici işlər nazirlərinin 1945-ci ilin dekabrında keçirilmiş müşavirəsində bolqar hökumətinə tövsiyə edildi ki, hökumətin tərkibinə müxalifət partiyalarının iki nümayəndəsini daxil etsin. Əslində söhbət BƏXİ-in nümayəndəsi N.Petkovdan və BFSDP-nin nümayəndəsi K.Lulçevdən gedirdi. Onların K.Georgiyev hökumətinin tərkibinə daxil olmalarını inandırmaq cəhdləri nəticə vermədi. Onlar həmçinin azad parlament seçkilərinin keçirilməsini, Daxili işlər və Ədliyyə nazirliklərinin kommunistlərin diktaturasından azad olunmasını tələb edirdilər.

1946-cı ilin martında Xalq Məclisi qeyri-qanuni yolla əldə edilmiş (1935-ci il yanvarın 1-dən sonra) mülkiyyətin müsadirəsi haqqında qanun qəbul etdi. Yenə həmin ildə Xalq Məclisi aqrar islahat, yəni "torpaq əmək mülkiyyəti" haqqında qanunu təsdiq etdi. Bu qanun

şəxsi torpaq mülkiyyətinin maksimum normasını müəyyən etdi. Bu, Dobrudcada 30 hektar, digər rayonlarda 20 hektar müəyyən edildi. 1946-cı ilin sonunda 3,6 min mülkiyyətçidən alınmış 56,4 min hektar və dövlət fondundan ayrılmış 80 min hektar torpaq 124 min torpaqsız və az torpaqlı kəndlilərin istifadəsinə verildi. Xalq Məclisi orduya rəhbərlik və ona nəzarət haqqında qanun layihəsini də bəyəndi. Qanun tətbiqi nəticəsində Komissiya tərəfindən ordudan 2,5 min zabit xaric edildi. "Zveno" təşkilatının nümayəndəsi D.Velçev hərbi nazir vəzifəsindən azad edildi və BFP (K)-nin üzvü Q.Damyanov həmin vəzifəyə təyin edildi. Parlament tərəfindən 1946-cı ildə qəbul edilmiş qanunlar kommunist partiyasının mövqeyini xeyli möhkəmləndirdi.

1946-cı ilin iyulunda Xalq Məclisi dövlət idarəçiliyi forması haqqında məsələnin referenduma çıxarılması haqqında qərar qəbul etdi. Müxalifət partiyaları bundan hökumət əleyhinə təbliğat kampaniyası kimi istifadə etdilər. Onlar K.Georgiyevin kabinetini qeyri-demokratik, birpartiyalı və diktator hökuməti kimi xarakterizə etməyə başladılar. Bununla yanaşı, onlar Bolqarıstanda republika idarə formasının yaradılması uğrunda çıxış edirdilər. 1946-cı il sentyabrın 8-də Sovet qoşunlarının ölkədə olması şəraitində Bolqarıstanda referendum keçirilirdi. Rəsmi məlumata əsasən 4509354 nəfər səsvermə hüququ olan ölkə əhalisinin 91,63 faizi referendumda iştirak etmiş, onların 92,72 faizi monarxiya qurluşunun devrilməsi və respublika elan olunmasına tərəfdar olmuşdur. Monarxiya tərəfdarları referendumun nəticələrini şübhə altına alaraq bunu birbaşa sovet ordusunun ölkədə olması ilə əlaqəli olduğunu bildirdilər.

Buna baxmayaraq 1946-cı il sentyabrın 15-də Xalq Məclisi Bolqarıstanı Xalq Respublikası elan etdi (BXP), çar ailəsi ölkəni tərk etdi. Növbədə BXP-in yeni konstitusiyası haqqında məsələ dururdu ki, bunu da Böyük Xalq Məclisi qəbul etməli idi. Böyük Xalq Məclisinə keçiriləcək 1946-cı il oktyabrın 27-nə təyin olunmuş seçkilərə hazırlıq siyasi mübarizənin kəskinləşməsinə səbəb oldu. Nəzarət Şurasındakı ABŞ və Böyük Britaniyanın nümayəndələri ölkədə həqiqi azad seçkilərin keçirilməsi məsələsini irəli sürürdü. SSRİ isə Bolqarıstan hökumətinə ABŞ və Böyük Britaniya rəyindən asılı olmayaraq seçdiyi siyasi kursa əməl etməyi tövsiyə edirdi.

SSRİ-nin müdafiəsinə arxalanan Vətən Cəbhəsi özünün seçkiqabağı kampaniyaya hazırladığı yeni konstitusiya layihəsinin təbliği əsasında başladı. 1946-cı il oktyabrın 27-də keçirilən seçkilər nəticəsində Vətən Cəbhəsi Böyük Xalq Məclisində 367 yer (275 yer BFP(K), 69 yer BƏXİ, 8 yer "Zveno" Xalq İttifaqı, 9 yer BFSDP, 1 yer müstəqil namizəd), müxalifət koalisiyası isə 99 yer aldı. 1946-cı ilin noyabrında formalaşmış hökumətdə 20 nazir portfelindən 10-nu kommunistlər aldılar. Baş nazir postunu 1945-ci ilin noyabrında SSRİ-dən vətənə qayıtmış G.Dmitrov tutdu, o, həm də Böyük Xalq Məclisi tərəfindən yaradılmış konstitusiya komissiyasının sədri idi.

Dimitrov Georgi Mixayloviç 1882-ci ildə Perniksk vilayətinin Kovaçevski kəndində yoxsul sənətkar ailəsində doğulmuşdur. 1902-ci ildə BFSD partiyasının, 1903-cü ildən onun "sıx sosisalistlər" bolşevik qanadının üzvü olmuşdur. 1909-cu ildən BFSD (sıx sosialistlər) partiyası MK-nin üzvü olmuşdur ki, bu partiya 1919-cu ildə BKP-na çevrilmişdir. 1923-cü ildə sentyabr silahlı üsyanının rəhbərlərindən biri kimi ölüm hökmünə məruz qalmışdır. Əvvəlcə Yuqoslaviyaya, sonra SSRİ və Almaniyaya qaçmışdır. 1933-cü il fevralın 27-də faşistlər tərəfindən Reyxstaqı yandırmaq iddiası ilə həbs edilərək 1933-cu ilin sentyabr-dekabr aylarında Leypsiq məhkəmə prosesində bəraət almışdır. Sovet vətəndaşlığı alan G.Dmitrov 1934-cü il fevralın 27-də SSRİ-yə gələrək 1935-ci ildə Kominternin İcraiyyə Komitəsinin katibi seçilmişdir. 1943-cü il mayın 15-də Komintern buraxıldığı üçün o, ÜİK-(b) P MK-nın Beynəlxalq (xarici) şöbəsinin rəhbəri təyin olunmuşdur. Sovet ordusu Bolqarıstanda kommunist rejimini bərqərar etdikdən sonra 1945-ci il noyabrın 6-da G.Dmitrov Bolqarıstan Nazirlər Sovetinin sədri təyin edilmişdir. 1949-cu ilin yanvarından ictimaiyyətdən təcrid edilən G.Dmitrov SSRİ-də rəsmi məlumata əsasən diabetdən vəfat etmişdir. 1990-cı ildə Bolqarıstanda kommunist rejimi yıxıldıqdan sonra onun cənazəsi saxlandığı mavzoleydən çıxarılaraq dəfn edilmiş, 1999-cu ilin avqustunda isə mavzoley dağıdılmışdır.

1947-ci ilin fevralında Parisdə Bolqarıstanla sülh müqaviləsi imzalandı. SSRİ-nin bütün cəhdlərinə baxmayaraq, Bolqarıstan Antihitler koalisiyası üzvü statusunu almadı, lakin ərazi itkisinə də məruz qalmadı. Onun sərhədləri 1941-ci il yanvarın 1-dək olan sərhədlər çərçivəsində saxlanıldı. Müqavilənin qüvvəyə minməsindən sonra, 90 gün ərzində Sovet qoşunları və fəaliyyətini dayandırmış Nəzarət komissiyasının nümayəndələri Bolqarıstanı tərk etməli idi. Bundan istifadə edən müxalifət BFP (K)-nin ləğvini, onun antifaşist təşkilatı elan olunmasını tələb etdi. ABŞ senatı sülh müqaviləsini təsdiq edən kimi Bolqarıstan hakimiyyəti N.Petkovun həbsi barədə sərəncam verdi. 1947-ci ilin sentyabrında Paris sülh müqaviləsi qüvvəyə mindikdən sonra, BƏXİ-nin lideri N.Petkov barəsində çıxrılmış ölüm hökmü icra edildi. ABŞ və Böyük Britaniyanın diplomatik müdaxiləsi, bir sıra ictimai xadimlərin, hətta Leypsiq məhkəməsində G.Dmitrovun müdafiəçisinin əfv müraciətləri müxalifətçi BƏXİ liderini xilas etmədi.

Petkov Nikola Dimitrov 1893-cü ildə Sofiyada anadan olub, 1922-ci ildə Sorbonna Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirib, BƏXİ-nın nümayəndəsi kimi Vətən Cəbhəsinin təşkilində iştirak etmişdir. 1944-cü il sentyabrın 9-da baş tutan çevrilişdən sonra 1944-1945-ci illərdəki Vətən Cəbhəsinin birinci hökumətində portfelsiz nazir olmuş, kommunistlərin siyasətinə etiraz əlaməti olaraq istefa vermişdir. Parlament demokratiyasının, Bolqarıstanın SSRİ ilə deyil, Qərblə yaxınlaşması tərəfdarı olmuşdur. 1947-ci il iyun ayının 5-də kommunist rejimini tənqid etdiyi üçün həbs edilərək avqustun 16-da cəsusluqda ittiham olunaraq onun barəsində ölüm hökmü verilmişdir. Sentyabrın 22-də ölüm hökmü icra edilmişdir, 1990-cı il yanvarın 15-də N.D.Petkov ölümündən sonra bəraət almışdır.

Kommunistlər Bolqarıstanda olan sovet qoşunlarına və SSRİ-dən olan məsləhətçilərin fəaliyyət göstərdiyi təhlükəsizlik orqanlarına arxalanaraq milli cəbhədəki öz müttəfiqlərini tədricən müxalifətə keçməyə məcbur edərək siyasi fəaliyyətdən kənara sıxışdırırdılar. Onlara qarşı müxtəlif saxta işlər və bəhanələr adi hal almışdır. Bu şəraitdə ətrafına faşist qruplaşması toplaması bəhanəsi ilə BƏXİ partiyası buraxıldı. Tezliklə onun taleyini BFSDP də yaşadı və partiyanın bir sıra xadimləri həbs olundu.

Müxalifət partiyalarını təmsil edən deputatlardan təmizlənmiş Böyük Xalq Məclisi 1947-ci il dekabrın 4-də BXR-in Konstitusiyasını qəbul etdi. Konstitusiyaya uyğun oaraq ölkədə qanunverici hakimiyyət Xalq Məclisinə, icraedici hakimiyyət nazirlər kabinetinə, yerli hakimiyyət isə 3 il müddətinə seçilən sovetlərə və onların icraiyyə komitələrinə məxsus idi. Xalq Məclisinin sessiyaları arasındakı dövrdə bütün hakimiyyət onun Rəyasət Heyətinə verildi.

1948-ci ildə fevralın əvvəllərində Vətən Cəbhəsinin 2-ci konqresi keçirildi. Orada beş partiyanı birləşdirən Vətən Cəbhəsinin kütləvi ictimai təşkilata çevrilməsi qərara alındı. May-avqust ayında BFSDP-nin BFP (K) ilə birləşməsi baş verdi. Eyni zamanda "Zveno" Xalq partiyası və Radikal partiyası Vətən Cəbhəsinin tərkibinə daxil olaraq orada əriyib getdi. BFP (kommunist) 1948-ci ildə Bolqarıstan Kommunist partiyasına çevrildi, BƏXİ-də onun hakim rolunu qəbul etdi. Kommunist partiyasının rəhbərləri Bolqarıstanın burjua demokratiyası yoluna qayıtmasına yol verməyəcəklərini açıq bildirdilər. Kommunist partiyası ölkədə formalaşan ikipartiyalı sistemdə hakim siyasi qüvvə kimi mövqeyini qoruyub saxladı.

***BXR-nın iqtisadi inkişafı.*** Bolqarıstanda hakimiyyətini möhkəmlədən Kommunist partiyası rəhbərliyi İ.V.Stalin tərəfindən müəyyənləşdirilmiş kursu həyata keçirməyə hazır olan və özlərini onun öyrənciləri sayan şəxslər idi. Onların bəziləri uzun illər SSRİ-də yaşamış, Kommunit İnternasionalında işləmiş, SSRİ-də artıq həyata keçirilmiş sosializm quruculuğu planını öz ölkəsində tətbiq etməyə hazır idi. Bolqarıstanda sosializmin İ.Stalin modelinin qəbulu iqtisadiyyatın əsaslı surətdə dağılması ilə müşayiət olunurdu. Aqrar və aqrar-sənaye ölkəsi olan Bolqarıstan sürətlə sənayeləşdirmə, ilk növbədə ağır sənaye yaratmaq siyasəti yeridirdi. Bu məqsədlə, 1948-ci ildə çağırılmış BFP (kommunist)-nın V qurultayında sovet modeli nümunəsidən istifadə etməklə 2-3 beşillik ərzində Bolqarıstanın modernləşdirilməsi prosesinin başa çatdırılması nəzərdə tutulurdu. Sənayeləşdirmə yolu ilə sənaye və kənd təsərrüfatı arasındakı fərqi sənayenin xeyrinə dəyişdirmək, kənd təsərrüfatını koopera-

tivləşdirmək, dövlət bölməsini bütün sahələrdə şəriksiz hakim bölməyə çevirmək, partiyanın ideologiyasını dövlətin rəsmi siyasətinə çevirmək, fəhlə sinfinin hakim rolu şərti ilə cəmiyyətin yeni sosial strukturunu yaratmaq və s. irəli sürüldü.

1947-1948-ci illərdə sənaye müəssisələri və bankların milliləşdirilməsi, həmçinin xarici və daxili topdansatış ticarətinin dövlətin inhisarına verilməsi haqqında qanunlar qəbul edildi. Bütün bunlar sosializmin əsaslarının qurulmasını nəzərdə tutan proqramın reallaşdırılmasına zəmin yaradırdı. 1949-1953-cü illərdə 700-ə qədər müəssisə yenidən quruldu, tikildi və istifadəyə verildi. Yeni istehsal sahələri – maşınqayırma, qara və əlvan metallurgiya müəssisələri işə salındı, ölkənin elektrikləşdirilməsi başa çatdırıldı. Bu sahədə SSRİ Bolqarıstana kredit, xammal, texnika və ixtisaslı mütəxəssislərlə hər cür kömək göstərir və həm də onun iqtisadi inkişafını istiqamətləndirirdi.

Sənayeləşdirilmənin həyata keçirilməsinin mənbələrindən biri aqrar bölmənin ictimailəşdirilməsi idi. 1948-ci ilin ortaları üçün kənd təsərrüfatının kooperativləşdirilməsi prosesində ciddi irəliləyiş olmadığından partiya rəhbərliyi hərəkətə keçdi. 1949-cu ildə Bolqarıstanda kollektivləşdirmə prosesi başlandı. Bu iş kəndlilər üzərində zor tətbiq etmək, fərdi təsərrüfatdan onları imtina etməyə məcbur etməklə müşayiət olunurdu. BKP MK-nın hazırlandığı qolçomaqlıqdan salma proqramına əsasən bir çox halda kəndlilər qanunsuz həbs və cərimələrə məruz qalırdı. Ölkədə kooperativləşmənin repressiya və güc metodları tətbiq etməklə həyata keçirilməsi əhali arasında gərginliyin artmasına şərait yaradırdı. 1949-cu ilin aprelində 900 yeni torpaq əmək kooperativləri təsərrüfatları (TƏKT) yaradıldı, ictimai təsərrüfatın xüsusi çəkisi 4-5 faizdən 12 faizə yüksəldi.

1949-cu ildə yerli sovetlərə seçkilərdən sonra BKP kəndlilərlə əlaqədar siyasətində bir sıra dəyişikliklər etdi. Kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin yeni qaydası tətbiq edilərək məhsulun bir hissəsini azad surətdə satmaq üçün kəndlilərin sərəncamında saxladı. Bütün çətinliklərə baxmayaraq 1953-cü ildə ümumi təsərrüfatların 60 faizini kooperativlər təşkil edirdi. Eyni zamanda aqrar bölmənin ictimailəşdirilməsi prossesi aşağı sürətlə davam edirdi. Bunun nəticəsində yalnız 1952-ci ildə kənd təsərrüfatı istehsalı müharibədən əvvəlki səviyyəyə çatdı. Sənayeləşdirmə və kənd təsərrüfatındakı dəyişikliklər nəticəsində Bolqarıstanın partiya və dövlət rəhbərliyi ölkənin aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrildiyini təsbit edərək istehlak mallar istehsalının inkişaf etdirilməsi vəzifəsini irəli sürsələr də bu qısamüddətli oldu və 1956-cı ildə ondan imtina edildi.

1946-1956-cı illəri əhatə edən onillikdə sənayenin intensiv inkişaf etdirilməsi ilə əlaqədar bolqar cəmiyyətinin sosial strukturunda da dəyişiklik baş verdi, fəhlələrin sayı 18,7 faizdən 27,7 faizə çatdı, kəndlilərin sayı isə 64,5 faizdən 35,8 faizə düşdü. 1958-ci ildə keçirilmiş BKP VII qurultayı Bolqarıstanda sosialimin maddi-texniki bazası yaradıldığını və mülkiyyətin iki əsas formasının – dövlət və koopreativ formaların bərqərar olunduğunu elan etdi.

1959-cu ildə ölkənin "iqtisadi inkişafının sürətləndirilməsi" kursu qəbul edildi. Onun reallaşdırılması üçün zəruri şərtlərin yaradılması məqsədilə inzibati-ərazi islahatı keçirildi. 12 dairə, 93 icma və təqribən 2 minə yaxın icma şuraları əvəzinə 28 dairə və 994 icma yaradıldı və onlara iqtisadi vəzifələrin həyata keçirilməsi üçün geniş müstəqillik verildi. İdarəçiliyin sahə prinsiplərindən ərazi prinsipinə keçirilməsi ilə bir sıra nazirliklər öz işlərini yenidən qurdu. Eyni zamanda Texniki Tərəqqi Komitəsinin yaradılması nəticəsində çoxlu sayda elmi-texniki institutlar meydana gəldi ki, onlar texnikanın və texnologiyanın təkmilləşdirilməsi, istehsal proseslərinin təşkili ilə məşğul olurdu.

Kənd təsərrüfatının yenidən qurulması Bolqarıstanda kooperativ təsərrüfatların böyüməsinə səbəb oldu. Torpaq əmək kooperativləri təsərrüfatlarının hər birinə (TƏKT) orta hesabla 4200 hektar torpaq sahəsi düşürdü. Əvvəllər maşın-traktor stansiyalarına məxsus texnika da onların (TƏKT-in) ixtiyarına verildi. Bütüb bunlar, kənd təsərrüfatının modernləşdirilməsi üçün baza yaradılamsına xidmət edirdi. Kənd təsərrüfatı məhsullarının dövlətə satışı sistemi də dəyişdirildi və bu iş müqavilələrlə tənzimlənirdi. Nəticədə, kooperativ müəssisələrlə dövlət müəssisələri arasındakı fərqlər silindi, vahid satınalınma qiymətləri tətbiq olundu. Bu tədbirlərə baxmayaraq, kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaranmadı.

Kənd təsərrüfatının ümumi məhsulu 60-cı illərin əvvəllərində 1939-cu il səviyyəsindən qismən yüksək idi. Bu, ölkə rəhbərliyini kooperativ üzvləri üçün minimal əmək haqqı tətbiq etməklə yanaşı, məhsulların satınalma qiymətlərini artırmağa məcbur etdi, həmçinin 1962-ci ilin oktyabrında Kanada ilə saziş imzalayaraq ölkəyə taxıl idxal etməyə başladı.

60-cı illərin birinci yarısında ölkə rəhbərliyi "ictimai istehsalın intensivləşdirilməsi" siyasətinə keçdi. Bu kurs, 1966-cı ildə rəsmən təsdiq edildi. Bunun üçün bir sıra sahələrin mexanikləşdirilməsinə, köhnə avadanlığın yenisi ilə əvəz edilməsinə başlanıldı. Elmi işçilərin, mühəndislərin və mütəxəssis-praktiklərin daxil olduğu xüsusi "texniki tərəqqi" adlı briqadalar təşkil edildi. Elmi institutları konkret istehsalat problemlərinə yönəltmək məqsədilə Texniki Tərəqqi Komitəsi Elmi və Texniki Tərəqqi Komitəsinə çevrildi.

1979-cu ildə Bolqarıstanda "yeni iqtisadi mexanizm" konsepsiyası tətbiq olundu. İslahat əmək məhsuldarlığının artırılmasını, məhsulun keyfiyyətinin yüksəldilməsini, məhsulların dünya bazarlarında rəqabətə davam gətirməsini, mərkəzləşdirilmədən imtina edilməsini, bazar iqtisadiyyatı elementlərindən istifadə olunmasını nəzərdə tuturdu. Həm də islahatda əsas şərt kimi "Dövlət mülkiyyətçi, əmək kollektivi-mülkiyyətin sahibi" prinsipi irəli sürüldü. Bu siyasətin uğurlu nəticələri 80-cı illərin əvvəllərində özünü göstərdi. 1975-ci ildə Qərbi Almaniya və Portuqaliya ilə onillik müddətində iqtisadi əməkdaşlığa dair müqavilələr imzalandı, iri beynəlxalq konsernlərlə sazişlər bağlanıldı və s. ABŞ, Yaponiya, Skandinaviya bazarlarına yol tapması, həmçinin Sovet neftinin ixrac edilməsi nəticəsində Bolqarıstan 80-cı illərin əvvəllərində Qərb ölkələrinə olan borcunu xeyli miqdarda azalda bildi, belə ki, 1982-ci ildə Bolqarıstanın valyuta borcu 2 dəfə azaldı.

Lakin iqtisadiyyatın canlanmasında başlanan meyl heç də möhkəm deyildi. 1984-cü ildə Bolqarıstan enerji böhranının ilk təzahürü ilə üzləşdi. Mərkəzi və Cənub-Şərqi Slavyan dövlətlərilə müqayisədə Bolqarıstan SSRİ ilə iqtisadi cəhətdən daha sıx bağlı idi. Belə ki, 1973-cü ildən 1985-ci ilə kimi Bolqarıstan hər il SSRİ-dən 400 milyon manat pul alırdı. Bolqarıstanın yüngül sənaye, toxuculuq, kənd təsərrüfatı məhsulları Sovet bazarını doldururdu. Lakin M.S.Qorbaçov yenidənqurması Bolqarıstanın iqtisadiyyatının böhranına səbəb oldu. 1985-ci ildə iqtisadiyyat sərt qənaət rejiminə keçirildi, çünki yüzlərlə müəssisə zərərlə işləyir, istehsal olunan məhsulun maya dəyəri artır, keyfiyyəti isə aşağı düşürdü, idxal ixracı çox-çox ötüb keçirdi. Bürokratik sistem, sərt mərkəzləşdirilmiş planlaşdırma iqtisadiyyatın effektli inkişafına əngəl törədirdi. İstehsal kooperativlərinin və dövlət təsərrüfatının birləşdirilməsi yolu ilə nəhəng aqrosənaye kompleksləri yaranmışdı, onlar isə əhalinin ərzaqla, sənayeni xammalla təchiz etməyə qadir deyildir. 1985-ci ildən başlayaraq Bolqarıstan xaricdən taxıl, kartof, soğan və başqa ərzaq məhsulları gətirməyə məcbur oldu. İqtisadiyyatın səmərəliliyinin aşağı olması əhalinin yüksək olmayan həyat səviyyəsinin daha da aşağı düşməsinə, korrupsiya və rüşvətxorluğun artmasına gətirib çıxardı.

BKP-nın 1986-cı ildə keçirilən qurultayı yeni heç bir şey təklif edə bilməsə də ""yeni iqtisadi mexanizmə" keçilməsinin və elmi-texniki inqilabın nailiyyətlərinin tətbiqinin vacibliyini önə çəkdi. 1989-cu ildə milli gəlir kəskin surətdə azaldı, xarici borc 11,5 milyard dollara çatdı, inflyasiya artdı, gündəlik tələbat mallarının çatışmazlığı, işsizlik yarandı. İqtisadi çətinliklər cəmiyyətdə ruh düşgünlüyünə, daxili vəziyyətin gərginləşməsinə səbəb oldu.

***Bolqarıstan Xalq Respublikasının siyasi və sosial inkişafı.*** Sovet qoşunlarının Bolqarıstana daxil olduğu İkinci Dünya müharibəsinin sonarından başlayaraq 1944-1948-ci illəri əhatə edən Xalq demokratik inqilabı dövrü mühüm siyasi, sosial və iqtisadi dəyişikliklərdən sonra öz yerini sovet nümunəsi üzrə sosializm cəmiyyəti quruculuğuna, yəni "real sosializm" uğrunda mübarizəyə verdi. İndi Bolqarıstanın qarşısında duran əsas vəzifə bilavasitə sosializm qurmaq idi. Sosializmə yaxınlaşdıqca sinfi mübarizənin kəskinləşməsinə dair İ.Stalinin nəzəriyyəsinə əsaslanan Bolqarıstan rəhbərliyi Moskvadan idarə olunan cəza sisteminin ölkədə tətbiqinə başladı. Çoxlu sayda görkəmli partiya və dövlət xadimləri, sıravi partiya üzvləri cəzalandırıldı. Sosial demokratlarla birləşdikdən sonra Kommunist partiyasında təmizlənmə aparıldı.

1949-cu ildə G.Dmitrov SSRİ-də məlum olmayan səbəblər üzündən öldü. Köhnə

kommunist, İ.B.Titonun dostu Yuqoslaviya və Bolqarıstanın vahd cənubi Slavyan dövlətində birləşdirilməsi tərəfdarı olan G.Dmitrovun ölümü ilə Bolqarıstanda repressiyalar son həddə çatdı. 1949-cu ildə BKP MK-nın Siyasi Bürosunun keçmiş üzvü, Baş nazirin müavini Trayço Kostov və "onun qrupunun" məhkəmə "tamaşası" başlandı. T.Kostov Bolqarıstanı amerikan və ingilis müstəmləkəsinə çevirmək cəhdində, "İ.B.Tito və faşist güruhu" ilə əlaqəyə girərək ölkənin suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini ləğv etmək, Bolqarıstanı Yuqoslaviyaya və ilk növbədə, Priney vilayətini yuqoslav Makedoniyasına birləşdirmək cəhdlərində və digər cinayətlərdə günahlandırılaraq ölüm cəzasına məhkum edildi. Bu ittihamlar həqiqətdən çox uzaq idi və saxta sənədlərə əsaslanırdı. T.Kostov üzərində qurulmuş məhkəmə G.Dmitrovun ölümündən sonra hakimiyyət uğrunda gedən mübarizənin hadisələrindən yalnız biri idi. Partiyaya rəhbərlik edən möhkəm stalinist Vilko Çervenkov 1950-ci ildə həm də hökumətə başçılıq etməyə başladı.

BKP-nin həyata keçirdiyi təmizləmə nəticəsində 1951-ci ilin aprelinə qədər onun üzvlərinin sayı 100 min nəfərə qədər azaldı. Partiyadan çıxarılanların çoxu əmək düşərgələrinə göndərilmişdi ki, onların arasında MK-nın 13 üzvü, Siyasi Büronun 6 üzvü və 10 nazir var idi. Bütün bu repressiyalar həm daxili, həm də xarici siyasi vəziyyəti mürəkkəbləşdirdi. ABŞ-ın Bolqarıstandakı səfirliyinin keçmiş tərcüməçisi üzərində məhkəmə işinin qurulması və onun Amerikanın xeyrinə casusluqda günahlandırılması 1950-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin kəsilməsi ilə nəticələndi.

İ.Stalinin ölümündən sonra SSRİ-də baş vermiş dəyişikliklər BKP rəhbərliyini əvvəlki siyasi xəttinə yenidən baxmağa məcbur etdi. 1953-cü ilin sentyabrında V.Çervenkov Yuqoslaviya, Yunanıstan və ABŞ-la əlaqələrin nizama salınmasına hazır olduğunu elan etdi. 1954-cü ildə əmək düşərgələri ləğv edildi, bir sıra kateqoriyalardan olan fəhlələrin maaşları artırıldı, gündəlik tələbat mallarının qiymətləri aşağı salındı.

1954-cü ilin fevral-martında çağırılmış BKP-nin VI qurultayı baş katib vəzifəsini ləğv edib, onun yerinə 3 nəfərdən ibarət katiblik yaratdı. Qurultay 1951-ci ildən Siyasi Büronun üzvü olan Todor Jivkovu (1911-1998) BKP MK-nın birinci katibi seçdi. Jivkov Todor Kriston 1911-ci ildə Pravesdə kəndli ailəsində anadan olub, Botevqradda orta məktəbi bitirmişdir. Nəşriyyatda çalışıb. İkinci Dünya müharibəsində antifaşist müqavimət hərəkatının iştirakçısı kimi Yanko partiya ləqəbilə tanınıb. 1948-ci ildən Bolqarıstan KP MK-nın üzvü, 1954-cü ildən Birinci katibi, 1971-ci ildən eyni zamanda Dövlət Şurasının sədri olmuşdur. M.S.Qorbaçov yenidənqurmasının əleyhdarı kimi tarixə düşmüşdür. 1989-cu il noyabrın 10-dan qansız inqilab nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdır. 1992-ci ildə dövlət xəzinəsini zərərə uğratdığı üçün 7 il azadlıqdan məhrum edilsə də, 1996-cı ildə Ali Məhkəmənin qərarı ilə azad edilmişdir. 1998-ci ildə vəfat etmişdir. Ölümündən sonra ona qarşı qaldırılan cinayət əməlləri iddiaları ləğv edilmişdir.

1956-cı ilin aprelində BKP MK plenumu Sov. İKP-nin XX qurultayının ardınca "şəxsiyyətə pərəstişi" rəhbərlik üsulu və metodu kimi tənqid etdi və partiyadaxili həyatın "Lenin prinsiplərinin" bərqərar edilməsini, həmçinin əmək kollektivlərinin və ictimai təşkilatların müstəqillik təşəbbüskarlığının inkişaf etdirilməsini qeyd etdi. Yaranmış vəziyyətdə kadr dəyişikliyi oldu, V.Çervenkov Baş nazir vəzifəsindən istefa verdi. Onun yerini "V.Çervenkov terrorunun" qurbanı A.Yuqov tutdu, V.Çervenkov onun müavini təyin edildi. Eyni zamanda özünü N.S.Xruşşovun sədaqətli tərəfdarı kimi göstərən T.Jivkovun mövqeyi xeyli möhkəmləndi.

1956-cı ilin aprel plenumu "sosializm qələbəsinin" zəmini kimi, sənayeləşdirmənin sürətli inkişafı, kənd təsərrüfatının kooperativləşdirilməsinin başa çatdırılması vəzifələrini ön plana çəkdi. BKP MK-sı daxili və xarici vəziyyəti nəzərə alaraq, sosial sahəyə diqqət verilməyə başladı. Kooperativ üzvlərinə Torpaq əmək kooperativləri təsərrüfatlarında (TƏKT) əldə etdikləri əlavə gəlirlərlə yanaşı təqaüd almaq hüququnun verilməsi, təqaüdlərin və minimum əmək haqlarının artırılması, iş həftəsinin 48 saatdan 44saata endirilməsi və s. nəzərdə tutulurdu. Bu tədbirlərin həyata keçirilməsini 1956-cı ilin oktyabrında Macarıstanda başlanmış həyacanlar sürətləndirdi. Bolqarıstanda açıq narazılığın olmamasına baxmayaraq,

hakimiyyət orqanları Daxili İşlər Nazirliyi qoşunlarını döyüş hazırlığına gətirdi, xüsusi fəhlə dəstələri yaratmağa başladı. Partiya yığıncaqlarında dövlət idarəlrindən “düşmən elementləri” təmizləmək şüarları səslənirdi.

“İqtisadi inkişafın sürətləndirlməsi” siyasətinin uğursuzluğu 50-ci illərin sonlarında ölkə rəhbərliyində ziddiyyətləri kəskinləşdirdi. Sov.İKP-nin XXII qurultayında N.S.Xruşşovun İ.Stalinin fəaliyyətini XX qurultay ilə müqayisədə daha kəskin tənqid etməsi Bolqarıstan rəhbərliyində açıq qarşıdurma üçün bir siqnal oldu. BKP MK-nın plenumlarında və müşavirələrdə buraxılmış bütün səhvlər şəxsiyyətə pərəstiş dövrünün lideri V.Çervenkovun ünvanına yazıldı, 1961-ci ildə o, baş nazirin müavini vəzifəsindən azad edildi, 1962-ci ildə BKP MK-nın üzvlüyündən çıxarıldı və partiya sıralarından xaric edildi.

“Kollektiv” rəhbərlikdə qüvvələr nisbətinin pozulması T.Jivkov və A.Yuqov arasında qarşıdurmaya şərait yaratdı. Qurultaya hazırlıq ərəfəsində keçirilmiş MK-nın iclasında A.Yuqov SSRİ-nin təklif etdiyi Bolqarıstanın 20 illik iqtisadi inkişaf planını, həmçinin SSRİ-nin Kuba və Çinə qarşı siyasətini tənqid etdi. T.Jivkov təcili Moskvaya uçaraq Sovet rəhbərliyinin və şəxsən N.S.Xruşşovun onun tərəfini saxlamasına nail oldu, A.Yuqov Nazirlər Sovetinin sədri vəzifəsindən və Mərkəzi Komitənin tərkibindən azad edildi.

1962-ci ilin noyabrında BKP-ni VIII qurultayı ölkənin inkişafına dair 20 illik (1961-1980-cı illər) perspektiv planın, yəni sosializm quruculuğunun başa çatdırılması və tədricən kommunizmə keçmək planın təsdiq etdi. Qurultaydan sonra T.Jivkov hökumətin başçısı seçildi, hətta N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılması T.Jivkovun vəziyyətinə təsir etmədi, ona görə ki, 1964-cü ilə qədər o hakimiyyətini xeyli möhkəmlətmişdi. T.Jivkovun hakimiyyətdə möhkəmlənməsi 1965-ci ildə rejimdən narazı olan bir sıra zabitlər üzərində məhkəmə işi qurulmasına şərait hazırladı. Sofiya qarnizonun rəisi general-mayor S.Anet, bir qrup keçmiş hərbçi və partizan tədricən avtoritar liderə çevrilən T.Jivkovu hakimiyyətdən uzaqlaşdırmağa cəhd etsələr də buna müvəffəq olmadılar. Qəsdin üstü açıldı və iştirakçılar məhkəmə məsuliyyətinə cəlb olundu.

Bolqarıstanda T.Jivkovun avtoritar liderliyinin formalaşması, partiya və dövlət elitasının özlərini “sahib” kimi aparması, inzibati-amirlik iş metodunun bərqərar olması ölkədə dissident hərəkatını doğurdu. Sosial-Demokrat P.Dertliyev, filosof J.Jelev, şairə B.Dmitrova, yazıçı-satirik R.Ralin Bolqarıstanda dissident hərəkatının tanınmış nümayəndələri kimi mövcud kommunist rejiminə qarşı mübarizə aparmışdır. Ümumiyyətlə, 1945-ci ilə kimi Bolqarıstanda mövcud olan “Tərbiyə-əmək yataqxanaları” adlandırılan düşərgələrdən təqribən 23,5 min nəfər şəxs keçmişdir.

1971-ci ildə Bolqarıstanın yeni Konstitusiyası qəbul edildi. Ali hakimiyyət orqanı-Dövlət Şurası yaradıldı. 1971-ci ildə T.Jivkov özündə qnunverici və icraedici orqanların funksiyalarını birləşdirən, bütövlükdə ölkənin daxili və xarici siyasətinə rəhbərlik edən Dövlət Şurasının sədri oldu. Yeni Konstitusya BXR-nı sosialist dövləti, BKP-ni isə hakimiyyətin və cəmiyyətin rəhbər qüvvəsi elan etdi. Qanunvericilik yolu ilə təsbit edildi ki, BXR yeni mərhələyə – inkişaf etmiş sosializm cəmiyyəti mərhələsinə daxil olmuşdur. Bu mərhələdə məhsuldar qüvvələrin inkişafına və istehsal münasibətlərinin təkmilləşdirilməsinə, istehsalın ixtisaslaşdırılmasına, elmi-texniki tərəqqinin nailiyyətlərinin isttehsalata tətbiqinə, Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) üzvü olan ölkələr ilə inteqrasiyanın dərinləşdirilməsinə xüsusi əhəmiyyət verilməsi planlaşdırlırdı. Dövlətin rəsmi başçısı seçiləndən sonra T.Jivkov Baş nazir vəzifəsinə S.Todorovu təyin etdi. S.Todorov 1989-cu ilə qədər müxtəlif vəzifələrdə olmasına baxmayaraq partiya və dövlət rəhbərliyində öz mövqeyini qoruyub saxlaya bilmişdi. İstisna yalnız 1977-ci ildə olmuşdur ki, bu ildə də bir sıra partiya funksionerləri öz vəzifələrindən və 38,5 min. üzv BKP sıralarından xaric edilmişdi. Bu aksiya əslində preventiv, yəni öncədən qarşısını alma xarakteri daşıyırdı, liberallaşma meylinin qarşısını almaq üçün atılmış addım idi. Bu əslində cəmiyyətin liberallaşmasının qarşısını kəsmək idi. Heç də təsadüfi deyildir ki, 1977-ci ilin dekabrında gənc yazıçıların üçüncü milli konfransında T.Jivkov öz nitqində ilk dəfə açıq şəkildə dissidentlik haqqında söz açdı. Baxmayaraq ki, bu dövrdə narahatlıq üçün hər hansı bir əsas yox idi, belə ki, həyat səviyyəsinin yüksəlməsi, xü-

susilə sosial sahədə görülən tədbirlər, elm, mədəniyyət, təhsil və idman sahəsində qazanılmış nailiyyətlər bolqar cəmiyyətinin daha çox birləşməsinə şərait yaradırdı.

80-ci illərin əvvəllərində Bolqarıstan bir sıra beynəlxalq miqyaslı problemlərlə üzləşdi. 1981-ci ildə Bolqarıstanın xüsusi xidmət orqanlarının papa II İohan Pavelə sui-qəsd etməkdə iştirak etməsi, həmçinin qeyri-qanuni silah və narkotik maddələrin ticarətilə məşğul olması iddiası ilə ABŞ Bolqarıstanı "terroru maliyələşdirən dövlətlər sırasına" daxil etdi.

1984-cü ildə terror Bolqarıstanın özünün başı üzərini aldı. T.Jivkov ölkəni gəzərkən Plovdiv şəhərinin dəmir yol vağzalında və Varna şəhərinin aeroportunda, digər şəhərlərin küçələrində 30 adamın həyatına son qoyan bombalar partladı. Heç kim bu terror aktlarına görə məsuliyyəti öz üzərinə götürmədi. Sübut olmasa da terror aktları Bolqarıstanda müsəlman əhalisinin zorakı assimilyasiyasından, yəni "bərpa prosesindən" narazı olan qüvvələrin işi olduğu ehtimal edilirdi. Belə ki, 1984-cü ildə Bolqarıstan hakimiyyəti bolqar türklərinin assimilyasiyasına başladı. Bəyan edilirdi ki, Bolqarıstanın bütün müsəlman əhalisi etnik bolqar kökündən gəlir və osmanlıların hakimiyyəti dövründə zorla islamlaşdırılmışdır. Odur ki, millətin "bərpa prosesinə" kömək etmək məqsədilə müsəlmanlar öz slavyan adların qəbul etməyə borcludur. Dövlət səviyyəsindəki kampaniyaya əsasən türk dilindəki nəşrlər və radio verilişləri ləğv edilir, şəhər və kəndlərin türk adları bolqar adları ilə əvəz olunurdu. Hətta Varna ətrafında türk dilli müştərilərə xidmət etmirik yazılan elanlar belə asılmışdır. Milis və təhlükəsizlik orqanları əməkdaşları türkləri təqib edir, kitabxana və kitab mağazalarından türk dilindəki ədəbiyyatı müsadirə edirdi. 1985-ci ildə Pavel-Bani ətrafındakı 11 kənddə 2000 türk qəbri dağıdılmışdır. Bolqar türkləri hakimiyyətin assimilyasiya siyasətinə qarşı müqaviməti toqquşmaya səbəb oldu. 1985-ci ildəki qarşıdurma nəticəsində 50 nəfər müsəlman türkü öldürüldü, bir çox adam əmək düşərgələrinə göndərildi.

Bolqar türklərinə qarşı dövlət səviyyəsində tətbiq edilən bu milli ayrı-seçkilik siyasəti nəticəsində T.Jivkovun kommunist rejiminin dağılması sürətləndi. Bu şəraitə məhəl qoymayaraq yaranmış vəziyyəti "sosializmin inkişafının dönüş mərhələsi" kimi xarakterizə edən ölkə rəhbərliyi 1987-ci ildə islahatların yeni paketini hazırladı. Lakin islahatdakı natamamlıq, xüsusilə SSRİ-də baş verən hadisələrin təsiri həyatın bütün sahələrində, o cümlədən siyasi sahədəki dəyişikliklərin qarşısını ala bilmədi.

Ölkədəki gərginliyi aradan qaldırmaq üçün T.Jivkov 1988-ci ildə MK adından partiyanın rəhbər orqanlarını vaxtaşırı yeniləşdirmək məqsədilə mandat sisteminin tətbiqi, mövcud seçki mexanizminin dəyişdirilməsi, birdən çox namizədin qeydə alınması və s. təkliflərlə çıxış etdi. Beləliklə də, T.Jivkov başda olmaqla partiya və dövlət rəhbərliyi ölkədə demokratik yeniləşdirməyə hazır olduqlarını nümayiş etdirdi. Lakin patiya və dövlət rəhbərliyinin planında ölkədə müxalifətin fəaliyyətinə yer verilməsi nəzərdə tutulmurdu.

1989-cu ilin sonunda Paris şəhərində Avropa təhlükəsizlik və əməkdaşlıq konfransının işə başlaması ərəfəsində Bolqarıstanın müsəlman liderləri müsəlman əhalisinin hüquqlarının pozulmasına etiraz əlaməti olaraq aclıq elan etdilər. Baş verənləri şərh edən T.Jivkov bildirdi ki, kapitalist Türkiyəsinə meyl edən etnik türklər ölkəni tərk edə bilərlər. Avqust ayına kimi təmkinli davranan Türkiyə hakimiyyəti sərhədi bağlayan vaxt artıq 344 min nəfər Bolqarıstanı tərk etmişdi. Türkiyə ilə Bolqarıstan arasında baş vermiş qarşıdurmada ABŞ Türkiyəni müdafiə etdi, Bolqarıstan isə təcrid vəziyyəti ilə qarşı-qarşıya qaldı. Yaranmış vəziyyətdə ölkənin ictimai-siyasi sistemini təkmilləşdirməsi sahəsində iş aparıldığını sübut etməklə Bolqarıstan rəhbərliyi üçün beynəlxalq aləmdə itirilmiş nüfuzu özünə qaytarmaq olduqca vacib idi. Bu məqsədlə hökumət ekoloji forumun Sofiyada keçirilməsinə nail oldu. Lakin 1989-cu ilin oktyabrında ekoloji forum keçirilən zamanı Bolqarıstanın hüquq-mühafizə orqanlarının əməkdaşları xarici jurnalistlər qarşısında nümayişçiləri döydülər. Bu hadisə hakimiyyətin yuxarı dairələrində onsuz da gözlənilən qarşıdurmanı kəskinləşdirdi. 1989-cu il noyabrın 10-da T.Jivkov BKP MK-nın Baş katibi və Dövlət Şurasının sədri vəzifələrindən istefa verdi. Keçmiş xarici işlər naziri P.Mladenov BKP MK-nı Baş katibi seçildi. Yeni Baş katib inzibati-amirlik sisteminin dağılmasını və ölkədə vətəndaş cəmiyyətinin yaradılmasını partiyanın əsas vəzifəsi elan etdi.

***BXR-nın xarici siyasəti.*** İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərin inkişafında yeni mərhələ başladı ki, qarşıda duran əsas vəzifələrdən biri dinc tənzimlənmə məsələlərini həll etmək idi. Bu məqsədlə, Qalib dövlətlər belə bir razılığa gəldilər ki, hər bir məğlub dövlətlə sülh müqaviləsini onunla müharibə aparmış və barışıq imzalamış dövlətlər imzalayacaqdır. Razılaşmaya müvafiq olaraq 1947-ci il fevralın 10-da Bolqarıstanla sülh müqaviləsi imzalandı və sentyabrın 15-də qüvvəyə mindi. Müqavilənin girişində müharibə vəziyyətinə son qoyulmasından bəhs edilir və müttəfiqlərin Bolqarıstana BMT-yə daxil olmağa kömək etməsi nəzərdə tutulurdu. Nəticədə, 1955-ci ilin dekabrında Bolqarıstan BMT-yə qəbul olundu. Sosializmin dünya sisteminə çevrilməsi nəticəsində SSRİ-nin beynəlxalq mövqeyi daha da möhkəmləndi və Sovet dövləti Şərqi Avropa ölkələrinə, o cümlədən Bolqarıstana beynəlxalq aləmdə kömək göstərirdi.

Odur ki, Bolqarıstanın müdafiəçisi rolunu oynayan SSRİ və qonşu Yuqoslaviya ilə əlaqələrin intensiv inkişaf etdirilməsinə Bolqarıstan xüsusi önəm verirdi. 1944-cü ilin payızında Bolqarıstan və Yuqoslaviya arasında yuqoslav-bolqar cənubi slavyan federasiyasının yaradılması məsələsinə həsr olunmuş danışıqlar başlandı. 1947-ci il 30 iyul – 1 avqustda baş tutan hökumətlərarası danışıqlarda bir neçə saziş imzalandı, həmçinin dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin şərtləri hazırlandı.

1948-ci ilin yanvarında G.Dmitrov xarici jurnalistlər qarşısında Şərqi Avropanın bütün "xalq demokratik" ölkələrinin federasiyasının yaradılması perspektivləri və gömrük birliyinin yaradılması haqqında bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi ki, buraya Kommunist partiyasının rəhbərliyi altında partizan dəstələrinin qələbə qazanacağı təqdirdə Yunanıstan da qoşula bilərdi. Bu hadisə, həmçinin Bolqarıstan və Yuqoslaviya rəhbərliyinin digər fəaliyyətləri fevralın 10-da Moskvada keçirilən üçtərəfli müşavirədə müzakirə olundu. Nəticədə, xarici siyasi məsələlərdə qarşılıqlı məsləhətləşmələrə dair sovet-yuqoslav və sovet-bolqar protokolları imzalandı.

İ.Stalin müşavirədə Bolqarıstanın və Yuqoslaviyanın təxirə salınmadan vahid federasiyada birləşmələrini təklif etdi. Lakin Yuqoslaviya KP MK-nın Siyasi Bürosunun fevralın 19-da keçirilən iclasında İ.Broz Tito bu ideyanı rədd etdi. 1948-ci ilin ortalarında Yuqoslaviyanın SSRİ və qonşu ölkələrlə, həmçinin Bolqarıstanla münasibətləri kəsildiyindən cənubi slavyan federasiyasının yaradılması haqqında məsələ birdəfəlik tarixə qovuşdu.

1948-ci ilin martında Bolqarıstan SSRİ ilə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bağladı. Buna görə tərəflər düşmən koalisiyalarda iştirak etməməli, qarşılıqlı maraq doğuran bütün beynəlxalq məsələlər üzrə məsləhətləşməli və beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq etməli idi. Bu müqavilə qarşılıqlı razılıq əsasında sonradan artırılma şərti ilə 20 il müddətində imzalanmışdır. 1947-ci ilin dekabrında Bolqarıstanla Albaniya arasında, 1948-ci ilin yanvarında Bolqarıstanla Rumıniya, 1948-ci ilin aprelində Bolqarıstanla Çexoslovakiya arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilələr imzalandı. Bununla da sosialist ölkələrinin əməkdaşlığı həmin müqavilələr əsasında həyata keçiilməyə başladı.

1973-cü ilin iyulunda BKP MK Plenumu "BXR-də inkşaf etmiş sosializm mərhələsində SSRİ ilə hərtərəfli əməkdaşlığın və yaxınlaşmaını əsas istiqamətləri" təsdiq etdikdən sonra T.Jivkov elan etdi ki, Bolqarıstan və Sovet İttifaqı "vahid orqanizm" kimi fəaliyyət göstərəcəkdir. Bununla belə, bu dövrdə Bolqarıstanın partiya və dövlət rəhbərliyi daxili və xarici siyasətdə, xüsusilə regional siyasətdə sərbəst və müstəqil fəaliyyəti ilə diqqəti cəlb edirdi.

1946-cü ildə Bolqarıstanın Yunanıstanla münasibətləri normallaşdı. 1969-cu ilin oktyabrında bağlanan bolqar-türk sazişinə əsasən 1969-1979-cu illərdə, 10 il ərzində Bolqarıstandan Türkiyəyə daimi yaşamaq üçün 50 minə yaxın etnik türk köçürüldü. Bolqarıstanla Yuqoslaviya arasında münasibətlər uzun müddət gərgin olaraq qalırdı. Bunun başlıca səbəbi Makedoniya məsələsi deyilən məsələ ilə bağlı idi. 1963-cü ilin mart plenumunda BKP MK faktiki olaraq Makedoniya Xalq Respublikasını tanıdı və bildirdi ki, Priney Makedoniyasının əhalsi bolqar millətinin ayrılmaz tərkib hissəsidir, Yuqoslaviyanın bu ərazini Makedoniya milli azlığı elan etməsi BXR-in daxili işlərinə kobud şəkildə qarışması deməkdir.

1968-ci ildə Bolqarıstan Elmlər Akademiyasının Tarix İnstitutu “Makedoniya məsələsi” adlı arayış hazırlayaraq təsbit etdi ki, Makedoniya Respublikasının əhalisinin üçdə iki hissəsi “öz mənşəyi etibarilə” bolqarlardan ibarətdir. Yuqoslaviya tərəfindən tələb edildi ki, “tarixi həqiqətlərin saxtalaşdırılmasını dayandırsın, Priney vilayətinə olan hər hansı iddialarından imtina etsin, orada yaşayan əhaliyə özünün milli mənsubiyyətini azad surətdə müəyyən etmək və bildirmək hüququ verilsin”. 1980-cı ildə İ.Broz Titonun ölümündən sonra bolqar-yuqoslav münasibətlərində yaxınlaşma hiss olundu, 80-ci illərin əvvəllərində iki ölkə arasında ticarətin həcmi xeyli artdı, sərhəd şəhərlərində dostluq mitinqləri təşkil edildi və s.

60-cı illərin ortalarında Bolqarıstan Qərbi Avropa ölkələri ilə əlaqələrini genişləndirməyə başladı. 70-ci illərdə AFR, Finlandiya, İtaliya, Böyük Britaniya, Fransa, Hollandiya və başqa ölkələr ilə iqtisadi və elmi-texniki əməkdaşlığa dair sazişlər bağlandı.

Bolqarıstanın xarici siyasətinin mühüm istiqamətini inkişaf etməkdə olan ölkələrlə əlaqəlrinin möhkəmləndirilməsi təşkil edirdi. İnkişaf etməkdə olan ölkələrdən biri olan Liviya SSRİ vəADR-dən sonra Bolqarıstanın üçüncü ticarət tərəfdaşı idi. Bolqarıstan beynəlxalq aləmdə nüfuzunu möhkəmlətmək məqsədilə 70-ci illərdə dəfələrlə müxtəlif beynəlxalq forumlar keçirmək təşəbbüsü ilə çıxış etdi. Bolqarıstan 1981-ci ildə Sofiyada yüksək səviyyədə balkan ölkələri rəhbərlərinin görüşünü keçirməyi, Balkanları nüvə silahından azad bölgəyə çevirmək məsələsini müzakirə etməyi təklif etdi.

80-cı illərin əvvəllərində BXR 116 dövlətlə diplomatik, 112 dövlətlə ticarət və 132 dövlətlə mədəni əlaqələr saxlayırdı. Lakin belə geniş əlaqələrə baxmayaraq Bolqarıstan 80-ci illərin əvvəllərində xarici siyasətdə çətikliklərlə üzləşməyə başladı. Bolqarıstan terror aktlarının törədilməsində, narkotik maddələrin və silahların gizli satışında-qaçaqmalçılıqda günahlandırılırdı. 1982-ci ildə ABŞ narkotik maddələrin istehsalı və satışı üzərində nəzarət məsələlərinə dair Bolqarıstanla əməkdaşlığı kəsdi. 80-ci illərin ortalarında Türkiyə ilə də münasibətlər kəskinləşdi. Sovet-bolqar münasibətlərində də “soyuqlaşma” baş verdi. Bu T.Jivkovun hakimiyyətinin süqutu ilə nəticələndi ki, bununla da Bolqarıstan tarixinin böyük bir mərhələsi başa çatmış oldu. 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində Bolqarıstanda Kommunist partiyasının hakimiyyətinə son qoyuldu, ölkədə çoxpartiyalı sistem yarandı, bazar iqtisadiyyatına və demokratiyaya əsaslanan cəmiyyət quruculuğuna başlandı.

## Bolqarıstan Respublikası.1989-2015-ci illər

***Siyasi, sosial-iqtisadi və xarici vəziyyət.*** 80-ci illərin sonlarına doğru Şərqi Avropanın sosialist ölkələrini bürümüş böhran Bolqarıstanı da əhatə etmiş, ölkə iqtisadi və sosial-siyasi çətinliklərlə qarşılaşmışdır. Teodor Jivkovun tarixə çevrilmiş hökmranlığı dövründə məhsul qıtlığı və inflyasiyanın artması ilə bərabər, milli münasibətlər sahəsindəki uğursuz siyasət, xüsusilə türklərə qarşı ayrı-seçkilik, onların hüquqlarının tapdalanması ölkədəki kommunist rejiminin süquta uğraması ilə nəticələndi. 1989-cu il noyabrın 10-da BKP MK plenumu T.Jivkovu Baş katiblikdən azad etdi, partiyanın rəhbərliyindən “mühafizəkar qanad” deyilən nümayəndələr uzaqlaşdırıldı.

1989-cu ilin dekabrında yenilənmiş BKP MK Plenumu özünün “sosializm seçiminə” sədaqətini təsdiq etdi. Plenum həmçinin cəmiyyətin vaxtı çatmış tələbatına uyğun dəyişikliklər etmək zərurətini müzakirə edərək, MK yeni seçki qanununun hazırlanması, 1990-cı ilin mayından gec olmayaraq parlament seçkilərinin keçirilməsi, iqtisadi sahədə islahat keçirilməsi üçün qanunverici baza yaradılması haqqında qərar qəbul etdi.

Ölkədə onlarca siyasi təşkilat yaranmağa başladı, əvvəllər mövcud olmuş partiyalar, o cümlədən Sosial-Demokrat partiyası öz fəaliyyətini bərpa etdi. Çoxpartiyalı sistem və parlamentli demokratiya uğrunda çıxış edən bir sıra partiya və təşkilatlar, o cümlədən BƏXİ, BSDP, Radikal-Demokrat partiyası Demokratik Qüvvələr İttifaqında (DQİ) birləşdilər. Antikommunist mövqeyində duran bu təşkilat BKP-nin ölkənin ictimai-siyasi sistemində yeri və rolu haqqında məsələ qaldırdı. Müxalifətin təzyiqi altında 1990-cı ilin yanvarında Xalq Məclisi BKP-nin cəmiyyətdə və dövlətdə rəhbər qüvvə olduğunu təsbit etmiş 1971-ci il

Konstitusiyasının birinci maddəsini ləğv etdi.

1990-cı il yanvarın 16-da ilk dəfə çağrılan dairəvi masada nümayəndələr, partiya və dövlət strukturlarının bölünməsi, parlament seçkilərinin keçirilməsi, çoxpartiyalıq əsasında Böyük Xalq Məclisinin çağırılması məsələlərini müzakirəyə çıxardılar. Dairəvi masanın (ynavar-mart 1990-cı il) çağırılmasına səbəb 1989-cu ilin dekabrında Bolqarıstanın müsəlman əhalisinin hüquqlarının bərpa olunması haqqında qəbul edilmiş qərar ətrafında baş verən hadisələr oldu. Bu qərarın əleyhidarları çoxsaylı etiraz aksiyasına başladılar və bunun kuliminasiya nöqtəsi 1990-cı il yanvarın 7-də Sofiyada baş vermiş mitinq oldu. Qarşıdurmanın qarşısını almaq məqsədilə Xalq Məclisinin sədri S.Todorov BKP, DQİ, dini qruplar və türk azlıqlarının nümayəndələrindən ibarət Ümumxalq milli barışıq komitəsi yaratmaq təklifi verdi.

1990-cı il yanvarın 30-dan fevralın 2-dək olan BKP-nin növbədənkənar XIV qurultayı sosializm cəmiyyətinin yeniləşdirilməsini partiyanın başlıca vəzifəsi elan etdi və partiyanın rəhbər rolundan imtina etdi. T.Jivkov və onu əhatə edən adamlar BKP-dən xaric olundular, partiya özü isə adını dəyişdirib Bolqarıstan Sosialist Partiyası (BSP) oldu. Daha sonra BSP marksizmdən imtina etdiyini və proletariat diktarurası ilə demokratiya anlayışlarının bir araya sığmadığını bildirdi, totalitar rejim illərində zərər çəkənlərin hamısından üzr istədi. Qurultay həmçinin yeni hökumətin – "milli razılıq" hökumətinin təşkil edilməsi təklifi ilə də çıxış etdi.

Andrey Lukanov başda olmaqla yeni hökumət – Nazirlər Şurası yaradıldı. Yeni hökumət, ilk növbədə, muzdlu işçi qüvvəsindən istifadə edilməsində qoyulmuş məhdudiyyətləri ləğv etdi, ticarət və xidmət sahələrində sahibkarlığın canlanmasına şərait yaratdı. Əldə edilmiş razılığa əsasən 1990-cı il aprelin 3-də Dövlət Şurası buraxıldı. Böyük Xalq Məclisi çağrılanadək prezident səlahiyyətlərinin icrasını parlament Pyotr Mladenova tapşırdı. Parlament həmçinin siyasi partiyalar haqqında, seçkilər haqqında qanunları təsdiq etdi ki, burada partiyaların etnik və dini zəmində yaradılmasına icazə verilmirdi.

BSP özünü demokratik dəyişiklikləri sona çatdırmağa qadir olan yeganə qüvvə hesab edirdi. DQİ-nin seçkiqabağı platforması isə əsil fəaliyyət proqramı idi və burada Bolqarıstanda bazar iqtisadiyyatının yaradılması, azad mənəvi mədəniyyətin, demokratik parlamentarizmin, hüquqi dövlətin, vətəndaş cəmiyyətinin yaradılması öz əksini tapmışdı.

1990-cı ilin iyununda Böyük Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə – səslərin 47 faizini qazanmış BSP parlamentdə 400 yerdən 211, DQİ 144, BƏXİ 16, Bolqarıstan müsəlmanlarının marağını müdafiə edən Hüquq və Azadlıqlar Uğrunda Hərəkat 23 yer aldı. Seçkilərdə qələbə qazandıqdan sonra BSP qarşısında real idarəedici partiya kimi prespektivlər açıldı. Bu partiya həm də Böyük Xalq Məclisində çoxluq təşkil etdiyindən P.Mladenovun 1990-cı ilin aprelində yenidən prezident seçilməsinə nail oldu.

Müxalifət dərhal hücuma keçdi, DQİ-nin lideri Jelyu Jelev seçkiləri "azad, lakin əyri" adlandırdı. 1990-cı il iyunun 12-də Sofiyanın ali təhsil müəssisələri üç günlük "işğal" tətilləri keçirdilər, paytaxtda çadır şəhərciyi qurdular. DQİ əsas zərbəni P.Mladenova qarşı yönəltdi, o, 1989-cu ilin dekabrında nümayişçilərə qarşı güc tətbiq olunmasının əsas təşkilatçısı elan edildi. P.Mladenovun özünü doğrultmaq cəhdi heç bir nəticə vermədi, 1990-cı ilin iyulunda prezident postundan istefa verdi bu vəzifəyə avqustun 1-də Böyük Xalq Məclisi tərəfindən keçmiş dissident, DQİ lideri Jelyu Jelev seçildi. Lakin BSP əleyhdarları ilə onun tərəfdarları arasındakı ziddiyyətlər cəmiyyətdə gərginlik mənbəyi olaraq davam edirdi.

1990-cı ilin payızında iqtisadi problemlər yenidən önə çıxdı. 1990-cı ilin birinci yarısında istehsal 1989-cu ilin göstəricilərinə nisbətən 10 faiz aşğı düşdü, inflyasiya 108 faizə çatdı, işsizlərin sayı xeyli çoxaldı. Sentyabrda əsas ərzaq məhsullarının bölüşdürülməsində kupon sistemi tətbiq olundu. İran körfəzindəki böhran da ölkənin vəziyyətinə mənfi təsir göstərdi. BMT-nin qərarına əsasən Bolqarıstan İraqla əlaqələri kəsməli oldu və nəticədə 1990-cı ildə oradan 600 min ton nefti ala bilmədi. 1990-cı ilin martında Bolqarıstan xarici borclarını, iyun ayından isə ona əlavə olunan faizlərin qaytarılamsını dayandırdı. Eyni zamanda A.Lukanov hökumətinin ABŞ və BVF-nin yardımı ilə hazırladığı proqram layihəsini nə DQİ və nə də BƏXİ qəbul etmədi.

1990-cı ilin noyabrında DQİ A.Lukanov hökumətinə etimad göstərməmək təklifi ilə Böyük Xalq Məclisinə təklif verdi, lakin bu təklif müdafiə edilmədiyindən DQİ fraksiyası parlamenti tərk etdi. Bundan sonra Həmkarlar ittifaqları da eyni təkliflə parlamentə müraciət etdi. Həmkarlar ittifaqları tərəfindən ümumi tətil elan edildi. Noyabrın 29-da A.Lukanov istefaya getməyə məcbur oldu. 1990-ci ilin dekabrında bitərəf Dimitri Popov başda olmaqla koalisyon hökumət təşkil olundu. BDP hökumətdə əsas vəzifələri itirdi və həlledici siyasi qüvvə kimi mövqeyi zəiflədi.

İslahatın keçirilməsinə şərait yaratmaq məqsədilə D.Popovun kabineti tətil və nümayişlərin keçirilməsinə 200 günlük qadağa qoydu, qiymətlər sərbəst buraxıldı, Bolqarıstan Xalq bankını dövlətin nəzarətindən azad etdi. Həmçinin kənd təsərrüfatında kollektiv təsərrüfatları ləğv etmək və kiçik müəssisələrin özəlləşdirməsinə dair qanun layihələri hazırlandı. D.Popov kabinetinin addımları Avropa İttifaqı tərəfindən müdafiə olunurdu və bu qurum islahatları davam etdirməsi üçün Bolqrıstana 13 milyon dollar ayırdı. 1991-ci il iyulun 12-də Bolqarıstanın yeni Konstitusiyası qəbul olundu. Bolqarıstan unitar, demokratik və hüquqi dövlət elan edildi. Dövlətin başçısı prezident ümumi, birbaşa seçki əsasında 5 il müddətinə seçilirdi. Ali qanunverici orqan bir palatandan ibarət Xalq Məclisi 240 deputatdan ibarət olaraq 4 il müddətinə seçilirdi. Konstitusiyaya görə icraedici orqan Nazirlər Şurası idi ki, bu da baş nazir və nazirlərdən təşkil olunurdu. Konstitusiya nəzarət orqanı Bolqarıstan Konstitusiya Məhkəməsi təsbit olundu. Yenə həmin ilin oktyabrın 13-də yeni Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə 38 partiya iştirak edirdi. Yalnız üç partiya öz namizədlərini parlamentə keçirə bildi. 240 yerdən 110-nu DQİ, 106 yeri BSP və 24 yeri Hüquq və Azadlıqlar Uğrunda Hərəkat aldı. Seçkilərin nəticələri göstərdi ki, Bolqarıstanda çoxsaylı partiyaların olmasına baxmayaraq BSP və DQİ partiyaları daha çox tərəfdara malikdir.

1991-ci ilin noyabrında Filip Dmitrov başda olmaqla yeni hökumət təşkil edildi. Hökumətinin tərkibinin böyük əksəriyyəti Demokratik Qüvvələr İttifaqının nümayəndələrindən ibarət idi. 1992-ci ilin yanvarında ölkədə ilk prezident seçkiləri keçirildi. J.Jelev seçicilərin 53 faizinin səslərini toplayaraq prezident seçildi. 1992-ci ilin sonunda F.Dmitrovun kabinetini J.Jelevin keçmiş müşaviri, professor Lyuben Berov başda olmaqla yeni hökumət əvəz etdi. L.Berov hökumətinin qarşısında əvvəlki hökumətin qarşısında duran vəzifələr, iqtisadiyyatda islahatların keçirilməsi, ölkəyə kreditlərin cəlb edilməsi dururdu. L.Berovun "peşəkarlar" hökuməti özəlləşdirmə, xüsusi və xarici kapital qoyuluşuna dair əvvəlki hökumətin qəbul etdiyi qanunları həyata keçirməyə başladı. 1947-1962-ci illərdə müsadirə olunmuş müəssisələr əvvəlki sahiblərinə qaytarıldı. Lakin islahtın keçirilmə surəti çox aşağı idi. 1994-cü ilin yanvarına qədər torpaqların yalnız 46 faizi şəxsi mülkiyyətə keçmişdi. İqtisadiyyatda anarxiya və bununla əlaqədar olaraq mütəşəkkil cinayətkarlıq baş alıb gedirdi. Serbiya və Çernoqoriyaya qarşı BMT sanksiyalarına qoşulması Bolqarıstanın çətinliklərini daha da artırdı.

Radikal addımlar atması və dözülməzlik şəraiti DQİ-dən onun bir çox tərəfdarlarının uzaqlaşmasına səbəb oldu. Bu özünü 1994-cü ildə keçirilmiş parlament seçkilərində göstərdi. Nəticədə, BSP 43,5 faiz, DQİ isə cəmi 24,3 faiz sə topladı. BSP-nin lideri Jan Videnovun başçılıq etdiyi yeni hökumət əsas ərzaq məhsullarının qiymətlərini aşağı salmalı, kommunal xərcləri azaltmalı, bolqar-sovet münasibətlərini nizama salmaqla bolqar mallarının Rusiya Federasiyasının bazarlarına yol tapmalı, ölkənin yanacaq-energetika problemlərini həll etməli idi. Lakin 1995-1996-cı illərdə böhranın əlamətləri daha da gücləndi, milli valyuta iflasa uğradı, inflyasiya 1996-cı ildən 310 faizə çatdı, elektrik enerjisi və benzinin qiymətləri artdı, ölkədə həyat səviyyəsi kəskin şəkildə aşağı düşdü.

J.Videnov hökumətinin qarşısında duran vəzifələri həll edə bilməməsi 1996-cı ilin noyabrında keçirilmiş prezident seçkilərində özünü göstərdi. Birləşmiş Demokratik Qüvvələri – DQİ, Xalq İttifaqı (BƏXİ və 1990-cı ildə bərpa edilmiş Demokratik partiya) və Hüquq və Azadlıqlar uğrunda hərəkatını təmsil edən Pyotr Stoyanov ölkənin prezidenti seçildi. Bundan sonra Birləşmiş Demokratik Qüvvələr BSP hökumətinin istefaya göndərilməsi və növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb etdilər. 1997-ci ilin aprelində

keçirilən parlament seçkilərində BSP məğlub oldu və seçkilərdə qələbə çalan Birləşmiş Demokratik Qüvvələr (BDQ) bütün aparıcı mövqeləri ələ keçirdi.

Seçkilərdən sonra yaradılmış hökumətin başçısı vəzifəsinə BDQ lideri İvan Kostov təyin olundu. İ.Kostov 1989-cu ildən sonra parlamentin tam səlahiyyətli müddətində hökumətə rəhbərlik edən ilk baş nazir oldu. İ.Kostov hökumətinin fəaliyyəti maliyyə sisteminin stabilləşməsi ilə bağlı olan iqisadi vəzifələrin təxirə salınmadan həll olunmasına, istehsal sahələrinin yenidən qurulmasına, özəlləşdirmənin başa çatdırılmasına, bir sözlə Bolqarıstanın NATO və Avropanın digər təşkilatlarına (Bolqarıstan 1992-ci ildən Avropa Şurasının üzvü idi) daxil olmaq üçün zəruri zəmin yaradılmasına yönəldilmişdi. Nəticədə, qısa müddətdə infilyasiyanı aşağı salmaq, büdcə kəsirini azaltmaq, iqtisadi dirçəlişə nail olmaq mümkün oldu. 1998-2002-ci illərdə ümumi daxili məhsulun orta illik artımı 4,1 faizə çatdı ki, 1990-1997-ci illərdə bu göstərici mənfi 4,6 faiz təşkil edirdi. İ.Kostov hökuməti 1990-cı ildən başlanan özəlləşdirməni başa çatdırdı. 2000-ci ilin iyununda dövlət mülkiyyətində olan müəssisələrin yarıdan çoxu, sənaye müəssisələrinin isə 82,2 faizi mülkiyyət formasını dəyişdirdi. Xüsusi bölmənin çəkisi ümumi daxili məhsul istehsalında təqribən 70 faizə çatdı. Bununla yanaşı, kabinet korrupsiya qalmaqalı ilə üzləşdi və Baş nazir 1999-cu ilin dekabrında kabinetin 10 naziri dəyişməyə məcbur oldu. 2000-ci ilin sentyabrında Baş nazirin özü də zərbə altına düşdü, səbəb isə onun arvadının rəhbəri olduğu “gələcək Bolqarıstan” fondu ətrafında baş vermiş qalmaqal idi.

Cəmiyyətdə BSP və DQİ-nin nüfuzu kəskin şəkildə aşağı düşdü. Narazı qüvvələr bundan istifadə etdilər. Onlar ölkəni 1946-ci ildə məcburi tərk etmiş və 2001-ci ildə Bolqarıstana qayıtmış sabiq çar Simeon Saksen-Koburq-Qotskinin ətrafında birləşdilər. Simeon seçicilərə varlı və ədalətli biznesmen, korrupsiyanın qatı əleyhdarı, geniş beynəlxalq əlaqələrə malik şəxs kimi təqdim edilirdi. II Simeon aktiv siyasi fəaliyyətə başlayaraq, Milli hərəkat adlı siyasi təşkilat yaratdı. Təşkilat həm də diqqəti cəlb edən sosial yönümlü proqram hazırladı. Təşkilatın proqramında əhalinin həyat səviyyəsinin yüksəldilməsi, 800 gün ərzində iqtisadiyyatın sağlamlaşdırması, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizənin gücləndirməsi, siyasi həyatda şəffaflığın bərqərar edilməsi və s. nəzərdə tutulurdu. Bu, yeni siyasi təşkilat 2001-ci ildə keçirilən parlament seçkilərində qalib gəldi, II Simeon Bolqarıstanın Baş naziri oldu.

Bundan sonra, keçirilən prezident seçkilərində Milli hərəkat öz namizədini irəli sürmədi. 2001-ci ilin noyabrında seçicilərin qeyri fəallığı şəraitində keçirilən prezident seçkilərində BSP nümayəndəsi Georgi Pırvanov ölkənin prezidenti seçildi.

Simonun kabineti xarici siyasətin əsas vəzifələrini həyata keçirə bildi. Bolqarıstan 2004-cü ilin martında NATO-ya daxil oldu. 2005-ci ilin aprelində prezident G.Pırvanov və Baş nazir Simeon Avropa İttifaqına qoşulmaq haqqında müqaviləni imzaladılar. Daxili həyatda iqtisadiyyatın stabilləşməsi baş verdi, ölkənin kredit reytinqi artdı, infilyasiya və işsizlik azaldı. Lakin bolqar əhalisinin bütün sosial məsələlərini Simeonun hökuməti həll etmək gücündə deyildi. Bu, 2005-ci ildə keçirilən parlament seçkilərinin nəticələrində özünü göstərdi. Seçkilərdə sol Bolqarıstan Sosial-Demokrat partiyası, sosialist-demokratların siyasi hərəkatının yaratdığı “Bolqarıstan adına koalisiya” 82, İkinci Simeon Milli hərakatı (İSMH) 53, Demokratik Partiyası İttifaqı (DPİ) 34 deputat yeri qazandı. 2005-ci ilin iyulunda Bolqarıstan parlamenti 119 nəfər deputat səsinə qarşı 120 nəfər səslə BSP-nin rəhbəri Sergey Stanişevi Baş nazir təsdiq etdi. 2006-cı il noyabr ayında olan prezident seçkilərində G.Pırvanov yenidən seçicilərinin səslərinin əksəriyyətini alaraq ikinci dəfə Bolqarıstan Respublikasının prezidenti seçildi. Beləliklə, 2005-ci ilin avqustundan 2009-cu ilin iyuluna qədər sosialist Sergey Stanişevin koalisiyon hökuməti fəaliyyət göstərdi. Kabinetin tərkibinə eyni zamanda sabiq baş nazir Simeonun “İkinci Simeon” Milli hərəkat partiyasının və Əhməd Doğanın Hüquq və Azadlıq uğrunda Hərəkat partiyasının nümayəndələri də daxil olmuşdur.

2009-cu ildə Bolqarıstan parlamentində növbəti seçkilər keçirildi. Seçkilərdə Boyko Borisovun liberal-mühafizəkar “Vətəndaşlar Bolqarıstanın avropa inkişafı uğrunda” (GERB) partiyası qələbə çaldı. 2009-cu il iyulun 27-də B.Borisov yeni hökuməti təşkil etdi. Yeni Baş

nazirin hökuməti Bolqarıstanın Avropa ilə inteqrasiyası və Şimali Atlantika əməkdaşlığında iştirakı tərəfdarı idi. Bolqarıstanda elektrik enerjisi qiymətlərinin artırılması ilə başlayan güçlü etirazlar şəraitində 2013-cü il fevralın 19-da Baş nazir Boyko Borisovun kabineti istefa verdi, fevralın 21-də parlament hökumətin istefasını təsdiq etdi.

2012-ci ildə Bolqarıstan Respublikasında prezident seçkiləri keçirildi, Rosen Asenov Plevneliyev prezident seçildi. Keçid dövründə Bolqarıstanın əsas iqtisadi göstəriciləri, o cümlədən daxili ümumi məhsul istehsalının həcmi, sənaye və aqrar bölmənin məhsul istehsalı, xarici və daxili ticarət, əhalinin məşğulluğu aşağı düşmüşdür. Artıq 2000-ci ildən başlayaraq Bolqarıstanda bazar iqtisadiyyatına keçilməsi ilə əlaqədar olaraq iqtisadi və təssərrüfat vəziyyəti sabitləşməyə başladı. Ölkənin ümumi daxili məhsul istehsalı həcmi 2003-cu ildə 5, 2005-ci ildə 6 faiz artdı. İnflyasiya 2000-ci ildəki 10,3-dən, 2003-cü ildəki 2,4 faizə düşdü. Əvvəlki illərdən fərqli olaraq ağır sənaye deyil emal və qida sənayesi sahələri ön plana keçdi.

Aqrar bölmənin təsərrüfatlarının 65,9 faizi xüsusi bölmənin payına düşür. Kənd təsərrüfatı məhsullarının istehsalının 28,8 faizini isə kooperativlər verir. İqtisadiyyatdakı dəyişikliklər əhalinin strukturuna da təsir etmişdir. 2003-cü ildə Bolqarıtan əhalisinin 74,8 faizi xüsusi bölmədə çalışırdı. Sənaye və kənd təsərrüfatında çalışan işçilərin sayı aşağı düşmüş, bunun müqabilində xidmət sahələrindəki işçilərin miqdarı artmışdır.

Bolqarıstanda nəqliyyat iqtisadiyyatın əsas sahələrindəndir. Avtomobil nəqliyyatı əsas vasitə kimi 19611 km şosse yoluna malikdir. 2012-ci ildə ölkənin dəmir yolları 6938 km təşkil etmişdir. Bolqarıstan Rumıniya, Serbiya, Yunanıstan, Türkiyə kimi qonşu dövlətlərlə dəmir yol xəttinə malikdir. Ölkədə 8 əsas hava aeroportu mövcuddur.

Bolqarıstan Respublikasında İnternet geniş yayılmışdır. 2011-ci il rəsmi məlumatına əsasən şəhərlərdəki evlərin 54,1, kənd yerlərindəki fərdi evlərin 18,1 faizində kompüter vardır. Onların isə müvafiq olaraq 51,4 və 16,4 faizi İnternetə bağlana bilir. Ölkədə təhsil və elmin inkişafı xüsusilə riyaziyyat, informatika, fizika, tibb və farmasevtlik sahəsində diqqəti cəlb edir. Dövlət və icma məktəblərində təhsil pulsuzdur. Məktəb təhsili "Xalq Maarifi haqqında Qanunla" idarə edilir və orta təhsil 1-4, 5-8, 9-12-ci sinifləri əhatə etməklə üç dərəcəyə bölünür. 2009-cu ildə Bolqarıstanda 47 universitet fəaliyyət göstərirdi ki, onlar da bakalavr, magistr, doktor dərəcələri verirdi.

Bolqarıstan Respublikasının xarici siyasət sahəsindəki ən böyük uğuru 2004-cü il aprelin 2-dən NATO-ya, 2007-ci il yanvarın 1-dən Avropa İttifaqına üzv olamsıdır. Bu addım Bolqarıstan Rusiya münasibətlərində soyuqluq yaratsa da bunu aradan qaldırmaq mümkün olmuşdur. 2003-cü ilin martında Rusiya Federasiyasının prezidenti V.V.Putin Bolqarıstana səfər edərək dostluq və tərəfdaşlığı inkişaf etdirmək əzmində olduğunu nümayiş etdirdi. Hər iki ölkə arasında əlaqələri möhkəmlətmək məqsədilə 10 ikitərəfli sənəd imzalandı. Xüsusilə yanacaq-energetika sahəsində əlaqələr önə çıxdı. Rusiya qazının 2010-cu ilə kimi Bolqarıstandan keçmək şərtilə Yunanıstan, Makedoniya, Serbiya, Qaradağ və Türkiyəyə nəql edilməsi razılaşdırıldı. Rusiya Federasiyası Bolarıstana qaz sahəsində əməkdaşlıq üçün 150 milyon dollar həcmində kredit ayırdı. Eyni zamanda, 2003-cü ildə Boqarıstanla Rusiya Federasiyası arasında hərbi-texniki əməkdaşlıq genişləndi.

Bolqarıstanın MDB ölkələri ilə, o cümlədən Azərbaycanla əlaqələri inkişaf edir. Konkret olaraq Azərbaycan Resublikasının Prezidenti Heydər Əliyevin 1995-ci il iyunun 29-30-da Bolqarıstan Respublikasına rəsmi səfəri və ölkə prezidenti Jelyu Jelevlə görüşü hər iki ölkənin dostluq əlaqələrindən xəbər verir. Bu görüş çərçivəsində Azərbaycan və Bolqarıstan prezidentləri hər iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladılar.

1999-cu ilin dekabrında Bolqarıstan Respublikasının prezidenti Peter Stoyanov Azərbaycana rəsmi səfərə gələrək hər iki ölkə arasında münasibətlərin daha da inkişafına şərait yaratdı. Bu səfər çərçivəsində iki ölkə arasında elm, təhsil, mədəniyyət sahəsinin yaxınlaşmasına xüsusi diqqət ayrılmışdır. Bu gün də Bolqarıstan Azərbaycan əlaqələri inkişaf edib möhkəmlənməkdə davam edir. Belə ki, 2015-ci ilin martın 4-də Sofiyada Bolqarıstan prezidenti Rosen Plevniliyev ölkəsinə rəsmi səfərə gəlmiş dost Azərbaycan prezidenti İlham

Əliyevin şərəfinə qəbul təşkil etmişdir. Görüşdə Azərbaycanın dövlət başçısı yüksələn xətt üzrə davam edən Azərbaycan Bolqarıstan münasibətlərindən danışaraq hər iki ölkənin gələcəkdə də strateji əməkdaşlığı davam etdirmək əzmində olduğunu xüsusilə vurğulamışdır. Bolqarıstanın dövlət başçısı hər iki ölkə arasındakı iqtisadi əməkdaşlığın əhəmiyyətini qeyd edərək, xüsusilə "Cənub Qaz dəhlizinin" Bolqarıstan və Cənub Şərqi Avropa üçün önəmli mahiyyət daşıdığını ifadə etmişdir. 2016-cı il martın 10-11-də IV Qlobal Bakı Forumu çərçivəsində hər iki dövlət başçısı yenidən bir araya gəlib. Martın 10-da keçirilən ikitərəfli danışıqlarda Azərbaycanın Bolqarıstan arasındakı strateji əməkdaşlığın yüksələn xəttdə inkişaf etməsindən, enerji, əczaçılıq və başqa sahələrdə əməkdaşlığın perspektivlərindən ətraflı bəhs edilmişdir. Bütün bunlar bir daha Azərbaycan Bolqarıstanla siyasi, iqtisadi və mədəni əlaqələrini göstərir.

XXI yüzilliyin əvvəllərində Bolqarıstan Respublikasının xarici siyasətində dərin dəyişikliklər baş verdi, bununla da ölkə yeni dünya qaydası ilə yaşamağa və mübarizə aparmağa başladı.

2014-cü il dekabrın 31-nə olan rəsmi məlumata görə Bolqarıstan Respublikasının əhalisi 7202 198 nəfərdir, ərazisi isə 110993,6 km$^2$ təşkil edir. Rosen Pleveneliyev Bolqarıstanın prezidenti, Boyko Borisov Baş naziridir. İnzibati İdarəetmə sisteminə görə Bolqarıstan 28 vilayətə, onlar öz növbəsində 264 icmaya bölünür. Bolqar levi ölkənin pul vahididir. Sofiya, Plovdiv, Varna, Burqas, Pleven, Şumen və b. ölkənin ən böyük şəhərləridir. Rəsmi dövlət dili bolqar dili olan Bolqarıstan parlament respublikasıdır.

## Yuqoslaviya 1918-2015-ci illərdə.

### Yuqoslaviya torpaqları 1918 – XX əsrin 40-cı illərin əvvəllərində

***Siyasi vəziyyət.*** Birinci Dünya müharibəsi illərində cənub slavyan xalqlarının yaşadığı Serbiya və Çernoqoriya 1878-ci ildə Rusiya ilə Türkiyə arasında bağlanmış San-Stefano sülhünə və Berlin traktatına görə dövlət müstəqilliyinə malik idi, Bosniya və Hertseqovina, Xorvatiya, Sloveniya, Avstriya-Macarıstan imperiyasının təkibinə daxil olan vilayətlər idi. Makedoniya isə 1913-cü il İkinci Balkan müharibəsi nəticəsində parçalanaraq onun ərazisinin çox hissəsini təşkil edən Vardar Makedoniyası Serbiyanın, Egey Makedoniyası Yunanıstanın, Pirin Makedoniyası Bolqarıstanın əlinə keçmişdi. Birinci Dünya müharibəsinin sonlarına doğru cənub slavyanları arasında siyasi mübarizə daha da güclənmişdir. Avstriya-Macarıstanın müharibə cəbhələrindəki uğursuzluqları səbəbilə bu yerlərdə fəaliyyət göstərən siyasi partiyaların milli məsələdə mövqeləri daha kəskin xarakter kəsb edirdi.

Cənub slavyanlarının mühacirətdəki nümayəndələri 1915-ci il martın 10-11-də Çikaqoda çağrılan qurultayda serblər, çernoqoriyalılar, xorvatlardan ibarət olan konfederasiyasının yaradılmasına dair qərar qəbul etmişdir. Lakin bu qərar bütün cənub slavyanlarını Qarageorgiyevçilər sülaləsinin idarə etdiyi Serbiya monarxiyası tərkibində birləşdirməyi qarşısına məqsəd qoymuş Serbiya hökuməti tərəfindən qəbul edilmədi.

Cənub Slavyanlarının Avropadakı mühacir nümayəndələrinin 1915-ci il aprelin 30-da Londonda xorvat A.Trumbiçin (1864-1938) rəhbərliyi altında yaradılmış Cənub Slavyanları Komitəsi Avstriya-Macarıstan imperiyasını ləğv etmək və müstəqil Yuqoslaviya dövləti yaratmaq haqqında qərar qəbul etmişdir. Cənub Slavyanları Komitəsində Bosniya-Hertseqovinanı N.Stoyanoviç və D.Vasilyeviç təmsil edirdilər. Komitədə Xorvatiyanı A.Trumbiçlə yanaşı, F.Supilo, X.Xinkoviç, F.Potoçnyak və b. təmsil edirdilər. Komitənin fəaliyyətində Slovenlər də iştirak edirdilər. Onlar bu komitənin London və Paris tərəfindən cənub slavyanlarının nümayəndəli orqanı kimi tanınmasına çalışırdılar. Bu Yuqoslaviya Komitəsilə Serb hökuməti arasında fikir ayrılığına səbəb olmuşdur.

Avstriya-Macarıstan və Almaniya qoşunları Serbiyaya qarşı hücuma keçərək Belqradı ələ keçirmələrinə baxmayaraq, N.Paşiç (1845-1926) hökuməti təslim olmaqdan imtina edərək, qoşunları və hökuməti Korfu yunan adasına köçürmüşdür. Serbiya ərazisi işğal edildikdən

sonra iqtisadiyyat ağır zərbə almış, sənaye müəssisəslərinin çoxu fəaliyyətini dayandırmış, əkin sahələri azalmış, ölkə ərazisində 100 mindən çox insanın ölümü ilə nəticələnən epidemiya yayılmışdır. Təsərrüfatın dağıldığı, ərzaq çatışmazlığı, xəstəlik və epidemiyanın tüğyan etdiyi ölkənin meşə, filiz, ərzaq ehtiyyatları isə Avstriya-Macarıstan və Almaniyaya daşınırdı.

1917-ci il mayın 30-da Avstriya Reyxsratındakı Sloven klerikallarının başçısı A.Koroşets ( 1872-1940) bu qrumda təmsil olunan cənub slavyanları klubu adından May bəyannaməsini elan edərək Avstriya-Macarıstan imperiyasındakı slovenlərin, xorvatların və serblərin Habsburqların himayəsi altında vahid dövlətdə birləşmələrini irəli sürdü. 1917-ci il iyunun ortalarında Korfu adasındakı Serb hökumətilə Yuqoslavyan Komitəsi arasında baş tutan danışıqlar nəticəsində Korfu bəyannaməsi imzalandı. Bu sənədə əsasən müharibədən sonra cənub Slavyanlarının Avstriya-Macarıstan imperiyasının tərkibinə daxil olan ərazilərini, Serbiyanı və Çernoqoriyanı əhatə edən, Qarageorgieviçlərin hakimiyyəti altında konstitusiyalı, parlamentli monarxiya yaratmaq vəzifəsi müəyyən edildi.

Eyni zamanda, cənub slavyanların məskunlaşdıqları ərazilərdə fəaliyyət göstərən siyasi partiyaların və liderlərin bu məsələyə münasibəti birmənalı deyildir. Arxiyepiskop İ.Ştadler və yeniskop A.Maxniçn başçılıq etdiyi sağ və klerikal partiyası mühafizəkar milliyətçi mövqeydən çıxış edərək Habusburqlar monarxiyası tərkibində Xorvatiya mərkəz olmaqla katolik Yuqoslav dövlətinin yaradılması tərəfdarı idilər. S. və V.Pribiçeviç qardaşları, S.Budisavleviçin başçılıq etdikləri xorvat-serb koalisiyasının sol qanadı serblər də daxil olmaqla bütün yuqoslaviyanların müstəqil dövlətdə birləşməsini irəli sürürdü. Avstriya-Macarıstanın tərkibinə daxil olan cənub Slavyan torpaqlarındakı sosial-demokrat partiyaları milli məsələdən bəhs edən proqramlara, o cümlədən Korfu və May bəyannaməsinə fikir vermirdilər. Xorvatiya və Sloveniya sosial-demokratlarının lideri V.Koraç fəhlələri May bəyannaməsi əsasında burjuaziya ilə əməkdaşlığa çağırırdı.

Birinci Dünya müharibəsinin sonlarına yaxın hərbi əməliyyatlar Avstriya-Macarıstanda ümumi iqtisadi və hərbi-siyasi böhran yaratdı. 1917-ci ildə böhranın daha da dərinləşməsinə Rusiyadakı inqilabi dəyişikliklər təsir göstərirdi. Rusiyada Fevral inqilabı, mütləqiyyətin devrilməsi, sovetlərin yaradılması, cəbhədə və arxada müharibə əleyhinə çıxışlar Habsburqlar imperiyasını bürüyən kütləvi mitinqlərə, nümayişlərə gətirib çıxartdı. 1848-ci ildən 1916-cı ilə qədər hakimiyyətdə olmuş imperator Frans İosifi əvəz etmiş yeni imperator I Karl və onun hökuməti parlamentin işini bərpa etməyə və bəzi radikal islahatlar keçirəcəyinə hazır olduğunu bəyan etməli oldular. Yuqoslaviya torpaqlarında siyasi partiyaların, o cümlədən Sosial-Demokrat partiyasının fəaliyyətləri bərpa edildi, həmkarlar ittifaqları yaradıldı. 1917-ci ilin mayında Xorvatiya və Sloveniya sosial demokratlarının müvəqqəti fəaliyyət Komitəsi yaradıldı, “Sloboda” qəzeti yenidən çıxmağa başladı. Sarayevoda Sosial-Demokrat partiyası və Həmkarlar ittifaqlarının vahid rəhbərliyi yaradıldı, Bosniya sosial-demokratlarının “Qlas slobodı” qəzetinin nəşri bərpa edildi. 1918-ci ilin əvvəllərində ölkəni fəhlələrin tətil hərəkatı bürüdü. İqtisadi çətinliklərin zəminində Belqradda, Zaqrebdə, Sarayevoda, Lyublyanada, Mostarda, Osiekdə, Tuzlada, Mariborda tətillər baş verdi. Fəhlələr siyasi tələblər irəli sürərək ictimai və siyasi həyatın demokratikləşdirilməsini tələb etdilər. 1919-cu ilin fevralında 30 min nəfəri əhatə edən Bosniya fəhlələrinin ümumi tətili polis nəzarətinin ləğv olunmasını, fəhlə təşkilatlarına azad fəaliyyət şəraitini yaradılmasını, zəhmətkeşlərə təminatlı siyasi və vətəndaş azadlıqlarının təmin edilməsi tələblərini səsləndirdi.

Slavyan torpaqlarında milli-azadlıq və kəndli hərəkatı geniş vüsət aldı. 1918-ci ilin martında Brest sülhü bağlandıqdan sonra on minlərlə yuqoslavlı öz vətəninə qayıtmağa başladı. Xorvatiya, Dalmasiya, Sloveniya və başqa vilayətlərdə milli-azadlıq hərəkatı genişləndi, hər yerdə kəndlilər mülkədar torpaqlarını ələ keçirməyə başladılar. Həyacanlar ordunu daha çox bürüyürdü. Bir sıra ordu hissələrində hərbi-inqilabi komitələr yaradıldı. Müharibənin sonunda imperiya ordusu sıralarında cənubi slavyan əsgərlərinin kütləvi fərariliyi başlandı. Təkcə Xorvatiyada 1918-ci ilin oktyabr ayında 100 mindən artıq əsgərlikdən qaçan adam var idi. Bunların çoxu meşələrdə və dağlarda “yaşıl dəstələr” adlanan

silahlı partizan dəstələrinə birləşirdilər. Partizanlar kəndlilərlə birlikdə mülkədar torpaqlarını tutur, Avstriya qoşunlarının kommunikasiyalarını dağıdır, bəzən də yerlərdə hakimiyyəti ələ keçirdilər. “Yaşıl dəstələri”nin sıralarında inqilabi əhval-ruhiyyəli adamlar az deyildi. Bunların arasında Sovet Rusiyasından gəlmiş Oktyabrın şahidləri, bilavasitə iştirakçıları olmuş keçmiş hərbi əsrlər də var idi. “Yaşıl dəstələrin” ümumi sayı 20-30 min nəfərə çatırdı.

1918-ci ilin oktyabrında Avstriya-Macarıstan imperiyasının parçalanması başladı. İmperiya hökuməti cənubi slavyan, yəni Yuqoslaviya torpaqları üzərində öz nəzarətini əslində itirdi. Bu vaxt üçün Serbiya və Çernoqoriya Dördlər İttifaqının işğal qoşunlarından azad oldular. 1918-ci ilin sentyabrında Salonik cəbhəsində məğlub olmuş Avstriya-Macarıstan öz ordularını geri çəkməyə başladı. Serbiya və Çernoqoriyaya tərkibində serb qoşunları olan Antanta hərbi birləşmələri daxil oldu. Belə bir şəraitdə cənubi slavyan milli burjuaziyası və siyasi partiyalar hakimiyyəti ələ keçirmək üçün çalışır, bu regionlarda özlərinin hakimiyyət orqanlarının yaradılmasına səy göstərirdilər.

1918-ci il oktyabrın 5-6-da Xorvatiya və Sloveniyanın əsas burjua partiyalarının təşəbbüsü ilə Xorvatiyanın paytaxtı Zaqrebdə Mərkəzi Xalq Veçesi – hakimiyyət orqanı təşkil edildi. Buraya Xorvatiya, Bosniya və Herseqovina Məclisinin, Sloveniya, İstriya və Dalmasiya seçkili özünüidarə orqanlarının deputatları daxil idi. Sloven klerikallarının lideri A.Koroşets Veçenin sədri seçildi. Veçe bütün cənubi slavyan vilayətlərinin ərazisində özünü ali nümayəndəlik orqanı elan etdi.1918-ci il oktyabrın 29-da Veçe Habsburqlar imperiyasından ayrıldığını, “Slovenlər, xorvatlar və serblər dövləti” yaradıldığını elan etdi, hökuməti və yerli hakimiyyət orqanlarını yaratmağa başladı. 1918-ci il noyabrın 3-də Avstriya-Macarıstan imperiyasının təslim olması və onun süqutu ilə əlaqədar Xalq Veçesi Antanta orduları ilə hərbi əməliyyatlarını dayandırdığını elan etdi.

Lakin 1918-ci ilin noyabrında İtaliya, ABŞ və Fransa qoşunları Dalmasiyanı və Xorvatiyanı dənizkənarı sahillərini işğal etdilər. Antantanın işğalçı qoşunları Serbiya ərazisinə daxil oldu. Serbiya qoşunları Çernoqoriya və Voyevodinanı işğal etdilər. Antanta dövlətlərinin hər birinin öz məqsədləri var idi. Cənubi slavyan torpaqlarına ən çox İtaliya iddia edirdi. İtaliya bu məqsədə ona cənub slavyan torpaqlarını vəd etmiş 1915-ci il London müqaviləsinin məxfi maddələrinə əsaslanırdı. Asılı və xırda dövlətlər yaratmaq vasitəsi ilə Balkanlarda öz hökmranlığını yaratmağa cəhd edən Fransa, İtaliya iddialarının qəti düşməni idi. ABŞ və İngiltərə də Cənubi-Şərqi Avropada öz hökmranlığını qurmaq istəyirdilər ki, bütün bunlar böyük dövlətlər arasındakı ziddiyyətlərin kəskinləşməsinə səbəb olurdu.

Antanta dövlətləri Yuqoslaviya dövlətinin təşkil edilməsi işinə daha fəal qarışır, bu dövlətdə hegemonluq iddiasında olan Serbiya monarxiyasını və burjuaziyasını müdafiə edirdilər. Antanta Zaqreb Xalq Veçesinə və hələ 1915-ci ildə Londonda yardılmış mühacir “Yuqoslav Komitəsinə” təzyiq göstərərək, onları keçmiş Avstriya-Macarıstanın bütün cənubi slavyan vilayətlərinin Serbiya krallığına birləşdirilməsinə razı olmağa məcbur edirdilər.

1918-ci ilin noyabrında Cenevrədə Serb hökumətinin, Zaqreb Xalq Veçesinin və 1915-ci ildə Londonda yaradılan Cənub Slavyan Komitəsi nümayəndələrinin müşavirəsi toplandı. Müşavirənin işində Serbiya hökümətinin başçısı Nikola Paşiç, Zaqreb Xalq Veçesinin sədri Anton Koroşets, Cənub Slavyan Komitəsinin sədri Ante Trumbiç iştirak edirdi. Yığıncağın əsas müzakirə obyekti Avstriya-Macarıstanın tərkibinə daxil olan keçmiş cənub-slavyan vilayətlərinin Serbiyaya birləşdirilməsi idi. Tərəflər xalqların öz dövlət idarəetmə formasını seçməsi hüququnu rədd edərək, toplantıdan sonra da bağlı qapılar arxasında müzakirələri davam etdirdi.

Slovenlərin, xorvatların və serblərin dövlətləri 1918-ci il oktyabrın 29-dan dekabrın 1-nə kimi yaşadı. İnqilabi çıxışların davam etməsi İtaliya qoşunlarının Dalmasiyanı işğal etməsi, işğalçıların qarşısını almaq üçün yeni yaranan dövlətin silahlı qüvvələrinin olmaması onları Serbiya ilə birləşməyə məcbur etdi. 1918-ci il noyabrın 5-də slovenlərin, xorvatların və serblərin 1918-ci il oktyabrın 29-da 816 illik uniyadan sonra Macarıstan krallığından ayrılmış yeni dövləti kömək məqsədilə Serbiyaya müraciət etdi.

1918-ci il noyabrın 24-də Zaqrebdə Xalq Veçesi (parlamenti) serblər, xorvatlar və

slovenlərin Serbiya Krallığında birləşdirilməsi haqqında qərar qəbul etdi. Bu qərara qarşı Stepan Radiçin başçılıq etdiyi Xorvat Kəndli partiyası çıxış etdi. Partiya yuqoslavların vahid dövləti tərkibində Xorvatiyanın müstəqilliyini tələb edirdi. Lakin partiyanın rəhbərləri bunun həyata keçirilməsinin konkret yollarını irəli sürmürdü. Noyabrın 25-də Voyevodina, 26-da Çernoqoriya Serbiyaya birləşdirildi. Noyabrda müstəqil Banat Respublikası qərbdən serb, şərqdən rumın qoşunları tərəfindən işğal edilərək bölündü.

1918-ci il dekabrın 1-də Xalq Veçesinin nümayəndələri sadiq təbəə haqqında sənədi Belqraddakı Serbiya krallığının vəliəhd naibi Aleksandr Qarageorgiyeviçə təqdim etdilər. Vəliəhd naib Aleksandr Serbiya kralı adından Serblər, Xorvatlar və Slovenlər Krallığının yaradılması haqqında manifest elan etdi. Serbiyanın monarxı I Pyotr (1918-1921) yeni dövlətin kralı elan olunsa da, real hakimiyyət naib-qəyyum Aleksandra məxsus idi ki, 1921-ci ildən də o, taxta sahib oldu.

1918-ci il dekabrın 20-də Krallığın birinci hökuməti təşkil olundu. Hökumətdə aparıcı rol Serb iri burjuaziyasının nümayəndələrinə məxsus idi. Kabinetin sədri vəzifəsini Serbiya Radikal partiyasının lideri Stoyan Protiç, sədrin müavini vəzifəsini isə Sloveniya Klerikal Xalq partiyasının sədri Anton Koroşets tutdu. Kabinetin tərkibinə serb, xorvat, sloven və müsəlman partiyalarını təmsil edən 12 nazir daxil oldu. 1919-cu ilin martında ölkənin müvəqqəti parlamenti – Dövlət Veçesi təsis olundu.

Skupşinaya (parlamentə) seçkilər 1920-ci il noyabrın 28-də keçirildi. Seçkilərdə müharibəyə qədər yaradılmış partiyalar, Serb Radikallar partiyası, S.Radiçin Xorvat Kəndli partiyası, Xorvatiya Ədalət partiyası ilə yanaşı, yeni siyasi partiyalar Birləşmiş Bosniya Müsəlmanları partiyası, Demokratik partiya da iştirak edirdi. Seçkilərdə Radikallar partiyası 93, Demokratlar partiyası 92, Xorvat Respublika Kəndli partiyası 50, Kommunist partiyası 59 deputat yeri aldı. Qeyd edilən partiyalar içərisində ən geniş nüfuza Stepan Radiçin Xorvat Respublika Kəndli partiyası malik idi (XRKP). 1919-cu ilin fevralında Antuan Radiçin ölümündən sonra onun qardaşı Stepan Radiçin (1871-1928) Xorvatiyada kütləvi tərəfdarları olan kəndli partiyasının nüfuzlu rəhbərinə çevrildi. Partiya fəallarının növbədənkənar yığıncağında qərara alındı ki, Xorvat xalqı adından Paris sülh konfransına memorandumla müraciət edilərək elan olunsun ki, hakim dairələr millətlərin öz müqəddaratını təyin etmək prinsipinə əsaslanaraq birləşmiş cənub slavyan dövlətində xorvatların dövlət və etnoqrafik özünəməxsus adət və ənənələrini hökmən nəzərə almalıdırlar. SXS krallığının hakim dairələri bu memoranduma S.Radiçin həbs edilərək 1920-ci il noyabrın 28-dəki parlament seçkilərinə kimi həbsxanada saxlamaqla cavab verdi.

Hakimiyyət orqanlarına müxalifətdə olan Yuqoslaviya Kommunist partiyası 1919-cu ilin aprelində Belqradda, 1920-ci ilin iyununda Vukovarda olan qurultaylarda təşkilatlanmışdır. 1919-cu il aprelin 20-25-də Belqradda serb-xorvat-sloven dövlətinin Sosialist Fəhlə partiyasının birinci birləşdirici qurultayı oldu. Qurultayın işində Serbiya, Bosniya və Herseqovina Sosial-Demokrat partiyası, Xorvatiya, Sloveniya, Dalmasiyanın sağlara meyl edən sol sosialist qrup təşkilatları, Voyevodina, Çernoqoriya və Makedoniyanın sosialist qrupları iştirak edirdilər. Qurultayın nümayəndələri arasında fəhlə hərəkatının inqilabçı liderləri Curo Cakoviç, Filipp Filippinoviç və b. da var idi. Qurultay vahid Yuqoslaviya Sosialist Fəhlə partiyasının (kommunistlər) yaradılması və onun Kommunist İnternasionalına daxil olması haqqında qərar qəbul etdi.

1920-ci il iyunun 20-25-də Vukovarda partiyanın ikinci qurultayında mərkəzçilərlə mübarizə şəraitində Kommunist İnternasionalının qərarlarına uyğun olaraq partiyanın proqram və nizamnaməsi qəbul edildi, partiyanın adı Yuqoslaviya Kommunist partiyası oldu. Partiyanın proqramında Yuqoslaviyada sovet respublikasının elan edilməsi uğrunda mübarizə apararaq yuqoslaviya proletariatının dünya inqilabının hazırlanmasında şərait yaratmaq əsas vəzifə kimi nəzərdə tutulurdu. Parlamentdə çoxluq serb demokratik və radikal burjua partiyalarına məxsus idi. Lakin məclisdə Kommunist partiyasını, ziyalıları birləşdirilmiş Prodanoviçin Serb Respublikaçı partiyasından və Xorvat Respublikası Kəndli partiyasından olan deputatların müxalifəti nəticəsində seçkilərdə çoxluq qazanmış radikallar və serb

demokratlar partiyalarının mövqeyi möhkəm deyildi.

Xeyli hissəsi dövlətin federasiya şəklində qurulması tərəfdarı olan güclü müxalifətin yaradılması Serb-Xorvat-Sloveniya Krallığında serb-xorvat ziddiyyətlərini daha da kəskinləşdirdi. Belə bir şəraitdə hökumət ifrat tədbirlər görməyi qərara aldı. 1920-ci il dekabrın 30-da Serbiya radikallarının lideri Milenko Vesniç hökuməti kommunist təşkilatlarının fəaliyyəti üzərində nəzarət qoyulması və habelə şifahi və yazılı kommunist təbliğatının qadağan edilməsi haqqında qərar verdi. Hökumət qorxurdu ki, Sovet Rusiyasında baş verən hadisələr Yuqoslaviyada da təkrarlana bilər. Ona görə də hökumət kommunistlərin və tərəqqipərvər ziyalıların təqib olunmasını gücləndirdi. Təkcə 1920-ci ilin dekabrından 1921-ci ilin yanvarına kimi olan iki ayda 10 min nəfər kommunist və tərəqqipərvər ziyalı həbsxanaya salınmışdı. Xorvatiyaya əlavə qoşunlar göndərilmiş və hökumətə fövqəladə hüquqlar verilmişdi. Kommunistlər üçün yığıncaqlar və nümayişlər məhdudlaşdırılmışdı. Hökumətə hakim serb millətçiliyinin ən qətiyyətli tərəfdarı Nikola Paşiç (1921-1924-cü illər) başçılıq etməyə başladı.

1921-ci il iyunun 28-də müqəddəs Vida (Vidovdan) günündə parlament tərəfindən Vidovdan Konstitusiyası qəbul edildi. Səsvermədə kommunistləri, Xorvatiya və Sloveniyanı təmsil edən 160 nəfər müxalifət nümayəndəsi iştirak etmirdi. Parlamentdə iştirak edən və qeyri-serb rayonları təmsil edən deputatların böyük əksəriyyəti Vidovdan Konstitusiyasına səs verməkdən imtina etdilər. Konstitusiya serb qoşunlarının 1389-cu il iyunun 28-də (15-də) Kosovo çölündə osmalılarla olmuş döyüşün şərəfinə adlandırılmışdı. Konstitusiyaya əsasən Serb-Xorvat-Sloven dövləti başda Qarageorgiyeviçlər sülaləsindən olan kral duran parlamentli monarxiya elan edilirdi. Ölkədə qanunverici hakimiyyət kral və 4 il müddətinə seçilən birpalatalı parlamentə (skupşinaya) məxsus idi. Silahlı qüvvələrin baş komandanı kimi, kral fövqəladə vəziyyət elan etmək, konstitusiyanın fəaliyyətini dayandırmaq hüququ alırdı. Bundan əlavə, kral istədiyi kimi baş nazirləri təyin etmək və vəzifədən azad etmək hüququna malik olduğundan, əslində ali icraedici hakimiyyətə də malik olurdu. Seçki hüququna yalnız 30 yaşına çatmış kişilər malik idilər, qadınlar isə seçki hüququndan məhrum idilər.

Bütün dövlət hakimiyyətinin böyük serb burjuaziyasının və kral sarayının əlində mərkəzləşməsi dövlətdə milli və sosial ziddiyyətləri kəskinləşdirdi. Konstitusiya qəbul edildikdən sonra Paşiç hökuməti mürtəce siyasəti daha da gücləndirdi. Şahzadə-Naib Aleksandra və daxili işlər nazirin Draşkoviçə edilmiş qəsddən istifadə edərək parlament 1921-ci il avqustun 2-də “Dövlətdə təhlükəsizliyin və qaydaların mühafizəsi haqqında” qanun qəbul etdi. Bu qanuna görə Kommunist partiyasının üzvləri 20 il müddətinə qədər sürgün cəzasına məhkum edilirdilər. 59 kommunist deputatın hamısı deputatlıq toxunulmamazlığı hüququndan məhrum edilir və məhkəməyə verilirdi. Kommunist partiyası gizli işlə keçdi və 20 il ərzində belə bir vəziyyətdə işləməyə məcbur oldu. Partiya bu zərbəyə hazır deyildi və onun bir çox yerli təşkilatları dağıldı. Hökumət Kommunist partiyasının təsiri altında olan həmkarlar ittifaqlarını da buraxdı. Lakin hökumət xalq hərəkatını boğa bilmədi. Hökumətin iqtisadi siyasəti də xalq kütlələrinin böyük narazılığına səbəb olurdu. Hökumət xarici borcları ödəmək üçün yaşayışı ağırlaşdıran və real əmək haqqını azaldan ağır vergilər qoyur və inflyasiyaya şərait yaradırdı.

1924-cü ilin iyulunda hakimiyyət başına Serbiyanın burjua demokratik partiyasının başçısı L.Davidoviçin başçılıq etdiyi hökumət gəldi. Hökumət SSRİ ilə diplomatik əlaqə yaratmağı və bəzi islahatlar keçirməyi vəd etdi. Bu vədlərin hamısı kağız üzərində qaldı və yerinə yetirilmədi. Lakin mürtəce quruluşda bir qədər yumşalma əmələ gəldi. Xüsusən, Davidoviçin hökuməti Xorvatiyaya məhdud özünüidarə etmək hüququ verdi, “Dövlətin mühafizəsi haqqındakı” qanunu Radiçə və XRKP-nin digər üzvlərinə şamil etməkdən imtina etdi.1924-cü ildə S.Radiç Moskvaya gəldi və onun partiyasının Kəndli İnternasionalına daxil olması haqqında müqavilə imzaladı. Xorvatiya kəndlilərinin böyük kütləri bu xəbəri şadlıqla qarşıaldılar. Lakin “liberalism” dövrü ölkədə çox davam etmədi. 1924-cü ilin noyabrında Davidoviçi əvəz etmiş Paşiç yenidən “sərt” siyasət yeritməyə başladı, XRKP-yə yeni təzyiqlər başladı və “Kəndli İnternasionalı” ilə əlaqə saxladığına görə Stepan Radiç həbs edildi.

Müxalifətlə hesablaşandan sonra, hökumət parlamenti buraxdı, terror və cəza şəraitində keçirilən 1925-ci il fevral ayına yeni seçkilər təyin etdi. Zaqrebdə və Belqradda hökumətin özbaşınalığı əleyhinə fəhlələrin və tələbələrin kortəbii etiraz nümayişləri oldu, silahlı toqquşmalar baş verdi. 1925-ci il seçkiləri tarixə "qanlı" seçkilər adı ilə daxil oldu. Serb Radikallar partiyası bütün səslərin yalnız 34,3%-ni aldı. Xorvat Kəndli partiyası yenə də Xorvatiyada birinci yerə çıxdı və parlamentdə xorvatları təmsil edən yeganə partiya oldu.

1925-ci il parlament seçkilərindən sonra XRKP-nın siyasətində gözlənilməz dəyişiklik baş verdi. XRKP-nın başçıları Xorvatiyanın milli istiqlaliyyəti və orada respublika yaratmaq haqqındakı əsas proqram tələblərindən əl çəkdilər. Partiya Kəndli İnternasionalından çıxdı, Vidovdan Konstitusiyanı tanıdı və partiyanın adı dəyişdirilərək Respublika adı çıxarıldı və Xorvatiya Kəndli partiyası adlanmağa başlandı. Bundan sonra Stepan Radiç həbsxanadan buraxıldı və kral Aleksandr tərəfindən qəbul edildi. O, həm də hökumətdə Maarif naziri vəzifəsinə təyin edildi. Bütün bunlar partiyanın dağılmasına və kütlələrin ondan ayrılmasına səbəb oldu. Xorvatiya Kəndli Partiyasının sürətlə dağılması S.Radiçin kütlələr içərisində nüfuzdan düşməsi onu yenidən müxalifətə keçməyə məcbur etdi.

1927-1928-ci illərdə Serb-Xorvat-Sloven dövlətinin daxili siyasi vəziyyəti daha da pisləşdi. Heç bir hökumət uzun müddət hakimiyyət başında qala bilmirdi. 1918-1929-cu illərdə hakimiyyətdə 20-dən çox kabinet dəyişmişdi. Skupşina (parlament) bir çox hallarda silahlı toqquşmalara qədər gəlib çıxan kəskin partiyalararası çəkişmələr meydanına çevrilmişdi. Serb millətçiləri parlamentin normal işini pozur, müxalifətçiləri döyür, konstitusiyanı və parlament nizamnaməsini kobudcasına pozurdular. Bu hərc-mərcliyin qarşısını almaq məqsədilə S.Radiçin Xorvat Kəndli partiyası, Svetozar Pribiçevin Müstəqil Demokrat partiyası və digər partiyalardan ibarət koalisiya yaradıldı. Bu partiyaların koalisiyasını Bosniya Müsəlman partiyası da müdafiə edirdi.

Lakin Serb hərbi millətçiləri heç bir müxalifətlə barışmaq istəmirdilər. Onlar müxalifət partiyaları ilə hesablaşmır, bir sıra siyasi məsələlərdə onlar arasında ciddi fikir ixtilafları yaranır, parlamentdə bəzən bu dalaşma ilə nəticələnirdi. 1928-ci il iyunun 20-də parlamentin iclasında serb radikalları partiyasının üzvü Punişa Radiç Xorvatiya Kəndli partiyasından olan iki deputatı tapancadan atılan atəşlə öldürmüş, bir neçə deputatı isə yaralamışdı. Ağır yaralanmış Stepan Radiç avqust ayında öldü. Xorvat deputatlarının öldürülməsi Xorvatiyada, Bosniyada, Herseqovinada, Dalmasiyada və ölkənin bir sıra digər rayonlarında böyük hiddət oyatdı. Zaqrebdəki dəfn mərasimi polis və qoşunlarla silahlı toqquşmaya çevrildi. Parlamentdəki kəndli-demokratik koalisiyasından olan deputatlar hökumətin özbaşıalığı əleyhinə kəskin etiraz etdi və terrorçuların ciddi surətdə cəzalandırılmasını tələb edərək bildirdi ki, onların tələbləri yerinə yetirilməyincə parlamentin işində iştirak etməyəcəklər. Milli rayonlardan və əyalətlərdən olan deputatların çoxu Belqradı tərk etdilər. Ölkəni siyasi böhran bürümüşdü. Vidovdan Konstitusiyanın köməyi ilə ölkəni idarə etməyə gücü çatmayan hakim dairələr monarxiya faşist diktaturası qurmağa hazırlaşırdılar.

1928-ci ilin iyulunda Sloveniya Klerikal Xalq partiyasının rəhbəri Anton Koroşets radikal, demokrat və müsəlman partiyaların nümayəndələrindən ibarət hökumət təşkil etdi. Hökumət vergi islahatı keçirməyi, kəndlilərə kredit ayırmağı, dövlət aparatının yenidən qurmağı vəd etdi. Eyni zamanda hakimiyyət müxalifətçiləri həbs etməkdə davam edir, senzuranı sərtləşdirməyi və polisə yerli özünüidarə orqanlarının işinə qarışmaq hüququ verməyi planlaşdırırdı. İctimai böhranın dərinləşməsi şəraitində A.Kroşets hökuməti 1928-ci ilin dekabrında istefaya getməyə məcbur oldu.

1929-cu il yanvarın 6-da Kral Aleksandr dövlət çevrilişi etdi, Konstitusiyanı ləğv etdi və diktaturasını qurdu. Eyni zamanda "Kral hakimiyyəti və ali dövlət idarəçiliyi haqqında qanun" verildi. Bu qanuna görə Yuqoslaviya dövləti silki monarxiyalı dövlət elan edildi və monarx qanun vermək hüququ əldə etdi. Yerli özünüidarə orqanlarının seçkili olması qaydası bütün ölkədə ləğv edildi. Yeni hökumətin başçısı vəzifəsinə kral qvardiyasının komandiri, serb general P.Jivkoviç təyin edildi. Əvvəlki baş nazir A.Koroşets yollar naziri təyin edildi. Hökumətin tərkibinə maliyyə və sənaye burjuaziyasının və mülkədarların yuxarı təbəqələrinin

nümayəndələri daxil oldular. Xalq Skupşinası buraxıldı, bütün siyasi partiyaların, ictimai təşkilatların fəaliyyəti qadağan edildi. Onların əvəzinə 1932-ci ildə vahid partiya – Yuqoslaviya Milli partiyası yaradıldı. Kralın verdiyi dekretə əsasən bütün yerli özünüidarə orqanları – bələdiyyə idarələri, icmalar və hakimlərin müstəqilliyi ləğv edilirdi.

Keçirilmiş inzibati islahat tarixən əmələ gəlmiş ölkənin milli vilayətlərə bölünməsini ləğv etdi və yeni inzibati bölgü kral tərəfindən təyin edilən qubernatorların rəhbərliyi altında 9 banovin, yəni bölgə müəyyən etdi. Bölgələrin sərhədləri qəsdən elə təyin edilirdi ki, milli vilayətlər parçalanıb Serbiyadan tam asılı vəziyyətə düşsünlər. Ölkənin köhnə – "Serblərin, Xorvatların və Slovenlərin krallığı" adı yeni "Yuqoslaviya Krallığı" adı ilə əvəz edilirdi. Millətlərin hamısı təkcə Yuqoslav xalqı adlanırdı, xorvatların, slovenlərin, makedoniyalıların və digər qeyri-bərabər hüquqlu xalqların əsrlərdən bəri qalmış milli mədəniyyətləri təqib edilirdi.

Ölkədə irtica və polis özbaşınalığı tüğyan edirdi. Kommunistlər həbsə alınır, sürgün edilir, çoxları isə öldürülür, polsi zindanlarında əziyyət çəkirdilər. Ölkədə 868 kommunist üzvü əleyhinə məhkəmə prossesi aparılmış, onlar, ümumiyyətlə, 2,5 min il müddətinə həbs cəzasına, 11 nəfər ən görkəmli rəhbəri isə ölüm cəzasına məhkum edilmişdilər. Xorvat Kəndli partiyasının yeni rəhbərlərindən biri S.Pribiçev kral diktaturasına qarşı ciddi müqavimət göstərirdi. Yalnız Çexoslovakiyanın prezidenti T.Masarikin şəxsən müdaxiləsindən sonra ona xaricə getməyə icazə verildi. XKP-nin yeni liderlərindən biri Vladimir Maçek isə 1929-cu ilin dekabrında terroristlərlə iş birliyi iddiası ilə həbs olundu, yalnız 1930-cu ilin yazında onu həbsxanadan buraxdılar.

Diktatura rejiminə qarşı ölkədə fəhlə hərəkatı gücləndi. Xorvatiya dəmiryolçularının, Serbiya mədənçilərinin, Bosniya və Herseqovina maşınqayıranlarının tətilləri ciddi xarakter daşıyırdı. Terrorun hökm sürməsinə baxmayaraq siyasi tətillər də olurdu. Belqraddakı nümayişlərdə universitet tələbələri də fəal iştirak edirdilər .

Kəndli hərəkatı da geniş vüsət almışdı, Xorvatiyanın, Sloveniyanın, Dalmasiyanın, Makedoniyanın, Bosniyanın, Herseqovinanın və başqa vilayətlərin bir sıra rayonlarında kəndlilər torpaqları zəbt edir, hökumət anbarlarını dağıdır, sələmçilərin və möhtəkir tacirlərin evlərini yandırırdılar. Monarxiya hərbi diktaturaya qarşı xalqın müqavimətinin artması hakim sinifləri bəzi güzəştlərə getməyə məcbur etdi. 1931-ci il sentyabrın 3-də kral Yuqoslaviyanı konstitusiyalı monarxiya elan edən manifest verdi. Yeni konstitusiyaya görə kralın hakimiyyəti ikipalatalı – skupşina və senatdan ibarət parlament ilə məhdudlaşdırıldı. Skupşinanın bütün deputatları və senatın yarısı əhali tərəfindən seçilirdi, senatın tərkibinin ikinci yarısı isə kral tərəfindən təyin edilirdi. Palataların ümumi qərar gələ bilmədikləri qanunların qəti təsdiq edilməsi hüququ da krala aid edilirdi. İcraedici hakimiyyət kralın əlində idi, nazirlər kral qarşısında məsuliyyət daşıyırdılar.

1931-ci ilin noyabrında xalq skupşinasına seçkilər keçirildi. Yeni seçki qanununa əsasən deputatlığa namizədlər mövcud 5 banovin, yəni bölgədə 200 min nəfər seçicinin imzasını təqdim etməklə seçkilərdə iştirak etmək hüququ qazanırdı. Kralın icraedici nümayəndələri və polis tərəfindən nəzarət edilən seçki açıq keçirilirdi. Belə bir şəraitdə kral Aleksandırın hərbi-polis diktaturasına qarşı mühafizəkar, həm də radikal meyilli siyasi qüvvələr birləşərək mübarizə aparırdılar. 1932-ci ilin dekabrında Kəndli-Demokratik koalisiyasının 10 nəfər üzvü, o cümlədən V.Maçek, A.Trumbiç, məşhur keşiş Duşan Kaumanoviç və b. kral diktaturasını ifşa edərək beş maddədən ibarət "Zaqreb maddələrin" qəbul etdilər. Buna görə Yuqoslaviyanı federasiya əsasında serblər, xorvatlar və slovenlər arasında milli azlıqların da mənafeyini nəzərə almaqla yenidən qurmaq nəzərdə tutulurdu. Bunun müqabilində V.Maçek yenidən həbs edildi, kralın keçmiş müttəfiqi A.Koroşets Xvar adasına sürgünə göndərildi. Siyasi qüvvələrin bir hissəsini öz tərəfinə çəkmək məqsədilə kral Baş nazir P.Jivkoviçi istefaya göndərdi.

Diktaturanın ictimai bazasını genişləndirmək üçün hakim dairələr Yuqoslaviya Radikal Kəndli demokratiyası adı ilə yeni birləşmiş partiya təşkil etdilər. Bu partiyanın tərkibinə serb radikalları, Xorvatiya və Sloveniya burjuaziyasının bir sıra siyasi qrupları daxil oldular. Lakin

diktatura rejiminin sosial bazası yenə də möhkəm deyildi. Bunun xüsusilə hökumət böhranları göstərirdi. Təkcə 1931-1932-ci illərdə Yuqoslaviyada bir neçə kabinet dəyişilmişdi. Xalq hərəkatının getdikcə artması və daxili siyasi vəziyyətin kəskinləşməsi hakim dairələri hiyləyə əl atmağa məcbur edirdi. 1933-1934-cü illərdə Serbiyada "Zbor" faşist partiyası yaradıldı. Xorvatiyada üstaşların, yəni üsyançıların faşist təşkilatları fəallaşdı.

1934-cü il oktyabrın 9-da kral Aleksandr Fransada rəsmi səfərdə olarkən Marseldə Daxili Makedoniya İnqilabi Təşkilatının üzvü Kerin Veliçko Georgiyev tərəfindən öldürüldü. Onu qarşılayan Fransanın Xarici İşlər naziri Lui Bartu isə ağır yaralandı və tezliklə öldü. Bu terror aktının arxasında "Serblər, qaraçılar və yəhudilərdən təmizlənmiş müstəqil Xorvatiya" şüarı ilə çıxış edən və İtaliyanın kəşfiyyat orqanları ilə sıx əlaqə saxlayan Ante Paveliçin ustaşlar təşkilatı dayanırdı. Onlar alman nasional-sosialistlərinin proqram sənədlərindən nümunə götürərək terror və diversiya təşkil etmək üçün əvvəlcə faşist İtaliyasından, sonra isə hitler Almaniyasından örnək və kömək alırdılar.

Kral Aleksandr öldürüldükdən sonra onun azyaşlı oğlu II Pyotr prins Pavelin qəyyumluq şurasının nəzarəti altında kral elan olundu. Baxmayaraq ki, 1941-ci ildə hitler Almaniyası tərəfindən Yuqoslaviyanın işğal edilməsinə kimi ölkədə 1931-ci il Konstitusiyası fəaliyyət göstərirdi, siyasi qüvvələr, o cümlədən formal olaraq qadağan edilmiş müxalifət xeyli fəallıq nümayiş etdirirdi.

1935-ci ildə Parlamentə seçkilər keçirildi. Rəsmi məlumatlara əsasən Baş nazir Boqolüb Eftiçin koalisiya hökuməti 1,7 milyon seçicinin səsini topladı. Birləşmiş müxalifət V.Maçekin başçılığı altında 1,07 milyon seçinin səsini aldı. Bu nəticələrdən sonra B.Eftiç istefaya getdi. Yeni hökumətə Radikal partiyasının üzvü, görkəmli iqtisadçı və maliyyəçi Milan Stoyadinoviç başçı seçildi. Yeni Baş nazir serbiya radikallarından, A.Koroşetsin Sloveniya Xalq partiyasından və M.Spahonun yuqoslav Müsəlman Birliyindən ibarət yeni siyasi partiya – Yuqoslaviya Radikal İttifaqını (YRİ) yaratdı.

V.Maçeklə Baş nazir M.Stoyadinoviçin arasında baş tutan danışıqlar müxalifət liderinin yeni konstitusiya qəbul etmək tələbi üzündən uğur qazanmadı. Hakimiyyət nümayəndələri belə hesab edirdilər ki, xorvat məsələsi yalnız 1931-ci il Konstitusiyası əsasında həll oluna bilər. Müvəqqəti kompromis Forkaşiç şəhərində əldə edilmiş razılıqla təmin edildi ki, buna görə də yeni konstitusiya yalnız serb, xorvat və slovelərin böyük əksəriyyətinin səsi ilə qəbul edilə bilər.

Yuqoslav dövlətinin katolik kilsəsi və Vatikanla münasibətləri məsələsi serb və xorvat problemini təxirə saldı. Rəsmi məlumata görə 1931-ci ildə Yuqoslaviyada yaşayan əhalinin 48,7 faizi pravoslav, 37,5 faizi katolik, 11,2 faizi isə müsəlman idi. 1937-ci ilin iyulunda Vatikanla müqavilə Xalq Skupşinasının müzakirəsinə çıxarıldı. Pravoslav kilsəsi ilə dövlətin qarşılıqlı münasibəti müharibədən sonra qaydaya salınmışdır. Lakin serb pravoslav kilsəsi katoliklərə daha böyük güzəştlər nəzərdə tutulması iddiası ilə bağlı olaraq skupşinaya təqdim edilən müqavilənin layihəsi əleyhinə çıxdılar. Bu etirazlara baxmayaraq konkordat 167 deputat lehinə, 127-si əleyhinə olmaqla qəbul edildi. Pravoslav keşişlərin başçılığı altında Belqrad küçələrində nümayişlər təşkil edildi. Nəticədə konkordat təsdiq üçün senata təqdim edilmədi və katolik kilsəsi yuqoslav dövləti ilə müqaviləsi olmayan konfesiya kimi qaldı. Bu serb və xorvat siyasi qüvvələri arasında, katoliklərlə pravoslavlar arasında ziddiyyətləri daha da kəskinləşdirdi. M.Stoyadinoviçin siyasi karyerası bu məsələ ilə əlaqədar ağır zərbə aldı.

1938-ci ilin dekabrında Skupşinaya keçirilən seçkilərdə M.Stoyadinoviçin tərəfdarları 1,6 milyon seçicinin səsini, müxalifətin başçılıq etdiyi V.Maçek və onun tərəfdarları 1,3 milyon seçici səsi qazandı. 1939-cu ilin əvvəlində məğlubiyyətlə barışan M.Stoyadinoviç istefaya getməyə məcbur oldu.

Yeni hökumətin başçısı, Yuqoslaviya Radikal İttifaqının üzvü Draqişa Svetkoviç 1939-cu ilin aprelində V.Maçeklə görüşərək Xorvatiyada ayrıca banovin yaratmağa dair saziş imzaladı. Onun ərazisi tarixən formalaşan Xorvatiya torpaqlarını əhatə edirdi. Bosniya və Herseqovina, o cümlədən Voyevodinanın məsələsi açıq qalırdı. Nəhayət, 1939-cu il avqustun 26-da hökumətlə Kəndli Demokratik partiyası arasında razılıq əldə olundu. Sazişə görə yeni

hökumət təşkil edildi. Xorvatiyada kral tərəfindən təyin edilən ban icraedici hakimiyyəti yerinə yetirirdi. Həmin gün Svetkoviç – Maçek hökuməti təşkil edildi ki, V.Maçek baş nazirin müavini vəzifəsini tutdu. Saziş əslində Yuqoslaviyanın Serb və Xorvat nüfuz dairəsinə bölməklə millətlər arasındakı ziddiyyətləri aradan qaldırmadı.

***Yuqoslaviya dövlətinin iqtisadiyyatı.*** Serb-Xorvat-Sloven dövləti 12 milyon nəfərə qədər əhalisi olan 248 min kvadrat kilometrlik bir ərazidə yerləşmişdi. Onun sərhədləri 1919-1920-ci illərdə Sen-Jermen, Neyi, Trianon və Rapalla müqavilələri əsasında müəyyən edilmişdi. Serb, xorvat, sloven krallığına aşağıdakı cənub slavyan torpaqları: Serbiya, Qaradağ, Makedoniyanın bir hissəsi, Xorvatiya, Sloveniya, Bosniya və Herseqovina, Dalmasiya və Voyevodina daxil oldular. Bütün bu torpaqlar müxtəlif inkişaf səviyyəsində idi. Qaradağ, Bosniya və Herseqovina, Dalmasiya və Makedoniya ən geridə qalmış vilayətlər idi. Hələ 1848-1849-cu illər inqilab zamanı feodal təhkimçilik münasibətlərinin ləğv edildiyi Xorvatiya, Sloveniya və Voyevodina nisbətən inkişaf etmiş sənaye vilayətləri idilər.

1919-cu ilin əvvəlində ölkədə keçirilən pul islahatı əhalinin dərin narazılığına səbəb oldu. Belə ki, əvvəllər Avstriya-Macarıstanın tərkibinə daxil olan vilayətlərin əhalisi köhnə pullarını təzə serb dinarına dəyişdirərkən bir dinar müqabilində dörd avstriya kronu ödəməli idilər ki, bir dinarın alıcılıq dəyəri bir krondan belə aşağı idi.

Serb-Xorvat-Sloven krallığında daxili sosial-iqtisadi vəziyyətin kəskinləşməsi əhali arasında tətil və etiraz aksiyalarının artmasına gətirib çıxardı. 1923-cü ilin iyul və sentyabr aylarında Sloveniyanın Trbovl şəhərinin dağ-mədən işçiləri iki böyük etiraz aksiyası keçirdilər. 1922-1923-cü illərdə Dunay çayı fəhlələrinin, Slavinski Brodda vaqonqurașdırıcılarının, 1923-cü ilin payızında Xorvatiya tikinti fəhlələrinin çıxışları daha mütəşəkkil idi.

İqtisadiyyatda aparıcı əsas yeri kənd təsərrüfatı ilə bağlı olan emaledici sahələr – yeyinti, toxuculuq, gön-dəri, tütün və ağac emalı sahələri tuturdu. Ağır sənayenin inkişafı çox zəif idi. Yalnız dağ-mədən sənayesi istisna təşkil edirdi. Qurğuşun, sürmə, sink, mis və s. ehtiyyatlarına görə Yuqoslaviya Avropada birinci, yaxud ikinci yer tuturdu. Əlvan metalların çıxarılması və əridilməsi daima artırdı. Lakin dağ-mədən sənayesinin çox böyük hissəsinə xarici kapital nəzarət edirdi və onun məhsulları xaricə aparılırdı. 20-ci illərdə Yuqoslaviyada hakim mövqeyi fransız və ingilis kapitalı tuturdu. 30-cu illərin ortalarında Almaniyanın kapital qoyuluşu sürətlə artmaqda idi. Ölkənin hərbi potensialını möhkəmləndirmək üçün Fransa və Çexoslovakiya tərəfindən verilmiş kreditdən, dəmir yollarının çəkilməsi üçün isə ABŞ kreditindən istifadə edilirdi.

Bəhs edilən dövrdə Yuqoslaviyanın nəqliyyat sahəsində mühüm irəliləyişlər baş verdi. Hökumət dəmir yol tikintisinə, su nəqliyyatı və şosse yollarına diqqəti artırdı. Dunay və Sava çayları ölkənin əsas su arteriyaları hesab olunurdu. Nəqliyyat vasitələrinin inkişafı Yuqoslaviyada ticarətin genişlənməsi üçün şərait yaradırdı. Daxili bazarla yanaşı ölkənin xarici ticarəti də əhəmiyyətli dərəcədə artmışdır. Kənd təsərrüfatı məhsulları, o cümlədən taxıl, meyvə, mal-qara və heyvandarlıq məhsulları, xammal ixracatda əsas yer tuturdu. Ölkəyə isə daha çox hazır sənaye məhsulları idxal olunurdu.

Müharibələrarası dövrdə Yuqoslaviya əsasən aqrar ölkə olaraq qalırdı. Ölkə əhalisinin 76%-dən çoxu kənd təsərrüfatında çalışırdı. Kütləvi kəndli həyəcanları nəticəsində Yuqoslaviyanın hakim dairələri aqrar islahatın həyata keçirilməsinə başladı. İslahatın həyata keçirilməsi illərlə uzandı və ilkin qərarların hazırlanmasından, yəni fevral 1919-cu ildən qanunun qəbul edilməsi, 1931-ci ilin iyuluna kimi davam etdi. 1919-cu ilin fevralında həyata keçirilən Aqrar islahat Bosniya, Herseqovina, Makedoniyada kəndlilərin ödənc müqabilində yarım təhkimli asılılıqdan azad olmalarına səbəb oldu. Lakin torpaq məsələsi həll edilmədi. Serb-Xorvat-Sloven dövlətinin 11 milyon kənd əhalisi, əsasən də serblər torpaq aldılar. İstismar edilən millətlərə aid olan kəndliləri təmsil edən xorvat, makedon, sloven, alban, macar kəndliləri bu bölgüdən kənarda qaldılar. İslahat həyata keçirildikdən sonra demək olar ki, bütün mülkədarlar öz mülklərini qoruyub saxladılar. Yalnız Habusburqların və başqa Avstriya və Macar torpaq maqnatlarının torpaqları müsadirə edilirdi. Yerdə qalan mülkədarlar Xorvatiyada 150-400 hektar, Voyevodinada 300-500 hektardan artıq olan torpaq payını böyük

pul kompensasiyası müqabilində dövlətə təhvil verirdilər. Bu onlar üçün daha əlverişli idi, ona görə ki, kəndlilər əvvəlki şərtlərdə mülkədarların normadan artıq olan torpaqlarında işləmək istəmirdilər.

İslahatdan sonra ölkədə çoxlu miqdarda xırda kəndli təsərrüfatları meydana gəldi. Bu təsərrüfatların üçdə iki hissəsinin əkin sahəsi 5 hektar təşkil edirdi. Kəndlilərin üçdə bir hissəsinin isə əkin pay torpaqları 5 hektardan az idi. 500 minə yaxın kəndlilərin pay torpaqları yox idi və onlar kənd təsərrüfatı fəhlələri hesab olunurdu. Torpaqların böyük bir hissəsi kilsələrə məxsus idi. Torpaq sahiblərinin 3 faizinin əlində 20 hektardan artıq torpaq sahəsi var idi ki, bu da bütün əkilən torpaqların 23 faizini təşkil edirdi. Bosniya və Herseqovina kəndliləri yalnız 1928-ci ildə feodal mükəlləfiyyətləri daşımaqdan azad edildilər və torpaqlar kəndlilərin istifadəsinə verilirdi. Keçmiş müsəlman mülkədarları əllərindən alınmış torpaq müqabilində dövlətdən pul konpensasiyası aldılar. Torpağı olmayan 250 min yuqoslav xaricə mühacirət etməyə məcbur oldu. İslahatdan sonra xırda kəndli təsərrüfatı üstünlük təşkil etməyə başladı. Bu islahat 20 ildən çox davam etdi, kəndlilərə az səmərəsi oldu, ancaq kənddə kapitalist münasibətlərinin inkişafına təkan verdi.

1929-cu il iqtisadi böhranı Yuqoslaviyadan da yan keçmədi. Bu iqtisadi böhrana Yuqoslaviya qabaqcıl qərb dövlətlərindən gec qədəm qoydu. Böhran kənd təsərrüfatı və sənayeni əhatə etdi. Yuqoslaviya iqtisadiyyatının əsası olan kənd təsərrüfatına böhran daha güclü təsir etdi. İqtisadiyyatda irəliləyiş yalnız 30-cu illərin ortalarından başladı və müharibə illərinə kimi davam etdi.

***Yuqoslaviya beynəlxalq münasibətlər sistemində.*** 1918-ci ilin yazına kimi Antanta dövlətləri Dunay regionunda sabitliyi qorumaq məqsədilə Habsburqlar imperiyasını saxlamaq tərəfdarı idi. Avstriya-Macarıstan ərazisindəki kütləvi çıxışlar onların mövqeyinin dəyişilmısinə səbəb oldu. Vahid yuqoslaviya dövləti yaratmaq tərəfdarı olan Fransa İtaliyanın Dalmasiyada daha çox ərazi ələ keçirərək güclənməsinin qəti əleyhdarı kimi çıxış edirdi.

SXS krallığı yarandıqdan sonra Paris sülh konfransının gedişində bir çox Avropa dövləti, o cümlədən ABŞ yeni dövlətlə diplomatik münasibətlər yaratdı. 1918-ci ildə meydana gələn Serb-Xorvat-Sloveniya krallığı, yəni Yuqoslaviya dövləti öz dövlət sərhədlərini Avstriya, Bolqarıstan, Macarıstan və İtaliya ilə müəyyən etdi. Serb-Xorvat-Sloven dövləti xarici siyasət sahəsində Qərb dövlətlərinə, ilk növbədə maliyyə cəhətdən asılı olduğu Fransaya arxalanaraq Avropada Versal sistemini müdafiə edirdi. 1919-cu ildə Krallıq Bolqarıstana qarşı Yunanıstanla hərbi müqavilə, 1920-ci ildə Macarıstana qarşı Çexoslavakiya ilə, 1921-ci ildə Rumıniya ilə müdafiə ittifaqı haqqında saziş imzaladı. Bu Fransanın fəal iştirakı ilə Serb-Xorvat-Sloven dövlətinin, Rumıniya və Çexoslavakiyanın təşkil etdiyi Kiçik Antanta qruplaşması idi. Məhz Kiçik Antantanın qəti mövqeyi və səfərbərlik elan etməsi 1921-ci ildə Habusburqların Macarıstanda yenidən hakimiyyətə gəlmək cəhdinin qarşısını aldı. 1927-ci ildə Serb-Xorvat-Sloven krallığının Fransa ilə bağladığı müqavilə Kiçik Antantanın mövqeyini daha da gücləndirdi. Rumıniya və Yunanıstanla qonşuluq münasibətləri davam edirdi. Makedoniya üstündə Yuqoslaviyanın Bolqarıstanla münasibətləri zaman-zaman gərgin olsa da 1937-ci ildə “daimi dostluq” haqqında bolqar və yuqoslav müqaviləsi imzalandı.

1920-30-cu illərdə İtaliya ilə münasibətlər mübahisəli ərazilər üstündə xeyli gərgin olmuşdur. 1915-ci il London müqaviləsinə əsasən İtaliya 500 min nəfərə kimi Yuqoslavın məskunlaşdığı Adriatik dənizinin Dalmasiya sahillərini işğal etmişdir. 1923-cü ildə isə İtaliya liman şəhəri Riyeki tutaraq müstəqil ərazi elan etdi. İtaliya ilə Yuqoslaviya arasındakı sərhəd məsələləri yalnız 1924-cü ildə Romada imzalanan müqavilə ilə müəyyən edildi. İtaliyanın hakim dairələri xorvatların ustaşlar hərəkatını müdafiə edərək öz ərazisində onların düşərgələr qurmasına belə icazə vermişdir. Məhz onların əli ilə Marseldə Yuqoslaviyanın kralı Aleksandr 1934-cü il oktyabrın 9-da sui-qəsd nəticəsində öldürüldü. Bundan əlavə, Romanın hakim dairələri Çernoqoriyanın sabiq kralı Nikolayın tərəfdarları olan seperatçılarla da əlaqə saxlayırdılar. Buna baxmayaraq M.Stoyadinoviçin hökuməti dövründə yuqoslav-italyan münasibətləri xeyli yaxşılaşdı. Hətta 1937-ci ilin martında İtaliyanın xarici işlər naziri Çiano Belqrada rəsmi səfər edərək dostluq və bitərəflik haqqında italiya-yuqoslaviya müqaviləsi

imzaladı. İtaliya ərazi iddialarından əl çəkdi, A.Paveliçin ustaşlarına kömək etməyəcəyinə vəd verdi və İtaliyada yaşayan yuqoslavların vəziyyətini yaxşılaşdırmağı öhdəsinə götürdü. Öz növbəsində, Yuqoslaviya İtaliyanın Həbəşistandakı işğalın və Albaniyadakı müəyyən maraqların müdafiə etdiyini bəyan etdi.

1919-cu ildən 30-cu illərin əvvəllərinə kimi Fransa Yuqoslaviya dövlətinin sərhədlərinin əsas qarantı kimi çıxış edirdi. Fransa eyni zamanda Yuqoslaviya, Rumıniya və Çexoslovakiya arasında bağlanmış və Kiçik Antanta adını almış müqavilə sisteminin də himayəçisi idi. 1930-cu illərin əvvəllərində Fransa və İngiltərə Balkan yarımadasında İtaliyanın nüfuzunu zəiflətmək məqsədilə fəaliyyətə keçdi. 1934-cü ilin fevralında Afinada Yuqoslaviya, Rumıniya, Yunanıstan və Türkiyə Balkan paktını imzaladı.

Amma 30-cu illərin ortalarından başlayaraq Yuqoslaviya dövlətinin xarici siyasət xəttində ciddi dəyişiklik əmələ gəldi. Xorvat ustaşlarının 1934-cü ildə Kral Aleksandrı öldürmələrinə kimi Yuqoslaviya Kiçik Antantaya daxil olaraq Qərbi Avropanın demokratik dairələri ilə əlaqə saxlayırdı. Kral süi-qəsd nəticəsində öldürüldükdən sonra knyaz-qəyyum Pavel hakimiyyəti faşist dövlətləri olan Almaniya və İtaliya ilə yaxınlaşmaq xətti götürdü. M.Stoyadinoviç hökuməti Yuqoslaviyanın bitərəfliyin elan edərək Fransa ilə Almaniya arasındakı mümkün münaqişəyə qarışmamağı bəyan etdi. Bitərəflik siyasəti əslində Yuqoslaviyanın Almaniya ilə yaxınlaşmasına şərait yaradırdı. Getdikcə xarici ticarət sahəsində Almaniya Yuqoslaviyanın əsas tərəfdaşına çevrilməkdə idi. Almaniya Avstriyanı işğal etməsilə Yuqoslaviyanın qonşusuna çevrildi. M.Stoyadinoviçin bu məsələnin almaniyadaxili problem olduğunu qeyd edərək həm də bildirdi ki, bu akt Habsburqlar imperiyasının yenidən yaranması təhlükəsini aradan qaldırır. Fransanın məğlubiyyəti, Macarıstan, Rumıniya və Bolqarıstanın Üçlər paktına qoşulması 1941-ci il martın 25-də Yuqoslaviyanın da bu pakta üzv olmasına təkan verdi. Əslində isə milli münaqişələrlə çalxalanan, real müttəfiqi və hərbi gücü olmayan Yuqoslaviya faşist işğalı ilə üz-üzə qaldı.

***Yuqoslaviyanın mədəniyyəti.*** 1918-ci ildə Yuqoslaviya dövlətinin yaradılması mədəniyyətin inkişafını sürətləndirirdi. İbtidai, orta və ali məktəblərin şəbəkəsi xeyli genişləndi. Bu isə əhali arasında savadlılıq dərəcəsinin artmasına şərait yaradırdı.

Elm sürətlə inkişaf edirdi. 1919-cu ildə Lyublyana Universiteti yenidən təşkil olundu. Serbiyada Belqrad Universitetinin elmi məktəblərinin nümayəndələri riyaziyyat və geologiya sahələrində mühüm nəticələr aldılar. R.Burianın təşəbbüsü ilə universitetdə Fiziologiya İnstitutu təşkil olundu. Zaqreb Universitetində riyaziyyata, fizikaya, kimyaya, biologiyaya dair tədqiqatlar genişləndi. Universitetin nəzdində 1937-ci ildə Fizika İnstitutu, 1928-ci ildə Lyublyana Universitetində Geologiya, Paleontologiya İnstitutu yaradıldı.

Serb alimi Y.Sviiç coğrafiya, sosial psixologiya və etnoqrafiya sahəsində səmərəli fəaliyyət göstərmişdir. Məşhur riyaziyyatçı M.Petroviçin tədqiqatları ölkə sərhədlərindən kənarda tanınırdı. Xorvat ixtiraçısı N.Tesla dəyişən cərəyanlı elektik mühərrikini, elektromaqnit dalğalarının köməyi ilə siqnalların ötürülmə sistemini kəşf etmişdi. Vətənində lazımi diqqət görməyən alim ABŞ-da yaşayıb yaratmışdır. Geofizik A.Moxoroviçin tədqiqatları dünyada yayılmışdır.

Sloveniya tarix elminin nümayəndələri İ.Priyatel və D.Lonçarın tədqiqatları yeni dövrdə slovenlərin siyasi və sosial tarixinə həsr edilmişdir. Tarixçi M.Preloq "Qədim dövrlərdən Krallığın məhvinə qədər olan dövrdə Bosniya tarixi" əsərini yazaraq Bosniya və Xorvatiyanın tarixinə işıq tutmuşdur. F.Şişiç Xorvatiyanın yeni tarixinin öyrənilməsinin əsasını qoymuşdur. 20-30-cu illərdə materialist filosof Svetozar Markoviç, O.Pritca, D.Hedelkoviç markisist fəlsəfənin inkişaf etdirilməsində, İ.Broz Tito, E.Kardel, B.Bakariç, B.Kudriç sosializm quruculuğununun aktual məsələlərinin işıqlandırılmasında mühüm rol oynayırdı.

1918-ci ildən sonra Yuqoslav xalqlarının vahid dövlətdə birləşməsi milli ədəbiyyatlar arasında əlaqələrin güclənməsinə, onların qarşılıqlı zənginləşməsinə zəmin yaratdı. Ədəbiyyatda ekspessionizm hakim cərəyana çevrildi. Ekspessionistlərin bir çoxu, o cümlədən A.B.Şimiç, M.Tsrnyanski üçün müharibə və burjuaziya əleyhinə anarxist fərdiyyətçi üsyankarlıq, N.Şon, E.Kotobek, A.Bodnik üçün isə mistik əhval-ruhiyyə, dini motivləri səciyyəvi

idi. Sol ekspessionistlər A.Tsesarest, M.Krleja, M.Klopçik, B.Kreft və b-nın yaradıcılığı Yuqoslaviyada inqilabi hərəkatla bağlı idi. 20-ci illərdə B.Nuşiç, B.Petroviç, F.Bevk, O.Jupançiç, B.Tsar-Emin realist ədəbiyyatı təmsil edirdilər. Serb ədəbiyyatında modernizmin nümayəndələrindən biri İ.Sekuliçin yaradıcılığı üçün isə simvolizm xarakterik idi. Yazıçılardan M.Beqoviç, D.Domeniç isə xorvat modernizminin görkəmli nümayəndələri idi. Sloven ədəbiyyatında naturalizmin meydana gəlməsi F.Qovekarın adı ilə bağlıdır. Onun "Qnda" romanı çox məşhurdur. Yazıçı E.Kristian da yaradıcılığında naturalizmə müraciət etmişdir.

20-30-cu illərdə boyakarlıqda postimpressionizm, kubizm, fovizm və ekspressionizmin müxtəlif üsullarından istifadə edirdi. K.Xegeduşiç, İ.Generalçiç milli mövzulara müraciət edir, xalq sənəti ənənələrini inkişaf etdirirdilər. 30-cu illərdə Ç.Andreyeviç-Kui, O.Tostrujnik ictimai-tənqidi qrafika sahəsində ön plana çıxmışdır. Bu illərdə neoklassizmi V.Kovaçiç, funkssionalizmi D.Braşovan, D.İbler təmsil edirdilər. Sloven memarlığının inkişafında Y.Pleçnikin xidmətləri böyükdür. Xorvat memarlığının inkişafına öz töhfəsini verən sənətkarlardan biri də İ.Meştroviç hesab olunur. Monumentallıq, vətənpərvərlik, dramatizm heykəltaraşın yaradıcılığı üçün səciyyəvidir. U.Prediç, P.Yovanoviç, M.Murat və b. Serb rəssamlığında realist istiqamətin görkəmli nümayəndələri idilər. Çernoqoriya rəssamlıq məktəbinin yaradıcılarından olan M.Milunoviç (1897-1967) Florensiyada təhsil almışdır.

1920-30-cu illərdə ölkənin inkişaf etmiş vilayətlərində milli bəstəkarlıq məktəbləri formalaşdı, professional musiqi sənəti yaranmağa başladı. Bəstəkarlardan Serbiyada P.Konoviç, Xorvatiyada K.Baranoviç, Sloveniyada M.Koqo, Bosniya və Herseqovinada F.Mareyovski, V.Miloşeviç, Makedoniyada J.Firfov bir çox musiqi əsərlərinə imza atdılar.

1918-ci ildən sonra teatr sənəti inkişafa başladı. Rejissor B.Qavellanın yaradıcılığı aktyor və rejissor sənətinin yüksəlməsinə təsir göstərdi. Senzuranın qadağan etməsinə baxmayaq, teatrların reperturalarına B.Nuşiç, B.Şop, L.Pirandello, K.Çapek, V.Katayevin əsərlərinin daxil edilməsi mütərəqqi ictimai meyilləri qüvvətləndirdi. Makedoniyalı dramaturq V.Çernodrinski (1875-1951) mənşəcə bolqar idi. Onun "Makedoniya qanlı toyu", "Makedoniya sui-qəsdi", "Makedoniya üsyanı"dram əsərləri çox məşhurdur. Belqrad, Novi Sad və Skople teatrları öz fəaliyyətləri ilə serb teatr sənətinin inkişafına böyük töhfə vermişdir. Sloven milli teatrının inkişafında aktyor İ.Borştnikin böyük rol oynamışdır.

Sloven bəstəkar R.Savinin yaradıcılığında modernizm və neoromantizm ənənələri əsas yer tutur. Xorvat S.Albininin "Baron Trenk" operettası bir çox ölkələrin teatrlarında tamaşaya qoyulmuşdu. Serbiyanın teatr səhnələrində V.Yoksimoviçin "Miloş Obiliçin evlənməsi", S.Biniçkinin "Dan yeri ağararkən"operaları səslənmişdir. İkinci Dünya müharibəsi müvəqqəti də olsa sürətlə inkişaf etməkdə olan Yuqoslaviya mədəniyyətinin qarşısını aldı.

## Yuqoslaviya İkinci Dünya müharibəsi illərində

***Yuqoslaviyanın işğal edilməsi və bölüşdürülməsi.*** Avropada Yuqoslaviyanın əsas müttəfiqi hesab etdiyi Fransa hitler Almaniyası tərəfindən işğal edildikdən sonra Yuqoslaviya hökuməti mürəkkəb daxili və siyasi diplomatik çəkişmə zəminində təcrid olunmaq təhlükəsindən azad olmaq məqsədilə Almaniya ilə SSRİ arasında tərəfdaş seçmək dilemması qarşısında qalmışdır. İtaliyanın Yunanıstana hücumundan, 1941-ci ilin martında Bolqarıstanın Üçlər paktına qoşulmasından sonra Yuqoslaviya hitler Almaniyası və faşist İtaliyasının təhlükəsilə üz-üzə qaldığı üçün Svetkoviç-Maçek hökuməti 1941-ci il martın 25-də Üçlər paktına daxil olmaq haqqında protokola imza atdılar. Bu, Yuqoslaviyada hökumətin faşistpərəst siyasətinə qarşı kütləvi nümayişlərə təkan verdi. İngiltərə və ABŞ-dan kömək alan ordunun ali zabit heyətinin bir hissəsi xalqın kəskin etiraz çıxışlarından istifadə edərək çevriliş təşki etdilər və Duşan Simoviçin başçılığı altında yeni hökumət yaratdılar. 1941-ci il martın 27-də baş verən hadisələrdən xəbər tutan Hitler Yuqoslaviyanı işğal etməyə qərar verdi.

Duşan Simoviçin hökuməti əslində əvvəlki hökuməti təşkil edən partiyalardan yaradılmışdır, fəaliyyəti isə ziddiyyətli və qeyri-ardıcıl idi. 1941-ci il aprelin 5-də Yuqoslaviya ilə SSRİ arasında dostluq və hücum etməmək haqqında müqavilə imzalandı. 1941-ci il

aprelin 6-da Üçlər paktının qoşunları Yuqoslaviyaya hücuma keçərək bir neşə gün gecə və gündüz şəhəri bombaladılar. Hələ 1941-ci ilin aprel ayından əvvəl Belqrad açıq şəhər elan olunmuşdu, yəni şəhər hava hücumundan müdafiə sistemlərinə malik deyildi və onun ərazisində strateji əhəmiyyətli hərbi obyektlər yox idi və bu dağıdılma planı "cəzalandırma" məqsədi daşıyırdı.

Düşmənin üstünlüyü çox böyük idi, hücumda 34 alman, 44 italiyan və 4 macar diviziyaları iştirak edirdi. Gül-çiçəklə qarşılanan müttəfiq qonşuları aprelin 10-da Zaqrebə, aprelin 12-də dağıdılmış Belqrada daxil oldular. Hökumət, kral II Pyotr Yunansıstana qaçdı. Aprelin 14-də Yuqoslaviyanın ali komandanlığı silahlı müqavimətin dayandırılması haqqında əmr verdi. Aprelin 17-də Sarayevo şəhərində baş komandanlığın qərargah rəisi general Kalafatoviç və Xarici İşlər naziri Sintsar-Markoviç "Almaniya ilə Yuqoslaviya arasında barışıq və silahlı qüvvələr arasında hərbi əməliyyatların dayandırılması haqqında qərar"ı imzaladılar. Bu, Yuqoslaviya ordusunun tam təslim olması demək idi, 350 minə qədər yuqoslav əsgər və zabiti əsir düşdü. Onların çox hissəsi Almaniyadakı hərbi əsir düşərgələrinə göndərildi. Ölkənin işğalı və bölüşdürülməsindən sonra mühacirətdə olan yuqoslav hökuməti 1941-ci il mayın 4-də işğalçılara qarşı mübarizənin davam etdirilməsi haqqında qərar qəbul etdi. "Barışıq haqqında qərar" əslində kağız üzərində qaldı, Yuqoslaviya vahid dövlət kimi Avropanın siyasi xəristəsindən silindi.

"Aprel müharibəsin"dən sonra Yuqoslaviya torpaqlarının taleyi fərqli oldu. Bəzi regionlar işğalçı dövlətlərin ərazisinə qatıldı, qalanları işğalçıların bilavasitə nəzarəti altına keçdi. Sloveniyanın şimal hissəsi Üçüncü Reyxin tərkibinə qatıldı, cənub hissəsi İtaliyaya birləşdirildi. Voyevodinanın bir hissəsi Macarıstanın tərkibinə qatıldı, digər hissəsi - əhalisinin əsas hissəsi almanlardan ibarət olan Banat isə xüsusi ərazi vahidi oldu. Bolqarıstan Oxrid gölünə qədər uzanan Vardar Makedoniyasını, Kosovanın bir hissəsini və Şərqi Serbiyanın bəzi ərazilərini öz torpaqlarına qatdı.

İtaliyanın protektoratı altında Çernoqoriya krallığı yaratmaq planı irəli sürüldü, lakin 1941-ci il iyulun 13-də başlanan kütləvi antifaşist üsyanı buna mane oldu. Kosovo və Metoxiya, Makedoniyanın bir hissəsi, həmçinin 1938-ci ildə İtaliya tərəfindən işğal olunmuş Albaniya İtaliyanın protektoratlığına verildi. Serbiya, Balkan müharibələrinə qədər sərhədləri çərçivəsində ölkə ərazisində yerləşdirilmiş alman işğalçı qoşunlarının baş komandanının bilavasitə nəzarətində idi.

Faşistlər Müstəqil Xorvatiya Dövləti (MXD) yaratdılar, Bosniya və Herseqovinanın da daxil olduğu bu ərazidə alman və italiyan hərbi hissələri yerləşdirilmişdir. Yaradılmış hökumətin fəaliyyəti isə tamamilə faşist dövlətlərinin səlahiyyətli nümayəndələrinin tam nəzarəti altında idi. Müstəqil Xorvatiya dövlətinin yaradılmasının təşəbbüsçüsü hələ hərbi əməliyyatlar başlanmamışdan əvvəl Zaqrebə gəlmiş alman generalı Edmund Venzenmayer idi. V.Maçek və Zaqreb ustaşlarının, faşistlərinin başçısı Slavko Kvaterniklə danışıqlar aparmışdı. V.Maçek yeni dövlətin başçısı olmaqdan imtina etdi, lakin Xorvatiya Kəndli Partiyasının üzvlərini və tərəfdarlarını yeni hakimiyyətlə əməkdaşlığa çağırdı. Bu çağırışı Zaqreb radiostansiyası ilə Avstriya–Macarıstan ordusunun keçmiş zabiti, bir vaxtlar fran-koçular partiyasının qızğın tərəfdarı olan S.Kvaternik oxudu. V.Maçekin çağırışı sayəsində polislər də daxil olmaqla Xorvatiyanın bütün inziabati orqanları bu ustaş dövlətinin xidmətinə keçdi.

Ustaşların başçısı Paveliç özünün 600 tərəfdarı ilə birlikdə Zaqrebə gəldi. Paveliç 1934-cü ildə Marseldə baş vermiş terror aktından sonra Fransada ev dustağı edilmiş, ustaşlar isə tərksilah edilərək İtaliya ərazisində həbs düşərgələrinə səpələnmişdilər. Mussolini ilə görüşdə Paveliç Dalmasiyanı İtaliyaya güzəştə gedəcəyinə vəd verdi. Zaqrebə gələn kimi o, təntənəli surətdə Xorvat xalqının rəhbəri elan edildi. 1941-ci ilin iyununda Paveliçin Hitlerlə görüşü oldu. İmzalanmış protokola görə Müstəqil Xorvatiya dövləti Üçlər ittifaqı, Almaniya-İtaliya-Yaponiya paktına qoşuldu. Ustaşların başçısı füreri inandırdı ki, Müstəqil Xorvatiya dövləti ərazisində yaşayan serblərin gələcəyi radikal formada həll olunacaq, onların üçdə bir hissəsi məhv ediləcək, üçdə biri katolikləşdiriləcək, qalan üçdə biri isə Serbiyaya sürgün ediləcəklər.

Bununla da Yuqoslav xalqlarının tarixində ən faciəli səhifələrindən biri başlandı. Ustaşlar diktaturasının yaradılması ilə yanaşı ölkədə həbs düşərgələri, cəza ekspedisiyaları yaradıldı, qaraçı və yəhudilərin, həmçinin xorvat antifaşistlərinin kütləvi ləğv edilməsi tədbirləri hazırlandı.

Ustaşlar və onların hərbi hissələri SS qoşunları ilə tam eynilik təşkil edirdi. Bundan başqa Müstəqil Xorvatiya dövlətinin ordusu var idi ki, bu əsgər və zabitləri "domobran", yəni vətənin müdafiəçiləri adlandırılırdılar. Hitlerçilər SSRİ-yə hücum etdikdən sonra MXD-nin hərbi hissələri, yəni "Xorvatiya legionu" sovet-alman cəbhəsində olan döyüşlərdə iştirak edirdilər.

"Aprel müharibəsi" həm siyasi qruplaşmaların, həm də hərbi dairələrin daha da ayrılmasına səbəb oldu. Mühacir kral hökuməti elan etdi ki, işğalçılara qarşı mübarizə davam etdiriləcək. Eyni zamanda, müxtəlif partiyaları təmsil edən hökumət üzvləri arasında kəskin mübahisələr başlandı. Serbiya siyasətçiləri Xorvatiya Kəndli Partiyasının üzvlərini ordunun məğlubiyyətində ittiham etdi. Xorvatları isə öz növbəsində S.Radiçin öldürülməsini və kral Aleksandrın diktaturasını yada saldı. Belə ittihamlar Yuqoslaviyanın özündə, partiya qrupları rəhbərliyi arasında da təkrar edilirdi. 1941-ci ilin yazına qədər kimin uğur qazanacağı məlum deyildi. Almaniya Avropa ölkələrinin çoxunu işğal etmiş və ya özünə müttəfiq etmişdi, ingilislər Yunanıstana desant çıxarmış italyanlara qarşı Şimali Afrikada uğurlu əməliyyatlar aparırdılar. İngilis donanması Aralıq dənizində hakim idi. Ona görə də keçmiş Yuqoslaviyanın siyasi xadimlərinin bir hissəsi almanlara, digər bir hissəsi ingilislərə tərəfdar çıxırdı.

Yuqoslaviyanın keçmiş müdafiə naziri general Milan Nediç 1941-ci ilin payızında Serbiyada kollaborasionist hökumətə başçılıq etməyə başladı. İşğalçıları Dmitri Letiçin başçılıq etdiyi "Zbor" faşist quplaşması aşkar şəkildə müdafiə edirdi. Xorvatiya Kəndli Partiyasının lideri V.Maçekin siyasəti fərqli idi, belə ki, yerli ustaş dövləti ilə əməkdaşlığa çağırmaqla yanaşı, Maçek və onun əhatəsində olan bir sıra şəxslər gözləmə mövqeyi tutmuşdular. Ustaş hökuməti isə Maçekin rəhbər olduğu XKP-nin bəzi üzvlərinin Londondakı mühacir hökumətin tərkibinə daxil olmaqda ittiham edirdi. Slovakiya siyasi rəhbərləri içərisində ümumi birlik yox idi, onların bir hissəsi başda Marko Natlaçet olmaqla imperiyanın işğalçı hakimiyyətini, digər bir hissəsi London mühacir hökumətini müdafiə ediridi. Siyasi dairələrin bəzi üzvləri bir müddət sonra kommunist antifaşist hərəkatına qoşuldular, qalanları isə ümumiyyətlə, siyasi fəaliyyətdən uzaqlaşdılar.

Yuqoslaviya ordusu təslim olduqdan sonra əsirlikdən qaçmış əsgər və zabitlərin bir hissəsi Serbiya və Şərqi Bosniyanın meşə və dağlarında gizlənirdilər. Onlar burada Draqolyub (Draji) Mixayloviçin ətrafında birləşdilər. D.Mixayloviç (1893-1946) müharibəyə qədər Yuqoslav ordusunun Baş qərargahında kəşfiyyat şöbəsinin zabiti idi, sonralar isə Praqa və Sofiyada hərbi attaşe olmuşdu. Fransada ali zabitlər kursunda oxuyarkən Şarl de Qolla yaxından tanış idi. Tərbiyəsinə və baxışlarına görə antikommunist və monarxist idi. 1941-ci il mayın əvvəllərində D.Mixayloviç bir qrup hərbiçi ilə birlikdə Qərbi Serbiyanın Ravna Qora dağ massivinə gəldi. Sonralar Ravna Qora ingilislərə və amerikanlara meyl edən Serbiya partizanlarının, yəni çetniklərinin, hərbi hissələrin və təşkilatlarının simvoluna çevrildi. Tezliklə partizanların bu mərkəzi qərargahına başqa siyasətçilər də gəldi. Onların arasında Serb, sonralar isə Yuqoslav Sosial Demokrat partiyasının başçılarından biri olan D.Lapçeviç, ruslara rəğbət bəsləyən vəkil D.Vasiç və b. var idi. Çetniklərin işğalçılarla ilk toqquşması 1941-ci ilin mayında başlandı.

Almaniyanın SSRİ-yə hücumu bütün Yuqoslav antifaşistlərinin, ilk növbədə kommunistlərin və komsomolçuların fəallığını artırdı, həm də 20 ilə qədər gizli fəaliyyət göstərən təşkilat üzvləri bir sıra böhran anlarını dəf edə bildilər və 1941-ci ilə yaxın real qüvvəyə çevrildilər. YKP və Yuqoslaviya Kommunist Gənclər İttifaqı (YKGİ) işğalçılarla silahlı mübarizə ərəfəsində müvafiq olaraq 12 və 30 minlik qüvvəyə malik idilər və çoxlu təşkilatları var idi. Ölkə işğal edildikdən sonra da bu təşkilatlar arasında sıx əlaqələr var idi. Lakin 1941-ci il iyunun 22-nə qədər işğalçılarla mübarizədə onların fəaliyyəti Ribbentrop-Molotov paktı və Kommunist İnternasionalının müvafiq təlimatları ilə nizamlanırdı.

***İşğal olunmuş Avropada ilk kütləvi üsyan.*** İşğal hakimiyyətinə qarşı silahlı müqavimət 1941-ci il aprelin sonu, mayın əvvəlində başlandı. Bu müqavimət Muxtar Xorvatiya dövlətinin tərkibinə daxil olan Bosniya və Herseqovinada xüsusilə güclü idi. Bosniya və Herseqovinada iyulun 27-də partizan müharibəsi başladı, Drvarda ustaşların ordusu darmadağın edildi. Toqquşmalar tezliklə Bosansko-Qraxov, Qlamoç, Vlasenitsa, Srebrenitsa və b. yerlərə yayıldı. Ustaşların cəza ekpedisiyaları Serbiya kəndlilərinin müqavimətilə qarşılaşırdı. Ustaşların hərəkətlərinə cavab olaraq millətçi serblər müsəlman bosniyalıları və xorvatları öldürdülər. Qardaş qırğını Hitler tərəfindən dəstəklənirdi, çünki müxtəlif konfesiyalara bölünmüş slavyanların kütləvi qırğını Üçüncü Reyxin planlarının həyata keçirilməsi üçün şərait yaradırdı.

SSRİ-nin müharibəyə daxil olması geniş mənəvi siyasi səs doğurdu, belə ki, slavyanların ənənəvi biriliyi məsələsi təkcə serblərdə deyil, serb, xorvat və sloven ziyalıları içərisində də müdafiə olunurdu. Sıralarında serblər, xorvatlar, slovenlər, Bosniya müsəlmanları olan Yuqoslaviya kommunistləri 1941-ci ilin yaz və yayında qardaş xalqların bir-birini qırmasının qarşısını almaq, işğalçılara qarşı mütəşəkkil müqavimət göstərmək üçün qüvvələrindən maksimum istifadə edirdilər. 1941-ci il iyulun 4-də YKP MK bütün antifaşistləri işğalçılara və onların əlaltılarına qarşı silahlı mübarizəyə çağırdı.

1941-ci ilin yayında mütəşəkkil müqavimət hərəkatı ölkənin bütün regionlarını bürümüşdü. Çernoqoriyada bu özünü daha kəskin göstərdi. İyun-iyul aylarında kütləvi üsyanlar, işğalçıların və kollaborasionistlərin qovulması Serbiyanın, Dalmasiyanın, Likinin, Bosniya və Herseqovinanın, Sloveniyanın bir sıra rayonlarını əhatə etmişdir. Oktyabrda Makedoniyada silahlı çıxışlar başlandı. İyun-iyul aylarında bir neçə şəhər istisna olmaqla Çernoqoriyanın bütün ərazisi işğalçılardan təmizləndi, oradakı italiyan qarnizonları isə mühasirəyə alındı. İtaliyan əsgərləri ilə partizanlar arasındakı döyüşlərdə 4 min italiyan əsgəri öldürüldü, yaralandı və ya əsir düşdü. Yuqoslaviyada 1941-ci ilin yay və payız aylarında baş verən silahlı üsyanlar milli-azadlıq müharibəsi tarixində əhəmiyyətli hadisədir.

1941-ci ilin yayında və payızında partizan dəstələri daha mobil və sıx əlaqəli formada hərəkət edərək kollaborasionistlərə və işğalçılara ağır zərbələr vuraraq çoxlu sayda silah, sursat ələ keçirərək öz ordularını möhkəmlətdilər. Ölkənin müxtəlif yerlərində yüzlərlə əsgəri birləşdirən yeni partizan dəstələri meydana gəldi. Ərazini azad edən partizanlar düşmənin cəbhə ilə rabitə xətlərini kəsərək özləri partizan dəstələrilə rabitə əlaqələri qururdu. Böyük şəhərlərdə partizanlar mühüm obyektlərdə partlayış törədir, düşmənin nəqliyyat vasitələrini sıradan çıxarır, polislə, hətta nizami dəstələrlə döyüşə girirdilər.

Artıq avqustun axırlarında almanlar Yuqoslaviya ərazisinin bir hissəsində nəzarəti itirdilər. Şəhər ətrafında Drina və Sava çayları arasında Qərbi Serbiya və Şumadi ərazisində Belqrad, Smederovo və cənubi Moravanın yaxınlığında Ujitsk Respublikası meydana gəldi. Partizanların nəzarəti altında olan Ujitsa Respublikası müasir Serbiya ərazisinin üçdə iki hissəsi qədər olub faktiki olaraq azad olunmuş şərqi Bosniya, Sancak partizan əyaləti və düşmənin işğal etmədiyi cənubi və şərqi Serbiya ilə sərhəddə yerləşirdi. Ujitsa, Çaçak, Krupan, Loznits, Bayna-Başta şəhərlərinə partizanlar nəzarət edirdi. Alman qarnizonu Şabase, Valevo, Kraquevas şəhərlərinə, Belqrad-Niş yoluna nəzarət edirdilər. İosip Broz Tifo Ujitsaya gələrək sentyabrın 26-da Brştitsa yaxınlığında Stolitsı kəndində Yuqoslaviyada hərbi əməliyyatların təşkil edilməsinə dair müşavirədə iştirak etdi. Lakin tezliklə almanlar işin ciddiliyini anlayaraq hücuma keçib partizanları ağır məğlubiyyətə uğradıb 1941-ci il noyabrın 1-də Ujitsanı tutdular. D.Mixayloviçin tərəfdarları ilə kommunist partizanlar arasında əlaqə məhz bu vaxt yarandı. Serb çetniklərinin başçısı D.Mixayloviçlə YKP MK-nın və Xalq-Azadlıq partizan dəstələrinin Baş qərargahının başçısı İosip Broz Tito (1892-1980) arasında görüş oldu, lakin bu əməkdaşlıq çox uzun sürmədi.

1941-ci ilin sentyabrından dekabrına qədər işğalçılar Yuqoslaviyanın azad edilmiş ərazilərinə hücuma keçərək kütləvi repressiyalara əl atdılar, girov saxladıqları dinc əhalini güllələdilər. Faşistlər sayca üstünlüklərindən istifadə edərək partizanları və onların komandanlığını Serbiyadan Sancaka çəkilməyə məcbur etdilər. Çertniklər və partizanlarn birgə

mübarizə aparmaqları çox da uzun sürmədi, çünki onlar arasında fikir ayrılığı hələ payızda başlanmışdı. Bunun səbəbi ideologiyada və xarici siyasətdə dərin fərqlərin olması idi. Partizanların yeni hökumət orqanları yaratmaları, onların kənd əhalisinə münasibətdə sinfi radikalizmi kəndlilərin böyük bir hissəsinin çerniklər tərəfinə keçməsinə səbəb oldu. YKP bəzi rəhbər üzvləri Çernoqoriyada kolxozlar nümunəsində birliklər yaratmaq cəhdlərinə, qolçomaq hesab etdiyi adamları güllələdiklərinə, vaxtı çatmamış proletar inqilabı mərhələsinə keçmək çağırışlarına görə sonradan öz yoldaşları tərəfindən tənqidə məruz qalmışdır.

1941-ci ilin payızında və əsasən də 1942-ci ilin əvvəllərində partizalarla çetniklər arasında silahlı mübarizə başlandı ki, bu vətəndaş müharibəsi xarakteri daşıyırdı. Buna qədər mühacir hökuməti D.Mixayloviçə general rütbəsi vermiş və onu hərbi nazir təyin etmişdi. Çetniklərin qərargahına ingilis kəşfiyyatının zabiti Xadson, bir qədər sonra isə ingilis hərbi missiyası gəldi. 1942-ci ilin aprelindən artıq ingilis aviasiyası çetniklər müntəzəm olaraq silah, sürsat, tibbi ləvazımat ilə təmin edirdi. 1941-ci ilin sonu – 1943-cü ilin əvvəllərində çetniklərin briqadaları, sonra korpusları formalaşmağa başladı. Komandirlərin başçılıq etdiyi hərbi-operativ bölgələr deyilən bölgələr yaradılmağa başlandı. Bölgələr Yuqoslaviyanın bütün ərazisində, hətta elə yerlərdə yaranırdı ki, orada çetniklərin həm hərbi, həm də siyasi rolu zəif idi.

***Xalq-Azadlıq Ordusunun və Yuqoslaviyanın ali orqanlarının yaradılması. İşğalçıların qovulması.*** 1941-ci ilin sonlarından – 1943-cü ilin sonlarına qədər olan dövrdə partizanlar bir sıra uğursuzluqlardan sonra çetniklərə nisbətən daha mobil, effektli hərbi təşkilatlar yaratdılar. Xalq milli-azadlıq və sosial inqilabının sonrakı gedişinə təsir edən əhəmiyyətli hadisələr baş verdi. 1941-ci il dekabrın 21-də Rudo da Yuqoslaviya Xalq Azadlıq Ordusunun (YXAO) əsasını qoyan 1-ci proletar zərbə briqadası yaradıldı. Bu birləşmənin fəaliyyəti partizan dəstələrinin fəaliyyət göstərdiyi kimi müəyyən ərazilərdə deyil, ölkənin hər hansı bir yerində baş verən hərbi-siyasi vəziyyətlə müəyyən olunurdu. Partizan dəstələri və YXAO-nun ilk birləşmələri YKP MK-nı, Baş qərargahı və Yuqoslaviyanın bir hissəsini nəzarətdə saxlayan Titonun partizan dəstələrini məhv etmək üçün hücuma keçən işğalçıların və onların əlaltılarının bir neçə hücumlarını dəf etdilər. 1942-ci ilin noyabrında YXAO-nun korpus və diviziyaları formalaşdı ki, ilin axırına yaxın onlar artıq ölkənin beşdə bir hissəsinə nəzarət edirdilər.

Hələ 1941-ci ilin yayında Xalq-Azadlıq komitələri azad edilmiş yerlərdə kəndlilərdən böyük kömək almağa başladı. 1942-ci ilin fevralında Foça şəhərində Baş qərargah və YKP MK "Foça əsasnamə"sini qəbul etdi. Bu əsasnamədə qeyd olunurdu ki, Xalq Azadlıq komitələri adamların dini, milli və sinfi mənsubiyyətinə fərq qoyulmadan seçilən qeyri-partiya təşkilatıdır. Partizanların uğurları çox hallarda mənəvi, psixoloji amillərlə bağlı idi. Partizanlara və YXAO hissələrinə möhkəm intizam xas idi, intizamı pozanlar, əhalini qarət edənlər sərt cəzalandırılır və hətta öz yoldaşları tərəfindən güllələnirdi. Xalq Azadlıq komitələrinin istər azad olunmuş, istərsə də işğal altında olan ərazilərdə fəaliyyətini təşkil etmək üçün Baş qərargah xüsusi siyasi orqan yaratmaq qərarına gəldi ki, buraya seçilmiş nümayəndələr operativ olaraq siyasi, iqtisadi və mədəni məsələləri həll etməli idi. Bu orqan Yuqoslaviya Xalq Azadlıq Antifaşist Veçesi oldu.

1942-ci il noyabrın 26-27-də Bosniyanın Bixaç şəhərində ölkənin əksər milli rayonlarının 54 nümayəndəsi toplaşdı. Onlar tərəfindən ümumyuqoslav siyasi orqanı olan Yuqoslaviya Xalq Azadlığı Antifaşit Veçesi (YXAAV) yaradıldı. Onun əsas vəzifəsi ölkəni azad etmək uğrunda mübarizədə Yuqoslaviya xalqlarının birliyini möhkəmlətmək və xalqların tam bərabərliyi üçün şərait yaratmaq idi. Bu sessiyada həmçinin icariyyə komitəsi də yaradıldı. Bu Veçenin bütün iştirakçıları antifaşistlər idi, belə ki, kommunistlərdən başqa müharibədən əvvəl fəaliyyət göstərən müxtəlif partiyaların və siyasi qrupların nümayəndələri də buraya daxil edilmişdi.

1943-cü ildə YXAO və partizan dəstələri Neretva və Suteski çaylarının vadilərində almanların hücumunun qarşısını ala bildilər. "Vayss I" və "Vayss II" adlanan bu əməliyyatlarda 5 alman, 4 italyan diviziyası, o cümlədən ustaşlar, domobran və çetniklərin hərbiləşmiş birlikləri partizanlar üzərinə hücuma keçdilər. Rama çayı vadisində, Neretva çayı boyunda Konits və Yablanitsa şəhərləri arasında düşmənin canlı qüvvəsini və texnikasını

məhv edərək bir neçə həmləsinin qarşısını aldılar. 1943-cü il fevralın 15-dən martın 15-nə kimi düşmən mühasirəsinə düşən partizanlar onu yarıb Herseqovinaya keçərək hücum edib Draje Mixayloviçin 26 minlik çetniklərini darmadağın etdilər. Neretve məğlubiyyətindən sonra işğalçılar 1943-cü il mayın 15-də 127 minlik ordu ilə 19700 patizanla tarixdə Suteske əməliyyatı adını alan döyüşə başladılar. İyunun 9-da ağır döyüşlərin birində yaralanan İosip Broz Tifo şəxsi nümunəsi ilə döyüş meydanını tərk etməyərək partizanları ruhlandırdı, nəticədə onlar almanların hücumunu dayandıraraq strateji qələbə çaldılar. Yuqoslaviyanın bütün milli regionlarında azadlıq hərəkatının yüksəlməsi müşahidə olunurdu ki, bunun əsas səbəblərindən biri ABŞ və İngiltərə hökumətləri tərəfindən Titonun partizanlarının tanınması idi. 1943-cü ilin mayında YXAO Baş qərargahına ingilis hərbi missiyası gəldi. D.Mixayloviçin dəstəsinin baş qərargahı nəzdində fəaliyyət göstərən missiyası əvvəlki kimi ölkənin bütün antifaşist qüvvələrini bura birləşdirilməsini irəli sürməsə də, yenə də çetniklərə hərbi yardımın artırılmasını təkid edirdi. 1943-cü ildə qərbi Serbiyada YXAO-nun hissələri ilə çeltniklər arasında şiddətli döyüşlər davam edirdi.

1943-cü ilin sentyabrında İtaliyanın təslim olmasından sonra Yuqoslav kommunistləri Çernoqoriya və Dalmasiyada olan İtalyan diviziyalarının bir hissəsinin silahlarını ələ keçirə bildilər ki, bu da antifaşist qüvvələrinin geniş hərbi əməliyyatlar aparmasına şərait yaratdı. 1943-cü ilin sonlarında YXAO-nun sıralarında 56 briqada və 30 mindən çox döyüşçü var idi. Bu vaxt ərzində əslində ölkənin bütün milli regionlarında Xalq Azadlığı Antifaşist Veçələri yaradıldı.

1943-cü il noyabrın 29-30-da Bosniyanın Yaytse şəhərində Yuqoslaviya Xalq Azadlıq Antifaşist Veçesinin ikinci sessiyası keçirildi. Sessiyanın 150 nümayəndəsinin qəbul etdiyi bəyannamə yeni Yuqoslaviyanın siyasi quruluşunun əsaslarını müəyyən etdi. YXAAV ali qanunverici və icraedici orqan elan edildi. Öz üzərinə hökumət funksiyalarını götürən Yuqoslaviya Milli Komitəsi (YMK)-də yaradıldı, marşal İosip Broz Tito onun başçısı oldu. Bəyannamə mühacir hökumətinin fəaliyyətini tənqid etdi, kral II Pyotra müharia qurtarana qədər ölkəyə qayıtmaq qadağan edildi. Bəyan edildi ki, yeni Yuqoslaviya bütün xalqların federasiyası, qardaşlığı və birliyi prinsipləri əsasında qurulacaqdır. Eyni zamanda qərara alındı ki, müharibə başa çatdıqdan sonra Birinci Dünya müharibəsinin nəticələrinə əsasən İtaliyaya verilən Sloveniya ərazisinin bir hissəsi yenidən Yuqoslaviyaya birləşməlidir.

YXAAV-nın ikinci sessiyası antihitler koalisiyası dövlət başçılarının Tehran konfransı ilə eyni vaxtda düşdü. U.Çörçillin Banklarda ikinci cəbhə açmaq tələbi qəbul edilmədi, lakin qərb müttəfiqləri Yuqoslaviyaya hərbi yardımın həm partizanlara, həm də çetniklərə eyni zamanda göstərilməsini təkid etdilər.

Yuqoslaviya partizanlarının dəstəklənməsi təkcə onların işğalçılarla mübarizədəki hərbi qələbələri ilə deyil, həm də SSRİ-nin köməyi ilə əlaqədar idi. Belə ki, əvvəllərdə SSRİ yuqoslav partizanlarına köməyini əsirgəmirdi, Baş qərargahla gündəlik radio əlaqəsi saxlanırdı. 1941-ci ilin payızından başlayaraq Moskvada "Azad Yuqoslaviya" radiostansiyası fəaliyyət göstərirdi. Lakin SSRİ Yuqoslaviyaya maddi yardımı ingilis-amerikan qoşunlarının azad etdiyi Şimali İtaliya ərazisində aviabaza yaratdıqdan sonra əməli olaraq yalnız 1944-cü ildə göstərməyə başladı. YXAO-nun Baş qərargahına 1944-cü il fevralın sonunda Sovet hərbi nümayəndələri gəldi. Yuqoslaviyada qüvvələr nisbətinin açıq-aydın dəyişməsi, həmçinin Qırmızı Ordunun qərbə doğru sürətlə irəliləməsi şəraitində ingilis hökuməti özünün hərbi missiyasını çetniklərin qərargahından geri çağırdı və rəsmi şəkildə D.Mixayloviçə hərbi yardım göstərməyi dayandırdı. Onlar bunu D.Mixayloviçin işğalçılarla və Serb kollaborasionistləri ilə əlaqə saxladığına görə etdiklərini bildirdilər. Lakin Mühacir hökuməti və kral II Pyotrla rəsmi əlaqələr davam etdirilirdi.

1944-cü il mayın 25-də almanların SS 500 paraşüt batalyonu, "Prins Oygen" SS diviziyası İosip Broz Titonu məhv etmək məqsədilə Bosniya Drvarına düşdülər. Lakin əməliyyat uğursuz oldu, İ.B.Tito qaça bildi, almanlar isə ağır itki ilə üzləşdilər və iyunun 6-da əməliyyatı dayandırdılar. 1944-cü ilin payızında sovet qoşunları Yuqoslaviyanın sərhədlərinə yaxınlaşdılar. Sovet komandanlığının nümayəndələri ilə Baş qərargah arasında danışıqlardan

sonra rəsmi şəkildə elan edildi ki, YXAAV və YMK-nın razılığı ilə işğalçılara qarşı birgə hərbi əməliyyatlar aparmaq üçün Qırmızı Ordu hissələri Yuqoslaviya ərazisinə daxil oldu. Bu zəruri diplomatik addım idi və bu Çörçillin təkidi ilə yuqoslaviyada hərbi əməliyyatlar aparmaq istəyən ingilsilərin yolunu rəsmi surətdə kəsdi. 1944-cü il oktyabrın 20-də sovet qoşunları YXAO hissələri və partizanarla birlikdə Yuqoslaviyanın paytaxtını azad edərək sentyabrın 28-də başladıqları Belqrad əməliyyatını sona çatdırdılar. YXAO-nun bir hissəsi cənuba, Sremsk cəbhəsinə keçdi, digər bir hissə Serbiyanın şimalında vuruşmağa davam edirdi, böyük bir hissəsi isə qərbə müstəqil Xorvatiya ərazisindəki əməliyyatlara cəlb olundu. Sovet ordusunun iştirakı ilə əməliyyatların gedişində Makedoniya, həmçinin Çernoqoriya və Serbiyanın böyük bir hissəsi azad edildi.

1944-cü ilin noyabrında YMK və Mühacir hökuməti arasında birləşmiş Yuqoslaviya hökuməti yaratmaq haqqında saziş imzalandı. Dövlət quruluşu məsələsi hərbi əməliyyatların sonuna qədər təxirə salındı. 1945-ci ilin martında, Yalta konfransının qərarına əsasən, yeni hökumət yaradıldı ki, ona da İ.Tito başçılıq etməyə başladı. Londondakı hökumətin başçısı müharibəyə qədərki Xorvatiyanın banı olmuş İ.Subaşiç Xarici İşlər naziri oldu. Tezliklə birləşmiş hökumət beynəlxalq miqyasda tanındı.

1945-ci il yanvarının 20-də Yuqoslaviyanın axırıncı kralı II Pyotr Qaragiorgiyeviç İosip Broz Tito və İvan Subaşiçin hökumətin yeganə qanuni hakimiyyət olduğunu qəbul edərək, general Draje Mıxayloviçin çetniklərin dövlət xaini kimi xarakterizə etdi. Bununla bərabər, general Draje Mixayloviç silahı yerə qoymayaraq həm kommunist partizanlara, həm də nasist ustaş ordusuna qarşı müqavimət göstərməkdə davam edirdi.

1944-cü ilin sonunda 1945-ci ilin mayına qədər YXAO, Qırmızı Ordu hissələri və antihitler koalisiyasına qoşulmuş Bolqarıstan qoşunları ilə Almaniya və Üçüncü Reyxin sonuncu müttəfiqi Müstəqil Xorvatiya dövləti qoşunları arasında şiddətli döyüşlər oldu. 1945-ci il mayın 6-8-də Yuqoslav ordusu yolunu kəsən ustaşların hərbi qüvvələrini əzərək Zaqrebə yaxınlaşdı. Sisakadan sıxışdırılıb çıxarılan ustaşlar Zaqrebə çəkildilər. Mayın 9-da ikinci yuqoslav ordusu Zaqrebi azad etdi. 1945-ci il mayın 15-də Polyanska əməliyyatı ilə partizanlar 30 minlik düşmən qüvvəsini məhv etdi, bu Avropada sonuncu hərbi əməliyyat oldu. 1945-ci il mayın 15-də Yuqoslaviya tamamilə azad edildi. Müharibə illərində Xalq Azadlıq hərəkatı silahlı qüvvələri təxminən 350 min nəfər itki vermişdi. Yuqoslaviya torpaqlarının tam azad olunması əməliyyatlarında 223-cü Azərbaycan atıcı diviziyası da iştirak etmişdir. Müasir məlumatlara əsasən müharibə illərində 1,2 milyon Yuqoslaviya vətəndaşı həlak olmuşdur ki, onların da təxminən 581 min nəfəri dinc əhalidir.

Azərbaycanın igid oğulları Mehdi Hüseynzadə və Mirdamət Seyidov yuqoslav partizanları ilə çiyin-çiyinə İvan Qradnik adına üçüncü Sloveniya Xalq Azadlıq briqadasının birinci batalyonun tərkibində faşist işğalçılarına qarşı bir çox diversiya əməliyyatlarında bilavasitə iştirak etmişlər. Mixaylo ləqəbli M.Hüseynzadə və M.Seyidov Triyest yaxınlığındakı Opçim yaşayış məntəqəsində kino teatrın, Via Qeqa küçəsindəki əsgər evi olan restoranın, Triyesdəki "İl-Pikkolo" qəzet mətbəəsinin partladılmasında, çoxsaylı faşist zabit və əsgərinin məhv edilməsində bilavasitə iştirak etmişlər. Bir çox diversiya əməliyyatları keçirən "Mixaylo" ilə birlikdə Azərbaycan oğulları Mirdamət Seyidov, Əli Tağıyev, Əkbər Ağayev Sloveniyanın uzaq Adriatik sahillərində əsl qəhrəmanlıq və igidlik göstərmişlər.

1944-cü il noyabrın 16-da növbəti tapşırıqdan qayıdan "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə Vitovle kəndində bir evdə almanlar tərəfindən mühasirəyə alınaraq son döyüşündə qəhrəmanlıqla həlak olmuşdur. Onu ürəkdən sevən yerli sakinlər M.Hüseynzadənin nəşini Çepovani qəbristanlığında dəfn edərək məzarının üzərində xatirə abidəsi ucaltmışlar. 1957-ci il aprelin 11-də Mehdi Hənifə oğlu Hüseynzadə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Azərbaycan oğullarının İtaliyanın ərazisində Triyest şəhəri və Yuqoslaviya Xalq Azadlıq Ordusunun 9-cu korpusunun kəşfiyyat-diversiya qrupunun tərkibində alman-italyan faşistlərinə qarşı qəhrəmanlıq əməlləri yuqoslav xalqı tərəfindən ehtiram və hörmətlə yad edilməkdədir.

## Yuqoslaviya 1940-cı illərin ortaları – 90-cı illərin əvvəllərində

***Yuqoslaviya müharibədən sonrakı ilk illərdə. 1945-1950-ci illər. Xalq inqilabı dəyişikliyin başa çatması***. İkinci Dünya müharibəsində faşist işğalçılarının özbaşınalığı və qəddarlığı xalqın böyük əksəriyyətinin hitlerçilərə, onların əlaltılarına və casuslarına qarşı dərin nifrət hissinin yaranmasına səbəb oldu. Şərqi və Mərkəzi Avropanın milyonlarla demokratiya və milli müstəqillik tərəfdarı olan əqidəli insanları işğal rejiminə qarşı antifaşist Müqavimət hərəkatında birləşdilər. Şərqi Avropanın antifaşist Müqavimət hərəkatının mərkəzlərindən biri də işğalçılar tərəfindən parçalanan Yuqoslaviya idi. Məhz burada məkrli düşmənlə mübarizə məqsədilə Yuqoslaviya Xalq Azadlıq Ordusu yaradılmış, siyasi orqan Yuqoslaviya Xalq Azadlıq Antifaşist Veçesi təşkil edilmiş, İosip Broz Titonun başçılığı ilə hökumətin səlahiyyətlərini yerinə yetirən Yuqoslaviya Milli Komitəsi meydana gəlmişdir. Bütün bunlar müharibə başa çatdıqdan sonar Yuqoslaviyada xalq demokratik inqilabi mərhələsini sosialist inqilabı kimi qiymətləndirməyə şərait yaratmışdır.

Beləliklə, işğalçılarla və onların əlaltıları ilə müharibədə qələbə, həm də milli-azadlıq mübarizəsinin gedişində başlanmış və Yuqoslaviyanın ictimai-siyasi və iqtisadi həyatında əsaslı dəyişikliklərə gətirib çıxaran inqilabın qələbəsi demək idi. 1941-1944-cü illərdə yalnız YKP və onun rəhbərlik etdiyi partiyalar ümumi düşmənə qarşı, ölkənin azad edilməsi və yeni əsaslarla qurulması uğrunda barışmaz mübarizə aparırdılar. Bu, eyni zamanda SSRİ-nin beynəlxalq miqyasda artmış nüfuzu YKP-ni müharibənin yekun mərhələsində ölkənin ən nüfuzlu partiyasına çevirdi.

1945-ci ilin avqustunda YXAAV (Yuqoslaviya Xalq Azadlıq Antifaşist Veçesi) 3-cü sessiyası keçirildi, onun işində müharibədən əvvəlki skupşinanın işğalçılarla əməkdaşlıq etməmiş deputatları da iştirak edirdilər ki, nəticədə YXAAV inqibabi hakimiyyət orqanı kimi qanuniləşdirildi və Antifaşist Veçe Müvəqqəti Xalq Skupşinasına çevrildi. Müvəqqəti Skupşina YXAAV-in 2-ci sessiyasının qərarlarını təsdiq etdi və bir sıra qanunlar, o cümlədən aqrar islahat haqqında qanun qəbul etdi. Qanunda göstərilir ki, torpaq onu əkib becərənlərə məxsusdur, filiz mədənləri milliləşdirilir və s. Müvəqqəti Xalq Skupşinası həmçinin Müəssisələr Skupşinasına seçkilərin keçirilməsi haqqında qərar qəbul etdi ki, o dövlətin gələcək quruluşunu müəyyən etməli idi. Bu qərar müxalifətin və mühacirətin geniş etirazlarına səbəb oldu, lakin böyük dövlətlər onların bu etirazlarına münasibətlərini bildirməlidilər. 1945-ci ilin noyabrında keçirilən parlament seçkilərində yuqoslaviyanın respublikaya çevrilməsi təklifi ilə çıxış edən YKP-nin başçılıq etdiyi Xalq cəbhəsinin namizədləri seçicilərin səsinin 90 faizini topladı. 1945-ci il noyabrın 29-da Müəssisələr Skupşinasının təntənəli açılışı oldu. O, Yuqoslaviya Federativ Xalq Respublikasının (YFXR) yarandığını elan etdi, YXAAV-nin və Müvəqqəti Xalq Skupşinasının qəbul etdiyi qanunverici aktlarını təsdiq etdi. Yuqoslaviyada yaranmış yeni şərait müxalifətin bir çox xadimlərini, o cümlədən İ.Şubaşiçi mühacirətə vadar etdi, qalanları siyasi səhnədən kənarlaşdı, ölkədə faktiki birpartiyalı sistem formalaşdı.

Kommunistlərin təşəbbüsü ilə Yuqoslaviya xalqlarının ictimai və təsərrüfat həyatında keçirildiyi köklü dəyişikliklər layihəsi ümumxalq müzakirəsindən sonra 1946-cı il yanvarın 31-də Müəssisələr Şkupşinasının qəbul etdiy Konstitusiya ilə təsbit olundu. Konstitusiyaya uyğun olaraq, YFXR-in tərkibində 6 respublika: Bosniya və Herseqovina, Makedoniya, Sebiya (Serbiyanın tərkibinə Voyevodina muxtar vilayəti, həmçinin Kosovo və Metoxiya da daxil idi), Sloveniya, Xorvatiya, Çernoqoriya daxil idi. Yuqoslaviyanın əsas qanununa uyğun olaraq bütün vətəndaşlara hüquq bərabərliyi, söz azadlığı, mətbuat, yığıncaq və s. demokratik azadlıqlar təminatı verilirdi. «Ümumxalq» mülkiyyəti başlıca mülkiyyət forması elan edildi.

Ali qanunverici hakimiyyət orqanı Xalq Skupşinası idi ki, o da iki palatadan: İttifaq Veçesi və Millətlər Veçesindən ibarət idi. Skupşina 4 il müddətinə birbaşa, ümumi, bərabər seçkilər əsasında gizli səsvermə yolu ilə seçilirdi. Yerlərdə hakimiyyət xalq komitələrinə məxsus idi. Beləliklə, ənənəvi parlamentlə müharibə zamanı formalaşmış inqilabi hakimiyyət orqanlarının birləşməsi baş verdi. Parlament həmçinin nəzarət funksiyasını da yerinə yetirirdi, həm də federal hökumət parlament qarşısında hesabat verməli idi. Konstitusiyaslı federativ

sistemin yaradılması 1946-1947-ci illərdə respublikaların konstitusiyalarının qəbulu ilə başa çatdırıldı. Respublikaların hər birinin özünün hökuməti və parlamenti var idi ki, bu da həmin ərazilərdə yaşayan xalqların öz müqəddəratının təyin edilməsində mühüm mərhələ oldu. YFXR-in əsas qanunu SSRİ-nin 1936-cı il Konstitusiyasının eyni olaraq sosialist münasibətlərinin daha da inkişaf etdirilməsinin rəsmi hüququ əsası oldu.

Özünün daxili siyasətində YKP belə hesab edirdi ki, SSRİ kimi sosializm yolu ilə inkişaf edərsə Yuqoslaviya dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinə çata bilər. Müharibə və işğal Yuqoslaviyanın təsərrüfatına böyük ziyan vurmuşdu. Müharibədən əvvəl olduğu kimi, yenə də Avropanın geridə qalmış ölkələrindən biri olan Yuqoslaviya İkinci Dünya müharibəsindən sonra xarabalıq içərisində idi. 3,5 milyon adam evsiz-eşiksiz qalmış, sənaye müəssisələrinin 40 faizi, dəmir yollarının yarısı dağılmışdı. Müharibə Yuqoslaviyanın iqtisadiyyatına 46,9 milyard ABŞ dolları məbləğində zərər vurmuşdur. Qarşıda təbii ki, ilk növbədə xalq təsərrüfatının bərpası dururdu. Əhali, ilk növbədə gənclərin təşəbbüskarlığına, SSRİ-nin maddi yardımına və mütəxəssis köməyinə arxalanaraq YKP ölkənin iqtisadiyyatının bərpasını qaydaya sala bildi. 1947-ci il yaxın sənaye istehsalını müharibədən əvvəlki səviyyəsinə çatdırmaq mümkün oldu. Eyni zamanda sənayeləşdirilmə proqramı işlənilib hazırlanırdı. Həmçinin iki-üç beşillik ərzində Yuqoslaviyanı sənaye-aqrar ölkəsinə çevirmək planlaşdırılırdı. Skupşinanın 1946-cı ilin dekabrında qəbul etdiyi qanuna əsasən bunun üçün vəsait əsas istehsal vasitələrinin, bank-kredit sahəsinin, nəqliyyat və ticarətin milliləşdirilməsindən əldə edilməli idi.

Aqrar islahatlar haqqında demokrarik qanunlar mülkədarların, burjuaziyanın, kilsənin və almanların torpaqlarını müsadirə etmək üçün hüquqi əsas oldu. Sloveniyada, Voyevodinada, əsasən də müharibədən sonra bütünlüklə Almaniyaya deportasiya edilməsi ilə əlaqədar Banatda yaşayan almanların müsadirə olunmuş torpaqların çox hissəsi dövlətin ixtiyarına keçdi. Müsadirə olunmuş torpaqlar aztorpaqlı kəndlilərə, o cümlədən Çernoqoriyanın, Dalmasiyanın məhsuldarlığı az olan rayonlardan köçürülən kolonistlərə, həmçinin müharibə dövründə ev-eşiyini və əmlakını itirənlərə, xalq azadlıq mübarizəsinin iştirakçılarına verilmişdi. Torpaqların bir hissəsi dövlət aqrar bölməsinin ixtiyarına, dövlət meşə fonduna, həmçinin kooperativlərə verildi.

1947-ci ilin aprelində Xalq Skupşinası xalq təsərrüfatının inkişafına dair birinci beşillik planı təsdiq etdi. Planın başlıca vəzifələri aşağıdakı kimi müəyyən edilmişdi: ölkənin iqtisadi geriliyinin ləğv edilməsi, müdafiə potensialının gücləndirilməsi, iqtisadiyyatın sosialist bölməsinin genişləndirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi. Birinci beşilliyin vəzifələri əvvəl uğurla yerinə yetirilirdi. 1948-ci ilə yaxın sənaye istehsalı müharibədən əvvəlki səviyyəni ötüb keçdi. SSRİ və sovet blokuna daxil olan digər ölkələr ilə iqtisadi əlaqələr müvəffəqiyyətlə inkişaf edirdi. YFXR-in xarici ticarət dövriyyəsinin yarısı bu dövrdə həmin ölkələrin payına düşürdü.Yuqoslaviya sovet nümunəsi üzrə sosial-iqtisadi və siyasi yenidənqurmanın sürəti və dərinliyinə görə Mərkəzi və Cənub-Şərqi Avropanın digər ölkələri içərisində ilk sırada gedirdi. Lakin 1948-ci ildə SSRİ ilə Yuqoslaviya rəhbərliyi arasında qızışan münaqişə, iki ölkə arasında münasibətlərin kəsilməsi, nəinki beşillik planın yerinə yetirilməsinə maneçilik törətdi, həmçinin Yuqoslaviyada sosializm quruculuğunda əsaslı dəyişikliklərin edilməsinə səbəb oldu.

Münqaişə 1948-ci ilin yayında YKP-nin qurultayının gedişində açıq, kəskin xarakter aldı. Çünki Sovet rəhbərliyi yuqoslav kommunistlərinə kobud formada öz iradələrini qəbul etdirmək və İ.Broz Titonu və onun tərəfdarlarını partiya rəhbərliyindən uzaqlaşdırmağa cəhd göstərirdi. Qurulyat nümayəndələrinin Moskvanın diktatından imtina etməsi Sovet İttifaqının və digər xalq demokratiyası ölkələrinin YFXR ilə siyasi, iqtisadi və hərbi əməkdaşlığının tam dayandırılmasna səbəb oldu.

Özünün əvvəlki müttəfiqlərindən və ideya həmikirlərindən təcrid olunmuş Yuqoslaviyanın qarşısında heç də asan olmayan vəzifə – SSRİ və xalq demokratiyası ölkələrinin siyasi və maddi dəstəyi olmadan və cəmiyyətin bir hissəsinin, xüsusilə kəndlilərin ciddi müqaviməti ilə üzləşərək sosializmə doğru irəliləmək vəzifəsi dururdu. Sovet köməyindən

məhrum olan Yuqoslaviya yalnız daxili ehtiyatları maksimum səfərbərliyə almaqla və Qərb dövlətlərinə siyasi güzəştlərə getmədən onlarla əməkdaşlığı genişləndirməklə inkişafını davam etdirə bilərdi. Yeni şəraitdə sosializm quruculuğunun sovet modeli az yararlı idi. Ona görə də 40-cı illərin sonu – 50-ci illərdə Yuqoslaviyada ölkənin şəraitinə daha uyğun, Qərbə az meyilli cəmiyyət və dövlət quruculuğu forması axtarılmasına və SSRİ-yə meyilli əvvəlki kursun tərəfdarlarına qarşı mübarizə başlandı.

Tamamilə aydın idi ki, dəyişiklik iqtisadiyyatın idarə edilməsi sahəsində nəzərdə tutulurdu. İqtisadi yüksəlişə nail olmadan komunistlərin – baxmayaraq ki, ölkə qarşısında keçmişdə böyük xidmətləri olmuşdur – hakimiyyətdə qalması olduqca çətin idi. 1950-ci ildə Xalq Skupşinası dövlət müəssisələrinin idarə edilməsi sisteminin dəyişdirlməsi haqqında qanun qəbul etdi. Fabrik və zavodlar formal olaraq ümumxalq mülkiyyəti kimi qalmaqla əmək kollektivlərinin idarəçiliyinə verildi. Əmək kollektivləri müəssisələri fəhlə sovetləri və idarə komitələri vasitəsi ilə idarə etməli idilər. Fəhlə sovetləri iki il müddətinə seçilirdi. İslahat vəzifələrini həll etmək və cari işlər yerinə yetirmək üçün fəhlə sovetləri üzvlərindən idarə komitəsi və direktor seçilirdi. Direktor öz fəaliyyətinə görə fəhlə soveti və idarə komitəsi, həmiçinin seçkili yerli hakimiyyət orqanı-icma skupşinası qarşısında hesabat verməli idi.

40-cı illərin sonu – 50-ci illərin əvvəllərində iqtisadiyyatın dövlət idarəçiliyi sistemində mərkəzləşdirmənin ləğv edilməsi sahəsində dəyişikliklər həyata keçirildi. Federal hökumət xalq təsərrüfatına rəhbərliyə dair bir sıra funksiyalarını respublikalara, onlar da, öz növbəsində, bunu icma skupşinalarının səlahiyyətinə verdilər.50-ci illərin əvvəllərində yuqoslav rəhbərliyi kənd təsərrüfatının məcburi kollektivləşdirilməsi kursundan imtina etdi. Əvvəlki illərdə yaradılmış istehsal koopertivlərinin çoxu dağıldı, kəndlilər təsərrüfatçılığın ailəvi formasına qayıtdılar.Milliləşdirmənin gedişində Qərb dövlətləri vətəndaşlarının (almanlardan başqa) müsadirə edilmiş xüsusi mülkiyyətinin kompensasiyası haqqında kompromiss qərardan sonra başlıca kapitalist dövlətləri ilə iqtisadi münasibətlər inkişaf etdirilməyə başlandı. Bu işin əsası 1950-ci ildə ABŞ-ın əvəzsiz taxıl yardımı ilə qoyuldu.

***Yuqoslaviya özünüidarə sosializmi dövründə. 1950-ci illər – 1980-cı illərin sonları. Yuqoslaviya dövlətinin dağılması.*** Xalq təsərrüfatının idarə olunması 1952-ci ildə keçirilmiş YKP-nın VI qurultayının gündəliyində duran əsas məsələ oldu. Qurultay ölkənin iqtisadiyyatının ictimai özünüidarə prinsipləri əsasında yenidən qurulması kursunu qəbul etdi. Qurultayda partiyanın adının dəyişdirilib Yuqoslaviya Kommunistlər İttifaqı (YKİ) adlandırılması haqqında qərar qəbul edildi. YKP, gənclər ittifaqları, həmkarlar ittifaqları və digər ictimai təşkilatların daxil olduğu Xalq Cəbhəsi – Yuqoslaviya Əməkçi Xalq Sosialist İttifaqı adlandırıldı.

Xalq təsərrüfatında, sosial-iqtisadi sahələrdəki dəyişikliklər hüquqi cəhətdən konstitusiya qanununda möhkəmləndirildi ki, bu qanun da 1953-cü ilin yanvarında qəbul edilmişdir. Bu qanuna əsasən Xalq Skupşinası tərəfindən 5 il müddətinə seçilən prezident vəzifəsi təsis edildi. Nazirlər Şurası yerinə prezidentin başçılığı ilə İttifaq İcraiyyə Veçesi yaradıldı. Xalq Skupşinası İttifaq Veçesi və İstehsalçılar Veçesinə bölündü. Beləliklə, xalq ittifaqı skupşinası dəyişikliyə məruz qaldı. Millətlər Veçesi əvəzinə İstehsalçılar Veçesi yaradıldı. Federal nazirliklərinin də adları dəyişdirildi, onlar katibliklər adlanmağa başlandı. İ.Titonu YFXR-in prezidenti, uzun müddət təhlükəsizlik orqanlarına başçılıq etmiş A.Rankoviçi vitse-prezident seçdilər. 1955-ci ilin iyununda icmaların və rayonların yenidən təşkili və özünüidarə sisteminin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi haqqında qanun qəbul edildi. İcmalar və ya kommunalar zəhmətkeşlərin yerli özünüidarəçiliyinin ilk orqanları elan olundular.

1963-cü ilin aprelində ümumxalq müzakirəsindən sonra YFXR-in İttifaq Skupşinası yeni Konstitusiyanı qəbul etdi. Ölkənin yeni adı –Yuqoslaviya Sosialist Federativ Respublikası (YSFR) adı qəbul edildi. Konstitusiyada əmək hüququ, 42 saatlıq iş həftəsi, əmək haqqı ödənilən məzuniyyət, sosial təminat, təhsil hüququ, minimal şəxsi gəlir hüququ təsbit edilirdi. İttifaq Skupşinası beş palatadan ibarət idi. Lakin tezliklə ikipalatalı sistemə qayıtmaq qərara alındı. Yeni Konstitusiyada seçkili vəzifəli şəxslərin və deputatların hər iki ildən bir dəyişdirilməsi – rotasiyası prinsipləri də öz əksini tapmış oldu. Həmçinin Yuqosaviyanın Konstitusiya məhkəməsi haqqında qanun da təsdiq edildi.

İ.B.Tito ölkənin prezidenti oldu, amma hökumətin başçısı – yəni İcraedici İttifaq Veçesinin sədri olmaqdan imtina etdi. İ.B.Titodan sonra hökumətə 1963-1967-ci illərdə Petar Stamboliç, 1967-1969-cu illərdə Mika Şpilyak, 1969-1971-ci illərdə Mitya Ribiçiç, 1971-1977-ci illərdə Cemal Biediç, 1977-1982-ci illərdə V.Curanoviç, 1982-1986-cı illərdə Milka Planints, 1986-1988-ci illərdə Branko Mikuliç, 1989-1992-ci illərdə Ante Markoviç başçılıq etmişdir.

1967, 1968 və 1971-ci illərdə konstitusiya mətninə dəyişikliklər edildi. Bu dəyişikliklərə müvafiq olaraq kollektiv rəhbər orqan funksiyası yerinə yetirən Federasiyasının Rəyasət Heyəti yaradıldı. Onun tərkibinə hər respublikadan 3 nəfər və hər muxtar vilayətdən 2 nəfər daxil idi. Göstərilən dəyişikliklərdən sonra respublikaların və muxtar vilayətlərin hüquqları genişləndi. Əmək kollektivlərinin də adı dəyişildi, onlar birləşmiş əmək təşkilatları adlanmağa başladılar.

Yuqoslaviyada ikinci və üçüncü beşilliklər dövründə (1957-1965-ci illər) ölkənin sənayeləşdirilməsi əsasən başa çatdı. Eyni zamanda dövlət istehsala ayrılan investisiyanın həcmini azaldaraq, qeyri istehsal və kənd təsərrüfatına ayrılan vəsaitin miqdarını artırdı ki, bu da bəhs edilən sahələrin tədricən dövlət və kooperativ bölmələrinə keçmələrinə şərait yaratdı. 1957-1961-ci illərdə həyata keçirilən islahatlar sayəsində müəssisələr tam müstəqillik alaraq qazandıqları milli gəlirin 45 faizini istədikləri kimi bölmək hüququna sahib oldular.

1965-ci ilin iyulunda İttifaq Skupşinası yeni sosial-iqtisadi islahatların əsasını qoyan bir sıra qanunverici aktlar qəbul etdi. Bu qanunların əsas məqsədi təsərrüfatın intensivləşdirilməsinə keçilməsi, iqtisadiyyatın sahələrarası uyğunsuzluğunun ləğv edilməsi və onun stabilləşdirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi, ölkənin beynəlxalq əmək bölgüsünə fəal cəlb edilməsi idi.

Daxili və xarici bazarlarda Yuqoslaviya sənayesinin rəqabət qabiliyyətini artırmaq üçün bazar iqtisadiyyatının bəzi prinsipləri də həyata keçirildi. Bununla əlaqədar xarici ticrətdə inhisarın ləğv edilməsi, müəssisələr üçün güzəştlər, avadanlıqların və texnoloji proseslərin modernləşdirilməsi nəzərdə tutulurdu. Qeyri-rantabelli müəssisələrə dövlət dotasiyası ləğv edilir, Yuqoslaviyada işə düzələ bilməyən şəxslərin xaricə getməsinə icazə verilirdi. Respublikalar və vilayətlər daha çox müstəqillik əldə etdilər.

Bu islahatların həyata keçirilməsi zamanı onun müsbət və mənfi tərəfləri üzə çıxdı. Bir tərəfdən sənaye istehsalında irəliləyiş baş verdi, müəssisələrin rentabelliyi artdı, onların avadanlığı modernləşdirildi. Nəticədə gəlirlərin üçdəiki hissəsi əmək məhsuldarlığının artması hesabına baş verdi. Təkcə 1952-1980-cı illərdə sənaye istehsalı ildə orta hesabla 9,1 faiz artdı. Yuqoslaviyada tədbiq edilən iqtisadi modelin nəticəsində cəmiyyətin iqtisadiyyat üzərində, zəhmətkeşlərin öz əməklərinin yekunu və şəraitində hakimiyyəti möhkəmləndi. Lakin istehlakın artması, idxalın çoxalması iqtisadiyyatın sabitliyini pozdu. Ölkənin xarici borcları sürətlə artmağa başladı. İşə düzəlmə problemi kəskinləşdi, 70-ci illərin əvvəllərində işsizlərin sayı artmağa başladı, bir milyondan çox yuqoslav vətəndaşı iş dalınca xaricə getməyə məcbur oldu.

60-cı illərin sonu – 70-ci illərin əvvəlləri sosial və millətlərarası gərginliyin kəskin artması ilə xarakterizə olunur. 1968-ci ilin mayında Yuqoslaviyanın bir sıra şəhərlərində tələbələrin kütləvi nümayişləri oldu. Belqradda onlar daha geniş idi. “Evsiz tələbələrə-yataqxanalar!” “Rədd olsun qırmızı burjuaziya!” – bunlar Belqrad tələbələrinin əsas şuarları idi. Ayrı-ayrı milli regionlar inkişafına görə bir-birindən xeyli fərqlənirdi. İqtisadi, təhsil və əhalinin həyat səviyyəsinin bütün göstəricilərinə görə YSFR-də Sloveniya birinci yerdə idi. Əhalisinin əsas hissəsi albanlardan ibarət olan Serbiyanın tərkibinə daxil olan Kosovo muxtar vilayəti axırıncı yerdə gedirdi. Qonşu Albaniya Xalq Respublikasının kütləvi informasiya vasitələri Kosovanı alban əhalisini Albaniya ilə birləşməyə çağırdı. 1968-ci ilin noyabrında muxtar vilayətin bir sıra şəhərlərində tələbələrin, şagirdlərin və fəhlələrin nümayişləri keçirildi. Lakin Belqradda olduğu kimi Kosovada keçirilən nümayişlər polis tərəfindən dağıdıldı, onun iştirakçılarının çoxu həbs edildilər.

İqtisadi islahatın doğurduğu milli və sosial gərginlik və yaranmış siyasi və iqtisadi duruma qarşı etiraz dalğası daha güclü şəkildi 1971-ci ildə Xorvatiyada baş verdi. 1970-ci ilin noyabrında Xorvatiyanın hər yerində yeni konstitusiya layihəsi müzakirə edilirdi. Konstitusiyanın maddələrində ittifaq respublikaların hüquqlarının daha da artırılması nəzərdə

tutulurdu, lakin bu yenə də federasiyanın orqanlarının hüquqlarının azaldılması hesabına həyata keçirilməli idi. Konstitusion dəyişikliklərin keçirilməsi zəruriliyini bir sıra amillər diktə edirdi. Onların içərisində heç olmasa respublikalararası münasibətlərdə və gərginlikdə yaranmış ziddiyyətlərin az da olsa zəiflədilməsi nəzərdə tutulurdu. Konstitusiya islahatlarında nisbətən inkişaf etmiş Sloveniya və Xorvatiyaya daha geniş imtiyazlar verilirdi, xüsusilə ölkənin milli regionlarının inkişafı üçün federasiya fonduna ayrılmaların azaldılması nəzərdə tutulurdu. Praktiki olaraq bütün respublikalarda – Serbiyada, Çernoqoriyada, Makedoniyada, Bosniya və Herseqovinada konstitusiya dəyişiklikləri tənqid olunurdu. Xorvatiyanın kütləvi informasiya vasitələrində respublika büdcəsindən vəsaitin "geridə qalmış rayonların əmək qabiliyyəti olmayan əhalisinə" köçürülməsi xorvat xalqının istismar edilməsi kimi səslənməkdə idi. Xorvatiyanın iqtisadi və siyasi inkişafının yolları məsələsinə yanaşmada fikir ayrılığı respublikanın partiya-dövlət rəhbərliyində parçalanmaya səbəb oldu. Xorvatiya rəhbərliyinin bir hissəsi Xorvatiyada daha geniş müstəqillik verilməsini müdafiə edir, eyni zamanda ölkə rəhbərliyini şovinizmdə və bürokratik mərkəzləşdirmədə günahlandırırdı. Hətta məişət zəminində də xorvatlar və serblər arasında münasibətlər ciddi şəkildə kəskinləşmişdi.

Xorvatiyadakı şəraitə qiymət verərək ölkənin prezidenti və Yuqoslaviya Kommunistlər İttifaqının lideri İ.Tito qeyd edirdi ki, ölkəm millətlərarası vətəndaş müharibəsi ərəfəsindədir. YSFR -in prezidentin göstərişi ilə Xorvatiyada baş vermiş 1971-ci ilin payız çıxışları milisin və ordunun köməyi ilə ləğv edildi. Onun fəalları, respublikanın rəhbərləri, əsaslı iqtisadi və sosial dəyişikliklərin əleyhinə kəskin çıxış edənlər həbs edildilər. Onların arasında Xorvatiyanın gələcək prezidenti, general-mayor F.Tucman da var idi. 1971-ci ilin dekabrında bəzi respublikaların və vilayətlərin, o cümlədən Serbiya və Xorvatiyada ali partiya və dövlət orqanlarının rəhbərləri vəzifələrindən uzaqlaşdırıldılar. Sonrakı hadisələr göstərdi ki, mürəkkəb millətlərarası və sosial-siyasi münasibətlərin güc tətbiq edilməklə həll edilməsi yalnız müvəqqəti nəticə verdi.

1971-ci ildə serblər və xorvatlar arasında millətlərarası münasibətlərin kəskinləşməsi ölkə rəhbərliyini sosial-iqtisadi həyata daha dərindən müdaxilə etməyə məcbur etdi. 1964-cü ildə YKP-in VIII qurultayında göstərildiyi kimi kommunistlərin başlıca vəzifəsi ideologiyanın formalaşdırılmasına və əhalinin tərbiyə işinə yönəldilmişdirsə, 70-ci illərdə keçirilən forumlarda əsas diqqət sosial-iqtisadi və maddi sahələrə yönəldildi. Qeyd edilirdi ki, fəhlə sinfinin rəhbər rolu şəraitində ictimai inkişafın və sosialist özünüidarəçiliyinin həyata keçirilməsində aparıcı qüvvə YKİ-dir. 1971-1973-cü illərdə partiya-dövlət və təsərrüfat həyatının bütün sahələrində rəhbər partiya kadrları içərisində təmizləmə aparıldı.

1974-cü ildə qəbul edilmiş Konstitusiya "birləşmiş xalqlar dövləti"nin tarixində sonuncu konstitusiya oldu. Konstitusiyaya əsasən istehsal vasitələri bütövlükdə ictimai mülkiyyətə çevrilir və birləşmiş əmək kollektivinə verilirdi. 1974-cü il Konstitusiyasına əsasən ölkə ikipalatalı qanunverici orqan olan YSFR Məclisi sisteminə qayıtdı. Federasiya Məclisi respublika və dairə yığıncaqlarının seçdiyi İttifaq Respublika və dairə Şurasından, özünüidarə təşkilat və ictimai-siyasi birliklərin seçdiyi İttifaq Şurasından ibarət idi.

Konstitusiyaya görə sosialist respublikalarının hər birinin birtərəfli qaydada Yuqoslaviya İtifaqının tərkibindən çıxmaq hüququ var idi. Hər bir muxtar vilayətin sosialist respublikalarının malik olduğu səsvermə hüququ mövcud idi, lakin onlar respublikalardan fərqli olaraq birtərəfli qaydada İttifaqın tərkibindən çıxa bilməzdilər. Hakimiyyətin icraedici orqanı İttifaq İcraedici Şurası təsbit olundu. 1974-cü il Konstitusiya ilə müttəfiq respublikaların hüquqları xeyli genişləndirildi. Bu hüquqlar Serbiyanın Voyevodina və Kosovo muxtar vilayətlərinə də verilirdi. Respublikalar və vilayətlər əslində həm iqtisadi, həm də hüquqi-siyasi sahədə müstəqil dövlətlərə çevrildilər.

YSFR Skupşinası (İttifaq veçesi və respublika-vilayətlərin veçesi) YSFR Rəyasət Heyətini – dövlət hakimiyyətinin ali orqanını seçdi. Onun tərkibinə 8 nəfər, 6 respublikanın və 2 muxtar vilayətin hərəsindən bir nümayəndə daxil idi. Yuqoslaviya xalqı qarşısında tarixi xidmətlərinə görə İ.Broz Tito ömürlük Rəyasət heyətinin sədri seçildi. Onun ölümündən sonra Rəyasət Heyətinin 8 üzvü növbə ilə YSFR Rəyasət Heyətinin sədri olmalı idilər.

1978-ci ilin iyulunda keçirilən YKİ-nin XI qurultayı İ.Broz Titonun iştirak və çıxış etdiyi sonuncu qurultay oldu. Özünün məruzəsində o, bir daha qeyd etdi ki, sosialist özünüidarəsi və birləşməmək siyasəti YSFR -in daxili və xarici siyasətində əsas olaraq qalır. Qurultayda MK ilə yanaşı YKİ MK-nın 23 nəfərdən ibarət Rəyasət Heyəti də seçildi. Onun üzvləri bir il müddətinə seçilirdi. Yalnız hökumət İttifaq İcraiyyə Veçesi-Skupşina tərəfindən 4 il müddətinə seçilirdi. 1980-ci il mayın 4-də Yuqoslaviya kommunistlərinin və yeni Yuqoslaviyanın bir neçə on il dəyişilməz rəhbəri olmuş İ.Broz Titonun ölümü federasiyanın gələcək taleyinə təsir göstərməyə bilməzdi.

İosip Broz Tito 1892-ci il mayın 7-də Avstriya-Macarıstanın tərkibinə daxil olan Kumrovetsdə anadan olmuşdur. 1910-cu ildə Xorvatiya və Sloveniya Sosial Demokrat partiyasının sıralarına daxil olmuşdur. 1913-cü ildə imperiya ordusunda qulluq edərək unter-zabit rütbəsi almışdır. Birinci Dünya müharibəsində iştirak edərək döyüşdə yaralanıb ruslara əsir düşmüşdür. Rusiyada vətəndaş müharibəsində Qırmızı qvardiyaçılar tərəfində döyüş əməliyyatlarında iştirak etmiş, 1920-ci ildə Yuqoslaviyaya qayıtmışdır. Yuqoslaviyada kommunist hərəkatında iştirak edərək dəfələrlə həbs edilmiş, 1937-ci ilin dekabrından Yuqoslaviya Kommunist pasrtiyasına rəhbərlik etmişdir. Alman işğalçıları Yuqoslaviyanı zəbt etdikdən sonra 1941-ci il iyulun 4-də İ.B.Tito Yuqoslaviya Xalq Azadlıq Ordusunun rəhbərlik kimi düşmənə qarşı partizan hərəkatının əsas təşkilatçısı olmuşdur. İlk vaxtlar çetniklər və partizanlar işğalçılara qarşı birgə mübarizə aparsalar da, ideoloji fikir ayrılığı üzündən 1941-ci ilin noyabrında onlar arasında əsl vətəndaş müharibəsi getmişdir. 1944-cü il mayın 25-də alamların hava desant qüvvələri Drvar şəhərində Titonu məhv etmək məqsədi ilə əməliyyat keçirsə də buna nail ola bilməmişdir. 1945-ci il aprelin 5-də İ.B.Tito Sovet qoşunlarının müvəqqəti olaraq Yuqoslaviya ərazisinə yeridilməsinə dair İ.Stalinlə saziş bağladı. Birgə döyüş əməliyyatı ilə Yuqoslaviya işğalçılardan təmizləndi. İ.B.Titonun rəhbərliyi ilə Yuqoslaviya Federativ Xalq Respublikası təşkil olundu. Yuqoslaviya Balkan Federasiyasına qoşulmaq haqqında İ.V.Stalinin təklifini qəbul etmədiyi üçün 1949-cu ildə SSRİ rəhbərliyi Yuqoslaviya ilə dostluq, qarşılıqlı yardım və müharibədən sonrakı əməkdaşlıq haqqında müqaviləni ləğv etdi. Sovet rəsmi təbliğatında antikommunist faşist tipli rejimin başçısı bəyan edilən İ.B.Tito 1953-cü ildən ölkəsinin prezidenti seçildi və ömrünün sonuna kimi bu vəzifədə qalmışdır.

N.S.Xruşşovun "mülayimləşmə" siyasəti zamanı SSRİ Yuqoslaviya kəsilmiş münasibətləri bərpa edilməsinə baxmayaraq ölkə öz sosialist modlei yolundan əl çəkməyərək VMT və QİYS-nın üzvü olmaqdan imtina etmişdir. İ.B.Titonun hakimiyyəti illərində Yuqoslaviya Birləşməmək hərəkatının təşkilatçılarından biri olmuş, ölkənin iqtisadi və sosial göstəriciləri isə Avropa dövlətlərinin çoxundan üstün olmuşdur. 1980-ci il mayın 4-də Marşal İosin Broz Tito Lyublyanada vəfat etmişdir.

İ.B.Titonun ölümündən sonra Yuqoslaviya Federasiyasının liderləri əvvəlki kursu davam etdirərək növbə ilə YSFR -nın Rəyasət Heyətinin sədri vəzifəsini yerinə yetirməyə başaldılar. 1982-1986-cı illərdə hökumətə Milka Planints, 1986-1988-ci illərdə Branko Mikuliç başçılıq etmişdir. 1980-ci illərdə Yuqoslaviyada iqtisadi problemlər kəskinləşməkdə davam edirdi. 1983-cü ilin iyulundan qəbul edilən iqtisadi vəziyyəti sabitləşdirmək proqramı əsasən əmək məhsuldarlığının yüksəldilməsini, inflyasiya, xarici ticarət kəsirinin azaldılmasını, məşğulluğun artırılmasını, iqtisadi siyasətin sərtləşdirilməsini nəzərdə tuturdu. Lakin proqramda nəzərdə tutulanların həyata keçirilməsi gözlənilən nəticəni vermədi. 1987-ci ilə doğru ölkənin xarici borcu 19 milyard ABŞ dollarına, inflyasiya 167 faizə çatdı. Əhalinin real gəliri isə 7 fazi azaldı.

YSFR 80-cı illərlə iqtisadi çətinliklərin kəskin şəkildə dərinləşməsi və Kosovo muxtar vilayətində milli-siyasi böhranın üzə çıxması şəraitində daxil oldu. 1981-ci ilin aprelində Kosovoda kütləvi mitinqlər və nümayişlər başladı. Etiraz edənlərin başlıca şüarlarından biri muxtar vilayətə ittifaq respublikası statusunin verilməsi tələbi idi. Bu çıxışlar Belqrad üçün gözlənilməz oldu. Sonradan aydın olmuşdur ki, Kosovoda milis və təhlükəsizlik orqanları işçilərinin çoxu albanlardan idi ki, onlar da əhali içərisində millətçilik və separatçılığın artması haqqında vaxtında məlumat verməmişlər. Kosovo hadisələri Titodan sonrakı dövrdə Yuqosla-

viya üçün ilk ciddi həyəcan əlaməti idi. Vəziyyəti normallaşdırmaq məqsədilə YSFR Rəyasət Heyəti Kosovoda fövqəladə vəziyyət elan edilməsi haqqında qərar qəbul etdi. Muxtar vilayətin ərazisinə ordu hissələri və İttifaq katibliyi daxili işlər nazirliyinin milis bölmələri yeridildi.

Eyni zamanda, Yuqoslaviya iqtisadiyyatında böhran da artmağa başladı. 1974-cü il Konstitusiyası respublikalara və vilayətlərə o qədər böyük müstəqillik vermişdi ki, artıq Yuqoslaviya Federasiyasında vahid iqtisadi sistem fəaliyyətini dayandırmışdı. Yuqoslaviya ərazisində 8 muxtar iqtisadi region yaradılmışdı ki, onlar da dövlət içərisində praktiki olaraq dövlətə çevrilmişdilər. Respublikaların və vilayətlərin iqtisadi muxtariyyəti şəraitində respublikalar arasında mal dövriyyəsi azalmağa başladı. Respublikalar buraxılan məhsulun yalnız yarıdan çoxunun qiymətlərinə nəzarət edirdi və məhsulu maksimum baha qiymətə satmağa cəhd edirdi ki, bu da qiymətlərin artmasına və infilyasiyaya səbəb olurdu. Respublikalarda real hakimiyyət özünüidarə orqanlarının deyil, məmurların əllərində cəmləşmişdi.

Kosovada yaranmış vəziyyət nəinki 80-ci illərdə, həmiçinin bütünlükdə 90-cı illər ərzində də gərgin olaraq qalmaqda davam etdi. Kosovo problemi Yuqoslaviya federasiyasının vahid dövlət kimi dağılmasına gətirib çıxaran mühüm faktor oldu. 1988-ci ildə Serbiya Skupşinasının qəbul etdiyi qanunla vilayətlərin hakimiyyət orqanlarının səlahiyyətləri xeyli məhdudlaşdırıldı. Voyevodina və Kosovo qanunverici və məhkəmə hakimiyyəti funksiyalarının bir hissəsindən məhrum edildilər. Bu qərarı Kosovo albanları etiraz aksiyaları – nümayişlərlə, tətillərlə qarşıladılar. Muxtariyyətin məhdudlaşdırılması ilə əlaqədar separat çıxışlara və etiraz aksiyalarına cavab olaraq serblərin kütləvi manifestləri və sərt cəza tədbirləri həyata keçirildi. Belə ki, 1988-ci ilin payızında Belqradda keçirilən mitinqlərin birində bir milyon nəfər iştirak etmişdi. 1989-cu ildə vilayətin rəhbərləri əvvəl vəzifədən uzaqlaşdırıldılar və sonra həbs edildilər. Vilayətdə komendat saatı tətbiq edildi.

Kosovo ətrafındakı münaqişəyə tədricən başqa respublikalar da cəlb edilirdi. Kosovoda ictimai qaydaların bərpası əməliyytalarının maliyyələşdirilməsi Serbiyanın respublika büdcəsindən deyil, bütün respublikalar tərəfindən formalaşdırılan ümumfederal büdcədən maliyyələşdirilirdi. Bununla da Kosovo problemi ağır yük kimi Sloveniya və Xorvatiyanın iqtisadiyyatı və maliyyəsi üzərinə düşürdü. Halbuki, bu ölkələr Serbiyanın daxili problemlərinin həll edilməsində iştirak etməyə deyil, Avropa İttifaqı ölkələri ilə inteqrasiyada iştirakında maraqlı idilər.

1989-cu ilin dekabrında Kosovoda yaşayan serblər və çernoqoriyalılar Sloveniya ictimaiyyətinin diqqətini muxtar vilayətdə baş verən hadisələrə cəlb etmək məqsədilə Lyubliyanada mitnq keçirmək istədiyini elan etdilər. Sloveniya bunun yolverilməz olduğunu və qarşısının güc vasitəsilə alınacağını bildirdi. Buna cavab olaraq Serbiya hökuməti öz respublikası vətəndaşlarına müraciət edib sloveniyalılarla iqtisadi əlaqələri kəsməyə çağırdı. Sloveniya mallarının boykotu Serbiya Skupşinasının gizli qərarı ilə təsdiq olundu. 1990-cı ilin fevralında Sloveniyadan gəlmiş milis dəstəsi nümayişkəranə şəkildə Kosovodan çıxarıldı. Həmin ilin aprelində Xorvatiya da belə bir addım atdı.

Ölkənin federal hökuməti ölkədə iqtisadi və siyasi böhranı dəf etmək məqsədilə bir sıra addımlar atdı. 1988-ci ildə Yuqoslaviya Skupşinası YSFR konstitusiyasına yeni düzəlişlər etdi. Veçeyə məşhur iqtisadiyyatçı A.Markoviç başçılıq edirdi. Həyata keçirilən pul islahatı nəticəsində yuqoslav dinarının alıcılıq qabiliyyəti artırıldı. Lakin iqtisadi dirçəliş çox qısa müddətli oldu. Ante Markoviçin 1989-1992-ci illəri əhatə edən hökuməti ölkədə vəziyyəti qaydaya salmaq məqsədilə iqtisadi tədbirləri sərtləşdirdi, əmək haqqı və iqtisadiyyatın liberallaşmasına nəzarət artırıldı. Tamamilə bazar iqtisadiyyatına keçmək, bütün mülkiyyət formalarının bərabərliyini təmin etmək, siyasi sahədə çoxpartiyalı sistemə keçmək və hüquqi dövlət yaratmaq nəzərdə tutulurdu. Məhz bu tədbirlər nəticəsində 1990-cı ildə ölkədə inflyasiyanın qarşısını almaq və ya xarici dövlət borclarını xeyli azlatmaq mümkün oldu. Lakin iqtisadiyyatın liberallaşdırılması ölkədə sosial-iqtisadi vəziyyəti daha da kəskinləşdirdi, etiraz və tətillər artdı. Serbiya, Voyevodina və Çernoqoriyada daha güclü etiraz aksiyaları keçirildi, bir çox partiya və dövlət rəhbəri istefaya getməyə məcbur oldu. 1980-ci illərin sonunda Yuqoslaviyanın respublika və vilayətlərində milli çıxışlar, yerli partiya dövlət rəhbərliyində

hakimiyyət uğrunda mübarizə kəskinləşdi. 1988-ci ilin oktyabrında Voyevodina, 1989-cu ilin fevralında Çernoqoriyadakı kütləvi mitinqlər bu regionların hakim dairələrinin istefasına gətirib çıxardı. 1990-cı ilin yanvar-fevralında millətlər arasındakı ziddiyətlər, sosial-siyasi gərginlik Yuqoslaviya Kommunist İttifaqının parçalanmasına səbəb oldu. 1990-cı ilin yanvarında toplanan növbədənkənar YKİ-nin XIV qurultayında Kommunistlərin Sloveniya və Xorvatiya nümayəndələri zalı tərk etdilər. Bununla da praktik olaraq Yuqoslaviya Kommunistlər İttifaqı vahid partiya kimi fəaliyyətini dayandırdı. 1990-cı ildə Kosovanı yenidən kütləvi nümayişlər bürüdü. Nümayişi dağıtmaq üçün güc tətbiq edildi, ölənlər və yaralananlar oldu. Belqrad Universitetinin tələbələri YSFR -nin Skupşinası qarşısında "Kosovonu verməri̇k!" şuarı altında nümayiş təşkil etdilər.

1990-cı ilin aprelində Sloveniyada parlament və prezident seçkiləri oldu. Müharibədən sonra Yuqoslaviyada ilk dəfə olaraq seçkilər çoxpartiyalı sistem əsasında keçdi. Sloveniyanın kommunistlər ittifaqına başçılıq edən M.Kuçan ölkə prezidenti seçildi. Eyni vaxtda Xorvatiyada da Sloveniyadakı kimi seçkilər keçirildi. Xorvat Demokratik Əməkdaşlıq partiyası deputat yerlərinin üçdəikisini qazandı, partiynın lideri F.Tucman Xorvatiyanın prezidenti seçildi.

1990-cı il iyulun 2-də Sloveniyanın Skupşinası Sloveniya Respublikasının tam müstəqilliyi haqqında bəyənnamə qəbul etdi. Bu əslində 1945-ci ildə elan edilən Yuqoslaviya Federasiyasının dağılması demək idi. 1991-ci il yanvarın 25-də Makedoniya, 1991-ci il iyunun 25-də Xorvatiya parlamentləri müstəqillik haqqında qərar qəbul etdilər. Bununla da dünənki Yuqoslaviya Federasiyası dağılaraq vahid hüququ dövlət statusunu itirdi.

***Yuqoslaviya Federativ Xalq Respublikası beynəlxalq münasibətlər sistemində.*** İkinci Dünya müharibəsi qurtarandan sonra yeni Yuqoslaviyanın beynəlxalq aləmdə nüfuzu daha da artdı. Ölkə BMT-nin yaradılmasında iştirak edən 50 dövlət sırasında idi. Yuqoslaviyanın SSRİ, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə beynəlxalq əlaqələri yüksək səviyyədə inkişaf etməkdə idi. Bu ölkələrlə dostluq və qarşılıqlı yardım haqqında müqavilələr imzalanmışdı.

Sosializm quruculuğu yolunu seçmiş Yuqoslaviyanın iqtisadi və sosial-siyasi sahələrdə həyatının dəyişməsi, bütün müxalifət qüvvələrini ləğv etməsi ABŞ və İngiltərənin mənfi reaksiyasına səbəb oldu. ABŞ Yuqoslaviya bankının qızıl ehtiyyatını qaytarmaqdan imtina etdi. Almaniyanın işğal edilmiş Qərb bölgəsində Yuqoslaviyadan qaçırılmış Dunay çay donanması saxlanıldı. "Soyuq müharibə"nin başlanması ilə əlaqədar ölkədən qaçan və gizli fəaliyyətə keçən ustaşlar və çetniklər qərb ölkələrindən siyasi və maddi yardım almağa başladılar. YFXR-in İtaliya ilə sərhədləri məsələsi çox böyük çətinliklə də olsa ədalətli həll edildi. SSRİ-nin fəal köməyi ilə yuqoslav əhalisinin çoxluq təşkil etdiyi və 1919-cu ildə Antanta tərəfindən İtaliyaya verilmiş İstriya yarımadası, Rieka şəhəri, Dalmasiyanın bir hissəsi, Kvarner adaları YFXR-ə qaytarıldı. Müharibəyə qədər İtaliyaya məxsus olan Triyest və onun ətrafları Yuqoslaviya Xalq Azadlıq Ordusu tərəfindən 1945-ci ilin əvvəllərində azad edildi və uzun illər iki dövlət arasında mübahisələrə səbəb ərazi kimi qalmaqda davam etdi.

Yuqoslaviyanın xarici siyasət kursu 1948-ci ildə yuqoslav-sovet münaqişəsinin başlanması ilə əlaqədar kəskin surətdə dəyişdi. Onun baş verməsi xronologiyası beynəlxalq aləmdə SSRİ ilə ABŞ arasında qarşıdurmanın ciddi surətdə kəskinləşməsi və "soyuq müharibə"nin başlanması ilə eyni vaxta düşdü. 1947-ci ilin sentyabrında Polşada 9 kommunist partiyasının iştirakı ilə keçirilən müşavirədə kommunist informasiya bürosu (Kominformbüro) yaradıldı. Bu müşavirədə antihitler koalisiyasının dağılması və dünyanın qarşı-qarşıya duran iki hərbi-siyasi cəbhəyə parçalanması etiraf edildi. Beləliklə də, işğal zonalarına bölünmüş Almaniya problemi həll edilməmiş qaldı. ABŞ Avropadan getməyə hazırlaşmırdı.

Belə bir şəraitdə, Kremlin fikrinə görə, SSRİ-nin təsir dairəsinə daxil olan bütün dövlətlərin tam səfərbərliyi və yekdilliyi lazım idi. Bu addım Yuqoslaviya rəhbərliyinin tərəfindən heç də tam müdafiə olunmadı, çünki Yuqoslaviya Balkanlarda müəyyən mənada müstəqil siyasət yürüdürdü ki, bunun da məsuliyyətini Qərb Sovet İttifaqının üzərinə qoymuşdu. Bütün bunlara məhəl qoymayan Yuqoslaviya rəhbərliyi yuqoslav hərbi hissələrini

Albaniyaya yeritdi, vətəndaş müharibəsi illərində yunan partizanlarına kömək əlini uzatdı. Polşanın şimalından Yunanıstanın cənubuna qədər Mərkəzi, Cənub-Şərqi və Cənubi Avropa dövlətlərinin federasiyasını və ya konfederasiyasını yaratmaq haqqında 1948-ci ilin əvvəllərində G.Dmitrov tərəfindən səsləndirilmiş ideya SSRİ-nin Avropada yenicə yaradılmış təhlükəsizlik zonasına təsirinin itirilməsi təhlükəsi yaratdı.

1948-ci ildə İ.Stalin və V.Molotovun bolqar və yuqoslav nümayəndə heyətləri ilə kəskin danışıqları keçirildi. Danışıqların gedişində Sovet tərəfi özünün Balkan müttəfiqlərindən xarici siyasi fəaliyyətlərinin Moskva ilə razılaşdırılmasını və ona sözsüz qulaq asmalarını tələb etdi. YKP MK-nın Siyasi Bürosunun 1948-ci il martın 1-də keçirilən iclasında İ.Tito qeyd etdi ki, YFXR və SSRİ arasında münasibətlər əslində çıxılmaz vəziyyətə düşmüşdür, biz iqtisadi və hərbi quruculuq sahəsində öz qüvvəmizə arxalanmalıyıq.

Bu haqda məlumat tezliklə Moskvaya çatdı. Martın 18-də Sovet hərbi müşavirləri, bir gün sonra isə mülki mütəxəssislər Yuqoslaviyadan geri çağrıldılar. Yazışmalar vasitəsilə münasibətələrin aydınlaşdırılmasının uzun yolu başlandı. 1948-ci ilin yayında Buxarestdə Kommunist məlumat bürosunun (Kominformun) müşavirəsində YKP rəhbərliyinin burjua millətçiliyi mövqeyinə keçməsində, fəhlə sinfinin və sosializmin mənafeyinə xəyanət etməkdə ittiham edilən qətnamənin qəbul edilməsi ilə başa çatdı. YKP-nin V qurultayına uğursuz müraciətdən sonra münaqişə çıxılmaz xarakter aldı.

SSRİ və xalq demokratik ölkələrindən təcrid olunmuş Yuqoslaviya rəhbərliyi özlərinin xarici siyasət səylərini qərb dövlətləri və qeyri-sosialist Balkan ölkələri – Yunanıstan və Türkiyə ilə münasibətlərin qaydaya salınmasına cəmləşdirdi. SSRİ Yuqoslaviya münasibətləri kəsildikdən sonra 1945-1953-cü illərdə Yuqoslaviyanın ABŞ və aparıcı Qərbi Avropa dövlətləri ilə əlaqələri ikitərəfli əməkdaşlıq əsasında inkişaf etdi. 1951-ci il noyabrın 14-də YFXR və ABŞ arasında hərbi yardım haqqında saziş imzalandı. Yenə həmin il ABŞ, Böyük Britaniya və Fransa ilə üçtərəfli yardım haqqında saziş bağlandı.

Yuqoslaviyanın müharibədə qələbəyə böyük töhfə verməsi onun əsas Qərb ölkələri ilə əlaqələrinin normallaşmasına kömək edirdi. 1954cü ilin oktyabrına kimi Triyest ərazisində ABŞ və İngiltərə qoşunları qalmışdı. 1954-cü il oktyabrın 5-də İtaliya ilə Yuqoslaviya arasında imzalanmış sazişə əsasən Triyest şəhəri də daxil olmaqla ərazinin qərb hissəsi İtaliyaya, qalanı isə Yuqoslaviyaya verildi. Beləliklə, 1954-cü ildə İtaliya ilə münasibətlər nizama salındı,Triyest şəhəri və ətraf ərazi məsələləri sülh yolu ilə həll olundu. İş dalınca Yuqoslavların getdiyi Avropa və Amerikanın bir sıra inkişaf etmiş ölkələri ilə YFSR arasında müqavilələr imzalandı.

1953-cü ilin martında İ.V.Stalinin ölümündən sonra SSRİ-nin xarici siyasət xəttinin dəyişilməsi nəticəsində Yuqoslaviya ilə münasibətlərdə mülayimləşmə hiss olunmağa başladı. Sovet hökuməti hər iki dövlət arasında səfirlikləri bərpa etməyi təklif etdi və bu qarşı dövlət tərəfindən qəbul edildi. Sovet İttifaqının hökumət nümayəndələri rəsmi olaraq 1955-ci ilin mayında Yuqoslaviyaya səfər etdilər, 1955-ci il iyunun 2-də sovet-yuqoslav Bəyannaməsi qəbul edilməsi ilə hər iki dövlət arasında qarşılıqlı əlaqələrin inkişafına yol açdı.

1955-ci ildə yüksək səviyyədə keçirilən sovet-yuqoslav danışıqları, həmçinin SSRİ və Yuqoslaviya rəhbərliyinin 1956-cı il Moskva danışıqları nəticəsində iki ölkə arasında münasibətlər nizama salındı. Ticarət-iqtisadi əlaqələrin uzunmüddətli bünövrəsi qoyuldu. 70-80-ci illərdə SSRİ Yuqoslaviyanın idxalatında birinci yeri, xarici ticarət dövriyyəsində isə ikinci yeri tuturdu. 1964-cü ildən YSFR QİYŞ-da müşahidəçi statusunda iştirak edirdi. Bu dövrdə sovet-yuqoslav münasibətlərini bitərəfli qiymətləndirmək səhv olardı. Çünki Yuqoslaviya SSRİ-nin Macarıstana (1956), Çexoslovakiyaya (1968), Əfqanıstana (1979) müdaxiləsini birmənalı şəkildə tənqid edirdi. Yuqoslaviya ərəb-israil münaqişəsi zamanı ərəb ölkələri tərəfində durmuşdu və ABŞ-ın Vyetnam, Livan və Kubaya qarşı yürütdüyü siyasəti tənqid edirdi. Yuqoslaviya sərhəd qonşusu ölkələri ilə dostluq əlaqələri saxlayırdı.

50-ci illərin ortalarından başlayarq Yuqoslaviyanın xarici siyasət sənədlərində "birləşməmək" ifadəsinə daha tez-tez rast gəlinir. İnkişaf etməkdə olan ölkələrin – Hindistanın və Misirin rəhbərləri ilə danışıqlar keçirildi, nəticədə İ.Tito, C.Neru və Ə.Nasir tərəfindən NATO

və Varşava Müqaviləsi Təşkilatları və digər hərbi-siyasi ittifaqlara qoşulmamaq haqqında Brion Bəyannaməsi deyilən sənəd imzalandı. Bəyannamədə deyilirdi ki, bu üç ölkə həmin təşkilatlara qoşulmamaq haqqında öhdəlik götürür. 1961-ci ilin sentyabrında bloklara qoşulmayan Asiya, Afrika, Latın Amerikası və Yuqoslaviya ölkələrinin dövlət və hökumət rəhbərlərinin birinci konfransı keçirilən ilk şəhər Belqrad oldu. 1989-cu ildə Belqradda "üçüncü dünya" ölkələri deyilən ölkələrin dövlət və hökumət rəhbərlərinin sonuncu-doqquzuncu konfansı keçirildi. 80-ci illərin sonlarında Yuqoslaviya 100-dən çox ölkə ilə diplomatik və ticarət əlaqələri saxlayırdı.

## Yeni müstəqil cənub slavyan dövlətləri.

### Sloveniya

Sloveniya Mərkəzi Avropa dövləti kimi qərbdən İtaliya, şimaldan Avstriya, şərqdən Macarıstan, şərq və cənubdan Xorvatiya ilə həmsərhəddir. Uzun illər kommunistlərin inhisarından sonra Sloveniyada 1990-cı ilin aprelində çoxpartiyalı sistem əsasında parlamentdə seçki keçirildi. Seçicilərin təqribən 55 faizi Sloveniya Demokratik İttifaqı, Sloveniya Sosial-Demokratik İttifaqı, Sloveniya Xristian-Sosial Hərəkatı, Sloveniya Kəndli İttifaqı və "Yaşıllar" partiyasının daxil olduğu Sloveniya Demokratik müxalifətinə səs verdi. Keçmiş kommunistlərdən ibarət olan Demokratik Yeniləşmə partiyası, liberal-demokratik və sosialist partiyaları da parlamentə daxil olmağı bacardı. Sağ meyilli Sloveniya xristian-sosialist hərəkatının xadimi Loyze Peterl Baş nazir, Sloveniyanın Federasiyadan çıxmağın liberal baxışlı tərəfdarı, sabiq kommunist funksioneri Milan Kuçan respublika Rəyasət Heyətinin sədri, yəni prezident seçildilər.

Yeni seçilmiş parlament Sloveniyanın suverenliyi və müstəqilliyi haqqında bəyannamə qəbul edərək həm də Federasiyadan çıxmağa dair plebissit təşkil etdi. İştirakçıların 88 faizi Federasiyadan çıxmaq tərəfdarı olduqlarını bildirdilər. 1991-ci il iyun ayının 25-də ölkə parlamenti Sloveniyanın müstəqilliyini elan etdi. Eyni zamanda respublikanın güc strukturlarına gömrük və sərhəd-keçid məntəqələrinə, İtaliya, Avstriya və Macarıstanla dövlət sərhədlərini nəzarətə götürmək göstərişi verildi. Ertəsi gün Yuqoslaviya hökuməti Sloveniyanın hərəkətlərini qeyri-qanuni sayaraq orduya vəziyyəti nəzarət altına almağı tapşırdı. Sloveniya tərəfi 35 min könüllü təşkil edərək sərhəddə müqavimət səddi qurdu. 10 gün davam edən silahlı toqquşmada hər iki tərəfdən ölən və yaralanan oldu. Konkret olaraq Yuqoslav ordusunda 45 nəfər öldü, 146 nəfər yaralandı, 4693 hərbiçi, 252 nəfər federal xidmət əməkdaşı əsir götürüldü. Sloveniya özünümüdafiə qüvvələri 19 nəfər itirdi, 182 nəfər isə yaralandı. Əməliyyatların gedişində 31 tank, 22 nəqliyyat zirehli maşını, 172 nəqliyyat vasitəsi, 6 uçan aparat məhv edildi. Avropa Birliyinin təşəbbüsü ilə iyulun 3-də barışıq imzalandı. Sloveniya 3 ay müddətində suverenlik haqqında bəyənnamənin həyata keçirilməsini dayandırmağı, Yuqoslaviya öz ordusun Sloveniyadan çıxarmağı öhdəsinə götürdü. Federasiya qoşunları iyulun 29-da Sloveniyadan çıxarıldı. 1991-ci ilin oktyabrında Sloveniya sərhədlər üzərində nəzarəti bərpa etdi, milli valyutasını buraxdı, dekabr ayında yeni Konstitusiyasını qəbul etdi. 1992-ci ilin yanvarında Avropa Birliyi, sonra başqa dövlətlər Sloveniyanın müstəqilliyini tanıdı.

Müstəqil Sloveniyanın ərazisi 20273 kv. km, əhalisi isə 1976 min nəfər idi. Etnik tərkibinə görə əhalinin 90 faizi slovenlərdən ibarət olub katolikliyə etiqad edirdilər. Sloveniyanın 1991-ci il dekabrın 23-də qəbul etdiyi Konstitusiyaya görə ölkə parlamentli respublika olub, iki palatadan, yəni Dövlət Yığıncağı və Dövlət Şurasından ibarət olan hakimiyyət orqanına malik idi. 90 nəfərdən ibarət olan Dövlət Yığıncağı qanunverici səlahiyyətə malik olub siyasi partiyalar tərəfindən ümumi, bərabər, birbaşa, gizli səsvermə nəticəsində 4 il müddətinə seçilirdi. İtalyan və macar milli azlığının hərəsinə bir deputat yeri nəzərdə tutulurdu. Dövlət Yığıncağı hökuməti təşkil edir, onun fəaliyyətinə nəzarət edir və qanunları qəbul edirdi. Dövlət Şurası 40 nəfər deputatdan ibarət 5 il müddətində seçilirdi. Onun səlahiyyətlərinə Sloven cəmiyyətinin milli və siyasi mənsubiyyətindən asılı olmayaraq bütün

sosial, iqtisadi, sənət və lokal maraqları daxil idi.

Dövlətin başçısı prezident elan edilirdi ki, o, da birbaşa səsvermə ilə 5 il müddətinə ardıcıl iki dəfədən çox olmamaq şərti ilə seçilirdi. Prezident həm də Sloveniya silahlı qüvvələrinin ali baş komandanı idi. Ölkə prezidenti parlamentə seçkiləri təyin edir, onu vaxtından əvvəl buraxa bilərdi, o şərtlə ki, dövlət yığıncağı hökuməti qura bilməsin.

1992-ci ilin dekabr seçkilərində Liberal-Demokrat partiyası nisbi səs çoxluğu ilə qələbə çaldı, onun lideri Yanez Drnovşek sol mərkəzçi koalisiyon hökumətin başçısı oldu. 2000-ci ildə az fasilələrlə hakimiyyətdə qalan Baş nazir Y.Drnovşek və prezident M.Kuçan müstəqil Sloveniyanın dövlət siyasətini həyata keçirirdilər.

2002-ci ilin sonundakı prezident seçkisində Y.Drnovşek prezident seçildi. Liberal-Demokratik partiyanın üzvü Anton Rop hökumətə başçılıq etdi. 2004-cü ilin oktyabr ayında parlament seçkisi oldu, məşhur dissident, Federasiya ordusuna qarşı silahlı müqavimətin təşkilatçısı Yanez Yanşinin Sloveniya Demokratik partiyası seçicilərinin çoxunun səsini alaraq qələbə qazandı. Yanez Yanş Xristian-Xalq partiyası, Sloveniya Xalq partiyası və Təqaüdçülərin Demokratik partiyasıdan ibarət "Yeni Sloveniya" bloku adı altında koalisiya hökuməti təşkil etdi.

2014-cü ilin avqustundan Sloveniyanın Baş nazir postunu Miroslav Serar-kiçik tutur. Parlament respublikası olan ölkənin inzibati idarəetmə sistemində 210 icma fəaliyyət göstərir ki, bunların da 11-nin şəhər statusu vardır. Sloveniya Respublikasının hazırkı prezidenti Borut Paxordur. B.Paxor Sosial-Demokrat Partiyasının nümayəndəsi kimi 2012-ci il dekabrın 22-dən 2007-ci ildən prezident olan Danilo Türkü əvəz edərək ölkənin prezidenti vəzifəsini yerinə yetirir.

Yuqoslaviya Federasiyasından ayrılıb müstəqillik əldə edən zaman Sloveniya iqtisadi cəhətdən bütün respublikalardan öndə yer tuturdu, belə ki, bütün ixracatın 60 faizi onun payına düşürdü. Müstəqillik qazandıqdan sonra Sloveniyanın iqtisadiyyatı daha da inkişaf etdi. Sloveniyada Reno Klio avtozavodu, "Krşko" atom elektrik stansiyası, "Petrol" dövlət neft kompaniyası, "Koper" limanı ölkə iqtisadiyyatının tərəqqisində əhəmiyyətli rol oynayırlar. Xüsusilə solmərkəzçi hökumətlərin dövründə islahatların yavaş surəti sosial münaqişələrdən qaçmağa şərait yaratdı. İqtisadiyyat tədricən inkişaf edərək səviyyəsinə görə qabaqcıl qərbi Avropa dövlətləri ilə müqayisə edilməyə başladı. 2004-cü ilin martında Ümumdünya Bankı Şərqi Avropanın postsosialist ölkələri arasında Sloveniyanı birinci olaraq inkişaf etmiş ölkə kimi qiymətləndirdi.

Sloveniyada valyuta Avropa ölkələrində tədavüldə olan avrodur. 2007-ci il məlumtaına görə Sloveniyada nominal orta əmək haqqı 820 avro, minumum əmək haqqı isə 522 avro təşkil edir. 2007-ci ilin məlumatına əsasən Sloveniyada əmək qabiliyyəti olan əhalinin yalnız 7 faizi işsiz hesab olunurdu. Doğrudur 2009-cu ildə dünya iqtisadiyyatının səviyyəsinin aşağı düşməsi Sloveniya Respublikasında ixracat və sənaye istehsalının 6 faizdən çox aşağı düşməsinə, işsizliyin isə 9 faizə yüksəlməsinə səbəb olmuşdur.

Bu gün Sloveniya möhkəm daxili sabitlik və iqtisadi inkişaf səviyyəsinə görə turistləri və xarici sahibkarları cəlb edir. Xarici siyasət sahəsində Qərblə əməkdaşlıq xətti davam edir. Sloveniya BMT-na,bir çox mərkəzi və regional təşkilatlara üzv qəbul edilmişdir. 350 min italyanın hələ İ.B.Tito rejimi zamanı İstriya, Dalmasiyadan İtaliyaya köçürülməsi və onlara kompensasiya ödənilməsi problemi yalnız 1996-cı ildə öz həllini tapdı. Bundan sonra 2004-cü ildə keçmiş Yuqoslaviya respublikaları arasında Sloveniya birinci olaraq NATO və Avropa İttifaqına qəbul olundu.

Məhz Sloveniyanın təşəbbüsü ilə 2004-cü ildə 10 slavyan ölkəsi, o cümlədən Belarus, Bolqarıstan, Bosniya və Herseqovina, Makedoniya, Polşa, Rusiya, Serbiya və Çernoqoriya, Sloveniya, Xorvatiya, Ukraina, Slovakiya və Çexiya Slavyan mədəniyyəti Forumun təsis etdilər. Məqsəd slavyan xalqlarının özünəməxsus adət və ənənələrini qoruyub saxlamaq idi. Sloven dili latın əlifbası ilə yazısı olan cənub-slavyan dil qrupuna daxildir. Bu dilin xorvat və serb dillərilə ümumi kökdən olmasına baxmayaraq onlardan əhəmiyyətli şəkildə fərqlənir. Eyni zamanda sloven dili qərbi slavyan dillərinin və rus dilinin şimali rus ləhcəsinin bəzi

əlamətlərinə malikdir. Hal-hazırda sloven dilinin 49 dialekti mövcuddur.

2013-cü il yanvarın 1-nə olan rəsmi məlumata əsasən Sloveniya Respublikasında 2058821 nəfər əhali yaşayır ki, bu da dünyada əhalisinin sayına görə 144-cü ölkə deməkdir. Ərazisinə görə dünyada 150-ci yerə məxsus olan Sloveniya 20253 $km^2$ əraziyə malikdir. Ən böyük şəhərləri Lyublyana, Maribor, Kran, Velenedir.

## Xorvatiya

Xorvatiya Respublikası Mərkəzi Avropanın cənubunda, Balkan yarımadasının qərbində yerləşmiş dövlət kimi şimali-qərbədən Sloveniya, şimali-şərqdən Macarıstan və Serbiya, cənubdan Bosniya və Herseqovina və Çernoqoriya ilə həmsərhəddir.

1990-cı ilin aprel və mayında Xorvatiyada iki turdan ibarət çoxpartiyalı sistem əsasında baş tutan seçkilərdə Xorvatiya Demokratik Həmrəylik partiyası səslərin çoxunu qazanaraq hakimiyyətdə olan kommunistləri məğlubiyyətə uğratdılar. Bu partiyanın lideri Frano Tucman (1922-1999) Xorvatiya Rəyasət Heyətinin sədri seçildi. F.Tucman İkinci Dünya müharibəsində partizan hərəkatının iştirakçısı kimi şöhrət qazanaraq müharibədən sonra Yuqoslav xalq ordusunun ən gənc generallarından biri olmuşdur. 1961-ci ildə istefaya çıxan general 1971-ci ildəki "Xorvat baharı" hərəkatında iştirak etdiyi üçün YKP-nin sıralarından xaric edilərək iki dəfə həbs edilmişdir. 1989-cu ildə siyasətə qayıdaraq Xorvatiya Demokratik Həmrəylik partiyasını yaratmışdır. Partiyanın proqramında 4,5 milyon nəfər əhalisi olan respublikanın 11 faizini serblər təşkil etməsinə baxmayaraq onlara hər hansı bir muxtariyyətdən söz açılmır, yalnız müstəqil Xorvatiya tələbi irəli sürülürdü. 1990-cı il dekabrın 20-də Xorvatiyanın yeni Konstitusiyası qəbul edildi və respublika "Xorvat xalqının milli dövləti" kimi təsbit edildi. Əvvəllər isə respublika Xorvat və Serb xalqının dövləti kimi müəyyən edilmişdir. Əsas qanuna görə Xorvat Respublikasında (XR) güclü prezident hakimiyyəti bərqərar oldu. Prezident ümumi səsvermə ilə ardıcıl olaraq iki dəfədən çox olmamaq şərtilə beş il müddətinə seçilirdi. Prezident parlament seçkilərinin və referendumların vaxtını müəyyən edir, baş naziri təyin edir və istefaya göndərir, onun təqdimatı ilə müavinləri və hökumətin tərkibin təsdiq edir, parlamenti istefaya göndərə bilərdi. Ali qanunvericilik hakimiyyəti 100-dən 160-a kimi deputatı olan Nümayəndələr palatası və 2000-ci ilə qədər 68, sonra isə 65 deputatdan ibarət Jupani, yəni Vilayətlər palatasından ibarət Məclisə məxsus idi. Nümayəndələr palatası ümumi, bərabər, gizli sesvermə əsasında seçilir, milli azlıqlara 5 yer ayrılırdı. Xorvat tərəfinin hərbi hissələr formalaşdırmaq məqsədilə silah əldə etmələri və s. Xorvat-Serb icmaları arasında münasibətləri kəskinləşdirirdi. 1991-ci ilin martından başlayaraq Xorvat hərbi qüvvələri ilə Serbiyadan olan könüllülərin daxil olduğu Serb xalq qoşunu arasında silahlı toqquşmalar baş verdi.

1991-ci il mayın 19-da Xorvatiyada Yuqoslaviya Federasiyasından ayrılmaq haqqında referendum keçirildi, 90 faizdən çox iştirakçı müstəqil dövlətə səs verdi. Xorvatiyanın Serb əhalisi referendumu baykot etdi. 1991-ci il iyunun 25-də parlament Xorvat Respublikasının suverenliyi və müstəqilliyi haqqında Bəyannamə qəbul etdi. 1992-ci ilin yanvarında Almaniyanın təzyiqi ilə Avropa Birliyi ölkələri Xorvatiyanı tanıdılar.

Yuqoslaviyanın federal hakimiyyəti orduya respublikada konstitusiyaya əsasən vəziyyəti nizama salmaq əmri verdi, onlar tezliklə serblərin kompakt yaşadığı Krain, Şərqi və qərbi Slavoniyanı tutaraq Zaqrebin 40 km-də dayandılar. 1991-ci il oktyabrın 8-də Xorvatiyanın parlamenti Yuqoslaviyanın tərkibindən çıxmaq haqqında qəti qərar qəbul etdi. Buna cavab olaraq Xorvatiyadakı serblər dekabrın 19-da Yuqoslaviya konstitusiyasının qüvvədə olduğu öz xüsusi dövlətlərin Kraina Serb Respublikasını yaratdılar. 1991-ci ilin martından avqustunadək Xorvat və Kraina Serblərin hərbi birləşmələri arasında qanlı toqquşmalar oldu. 1991-ci il noyabrın 20-də Serblər şəqri Slavoniyadakı Vukovar şəhərini tutdular. Böyük dağıntılar və dinc əhali arasında saysız-hesabsız qurbanlardan sonra beynəlxalq təzyiq vasitəsilə 1992-ci ildə Xorvat ordusu və Yuqoslaviya Xalq ordusu arasında atəşkəs elan edildi, martda isə Xorvatiyaya BMT-nin sülhməramlı qüvvələri daxil oldu. 1995-ci ilin may

və avqust aylarında Xorvat ordusu beynəlxalq sülh qüvvələrinin varlığına məhəl qoymayaraq iki böyük əməliyyat nəticəsində Kraina Serb Respublikasını ləğv etdilər. Yüzlərlə serb oldürüldü, on minlərlə serb Bosniyanın serb hissəsinə, oradan da Serbiyaya qaçdılar.

Xorvatiyadakı "vətən" müharibəsi 30 min insanın həyatı bahasına başa gəldi. Hərbi əməliyyatların ölkəyə vurduğu ziyan 18,7 milyard dollar məbləğində idi. Xorvatiyanın xarici borcları on milyard dolları ötüb keçdi, ölkəni 280 min serb əhalisi tərk etdi. Faktiki olaraq Xorvatiya vahid etnik tərkibli ölkəyə çevrildi, serblər əhalisinin yalnız 4 faizindən də az hissəsini təşkil etməyə başladı.

Müharibə illərində Xorvatiyada F.Tucmanın şəxsi hakimiyyəti bərqərar oldu, hakim Xorvatiya Demokratik Həmrəylik partiyası isə dövlət idarəçiliyi orqanları ilə birləşdi. Prezidentin avtoritar idarəçilik metodu və millətçilik siyasəti beynəlxalq aləmdə və ölkə daxilində getdikcə vəziyyətin kəskinləşməsinə səbəb olurdu. 1999-cu ildə F.Tucmanın ölümündən sonra Xorvatiyanın siyasi həyatında köklü dəyişikliklər baş verdi. 2000-ci ildəki parlament seçkilərində müxalifət koalisiyası XDH partiyasını qabaqlayaraq 17 faiz çox deputat yeri qazandı. 5 partiyanın daxil olduğu koalision hökuməti sosial-demokratların lideri İvitsa Raçan qurdu. Prezident seçkilərini vaxtı ilə Yuqoslaviya Federativ İttifaq Respublikasının sonuncu prezidenti Stipe Mesiç qazandı. Tədricən Xorvatiya prezident respublikasından parlament idarəşilik sisteminə əsaslanan siyasi dəyişikliklərə məruz qaldı. 2000-ci ilin noyabrında parlament 1990-cı il Konstitusiyasına bir sıra əsaslı qanun dəyişikliyi etdi ki, bu da parlamentin səlahiyyətlərini əhəmiyyətli dərəcədə Deputatlar palatasının xeyrinə məhdudlaşdırırdı. 2001-ci ilin martında parlamentin Jupaniy palatası ləğv olundu, milli azlıqların nümayəndələri məclisdə 5-dən 9 nəfərə artırıldı. 2003-cü ilin noyabrındakı parlament seçkilərində yenə təzələnmiş Xorvatiya Demokratik Həmrəyliyi partiyası qələbə çaldı. Partiyanın lideri İvo Sanader növbəti hökuməti qurdu. 2005-ci ilin yanvarında Xorvatiya müstəqil Respublikasında dördüncü prezident seçkiləri baş tutdu, ikinci turda isə Stip Mesiç yenidən ölkə prezidenti seçildi.

2010-cu il yanvarın 10-da Xorvat Respublikasında növbəti prezident seçkiləri keçirildi. Seçkilərin ikinci turunda Sosial-Demokratik partiyasının namizədi İvo Yosipoviç qalib gəldi. Fevralın 18-də prezident and içərək dövlət başçısı vəzifəsini icra etməyə başladı. Parlament seçkilərində Xorvatiya Sosial-Demokratik partiyası 61 deputat yeri qazanaraq 1-ci, Xorvat Demokratik Birliyi 44 səslə ikinci oldu. Zoran Milanoviç hökumətin başçısı – Baş nazir təyin olundu.

Xorvatiyanın iqtisadiyyatı əsasən Almaniya və Rusiyadan gələn turistlər hesabına və ölkəyə cəlb olunan investisiyalara görə inkişaf edir, bu isə əhalinin güzaranının yaxşılaşmasının təminatıdır. Gəmiqayırma, maşınqayırma, kimya, qida, toxuculuq, ağac emalı, elektron, əczaçılıq sahələri iqtisadiyyatın aparıcı bölmələrini təşkil edir. 2010-cu il məlumatının nəticələrində Xorvatiyada əmək qabiliyyəti olan əhalinin 17,7 faizi işsizdir ki, bu da çox yüksək göstərici hesab edilir.

Regionun bir çox dövləti kimi Xorvatiya müstəqillik qazandıqdan sonra Qərbi Avropa və ABŞ-la əməkdaşlığa üstünlük verir. 2000-ci ildə Xorvatiya "Sülh naminə əməkdaşlıq" proqramına qoşulmuşdur. 2005-ci ildə Xorvatiyaya Avropa İttifaqı ilə danışıqlar aparmağa razılıq verilmişdir. 2009-cu ildən NATO-nun, 2013-cü ildən Avropa İttifaqının və bir çox mərkəzi və regional təşkilatların üzvü olan Xorvatiya qonşu dövlətlərlə, xüsusilə Serbiya ilə münasibətlərini inkişaf etdirməyə xüsusi diqqət ayırır.

2014-cü il yanvarın 1-nə olan məlumata əsasən Xorvatiya respublikasının əhalisi 4246809 nəfərdir, bu da ümuni əhalinin 90,42 faizini təşkil edir. Ölkə ərazisindəki serblər isə əhalinin 4,36 faizi qədərdir. 2011-ci il məlumatına görə əhalinin 86,28 faizini katoliklər, 4,44 faizini pravoslavlar, 1,47 faizini müsəlmanlar və başqa dinlərin nümayəndələridir. Xorvatiya Respublikasının inzibati idarəetmə sisteminin 20 jupaniyə, o isə 122 şəhərə və 424 icmaya bölünür. Xorvatiyanın paytaxtı Zaqreb 21-ci jupani statusuna malikdir. Jupani, şəhər və icma nümyəndəlik orqanları kimi seçkili olub, əhali tərəfindən seçilir. Zaqreb, Split, Rieka, Osiek Xorvatiyanın böyük şəhərləridir.

2015-ci il yanvarın 11-də Xorvatiyada keçirilən prezident seçkilərində hakim Xorvat Demokratik Həmrəylik partiyasının nümayəndəsi, sabiq xarici işlər naziri Kolinda Qrabar-Kitaroviç seçici səslərinin 50, 42 faizini qazanaraq prezident seçildi və fevralın 19-dan ölkəyə başçılıq etməyə başladı. Xorvatiya-Azərbaycan əlaqələri daim inkişaf edib təkmilləşir. 2012-ci il martın 12-də Xorvatiya Respublikasının prezidenti İvo İosipoviç Bakıda Azərbaycanın dövlət başçısı İlham Əliyevlə görüşərək bir sıra iqtisadi məsələləri müzakirə etmişlər. Xüsusilə investisiya və kənd təsərrüfatı məhsullarının qarşılıqlı mübadiləsi hərtərəfli müzakirə obyekti olmuşdur.

## Bosniya və Herseqovina

Bosniya və Herseqovina Respublikası iki bərabərhüquqlu subyektdən-Bosniya və Herseqovina Federasiyasından və Serb Respublikasından, o cümlədən xüsusi statusu olan Brçko vilayətindən ibarət demokratik federativ respublika olub qərb və şimaldan Xorvatiya, şərqdən Serbiya, cənub-şərqdən Çernoqoriya ilə həmsərhəddir, Avropanın cənubi-şərqində, Balkan yarmadasının mərkəzi hissəsində yerləşir.

Bosniya və Herseqovina Yuqoslaviya Federativ Sosialist Respublikasına daxil olan yeganə respublikadır ki, onun sərhədləri etnik deyil tarixi-coğrafi prinsiplər əsasında müəyyən edilmişdir. 1991-ci ilə doğru, respublikanın 90-cı illərin ortalarından bosniyalılar və ya boşnaklar adlanan slavyan-müsəlman əhalisi 44, serbər 32, xovatlar isə 17 faiz təşkil edirdi.

1990-cı ilin noyabrında Bosniya və Herseqovinada çoxpartiyalı sistem üzrə seçki oldu. Parlament seçkilərində bosniyalı müsəlmanların Demokratik Hərəkat partiyası, Serb Demokratik partiyası, Xorvat Demokratik Həmrəyliyinin daxil olduğu müxalifət koalisiyası qələbə çaldı. Hökumətə xorvat Yure Pelivan, parlamentə Serb Momçilo Kraişnik, Bosniya Herseqovinanın Rəyasət Heyətinə Bosniya müsəlmanı Aliyə İzzətbəyoviç (1925-2003) rəhbərlik etməyə başladı.

1991-ci ilin əvvəlində qonşu Xorvatiyada müharibənin başlanması ilə milli icmaları təmsil edən Bosniya və Herseqovinadakı partiyaların koalisiyası dağıldı. 1991-ci ilin oktyabrında respublika parlamentinin müsəlman deputatları yuqoslaviya hakimiyyətini federasiyanı dağıtmaqda ittiham edərək Bosniya və Herseqovinanın müstəqilliyini elan etdilər. Serb dputatlar etiraz əlaməti olaraq parlamenti tərk etdilər və Bosniya və Herseqovinadakı serb xalqının skupşibasın çağırdılar. Noyabrda Bosniyanın serb icması əhalisi arasında plebissit keçirildi. Səsvermədə iştirak edənlərin 92 faizini yenilənmiş Yuqoslav dövlətinə tərəfdar çıxdı. 1992-ci il yanvarın 9-da Bosniyalı serblər öz dövlətlərini – Serb Respublikasını yaratdılar, həkim-psixiatr və şair Radovan Karaciç yeni dövlətin prezidenti seçildi.

Bosniya və Herseqovina skupşinasının müsəlman və xorvat deputatları 1992-ci il fevralın 29-u və martın 1-də referendum təşkil etdilər ki, burada da 63,4 faiz seçici iştirak etdi. 60 faizindən çox seçici Bosniya və Herseqovinanın müstəqilliyinə səs verdi. A. İzzətbəyoviç başda olmaqla Bosniya və Herseqovinanın müstəqilliyi bəyan edildi və Avropa Birliyinə yeni dövləti tanımaq xahişi ilə müraciət edildi. 1992-ci ildə martın 18-də Lissabonda üç icmanın liderləri "Bosniya və Herseqovinada konstitusiya quruluşunun əsas prinsipləri" haqqında razılığa gəldilər. Lakin 1992-ci il aprelin 6-da Avropa Birliyinin Bosniya və Herseqovinanın müstəqilliyini tanıması vəziyyəti gərginləşdirdi. Respublikanın bütün ərazisini hərbi əməliyyatlar bürüdü. 1992-ci ilin iyulunda əsasən qərbi Herseqovinada məskunlaşan respublikanın xorvat əhalisi öz dövlətlərini Herseq-Bosna Xorvat Respublikasını elan etdilər. Xorvat icmasının lideri Kreşimir Zubak onun prezidenti oldu. Bosniya və Herseqovinadakı hərbi əməliyyatlar bosniyalı serblər və müsəlmanlar, bosniyalı xorvatlar və müsəlmanlar, bosniyalı serblər və xorvatlar arasında davam edirdi. 1992-ci il mayın 30-da Yuqosloviya Xalq ordusu Bosniya və Herseqovinadakı hərbi əməliyyatlarda iştirak etdiyinə görə BMT-nin təhlükəsizlik şurası Yuqoslaviya və Serb Respublikasına qarşı sanksiya tətbiq etdi.

Bosniya müharibəsinin 1992-1993-cü illəri əhatə edən birinci mərhələsi "etnik təmizləmələrlə" diqqəti cəlb edir ki, bu zaman bosniyalı serblər ərazinin 70 faizinə nəzarəti

ələ keçirərək böyük üstünlük əldə etdilər. Xorvat icması da müharibəyə qədərki ərazilərini xeyli genişləndirdi. Ən çox əraziyə nəzarəti itirən bosniyalı müsəlmanlar idi ki, böyük hərbi əməliyyatlardan sonra onlar yalnız Bosniya və Herseqovinanın ərazisinin beşdəbir hissəsinə nəzarət edirdilər. Bundan əlavə bosniyanın qərbində Fikrət Abdiçin başçılığı altında "Sazinsk kraina" müsəlman vilayəti də Sarayevaya tabe olmaqdan imtina edirdi. Tezliklə Bosniya münaqişəsi NATO-nun, xüsusilə ABŞ-ın diqqət mərkəzinə düşdü. 1992-ci ilin oktyabrından başlayaraq Alyansın HHQ-i Bosniya üzərində qadağan olunmuş uçuş rejiminə nəzarəti artırdı. 1993-cü ilin iyunundan yeni əməliyyat, silah təminatı üzrə qadağa və embarqao başlandı. Bu məqsədlə Adriatik dənizinə hərbi gəmilər göndərildi. 1994-cü il fevralın 27-də Banya-Luka səmasında iki amerikan F-16 4 köhnə konstruksiyalı serb təyyarəsini vurdu, aprelin 10 və 11-də Qorajde şəhəri yaxınlığındakı bosniya serblərinin mövqeylərin Alyans qüvvələri bombaladı, beləliklə Bosniya müharibəsi özünün ikinci mərhələsinə daxil oldu.

1994-cü il martın 18-də Vaşinqtonda müsəlman-xorvat federasiyasının yaradılması elan olundu. 1994-cü ilin ortalarına doğru ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Rusiya və sonradan qoşulan İtaliya nümayəndələrindən ibarət əlaqə qrupu Bosniya və Herseqovinaya dair beynəlxalq sülh tənzimləmə planını təqdim etdilər ki, buna əsasən ölkə ərazisinin 51 faizi bosniya müsəlmanları və xorvatlara, 49 faizi isə bosniya serblərinə verilirdi. Amma ərazinin çox hissəsinə nəzarət edən bosniyalı serblər bu planı qəbul etmədi.

1995-ci il avqustun 30-na keçən gecə İtaliyanın aviabazası və Adriatik dənizindəki aviokreyserlərdən havaya qalxan NATO təyyarələri "Azadetmə qüvvələri" adı altında bosniya serblərinin mövqeylərini bombalamağa başladı. Hava köməyi nəticəsində hücuma keçən Xorvatiya Respublikasının nizami ordusu və müsəlman-xorvat koalisiyasının birləşmiş qüvvələri Bosniyanın qərbində xeyli əraziyə nəzarəti öz əlinə aldılar.

1995-ci il noyabrın 1-də ABŞ-ın Deyton şəhəri yaxınlığındakı aviabazada Bosniya məsələsinin nizama salınmasının yekun danışıqları baş tutdu. Serbiyanın prezidenti S.Miloşeviç, Xorvatiyanın prezidenti F.Tucman, Bosniyanın prezidenti A. İzzətbəyoviç, əlaqə qrupunun üzvləri, ABŞ, Rusiya və AB-dən olan sədrlərin iştirakı ilə danışıqlar noyabrın 21-də Bosniya və Herseqovinanın ərazi və dövlət qurluşunun müəyyən edilməsi ilə başa çatdı. Əldə edilən razılaşmaya görə formal olaraq vahid dövlət iki dövlət qrumuna 49 faiz ərazini əhatə edən Serb Respublikasına və 51 faiz ərazini əhatə edən Bosniya və Herseqovina Federasiyasına bölündü. Bosniya və Herseqovinanın Rəyasət Heyəti üç nəfər, serb, bosniya və xorvat icmalarından ibarət nümayəndələrindən iki il müddətinə, sonra isə 4 il müddətinə seçilməsi nəzərdə tutulurdu. Sədrlik vəzifəsi növbə ilə dəyişdirilirdi. Bütün qərarlar konsensus əsasında qəbul olunurdu. İki palatadan ibarət parlament yaradılır, burada da qərarlar hər üç icmanın deputatları tərəfindən təsdiq edildikdə qüvvəyə minirdi. Eyni zamanda qərara alındı ki, Bosniya serblərinin lideri R.Karaciç və Radko Mladiç öz vəzifələrini tərk edərək keçmiş Yuqoslaviyada törətdikləri cinayələrə görə 1993-cü ilin mayında BMT TŞ-nın qərarı ilə yaradılmış Haaqadakı Beynəlxalq Tribunal qarşısında cavab verməlidirlər.

Deytonda paraflanmış sülh sazişi 1995-ci il dekabrın 14-də Parisdə imzalandı. Deyton sülh müqaviləsinə əsasən Bosniya və Herseqovinanın yeni inzibati -ərazi bölgüsü müəyyən edildi, yeni qrumlar Bosniya-Herseqovina Federasiyası, Serb Respublikası, Brçko dairəsi formalaşdı. Hər bir subyekt kantonlara, onlar isə icmalara bölünür. Paytaxtlar şəhər icmalarına bölünürdü.

Bosniya və Herseqovina Federasiyasının ərazisi 26098,3 km$^2$ müəyyən olundu ki, bu da Bosniya və Herseqovina ərazisinin 50,98 faizi demək idi. Ölkə əhalisinin 60 faizə yaxını burada cəmləşmişdir ki, onların da 73-i bosniyalılardan ibarətdir. Paytaxtı Sarayevo olan Federasiya 10 kantondan ibarət idi. 24605,7 km$^2$ ərazisi olan Serb Respublikasının torpaqları ölkə hüdudlarının 48,06 faizini əhatə ediridi. Bosniya və Herseqovina əhalisinin 35 faizi Serbiya respublikasında yaşayanlar idi ki, onların da 88 faizi serblərdən ibarətdir. Serb Respublikası 7 regiona, onlar isə 63 munisipalitetə bölünür.

Brçko dairəsi 493 km$^2$ əraziyə sahibdir ki, bu da ölkənin 0,96 % torpaqlarını əhatə edir. Özünüidarə hüququ olan Brçkonun əhalisi 80 min nəfərdir, onların da 40 faizi serblər, 39 faizi

bosniyalılar, 20 faizi xorvatlardır. Avropada son illərin ən dağıdıcı müharibəsində 200 min nəfər adam hərbi əməliyyatlar zamanı həlak oldu, 2 milyon nəfər serb, bosniyalı və xorvat hərbi əməliyyatlar nəticəsində qaçqın vəziyyətinə düşdü, onların çoxu Respublika ərazisini tərk etdi. Müharibəyə qədərki dövrlə müqayisədə Bosniya əhalisi 1 milyon nəfər azalaraq 2,5 milyon nəfəri Federsiyada, bir milyon nəfəri Serb Respublikasında yaşamaqla 3,5 milyona düşdü. Bosniyalılar nəzarət etdikəri torpaqların əhalisinin 80-85, xorvatlar isə özlərinə aid olan Federasiya ərazisinin 98 faizini təşkil edirlər. Deyton sazişi imzalandıqdan sonra Bosniya və Herseqovinaya NATO-nun rəhbərliyi ilə 60 minlik çoxmillətli sülhməramlı qüvvə yerləşdirildi. 2003-cü ilin ortalarından bura Rusiyadan olan hərbi qüvvələr də cəlb olunub. 2004-cü ildən sülhməramlı qüvvələr xeyli azaldılaraq onun rəhbərliyi NATO-dan Avropa İttifaqına dövr edib.

1996-cı ilin sentyabrında müharibədən sonra Bosniya və Herseqovinada ilk parlament seçkiləri baş tutdu. 39 partiyanın iştirak etdiyi seçkilərdə Bosniya və Herseqovina Federasiyasında hakim müsəlman Demokrarik Hərəkat Partiyası seçici səslərin 54,4 faizini, Xorvat Demokratik Həmrəylik Partiyası 23,4 faizini, Serb Respublikasında isə Serb Demokratik partiyası 54,9 faiz seçici səsi qazandılar. Bosniyanın birinci Rəyasət Heyətinin üzvləri seçkidə qələbə çalmış partiyaların liderləri bosniyalı A. İzzətbəyoviç, serb M.Kraişnik, xorvat K.Zubak seçildi. Serb Respublikasının prezidenti Bilyan Plavşiç seçildi.

2002-ci ildə Bosniya və Herseqovinada konstitusiya islahatı keçirildi. Nəticədə Serb Respublikası yalnız serblərin deyil, serb, bosniya, xorvat və başqa xalqların birliyi elan olundu. Serb Respublikasının prezidentinin və parlament spikerlərinin bosniya və xorvat müavinləri vəzifəsi təsis edildi, hökumətin tərkibinə isə bosniyalılar üçün 5, xorvatlar üçün 3 yer ayrıldı. 2006-cı il oktyabrın 1-də Bosniya və Herseqovinada Deyton sazişindən sonra 6-cı ümumi seçki keçirildi. Bosniya və Herseqovinanın yeni Rəyasət Heyətinə bosniyalı, Bosniya və Herseqovina Uğrunda partiyasından Xaris Silayciç, serb, Müstəqil Sosial-Demokrat partiyasından Neboyşa Radmanoviç, xorvat, Sosial-Demokrat partiyasından Jelko Komşiç seçildi.

2010-cu il oktyabrın 3-də Bosniya və Herseqovina kollektiv icraedici orqanı olan və dövlət rəhbərliyini təmsil edən Rəyasət Heyətinə keçirilən ümumxalq seçkilərində Bosniya və Herseqovina Federasiyasından boşnak Bakir İzetbeqoviç, xorvat Jelko Komşiç, Serb Respublikasında serb Neboyşa Radmanoviç qalib gələrək noyabrın 10-da vəzifə səlahiyyətlərini yerinə yetirməyə başladılar. 2014-cü il oktyabrın 12-dəki növbəti seçkilərdə boşnak Bakir İzetbeqoviç, Xorvat Draqan Çoviç və serb Mladen İvaniç qələbə çalaraq Konstitusiyanın beşinci maddəsinə əsasən dörd il müddətində 8 aydan bir dəyişilmək şərtilə Bosniya və Herseqovinanın prezidenti vəzifəsini yerinə yetirməyə başladılar. Serb Respublikasında baş nazir Milorad Dodikin rəhbərlik etdiyi Müstəqil Sosial-Demokratlar İttifaqı seçkilərdə qalib gəldi. Partiyanın lideri Milan Eliç Serb Respublikasının yeni prezidenti seçildi. Milan Eliç 2007-ci il sentyabrın 30-da ürək tutmasından vəfat etdikdən sonra 2007-ci il oktyabrın 1-dən dekabrın 9-na kimi İqor Radoyçiç prezidentin səlahiyyətlərini yerinə yetirdi. 2007-ci il dekabrın 9-da Rayko Kuzmanoviç Serb Respublikasının prezidenti seçilərək 2010-cu il oktyabrın 3-nə kimi dövləti təmsil etmişdir. 2010-cu il oktyabrın 3-dən Bosniya və Herseqovinanın bir hissəsini təşkil edən Serb Respublikasının növbəti prezidenti Milorad Dodik oldu. 2014-cü il oktyabrın 12-də ölkədə keçirilən yeddinci ümumi prezident seçkilərində Serb Respublikasının Bosniya və Herseqovinadan ayrılıb müstəqil dövlət olması seçki proqramı ilə çıxış edən Milorad Dodik seçici səslərinin 47,1 faiz səsini qazanaraq ikinci dəfə dövlət başçısı seçildi. Prezidentliyə namizəd olan onun rəqibi Oqnena Tadiç 45,16 faiz səslə sekçi marafonunu uduzdu. 2013-cü il oktyabrın 13-də Serb Respublikası hökumətinin başçısı vəzifəsindən istefaya gedən Aleksandr Combuçu ilk qadın Baş nazir təyin edilən Jelka Sviyanoviç əvəz etmişdir.

Vətəndaş müharibəsi Bosniya və Herseqovinanın iqtisadiyyatına ağır zərbə vurdu. Respublikanın iqtisadiyyatının əsasını təşkil edən yüngül sənayenin 80 faizə qədəri dağıdılmış və ya zərər görmüşdür. İşsizlərin sayı durmadan artaraq 1996-cı ilin sonunda yüksək səviyyəyə -180 min nəfərə çatmışdır.

Qeyri-rəsmi məlumatlara etibar edilsə müharibə Bosniya və Herseqovina ölkəsinə 20 milyarddan 80 milyard dollar arasında ziyan vurmuşdur. Ölkənin ümumi məhsul istehsalı 1998-ci ilə doğru düz 75% azalmışdır. Serb Respublikasına qarşı embarqo qaldırıldıqdan sonra iqtisadiyyat dirçəlməyə başladı. Bosniya və Herseqovinanın yenidən qurulmasl beynəlxalq proqrama uyğun olaraq 1996-2000-ci illərdə ölkəyə 5 milyard dollardan çox kredit ayrılmışdır. Bu ölkənin maliyyə vəziyyətin sabitləşdirməyə, öz valyutasın dövrüyəyə buraxmağa, başqa zəruri iqtisadi vəziyyətləri həll etməyə kömək etdi.

2000-ci ildə Bosniya və Herseqovinada ümumi məhsul istehsalı artaraq 5,6 milyard dollar təşkil etmişdir. İnflyasiyanın səviyyəsi 8, iş qabiliyyəti olan əhalinin tərkibində işsizlərin miqdarı 35-40 faizə çatırdı. Tədricən iqtisadiyyatın emal, metallurgiya, neft emalı, toxuculuq, aviasiya və məişət cihazları sahələri canlanmağa başladı.

2000-ci ildə Almaniyanın Folksvagen və Çexiyanın Şkoda kompaniyalarının köməyi sayəsində yerli avtomobillərin istehsalına başlandı. Kənd təsərrüfatında tütün, qarğıdalı, buğda və şəkər çuğunduru, meyvə yetişdirilir, qoyun və keçi, iri buynuzlu mal-qara heyvandarlığın əsasını təşkil edirdi. Lakin hələ də Bosniya və Herseqovinanın iqtisadiyyatın müharibdən əvvəlki səviyyəyə yüksəltmək mümkün olmamışdır.

Ümumiyyətlə, Bosniya və Herseqovinada ümumi daxili məhsul 1990-cı ildə 7,8, 2000-ci ildə 5,6, 2010-cu ildə 16,8, 2013-cü ildə isə 17,9 milyard dollar təşkil etmişdir. Ölkənin milli gəliri müvafiq illər üzrə 6,7; 6,1; 17,1; 18 milyard dollar olmuşdur. 2014-cü ilin məlumatına əsasən Bosniya və Herseqovinada eksport 9 257 165, import isə 15 535 968 marka təşkil etmişdir. Mənfi Saldo 6 278 803 markaya bərabərdir. Eksport üzrə ölkənin əsas tərəfdaşları Xorvatiya, Sloveniya, Almaniya, İtaliya kimi dövlətlərdir. İmport üzrə başlıca tərəfdaşlar Xorvatiya, Sloveniya, Almaniya, Türkiyə və Macarıstandır. Ölkənin milli valyutası 1998-ci ildə tədavülə buraxılan marka pul nişanəsidir. 2014-cü ildə əhalinin hər bir nəfərinə ümumi daxili məhsuldan düşən gəlir 5007 ABŞ dolları təşkil edir ki, bu da Qərb ölkələri ilə müqayisədə xeyli aşağıdır. Belə ki, 2011-ci il məlumatına görə Bosniya və Herseqovinada yaşayan 3,8 milyon əhalinin 700 min nəfəri kasıblıq həddində yaşayır. Aylıq qazancı 120 avrodan çox olmayan ölkə vətəndaşları isə kasıb hesab olunur.

2008-ci ildə Bosniya və Herseqovinanın Aİ-na üzvlüyə namizəd kimi assosiasiya haqqında razılaşmanı imzalaması ölkə iqtisadiyyatını daha da ağırlaşdırdı. Əmək qabiliyyəti olan əhali arasında işsizlərin sayı rəsmi məlumatlara görə 27,5, real olaraq isə 44 faizə çatmışdır. Sosial-iqtisadi vəziyyətin pisləşməsi, işsizliyin artması 2014-cü ilin əvvəllərində ölkədə əhalinin bir çox şəhərlərdə kortəbii çıxışlarına, polislə toqquşmalara səbəb olmuşdur.

Lakin daxili sosial-iqtisadi çətinliklərə və millətlərarası ziddiyyətlərə baxmayaraq Bosniya və Herseqovina dövləti xarici siyasət sahəsində ABŞ, Aİ ölkələri və NATO-ya yaxınlaşma xəttini davam etdirir. Ölkə 2008-ci ilin aprelindən NATO ilə "İntensiv dialoqa", 2010-cu ilin aprelindən şərti olaraq Alyansın üzvü olmaq hərəkət planına cəlb edilmişdir. Bosniya və Herseqovina 2010-cu ilin yanvarın 1-dən 2011-ci il dekabrın 31-nə kimi BMT Təhlükəsizlik Şurasının daimi olmayan üzvü kimi işində iştirak edərək, 2011-ci ilin yanvarından TŞ-nın sədri vəzifəsini yerinə yetirmişdir.

Daxili millətlərarası münasibətləri qaydaya salmaq, qonşu Serbiya dövlətilə əlaqələri möhkəmlətmək məqsədilə 2010-cu il aprelin 24-də İstanbulda Türkiyə, Bosniya və Herseqovina, Serbiyanın dövlət başçıları birinci müşavirə çərçivəsində görüşərək İstanbul Bəyannaməsini qəbul etdilər. Qəbul edilən sənədə əsasən tərəflər beynəlxalq hüquq normalarına uyğun olaraq Bosniya və Herseqovinanın ərazi bütövlüyünü və suverenliyin müdafiə etmək öhdəliyini öz üzərlərinə götürmüşdülər. 2011-ci il aprelin 26-da Belqradda Türkiyənin prezidenti Abdulla Gül, Serbiya dövlətinin prezidenti Boris Tadiç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Neboyşa Radmanoviç və üzvləri Jelko Komşiç və Bakir İzzətbəyoviç üçtərəfli görüşün növbəti müşavirəsini keçirdilər. Balkanlarda sülh, sabitlik və xalqların rifahı məsələləri müzakirələrin ana xəttini təşkil edirdi.

Bosniya və Herseqovina ilə Azərbaycanın əlaqələri inkişaf edib möhkəmlənir. 2012-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının prezidenti Ilham Əliyevlə Bosniya və

Herseqovina Rəyasət Heyətinin sədri Bakir İzzətbəyoviç arasında Bakıda təhsil sahəsində, ikitərəfli əlaqələrin inkişaf edib möhkəmlənməsində bir sıra sənədlər imzalanmışdır.

Bosniya və Herseqovinaya daxil olan bosniyalılar Qərbdə və müsəlman dünyasında, xorvatlar Xorvatiya və Qərbdə, Serb Respublikası isə Serbiya və Rusiyada özlərinə müttəfiq axtarırdılar. Deyton sazişindən sonra Bosniya və Herseqovinanın əsas xarici siyasət tərəfdarları ABŞ və Avropa İttifaqı ölkələri oldu.

2013-cü il məlumatına görə Bosniya və Herseqovinada 3831555 nəfər əhali yaşayır. Onların 31 faizi pravoslav, 15 faizi katolik, serb və xorvatlardan ibarət olub özlərini boşnaq adlandıranların 40 faizi isə müsəlmanlardır. 2016-cı il yanvarın 2-nə olan məlumata əsasən Bosniya və Herseqovinada 3 835 298 nəfər əhali yaşayır ki, onların da 1 843 401 nəfəri (48,1%) kişi, 1 991 897 nəfəri (51,9%) qadındır.

## Yuqoslaviya Respublika İttifaqı

Serbiya kommunistlərinin başına 1986-cı ildə Slobodan Miloşeviç keçdi. 1987-ci ilin aprelində kommunist lider S.Miloşeviç Kosovo serbləri qarşısında çıxışında bildirdi ki, onların hüququ uğrunda mübarizəni davam etdirməyi özünün vəzifəsi hesab edir. Tezliklə S.Miloşeviç Serbiyanın Yuqoslaviyada mövqeyinin gücləndirilməsi uğrunda mübarizənin ümummilli liderinə çevrildi. 1989-cu ildə S.Miloşeviç və onun tərəfdarları Serbiya, Çernoqoriya və Voyevodinada hakimiyyətə gəldilər. S.Miloşeviçin serbyönlü siyasəti Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya ittifaq respublikalarında Qərblə yaxınlaşmaq tərəfdarı olan, iqtisadiyyatın liberallaşması və müstəqillik istəyən qüvvələrin fəallaşması ilə nəticələndi. 1990-cı ildə S.Miloşeviçin Kommunist partiyası Serbiya Sosialist partiyasına çevrildi.

Serbiya Sosialist partiyasl 1990-cı ildə Serbiyada çoxpartiyalı sistem üzrə keçirilən seçkilərdə qələbə çaldı, partiyanın lideri S.Miloşeviç (1941-2006) Serbiya Rəyasət Heyətinin sədri seçildi. Ş.Miloşeviç Yuqoslaviya Federasiyasının tərəfdarı idi, bu mümkün olmadıqda Serb əhalisini vahid dövlətdə birləşdirməyi nəzərdə tuturdu.

Yuqoslaviya Federsiyasının dağılması prosesi ilə bağlı olaraq Serbiya rəhbərliyi qarşısında duran ən çətin problem Kosovo albanlarının məsələsi hesab olunurdu. 1990-cı il Serbiya Konstitusiyasına əsasən Kosovo və Voyevodina YSFR konstitusiyasının onlara verdiyi dövlət atributların itirərək yenidən ərazi muxtariyyətinə çevrildilər. Bundan sonra Kosovoda və Metoxiya adlandırılmağa başlayan Kosovo muxtar vilayətində hadisələr getdikcə nəzarətdən çıxmağa başladı. Buna cavab olaraq Serb hakimiyyəti vilayətin ərazisinə əlavə polis və hərbi hissələr yeritdi. Faktiki olaraq hərbi vəziyyətdə olan Kosovoda Belqradın icazəsi olmadan referendum keçirildi və əhalinin 90 faizə qədəri albanlardan ibarət olan Kosovo Yuqoslaviyadan ayrılıb müstəqilliyə səs verdi, İbrahim Ruqova vilayətin "gizli" prezidenti seçildi.

Çernoqoriya YSFR -nın digər respublikalarından fərqli olaraq 1990-cı il seçkilərinə kommunistlərin köhnə adı – Çernoqoriya Kommunistlər İttifaqı ilə iştirak edərək qələbə çaldılar. Partiyanın lideri Momir Bulatoviç Çernoqoriya Rəyasət Heyətinin sədri seçildi. Yalnız iki ildən sonra partiyanın köhnə adı dəyişdirilərək Çernoqoriya Sosialistlərinin Demokratik partiyası oldu. YSFR -nın dağılması şəraitində Çernoqoriya 1992-ci il martın 1-də dövlətin taleyini həll etmək məqsədilə referendum keçirdi və Serbiya ilə birgə dövlətdə qalmaq qərarı çıxdı. 1992-ci ilin aprelində YFSR-nın varisi kimi Serbiya və Çernoqoriyanın bir federasiyada birləşməsi qərara alındı. Aprelin 27-də respublikanın skupşinası yeni dövlət – Yuqoslaviya Respublika İttifaqı (YRİ) Konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə dövlətin qanunverici orqanı Respublika Şurası və Vətəndaş Şurasından ibarət olan 4 il müddətinə seçilən Federal Məclisə məxsus idi. Dövlətin başçısı Federal Məclisin 4 il müddətinə seçdiyi prezident, icraedici orqan Məclisin təyin etdiyi Federal Hökumət elan olundu. Federasiya respublikalardan, respublikalar isə icmalardan ibarətdir. Respublikaların qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Məclisidir. Respublikaların başçısı prezident

xalq tərəfindən 5 il müddətinə seçilirdi, icraedici orqan olan hökuməti isə xalq məclisi seçirdi. YRİ-nın əhalisi 10867 min nəfər, o cümlədən Çernoqoriyanın əhalisi 654 min nəfər təşkil edirdi. İki muxtar serb vilayətinin əhalisi 3700 min nəfər idi, bunların isə 2 milyona yaxını Voyevodinada məskunlaşırdı.

Yuqoslaviya İttifaq Respublikasının parlament seçkilərində S.Miloşeviçin sosialist və Voislav Şeşelin Serb Radikal partiyası daha çox deputat yeri əldə etdi. YRİ-nın birinci prezidenti görkəmli yazıçı Dobritsu Çosiç, Baş nazir isə serb əsilli amerikan biznesmeni Milan Paniç seçildi. Əsl hakimiyyət isə Serbiyanın prezidenti S.Miloşeviçə məxsus idi. Tezliklə onunla D.Çosiç arasında fikir ayrılığı meydana çıxdı və prezident D.Çosiç vəzifəsindən uzaqlaşdırıldı. S.Miloşeviçin göstərişinə sözsüz tabe olan sosialist Zoran Liliç YRİ-nın yeni prezidenti oldu.

1992-ci ilin mayında yeni dövlətə qarşı tətbiq olunan beynəlxalq sanksiya üzündən ölkədə vəziyyət gündən-günə pisləşir, infilyasiya isə artaraq son həddə yüksəlmişdir. Sanksiyanın ardınca YRİ-nın BMT və başqa beynəlxalq təşkilatlarda üzvlüyü dayandırıldı. Yaranmış gərgin vəziyyətlə əlaqədar olaraq S.Miloşeviçlə bosniya serbləri arasındakı münasibətlər də kəskinləşdi. Hətta bosniya serblərinin rəhbərlərinin YRİ-na gəlməsinə qadağa qoyuldu. S.Miloşeviçin dövləti bosniyalı serblərə qarşı tətbiq edilən sanksiyalara belə qoşuldu.

1997-ci ildə Serbiyadakı prezident seçkilərinə yenidən namizədliyini vermək hüququ olmayan S.Miloşeviç İttifaq dövlətinin başçısı oldu. Sosialist Milan Milutinoviç isə Serbiyanın prezidenti seçildi, əslində bütün hakimiyyət yenə də S.Miloşeviçin əlində cəmlənmişdir.

1997-ci ildə Çernoqoriyada dövlətin başçısı vəzifəsinə hökumətin sədri Milo Cukanoviç öz namizədliyini irəli sürdüyü üçün prezident M.Bulatoviçlə aralarında ziddiyyət yarandı. 1997-ci ilin oktyabrında prezident seçkilərində ikinci turdan sonra cüzi səs üstünlüyü ilə M.Cukanoviç qalib gəldi. 1998-ci ildən YRİ-nın Baş naziri olan M.Bulatoviç M.Cukanoviçin qələbəsini qəbul etmirdi. Buna cavab olaraq, Çernoqoriyanın yeni rəhbərliyi S.Miloşeviç rejimin ölkədəki islahatlara maneçilik törətməsi ittihamı ilə ittifaqın tərkibindən çıxmağı nəzərdə tuturdu. İlk addım kimi Çernoqoriya öz "xüsusi" valyutası olan alman markasını dövriyyəyə buraxdı.

Yuqoslaviya İttifaq Respublikası Kosovo albanlarına qarşı mübarizəsi BMT Təhlükəsizlik Şurasının sanksiyaları altında davam etdirirdi. Belqrad Kosovoya yeni hərbi qüvvələr göndərərək albanların azadlıq mübarizəsinin qarşısını almağa cəhd edirdi. Bunun qarşısını almaq məqsədilə Kosovo albanlarının silahlı dəstələri 1996-cı ildə Haşim Taçinin komandirliyi ilə Kosovo Azadlıq Ordusunda birləşdi. Kosovo münaqişəsini həll etmək məqsədilə Belqradın razılığı ilə ATƏT-in nümayəndələri keçmiş Yuqoslaviya üzrə əlaqə qrupunun vasitəçiliyi ilə münaqişədə iştirak edən tərəflər arasında 1998-ci ildə Paris yaxınlığında Rambuye qəsəbəsində danışıqlar baş tutdu. Danışığın təşkilatçılarının təzyiqi ilə 5 bənddən ibarət hazırlanmış sənədi Kosovo albanları imzaladı, amma Serbiya bu sənədə imza atmadı. Rambuye siyasi sazişi Kosovo albanlarına geniş muxtariyyət verilməsi və bu sazişdən irəli gələn vəziyyətləri xarici qoşunların nəzarəti altında yerinə yetirilməsi nəzərdə tutulurdu. 1999-cu il mart ayındakı danışıqların ikinci turu da serblərin mövqeyi üzündən heç bir nəticə vermədi.

Kosovoda isə qarşılıqlı silahl münaqişə getdikcə daha qanlı xarakter alırdı. Kosovo Azadlıq Ordusu birləşməsini ləğv etmək üçün YRİ-nın rəhbərliyi Kosovaya 40 minlik serb hərbi kontingenti yeritdi. Hərbi əməliyyatlardan qaçan alban ailələri Albaniya və Makedoniyaya, sonra isə İtaliyaya sığınaraq qaçqın düşərgələrində toplaşdılar. Kosovoda silahlı hərbi əməliyyatların qarşısını almaq məqsədilə 1999-cu il martın 24-də NATO YİR-na qarşı "Həlledici qüvvə" adı altında hərbi əməliyyat başladı. NATO hərbi qüvvələri Serbiya ərazisindəki hərbi obyektləri təyyarələrdən atılan bombalar, aviakreyserlərdən buraxılan raketlər vasitəsilə bombaladı. Hava limanları, Belqrad, Priştina, Pançevo və b. şəhərlərdəki hərbi obyektlər, strateji əhəmiyyətli xətt və körpülər dağıdıldı. Balkanlardakı hadisələri nəzarətdə saxlayan Rusiya Federasiyası NATO ilə əməkdaşlığı dayandırdı, Rusiya prezidenti B.Yeltsin V.Çernomirdini Yuqoslaviya böhranının həlli üzrə xüsusi nümayəndə təyin edərək aprelin sonunda Belqrada göndərdi.

Uzun və çoxtərəfli Belqrad danışıqları vaxtı S.Miloşeviç sülhyaratma qüvvələrinin BMT bayrağı altında Kosovaya daxil olmasına razı olduğunu bildirdi. Rusiya beynəlxalq təhlükəsizlik qüvvələrinin tərkibinə 5 min əsgər göndərəcəyini bildirdi. 1999-cu il iyunun 10-da 200 nəfərlik rus batalyonu Bosniyadan Kosovaya gələrək Priştina yaxınlığındakı hava limanında yerləşdi. İyunun 11-də İngiltərənin hərbi qüvvələri Priştinaya gəldi. NATO qüvvələrinin Kosovaya daxil olması ilə birlikdə qaçqın albanlar öz doğma yerlərinə qayıtdılar. Artıq Kosovoda yaşayan serblər oranı tərk etməyə başladılar.

1999-cu il iyunun 20-də serb hərbi hissələri və polis Kosovodan tamamilə çıxarıldı, müharibə başa çatdı. 98 gün davam edən əməliyyat nəticəsində 2 min nəfərdən çox yuqoslav vətəndaşı həyatını itirdi, Belqrad da daxil olmaqla ölkə ərazisinin böyük hissəsi hava hücumuna məruz qaldı, çoxlu hərbi və vətəndaş obyekti dağıdıldı, BMT TŞ-nın 1244 saylı qətnaməsinə müvafiq olaraq Kosovo faktiki beynəlxalq silahlı qüvvələrin, xüsusilə NATO gücünün və BMT-nin vətəndaş missiyasının protektoratlığı altına keçdi. Kosovo Azadlıq Ordusu Kosovo müdafiə korpusuna çevrildi. 220 min nəfərdən çox qeyri alban əsilli insan, xüsusilə serblər Kosovonu tərk etdi. Müharibə başa çatdı, lakin münaqişəni yaradan qarşılıqlı ziddiyyətlərin hamısı həll edilmədi.

2000-ci ilin iyulunda YRİ-nın parlamenti ölkənin konstitusiyasına dəyişiklik edərək prezidentin ümumxalq səsverməsi yolu ilə seçilməsini irəli sürdü. Bu əslində S.Miloşeviçin yenidən ölkə prezidenti seçilməsinə hesablanmış bir addım idi. 2000-ci ilin sentyabrında YRİ-da parlament və prezident seçkiləri oldu S.Miloşeviçin hakim serb Sosialist partiyasına qarşı müxtəlif yönümlü 18 partiyanin daxil olduğu Serbiya Demokratik müxalifəti, onun lideri Voislav Koştunitsa mübarizə aparırdı. Seçkilərdə Serbiya Demokratik müxalifəti qələbə çaldı. Prezident seçkiləri S.Miloşeviçin xeyrinə saxtalaşdırıldığı üçün 2000-ci il oktyabrın 5-də Belqrad və başqa sahələrdə kütləvi çıxışlar oldu. Bundan sonra Mərkəzi Seçki Komissiyası elan etdi ki,V.Koştunitsa birinci turda 50,24 faiz səs toplayaraq qalib gəlib. 2000-ci il oktyabrın 7-də V.Koştunitsa YRİ-nın yeni prezidenti elan olundu. 2000-ci ilin dekabrında Serbiya Parlamentində keçirilən seçkidə Serbiya Demokratik müxalifətinin kölgə lideri, Demokratik partiyanın sədri Zoran Cinciç qalib gələrək Baş nazir oldu. 2001-ci ilin iyununda Serbiya YRİ vəd edilən bir milyard dollar maliyyə köməyi müqabilində S.Miloşeviçi Haaqa tribunalarına təslim etdi, o, isə 2006-cı ildə həbsxanada xəstəlikdən vəfat etdi.

2002-ci il martın 14-də YRİ, Serbiya və Çernoqoriya vahid ittifaq dövlətinə birləşmək haqqında Avropa İttifaqının hazırladığı sazişi imzaladılar. Yeni dövlət Serbiya və Çerno-qoriya Birliyi adlandı. Birpalatalı parlament, prezident, nazirlər şurası və məhkəmə vahid orqanlar elan olundu. Skupşinanın seçdiyi prezident Nazirlər Şurasının tərkibini təqdim edir və ona rəhbərlik edirdi. Vahid ordu Serbiya və Çernoqoriya prezidentindən, respublikaların rəhbərlərindən ibarət Ali müdafiə şurasına tabe idi. Beynəlxalq təşkilarlarda serblər və çernoqoriyalılar bərabərlik əsasında təmsil olunurdular. 2003-cü il fevralın 4-də 11 ilə kimi fəaliyyət göstərən və S.Miloşeviçin adı ilə bağlı olan Yuqoslaviya Respublika İttifaqI öz fəaliyətini dayandırdı.Yuqoslaviya adı tarixə çevrildi. Yeni dövlət Serbiya və Çernoqoriya (S və Ç) Birliyi meydana gəldi, Çernoqoriyadan olan Svetozar Maroviç onun prezidenti seçildiş. YRİ-nın prezidenti V.Koştunitsa vəzifəsini itirdi.

2003-cü ilin martında serb baş naziri Z.Cinciç suiqəsd nəticəsində öldürüldü. Zoran Jivkoviç Çinciçin yerinə baş nazir və Demokratik partiyanın lideri seçildi. Onun hakimiyyəti dövründə cəmiyyətdə və xalq təsərrüfatında əhəmiyyətli islahatlar aparmaq mümkün olmadı. İşsizlik, hakimiyyətin qarışdığı korrupsiya qalmaqalı vəziyyəti daha da ağırlaşdırdı. 2003-cü ilin noyabrında Serbiya Skupşinası buraxıldı. 2003-cü ilin dekabrında Serbiya parlamentinə seçkilər oldu. Serbiya Demokratik partiyasının lideri V.Koştunitsa koalisiya hökuməti təşkil etsə də Skupşina deputatlarının çox hissəsinin səsini ala bilmədi. 2004-cü ilin iyunundakı prezident seçkilərində isə Demokratik partiyanın lideri Boris Tadiç qələbə çaldı.

2001-ci ilin mayında BMT missiyası Kosovoda "Kosovoda müvəqqəti özünüidarənin konstitusiya çərçivəsini" təsdiq etdi ki, bunun da əsasında noyabr ayında Kosovo parlamen-tinə seçki keçirildi. Kosovo Demokratik liqasının lideri İbrahim Ruqova özünün əsas rəqibi

Kosovo Demokratik partiyasının rəhbəri Haşim Taçiyə qalib gələrək Kosovanın prezidenti oldu. Baş nazir isə H.Taçinin partiyasından Bayram Rəcəpi oldu. 2006-cı ildə Kosovonun gələcək İttifaqının nümayəndəsi, vaxtilə xorvat ordusu tərkibində serblərlə vuruşan, sonra Kosovo müdafiə ordusuna başçılıq edən general Aqim Çeku Kosovonun Baş naziri seçildi. Yenə həmin il vəfat edən Kosovonun prezidenti İ.Ruqovanın yerinə Fatmir Seydi seçildi.

2006-cı il mayın 21-də keçirilən referendumda Çernoqoriya əhalisinin 55,5 faizi respublikanın müstəqilliyinə səs verdi. 2006-cı il iyunun 3-də Çernoqoriya, iyunun 5-də Serbiya dövlət müstəqilliyini elan etdi. Serbiya və Çernoqoriyanın 88 illik birgə tarixi başa çatdı.

2006-cı il iyunun 3-də tam müstəqillik əldə edən Çernoqoriyanın (Qaradağın) 2014-cü il məlumatına əsasən əhalisi 621 518 nəfər, ərazisi 13 812 km$^2$-dir. Ölkənin torpaqlarını Adriatik dənizinin suları yuyur. Çernoqoriya Respublikasının quru sərhədləri qərbdən Xorvatiya, şimali-qərbdən Bosniya və Herseqovina, şimali-şərqdən Serbiya, şərqdən Kosovo, cənub-şərqdən Albaniya ilə qonşudur.

Çerneqoriyanın prezidenti Filip Vuyanoviç və Baş nazir Milo Cukanoviç 2003-cü ildə meydana gələn Serbiya və Çernaqoriya Birliyinin iki müstəqil dövlətə ayrılması ideyası ilə çıxış edərək ölkə əhalisinin dəstəyi nəticəsində 2006-cı il iyunun 3-də Çernoqoriyanın müstəqilliyinə nail oldular. 2006-cı il iyunun 15-də Serbiya Çernoqoriyanın müstəqilliyini tanıdı, iyunun axırlarında ölkə BMT-yə üzv qəbul olundu. 2007-ci il oktyabrın 20-də müstəqil Çernoqoriyanın Konstitusiyası qəbul edildi. Konstitusiyanın birinci maddəsinə əsasən Çernoqoriya qanunların aliliyi və sosial ədalət prinsipinə əsaslanan azad, demokratik dövlətdir. Ali qanunvericilik hakimiyyəti Skupşinaya, icraedici hakimiyyət prezident və hökumətə məxsusdur. Prezident ümumi və gizli səsvermə ilə beş il müddətinə seçilirdi. 2008-ci ilin aprelindən müasir adı ilə Monteneqro Respublikasının ( Qaradağ- Çernoqor) prezidenti vəzifəsini Filip Vuyanoviç tutur. Bir palatadan ibarət olan Skupşina ümumxalq səsverməsi ilə 4 il müddətinə 81 nəfər deputatdan ibarət seçilir. Alban azlığına 5 deputat yeri nəzərdə tutulurdu. Hökumət (Vlada) prezidentin təklifi ilə Skupşina tərəfindən təsdiq olunaraq icraedici səlahiyyətləri yerinə yetirir. Respublikanın ərazisi 21 munisipalitetə bölünür. Onlar isə öz növbəsində vilayət və icmalardan ibarətdir.

Bazar iqtisadiyyatına əsaslanan Monteneqronun sənayesi Nikşiç qara metallurgiya, Podqoritsada aliminium, Şetsində elektrotexnika, Bielo Poledə toxuculuq, Roje, Berane, Plevlyada ağac emalı, Billa və Barda gəmiquraşdırma və gəmi təmiri üzrə ixtisaslaşmışdır. Ölkənin yeraltı mədənlərindən boksid, dəmir filizi, kömür çıxarılır. 2013-cü ilin məlumatına görə ümumi daxili məhsul həcminin 21,2 faizi sənaye istehsalına, 70,5 faizi xidmət sahəsinə, 8,3 faizi kənd təsərrüfatına düşürdü. Ölkə əhalisinin 17,9 faizi sənaye, 5,3 faizi kənd təsərrüfatı, 76,8 faizi xidmət sahəsində çalışırdı. Əhalinin 18,5 faizi işsizdir. 2014-cü ilin məlumatına əsasən dövlət büdcəsinin gəliri 1,56, çıxarı isə 1,63 milyard ABŞ dolları olmaqla büdcə kəsiri 1,5 faiz təşkil edir. Ümumən iqtisadiyyatın artım surəti 2013-cü ildə 4,5 faiz olmuşdur. Monteneqro Respublikasının pul vahidi avrodur, lakin dövlət Aİ-nin üzvü olmadığı üçün əsasən xarici ölkələrdən, xüsusilə turizmdən Respublikaya daxil olan pul kütləsi ilə kifayətlənməyə məcburdur. Təkcə 2014-cü ildə ölkə turizmdən ümumi daxili məhsulun 20 faizi həcmində gəlir əldə etmişdir. Kənd təsərrüfatı sahəsində dənli bitkilər, kartof, tütün, üzüm, zeytun, sitrus meyvələri yetişdirilir.

2006-cı ildə müstəqillik qazandıqdan sonra Çernoqoriya (Qaradağ) BMT-nin üzvü olan 179 dövlət ilə diplomatik münasibət yaratmışdır. 2014-cü ilin martından Monteneqro Respublikası Aİ-na daxil olmağa rəsmi namizəd statusu almışdır. Xarici siyasət sahəsində Monteneqro Respublikası NATO ilə yaxınlaşma xətti yeridir.

2008-ci ildə müstəqil Serbiya Respublikasında baş tutan prezident seçkilərində Voislav Şeşelin Serb Radikal partiyasının namizədi Tomislav Nikoliçi qabaqlayan Boris Tadiç yenidən prezident seçildi. 2004-2008-ci illərdə Serbiya hökumətinin baş naziri, Serbiya Demokratik partiyasının lideri Voislav Koştunitsa və prezident Boris Tadiçin Avropa İttifaqı ilə inteqrasiya siyasəti, 2012-ci il martın 1-də Serbiya Respublikasının Aİ-na daxil olmağa rəsmi namizəd statusunu alması ilə nəticələndi.

2008-ci il fevralın 17-də Kosovo özünün müstəqilliyini elan etdi, tezliklə ABŞ və Avropa ölkələrinin bir hissəsi onu tanıdı. Serbiya Respublikasının və onu müdafiə edən Rusiya, Çin, Hindistan və b. Kosovonun müstəqilliyini qeyri-qanuni hesab etmələrinə baxmayaraq BMT-yə daxil olan 193 dövlətdən 2014-cü il avqustun 14-nə olan məlumata əsasən 108 dövlət onun müstəqilliyini tanımışdır. 2008-ci ildə qəbul edilən Konstitusiyaya görə Kosovo parlament tipli unitar Respublikadır. Dövlətin başçısı parlament tərəfindən seçilmiş prezidentdir. Ölkənin hazırda prezidenti Atifete Yahyaqadır. İcraedici hakimiyyətin rəhbəri Baş nazir İsa Mustafadır. 2,2 milyon nəfər əhalisi olan Kosovonun ərazisi 10 887 $kv^2$-dir. Əhalinin 90 faizini albanlar təşkil edir. Kosovo Mitrovitsesi milli mərkəz olmaqla Serb əhalisi ölkədə yüz min nəfər (6%) təşkil edir.

Serbiyada prezident hökumət qarşıdurması nəticəsində 2008-ci il martın 13-də prezident parlamenti buraxdı, növbədənkənar seçkilər oldu. "Avropa Serbiyası uğrunda" demokratik partiyası səslərin 40 faizini alaraq qalib gəldi. Voislav Şeşelin Radikal partiyası təxminən 30 faiz, Voislav Koştunitsanın Serbiya Demokratik partiyası 12 faiz seçici səsi topladı. 2008-ci il iyunun 27-də maliyyə naziri Mirko Svetkoviç hökumətin sədri seçildi.

2012-ci il mayın 6-da növbəti Serbiya Respublikasının prezident və parlament seçkiləri baş tutdu. Boris Tadiçlə Serb Radikal partiyasının başçısı Voislav Şeşelin keçmiş müavini Tomislav Nikoliçin yarışdığı marafonu ikinci turda seçicilərin 49,4 faizinin səsini əldə edən Tomislav Nikoliç qazanaraq Serbiya Respublikasının yeni prezidenti oldu.

Parlament seçkilərində Serbiya Mütərəqqi partiyası 73, Demokratik partiya 67, Serbiya Sosialist partiyası – Təqaüdçülər partiyası – Vahid partiya 44, Serbiya Demokratik partiyası 21, Liberal-Demokratik partiya 20, Serbiya Birləşmiş Regionlar 16, Milli Azlıq partiyası 10 nəfər deputat mandatı qazanaraq Skupşinada öz yerlərini aldılar. Serbiya Skupşinasının sədri Maya Qoykoviç, Baş nazir Aleksandr Vuçiçdir.

## Makedoniya

Makedoniya Respublikası Cənubi-Şərqi Avropanın Balkan yarmadasında yerləşir. Ölkə Şimaldan Kosovo Respublikası və Serbiya ilə, qərbdən Albaniya ilə, cənubdan Yunanıstanla, şərqdən isə Bolqarıstanla həmsərhəddir. Qədim Makedoniya dövlətinin tarixi vilayəti olan Egey Makedoniyası müasir Yunanıstanın ərazisinə daxil olub tarixi Makedoniyanın 52,4 faiz ərazisini əhatə edir. Qədim Makedoniya dövlətinin tarixi ərazisi olan Pirin Makedoniyası 9,6 faiz ərazi ilə Bolqarıstanın topaqlarına daxildi. Müstəqil Makedoniya Respublikası Qədim Makedoniya dövlətinin tarixi ərazisinin 35,8 faizinə sahibdir. Ümumən tarixi Makedoniya torpaqlarında yaşayan əhalinin təqribən 40,9 faizi müstəqil Makedoniya ərazisində məskunlaşıb.

1990-cı ilin sentyabrında Makedoniyada ilk çoxpartiyalı seçki keçirildi. Sol siyasi istiqaməti Makedoniya Kommunistlər İttifaqının rəhbərlik etdiyi Demokratik Dəyişikliklər partiyası, milli istiqaməti Ümummakedon İnqilabi Təşkilatı, Makedoniya Demokratik partiyası Milli Birliyi, alban Demokratik Aydınlıq partiyası təmsil edirdi. Heç bir partiya seçkilərdə mütləq səs çoxluğu qazana bilmədiyi üçün Nikolay Klyusevin sədrliyi ilə birinci koalisiya hökuməti təşkil edildi. 1991-ci ilin yanvarında keçirilən prezident seçkilərində köhnə kommunist funksioneri Kiro Qliqorov (1991-1999) ölkə prezidenti vəzifəsinə sahib oldu.

1991-ci ilin sentyabrında keçirilən referendumda əhalinin böyük əksəriyyəti müstəqilliyə səs verdi, sentyabrın 17-də Makedoniya müstəqil dövlət elan olundu. Bir ay müddətində ölkənin yeni Konstitusiyası qəbul edildi, Makedoniya Respublikasının dövlət quruluşu parlamentli Respublika formasında təsbit edildi. Sənədə əsasən dövlətin başçısı prezident elan olundu ki, o da 5 il müddətinə iki dəfə ardıcıl olmaqdan artıq seçilə bilməzdi. Prezident dövlətin silahlı qüvvələrinin ali baş komandanı vəzifəsini icra edir, dövləti beynəlxalq aləmdə təmsil etmək hüququna malik olub, xarici siyasət xəttini müəyyənləşdirir. Prezident yeni seçilmiş parlament təsis olunduqdan sonra 10 gün müddətinə qalib gəlmiş partiya və ya bloka baş nazirin namizədliyini irəli sürməsinə mandat təqdim etməyə borcludur. Baş nazir hökumətin tərkibini və proqramını təsdiq üçün parlamentə təqdim edir. Təkpartiyalı parlament

qanunlar, o cümlədən konstitusiya qanunu verir, büdcə və vergini müəyyən edir, beynəlxalq müqavilələri təsdiq edir, dövlət sərhədlərinin müəyyən edilməsi məsələsini həll edir.

1992-ci ilin fevralında Makedoniya ilə dağılmaqda olan YSFR arasında qoşunlarını respublikanın ərazisindən çıxarılması haqqında müqavilə imzaladı ki, bununla da Makedoniya Yuqoslaviya xalq ordusu ilə toqquşmadan qaçmış oldu. 1993-cü ilin aprelində Makedoniya, Yunanıstanın eyniadlı ərazisi üzündən BMT-na "Keçmiş yuqoslav respublikası Makedoniya" adı ilə qəbul edildi. Başqa bir məsələ 2 milyon nəfər əhalisinin dörddə biri albanlardan ibarət olan Makedoniyanın albanlarla olan gərginlikdir. 1993-cü ilin dekabrında Serbiya ilə sərhəd boyu 1500 nəfərlik BMT hərbi kontingenti yerləşdirlmişdir. 1999-cu ildə isə BMT-nin kontingenti Kosovo hadisələri ilə əlaqədar 14 minlik NATO qüvvələri ilə əvəz edilmişdir.

1994-cü ilin payızındakı seçkilərdə "Makedoniya Uğrunda İttifaq" qalib gəldi, 1992-ci ildən Baş nazir vəzifəsini tutan sosial demokratların lideri Branko Srvenkovski yeni koalisiyaslı hökumət yaratdı. 1999-cu ildəki prezident seçkilərində Ümummakedon İnqilabı Təşkilatı, Demokratik Makedoniya Milli Birlik partiyasının namizədi Boris Traykovski (1999-2004) dövlət başçısı oldu. Bu təşkilatın təsisçisi Lyubço Georgiyevski Baş nazir oldu. Hökumətin tərkibindəki 14 nazir vəzifəsinin 5-i albanlar oldu.

2001-ci ilin mart-avqust ayarında Alban milli azadlıq ordusu Əli Əhmədinin liderliyi ilə xüsusilə Makedoniyanın Tetovo rayonunda Makedon nizami ordusuna qarşı hərbi partizan əməliyyatlarına başladı. 2001-ci ilin yayında Makedoniyanın şimali-qərbində albanlarla hökumət qoşunları arasında toqquşmalar şiddətləndi. Xüsusilə Kosovodan Makedoniyaya keçən albanlar müxtariyyət tələbi ilə əhalini dövlətə qarşı mübarizəyə çağırırdılar. Makedoniya hökuməti terrorizmin və separatizmin qarşısını almaq məqsidilə 2001-ci ilin mayında ilk dəfə olaraq bütün partiyaların təmsil etdiyi hökumət formalaşdırdı. Lakin vəziyyəti normalaşdırmaq mümkün olmadı.

2001-ci il avqustun 13-də prezient B.Traykovski kurort şəhəri Oxriddə albanlarla ABŞ, NATO, Aİ, ATƏT-in vasitəçiliyi ilə böhranın siyasi həllinə dair müqavilə imzaladı. Bu sənədə əsasən Makedoniyanın Konstitusiyasından makedon millətinin əsas xalq olması fikri çıxarılmalı, alban dili rəsmi dövlət dili statusu alaraq 20 faizdən çox alban yaşayan yerlərdə rəsmi dil kimi tətbiq olunurdu. Məhkəmə, dövlət orqanları, polisdə işləyən albanların sayını artırmaq nəzərdə tutulurdu. Prosesə nəzarət etmək məqsədilə Makedoniyaya NATO-nun 3,5 min nəfərlik kontingenti göndərildi. 2003-cü ilin dekabrında bu kontingenti Avropa İttifaqının vətəndaş-polis missiyası əvəz etdi.

2002-ci ilin sentyabrında Makedoniyada parlament seçkiləri oldu. Seçkidə "Makedoniya ilə birlikdə" müxalifətçi koalisiya Makedoniya Sosial Demokratik İttifaqının başçılığı ilə qələbə çaldı. Partiyanın lideri B.Srvenkovski yenidən hökumətə başçılıq etdi. 2004-ci ilin fevralında Makedoniyanın prezidenti B.Traykovskinin təyyarə qəzasında faciəli ölümündən sonra növbədənkənar prezident seçkiləri keçirildi. Baş nazir B.Srvenkovski Makedoniyanın üçüncü prezidenti seçildi. Hökumətə isə onun partiya yoldaşı Xari Kostov başçılıq etdi. 2004-cü ilin noyabrında alban deputatlarla dil tapa bilməyən X.Kostov istefaya getdi. Yeni hökumətə isə Makedoniya Sosial Demokratlar İttifaqının lideri Vlado Buçkovski başçılıq etdi.

2002-ci ildə əhalini siyahıyaalma kampaniyasının nəticələrinə görə Makedoniya Respublikasının əhalisi 2022547 nəfər təşkil edirdi. Bunların da 1297083 nəfəri, yəni 64,18 faizi makedon, 509083 nəfəri, yəni 25,17 faizi alban idi. Əhalinin qalan hissəsini türklər, qaraçılar, serblər, bosniyalılar və sair təşkil edirdi. Makedoniya Respublikasının paytaxtı Skopyedə 467257, Bitolada 80550, Kumanovada 70842 nəfər əhali yaşayırdı.

Makedoniya Avropanın ən kasıb ölkələrindən biri kimi işsizliyin iş qabiliyyəti olan əhalini 40 faizini təşkil etməsi ilə də xarakterik idi. Əhalinin üçdəbir hissəsindən çoxu yoxsulluq həddində yaşayır. Ölkənin yeraltı mədənlərində xrom, mis, qurğuşun, dəmir, marqans çıxarılır. Qara və əlvan metalurgiya, maşınqayırma, dərman-kimya, yüngül və qida sənayesi inkişaf etmişdir. Ölkənin pul vahidi makedon dinarıdır. Makedoniya ərazisindəki albanların çıxışları, Yuqoslaviaya qarşı tətbiq olunan sanksiyalar, Yunanıstanın Salonik limanlarının makedon gəmiləri üçün bağlanması ölkənin onsuz da bərbad vəziyyətdə olan iqtisadiyatını

daha da tənəzzülə uğratmışdır.

Xarici siyasət sahəsində müstəqil Makedoniyanın qarşısında bir sıra vəzifələr dayanır. 1993-cü ildə dövlətin adı ilə bağlı Yunanıstanla əldə edilən kompromis qərar nə Skopyeni, nə də Afinanı qane edir. Albaniya ilə münasibət makedon albanları üzündən gərgin olaraq qalır. Serb kilsəsi makedon pravoslav kilsəsinin müstəqilliyini tanımır, bu isə dünya pravoslovları içərisində makedonların dini nüfüzuna zərər gətirir. Ölkə əhalisinin 67 faizə qədəri makedoniya pravoslav kilsəsinə, 30 faizi isə müsəlmanliğa inanır. Makedoniyada 1200 pravoslav məbədi və monastır, 425 məscid vardır. 1999-cu ildə Makedoniya ilə Bolqarıstan arasında mehriban qonşuluq prinsiplərini təsdiq edən birgə bəyənnamə imzalanmışdır.

Makedoniya dövləti xarici siyəsət xəttində NATO və Avropa İttifaqi ilə yaxınlaşmaq yolunu seçib. 1999-cu ildə Makedoniya öz ərazisində NATO qüvvələrinə YRİ-na qarşı hava hücumları təşkil etməyə icazə vermişdi. Makedoniya NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının fəal üzvlərindən biridir. Makedoniyanın hərbi qüvvələri koalisiyanın tərkibində İraq müharibəsində iştirak etmişdir.

Makedoniyanın Avropa İttifaqı ilə əlaqələri sıx inkişaf edir. Təsadüfi deyil ki, 1997-ci ildə Aİ Makedoniyanı Albaniya, Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina ilə birlikdə qərbi balkan beşliyinə daxil etmişdir. 1999-cu ildə bu ölkələrə güzəştli siyasi və iqtisadi şərait təklif edilmişdir. Bunun ardınca Aİ cənubi-şərqi Avropa üçün sabitlik Paktın qəbul etdi ki, bu da möhkəm sülh və demokratik siyasi sistemi təmin etməklə azad bazar şəraitində regionun Avropa dövlətləri ilə yaxınlaşmasına şərait yaratmalıdır.

Parlament Respublikası olan Makedoniyanın 2009-cu ildən prezidenti Georgi İvanovdur. 2006-cı ildən ölkənin Baş naziri təyin edilən Nikolo Qruevski hakim mühafizəkar Makedoniya Daxili İnqilabi Təşkilatı – Makedoniya Milli Birliyi Uğrunda Demokratik partiyanın namizədi kimi 2014-cü il iyunun 19-da dördüncü kabineti təşkil etmişdir. Ölkə parlamentinə Trayko Velyanovski başçılıq edir.

# ƏSAS ƏDƏBİYYAT

1. Авторитарные режимы в Центральной и Восточной Европе (1917-1990-е годы). М.: Институт славяноведение РАН, 1999, 237 с.
2. Аляев А.В. Политические процессы в Польше в переходный период: опыт трансформации внутренней и внешней политики в 1989-1998 гг. М.: Библиогр, 2003, 170 с.
3. Барсенков А.С., Вдовин А.И. История России. 1917-2009. М.: Аспект Пресс, 2010, 846 с.
4. Боффа Дж. История Советского Союза. Т.1-2, М.: Международные отношения, 1990, 627 с.
5. Валев Л.Б. Исследования по новой и новейшей истории Болгарии. М.: Наука, 1986, 256 с.
6. Васильева Н., Гаврилов В. Балканский тупик?: Историческая судьба Югославии в XX веке. М.: Гея итэрум, 2000, 497 с.
7. Vəliyev T.T., Şahmuradov A.Ş. Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri) Bakı: Vətən nəşriyyatı, 2012, 565 s.
8. Верт Н. История советского государства. 1900-1991: Пер. с фр. 2-е изд. М.: Прогресс-Академия, 1998, 480 с.
9. Волков В.К. Узловые проблемы новейшей истории стран Центральной и Юго-Восточной Европы. М.: Индрик, 2000, 367 с.
10. Восточная Европа на историческом переломе. Очерки революционных преобразований 1989-1990 гг. М.: Институт славяноведения и балканистики АН СССР, 1991, 339 с.
11. "Восточноевропейский социализм". Становление режима, попытки его модификации, причины краха. М.: Институт славяноведения и балканистики РАН, 1992, 198 с.
12. Вторая мировая война: Актуальные проблемы. М.: Наука, 1995, 368с.
13. Гордон Л.А., Клонов Э.В. Что это было?: Размышления о предпосылках и итогах того, что случилось с нами в 30-40-е годы. М.: Политиздат, 1989, 319 с.
14. Гусейнова Л.Дж. Тоталитаризм в странах Центральной и Восточной Европы.1945-1989. Баку.: MBM, 2015, 344 с.
15. Данилов А.А., Косулина Г.Г., Брандт М.Ю. История России. XX-начало XXI века. М.: Просвещение, 2006, 400 с.
16. Движение Сопротивление в странах Центральной и Юго-Восточной Европы,1939-1945. М.: Радикс, 1995, 547 с.
17. Демократическое правовое государство и гражданское общество в странах Центрально-Восточной Европы. М.: Наука, 2005, 181с.
18. Драма российской империи: Большевики и революция. М.: Новый хронограф, 2002, 456 с.
19. Dıbkovskaya A., Jarın M., Jarın Y. Polşa tarixi. Ən qədim zamanlardan bu günlərimizədək / Tərc.ed. Habil Məmmədov. Bakı.: Mütərcim, 2010, 378 s.
20. Европа между миром и войной. 1918-1939. М.: Наука, 1992, 219 с.
21. Жарова Л.Н. , Мишина И.А. История Отечества. М.: Просвещение, 1992, 335 с.
22. Жуков Г.К. Воспоминания и размышления: В 3-т. М.: Олма-Пресс,1987, 415 с.
23. Зуев М. История России. М.: Дрофа, 2000, 479 с.
24. Исмаилов Э.Р. Очерки истории России советского периода. Баку: Зия-Нурлан, 2008, 248 с.
25. История международных отношений и внешней политики СССР.1917-1987.Т.1-3. М.: Междунар. отношения, 1987, 413 с.
26. История России: учеб/А.С.Орлов, В.А.Георгиев, Н.Г.Георгиева, Т.А.Сивохина. 3-е изд., М.: Проспект, 2006, 525 с.
27. История южных и западных славян: В 2 т. Т. 2: Новейшее время: Учебник/ Под.ред. Г.Ф Матвеева и З.С.Ненашевой. М.: МГУ, 2008, 368 с.
28. Короткевич В.И. История современной России. 1991-2003: Учеб.пособие. СПб.: Издательство С.-Петербургского университета, 2005, 296 с.
29. Краткая история Болгарии. С древнейших времен до наших дней. М.: Наука,1987, 558 с.
30. Краткая история Польши. С древнейших времен до наших дней. М.: Наука, 1993, 528 с.
31. Краткая история Чехословакии. С древнейших времен до наших дней. М.: Наука, 1988, 576 с.
32. Кривогуз И.М. Крушение «реального социализма» в Европе и судьба освободившихся народов. М.: Синергия, 2001, 198 с.
33. Круталевич В.А. На путях самоопределения: БНР-БССР-РБ. Минск.: Право и экономика, 1995, 139 с.
34. Кузнецов Д.В. Югославский кризис: взгляд сквозь призму общественного мнения. М.: Мягкая обложка, 2009, 344 с.
35. Лебедева Н.С. Катынь: преступление против человечества. М.: Культура, 1994, 352 с.

36. Литвин А. Красный и белый террор в России.1918-1922 гг. М.: Эксмо, 2004, 174 с.
37. Медведев Р. Советский Союз. Последние годы жизни. М.: АСТ, 2010, 640 с.
38. Məmmədov H.N. Bolqarıstan tarixi. Dərslik. Bakı: Elm və təhsil, 2009, 272 s.
39. Məmmədov H.N. Ukraynanın müasir tarixi (XX əsrin sonları-XXI əsrin əvvəlləri). Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2009, 180 s.
40. Москва и восточная Европа. Становление политических режимов советского типа (1949-1953). Очерки истории. М.: РОССПЭН, 2002, 686 с.
41. Мюнхен-преддверие войны. Исторические очерки. М.: Наука, 1988, 312 с.
42. Наше отечество. Опыт политической истории. В двух томах. М.: Терра, 1991, 392 с.
43. Нэп: взгляд со стороны. М.: Московский рабочий, 1991, 302 с.
44. Октябрь 1917 г.: величайшее событие века или социальная катастрофа? М.: Политиздат, 1991, 240 с.
45. Орехов А. М. Советский Союз и Польша в годы "оттепели": Из истории советско-польских отношений. М.: Индрик, 2005, 328 с.
46. Орлов А.С., Георгиев В.А., Георгиева Н.Г., Сивохина Т.А Хрестоматия по истории России. М.: Проспект, 2001, 535 с.
47. Пихоя Р. Москва. Кремль. Власть. Сорок лет после войны. 1945-1985. М.: Русь-Олимп: Астрель, 2007, 720 с.
48. Пихоя Р. Москва. Кремль. Власть. Две истории одной страны. Россия на изломе тысячелетий. 1985-2005. М.: Русь-Олимп : Астрель, 2007, 546 с.
49. Политические системы СССР и стран Восточной Европы, 20-60-е годы. М.: Наука,1991, 253 с.
50. Послевоенная Восточная Европа. Экономические ориентиры и политические коллизии. М.: Наука,1995, 335 с.
51. Реабилитация народов и граждан. 1954-1994. Документы. М.: ИЭИА, 1995, 304 с.
52. Реабилитация: Политические процессы 30-50-х годов. М.: Политиздат, 1991, 464 с.
53. Романенко С.А. Югославия: история возникновения, кризис, распад, образование независимых государств. М.: Издат. центр науч. и учеб. программ, 2000, 496 с.
54. Россия нэповская. М.: Новый хронограф, 2002, 446 с.
55. Сервис Р. Ленин. Минск. : Попурри, 2002 ,129 с.
56. Советская внешняя политика в годы «холодной войны». 1945-1985 гг. Новое прочтение./ Л.Н. Нежинский и др. М.: Междунар. отношения,1995, 512 с.
57. Современная политическая история России (1985-1997 гг.): Хроника./ Под ред. В.И.Зоркалцева, А.И.Подверезкина.Т.1.М.: Институт славяноведения, 1997, 420 с.
58. Согрин В. Политическая история современной России.1985-1994. М.: Прогресс-Академия, 1994,192 с.
59. Семененко В.И., Радченко П.А. История Украины с древнейших времен до наших дней. 2-е, исправленное и дополненное. Харьков.: Торсинг, 1990, 480 с.
60. Тоталитаризм. Исторический опыт Восточной Европы: «Демократическое интермеццо» с коммунистическим финалом, 1944-1948. М., Наука, 2002 с. 224
61. Тоталитаризм. Исторический опыт Восточной Европы. М.: Наука, 1995, 222 с.
62. Фирсов Е.Ф. Опыт демократии в ЧССР при Томаше Масарике: коалиционный плюрализм (1928-1934). М.: Институт славяноведения, 1997, 200 с.
63. Фрейдзон В. И. История Хорватии: Краткий очерк с древнейших времен до образования республики (1991). СПб.: Алетейя, 2001, 318 с.
64. Хрестоматия по отечественной истории.1914-1945 гг./Под ред. А.Ф. Киселева., Э.М.Щагина. М.: Владос, 1996, 896 с.
65. Хрестоматия по отечественной истории.1946-1994 гг. /Под ред. А.Ф. Киселева., Э.М. Щагина. М.: Владос,1996, 600 с.
66. Центрально-Восточная Европа во второй половине XX века: В 3 т. М.: Наука, 2000,2002 , 461 с.
67. Чехия и Словакия в XX в.: Очерки истории. Т.1-2. М.: Наука, Институт славяноведения РАН, 2005, 453; 558 с.
68. Чешко С.В. Распад Советского Союза: Этнополитический анализ. М.: Наука, 1996, 309 с.
69. Шубин А.В. Парадоксы перестройки. Упущенный шанс СССР. М.: Вече, 2005, 480 с.
70. Экономические реформы в России: итоги последних лет. 1991–1996 / Отв. ред. В.П.Логинов и др. М.: Наука, 1997, 319 с.
71. Эпоха Ельцина: Очерки политической истории. М.: Вагриус, 2001, 815 с.
72. Яковлев А.Н.Омут памяти: От Сталина до Путина: В 2 кн. М.: Демократия, 2001, 480 с.

# ƏLAVƏ ƏDƏBİYYAT


1. Адибеков Г.М. Коминформ и послевоенная Европа. 1947-1956 гг. М.: Россия молодая, 1994, 235с.
2. Алексеев В.М. Варшавское восстание: Варшава в борьбе против гитлеровских захватчико, 1939-1945. СПб.: Академический Проект, 1999, 192 с.
3. Аникеев А.С. Как Тито от Сталина ушел: Югославия, СССР И США в начальный период "холодной войны" (1945-1957). М.: ИС РАН, 2002, 310с.
4. Анфилов В.А. Грозное лето 1941 г. М.: Анкил-воин,1995, 192 с.
5. Белорусская ССР в годы великой отечественной войны Советского Союза (1941-1945) Минск: Изд. Беларусь, 1990, 450 с.
6. Боханов А.Н. Николай II.М.: Молодая гвардия; Русское слово,1997, 446 с.
7. Брежнев Л.И. Материалы к биографии. М.: Политиздат,1991, 384с.
8. Бурлацкий Ф. Вожди и советники. О Хрущеве, Андропове и не только о них. М.: Политиздат, 1990, 384 с.
9. Власть и церковь в СССР и странах Восточной Европы, 1939-1958.М.: Ин-т славяноведения РАН, 2003, 380 с.
10. Волкогонов Д. Семь вождей: Галерея лидеров СССР: В 2 кн. М.: Новости, 1995, 480 с.
11. Волокитина Т.В., Мурашко Г.П., Носкова А.Ф. Народная демократия: миф или реальность? Общественно-политические процессы в Восточной Европы, 1944-1948гг. М.: Наука, 1993, 342 с.
12. Восленский М. Номенклатура. Господствующий класс Советского Союза. М.: Советская Россия, 1991, 624с.
13. Воспоминания генерала барона Врангеля. В 2-хч. М.: Терра, 1992, 467с.
14. Вторая мировая война: Два взгляда. Пер. с англ. М.: Мысль, 1995, 560с.
15. Гайдар Е.Т. Аномалии экономического роста. М.: Евразия, 1997, 215с.
16. Горбачев М. Жизнь и реформы: В 2 т. М.: Новости, 1995, 600 с.
17. Гражданская война в России: Перекресток мнений. М.: Наука, 1994, 377с.
18. Добров П.В. Народное ополчение в годы Великой Отечественной войны. Т.1-2. Донецк.: Доминанта, 1994, 451 с.
19. Зевелев А., Павлов Ю. Расколотая власть.14 дней и ночей гражданской войны в Москве осенью 1993 года. М.: РОССПЭН, 1995, 120 с.
20. Зубкова Е. Послевоенное советское общество: Политика и повседневность 1945-1953. М.: РОССПЭН, 1996, 229 с.
21. Исаев А.П .Уроки советско-польской войны 1920 года. СПб.: Сев.-зап. акад. гос. службы, 1999, 210 с.
22. Карр Э. История Советской России. Кн.1. Т. 1 и 2. Большевистская революция. 1917-1923. М.: Прогресс, 1990, 766 с.
23. Катков Г.М. Февральская революция/ Пер.с англ. М.: Русский путь, 1997, 432 с.
24. Керенский А.Ф. Воспоминания. М.: Культура, 1996, 431 с.
25. Кронштадт. 1921 / Сост. В.П.Наумов, А.А.Косаковский. М.: Демократия, 1997, 432 с.
26. Кузнечевский Д.В. Эволюция югославской концепции социализма. М.: Институт славяноведения и балканистики РАН,1990, 188 с.
27. Латыш М.В.«Пражская весна» 1968 г. и реакция Кремля. М.: Б/и, 1998, 383 с.
28. «Ленинградское дело» / Сост. В.И.Демидов, В.А.Кутузов. Л.: Лениздат, 1990, 413 с.
29. Лубянка: Сталин и главное управление госбезопасности НКВД 1937-1938. Документы. М.: Демократия, 2004, 736 с.
30. Марьина В.В. Закарпатская Украина (Подкарпатская Русь) в политике Бенеша и Сталина, 1939-1945 гг. Документальный очерк. М.: Новый хронограф, 2003, 304 с.
31. Марьямов Г.Б. Кремлевский цензор: Сталин смотрит кино. М.: Киноцентр,1992, 128 с.
32. Мельтюхов М.И. Советско-польские войны: Военно-политическое противостояние, 1918-1939 гг. М.: Вече, 2001, 464с.
33. Меньшевики в 1917 г. В 3-х т. М.: РОССПЭН, 1994-1997 с.712
34. Милюков П. Н. История второй русской революции. М.: Харвест, 2001, 752 с.
35. Морозов С.В. Польско-чехословацкие отношения. 1933-1939. М.: МГУ, 2004, 528 с.
36. Муранов А.И., Звягинцев В.Е. Досье на маршала: Из истории закрытых судебных процессов. М.: Андреевский флаг, 1996, 272 с.
37. На пороге кризиса: Нарастание застойных явлений в партии и обществе./ Под общ. ред. В.В.Журавлева. М.: Политиздат, 1990, 446 с.
38. Несостоявшийся юбилей. Почему СССР не отпраздновал своего 70-летия? М.: ТЕРРА, 1992, 560 с.
39. Никифоров К.В. Между Кремлем и Республикой Сербской (Боснийский кризис: завершающий этап). М.: Институт славяноведения РАН, 1999, 262 с.

40. Общество и власть. 1930-е годы: Повествование в документах. М.: РОССПЭН, 1998, 352 с.
41. Осокина Е.А. Иерархия потребления: О жизни людей в условиях сталинского снабжения. 1928-1935гг. М.: МГОУ, 1993, 144с.
42. Откровение и признания. Нацистская верхушка о войне «Третьего Рейха» против СССР: Секретные речи. Дневники. Воспоминания / Пер. с нем. и сост. Г.Я.Рудой. М.: ТЕРРА,1996, 568с.
43. Очаги тревоги в Восточной Европе. Драма национальных противоречий. М.: Институт славяноведения и балканистики РАН,1994, 329с.
44. Павлюченков С.А. Военный коммунизм в России: Власть и массы. М.: Русское книгоиздательское товарищество — История,1997 , 272 с.
45. Пейн Р. Ленин: Жизнь и смерть. М.: Молодая гвардия, 2002,723 с.
46. Переписка Председателя Совета Министров СССР с президентами США и премьер-министрами Великобритании во время Великой Отечественной Войны. Т.1-2. М.: Политиздат, 1989, 471; 327 с.
47. Права и свободы человека в программных документах основных политических партий и объединений России. XX век / Под ред. В.В.Шелохаева. М.: РОССПЭН, 2002, 496 с.
48. Протасов Л.Г.Всероссийское Учредительное собрание: история рождения и гибели. М.: РОССПЭН,1997, 380 с.
49. Рабинович А. Большевики приходят к власти. Революция 1917 года в Петрограде. М.: Прогресс,1989, 434 с.
50. Радзинский Э. Сталин. М.: Вагриус,1997, 638 с.
51. Революция и гражданская война в описаниях белогвардейцев. М.: Отечество,1991, 263с.
52. Риббентроп И. фон Между Лондоном и Москвой: Воспоминания и последние записи. М.: Мысль,1996, 331 с.
53. Рокоссовский К.К. Солдатский долг. М.: Воениздат,1997, 480с.
54. Русская Православная Церковь в советское время (1917-1991): Материалы и документы по истории отношений между государством и Церковью. / Сост. Г.Штриккер.Кн.1-2. М.: Пропилеи, 1995, 400 с.
55. Рыжков Н.И. Десять лет великих потрясений. М.: Просвещение, 1995, 626 с.
56. Секретная переписка Рузвельта и Черчилля в период войны / Пер. с англ. М.: ТЕРРА, 1995, 800 с.
57. Серапионова Е.П. Российская эмиграция в Чехословацкой Республике (20-30-е годы). М..:Институт славяноведения и балканистики РАН, 1995, 197 с.
58. Советско-польские отношения в политических условиях Европы 30-х годов XX столетия. М.: Наука, 2001, 232 с.
59. Социокультурные процессы в странах Восточной Европы (после второй мировой войны). М.: Институт славяноведения и балканистики РАН,1992 , 314с.
60. Становление многопартийности в Восточной Европе в 1990-е годы: (На материалах Болгарии, Венгрии, Восточной Германии, Польши, России, Словакии и Чехии ). М.: РАН, 1996, 217 с.
61. Страна гибнет сегодня: Воспоминания о Февральской революции 1917 г.М.: Книга,1991, 480 с.
62. Толстой Н.Д. Жертвы Ялты. /Пер.с англ. М.: Русский путь,1996, 544с.
63. Троцкий Л. История Русской революции: В 2 т. М.: Терра; Республика, 1997, 448;400 с.
64. Тухачевский М. Поход на Вислу. М.: Новости, 1992, 320 с.
65. У истоков «социалистического содружества»: СССР и восточноевропейские страны в 1944-1949 гг. М.: Наука, 1995, 209 с.
66. Учредительное собрание. Россия, 1918 г. Стенограмма и другие документы./ Сост. Т.Е.Новицкая. М.: Недра, 1991, 159 с.
67. Ушаков А.И. История гражданской войны в литературе русского зарубежья. М.: Россия молодая , 1993, 142 с.
68. Фишер Л.Жизнь Ленина/ Пер.с англ. Т.1-2. М.: Книжная лавка, 1997, 480; 496 с.
69. Фляйшхауэр И. Пакт: Гитлер, Сталин и инициатива германской дипломатии.1938-1939./ Пер.с нем. М.: Прогресс, 1991, 480 с.
70. Хлевнюк О.В. 1937-й: Сталин, НКВД и Советское общество. М.: Республика, 1992, 270 с.
71. Хрущев Н.С. Воспоминания: Избранные фрагменты. М.: Вагриус,1997, 510 с.
72. Шамбаров В.Е. Белогвардейщина. М.: ЭКСМО-Пресс, 2004, 640 с.
73. Шестаков В.А. Социально-экономическая политика советского государства в 50-е - середине 60-х годов.М.: Наука, 2006, 293 с.
74. Шубин А.В. Диссиденты, неформалы и свобода в СССР. М.: Вече, 2008, 383 с.
75. Шумов С.А. Петлюровщина. М.: Алгоритм, 2005, 251 с.

**Mündəricat**

**Giriş** ............ 3

**I BÖLMƏ**

**ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİ 1917-2015-ci İLLƏRDƏ**

**Rusiya, Ukrayna və Belarus dövlətləri**

**Rusiya 1917-ci il Fevral inqilabından Oktyabra doğru** ............ 5
Fevral inqilabı. İkihakimiyyətliliyin yaranması ............ 5
Müvəqqəti hökumətin daxili və xarici siyasəti ............ 7
Ölkə daxilində vəziyyətin mürəkkəbləşməsi ............ 9
Kornilov qiyamı ............ 12

**Oktyabr silahlı üsyanı** ............ 14
Oktyabr ərəfəsində ölkənin daxili vəziyyəti ............ 14
Petroqradda silahlı üsyan və bolşeviklərin hakimiyyətə gəlməsi ............ 15
Sovet dövlət aparatının yarandılması ............ 19
Brest sülhü ............ 21

**Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə.** ............ 23
Vətəndaş müharibəsinin səbəbləri. ............ 23
"Hərbi Kommunizm" siyasəti ............ 26
Vətəndaş müharibəsi və xarici hərbi müdaxilənin şiddətlənməsi ............ 27
Polşa ilə müharibə.Vətəndaş müharibəsinin qırmızıların qələbəsi ilə başa çatması ............ 30

**Sovet dövləti 20-ci illərin birinci yarısında** ............ 33
1920-ci illərin əvvəllərində daxili vəziyyət. Kronşdat qiyamı. ............ 33
Yeni iqtisadi siyasətə keçilməsi. Partiyadaxili mübarizənin başlanması ............ 34
SSRİ-nin yaranması ............ 39
Milli dövlət quruculuğu ............ 41

**SSRİ 20-ci illərin ikinci yarısı-30-cu illərdə** ............ 42
Sənayeləşdirmə siyasəti ............ 42
Kənd təsərrüfatının kollektivləşdirilməsi ............ 46
Hakimiyyət uğrunda partiyadaxili mübarizə ............ 50

**1920-30-cu illərdə Sovet dövlətinin xarici siyasəti** ............ 52
Sovet Rusiyasının xarici siyasət sahəsində ilk addımları ............ 52
Genuya konfransı ............ 54
Beynəlxalq gərginliyin artması ............ 57
Tərksilah və kollektiv təhlükəsizlik uğrunda SSRİ-nin fəaliyyəti ............ 59
30-cu illərdə beynəlxalq vəziyyətin mürəkkəbləşməsi və SSRİ-nin xarici siyasəti ............ 62

**1917-1940-cı illərdə Sovet mədəniyyəti** ............ 66
Savadsızlığın ləğv edilməsi. Məktəb ............ 66
Ali təhsil ............ 68
Sovet elmi 1920-30-cu illərdə ............ 69
Ədəbiyyat və incəsənət ............ 71

**1920-30-cu illərdə SSRİ-də totalitar dövlət modelinin bərqərar olması** ...... 76
Sovet cəmiyyəti 20-30-cu illərdə ...... 76
SSRİ-nin 1936-cı il Konstitusiyası...... 78
Siyasi rejim və kütləvi repressiyalar ...... 79
Mənəvi inkişafın ziddiyyətləri ...... 83
Sovet dövləti və din...... 84

**SSRİ Böyük Vətən müharibəsi illərində** ...... 86
Başlanğıc mərhələ (iyun 1941- noyabr 1942)...... 86
Moskva döyüşü ...... 92
Antihitler koalisiyasının yaranması...... 93

**Böyük Vətən müharibəsi gedişində əsaslı dönüş** ...... 94
Stalinqrad döyüşü...... 94
Partizan hərəkatı...... 97
Kursk döyüşü...... 97
Dneprin keçilməsi ...... 99
Əsaslı dönüşün səbəbləri...... 100

**Böyük vətən müharibəsinin başa çatması** ...... 101
1944-cü ilin əvvəllərində sovet-alman cəbhəsində vəziyyət ...... 101
İşğaldan azad edilmiş ərazilərdə dövlət siyasəti ...... 103
Avropada hərbi əməliyyatlar ...... 104
Arxa cəbhədə həyat və əmək ...... 106
Berlin əməliyyatı. Almaniyanın təslim olması...... 107
Potsdam konfransı.İkinci dünya müharibəsinin başa çatması...... 108

**SSRİ 1940-cı illərin ikinci yarısı – 50-ci illərin əvvəllərində** ...... 110
Sosial-iqtisadi vəziyyət ...... 110
Müharibədən sonrakı kənd...... 112
Əhalinin həyat səviyyəsi ...... 114
Siyasi rejim...... 115
Xarici siyasət...... 119

**SSRİ-nin daxili və xarici siyasəti. 1953-1964-cü illər** ...... 123
İctimai-siyasi vəziyyət...... 123
Sov. İKP-nın XX qurultayı...... 126
1958-1964-cü illərdə daxili həyat ...... 128
İqtisadiyyatdakı dəyişikliklər...... 131
SSRİ-nin xarici siyasəti...... 133

**SSRİ 1960-cı illərin ikinci yarısı – 80-ci illərin ortalarında** ...... 137
İctimai-siyasi həyat ...... 137
Ölkənin sosial-iqtisadi vəziyyəti ...... 141
SSRİ beynəlxalq aləmdə ...... 145
1983-1985-ci illərdə daxili vəziyyət ...... 148

**“Yenidənqurma”. 1985-1991**...... 149
Sosial-iqtisadi siyasət ...... 149
İctimai-siyasi vəziyyət...... 154
SSRİ-nin dağılması. MDB-nin yaranması ...... 158
SSRİ-nin 1985-1991-ci illərdə xarici siyasəti ...... 161

**1940-cı illərin ikinci yarısı – 80-ci illərdə SSRİ-də mədəniyyət** ... 165
Müharibədən sonra ölkənin mənəvi həyatı ... 165
Ədəbiyyat və incəsənət ... 167
1960-cı illərin ikinci yarısı – 80-ci illərdə mədəniyyət ... 170

**Rusiya XX əsrin 90-cı- XXI əsrin ilk onilliklərində** ... 173
Daxili sosial-iqtisadi siyasət ... 173
İctimai-siyasi vəziyyət ... 178
Federalizmin inkişafı. Çeçenistan müharibəsi ... 181
Rusiya 90-cı illərin ikinci yarısı-2015-ci ilə kimi olan dövrdə ... 183
Müasir Rusiyasının xarici siyasəti ... 186
Rusiyanın mədəniyyəti ... 189

**Müstəqil Ukrayna dövləti 1991-2015-ci illərdə** ... 191
Müstəqil Ukrayna dövlətinin yaranması ... 191
Ukraynanın sosial-iqtisadi və mədəni inkişafı ... 200
Xarici siyasət ... 203

**Müstəqil Belarus dövləti 1991-2015-ci illərdə** ... 206
Müstəqil Belarus dövlətinin yaranması ... 206
Belarus Respublikasının sosial-iqtisadi və mədəni vəziyyəti ... 211
Belarus Respublikasının xarici siyasəti ... 214

## II BÖLMƏ

## QƏRBİ SLAVYAN ÖLKƏLƏRİ 1918-2015-ci İLLƏRDƏ

### Polşa 1918-2015-ci illərdə

**Polşa 1918-1939-cu illərdə** ... 218
Müstəqil Polşa Respublikasının yaranması ... 218
1922-1939-cu illərdə Polşanın siyasi inkişafı ... 221
Polşanın iqtisadiyyatı ... 224
Polşanın xarici siyasəti ... 226
Polşa mədəniyyəti, elm və təhsil ... 227

**Polşa İkinci Dünya müharibəsi illərində** ... 228
Müharibənin başlanması ... 228
Müqavimət hərəkatı ... 230
Varşava üsyanı ... 233

**Polşa 1945-1989-cu illərdə** ... 234
Polşa inqilabi dəyişikliklər dövründə. 1944-1948-ci illər ... 234
Real sosializmin yaranması, inkişafı və böhranı.1949-1989-cu illər ... 237

**Polşa Respublikası. 1989-2015-ci illər** ... 244
Polşanın siyasi inkişafı ... 244
Polşanın iqtisadi inkişafı ... 249
Polşa beynəlxalq münasibətlər sistemində ... 250

**Çexiya və Slovakiya 1918-2015-ci illərdə**

**Çexoslovakiya 1918-1939-cu illərdə** ... 253
Çexoslovakiya Respublikasının yaranması ... 253
Çexoslovakiya Respublikasının iqtisadiyyatı ... 256
Çexoslovakiyanın siyasi inkişafı ... 257
1918-1939-cu illərdə Çexoslovakiyanın xarici siyasəti ... 260
Çexiya və Slovakiya mədəniyyəti ... 262

**Çexiya və Slovakiya 1939-1945-ci illərdə** ... 264
Müqavimət hərəkatı ... 264
Slovakiya milli üsyanı ... 266
Çexoslovakiyanın azad edilməsi ... 267

**Çexoslovakiya 1940-cı illərin ortaları-90-cı illərin əvvəllərində** ... 268
Çexoslovakiya müharibədən sonrakı 1945-1948-ci illərdə ... 268
1948-ci ilin Fevral hadisələri ... 269
Çexoslovakiya 1948-1960-cı illərdə sosializm quruculuğu dövründə ... 270
Sosializmin Sovet modelinin qurulması ... 271
1968-ci il Çexoslovakiya böhranı ... 273
Çexoslovakiya 70-80-ci illərdə. "Məxməri inqilab" ... 278
Çex və Slovak mədəniyyəti ... 282

**Çexiya Respublikası. 1993-2015-ci illər** ... 284
Çexiya Respublikasının daxili və xarici vəziyyəti ... 284

**Slovakiya Respublikası. 1993-2015-ci illər** ... 288
Slovakiya Respublikasının daxili və xarici vəziyyəti ... 288

**III BÖLMƏ**

**CƏNUBİ SLAVYAN ÖLKƏLƏRİ 1918-2015-ci İLLƏRDƏ**

**Bolqarıstan 1918-2015-ci illərdə**

**Bolqarıstan 1918-1939-cu illərdə** ... 292
Bolqarıstanın siyasi həyatı ... 292
Aqrarçıların idarəçiliyi . 1919-1923-cü illər ... 294
Demokratik saziş rejimi.1923-1931-ci illər ... 296
30-cu illərdə Bolqarıstanın siyasi həyatı ... 299
1919-1939-cu illərdə iqtisadi inkişaf ... 301
1919-1939-cu illərdə Bolqarıstanın xarici siyasəti ... 302
Bolqar xalqının mədəniyyəti ... 304

**Bolqarıstan İkinci Dünya müharibəsi illərində** ... 305
Bolqarıstanın müharibədə iştirakı ... 305

**Bolqarıstan 1940-cı illərin ortaları -80-ci illərin sonlarında** ... 307
Dəyişikliklər dövrü. 1944-1948-ci illər ... 307
BXR-nın iqtisadi inkişafı ... 310
Bolqarıstan Xalq Respublikasının siyasi və sosial inkişafı ... 312

BXR-nın xarici siyasəti ... 316

**Bolqarıstan Respublikası.1989-2015-ci illər** ... 317
Siyasi, sosial-iqtisadi və xarici vəziyyət ... 317

## Yuqoslaviya 1918-2015-ci illərdə

**Yuqoslaviya torpaqları 1918- XX əsrin 40-cı illərin əvvəllərində** ... 322
Siyasi vəziyyət ... 322
Yuqoslaviya dövlətinin iqtisadiyyatı ... 330
Yuqoslaviya beynəlxalq münasibətlər sistemində ... 331
Yuqoslaviyanın mədəniyyəti ... 332

**Yuqoslaviya İkinci Dünya müharibəsi illərində** ... 333
Yuqoslaviyanın işğal edilməsi və bölüşdürülməsi ... 333
İşğal olunmuş Avropada ilk kütləvi üsyan ... 336
Xalq-Azadlıq Ordusunun və Yuqoslaviya ali hakimiyyət orqanlarının yaradılması. İşğalçıların qovulması ... 337

**Yuqoslaviya 1940-cı illərin ortaları-90-cı illərin əvvəllərində** ... 340
Yuqoslaviya müharibədən sonrakı ilk illərdə.1945-1950-ci illər: Xalq inqilabi dəyişikliyinin başa çatması ... 340
Yuqoslaviya özünüidarə sosializmi dövründə.1950-ci illər-1980-ci illərin sonları. Yuqoslaviya dövlətinin dağılması ... 342
Yuqoslaviya Federativ Xalq Respublikası beynəlxalq münasibətlər sistemində ... 347

**Yeni müstəqil cənubi Slavyan dövlətləri** ... 349
**Sloveniya** ... 349
**Xorvatiya** ... 351
**Bosniya və Herseqovina** ... 353
**Yuqoslaviya Respublika İttifaqı** ... 357
**Makedoniya** ... 361

**Əsas ədəbiyyat** ... 364
**Əlavə ədəbiyyat** ... 366

***Çapa imzalanmışdır 09.09.2016.***
***Kağız formatı 60x84 1/16. Həcmi 23,25 ç.v. Sifariş 44. Sayı 250 (1 b. 50).***

***«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.***